**Erix Maria Remark**

MÜASİR DÜNYA ƏDƏBİYYATI

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyevin
**“Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında”** 2007-ci il 24 avqust tarixli sərəncamı ilə nəşr olunur.

*“Şərq-Qərb”*
Bakı – 2009

# Erich Maria Remarque

# Erix Maria Remark

## SEÇİLMİŞ ƏSƏRLƏRİ

MÜASİR DÜNYA ƏDƏBİYYATI

*"Şərq-Qərb"*
Bakı – 2009

ISBN 978-9952-34-238-3

Alman dilindən tərcümə edənlər: Vilayət Hacıyev
Çərkəz Qurbanlı

Ön sözün müəllifi: Qorxmaz Quliyev

Redaktor: Mahir Qarayev

Korrektor: Yeganə Mehdiyeva

Bədii tərtibat və dizaynın müəllifi: Tərlan Qorçu

Kompüter düzümü: Hikmət Aydınoğlu
Həsən Yaqubov

**Erix Maria Remark. Seçilmiş əsərləri.**
Bakı: "Şərq-Qərb", 2009, 672 səh.

Böyük alman romançısı Erix Maria Remark (1898-1970) XX əsr dünya ədəbiyyatının ən nəhəng fiqurlarındandır. Bütün yaradıcılıq ömrünü müharibə mövzusuna həsr edən yazıçı "Qayıtma", "Qərb cəbhəsində təbəddülat yoxdur", "Zəfər tağı", "Lissabon gecəsi", "Müqəddəs torpaq" və b. romanlarında ötən yüzilliyin epik mənzərəsini ustalıqla yaratmışdır.

Bu kitab E.M.Remarkın Azərbaycan oxucusu ilə ilk sanballı görüşüdür.

Mətn: Bakı Slavyan Universiteti, "Kitab aləmi" NPM, 2009
Bədii tərtibat, səhifələnmə: "Tutu" nəşriyyatı, 2009
© "Şərq-Qərb" ASC, 2009

# *MÜHARİBƏ MÖVZUSUNUN QÜDRƏTLİ BƏDİİ TƏCƏSSÜMÜ*

XIX əsrin sonunda bəşər tarixində ən mürtəce, ən humanist fəlsəfi sistemlərdən birinin əsasını qoymuş, Buhenvald və Maydanek faciələrini ideoloji cəhətdən əsaslandırmış F.Nitşe söyləyirdi: "XX əsr dünya müharibələri əsri olacaqdır". Amma o, XX əsrin üstündən, həqiqətən, əsmiş, Avropanı xarabazara çevirmiş iki dünya qırğınının hər dəfə məhz Almaniyanın məğlubiyyəti ilə nəticələnəcəyini, onun bütün bəşəriyyət üzərində ağalığı iddiasının tam iflasa uğrayacağını, əvvəllər Prussiya hərbçilərinin, sonralar faşistlərin mənəvi köləliyinə məruz qalmış alman xalqının dərin sarsıntılara düçar olacağını qabaqcadan xəbər verə bilməzdi.



Görkəmli alman yazıçısı Erix Maria Remarkın (1898-1970) yaradıcılığı mənsub olduğu xalqın mənəvi əzablarının ən dərin, ən səmimi bədii təcəssümüdür. O, dünya şöhrətli əsərlərində, özünə inamını itirmiş, hər iki dünya müharibəsinin səbəbkarı olan Almaniyada xalqın potensial humanist imkanlarının mövcudluğunu inandırıcı şəkildə sübut edir. Geniş yaradıcılıq istedadına malik digər alman yazıçılarından – Mann qardaşlarından, Feyxtvangerdən fərqli orlaraq, Remark bircə mövzunun – müharibə mövzusunun müəllifidir. Bu mövzu darlığı onun yaradıcılığının həm güclü cəhətlərini, həm də zəif tərəflərini üzə çıxarır. Remark əsərlərinin təsir qüvvəsi onunla müəyyən olunur ki, bütün diqqətini müharibənin iyrəncliklərinə yönəltmiş yazıçı, insanın mənəvi sarsıntılarının dərinliklərinə vara bilir, burjua ideoloqlarının insan qırğınını örtmək istədikləri romantik pərdəni yırtıb kənara tullayır. Remark

əsərlərinin məhdudluğu onunla izah oluna bilər ki, müharibə mövzusundan kənara çıxa bilməyən müəllif insan qırğınını, ictimai ziddiyyətləri geniş tarixi perspektivdə verə bilməmiş, qəhrəmanlarının düçar olduğu mənəvi əzabların səbəbini taleyin qəzavüqədərində axtarmışdır.

Dünya ədəbiyyatında insan qırğınına Remark qədər dərin nifrət oyada bilən, müharibə nəticəsində dünyaya səpələnən mühacirlərin fəlakətini təsirli boyalarla təsvir edən ikinci bir yazıçı tapmaq çətindir. O, buna ona görə nail ola bilmişdir ki, özü, necə deyərlər, hər iki dünya faciəsinin bilavasitə iştirakçısı-qurbanı olmuşdur. Axı, Remark gənc yaşlarında şovinzm təbliğatına uyaraq 1916-cı ildə gimnazist formasını əsgər şinelinə dəyişmiş, iki il Qərb cəbhəsi səngərlərində can çürütmüşdür. Məhz buna görə də 1929-cu ildə yazdığı, "Məhv olmuş nəsil" ədəbiyyatının ən məşhur, ən görkəmli nümunələrindən hesab olunan "Qərb cəbhəsində təbəddülat yoxdur" romanında müharibə çirkinliklərinin tənqidi-realist mənzərəsini verə bilmişdir.



Remark "Üç yoldaş" romanının qəhrəmanı kimi, birinci dünya müharibəsindən sonra müəllimlik, sürücülük, hesabdarlıq, müxbirlik və s. peşələrdə öz qüvvəsini sınamış, uzun müddət həyatda öz yerini tapa bilməmişdir.

1933-cü ildə, faşistlər hakimiyyət başına gələndən sonra, yazıçı, "Zəfər tağı" romanının qəhrəmanı Ravik kimi vətəndən didərgin düşmüş, yad ellərdə mühacir həyatının acısını dadmışdır.

Remark əsərlərinin təsir qüvvəsi onunla müəyyən olunur ki, onun qəhrəmanları yazıçı həyatının müxtəlif keşməkeşli mərhələlərinin bədii ifadəsinə çevrilirlər.

İkinci dünya müharibəsinə kimi müəllif siyasi-ictimai biganəlik mövqeyindən çıxış etmişdir. O, öz estetik qayəsini belə ifadə edirdi: "Mən öz oxucumu nə inandırmaq, nə tovlamaq, nə də tərbiyə etmək istəyirəm. Mənim mövzum əsrimizdə yaşayan insanın taleyi, humanizm məsələləridir. Mən yalnız qəlbimi riqqətə gətirən hadisələri qələmə alıram... Əqidəm isə fərdiyyətçinin əqidəsidir: azadlıq, dözüm, yumor..."

Amma ikinci dünya müharibəsi ərəfəsində və dövründə faşizmin cinayətlərinə laqeydlik labüd şəkildə satqınlığın sinoniminə çevrildi. Remark yavaş-yavaş faşizmə qarşı fəal mübarizənin labüdlüyü qənaətinə gəlib çıxdı. Yazıçının dünyagörüşündəki bu əsaslı təbəddülat onun “Ölüm-dirim vaxtı”, “Zəfər tağı”, “Lissabon gecəsi” və s. romanlarında bədii təcəssümünü tapdı.

1946-cı ildə yazılmış “Zəfər tağı” romanı Remarkın əsərləri arasında xüsusi yer tutur. Düzdür, bu əsər müəllifin ilk romanı olan “Qərb cəbhəsində təbəddülat yoxdur” qədər geniş şöhrət tapa bilməmişdir, həm də “Zəfər tağı” romanında Remarkın həyat mövqeyi “Ölüm-dirim vaxtı” romanında olduğu kimi aydın və fəal deyildir. “Zəfər tağı” romanının müstəsnalığı ondadır ki, əsərdə bir tərəfdən müəllif dünyagörüşündə və onun qəhrəmanlarının həyat mövqeyində nəzərə çarpan naqislik son həddə çatır və öz əsassızlığını sübut edib qırılır, digər tərəfdən yazıçının gələcək əsərlərinin pafosunu təşkil edəcək problemlər meydana çıxır və özünün ilk bədii həllini tapır. “Zəfər tağı” romanı Remark yaradıcılığna xas olan ideya-estetik meyillərin kəsişdiyi, düyünləndiyi, üz-üzə gəldiyi, bir-birini inkar etdiyi ərazidir. Bu baxımdan, əsərin əsas qəhrəmanı – faşist təqibindən xilas olmaq üçün Parisə pənah gətirmiş cərrah Ravik, Remarkın ilk romanlarının qəhrəmanları və “Zəfər tağı” əsərindən sonra yaradılmış romanlarının personajları arasında bir növ keçiddir, həm əvvəlkilərin, həm də sonrakıların müxtəlif ziddiyyətli keyfiyyətlərini özündə birləşdirir. Belə ki, Ravik romanın ilk fəsillərində onun digər qəhrəmanları kimi passivdir, neytraldır, lakin sonradan ictimai-siyasi hadisələr nəticəsində tədricən dəyişir. Ravik öz fəallığı, hadisələrə müdaxilə etmək bacarığıyla Remarkın ən aktiv personajı olan “Ölüm-dirim vaxtı” əsərinin baş qəhrəmanı Qraberə yol açır, onu estetik cəhətdən hazırlayır.

Almaniyanı tərk edib Fransada qaçaq həyat keçirən Ravik iki dünya müharibəsinin ikiqat qurbanıdır. O, Remarkın ilk romanlarının qəhrəmanları kimi Birinci Dünya müharibəsində iştirak etmiş, lakin

qeyri-adi cərrahlıq istedadı sayəsində “bəxti” gətirmiş, cəmiyyətdə özünə müəyyən mövqe qazanmışdır. Bunula belə, onun ətrafdakı adamlarla sıx ünsiyyəti yoxdur, o, bir növ, kapitalizm cəmiyyətində insana xas özgələşmənin qurbanıdır. Ravikin “neytrallığının”, biganəliyinin səbəbini də məhz bunda axtarmaq lazımdır. Beləliklə, istedadlı cərrah ikiqat mühacirətdədir: əgər birinci dünya qırğını onu daxili mühacirə çevirmişdisə, faşistlərin hakimiyyət başına gəlməsi buna xarici mühacirət də əlavə edir.

İlk nəzərdən Parisdə Ravikin kəşməkeşli güzəranı daimi bədbinliyini, həyatdan, bəşəriyyətdən küskünlüyünü dərinləşdirməli idi. Ravikin rus mühaciri Morozov, baş həkim Veber kimi sadiq dostları olsa da, onun rast gəldiyi, toqquşduğu, qurbanına çevrildiyi haqsızlıqlar, pisliklər saysız-hesabsızdır. Bütün bunlara baxmayaraq, başıbəlalı mühacir öz daxili aləminə qapılmır, insanlığını, humanizmini itirmir. Ravik bütün varlığı, qəlbinin bütün hüceyrələri ilə xarici aləmə, insanlara tərəf yönəlmişdir. O, dost yolunda, insan uğrunda, məhəbbət naminə canından keçməyə hazırdır. Onun hissləri həmişə konkretdir, səmimidir, möhkəmdir. Peşəkar cərrah olmasına baxmayaraq, hər xəstənin üstündə əsir. Bəlkə də, böyük cərrahlıq istedadının mayası onun humanizmindədir. Ravik hər cür əziyyət çəksə də ləyaqətini, həssaslığını itirmir. O, hər yerdə, hamının köməyinə gəlməyə hazırdır. Sevdiyi qadının xəyanətindən xəbər tutsa da, öz hisslərinin bütövlüyünü qoruyub saxlaya bilir. Ağır zamanlarda, çətin şəraitdə məhəbbət kimi zərif hissi qoruyub saxlaya bilmək bacarığı elə həyata inamın, yenilməz nikbinliyin, məğlubedilməz humanizmin təsdiqinə çevrilir. Əgər Ravikin faşizmə qarşı mübarizəyə şüurlu şəkildə qoşulmaq qətiyyəti zahirən nasistlərin vəhşilikləri ilə müəyyənləşirsə, daxilən bu əzm onun humanizminə əsaslanır.

Romandakı bütün hadisələr, bütün personajlar baş qəhrəman Ravikin ətrafında mərkəzləşir, onun daxili aləmini açmağa xidmət edir. Bu baxımdan müəllifin təhkiyəsi oxucuda böyük maraq doğurur. Məlumdur ki, Remarkın ilk romanlarında hadisələr birinci şəxsin dili ilə nəql edilirdi. İlk baxışdan oxu-

cuya elə gəlir ki, "Zəfər tağı" romanında təhkiyə perspektivi dəyişmişdir: axı hadisələr əsərdə üçüncü şəxs tərəfindən təsvir olunur. Amma diqqətlə fikir verdikdə o dəqiqə gözə çarpır ki, əslində, şəxsin dəyişməsilə təhkiyənin məzmunu, Remarkın hadisələri özünün sevimli baş qəhrəmanı vasitəsilə açmaq cəhdi dəyişməmişdir. Axı Ravik bircə dəqiqə də olsun səhnəni tərk etmir; oxucu yalnız onun eşitdiklərini eşidir, gördüklərini görür, hiss etdiklərini hiss edir, bildiklərini bilir. Əslində, obyektiv üçüncü şəxs deyil, subyektiv birinci şəxs təhkiyənin əyaniləşmə formasıdır. Üçüncü şəxsi işlətməklə, yazıçı öz qəhrəmanını cahan fövqünə qaldırır. Bəs məqsəd? Məqsəd aydındır: müəllif insan ləyaqətinin tapdalandığı zəmanədə də insanı ən yüksək, misilsiz varlıq kimi təsdiq edir.

"Lissabon gecəsi" romanı vaxitilə Almaniyada qəzet redaktoru işləmiş, faşistlərin hakimiyyətə gəlişindən sonra totalitar rejimin buxovlarına dözməyib almanlar tərəfindən hələ zəbt olunmamış Avropa ölkələrinə mühacirət etmiş şəxsin yaşadığı didərginlik həyatı barədə digər almana Lissabonda bir gecənin içində danışdıqlarının bədii təsviridir.

Əsərdə mühacirlərin acı yaşantılarından, bir ölkədən digərinə didərginliyindən, gestaponun öz siyasi düşmənlərinə öncə Almaniyada, sonra da zəbt etdikləri Fransada verdiyi işgəncələrdən, mühacirlərin at quduzluğu xəstəliyi sayılan kollerə tutulmasından və özünüidarə imkanlarını itirmələrindən Remark yaradıcılığına xas ustalıqla bəhs edilir. Həmin xəstəliyin nişanələri kollerə tutulmuş İkinci Şvarsın nitqində özünü aydın şəkildə büruzə verir, belə ki, onun nitqi qeyri-adiliyi ilə, bəzən dil normalarından yayınmaqla seçilir.

Romanda mühacir həmrəyliyi, ölən mühacirin sənədlərinin digərləri tərəfindən mənimsənilməsi, onların öz adlarını və soyadlarını unutmaları və bu yolda keçirdikləri iztirablar təsirli boyalarla verilmişdir. Əsər İkinci Şvarsın acınacaqlı mühacir həyatından və həyat yoldaşı Helen Baumana ülvi sevgisindən bəhs etməklə oxucunu daimi gərginlikdə saxlayır və onun gözləri önündə totalitar rejimin

yaratdığı mühacirlik həyatının dolğun bədii mənzərəsi canlanır.

"Lissabon gecəsi"ndə hadisələr Remarkın digər antifaşist romanlarından fərqli olaraq, yenə də birinci şəxsin dili ilə nəql edilir və beləliklə də, təhkiyə perspektivi subyektiv yaşantılar müstəvisinə keçirilir. Burada bir məsələni də qeyd etmək yerinə düşərdi ki, Şvars, yazıçının digər bu yönümlü qəhrəmanlarından fərqli olaraq, "şüurlu şəkildə" deyil, təsadüf nəticəsində, necə deyərlər, məcburiyyət qarşısında antifaşistə çevrilir, çünki fanatik bir faşistin bacısı ilə evlənmişdir. Beləliklə, onunla bağlı bütün hadisələr Helenə məhəbbəti prizmasından təsvir olunur və antifaşizm mövzusu fərdi məhəbbət dramı "qəlibinə" salınır.

Erix Maria Remarkın dünyagörüşü ziddiyətli olmuşdur. Məhz buna görə o, XX əsrin bütün mürəkkəbliyini dialektik vəhdətdə qavrayıb, onun bədii şəkildə ifadəsinə nail olmamışdır. Remarkın dünyagörüşündə və romanlarının poetikasındakı məhdudluqlara baxmayaraq, görkəmli yazıçının əsərlərini oxucular, xüsusilə, gənclər həvəslə mütaliə edirlər. Bəlkə də, müəyyən dərəcədə bu məhdudluqlar sayəsində. Axı həmişə düzgün dünyagörüş, dərin məntiq yüksək estetik dəyərə çevrilmir. Ziddiyyətli Erix Maria Remark sevilə-sevilə oxunur, yəqin ki, gələcəkdə də oxunacaq. Səmimiyətinə görə, xeyirxahlığına görə, insanın fiziki, mənəvi sarsıntılarından ürək ağrısı ilə danışa bildiyinə görə, sadə, "kiçik" insana sonsuz məhəbbətinə görə...

*Qorxmaz Quliyev*

# Zəfər tağı

*(roman)*

# ZƏFƏR TAĞI

*(roman)*

## I

Qadın düz Ravikin üstünə gəlirdi. O, iri addımlarla yeriyir və qəribə tərzdə səndələyirdi. Ravik onu lap çatanda gördü. Gördü ki, rəngi avazıyıb, almacıq sümükləri bilinir, gözləri az qalır hədəqəsindən çıxsın. İfadəsiz üzündə qəribə bir məchulluq var idi. Adama elə gəlirdi ki, orada heç bir həyat əlaməti yoxdur və gözlərindəki ümidsiz parıltı Raviki istər-istəməz dayanmağa məcbur etdi.



Qadın elə yaxından keçirdi ki, az qalırdı, ona toxunsun. Əlini uzadıb qadının qolundan yapışdı. Qadın səndələdi, Ravik tutmasaydı, yıxılardı. Qolundan möhkəm yapışmışdı...

– Hara belə?

Qadın gözlərini döydü, pıçıldadı:

– Buraxın...

Ravik dinmədi. Hələ də onu buraxmamışdı.

– Buraxın deyirəm! Bu nə deməkdir? – dodaqları güclə tərpənirdi.

Ravikə elə gəldi ki, qadın onu heç görmür. Gözlərini ona dikərək, harayasa uzaqlara baxır. Sanki, nəsə ayaqlarını qandallamışdı, etirazı da elə buna idi:

– Buraxın deyirəm məni!

Ravik gördü ki, o, küçə qadını deyil. Heç sərxoşa da oxşamır. Əli boşaldı. Qadın istəsəydi, asanca əlindən çıxardı. Ancaq o, bunu hiss eləmədi. Ravik bir az da gözlədi.

– Doğrudan, gecənin bu vaxtında, özü də Parisdə hara gedirsiniz? – deyib qadının qolunu tamam buraxdı.

Qadın susurdu. Tərpənmək isətmirdi. Elə bil, onu bir dəfə dayandırdıqları üçün yeriyə bilmirdi. Ravik körpünün sürahisinə söykəndi. Göz-göz olmuş nəm daşlar əllərini üşütdü.

– Bəlkə, ora? – Başı ilə aşağını, tutqun parıltılı Sena çayının «de Alma» körpüsünün kölgəsinə çırpıldığı yeri göstərdi. Qadın cavab vermədi.

Ravik dedi:

– Hələ çox tezdir, çox tezdir. Özü də noyabrın bu soyuğunda...

O, bir qutu siqaret çıxarıb, ciblərində kibrit axtardı. Tapanda gördü ki, qutuda ikicə dənəsi qalıb və onu çay tərəfdən əsən küləkdən qorumaq üçün aşağı əyildi.

– Birini də mənə verin, – qadın güclə eşidiləcək səslə dilləndi.

Ravik dikəlib, qutunu ona göstərdi:

– Əlcəzairdir, – dedi, – qara tənbəkidir. Sizin üçün çox sərt olar. Başqası yoxumdur.

Qadın başını bulayaraq siqaret götürdü. Ravik bayaqdan yanan kibriti ona tərəf tutdu.

O, tez-tez, özü də dərin qullabla çəkirdi. Ravik kibrit çöpünü suya atdı. Çöp qaranlıqda axan ulduz kimi parıldadı və yalnız suya çatanda söndü.

Körpünün üstü ilə bir taksi asta-asta gəlirdi. Sürücü maşını saxlayıb, onlara baxdı, bir az gözlədi. Sonra qaz verib, qaranlıqda parıldayan yaş V Georq prospekti ilə sürətlə üzüyuxarı qalxdı.

Ravik birdən hiss etdi ki, yaman yorulub. Bütün günü işləyib əldən düşmüş, axşamsa gözünə yuxu getməmişdi. Buna görə də çıxmışdı ki, bir az boğazını yaşlasın. İndi birdən-birə ona elə gəldi ki, nəmişlik yağan bu gecədən başına yorğunluq ələnir. Qadına baxdı. Onu niyə saxladı axı? Məlum şeydir ki, ona nəsə olub. Ancaq bunun Ravikə nə dəxli? Başına iş gələn azmı qadın görmüşdü? Xüsusilə gecələr, özü də Parisdə... İndi isə onun üçün fərqi yox idi, bir-iki saat yatmaq istəyirdi.

– Gedin evə! Gecənin bu vaxtı Parisin küçələrində nə axtarırsınız? Onsuz da yaxşı heç nə tapmayacaqsınız.

Ravik paltosunun yaxalığını qaldırıb, getmək istədi. Qadın elə baxdı ki, elə bil, onu başa düşməmişdi:

– Evə? – deyə təkrar etdi.

Ravik çiyinlərini çəkdi:

– Evə, qaldığınız yerə, mehmanxanaya, nə bilim hara... Hara oldu. Yoxsa polisə düşmək istəyirsiniz?

– Mehmanxanaya? Pərvərdigara...

Ravik dayandı. «Yenə hara gedəcəyini bilməyən bir adam», – deyə fikirləşdi. Bunu əvvəlcədən götür-qoy etmək lazım idi. Eyni şeylər idi, təkrar olunurdu. Axşam olanda hara gedəcəklərini bilmirlər, ancaq səhər açılanda nə vaxt durub getdiklərindən xəbərin olmur. Sonra hara gedəcəklərini bilirlər. Çoxdankı ötəri qaranlıq qorxusu idi, onunla gəlib, onunla da gedirdi. Siqareti atdı. Özü belə günlərə azmı düşmüşdü?!

– Gedək, bir yer tapıb araq içək, – bunu Ravik dedi. Ən asan yolu bu idi. Pulu verən kimi çıxıb gedər, o da başına bir çarə qılardı. Qadın qəribə bir hərəkətlə səndələdi, Ravik onun qolundan yapışdı.

– Yorulmusunuz? – deyə soruşdu.

– Bilmirəm. Deyəsən...

– O qədər yorulmusunuz ki, yata da bilmirsiniz?

Qadın başını tərpətdi.



– Belə şeylər olur. Gedək, mən tutmuşam.

Onlar Marse prospekti ilə üzüyuxarı qalxdılar. Ravik görürdü ki, qadın ona sığınır. Elə sığınırdı ki, deyərdin, yıxılacaq, ondan tutub durur. I Pyer de Serp prospektini keçdilər. Şalo küçəsinin tinindən ayrı bir küçə uzanıb gedirdi və uzaqda, tutqun, yağışlı səmada «Zəfər tağı»nın kölgəsi görünürdü...

Ravik balaca zirzəmiyə açılan ensiz qapını göstərdi:

– Bura girək. Hər halda, bir şey tapılar.

Bura, adətən, sürücülərin yığışdıqları meyxana idi. İçəridə iki-üç taksi sürücüsü və bir neçə fahişə oturmuşdu. Sürücülər kart oynayır, fahişələr isə «Absent» içirdilər. Onlar qadına ani nəzər salıb, laqeydliklə baxışlarını çəkdilər. Bir az yaşlı görünəni əsnədi, o biri isə tənbəl-tənbəl dodaqlarına boya çəkdi. Zalın o biri başında, üzdən tələyə düşmüş siçovula oxşayan cavan xidmətçi daş döşəməyə neftli kəpək səpib silməyə başladı. Onlar qapının ağzındakı boş stol arxasında oturdular. Bura yaxşı idi, qurtaran kimi çıxıb gedərdi. O heç paltosunu da çıxarmadı.

– Nə içəcəksiniz? – deyə soruşdu.

– Bilmirəm... Nə olur, olsun...

– İki qədəh kalvados, – Ravik xidmətçiyə tərəf döndü. Onun əynində jilet var idi, köynəyinin qolunu da çırmalamışdı. – Bir qutu da «Çesterfild» siqareti.

– Yoxumuzdur. Təkcə fransız siqaretləri var.

– Yaxşı, onda bir qutu yaşıl «Loran» gətirin.

– Yaşılı yoxdur. Göydür...

Ravik xidmətçinin çılpaq qadın şəkli döyülmüş qoluna baxdı. Qadın lay-lay buludların üstü ilə harasa gedirdi. Xidmətçi onun baxışlarını o dəqiqə tutdu, yumruqlarını düyünlədi, əzələləri gəriləndə qadının qarnı qalxdı.

– Elə isə, göyünü gətirin.

Xidmətçi irişdi:

– Baxaram, bəlkə, yaşıldan qalmış oldu, – deyərək ayaqlarını sürüyə-sürüyə uzaqlaşdı. Ravik onun arxasınca baxdı. – Ayağında qırmızı başmaq, qolunda rəqqasə... Deyəsən, türk donanmasında qulluq eləyib.

Qadın əllərini stolun üstünə qoydu. Onları elə rahatladı ki, deyərdin, bir də geri götürməyəcək. Dırnaqlarını təmizləyib lak çəkmişdi, lakin bu hələ heç nə demək deyildi. Əslində, bunları da səliqəsiz eləmişdi. Ravik gördü ki, orta barmağındakı dırnağın ucu qopub düşüb, lap çox kəsilib, özü də yonulmayıb və lakı tökülüb.

Xidmətçi qədəhləri və siqareti gətirdi.

– Yaşıl «Loran»dır, biri qalıbmış...

– Aydındır! Dənizdə qulluq eləmisiniz?

– Xeyr, sirkdə işləmişəm.

– Daha yaxşı, – Ravik qədəhin birini qadının qabağına qoydu – İçin. İndi bundan yaxşısı yoxdur. Bəlkə, qəhvə istəyirsiniz?

– Xeyr.

– Birdəfəyə için.

Qadın başını yırğalayıb, qədəhi başına çəkdi. Ravik diqqətlə ona baxdı. Sir-sifəti ölgünləşmişdi, tamam ifadəsiz idi, qalın dodaqları elə saralmışdı ki, üzündən seçilmirdi. Ancaq işıldayan sarı saçları qəşəng idi. Başına beret qoymuşdu, plaşının altından mavi rəngli kostyumu görünürdü. Onu, deyəsən, yaxşı usta tikmişdi. Barmağındakı üzüyün yaşıl rəngli qaşı çox iri idi və saxta olmadığı bilinirdi.

Ravik soruşdu:

– Bəlkə, birini də içəsiniz?

Qadın başını yırğaladı. Ravik əli ilə xidmətçini çağırdı:

– İki qədəh da kalvados gətirin. Ancaq qədəhlər bir az böyük olsun.

– İri qədəhlərdə? Dolu?
– Bəli.
– Demək, ikiqat olsun.
– Düz tapdınız.

Ravik qət etdi ki, kalvadosu gətirən kimi içib dursun. Çox yorulmuşdu və darıxırdı. Əslində, hər təsadüfə dözümlü idi, qırx illik həyatında çox şeylər görüb-götürmüşdü, belə işlərə çox rast gəlmişdi. Neçə ildi ki, Parisdə yaşayırdı, gecələr həmişə gec qayıdırdı və küçələrdə nə desən, görürdü.

Xidmətçi qədəhləri gətirdi. Ravik tünd, kəskin qoxulu alma arağını götürüb, ehtiyatla qadının qarşısına qoydu.

– Bunu da için, – dedi, – bir şey deyil, ancaq qızışarsınız. Başınıza nə gəldiyini bilmirəm, ancaq ürəyinizə salmayın. Çox şeyi ürəyə salmağa dəyməz.

Qadın dinmədən onun üzünə baxırdı. Arağı hələ içməmişdi.



– Doğrudan, elədir. Xüsusilə gecələr olan şeyləri, heç dəyməz. Gecələr hər şey adama dəhşətli gəlir.

Qadın hələ də ona baxırdı, nəhayət, dilləndi:

– Mənə təsəlli vermək lazım deyil...
– Bu daha yaxşı...

Ravik baxışları ilə xidmətçini axtardı. Bəsi idi, belə qadınları çox görmüşdü. Ürəyindən keçirirdi: «Yəqin, rusdur. Çətini özlərinə yer eləməkdir, sonra adamın ağzından vururlar».

– Russunuz? – deyə soruşdu.
– Xeyr.

Ravik haqq-hesabı kəsib, xudahafizləşmək üçün ayağa qalxdı. Qadın da sakitcə onunla bərabər durdu, sanki, belə də olamalı idi. Ravik tərəddüdlə ona baxdı, «eybi yoxdur, çıxan kimi, ayrılaram,» – deyə fikirləşdi.

Bayırda yağış başlamışdı. Ravik qapının ağzındaca dayandı.

– Hansı tərəfə gedəcəksiniz? – deyə soruşdu və qət etdi ki, qadın haranı desə, əks tərəfə dönsün.

– Bilmirəm... hara olsa...
– Harada yaşayırsınız?

Qadın diksindi:

– Ora olmaz! Yox! Gedə bilmərəm... Ora olmaz!

Onun gözlərində qəflətən dəhşətli bir qorxu qığılcım kimi parıldayıb yox oldu. «Dalaşıb, – Ravik fikirləşdi, – nə

üstündəsə sözləri çəp gəlib, acıq eləyib çıxıb. Sabah günortaya qədər düşünüb-daşınacaq, axırda geri qayıdacaq».

– Heç kəsi tanımırsınız ki, yanına gedəsiniz? Tanışınız yoxdur? Meyxanadan zəng vurmaq olardı...

– Xeyr, heç kəsim yoxdur.

– Hər halda, bir yerə getməlisiniz. Pulunuz da yoxdur?

– Var.

– Onda mehmanxanaya gedin. Bu yaxın küçələrdə nə qədər desəniz, var.

Qadın dinmədi.

– Axı harayasa getməlisiniz, – Ravik hövsələdən çıxırdı. – Küçədə, yağışın altında qalası deyilsiniz ki...

Qadın plaşını düymələdi.

– Düz deyirsiniz, – dedi və sanki, nəsə yadına düşdü. – Düz deyirsiniz. Təşəkkür edirəm. Mənim üçün narahat olmayın, bir yer tapıb gedərəm. Təşəkkür edirəm. – O biri əli ilə plaşının yaxalığını qaldırdı. – Çox sağ olun...

Altdan yuxarı nifrətlə Ravikə baxdı, gülümsəmək istədi, ancaq alınmadı. Sonra sakit, qəti addımlarla dumanlı-çiskinli küçəyə addımladı...

Ravik bir anlığa yerindən tərpənmədi. «Lənət şeytana», – deyə təəccüblə, tərəddüdlə donquldandı. Heç bilmədi, nə oldu, necə oldu, o yazıq təbəssümmü, ya da baxışmı ona birdən dedi ki, dumanda azmış uşağa bənzəyən bu qadını tək buraxmayacaq. Tez onun arxasınca yönəldi:

– Mənimlə gedək, – dedi, – sizin üçün bir şey fikirləşirik...

Onlar Etual meydanına çatdılar. Çənli-çiskinli havada bu meydan elə böyük görünürdü ki, deyərdin, ucu-bucağı yoxdur. Duman qatılaşmışdı və yan-yörədə çarpazlaşıb ayrılan küçələr daha seçilmirdi. Görünən yalnız bu nəhəng meydan, solğun işıqlı ara-sıra fənərlər və bir də «Zəfər tağı»nın göylərdə dumana qarışıb itən daş qülləsi idi. Qüllə də, sanki, o çiskinli-dumanlı səmanın dirəyi idi və bu gecənin tənhalığında insanlığın son məzarını andıran naməlum əsgərin qəbri üstündəki sönük məşəli qoynuna almışdı...

Onlar meydanı kəsə keçdilər. Ravik tələsirdi. O qədər yorulmuşdu ki, fikirləşməyə də heyi qalmamışdı. Təkcə qadının yüngül addım səslərini eşidirdi. Dinməz-söyləməz onun ardınca gedən qadın da başını sinəsinə əymiş, əllərini plaşının cibində gizlətmişdi və birdən Ravik bu meydanın

tənhalığında hiss etdi ki, tanımadığı, bilmədiyi bu qadın, qəribə də olsa, bircə anlığa ona lap doğmalaşdı. Bəlkə də, bunun səbəbi elə tənhalığın özü, qadının da onun kimi qərib olması idi. Halbuki qadın onun üçün yad bir adamdı, görünür, illərin tənhalığı, qəribliyi onları yaxınlaşdırmışdı.

Ravik Tern meydanının arxasında, Varqam prospekti ilə birləşən dar döngədəki balaca mehmanxanada qalırdı. Bina özü çox köhnəlmişdi, ancaq girişindəki lövhə təzəydi: «İnternasional» oteli.

Zəngi basdı.

– Boş otağınız var? – deyə qapını açan oğlandan soruşdu. Oğlan yuxulu-yuxulu, küt nəzərlərlə onun üzünə baxdı.

– Növbətçi yoxdur, – nəhayət, o kəkələdi.

– Özüm görürəm. Səndən boş otaq soruşdum...

Oğlan tərəddüdlə çiyinlərini çəkdi. Ravikin yanında qadın olduğunu görürdü, ancaq niyə boş otaq soruşduğunu anlaya bilmirdi. Eşidib-bildiyinə görə belə hallarda ikinci otaq lazım gəlmirdi.



– Madam yatır. Oyatsam, məni qovar, – deyə oğlan ayaqlarını bir-birinə sürtdü.

– Yaxşı, onda özümüz baxarıq.

Ravik ona çaypulu verərək, açarı götürdü, qabağa düşüb, pilləkənlə qalxdı. Öz otağını açmamış qonşu qapıya baxdı. Astanada ayaqqabı yox idi. Qapını iki dəfə tıqqıldatdı. Cavab gəlmədi. Ehtiyatla dəstəyi burdu. Qapı bağlı idi.

– Dünən boş idi, – deyə Ravik mızıldandı, – pəncərə tərəfdən baxaq. Yəqin, sahibə özü bağlayıb. Qorxur ki, taxtabitilər qaçar.

Öz otağını açdı.

– Bircə dəqiqəliyə oturun, – qırmızı örtüklü divanı göstərdi. – İndicə gəlirəm.

Ravik eyvana çıxan qapını açdı, dəmir arakəsməni aşıb, o biri otağın eyvanına düşdü, qapını itələdi. O da bağlı idi. Kor-peşman geri qayıtdı.

– Bir şey çıxmadı. Sizə yer düzəldə bilmədim.

Qadın divanın bir küncünə qısılmışdı.

– Olar, bir az da oturum?

Ravik diqqətlə onu süzdü. Yorğunluqdan üz-gözü qırışmışdı. Adama elə gəlirdi ki, daha yerindən tərpənə bilməyəcək.

– Qala da bilərsiniz.
– Bircə dəqiqəliyə...
– Buradaca yatın. Ən asan yolu budur.

Qadın, deyəsən, onu eşitmədi. Asta-asta, demək olar ki, qeyri-ixtiyari başını buladı.

– Gərək, məni küçədə qoyaydınız. İndi... deyəsən... gedə bilməyəcəyəm...

– Mən də elə fikirləşirəm. Qalın, burada yatın. Ən yaxşısı budur. Sabah baxarıq.

Qadın onun üzünə baxdı:

– Mən sizə...

– Allah xatirinə... – Ravik onu qabaqladı, – mənə mane olmursunuz. Hara gedəcəyini bilməyən adamların burada gecələdiyi birinci dəfə deyil. Bu mehmanxana qaçqınlar üçündür. Belə şeylər burada hər gün olur. Çarpayı sizin olsun, mən isə divanda yataram. Öyrəşmişəm...

– Xeyr, xeyr! Mən elə burada oturacağam. Buradaca oturmağa icazə versəniz, bəsimdir.

– Yaxşı, siz deyən olsun.

Ravik paltosunu çıxarıb asdı. Sonra çarpayının üstündəki adyalı, yastığı götürüb, stullardan birini divana tərəf çəkdi. Vanna otağından uzun bir hamam xalatı gətirib, stulun başına asdı.

– Olanım budur, – dedi, – istəsəniz, pijama da götürün. Siyirmədə olmalıdır. Daha sizinlə qurtardım. İstəyirsinizsə, gedin, yuyunun. Mənim hələ bir az işim var.

Qadın başını buladı. Ravik gəlib onun qarşısında dayandı.

– Plaşı isə indi çıxarmalı olacaqsınız, – dedi, – tamam sudur. Bereti də verin.

Qadın ikisini də çıxarıb verdi. Ravik yastığı divanın bir küncünə qoydu:

– Başınızı bura qoyarsınız. Stulu da ona görə qoymuşam ki, yıxılmayasınız.

O, stulu divana bir az da yaxın çəkdi.

– Ayaqqabılarınızı da çıxarın. İçində sellər-sular oynayır. Yaxşı sətəlcəmliksiniz...

O, qadının ayaqqabılarını çıxartdı, siyirmədən bir cüt qısa yun corab götürüb, ayağına geydirdi.

– Bununla birtəhər keçinmək olar. Adam, gərək, ən çətin anlarda belə rahatlıq haqda düşünsün. Köhnə əsgərlik adətidir.

– Təşəkkür edirəm, – qadın dilləndi, – təşəkkür edirəm.

Ravik vanna otağına keçib kranları burdu. Su vannaya püskürdü. Qalstukunu çıxarıb, güzgüdə fikirli-fikirli özünə baxdı. İti gözləri çuxura düşmüşdü. Sifətdən arıq idi və o qədər əzgin görünürdü ki, gözləri olmasaydı, deyərdin, ölü sifətidir. Dodaqlar... Burun pərlərindən dodaqların ucuna qədər uzanan nazik qırışlar... Sağ gözünün üstündəki uzun çapıq saçlarına qədər gedib çatmışdı...

Telefon zəngi onu xəyaldan ayırıdı. Lənət şeytana! Bircə anlığa hər şeyi unutmuşdu. Onda belə hissə qapılma halları olurdu. Hələ içəridəki qadın...

– Gəlirəm, – deyə qışqırdı.

– Qorxdunuz? – deyə o, dəstəyi qaldırdı. – Necə? Bəli... Yaxşı... hə, əlbəttə, olar... Bəli... harada? Yaxşı, bu dəqiqə gəlirəm... İsti qəhvə... Tünd olsun... Bəli...



O, dəstəyi yavaşca yerinə qoydu, fikirli-fikirli divanın ayaq tərəfində oturdu. Sonra:

– Mən gedəsi oldum, – dedi, – tələsikdir...

Qadın o dəqiqə ayağa durdu. Azacıq səndələdi, stula söykəndi.

– Yox, yox! – Ravik qadının bu hərəkətindən riqqətə gəldi. – Siz qalın. Yatın... Mən bir-iki saatlığa gedirəm... Bilmirəm, nə qədər çəkər... Qalın...

Paltosunu geydi. Qəflətən ağlına bir fikir gəldi və o dəqiqə də yoxa çıxdı. Qadın oğurluq eləməzdi. Bu, eləsindən deyildi. Elələrini yaxşı tanıyırdı. Bir də oğurlanası nəyi var idi?

– Olar, mən də gedim? – Qadın bu sözləri deyəndə Ravik artıq qapıya çatmışdı.

– Xeyr, olmaz! Siz qalın. Nə lazım olsa, götürün. İstəyirsiniz, çarpayıda yatın. Konyak da var. Yatın... – O geri dönüb çıxmaq istədi.

– Qoyun işıq yana-yana qalsın. – Qadın bu sözləri qəflətən, tələsə-tələsə dedi. Ravik əlini dəstəkdən çəkdi.

– Qorxursunuz?

Qadın başını buladı. Ravik başı ilə açara işarə elədi:

– Qapını arxamca bağlayın, ancaq açarı çıxarın. Aşağıda biri də var, onunla açaram...

Qadın yenə başını buladı:

– Qorxuram... Xahiş edirəm, qoyun işıq yana-yana qalsın.

– Belə de... – Ravik sınayıcı nəzərlərələ ona baxdı: – Onsuz da söndürmək istəmirdim. Qoyun beləcə qalsın. Başa düşürəm... Özümün də başıma gəlib.

Akasiya küçəsinin tinində taksi rast gəldi.

– Laurstan küçəsi, on dörd. Bir az cəld olun.

Sürücü maşını döndərib Karno prospektinə çıxdı. Onlar dö le Qrand Arme prospektinə çatanda sağ tərəfdən balaca, ikiadamlıq bir maşın çıxdı. Əgər küçə yaş və sürüşkən olmasaydı, toqquşardılar. Əyləci basanda o biri maşın düz küçənin ortasına kimi sürüşdü, az qaldı, qabağı taksiyə dəysin. «Reno» markalı maşın idi, fırfıra kimi fırlanırdı. Sükanın arxasında eynəkli, qara şlyapalı bir kişi oturmuşdu və maşın fırlandıqca, hərdən avazımış sifəti görünürdü. Sonra maşın düzəldi, küçənin başında, Aida darvazasının yanında, üzü «Zəfər tağı»na tərəf dayandı. Uzaqdan yaşıl böcəyə oxşayırdı. Sürücü əlini pəncərədən çıxarıb yumruğu ilə onları hədələdi. Taksinin sürücüsü Ravikə tərəf döndü:

– Beləsini heç görmüsünüz?

– Bəli.

– Şlyapasına bax! Kim başına şlyapa qoyub, gecə vaxtı belə sürətlə maşın sürər?

– Günah sizdə idi, çünki o, baş küçə ilə gedirdi. Niyə söyürsünüz?

– Əlbəttə, günah bizdə idi. Elə ona görə də söyürəm.

– Bəs günah onda olsa, neyləyərdiniz?

– Onda da söyərdim.

– Deyəsən, çox zarafatcıl adama oxşayırsınız...

– Onda başqa cür söyərdim, – deyə sürücü maşını Foş prospektinə döndərdi. – Belə də təəccüblənməzdim. Aydın oldu?

– Xeyr. Tinlərdə bir az yavaş sürün.

– Onsuz da yavaş gedirəm. Küçələrə, elə bil, yağ çəkilib. Siz ki mənə qulaq asmaq istəmirsiniz, niyə danışdırırsınız?

– Çünki yorulmuşam, – Ravik hövsələdən çıxırdı, – çünki gecədir. Bir az bərk sürün.

– Bu, başqa məsələ... – Sürücü əlini furajkasının günlüyünə apardı. – Başa düşdüm.

Birdən Ravikin ağlına nəsə gəldi:

– Bura baxın, – dedi, – siz russunuz?

– Xeyr. Ancaq müştəri gözləyəndə əlimə keçəni oxuyuram.

«Bu gün mənimki ruslar sarıdan gətirmir, – deyə Ravik ürəyindən keçirdi və arxaya söykəndi. – İndi bir fincan qəhvə olaydı... Özü də tünd, isti... Yəqin, orada var... Gərək, əllərim titrəməsin... Yoxsa, Veberə iynə vurdurası olaram».

O, şüşəni aşağı salıb, nəm havanı acgözlüklə ciyərlərinə çəkdi...

## II

Balaca cərrahiyyə otağı çox işıqlı idi və tərtəmiz saxlanan sallaqxanaya oxşayırdı. Hər yanda qana bulaşmış pambıqla dolu vedrələr, sarğılar, tamponlar! Elə bil, onlardan otağa qırmızı işıq süzülürdü. Veber üzbəüz otaqda, üstünə lak çəkilmiş dəmir stolun arxasında oturub nəsə yazırdı. Tibb bacısı alətləri qaynadırdı. Su pıqqıldayır və bu zaman, sanki, otaqdakı işıq cızıldayırdı. Ancaq cərrahiyyə stoluna uzadılmış meyit bunların hamısına biganə idi, heç nədən xəbəri yoxdu.



Ravik duru sabunu əllərinə töküb, yumağa başladı. Çox acıqlı idi və əllərini elə bərk sürtürdü ki, deyərdin, dərisini soymaq istəyir.

– Tfu... – o, kobud bir söyüş söydü. Tibb bacısı ikrahla ona baxdı. Veber başını qaldırdı:

– Sakit olun, Ejeni, bütün cərrahlar söyür. Xüsusilə, işləri düz gətirməyəndə! Gərək, siz indiyə kimi buna öyrəşmiş olaydınız.

Tibb bacısı xeyli aləti qaynayan suyun içinə atdı, incik tərzdə dilləndi:

– Professor Pere heç vaxt pis söz danışmazdı. Buna baxmayaraq, o da çox adama həyat bəxş eləyirdi.

– Professor Pere beyin sahəsində mütəxəssis idi. Onunku zərif, dəqiq zərgər işidir, Ejeni. Biz isə qarın-bağırsaqla əlləşirik. Bu, tamam başqa şeydir. – Veber dəftərçəni örtüb ayağa durdu. – Yaxşı işlədiniz, Ravik. Ancaq bizdən əvvəl kimsə başdansovdu iş görübsə, neyləmək olar?!

– Xeyr, olar. Bəzən olur... – Ravik əllərini silib, siqaret yandırdı. Tibb bacısı heç nə deməyib, narazılıqla pəncərəni açdı.

– Afərin, Ejeni! – Veber onu alqışladı. – Həmişə qayda-qanunu gözləyirsiniz.

– Mənim həyatda hələ arzularım var, belə tez ölmək istəmirəm.

– Çox gözəl, Ejeni, bu da bir təsəllidir.

– Ancaq elələri var ki, heç nəyi yoxdur. İstəmirlər də olsun...

– Bu, sizə aiddir, Ravik, – Veber güldü. – Yaxşısı budur, tez aradan çıxaq. Səhərlər Ejeni çox acıqlı olur. Onsuz da burada bizlik iş qalmadı.

Ravik dönüb həyatda arzuları olan tibb bacısına nəzər saldı. Qız da çəkinmədən onun gözlərinin içinə baxdı. Gözlərindəki nikelli eynək Ejeninin ifadəsiz üzünə nəsə bir sərtlik verirdi. O da Ravik kimi bir adam idi, ancaq nədənsə ona yovuşa bilmirdi.

Ravik:

– Bağışlayın, – dedi, – siz haqlısınız.

Dümağ stolun üstünə uzadılan şey bir az da bundan qabaq özündə ümid işartısı, dözüm yaşadan titrək bir həyat parçası idi. İndi isə cansız meyit olmuşdu və ömründə heç vaxt səhv addım atmadığı ilə öyünən Ejeni adlı avtomat insan onun üstünə ağ mələfə çəkib apardı. «Belələri həmişə hər şeyə dözürlər, – Ravik ürəyindən keçirdi. – Günəşin bu daşürəklilərdən xoşu gəlmir, ona görə də onları unudur və axır nəticədə, belələri çox yaşayır».

Veber dilləndi.

– Hələlik, Ejeni, bu gün doyunca yatın.

– Hələləik, doktor Veber. Təşəkkür edirəm, cənab doktor.

– Hələlik. – Bunu da Ravik dedi. – Bayaqkı söyüşə görə də bağışlayın.

– Sabaha qədər. – Ejeni çox soyuq tərzdə cavab verdi. Veber üz-gözünü turşutdu:

– Yaman tündməcaz qızdır.

Bayırda tutqun bir səhər açılırdı. Küçədən zibildaşıyan maşınların tırıltısı eşidilirdi. Veber yaxalığını qaldırdı:

– Çox pis havadır. Sizi aparım, Ravik?

– Xeyr, təşəkkür edirəm. Piyada gedəcəyəm.

– Belə havada? Apara bilərəm. Heç bir tin də deyil.

Ravik başını yırğaladı:

– Təşəkkür edirəm, Veber.

Veber onu sınayıcı nəzərlərlə süzdü:

– Qəribədir, – dedi, – bıçağınızın altından kimsə sağ çıxmayanda hələ də həyəcanlanırsız. On beş ildir adam yarırsınız, belə şeyləri çox görmüsünüz.

– Bəli, çox görmüşəm. Amma yenə həyəcanlanıram.

Kök, boy-buxunlu Veber onunla üzbəüz dayanmışdı. Koppuş yanaqları Normandiya alması kimi qıpqırmızı idi. Yağış islatdığından qara, qısa bığları işıldayırdı. Səkinin kənarında bir «Buik» dayanmışdı və o da beləcə işıldayırdı. Veber indi ona minib evinə gedəcək. Çəhrayı rəngli evi şəhərin kənarında idi. Bu evdə onu tərtəmiz, gözqamaşdıran arvadı, bir cüt tərtəmiz, gözqamaşdıran balası, tərtəmiz, gözqamaşdıran bir həyat gözləyirdi. Nəfəsini içinə çəkib bıçağı ilk dəfə ehtiyatla ətə vuranda şırımlanan qıpqırmızı qanı, pərdə kimi qat-qat açılan bədəni görəndə, ömründə işıq nə olduğunu bilməyən əzalar bir-bir üzə çıxanda, cəngəllikdə ov dalınca düşmüş ovçu kimi axtaranda, zədələnmiş toxumalarda, şişlərdə, vəzilərdə ən dəhşətli yırtıcıya – ölümə rast gələndə keçirdiyin gərginliyi, həyəcanı beləsinə başa salmaq olardımı? Həmin yırtıcı ilə döyüşə girirsən, ancaq əlində iti bıçaqdan, iynədən, sonsuz inamdan başqa heç nə olmur... Bütün diqqətini cəmləşdirib ürəklə işlədiyin anda qəflətən haradansa qorxunc bir kölgə sürünüb, qanına işləyir, qəhqəhə çəkərək, «mən də varam» deyir, sanki, bıçağı korşaldır, iynə az qalır sına, əllərin ağırlaşır və o gizli, müəmmalı, döyünən həyat birdən-birə keyləşmiş əllərindən çıxır, qapqara qorxunc bir dalğa onu qoynuna alıb, uzaqlara aparır, nə qədər çalışırsan, qabağını kəsə bilmirsən, gedəndə də dalınca çatmırsan... Nə vaxtsa nəfəs alan, həyatda öz adı olan bir insan o dəqiqə heçə dönür, ölüm pərdəsi çəkilmiş sifətində əli hər yandan üzülmüş zəif bir müqavimət nişanəsi donub qalır... Bütün bunların nə demək olduğunu o, haradan bilər? Bunları ona başa salmaq olardımı? Axı burada başa salınası nə var idi?

Ravik təzədən siqaret yandırdı:

– İyirmi bircə yaşı vardı... – dedi.

Veber yaylığını çıxarıb, bığlarında işıldayan yağış damcılarını sildi:

– Siz çox yaxşı işlədiniz, Ravik. Şəxsən mən bacarmazdım. Kiminsə başısoyuqluğu üzündən onu xilas edə bilmə-

diniz... Bu, sizin günahınız deyil. Hər şeyə belə yanaşsaq, axırımız hara gedib çıxar?

– Bəli, doğrudan, hara gedib çıxar?!

Veber yaylığı cibinə qoydu.

– Siz, gərək, bu qədər görüb-götürəndən sonra çox dözümlü olaydınız.

Ravik istehza ilə ona baxdı:

– Dözüm heç vaxt olmur. Təkcə hər şeyə öyrəşmək mümkündür...

– Mən də elə onu nəzərdə tuturdum.

– Ancaq bəzilərinə heç öyrəşmək də olmur. Niyəsini demək çətindir. Tutaq ki, qəhvədən oldu. Bəlkə də, elə doğrudan, qəhvədən oldu. Biz də onu həyəcanla qarışdırırıq.

– Yaxşı qəhvə idi. Elə deyil?

– Çox yaxşı idi.

– Qəhvə dəmləməyin ustasıyam. Birdən hiss elədim ki, qəhvə istəyirsiniz, ona görə də özüm hazırladım. Hər halda, Ejeninin düzəltdiyi qapqara horradan yaxşı idi. Düz deyirəm?

– Heç müqayisəyə gəlməz. Qəhvə dəmləməkdə mahirsiniz.

Veber maşına oturub, onu işə saldı, başını pəncərədən çıxarıb dedi:

– Bəlkə, doğrudan, sizi aparım? Axı çox yorulmusunuz.

«Porsuq kimidir, – Ravik ürəyindən keçirdi. – Şişmiş porsuğa oxşayır. Bəs bu nə deməkdir? Haradan ağlıma gəldi? Niyə belə əks fikirlər gəlir ağlıma?»

– Yorğun deyiləm, – dedi, – qəhvə məni ayıldıb. Yuxunuz şirin olsun, Veber.

Veber güldü. Qara bığlarının altından dişləri ağardı:

– Yatmaq nədir?! Gedib bağda işləyəcəm, zanbaq, nərgizgülü basdıracağam.

«Hə, zanbaq, nərgizgülü... – Ravik ürəyindən keçirdi. – Aralarına çınqıl tökülmüş, dırmıqlanmış ləklərdə... Zanbaq, nərgizgülü – baharın narıncı, qızılı müjdəçiləri...»

– Hələlik, Veber, – dedi, – yəqin, o biri işləri özünüz görəcəksiniz.

– Əlbəttə! Axşam zəng vuraram. Təəssüf ki, qonorar az olacaq. Heç deməyə dəyməz... Qız kasıb imiş və deyəsən, qohumu yoxdur. Hələ baxarıq...

Ravik əlini yellətdi.

– Ejeniyə yüz frank verib, – Veber sözünə davam etdi, – deyəsən, olanı bu imiş. Ondan iyirmi beşi sizindir.

– Yaxşı, yaxşı... – Ravikin səbri tükəndi. – Hələlik, Veber.

– Hələlik. Sabah səkkizə qədər...

Ravik asta-asta Lauriston küçəsi ilə gedirdi. Yay olsaydı, Bulon meşəsindəki skamyalardan birində oturar, səhər günəşində qızına-qızına heç nə fikirləşmədən, həyəcanı sovuşub keçənə kimi çaya, yaşıl meşəyə tamaşa edər, sonra da mehmanxanaya gedib yatardı.

Buasor küçəsinin tinindəki qəlyanaltıya girdi. Piştaxtanın yanına bir neçə fəhlə və yük maşını sürücüləri yığışmışdı. Onlar kökə ilə isti, tünd qəhvə içirdilər. Ravik bir xeyli onlara tamaşa elədi. Ən etibarlı, ən sadə həyat... Onu öz zəhmətləri ilə, qabarlı əlləri ilə qazanmışdılar. Axşam yorğun-arğın evə qayıdır, arvadı qabağına yemək qoyur, sonra da yıxılıb yatır. Elə ağır yatır ki, yuxu da görmür...



– Bir qədəh gilas arağı, – deyə sifariş verdi.

Ölən qızın sağ ayağında nazik, ucuz, saxta qızıldan hazırlanmış zəncir vardı. Belə səfehliyi ancaq zövqsüz, xəyalpərvər cavanlıqda eləmək olardı... Düyməsində «Toujours Charles»[1] yazılmış bu zəncir ayağına elə dolanmışdı ki, açmaq olmurdu və Sena çayının sahillərində keçən bazar günlərindən, eşqbazlıqdan, çılğın gənclikdən, Neydəki balaca zərgər dükanından, talvarda keçən sentyabr gecələrindən xəbər verirdi. Və qəflətən gələn ayrılıq, yollarda qalan gözlər, qorxu, qəfil yoxa çıxan Şarl... Haradasa bir mamaça tanıyan rəfiqəsi... Mamaça, üstünə müşəmbə salınmış stol, dəhşətli ağrılar, qanaxma... qan... qarının qorxudan qırışmış sifəti... Başından eləmək üçün onu taksiyə qoyan əllər... Sonra o əzablı-işgəncəli günlər və nəhayət, təcili yardım, xəstəxana, alışıb – yanan tərli ovcunda sıxdığı olan-qalanı – yüz frank və bir də... artıq gec idi...

Radio xırıldamağa başladı. Kimsə tanqo üstündə qart səslə mənasız sözlər oxuyurdu. Ravik birdən hiss elədi ki, bayaqkı təşrihin gedişini təzədən xatırlayır, hər hərəkətini saf-çürük edir. Bir-iki saat əvvəl olsaydı, yenə nəsə eləmək mümkün idi. Veber zəng elətdirib, ancaq mehmanxanada tapılmayıb. Demək, o, de Alma körpüsünün üstündə dayanıb çaya baxıb, qız da bu arada ölüb. Veber belə təşrihi tək

---

[1] Şarldan əbədi yadigar *(fran.)*

eləyə bilmirdi. Təsadüfə bax! Qızıl zəncir taxılmış ayaq süst düşərək...

«Ay doğur, gəl qayıqla gəzək biz...» – saxta tenor səs zilə qalxdı...

Ravik pulunu verib çıxdı. Küçədə taksi saxlatdı.

– «Oziris»ə sürün, – dedi.

«Oziris» möhkəm qayda-qanunlu böyük bir fahişəxana idi. Nəhəng barı Misir üslubunda tikilmişdi.

* * *

Qapıçı onu görən kimi:

– Bağlayırıq, – dedi, – heç kəs qalmayıb.

– Heç kəs?

– Təkcə madam Rolandadır. Qızlar dağılışıb.

– Çox yaxşı.

Qapıçı narazı tərzdə ayağındakı qaloşları daş döşəməyə sürtdü.

– Taksini buraxırsınız? Sonra tapmaq çətin olacaq. İşin axırıdır.

– Bunu bir dəfə dediniz. Narahat olmayın, taksi taparam.

Ravik qapıçının döş cibinə bir qutu siqaret basıb içəri girdi, asılqanın yanındakı ensiz qapıdan böyük zala keçdi. Bar bomboş idi; ətrafa dağılmış şərab, çevrilmiş stullar, döşəmədəki siqaret kötükləri, tütün, ətir qoxusu yenicə qurtarmış kef məclisindən xəbər verirdi.

– Rolanda!

Rolanda, üstündə çəhrayı rəngli ipək paltarlar qalaqlanmış stolun yanında dayanmışdı və Raviki görəndə heç təəccüblənmədi:

– Gecdir, Ravik. Nə istəyirsən? Qız, yoxsa içmək? Bəlkə, ikisini də?

– Araq. Polşa arağı.

Rolanda şüşə və qədəh gətirdi.

– Özün süz, iç. Mən, gərək, bu paltarları seçib yazam. Camaşırxananın maşını indicə gələcək. Hamısını bircə-bircə yazmasan, bu qırxquldur çırpışdırır. Sürücüləri deyirəm! Öz qızlarına hədiyyə eləyirlər...

– Musiqi çaldır, Rolanda. Özü də lap ucadan.

– Yaxşı.

Rolanda cihazı işə saldı. Gur musiqi səsi bu nəhəng, boş zalı başına götürdü.

– Çox gur oldu, Ravik?

– Xeyr.

«Çox gur? Nə idi çox gur olan? Yalnız buradakı sükut! Havasız otaq kimi adamı boğan sükut!»

– Qurtardım! – Rolanda Ravikə yaxınlaşdı. Onun şax qaməti, aydın sifəti, sakit, qara gözləri vardı. Əynindəki abırlı qara paltardan bilinirdi ki, dayədir və bu paltar onu, demək olar ki, çılpaq gəzən fahişədən fərqləndirirdi.

– Mənə yoldaşlıq elə, Rolanda.

– Yaxşı.

Ravik bardan ayrı qədəh gətirib araq süzdü. Qədəh yarıya çatanda Rolanda şüşədən yapışdı:

– Bəs eləyər. Çox içən deyiləm.

– Yarımçıq qədəhdən zəhləm gedir. İçmədiyin qalar.



– Niyə? Bu ki bədxərclikdir.

– Bədxərcliyə bax! Fransızlar ömrü boyu ondan qorxublar! Qısmaq nəyə lazımdır? Axı sənin həyatına heç kəs qənaət eləmir...

– Bu, alverdir, tamam başqa şeydir.

Ravik güldü:

– Gəl onda elə bu sağlığa içək! Görəsən, alver qayda-qanunları olmasaydı, dünya neyləyərdi?! Canilərlə, idealistlərlə, tənbəllərlə dolardı.

– Sənə qız lazımdır, Ravik. İstəyirsən, Kikiyə zəng vurum. Qəşəng qızdır, iyirmi bir yaşı var.

– Belə de... Bunun da iyirmi bir yaşı var. Yox, o, bu gün mənim malım deyil.

Ravik qədəhini doldurdu.

– Rolanda, yuxuya getməzdən əvvəl nə haqda fikirləşirsən?

– Çox vaxt heç fikirləşmirəm. Yaman yoruluram.

– Bəs çox yorğun olmasan?

– Tur barədə.

– Niyə?

– Xalamın orada evi var. Altı da mağazadır. İki dəfə girov haqqını mən vermişəm. Yetmiş altı yaşı var, öləndə ev mənə qalacaq. İstəyirəm, mağazanı kafe eləyim. Açıq rəngli güllü divarlar, üç nəfər musiqiçi – piano, skripka, violonçel...

Arxası da bar... Xudmani bir kafe... Ev gedişli-gəlişli yerdədir. Mənə elə gəlir, pərdələri, çilçırağı ilə bir yerdə doqquz min beş yüz franka başa gətirmək olar. İstəyirəm, ilk günlər üçün beş min frank da ehtiyatım olsun. Bir də ikinci, üçüncü mərtəbələrin kirayəsi... Mən bunlar haqda düşünürəm, Ravik.

– Sən Turda anadan olmusan?

– Bəli. Ancaq o vaxtdan hara getdiyimi bilən yoxdur. İşlər yaxşı getsə, heç maraqlanan da olmayacaq. Pul hər şeyi həll eləyir.

– Hər şeyi yox, çox şeyi...

Ravik gicgahlarında küt ağrı hiss elədi, gördü ki, dili dolaşır.

– Deyəsən, çox içdim, – deyə cibindən pul çıxardı. – Turda ərə gedəcəksən, Rolanda?

– Gedən kimi yox. Bir az keçsin, sonra... Orada adamım var.

– Onun yanına gedirsən?

– Hərdən. Arabir özü məktub yazır. Əlbəttə, başqa ünvana. Evlidir, ancaq arvadı xəstəxanada yatır. Vərəmdir. Həkimlərin dediyinə görə, bir-iki il ancaq yaşayar. Sonra tək olacaq.

Ravik durdu.

– Allah özü sənə kömək olsun, Rolanda. Sənin çox sağlam düşüncə tərzin var.

Rolanda inamla gülümsədi. Ona elə gəldi ki, Ravik düz deyir. Aydın sifətində daha yorğunluq əlaməti görünmürdü. Gümrah idi, elə bil, yenicə yuxudan durmuşdu. Nə istədiyini yaxşı bilirdi. Həyatın ondan gizli heç bir sirri yoxdu.

Bayırda hava işıqlanmışdı. Yağış da kəsmişdi. Qapıçı getmiş, gecə öz qınına çəkilmiş, gündüz başlamışdı. Dəstə-dəstə tələsən adamlar basabasla metrolara doluşurdular. Sanki, bu metrolar yarğanlar idi, adamlar da özlərini qədim Allahlara qurban verməк üçün ora girirdilər...

* * *

Qadın divandan dik atıldı. Qışqırmadı, zəif, boğuq bir səs eşidildi, dirsəklənib yerindəcə dondu.

– Qorxmayın! – Ravik tez dilləndi. – Mənəm. Sizi bura gətirən adamam.

Qadın dərindən nəfəs aldı. Ravik onu güclə seçirdi. Hələ də yanan elektrik işığı pəncərədən süzülən günəş işığına qarışaraq otağı solğun, sarıya çalan ölgün bir işığa bələmişdi.

– Zənnimcə, indi söndürmək olar, – deyib Ravik düyməni burdu. O, yenə də gicgahlarında küt ağrılar hiss edirdi. – Səhər yeməyi istəmirsiniz? – deyə soruşdu. O, qadını büsbütün unutmuşdu, gəlib aşağıdan açarı götürəndə xatırlamış və elə bilmişdi ki, getmiş olar. Kaş elə getmiş olaydı! Ravik çox içmişdi, şüurunun pərdələri çəkilmiş, zamanın cingiltili zənciri sınmış, qorxu-hürkü bilməyən coşğun xatirə və xəyallar onu öz qoynuna almışdı. O, indi tək qalmaq istəyirdi...

– Qəhvə istəyirsiniz? – deyə yenə soruşdu. – Burada ondan yaxşı heç nə olmur.



Qadın başını buladı. Ravik diqqətlə onu süzdü.

– Nə olub? Gələn var idi?

– Xeyr.

– Ancaq nəsə olub. Mənə elə birtəhər baxırsınız ki...

Qadının dodaqları tərpəndi və «İy var» sözləri eşidildi.

– İy? – Ravik heç nə anlamadı. – Araqdan iy gəlməz. Gilas arağı, brendi də elə... Siqaret də deyil, çünki özünüz çəkənsiniz. Burada qorxmağa özgə nə səbəb ola bilər?

– Elə demək istəmirəm...

– Allah eşqinə, bəs nəyi deyirsiniz?

– Həminkidir... Həmin iydir...

– İlahi, efir iyi olacaq!.. – Bu, birdən Ravikin ağlına gəldi. – Efirdir?

Qadın başını tərpətdi.

– Nə vatsa təşrih olunmusunuz?

– Xeyr. Bu...

Ravik daha qulaq asmadı, gedib pəncərəni açdı:

– Bu dəqiqə keçib gedəcək. Hələlik bir siqaret çəkin.

O, vanna otağına keçib, kranları burdu. Güzgüdə özünə baxdı. Bir-iki saat bundan qabaq da beləcə dayanmışdı. Bu arada insan ölmüşdü. Əlbəttə, görünməmiş şey deyildi. Hər an minlərlə adam ölür. Bu haqda dəqiq hesablamalar da var. Görünməmiş iş deyildi. Ancaq ölən adam üçün çox şey deməkdir, hətta öz gedişində olan dünyadan da qiymətli idi.

Vannanın kənarında oturub ayaqqabılarını çıxardı. Eyni şeylər idi, təkrar olunurdu. Hər gün gördüyü əşyalar və onların lal hökmü! Bayağılıq, abırsız adətlər... Adam lap çaşbaş qalır! Məhəbbət dənizinin ürək adlı çiçəklənən sahili... Kim olursan ol, istəyir şair ol, istəyir yarımallah, istəyir də lap axmağın biri, fərqi yoxdur, hər iki-üç saatdan bir öz dünyandan qopub ayaqyoluna getməlisən. Heç kim ondan yaxa qurtara bilməz! Təbiət adamı beləcə dolayır! Bir yanda romantik xəyal dünyası, bir yanda da şirə ifraz eləyən vəzilər, acından quruldayan qarın... İnsana nədənsə ləzzət almaq üçün verilən üzvlər həm də nəyisə içəridə seçib ayırır... Ravik ayaqqabıları küncə itələdi. Bir də bu zəhlətökən soyunmaq adəti! Ondan yaxa qurtarmaq olmur. Yalnız tək yaşayanlar bunu duya bilər. Bu adətdə nəsə iyrənc bir mütilik, üzüntü vardı. Ondan canını qurtarmaq üçün çox vaxt geyimli yatmışdı. Ancaq nə xeyri, bunu da bir dəfə, iki dəfə eləyirsən... Yox, ondan yaxa qurtarmaq olmaz.

Şırnağı açdı. Sərin su bədənini qıdıqladı. Sinə dolusu nəfəs alıb qurulandı. Bu da xırda adətlərin təsəllisi! Su, nəfəs və bir də axşam yağışı. Yalnız tənha qalmış adamlar onu yaxşı bilər. Suya «sağ ol» deyən dəri, napnazik, gömgöy damarlardan axan qan... Yaşıl çəmənlik... Uzanıb dincəlmək... Cökə ağacları... Dümağ yay buludları... Cavanlığın xəyal dünyası... Görəsən, qəlbinin köksünə sığmadığı anlar harada qaldı? Həyatın dəhşətli macəraları onların hamısını boğdu...

Otağa qayıtdı. Qadın divanın bir küncünə qısılıb oturmuş, adyalı boğazına qədər çəkmişdi.

– Soyuqdur? – Ravik soruşdu.

Qadın başını buladı.

– Qorxursunuz?

Bu dəfə başını tərpətdi

– Məndən?

– Xeyr.

– Küçədən? – Ravik pəncərəni bağladı.

– Təşəkkür edirəm. – Qadın dilləndi.

Ravik onun boyun-boğazına, çiyinlərinə baxdı. Onlar canlı idi. Doğma olmasa da, hər halda, həyat əlaməti, hənirti idi, daha adamı buza döndərən tənhalıq deyildi. Adam adama hənirtidən başqa nə verə bilərdi? Bundan yaxşı dünyada nə vardı?!

Qadın yerində qurcuxdu. Titrəyə-titrəyə Ravikə baxırdı. Ravik hiss etdi ki, bayaq şahə qalxan həyəcan dalğaları səngidi, canına qəribə bir sərinlik yayıldı, o, özünə gəldi, gözləri önündə sonsuz bir aləm yarandı. Elə bil, ona yad olan bir planetdə keçirdiyi qaranlıq gecədən işıqlı gündüzünə qayıtdı. Hər şey birdən-birə sadələşdi: səhər çağı, qadın... Daha fikirləşməyə dəyməzdi...

– Yaxın gəl, – dedi.

Qadın döyükə-döyükə onun üzünə baxırdı.

– Yaxın gəlsənə! – Ravikin səbri tükənirdi...

## III



Ravik oyandı. Ona elə gəldi ki, kiminsə baxışları üstündə gəzir. Qadın geyinib divanda oturmuşdu. Ancaq Ravikə baxmırdı. Gözlərini pəncərəyə zilləmişdi. Elə bilirdi, çoxdan getmiş olar. Hələ də otaqda olması onu heç açmadı. Səhər çağı yanında başqa adam olanda, özünü birtəhər hiss eləyirdi.

Bilmədi təzədən yatsın, yoxsa dursun. Ancaq qadın burada ola-ola yata bilməyəcəkdi. Gərək, onu tez başından eləsin. Əgər pula görə qalmışdısa, asan idi. Fərqi yoxdur, nəyə görə qalır qalsın... Ravik dilləndi:

– Çoxdan durmusunuz?

Qadın diksinərək geri döndü.

– Yata bilmədim. Heç yaxşı olmadı, sizi də oyatdım.

– Xeyr, özüm oyandım.

Qadın ayağa durdu:

– Getmək istəyirdim. Özüm də bilmirəm niyə qaldım...

– Dayanın, mən bu dəqiqə geyinirəm. Çörək yeyin, bu mehmanxananın məşhur qəhvəsindən için. Vaxtımız var, ikisinə də çatar.

O durub zəngi basdı. Sonra vanna otağına keçdi. Bildi ki, qadın da burada olub. Ancaq hər şeyi səliqə ilə yerinə qoyub, hətta işlənmiş dəsmalları da asıb. Dişlərini yuyanda qulluqçu qız səhər yeməyini gətirdi. Tələsdi, qayıdan kimi dedi:

– Heç yaxşı olmadı.

– Nə?

– Qız sizi gördü. Heç ağlıma gəlməmişdi...

– Eybi yoxdur, özünü o yerə qoymadı. – Qadın məc-

məyiyə baxdı. Ravik deməsə də, qız yeməyi iki adamlıq gətirmişdi.

– Heç qoymaz da. Axı bura Parisdir! Qəhvə götürün. Başınız ağrıyır?

– Xeyr.

– Lap yaxşı. Mənimsə başım bir az ağrıyır. İndi keçib gedər. Kökə də götürün.

– Yeyə bilmərəm.

– Yeyərsiniz. Sizə elə gəlir. Bir dadına baxın.

– Doğrudan, yeyə bilmirəm.

Qadın kökə götürdü, ancaq tez də qaytarıb yerinə qoydu.

– Onda qəhvə için, üstündən də siqaret çəkin. Bu, əsgərlərin səhər yeməyidir.

– Elədir...

Ravik yeməyə başladı.

– Hələ də acmadınız? – deyə o, bir azdan yenə soruşdu.

– Xeyr. – Qadın siqareti söndürdü. – Deyəsən, mən... – deyib susdu.

– Deyəsən nə?

– Getmək lazımdır.

– Yolu tanıyırsınız? Çıxan kimi Vaqram prospektidir.

– Xeyr, tanımıram.

– Harada qalırsınız?

– «Verdön» mehmanxanasında.

– Beşcə dəqiqəlik yoldur. İstəyirsiniz, göstərim. Onsuz da sizi qapıdan ötürməliyəm.

– Bəli... ancaq... iş onda deyil... – Qadın yenə susdu.

«Pul istəyir, – Ravik ürəyindən keçirdi. – Məlum şeydir, pula görə qalıb!»

– Utanmayın, özüm bilirəm, sizə... – Ravik pulqabını çıxardı.

– Bu nə deməkdir? Eyib deyil?! – Qadın bozardı.

– Heç... heç... – Ravik pulqabını cibinə qoydu.

– Bağışlayın... – Qadın ayağa durdu. – Siz... çox sağ olun... yoxsa... Gecə vaxtı neyləyərdim...

Ravik hər şeyi təzədən xatırladı. Qadının buna belə böyük məna verməsi ona gülünc göründü. Açığı, təşəkkür gözləmirdi və ona görə də bir az tutuldu.

– Doğru sözümdür, bilmirdim... – Qadın hələ də dayanıb tərəddüd eləyirdi.

«Görəsən, niyə getmir?» – fikirləşən Ravik nəsə demək xatirinə dilləndi.

– İndi ki, bilirsiniz...

– Xeyr! – Qadın səmimiyyətlə onun üzünə baxdı. – Hələ də bilmirəm. Bircə onu bilirəm ki, nəsə eləməliyəm. Bilirəm ki, ora getmək olmaz.

– Bu, başqa məsələ! – Ravik paltosunu götürdü. – Mən sizi aşağıdan ötürərəm.

– Lazım deyil, bircə onu deyin ki... – O yenə tərəddüd etdi, elə bil, söz tapmırdı. – Bəlkə, siz biləsiniz... Neyləmək lazımdır...Əgər...

– Əgər nə?

– Adam öləndə... – Qadın daha özünü saxlaya bilmədi, ağladı. Hıçqırmırdı, eləcə səssiz-səmirsiz, için-için ağlayırdı. Ravik onun sakitləşməsini gözlədi. Sonra:



– Ölən var? – soruşdu. Qadın başını tərpətdi.

– Dünən axşam?

O, yenə başını tərpətdi.

– Siz öldürmüsünüz?

Qadın döyükdü:

– Nə? Nə dediniz?

– Siz eləmisiniz? Nə edəcəyinizi məndən soruşursunuzsa, onda, gərək, düzünü deyəsiniz.

– Ölüb! – Qadın qışqırdı. – Qəfildən... – O, əlləri ilə üzünü örtdü.

– Xəstə idi?

– Bəli.

– Həkim çağırmışdınız?

– Bəli. Ancaq xəstəxanaya getmədi.

– Həkim dünən gəlmişdi?

– Xeyr, üç gün qabaq olub. Onu... həkimi söyüb biabır elədi, dedi, bir də gəlmə.

– Ayrı həkim çağırmadınız?

– Heç kəsi tanımırdıq. Gəldiyimiz üççə həftədir. Bunu da xidmətçi tapmışdı. Qoymadı, dedi ki... Elə bildi ki, özü sağalacaq.

– Xəstəliyi nə idi?

– Bilmirəm. Həkim dedi, sətəlcəmdir. Ancaq özü inanmırdı, deyirdi ki, həkimlərin hamısı fırıldaqdır. Dünən yaxşı idi. Birdən...

– Niyə xəstəxanaya aparmadınız?

– İstəmədi. Dedi ki, yanımda olmasa, ona xəyanət edərəm. O... Onu tanımırsınız... Bacara bilmədim.

– İndi mehmanxanadadır?

– Bəli.

– Mehmanxana sahibinə demisiniz?

– Xeyr. O keçinəndə... hənirti kəsiləndə... Gözləri... Daha dözə bilmədim, çıxıb qaçdım.

Ravik ötən gecəni xatırladı, çox pərt oldu. Ancaq olan olmuş, keçən də keçmişdi, heç biri üçün indi fərqi yox idi. Xüsusilə qadın üçün. Həmin gecə qadın üçün hər şey mənasız idi, təkcə bir şey qalmışdı: dözmək! Həyat təkcə sentimental müqayisələrdən ibarət deyildi! Lavin arvadının ölüm xəbərini alan gecəni fahişəxanada keçirmişdi. Fahişələr onu xilas etmişdi! Abbatlar ona heç nə eləyə bilməzdi. Bunu başa düşən, onu da başa düşərdi. Belə şeyləri sözlə izah etmək olmaz. Burada iş görmək lazım idi, vəssalam...

Ravik paltosunu götürdü.

– Gəlin, – dedi, – mən də gedərəm. Əriniz idi?

– Xeyr.

* * *

«Verdön» mehmanxanasının sahibi kök bir adamdı. Başında bircə tük olmasa da, rəng çəkilmiş qara bığları, qara, qalın qaşları vardı. Vestibüldə idi, arxasınca da xidmətçi, qulluqçu qız, arıq-quru kassir qadın düzülmüşdülər. Hiss olunurdu ki, artıq hər şeyi bilir, qadını görən kimi də əsib-coşmağa başladı. Rəngi bozardı, balaca, ətli əllərini oynada-oynada hüdüləyib tökdü, ancaq Ravik gördü ki, onların gəlişi, hər halda, kişinin vəziyyətini bir az yüngülləşdirib. Polislə, həbsxana ilə hədələməyə başlayanda, Ravik onun sözünü kəsdi.

– Siz provanslısınız? – deyə soruşdu

Kişi duruxdu:

– Xeyr. Bu nə deməkdir ki? – O lap çaşbaş qalmışdı.

– Heç nə. Sadəcə olaraq, sözünüzün arasına girmək istədim. Belə hallarda mətləbə dəxli olmayan şeylər soruşmaq lazımdır. Yoxsa, düz bir saat danışardınız.

– Siz kimsiniz, müsyö? Nə istəyirsiniz?

– Bu, sizin səhərdən bəri danışdıqlarınızın içində ən ağıllı söz oldu.

Kişi özünü yığışdırdı.

– Siz kimsiniz ki? – O, bunu elə sakit, elə ehtiyatla soruşdu ki, sanki, hörmət-izzətli bir adamı incidəcəyindən qorxurdu.

– Həkim.

Kişi gördü ki, qorxulu adam deyil.

– Bizə həkim lazım deyil! – O, təzədən əsib-coşmağa başladı. – Polis lazımdır! – Diqqətlə gah Ravikə, gah da qadına baxdı, elə bildi ki, indicə qorxu, etiraz, yalvarış başlayacaq.

– Yaxşı fikirdir. Bəs niyə çağırmırsınız? Siz ki onun öldüyünü çoxdan bilirsiniz.

Kişi heç nə deməyib, acıqla Raviki süzdü.

– İndi mən deyim niyə... – Ravik bir addım irəli gəldi. – Çünki müştərilərinizin dərdindən hay-küy qaldırmaq istəmirsiniz. Bundan xəbər tutan kimi, çoxu köçüb gedəcək. Ancaq polis gəlməlidir, çünki qanun belədir, hər şeyi sakitcə yoluna qoymaq isə özünüzdən asılıdır. Əslində, bunun sizə dəxli yoxdur. Qorxmusunuz ki, sizin boynunuza atıb qaçarlar. Nahaq yerə! Bir də haqq-hesabdan qorxmusunuz. Haqqınız çatacaq. Mən indi meyitə baxmaq istəyirəm, sonra hər şeyi özüm həll edərəm.



Ravik kişinin yanından keçib gedərkən, qadından soruşdu:

– Hansı otaqdır?

– On dörd.

– Siz lazım deyilsiniz, gəlməyin, hər şeyi özüm yoluna qoyaram.

– Xeyr, qala bilmərəm.

– Hamısını təzədən görməyin nə mənası?

– Xeyr, qala bilmərəm.

– Yaxşı, necə istəyirsiniz...

* * *

Otaq alçaq tavanlı idi və pəncərəsi küçəyə baxırdı. Qulluqçu qızlar, mərtəbə növbətçiləri və xidmətçilər qapıya yığışmışdılar. Ravik onları dağıtdı. Otaqda iki çarpayı vardı. Divarın yanındakında kişi uzanmışdı. Rəngi saralmışdı,

mumyalanmış kilsə xadimi kimi dümdüz uzanmışdı, qara, qıvrım saçları, əynində də qırmızı ipək pijama vardı. Əlləri sinəsinə çarpazlanmışdı. Yanındakı balaca kətilin üstündə balaca, ucuz, ağacdan yonulmuş madonna fiquru vardı. Onun üstündə pomada ləkəsi qalmışdı. Ravik fiquru götürüb arxasına baxdı: «Made in Germany» yazılmışdı. Diqqətlə meyitə baxdı. Dodaqlarına boya çəkməmişdi. Üzdən eləsinə də oxşamırdı. Gözləri yarıaçıq idi. Biri o birinə nisbətən daha çox açılmışdı. Onlardan biganəlik yağırdı və üzündə, elə bil, əbədi həsrət nişanəsi donub qalmışdı...

Ravik meyitə tərəf əyildi. Stolun üstündəki dərman şüşələrinə baxıb, onu müayinə etməyə başladı. Zor işlədilməmişdi. Dikəldi.

– Ona baxan həkimin adı nə idi? – deyə qadından soruşdu. – Adını bilirsiniz?

– Xeyr.

Ravik diqqətlə onun üzünə baxdı: rəngi qaçmışdı.

– Keçin oturun. – O, küncdəki stulu göstərdi. – Yerinizdən tərpənməyin. Həkim çağıran xidmətçi buradadır? – Qapıdan içəri boylananlara göz gəzdirdi.

– Bu mərtəbəyə Fransua baxır, – döşəməsilən ağacı tüfəng kimi sinəsinə sıxmış süpürgəçi qadın dilləndi.

– Fransua kimdir?

Xidmətçi irəli durdu.

– O həkimin adı nə idi?

– Bonne. Şarl Bonne.

– Telefon nömrəsini bilirsiniz?

Xidmətçi eşələyib cibindən nömrəni tapdı.

– Passi, 2743.

– Yaxşı... – Ravik boylanan adamların arasından sahibkarın sifətini də gördü. – Bəlkə, qapını bağlayaq? Yoxsa, istəyirsiniz, küçədən keçənlər də tökülüşüb gəlsinlər?

– Xeyr, xeyr! Dağılışın. Hamınız dağılışın! Nəyə yığışıbsınız? İş vaxtı deyil? Mən axı sizə pul verirəm! – Kişi hamını çıxarıb, qapını bağladı.

Ravik dəstəyi götürüb əvvəlcə Veberə zəng vurdu, onunla bir az danışdı. Sonra Bonnenin nömrəsini yığdı. Bonne qəbul otağında idi. O, qadının dediklərini təsdiq elədi.

– Kişi ölüb. Ölüm şəhadətnaməsini yazmaq üçün gələ bilməzsiniz?

– O, məni qovdu. Özü də təhqir elədi!

– Daha təhqir eləyə bilməz.

– Heç haqqımı da vermədi. Mənə tamahkar, fırıldaqçı dedi.

– Bəs pulunuzu da almağa gəlməzsiniz?

– Adam göndərərəm.

– Yaxşısı budur, özünüz gəlin. Yoxsa pulu görməyəcəksiniz.

– Yaxşı, gələrəm, – Bonne bir az tərəddüd eləyəndən sonra razılaşdı. – Ancaq pulu almamış, heç nəyə qol çəkən deyiləm. Üç yüz frank eləyir.

– Çox gözəl, üç yüz frank olsun, verərik. – Ravik dəstəyi asıb qadına tərəf döndü: – Təəssüf ki, bunların hamısına siz də qulaq asmalı oldunuz. Başqa çıxış yolu yox idi. O, bizə lazımdır.

Qadın pulu çıxardı:



– Eybi yoxdur, – dedi, – bu, mənim üçün yenilik deyil. Bu da pul...

– Hələ lazım deyil. İndicə gələcək. Onda verərsiniz.

– Şəhadətnaməni özünüz yaza bilməzdiniz?

– Xeyr, həkim gərək fransız olsun. Müalicə eləyən həkim olsa, daha yaxşıdır...

* * *

Bonne qapını arxasınca örtən kimi, otağa dərin sükut çökdü. Sanki, içəridən bircə adam deyil, qoşun çıxmışdı. Küçədən eşidilən səs də batmışdı, elə bil, o, qatı havanı yarıb divara dəyir və ətrafa səpələnirdi. Bir neçə saatlıq get-gəldən, çək-çevirdən sonra meyit ilk dəfə özünü hiss etdirməyə başladı. Onun yaratdığı dəhşətli sükut bu kasıb otağı başına götürmüşdü. Əynindəki ipək pijama par-par parıldasa da, o, çoxdan ölmüş təlxək təsiri bağışlayırdı, çünki tərpəniş yox idi. Bütün canlılar hərəkət edir və hərəkət edirsə, demək, onda güc olur, qəşəng olur, gülünc olur. Bunlarsa əbədi sükuta dalmış şeylərin yaratdığı müvəqqəti əzəmət deyildi. Belə əzəmət yalnız ölümdə olur və insan öləndə, bircə anlığa da olsa, əzəmətli görünür.

– Evlənməmişdiniz? – Ravik soruşdu.

– Xeyr. Niyə soruşdunuz ki?

– Qanuna, miras qalmış şeylərə görə. Nəyin sizə, nəyin ona məxsus olduğunu polis müəyyənləşdirəcək. Nəyiniz varsa, götürün. Onunkuları polis aparacaq, qohumlarından kim tapılsa, ona verəcək. Qohumu var?

– Fransada yoxdur.

– Siz onunla yaşayırdınız?

Qadın cavab vermədi.

– Çoxdan?

– İki il idi.

Ravik yan-yörəsinə boylandı:

– Çamadanınız yoxdur?

– Var idi... Orada... Divarın yanında idi... Dünən axşam orada idi...

– Aha, sahibkar... – Ravik qapını açanda əlində döşəməsilən ağacı tutmuş süpürgəçi tez geri çəkildi. – Bu hərəkətiniz heç yaşınıza yaraşmır, anacan. Sahibkarı çağırın.

Qadın etiraz eləmək istədi, ancaq Ravik ona imkan vermədi:

– Düz eləyirsiniz. Sizin yaşda olanda, adam hər şeylə maraqlanır. İndi isə sahibkarı çağırın.

Qarı nəsə mızıldadı, ağacı sürüyə-sürüyə gözdən itdi.

– Çox təəssüflər olsun... – Ravik qadına tərəf döndü. – Başqa çıxış yolu yoxdur. Bir az yaxşı çıxmır, ancaq, gərək, indi eləyək. Bəlkə də, indi başa düşmədiniz, ancaq belə lazımdır.

– Başa düşürəm.

Ravik diqqətlə ona baxdı:

– Başa düşürsünüz?

– Bəli.

Sahibkar, əlində kağız, qapını döymədən içəri girdi.

– Çamadanlar haradadır? – Ravik onu qabaqladı.

– Əvvəlcə haqq-hesab... Buyurun, əvvəlcə haqq-hesabı verin.

– Xeyr, əvvəlcə çamadanları gətirin. İndiyə kimi heç kəs haqq-hesabdan boyun qaçırmayıb. Otaq hələlik bizimdir. Gələn dəfə içəri girəndə qapını döyün. Haqq-hesabı da bura verin, deyin ki, çamadanları gətirsinlər.

Kişi acıqlı-acıqlı ona baxdı.

– Qorxmayın, pulunuz çatacaq.

Kişi çıxıb, qapını ardınca çırpdı.

– Pul çamadandadır? – Ravik qadına tərəf döndü.

– Mən... mən... xeyr... Deyəsən, yox...

– Bilmirsiniz haradadır? Cibində? Bəlkə, heç yox idi?

– Pulqabında olurdu.

– O haradadır?

– Orada... – Qadın tərəddüd etdi. – Çox vaxt yastığının altına qoyurdu.

Ravik qalxıb ehtiyatla yastığı meyitqarşıq qaldırdı, qara rəngli dəri pulqabını götürüb qadına verdi.

– Pulları götürün. Nə qədər lazımdır, götürün. Tez olun! Hissə qapılmaq vaxtı deyil, siz yaşamalısınız. Bəs pul nədən ötrüdür? Polis idarəsində kif atmaq üçün?!

O, pəncərədən çölə baxdı. Küçədə bir yük maşının sürücüsü göy-göyərti daşıyan arabaçının üstünə düşmüşdü. Ağır yük maşını ilə iki at qoşulmuş araba arasındakı fərq, görünür, sürücünü qızışdırmışdı, ağzına gələni deyirdi.



Ravik geri döndü:

– Qurtardınız?

– Bəli.

– Pulqabını verin.

Ravik onu yastığının altına soxdu. Hiss etdi ki, pulqabı bayaqkına nisbətən yüngülləşib.

– Götürdüklərinizi çantanıza qoyun.

Qadın dinməz-söyləməz onun dediyini elədi. Ravik haqq-hesab kağızını götürüb nəzərdən keçirdi.

– Burada qalandan heç pul vermisiniz?

– Bilmirəm. Deyəsən, verib.

– Burada iki həftə üçün hesablanıb. Hesabı verdi... – Ravik bir anlığa tərəddüd etdi. Nədənsə, ölmüş adamı cənab Raçinski adlandırmaq ona qəribə gəldi. – Pulu vaxtlı-vaxtında verirdi?

– Bəli, həmişə. Tez-tez deyirdi ki, belə vəziyyətdə pulu vaxtında vermək lazımdır.

– Bu sahibkarın əclaflığına baxın! Bilmirsiniz, axırıncı haqq-hesab kağızı haradadır?

Qapı döyüldü. Ravik təbəssümünü gizlədə bilmədi. Növbətçi çamadanları gətirdi. Kişi də onun dalınca gəldi.

– Hamısı budur? – Ravik qadına baxdı.

– Bəli.

– Əlbəttə, budur! – kişi donquldandı. – Bəs nə bilirdiniz?

Ravik balaca çamadını götürdü.

– Açarınız var? Açarlar harada olurdu.

– Dolabda, pencəyin cibində.

Ravik dolabı açdı. Bomboş idi.

– Bəs hanı? – Ravik kişidən soruşdu. Kişi xidmətçiyə tərəf döndü:

– Hanı?

– Pencək məndədir... – xidmətçi kəkələdi.

– Niyə?

– Təmizləməyə, ütüləməyə vermişdi.

– Bunlar daha ona lazım deyil.

– Tez ol, get gətir, oğru əclaf! – kişi çəmkirdi.

Xidmətçi ona qıyqacı nəzər salıb çıxdı, az keçməmiş, pencəyi gətirdi. Ravik əvvəlcə pencəyi, sonra da şalvarı silkələdi. Şalvarın cibində nəsə cingildədi. Bir anlığa tərəddüd elədi. Əlini ölmüş adamın cibinə salmaq ona birtəhər göründü. Elə bil, şalvar da ölmüşdü. Qəribə idi, bu, haradan ağlına gəldi? Paltar paltardır...

Açarları çıxarıb çamadanı açdı. Lap üstdə parusin qovluq var idi.

– Budur? – deyə qadından soruşdu.

O, başını tərpətdi. Ravik haqq-hesab kağızını o dəqiqə tapdı. Pul verilmişdi. Kağızı kişiyə göstərib dedi:

– Bir həftəni artıq hesablamısınız.

– Eləmi? – Kişi barıt kimi açıldı. – Bəs bu dava-dalaş? Bəs bu yaramazlıq? Bəs bu qədər həyəcan, qorxu? Bunlar heç nədir, eləmi? Ürəyim ağzıma gəlib, buna pul düşmür? Bayaq özünüz dediniz, müştərilər qaçacaq! Ziyanı xeyrindən çox olur! Bəs çarpayı? Otağı dezinfeksiya eləmək lazım deyil? Bəs murdarlanmış yorğan-döşək üzləri?

– Yorğan-döşək üzləri haqq-hesabda var. Hələ burada iyirmi beş frank da var, guya, dünənki yeməyin haqqıdır. – Ravik qadına tərəf döndü, – dünən burada bir şey yemisiniz?

– Xeyr. Bəlkə, nə deyir, verək? Bilirsiniz... İstəyirəm, tez qurtaraq...

«Tez qurtaraq! – Ravik ürəyindən keçirdi. – Bəs sonrası? Sonra yenə o sükut... Meyit! O sükutun qulaqbatırıcı uğultusu... İyrənc də olsa, belə yaxşıdır». Stolun üstündəki karandaşı götürüb hesablamağa başladı. Qurtaran kimi kağızı kişiyə uzatdı.

– Razısınız?

Kişi tez yekun rəqəminə baxdı:

– Mən hələ ağlımı itirməmişəm.

– Razısınız? – Ravik bir də soruşdu.

– Siz kimsiniz axı? Nə borcunuza qalıb?

– Qardaşıyam. Hə, razısınız?

– On faiz də əlavə xidmətlər, vergi üçün artırın. Yoxsa razı deyiləm.

– Olsun! – Ravik haqq-hesaba əlavə elədi, qadına dedi: – İki yüz doxsan iki frank verəcəksiniz.

Qadın üç dənə yüz franklıq çıxarıb kişiyə verdi. Kişi pulu götürüb getmək istədi:

– Saat altıya kimi otağı boşaldın. Yoxsa bir günün də pulunu verməli olacaqsınız.

– Səkkiz frankı qaytarın! – Ravik tez dilləndi.

– Bəs qapıçı?



– Onu da, başqa çaypullarını da özümüz verərik.

Kişi donquldana-donquldana səkkiz frankı stolun üstünə qoydu.

– Sales etrangers[1] – deyə mızıldanıb çıxdı.

– Fransada bəzi mehmanxana sahibləri onları dolandıran əcnəbilərə nifrət etməklə öyünürlər, – deyən Ravik birdən çaypulu gözləyən xidmətçini gördü. – Götür, – dedi.

Xidmətçi əvvəlcə pula baxdı. Sonra:

– Mersi, müsyö! – deyib çıxdı.

– İndi polis gəlib baxacaq, sonra aparmaq olar, – deyə Ravik qadına baxdı. Qadın səssiz-səmirsiz bir küncdə, çamadanlarla yavaş-yavaş pəncərədən süzülən qaranlığın arasında oturmuşdu. – Adam öləndə matah olur, diri vaxtı heç kəs qədrini bilmir. – O, yenə qadına baxdı. – Aşağı getmək istəmirsiniz? Oralarda oturmağa boş yer olar.

Qadın başını buladı.

– Mən də gedirəm. Polislə işi yoluna qoymaq üçün bir dostum gələsidir. Doktor Veber... Onu aşağıda gözləyərik.

– Xeyr, mən burada qalmaq istəyirəm.

– Nəyə qalırsınız? Onsuz da heç nə eləyə bilməyəcəksiniz.

– Bilmirəm... O... İndicə aparacaqlar... Mən tez-tez... O, mənimlə xoşbəxt olmadı... Mən tez-tez çıxıb

[1] Alçaq əcnəbilər *(fran.)*

gedirdim... İndi qalacağam! – Qadın bu sözləri çox sakit, inamla dedi.

– Onun bundan xəbəri olmayacaq.

– Ona görə qalmıram...

– Yaxşı, onda, gərək, bir şey içəsiniz. Lazımdır... – Ravik cavab gözləməyib zəngi basdı. Xidmətçi, elə bil, qapının ağzında hazır dayanmışdı, o dəqiqə içəri girdi.

– İri qədəhlərdə iki konyak gətirin.

– Buraya?

– Bəs haraya? Əlbəttə, buraya.

– Baş üstə, müsyö.

Xidmətçi bir şüşə «Kurvuaze» konyakı və iki qədəh gətirdi. Qorxa-qorxa küncə, qaranlıqda işıldayan çarpayıya tərəf baxdı.

– İşığı yandırım? – deyə soruşdu.

– Xeyr. Şüşə də qalsın.

Xidmətçi məcməyini stolun üstünə qoyub, ikinci dəfə gözucu çarpayıya baxdı, o dəqiqə də çıxıb getdi. Ravik şüşəni götürüb qədəhləri doldurdu.

– İçin, – dedi, – kömək eləyəcək.

Elə bilirdi, qadın içmək istəməyəcək, o da başlayacaq dilə tutmağa. Ancaq qadın tərəddüd eləmədən qədəhi başına çəkdi.

– Onun çamadanlarında sizə lazım olan şey var?

– Xeyr.

– Elə şey ki saxlamaq istəyirsiniz? Lazımınız olar. Bəlkə, bir də baxasınız?

– Xeyr, heç nə yoxdur. Dəqiq bilirəm.

– Balaca çamadanda da?

– Bəlkə də, var. Bilmirəm...

Ravik çamadanı götürdü, onu pəncərənin yanındakı stolun üstünə qoyub açdı. Bir-iki şüşə, alt paltarı, qeyd dəftərçələri, bir qutu yağlı boya, fırça, bir də kitab... İkinci gözdə parusin qovluq və nazik kağıza bükülmüş pul vardı. Ravik kağızı işığa tutdu.

– Yüz dollardır, – dedi, – götürün. Xeyli dolanmaq olar. Çamadanı da qoyaq sizin şeylərin yanına. O, sizin də ola bilər.

– Təşəkkür edirəm.

– Ola bilsin ki, indi bütün bunlar sizə iyrənc görünür. Ancaq belə lazımdır. İlk günlər üçün sizə lazımdır.

– İyrənc görünmür. Ancaq mən bunları təkbaşına eləyə bilməzdim.

Ravik qədəhləri doldurdu.

– Bunu da için.

Qadın bu dəfə yavaş-yavaş içdi.

– İndi bir az yaxşı oldu?

Qadın onun üzünə baxdı:

– Nə yaxşı oldu, nə də pis. Heç fərq eləmədi.

O, qaranlıqdan güclə seçilirdi. Hərdən küçədəki reklamların qırmızı işığı gah üzünə, gah da əllərinə düşürdü.

– Nə qədər ki o, buradadır, heç nə haqda fikirləşə bilmirəm, – dedi.

* * *



Sanitarlar adyalı götürüb, xərəyi çarpayıya yaxın çəkdilər. Sonra meyiti götürüb, onun üstünə qoydular. Onlar bunu çox cəld, işgüzarlıqla elədilər. Ravik qadına yaxın dayanmışdı ki, birdən huşunu itirər. Sanitarlar meyitin üzünü örtməmiş, əyilib kətilin üstündəki madonna fiqurunu götürdü, qadına göstərdi:

– Deyəsən, sizinkidir. Götürmək istəmirsiniz?

– Xeyr.

Ravik fiquru ona uzatsa da, qadın götürmədi. Ravik balaca çamadanı açıb, fiquru ora qoydu.

Sanitarlar meyitin üzünə mələfə çəkdilər, xərəyi götürdülər. Qapı ensiz, dəhliz də dar idi. Onlar birtəhər sivişdirmək istədilər, ancaq alınmadı. Xərək ilişirdi.

– Xərəksiz çıxarmaq lazımdır, – onlardan yaşlısı dilləndi. – Xərəkdə getməyəcək. – O, Ravikə baxdı. Ravik də qadına tərəf döndü:

– Gedək aşağıda gözləyək.

Qadın başını buladı.

– Yaxşı, – Ravik sanitarlara tərəf döndü: – Necə lazımdırsa, elə də eləyin.

Sanitarlardan biri meyitin ayağından, biri də başından yapışıb onu döşəmənin üstünə qoydular. Ravik nəsə demək istədi, qadının üzünə baxdı. O heç qımıldanmırdı. Ravik də dinmədi. Sanitarlar boş xərəyi apardılar. Təzədən qaranlıq otağa qayıdıb, meyiti də araqaranlıq dəhlizə çıxardılar.

Pilləkənlərdən keçirmək üçün onu çox yuxarı qaldırası oldular. Meyitin ağırlığı onları tərlətmişdi. Ravik onlar aşağı düşənəcən gözlədi, sonra otağa qayıtdı.

Qadın pəncərənin qabağında dayanıb, çölə baxırdı. Maşını küçədə saxlamışdılar. Sanitarlar meyiti elə tulladılar ki, elə bil, çörəkçi peçə çörək atdı, sonra da özləri mindilər. Motor uğuldadı, sanki, kimsə torpağın altından qışqırdı və maşın döngədə gözdən itdi.

Qadın geri döndü.

– Gərək, aşağı düşəydiniz... – Ravik dilləndi. – Bunlara nahaq baxdınız.

– Gedə bilməzdim. Ondan qabaq düşə bilməzdim. Məni başa düşürsünüz?

– Bəli! Gəlin bir qədəh də için.

– Xeyr!

Polislə sanitarlar gələndə Veber işığı yandırmışdı. Meyit çıxandan sonra otaq, elə bil, böyümüşdü. Böyümüşdü və sanki, ölmüşdü. Deyərdin, meyit gedib, ölüm isə qalıb...

– Bu mehmanxanada qalacaqsınız? Çox güman ki, qalmazsınız?

– Xeyr.

– Buralarda tanışınız var?

– Xeyr, heç kəsim yoxdur.

– Başqa mehmanxana yeri bilmirsiniz? Orada qalardınız...

– Xeyr.

– Yaxında balaca bir mehmanxana var, özü də buna oxşayır. Təmiz, sakit... Orada yer tapmaq olar. «Milan» mehmanxanasıdır...

– O mehmanxana qalmaq olmaz? Orada... Siz qalan mehmanxanada?

– «İnternasional»da?

– Bəli... Mən... ora... Onu, heç olmasa, bir az tanıyıram. Tamam yad olmaqdansa, bu yaxşıdır...

– Ora qadın üçün yaxşı deyil. – «Bircə bu çatmırdı! – Ravik ürəyindən keçirdi. – Mənimlə bir mehmanxanada... Yox, mən qulluqçu deyiləm. Sonra da... Bəlkə, elə bilir, ona borcum var? Hə, belə də olur...» – Məsləhət görmürəm! – Bu sözlər istədiyindən kəskin alındı. – Ən yaxşısı «Milan»-dır. Xoşunuza gəlməsə, dəyişərsiniz.

Qadın onun üzünə baxdı. Ravikə elə gəldi ki, nə fikirləşdiyini o duydu, ona görə də xəcalət çəkdi. Ancaq belə yaxşıdır. Sonralar rahat olmaq üçün bir anlıq xəcalətin eybi yoxdur.

– Yaxşı, – qadın razılaşdı, – düz deyirsiniz.

Ravik çamadanları düşürtdürüb taksiyə qoydu. «Milan»a bir-iki dəqiqəlik yol idi. Ravik bir otaq alıb, qadınla yuxarı qalxdı. İkinci mərtəbədə divarlarına qızılgüllü kağız çəkilmiş otaqdı. İçəridə bir çarpayı, dolab, stol və iki stul qoyulmuşdu.

– Bəs eləyər? – Ravik soruşdu.

– Bəli, çox yaxşıdır.

Ravik qızılgüllü kağızlara baxdı. Bunlar adamı lap vahiməyə salırdı.

– Deyəsən, həmişə işıqlı olur. İşıqlı, təmiz...

– Elədir...

Çamadanları gətirdilər.



– Bax belə... İndi hər şey qaydasınca oldu.

– Bəli, təşəkkür edirəm... Çox sağ olun!

Qadın çarpayıda oturdu. Rəngi avazımışdı.

– Yatmaq lazımdır. Yata biləcəksiniz?

– Çalışaram.

Ravik cibindən uzunsov alümin qutu çıxartdı, silkələyib bir-iki həb götürdü.

– Yuxu dərmanıdır. Bir stəkan su ilə içərsiniz. İndi içirsiniz?

– Xeyr, sonra içərəm.

– Yaxşı, mən gedirəm. Sabahda, birisi gündə dəyərəm. Çalışın ki, tez yatasınız. Bu da dəfnetmə bürosunun ünvanı, lazım olar. Ancaq ora getməyin. Özünüz barədə düşünün. Gəlib dəyəcəyəm... – Ravik bir anlığa tərəddüd etdi. – Adınız nədir?

– Madu. Joan Madu.

– Joan Madu. Yaxşı, yadımda qalar.

Ravik bilirdi ki, nə yadda saxlayacaq, nə də gəlib dəyəcək. Və bunu bildiyi üçün də özünü sındırmaq istəmədi:

– Yaxşısı budur, yazım, – deyə cibindən resept yazdığı dəftərçəni çıxardı. – Buyurun, bəlkə, özünüz yazasınız? Bu daha yaxşı olar.

Qadın dəftərçəni alıb, adını yazdı. Ravik vərəqə baxdı, sonra onu cırıb paltosunun qoltuq cibinə qoydu.

– Tez yatın, – dedi, – sabah hər şey düzələcək. Düzdür, bir az mənasız və gülünc görünür, ancaq, əslində, belə lazımdır. İndi sizin üçün ən vacibi yatmaq və bir az da vaxt qazanmaqdır. Özünüzü ələ almaq üçün bir az vaxt lazımdır. Bunu başa düşürsünüz?

– Bəli, bilirəm.

– Həbləri atın, uzanın.

– Oldu! Təşəkkür edirəm. Çox sağ olun. Heç bilmirəm siz olmasaydınız, nə edərdim. Doğrudan, bilmirdim.

Qadın əlini ona uzatdı. Əli soyuq olsa da, möhkəm idi. «Pis deyil, – Ravik ürəyindən keçirdi. – Qətiyyətin ilk əlaməti var».

Ravik küçəyə çıxdı. Sərin, nəm havanı ciyərlərinə çəkdi. Yenə maşınlar, insanlar, tinlərdə dayanan fahişələr, pivəxanalar, qəlyənaltılar, tütün, benzin qoxusu, gündən-günə laxlayan vəfasız həyat... Geri dönüb, binaya baxdı. Bir neçə pəncərədən işıq gəlirdi. Qadın indi onlardan hansınınsa qarşısında oturub, gözlərini məchul bir nöqtəyə zilləmişdi. Ravik onun adı yazılmış kağızı cibindən çıxarıb cırdı, havaya sovurdu. Unutmaq! Sözə bax! Onda dəhşətlər də var, təsəlli də, vahimə də! Kim unutmasa yaşaya bilər? Elə adam da tapılarmı, istədiklərinin hamısını unuda bilsin? Onda xatirələrin qəlpələri ürəkləri parça-parça eləməzmi? Adam o vaxt azad olur ki, uğrunda yaşadığı şeylərin hamısını itirir...

Etual meydanına tərəf getdi. Ora çoxlu adam yığışmışdı. «Zəfər tağı»nın arxa tərəfində projektorlar yandırılmışdı. Onlar naməlum əsgərin məzarını işıqlandırırdı. Məzarın başı üzərindəki mavi, ağ-qırmızı bayrağı külək dalğalandırırdı. 1918-ci il sülh müqaviləsinin XX ildönümü idi.

Səma tutqundu və projektorların gur işığı bayrağın qaramtıl kölgəsini qoynuna alıb, ənginlikdə sürünən buludlara çırpırdı. Elə bil, göydən, qaranlığın yavaş-yavaş qatılaşdığı yerdən cırıq-cırıq olmuş bir bayraq sallanırdı. Hardasa hərbi orkestr çalır, səsi də çox zəif, ölgün çıxırdı. Heç kəs oxumurdu. Hər şey sükuta qərq olmuşdu.

– Sülhə bax! – Ravikin yanında dayanmış bir qadın dilləndi. – Ərim axırıncı müharibədə öldü. İndi də növbə oğlumundur. Bu da onların sülhü. Kim bilir, hələ nələr olacaq...

# IV

Çarpayının başından asılmış hərarət cədvəli təzə və boş idi. Təkcə adı yazılmışdı. Lüsyen Martine. Büt Şamon, Klavel küçəsi.

Qızın solğun bənizi yastıqdan güclə seçilirdi. Dünən gecə təşrih olunmuşdu. Ravik əyilib ehtiyatla onun ürəyinə qulaq asdı, sonra dikəldi:

– Bir az yaxşıdır, – dedi, – vurulan qan, deyəsən, balaca bir möcüzə yaratdı. Sabaha kimi dözsə, yaşaya bilər.

– Çox yaxşı! – Veber sevindi. – Təbrik edirəm. Ümidsiz idi. Nəbzi 140, qan təzyiqi 80... Kofein, koramin... Lap az qalmışdı.

Ravik çiyinlərini çəkdi:



– Burada təbriklik bir şey yoxdur. Sadəcə olaraq, bu, o birindən tez gəlmişdi. Ayağında zəncir olanı deyirəm. Vəssalam...– O, qızın üstünü örtdü. – Bu həftədə ikinci hadisədir. Belə getsə, Büt Şamonda uşaq xaric etdirənlər üçün təzə xəstəxana açmalı olacaqsınız. O birisini də oradan gətirməmişdilər?

Veber başını tərpətdi:

– Bəli, Klavel küçəsindən... Deyəsən, tanış imişlər, ikisi də eyni mamaçanın yanına gedib. Bu da o biri kimi axşamçağı gəldi. Yaxşı ki, sizi mehmanxanada tapa bildim. Qorxurdum, tapmayam...

Ravik ona baxdı:

– Mehmanxanada yaşayan adamı evdə tapmaq çox vaxt çətin olur, Veber. Xüsusilə, noyabr ayında mehmanxanada ürəkaçan heç nə olmur.

– Təsəvvür edirəm. Bəs onda niyə mehmanxanada qalırsınız?

– Rahatdır, sözsüz-sovsuzdur. Həm təksən, həm də yox...

– Özünüz belə istəyirsiniz?

– Bəli.

– Bunu başqa yerdə də eləmək mümkündür. Balaca bir mənzil tutsanız, orada da belə yaşamaq olar.

– Bəlkə də, elə elədim, – Ravik təzədən qıza tərəf əyildi.

– Düz demirəm, Ejeni? – Veber əl çəkmədi. Tibb bacısı ona baxdı:

– Müsyö Ravik bunu heç vaxt eləməyəcək, – deyə soyuq tərzdə dilləndi.

– Doktor Ravik, Ejeni, – Veber onun səhvini düzəltdi. – O, Almaniyada böyük bir xəstəxananın baş cərrahı olub. Məndən də böyük adam imiş.

– Burada isə... – tibb bacısı eynəyini düzəltdi.

– Yaxşı, yaxşı, bilirik. Burada hökumət xarici diplomlara inanmır. Axmaqlıqdır! Bəs haradan bilirsiniz ki, o, mənzil tutmayacaq?

– Müsyö Ravik gələcəyi olmayan adamdır, heç vaxt özünə ev qurmayacaq.

– Necə? – Veber lap çaşdı. – Nə danışırsınız?

– Müsyö Ravik üçün dünyada müqəddəs heç nə yoxdur. Ona görə...

– Tamamilə düzdür! – Ravik başını çarpayıdan qaldırmadan dilləndi.

– Özü belə deyib? – Veber diqqətlə qızı baxdı.

– İnanmırsınız, özündən soruşun, doktor Veber.

Ravik dikəldi:

– Lap orta xala vurdunuz, Ejeni! Ancaq bu gün kimin üçün dünyada müqəddəs heç nə qalmayıbsa, sabah hər şey təzədən onun üçün müqəddəsləşəcək, ülviləşəcək, hətta allahın soxulcanını da yaşadan, onu hərdənbir yer üzünə çıxmağa məcbur eləyən adicə həyat həvəsinə də səcdə edəcək. Elə bilməyin ki, nəyəsə işarə vururam, Ejeni!

– Siz mənə işarə vura bilməzsiniz, çünki əqidəniz yoxdur. – Ejeni əsəbi halda ağ xalatının yaxasını düzəltdi. – Allaha çox şükür ki, mənim əqidəm var.

Ravik paltosunu götürdü.

– Əqidə adamın gözünü tez tutur. Ona görə də bütün dinlər çox qana bais olub. – O, kinayə ilə güldü: – Dözüm də şübhənin qızıdır, Ejeni. Gəlin görək hansımız hansımıza daha çox nifrət edirik? Əqidəli sizmi, yoxsa əqidəsiz, miskin mənmi? Əlbəttə, əqidəli siz!

Veber güldü:

– Payınızı aldınız, Ejeni?! Cavab qaytarmayın, yoxsa lap betərini eşidərsiniz!

– Mənim qadınlıq ləyaqətim...

– Yaxşı, yaxşı, – Veber onun sözünü kəsdi. – Öz əqidənizdə qalın. Elə yaxşıdır. İndisə mən getməliyəm, qəbul otağında işim var. Gəlin, Ravik. Hələlik, Ejeni.

– Hələlik, doktor Veber.

– Hələlik, tibb bacısı Ejeni, – Ravik də sağollaşdı.

Ejeni, Veber çevrilib tərs-tərs ona baxandan sonra ağızucu dilləndi:

– Hələlik...

Veberin qəbul otağı ağzına kimi qədimi, qızıl haşiyəli, kövrək mebellə dolu idi. Yazı stolunun üzərindən evi ilə bağının şəkli asılmışdı. Divarın yanında enli, müasir dəbli divan-taxt qoyulmuşdu. Gecələr burada qalmalı olanda, Veber onun üstündə yatırdı. Xəstəxana onunku idi.

– Nə içəcəksiniz Ravik? Konyak, yoxsa «Dübene»?

– Olsa, qəhvə içərdim.

– Əlbəttə, var. – Veber elektrik qəhvədanı yazı stolunun üstünə qoyub, çəngələni taxdı. Sonra Ravikə tərəf döndü: – Günortadan sonra mənim əvəzimə «Oziris»ə gedə bilərsiniz?



– Sözsüz.

– Çətin olmaz ki?

– Zərrə qədər... Onsuz da boşam.

– Lap yaxşı, bir də durub oraya getmərəm. Əvəzində bir az bağda işləyərəm. Faşondan xahiş edərdim, ancaq məzuniyyətdədir.

– Nahaq yerə! Həmişə mən getməmişəm?

– Elədir, ancaq...

– İndi «ancaq» yoxdur. Xüsusilə, mənim kimisi üçün...

– Bəli, lap axmaqlıqdır! Belə qızıl əlləri olan adamın işləməyə ixtiyarı yoxdur, onun-bunun əvəzinə cərrahlıq eləyir, üzə çıxa bilmir!

– Lazım deyil, Veber. Bu, köhnə söhbətdir. Almaniyadan qaçan bütün həkimlərin vəziyyəti belədir.

– Hər halda, çox gülüncdür. Siz Düranın əvəzinə ən çətin təşrihləri eləyirsiniz, o da ad qazanır.

– Özü eləməkdənsə, bu, yaxşıdır.

– Gərək, mən də danışmayam. Axı, mənim əvəzimə də eləyirsiniz. Ancaq mən qadın həkimiyəm, cərrah deyiləm.

Qəhvədan fışıldamağa başladı. Veber onu söndürdü, dolabdan iki fincan götürüb qəhvə süzdü.

– Bircə şeyi başa düşmürəm, Ravik, – dedi, – siz bu miskin «İnternasional»da nə tapmısınız ki, oradan çıxa bilmirsiniz? Niyə Bulon meşəsi tərəfdəki təzə evlərdən birində mənzil tutmursunuz? Haradan olsa, bir-iki ucuz mebel tapa bilərsiniz. Heç olmasa, bilərsiniz, nəyinizsə var.

– Bəli, bilərdim, nəyim var...

– Bəs onda niyə eləmirsiniz?

Ravik qəhvədən bir qurtum içdi. Çox acı və tünd idi.

– Veber, – dedi, – siz zəmanəmizin xəstəliyinə ən yaxşı misalsınız. «Aydın düşünmək» xəstəliyini deyirəm. Həm təəssüflənirsiniz ki, mən açıq işləyə bilmirəm, həm də soruşursunuz, niyə ev tutmuram.

– Bunların bir-birinə nə dəxli?

Ravik səbrlə güldü.

– Ev tutmalı olsam, gərək, polisə xəbər verəm. Onda da pasport, viza lazım gələcək.

– Düz deyirsiniz, bu, mənim ağlıma gəlməmişdi. Bəs mehmanxanada lazım gəlmir?

– Gəlir... Ancaq, Allaha şükür ki, Parisdə bəzi mehmanxanalar elə şeyə çox fikir vermir. – Ravik qəhvəsinə konyak atdı. – Onlardan biri də «İnternasional»dır. Buna görə də orada qalıram. Heç bilmirəm, sahibkar bunu necə eləyir. Deyəsən, yaxşı əlaqələri var. Ya, doğrudan, polisin xəbəri yoxdur, ya da özləri ört-basdır eləyir. Hər halda, mən çoxdandır rahatca orada qalıram.

Veber geri söykəndi:

– Ravik, – dedi, – bunlardan xəbərim yox idi. Elə bilirəm, təkcə işləmək qadağandır. Çox pis vəziyyətdir.

– Almaniyadakı həbs düşərgəsi ilə müqasiyədə isə cənnətdir.

– Bəs polis? Birdən gəlib yoxlasa?

– Tutsalar, bir-iki həftə həbsxanada saxlayıb, ölkədən çıxaracaqlar. Çox vaxt İsveçrəyə göndərirlər. İkinci dəfə tutulanda isə altı ay həbs cəzası kəsilir.

– Nə qədər?

– Altı ay.

– Ola bilməz! Bu ki vəhşilikdir!

– Öz başıma gələnə kimi, mən də elə bilirdim.

– Necə yəni öz başıma gələnə kimi? Başınıza gəlib ki?

– Ço.. o... x! Üç dəfə. Yüzünün başına gələn şeydir.

Bunlardan xəbərim olmayanda, humanizm deyilən şeyə inanan vaxtı gəlib. İspaniyaya getməmişdən qabaq – onda mənə heç pasport da lazım deyildi, – alman və italyan pilotlarından ikinci humanizm dərsini aldım. Sonralar, bir dəfə də buraya qayıdanda olub. Əlbəttə, onda hər şeyi bilirdim.

– İlahi! – Veber ürəyində nəyisə hesabladı. – Demək, düz bir il heç nəyə görə həbsxanada qalmısınız.

– Az qalmışam. İkicə ay...

– Necə yəni? Özünüz demədiniz, ikinci dəfə tutulanda altı ay verirlər?

Ravik gülümsədi:

– Axı adam təcrübə toplayandan sonra ikinci dəfə olmur. Bir adla qovurlar, başqa adla qayıdırsan. İmkan daxilində, sərhədi başqa yerdən keçirsən. Onda ikinci dəfə olmur. Sənədimiz olmadığına görə yalnız şəxsən tanıyan adamın əlinə düşəndə, ikinci dəfə olduğunu sübut edirlər. O da təsadüfən olar. Ravik mənim artıq üçüncü adımdır. İki ilə lap az qalır. O vaxtdan heç nə olmayıb. Deyəsən, mənə düşür. Buna görə də ona məhəbbətim gündən-günə artır. Həqiqi adımı isə, demək olar ki, unutmuşam.



Veber başını buladı:

– Hamısı da ona görə görədir ki, nasist deyilsiniz!

– Əlbəttə, nasistlərin daşdan keçən sənədləri olur, hara istəsələr, viza alırlar.

– Əcəb dünyada yaşayırıq. Hökumətin də vecinə deyil...

– Hökumətin də başı milyonlarla işsizə qarışıb. Özü də təkcə Fransada belə deyil ki! Hər yerdə eyni vəziyyətdir. – Ravik qalxdı. – Hələlik, Veber. İki saata qayıdıb qıza baş çəkərəm. Bir dəfə də gecə gələrəm.

Veber onunla qapıya qədər gəldi.

– Bura baxın, Ravik, bir axşam da bizə gəlin, birlikdə şam eləyək.

– Mütləq! – Ravik dəqiq bilirdi ki, getməyəcək. – Bir gün gələrəm.

– Hələlik, Ravik. Mütləq gəlin!

* * *

Ravik qabağına çıxan ilk qəlyənaltıya girdi. Pəncərəyə yaxın oturdu ki, küçəni görə bilsin. Heç nə fikirləşmədən

burada oturub küçədən keçənlərə baxmağı xoşlayırdı. Paris elə şəhər idi ki, heç nəsiz vaxtını istədiyin kimi keçirə bilərdin.

Xidmətçi stolu silib sifariş gözlədi.

– Bir qədəh «Perno» gətirin.

– Su da verim, müsyö?

– Xeyr, dayanın. – Ravik nəsə fikirləşdi. – «Perno» lazım deyil.

Özünü birtəhər hiss eləyirdi, bundan yaxasını qurtarmalı idi, sanki, boğazına nəsə ilişib qalmışdı. Bu şirin alma arağı ona heç nə eləyə bilməzdi.

– Bir qədəh kalvados gətirin, – dedi, – iri qədəhdə.

– Baş üstə, müsyö.

Onu sıxan Veberin dəvəti, bu dəvətdəki halıyananlıq idi. Veberin, heç olmasa, bircə dəfə ona ev şəraitində oturmağa imkan yaratmaq arzusu idi! Fransızlar təsadüfi hallarda dostlarını evə dəvət edərlər. Adətən, restorana aparırlar. O, hələ Vebergildə olmamışdı. Veber bunu yaxşılıq mənasında eləmişdi, ancaq Ravik başqa cür qəbul elədi. Kimsə səni təhqir eləyəndə, cavabını verirsən, mərhəmət göstərəndə isə qalırsan belə...

Alma arağından bir qurtum aldı. Nə üçün «İnternasional»da qaldığını Veberə dedi? Lazım deyildi... Veber ona lazımlı şeylərin hamısını bilirdi. Bilirdi ki, Ravik burada cərrahlıq eləyə bilməz, bu da bəsi idi. Onu öz yanına götürməsi də öz işi idi. Bundan yaxşıca qazanırdı, elə təşrihlərə boyun olurdu ki, onları təkbaşına eləyə bilməzdi. Heç kimin də bundan xəbəri olmurdu. Bir o bilirdi, bir də tibb bacısı. O da heç kəsə deməzdi. Düranla da belə işləyirdi. Orada bir az başqa cür eləyirdilər. Təşrih zamanı Düran bihuşdarı təsir eləyənə kimi xəstənin yanında tək olurdu. Sonra Ravik gəlib işə başlayırdı. Belə təşrihləri eləməyə qoca Düranın gücü çatmazdı. Xəstə ayılanda, başı üzərində vüqarla dayanmış Düranı görürdü. Ravik gələndə xəstənin üzü örtülü olurdu. Təkcə bədənin təşrih üçün yod çəkilmiş yeri görünürdü. Çox vaxt kimi təşrih elədiyini də bilmirdi. Düran diaqnozu deyir, o da yarırdı. Aldığı pulun heç onda birini də Ravikə vermirdi. O da dillənmirdi. Boş qalmaqdansa, belə sərfəli idi. Veberlə münasibətləri, buna baxanda, yaxşı idi. O, dörddə birini verirdi. Veber əsl centlmen idi!

Ravik pəncərədən baxdı. Daha neyləyəcəkdi? Ona qalan bircə bu idi. Yaşayırdı, bəsi idi. Bir dünyada ki hər şey gəldi-gedərdi, bu gün tikdiyin sabah yerlə-yeksan olur, orada nəsə eləməyə dəyərmi? Yaxşısı budur ki, əl-ayağını boş qoyasan, həyat səni hara aparır, gedəsən, gücünü qoruyub saxlayasan, çünki o, yeganə şeydir ki, əvəzi yoxdur. Nə vaxtsa, haradasa bir məqsədin olana kimi dözəsən. Nə qədər az güc sərf eləsən, o qədər yaxşıdır, sonralar lazım olur... Belə qarmaqarışıq dünyada qarışqa kimi özünə rahat yuva qurmaq istəyən adamların axırını çox görmüşdü. Bu, adamın ürəyini riqqətə gətirirdi, əsl qəhrəmanlıq kimi görünürdü, amma axırı da olmurdu. Onda bütün ümidlər boşa çıxırdı. Yayından çıxmış oxu saxlamaq olmaz. Kim tutmaq istəsə, ona dəyəcək! Yaxşısı budur, gözləyəsən, vaxtı çatanda itirdiklərini bir-bir axtarıb tapasan. Uzaq yola çıxırsansa, yükünü yüngül elə! Didərgin düşəndə də...



Ravik saatına baxdı. Lüseyn Martinenin yanına getmək vaxtı çatmışdı. Sonra da «Oziris»ə gedəsi idi...

«Oziris»in qızları yığışıb onu gözləyirdi. Bələdiyyə idarəsinin həkimi onları vaxtlı-vaxtında yoxlayırdı. Ancaq fahişəxana sahibi bununla kifayətlənmirdi. İstəmirdi ki, kimsə burada yoluxsun, ona görə də özü Veberlə ayrıca müqavilə bağlamışdı, Veber də hər cümə günü gəlib yoxlayırdı.

Bəzən onun əvəzinə Ravik gəlirdi...

Fahişəxana sahibi birinci mərtəbədə müayinə üçün xüsusi otaq ayırmış, lazım olan hər şeyi qoydurmuşdu, çox da fəxr eləyirdi ki, son bir ildə heç kəs burada xəstəlik tapmayıb. Ancaq əvəzində, qızlar nə qədər ehtiyatla tərpənsələr də, on yeddi müştəri özü ilə buraya zöhrəvi xəstəlik keçirə bilmişdi.

Qızların dayəsi Rolanda bir şüşə «Brendi», qədəh gətirib Ravikin yanına qoydu və dedi:

– Deyəsən, Martada nəsə var.

– Yaxşı, onu diqqətlə yoxlayaram.

– Dünən işləməyə qoymamışam. Əlbəttə, boynuna almır, ancaq paltarı...

– Oldu, Rolanda.

Qızlar növbə ilə bircə köynəkdə gəlirdilər. Ravik, demək olar ki, hamısını tanıyırdı. İkicə nəfəri təzə idi...

Leona adlı qırmızısaç qız dedi:

– Məni yoxlamaq lazım deyil, doktor.

– Niyə?

– Bu həftə müştərim olmayıb.

– Bəs madam buna necə baxır?

– Heç nə demir. Ancaq çoxlu «Şampan» şərabı satmışam. Tuluzdan üç tacir gəlmişdi. Evli idilər. Üçü də istəyirdi, ancaq bir-birindən çəkinirdilər. Qorxurdular ki, hansı mənimlə getsə, o birilər evdə deyər. Ona görə də bir-birini kefləndirmək istəyirdilər. Üçü də elə bilirdi ki, axıra o ayıq çıxacaq. – Qız gülərək tənbəl-tənbəl saçını düzəltdi. – Sonra elə oldu ki, axıra ayıq çıxanı da yerindən dura bilmədi.

– Lap yaxşı. Ancaq, hər halda, baxmaq lazımdır.

– Elə vacibdirsə, buyurun. Siqaretiniz var, doktor?

– Bəli, buyurun.

Ravik qızın ətini çərtib, şüşəni ora sürtdü. Sonra mikroskopla ona baxdı.

– Mən bir şeyi başa düşə bilmirəm. Bilirsiniz nəyi? – Leona Ravikin necə işlədiyinə xeyli baxandan sonra dilləndi.

– Nəyi?

– Bütün bunlardan sonra, siz qadınla necə yata bilirsiniz?

– Heç özüm də bilmirəm. Səndə heç nə yoxdur, gedə bilərsən. Növbə kimindir?

– Martanın.

Marta girdəsifət, sarışın bir qız idi. Rəngi saralmışdı. Üzdən rəssam Botticellinin mələkələrinə oxşayırdı, ancaq Blondel küçəsi şivəsində danışırdı.

– Məndə heç nə yoxdur, doktor.

– Lap yaxşı. İndi baxarıq.

– Doğru sözümdür, heç nə yoxdur.

– Daha yaxşı.

Bu anda Rolanda içəri girdi, Martaya baxdı. Qız o dəqiqə susdu, qurcuxa-qurcuxa Ravikə baxdı. Ravik onu çox diqqətlə müayinə etdi.

– Görürsünüz, doktor, heç nə yoxdur. Özünüz bilirsiniz ki, mən çox ehtiyatlıyam.

Ravik dinmədi. Qız isə hey danışır, kəkələyir, təzədən başlayırdı. Ravik onun ətini çərtib, qanını da yoxladı.

– Sən xəstəsən, Marta, – dedi.

– Nə? – Qız dik atıldı. – Ola bilməz!

– Elədir...

Qız onun üzünə baxdı, birdən barıt kimi açıldı, nə qədər söyüş bilirdisə, yağdırdı:

– Əclaf! Əclaf köpək oğlu! Əvvəlcə inanmadım. İblis imiş! Dedi ki, guya, tələbədir, elə şey olsa, bilər, tibb fakültəsində oxuyur... Ay əclaf!

– Bəs niyə qoyurdun?

– Qoyurdum ki? Hər şey bircə anda oldu. Dedi ki, tələbədir...

Ravik başını buladı. Köhnə söhbət idi... Tibb fakültəsinin tələbəsi süzənək xəstəliyinə tutulur, özü özünü müalicəyə başlayır. İki həftədən sonra yoxlatdırmadan deyir ki, sağaldım...

– Nə qədər çəkəcək, doktor?

– Altı həftə. – Ancaq bilirdi ki, daha çox çəkəcək.

– Altı həftə?

Demək, altı həftə pulsuz qalacaq! Görəsən, xəstəxanaya göndərəcəklər?



– Xəstəxanada yatmalıyam?

– Baxarıq. Bəlkə, sonralar evdə müalicə eləyəsi olduq. Bu şərtlə ki, söz verəsən...

– Söz verirəm! Təki xəstəxanaya göndərməyin!

– Əvvəlcə bir az yatmaq lazımdır. Başqa cür olmaz.

Qız yazıq-yazıq Ravikin üzünə baxdı. Bütün fahişələr xəstəxanadan qorxurdu. Orada nəzarət çox ciddi idi. Başqa cür də ola bilməzdi. Evdə qalanda, söz versələr də, bir-iki gündən sonra gizlicə çıxıb, özlərinə pul qazanmaq, yoluxdurmaq üçünsə kişi axtarırdılar.

Ravik onu sakitləşdirmək istədi:

– Xərcini madam özü verəcək.

– Bəs mən? Altı həftə pulsuz qalacağam. Özümə yenicə tülkü dərisindən palto almışdım. Pulunu az-az verirdim. Vaxtı keçəcək... Hər şey bitdi... – O ağladı.

– Gəl, Marta, – Rolanda dilləndi.

– Məni bir də götürməyəcəklər! Bilirəm... – Marta hıçqırmağa başladı. – Bundan sonra götürməyəcəklər! Heç vaxt götürməzlər... Küçələrdə qalacağam... Hamısını o əclaf elədi...

– Götürəcəyik. Sən çox xeyir verirdin. Müştərilərin səndən xoşu gəlir.

– Doğrudan? – Marta başını qaldırdı.

– Əlbəttə! Gəl, gəl...

Marta Rolanda ilə getdi. Ravik onların arxasınca baxdı. Onu daha götürməyəcəklər! Madam işini çox ehtiyatla tutan adam idi. Onun yeri, uzaqbaşı, Blondel küçəsindəki ucuz fahişəxanalar ola bilərdi. Sonra küçə fahişəsi... Lap sonrası narkoman, xəstəxana, gül, ya da siqaret alveri... Bəxti gətirsə, bəlkə də, müftəxor bir oğraşa rast gələcək, o da bunu döyəcək, hesabına bir az yaşayandan sonra it kimi qovacaq...

* * *

«İnternasional» mehmanxanasının yeməkxanası zirzəmidə idi. Buna görə də sakinləri ona «katakomba» deyirdilər. Gündüzlər həyətə baxan pəncərələrin qalın, tutqun şüşəsindən içəri zəif işıq süzülürdü. Qışda isə, gərək, həmişə lampa yandırılaydı. Bura, eyni zamanda, papiros çəkmək, yazı yazmaq, iclas keçirmək üçün zal, həm də sənədi olmayan mühacirlərin ehtiyat yolu idi. Polis gələndə, onlar buradan həyətdəki qaraja keçir, oradan da küçəyə çıxırdılar.

Ravik «Şəhrizad» adlı gecə barının qapıçısı Boris Morzovla «katakomba»nın küncündə oturmuşdu. Sahibə buranın adını «Palma zalı» qoymuşdu. Nazik qıçlı stolun üstündəki çəlləkdə əkilmiş palma qurumuş, yarpaqları saralmışdı, lap axır nəfəsi idi... Morzov on beş il idi ki, Parisdəydi. Birinci Dünya müharibəsindən qaçaq düşmüşdü və «mən qvardiya zabiti olmuşam», «zadəgan nəslindənəm» – deyə öyünən ruslardan deyildi.

Onlar şahmat oynayırdılar. «Katakomba» tamam boş idi, təkcə bir stolun arxasında adamlar oturmuşdular. Onlar da içir, ucadan danışır, bütün vaxtı sağlıq deyirdilər.

Morozov əsəbiləşərək onlara baxdı:

– Bəlkə, sən biləsən, Ravik, bu nə səs-küydür? O mühacirlər niyə gedib yatmırlar?

Ravik güldü:

– O küncdə oturan mühacirlərlə əlaqəm yoxdur. Ora mehmanxananın faşist bölməsidir.

– İspanlardır? Axı sən orada olmusan, elə deyil?

– Elədir. Ancaq onların tərəfində deyildim. Bir də ki, mən həkim kimi olmuşam. Bunlar faşist cildinə girmiş monarxistlərdir. O, təşkilatın tör-töküntüsüdür. Çoxu qayıdıb gedib, bunlar isə hələ qəti qərara gələ bilməyənlərdir.

Deyirlər, Franko çox kobuddur. Vaxtilə ispanları qırıb-çatan mavrlar isə veclərinə deyil.

Morozov fiqurları düzdü:

– Çox güman ki, onlar indi Gernikanın vəhşicəsinə bombardman edilməsini, ya da italyan, alman pulemyotlarının şaxtaçılar, kəndlilər üzərindəki «qələbə»sini qeyd edirlər. Bu qoçaqları birinci dəfədir burada görürəm.

– Çoxdan buradadırlar. Ona görə ki, burada çörək yemirsən.

– Özün burada yeyirsən?

– Xeyr.

Morozov irişdi:

– Yaxşı, – dedi, – mənim növbəti sualımdan da, sənin verəcəyin cavabdan da yan keçək. Çünki bilirəm, ikimizin də xətrimizə dəyəcək. Mənə nə dəxli, istəyir lap burada doğulmuş olsunlar, bir az yavaş danışsınlar. Hə, oyandım, bu da gözəl qədim vəzir qambiti...



Ravik də vəzir piyadasını irəli çəkdi. İlk gedişləri çox tez elədilər. Sonra Morozov fikirləşməyə başladı:

– Burada Alyoxin variantı da var...

İspanlardan biri onlara tərəf gəldi. Gözləri az qala bir-birinin içində idi. Stolun yanında dayandı. Morozov narazılıqla onu süzdü. İspan güclə ayaq üstə dururdu.

– Cənablar, – deyə o, nəzakətlə sözə başladı. – Polkovnik Qomes rica edir ki, onunla bir qədəh şərab içəsiniz.

– Cənab, – Morozov da eyni nəzakətlə cavab verdi, – biz indi Parisin XVII Rayonunun çempionatını oynayırıq. Səmimi-qəlbdən təşəkkür edirik, ancaq indi gələ bilməyəcəyik.

İspan özünü o yerə qoymadı. Ravikə elə təntənə ilə müraciət etdi ki, deyərdin, II Filippin sarayındadır:

– Siz bu yaxınlarda polkovnik Qomesə lütfkarlıq göstərmisiniz, ona görə də getməmişdən qabaq sizinlə bir qədəh içmək istəyir.

– Oyundaşım sizə dedi ki, oyunu bu gün qurtarmalıyıq. Polkovnik Qomesə mənim təşəkkürümü yetirin. Çox təəssüf edirəm...

İspan baş əyib getdi. Morozov qımışdı:

– Lap təzə mühacirətə gələn ruslara oxşayır. Boğulan adam saman çöpündən yapışan kimi, onlar da ad-sanlarından, ədalarından yapışırlar. Sən o qottentota neyləmisən ki?

– Bir dəfə ishal dərmanı yazmışam. Latın ölkələrində yeməyin tez həzm olunmasına çox fikir verirlər.

– Pis deyil! – Morozov göz vurdu. – Bu, demokratların çoxdankı zəif cəhətidir. Həmin şəraitdə faşist demokrata əzab vermək üçün arsen yazardı.

İspan təzədən qayıtdı.

– Mənim adım baş leytenant Navarrodur, – o, çox içdiyini gizlətməyə çalışan adamlar kimi ağır-ağır danışırdı. – Polkovnik bu gecə Parisi tərk edir. Generalissimus Frankonun şöhrətli ordusunda xidmət üçün İspaniyaya qayıdır. Buna görə də sizinlə İspaniyanın azadlığı, İspaniya ordusu şərəfinə bir qədəh içmək istəyir.

– Oberleytenant Navarro! – Ravikin cavabı çox qısa oldu. – Mən ispan deyiləm.

– Bilirik! Siz almansınız. – Navarro müəmmalı bir təbəssümlə gülümsədi. – Elə buna görə də polkovnik sizinlə içmək arzusundadır. Almaniya ilə İspaniya dostdur.

Ravik Morozova baxdı. Çox gərgin vəziyyət yaranmışdı. Morzovun dodaqları əsirdi:

– Oberleytenant Navarro, çox təəssüflər olsun ki, doktor Raviklə bu partiyanı qurtarmalıyıq. Nəticə bu gün teleqrafla Nyu-Yorka və Kəlküttəyə çatdırılmalıdır.

– Cənab, – Navarro soyuq tərzdə dilləndi. – Sizin imtina edəcəyinizi onsuz da bilirdik, Rusiya İspaniyanın düşmənidir. Əslində, dəvət təkcə doktor Ravikə aid idi. Onunla bir yerdə oturduğunuz üçün sizə də deməli olduq.

Morozov udduğu atı iri, dərin ovcunda sıxaraq, Ravikə baxdı:

– Bu oyunu qurtarmaq vaxtı deyil?

– Elədir, – Ravik geri döndü. – Mənə elə gəlir, çıxıb getsəniz, daha yaxşı olar, cavan oğlan. Sovetlərin düşməni olan polkovnik Morozovu nahaq təhqir edirsiniz. – O cavab gözləmədən şahmat taxtası üzərinə əyildi. Navarro bir anlığa nə edəcəyini bilmədi, sonra aralandı. Ravik dedi:

– Sərxoşdur. Bir də ki latın ölkələrindən olanların çoxu kimi bunda da yumor hissi yoxdur. Ancaq bu, o demək deyil ki, bizdə də olmasın. Ona görə də səni polkovnik elədim. Ancaq eşitdiyimə görə, miskin bir oberleytenant olmusan. Heç rəva görməzdim ki, rütbəcə Qomesdən aşağıda durasan.

– Çox danışma, bala! Başım ona qarışdı, Alyoxin variantını düz oynamadım. Deyəsən, zabit əldən gedir. – Morozov başını qaldırdı – İlahi, biri də gəlir! Özü də başqa yavərdir. Nə sırtıq adamlardır!

– Polkovnik Qomesin özüdür, – Ravik geriyə söykənib yerini rahatladı. – İndi iki polkovnikin mübahisəsi başlayacaq!

– Özü də çox qısa olacaq, oğul bala!

Polkovnik Navarrodan da quru idi. Morzovdan yavərinin səhvinə görə üzr istədi. Üzürxahlıq qəbul olundu. Lakin birdən, hər şey öz yoluna qoyulandan sonra, polkovnik xüsusi bir təntənə ilə barışıq əlaməti kimi Frankonun sağlığına badə qaldırmağı təklif etdi. Bu dəfə Ravik razılaşmadı.

– Axı siz müttəfiq alman kimi... – Polkovnik lap karıxdı.

– Polkovnik Qomes, – Ravik yavaş-yavaş hövsələdən çıxırdı. – Qoyun hər şey olduğu kimi qalsın. Kimin sağlığına istəyirsiniz için, mən isə şahmat oynayıram.



Polkovnik bir anlığa fikrə getdi.

– Demək, siz onda...

– Yaxşısı budur, çox dərinə getməyin, – Morozov onun sözünü kəsdi. – Yoxsa, boş mübahisələr başlanacaq.

Qomes lap pərt olmuşdu:

– Ancaq siz, gərək, ağqvardiyaçı çar zabiti kimi buna...

– Heç nə eləməli deyilik! Biz vaxtı keçməmiş adamlarıq. Dünyagörüşümüz də başqadır, ancaq buna baxmayaraq, bir-birimizin başını yarmalı deyilik.

Qomes, sanki, hər şeyi yenicə anlamağa başladı, özünü düzəltdi.

– Aydındır!.. – qırıq-qırıq dedi. – Nərmənazik, demokratik...

– Əzizim, iki gözüm, – Morozov birdən özündən çıxldı. – Rədd olun! Siz çoxdan rədd olub getməli idiniz! Düz İspaniyaya! Döyüşə! Yerinizə almanlarla italyanlar vuruşur! Xoş getdin! – O ayağa durdu. Polkovnik Qomes bir addım geri çəkildi, döyükə-döyükə Morozovun üzünə baxdı. Əsgərsayağı geri dönüb, öz stoluna tərəf getdi. Morozov təzədən oturub, köks ötürdü, xidmətçi qızı çağırdı:

– Bizə iri qədəhlərdə iki kalvados gətirin, Klarisse.

Qız başını tərpədib getdi.

– Bu əsl əsgər dəyanəti oldu! – Ravik güldü. – Adam

sərxoş olanda, adi düşüncə tərzi də, namus haqqındakı mürəkkəb təsəvvürlər də başa bəla olur.

– Bilirəm... Odur, biri də gəlir. Bu lap kef oldu ki! İndi kimdir? Franko özü?

Gələn Navarro idi. O, stolun iki addımlığında dayanıb üzünü Morozova tutdu:

– Polkovnik Qomes sizi duelə çağıra bilmədiyinə çox təəssüflənir, çünki bu gecə Parisi tərk edir. Bir də onun getdiyi məqsəd polisdə get-gələ düşməkdən daha vacibdir. – Sonra Ravikə tərəf döndü: – Polkovnik Qomes verdiyiniz məsləhətin haqqını göndərib. – O, bükülü beşfranklığı stolun üstünə atıb getmək istədi.

– Bircə dəqiqə! – Morozov onu saxladı. Həmin anda Klarisse, əlində məcməyi gəldi. Morozov kalvados qədəhlərindən birini götürüb ani nəzərdən keçirdi, başını bulayıb, təzədən yerinə qoydu, sonra stəkanların birini götürüb, içindəki suyu Navarronun üzünə atdı. – Bu, sizi ayıldar! – O, çox sakit danışırdı. – Gələcək üçün yadda saxlayın ki, pulu belə tullamazlar. İndi isə cəhənnəm olun! Balqabaq...

Navarro heyrətindən donub qalmışdı. Sonra üz-gözünü sildi. Bu vaxt o biri ispanlar da gəldilər. Dörd nəfər idilər. Morozov yavaş-yavaş qalxdı. O, ispanların hamısından boyca uzundu. Ravik yerindən tərpənmir, Qomesə baxırdı:

– Özünüzü gülünc vəziyyətə salmayın, – dedi, – heç biriniz ayıq deyilsiniz, heç nə də eləyə bilməyəcəksiniz. İkicə dəqiqənin içində xurd-xəşil olarsınız. Ayıq olsaydınız da, bir şey eləyə bilməzdiniz. – O, birdən ayağa durub, cəld Navarronun qolundan yapışdı, onu fırladıb Qomesə tərəf atdı. Qomes tez yana çəkildi.

– İndi isə bizdən əl çəkin. Sizi çağırıb gətirməmişik, – deyə Ravik beş franklığı stolun üstündən götürüb məcməyiyə qoydu: – Bu da sizin olsun, Klarisse. O cənablar verir.

– Birinci dəfədir, onlardan nəsə qoparıram. Çox sağ olun!

Qomes ispanca nəsə dedi. Beşi də geri dönüb stollarına tərəf getdi.

– Heyif! – Morozov dilləndi. – Bu qoçaqların dərsini yaxşıca verərdim. Ancaq sənə görə olmaz, ay yurdsuz-yuvasız yetim! Hərdən belələrinin cavabını verə bilməyəndə yanıb-tökülmürsən?

– Belələri heç! Mənim işim başqaları ilədir.

Küncdəki stoldan ispanca sözlər eşidildi. Onların beşi də ayağa qalxıb üç dəfə «Viva»[1] dedi. Qədəhləri cingilti ilə stolun üstünə qoyub, əsgəri addımlarla zaldan çıxdılar.

– Az qaldı, bu cür gözəl kalvadosu onun üzünə çırpım, – Morozov qədəhi götürüb başına çəkdi. – İndi Avropada belələri ağalıq eləyir. Görəsən, biz də keçmişdə bunlar kimi balqabaq olmuşuq?

– Olmuşuq...

* * *

Onlar, təxminən, bir saat oynadılar. Birdən Morozov başını qaldırdı:

– Şarl gəlir, – dedi, – deyəsən, səninlə işi var.

Ravik də başını qaldırdı. Növbətçinin yanıda əl buyruqçusu işləyən oğlan onlara tərəf gəlirdi. Əlində balaca bir bağlama vardı.



– Bu, sizə çatacaq, – dedi.

– Mənə? – Ravik bağlamaya baxdı. Lap balaca idi və nazik kağıza bükülüb sarınmışdı. Üstündə ünvan yazılmamışdı.

– Mənə bağlama gələsi deyil, səhv düşüb. Kim gətirdi?

– Bir qadın... xanım... – oğlan kəkələdi.

– Qadın, yoxsa xanım? – Morozov soruşdu.

– Belə... yəni həm ondan, həm də bundan...

Morozov güldü:

– Sən nə fərasətli oğlan imişsən!

– Burada ad yazılmayıb. Özü dedi ki, mənə çatacaq?

– Elə demədi... Ad çəkmədi... Dedi ki, burada yaşayan həkimə ver. Siz o xanımı tanıyırsınız.

– Özü dedi?

– Xeyr... – oğlan kəkələdi, – bu yaxınlarda sizinlə gecə gəlmişdi...

– Düz deyirsən, Şarl, hərdən mənimlə buraya qadınlar gəlir. Ancaq yadında saxla ki, ağzımöhkəmlik mehmanxana işçisinin birinci vəzifəsidir. Ağzıyırtıqlıq bu geniş dünyanın incə-mincə kavalerləri üçündür.

– Bağlamanı aç, – Morzov sözə qarışdı. – Səninki

---

[1] Yaşasın *(ispan.)*

olmasa da, aç! Onsuz da fani dünyada bundan da betər günah işlər tutmuşuq.

Ravik gülüb, bağlamanı açdı. Nəsə balaca bir şey idi. Gördü ki, o qadının otağında gördüyü ağacdan yonulmuş madonna fiqurudur. Fikrə getdi. Adı nə idi? Madeline... Mad... Yox, yadından çıxmışdı. Nəsə buna oxşar idi. Kağızı bir də yoxladı. Məktub yox idi.

– Yaxşı, – oğlana tərəf döndü – düzdür, mənə çatacaq.

Madonnanı stolun üstünə qoydu. O, şahmat fiqurlarından seçilirdi.

– Rusdur?

– Yox. Mən də əvvəlcə elə bildim rusdur. – Ravik gördü ki, dodaq boyasını fiqurdan siliblər. – İndi bunu neyləyim?

– Bir yerə qoy. Çox şeyi qoymağa yer tapılır. Bu dünyada hər şey üçün yer, nə qədər istəsən var. Təkcə adamlara çatmır.

– Deyəsən, kişini basdırıblar.

– Həmin qadındır?

– Hə.

– Heç onunla maraqlanmısan?

– Yox.

– Qəribədir, həmişə bizə elə gəlir ki, nəsə eləmişik, ancaq önündəki çıxılmaz vəziyyətdə olanda heç nə eləmirik.

– Mən xeyirxah xidmətlər bürosu deyiləm, Boris. Bundan da dəhşətlisini görmüşəm, ancaq heç nə eləməmişəm. Onun vəziyyəti indi niyə çətin olmalıdır ki?

– Ona görə ki, yalqız qalıb. İndiyə kimi kişi, ölmüş də olsa, yanında idi. O, yerin üzündə idi. İndisə altındadır, getdi... daha qayıtmayacaq. Bu da – Morozov fiquru göstərdi, – təşəkkür üçün deyil. Kömək istəyir.

– Heç nədən xəbərim olmayıb, onunla yatmışam. İndisə unutmaq istəyirəm.

– Boş-boş danışma! Məhəbbət olmayan yerdə belə şeylər çox olur. Mən qadın tanıyırdım, deyirdi ki, kişiyə «sən» – deyə müraciət etməkdənsə, onunla yatmaq asandır. – Morozov bir az irəli meyilləndi və onun yekə, daz başı işıqda parıldadı. – Yadında saxla, Ravik, əgər imkanımız varsa, bacarana qədər mehriban olmalıyıq. Çünki hələ çox belə cinayətlər edəcəyik. Heç kim eləməsə də, mən edəcəyəm. Yəqin, sən də eləyəcəksən.

– Elədir.

Morozov əlini qurumuş palmanın üstünə qoydu. Ağac asta-asta yırğalandı.

– Həyat, kiminsə hesabına yaşamaq deməkdir. Biz hamımız bir-birimizdən yeyirik. Ancaq insanda, hərdən də olsa, xeyirxahlıq qığılcımı olur, gərək, ona toxunmayasan, qoyasan qala. Yaşamaq çətinləşəndə, o, köməyə gəlir.

– Yaxşı, sabah ona dəyərəm.

– Çox gözəl! Elə mən də bunu istəyirdim. Deyişməyi də qırağa qoy! Ağalarla kim oynayacaq?

## V

Mehmanxana sahibi Raviki o o dəqiqə tanıdı.

– Xanım otağındadır, – dedi.



– Gəldiyimi ona deyə bilərsiniz?

– Otaqda telefon yoxdur. Özünüz də çıxa bilərsiniz.

– Hansı otaqdır?

– İyirmi yeddi.

– Adını da unutmuşam. Necə idi?

Kişi heç təəccüblənmədi:

– Madu. Joan Madu. – Sonra əlavə etdi: – İnanmıram, bu əsl adıdır. Deyəsən, təxəllüsüdür.

– Necə yəni təxəllüsüdür?

– Bizdə aktrisa kimi qeyd olunub. Elə deyil?

– Bilmirəm. Mən bir aktyor tanıyırdım, adını Qustav Şmidt deyirdi. Əsl adı Aleksandr Mari Qraf fon Sambona idi. Qustav Şmidti təxəllüs götürmüşdü. Heç aktyor təxəllüsünə oxşamır. Düz demirəm?

Kişi təslim olmaq istəmədi:

– İndi belə şeylər çox olur, – dedi.

– O qədər də çox olmur. Tarixə baxsanız, görərsiniz ki, biz çox sakit bir zamanədə yaşayırıq.

– Təşəkkür edirəm, mənə bəs eləyir.

– Mənə də! Ancaq insan, gərək, hər şeydə təsəlli axtarsın. İyirmi yeddi dediniz?

– Bəli, müsyö.

Ravik qapını döydü. Cavab gəlmədi. Bir də döyəndə boğuq səs eşidildi. Açan kimi qadını gördü. Divarın yanındakı

çarpayıda oturmuşdu, başını ağır-ağır qaldırdı. Geyinib-kecinmişdi. Əynindəki onda Ravikin gördüyü göy paltar idi. Bəlkə də, başı-gözü dağınıq, xalatda uzanmış olsaydı, belə tənha, belə yalqız görünməzdi. İndi heç bir səbəb olmadan, boş yerə, yalnız adət xatirinə belə geyinib-kecinməsi Ravikin ürəyini göynətdi. Bu, ona yaxşı tanış idi: yüzlərlə adamın beləcə oturduğunu, yüzlərlə qaçqının bu cür qəribliyini, qəmginliyini çox görmüşdü. Miskin bir təsəlli idi, belə oturub nə edəcəklərini bilmirdilər və onları yaşadan da adətlər idi.

Qapını arxasınca çəkdi.

– Çox güman ki, mane olmadım, – dedi və o dəqiqə də hiss elədi ki, bu sözlərin yeri deyildi. Bundan sonra qadına nə mane ola bilərdi? Mane olmalı bir şey qalmamışdı.

Şlyapasını stolun üstünə qoydu.

– İşləri yoluna qoya bildiniz?

– Bəli. Çox deyildi...

– Çətin olmadı ki?

– Xeyr.

Otaqdakı yeganə kresloya oturdu. Kreslonun yayları cırıldadı və Ravik hiss elədi ki, biri qırılıb.

– Getmək istəyirdiniz? – Ravik soruşdu.

– Bəli... Nə vaxt olsa... Sonra... Gedəsi yerim də yoxdur. Elə-belə... Özgə neyləyəsiyəm ki?

– Heç nə. Düz eləyirsiniz. Hələlik belə lazımdır. Parisdə heç kəsi tanımırsınız?

– Xeyr!

– Heççə kəsi?

Qadın başını ağır-ağır qaldırdı:

– Sizdən, mehmanaxana sahibindən, xidmətçidən, qulluqçu qızdan başqa... heç kəsi. – O, acı-acı gülümsədi. – Çox deyil, eləmi?

– Elədir. Bəs o... – Ravik ölən kişinin adını xatırlamağa çalışdı, ancaq yadına düşmədi.

– Xeyr, Raçinskinin burada tanışı yox idi. Ya da, ola bilsin ki, mən görməmişəm. Elə bura çatan kimi xəstələndi.

Ravik çox qalmaq istəmirdi. Ancaq qadını bu vəziyyətdə görəndən sonra fikrini dəyişdi.

– Şam eləmisiniz?

– Xeyr, ac deyiləm.

– Bu gün bir şey yemisiniz?

– Bəli, günorta yemişəm. Gündüzlər çətin deyil, ancaq axşam...

Ravik yan-yörəsinə baxdı. Tənhalıq, payız soyuğu bu balaca, bomboş otağı başına götürmüşdü.

– Getmək vaxtıdır, – dedi, – gəlin çıxaq, bir yerdə şam eləyək.

Ravik gözləyirdi ki, qadın etiraz edəcək. Elə oturmuşdu ki, deyərdin, heç nə istəmir və heç nə də onu yerindən tərpədə bilməz. Ancaq o, tez durub plaşını götürdü.

– Belə yaramaz, – Ravik dilləndi. – Plaş çox nazikdir. Qalın paltarınız yoxdur? Bayır soyuqdur.

– İndicə yağış yağırdı...

– Yağış yenə də yağır. Ancaq soyuqdur. Altından bir şey geyə bilməzsiniz? Başqa paltonuz yoxdur? Jaket də olar...

– Jaketim var.



O, iri çamadana tərəf getdi. Ravik gördü ki, heç nəyə əl vurmayıb. Qadın çamadandan qara rəngli bir jaket çıxarıb, onu sığalladı. Dümdüz, qəşəng çiyinləri var idi. Sonra bereti götürdü. Əvvəlcə jaketi, üstündən də plaşı geydi.

– Belə yaxşıdır?

– Bayaqkına baxanda, çox yaxşıdır.

Onlar pilləkəni düşdülər. Mehmanxana sahibi getmişdi. Onun əvəzinə açarlar asılan yerdə növbətçi oturub məktubları yerəbəyer edirdi. Ondan sarımsaq iyi gəlirdi. Yanında səssiz-səmirsiz oturan xallı pişik də kişiyə baxırdı.

Küçəyə çıxanda Ravik soruşdu:

– Yenə də aclıq hiss eləmirsiniz?

– Bilmirəm. Deyəsən, o qədər də yox...

Ravik əl eləyib taksi çağırdı.

– Yaxşı, onda «Bel Aror»a gedək, – dedi, – orada yüngül yeməklər olur.

* * *

«Bel Aror» restoranında seyrəklik idi, çünki gecə yarıdan keçmişdi. Onlar ikinci mərtəbədə balaca, alçaq tavanlı zalda boş stol seçdilər. İçəridə onlardan başqa bir kişi ilə qadın oturub pendir yeyirdilər. Arıq bir kişi də təkcə əyləşib, qabağına xeyli dəniz ilbizi yığmışıdı. Xidmətçi gəlib, bulaşmış örtüyə narazılıqla baxdı, onu dəyişəsi oldu.

– İki qədəh araq, – Ravik sifariş verdi, – soyuğundan. – Sonra qadına tərəf döndü: – Bir az içək, qəlyanaltı götürək. Zənnimcə, sizin üçün belə daha yaxşı olar. Bu restoran «Hors d'oeuvres»[1] ilə məşhurdur. Başqa heç nə olmur. Adam özü də istəmir. İstisi də, soyuğu da nə qədər istəsən var, hamısı da çox yaxşıdır. Baxarıq...

Xidmətçi arağı gətirib, dəftərçəsini çıxardı.

– Bir qrafin də «Vin rose»[2]. «Anjün»uz var?

– Açığı var, çəhrayıdır... Baş üstə, müsyö, – Xidmətçi getdi. Qapıda başına lələkli qırmızı şlyapa qoymuş bir qadınla toqquşdu. Qadın onu itələyib, qabağına dəniz ilbizi yığmış kişiyə tərəf getdi.

– Albert! – dedi. – Ay əclaf...

– S... s... s, – deyə Albert ətrafına boylandı.

– «S... s... s» nədir? – Qadın yaş çətirini stolun üstünə qoyub oturdu. Albert heç kefini də pozmadı.

– Cheire[3], – deyib nəsə pıçıldamağa başladı.

Ravik gülümsəyib, qədəhini götürdü:

– Gəlin bunu birdəfəyə içək, – dedi, – nuş olsun!

– Nuş! – deyə Joan da içdi.

Qəlyanalıtını təkərli arabacıqda gətirdilər.

– Nə buyuracaqsınız? – Ravik qadına baxdı. – Zənnimcə, mən özüm seçsəm, yaxşı olar.

O, bir boşqab doldurub qadının qarşısına qoydu.

– Eybi yoxdur, xoşunuza gəlməsə də olar. İndicə yenə gətirəcəklər. Bu, hələ başlanğıcdır.

Bir boşqabda özü üçün doldurub, qadına fikir verməDən yeməyə başladı. Birdən hiss elədi ki, o da yeyir. İri dəniz xərçənglərindən birini təmizləyib qadına uzatdı:

– Bunun dadına baxın, xırdalarından beləsi yaxşıdır, – dedi. – İndi «Pate Maison»[4] götürün. Ağ çörəklə əla olur. Sonra da şərab. Turş şərab... Sərindir...

– Sizi çox əziyyətə saldım...

– Bəli, lap restoran xidmətçisi kimi qulluq edirəm, – Ravik güldü.

– Xeyr, doğrudan, əziyyətə salmışam.

[1] Qəlyanaltı *(fran.)*
[2] Çəhrayı çaxır *(fran.)*
[3] Əzizim *(fran.)*
[4] Paştet növü

– Çörəyi tək yeyə bilmirəm, vəssalam. Mən də sizin kimi...

– Mən yaxşı yoldaş deyiləm.

– Niyə? – Ravik etiraz etdi. – Yemək üçün əla yoldaşlığınız var. Boşboğaz adamlardan, ucadan danışanlardan zəhləm gedir.

O, Albertə tərəf baxdı. Həmin anda qırmızı şlyapalı qadın əlindəki çətiri stola vura-vura ucadan nə üçün əclaf olduğunu ona başa salırıdı. Albert isə səbirlə qulaq asır, heç nəyi vecinə almırdı.

Joan xəfifcə gülümsədi:

– Mən elə şeyi bacarmaram.

– Budur, yenə gətirdilər. İndi başlayaq, yoxsa əvvəlcə bir siqaret çəkək?

– Siqaret yaxşıdır.



– Oldu. Bu gün yaxşısını götürmüşəm. Ondakı qara tənbəki deyil...

Qadının siqaretini yandırdı. Joan geri söykənib, dərin bir qullab vurdu, diqqətlə Ravikə baxdı.

– Beləcə oturmaq nə yaxşıdır! – dedi və Ravikə birdən elə gəldi ki, o, indicə ağlayacaq...

* * *

Qəhvəni «Kolize» kafesində içdilər. «Yelisey çölləri»nə baxan böyük zal dolu idi və onlar aşağıda – barda boş yer tapıb oturdular. Divarların yuxarı tərəfində şüşə qəfəslər asılmışdı, içəridə tutuquşular oturmuşdu, alabəzək tropik quşlar isə o yan-bu yana uçuşurdular.

– İndi nə edəcəyini fikirləşmisinizmi? – Ravik soruşdu.

– Xeyr, hələ yox.

– Bura gələndə müəyyən bir məqsədiniz var idi?

Qadın tərəddüd etdi:

– Xeyr, elə bir məqsədim yox idi.

– Soruşmaq xatirinə soruşmuram.

– Bilirəm. Deyirsiniz ki, nə işləsə məşğul olmalıyam. Özüm də istəyirəm. Hər gün də fikirləşirəm. Ancaq...

– Mehmanxana sahibi deyirdi ki, aktrisasınız. Mən maraqlanmırdım, özü dedi... Adınızı soruşanda...

– Adımı unutmuşdunuz?

Ravik baxışlarını qaldırdı. Qadın da sakitcə ona baxırdı.

– Bəli. Kağız yadımdan çıxıb mehmanxanada qalmışdı. Nə qədər elədim, yadıma düşmədi.

– İndi bilirsiniz?

– Bəli. Joan Madu.

– Mən tanınmış aktrisa deyiləm. Həmişə xırda rollarda çıxış etmişəm. Axır zamanlar isə heç oynamamışam. Fransızca da yaxşı danışa bilmirəm.

– Bəs hansı dili yaxşı bilirsiniz?

– İtalyan dilini. Orada böyümüşəm. Bir az da ingiliscə, rumınca danışa bilirəm. Atam rumın idi. Ölüb. Anam isə ingilisdir, hələ də İtaliyada yaşayır. Ancaq yerini-yurdunu bilmirəm.

Ravik onun dediklərinin çoxunu eşitmirdi. Yaman darıxırdı və indi nə edəcəyini də bilmirdi.

– Başqa heç nə əlinizdən gəlmir? – deyə nəsə demək xatirinə soruşdu. – Oynadığınız xırda rolları demirəm...

– Gəlir. Ancaq onlar da bunun kimi şeylərdir... Oxumağı, oynamağı da bir az bilirəm...

Ravik şübhəli nəzərlərlə onu süzdü. Heç deməzdin belə işlər əlindən gəlir. Onda nəsə bir ölgünlük, məchulluq vardı və gözəgəlimli deyildi. Heç aktrisaya da oxşamırdı. Halbuki bu, əsassız söz deyildi.

– Belə şeyləri burada da eləmək olar, – dedi, – bunun üçün fransız dilini gözəl bilmək lazım deyil.

– Elədir. Ancaq, gərək, onu tapasan. Tanış olmayanda, çətindir.

Ravik birdən Morozovu xatırladı. «Şəhrizad»... Özüdür ki, var! Morozovun belə şeylərdən başı çıxmalıdır. Bu fikir beyninə yaman batdı. Onu bu nəmli-yağışlı gecədə bura gətirən o olub, indi də qoy yaxasını ondan özü qurtarsın. Boris, əvvəl-axır, nəyə qadir olduğunu göstərməli idi.

– Rusca bilirsiniz? – deyə soruşdu.

– Lap az. Bir-iki mahnı bilirəm. Qaraçı mahnılarıdır. Rumın mahnılarına oxşayır. Niyə soruşursunuz?

– Belə işlərdən başı çıxan bir nəfər tanıyıram. Bəlkə, köməyi dəydi. Ünvanını verərəm.

– Qorxuram bir şey çıxmasın. Teatr sahiblərini yaxşı tanıyıram, onlara deməyin xeyri yoxdur.

Ravik gördü ki, qadın onun belə asan yolla üzülüşməyə çalışdığını duydu. Həqiqət olduğu üçün etiraz etdi:

– Mən dediyim adam teatr sahibi deyil. «Şəhrizad» restoranında qapıçıdır. Monmartrda rusların gecə klubudur.

– Qapıçı? – Joan Madu başını qaldırdı. – Bu, başqa məsələ! Qapıçılar onlardan çox bilir. Buradan bir şey çıxar. Onu yaxından tanıyırsınız?

– Bəli.

Qadının birdən-birə belə işgüzar tərzdə danışması Raviki heyrətləndirdi.

– Dostumdur. Adı da Boris Morozovdur, – dedi, – on ildir «Şəhrizad»da işləyir. Onların proqramı çox böyükdür, tez-tezdə dəyişir. Morozov inzibatçı ilə yaxındır. «Şəhrizad»da olmasa, başqa yerdə bir şey tapar. İstəyirsiniz, gedin.

– Bəli. Nə vaxt gedim?

– Ən yaxşısı axşam saat doqquzdur. Onda iş olmur, sizə vaxt tapar. Özüm də deyərəm.



Ravik Morozovun onu yaxşı qarşılayacağını bildiyi üçün əvvəlcədən sevindi. Birdən-birə özündə rahatlıq duydu. Həmişə hiss elədiyi cüzi məsulliyət yoxa çıxdı. Bacardığını eləmişdi, sonrasını özü bilərdi.

– Yorulmamışam, – dedi, – ancaq bilirəm ki, mənimlə burada oturmaq sizə xoş deyil. Mənə yazığınız gəldiyi üçün çox sağ olun. Mehmanxanadan qoparıb dərdimi dağıtdınız. Bu, mənim üçün böyük şey oldu. Neçə gün idi ki, kəlmə kəsməyə adam da yoxdu. İndicə gedirəm. Siz mənə böyük yaxşılıq elədiniz. Bu neçə günün hamısında... Yoxsa, axırım hara çıxardı?!

«İlahi! – Ravik ürəyindən keçirdi. – İndi də belə başladı!» O, narahat halda baxışlarını şüşə qəfəslərə çevirdi. Orada bir göyərçin zorla tutuquşunun belinə çıxmaq istəyirdi. Tutuquşu bu tənhalıqdan elə bezmişdi ki, heç qımıldanmadı, ona əhəmiyyət verməyib, tənbəl-tənbəl dənləməkdə davam etdi.

– Yazığı gəlmək deyildi, – Ravik dilləndi.

– Bəs nə idi?

Göyərçin sürüşüb tutuquşunun belindən düşdü, lələklərini dimdikləməyə başladı. Tutuquşu da silkindi...

– İndi biz bu köhnə, gözəl «Armanaka»dan içəcəyik və bu da olacaq ən yaxşı cavab! İnanın, mən o qədər elə halıyanan adam deyiləm. Çox vaxt axşamlar tək-tənha hara

gəldi, gedib otururam. Elə bilirsiniz bu, yaxşıdır? Xeyr, ancaq mən yaxşı yoldaş deyiləm. Bu, daha pisdir.

Joan Madu başını buladı.

– Yoldaş seçməyi yadırğayıram. «Armanka»nızı götürün. Nuş olsun! – Ravik badəsini içdi. – Belə... İndi də bu heyvanxanadan sürüşək. Siz hələ mehmanxanaya getmək istəmirsiniz, elə deyilmi?

– Yaxşı, onda hara gəldi, gedək. Daha doğrusu, «Şəhrizad»a... içərik... Bu, ikimizə də lazımdır. Həm də oradakı həngamələrə baxarsınız.

* * *

Gecə saat üçə yaxın idi, onlar «Milan»ın qabağında dayanmışdılar.

– Yaxşı içə bildinizmi? – Ravik soruşdu.

– «Şəhrizad»da olanda, elə bilirdim, bəsdir. Ancaq indi, bu qapıya baxanda, görürəm ki, az olub.

– Əlac tapılar. Bəlkə, mehmanxanada bir şey oldu. Olmasa, meyxanaların birinə girib alarıq. Gəlin...

Qadın əvvəlcə ona, sonra da qapıya baxdı:

– Gedək, – qətiyyətlə dilləndi, ancaq yerindən tərpənmədi. – Ah, yenə ora... O bomboş otağa...

– Mən də sizinlə yuxarı qalxaram. Bir şüşə də götürərik.

Qapıçı oyandı.

– İçməyə bir şeyiniz var? – Ravik soruşdu.

– Şampanqarışıq kokteyl olar? – Qapıçı yuxulu-yuxulu əsnədi.

– Təşəkkür edirəm, bir az tünd olsa yaxşıdır. Konyak olsun. Bir şüşə...

– «Kurvaze», «Mortel», «Eness», «Biskye Dübene»... Hansından?

– «Kurvaze».

– Baş üstə, müsyö. Özüm açıb gətirərəm.

Onlar pilləkənlə yuxarı qalxdılar.

– Açarınız var? – Ravik soruşdu.

– Qapı açıqdır.

– Pulunuzu, sənədlərinizi oğurlayarlar.

– Qəsdində duran olsa, bağlayanda da oğurlayarlar.

– O da düzdür. Belə kilidləri açmağa nə var! Ancaq, hər halda, çox asan olmur.

– Bəlkə də... Ancaq tək-tənha küçədən gəlib, açarı götürüb, qapını açıb bomboş otağa girə bilmirəm. Onda, elə bil, qəbrə girirəm. O yerdə ki səni çamadanlardan başqa heç nə gözləmir, ora beləcə açarsız girmək də böyük şeydir.

– Adamı heç yerdə heç nə gözləmir. Gərək, hər şeyi özünlə gətirəsən.

– Ola bilər... Ancaq bu da özünü aldatmaqdır.

Joan plaşla beretini çarpayının üstünə atıb, Ravikə baxdı. Avazımış sifətində iri gözləri işıldayırdı və onlarda qəzəb dolu bir ümidsizlik donub qalmışdı. O bir anlığa beləcə dayandı, sonra əlləri jaketin cibində, balaca otaqda iri addımlarla var-gəl eləməyə başladı. Hər dəfə geri dönəndə, elastik bədəni qıvrılırdı. Ravik diqqətlə ona baxdı. Qadına haradansa güc, coşğun bir şuxluq gəlmişdi və otaq, sanki, ona darlıq edirdi.



Qapı döyüldü. Kişi konyakı gətirdi.

– Cənablar yemək istəmir? Soyutma toyuq, sendviç var.

– O, çox vaxt aparar, qardaş, – deyə Ravik pulunu verib, onu yola saldı. Sonra qədəhləri doldurdu. – Bu da belə!.. Çox sadə, çox da quru! Ancaq çətin anlarda primitivlik yaxşıdır. İncəlik arxayın vaxtlar üçündür. Bir bunu için...

– Bəs sonra?

– Sonra da birini içərsiniz.

– Yoxlamışam, xeyri yoxdur. Tək qalanda sərxoş olmaq da yaxşı deyil.

– Azacıq sərxoş olmaq heç nə eləməz.

Ravik çarpayı ilə üzbəüz divarın yanındakı ensiz, balaca taxtda oturdu. O dəfə bunu görməmişdi.

– Siz köçəndə bu var idi?

Qadın başını buladı:

– Özüm qoydurdum. Çarpayıda yatmaq istəmirdim. Nəsə mənasız görünürdü. Çarpayı... soyunmaq... hər gün... Kimə, nəyə lazımdır? Səhər çağı da, gündüzlər də birtəhər dözmək olur. Ancaq axşamlar...

– Bir məşğuliyyət tapmaq lazımdır, – Ravik siqaret yandırdı. – Heyif ki, Morozovu tapa bilmədik. Onun istirahət günü olduğunu bilmirdim. Sabah axşam gedin. Doqquz

radələrində... Bir şey tapacaq. Lap mətbəxdə də olsa, işləyin. Onda gecələr boş qalmazsınız. Özünüz belə istəmirdiniz?

– Bəli. – Joan dayandı, konyakını içib, çarpayının üstündə oturdu. – Hər axşam gəzməyə çıxırdım. Adam gəzəndə, yaxşı olur. Elə ki oturdun, sanki, tavan başına uçur.

– Küçələrdə başınıza bir iş gəlməyib ki? Heç sizi soyublar?

– Xeyr. Baxan kimi bilirlər, məndə soymağa bir şey yoxdur. – O, boş qədəhi Ravikə uzatdı. – Bəs yalqızlıq? O qədər kiminləsə söhbət eləmək həsrətində olmuşam ki! Onda, ən azı, bilirsən, sən də adamsan, daha boş-boşuna, mənasız yerə vurnuxmursan. Ən azı, gözlərin kiməsə baxır, kiminsə gözlərini görür. Daha daşa-divara baxmırsan! Ən azı, başqa planetə düşmüş adam kimi tək-tənha küçələri dolaşmırsan... – Saçlarını geri atıb, Ravikin uzatdığı qədəhi aldı. – Heç bilmirəm, bunları niyə danışıram. İstəmirəm, ancaq... Bəlkə də, bu bir neçə günü susduğum üçün belə danışıram, bəlkə də, bu axşam birinci dəfədir ki... – nədənsə dayandı. – Mənə fikir verməyin...

– Mən içməklə məşğulam, – Ravik tez dilləndi. – Nə istəyirsiniz, danışın. Gecə vaxtı heç kim eşitməz. Mən özüm özümə qulaq asıram. Sabah hər şey yaddan çıxıb gedəcək. – O, geri söykəndi. Haradansa su şırıltısı eşidildi, qızdırıcıdan səs gəldi. Narın yağış damcıları hələ də asta-asta pəncərəni döyəcləyirdi...

– Qayıdıb işığı söndürəndə, – Joan sözünə davam etdi, – qaranlıq adamın üzünə qara pərdə çəkir. Durub işığı yandırırsan, gözlərini bir nöqtəyə zilləyib baxır, hey baxırsan...

«Deyəsən, sərxoş olmuşam, – Ravik ürəyindən keçirdi. – Bu gün yaman tez tutdu. Bəlkə, elə otaq özü alaqaranlıqdır? Yoxsa, həm elədir, həm də belə? Bu, bayaqkı gözəgəlimsiz, rəngi avazımış qadın deyil. Bax, bu da gözləri... Sifəti... Nəsə mənə baxır. Deyəsən, kölgədir, beynimdəki zəif işıltıdır, onun üzünə düşür. Sərxoşluğun ilk işartısı...»

Joanın dediklərini eşitmirdi. Onsuz da hamısını bilirdi, görmüşdü, daha bəsi idi. Yenə tənhalıq – həyatın əbədi nəqarəti! O biriləri ilə müqayisədə nə yaxşı idi, nə də pis. Ancaq ondan yaman çox danışırlar. Onsuz da adam gah həmişə tənha olur, gah da heç vaxt. Haradansa qulaqlarına skripka səsi gəldi... Alatoranlıq... Budapeşt yamaclarında

bağ... Şabalıd ağaclarının kəskin qoxusu... Külək... Çiyinlərinə tərlan kimi qonmuş xəyallar... Gözləri qaranlıqda işıldayan xəyallar... Gündüzlə bacara bilməyən gecə... Bütün qadınların gözəl göründükləri an... Və bir də qanadlarını kəpənək kimi sərmiş gecə...

O, baxışlarını qaldırdı...

– Çox sağ olun! – Joan təşəkkür elədi.

– Nəyə görə?

– Qulaq asmaya-asmaya məni danışdırdınız. Yaxşı oldu... Mənə çox lazım idi...

Ravik başını tərpətdi. Gördü ki, Joanın qədəhi boşdur.

– Yaxşı, – dedi, – şüşədəki də sizə qalsın.

Ayağa durdu. Otaq... Qadın... Vəssalam... Və bir də avazımış, ölgünləşmiş sifət...

– Gedirsiniz? – deyə Joan yan-yörəsinə boylandı. Elə bil, otaqda kimsə gizlənmişdi.



– Bu da Morozovun ünvanı. Adını da yazıram ki, birdən yadınızdan çıxar. Sabah axşam doqquzda... – Ravik onu resept dəftərçəsinə yazdı, vərəqi cırıb çamadanın üstünə qoydu.

Joan da durmuşdu. O, plaşını və beretini götürdü. Ravik ona baxdı:

– Məni ötürmək lazım deyil, – dedi.

– Ötürmürəm. Sadəcə olaraq, burada qalmaq istəmirəm. İndi heç qala bilmərəm. İstəyirəm, bir az gəzəm.

– Ancaq nə vaxtsa yenə qayıtmalı olacaqsınız. Eyni şeydir... Niyə qala bilmirsiniz? Hər şey keçib gedib...

– İndi səhər açılar. Qayıdanda açılmış olacaq. Onda asandır...

Ravik pəncərəyə tərəf getdi. Yağış hələ də yağırdı. Külək onun bomboz tellərini fanarların sarımtıl işığında yelləndirirdi.

– Gəlin bir qədəh də içək, sonra yatın. Belə havada gəzməyə getməzlər. – O, şüşəni götürdü. Qadın lap yanında dayanmışdı.

– Məni burada qoyma... – Joan bu sözləri tələsə-tələsə, yanıqlı-yanıqlı deyəndə, Ravik onun nəfəsini üzündə hiss elədi. – Məni burada tək qoyma. Bircə bu gün... Bilmirəm nə olub... Bircə bu gün! Sabah özümü ələ alacağam, ancaq bu gün bacarmıram. Yaman kövrəlmişəm...

Heyim qalmayıb... Yıxılacam... Gərək, məni aparmayaydınız... Bu gün heç olmazdı... İndi tək qala bilmərəm...

Ravik şüşəni ehtiyatla yerə qoyub, qolunu onun əlindən çıxardı.

– Lap uşaqsız! – dedi. – Geci-tezi hamımız buna öyrəşməliyik... – sonra taxtı göstərdi: – Yaxşı, burada yataram. Getməyin də mənası yoxdur. Sabah doqquzda təşrih edəsiyəm. Lap öz evim kimi yataram. O qədər gecə növbəsində qalmışam ki! Razı qaldınız?

Joan başını tərpətdi. Hələ də Ravikin yanında dayanmışdı.

– Gərək, səkkizin yarısında çıxam. Çox tezdir, sizi oyadacağam.

– Eybi yoxdur. Durub sizə səhər yeməyi hazırlayaram.

– Heç nə lazım deyil. Yaxındakı kafedə yeyərəm. Sadə fəhlə kimi romla qəhvə, bir dənə də kökə götürərəm. Sonrası da xəstəxanada... Ejeniyə deyərəm, vanna hazırlayar. Yaxşı, qalaq... İki didərgin bir yerdə... çarpayı sizin olsun. İstəyirsiniz, soyunub yerinizə girənə kimi, aşağı, – o qoca qapıçının yanına gedim.

– Xeyr.

– Qaçmaram! Bizə bəzi şeylər də lazımdır: balınc, adyal...

– Zəngi çalaram, gəlib gətirər...

– Bunu özüm də eləyərəm, – Ravik düyməni axtardı. – Belə şeyləri kişi eləsə, yaxşıdır.

Qapıçı o dəqiqə gəldi. Əlində konyak şüşəsi tutmuşdu.

Ravik:

– Bizi nə hesab eləyirsiniz? – dedi. – Çox sağ olun, ancaq unutmayın ki, biz müharibədən sonrakı nəslin nümayəndəsiyik. Bir adyal, balınc, bir dənə də mələfə gətirin. Burada qalası oldum. Bayır soyuqdur, bərk yağır. İkicə gündür sətəlcəmdən durduğum. Gətirə bilərsiniz?

– Əlbəttə, müsyö. Elə ağlıma gəlmişdi də...

– Yaxşı, – deyə Ravik siqaret yandırdı. – Dəhlizdə gözləyirəm. Astanadakı ayaqqabıları sayacağam. Bu idmanla çoxdan məşğul oluram. – Birdən Joanın baxışlarını öz üzərində hiss elədi. – Qaçmaram! Mən misirli Yusif deyiləm ki, paltomu qoyub qaçam...

Qapıçı şeyləri gətirdi. Raviki dəhlizdə görəndə üz-gözü işıqlandı:

– Belə şeyə təsadüfi halda rast gəlmək olur, – dedi.

– Mən də təsadüfi hallarda belə eləyirəm. Bir ad günümdə, bir də milad bayramında. Bura verin, gedəndə özüm apararam. Bu nədir belə?

– İkincisidir. Dediniz, sətəlcəm olmusunuz.

– Əla! Ancaq mən ciyərlərimi konyakla qızışdırıram. – Ravik cibindən pul çıxardı.

– Müsyö, yəqin ki, pijamanız yoxdur. Verə bilərəm.

– Sağ ol, qardaş, – Ravik qocaya baxdı: – Mənə balaca olar.

– Əksinə, lap əyninizə olacaq. Təptəzədir. Öz aramızda qalsın, bir amerikalı pay verib. Ona da bir qadın bağışlayıbmış. Mən belə şeylər geymirəm. Mənimki tuman-köynəkdir. Lap təzədir, müsyö.

– Yaxşı, gətirin. Baxaq, görək necə şeydir.

Ravik dəhlizdə gözlədi. Qapıların ağzında üç cüt ayaqqabı vardı. Onlardan bir cütü boğazı rezinli çəkmə idi. Həmin otaqdan bərk xorultu səsi gəlirdi. O birilər isə qəhvəyi rəngli kişi ayaqqabısı və dikdaban düyməli, lak qadın çəkmələri idi. Onlar da həmin qapının ağzına qoyulmuşdu və yanaşı dursalar da, elə bil, hərəsi bir dərəyə atılmışdı...

Qapıçı pijamanı gətirdi. Əntiqə şey idi... Süni göy ipəkdən tikilmişdi, üstünə də qızılı ulduzlar çəkilmişdi. Ravik bir xeyli dinməz-söyləməz ona tamaşa elədi.

– Əntiqə şeydir, eləmi? – qapıçı qürur hissi ilə soruşdu.

– Heyif! – Ravik təəssüfləndi. – Bunu seçən qadına məmnuniyyətlə baxardım. – Pijama lap təzə idi və «Maqazin de Luvr»da büküldüyü kağızdan açılmamışdı.

– Bu gecəlik sizin olsun. Almaq lazım deyil, müsyö.

– Haqqı nə olacaq?

– Nə verəsəniz...

– Fransız deyilsiniz?

– Xeyr, fransızam. Sən-Nazarlıyam.

– Onda amerikanlarla əlaqə sizi korlayıb... Buna baxmayaraq... belə pijamaya nə versən, dəyər.

– Xoşunuza gəldiyi üçün çox şadam. Gecəniz xeyrə qalsın, müsyö. Sabah gəlib xanımdan alaram.

– Səhər tezdən özüm gətirib verərəm. Məni səkkizin yarısı oyadın. Qapını astaca döyün, eşidərəm. Gecəniz xeyrə qalsın...

– Bir buna baxın, – deyə Ravik içəri girən kimi pijamanı Joana göstərdi. – Şaxta babanın paltarına oxşayır. Bu qapıçı lap aləmdir. Hələ geyəcəyəm də! Bir az gülməli görünmək üçün təkcə cəsarət yox, həm də ürək lazımdır.

O, yumşaq taxtda özünə yer düzəltdi. Harada yatmağının fərqi yox idi: ya bura olsun, ya da öz mehmanxanası. Dəhlizdə babat bir vanna otağı tapmışdı və qapıçıdan da təmiz diş fırçası almışdı. Başqa heç nə lazım deyildi. Bu qadın da olsun onun xəstələrindən biri...

O, su stəkanını konyakla doldurdu, qadının yanına qoydu.

– Zənnimcə, bu, sizə bəs eləyər, – dedi, – belə yaxşıdır. Hər dəfə təzədən durub süzəsi olmaram. Şüşə ilə o biri qədəh də mənim.

– Qədəh lazım deyil, elə ondan içərdim...

– Daha yaxşı. – Ravik yumşaq taxtda yerini rahatladı. Qadının onun yeri ilə maraqlanmaması xoşuna gəldi. İstədiyi də elə bu idi. Allaha şükür ki, bir para evdar qadınlar kimi zəhlətökənlik eləmirdi.

Ravik qədəhini doldurub, şüşəni döşəmənin üstünə qoydu.

– Nuş olsun!

– Nuş olsun! Həm də sağ olun ki...

– Hər şey qaydasındadır. Onsuz da, belə yağışda getməyə heç özümün də həvəsim yox idi.

– Yenə yağır?

– Bəli.

Bayırdan gələn zəif tıqqıltı otağa çökmüş sükutu səksəndirirdi. Elə bil, nəsə bomboz, qəribə, heç nəyə oxşamayan, kədərin özündən də kədərli bir şey içəri girməyə yol axtarırdı. Sanki, uzaq, pünhan bir xatirə, sonu görünməyən dalğa idi, əvvəllər qabağına qatıb qova-qova gətirdiyi, sonralar hansı adadasa yaddan çıxarıb qoyduğu şeyləri – zərrə qədər insanlığı, işığı, düşüncələri təzədən götürüb aparmaq, haradasa basdırmaq istəyirdi...

– İçmək üçün yaxşı gecədir.

– Bəli. Ancaq tək qalmaq üçün də pis.

Ravik bir anlığa susdu, sonra dedi:

– Hamımız buna öyrəşməliyik. Əvvəllər bizi bağlayan tellər indi qırılıb. Biz, sapı qırılmış muncuq kimiyik, hərəmiz

bir tərəfə dağılmışıq. İndi heç nə etibarlı deyil. – O, qədəhini təzədən doldurdu. – Uşaq vaxtı bir gecə çəmənlikdə yatmışdım. Yay idi, səma da lap aydın... Yuxuya getməmişdən qabaq gördüm ki, Qütb ulduzu meşələrin qurtaracağında üfüqdən asılıb. Sonra gecənin bir yarısı ayıldım. Qütb ulduzu indi düz başımın üstündə idi. Bu heç vaxt yadımdan çıxmır. Başa düşdüm ki, yer də bir ulduzdur, fırlanır. Bunu eşitmişdim, kitablarda oxumuşdum, ancaq görməmişdim. İndi birinci dəfə hiss elədim ki, doğrudan da, elədir. Yerin nəhayətsiz bir boşluqda səssiz-səmirsiz uçduğunu duydum. Bunu o qədər aydın hiss elədim ki, hətta sürüşüb yıxılmaqdan qorxdum. Bəlkə də, dərin yuxudan ayılıb hələ özümə gəlməmiş nəhayətsiz səmaya birdən-birə baxdığım üçün belə oldu. Onda mənə elə gəldi ki, üstündə dayandığımız yer də çox etibarlı deyil. Elə o vaxtdan da heç möhkəmlənməyib... – Əlindəki dolu qədəhi içdi. – Bu, bəzi şeyləri çətinləşdirsə də, çox şeyi asanlaşdırır... – Joana tərəf baxdı. – Bilmirəm, bəlkə də, yatmısınız. Yorulmusunuzsa, heç cavab verməyin.



– Hələ yox. Beynimin harasısa hələ oyaqdır. Həm oyaq, həm də buz kimi...

Ravik şüşəni döşəmənin üstünə qoydu. Otağın isti havasından canına qəribə bir yorğunluq yayıldı. Kölgələr yenə sayrışmağa başladı... Yad otaq... Gecə... Bayırda isə yağışın uzaqlardan gələn təbil səsi kimi yeknəsəq şırıltısı... Sonsuzluğun lap qurtaracağında zəif işıq gələn bir koma... Nəhayətsiz heçlikdə közərən mənasız bir işartı... Və bir də gözünü zilləyib danışdığın bir sifət...

– Siz bunu heç hiss eləmisiniz? – deyə soruşdu.

Qadın bir anlığa susdu:

– Eləmişəm, – dedi. – Ancaq belə yox... Başqa cür... Günlərlə kəlmə kəsməyə adam olmayanda, gecələr təktənha küçələri dolaşanda... Hər yerdə harasa tələsən, öz ev-eşiyi olan adamlar... Bircə mənim heç nəyim yox idi. Sonra hər şey yavaş-yavaş dumanlanmağa başladı, elə bil, boğulmuşdum, suyun altında, qəribə bir şəhərdə dolaşırdım.

Pilləkəndən addım səsləri eşidildi. Açar cingildədi, qapı çırpıldı. Sonra su şırıltısı gəldi.

– Heç kəsi tanımırsınızsa, onda niyə Parisdə qalırsınız? – deyən Ravik hiss elədi ki, yuxu onu yavaş-yavaş aparır.

– Bilmirəm. Bəs hara gedim?

– Qayıdası yeriniz yoxdur?

– Xeyr, gedəsi yerim yoxdur.

Külək yağışı pəncərəyə çırpırdı.

– Bəs Parisə nəyə gəlmişdiniz?

Joan cavab vermədi. Ravikə elə gəldi ki, o yatıb.

– Raçinski ilə Parisə ayrılmağa gəlmişdik. – Qadının sonradan verdiyi bu cavab Raviki heyrətləndirmədi. Adamın həyatında elə anlar olur ki, onu heç nə ilə heyrətləndirmək olmur. Üzbəüz otaqda bayaq gələn kişi öyüməyə, qusmağa başladı. Onun boğuq iniltisi bura gəlirdi.

– Bəs onda niyə bu hala düşdünüz? – Ravik soruşdu.

– Çünki o öldü. Öldü! Birdən getdi! Qaytara bilmədim! Öldü! Heç nə eləyə bilmədim! Başa düşmürsünüz? – Joan yerində dirsəklənib, diqqətlə Ravikə tərəf baxırdı.

«Çünki o, səni qabaqladı. Səndən qabağa düşüb, səni tək qoydu». – Ravik ürəyindən keçirdi.

– Mən... Mən, gərək, ona başqa cür olaydım... Mən...

– Unudun getsin! Dünyada peşmançılıqdan mənasız şey yoxdur. Onsuz da heç nəyi geri qaytarmaq olmaz. Yoxsa hamımız müqəddəs olardıq. Həyat bizə kamillik bəxş eləməyib. Kamillərin yeri muzeydir!

Joan cavab vermədi. Ravik hiss etdi ki, o, qədəhini içib təzədən uzandı. Fikirləşməyə yenə nəsə var idi... Ancaq yorulmuşdu. Bir də onun üçün nə fərqi, yatmaq istəyirdi. Sabah təşrih etməli idi, bunların ona dəxli yoxdur. Əlindəki boş qədəhi şüşənin yanına qoydu: «Qəribədir... adamın başına nələr gəlmir!..»

## VI

Ravik gələndə Lüsyen Martine pəncərənin qarşısında oturmuşdu.

O:

– Hə, necədir? – soruşdu. – Durub gəzmək xoşunuza gəlir?

Qız əvvəlcə ona baxdı, sonra tutqun havaya göz gəzdirdi, təzədən Ravikə tərəf döndü.

– Çox pis havadır. – Yenə Ravik dilləndi.

– Niyə? – Qız etiraz etdi. – Mənim üçün yaxşıdır.

– Nə üçün?

– Ona görə ki, heç yerə çıxası deyiləm.

O, kresloda büzüşüb oturmuş, çiyninə ucuz, pambıq bir kimono salmışdı. Seyrək dişləri olan arıq, çəlimsiz bir qız idi. Ancaq bu anda o, Ravikin gözündə troyalı Yelenadan da gözəl idi. Onun öz əlləri ilə xilas etdiyi həyat parçası idi. Ancaq çox da öyünməyə dəyməzdi, bundan qabaq birini itirmişdi. Bəlkə, bundan sonra gələn də elə olacaqdı. Axırda belə-belə hamısını itirəcək, özü də onlara qoşulacaq. Ancaq bu qız hələlik xilas edilmişdi.

– Belə havada ona-buna şlyapa daşımaq adama ləzzət verməz. – Bunu Lüsyen dedi.

– Şlyapa daşıyırsınız?

– Bəli, madam Lanver üçün... Atelye Matinon prospektindədir. Saat beşə qədər işləyirik. Sonra mən onları müştərilərə çatdırıram. İndi altının yarısıdır, gərək, mən yolda olaydım... – O, pəncərədən küçəyə baxdı. – Heyif, yağış kəsdi. Dünən yaxşı idi: ucundan tut, göyə çıx... İndi kim isə aparır...



Ravik pəncərənin qabağında onunla üzbəüz oturdu. «Qəribədir, – deyə fikirləşdi, – həmişə elə bilirsən ki, ölümün pəncəsindən xilas olanlar ən xoşbəxt adamlardır. Ancaq, demək olar ki, heç biri özünü elə hesab eləmir. Bu da xoşbəxt deyil. Burada kiçik də olsa, möcüzə baş verib, onu isə sevindirən yağışda küçəyə çıxmamasıdır...»

– Lüsyen, nə yaxşı birbaşa bu xəstəxanaya gəldiniz?

Qız çəkinə-çəkin ona baxdı:

– Bir nəfər demişdi.

– Kim?

– Tanış idi.

– Hansı tanış?

Qız tərəddüd elədi. Sonra:

– O da burada olub, – dedi. – Qapıya qədər özüm gətirmişdim. O vaxtdan tanıyıram.

– Bu, nə vaxt olub?

– Mən gələndən bir həftə qabaq.

– Təşrih zamanı ölən qızı deyirsiniz?

– Bəli.

– Bununla belə, yenə bura gəldiniz?

– Bəli, – Lüsyen biganəliklə cavab verdi. – Nə üçün gəlməyəydim ki?

Ravik demək istədiyini uddu. Qızın balaca, donuq sifətinə baxdı. O sifət nə vaxtsa zərif olmuş, sonralar həyat onu belə vaxtsız kobudlaşdırmışdı.

– Siz də əvvəlcə həmin mamaçanın yanına getmişdiniz?

Lüsyen cavab vermədi.

– Bilmirəm, bəlkə də, həkimdir. Arxayınca deyə bilərsiniz. Onu heç tanımıram da...

– Əvvəlcə Mariya getmişdi. Bir həftə qabaq... Bəlkə də, on gün...

– Mariyanın başına nə gəldiyini bilə-bilə yenə ora getdiniz?

– Bəs nə edəydim? Risq etmək lazım idi. Özgə heç kəsi tanımırdım. Uşaq olsa, neyləyərdim? – O, pəncərədən baxdı. Üzbəüz evin eyvanında başına çətir tutmuş bir kişi dayanmışdı. – Mən hələ nə qədər qalacağam, doktor?

– Təxminən iki həftə?

– Hələ iki həftə də?

– Çox deyil ki! Nə olub?

– Hamısı puldur axı?

– Bəlkə, bir-iki gün tezləşdirə bildik.

– Elə bilirsiniz, onun pulunu verə biləcəyəm? O qədər pulum haradandır? Çox bahadır! Günü otuz frank...

– Bunu sizə kim deyib?

– Tibb bacısı.

– Hansı? Hə, əlbəttə, Ejeni...

– Bəli. Hələ deyirdi, təşrihlə sarğıların haqqı ayrı olacaq. Onlar çox bahadır?

– Təşrihin haqqını vermisiniz.

– Deyir ki, çox azdır.

– Tibb bacısı belə şeyləri dəqiq bilməz, Lüsyen. Sonra doktor Veberin özündən soruşsanız, yaxşı olar.

– İndidən bilsəm, yaxşıdır.

– Nəyə görə?

– Dəqiq hesablayıram ki, bunun üçün nə qədər işləməliyəm. – Lüsyen əllərinə baxdı. Barmaqları napnazik, göz-göz idi. – Hələ bir aylıq ev kirayəsi də verəsiyəm. Bura gələndə on üçü idi. On beşində çıxası idim. Heç nədən bir ay da üstünə gəldi...

– Elə bir adam yoxdur ki, sizə kömək eləsin?

Lüsyen başını qaldırdı. Həmin anda ən azı on il birdən qocaldı...

– Özünüz yaxşı bilirsiniz, doktor. Eşidəndə hələ acıqlandı da. Dedi ki, mənim belə səfeh olduğumu bilməyib, yoxsa yaxın gəlməzdi...

Ravik başını yırğaladı. Belə şeyləri çox eşitmişdi.

– Lüsyen, çalışaq, bəlkə, o mamaçadan bir şey qopara bildik. Axı onun günahı olub. Bircə adını bizə deyin.

Qız birdən dikəldi, sanki, bütün varlığı ilə kimdənsə qorunmağa çalışdı:

– Polis? Yox, özüm ilişərəm.

– Polissiz... Eləcə hədə-qorxu gələrik.

Qız acı-acı güldü:

– Heç nə qopara bilməzsiniz. Polad kimi möhkəmdir... Düz üç yüz frank verdim, axırı da belə... – O, kimononu sığalladı. – Adamın bəxti gətirməyəndə, gətirmir... – Qız bu sözləri elə dedi ki, elə bil, özündən yox, başqasından danışırdı.



– Əksinə, – Ravik etiraz etdi, sizin bəxtiniz lap yaxşı gətirdi!

* * *

Ejenini cərrahiyyə otağında tapdı. Qız yenə də nikelli alətləri silə-silə parıldadırdı. Bu, onun ən sevimli məşğuliyyətlərindən biri idi və işə elə qapılmışdı ki, Ravikin gəldiyini hiss eləmədi.

– Ejeni!

Qız diksindi.

– Ah, sizsiniz? Gərək, adamı mütləq qorxudasınız?

– İnanmıram, məndə elə zəhm olsun. Ancaq siz də xəstələri qonorarla, müalicə haqqı ilə qorxutmayın.

Ejeni, əlində əsgi, dikəldi:

– O fahişə nə tez xəbərçilik eləyib?!

– Ejeni, bundan özünə çörəkpulu çıxaranlarla müqayisədə, ömründə kişi görməmiş qadınların çoxu fahişədir. Hələ ərli arvadları demirəm. Bir də ki o, xəbərçilik eləməyib. Sadəcə olaraq, onun bu gününü korlamısınız, vəssalam...

– Paho bilməmişdik! O cür işlərlə məşğul olasan, özün də...

«Ay səni... ikiayaqlı əxlaq katexizisi[1]... – Ravik ürəyindən keçirdi. – Nəciblikdən dəm vuran alçaq lovğa... Sən, ondan əvvəl rəfiqəsini qanına bələyən mamaçanın yanına gedən, sonra da onun öldüyü xəstəxanaya gəlib, elə təkcə «nə edəydim?», «pulu haradan verəcəyəm?» deyən bu cəsur, zavallı qızcığazın dərdini haradan başa düşəsən?!»

– Siz, gərək, indiyə kimi ərə getmiş olaydınız, Ejeni! Ya uşaqlı dul kişiyə, ya da qəbirqazana...

– Müsyö Ravik! – Qız qürurla cavab verdi. – Bəlkə, mənim şəxsi işlərimə qarışmayasınız? Yoxsa cənab doktor Veberə şikayət edəsi olacağam!

– Onsuz da bunu hər gün eləyirsiniz. – Ravik razılıqla onun allanmış yanaqlarına baxdı. – Niyə mömin adamlar təsadüfi hallarda həqiqətpərəst olurlar, Ejeni? Ən yaxşı xasiyyətlər həyasız adamlara verilib, ən dözülməz adamlar isə idealpərəstlərdir. Bu, sizi heç düşünməyə vadar etmir?

– Allaha şükür ki yox!

– Elə olduğunu mən də bilirdim. İndi isə taleyin bədbəxt bəndələrinin yanına gedirəm. Yəni «Oziris»ə... Ona görə deyirəm ki, bəlkə, doktor Veberə lazım oldum...

– İnanmıram, doktor Veberə lazım olasınız...

– Bakirəlik hələ uzaqgörənlik demək deyil, Ejeni! Bilmək olmaz, birdən lazım olaram. Təxminən, beşə qədər orada olacağam, sonra da mehmanxanaya gedəcəyəm.

– Əcəb mehmanxanadır! Yəhudi tövləsi...

Ravik geri döndü:

– Ejeni, qaçqınların hamısı yəhudi deyil. Yəhudilərin çoxu da yəhudi deyil! Elə adam birdən yəhudi çıxır ki, ağlına gətirməzsən. Mən hətta bir zənci yəhudi də tanıyıram. Kimsəsiz, yazıq adam idi, Çin xörəklərini xoşlayırdı. Dünyanın belə işləri də var...

Qız cavab vermədi. İndi də par-par parıldayan nikelli məcməyini təmizləyirdi...

* * *

Ravik onu görəndə, Buaser küçəsindəki qəlyənaltıda oturub sellər-sular oynayan pəncərədən çölə baxırdı. Qəflətən, elə bil, başına bir qazan qaynar su töküldü. Əvvəlcə

---

[1] *Katexizis* – xristianların sual-cavab şəklində olan dini kitabı

lap şok vəziyyətinə düşdü, nə olduğunu kəsdirə bilmədi. Lakin birdən sıçrayıb qalxdı, stolu yana itələyib, ağzına kimi dolu zalla qapıya tərəf yüyürdü. Sanki, başına hava gəlmişdi.

Kimsə qolundan bərk-bərk yapışdı. Geri döndü, heç nə anlamadı:

– Nədir? Nə olub?

Onu tutan xidmətçi idi.

– Pul vermədiniz, müsyö!

– Nə? Hə, bu dəqiqə qayıdıram... – Qolunu dartıb çıxardı.

Xidmətçi qızardı:

– Bizdə elə qayda yoxdur. Siz...

– Alın... – Ravik cibindən pul çıxarıb, onun üstünə tulladı və özünü qapıya vurdu... Bir dəstə adamı yarıb, tini sağa buruldu, Buaser küçəsi ilə yüyürməyə başladı...



Kimsə arxasınca söydü. Bir az özünə gəldi, daha yüyürməyib, diqqəti özünə cəlb etməmək üçün yeriməyə başladı. «Ola bilməz! – Ürəyindən keçirdi. – Heç ola bilməz! Mən ağlımı itirmişəm... Ola bilməz! Bu sifət... onun sifəti... oxşatmışam... Ah, bu lənətə gəlmiş oxşarlıq! Əsəblərim məni oynadır... O, Parisdə ola bilməz... Almaniyadadır... Berlindədir... Şüşə tamam su idi, yaxşı seçə bilməmişəm. Deyəsən, yanılmışam... Yəqin, elədir...»

Kinodan çıxmış adamların arası ilə tələsir, çatdıqca diqqətlə bir-bir hamının üzünə, şlyapasına baxır, gah təəccüblü, gah da narazı baxışlarla rastlaşırdı. Getdikcə başqa sifətlər. Başqa şlyapalar... Boz, qara, göy şlyapalar... Onları bir-bir ötüb keçir, çevirilib baxır, baxırdı...

Kleber prospektinə çatanda dayandı. Hə, qadın... Yanında da it... Birdən yadına düşdü! O da arxasınca gəlirdi... Həmin qadını çoxdan ötüb keçmişdi. Tez geri qayıtdı. Qadını uzaqdan görəndə səkinin kənarına çəkildi. Əllərini cibində yumruqlayaraq, diqqətlə, bircə-bircə yanından keçən adamlara baxdı. İt fənər asılmış tirin yanında dayandı, onu imsilədi, yavaş-yavaş ayağının birini qaldırdı. Küçəni «sulayandan» sonra qaçmağa başladı. Ravik birdən hiss elədi ki, boynundan tər sel kimi axır. Bir neçə dəqiqə gözlədi, ancaq o görünmürdü... Küçədə dayanmış maşınların içinə baxdı. Heç kəs yox idi. Geri qayıdıb Kleber prospektindəki metroya qədər getdi. İçəri girib bilet aldı, aşağı düşüb

perronda gəzişdi. Adam çox idi. Bir qatar gəlib dayandı, sonra tuneldə yox oldu. Perron boşaldı.

Yavaş-yavaş bistroya qayıtdı. Yenə bayaqkı stol arxasında oturdu. Yarım qədəh kalvadosu hələ də dururdu. Onun indiyəcən burada qalması Ravikə yaman qəribə gəldi...

Xidmətçi çəkinə-çəkinə ona yaxınlaşdı:

– Bağışlayın, müsyö, bilmədim...

– Yaxşı, yaxşı, – Ravik onun sözünü kəsdi. – Mənə bir qədəh ayrı kalvados gətirin.

– Başqasını? – Xidmətçi stolun üstündəki yarımçıq qədəhə baxdı. – Bunu içməyəcəksiniz?

– Xeyr, ayrısını gətirin.

Xidmətçi qədəhi götürüb iylədi.

– Bu, yaxşı deyil?

– Yaxşıdır... Ancaq ayrısını gətirin.

– Baş üstə, müsyö.

«Yanılmışam, – Ravik ürəyindən keçirdi. – Şüşələr sulu idi, yarısı tutulmuşdu. Yaxşı seçmək olardımı?» Nəzərlərini pəncərəyə, sonra da küçəyə zillədi, diqqətlə pusquda durmuş ovçu kimi gəlib-gedənlərə baxdı və həmin anda köhnə xatirələr təzədən oyandı, kölgəli, tutqun kino lenti kimi gözləri önündə bir-bir keçməyə başladı...

...Berlin. 1934-cü ilin yay axşamı. Gestaponun binası... Qan... Pəncərəsiz, bomboş otaq... Elektrik lampalarının gözqamaşdırıcı işığı... Qana bələnmiş, kəmərli stol... Huşunu itirəndə başını vedrəyə soxmaları, nəfəsinin daralması və sonra da gecələr ayılması. Böyrəkləri, elə bil, qopub içinə düşmüşdü, daha ağrımırdı. Sibillanın əzilmiş, tanınmaz sifəti... Bir neçə mundirli cəllad onu tutub, biri də gülümsəyir, iltifatla, boynuna almasa, arvadını nələr gözlədiyini deyir. Sibillanın meyiti üç gündən sonra tapıldı. Guya, özünü asımışdı...

Xidmətçi əlindəki qədəhi stolun üstünə qoydu:

– Başqa növdür, müsyö. Köhnədən qalmadır.

– Yaxşı, yaxşı, təşəkkür edirəm. – Ravik qədəhi başına çəkdi. Cibindən bir qutu siqaret çıxardı, birini götürüb yandırdı. Əlləri hələ də titrəyirdi. Kibrit çöpünü yerə atıb, bir qədəh də kalvados sifariş verdi.

Ona elə gəlmişdi ki, həmin o təbəssümlü sifət idi gözünə görünən. Yox, ola bilməzdi! Ola bilməz ki, Haake Parisə gəlsin. Ola bilməzdi!

Xatirələri qovmağa çalışdı. Əlindən bir iş gəlməyə-gəlməyə özünü bu kökə salmağın nə mənası? Onun da vaxtı var. Onların işi bitəndə... Geri qayıdanda... O vaxta qədər...

Xidmətçini çağırıb pulunu verdi. Yolda nə qədər çalışdısa da, yenə diqqətlə yanından ötüb keçənlərin üzünə baxırdı...

* * *

Morozovla «katakomba»da oturmuşdu.

– Onun olduğuna inanmırsan? – Morozov soruşdu.

– Yox. Ancaq, elə bil, özü idi. Yəqin, çox oxşayırmış. Ya da yaddaşım korlanıb.

– Heyif ki, qəlyənaltıda olmusan.

– Hə...

Morozov bir anlığa susdu və sonra dedi:



– Adamı lap dəli eləyir. Düzdür?

– Yox, nəyə görə?

– Ona görə ki, dəqiq bilmirsən.

– Bilmirəm.

Morozov yenə susdu.

– Yenə qara basır, – Ravik sözünə davam etdi. – Elə bilirdim, ondan canım qurtarıb.

– Belə şeydən heç vaxt yaxa qurtarmaq olmaz. Mənim də başıma gəlib. Xüsusilə, ilk günlərdə! İlk beş-altı ildə! Üçünü Rusiyada tutacağam. Yeddi idilər. Dördü ölüb. İkisini elə öz partiyasında olan adamlar güllələyib. Düz iyirmi ildən çoxdur gözləyirəm. 1917-ci ildən. Sağ qalanlardan birinin yetmiş, ikisinin isə qırx-əlli yaşları var. Çox güman ki, onları tutacağam, atamın heyfini alacağam.

Ravik Borisə baxdı. Yaşı altmışı keçsə də, çox gümrah görünürdü.

– Tapacaqsan...

– Hə... – Morozov yumruqlarını düyünlədi. – Elə onu gözləyirəm. Ona görə də ehtiyatla gəzib-dolanıram. Daha içməyi də azaltmışam. Bəlkə, çox çəkəsi oldu. Gərək, qolumda qüvvə qalsın. Güllə ilə, bıçaqla eləmək istəmirəm.

– Mən də...

Onlar bir xeyli oturdular.

– Şahmat oynayaqmı? – Morozov soruşdu.

– Oynayaq. Ancaq gözümə boş taxta dəymir.

– Professor indicə qurtaracaq. Levi ilə oynayırdı. Yenə də uddu.

Ravik şahmatı gətirməyə getdi.

– Siz çox oynamısınız, professor, – dedi. – Demək olar ki, bütün günü...

Qoca başını tərpətdi.

– Adamın fikrini dağıdır. Şahmat kartdan ağıllı oyundur. Kartda bəxtin gətirə, ya gətirməyə... Ona görə də adamın fikrini dağıtmır. Şahmat isə bir aləmdir. Onu oynayanda xarici aləm yaddan çıxır. – O, batıq gözlərini qaldırdı. – Xarici aləm də hələ kamala yetməyib.

Onun rəqibi Levi isə mızıldadı, lakin tez də səsini kəsib, qorxa-qorxa yan-yörəsinə boylandı, sonra professorun dalınca getdi.

Onlar iki partiya oynadılar. Sonra Morozov ayağa durdu:

– Vaxtdır, gedim, bəşəriyyətin çiçəklənməsi üçün qapıları açım. Sən niyə heç biz tərəflərdə görünmürsən?

– Bilmirəm. Təsadüfidir...

– Sabah axşam necə?

– Sabah axşam gələ bilmərəm. Yeməyə gedəcəyəm. «Maksim» restoranına...

– Bura bax, sən, elə bil, qaçqın deyilsən, başını hər yerə soxursan. Parisin ən yaxşı restoranlarına ayaq açmısan.

– Elə yerlər çox etibarlıdır, Boris. Özünü qaçqın kimi aparsan, tez ələ keçərsən. Sən, gərək, belə şeyləri yaxşı biləsən, ay daşdan keçən pasport sahibi Morozov!

– Elədir! Bəs kiminlə gedəcəksən? Yoxsa, alman səfiri ilə onun havadarı kimi gedirsən?

– Ket Heqstremlə.

Morozov fit çaldı.

– Hə... ə... Ket Heqstrem... Qayıdıb?

– Sabah tezdən Vyanadan gələcək.

– Demək, ondan sonra gələcəksən.

– Bəlkə də, gəlmədim.

Morozov əlini yellətdi.

– Ola bilməz! Ket Heqstrem Parisə gələndə əsas iqamətgahı «Şəhrizad» olur.

– İndi vəziyyət ayrı cürdür. Xəstəxanada yatmağa gəlir. Bir-iki günə təşrih olunacaq.

– Elə ona görə də mütləq gələcək. Sən qadınları yaxşı tanımırsan. – Morozov gözlərini süzdürdü. – Yoxsa ora gəlməyini istəmirsən?

– Niyə?

– İndi yadıma düşdü ki, o qadını mənim yanıma göndərəndən sonra oralara gəlməmisən. Joan Madunu deyirəm. Deyəsən, burada nəsə var.

– Boş şeydir! Onun orada olduğunu heç bilmirdim. Bir işə yaradı?

– Hə, əvvəlcə xorda oxudu. İndi kiçik bir solo nömrəsi var. İki, ya üç mahnıdır.

– Oralara öyrəşə bildimi?

– Əlbəttə! Niyə öyrəşməsin ki?

– Ümidini tamam itirmişdi. Yazıq qız...



– Nə dedin?

– «Yazıq qız» dedim.

Morozov gülümsədi və atalıq qayğısı ilə:

– Ravik! – dedi, həmin anda onun üzündə bu dünyanın bomboz səhraları, yamyaşıl çəmənləri, bütün sevinci və ağrı-acısı əks olundu. – Boş-boş danışma! O, çox dəhşətli bir iblisdir!

– Nə?

– Fahişə yox, iblisdir. Rus olsaydın, bilərdin.

Ravik güldü:

– Onda, yəqin, çox dəyişib. Hələlik, Boris, Allah özü sənin o iti gözlərini saxlasın!

## VII

– Xəstəxanaya nə vaxt getməliyəm, Ravik? – deyə Ket Heqstrem soruşdu.

– Nə vaxt istəyirsiniz. Sabah, birisi gün, nə vaxt olsa... Bir gün elə, bir gün belə heç nə eləməz...

İndi onunla üzbəüz dayanmış Ket arıq, qəddi-qamətli, inamlı, qəşəng bir qız idi və həmişəki kimi çox cavan görünürdü...

Ravik iki il qabaq onu kor bağırsaqdan təşrih eləmişdi.

Bu, onun Parisdə ilk təşrihi idi. Ketin ayağı yüngül oldu, elə həmin gündən işləməyə başladı, polisə düşmədi. İndi o qız Ravik üçün tilsimə bənzər bir şey idi.

– Bu dəfə qorxuram, – Ket dilləndi. – Özüm də bilmirəm niyə... Ancaq qorxuram!

– Nahaq qorxursunuz, su içmək kimi bir şeydir.

Ket pəncərəyə yaxınlaşıb çölə baxdı. Bu tərəf «Lankaster» mehmanxanasının həyəti idi. Nəhəng, qocaman şabalıd ağacı arıq qollarını su ələnən səmaya doğru uzatmışdı...

– Bu yağış da bir yandan... Mən Vyanadan çıxanda başladı. Sürixdə ayıldım, hələ də yağırdı. İndi də burada tökür... – Ket pərdələri çəkdi. – Heç bilmirəm mənə nə olub. Deyəsən, qocalıram...

– Adam cavan olanda, həmişə elə bilir.

– Mən başqa cür olmalıydım. İki həftədir, boşanmışam. Gərək, kefim kök olaydı. Ancaq yaman yorğunam. Hər şey təzədən təkrar olunur, Ravik. Görəsən, niyə belədir?

– Heç nə təkrar olunmur, Ket. Biz özümüz özümüzü təkrar edirik, vəssalam.

Ket gülümsəyərək, süni buxarının yanındakı divanda oturdu.

– Yaxşı ki, qayıtdım, – dedi, – Vyana dustaqxanaya dönüb. Adamın qanı qaralır. Almanlar onu yaman ayaqladılar, Ravik. Avstraliyalılar da onlara qoşuldular. Avstraliyalılar da, Ravik! Elə bilirdim, təbiətin səhvidir, Avstriyada nasizm olmaz. Ancaq öz gözümlə gördüm!

– Burada təəccüblü heç nə yoxdur. Hökmranlıq dünyanın ən tez yoluxan xəstəliyidir.

– Elədir. Həm də insanları ən çox şikəst eləyən xəstəlikdir. Elə ona görə də boşandım. Evləndiyimiz ikicə il idi. Əlindən heç nə gəlməyən bu avara birdən-birə bör-bör böyürən şturmbanfürer oldu, qoca professor Bernştayna küçəni yudurtdu, gendən ona baxıb güldü. Bernştayn bir il bundan qabaq onu böyrək iltihabından müalicə eləmişdi. Bəhanəsi də bu oldu ki, guya, qonorarı çox olub... – Ket dodaqlarını büzdü. – Onu da mən vermişdim, o yox...

– Sevinin ki, ondan canınızı qurtarmısınız.

– Boşanmaq üçün iki yüz əlli şillinq istəyirdi.

– Baha deyil! Pulla başa gələn hər şey ucuz düşər.

– Ancaq heç nə vermədim! – Ket başını qaldırdı. Onun zərif, yaraşıqlı sifətini, elə bil, zərgər işləmişdi. – Özü, partiyası, füreri haqqında ürəyimdə nə var idisə, hamısını bircə-bircə üzünə oxudum. Dedim ki, bundan sonra lap açıq danışacağam. Məni gestapo, həbs düşərgəsi ilə hədələdi. Güldüm, dedim ki, hələ Amerika vətəndaşı kimi səfirliyin himayəsindəyəm, heç nə eləyə bilməzlər, mənə evlənməyin isə özün üçün pisdir! – O güldü. – Bunu gözləmirdi. Daha zəhləmi tökmədi.

«Ah, səfirlik, himayə, tanışbazlıq...» – Ravik ürəyindən keçirdi. Qız, elə bil, başqa planetdən danışırdı...

– Çox maraqlıdır, – dedi, – nə yaxşı, Bernştayna hələ də işləməyə icazə verirlər?

– Daha qoymurlar. Məndə də birinci dəfə qanaxma olanda, xəlvəti yoxladı. Allaha şükür ki, uşağa qalmaq olmazdı. Yox bir... nasistdən uşağa da qalaydım... – O çimçəşdi.



Ravik ayağa durdu:

– Mən gedim. Veber günortadan sonra sizə baxacaq. Elə-belə, forma xatirinə...

– Bilirəm. Buna baxmayaraq, bu dəfə yaman qorxuram.

– Ket, birinci dəfə deyil ki! Kor bağırsaqdan da asandır. – Ravik nəvazişlə əlini onun çiyninə qoydu. – O, mənim Parisdə ilk təşrihim idi. Bu da ilk məhəbbət kimi bir şeydir, qorumaq lazımdır. Bu, bir yana, siz mənim bəxt ulduzumsunuz, mənə xoşbəxtlik gətirmisiniz və yenə də gətirməlisiniz!

– Elədir, – deyə Ket onun üzünə baxdı.

– Yaxşı, hələlik, Ket. Saat səkkizdə gəlib götürərəm.

– Hələlik, Ravik. Mən də indi «Maynboşa» gedirəm. Gedim, özümə abırlı bir paltar alım, bu kəsalətdən çıxmaq lazımdır. İndi, elə bil, tikan üstə oturmuşam. Ah, Vyana... – O, acı-acı güldü. – Arzular beşiyi...

Ravik liftlə düşərək, barın yanından keçib, dəhlizə çıxdı. Orada bir neçə amerikalı oturmuşdu. Lap ortada, stolun üstündə bir dəstə qladiolus var idi və bomboz, seyrək işıqda qana oxşayırdı. Ancaq yaxınlaşanda gördü ki, lap təzədir, bayırdan düşən tutqun işıqda elə görünürmüş...

* * *

Əyninə qızılı haşiyəli frak geymiş Boris Morozov «Şəhrizad»ın qabağında dayanmışdı və taksinin qapısını da özü açdı. Əvvəlcə Ravik düşdü. Morozov qımışdı:

– Elə bilirdim, daha buralara gəlməyəcəksən.

– Gəlmək də istəmirdim...

– Mən gətirmişəm, Boris, – deyə Ket Morozovu qucaqladı. – Allaha min şükür ki, yenə sizinlə bir yerdəyəm.

– Sizdə rus ürəyi var, Katya. Bircə Allah özü bilir, siz niyə Bostonda dünyaya gəlmisiniz. Gəl, Ravik, – Morozov qapını açdı. – İnsanlar niyyət eləməkdə ustadırlar, ancaq onu həyata keçirəndə zəif olurlar. Bizim bədbəxtliyimiz də elə bundadır.

«Şəhrizad» Qafqaz üslubunda bəzədilmişdi. Xidmətçilər rus idilər və qırmızı rəngli çərkəzi çuxa geymişdilər. Orkestrda çalıb-oxuyanlar da ruslar, rumın qaraçılar idi. Müştərilər divar boyu düzülmüş taxtlarda oturdular. Hərəsinin də qarşısında balaca bir stol qoyulmuşdu. Zal alaqaranlıq idi və içəridə xeyli adam oturmuşdu.

– Nə içəcəksiniz, Ket? – Ravik soruşdu.

– Araq. Qoy qaraçılar da çalıb-oynasın. Hərbi marş üstündə «Vyana meşələri»nə qulaq asdığım yetər. – O, ayaqqabılarını çıxarıb, taxtda bardaş qurdu. – Yorğunluq keçib getdi, Ravik. Paris məni bir-iki saatın içindəcə dəyişdi. Ancaq hələ də elə bilirəm, həbs düşərgəsindən yenicə qaçmışam. Təsəvvür edirsən?

Ravik ona baxdı:

– Təxminən, bəli... – dedi.

Çərkəzi çuxalı xidmətçi balaca şüşədə araq və qədəh gətirdi. Ravik qədəhləri doldurub, birini Ketə uzatdı. Qız onu su kimi başına çəkdi, qədəhi yerinə qoyub, yan-yörəsinə baxdı:

– Əsl taxtabiti məskənidir, – dedi və gülümsədi, – ancaq axşamlar tərkidünyalığın, xəyalların oylağına çevrilir. – O, geri söykəndi. Stolun altından süzülən zəif işıq onun üzünə düşürdü. – Niyə belədir, Ravik? Gecələr hər şey belə al-əlvan görünür, hər şey asanlaşır, adama elə gəlir ki, nə istəsə eləyə bilər. Həqiqətdə eləyə bilmədiyini isə xəyallarında eləyirsən. Niyə belədir?

Ravik gülümsədi:

– Xəyallar bizə ona görə lazımdır ki, onlarsız həyata dözə bilmərik.

Orkestrdə alətləri kökləməyə başladılar. Kvint və skripka dınqıltısı eşidildi.

– Ancaq siz heç xəyalların aldatdığı adama oxşamırsınız, Ravik.

– Adam özünü həqiqətlə də aldada bilər. Bu lap təhlükəli xəyaldır.

Orkestr çaldı. Əvvəlcə simbal başladı. Qaranlığın köksündən qopan ahəstə, həzin melodiya simlərin kövrək iniltisinə qarışdı, sonra skripkalar da ona qoşuldu...

Qaraçı yavaş-yavaş rəqs meydançası ilə onlara tərəf gəldi. Skripkanı çiyninə sıxaraq, dayanıb təbəssümlə, sirayətedici nəzərlərlə onlara baxırdı. Üzünü də ona söykəmişdi və güclə seçilən sir-sifətindən hərislik yağırdı. Əlində skripka olmasaydı, deyərdin, mal-heyvan alverçisidir, ancaq indi yetim səhraların, xatirəyə dönmüş gecələrin, nəhayətsiz ənginliklərin – bir sözlə, gerçək olmayan şeylərin bu dünyadakı elçisidir...



Həzin melodiya sərin bulaq suyu kimi Ketin üz-gözünə, bütün varlığına çilənirdi. Qulağına əks-səda gəldi, ancaq onu çağıran yox idi. Pıçıltılı səslər eşitdi, kövrək xatirələr qanad çaldı, nəsə zərxara kimi işıldadı, ancaq birdən hamısı burulğana düşdü, dalğa-dalğa çəkilib yox oldu. Heç kim onu çağırmırdı. Heç kimsə...

Qaraçı baş əydi, Ravik stolun altından onun ovcuna pul basdı. Ket, sanki, yuxudan ayıldı:

– Heç xoşbəxt olmusunuzmu, Ravik?

– Ço.. o.. x!

– Onu demirəm. Mən əsl xoşbəxtliyi nəzərdə tuturam: özündə olmayasan... Hər şeyi unudasan... Bütün varlığınla onun olasan...

Ravik Ketin titrəyən zərif sifətinə baxdı. O yalnız bircə xoşbəxtlik tanıyırdı. Özü də ən kövrəyini – məhəbbəti... Heç nəyi yox, yalnız məhəbbəti!

– Çox olmuşam, Ket, – deyən Ravik tamam başqa şeyi nəzərdə tuturdu və eyni zamanda bilirdi ki, heç o da xoşbəxtlik deyil.

– Siz məni başa düşmək istəmirsiniz, ya da bu haqda danışmağa qorxursunuz. Orkestrdə oxuyan kimdir?

– Tanımıram. Çoxdandır buralara yolum düşmür.

– Buradan görünmür. Qaraçıların yanında da deyil. Yəqin, hansı stol arxasında oturub.

– Qonaqlardan olar. Burada elə şeylər çox olur.

– Qəribə səsi var. Həm kədərlidir, həm də çılğın.

– Mahnıları elədir.

– Bəlkə də, mən özüm eləyəm. Nə oxuduğunu başa düşürsünüz?

– «Ya vas lyubil» «mən səni sevirdim» deməkdir. Puşkinin sözləridir.

– Rusca bilirsiniz?

– Morozov bir-iki söz öyrədib. Çoxu da söyüşdür. Söymək üçün rus dilinin əvəzi yoxdur.

– Siz özünüz haqda danışmağı sevmirsiniz, elə deyilmi?

– Heç fikirləşməyi də xoşlamıram.

Ket bir anlığa susdu, sonra dedi:

– Hərdən mənə elə gəlir ki, o günlər daha keçib getdi. Qayğısızlıq da, ümid də... keçmişdən qalan nə var idisə, hamısı...

Ravik gülümsədi:

– Keçib getməyib, Ket. Həyat adi şey deyil. Əksinə, çox mürəkkəbdir. Nə qədər ki nəfəsimiz var, demək, onlar da var.

Ket Raivkə heç qulaq asmırdı.

– Məni tez-tez vahimə basır, Ravik. Heç özüm də bilmirəm nədir. Çox qəribə qorxudur. Bax, məsələn, mənə elə gəlir ki, buradan çıxanda görəcəyik ki, dünya qopur. Sizdə də belə şeylər olur?

– Olur, Ket. Bu, hamıda olur. Avropada xəstəlikdir. İyirmi ildir yaranıb.

Qız susdu.

– Daha rusca oxumur. – Ket diqqətlə musiqiyə qulaq asırdı.

– Xeyr, italyancadır. «Santa Luçiya Luntana»dır...

Projektorun işığı gəzə-gəzə skripkanın üstündən keçib balaca bir stola tərəf gəldi. Ravik oxuyan qadını gördü. Joan Madu idi. Təkcə oturub, əlini stola söykəmişdi, harasa uzaqlara baxırdı, xəyal dəryasına cummuşdu və sanki, burada tək idi. Dümağ işıqda sifəti solğun görünürdü. Ancaq Ravikin o vaxtlar gördüyü məchulluqdan, ölgünlükdən əsər-əlamət yox idi. Ravik birdən həmin üzdə cazibədar, kövrək bir gözəllik gördü və yadına düşdü ki, bunları bir dəfə də onun yanında qaldığı gecə ötəri görüb. Ancaq onda elə bilmişdi ki, sərxoşluq gözünü tutub və həmin dəqiqə də

o gözəllik solmuş, qeybə çəkilmişdi. İndi təzədən qayıtmışdı və ondakından da betər idi...

– Sizə nə oldu, Ravik?

Onun baxışları geri qayıtdı.

– Heç nə. Mahnı tanışdır. Neapol haqqında sentimental mahnıdır.

– Keçmiş xatirələri oyatdı?

– Xeyr, mənim xatirəm yoxdur.

Bu sözlər onun istədiyindən kəskin çıxdı və Ket diqqətlə Ravikin üzünə baxdı:

– Hərdən sizə nə olduğunu lap dəqiq bilmək istəyirəm, Ravik.

Ravik əlini yellədi.

– Mən də başqaları kimi. Bu dünya gözlənilməz macəralarla doludur. Qaçqınların məskən saldığı mehmanxanaların hamısında var. Hərənin də taleyi bir cürdür. Aleksandr Düma, Viktor Hüqo üçün bunlar sensasiya olardı. Ancaq indi onlara qulaq asanda adamı əsnəmək tutur. Sizə araq süzmüşəm, Ket. Sakit, dinc yaşamaq bu günün ən böyük macərasıdır.



Orkestr oyun havası çalır, ancaq yaxşı alınmırdı. Qonaqlardan bir-ikisi oynamağa başladı. Joan durub qapıya tərəf getdi. Elə gedirdi ki, deyərdin, ondan başqa zalda adam yoxdur. Birdən Ravikin yadına Morozovun sözləri düşdü. Joan düz onların yanından keçdi. Ravikə elə gəldi ki, hətta qız onu gördü. Ancaq Joanın baxışları, yad adamlar kimi, onun üstündən sürüşüb, başqa səmtə yönəldi və o, zaldan çıxdı.

– Bu qadını tanıyırsınız? – deyə Raviki diqqətlə müşahidə edən Ket soruşdu.

– Xeyr.

## VIII

– Görürsünüzmü, Veber? – Ravik soruşdu. – Bax, bu... bu...

Veber yaraya tərəf əyildi.

– Bəli...

– Bu balaca vəzlərə baxın... Budur... Nə xora deyil, nə də bitişmə.

– Xeyr...
Ravik dikəldi.
– Xərçəngdir, – dedi, – yüz faiz xərçəngdir. Çoxdandır belə şeyə rast gəlmirdim. Güzgü ilə müayinə bir şey göstərmir, əllə yoxlayanda görürsən ki, yan tərəf yumşaqdır, bir az da şişib. Elə bilirsən, ya kistadır, ya da mioma, elə qorxulu şey deyil. Ancaq kəsməmiş işləmək olmur. Yarıb, içəridə gözlənilmədən xərçəng tapırsan.
Veber ona baxdı:
– Fikriniz nədir?
– Bir az kəsib götürək, biopsiya eləyək. Bassion laboratoriyadadır?
– Əlbəttə...
Veber tibb bacısına laboratoriyaya zəng vurmağı tapşırdı. Başqa şeyin xeyri yoxdur. Ən dəhşətlisi də odur ki, özü heç nə bilmir.
– Nəbzi necədir? – Ravik bihuşdarı verən tibb bacısından soruşdu.
– Qaydasındadır. Doxsan...
– Qan təzyiqi?
– Yüz iyirmi.
– Yaxşı, – Ravik cərrahiyyə stolunda Trendelenqburq üsulunda uzadılmış Ketə baxdı. – Özü əvvəlcədən bilməli idi, razılıq verməliydi. Onun bədənində istədiyimiz yeri kəsib götürməyə ixtiyarımız yoxdur. Yoxsa var?
– Qanuna görə, yoxdur. Yoxsa var?
– Məcbur olduq. Aşağıdan qaşıyıb təmizləmək mümkün deyil, indi isə tamam başqa təşrih alındı. Uşaqlığı kəsib götürmək qaşıyıb təmizləmək deyil.
– Zənnimcə, o, sizə inanır, Ravik.
– Bilmirəm. Bəlkə də, elədir... Ancaq razılıq verərdimi? – O, dirsəyi ilə ağ xalatın üstündən taxdığı rezin önlüyü düzəltdi. – Hər halda, çalışacağam ki, bir əlac eləyim. Histroktamiyanı sonra da eləmək olar. Ejeni, bıçağı...
Kəsiyi göbəyə qədər uzatdı, xırda qan damarlarını sıxdı, böyüklərini isə ikiqat ipək sapla tikdi, başqa bir bıçaq götürüb fassiyanı kəsdi. Onun altındakı əzələləri bıçağın arxası ilə ayırdı, pertenimu qaldırıb, qarın boşluğunu açdı.
– Ayırıcı!
Tibb bacısı onu hazır tutmuşdu və ucuna ağır daş

bağlanmış zənciri Ketin ayaqları arasına saldı, üfürülən lövhəni ona bərkitdi.

– Dəsmal!

Ravik yaranın yan-yörəsinə nəm, isti dəsmal düzdü, korsanqı ehtiyatla ora yeritdi. Sonra başını qaldırdı.

– Bura baxın, Veber... Bir də bura... Görürsünüz, necə bərkiyib?! Qalın, möhkəm kütlədir. Heç nə eləmək olmaz, lap dərinə işləyib.

Veber diqqətlə Ravik göstərən yerə baxdı.

– Bir buna baxın, – Ravik sözünə davam etdi, – arteriyaları bağlaya bilmərik, çox nazikdir. Hələ metastaz da verib. Ümid yoxdur.

Ehtiyatla həmin yerdən nümunə kəsib götürdü.

– Bassion laboratoriyadadır?

– Bəli. – Tibb bacısı cavab verdi. – Zəng vurmuşdum, gözləyir.



– Yaxşı, göndərin. Nəticəni gözləyək. On dəqiqə ancaq çəkər.

Veber dedi:

– Deyin ki, zəng vursun. O dəqiqə vursun. Təşrihi dayandırırıq.

Ravik dikəldi:

– Nəbzi necədir?

– Doxsan beş.

– Qan təzyiqi?

– Yüz on beş.

– Oldu. Veber, mənə elə gəlir ki, razılıq haqda fikirləşmək lazım deyil. Artıq heç nə eləmək olmaz.

Veber başını tərpətdi.

– Tikmək lazımdır. – Ravik sözünə davam etdi. – Uşağı götürmək, vəssalam! Sonra da tikmək və özünə heç nə deməmək!

Bir anlığa dayanıb, dümağ dəsmalların arasındakı açıq yaraya baxdı. Gur işıq dəsmalları daha da ağ göstərirdi. Elə bil, yenicə yağmış qar idi, arasıdan görünən qanlı yara isə, sanki, ağzını geniş açıb əsnəyirdi. Nəsə görünmədən, bilinmədən onu için-için yemiş və otuz dörd yaşlı, şıltaq, incə, şax qamətli, həyat həvəsli Ket Heqstermi ölümə məhkum eləmişdi...

Yenə cansız cəsədə tərəf əyildi:

– Biz hələ...

Uşaq! Bu doğram-doğram olmuş bədəndə heç nədən xəbəri olmayan balaca bir varlıq yavaş-yavaş böyüyürdü. Demək, o da ölümə məhkum olmuşdu. O, hələ anasının qanından yeyir, şirəsindən sorurdu ki, böyüyüb bu dünyaya gəlsin, ya əsgər, ya da kiminsə qatili olsun. Bir sözlə, insan olsun, yaşasın, sevinsin, kədərlənsin, uçurub dağıtsın... – Əlindəki alət ehtiyatla görünməyən yerlərlə irəlilədi, onu tapdı, astaca oradan qopardı, çölə çıxardı. Və hər şey də qurtardı. Dünya işığı görməmiş, nəfəs almamış, sevinc-kədər dadmamış, böyüyüb başa çatmamış, heç yaranmamış öldü... İndi bir parça rəngi solmuş, ölmüş, qana bələnmiş ət parçası idi...

– Bassiondan xəbər çıxmadı?

– Hələ yox. İndi gələr...

– Bir-iki dəqiqə də gözləyə bilərik.

Ravik geri çəkildi:

– Nəbzi?

Ekranda Ketin gözlərini gördü. Bu gözlər ona dikilmişdi, ancaq heç nə soruşmurdu, sanki, hər şeyi bilir, yazıq-yazıq ona baxırdı. Birdən Ravikə elə gəldi ki, o ayılıb. Bir addım atıb dayandı. Ola bilməzdi! Ona elə gəlmişdi. Üzünə işıq düşübmüş...

– Nəbzi necədir?

– Yüz. Qan təzyiqi yüz on iki. Düşür...

– Vaxtıdır, – Ravik narahat oldu. – Bassion qurtarmalı idi.

Aşağıdan boğuq telefon zəngi eşidildi. Veber qapıya baxdı. Ravik o tərəfə heç baxmadı da. Sakitcə gözlədi. Qapı səsi eşitdi... Tibb bacısı gəldi.

– Elədir! – Bunu Veber dedi. – Xərçəngdir!

Ravik başını yırğalayıb, təzədən işə başladı. Sancaqları çıxardı, tikişləri sökdü, dəsmalları götürdü. Onun yanında dayanmış Ejeni alətləri sayırdı. Tikməyə başladı. Çox səliqə ilə, ustalıqla, dəqiq işləyirdi. Bütün diqqəti orada idi, heç nə haqda fikirləşmirdi. Qəbrin üstü örtüldü, dəri qatları bir-bir ağız-ağıza gəldi, üst dərinin də tikişini vurub dikəldi:

– Qurtardı.

Ejeni cərrahiyyə stolunu yenə maili vəziyyətə gətirdi. Ketin üstünü örtdü. Ravikin xatirləri yenə oyandı: «Şəhrizad»... Srağagün... «Maynboşdan» aldığı paltar... «Heç

xoşbəxt olmusunuzmu?», «Lap çox», «...qorxuram», «adi şeydir...», qaraçılar oynayır...

Qapını üstündən asılmış saata baxdı. On iki idi. Nahar vaxtı bütün idarələrin, fabriklərin qapıları açılır, sağlam adamlar dəstə-dəstə çölə axışır... Tibb bacıları xərəyi cərrahiyyə otağından apardılar. Ravik rezin əlcəkləri çıxarıb, vanna otağına getdi, yuyunmağa başladı.

– Siqareti atın! – Onunla yanaşı yuyunan Veber dilləndi. – Dodaqlarınızı yandırarsınız.

– Hə... təşəkkür edirəm. Bəs bunları ona kim deyəcək, Veber?

– Siz, – deyə Veber tərəddüd etmədən cavab verdi.

– Gərək, niyə yardığımızı başa salaq. Elə bilirdi, adi qayda ilə edəcəyik. Həqiqəti isə deyə bilmərik.

– Bir şey tapıb uydurarsınız. – Veber inamla dilləndi.

– Doğrudan? Tapa bilərəm?



– Əlbəttə! Hələ axşama kimi vaxtımız var.

– Bəs siz?

– Mənə inanmaz. Bilir ki, siz təşrih eləmisiniz, ona görə də sizdən soruşacaq. Mən desəm, əhvalı pozulacaq.

– Elədir.

– Başa düşmürəm, necə ola bilər ki, belə az vaxtda bu qədər böyüsün...

– Olur... Kaş ona nə deyəcəyimi biləydim!

– Bir şey taparsınız, Ravik. Deyərsiniz, kistadır, ya da mioma...

* * *

Gecə yenə xəstəxanaya getdi. Ket yatırdı. Axşamüstü oyanmış, qusmuş, təxminən, bir saat sakitləşə bilməmiş, sonra yenə yatmışdı.

– Heç nə soruşmadı?

– Xeyr, – deyə qırmızıyanaq tibb bacısı cavab verdi. – Huşu özündə deyildi, heç nə soruşmadı.

– Mənə elə gəlir, sabahacan yatacaq. Ayılıb soruşsa, deyərsiniz ki, hər şey qaydasındadır. Arxayınca yatsın. Lazım gəlsə, dərman verin. Bir şey olsa, ya doktor Veberə, ya da mənə zəng vurun. Harada olduğumu mehmanxanada biləcəklər.

Küçədə elə dayanmışdı ki, deyərdin, canını kiminsə əlindən yenicə qurtarıb. Bayaq inamla ona dikilən gözlərə baxa-baxa onu aldatmağa bir neçə saat qalmışdı... Birdən ona elə gəldi ki, ulduz kimi sayrışan bu gecə yaman istidir. Taleyin ona bağışladığı bu bir neçə mərhəmət saatı ağ göyərçin kimi qanad çala-çala gəlib onu həyatın dəhşətli girdabından qopardı. Elə bunun özü də bir yalan idi, tale adama heç nə bağışlamazdı. Sadəcə olaraq, müvəqqəti möhlət idi. Əslində, hər şey möhlət deyildimi?

Bistrolardan birinə girib, pəncərənin qabağındakı mərmər stol arxasında oturdu. Otaq siqaret tüstüsü, səs-küylə dolmuşdu. Xidmətçi gəldi.

– Bir qədəh «Dübene», bir qutu da «Kolonial» siqareti.

Ravik qutunu açdı, qara tənbəkidən doldurulmuş siqaretlərdən birini çıxarıb yandırdı. Qonşu stol arxasındakı fransızlar öz satqın hökumətlərindən, Münxen sazişindən danışırdılar. Hərdən bəzi sözlər qulağına dəyirdi. İndi hamı bilirdi ki, dünya laqeyd-laqeyd yeni bir müharibəyə doğru gedir. Heç kim də etiraz eləmirdi. İndi adamın bircə şeyə gücü çatardı ki, o da möhlət uğrunda mübarizə aparmaq idi, bircə illik möhlət! Burada da möhlət... hər yerdə möhlət...

«Dübene»sini içdi. Konyakın şirin dadı, kəskin qoxusu ürəyini bulandırdı. Axı niyə bundan istədi? Xidmətçiyə əl elədi:

– Bir qədəh «Fine».

Pəncərədən baxa-baxa qara fikirləri özündən qovmağa çalışdı. Əgər əlindən bir iş gəlmirsə, niyə boş yerə özünü dəli eləyirsən?! Bu ibrət dərsini aldığı günü xatırladı. Həyatın ona verdiyi böyük ibrət dərslərindən biri də o idi...

...Bu hadisə 1916-cı ilin avqust ayında İperi yaxınlığında olmuşdu. Bölük bir gün qabaq ön xətdən qayıtmışdı. Cəbhəyə gəldikləri gündən ilk dəfə idi ki, belə sabitlik yaranmışdı. İtki olmamışdı. İsti avqust günəşi başlarını döyə-döyə tonqalın qırağına yığışıb, kimsəsiz tarlalardan tapdıqları kartofları közdə bişirirdilər. Bircə dəqiqə sonra isə hər şey dəyişdi. Qəflətən toplar guruldadı və mərmilərdən biri düz tonqalın ortasına düşdü. Özünə gələndə gördü ki, ona heç nə olmayıb, hətta yaralanmayıb da, ancaq iki yoldaşı ölüb. Onlardan bir az o tərəfdə isə Paul Mesman yıxılıb qalmışdı.

Onun qarnı yırtılmış, içalatı çıxmışdı... Paulu lap ayaq açıb yeridikləri vaxtdan tanıyırdı. Həmişə bir oynamış, bir yerdə məktəbə getmiş və heç vaxt ayrılmamışdılar...

Onu brezent çadıra büküb səhra xəstəxanasına gətirdilər. Yol taxıl zəmisindən və böyük bir yamacdan keçirdi. Dörd nəfər idilər, hərəsi də çadırın bir küncündən tutmuşdu. Qəhvəyi rəngli çadırın arasında qıvrılan Mesman, dümağ piyli, qana bələnmiş içalatını qucaqlamışdı. Ağzı açıq idi, gözləri çevrilmişdi...

O, iki saatdan sonra canını tapşırdı. Bu iki saatın birini ara vermədən qışqırdı...

Ravik necə geri qayıtdıqlarını xatırladı. Lal-dinməz, qanıqara halda barakda oturmuşdu. Ömründə birinci dəfə idi ki, belə şey görürdü. Dəstə komandiri Kaçinski – o, müharibədən qabaq çəkməçi olmuşdu – gələndə də beləcə oturmuşdu.



Kaçinski:

– Dur, – dedi, – bavarların yeməkxanasına pivə, araq gəlib. Kolbasa da var.

Heyrətlə onun üzünə baxdı. Kaçinskidən belə qansızlıq gözləmirdi. Kaçinski də bir xeyli onu süzüb dedi:

– Sən gedəcəksən. Lap döyə-döyə də olsa, aparacağam. Əməlli-başlı yeyib-içib dəmlənəcəksən, sonra da fahişəxanaya gedəcəksən.

Cavab vermədi. Kaçinski onun yanında oturdu:

– Başa düşürəm... Mənim haqqımda indi nə fikirləşdiyini də bilirəm. Sənin gəldiyin ikicə həftədir, ancaq mən iki ildir buradayam. Gəl məni eşit! Bundan sonra Mesmana kömək eləyə bilərik? Yox! Bilirsən ki, əgər onu xilas etməyə zərrə qədər imkan olsaydı, hər şeydən keçərdik.

Başını qaldırdı. O, bunu bilirdi. Heç kim eləməsə də, Kaçinski eləyərdi...

– Yaxşı, o öldü getdi, – Kaçinski sözünə davam etdi. – Daha heç nə eləyə bilmərik. İki gündən sonra yenə ön cəbhəyə gedirik. Bu dəfə əvvəlkitək asan olmayacaq. Burada oturub Mesman haqqında fikirləşə-fikirləşə özünü üzürsən. Əsəblərin korlanır, inamın itir. Bu da kifayətdir... Bu dəfə top atılanda cəld tərpənə bilməyəcəksən. Yarımca saniyə geciksən, bəsindir... Sonra səni də Mesman kimi əlimizdə aparacağıq. Bu, kimə lazımdır? Mesmana?

Yox! Bəlkə, başqasına? Yox! Çanaq öz başında çatlayacaq, vəssalam. Anladın?

– Hə... ə... Ancaq bacarmaram.

– Mumla, bacararsan. Başqaları da belə eləyib. Sən birinci deyilsən!

Həmin gündən sonra xeyli yüngülləşdi. Kaçinski ilə getdi, ilk həyat dərsini aldı: bacarırsansa, kömək elə, əlindən gələni əsirgəmə. Elə ki gördün bacarmırsan, unut! Üzünü çevir, get! Özünü tox tut! canıyananlıq dinc dövrlər üçündür, olum, ya ölüm məsələsində artıqdır. Ölənləri basdır, özün də başla həyatı bir tərəfdən söküb yeməyə. Bir vaxt gərəyin olacaq. Kədər qoy öz kədərliyində qalsın, ancaq həqiqətdən də qaçma. Həqiqətlərlə barışa-barışa da yas saxlamaq olar... Yalnız belə dözmək mümkündür...

Ravik konyakını içdi. Qonşu stoldakı fransızlar yenə də öz hökumətləri, İtaliya, Çemberlen haqqında çərənləyirdilər. Eh, yenə sözlər, sözlər... İş görənlər isə başqaları oldu. Onlar güclü olmasalar da, qətiyyətli idilər. Cəsarətli olmasalar da, bilirdilər ki, qarşıdakı müqavimət göstərməyəcək. Möhlət aldılar... Bəs ondan necə istifadə elədilər? Yoxsa silahlandılar, o birilərinə çatdılar, ya da qüvvə topladılar? Başqalarının necə sürətlə silahlandığını görürdülər, ancaq heç nə eləmirdilər, əlləri qoynunda nəsə gözləyirdilər, təzə bir möhlətə ümid bəsləyirdilər. Lap o morjların başına gələn işə oxşayır. Sahilə yüzü birdən çıxır. Ovçu gəlib əlindəki dəyənəklə onları bir-bir qırır. Hamısı köməkləşsəydi, onu birtəhər eləyərdilər. Ancaq arxayınca uzanıb, ovçunun yoldaşlarını necə qırdığına tamaşa eləyir, heç biri də yerindən tərpənmir. Ovçu da düz onun yanındakını öldürür, belə-belə hamısının axırına çıxırdı. Bu da Avropa morjlarının tarixçəsi... Sivilizasiyanın qürub çağı... Qədim Allahların yorğun-arğın, kölgə kimi çəkilib getməsi... İnsan hüquqları barədə gurultulu vədlər... Bir qitənin yerli-dibli satılması... Axır qiymət üstündə çərçilik... Getdikcə yaxınlaşan tufan... Püskürən vulkan qoynunda yallı gedən zavallı insanlar... Yavaş-yavaş yenə də fəlakətə sürüklənən xalqlar... At ölsəydi, itin bayramı olardı... Həmişə də belə olub!

Ravik siqaretini söndürdü, yan-yörəsinə baxdı. Bütün bunlar nə deməkdi? Məgər ötən gecə də zərif boz göyərçinə bənzəmirdimi? Ölənləri basdır, özün də başla həyatı

bir tərəfindən söküb yeməyə... Vaxt gözləmir. Çox şeyə dözmək lazımdır. Nə vaxtsa, kiməsə gərək olacaqsan. Gərək, ona hazır olasan...

Xidmətçini işarə ilə yanına çağırıb, pulunu verdi.

* * *

Ravik içəri girəndə «Şəhrizad» qaranlıq idi. Qaraçılar çalırdılar. Projektorun gur işığı yalnız orkestrin yanında oturmuş Joan Madunun stolunu işıqlandırırdı...

Qapının ağzında dayandı. Xidmətçilərdən biri yaxınlaşıb, stolu ona tərəf çəkdi. Gözləri Joanda olan Ravik yerindən tərpənmədi.

– Araq içəcəksiniz? – xidmətçi soruşdu.

– Bəli, bir qrafin gətirin.



Oturdu. Araq süzüb başına çəkdi. Bayaq küçədə fikirləşdiklərini unutmaq istəyirdi. Hamısını – keçmişin xatirələrini, dəhşətli ölümü, mərminin darmadağın etdiyi Mesmanı, xərçəngin için-için yediyi Keti... Gördü ki, iki gün əvvəl Ketlə oturduğu stol arxasında oturub. Qonşu stol boşaldı, ancaq ora getmədi. Nə fərqi, ya burada otursun, ya da orada, onsuz da bunun Ketə heç bir xeyri yox idi. Veber onda necə demişdi? Təşrihin köməyi olmayanda niyə həyəcanlanırınız? Adam bacardığını eləyir, sonra da çıxıb evinə gedir. Bəs harada qalsın? Joan Madu oxuyurdu. Ket düz deyirmiş, onun səsi adamı riqqətə gətirir. İçində araq olan qrafini götürdü. Bu, elə bir an idi ki, bütün rənglər itirdi və heç nəyə gücü çatmayan əllərin altında həyat yavaş-yavaş sönürdü. Qabarmış dənizin müəmmalı şəkildə qınına çəkilməsi... Nəfəs alarkən bircə anlığa yaranan səssiz-səmirsiz fasilə... Ürəkləri asta-asta parçalayan zaman... Joan «Santa Luçiya»nı oxuyurdu. Onun səsi dalğa-dalğa, sanki, unudulmuş bir sahildən gəlirdi və həmin sahildə də nəsə çiçəkləyirdi...

– Xoşunuza gəlir?

– Kim? – Ravik ayağa durdu.

Restoranın baş xidmətçisi lap yanında dayanmışdı və Joana işarə edirdi:

– Yaxşıdır... Çox yaxşıdır.

– Ancaq sensasiya deyil. Başqa musiqi nömrələrinin arasında oxutmaq olar.

Xidmətçi sürüşüb getdi. İşıq bircə anlığa onun qapqara saqqalını parıldatdı. Qaranlıqda gözdən itdi. Ravik onun arxasınca baxdı və qədəhi götürdü.

Projektor söndü. Orkestr tanqo çalmağa başadı. Yenə də altında rəngbərəng işıqlar yanan stollar, onların üzərinə əyilmiş sifətlər göründü. Joan ayağa durub stolların arası ilə irəliləməyə başladı. Qonaqlar rəqs meydançasına getdikləri üçün bir neçə dəfə ayaq saxlamalı oldu. Ravik ona baxdı. Joanın üzündə təəccüb ifadəsi yox idi və özü də düz ona tərəf gəlirdi. Durub stolu kənara çəkdi. Xidmətçilərdən biri tez köməyə tələsdi.

– Təşəkkür edirəm, – Ravik etiraz elədi, – özüm düzəldərəm. Bizə bir qədəh verin.

Stolu yerinə çəkib, xidmətçinin gətirdiyi qədəhi doldurdu.

– Araqdır, – dedi, – içirsinizmi?

– Bəli. Axı bir dəfə içmişik... «Bel Oror»da...

– Düzdür.

«Hələ bir dəfə də burada olmuşuq, – Ravik ürəyindən keçirdi. – Lap çoxdan... Üç həftə qabaq... onda burada çörək də yedin. Onda plaşın içində elə büzüşmüşdün ki, az qala qaranlığa qarışmışdın, görünmürdün. Onda bədbəxtlikdən başqa heç nə deyildin... Ancaq indi...»

– Nuş olsun, – dedi.

Joanın sifəti işıqlandı. Təbəssüm deyildi, eləcə işıqlanmışdı.

– Çoxdan bu sözü eşitmirdim, – dedi, – nuş olsun!

Arağını içib, qadını nəzərdən keçirdi. Çatma qaşlar, bir-birindən uzaq düşmüş gözlər, ağzı... Bunlar o vaxt nəzərə çarpmırdı, ancaq indi hamısı bir yerə yığışıb bu işıqlı, sirli-soraqlı sifəti yaratmışdı. Həmin sifətin sirri onun səmimiyyətində idi. Heç nəyi gizlətmirdi, heç nəyi də büruzə vermirdi. «Necə olub ki, mən bunu əvvəllər görməmişəm? – Ravik ürəyindən keçirdi. – Yəqin, onda belə deyilmiş. Onda orada qorxudan, həyəcandan başqa, heç nə yox imiş...»

– Siqaretiniz var? – Joan soruşdu.

– Əlcəzair siqaretidir. Qara tənbəkidir, özü də çox acı...

Xidmətçini çağırmaq istədi, ancaq Joan qoymadı.

– O qədər də acı deyil. Bir dəfə vermisiniz. Yadınızdadırmı, «de Alma» körpüsündə...

– Düz deyirsiniz...

«Həm düz deyirsiniz, həm də yox... – Ravik ürəyindən keçirdi. – Sən onda perikdirilmiş, saralıb-solmuş bir vücud idin. Heç özün deyildin. Onda aramızda nəsə oldu və birdən elə yaddan çıxdı ki, elə bil, heç olmamışdı...»

– Bura gəlmişdim, – dedi, – srağagün...

– Bilirəm. Gördüm...

O, Ket barədə heç nə soruşmadı. Sakitcə, heç nə olmamış kimi, bir küncə qısılıb siqaret çəkirdi və sanki, bütün fikri-zikri bu siqaretin yanında idi. Sonra yenə sakitcə, aram-aram içməyə başladı və sanki, yenə bütün fikri-zikri arağın yanında idi. Elə bil, nə iş görürdüsə, hətta ikinci dərəcəli də olsa, onu axıracan görürdü... «Onda tamam ümidsiz idi, – Ravik ürəyindən keçirdi. – İndisə onlardan əsər-əlamət yoxdur». Joan birdən-birə elə doğmalaşdı, elə qayğısız göründü ki! Ravik bilmədi, bəlkə də, ona görə belə oldu ki, həmin anda heç bir dərdi-səri yox idi. Bircə onu hiss elədi ki, Joanın hənirtisi onu isitdi...



Qrafin boşalmışdı.

– Yenə içəkmi? – Ravik soruşdu.

– Onda mənə içirtdiyiniz nə idi?

– Nə vaxt? Burada? Deyəsən, burada hamısını qatıb-qarışdırdıq.

– Xeyr, buradakını demirəm. Lap birinci gecə...

Ravik fikrə getdi.

– Yadıma gəlmir, – dedi, – konyak deyildi ki?

– Xeyr, konyaka oxşayırdı, ancaq tamam ayrı şeydi. İstədim, yenə içəm, ancaq tapa bilmədim.

– Niyə? Yəni elə yaxşı idi?

– Ona görə yox... Ömrümdə belə tünd şey içməmişdim.

– Harada içdik onu?

– «Zəfər tağı»nın yanındakı bistroda. Pilləkənlə aşağı düşdük... İçəridə də sürücülər, qızlar oturmuşdu. Xidmətçinin də qolunda çılpaq qadın şəkli döyülmüşdü...

– Hə, indi bildim, kalvados olacaq. Normandiyanın alma arağıdır. Buradan soruşmusunuz?

– Deyəsən, yox.

Ravik işarə ilə xidmətçini çağırdı.

– Kalvados var?

– Təəssüf ki, yoxumuzdur. Burada istəyən olmur.

– Əlbəttə, buralara yaraşmaz! Kalvados olacaq. Heyif

ki, dəqiq bilmirik. Ən asan yolu ora getməkdir. İndi isə olmaz...

– Niyə olmur?

– Burada işiniz yoxdur?

– Xeyr, qurtarmışam.

– Lap yaxşı! Gedək?

– Getdik!

Ravik meyxananı o dəqiqə tapdı. Demək olar ki, boş idi. Qolunda çılpaq qadın şəkli döyülmüş xidmətçi gözünün ucu ilə onlara baxdı, gəlib stolu sildi.

– Bir az inkişaf var, – Ravik dilləndi. – Onda silməmişdi.

– Bu stolu yox... – Joan da dilləndi. – O birini silin.

Ravik gülümsədi:

– Möhvumata inanırsınız?

– Hərdən...

Xidmətçi yanlarında dayanmışdı:

– Düz deyir, – dedi və qolunu oynadanda çılpaq qadın da tərpəndi. – Onda da burada oturmuşdunuz.

– Yadınızdadır?

– Bəs necə...

– Siz bu yaddaşla, gərək, general olaydınız.

– Mənim yadımdan heç nə çıxmır.

– Bəs necə olub ki, hələ də yaşayırsınız? Onda nə içdiyimiz də yadınızdadır?

– Kalvados! – Xidmətçi tərəddüd eləmədən cavab verdi.

– Yaxşı, elə indi də ondan içəcəyik. – Ravik qadına tərəf döndü: – Görürsünüz, bəzi problemlər necə tez həll olunur? İndi görək həminki dadı verəcəkmi?

Xidmətçi kalvadosu gətirdi.

– Onda da belə iri qədəhlərdə içmişdiniz, – dedi.

– Bura baxın, siz lap möcüzəsiniz ki! Bizim onda necə geyindiyimiz də yadınızdadır?

– Plaş geymişdiniz. Xanımın başında beret də var idi.

– Sizin yeriniz bura deyil! Gərək, varyetdə olaydınız.

– Orada işləmişəm. – Xidmətçi təəccübləndi. – Sirkdə... Axı sizə demişdim. Yadınızdan çıxıb?

– Bəli, bədbəxtlikdən elədir.

– Bu cənab tez unudandır, – Joan dilləndi. – Siz yaddaş ustası olduğunuz kimi, o da unutmağın ustasıdır.

Ravik başını qaldıranda baxışları toqquşdu. O gülümsədi.

– Bəlkə də, heç elə deyil, – dedi. – İndi də kalvadosun dadına baxaq. Nuş olsun!

– Nuş!

Hələ də yanlarında dayanmış xidmətçi dilləndi:

– Adam indi unutduğu şeyi sonralar ömrü boyu axtarmalı olur, müsyö. – Onun fikrincə söhbət hələ axıra çatmamışdı.

– Elədir. Ancaq unudulmayan şeylər də adamın ömrünü cəhənnəm əzabına döndərir.

– Mənimkini döndərmir. Ötüb keçən şeydir, o, niyə həyatı cəhənnəm əzabına döndərsin?

Ravik başını qaldırdı:

– Elə keçmiş olduğu üçün, qardaş. Siz artist olmaqla bərabər, həm də xoşbəxt adamsınız. – Joana tərəf döndü: – O kalvadosun dadını verir?



– Ondan da yaxşıdır.

Ravik Joana baxdı. Yanaqları allandı. Bununla nə demək istədiyini başa düşürdü, ancaq belə açıq danışması əl-qolunu bağlayırdı. Joan isə özünü elə aparırdı ki, guya, bu işarənin Ravikə necə təsir etdiyini vecinə almır. Bu miskin meyxanada elə oturmuşdu ki, deyərdin, evindədir. Üstüaçıq elektrik lampalarının işığı yaman gur idi və bir-iki stol o tərəfdə oturmuş iki fahişəni lap nənələri yaşda göstərirdi. Ancaq onun Joana gücü çatmırdı. Bayaq restoranın alaqaranlığında gördüyü adam idi, heç dəyişməmişdi. O, cəsarətli, işıqlı sifəti olan adam idi, heç nə soruşmurdu, sakitcə oturub gözləyirdi. Fikirləşirdi ki, çox müəmmalı sifətdir, külək haradan əssə, o tərəfə dönür, tez dəyişir. Ona baxıb istədiyini fikirləşə bilərsən. Xalçapalaz, bəzək-düzək gözləyən bomboş evə bənzəyir. Hər cür şəraiti var, istəsən saray eləyərsən, istəsən də fahişəxana. Onu bəzəyən adamdan asılıdır... Bu ev ağzınacan dolu topdağıtmaz imarətlərdən, xaricən dəbdəbəli görünən evlərdən nə qədər fərqli idi!

Gördü ki, onun qədəhi boşdur.

– Ehtiyatlı olun, – dedi, – qədəhləri iridir. Yenə içmək istəyirsiniz?

– Bəli. Əgər vaxtınız varsa...

«Niyə vaxtım olmur?» – deyə ürəyindən keçirən Ravikin birdən yadına düşdü ki, Joan onu axırıncı dəfə Ketlə görüb. Onun üzünə baxdı, ancaq heç nə oxuya bilmədi.

– Vaxtım var, – dedi, – sabah doqquzda təşrih edəcəyəm, vəssalam.

– Belə gecəyə qalanda çətin olmur?

– Xeyr, bunun ona dəxli yoxdur. Adət eləmişəm. Özü də hər gün təşrih eləmirəm.

Xidmətçi qədəhləri doldurdu. Şüşə ilə birlikdə stolun üstünə bir qutu da siqaret qoydu. Yaşıl «Loran» idi.

– Onda da istəmişdiniz, elə deyilmi? – deyə özündən razı halda Ravikə baxdı.

– Yadımda deyil. Siz bilən düz olar. Daha nə desəniz, inanıram.

– Elədir! – Joan sözə qarışdı. – Yaşıl «Loran» idi...

– Gördünüz?! Xanımın yaddaşı sizinkindən yaxşıdır, müsyö.

– Bilmək olmaz. Ancaq siqaret qalsın, lazım olar.

Ravik qutunu açıb Joana uzatdı.

– Yenə həmin mehmanxanada qalırsınız? – deyə soruşdu.

– Bəli. Ancaq ayrı otağa köçmüşəm. Böyükdür...

Bir dəstə sürücü içəri girdi. Onlar qonşu stol arxasında oturub, ucadan danışmağa başladılar.

– Gedək? – Ravik soruşdu. Joan başını tərpətdi. Ravik xidmətçini işarə ilə çağırıb pulunu verdi.

– «Şəhrizad»a qayıtmayacaqsınız?

– Xeyr.

Ravik onun paltosunu tutdu. Joan isə paltosunu geyməyib, eləcə çiyninə saldı. Ucuz, bəlkə də, süni xəz idi, ancaq onun əynində bahalı görünürdü. Fikirləşdi ki, könülsüz geyilən şey ucuz görünər. Belə ucuz tacları çox görmüşdü...

Küçəyə çıxıb narın yağışın altında dayandılar.

– Onda sizi mehmanxanaya ötürüm...

Joan ağır-ağır ona tərəf döndü:

– Bəs sənin otağına getmirik?

Joanın sifəti lap yaxında idi, altdan yuxarı ona baxırdı. Qapının başında asılımış fənərin işığı düz üzünə düşürdü. Saçına qonmuş yağış damcıları par-par parıldayırdı. Bir

taksi gəlib dayandı. Sürücü bir az gözlədi, sonra nəsə donquldanıb əlini yellətdi və maşını yerdən çox sərt tərpətdi.

Joanın gözləri fənərin işığında parıldadı. Onlar elə dərin idi ki, ucu-bucağı bilinmirdi...

– Mən səni bu gün gördüm, – Ravik dilləndi. – Əvvəlcə belə deyildin.

– Yox...

– Əvvəllər heç nə olmayıb...

– Yox... Mən tamam unutmuşam.

Onun nəfəsi dalğa-dalğa üzünə vururdu. Bu qərib gecənin qərib bəndəsi asta-asta, şirin-şirin, inamla, ümidlə nəfəs alırdı. Birdən öz damarlarından axan qanın şırıltısını eşitdi. Lap qıjıltı ilə axırdı. Elə bil qan deyil, həyatın özü idi. Min dəfə qarğıyıb, min dəfə oxşadığı, gah itirdiyi, gah da tapdığı həyat... Bircə saat bundan qabaq o həyat bomboş, bomboz səhra idi, yalnız dünənə bağlıydı, sabahı yoxdu...



Ancaq indi yenə coşmuşdu, ömründə təsəvvür eləmədiyi sirli-soraqlı bir anın lap yanında idi. Yenə dəniz sahilində dayanmış ibtidai insana çevrilmişdi, dalğaların arasından nəsə ağ bir şey baş qaldırmışdı, parıldayırdı, sualı da özü idi, cavabı da... Qan isə axır, axır, gözlərini örtürdü...

– Məni tut... – Joanın səsi onu xəyaldan ayırdı.

Ravik ona baxdı... və qolunu boynuna doladı. Joanın çiyinləri ona tərəf yelləndi, elə bil, liman həsrətli gəmi sahilə uçunurdu...

– Tutmaq lazımdır? – pıçıldadı.

– Hə...

Joanın əlləri sinəsinə söykənmişdi.

– Mən tutaram.

– Tut...

İkinci taksi dayananda təkərlər xırçıldadı, səkiyə sürtündü. Sürücü heç nə olmayıbmış kimi onlara baxırdı. Çiynində balaca bir it oturmuşdu. Ona toxunma jilet geydirmişdilər.

– Taksi gözləyirsiniz? – uzun bığları kətana oxşayan sürücü xırıltılı səslə soruşdu.

– İşə bax! – Ravik dilləndi. – Onun heç nədən xəbəri yoxdur. Bilmir, başımıza nə gəlib! Bizə baxır, ancaq görmür ki, o adamlar deyilik! Dünyanın bu işinə heç yoxam. İstə-

yirsən Cəbrayıl ol, axmaq ol, ya da lap cani, heç kim görməz. Amma bircə düymən çatmayanda, hamı görür.

– Belə yaxşıdır. Onda biz elə özümüz kimi qalırıq.

Ravik onu süzdü. «Biz!» – ürəyindən keçirdi. Nə gözəl sözdür! Dünyanın ən sehrli sözüdür!

– Taksi lazım deyil? – sürücü ucadan, səbirsizliklə soruşdu və siqaret yandırdı.

Ravik:

– Gəl, – dedi, – əl çəkməyəcək. Neyləsin, sənəti belədir...

– Minməyək. Piyada gedək.

– Yağış başlayır.

– Yağış yoxdur, eləcə dumandır. Taksiyə minmirəm. Səninlə getmək istəyirəm.

– Yaxşı, heç olmasa, gedim onu başa salım.

Ravik gedib sürücü ilə nəsə danışdı. Kişi şirin bir təbəssümlə gülümsədi, Joana baxıb, təkcə fransızlara məxsus bir əda ilə əlini yellətdi, maşını sürüb getdi.

Ravik geri qayıtdı.

– Necə başa saldın?

– Pulla. Ən asan yoludur. Gecə növbəsində işləyənlər yaman sırtıq olur. O dəqiqə başa düşdü. Lütfkar bir həqarətlə baxıb, xeyirxahlıq elədi...

Joan gülümsəyib ona sığındı. Ravik hiss elədi ki, qəlbində nəsə baş qaldırdı, bütün bədəninə yayıldı. Nəsə isti, yumşaq bir şey idi və elə bil, qırx əlli ondan yapışıb aşağı dartdı, birdən-birə onunla beləcə yanaşı, ayaq üstə dik dayanmaq, ensiz pillələrdə səndələyə-səndələyə müvazinətini saxlamaq yaman çətinləşdi. Hər şeyi unudaraq təslim olmaq, ürəyinə, əsrlərin arxasından – hələ kamalın, sualların, əzab-əziyyətin, şübhələrin dünyaya gəlmədiyi vaxtlardan, təkcə qan rəngli bir səadətin olduğu zamanlardan eşidilən çağırışa qulaq asmaq əvəzinə...

– Gəl, – dedi.

Onlar narın yağışın altında bomboş, bomboz küçə ilə üzüyuxarı qalxdılar və onun axırına çatanda, qarşılarında nəhəng, ucu-bucağı olmayan bir meydan açıldı, göylərə baş vuran «Zəfər tağı»nın ləngərlənən gümüşü kölgəsi göründü...

# IX

Ravik mehmanxanaya qayıtdı. Səhər-səhər Joanı yatmış qoyub getmişdi. Fikirləşdi ki, bir saata qayıdar, ancaq üç saat çəkmişdi...

– Salam, doktor! – İkinci mərtəbəyə qalxan pilləkəndə kim isə çağırdı... Ravik diqqətlə kişiyə baxdı. Rəngi saralmış, qara pırtlaşıq saçlı, eynəkli bir adam idi, tanımadı.

– Alvares, – kişi adını dedi, – Jaim Alvares. Yadınıza düşmədi?

Ravik başını buladı. Kişi əyilib şalvarının bir ayağını yuxarı çəkdi. Topuğundan başlayan çapıq dizinə çatmışdı.

– İndi yadınıza düşdü?

– Mən yarmışam?

Kişi başını tərpətdi:

– Cəbhədə, mətbəx stolunun üstündə. Aranxuenin səhra xəstəxanasında. Badam bağlarındakı balaca ağ mülkdə... Yadınıza düşmədi?

Ravik birdən badam iyini hiss etdi. Bu iy, sanki, alaqaranlıq pilləkəndən qalxırdı və onun şirin, bir az da çürük qoxusuna ürəkbulandıran kəsif qan iyi də qarışmışdı...

– Hə, – dedi, – yadıma düşdü.

Yaralıları ay işığına qərq olmuş talvara uzatmışdılar. Onları bu kökə alman və italyan bombardmançı təyyarələri salmışdı. Bomba qəlpələrinin parça-parça elədiyi uşaqlar, qadınlar, kişilər idi. Uşaqlardan birinin sifətini tamam aparmışdı. Bir hamilə qadının da qarnı döşlərinə qədər yırtılmışdı. Qoca bir kişi də qopub düşmüş barmaqlarını qorxa-qorxa o biri əlində bərk-bərk saxlayırdı, elə bilirdi ki, təzədən yerinə yapışdırmaq olar... Onların iniltisi gecənin bu ağır havasına, yavaş-yavaş ətrafa yayılmağa başlayan büllur şeh qoxusuna qarışmışdı...

– Ayağınız indi yaxşıdır? – Ravik soruşdu.

– Pis deyil. Ancaq axıra kimi qatlanmır. – Kişi gülümsədi. – Məni Pireney dağlarından keçirdi, bəsimdir. Qonsales öldü.

Ravik, Qonsalesin kim olduğunu xatırlaya bilmədi. Ancaq yadına kömək elədiyi cavan bir tələbə düşdü.

– Manoladan xəbəriniz olmadı?
– Əsir düşdü, güllələdilər...
– Bəs briqada komandiri Serna?
– Öldü. Lap Madridin yaxınlığında... – Kişi yenə gülümsədi. Ancaq bu çox donuq, qeyri-ixtiyari, hissiz-duyğusuz, ötəri bir təbəssüm idi. – Mura ilə Le Pen də əsir düşdülər, güllələndilər.

Heç biri Ravikin yadına düşmədi. İspaniyada altıca ay qalmışdı; cəbhə yarılıb dağılan kimi oradan çıxdı...

– Karnero, Orta və Qoldştayn həbs düşərgəsindədir, – Alvares sözünə davam etdi, – Fransadadırlar. Blatski də sağ qaldı. Sərhəd tərəflərdə gizlənib.

Ravik təkcə Qoldştaynı xatırladı. Onda o qədər idilər ki!

– Bu mehmanxanaya düşmüsünüz? – deyə soruşdu.

– Bəli, dünən gəlmişik, – kişi üçüncü mərtəbəni göstərdi, – sərhəddəki düşərgədə çox saxladılar, axırda buraxdılar. Pulumuz var idi, – o yenə gülümsədi, – yaxşı mehmanxanadır, əməlli-başlı çarpayıları var. Hətta divardan bizim rəhbərlərin şəkilləri də asılıb.

– Düzdür. – Ravikin səsində kinayə əlaməti yox idi. – Elə şeyləri görəndən sonra, bura adama cənnət kimi gəlir.

O, Alvareslə xudahafizləşib, öz otağına getdi.

Otaq yığışdırılmışdı, heç kəs də yox idi. Joan getmişdi. Ravik ora-bura baxdı: heç nə qoymamışdı. Əslində, belə də gözləyirdi.

Zəngi basdı. Az keçməmiş süpürgəçi qız gəldi.

– Xanım getdi! – O, Raviki qabaqladı.

– Görürəm. Burada ayrı adam olduğunu siz haradan bildiniz?

– Yaxşı, yaxşı, müsyö Ravik... – Qız sözünü axıra çatdırmadı, ancaq üz-gözündən görünürdü ki, açıqca xətrinə dəyib.

– Səhər-səhər bir şey yedi?

– Xeyr, mən onu görmədim, yoxsa gətirərdim. O vaxtdan yadımda qalıb.

Ravik onun üzünə baxdı; son sözləri xoşuna gəlməmişdi. Pul çıxarıb qızın önlüyünün cibinə basdı.

– Çox gözəl, – dedi, – gələn dəfə də belə eləyin. Özüm deməmiş, səhər yeməyi gətirməyin. Otağı yığışdırmağa gələndə də əvvəlcə dəqiq bilin ki, boşdur.

– Baş üstə, müsyö Ravik! – Qız gülümsədi.

Ravik narazılıqla onun arxasınca baxdı. Qızın nə fikirləşdiyini bilirdi. Ona elə gəlirdi ki, Joanın əri var, istəmir görən olsun. Əvvəllər Ravik buna gülmüşdü, ancaq indi xoşuna gəlmədi. Niyəsini özü də bilmirdi. Çiyinlərini çəkib, pəncərəyə tərəf getdi. Mehmanxana öz mehmanxanalığında qalırdı, onu dəyişmək olmazdı...

Pəncərəni açdı. Buludlar səmanı qoynuna almışdı. Evlərin damında sərçələr civildəşirdi. Aşağı mərtəbədə iki nəfər mübahisə edirdi. Qolberqlər olacaqdı. Kişi arvadından iyirmi yaş böyük idi. Özü Bratislav şəhərindən idi, taxıl alverçisi olmuşdu. Qadın mühacir Vizenhofla gəzir və elə bilirdi ki, heç kəsin bundan xəbəri yoxdur. Ancaq onu bilməyən təkcə əri idi...



Pəncərəni bağladı. Səhər-səhər kimisə öd kisəsindən təşrih eləmişdi. Düranın əvəzinə kiminsə öd kisəsini kəsib götürmüşdü. Tanımadığı bir kişinin qarnını yarmışdı, iki yüz frank da qonarar almışdı. Sonra Ketə baş çəkmişdi. Onun qızdırması vardı, özü də çox qalxmışdı. Bir saat orada qaldı. Qız narahat yatırdı. Elə qorxulu bir şey yox idi. Əslində, belə də olmalı idi...

Diqqətlə pəncərədən küçəyə baxdı. Nə isə olub qurtarandan sonra adam özündə qəribə bir boşluq duyur... Çarpayı da susur və indi açılan gündüz gödən yırtan çaqqal kimi sirli-soraqlı dünəni parçalayırdı. Gecənin qaranlığından boylanan füsunkar meşələr çəkilib uzaqlara getmişdi və haradasa zamanın boşluğunda tutqun xəyal kimi görünürdü...

Geri çevrildi, stolun üstündə Lüsyen Martinenin ünvanı gözünə dəydi. Onu bu yaxınlarda evə buraxmışdılar. Əl çəkməmişdi... Onun yanına iki gün əvvəl getmişdi, indi heç lazım deyildi. Ancaq elə bir işi də yoxdu və qət etdi ki, yenə getsin.

Ev Klavel küçəsində idi. Birinci mərtəbəsində ət dükanı yerləşirdi. Kök bir qadın əti şaqqalayıb satırdı. O, qara geyinmişdi. Əri iki həftə bundan qabaq ölmüşdü və indi şəyirdlə birlikdə özü alver edirdi. Ravik onu keçib gedəndə gördü. Deyəsən, qonaq getməyə hazırlaşırdı. Şlyapasına qara rəngli uzun rübənd taxmışdı və tanış qadına – başqası olsa, elə-

məzdi – bir bud donuz əti kəsirdi. Rübənd yelləndi, balta göydə parıldadı və ətə yeridi.

– Bax, bircə dəfəyə! – deyə o, özündən razı halda, budu tərəziyə qoydu.

Lüsyen lap yuxarı mərtəbədəki balaca otaqda yaşayırdı. O, tək deyildi. Təxminən iyirmi beş yaşında cavan bir oğlan stula sərələnmişdi. Başında, adətən, velosiped sürən idmançıların qoyduğu uzundimdik kepka vardı. Ağzındakı eşmə siqaret, danışanda üst dodağına yapışıb qalırdı. Ravik içəri girəndə, yerindən də qımıldanmadı. Lüsyen isə çarpayıda uzanmışdı. O, həyəcandan qızardı:

– Doktor... Bu gün gələcəyinizi bilmirdim... – Oğlana tərəf döndü: – Bu da...

– Adamdır, vəssalam! – Oğlan kobudluqla onun sözünü kəsdi. – Adını demək lazım deyil. – O, geri söykəndi. – Demək, o doktor sizsiniz?

– Necəsiniz, Lüsyen? – Ravik ona fikir vermədi. – Uzanmaqda lap ağıllı iş görürsünüz.

– İstəsə, çoxdan qalxardı, – oğlan yenə sözə qarışdı, – heç nə yoxdur. İşə getmir, pul da yox...

Ravik ona tərəf döndü:

– Çıxın otaqdan, – dedi.

– Nə?

– Çıxın, qapını da örtün. Lüsyenə baxacağam.

Oğlan şaqqanaq çəkdi.

– Bu cür də baxa bilərsiniz. Biz elə incə-mincə adamlar deyilik. Baxmaq nə üçündür? Srağagün gəlib baxmısınız. Demək, bunun haqqı da ayrı olacaq, eləmi?

– Əzizim, – Ravik çox sakit danışırdı, – siz heç pul verənə oxşamırsınız. Haqqı olacaq, olmayacaq, bunun sizə dəxli yoxdur. İndi isə sürüşün buradan!

Oğlan irişə-irişə yerini rahatladı, ayağını ayağının üstünə aşırdı. Ayağında ucu biz kimi lak ayaqqabı və bənövşəyi rəngli corab vardı.

– Xahiş edirəm, Bobo, – Lüsyen dilləndi, – lap az çəkəcək.

Bobo ona fikir vermədi. Gözünü Ravikə zilləmişdi.

– Yaxşı ki gəldiniz, – dedi, – bəzi şeyləri elə özünüzə deyəcəyəm. Siz elə bilirsiniz, mənim əzizim, böyük bir siyahı gətirib deyəcəksiniz, bu xəstəxana haqqı, bu təşrif haqqı,

bu nə bilim nə haqqı... Yox, keçməz! Əvvəla, sizdən onu xəstəxanaya qoymağı xahiş eləməmişdik. Təşrif barədə də heç danışmağa dəyməz. Demək, o boyda pul heç! Hələ Allahınıza şükür eləyin ki, dəyən zərəri ödətmirik. Özündən xəbərsiz təşrif eləmisiniz... – O, sapsarı saralmış dişlərini göstərdi. –Gözləmirdiniz, eləmi? Hə, belə işlər... Bobo hər şeyi bilir, onun başını piyləmək çətindir!

Oğlanın görünüşündən razılıq yağırdı. Elə bilirdi ki, çox kəsərli danışıb. Lüsyenin rəngi qaçmışdı. Qorxu içərisində gah oğlana, gah da Ravikə baxırdı.

– Aydın oldu? – Bobo qalib bir əda ilə soruşdu.

– Bu kimdir? – Ravik Lüsyenə baxdı. Qız cavab vermədi.

– Hə, demək, odur, – deyə Ravik oğlanı diqqətlə süzdü. Arıq, cılız səfehin biri idi. Xirtdəyi görünən nazik boğazına süni ipək şal sarımışdı. Sümüyü çıxmış çiyinləri, uzun burnu, iyrənc çənəsi... Bir sözlə, uzaq kənddən gəlib şəhərdə fahişələrin hesabına yaşayan oğraş idi...



– «O» nə deməkdir? – Oğlan qeyzlə soruşdu.

– Deyəsən, lap aydın dedim ki, bayıra çıxın, qızı müayinə edəcəyəm.

– Xox, qorxdum!

Ravik daha dözə bilmədi, yavaş-yavaş ona tərəf getdi. Oğlan sıçrayıb qalxdı, dalı-dalı çəkildi, haradansa əlinə təxminən bir metr uzunluğunda kəndir parçası keçirdi. Ravik onun neyləmək istədiyini bilirdi. İstəyirdi, o yaxınlaşan kimi, yana tullansın, tez arxasına keçib kəndiri boğazına keçirsin, boğsun. əgər qarşısındakı bunu başa düşməyib yumruq atsa, yaxşı fənd idi.

– Bobo! – Lüsyen qışqırdı. – Lazım deyil, Bobo!

– Ay burnufırtıqlı uşaq! Bu ki lap çoxdanın fəndidir! Özgə heç nə bilmirsən? – Ravik güldü.

Bobo bir anlığa çaşaraq özünü itirdi. Ravik çəld ikiəlli onun jaketindən yapışıb çiyinlərinə qədər çıxardı; oğlan daha qollarını tərpədə bilməzdi.

– Deyəsən, bundan xəbərin yox idi, eləmi? – deyib qapını ayağı ilə vurub açdı, özünü tamam itirmiş oğlanı bayıra vızıldatdı. – Belə şeylərdən xoşun gəlirsə, əsgərliyə get, yaramazın biri yaramaz! Bir də böyüklərə dolaşma!

O, qapını içəridən bağladı.

– Bu da belə, Lüsyen... – dedi. – İndi də gəlin sizə baxım.

Qız tir-tir əsirdi.

– Sakit olun, sakit olun, hər şey keçib getdi.

Ravik didik-didik olmuş pambıq örtüyü götürüb stolun üstünə qoydu. Sonra yaşıl adyalı geri qatladı.

– Pijama?! Bunu niyə geymisiniz? Rahat deyil axı! Sizə çox geymək olmaz, Lüsyen.

Qız bir anlığa susdu, sonra:

– Bircə bu gün geymişəm, – dedi.

– Gecə köynəyiniz elə bircə dənədir? Xəstəxanadan ikisini göndərərəm.

– Xeyr, ona görə deyil. Bilirdim ki... – o, qapıya tərəf baxıb astadan pıçıldadı, – gələcək, ona görə geydim. Deyir, daha sağalmışam... Gözləmək istəmir...

– Nə? Heyif ki, əvvəlcədən bilməmişəm! – Ravik acıqla qapıya baxdı. – Canı çıxa-çıxa gözləyəcək!

Bütün qanı az qadınlar kimi, Lüsyenin də dərisi dümağ, pilə kimi idi, gömgöy damarları bilinirdi. Ancaq bu, arıqlıqdan deyildi, sadəcə olaraq, dərisi sığallı, şumal idi və çox qəşəng görünürdü. «Dünyada nə qədər belə qız var?! – Ravik ürəyindən keçirdi. – Adam onlara baxanda fikirləşir ki, görəsən, təbiət sonradan kobudlaşdıracağını, saxtalıq, çirkab dolu həyatda öz gözəlliklərini itirəcəyini bilə-bilə, bunları niyə belə zərif xəlq eləyib?!»

– Hələ bir həftə də yatmalı olacaqsınız, Lüsyen. Durub buralarda gəzişə bilərsiniz. Ancaq ehtiyatlı olun, ağır şey götürməyin, bir-iki gün pilləkəni çıxıb-düşməyin. Elə bir adam yoxdur ki, sizə baxsın? Bobodan başqa?

– Ev sahibəsi baxır. Daha o da deyinməyə başlayıb.

– Özgə heç kəsiniz yoxdur?

– Xeyr. əvvəllər yenə Mariya var idi... O da belə getdi...

Ravik otağı nəzərdən keçirdi. Kasıb olsa da, təmiz idi. Pəncərənin qabağında bir neçə qırmızı anilin boyası vardı.

– Bəs Bobo? Demək, hər şey keçib-gedəndən sonra yenə zühur elədi...

Lüsyen cavab vermədi.

– Niyə onu rədd eləmirsiniz?

– Elə pis oğlan deyil, doktor. Bir az kobuddur...

Ravik qıza baxdı. «Məhəbbət! – deyə ürəyindən keçirdi. – Bu da məhəbbətdir. Lap möcüzədir bu məhəbbət! Təkcə gündəlik həyatın tutqun səması, rəngarəng göy qurşağı

deyil, həm də dünyanın ən iyrənc şeylərini gözəllik donunda göstərir... həm möcüzədir, həm də taleyin ən acı kinayəsi!» Qəflətən onu qəribə bir hiss bürüdü: sanki, qızın bu bədbəxtliyində onun da haradasa payı olmuşdu...

– Yaxşı, Lüsyen, – dedi, – qanınızı qaraltmayın. Çalışın ki, tez sağalasınız.

Qız bir az yüngülləşdi, başını yırğaladı.

– Pul məsələsi də... – o, utana-utana, tələsə-tələsə dilləndi. – İnanmayın. Elə-belə dedi. Hamısını verəcəyəm. Hamısını... Az-az... Bəs nə vaxt işə çıxacağam, doktor?

– Səfehlik eləməsiniz, təxminən, iki həftədən sonra. Bobonu da yaxın buraxmayın. Qəti olmaz, Lüsyen. Yoxsa ölərsiniz... Aydındır?

– Bəli, – qızın səsində inamsızlıq vardı.

Ravik adyalı onun üstünə çəkdi. Dikələndə gördü ki, qız ağlayır.



– Tez olmaz, doktor? Elə otura-otura işləyərəm. Axı mən...

– Bəlkə, oldu. Baxarıq... Bu, sizin özünüzü necə aparmağınızdan asılıdır. Lüsyen, söz vermişdiniz ki, o mamaçanın adını deyəcəksiniz.

Qızın gözləri təlaşla parıldadı.

– Polisin xəbəri olmayacaq, söz verirəm. Çalışıb, verdiyiniz pulu birtəhər qopararam, heç olmasa, rahat nəfəs alarsınız. Nə qədər idi?

– Üç yüz frank. Boş şeydir, ala bilməyəcəksiniz.

– Hər halda, çalışaram. Adını, ünvanını deyin, vəssalam. Bundan sonra o, sizə lazım olmayacaq, Lüsyen. Daha uşağa qalmaq getdi... Neyləyə bilər sizə?

Qız tərəddüd etdi, sonra:

– Siyirmədədir, – dedi.

– Budur?

– Bəli.

– Yaxşı, bir-iki günə gedərəm. Siz qorxmayın! – Ravik paltosunu geydi. – Nə olub? Niyə durursunuz?

– Siz Bobonu tanımırsınız...

Ravik gülümsədi.

– Ondan da pislərini görmüşəm. Siz durmayın. Diqqətlə baxdım, qorxulu heç nə yoxdur. Hələlik, Lüseyn, yenə gələcəyəm.

Ravikin açarı burmağı ilə qapını açmağı bir oldu. Heç kəs yox idi. Əslində, heç gözləmirdi də. Bobo kimilərini çox görmüşdü.

Ət dükanında şəyird tək qalmışdı. Sarıbəniz bir kişi idi və bayaqkı qadın kimi həvəslə işləmirdi. Həvəssiz-həvəssiz ət doğrayırdı. Kişi öləndən sonra yaman yorulmuşdu. Üzbəüz bistrodakı süpürgəsatan lap ucadan dedi ki, onun qadına evlənmək imkanı çox azdır və çox güman ki, bunu da qəbiristanlığa o, öz çiynində aparası olacaq. Kişi əməlli-başdı düşmüşdü, qadın isə əksinə, bir az da üstünə qoymuşdu.

Ravik qarağat arağını içib, pulun verdi. Elə bilmişdi Bobo burada olar. Ancaq yox idi...

Joan Madu «Şəhrizad»dan çıxdı. Ravik taksidə onu gözləyirdi. Joan özü qapını açıb oturdu və dedi:

– Buradan aralanaq. Sizə gedək.

– Nəsə olub?

– Yox, heç nə. Bu gecə restoranları məni lap boğaza yığdı...

– Bircə dəqiqə... – Ravik qapının ağzında dayanmış gülsatan qadını işarə ilə yanına çağırdı. – Anacan, o qızılgüllərin hamısını ver. Ancaq çox yuxarıdan getmə.

– Sizin üçün altmışca frank. Bir dəfə mənə yel xəstəliyi üçün dərman yazmısınız, ona görə...

– Xeyri oldu?

– Yox, haradan olsun?! Bütün gecəni yağışın altında ayaq üstə dururam.

– Siz mənim ömrüm boyu müalicə etdiyim xəstələrin ən ağıllısısınız, – deyə Ravik gülləri götürüb ayaq altına sərə-sərə Joana tərəf döndü: – Günahımı yuyuram. Səhər səni tək qoymuşam, ac getmisən. Bəs indi bir şey içməcəyəksən?

– Yox, gedək. Gülləri də ora yox, oturacağın üstünə qoy.

– Bura yaxşıdır. Gülü sevmək lazımdır, ancaq çox şişirtmək də olmaz.

– Sənin deməyindən belə çıxır ki, adam sevdiyi şeyi çox əzizləməz?

– Yox, demək istəyirəm ki, gözəl şeyləri çox da şişirtmək lazım deyil. İndiki vəziyyətdə aramızda gül olmasını istəmirəm.

Joan bir anlığa şübhəli nəzərlərlə onu süzdü, sonra sifəti işıqlandı:

– Bilirsən, bu gün neyləmişəm? Mən yaşamışam! Təzədən yaşamışam! Nəfəs almışam! Təzədən nəfəs almışam! Təzədən dünyaya gəlmişəm. Çoxdandır belə olmamışdı. Yenə əllərim, gözlərim, dilim-ağzım...

Taksi dar küçədə gedən maşınların arasından sivişib çıxdı və birdən sürət götürəndə Joan Ravikin üstünə yıxıldı. Ravik onu bircə anlığa qucaqladı, nəfəsini duydu. Elə bil, isti külək idi, əsdi ki, bütün günü üzündə donub qalmış iztirabları əritsin, qəlbinə çökmüş qəribə soyuqluğu isitsin, indi yanında oturub hissə qapıla-qapıla danışan qadını ona hiss etdirsin.

– Bütün günü sellər-sular oynayıb. Dünya, sanki, ümmana dönmüşdü, fəvvarə vururdu üz-gözümə, boyunboğazıma çilənirdi, elə bil, mən də ağac kimi çiçək açmalı, yarpaqlamalı, bar gətirməliydim. Bütün günü əl çəkmədi ki, çəkmədi... Axır ki qopdum, indi burada... sənin yanındayam.



Ravik ona baxdı. Joan bir az qabağa əyilmişdi və qara rəngli bayırlıq paltarının arasından çiyinləri parıldayırdı. Çox səmimi idi, heç nə vecinə deyildi, fikirləşdiyini çəkinmədən deyirdi. Onunla müqayisədə Ravik özünə yaman yazıq, yaman quru göründü.

«Təşrih edirdim. – ürəyindən keçirdi. – Səni unutmuşdum. Lüsyenə baş çəkdim. Haradasa, lap keçmişdə idim... Sən yox idin orada. Axşam düşəndə isə yavaş-yavaş hənirti hiss eləməyə başladım. Onda səninlə deyildim, Ket haqqında düşünürdüm...».

– Joan! – deyə əllərini onun oturacağa söykədiyi əlinin üstünə qoydu. – İndi bizə gedə bilmərik. Xəstəxanaya dəyməliyəm. Bir-iki dəqiqəliyə...

– Təşrih elədiyin qadını yoxlayacaqsan?

– Bugünkünü yox, başqasıdır... Bəlkə, məni bir yerdə gözləyəsən?

– Elə indi getməlisən?

– İndi yaxşıdır. İstəmirəm, sonradan zəng eləsinlər.

– Sənin otağında gözləyərəm. Mehmanxanaya getməyə vaxt çatar?

– Hə.

– Onda gedək. Sən sonra gələrsən. Gözləyərəm...

– Yaxşı. – Ravik ünvanı sürücüyə dedi.

Geri söykəndi, başını da söykənəcəyə qoydu. Əlləri hələ də Joanın əlinin üstündə idi. Hiss etdi ki, Joan onun danışmasını istəyir. Özü haqda, ya da ondan... Ancaq bacarmırdı. O özü çox şey danışmışdı. Fikirləşdi ki, heç bu qədər lazım deyildi...

Maşın dayanan kimi Joan dilləndi:

– Sən düşmə, özüm gedərəm. Daha qorxmuram, açarı ver.

– Növbətçidədir.

– Özüm alaram. Belə şeylərə öyrəşmək lazımdır. – O, gülləri götürdü. – Bir kişi ki məni yata-yata qoyub gedir, gözlənilmədən bir də qayıdır, demək, bəzi şeylərə öyrəşmək lazımdır. Elə indidən başlasam, yaxşıdır.

– Mən də səninlə gedəcəyəm. Gəl hər şeyi də belə şişirtməyək. Onsuz da, yenə səni tək qoyub gedirəm, bu, bəs eləyir.

Joan güldü və həmin anda elə cavan göründü ki!

Ravik sürücüyə dedi:

– Xahiş edirəm, bir az gözləyin.

Sürücü gözlərini yavaş-yavaş yumdu:

– Çox da gözləyərəm, – dedi. Onlar yuxarı çıxanda Joan dedi:

– Açarı mənə ver.

– Niyə?

– Mənə ver!

O, qapını açdı, ancaq içəri girmədi. Otaq qaranlıq idi. Pəncərədən buludlarla gizlənpaç oynayan ay görünürdü.

– Nə gözəldir! – Joan bu sözləri qaranlıqlara dedi.

– Gözəldir? Bu daxmaya gözəl deyirsən?

– Hə, gözəldir. Hər şey gözəldir.

– Ola bilsin, hələ gözəldir, çünki qaranlıqdır. Ancaq... – Ravik əlini düyməyə uzatdı.

– Dəymə! Özüm yandıraram. Sən gedə bilərsən. Ancaq sabah günortaya qalma.

Joan yarıaçıq qapının ağzında dayanmışdı və pəncərədən süzülən gümüşü işıq üzünə, çiyinlərinə düşürdü. Çox müəmmalı, sevdalı görünürdü, adamı lap yerindən oynadırdı. Plaşı sürüşüb yerə, ayaqlarının altına düşmüşdü və

qara rəngli köpüyə oxşayırdı. Özü isə qapıya söykənmişdi, dəhlizdən süzülən işıq bir qoluna dolanmışdı.

– Get... Tez qayıt, – deyib qapını örtdü.

* * *

Ketin hərarəti düşmüşdü.

– Oyanmışdı? – deyə Ravik yuxulu tibb bacısından soruşdu.

– Bəli, saat on birdə oyanmışdı. Sizi soruşdu. Dediklərinizin hamısını çatdırdım.

– Bəs soruşmadı, bu nə sarğıdır?

– Soruşdu. Dedim ki, yarmalı oldular. Yüngül şeydir. Sabah özü deyər.

– Vəssalam?



– Bəli. Dedi ki, əgər belə lazım bilibsə, demək, hər şey qaydasındadır. Bu gecə gəlsəniz, sizə salam yetirim və deyim ki, sizə inanır.

– Hə... belə...

Ravik bir xeyli dayanıb tibb bacısının yana ayrılmış qara saçlarına baxdı və birdən soruşdu:

– Neçə yaşınız var?

Qız təəccüblə başını qaldırdı:

– İyirmi üç.

– İyirmi üç... Nə vaxtdan işləyirsiniz?

– Yanvarda iki il yarım tamam olacaq.

– Bu sənətdən xoşunuz gəlir?

Qızın alma kimi yumru yanaqlarına təbəssüm qondu:

– Xoşuma gəlir, – dedi. – Əlbəttə, bəzi xəstələrlə çətin olur, ancaq əksəriyyəti yaxşıdır. Madam Brisso mənə dünən çox qəşəng bir don bağışlayıb. Keçən həftə də madam Lerner bir cüt lak ayaqqabı vermişdi. Yazıq getdi, evdə öldü... – O, yenə gülümsədi. – Demək olar ki, özümə heç paltar almıram, həmişə nəsə verirlər. Xoşuma gələn şey olmayanda, rəfiqəmin yanında dəyişirəm. Mağazada işləyir. Vəziyyətim çox yaxşıdır. Madam Heqstrem də çox əliaçıqdır, pul verir. Axırıncı dəfə yüz frank verdi. Onca günə... İndi nə qədər qalacaq, doktor?

– Ço...o...x.. Bir neçə həftə.

Qızın kefi lap duruldu. Onun aydın, qırış tanımayan

qaşları dartıldı, hiss olundu ki, gəlirini hesablayır. Ravik yenə Ketə tərəf əyildi. O, sakit nəfəs alırdı. Yaranın iyi saçlarından gələn kəskin ətir qoxusuna qarışmışdı. Birdən-birə yaman yazıqlaşdı. Qız ona inanırdı. Ah, bu inam! Doğram-doğram elədiyi, xərçəngin için-için yediyi arıq bədən yenə gəlib gözləri önündə dayandı. Heç nə eləyə bilmədi, tez tikdi... İnama bax...

– Gecəniz xeyrə qalsın...

– Xeyrə qarşı, doktor...

Yumrusifət tibb bacısı küncdəki kresloya oturdu, üzü çarpayıya olan stolüstü lampanı o biri tərəfə çevirdi, ayaqlarının üstünə adyal salıb, şəkilli jurnalı götürdü. Detektiv hekayələr, müxtəlif filmlərdən kadrlar çap olunan ucuz bir jurnal idi. Qız yerini rahatlayıb, oxumağa başladı. Yanındakı balaca stolun üstünə bir qutu şokolad qoyulmuşdu. Ravik gördü ki, o, gözünü qaldırmadan birini götürdü. «Bəzən adam adi şeyləri də başa düşə bilmir, – deyə ürəyindən keçirdi. – Eyni otaqda biri ölüm ayağındadır, o birininsə dünya vecinə deyil...» O, qapını örtdü. «Mən də elə deyiləmmi? İndi bu otaqdan çıxıb...»

İçəri qaranlıq idi. Vanna otağının qapısı azacıq aralı qalmışdı, oradan işıq düşürdü. Ravik tərəddüd etdi: bəlkə, Joan vanna otağındadır? Sonra onun hənirtisini eşitdi. Heç nə deməyib, vanna otağına keçdi. Bilirdi ki, Joan içəridədir, yatmayıb, ançaq dinmir. Otaq birdən-birə sükutla, iztirabla, gərginliklə doldu. Sanki, səssiz-küysüz bir qasırğa qalxmışdı və onun yaratdığı dərin uçurumlardan ətrafa adamı bihuş eləyən, başgicəlləndirən lalə ətri çilənirdi.

Vanna otağının qapısını bağladı. Lampaların gur işığı yenə hər şeyi ona doğmalaşdırdı. Şırnağın açarlarını burdu. Bu, mehmanxanada yeganə şırnaq idi, öz xərcinə düzəltdirmişdi. Bilirdi ki, burada olmayanda sahibə fransız qohum və tanışlarını gətirib, onu mehmanxananın fəxri kimi onlara göstərir.

İsti su bədəninə çiləndi. Joan otaqda uzanıb, onu gözləyirdi. Dərisi zərif idi, saçları dalğa-dalğa olub yastığı qucaqlamışdı, gözləri də parıldayırdı. Hətta otağa qaranlıq çökəndə onun bu gözləri, elə bil, qışın xəstə üzlü ulduzlarının pəncərədən süzülən solğun işartısını yığıb-yığıb, təzədən otağı işıqlandırırdı. İndi isə uzanıb onu gözləyirdi,

yumşalmışdı, dəyişmişdi, adamı yerindən oynadırdı, çünki bir saat bundan qabaqkı qadın deyildi, gözəlləşmişdi, cazibədar olmuşdu. Ancaq nədənsə, birdən-birə özündə ona qarşı laqeydlik hiss elədi. Çox qəribə hiss idi, elə onun özündə də güclü, qəfil bir maraq, istək vardı. Qeyri-ixtiyari yan-yörəsinə boylandı: əgər vanna otağının ikinci qapısı olsaydı, geyinib oradanca çıxardı, gedib bir şey içərdi.

Qurulandı və bir xeyli nə edəcəyini bilmədi. Qəribə idi, hər şey lap heç nədən oldu. Kölgələr... heçlik... Bəlkə, Ketin yanına getdiyi üçün belə oldu? Yoxsa, Joanın bayaq taksidə dedikləri elədi? Çox tez başa gəldi. Özü də asanca... Bəlkə də, ona görə belə oldu ki, özü gözləmək əvəzinə onu gözləyirdilər... Üz-gözünü turşutdu, qapını açdı.

– Ravik! – Qaranlıqdan Joanın səsi eşidildi. – Kalva..dos pəncərənin yanında, stolun üstündədir.



Dayandı. Hiss elədi ki, çox gərginləşibmiş. Joan başqa söz desə, dözə bilməzmiş... Joan düz elədi. Gərginlik azaldı, o, yavaş-yavaş özünü ələ aldı.

– Şüşəni tapa bildin? – deyə soruşdu.

– Nə çətin şey idi ki? Lap açıqda idi. Götürüb açdım. Açanı da sənin şeylərinin arasından tapdım. Bir qədəh də mənə ver.

İki qədəh süzüb, birini ona verdi:

– Al!

Şəffaf alma arağının iyini hiss etmək nə gözəl idi! Yaxşı ki Joan lazım olan sözü tapıb demişdi!

Joan başını geri söykəyib, arağı içdi. Saçı çiyinlərinə dağıldı və həmin anda, sanki, onu maraqlandıran yalnız içki idi. Ravik bu halı onda bir dəfə görmüşdü. O, bütün varlığını gördüyü işin ixtiyarına verirdi. Bunda gözəlliklə bərabər, nəsə gizli bir təhlükə də duydu: içəndə hər şeyi unudurdu, sevəndə məhəbbətə, inamı itəndə isə şübhəyə dönürdü. Onun unutması da dəhşət olardı.

Joan qədəhi yerə qoyub, gözlənilmədən güldü.

– Ravik, – dedi, – bilirəm, indi nə fikirləşirsən...

– Doğrudan?

– Hə... Sənə elə gəldi ki, az qala, evlisən. Mən də... kiminsə səni qapının ağzında qoyub getməsi elə böyük şey deyil... Üstəlik, əlində də bir dəstə qızılgül... Allaha şükür ki, kalvados var idi. Ona xəsislik eləmə.

Ravik kalvados süzdü.

– Sən çox böyük adam imişsən, – dedi. – Düz sözümdür. Açığı, vanna otağında olanda səndən xoşum gəlmirdi. İndi isə heyran qalmışam. Nuş olsun!

– Nuş!

Ravik arağını içib:

– Bu, ikinci gecədir, – dedi, – bir az qorxulu olur. Naməhrəmliyin gözəlliyi keçib gedib, məhrəmliyinki isə hələ gəlib çıxmayıb. Gərək, möhkəm dayanaq.

Joan qədəhi yerə qoydu:

– Deyəsən, belə şeylərdən yaxşı başın çıxır...

– Əslində, heç nə bilmirəm, elə-belə dedim. Adam heç vaxt heç nəyi dəqiq bilmir. Hər şey həmişə tərsinə olur. Elə indi də... Dünyada ikinci gecə yoxdur, həmişə birinci olur. İkincidə isə hər şey qurtarır.

– Yaxşı ki birinci gecədir. Yoxsa bilirsən nə olardı? Sonsuzluğa gedib çıxardıq. Yaxın gəl! Yuxum gəlmir, səninlə içmək istəyirəm. Soyuqdan donan ulduzları görürsənmi?! Adam tənha olanda yaman üşüyür, ikilikdə isə heç vaxt!

– Adam ikilikdə də donar...

– O, bizə aid deyil.

– Əlbəttə, bizə aid deyil! – Joan qaranlıqda onun üzünə qonan qəribə ifadəni görə bilmədi. – Bizə aid deyil...

– Mənə nə olmuşdu, Ravik? – deyə Ket soruşdu.

O, çarpayıda iki yastığa söykənib oturmuşdu. Ətir iyi otağı başına götürmüşdü. Nəfəslik bir az aralı idi. İçəri dolan şaxtalı hava otağın istisinə qarışırdı, deyərdin, yanvar deyil, aprel ayıdır.

– Qızdırmanız var idi, Ket. Bir-iki gün düşmədi. Sonra yuxuya getdiniz, az qala bütün günü yatdınız. Keçib getdi, hər şey qaydasına düşdü. İndi özünüzü necə hiss edirsiniz?

– Hələ də yorğunam. Ancaq qabaqkına baxanda bir az yaxşıyam, daha elə zəif deyiləm. Ağrı da azalıb.

– Ağrı hələ qalacaq. Ancaq çox çəkməz, elə eləyərik, bilinməz. Yavaş-yavaş çəkilib gedəcək. Bunu ki özünüz bilirsiniz...

Ket başını tərpətdi.

– Təşrih elədiniz, Ravik?
– Bəli.
– Elə vacib idi?
– Bəli... – Ravik susub gözlədi; qoy özü soruşsun!
– Nə qədər yatası olacağam?
– Bir-iki həftə.
Ket bir anlığa susdu.
– Mənə elə gəlir, yaxşı oldu. Dincəlmək lazımdır. Çox yığmışdım... Yorulmuşdum, ancaq inanmaq istəmirdim. Ravik, təşrih də həmin şeylə bağlı idi?
– Əlbəttə! Yüz faiz!
– Vaxtından əvvəl başlayan qanaxma da?
– O da, Ket!
– Yaxşı ki indi vaxtım var. Bəlkə də, belə yaxşıdır. İndi qalxası olsam, o dəhşətlərlə yenə qarşılaşanda dözə bilmərəm.



– Heç lazım da deyil. Unudun getsin. Ən çox vacib olan şeylər haqqında düşünün. Məsələn, səhər yeməyi barədə...
– Yaxşı... – Ketin üzündə ürkək bir təbəssüm gəzdi. – Onda güzgünü mənə verin.
Ravik balaca cib güzgüsünü stolun üstündən götürüb ona verdi. Qız diqqətlə özünə baxdı.
– Bu gülləri siz gətirmisiniz, Ravik?
– Xeyr, xəstəxananındır.
Ket güzgünü çarpayının üstünə qoydu:
– Xəstəxanada yanvar ayının ortasında yasəmən olmaz. Uzaqbaşı çayırçiçəyi olar, ya da ayrısı... Bir də ki xəstəxana nə bilir, yasəmən mənim ən çox sevdiyim güldür...
– Bu xəstəxana bilir. Axı siz buranın veteranısınız, Ket! – Ravik ayağa durdu. – Mən gedəsiyəm. Saat altıya yaxın gəlib sizə bir də dəyərəm.
– Ravik...
– Bəli... – Geri döndü. «Başlandı... – deyə düşündü. – İndi soruşacaq...»
Qız əlini ona uzatdı:
– Çox sağ olun, – dedi. – Bu güllərə görə çox sağ olun! Bir də belə diqqətinizə görə... Siz yanımda olanda heç nədən qorxmuram.
– Yaxşı, Ket, yaxşı... Buna da diqqət deyirsiniz?! Bacarsanız, yatın. Ağrısanız, zəngi basıb tibb bacısını çağırın.

Dərman yazaram. Günortadan sonra yenə gələcəyəm. Sağ olun, – deyə Veberin otağına getdi.

– Veber, araq hardadır?

– Çətin oldu? Buradadır... Ejeni, bir qədəh verin.

Ejeni, könülsüz də olsa, qədəh gətirdi.

– Bu ki lap üskükdür! – Veber acıqlandı. – Əməllisini gətirin. Ya da dayanın, elə bil, əlinizi dişləyəcək. Özüm gedərəm.

– Bilmirəm, cənab doktor Veber, – Ejeni tikanlı-tikanlı dilləndi, – həmişə müsyö Raviki görəndə, siz...

– Yaxşı, qurtarın! – Veber onun sözünü kəsərək, konyak süzdü. –Götürün, Ravik. Hə, nə dedi?

– Heç nə soruşmur. Nə deyirsən də, inanır.

– Gördünüz?! – Veber sevinc hissi ilə dilləndi. – Mən o vaxt dedim axı!

– Kömək eləyə bilmədiyiniz xəstə heç sizə təşəkkür edib, Veber?

– O qədər...

– Nə desəniz, inanıb?

– Əlbəttə...

– Bəs siz onda özünüzü necə hiss etmisiniz?

– Yüngülləşmişəm. – Veber təəccübləndi. – Əməllibaşlı yüngülləşmişəm.

– Mənimsə ürəyim bulanır. Elə bil, fırıldaq iş tutmuşam.

Veber gülüb, şüşəni yerinə qoydu.

– Ürəyim bulanır... – Ravik təkrar elədi.

– Birinci dəfədir sizdə belə insani hiss görürəm. – Ejeni dilləndi. – Ancaq, demək olar ki, tərziniz yenə həminki kimidir.

– Ejeni, siz hərdən ixtiraçı deyil, tibb bacısı olduğunuzu unudursunuz... – deyib Veber Ravikə tərəf döndü, – demək, hər şey qaydasındadır?!

– Hələlik elədir.

– Belə yaxşıdır. Bu gün səhər-səhər tibb bacısına deyirmiş ki, xəstəxanadan çıxan kimi İtaliyaya gedəcək. Bizim də canımız qurtarar. – Veber əllərini ovuşdurdu.

– Qoy oradakı həkimlər dərdinə qalsın. İstəmirəm, burada ölən olsun. Adamın ad-sanına ləkə gəlir.

* * *

Ravik Lüsyeni qanına bələyən mamaçanın zəngini basdı. Xeyli keçəndən sonra qapını qarayanız bir kişi açdı. Raviki görəndə qapını buraxmadı.

– Nə istəyirsiniz? – deyə xırıltılı səslə soruşdu.

– Madam Buşe lazımdır.

– İşi var.

– Eybi yoxdur, nə qədər olsa, gözləyərəm.

Kişi qapını bağlamaq istədi.

– Burada gözləmək olmazsa, on beş dəqiqədən sonra gələrəm. Ancaq onda tək olmayacağam. Elə adamla gələcəyəm ki, mütləq çıxası olacaq.

Kişi diqqətlə ona baxdı:

– Bu nə deməkdir? Sizə nə lazımdır?

– İndicə dedim ki, mənə madam Buşe lazımdır.

Kişi nəyisə götür-qoy elədi, sonra:

– Gözləyin, – deyib, qapını örtdü.



Ravik qəhvəyi rəngli sınıq-salxaq qapıya, ondan asılmış tənəkə poçt qutusuna və üstündə madamın adı yazılmış minalı lövhəyə baxdı. Bu qapıdan nə qədər dərd-ələm, qorxu keçmişdi. Səbəbi də cavan-cavan qızları həkim əvəzinə bu cür küpəgirənlərə ürcah eləyən bir para mənasız qanunlar idi. Əslində, bu qanunlar bircə uşağa da həyat bəxş eləməmişdi. Onu istəməyən onsuz da bir yol tapırdı, istər qanuni olsun, istərsə də qeyri-qanuni... Fərqi bircə onda idi ki, hər il minlərlə qadın şikəst olurdu... Qapı təzədən açıldı.

– Polisdənsiniz? – bayaqkı üzütüklü kişi soruşdu.

– Polisdən gəlmiş olsaydım, qapıda qalmazdım.

– İçəri keçin.

Kişi Raviki qaranlıq dəhlizdən keçirib, mebellə dolu bir otağa gətirdi. İçəridə üstünə uzun xovlu məxmər çəkilmiş divan, qızılı haşiyəli stullar, süni Həbəşistan xalçası, qoz ağacından düzəldilmiş dekorativ dolablar var idi və divarlardan Nuh əyyamından qalma döymə şəkillər asılmışdı. Pəncərənin qarşısında, metal dayanacağın üstündəki qəfəsdə bülbül oturmuşdu. Boş yerlərin hamısına çini qablar, fiqurlar düzülmüşdü.

Madam Buşe gəldi. Həddən ziyadə kök idi və yerlə sürünən çirkli kimono geymişdi. Lap divə oxşayırdı. Oyur-oyur oynayan gözlərini çıxmaq şərtilə, üzü hamar, yaraşıqlı idi.

– Nə buyurursunuz, müsyö? – deyə o, işgüzar görkəm aldı.

Ravik ayağa durdu.

– Lüsyen Martineyə görə gəlmişəm. Onun uşağını xaric eləmisiniz.

– Ağlınıza gələni danışmayın! – Buşe heç halını da pozmadı. – Elə adam tanımıram. Bir də ki mən uşaq xariç eləmirəm. Ya səhv salmısınız, ya da aldadıblar.

Özünü elə göstərdi ki, guya, söhbət qurtardı və getmək istəyir. Ancaq getmədi. Ravik də yerindən tərpənmədi. Nəsə gözləyirdi. Qadın geri döndü:

– Başqa sözünüz yoxdur ki?

– Pis eləmisiniz. Qızı qan aparmışdı, az qalmışdı, ölsün. Təşrih eləmək lazım gəldi. Mən elədim.

– Yalandır! – Buşe fısqırdı. – Yalandır! Həyasızların işinə bax! Özlərini allah yoluna qoyurlar, sonra da başqalarını qatırlar. Mən o həyasıza göstərərəm. Vəkilim özü bu işlə məşğul olar. Burada məni hamı tanıyır, vergilərimi vaxtlı-vaxtında verirəm. Görərik, bu sırtıq... küçə fahişəsi...

Ravik heyrətlə ona tamaşa edirdi. Top kimi partlasa da, üzünün ifadəsi heç dəyişmədi, elə yaraşıqlı qaldı. Təkcə dodaqları büzülür, sözləri də güllə kimi yağdırırdı.

– Qızın tələbi böyük deyil, – Ravik onun sözünü kəsdi. – Verdiyi pulu geri istəyir.

Buşe güldü.

– Pul? Geri istəyir? Nə vaxt almışam ondan bu pulu? Qəbzi var?

– Əlbəttə, yoxdur. Siz qəbz vermirsiniz axı...

– Ona görə ki, üzünü görməmişəm. Kim inanar ona?

– İnanan tapılar. Şahidləri var... Doktor Veberin xəstəxanasında təşrih olunub. Müayinə hər şeyi aydın göstərdi. Protokol tərtib olunub.

– İstəyir lap yüz protokol bağlansın! Harada yazılıb ki, mən ona əl vurmuşam? Xəstəxanaya, doktor Veberə bax! Adamı lap gülmək tutur. Belə ləçər gedib elə dəbdəbəli xəstəxanaya düşsün! Başqa zarafat tapmadınız?

– Zarafat deyil. Qulaq asın: qız sizə üç yüz frank verib. Zərərin ödənməsi üçün iş qaldıra bilər...

Qapı açıldı, qarayanız kişi içəri girdi.

– Nə olub, Edelya?

– Heç nə! Zərəri ödədər? Şikayət eləsə, özünü tutub basacaqlar. Birinci özünü... Mütləq elə olacaq... Çünki uşaq

xaric elətdiyini boynuna almış olur... Hələ ondan sonra, gərək, sübut eləsin ki, mən idim. Onu da bacarmayacaq!

Qarayanız kişi nəsə kəkələdi.

– Sakit ol, Roje! – Madam Buşe ona tərəf döndü. – Sən get.

– Brüne gəlib.

– Yaxşı... De ki, gözləsin. Görürsən...

Kişi başını yırğalayıb çıxdı. Onunla bərabər içəri dolmuş konyak iyi də çəkildi. Ravik burnunu çəkdi.

– Lap köhnə konyakdır, – dedi, – ən azı otuz, qırx ildən qalıb. Günün günorta çağı belə konyak içən xoşbəxt adamdır.

Madam Buşe bir anlığa karıxıb gözlərini döydü. Sonra dodaqları asta-asta tərpəndi:

– Elədir... İstəyirsiniz?

– Niyə istəmirəm?



Buşe köklüyünə yaraşmayan bir çəldliklə qapıya yönəldi.

– Roje!

Qarayanız kişi qapıda göründü.

– Deyəsən, o gözəl konyakdan yenə vurmusan. Yalan danışma, iyindən bilirəm. Şüşəni gətir. Dedim ki, danışma, şüşəni gətir!

Roje konyakı gətirdi.

– Bir qədəh Brüneyə verdim. Məcbur elədi, birini də özüm içdim.

Buşe ona heç nə demədi. Qapını bağlayıb, balaca dolabdan fiqurlu bir qədəh götürdü. Ravik ikrahla qədəhə baxdı. Üstündə qadın başı oyulmuşdu. Buşe konyak süzüb, qədəhi tovuz quşu çəkilmiş süfrənin üstünə, onun qabağına qoydu.

– Siz ağıllı adama oxşayırsınız, müsyö, – dedi.

Ravik dana bilməzdi: bu arvadda nəsə xoşagələn bir şey vardı. Ancaq Lüsyenin dediyi kimi, poladdan deyildi,. ondan da betər, rezindən idi. Poladı sındırmaq olur, rezin isə... Əslində, zərərin ödənməsi məsələsində haqlıydı.

– İşi yaxşı görməmisiniz, nəticəsi də pis olub, – dedi, – pulu qaytarmaq üçün elə bu kifayətdir.

– Təşrihdən sonra xəstə öləndə siz pulu qaytarırsınız?

– Xeyr. Ancaq elə olur ki, heç pul almırıq. Məsələn, Lüsyendən...

Buşe onun üzünə baxdı:

– Çox əcəb... Bəs bu nə hoqqadır çıxarır? Hələ sevinməlidir ki!

Ravik qədəhi qaldırdı.

– Madam, – dedi, – daha sözüm yoxdur. Sizinlə bacarmaq çətin imiş...

Buşe şüşəni ehtiyatla stolun üstünə qoydu.

– Müsyö, çox adam buna cəhd eləyib. Ancaq onların içində ən ağıllısı sizsiniz. Elə bilirsiniz, belə işdən xoşum gəlir, ya da qazancı çoxdur? O üç yüz frankın yüzü polisə gedir. Yoxsa qoyarlar işləməyə? Odur, bax, biri gəlib qapını kəsdirib, haqqını istəyir. Gərək, hamısının ağzına bir şey atasan. Başqa cür ola bilməz... Bunu öz aramızda deyirəm: işi qurdalasanız, batıracağam. Polis özü ört-basdır eləyəcək. Buna tam əmin ola bilərsiniz.

– Əminəm, əminəm...

Buşe diqqətlə ona baxdı, istehza eləmədiyinə əmin olan kimi stul çəkib oturdu. Bu bədheybət bədəndə bədheybət bir güc var imiş: elə bil, stul yox, tük götürdü. Gələnin ağzını yummaq üçün saxladığı konyakdan bir qədəh də süzdü.

– Əslində, üç yüz frank az pul deyil. Ancaq polisdən əlavə, bilirsiniz, nə qədər dərdi var? Mənzil haqqı, özünüz şahidsiz ki, burada çox bahadır. Pal-paltar, alətlər, həkimlərə baxmayın, mənə ikiqat bahasına başa gəlir... Sonra, bunun müştəri gətirəni var, şeytanlayanı var... Gərək, hamını razı salasan. Təzə ildə, ad günündə vəzifəli şəxslərin özlərinə də, arvadlarına da içkidən, hədiyyədən aparasan. Özgə hansını deyim, müsyö?! Çox vaxt özümə heç nə qalmır.

– Bunlara etirazım yoxdur.

– Bəs nəyə var?

– Lüsyenin başına gələnə.

– Həkimlərin əlindən xata çıxmır?

– Təsadüfi hallarda...

– Müsyö! – Buşe dikəldi. – Mən insaflı adamam. Gələnə bu tərəfini də başa salıram. Ancaq heç biri qayıtmır. Yalvarıb-yaxarırlar, ağlayıb-sıtqayırlar, bilmirlər neyləsinlər. Eləməyəndə də, gedib özlərini öldürürlər. Burada nə oyunlar qalıb, çıxarmasınlar?! Ayaqlarıma döşənib yalvarıblar. O küncdəki balaca, pardaqları tökülmüş dolabı görürsünüz?

Varlı-hallı bir qadın eləyib. Bilməyib neyləsin, özünü ona çırpıb. İndi mətbəxdəki on girvənkə gavalı cemini o göndərib. İstəyirsiniz, göstərim. Pulunu vermişdi, bunu da eləbelə, minnətdarlıq əlaməti kimi göndərib. Sizə bir şeyi də deyim, müsyö, – Buşe səsini bir az da ucaltdı – istəyirsiniz, mənə lap fırıldaqçı deyin, ancaq başqalarının gözündə mən xeyirxah adamam, lap mələkəyəm...

O durdu, əynindəki kimono yelləndi. Qəfəsdəki bülbül bunu gözləyirmiş kimi oxumağa başladı. Ravik də qalxdı. Bu cür səhnələri çox görmüşdü. Ancaq onu da bilirdi ki, Buşe həqiqəti deyir.

– Çox gözəl, – dedi, – mən gedirəm. Ancaq Lüsyen üçün xeyirxah adam deyilsiniz.

– Kaş onu bura gələndə görəydiniz! İndi nə istəyir? Sağalıb, uşağı da yoxdur... İstədiyi bu deyildi? Hələ xəstəxanaya da pul verməyəcək...



– Daha uşağı olmayacaq.

Buşe bir anlığa tutuldu.

– Lap yaxşı... – sonra biganəliklə dilləndi: – Getsin birini yesin, birini də itə tullasın...

Ravik gördü ki, ondan bir şey çıxmayacaq.

– Hələlik, Madam Buşe, – dedi, – sizinlə söhbət etmək çox maraqlı idi.

Buşe ona bir az da yaxınlaşdı. Ravik əl vermək istəmirdi. Buşenin özü də heç o fikirdə deyildi. O, sakit, ancaq sirayətedici səslə sözə başladı:

– Siz ağıllı adamsınız, müsyö. Tanıdığım həkimlərin çoxundan ağıllısınız. Heyif ki... siz... – dayandı, sınayıcı nəzərlərlə onu süzdü. – Bəzən elə hallar olur ki... bacarıqlı həkim lazım gəlir...

Ravik dinmədi, gözlədi görsün, daha nə deyəcək.

– Ziyan eləməz... Həmişə yox... bəzi hallarda... – Quşlara şırvanan pişik kimi onun ağzı sulandı. – Hərdən yağlı müştərilər düşür. Söz yox ki, haqqını əvvəlcədən verir... Onda arxayınçılıq olar... Polis məsələsinə də söz ola bilməz. Mənə elə gəlir, müftə yerdən bir neçə yüz frank qazanmaq sizə ziyan eləməz... – əlini onun çiyninə qoydu. – Sizin kimi yaraşıqlı kişiyə lazım olar... – O, bic-bic gülümsəyərək əlini şüşəyə uzatdı. – Hə, nə deyirsiniz?

– Təşəkkür edirəm, – deyə Ravik şüşəni alıb yerinə

qoydu. Çox əla konyak idi, onu tutmuşdu. Şüşənin üstünə fabrik etiketi vurulmamışdı. Deməк, kiminsə şəxsi zirzəmisindən idi. – Qaldı o biri məsələlərə, fikirləşərəm. Yenə gələcəyəm. Çox böyük məmnuniyyətlə istifadə etdiyiniz alətlərə baxardım. Lazım gəlsə, məsləhət də verərdim.

– Gələn dəfə mən alətləri göstərərəm, siz də sənədlərinizi. Etibar etibara bağlıdır.

– Siz, hər halda, mənə etibar elədiniz.

– Zərrə qədər də! – Buşe gülümsədi. – Sadəcə olaraq, təklif elədim, istədiyim vaxt da imtina edə bilərəm. Nə qədər yaxşı danışsanız da, fransız olmadığınız bilinir. Heç görkəminiz də oxşamır. Yəqin, gəlməsiniz... – O, yenə irişdi, soyuq nəzərlərlə Raviki süzdü. – Sizə heç kim inanmazdı, deyərdilər ki, fransız diplomunu göstər. O da yoxunuzdur... Bayırda oturan polis işçisidir. İstəyirsiniz, məni satın. Ancaq eləməzsiniz! Təklifim barədə isə düşünün. Adınızı, ünvanınızı mənə verməzsiniz, elə deyilmi?

– Xeyr! – Ravik bildi ki, uduzub.

– Belə də düşünürdüm. – Buşe indi, doğrudan da, yeyib sinirə bilməyən bədheybət pişiyə oxşayırdı. – Hələlik, müsyö. Təklifim barədə düşünün. Mən çoxdan gəlmə bir həkimlə əlaqə yaratmaq istəyirdim...

Ravik gülümsədi. Bunun səbəbini bilirdi: gəlmə həkimi büsbütün ələ almaq asandı. Bir şey olsa da, günahkar o idi...

– Fikirləşərəm, – dedi, – hələlik, madam.

Qaranlıq dəhlizdən keçəndə hansı qapıdansa zarıltı eşitdi. Başa düşdü ki, otaqların biri palata kimi düzəldilib, çarpayılar qoyulub. Qadınlar sürünə-sürünə evlərinə getməmişdən qabaq bir az burada uzanırlar.

Qabaq otaqda ucaboy, bığlarının ucu qısa vurulmuş bir kişi oturmuşdu, sifəti zeytun rənginə çalırdı. O, diqqətlə Ravikə baxdı. Roje də onun yanında oturmuşdu və Raviki görəndə, qeyri-ixtiyari, stolun üstündəki ikinci konyak şüşəsini gizlətmək istədi. Sonra irişib, əllərini yanına saldı.

– Xoş getdiniz, doktor, – deyə o, saralmış dişlərini göstərdi. Deyəsən, qapının ağzında dayanıb qulaq asırmış.

– Salamat qal, Roje.

Ravikə elə gəldi ki, onunla məhrəm adam kimi danışmaq olar. Yarımca saatın içindəcə o məğlubedilməz qadın, az qala, onu kin-küdurətli düşməndən şərikinə çevirmişdi...

Buna görə də Roje ilə belə məhrəm-məhrəm danışanda yüngülləşdi, şahidi olduğu dəhşətlərdən sonra kişi ona mələk sifətində göründü.

Pilləkəndə iki qızla rastlaşdı. Onlar hansı qapınısa axtarırdılar. Axırda biri özünü toplayıb Ravikdən soruşdu:

– Müsyö, madam Buşe burada yaşayır?

Ravik tərəddüd elədi. Onlara nəsə deməyin mənası var idimi? Xeyri olmazdı, onsuz da gedəcəkdilər. Bir də ki kimin üstünə göndərə bilərdi?!

– Üçüncü mərtəbəyə qalxın, adı qapıda yazılıb...

* * *

Saatın işıldayan siferblatı qaranlıqda, buludların arxasından boylanan günəş kimi zəif işıq saçırdı. Səhər saat beş idi. Joan üçdə gəlməli idi. Ola bilsin, bundan sonra gələcək... Ya da çox yorğun olub, çıxan kimi qaldığı mehmanxanaya gedib.



Ravik təzədən uzandı ki, yatsın. Ancaq yuxusu gəlmirdi. Xeyli beləcə uzanıb, üzbəüz evin damındakı reklamın tavanda titrəyən qırmızımtıl işığına baxdı. Özündə qəribə bir boşluq hiss edirdi və səbəbini də bilmirdi. Elə bil, canındakı istilik damcı-damcı harayasa axıb gedirdi. Elə bil, qanı haradasa dayaq axtarır, tapa bilmir, axır, axır, hansı dumanlı bir boşluğasa tökülürdü. Əllərini başının altında çarpazlayıb, bir az da beləcə uzandı. İndi bildi ki, kimisə, nəyisə gözləyir. Və bir də onu bildi ki, Joanı gözləyən təkcə ağlı, düşüncəsi deyil, əlləri də, damarlarından axan qanı da, bütün canına-qanına yayılmış qəribə qəfil kövrəklik də onun həsrətindədir...

Durub xalatını geydi, pəncərənin qabağında oturdu. Zərif yunun hərarəti canına yayıldı. Xalat köhnə idi, çoxdan özü ilə gəzdirirdi. Didərgin düşdüyü vaxtlardan ondaca yatmışdı. İspaniyanın şaxtalı gecələrində xəstəxanadan yorğun-arğın baraka qayıdanda, onun istisinə qızınmışdı. Gözlərindən səksən yaşlı qarıya oxşayan on iki yaşlı Xuana Madridin bombardman edilmiş mehmanxanasında onun arasındaca can vermiş, nə vaxtsa belə bir yumşaq yundan don geymək, anasını gözlərinin qabağında necə zorladıqlarını, atasını ölüncəyə qədər tapdalayıb əzişdirdiklərini biryolluq unutmaq arzusu gözündə qalmışdı...

Geri döndü: otaq, çamadanlar, bir-iki başqa şey, bir qucaq köhnəlmiş, oxumaqdan didik-didik olmuş kitab... Kişiyə yaşamaq üçün çox şey lazım olmur. Belə qarmaqarışıq zəmanədə çox şeyə öyrəşmək yaxşı deyil. Ya atıb gedirsən, ya da özünlə aparmalı olursan. Getmək isə hər gün gözlənilirdi. Tək yaşamağının da səbəbi bu idi. Yola çıxanda, gərək, səni burada saxlayan heç nə olmasın, ürəyinin yarısı qalmasın. Əyləncədən o yana keçmək yaramaz...

Çarpayıya baxdı. Didik-didik olmuş, rəngi solmuş mələfə... Gözləməyin eybi yox idi. O qədər beləcə gözləmişdi ki! Ancaq onda başqa cür gözləmişdi, elə-belə, niyə gözlədiyini bilmişdi. Hətta bəzən səbri də tükənmişdi. Hərdən də öz ehtirasını pərdələmək üçün gizli bir kövrəkliklə gözləmişdi. Ancaq çoxdan idi ki, belə gözləmirdi. Nəsə ondan xəbərsiz ürəyində özünə yer eləmişdi. Yenə nəsə baş qaldırmışdı? Nə istəyirdi? Nə vaxtdan başlanmışdı? Nəsə keçmişin mavi ənginliklərindən boylanıb yenə onu çağırmırdımı? Bu, yenə çəmənlikdən qalxan, topa-topa göylərə yayılan, nanə qoxulu aprel meşələrinin ətri deyildimi? Yox, heç birini istəmirdi. Lazım deyildi bunlar ona! İstəmirdi, yenə onların sehrinə düşsün. Axı yol üstündə idi...

Qalxıb geyinməyə başladı. Sərbəstliyi itirmək olmazdı. Hər şey yavaş-yavaş, tədrici asılılıqdan başlayır. Adam fikir vermir, bir də görür ki, adətlərin toruna düşüb. Bu adətlərin çox adı olur, biri də məhəbbətdir. Gərək, heç kimə, heç nəyə öyrəşməyəsən.

Qapını bağlamadı. Joan gəlsə, onu tapa bilməyəcək... İstəsə qalsın. İstədi kağız yazıb qoysun. Ancaq nə yalan danışmaq, nə də hara getdiyini bildirmək istəyirdi...

* * *

Saat səkkizə yaxın qayıtdı. Səhərin ayazında hələ də fənərlər yanan küçələrdə gəzişmiş, beynindəki duman çəkilmiş, yüngülləşmişdi. Ancaq mehmanxanaya çatanda hiss eləmişdi ki, əsəbləri yenə yay kimi dartılır.

Joan gəlməmişdi. Özünü inandırmağa çalışdı ki, elə bunu da gözləyirmiş. Ancaq otaq əvvəlkindən də kimsəsiz göründü. Yan-yörəsinə baxıb, ondan bir nişanə axtardı, heç nə tapa bilmədi...

Zəngi basıb xidmətçi qızı çağırdı. Qız gələndə:

– Səhər yeməyi gətirin, – dedi.

Qız dinməyib ona baxdı. Ravik də susdu. Soruşmağa da bir şey yox idi.

– Eva, qəhvə ilə kökə gətirin.

– Baş üstə, müsyö Ravik.

Ravik çarpayıya baxdı. Joan gəlmiş olsaydı da, belə səliqəsiz, əzik-üzük yorğan-döşəkdə tək yatmazdı. Çox qəribədir: insan bədəninin dəydiyi hər şey – çarpayı, paltar, hətta vanna otağı da onun hənirini görməyəndə tamam ölürmüş! İnsan nəfəsini, insan hərarətini itirəndə, onlar nə pis olurmuş!

Siqaret yandırdı. Bəlkə, Joan elə bilib ki, onu xəstə yanına çağırıblar? Yox, onda, gərək, kağız yazıb qoymuş olaydı. Birdən ona elə gəldi ki, ağlını itirib. Sərbəst olmaq istəyə-istəyə özünü hörmətdən salıb. Özünü nəyəsə inandırmağa çalışan on səkkiz yaşlı oğlan uşağı kimi axmaq vəziyyətə düşüb. Asılılıq bu vəziyyətdə daha çox idi. Bəlkə də, oturub gözləsəydi, bu qədər olmazdı... Qız yeməyi gətirdi.



– Yerinizi yığım? – deyə soruşdu.

– Niyə? Bəlkə, yatası oldum.

– Lap yatası olsanız da... Adam səliqəli yorğan-döşəkdə daha rahat yatar. – Qız adi nəzərlərlə ona baxdı.

– Bura gələn olub?

– Bilmirəm, mən yeddidə gəlmişəm.

– Eva, hər səhər tanımadığın adamların yerini yığışdırmaq necədir?

– Pis deyil, müsyö Ravik. Cənablar özgə heç nə tələb eləməyəndə, yaxşı olur. Ancaq eləsi də var ki, çox şey istəyir. Halbuki Parisdə nə çoxdur ucuz fahişəxanalar...

– Fahişəxanaya səhər-səhər getməzlər, Eva. Bəzi kişilər də elə şeyi səhər-səhər daha çox istəyir.

– Bəli, xüsusilə qoçalar... – Qız çiyinlərini çəkdi. – Razı olmayanda, çaypulunu itirirsən, vəssalam. Elələri də var ki, o dəqiqə bir bəhanə tapıb səndən şikayətə başlayır: otaq təmiz deyil... kobud rəftar eləmişəm... Daha nə bilim nələr... nələr... hamısını da yandıqlarından eləyirlər. Heç nə də deyə bilmirsən. Neyləyəsən, dünya belə qurulub...

Ravik cibindən pul çıxardı.

– Eva, gəl bu gün dünyanı bir az düzəldək. Götürün, özünüzə şlyapa, ya da yun kofta alın.

Qızın gözlərinə işıq gəldi:

– Çox sağ olun, müsyö Ravik. Görək, bu gün yaxşı başladı... Sonra gəlib yerinizi yığışdırım?

– Bəli.

Qız onun üzünə baxdı:

– Çox maraqlı qadındır, – dedi, – son günlər gələn qadını deyirəm.

– Bax, bircə artıq söz də desəniz, pulu geri alacağam – Ravik ərklə onu qapıya tərəf itələdi. – Qoca arvadbazlar yolunuzu gözləyir. Onları naümid qoymayın.

Oturub yeməyə başladı. Yeməyin dadı-tamı yoxdu. Durub ayaq üstə yedi. İndi bir az yaxşı idi.

Günəşin qızılı saçaqları evlərin damına səpələnirdi. Bütün mehmanxana oyanırdı. Bir mərtəbə aşağıda yaşayan qoca Qoldberq yenə səhər konsertinə başladı. Elə asqırıb-öskürürdü ki, deyərdin, iki əvəzinə, yeddi ciyəri var. Mühacir Vizenhof pəncərəni açıb, fitlə təntənəli bir marş sədalarını çaldı. Yuxarı mərtəbədə su şırıldadı.

Qapılar taqqıldadı. Təkcə ispanlar tərəfdə sakitlik idi. Ravik gərnəşdi. Gecə ötüb keçmişdi. Qaranlıqla gələn çılğın ehtiras da onunla bərabər sönmüşdü. Qət etdi ki, bir neçə gün heç kəsə yaxın getməsin.

Küçədə qəzet satan uşaqlar təzə xəbərləri yayırdılar: Çexoslovakiya sərhədində hadisə... Alman qoşunları Sudet sərhədində... Münxen sazişi təhlükə altındadır...

## XI

Oğlan qışqırmırdı. Gözlərini döyə-döyə həkimlərin üzünə baxırdı. Özünü elə itirmişdi ki, ağrı da yadından çıxmışdı. Ravik onun xıncım-xıncım olmuş qıçına baxıb, anasından soruşdu:

– Neçə yaşı var?

– Nə? – qadın başa düşmədi.

– Neçə yaşı var?

Başı yaylıqlı qadının dodaqları güclə tərpəndi:

– Ayağı... – deyə bildi. – Ayağı... Yük maşını idi... – Ravik oğlanın ürəyinə qulaq asdı.

– Əvvəllər heç xəstələnib?

– Ayağı... Ayağıdır...

Ravik dikəldi. Uşağın ürəyi quş ürəyi kimi çırpınırdı. Əslində, qorxulu şey yox idi. Ancaq, gərək, bu arıq-quru raxit uşağa bihuşdarı verəndə çox ehtiyatlı ola. Tez başlamaq lazım idi. Əzilmiş qıçı küçənin toz-torpağına bulaşmışdı.

– Ayağım kəsiləcək? – oğlan soruşdu.

– Yox! – Ancaq Ravik buna inanmırdı.

– Ayağımı qatlaya bilməyəcəmsə, kəsməyiniz yaxşıdır.

Ravik diqqətlə uşağın ağıllı sifətinə baxdı. Orada hələ ağrı əlaməti görünmürdü.

– Baxarıq, – dedi. – Ancaq əvvəlcə səni yatırtmaq lazımdır. Qorxma, çətin deyil, vecinə də alma...

– Bircə dəqiqə, müsyö! Nömrəsi FO 2019 idi. Xahiş edirəm, yazın, anama lazım olacaq.

– Nə? Nə dedin, Janno? – Qadın diksindi.



– Nömrəsini gördüm... Maşının nömrəsini... FO 2019... Lap yaxından gördüm. Qırmızı işıqda keçdi. Günah onda oldu.. – Oğlanın nəfəsi daralmağa başladı. – Sığorta idarəsi pul verəcək... Nömrəsi...

– Yazdım, yazdım, – Ravik onu sakitləşdirdi. – Arxayın ol, hamısını yazmışam.

Ejeniyə işarə elədi ki, bihuşdarı verməyə başlasın.

– Anam polisə getsin... Sığorta idarəsi ödəyəcək...

Birdən onun üzündə tər puçurlandı, elə bil, ora yağış yağıdı.

– Kəssəniz, pulu çox verər... belə qalsa...

Onun gözləri həlqələndi, ağı gedib, qarası qaldı. Sanki, bulanıq gölməçə idi. Zarıya-zarıya yenə nəsə demək istədi:

– Anam... bacarmaz... siz... kömək... – daha danışa bilmədi, boğuq səslə qışqırmağa başladı, çabaladı, elə bil, üstünə dəyirman daşı qoyulmuşdu...

– Dünyada nə yenilik var, Ravik? – Ket Heqstrem soruşdu.

– Nəyinizə lazımdır, Ket? Siz həmişə yaxşı şeylər barədə düşünün.

– Hərdən mənə elə gəlir ki, çoxdan buradayam. Hər şey də keçmişdə qalıb, sulara qərq olub.

– Qoyun bir anlığa hər şey sulara qərq olsun...

– Xeyr! Yaman qorxuram, elə bilirəm, dünyanı su basıb, mən də Nuhun gəmisində oturmuşam. Dünyada nə var, nə yox, Ravik?

– Təzə heç nə yoxdur, Ket. Dünya böyük bir həvəslə özünü məhv etməyə hazırlaşır, ancaq boynuna almaq da istəmir.

– Müharibə olacaq?

– Müharibənin olacağını hamı bilir. Təkcə vaxtı məlum deyil. Hamı nəsə bir möcüzə gözləyir. – Ravik gülümsədi. – Mən ömrümdə İngiltərə və Fransadakı kimi möcüzəyə çox ümid bəsləyən, Almaniyada isə, əksinə, buna inanmayan dövlət xadimləri görməmişəm.

Qız xeyli susdu.

– Doğrudan, müharibə ola bilər?! – deyə, nəhayət, dilləndi.

– Bəli, adam heç inanmaq istəmir ki, bir gün başlayacaq. Ona görə başlayır ki, adam inanmır, inanmadığı üçün də hazır olmur. Yenə ağrıyırsınız, Ket?

– İndi elə dəhşətli ağrılar yoxdur, dözmək olur. – O, başının altındakı yastığı düzəltdi. – Mən bunlardan gen qaçmaq istəyirəm, Ravik.

– Bəli... – Ravikin səsindən inamsızlıq duyulurdu. – Kim istəmir bunu?

– Buradan çıxan kimi İtaliyaya gedəcəm. Fezolaya... Orada bağın içində köhnə, sakit bir evim var. Bir az qalmaq istəyirəm. Oralar hələ sərin olar. Solğun bənizli payız günəşi, günortalar cənub tərəfdəki divardan boylanışan kərtənkələlər, axşamlar da Florensiya zənglərinin səsi... Gecələr isə sərv ağaclarının arxasından boylanan ay, ulduzlar... Çoxlu kitab da var.... Bir dənə də iri, daşdan hörülmüş soba... Qabağında taxta skamya... Üstündə oturub özünü istiyə verirsən. Qabağına çəkilmiş dəmir tora yastı lövhələr bərkidilib, üstünə badə qoyursan. Qırmızı şərabı belə isidib içirlər. Heççə kəs də yox... Təkcə qocadır, bir də qarısı... Yır-yığış edirlər... – Ket Ravikə baxdı.

– Gözəldir! – Ravik dilləndi. – Sakitlik, ocaq, kitablar, dinclik... Əvvəllər belə şeyə meşşanlıq kimi baxırdılar. İndi isə itirilmiş cənnət haqqında əfsanəyə dönüb.

Ket başını tərpətdi:

– Orada bir xeyli qalmaq istəyirəm. Bir-iki həftə... Bəlkə

də, bir-iki ay çəkdi, hələ bilmirəm. Dincəlmək istəyirəm. Sonra gəlib buradan Amerikaya gedəcəyəm.

Ravik dəhlizdən axşam yeməyi gətirən əl arabalarının səsini eşitdi.. Qab-qacaq cingildədi.

– Yaxşı, Ket...

– Mənim uşağım olacaq, Ravik? – Ket tərəddüdlə soruşdu.

– Hələlik yox... Gərək, tamam sağalasınız.

– İndi yox... Sonraları deyirəm. Bu təşrihdən sonra... heç nəyi...

– Xeyr, – Ravik tez dilləndi. – Heç nəyi kəsib götürməmişik. Heççə nəyi...

Ket dərindən nəfəs aldı.

– Bircə bunu bilmək istəyirdim.

– Ancaq çox çəkəcək, Ket. Gərək, bütün orqanizm təzələnsin.



– Eybi yoxdur, nə qədər çəkir, çəksin... – O, saçlarını əli ilə geri sığalladı. Barmağındakı üzüyün qaşı parıldadı. – Belə şeyi soruşmağım gülməli deyilmi? Özü də indi...

– Xeyr, olan şeydir. Lap tez-tez soruşurlar.

– Birdən-birə hər şeydən bezdim. İstəyirəm, qayıdıb, ailə quram. Əsl ailə... Lap qədimlərdəki kimi çoxlu uşağım olsun, sakitcə yaşayım, Allaha dua edim, həyatdan zövq alım...

Ravik pəncərədən baxdı. Qürub edən günəşin qıpqırmızı telləri evlərin damına səpələnmişdi. Reklam işıqları onların içində itib-batmışdı...

– Məni yaxşı tanıdığınız üçün, yəqin, indi ürəyinizdə mənə gülürsünüz... – Ket bu sözləri onun arxasınca dedi.

– Yox, heç vaxt! Heç vaxt, Ket!

Joan gecə saat dörddə gəldi. Ravik qapının səsinə oyandı. Gözləməyib yatmışdı. Gördü ki, astanada dayanıb, qucağındakı payızgülü dəstəsi qapıya sığmır. Üzünü seçmirdi, təkcə kölgəsini və bir də pardaqlanmış gülləri görürdü.

– Bu, nədir? Elə bil, payızgülü meşəsidir. Allah, sən saxla, bunları haradan almısan?

* * *

Joan gülləri birtəhər qapıdan keçirib çarpayının üstünə atdı. Onlar nəm, soyuq idi, yarpaqlarından torpaq, payız ətri gəlirdi.

– Bağışlayıblar. Səni tanıyan gündən hədiyyə almağa başlamışam.

– Götür bunları. Hələ ölməmişəm ki, gülə bələyirsən. Özü də payızgülünə... «İnternasional»ın bu köhnə, vəfalı çarpayısı lap tabuta oxşadı.

– Yox! – Joan tez gülləri yığışdırıb yerə atdı. – Elə danışma! Heç vaxt!

Ravik ona baxdı. Necə tanış olduqlarını tamam unutmuşdu.

– Unut getsin, elə-belə dedim.

– Bir də belə danışma! Heç elə zarafat da eləmə! Söz ver! – onun dodaqları titrəyirdi.

– Joan... Doğrudan, o, səni belə qorxudur?

– Hə... Qorxudan da betərdir... Bilmirəm, nədir...

Ravik durdu.

– Bir də elə zarafat eləmərəm, – dedi, – razı qaldın?

Joan, Ravikin çiyninə söykədiyi başını tərpətdi.

– Bilmirəm nədir... Heç dözə bilmirəm. Elə bil, qaranlıqdan bir əl uzanıb məni özünə tərəf çəkir. Qorxudur... Dəhşətli bir qorxudur, hardasa dayanıb, məni gözləyir... – Ravikə sığındı. – Qoyma gəlsin!

Ravik onu bağrına basdı.

– Qorxma, qoymaram.

Joan yenə başını tərpətdi.

– Sənin əlindədir...

– Hə... – Keti xatırlayan Ravikin səsində qüssə, kinayə var idi. – Bəs necə! Hər şey mənim əlimdədir...

Joan onun qolları arasında qımıldandı:

– Dünən gəlmişdim...

Ravik heç təəccüblənmədi:

– Gəlmişdin?

– Hə...

Ravik susdu. Hər şey birdən oldu. Özünü lap uşaq kimi aparmışdı. O «gözləyim, ya yox?!» məsələsi nəyə lazım idi? Elə bil, kiminləsə gic-gici bir oyun oynayırsan, o isə bunu istəmir.

– Evdə yox idin...

– Hə...

– Bilirəm, hara getdiyini soruşmaq lazım deyil.

– Hə...

Joan onun qolları arasından çıxdı.

– Yuyunmaq istəyirəm. – Onun səsi tamam dəyişdi. – Buz kimiyəm, olar? Bütün mehmanxananı oyatmaram ki?

Ravik gülümsədi:

– Bir iş tutmaq istəyəndə, qabaqcadan onun nəticəsini soruşma, yoxsa eləməyəcəksən.

Joan onun üzünə baxdı:

– Belə xırda işlərdə soruşmaq lazımdır. Böyük işlərdə sən deyəndir.

– O da düzdür.

Joan vanna otağına keçib suyu açdı. Ravik pəncərənin qabağında oturub, bir qutu siqaret çıxardı. Evlərin damı qırmızımtıl işığa boyanmışdı, qar da yağırdı. Küçədən bir taksi keçdi. Döşəməyə səpələnmiş payızgülləri işıldayırdı. Divanın üstündə bir qəzet var idi, axşam almışdı: Çexoslovakiya sərhədlərində toqquşma... Çində döyüş... Ultimatum... Haradasa çevriliş olub... Qəzeti götürüb güllərin arasına soxdu.



Joan qayıtdı. Üz-gözündən buğ qalxırdı və döşəmənin üstündə, güllərin arasındaca onunla yanaşı oturdu.

– Dünən gecə hara getmişdin?

Ravik ona siqaret uzatdı.

– Doğrudan, bilmək istəyirsən?

– Hə...

Tərəddüd etdi, sonra:

– Buradaydım, – dedi, – səni gözləyirdim. Elə bildim, gəlməyəcəksən, çıxıb getdim.

Joan dinmədi, siqareti qaranlıqda közərib söndü.

– Vəssalam, – Ravik əlavə etdi.

– İçməyə getmişdin?

– Hə...

Joan diqqətlə onun üzünə baxdı:

– Ravik, doğrudan, elə buna görə getmişdin?

– Hə...

Joan əlini onun dizinə qoydu. Ravik xalatın üstündən onun əlinin hərarətini hiss elədi. Bir Joanın hərarəti idi, bir də xalatın çoxdan tanış olan doğma istisi və birdən Ravikə elə

gəldi ki, onların ikisi də çoxdan birləşib, Joan da nə vaxtsa keçmişlərdə onun həyatında olub, indi təzədən qayıdıb...

– Ravik, axı mən hər axşam gəlirdim. Gərək, biləydin ki, dünən də gələcəyəm. Bəlkə, məni görmək istəməmisən, ona görə çıxıb getmisən?

– Yox...

– Əgər məndən xoşun gəlmirsə, açıq de!

– Elə şey olsa, deyərdim.

– Demək, elə deyil?

– Yox, doğrudan, elə deyil.

– Onda mən xoşbəxtəm.

Ravik onun üzünə baxdı:

– Nə dedin?

– Mən xoşbəxtəm, – Joan təkrar elədi.

Ravik bir anlığa susdu.

– Nə dediyini bilirsən?

– Hə... – Bayırdan süzülən tutqun işıq qadının gözlərində parıldadı.

– Belə şeyləri, harada gəldi deməzlər, Joan.

– Mən harada gəldi, demirəm.

– Bilirsən, o xoşbəxtlik haradan başlayıb, harada qurtarır?

Ravik ayağı ilə payızgüllərini qurdaladı. «Ah, xoşbəxtlik! – ürəyindən keçirdi. – Gəncliyin əbədi baharı! Həyatın qızıl hərflərlə yazılan səhifəsi! Ah, xoşbəxtlik! İlahi, görəsən, o xoşbəxtlik indi haradadır?».

– Səninlə başlayıb, səninlə də qurtarır, – Joan dilləndi. – Bunu bilməyə nə var!

Ravik heç nə demədi. Fikirləşdi ki, görəsən, nə deyir...

– Hələ bir azdan deyəcəksən ki, məni də sevirsən, – xeyli sonra dilləndi.

– Hə, sevirəm...

Ravik yerində qurcalandı.

– Məni hələ yaxşı tanımırsan axı...

– Bunun ona nə dəxli?

– Çoxdur. Sevmək, kiminləsə ömrü başa vurmaq deməkdir.

– Elə şeylərdən başım çıxmaz. Bircə onu bilirəm ki, kimdirsə, onsuz yaşamaq olmaz.

– Kalvados haradadır?

– Stolun üstündə. Sən durma, özüm gətirirəm.

Şüşə ilə bir qədəh gətirib yerə, güllərin arasına qoydu:

– Bilirəm... məni sevmirsən, – dedi.

– Demək, məndən çox bilirsən.

Joan sərt nəzərlərlə ona baxdı.

– Sevəcəksən!

– Yaxşı, gəl elə bunun sağlığına içək.

– Dayan! – Joan qədəhi doldurub başına çəkdi. Sonra ağzınacan süzüb Ravikə uzatdı. Ravik onu alıb bir az ləngidi. Fikirləşdi ki, bunların heç biri həqiqət deyil, əriməkdə olan gecənin şirin yuxusudur. Qaranlıqdan gələn sözlər necə düz ola bilər? Həqiqət üçün parlaq işıq lazımdır.

– Sən bunları belə dəqiq haradan bilirsən?

– Səni sevdiyimdən...



«Bu sözü lap oyuncağa döndərib, – ürəyindən keçirdi – heç dərinə getmir, elə deyir ki, sanki, əlində boş bir nimçə tutub, içindəkinin töküləcəyindən qorxmur. Nimçəni, ağlına gələn şeylərlə doldurur, adını da məhəbbət qoyur. Nə qalıb onun içinə doldurmasın? Tənhalıq qorxusu, başqa bir «mən»in həyəcanları, aşıb-daşan mənlik hissi, xəyal fantaziyasının tutqun güzgüsü... Ancaq bunları dəqiq bilən varmı? İndicə dediyim «kiminləsə ömrü başa vurmaq» sözləri dünyanın ən səfeh sözləri deyilmi? Çox dərinə getməməkdə, bəlkə Joan düz eləyir? Mən niyə qışın bu uzun gecəsində, ikinci müharibənin qapını kəsdirdiyini bilə-bilə burada oturub boşboğaz məktəb müəllimləri kimi söz güləşdirirəm? Niyə gözümü yumub özümü bu həyat girdabına atmaq əvəzinə, müqavimət göstərirəm?!»

– Sən niyə belə müqavimət göstərirsən? – deyə Joan birdən soruşdu.

– Nə?

– Niyə belə müqavimət göstərirsən? – Joan təkrar elədi.

– Müqavimət göstərmirəm... Nəyə müqavimət göstərməliyəm ki?

– Bilmirəm. Elə bil, ürəyində nəyisə gizlətmisən, heç kimi, heç nəyi ora buraxmırsan.

– Yaxın gəl... İçməyə bir şey ver...

– Mən xoşbəxtəm... İstəyirəm sən də xoşbəxt olasan. Çox xoşbəxtəm. Yatanda da qəlbimdə sənsən, duranda da.

Özgə heç nə bilmirəm. İkimiz haqda düşünəndə beynim sarı simə dönür. Hər yan musiqiyə qərq olur. Hərdən kiminsə səsi də eşidilir. Hər şey gözüm önündən kino lenti kimi keçib gedir, ancaq musiqi yenə qalır. Həmişə qalır...

«Bir az bundan qabaq bədbəxt idin, – Ravik ürəyindən keçirdi. – Məni də tanımırdın. Yaman tez xoşbəxt oldun!» Kalvadosu içdi.

– Əvvəllər də tez-tez xoşbəxt olurdun?

– Həmişə yox...

– Demək, hərdən olub. Axırıncı dəfə beynin sarı simə nə vaxt dönüb?

– Niyə soruşursan?

– Elə-belə... Nəsə soruşmaq xatirinə...

– Yadımdan çıxıb. Heç xatırlamaq da istəmirəm. Onda başqa cür idi.

– Dünyada heç nə bir-birinə oxşamır.

Joan təbəssümlə ona baxdı. Sifəti yenə işıqlanmışdı, saf idi, heç nəyi gizlətmirdi, elə bil, ləçək açmış gül idi.

– İki il bundan qabaq, – dedi, – Milanda... Ancaq çox çəkmədi.

– Tək idin onda?

– Yox, biri vardı. Özü də çox bədbəxt adam idi... Həm də qısqanc. Məni başa düşmürdü.

– Əlbəttə, başa düşməzdi.

– Sən olsaydın, başa düşərdin. Elə oyunlar çıxarırdı ki! – Joan dikəlib divanın üstündəki yastığı götürdü, divanla kürəyinin arasına qoydu, geri söykəndi. – Ağzına gələni deyirdi. Deyirdi ki, fahişəyəm, xəyanətkaram, naşükürəm. Ancaq heç biri düz deyildi. Sevdiyim vaxtlarda ona xəyanət etməmişdim. Başa düşmürdü ki, daha sevmirəm.

– Adam onu heç vaxt başa düşmür.

– Sən başa düşərdin. Ancaq səni həmişə sevəcəyəm. Sən tamam başqa adamsan. Səninlə münasibətimiz də başqadır. Məni öldürmək istəyirdi... – Joan güldü. – Belələri həmişə öldürmək istəyir. Bir neçə aydan sonra başqası da öldürmək istədi. Ancaq heç birinin əli gəlmədi. Sən isə heç vaxt məni öldürmək istəməzdin.

– Öldürsəm də kalvadosla öldürərəm. Şüşəni bəri ver. Allaha şükür ki, indi adam kimi danışırıq. Bayaq yaman qorxmuşdum.

– Səni sevdiyim üçün?

– Gəl yenə başlamayaq. Onda, elə bil, əynində krinolin, başında da parik, gəzməyə çıxırsan. İndi bir yerdəyik, bəsimizdir! Az çəkəcək, çox çəkəcək, bunu da bilən yoxdur. Bir yerdəyik, vəssalam! Gurultu nəyə lazımdır?

– «Az çəkəcək, çox çəkəcək» xoşuma gəlmir. Yaxşı ki bunlar eləcə sözdür. Sən məni atmazsan! Elə bunlar da sözdür. Özün bilirsən...

– Elədir... Heç elə olub ki, sevdiyin adam səni atsın?

– Olub... – Joan onun üzünə baxdı: – İki sevənin biri axırda mütləq atır... Ya sən qabağa düşürsən, ya da o...

– Bəs neylədin?

– Hər şey! – Qədəhi onun əlindən alıb, dibində qalanı başına çəkdi. – Əlimdən gələni elədim, ancaq bir şey çıxmadı. Yaman bədbəxt idim onda.

– Çox çəkdi?



– Bir həftə.

– Bu ki çox deyil.

– Adam, doğrudan da, bədbəxt olanda, bir həftə əbədiyyət qədər çəkir. Mən eləsindən idim. O qədər bədbəxt idim ki, bir həftədən sonra hər şey keçib getdi. Onda saçlarım da bədbəxt idi, bütün bədənim də, çarpayım da, hətta paltarım da... O qədər bədbəxt idim ki, hər şey gözümdə ölmüşdü. Adamın da gözündə hər şey öləndə, bədbəxtlik daha bədbəxtlik olmur, çünki həyatda onu müqayisə eləməyə heç nə qalmır. Onda hər şey öz mənasını itirir, keçib gedir, sən də yavaş-yavaş özünə gəlirsən...

Joan onun əlini öpdü. Ravik yumşaq, titrək dodaqlarını hiss etdi.

– Nə fikirləşirsən? – Joan soruşdu.

– Heç nə... Elə şey deyil... Fikirləşirəm ki, səndə vəhşi bir məşumluq var, həm iblissən, həm də mələkə. Dünyada bundan təhlükəli heç nə yoxdur. Qədəhi bəri ver, mahir insan sərrafı olan dostum Morozovun sağlığına içmək istəyirəm.

– Morozovdan xoşum gəlmir. Başqa sağlığa içmək olmaz?

– Əlbəttə, xoşuna gəlməz. Çünki onun gözləri sərraf gözüdür. Onda sənin sağlığına içək.

– Mənim sağlığıma?

– Hə, sənin sağlığına.

– Mən elə təhlükəli adam deyiləm. Əksinə, məni həmişə təhlükə gözləyir, özüm isə təhlükəli deyiləm.

– Sənə elə gəlir... Sənə heç vaxt heç nə olmayacaq. Nuş!

– Nuş olsun! Ancaq məni başa düşmürsən.

– İndi başa düşmək istəyən adam tapılar? Dünyadakı bütün anlaşılmazlıqların səbəbi də elə budur. Şüşəni bəri ver.

– Çox içirsən. Niyə bu qədər içirsən axı?

– Joan, bir gün gələcək, deyəcəksən: lap çox oldu! Deyəcəksən, yaman çox içirsən və elə biləcəksən ki, mənim yaxşılığımı istəyirsən. Əslində isə, məni əlin çatıb, ünün yetmədiyi bir aləmə qaçmaqdan qoruyacaqsan. Nuş olsun! Bu gün bayramdır! Səhərdən pəncərəmizin qabağını qara bulud kimi almış coşqunluğu içəri buraxmadıq, onu elə coşqunluğun özü ilə dağıtdıq. Nuş olsun!

Hiss etdi ki, Joan diksindi. O, əllərini döşəməyə söykəyərək bir az dikəldi, diqqətlə Ravikə baxdı. Gözləri geniş açılmış, xalatı sürüşüb çiyinlərinə düşmüş, saçları geri daranmışdı və qaranlıqda gözləri işıldayan dişi canavar balasına oxşayırdı.

– Bilirəm, ürəyində mənə gülürsən... – Joan çox sakit danışırdı. – Bunu bilirəm, ancaq vecimə almıram. Hiss edirəm ki, yaşayıram. Bunu bütün varlığımla duyuram. İndi başqa cür nəfəs alıram, yuxum da ölüm yuxusu deyil. Barmaqlarım da, əllərim də əvvəlki kimi bumbuz olmur... İndi mənim üçün fərqi yoxdur, nə fikirləşirsən fikirləş, nə deyirsən de! İstəyəndə uçacağam, istəyəndə qaçacağam, fikirləşmədən özümü həyat girdabına atacağam. Mən xoşbəxtəm və bunu deyəndə, nə qorxuram, nə də çəkinirəm. İstəyirsən gül, istəyirsən də lağ elə...

Ravik bir xeyli dinmədi, sonra:

– Sənə lağ eləmirəm, – dedi, – özümə gülürəm, Joan!

Joan ona sığındı.

– Niyə? Axı gözlərin bunu demir. Niyə eləyirsən?

– Onlar heç nədir. Sadəcə olaraq, mən sənin kimi çevik deyiləm.

Joan başını buladı:

– Yox, təkcə bu deyil. Elə bil, səndə nəsə var, həmişə tənhalıq istəyir. Hiss eləyirəm... Aramıza həmişə sədd çəkir.

– Bu, sədd deyil, Joan, aramızdakı on beş ilin yaş fərqidir. Hamının həyatı öz evi deyil ki, xətri istəyən mebellə bəzəsin. Çoxunun ömrü mehmanxanada keçir. İllər də onun arxasınca həmin mehmanxanaların qapıları kimi bağlanır. Qalan təkcə cüzi qeyrət hissidir. Təəssüf hissi isə heç vaxt qalmır.

Joan susurdu. Ravik onun qulaq asıb-asmadığını kəsdirə bilmədi. Pəncərədən küçəyə baxdı və hiss elədi ki, kalvados yavaş-yavaş beyninə işləyir. Ürəyinin döyüntüləri kəsildi, çaxnaşmış dünyanın top gurultusunu udan zamanın sakit, aramsız döyüntülərinə qarışdı. Çöhrəsi allanmış sirli-soraqlı ay, elə bil, evlərin damına qonmuşdu və buludlar qoynunda uyuyan məscidin qübbəsinə oxşayırdı. Sanki, yer üzü qara bələndikcə, məscid asta-asta göylərə qalxırdı...



– Bilirəm, – onun dizinə söykənmiş Joan əlini çənəsinə dayaq vermişdi, –öz keçmişimi sənə danışmaq axmaqlıqdır. İstəsəm, heç nə deməzdim, yalan danışardım... Ancaq istəmirəm... Başıma gələnləri sənə niyə danışmayım? Nədən çəkinməliyəm? İndi mən özüm də onları unutmaq istəyirəm, çünki gülməli gəlir, dumanlıdır. Öz işindir, istəyirsən, onlara gül, istəyirsən, mənə...

Ravik onun üzünə baxdı. Joanın dizləri bayaq güllərin altında gizlətdiyi qəzeti gülqarışıq döşəməyə sıxmışdı. «Qəribə gecədir... – ürəyindən keçirdi, – indi haradasa qırğındır, insanlar təqib edilir, tutulur, döyülür, öldürülür... haradasa bir parça həyat pozulur və adam da bunların hamısını görür, ancaq əlindən heç nə gəlmir. Gur işıqlı bistrolarda həyat qaynayır, heç kəsin də vecinə deyil, hamı gedib rahatca yatır. Mən də bir qadınla solğun payızgüllərinin arasında oturmuşam, yanımda da bir şüşə kalvados və səksəkəli, qüssəli bir məhəbbət kölgəsi bizi yavaş-yavaş ağuşuna alır... Keçmişin qayğısız gülüstanından qovulmuş bu məhəbbət də tənhadır, çılğındır, utancaqdır, elə bil, gəldiyinə peşmandır, sanki, haqqı yox imiş...»

– Joan! – Ravik asta-asta sözə başladı. Sanki, ayrı şey barədə danışırdı. – Nə yaxşı ki sən buradasan,..

Joan ona baxdı. Ravik onun əllərindən yapışdı:

– Bilirsən, bu nə deməkdir? Min sözə dəyər!

Joan başını yırğaladı və birdən gözləri doldu.

– Heç nə deyil, – dedi, – özüm bilirəm...

– Düz demirsən, – Ravik etiraz etdi və eyni zamanda bildi ki, o, düz deyir.

– Yox, heççə nə deyil! Sən məni sevməlisən, əzizim! Sevməlisən, vəssalam!

Ravik cavab vermədi.

– Sevməlisən məni! – Joan təkrar elədi. – Yoxsa, məhv olaram!

«Məhv olar! – Ravik ürəyindən keçirdi. – Dili necə dönür bunu deməyə?! Məhv olan heç vaxt bunu dilinə gətirməz!..»

## XII

– Ayağımı kəsdiniz? – Janno soruşdu.

Onun qanı qaçmış nazik sifəti avazımışdı. Üzündəki çillər qaralmışdı və çildən çox qara rənglə qoyulmuş nöqtələrə oxşayırdı. Kəsilmiş ayağının üstünə məftil hörmə qoyub adyal çəkmişdilər.

– Ağrıyır? – Ravik soruşdu.

– Bəli, ayağım... Amanımı kəsib! Tibb bacısından soruşdum. Küpəgirən qarı heç nə demədi.

– Kəsmişik.

– Dizdən yuxarı, ya aşağı?

– On santimetr yuxarı. Dizin əzik-əzik olmuşdu, heç nə eləmək mümkün deyildi.

– Yaxşı oldu. Sığorta idarəsi təqaüdü, təxminən, on faiz artıracaq. Çox yaxşı oldu. Düzəltmə ayaq onsuz da düzəltmədir, nə fərqi, dizdən aşağı olsun, ya yuxarı. Ancaq on beş faiz pul deməkdir, hər ay qoyacaqsan cibinə... – O, bir anlığa tərəddüd etdi. – Yaxşısı budur, anama hələ heç nə deməyin. Onsuz da dəmir qəfəsdən görməyəcək.

– Deməzik, Janno.

Oğlanın üz-gözü qırışdı.

– Gözləri kəlləsinə çıxacaq. On üççə yaşım var, gör nə qədər verəsi olacaqlar?! Bilirsiniz, hansı idarə verəcək?

– Hələ yox. Ancaq maşının nömrəsi əlimizdədir. Özün görmüşdün. Polis də gəlmişdi, səni sorğu-sual eləmək istəyirdi, ancaq yatmışdın. Dedilər ki, axşam gələcəklər.

Janno fikrə getdi, sonra:

– Bəs şahid? – dedi. – Şahid mütləq lazım olacaq. Var?

– Deyəsən, anan iki adamın ünvanını götürüb. Kağız əlindəydi.

Oğlan narahat oldu.

– İtirəcək. Bəlkə də, çoxdan itirib! Qocaları tanıyırsınız da... İndi haradadı o?

– Bütün gecəni sənin yanında oturmuşdu. Günorta birtəhər evə göndərdik, indi gələr.

– Yəqin, hələ itirməyib. Polis... – Janno sümükləri çıxmış əlini astaca tərpətdi. – Əclaflar! – deyə öz-özünə donquldandı. – Hamısı əclafdır. Polis də, sığorta idarəsinin işçiləri də əlbirdir. Ancaq yaxşı şahidlərin olsa... Anam nə vaxt gələcək?

– İndi gələr. Buna görə özünü üzmə, hər şey qaydasında olacaq.

Jannonun ağzı tərpəndi, elə bil, nəsə çeynəyirdi.



– Bəzən pulu elə bir dəfəyə verirlər. Dəbbə pulu... Təqaüd əvəzinə... Versələr, anamla balaca bir dükan açarıq.

– İndi yaxşı-yaxşı dincəl, bu barədə sonra da fikirləşmək olar.

Oğlan başını buladı.

– Dincəlmək lazımdır ki, polis gələndə danışa biləsən, – Ravik israr etdi.

– Düz deyirsiniz. İndi neyləməliyəm?

– Yatmalısan.

– Bəs birdən...

– Gəlsə, qaldıracaqlar.

– Qırmızı işıq yanırdı. Qırmızıda keçdi.

– Düz deyirsən. Çalış, bir az yatasan. Nəsə lazım olsa, bu zəngi basarsan.

– Doktor...

Ravik geri döndü.

– İşlər düz gətirsə... – Janno başını yastıqların arasına soxmuşdu və ağıllı sifətində, səyriyən yanaqlarında təbəssümə oxşar nəsə göründü. – Hərdən adamın bəxti gətirir, eləmi, hə?!

Həmin axşam havada nəmişlik olsa da, isti idi. Parça-parça olmuş buludlar lap alçaqdan şəhərin başına dolanırdı. «Fuke» restoranının qabağına dəyirmi kömür sobaları, bir neçə stol, stul qoyulmuşdu. Morozov da həmin

stollardan birinin arxasında oturmuşdu və Raviki görən kimi əl elədi:

– Gəl, qonağım ol.

Ravik gəlib oturdu.

– Dörd divar arasında çox otururuq, – deyə Morozov sözə başladı. – Heç bu haqda düşünməmisən?

– Bu, sənə aid deyil. Həmişə «Şəhrizad»ın qabağında, küçədə durursan.

– Bu yoxsul məntiqi burax, bala. Axşamlar mən təbiətin qoynunda azad nəfəs alan insan yox, «Şəhrizad»ın ikiayaqlı qapısı kimi bir şeyəm. Dedim ki, dörd divar arasında çox otururuq, dörd divar arasında çox fikirləşirik, dörd divar arasında da həyatımızdan bezirik. Təbiətin qoynunda həyatdan bezmək olar?

– Olar! Özü də lap kefin istəyən kimi!

– Çünki dörd divar arasında çox qalırıq. Təbiətin qoynunda çox olsan, bezməzsən. Təbiətin qoynunda bezikmək hara, mətbəxi, vannası olan birotaqlı «imarət»də bezikmək hara! Lap nə qədər rahat olur, olsun... Etiraz eləmə. Etiraz eləmək, əksinə getmək Qərb dünyasının mənəvi kasadlığıdır. Hə, indi kim haqlıdır? Bu axşam boşam, ona görə də həyatdan zövq almaq istəyirəm. Yeri gəlmişkən, dörd divar arasında da çox içirik.

– Dörd divar arasında içdiyimizi dörd divar arasında da axıdırıq...

– Sən allah, bu kinayəni burax! Həyat həqiqətləri çox adi və bayağıdır. Onları canlandıran bizim fantaziyamızdır. Bu fantaziya paltar zivəsini bərkitmək üçün basdırılan adi dirəklərə insanların arzu və xəyal bayraqlarını bağlayıb yellədir. Düz demirəm?

– Yox.

– Əlbəttə, düz demirəm! Heç düz demək istəmirəm də.

– Onda düz deyirsənmiş.

– Yaxşı, demək, razısan. Dörd divar arasında çox yatırıq. Belə-belə də dönürük ev əşyasına. Daş evlər bizim bel sümüyümüzü sındırıb. İndi yeriyən divana, mətbəx stoluna, paltar dolabına, kirayə müqaviləsinə, kirayəçi-kirayənişinə, şorba qazanına, daha nə bilim, nələrə dönmüşük...

– Elədir! İkiayaqlı siyasi oyuncağa, hərbi zavodlara, korlar cəmiyyətinə, dəlixanaya çevrilmişik...

– Yenə sözümü kəsmə! Ye, iç, dilini dinc qoy, sakitcə yaşa, ay skalpelli qatil. Gör axırımız hara gəlib çıxdı! Bildiyimə görə, təkcə qədim yunanların şərab və zövqi-səfa Allahları olub: Vakx ilə Dionis. Bunun əvəzində, bizim psixi analizlə məşğul olan, naqislik kompleksindən dəm vuran Freydimiz var. Bu nəzəriyyə də məhəbbət haqqında təntənəli sözlərdən qaçır, siyasətdə isə buna meyil edir. Çox bədbəxt nəsil olduq... – Morozov göz vurdu. Ravik də göz elədi:

– Öz aramızdır, sən köhnənin həyasızı imişsən!

Morozov irişdi:

– Sən isə yer üzündə müvəqqəti Ravik adlanan, xəyal dünyası tar-mar olmuş, zavallı bir romantiksən.

– Hə, lap müvəqqətidir. Qaldı ad məsələsi, bu artıq üçüncüsüdür. Polşa arağıdır bu?

— Estoniyadır. Riqadan gəlib. Ən yaxşı araqdır. Süz gəlsin! Özü də qoy sakit oturub, dünyanın ən gözəl küçəsinə tamaşa eləyək, bu əsrarəngiz gecədən həzz alaq, ümidsizliyin də başına yekə bir daş salaq!



Kömür sobasının alovu çırtıldadı. Bir kişi səkidə dayanıb skripkada «Upres de ma blonde»[1] mahnısını çalırdı. Küçədən keçənlər ona toxunduqca yay skripkanın simlərinə ilişir, melodiya pozulur, lakin kişi çalmaqda davam edirdi, elə bil, bu dünyada özündən başqa heç kəs yox idi. Skripkanın səsində nəsə bir quruluq, boşluq vardı, sanki, donmuşdu. İki mərakeşli stolların arası ilə gəzişərək, müştərilərə ucuz xalçalar təklif edirdi. Qəzet satan uşaqlar son xəbərləri gətirdilər. Morozov «Pari suar»[2] və «Entransijan»[3] götürdü, başlıqlara göz gəzdirib, onları stolun bir kənarına qoydu.

– Saxta pulkəsənlər! – deyə donquldandı. – Heç sənə elə gəlmirmi, biz saxta pulkəsənlər zəmanəsində yaşayırıq?

– Yox, mən elə bilirdim konserv zəmanəsində yaşayırıq.

– Konserv? Bu nə deməkdir?

Ravik qəzetlərə işarə etdi:

– Bizə daha fikirləşib baş sındırmaq lazım deyil. Hər şeyi qabaqcadan fikirləşiblər, götür-qoy ediblər, duyublar. Lap konserv qutusu kimidir, təkcə ağzını açmaq lazımdır.

---

[1] “Sarışın sevgilimə” *(fran.)*

[2] Paris axşam qəzeti

[3] Yenilməz

Gündə üç dəfə evə göndərirlər. Daha bizə əkib-becərmək, tərəddüd, şübhə, həsrət ocağında bişirmək lazım gəlmir. – O irişdi. – Belə həyat asan yox, ucuzdur, Boris.

– Yox, biz saxta pulkəsənlər zəmanəsində yaşayırıq. – Morozov qəzetləri əlinə götürdü. – Bir bunlara bax! Hərbi zavodları ona görə tikirlər ki, sülh istəyirlər, həbs düşərgələrini ona görə yaradırlar ki, həqiqəti sevirlər! Ədalət də siyasətbazlar üçün pərdə olub. Siyasi canilər indi xilaskara çevrilib. Azadlıq isə ağalıq iddiasında olanların gurultulu şüarıdır. Saxta pullardır! Mənəvi saxtalıqdır! Hamısı da təbliğatın uydurmasıdır, riyakarlıqdır! Pozğun ünsürlərin əlində idealizm silahıdır! Kaş bir az da vicdanları olaydı... – O, qəzetləri bürmələyib tulladı.

– Dörd divar arasında qəzeti də çox oxuyuruq, – Ravik dilləndi.

Morozov güldü:

– Bəs necə! Təbiətin qoynunda qəzet təkcə tonqal...

O dayandı. Ravik yoxa çıxmışdı. Qəflətən yerindən sıçrayıb, özünü kafenin qarşısındakı izdihama vurdu, V Georq prospektinə tərəf üz qoydu...

Heyrətlənmiş Morozov bir-iki saniyə nə edəcəyini bilmədi, sonra cibindən pul çıxarıb stolun üstündəki çini qablardan birinə tulladı və Ravikin qarasınca düşdü. Nə olduğunu bilmirdi, hər ehtimala qarşı gedirdi ki, birdən ona lazım olar. Gözünə polis dəymirdi. Mülki paltarda onu izləyən də yox idi. Səki adamla dolu idi. Fikirləşdi ki, lap yaxşı oldu, əgər polis tanıyıbsa, asanca aradan çıxa biləcək. Onu V Georq prospektinə çatanda gördü. Həmin anda yolun işığı dəyişdi və uzun maşın karvanı Ravikin önünü kəsdi. Buna baxmayaraq, o, özünü irəli atdı, az qaldı taksinin altına düşsün. Sürücü özündən çıxdı. Morozov arxadan çatıb onu geri dartdı:

– Dəli olmusan? – deyə qışqırdı. – Özünə qəsd eləyirsən? Nə olub?

Ravik cavab verməyib, diqqətlə küçənin o biri üzünə baxırdı. Küçə yaman sıxlıq idi, dörd cərgədə keçən maşınlar da az qala bir-birinin üstünə çıxırdı. Keçmək mümkün deyildi. Ravik isə səkinin lap qurtaracağında hazır vəziyyətdə dayanıb, diqqətlə o tərəfə baxırdı.

Morozov onu silkələdi:
– Nə olub? Polisdir?
– Yox. – Ravik gözlərini maşınlardan çəkmirdi.
– Bəs nə olub? Nə olub, Ravik?
– Haake...
– Nə? – Morozovun gözləri bərələ qaldı. – Görkəmi necədir? Tez ol!
– Boz palto...
«Yelisey çölləri»nin düz ortasından yolgöstərən polisin kəskin fiti eşidildi. Ravik axırıncı maşınları gözləməyib özünü irəli atdı. Boz palto! – yadında qalan birçə bu idi. V Georq prospektini keçib Basson küçəsinə çıxdı. Gördü ki, boz paltolu adam çoxdur. Yağlı bir söyüş söyüb, irəli cumdu. Qaliley küçəsinin tinində yaşıl işığa düşdü. Tez keçib, o biri üzdəki izdihama qarışdı, onu yara-yara «Yelisey çölləri» ilə irəlilədi, axırda gəlib Pressburq küçəsinə çıxdı, yüyürə-yüyürə tini keçdi və birdən dayandı: qarşısında nəhəng, adamı çaş-baş qoyan Etual meydanı açılırdı... Maşınla dolu idi, hər tərəfə də bir küçə ayrılırdı... Vəssalam! Burada heç kimi tapa bilməzdin!



Geri dönüb yavaş-yavaş, yanından keçən adamların üzünə baxa-baxa geri qayıtdı, həyəcanı sovuşub getmişdi. Qəflətən daxilində bir boşluq hiss elədi. Ola bilsin, yenə yanılmışdı, ya da Haake ikinci dəfə əlindən çıxmışdı. Ancaq iki dəfə yanılmaq olardımı? İki dəfə yer yarılıb, adamı udardımı? Hər tərəfə bir küçə ayrılır. Kim bilir, hansına dönüb? Gözlərini Pressburq küçəsinə zillədi. Maşınlar, maşınlar... Adamlar, adamlar... Küçələrin də gur vaxtı... Təzədən axtarmağın xeyri yox idi. Yenə gecikdi!
– Tapmadın? – Ona tərəf gələn Morozov soruşdu.
Ravik başını buladı:
– Deyəsən, məni yenə qara basıb...
– Dəqiq bilirsən ki, o idi?
– Deyəsən.. Bir az bundan qabaq dəqiq bilirdim, indi isə heç nə bilmirəm...
Morozov onun üzünə baxdı:
– Yer üzündə bir-birinə oxşayan o qədər adam var ki...
– Hə.. Ancaq eləsi də var ki, ömrün boyu yadından çıxmır!
Ravik dayandı.

– Neyləmək istəyirsən? – Morozov soruşdu.

– Özüm də bilmirəm. Bundan sonra neyləməliyəm?

Morozov diqqətlə insan axınına baxdı:

– Adamın bəxti gətirməyəndə, gətirmir. Gərək, elə bu vaxt olaydı? Camaatın işdən çıxan vaxtı... Adam əlindən tərpənmək olmur.

– Hə...

– Hələ, üstəlik də, qırmızı işıq... Qaş da qaralıb... Doğrudan, o idi?

Ravik cavab vermədi. Morozov onun qolundan yapışdı:

– Bura bax, – dedi, – daha bu küçələrdə ora-bura qaçmağın mənası yoxdur. Bunda olanda, elə biləcəksən o birindədir. Boş şeydir. Gəl restorana qayıdaq, ən yaxşı yer oradır. Buralarda vurnuxmaqdansa, orada oturub baxmaq yaxşıdır. Geri qayıdası olsa, görəcəksən.

Onlar lap qıraqdakı stol arxasında oturdular, hər yan görünürdü. Xeyli də oturdular.

– Bir də rast gəlsə, neyləyəcəksən? – Nəhayət, Morozov dilləndi. – Nə edəcəyini bilirsən?

Ravik başını buladı.

– Bu barədə fikirləş. Əvvəlcədən hər şeyi götür-qoy etsən yaxşıdır. Həyəcanlanmağın, səfehlik eləməyin nə mənası?! Özü də sənin indiki vəziyyətində... Yoxsa, həbsxanalarda çürümək istəyirsən?

Ravik başını qaldırıb onun üzünə baxdı, ancaq dinmədi.

– Mən də heç nəyə baxmazdım. Özümü deyirəm... Ancaq burada söhbət səndən getdiyi üçün razı olmaram. Tutaq ki, onu bu tində tutdun, neyləyəcəksən?

– Bilmirəm, Boris. Doğrudan, bilmirəm...

– Yanında heç nəyin yoxdur, eləmi?

– Hə...

– Tutaq ki, görən kimi üstünə atıldın, sonrası? O dəqiqə aralayacaqlar. O, bir-iki yumruq yeyəcək, uzaqbaşı, üz-gözü göyərəcək, sən isə polisə düşəcəksən. Sonrasını da özün bilirsən...

– Hə... ə... – Ravikin gözü küçələrdə idi.

Morozov da bir anlıq fikrə getdi.

– Uzaqbaşı, çalışacaqsan ki, tinlərin birində itələyib maşının altına salasan. Bu da boş şeydir, bir-iki yerdən yaralanacaq, sonra da sağalacaq.

– Maşının altına atmaram... – Ravik hələ də gözünü küçələrdən çəkmirdi.

– Bilirəm... Heç mən də eləməzdim.

Morozov susdu, sonra:

– Ravik, – dedi, – əgər, doğrudan da, o idisə, tuta bilsən, gərək, əldən buraxmayasan. Özün bilirsən, belə imkan bir də düşməyəcək...

– Hə... ə... bilirəm... – Ravik elə hey küçələrə boylanırdı.

– Rast gəlsə, dalınca düş. Əl vurma, eləcə izlə, öyrən, gör harada qalır. Özgə heç nə lazım deyil. Bir az vaxt qazan, hər şeyi arxayınca götür-qoy elə. Səfehlik eləmə... Eşidirsən?

– Hə... – hələ də küçələrə baxan Ravikin fikri heç özündə deyildi.

Stola bir püstəsatan yaxınlaşdı. Əlində oyuncaq siçan tutmuş oğlu da dalınca gəlirdi. Yaylı oyuncağı mərmər döşəmənin üstünə qoyanda, siçan hoppanıb-düşməyə başladı və oğlanın əli üstünə dırmaşdı. Skripkaçı yenə gəldi. Bu dəfə başında şlyapa var idi və Parlez moi d`amour[1] çalırdı. Yaşlı, üz-gözündən xəstəlik yağan bir qadın onlara bənövşə təklif elədi.



Morozov saatına baxdı:

– Səkkizdir, – dedi, – daha gözləməyin mənası yoxdur, Ravik. İki saatdan çoxdur oturmuşuq. O bu vaxta qalmaz. İndi bütün Fransa şam yeməyilə məşğuldur.

– Sən arxayınca çıx get, Boris, niyə hədər yerə burada oturursan?

– Bir də elə şeylər danışma. Nə qədər lazım olsa, oturacağıq. Ancaq istəmirəm, sən özünü belə üzəsən. Saatlarla burada oturub gözləməyin xeyri yoxdur. İndi ona hər yerdə rast gəlmək olar. Bu ehtimal indi restoranlarda, gecə klubarında, fahişəxanalarda daha çoxdur.

– Bilirəm, Boris.

Morozov iri, tüklü əlini Ravikin əlinin üstünə qoydu:

– Ravik, – dedi, – gəl sən mənə qulaq as. Əgər ona rast gəlmək alnına yazılıbsa, mütləq, rast gələcəksən. Yazılmayıbsa, boş şeydir, istəyirsən, lap on il gözlə. Nə dediyimi özün yaxşı bilirsən. Həmişə, hər yerdə gözüaçıq ol, hazırca dayan! Ancaq özünü elə apar ki, guya, yanılmısan. Çox

[1] Mənə məhəbbətdən danışın *(fran.)*

güman ki, belədir. Bu, yeganə düzgün yoldur. Yoxsa, özün öz axırına çıxarsan. Mənim də başıma gəlib. Təxminən, iyirmi il bundan qabaq. Hər dəqiqə mənə elə gəlirdi ki, indicə atamın qatillərindən birinə rast gələcəyəm. Qara basır... – O, qədəhdə qalanı başına çəkdi. – Lənətə gəlsin, adamı qara basır. Dur, gedək, bir yer tapıb şam eləyək.

– Sən get, çörəyini ye, Boris. Bir azdan gələcəyəm.

– Yenə burada qalmaq istəyirsən?

– Bir-ikicə dəqiqə... Sonra mehmanxanaya gedəcəyəm, işim var.

Morozov onun üzünə baxdı. Mehmanxanaya nə üçün getdiyini bilirdi. Onu da bilirdi ki, saxlaya bilməyəcək, Ravik gedəcək. Qoy getsin, öz işidir...

– Yaxşı, – dedi, – mən «Meri-Meri»dəyəm, sonra da «Bublik»ə gedəcəyəm. Ya zəng elə, ya da gəl. – Onun qalın qaşları çatıldı. – Boş yerə risq eləmə. Belə yerdə qəhrəmanlıq göstərmək düşüklük, səfehlikdir. Elə yerdə vur ki, aradan çıxa biləsən. Bu, sənin üçün nə uşaq oyunudur, nə də macəra filmi.

– Bilirəm, Boris, narahat olma...

Ravikin «İnternasional» mehmanxanasına girməsi ilə çıxması bir oldu. Yolu «Milan»ın yanından keçirdi. Saata baxdı. Doqquzun yarısı idi, Joan hələ evdə olardı.

Joan özü qabağına çıxdı.

– Ravik?! – O, çox təəccübləndi. – Mənim yanıma gəlmisən?

– Hə...

– Sən ki bura gələn deyildin?! Məni bura köçürən gündən gəlməmisən...

Ravik dalğın halda gülümsədi:

– Elədir, Joan. Biz səninlə qəribə həyat sürürük.

– Hə, lap göstəbək, ya da yarasa kimiyik. Ya da bayquş... Qaranlıq qarışanda üzə çıxırıq.

O, iri səssiz addımlarla otaqda gəzişirdi. Əynində tünd – göy rəngli xalat vardı, kişi xalatına oxşayırdı, kəmərini də çox sıxmışdı. Həmişə «Şəhrizad»a geydiyi bayırlıq paltarı çarpayının üstünə atılmışdı. Çox gözəl, həm də əlçatmaz bir uzaqlıqda idi...

– Getmək vaxtın deyil, Joan?

– Hələ yox, yarım saat var. Bu yarım saat ən çox sevdiyim vaxtdır. Bir azdan yenə gedəcəyəm... Gör bir nəyim var! Qəhvə, dünyanın özü boyda vaxt.. Bu gün hətta sən də gəlib çıxmısan! Hələ kalvadosum da var.

Şüşəni gətirdi. Ravik onu alıb, açmadan stolun üstünə qoydu. Sonra ehtiyatla onun əllərindən tutdu:

– Joan! – dedi.

Joanın gözlərindəki qığılcım söndü, ona sığındı:

– Tez ol de, nə olub?

– Necə məgər? Nə olmalıdır ki?

– Nəsə olub. Sən belə gəlmisənsə, demək, nəsə var. Ona görə gəlmisən?

Ravik hiss etdi ki, onun əlləri əlindən sürüşür. Ancaq, əslində, Joanın nə özü, nə də əlləri tərpənirdi. Sanki, əllərinin içində nəsə var idi, onları geri çəkirdi.



– Bu axşam gəlmə, Joan! Bu axşam.. Bəlkə, sabah da... O birisi gün də...

– Xəstəxanada qalacaqsan?

– Yox, başqa şeydir, deyə bilmərəm. Ancaq elə şeydir ki, bizim münasibətlərə qarışacağı yoxdur.

Joan bircə anlığa, sanki, yerində dondu, sonra:

– Yaxşı, – dedi.

– Başa düşürsən, Joan?

– Yox! Əgər sən deyirsənsə, demək, elə lazımdır.

– İncimirsən ki?

Joan onun üzünə baxdı:

– Aman Allah, Ravik! Belə şeydən ötrü səndən inciyə bilərəm?

Ravik baxışlarını qaldırdı. Birdən ona elə gəldi ki, kimsə köksündən bərk-bərk sıxdı. Əlbəttə, Joan bu sözləri qəsdən demədi, ancaq onu yerindən oynatmağa elə bu da bəs idi... Gecələr onun kəsik-kəsik pıçıldadığı sözlərə əhəmiyyət verməmişdi, bomboz dumanlı səhər gözünü açıb pəncərədən içəri boylananda, hamısını unutmuşdu. Bilirdi ki, Joan yanında oturanda, ya uzananda onu tilsimləyən cazibədarlığı ötəri hisslərdir, bircə anın nəşəsi, hökmüdür, özgə heç nə deyil. İndi isə ömründə ilk dəfə günəşlə gizlənqaç oynayan dümağ buludların arasından par-par yanaraq, yaşılı, qəhvəyi rəngə çalan yer kürəsini görən təyyarəçi kimi, hər şey gözlərində dəyişdi. Bir anın cazibədarlığında

vurğunluq, nəşəsində kövrək hisslər, pıçıltısında isə sadə bir inam gördü. Elə bilmişdi, indicə şübhə, çək-çevir, anlaşılmazlıq başlayacaq... Bircə bunu gözləməmişdi. Xırda şeylər həmişə tez başa düşülür, böyüklər isə gec! Böyüklərdə melodram, aldanıb-aldatmaq ehtimalı daha çox olur!

Otaq. Mehmanxana otağı... Bir-iki çamadan, çarpayı, işıq, pəncərənin o tərəfində isə keçmişlə gecənin zülmət dolu boşluğu, yanında isə üz-gözündən nur çilənən, alagözlü, çatmaqaşlı, ipəksaçlı bir qadın – həmişə günəşə tərəf boylanan oleandr kolu kimi ona baxan kövrək bir həyat... O lap əlyetən yaxınlıqda idi, dayanıb səssiz-səmirsiz bir harayla ona deyirdi: gəlmişəm ki, sənin olum! Buraxma məni! Nə vaxtsa, lap keçmişlərdə ona deməmişdimi, səni getməyə qoymaram?!

O ayağa durdu:

– Gecən xeyrə qalsın, Joan.

– Xeyrə qarşı, Ravik.

«Fuke» restoranının qabağında, yenə həmin stolun arxasında oturmuşdu. Saatlarla beləcə oturub, keçmişin zülmət kimi xatirə dünyasına baş vurdu. O zülmətdə tək bircə işartı vardı: qisas ümidi!

Onu 1933-cü ilin avqustunda tutdular. Gestaponun axtardığı iki dostunu on dörd gün yanında gizlədib, sonra qaçmalarına kömək etmişdi. Biri 1917-ci ildə Flandriyada onu ölümün ağzından almışdı, kimsəsiz bir çöllükdə qan aparanda dolu kimi yağan pulemyot güllələrinin arasından keçirərək arxaya çatdırmışdı. İkincisi isə çoxdan tanıdığı yəhudi yazıçı idi. Sorğu-sual başlandı: hansı tərəfə gediblər, nə sənədləri var, onlara yolda kim kömək edəsi idi? İstintaq eləyən Haake idi. Birinci dəfə huşunu itirib, sonra ayılanda tapançanı əlindən qapıb onu vurmaq, ya da canı çıxanacan döymək istədi. Sonrasını fikirləşməyib dörd nəfər silahlı, boylu-buxunlu adamın yanında onun üstünə cummaq mənasız şeydir... Düz üç gün huşsuz qaldı, hərdən yavaş-yavaş ayılırdı, dəhşətli ağrıların içində qovrulurdu, Haakenin soyuq nəzərləri, kinayəli təbəssümü gözləri önündən çəkilmirdi. Düz üç gün eyni suallar, eyni əzab-əziyyət... və axırda elə günə düşdü ki, daha ağrı hiss eləmədi. Sonra üçüncü günün nahar vaxtı Sibillanı gətirdilər. Onun da heç nədən xəbəri yox

idi. Raviki ona göstərdilər ki, qorxub danışsın. O, çox zərif, qəşəng, yüngül və qayğısız həyat keçirmiş bir qadın idi. Ravikə elə gəlirdi ki, qışqırıb bayılacaq. Ancaq o, özünü itirmədi, cəlladlara elə sözlər dedi ki, iliklərinə işlədi. Bu sözlərdən ölüm qoxusu gəlirdi və özü də bunu yaxşı bilirdi. Haakenin kinayəli təbəssümü qeybə çəkildi, sorğu-sualı kəsdi. Səhəri gün Ravikə başa saldı ki, boynuna almasa, Sibillanı qadınlar üçün həbs düşərgəsində nələr gözləyir. Ravik cavab vermədi. Onda Haake həbs düşərgəsinə göndərilənə qədər Sibillanın başına nələr gələcəyini söylədi. Ravik yenə susdu, çünki deyiləsi bir şey də yox idi. Sonra Haakeni inandırmağa çalışdı ki, qadının heç nədən xəbəri yoxdur, dedi ki, onu heç yaxından tanımır da. Sibilla Ravik üçün yalnız gözəl bir qadın olmuşdur, ona görə də etibar eləyib belə şeyləri deməzdi... Bu, doğrudan da, elə idi. Haake onda heç nə deməyib gülümsəmişdi.. Üç gündən sonra Sibilla öldü. Həbs düşərgəsində özünü asmışdı. Bir gün sonra isə qaçanlardan birini gətirdilər. Yazıçı idi. Ravik onun nə özünü, nə də səsini tanıdı. Haakenin sorğu-sualı bir həftə də uzandı, Ravik ölümcül hala düşdü. Axırda onu da həbs düşərgəsinə göndərdilər. Sonra xəstəxana... Daha sonra isə xəstəxanadan qaçması...

* * *

Gümüşü rəngli ay «Zəfər tağı»nın tuşunda dayanmışdı. Külək «Yelisey çölləri» boyunca düzülmüş fənərləri yellədirdi və onların gur işığı stolların üstündəki qədəhlərdə əks olunurdu. Birdən ona elə gəldi ki, bunların heç biri həqiqət deyil – nə qədəhlər, nə ay, nə bu küçə, nə bu gecə, nə də bu an. Bu an gah doğmalaşır, gah da yadlaşırdı və elə bil, onu nə vaxtsa, hansı planetdəsə bir dəfə yaşamışdı. Heç biri həqiqət deyil – nə beynində ötən illərin fosfor kimi işıldayan, donub sözlərə dönmüş, gah ölüb, gah dirilən xatirələri, nə də damarlarından şırıltı ilə axan ılıq maye... Bir az şoran dadı verən bu dörd litr sirli mayenin adı qan idi, bədənin bütün əzalarına süzülüb ona həyat verirdi, hansı bir heçlikdəsə gözə görünməyən bir anbara yığılırdı və onun da adına yaddaş deyirdilər. Bu qan da süzüldükcə ulduzları, illəri bir-bir çevirirdi. Onların bəziləri aydın, bəziləri isə qan

rəngində olur, sanki, Mars planeti fırlanıb Berri küçəsinin üstünə gəlib. Bəziləri də ləkə-ləkədir, tutqun parıltı ilə işıldayır... Bütün bunların hamısı xatirələrin sirli-soraqlı səması idi və zəmanə də onun altında bildiyini eləyirdi.

Qisas ümidinin yaşıl rəngli qığılcımı... Solğun ay işığında, avtomobil motorlarının uğultusunda asta-asta yırğalanan şəhər... Ucu-bucağı görünməyən sıra evlər, pəncərələr və onların arxasında küçələrin özü qədər nəhayətsiz insan taleləri... Milyonların ürək döyüntüləri... Bu ürəkləri, sanki, milyon at gücündə bir motor döyündürür, aram-aram, asta-asta onu həyat yolu ilə dartıb aparır və hər döyüntü ilə bircə millimetr ölümünə yaxınlaşdırırdı...

O durdu. «Yelisey çölləri», demək olar ki, bomboş idi. Künc-bucaqda bir-iki fahişə vurnuxurdu. Üzüaşağı düşüb Pyer Şardon, Marbef, Marinyon küçələrini keçdi, Pion körpüsünə çatanda geri dönüb, «Zəfər tağı»na tərəf getdi. Zəncirlərin üstündən aşıb, naməlum əsgərin məzarı önündə dayandı. Balaca, göyümtül fənər qaranlıqda titrəyirdi. Qəbrin üstündə gülləri solmuş bir əklil vardı... Etual meydanını keçib, birinci dəfə Haakeni gördüyü bistroya gəldi. İçəridə sürücülər oturmuşdu. Yenə pəncərənin yanında əyləşdi, qəhvə içməyə başladı. Sürücülər Hitlerdən danışırdılar. Ona lağ eləyir və deyirdilər ki, Majino xəttinə hücum eləsə, mütləq məğlub olacaq. Ravik gözlərini küçəyə zilləmişdi. «Niyə burada otururam? – ürəyindən keçirdi. – Parisin hər yerində ona rast gəlmək olar...» Saata baxdı. Üçə az qalırdı. Çox gec idi. Haake – əgər, doğrudan da, o idisə – bu vaxt küçələrdə veyillənməzdi.

Gördü ki, küçədən bir fahişə keçir. O, pəncərədən içəri boylanıb getdi. «O qayıdanda duraram», – deyə ürəyindən keçirdi. Fahişə qayıtdı, ancaq durmadı. Qət elədi ki, bir də gəlib keçəndə mütləq qalxacaq. Demək, Haake Parisdə deyil. Fahişə qayıtdı, başı ilə ona işarə eləyib keçdi. Ravik yerindən tərpənmədi. O bir də gəlib keçdi, yenə durmadı...

Xidmətçi stulları stolların üstünə yığırdı. Sürücülər pullarını verib çıxdılar. Xidmətçi piştaxtanın yanındakı işığı söndürdü. Otağa çökən qaranlıqda hər şey birtəhər görünürdü. Ravik yan-yörəsinə boylandı:

– Pulunuzu alın, – dedi.

* * *

Bayırda külək qalxmış, hava soyumuşdu. Bulud topaları sürətlə yuxarı qalxırdı. Joan yaşayan mehmanxananın yanından keçəndə ayaq saxladı. Birindən başqa bütün pəncərələr qaranlığa qərq olmuşdu. O pəncərənin pərdələrindən zəif işıq gəlirdi. Joanın otağı idi. Bilirdi ki, qaranlıq otağa qayıtmaqdan xoşu gəlmir. İşığı ona görə yana-yana qoymuşdu ki, Ravikin yanına getməyəcəyini bilirdi. Başını qaldırıb pəncərəyə baxdı və birdən-birə niyə elə hərəkət etdiyini özü də anlamadı. Joandan niyə qaçırdı? Sibillanın özü haqda olan xatirələri çoxdan sönüb getmiş, təkcə ölümü yadında qalmışdı...

Bəs o biri? Onun Joana nə dəxli? Lap elə özünə nə dəxli var idi? Dumanlı xatirələrin toruna düşüb dəqiq bilməyə-bilməyə kimisə izləməsi, təsadüfi bir oxşarlıq nəticəsində ötüb keçmiş illərin zığ-palçığında təzədən eşələnməsi, çürüyüb getmiş keçmişi yenidən qurdalaması, qaysaqlanmış yaranı təzədən qanatması və bununla da qəlbində yenicə kök salmağa başlayan ümidi sındırması, yaxşı-pis ona bağlanmış yeganə adamı itirməsi səfehlik deyildimi? Onun bunlara nə qarışacağı? Həmişə hər şeyin öz yeri olduğunu özünə təlqin eləməmişdimi? Yoxsa, canını onlardan necə qurtarardı? Belə eləməsəydi, axırı hara çıxardı?

Hiss etdi ki, damarlarından axan qan qurğuşun kimi dondu. Dərindən nəfəs aldı. Külək bərkiyirdi. Yenə işıq gələn pəncərəyə baxdı. Orada onun qədrini bilən, lazımı olan, onu görəndə rəngi dəyişən bir adam qalırdı. Ravik isə onu boş xəyallara, qisas ümidinin yaratdığı mənasız bir təkəbbürə qurban vermək istəyirdi...

Axı tələbi nə idi? Niyə özünü çəkirdi? Niyə etiraz edirdi? Həyat özü gəlib onun yan-yörəsində dolaşır, o isə naz eləyirdi. Özü də bu həyatın ona bəxş elədiyi nemətin az yox, çox olduğu üçün naz eləyirdi. Axı bunu anlamaq üçün nəyə görə təzədən keçmişin qanlı-qadalı burulğanına düşməli idi? Çiyinlərini çəkdi. «Ürək! –deyə fikirləşdi. – Ürək yaman şeydir! Gör necə həssasdır! Necə şiddətlə döyünür!» İndi qaranlıqda parıldayan o tənha pəncərə də bütün varlığı ilə özünü onun ixtiyarına verən və onu tilsimləyən başqa bir

coşqun həyatın nişanəsi deyildimi?! Yenə nəşə alovu, yenə zərifliyin müqəddəs ocağı, yenə damarlarından axan qanın parıltısı... Hamısı ona tanış idi, hamısını görmüşdü və elə bilmişdi ki, bu zərif, şirin duyğular heç vaxt beynini dumanlandıra bilməyəcək. Bunları bilə-bilə də indi üçüncü dərəcəli bir mehmanxananın qabağında dayanmışdı və həmin duyğular da, sanki, asfaltdan buğ kimi qalxırdı, elə bil, dünyanın o başından, mavi Kokos adalarından yayılan tropik baharın ılıq nəfəsi idi, okeanlardan, mavi rəngli cəngəlliklərdən, vulkanlardan, qaranlıqlardan süzülə-süzülə keçib gəlir, Parisə axır, qisasla, keçmişlərlə dolu bir gecədə miskin Ponsel küçəsinə müşk, küsdüməğacı ətri çiləyir. Heç nə deyə bilmirsən, heç nə eləyə bilmirsən, bir də görürsən ki, asta-asta uyuyursan...

«Şəhrizad» adamla dolu idi. Joan bir neçə adamla oturmuşdu və qapının ağzında dayanmış Raviki o dəqiqə gördü. Tüstü dolu zalı musiqi sədaları başına götürmüşdü. Joan yanındakılara nəsə deyib, cəld ona yanaşdı.

– Ravik...

– Burada işin çoxdur?

– Nəyə görə soruşursan?

– Səni aparmağa gəlmişəm.

– Bəs deyirdin ki...

– Keçib getdi. İşin çoxdur?

– Yox. Bircə onlara demək lazımdır ki, gedirəm..

– Tez elə, taksidə gözləyirəm.

– Oldu... – Ancaq Joan yerindən tərpənmədi. – Ravik.... Ravik ona baxdı.

– Mənə görə qayıtmısan, Ravik?

Ravik bircə anlığa tərəddüd etdi, sonra yavaşdan:

– Hə, – dedi. Joan elə yaxın dayanmışdı ki, onun nəfəsini üzündə hiss eləyirdi. – Hə, Joan... Sənə görə... Təkcə sənə görə!

Joan o dəqiqə fikrini dəyişdi:

– Gəl gedək, – dedi, – cəhənnəm olsun hamısı...

Taksi Lije küçəsi ilə gedirdi.

– Nə olmuşdu, Ravik?

– Heç nə.

– Yaman qorxdum.

– Unut getsin, heç nə yox idi.

Joan onun üzünə baxdı:

– Elə bilirdim, daha qayıtmayacaqsan.

Ravik ona tərəf əyildi, hiss etdi ki, Joan titrəyir.

– Joan, – dedi, – ağlına heç nə gətirmə, heç nə də soruşma. Küçələrdəki fənər işıqlarını, al-əlvan lövhələri görürsənmi? Biz ölümə doğru gedən bir zəmanədə yaşayırıq, bu şəhərdə isə həyat qaynayır. Hər şey əlimizdən çıxıb, olan-qalan bircə ürəyimizdir. Aydoğana getmişdim, qayıtmışam. İndi isə sən yanımdasan. Demək, həyat sənsən! Özgə heç nə soruşma. Sənin saçların min bir sualdan da müəmmalıdır. Gecə bizi yenə öz qoynuna alıb, bu saatlar da günəş pəncərəmizi döyənə qədər əbədiyyətə çevriləcək. İnsanların bir-birini sevməsi nəyə desən, dəyər! Məhəbbət dünyada olan şeylərin ən möcüzəlisi, həm də ən sadəsidir. Bunu mən bu gün, gecə əriyib çiçək açan kollara dönəndə, küləkdən çiyələk ətri gələndə duydum və bildim ki, sevməyən adam bu dünyaya məzuniyyətə gəlmiş ölüdür. Onun da quruca adı, doğulduğu ayı, ili var, vəssalam... Sevməyən adam üçün, əslində, ölüm yaxşıdır.



Küçədəki fənərlərin işıqları, qaranlıqda fırlanan mayak projektorları kimi taksinin şüşələrində dolaşırdı. Solğun bənizli Joanın gözləri də gah işıldayır, gah da qapqara görünürdü.

– Biz ölməyəcəyik, – deyə o, Ravikin qolları arasından pıçıldadı.

– Yox, özümüzü demirəm. Zəmanəni deyirəm, lənətə gəlmiş zəmanəni! Ölən həmişə odur, yaşayansa biz! Yuxudan ayılanda dünya gözünə bahar görünür, yuxuya dalanda isə hər şey payıza çevrilir, arada da neçə qış, neçə yay ötüb keçir. Əgər biz bir-birimizi ürəkdən seviriksə, demək, yağış kimi, külək kimi əbədiyik, ölüm bizə yaxın düşə bilməz. Bizə nə qalırsa, günlərdən qalır, gülüm, illər heç nə vermir. Ancaq bunu bilən, özünə dərd eləyən adam tapılarmı?! Əsl həyat bircə anın səadətindədir. Bu bircə an əbədiyyətə lap yaxındır. Onda sənin gözlərin bərq vurur, nəhayətsiz göylərdən damcı-damcı ulduz yağır, allahlar qocalır, sənin dodaqların isə təravətli qalır, tapmacalı gizlənqaç oyunu başlayır: «Gəldim! – Gəl!»... Qaranlıqlardan sevənlərin birinin harayı, o birinin

cavabı eşidilir, vüsal həsrəti adamı məst eləyir, təkhüceyrəli orqanizmdən başlayıb Rufi, Esferi və Yelenaya qədər uzun bir yol keçmiş, hətta yer üzündəki bütün heyvanlara da xas olan azğın ehtiras sənə də, mənə də gəl-gəl deyir...

Joan Ravikin qolları arasında uyumuşdu, rəngi avazımışdı və özünü büsbütün onun ixtiyarına vermişdi. Ravik isə ona tərəf əyilərək danışır, hey danışırdı... Əvvəlcə ona elə gəldi ki, kimsə çiyinləri üzərindən əyilib baxır. Kölgəyə oxşayırdı, müəmmalı bir təbəssümlə, səssiz-səmirsiz onunla bərabər nəsə pıçıldayırdı. Bir az da əyildi, hiss elədi ki, Joan da ona tərəf uçunur... Bu da bircə an çəkdi, sonra hər şey itib getdi...

## XIII

– Rüsvayçılıqdır! – deyən qadın Ketlə üzbəüz oturmuşdu, barmağında da zümrüd qaşlı üzük vardı. – Böyük biabırçılıqdır! Bütün Paris gülür. Sən heç bilirdin, Lui homoseksualistdir? Haradan bilərdin?! Heç kim bilmirdi. Yaxşı malalayırmış. Lina de Nebur onun rəsmi məşuqəsi hesab olunurdu. İndi gör nələr olub: bir həftə bundan qabaq Romadan qayıdır. Dediyindən də üç gün qabaq. Elə həmin axşam da bu Nikenin yanına yollanır ki, onu sevindirsin. Orada kimi görsə yaxşıdır?

– Öz arvadını, – Ravik tez dilləndi.

Zümrüd qaşlı üzük taxmış qadın başını qaldırıb ona baxdı, birdən elə hala düşdü ki, deyərdin, rüsvay olan onun öz əridir.

– Bu əhvalatı siz də eşidibsiniz? – deyə soruşdu.

– Xeyr, ancaq elə olmalıdır.

– Başa düşmədim! – Qadın heyrətləndi. – Axı heç kim deməzdi ki...

Ket gülümsədi:

– Doktor Ravikin özünün xüsusi nəzəriyyəsi var, Dezi. Adını da təsadüflər sistemi qoyub. Bu nəzəriyyəyə görə, həqiqətə uyğun olmayan şeylər, az qala, həmişə həqiqət olur.

– Maraqlıdır... – Dezi nəzakətlə gülümsədi. Ancaq üzgözündən bilinirdi ki, burada maraqlı heç nə görmədi.

– Lui orada qalmaqal qoparmasaydı, bilinməzdi. – O, sözünə davam etdi. – Kişi yaman özündən çıxıbmış. İndi «Krilon» mehmanxanasında qalır, ayrılmaq istəyir. Hamı da maraqlanır ki, görəsən, bəhanəsi nə olacaq. – O, kresloya yayxanaraq, sualedici nəzərlərlə Ketə baxdı: – Hə, buna sözün nədir?

Ket tez Ravikə tərəf döndü. O isə stolun üstündəki səhləb budağına baxırdı. Üstündə qırmızı xallar olan dümağ ləçəklər kəpənəyə oxşayırdı. Bundan əlavə, orada bir neçə şlyapa və üzüm, şaftalı ilə dolu səbət var idi.

– Elə şey olmaz, Dezi, heç inanılası deyil.

Dezi özündən razı halda Ravikə baxdı:

– Yəqin ki, bunu əvvəlcədən deyə bilməzdiniz, elə deyilmi?

Ravik budağı ehtiyatla təzədən büllur güldana qoydu:

– Xeyr, bunu deyə bilməzdim.



Dezi razılıqla başını yırğalayıb, çantasını, ənliyini və əlcəklərini götürdü:

– Getmək lazımdır, – dedi, – Luiza saat beşdə kokteylə dəvət eləyib. Naziri də gələcək. Orada yaman qeybətlər olur!

O ayağa durdu.

– Bunlar bir yana, Feri ilə Marta yenə ayrılıblar. Bütün daş-qaşını da özünə qaytarıb. Üçüncü dəfədir... Nəsə belə şeylərdən yaman xoşu gəlir. Yazıq lap qoyun kimidir, elə bilir, onun özündən xoşları gəlir. Hamısını qaytaracaq, hələ, bəlkə, üstündə bir şey də verdi. Həmişə elə eləyib. Onun xəbəri yoxdur, Marta Ostertaqın yanına gedib, istədiyini də seçib. Daş-qaşı həmişə oradan alır. Yaqut qaşlı sancaqdır, iri, dördkünc daşları var, xalis göyərçin qanıdır. Marta çox ağıllı qadındır... – O, Keti öpdü. – Hələlik, quzum, heç olmasa, indi dünyadan bir az xəbərin oldu. Burada çox qalacaqsan? – deyib Ravikə baxdı. Ravik hiss elədi ki, Ketin də gözləri ona dikilib.

– Təəssüf ki, bir az da qalmalı olacaq, – dedi.

Ravik Dezinin paltosunu tutdu. Yaxalıqsız, özü də samur dərisindən idi. «Əsl Joanın malıdır», – deyə ürəyindən keçirdi. Dezi dedi:

– Ket ilə siz də çay içməyə gəlin. Çərşənbə günləri adam lap az olur, arxayınca oturub laqqırtı vurarıq. Mən özüm də cərrahiyyə ilə çox maraqlanıram.

– Məmnuniyyətlə!

Ravik qapını onun arxasınca örtüb, geri qayıtdı.

– Əntiqə zümrüdlər idi.

Ket güldü:

– Bir vaxt mən də onları çox sevərdim, Ravik. Bildiniz niyə?

– Əlbəttə. Qədrini bilən üçün əladır, adamı çox şeydən qoruyur.

– İndi isə mənim üçün mənası yoxdur... – Ket durub ehtiyatla çarpayısına tərəf getdi.

Ravik onun arxasınca baxdı:

– Harada yaşamağın elə bir mənası yoxdur, Ket. Uzaqbaşı, haradasa bir az rahat olar, ancaq bu, əsas deyil. Əsas odur ki, ondan necə istifadə edirsən. Çox vaxt heç bunun özü də vacib olmur.

Ket çarpayıda oturub, uzun, qəşəng qıçlarını adyalın altında gizlədə-gizlədə:

– Həftələrlə yorğan-döşəkdə qalıb, sonra gəzişəndə hər şey mənasını itirir, – dedi.

– İstəyirsiniz, çıxın mehmanxanaya gedin. Ancaq bir şərtlə ki, özünüzlə tibb bacısı da götürəsiniz.

Ket başını buladı.

– Səyahətə çıxana qədər qalacağam. Burada Dezi kimilərindən uzaq oluram.

– Elələri gələndə qovun getsin. Laqqırtıdan çox adamı bezdirən heç nə yoxdur.

Ket yavaş-yavaş çarpayıda uzandı:

– Heç ağlınıza gələrdimi, gəvəzəliyinə baxmayaraq, Dezi çox yaxşı anadır? Uşaqlarının ikisini də gözəl tərbiyə edir.

– Hərdən olur, – Ravik etinasızlıqla cavab verdi.

Ket adyalı sinəsinə çəkdi:

– Xəstəxana monastır kimi bir şeydir, – dedi, – hər xırda şeyin qədrini bilirsən. Məsələn, gəzmək, nəfəs almaq, görmək...

– Elədir. Xoşbəxtlik həmişə haradasa lap yaxında olur. Sadəcə olaraq, əyilib götürmək lazımdır.

Ket onun üzünə baxdı:

– Mənim doğru sözümdür, Ravik.

– Mənim də, Ket. Yalnız sadə şeylər adamı heç vaxt naümid qoymur. Xoşbəxtliyi çox uzaqlarda axtarmaq lazım deyil, o da sadə şeylərdən başlanır.

* * *

Janno yerində uzanıb, yanına çoxlu jurnal yığmışdı.

– İşığı niyə yandırmırsan? – Ravik soruşdu.

– Hələlik görürəm. Gözlərim itidir.

Jurnallarda çoxlu süni ayaq şəkli var idi. Janno onları böyük çətinliklə tapıb yığmışdı. Axırıncıları anası gətirmişdi. Onlardan ən qəşəngini seçib Ravikə göstərdi. Ravik işığı yandırdı. Janno dedi:

– Lap bahalısı budur.

– Ancaq yaxşısı deyil.

– Ən bahalısıdır. Sığorta idarəsindən gələnə deyəcəyəm ki, bundan istəyirəm. Əslində, özü nəyimə lazımdır, pulunu versinlər. Mənə taxta ayaq da bəs eləyər, təki pul olsun.



– Sığorta idarəsinin özünün həkimləri var, Janno, hər şeyə göz qoyurlar.

Oğlan dikəldi:

– Deyirsiniz, mənə ayaq düzəltdirməyəcəklər?

– Yox, düzəltdirəcəklər. Bəlkə də, belə bahalı olmayacaq... Ancaq pulu özünə verməzlər, çalışacaqlar ki, protezi alasan.

– Onda götürərəm, tez də sataram. Bilirəm, bir az itirəcəyəm. Görəsən, iyirmi faiz azaltsam, necə olar? Əvvəlcə on faiz deyəcəyəm. Bəlkə də, qabaqcadan alverçi ilə danışdım. Sığorta idarəsinin nə borcuna, mən protezi götürdüm, ya götürmədim?! Onun borcu pulu verməkdir, qalanında nə işi?! Elə deyil?

– Elədir. Baxarsan ..

– Yenə bir az xeyri olar. Həmin pula piştaxta düzəltdirərik, balaca bir süd köşkü üçün lazım olan şeyləri alarıq. – Janno bic-bic güldü. – Qatlanan ayaq... onun zirzibilləri... çox bahadır. Çünki zərgər işidir. Lap yaxşı oldu...

– Sığorta idarəsindən gələn oldu?

– Nə ayağıma görə, nə də dəbbə pulu üçün gələn olmayıb. Təkcə xəstəxana, təşrih haqqı üçün gəlmişdilər. Görəsən, vəkil tutmaq lazımdır? Siz nə deyirsiniz? Qırmızı işıqda keçdi, özüm gördüm. Polis...

Tibb bacısı axşam yeməyini gətirib Jannonun yanındakı stolun üstünə qoydu. Oğlan o çıxıb gedənə kimi gözlədi, sonra dedi:

– Burada yemək boldur, ömrümdə belə yaxşı xörəklər yeməmişəm. Tək öhdəsindən gələ bilmirəm, qalanını anam gələndə yeyir. İkimizi də doydurur. Evdəkinə də qənaət edir. Palatanın haqqı da çox bahadır...

– Bunu sığorta idarəsi verir. Harada qalsan, verəcək.

Oğlanın bomboz sifətində ürkək bir təbəssüm gəzdi:

– Doktor Veberlə danışmışam, on faizini özümə verəcək. Axırda sığorta idarəsinə haqq-hesab qəbzi göndərəcək, pulu alan kimi on faizini özümə qaytaracaq.

– Sən çox ağıllı oğlansan, Janno.

– Kasıb, gərək, ağıllı olsun.

– Burası da düzdür. Ağrıyan yerin var?

– Kəsib götürdüyünüz ayağım ağrıyır.

– Əsəblərdir, hələ tam keyiməyib.

– Özüm də bilirəm. Ancaq gülməlidir, olmayan şey ağrıyır. Bəlkə də, ayağımın ruhu hələ qalıb, ağrıyan odur. – Janno irişdi. Zarafatı özünün də xoşuna gəlmişdi. Sonra boşqabların üstündəki örtüyü qaldırdı. – Şorba, toyuq, göyərti, qoğal... Hamısı da anamın payıdır, toyuqdan yaman xoşu gəlir. Evimizdə ayda-ildə bir dəfə olan şeydir... – O, yerini rahatladı. – Gecələr hərdən oyanıram, elə bilirəm ki, hamısının pulunu özümüz verəcəyik. Adam gecə vaxtı oyananda bir anlığa özündə olmur, nə desən, fikirləşir. Sonra yadıma düşür ki, böyüklərin uşağı kimi belə xəstəxanada qalıram, nə istəsəm, gətirdərəm, zəngi basan kimi tibb bacısı gəlməlidir, hamısının da pulunu özgəsi verəcək... Əntiqədir. Hə?

– Düz deyirsən, lap əntiqədir.

* * *

O, «Oziris»də, qızları həmişə yoxladığı otaqda oturmuşdu.

– Qalan var? – deyə soruşdu.

– Bəli, – Leoni cavab verdi. – İvonna qalıb, axırıncıdır.

– Göndər, gəlsin. Səndə heç nə yoxdur, Leoni.

İvonna iyirmi beş yaşlı, ətli-qanlı, sarışın bir qız idi və bütün fahişələr kimi, onun da yastı burnu, xırda totuq əlləri, toppuş qıçları vardı. O, özündən razı halda, yırğalana-yırğalana içəri girdi, gödək ipək paltarını yuxarı qaldırdı.

– Ora keç.

– Belə olmaz, doktor?

– Niyə orada uzanmaq istəmirsən?

Qız heç nə demədən geri dönüb, ətli-qanlı yambızlarını ona göstərdi: gömgöy kəsilmiş, qançır bağlamışdı. Deyəsən, kimsə onu yaxşıca kötəkləmişdi.

– Zənnimcə, müştəri bunun haqqını artıqlaması ilə vermiş olar. Zarafat deyil...

İvonna başını buladı:

– Bircə santim də vermədi, doktor. Müştəri deyildi.

– Onda öz könlünə düşübmüş. Belə şeylərdən xoşun gəldiyini heç bilməzdim...

İvonna yenə başını buladı, üzündə müəmmalı bir təbəssüm oynadı. Ravik gördü ki, onun bu söhbətdən xoşu gəlir, özünü bununla gərəkli adam hesab eləyir.

– Mən mazoxist deyiləm! – Bu sözü bilməsi özünə də ləzzət elədi.



– Bəs nədən olub? Dalaşıbsan?

İvonna bircə anlığa ləngidi, sonra:

– Məhəbbət! – deyib ləzzətlə çiyinlərini çəkdi.

– Qısqanclıq?

– Bəli! – İvonnanın üz-gözü işıqlandı.

– Çox ağrıdır?

– Belə şey adamı ağrıtmaz. – O, ehtiyatla taxta uzandı. – Bilirsiniz, doktor, madam Rolanda əvvəlcə məni işə çıxmağa qoymurdu. Dedim, bircə saatlığa icazə verin, sonrasına baxarsınız. İndi bu qançır yambızlarla işlərim əvvəlkindən qat-qat yaxşı gedir.

– Niyə?

– Özüm də bilmirəm. Elələri var ki, bundan ötrü dəli-divanədir, görən kimi cuşa gəlir. Son üç gündə iki yüz əlli frank artıq gəlir gətirmişəm. Bu nə qədər qalar, doktor?

– Ən azı iki, ya üç həftə.

İvonna ağzını marçıldatdı:

– İşlər belə getsə, özümə xəz palto alacağam. Əsl pişik dərisindən.

– Çatmasa, dostun bir dəfə də göyərdər.

– Göyərtməz. Elə adam deyil. Siz deyən qədər dərin düşünən əclaf deyil. Ehtirasdan belə eləyir. Hələ bu ehtiras da ola, ya olmaya... Yoxsa, lap ayaqlarına düşüb yalvarsam da eləməzdi.

– Xasiyyətə bax! – Ravik dikəldi. – Səndə heç nə yoxdur, İvonna.

– Onda gedim işimi görüm, aşağıda bir qoca gözləyir. Saqqalına dən düşüb... Gömgöy qançırları göstərdim. Belə şeyin dəlisidir. Evində heç dinə bilmir. Deyəsən, xəyalından qarısını bu kökə salmaq keçir... – O, şaqqanaq çəkib güldü. – Doktor, dünyanın qəribə işləri var... Düz demirəm?

O, yenə özündən razı halda yırğalana-yırğalana otaqdan çıxdı.

Ravik əllərini yudu, sonra işlətdiyi alətləri yerinə yığdı, pəncərəyə yaxınlaşdı. Qaş qaralmışdı, bomboz səma gümüşü rəngə çalırdı. Asfaltın üstündəki çılpaq ağaclar, elə bil, meyitlərin qaralmış əlləri idi, qəbirdən çıxırdı. Yan-yana düzülmüş səngərlərdən çıxan belə əlləri çox görmüşdü. Pəncərəni açıb bayıra baxdı. İşıqla qaranlığın arasında tərəddüd edən bir vaxt idi, onda heç nə həqiqət olmur. Evli kişilərin balaca mehmanxanalarda məhəbbətlərinin coşan vaxtı idi, axşam isə ləyaqətli ailə başçısı kimi evlərinə qayıdırdılar... Lombardiya çöllərində italyan qızlarının felicissima notte[1] deməyə başladıqları vaxt, adamı ümidsizlik bürüyən an, xəyalların pərvazlandığı saatlar idi...

Pəncərəni örtdü. Elə bil, otaq birdən-birə qaranlıqlaşdı. Sanki, açıq pəncərədən kölgələr uçuşub içəri dolmuşdular və indi künc-bucağa qonub, səssiz-səmirsiz pıçıldaşırdılar. Bayaq Rolandanın gətirdiyi bir şüşə konyak stolun üstündə al-əlvan, cilalanmış topaz daşına oxşayırdı. Bir anlığa hərəkətsiz qaldı, sonra aşağı düşdü.

Gur işığa qərq olmuş böyük zalda musiqi çalınırdı. Çəhrayı rəngli ipək paltar geymiş qızlar iki cərgədə yumşaq kətillərdə əyləşmişdilər. Hamısının da sinəsi açıq idi, müştərilər alacaqları mala baxmaq istəyirdilər. Artıq beş-altı nəfəri gəlmişdi. Çoxu da orta yaşlı xırda-burjualar, işlərini ehtiyatla tutan mütəxəssislər idi, yoxlama vaxtını dəqiq bilir və elə həmin anda gəlirdilər ki, süzənək tutmasınlar. İvonna öz qocası ilə tapışmışdı. Kişinin qabağında bir qədəh «Dübene» vardı, onun yanında dayanmış İvonna isə bir ayağını kətilin üstünə qoyub «Şampan» içirdi. Hər şampan şüşəsindən on faizi ona çatırdı. Kişi, deyəsən, ağlını itirmiş, ya da pulunun başından keçmişdi. «Şampan» almaq təkcə

[1] Gecəniz xeyrə qalsın *(ital.)*

əcnəbilərə yaraşırdı və İvonna da bunu yaxşı bilirdi. Mehriban sirk təlimçisi kimi kişinin başının üstünü almışdı.

– Qurtardın, Ravik? – qapının ağzında dayanmış Rolanda soruşdu.

– Bəli, hər şey qaydasındadır.

– Bir şey içmək istəmirsən?

– Yox, Rolanda, mehmanxanaya gedəcəyəm, bütün günü işləmişəm. İndi mənə bu saat isti hamam, təmiz yorğan-döşək lazımdır, vəssalam.

Asılqanla barın yanından keçib, küçəyə çıxdı. Bənövşə gözlü axşam qapını kəsdirmişdi. Mavi səmada tənha bir təyyarə uğuldayırdı. Çılpaq ağacların hansınınsa uca budağında qara, balaca bir quş cəh-cəh vururdu.

Xərçəngin yırtıcı heyvan kimi için-için yediyi bir qadın, öz təqaüdünü hesablayan şikəst uşaq, yambızları qızıl kəsən fahişə, budaqdan-budağa qonan qaratoyuq. Bunların hamısı bir-bir arxada qalır, o isə, sanki, heç birini görmür, isti yorğan-döşək ətirli qaranlıqda yavaş-yavaş bir qadının yanına yol alır...



* * *

– Bir kalvados da gətirdim?

– Hə, bir az da gətirsin.

Ravik işarə ilə baş xidmətçini yanına çağırdı.

– Bundan tünd kalvadosunuz yoxdur?

– Bu, yaxşı deyil ki?

– Niyə?! Yaxşıdır. Bəlkə, zirzəmidə başqası ola...

– Baxım, görüm.

Xidmətçi kassaya doğru getdi. Sahibkarın arvadı, qucağında da pişiyi, kassanın arxasındaca yuxuya getmişdi.

Xidmətçi oradan keçib tutqun şüşəli bir qapının arxasında yoxa çıxdı. İçəridə sahibkarın özü kağız-kuğuzla əlləşirdi. Xidmətçi bir azdan ciddi, işgüzar görkəmlə oradan çıxdı, Ravik tərəfə gözünün ucu ilə də baxmayıb, pilləkənlə zirzəmiyə düşdü.

– Deyəsən, düzəlir, – Ravik dilləndi.

Xidmətçi, əlində şüşə, qayıtdı. Onu elə ehtiyatla tutmuşdu ki, deyərdin, bələkli çağanı qucağına alıb. Kirli-pasaqlı bir şüşə idi. Ancaq turistləri aldatmaq üçün toz-torpağa

bulaşdırıb gətirdikləri şüşələrdən deyildi. Doğrudan da, uzun müddət zirzəmidə qaldığından toz-torpaq basmışdı.

Xidmətçi ehtiyatla şüşənin ağzını açaraq, tıxacı iylədi, gedib iki iri qədəh gətirdi.

– Baxın, müsyö, – deyib kalvadosdan bir az qədəhə tökdü. Ravik onu götürüb iylədi, sonra içdi, geriyə söykənib başını tərpətdi. Xidmətçi də razılıqla başını tərpədib, qədəhləri yarıya qədər doldurdu. Ravik Joana dedi:

– Dadına bax.

Joan bir qurtum alıb, qədəhi yerə qoydu. Xidmətçinin gözü onda idi. Joan heyrətlə Ravikə baxdı:

– Ömrümdə beləsini içməmişəm, – deyərək bir qurtum da aldı. – Elə bil, heç nə içmirsən, yağ kimi gedir...

– Elə özüdür ki, var, xanım! – Xidmətçiyə lap ləzzət eləmişdi. – Düz tapdınız.

– Ravik, sən heç yaxşı iş görmədin. Belə kalvadosdan sonra ayrı heç nə içə bilməyəcəyəm.

– Yaxşı, yaxşı, qorxma, içəcəksən.

– Ancaq bunun dadı damağımdan getməyəcək.

– Eybi yoxdur, axırda romantik bir kalvados içən olacaqsan.

– Bundan sonra başqaları ləzzət verməyəcək.

– Əksinə, başqası daha şirin olacaq. Birinin həsrəti ilə o birini içəcəksən. Elə buna görə də içdiyin adi kalvados olmayacaq.

Joan güldü:

– Boş şeydir. Özün də bilirsən...

– Əlbəttə, boş şeydir. Bəs bizi yaşadan elə bu boş şeylər deyilmi? Quru-quru faktlardan nə çıxar?! Bəs onda məhəbbət neyləyərdi?

– Bunun məhəbbətə nə dəxli?

– Dəxli çoxdur. Məhəbbəti yaşadan odur. Yoxsa bircə dəfə sevərdik, sonra hər şeydən qaçardıq. Ancaq belə olanda ya atıb getdiyin, ya da səni atıb gedən adamın kövrək həsrəti təzə gələnin şöhrət çələnginə çevrilir. Sənin əvvəlcə itirdiyin şey yeni gələni al-əlvan bir rəngə boyayır. Təsəlli üçün qədim, müqəddəs bir yalan...

Joan ona baxdı:

– Sən belə danışanda ürəyim bulanır.

– Elə özümün də.

– Bir də belə danışma. Heç zarafatla da demə. Onda şirin-şirin möcüzələr də ucuzlaşır.

Ravik dinmədi.

– Onda, elə bil, lap cana doymusan, məni atmaq üçün yollar axtarırsan.

Ravik kövrək bir nəvazişlə ona baxdı:

– O barədə heç narahat olma, Joan. Vaxt gəlib çatanda mən yox, sən məni atıb gedəcəksən. Buna şübhən olmasın.

Joan qədəhi yerə qoydu:

– Boş-boş danışma! Mən səni heç vaxt atmaram. İndi məni hara azdırmaq istəyirsən?

«Bir bunun gözlərinə bax! – Ravik ürəyindən keçirdi. – Elə bil, orada şimşək çaxır. Elə bil, şamların közərtisi orada şimşəyə dönür...»



– Joan, – dedi, – azdırmaq istəmirəm. Ancaq istəyirəm sənə dalğa ilə bir qayanın hekayətini danışım. Çoxdan olmuş şeydir. Bizdən əvvəl olub... Qulaq as, biri var imiş, biri yox imiş, bir dalğa var imiş. Bu dalğa hansı dənizdəsə, məsələn, deyək ki, Kapri buxtasında bir qayaya vurulubmuş. O, hər gün özünü bu qayanın qoynuna atır, onu yalayır, gecə-gündüz öpüb oxşayır, dümağ qollarını boynuna dolayır, ağlayır, sızlayır, yalvarır ki, ona mehman olsun. Dalğa həmin qayanı beləcə sevə-sevə, oxşaya-oxşaya, yavaş-yavaş, altdan-altdan oyur, oyur... və günlərin bir günü qaya tamam ovulur, uçub onun qoynuna yıxılır...

Ravik kalvadosdan bir qurtum aldı. Joan dözmədi:

– Sonrası?

– Və dalğa birdən görür ki, daha qucaqlamağa, sevib oxşamağa, vüsal həsrəti ilə yanmağa qaya yoxdur. O, çilik-çilik olub, özünün qucağındaca boğulub, dənizin dibinə gedib... Bilir ki, aldanıb... Çox fikirləşir ki, neyləsin, axırda gedib özünə ayrı qaya axtarır...

– Bəs sonra? – Joan ürkək baxışlarla onu süzdü. – Dalğanın nə günahı?! Qaya, gərək, uçmayaydı, qaya kimi qalaydı.

– Dalğalar həmişə belə deyir... Hərəkətdə olan şeylər, sükunətdə olanlardan güclüdür. Demək, su qayadan güclüdür...

Səbri tükənən Joan əlini yellətdi:

– Bunların bizə nə dəxli?! Çox mənasız hekayətdir. Yoxsa, yenə məni ələ salırsan? Əgər elə şey olsa, sən məni atacaqsan... Dəqiq bilirəm!

Ravik güldü:

– Bu da məni atıb gedəndə, deyəcəyin son sözlər olacaq. Deyəcəksən ki, guya, mən səni atmışam. İstədiyin qədər də bəhanə tapacaqsan, hamısına da inanacaqsan... Və dünyanın ən ulu məhkəməsi olan təbiətin qarşısında bəraət qazanacaqsan... – Ravik xidmətçini işarə ilə yanına çağırdı. – Bu kalvadosu bizə verərsiniz?

– Aparmaq istəyirsiniz?

– Əgər icazə versəydiniz...

– Müsyö, bizdə belə qayda yoxdur, bütöv şüşə satmırıq.

– Sahibkardan soruşun.

Xidmətçi gedib, əlində qəzet qayıtdı. «Pari suar» idi.

– Sahibkar dedi ki, sizə vermək olar, – deyib, tıxacı möhkəm sıxdı, əvvəlcə qəzetin içindəki idman əlavəsini götürdü, səliqə ilə büküb cibinə qoydu, sonra şüşəni «Pari suar»a bükdü. – Buyurun, müsyö, ancaq qaranlıqda, sərin yerdə saxlayın. Sahibkarın babasından qalmadır.

– Oldu!

Ravik pulunu verib şüşəni aldı, diqqətlə ona baxdı:

– Sən, ey yayın istisində, mavi payızın sərinliyində Normandiya bağlarında küləklərin sığalladığı almaları qızdıran günəş şüası, gəl bizimlə gedək! Yaman lazımsan bizə! Ancaq hansı bir küncdəsə yatıb qalmısan!

Küçəyə çıxdılar. Yağış başlamışdı. Joan dayandı:

– Məni sevirsən, Ravik?

– Hə, Joan! Sən düşündüyündən də çox sevirəm.

Joan ona sığındı:

– Bu, bəzən heç hiss olunmur.

– Əksinə! Yoxsa, sənə elə nağıllar danışardım?

– Başqalarını danışsan, daha yaxşı olar.

Ravik yağışa baxıb gülümsədi.

– Məhəbbət dupduru, balaca bir gölməçə deyil ki, şəklin həmişə ora düşsün, Joan. Onun tufanı var, fırtınası var... Onda gəmilər, şəhərlər qərq olur, səkkizayaqlı ilbizlər, qızıl küpələri, mirvarilər batır. Ancaq mirvarilər çox dərinə gedir...

– Mənim elə şeylərdən başım çıxmaz. Bircə onu bilirəm ki, məhəbbət ömürlük bir-birinə bağlanmaq deməkdir.

«Ömürlüyə bax! – Ravik ürəyindən keçirdi. – Lap uşaq nağılı danışır. Bircə dəqiqə dözə bilsən, böyük şeydir...»

Joan paltosunu düymələdi.

– Kaş indi yay olaydı, – dedi, – ömrümdə yayı indiki kimi istəməmişdim...

Joan qara rəngli paltarını şkafdan götürüb, çarpayının üstünə atdı:

– Hərdən bu paltara lap nifrət edirəm. Elə həmişə bu qara paltar, elə həmişə «Şəhrizad»... hər gün də eyni şeylər... eyni şeylər...

Ravik ona baxdı, ancaq dinmədi.

– Çatmadı sənə?

– Niyə ki...

– Niyə məni götürüb buralardan getmirsən, əzizim?

– Hara?



– Hara gəldi... Hara olur-olsun...

Ravik qəzeti açıb, şüşənin tıxacını çıxartdı, sonra bir qədəh gətirib doldurdu.

– Gəl, – dedi, – iç!

Joan başını buladı:

– Xeyri yoxdur. Bəzən içməyin də xeyri olmur. Bəzən də heççə nəyin! Bu axşam o səfehlərin yanına getmək istəmirəm.

– Zəng vur, de xəstəsən.

– Nə fərqi var, sabah yenə gedəsi olaçağam. Bu daha pis...

– Adam bir neçə gün xəstə ola bilər.

– Bunun da xeyri yoxdur. – Joan ona baxdı. – Niyə belə oldu? Mənə nə olub, əzizim? Günahkar, bəlkə, yağışdır? Yoxsa, nəmişlik yağan bu qaranlıq? Hərdən mənə elə gəlir ki, qəbirdəyəm. Axşama dönəndə adam lap boğulur. Bir az bundan qabaq hər şeyi unutmuşdum, o balaca restoranda səninlə oturanda xoşbəxt idim... Bu atıb-atılmaq söhbətini niyə araya saldın? Mən o haqda heç nə bilmək, heç nə eşitmək istəmirəm. Elə danışanda məni qüssə bürüyür, vahiməli günlər gözlərim önündə təzədən canlanır, onda da bilmirəm, neyləyim. Bilirəm, sən elə mənada demirsən, ancaq mənə təsir eləyir. Mənə təsir eləyir, yenə yağış, yenə qaranlıqlar... Sən belə şeyləri bilməzsən, çünki möhkəmsən.

– Möhkəməm?

– Hə.

– Sən bunu haradan bilirsən?

– Çünki qorxmursan.

– Mən daha heç nədən qorxmuram. Ancaq bunlar ayrı-ayrı şeylərdir, Joan.

Joan onun dediklərini eşitmədi. İri addımlarla otaqda gəzişirdi və otaq belə addımlar üçün çox darlıq edirdi. «Həmişə elə gəzir ki, elə bil, üzü küləyə gedir!» – Ravik ürəyindən keçirdi.

– Kaş yaxamı bunlardan qurtara biləydim! Bu mehmanxanadan, gecə restoranlarından, adamın üzünə yapışqan kimi yapışan sırtıq baxışlardan qaçmaq, uzaqlaşmaq istəyirəm... – Joan dayandı. – Ravik, biz həmişə belə, indiki kimi yaşamalıyıq? Biz də bir-birini sevən adamlar kimi yaşaya bilmərik? Həmişə bir yerdə olaq, bizim də öz şeylərimiz olsun, axşamlar heç nədən qorxmayaq, rahat olaq, bu çamadanlardan, mənasız keçən günlərdən, adamı həmişə qəribsədən mehmanxanalardan canımız qurtarsın.

Ravikin üz-gözündən heç nə anışdırmaq olmazdı. «Başlandı!» – deyə fikirləşdi. Onsuz da bunu çoxdan gözləyirdi!

– Joan, doğrudan, biz də elə yaşaya bilərik?

– Niyə yaşamayaq axı? Başqaları niyə yaşayır? Hamının isti yuvası var, qoşa gəzirlər, mənzilləri var, qapını örtən kimi, bütün dərd-ələm çəkilib gedir, daha buradakı kimi divarlara hopub qalmır...

– Doğru sözündür? – Ravik bir də soruşdu.

– Hə...

– Demək, balaca, rahat bir mənzil... kiçik, rahat bir meşşan səadəti... Vulkanın ikicə addımlığında kiçik, rahat bir dinclik. Sənin doğru sözündür?

– Başqa cür də demək olar. Belə yox... Adam lap nifrət eləyir. Sevənlər başqa söz tapıb deyər...

– O sözlər heç nəyi dəyişmir, Joan. Bu, sənin doğru sözündür? Axı heç birimiz dünyaya belə həyat üçün gəlməmişik.

Joan ayaq saxladı:

– Məni çıx...

Ravik gülümsədi. Bu təbəssümdə nəvaziş də, kinayə də, qüssə nişanələri də var idi.

– Joan, – dedi, – sən də belə həyat üçün yaranmamısan. Sən məndən də betərsən. Ancaq bu, yeganə səbəb deyil. Başqası da var...

– Hə, – Joan acı-acı təsdiq elədi. – Bilirəm...

– Yox, Joan, sən onu bilmirsən. İndi özüm deyəcəyəm. Desəm, yaxşıdır. Sən də indiki kimi ağlına başqa şey gətirməzsən.

Joan onunla üzbəüz dayandı.

– Nə qədər tez desəm, o qədər yaxşıdır. Ancaq deyəndən sonra məni çox sorğu-suala çəkmə.

Joan dinmirdi. Birdən-birə sifəti bayaqkı ifadəsini itirdi, yenə əvvəlki sifət oldu. Ravik onun əllərindən yapışdı:

– Mən Fransada xəlvəti yaşayıram, – dedi. – Sənədim yoxdur. Əsl səbəb budur. Ona görə də mənzil tuta bilmərəm, sevdiyim adamla da evlənə bilmərəm. Bunun üçün, gərək, sənədim, vizam olsun. Düzünə baxsan, heç işləyə də bilmərəm. Gərək, gizlindən, onun-bunun əvəzinə iş görəm. Mən başqaları kimi yaşaya bilmərəm.



Joan gözlərini bərəldib ona baxırdı:

– Düz sözündür?

Ravik çiyinlərini çəkdi:

– Bu cür yaşayanlar yüzlərlə, minlərlədir. Yəqin, sənin də xəbərin var. İndi bunu hamı bilir. Mən də o yüzlərdən, minlərdən biriyəm. – O gülümsəyib Joanın əllərini buraxdı. – Morozov beləsinə «gələcəyi olmayan adam» deyir.

– Hə... Bəs...

– Hətta deyərdim ki, belə yaxşıdır. İşləyirəm, dolanıram... Bir də sən varsan... Bunların yanında xırda-xuruş çatışmazlıq heç nədir.

– Bəs polis?

– Daha polisin də vecinə deyil. Təsadüfən ilişsəm, ölkədən çıxaracaqlar, vəssalam. Bu da nisyə söhbətdir. Yaxşı, get restorana zəng elə, de ki, gəlməyəcəyəm. Qoy bu gecə təkcə bizim ikimizin olsun. Bütün gecə! De ki, xəstəsən. Arayış istəsələr, Veberdən düzəldərəm.

Joan yerindən tərpənmədi.

– Ölkədən çıxaracaqlar... – Joan bu sözləri elə dedi ki, elə bil, mənasını yeni-yeni anlayırdı. – Çıxaracaqlar? Fransadan? Demək, çıxıb gedəcəksən?

– Bir neçə günlüyə...

Joan, sanki, bu sözləri eşitmədi.

– Gedəcəksən! – dedi. – Gedəcəksən! Bəs onda mən neyləyəcəyəm?

Ravik gülümsədi:

– Hə, doğrudan, neyləyəcəksən?

Joan əlini dizinin üstünə qoyub elə oturmuşdu ki, deyərdin, donub.

– Joan, iki ildir buradayam, görürsən ki, heç nə olmayıb.

Bu sözlər onun halına təfavüt eləmədi.

– Birdən olsa, necə?

– Tez qayıdacağam. İki, üç həftəyə buradayam. Elə bilərsən, gəzməyə getmişəm. Yaxşı, dur zəng elə.

Joan tərəddüdlə ayağa durdu.

– Necə deyim?

– De ki, bronxlarına soyuq olub. Bir az da xırıltı ilə danış.

Joan telefona tərəf getdi, lakin çatmamış tələsik geri qayıtdı. Ravikə sarıldı.

– Ravik...

Ravik ehtiyatla onu özündən araladı.

– Get, – dedi, – hamısını da unut. Bəlkə də, belə yaxşıdır, bizi ehtirasın qulu olmağa qoymaz. Eşqimiz saf olar, əbədi məşəl kimi alovlanar, üstündə kələm qovurduğun mətbəx qazı kimi gah yanıb, gah da sönməz. İndi get, zəng elə.

Joan dəstəyi qaldırdı. Ravik onun necə danışdığına göz qoyurdu. Əvvəlcə heç özündə deyildi, gözlərini Ravikdən çəkmirdi, elə bil, onu indicə gəlib aparacaqdılar. Ancaq getdikcə inamla, çəkinmədən yalan danışmağa başladı. Hətta lazım olmayan şeylər də uydurdu. Üz-gözü canlandı, sinəsindəki ağrıları təsvir eləyəndə, ona uyğun qırışdı. Səsindən yorğunluq yağırdı, xırıltı da getdikcə çoxalırdı və axırda öskürməyə başladı. Daha Ravikə baxmırdı, gözlərini harayasa, lap uzaqlara zilləyib, bütün varlığı ilə rola girmişdi. Ravik də dinmədən onun necə danışdığına fikir verirdi və sonra bir qurtum kalvados içdi. «Heç nəyi qarışdırmadı, – deyə ürəyindən keçirdi. – Güzgü kimidir, hər şeyi əntiqə göstərir, ancaq heç nəyi tutub saxlaya bilmir...»

Joan dəstəyi asıb, əlini saçlarına çəkdi:

– İnandılar, – dedi.

– Sən lap əla aktyor imişsən.

– Dedilər ki, yataqdan durmayım. Sabaha qədər keçib getməsə, Allah xatirinə, bir gün də qalım.

– Gördün?! Sabahın da işi düzəldi.

– Hə... – Joanın üzünə bircə anlığa qaranlıq çökdü. – Düzəldi...

Sonra Ravikə yaxınlaşdı:

– Sən məni yaman qorxutdun, Ravik. De ki, onların hamısı yalan idi. Axı sənin hərdən belə danışmağın olur. De ki, hamısı yalan idi. İndicə dediklərinin hamısı yalan idi!

– Hamısı yalandır...

Joan başını onun sinəsinə söykədi:

– Elə şey gerçək ola bilməz. Mən yenə yalqız qalmaq istəmirəm. Sən həmişə mənimlə olmalısan. Tək qalanda heç nəyəm. Sənsiz heç nəyəm, Ravik!

Ravik yuxarıdan-aşağı ona baxdı:

– Joan, – dedi, – sən hərdən adi çoban qızı olursan, hərdən də meşələr yaraşığı Diana! Gah da hər ikisindən!



Joan heç qımıldanmadı:

– İndi hansındanam?

Ravik gülümsədi:

– Sən indi gümüşü saçlı Dianasan! Ram edilməzsən, ölüm qoxulu bir ilahəsən!

– Bunu tez-tez desən, nə olar?!

Ravik susdu. Joan onun nə fikirləşdiyini başa düşmədi. Heç lazım da deyildi. Xoşuna gələni, ona yaraşanı götürür, qalanına fikir vermirdi. Raviki ona bağlayan da elə bu xasiyyəti deyildimi? Hər cəhətdən özünə oxşar adamı kim istərdi? Məhəbbətdə əxlaq norması axtaran kimdir? Bu, zəif adamların tapıntısı idi! Məhəbbət qurbanlarının şikayət dolu sızıltısı idi!

– Nə fikirləşirsən? – Joan soruşdu.

– Heç nə.

– Heç nə?

– Yox, – dedi, – bir neçə günlüyə çıxıb gedərik, Joan. Günəş bol olan yerə gedərik. Ya Kanna, ya da Antibə. Cəhənnəm olsun bu çəkinəcəklər! Cəhənnəm olsun üçotaqlı mənzil, meşşan rahatlığı haqqındakı xəyallar! Onlar bizim üçün deyil. Gecələr, isti yay həsrətli dünya göylərdə süzən ayla birlikdə yuxuya gedəndə, sən özün Budapeştin şabalıd ətirli bağlarına dönmürsənmi?! Düz deyirsən, gəl bu qaranlıqlar-

dan, soyuqdan, yağışdan uzaqlaşaq! Heç olmasa, bir neçə günlüyə!

Joan başını qaldırıb onun üzünə baxdı:

– Doğru sözündür?

– Hə.

– Bəs polis?

– Polis də cəhənnəm olsun! Buralar oradan təhlükəlidir. Turistlər qalan yerlərə çox fikir vermirlər. Xüsusilə, bahalı mehmanxanalara! O tərəflərdə olmamısan?

– Yox, heç vaxt. Bircə İtaliyada, Adriatik dənizinin sahillərində olmuşam. Nə vaxt çıxırıq?

– İki, ya üç həftəyə. Ən yaxşı vaxtdır.

– Pulumuz var ki?

– Bir az var. İki həftəyə, nə qədər lazımdırsa, olacaq.

– Eybi yox, ucuz pansionda qalarıq.

– Ucuz pansion sənə yaraşmaz. Səninki ya belə daracaq bir otaqdır, ya da birinci dərəcəli mehmanxanalar. Antibdəki «Kap» mehmanxanasına düşərik. Belə mexhmanxanalar çox etibarlı olur, sənəd də soruşmurlar. İndilərdə tanınmış bir heyvanın, hansı məmurunsa qarnını yaracağam, pulun qalanını da o verəcək.

Joan qalxdı. Onun sifəti yenə işıqlanmışdı.

– Gəl, – dedi, – mənə bir az kalvados ver. Deyəsən, doğrudan da, səadət şərbətidir.

O, çarpayıya tərəf gedib, bayırlıq paltarlarını götürdü:

– İlahi, – dedi, – mənim də olub-qalanım bu iki qara köhnə cır-cındırdır.

– Eybi yoxdur, onun da haqqında bir şey fikirləşərik. Bu iki həftədə bir şey olar. Ya varlı bir adamın kor bağırsağının ağrısı tutar, ya da hansı milyonçununsa qıçı sınar...

## XIV

Andre Düran yaman özündən çıxmışdı.

– Daha sizinlə işləmək olmaz, – deyirdi.

Ravik çiyinlərini çəkdi. Veberdən eşitmişdi ki, Düran hər təşrihə on min frank alır. Əgər əvvəlcədən öz şərtini deməsəydi, Düran yenə ikicə yüz göndərərdi. Axırıncı dəfə də elə o qədər göndərmişdi.

– Özü də təşrihə yarımca saat qalmış! Heç sizdən gözləməzdim, doktor Ravik.

– Özüm də gözləmirdim.

– Özünüz də bilirsiniz ki, mənim alicənablığıma həmişə bel bağlamaq olardı. Bilmirəm, birdən-birə niyə sövdələşməyə başladınız. Xəstənin taleyi bizdən asılı olduğu anda haqq barədə danışmaqdan zəhləm gedir.

– Mənimsə yox!

Düran diqqətlə Ravikin üzünə baxdı. Onun qırışmış dümağ təkəsaqqal sifətində ləyaqət, qəzəb nişanəsi vardı. Qızıl sağanaqlı eynəyini düzəltdi.

– Yaxşı, nə qədər istəyirsiniz? – deyə könülsüz halda soruşdu.

– İki min frank.

– Nə? – Elə bil, Dürana güllə dəymişdi, ancaq buna inanmaq istəmirdi. Bircə kəlmə: – Gülməlidir, – dedi.



– Çox gözəl, başqa adam tapmaq sizin əlinizdə nədir ki! Binoya deyin, əla cərrahdır.

Ravik paltosunu götürdü. Düran heyrətlə ona baxdı, ləyaqət yağan sifəti yeddi yerə əyildi. Ravik papağına əl atanda, dözə bilmədi:

– Dayanın! – dedi. – Adamı belə darda qoymazlar! Bunu niyə dünən demədiniz?

– Dünən bağa getmişdiniz, necə deyəydim?

– İki min frank! Bilirsinizmi, mən özüm heç bu qədər pulu istəyə bilmərəm?! Xəstə dostumdur, ondan uzaqbaşı, təşrihə çəkilən xərci ala bilərəm.

Andre Düran indi uşaq nağıllarındakı nəcib Allahlara oxşayırdı. Yetmiş yaşı vardı, çox dəqiq diaqnoz qoysa da, kamil cərrah deyildi. Bu təcrübəni də ona keçmiş köməkçisi Bino qazandırmışdı. Bino da iki il bundan qabaq özünə xəstəxana açmışdı. Həmin vaxtdan Düran çətin təşrih olanda, Raviki çağırırdı. Ravik elə zərgər dəqiqliyi ilə işləyir, elə ifçin tikişlər qoyurdu ki, yara heç bilinmirdi. Düran isə Bordo şərablarının mahir bilicisi idi və tez-tez yüksək səviyyəli ziyafətlərə gedirdi. Onun xəstələri də çox vaxt adlı-sanlı adamlar olurdu.

– Qabaqcadan bilsəydim... – Düran öz-özünə mızıldandı.

Ancaq, əslində, həmişə bilmişdi. Elə ona görə də çətin təşrihlərə bir-iki gün qalanda bağdakı evinə gedirdi, bunun-

la da, təşrihdən qabaq qiymət haqda danışmaqdan qaçırdı. Sonrası asan idi: Ravik ümidini gələn dəfəyə bağlayır, ancaq onda da belə olurdu. Bu dəfə isə – Düran heç gözləmirdi – lap son anda deyil, təşrihə yarım saat qalanda gəlmişdi. Xəstəyə bihuşdarı verilməmiş onu yaxalamışdı. Buna görə də Düranın söhbəti tez kəsməyə bəhanəsi qalmamışdı.

Tibb bacısı başını qapıdan uzadıb soruşdu:

– Bihuşdarı verək, cənab professor?

Düran əvvəlcə qıza, sonra da yalvarıcı, insaf diləyən nəzərlərlə Ravikə baxdı. Ravik də insanpərvər, ancaq qətiyyətli baxışlarla cavab verdi.

– Siz nə deyirsiniz, cənab doktor Ravik?

– Söz sizindir, professor.

Düran tibb bacısına tərəf döndü:

– Bircə dəqiqə də səbir edin. Təşrihin gedişində bəzi şeyləri dəqiqləşdirməliyik.

Qız başını geri çəkdi. Düran təzədən Ravikə tərəf döndü:

– Yaxşı, neyləyək? – deyə tənə ilə soruşdu.

Ravik əllərini cibinə qoydu:

– Sabaha saxlayın, ya da bir saat gecikdirib Binonu çağırın.

Bino az qala iyirmi il Düranın yerinə təşrih eləmiş, qazancı isə heç nə olmuşdu. Çünki Düran, bir qayda olaraq, onu sərbəst işləməyə qoymamış, həmişə bacarıqlı köməkçi kimi qələmə vermişdi. Buna görə də Binonun Dürandan zəhləsi gedirdi və ən azı beş min frank istəyəcəkdi. Bunu Ravik də, Düranın özü də yaxşı bilirdi.

– Doktor Ravik, bu cür sövdələşmək bizim sənətimizə yaraşan iş deyil.

– Mən də o fikirdəyəm.

– Elə isə niyə mənim yaşıma hörmət qoyub, hər şeyi özümün həll eləməyimə imkan vermirsiniz?! Axı indiyə kimi məndən həmişə razı qalmısınız.

– Heç vaxt razı qalmamışam.

– Bəs niyə demirdiniz?

– Çünki mənası yox idi. Onda pul məni o qədər də maraqlandırmırdı. İndi isə maraqlandırır. Çünki lazımdır.

Tibb bacısı yenə gəldi:

– Xəstə narahat olur, cənab professor.

Düranla Ravik baxışdılar. Ravik bilirdi ki, fransızdan pul qoparmaq çətin məsələdir. Hətta yəhudilərdən qoparmaqdan da müşküldür. Yəhudini gəlir maraqlandırır, fransızı isə verdiyi pul.

Düran tibb bacısına tərəf döndü:

– Bircə dəqiqə də gözləyin... Nəbzini, qan təzyiqini, hərarətini yoxlayın.

– Hamısını eləmişəm.

– Onda bihuşdarını başlayın.

Tibb bacısı getdi.

– Yaxşı, – Düran qətiyyətlə dilləndi. – Min frank verəcəyəm.

– İki min! – Ravik düzəliş verdi.

Düran razılaşmadı, əlini dümağ təkəsaqqalına çəkdi:

– Bura baxın, Ravik! – O, birdən qızışdı. – İşləmək hüququ olmayan bir gəlmə kimi...



– Heç sizin də əvəzinizə təşrih eləməyə ixtiyarım yoxdur! – Ravik sakitcə onun sözünü kəsdi və fikirləşdi ki, o ənənəvi minnət başlayacaq: hələ sağ ol desin ki, bu ölkədə gizlənib... Ancaq Düran bundan vaz keçdi, gördü ki, bir şey çıxmayacaq. Vaxt isə gözləmirdi...

– Yaxşı, iki min olsun! – O, bu sözləri elə yanıqlı-yanıqlı dedi ki, elə bil, ağzından çıxan söz yox, iki min frankın özü idi. – Nə olar, öz cibimdən verərəm. Ancaq elə bilirdim, elədiyim yaxşılıqlar yadınızdan çıxmayıb.

Düran cavab gözlədi. Ravik isə ürəyindən keçirdi: «Bu qaniçənlərin əxlaq dərsi verməkdən yaman xoşları gəlir. Düymə ilgəyinə fəxri Legion lenti taxmış bu qoca qurd utanmaq əvəzinə, mənə insafsız deyir, özü də elə bilir ki, doğrudan da, belədir...»

– Demək, iki min! – Düran yenə özü dilləndi. – İki min! – Bir də təkrar elədi. Və bunları deyəndə elə kövrəldi ki, sanki, doğma vətənə, əziz Allaha, yamyaşıl çəmənliklərə, xınalı kəkliklərə, ulu «Sən-Emilion»a əlvida deyirdi! – İndi başlaya bilərik?

* * *

Kişinin əl-qolu, ayaqları arıq olsa da, qarnı yekə idi, piy bağlamışdı. Ravik təsadüfən onun kim olduğunu öyrən-

mişdi. Adı Leval idi və özü də mühacirlərin işinə baxırdı. Bunu ona Veber demişdi, gülə-gülə kimi təşrih edəcəyini başa salmışdı. Levalı «İnternasional»dakı bütün qaçqınlar tanıyırdılar. Ravik skalpeli çəkdi və Levalın qarnı kitab kimi açıldı, kəsiyin uclarını tələsik bərk-bərk sıxdı, pırtlayıb çıxmış sarımtıl piy qatına baxdı:

– Pulsuz-parasız bir az arıqladarıq, sonra özü təzədən yığar, – dedi.

Düran cavab vermədi. Ravik piy qatını kəsib götürdü ki, əzələləri tapsın. «Bu da qaçqınların yerdəki Allahı! – deyə ürəyindən keçirdi. – Yüzlərlə adamın taleyi onun bu sümüyü çıxmış, indi hərəkətsiz qalmış əllərindədir. Qoca professor Mayeri ölkədən çıxarmaq haqqında göstərişi də bu vermişdi. Ancaq Mayerin o əzablı yolları bir də keçməyə heyi qalmamışdı və çıxarılandan bir gün qabaq özünü paltar dolabından asmışdı. Ona görə paltar dolabından asmışdı ki, heç yerdə qarmaq tapmamışdı. Çətinlik də çəkməmişdi. O qədər ac-susuz qalmış, o qədər arıqlamışdı ki, dolabdakı çəngəl də onu saxlamışdı. Səhər-səhər xidmətçi qız onu tapanda, əvvəlcə elə bilmişdi ki, eləcə paltardır, içindəki cəsədi sonra görmüşdü. Əgər bu piy basmış qarında bir azca insaf olsaydı, Mayer hələ də yaşayardı..»

– Sıxac!.. Tampon!

Yenə kəsməyə başladı. İti cərrah bıçağı zərgər dəqiqliyi ilə kəsirdi. Adamı heyran qoyan dəqiq ölçü duyğusu! Bu da qarın boşluğu... Qıvrıla-qıvrıla bir-birinə dolanmış içalat... Bu qarnıyırtıq kişinin də öz əxlaq prinsipləri vardı. Onun da bir insan kimi Mayerə yazığı gəlirdi, ancaq onunla bərabər, başqa hiss də vardı, adına milli borc deyirdi. Həmişə bir pərdə tapıb arxasında gizlənməyə nə var?! Hər böyüyün də bir böyüyü var! Əmrlər, göstərişlər, borc, vəzifə və bir də yeddibaşlı əjdaha – əxlaq norması, məcburiyyət, sərt gerçəklik, məsuliyyət... daha nə bilim nələr... Adicə insanlıq qanunlarından qaçıb arxasında gizlənmək üçün pərdə tapmağa nə var!

Bu da öd kisəsi... İrinləyib sıradan çıxıb... Yağlı xörəklər, növbənöv Bordo şərabları, əsəbilik onu bu kökə salmışdı... Əgər indi pis kəssə, onu lap böyük, ya da dərin eləsə, necə? Onda bircə həftədən sonra qaçqınların titrəyə-titrəyə «olum, ya ölüm» hökmünü gözlədikləri, saralmış kağız-kuğuz, kəsif

güvə qoxulu otaqda bundan yaxşısı oturmazmı?! Yaxşısı! Bəlkə də, betəri gəldi, nə bilmək olar... İndi gur işıqların altındakı cərrahiyyə stoluna huşsuz uzadılmış bu altmışyaşlı kişi də, şübhəsiz, özünü insanpərvər hesab eləyirdi. Yəqin ki, mehriban ata, qayğıkeş ər idi. Ancaq kabinetə girən kimi «heç cür mümkün deyil», «bəs onda necə olar...» kimi ibarələrin arxasında gizlənən zülmkara çevrilirdi. Mayer burada qalıb öz kasıbçılığını eləməklə, dul qalmış Rozental «İnternasional» mehmanxanasında xidmətçilər üçün ayrılmış balaca küncdə büzüşüb, gestaponun çoxdan o dünyaya göndərdiyi oğlunun yolunu gözləməklə, ciyər xəstəliyinə tutulmuş Ştalman öz balaca dükanında çax-çux eləməklə Fransa dağılmazdı... Yazıq Ştalman sərhədi gizli keçdiyi üçün altı ay həbsxanada yatdı, sonra, elə bil, ölmək üçün oradan çıxdı. Heç sərhədə də çatdıra bilmədi...



Yaxşı... kəsik yaxşı alındı... Nə böyük deyildi, nə də dərin. Sap... indi də liqatura sapı... Bu da öd kisəsi... Onu Dürana göstərdi. Üstündəki piy qatı işıqda parıldayırdı. Vedrəyə atdı, təzədən yaraya tərəf əyildi. Niyə Fransada tikişi bu sapla qoyurlar? Sıxaçı götür! İllik gəliri otuz-qırx min frank olan orta səviyyəli bir məmurun alışıb-yanan qarnı... Bəs o, təşrih üçün on min frankı nədən verir? Qalanını haradan qazanır? Bu yekəqarın da nə vaxtsa üçdaş oynayıb... Tikiş də yaxşı alındı... İfçin-ifçin... Təkəsaqqalı görünməsə də, iki min frankın ağrısı hələ də Düranın üzündə qalmışdı. Gözlərindən bilinirdi. Hər gözündə min frank... Məhəbbət daşı da əridər! Yoxsa o qədər pulu bu qoca qurddan zorla qoparıb, onun «soyqunçuluq tanrı buyruğudur» kimi inamını alt-üst eləyə bilərdmi? Sabah riyakar bir mehribanlıqla gedib bu yekəqarının yanında oturacaq, onun minnətdarlığını qəbul edəcək... Ehtiyatlı ol, bir sıxac da burada imiş! Bu yekə qarın, Joanla mənim üçün bir həftə Antibdə qalmaq deməkdir. Zəmanənin toz-dumanlı qasırğasında bir həftəlik işıqdır. Tufanqabağı bir parça mavi səmadır! İndi isə dərialtı layı tikmək lazımdır. Tikişə söz ola bilməz, iki min franka dəyər. Gərək qayçının birini Mayerdən xatirə kimi içəridə qoyaydım! Bu işıq niyə belə güyüldəyir? Adamın fikri niyə belə çox qarışır? Yəqin, qəzetlərdəndir. Bir də radio... Yalançılar, qorxaqlar bütün günü çərənləyirlər. Söz yığını adamı lap çaşbaş qoyur. Ah, bu dolaşıq fikirli beyin-

lər! Qapıları hər cür cəfəngiyatın, zirzibilin üzünə açıqdır! Hələ də idrakın acı təcrübəsinə alışa bilmir. Ah, bu kəsərsiz beyinlər! Cəfəngiyatlar! Hə, bu da qurtardı... İndi qaldı dərinin özünü tikmək... Bir-iki həftədən sonra tir-tir əsən qaçqınları qovacaq. Bəlkə də, öd kisəsiz bir az insaflı olacaq... Əgər ölməsə... Ancaq belələri səksən yaşına kimi qalır, hamı da ona ehtiram göstərir, özü də hörmət-izzətini saxlayır, nəvə-nəticəsi onunla fəxr edir. Hazırdır! Aparın!

Ravik əlindəki əlcəkləri, üzündəki tənzifi çıxardı. Mötəbər məmuru rezin təkərli xərəyin üstündə səssiz-səmirsiz cərrahiyyə otağından apardılar. Ravik onun arxasınca baxdı. «Kaş biləydin, Leval, – ürəyində dedi, – sənin halalca, qanuni öd kisən mənə, burada qeyri-qanuni yaşayan bir qaçqına Riverada bir neçə qeyri-qanuni xoşbəxt gün bəxş edəcək!»

Yuyunmağa başladı. Onunla yanaşı dayanan Düran da, necə lazımdırsa, damarları çıxmış əllərini yuyurdu. Barmaqlarını təmiz-təmiz sürtdükcə onun ritminə uyğun alt çənəsi də asta-asta tərpənirdi, elə bil, ağzında nəsə çeynəyirdi. Özü dayananda, çənəsi də dayanır, başlayanda isə təzədən tərpənirdi. O, bu dəfə tələsmədən, həmişəkindən çox yuyundu. Ravik fikirləşdi ki, iki min frankla vidalaşacağı anı bir az da uzadır...

– İndi nə gözləyirsiniz? – Düran bir azdan soruşdu.

– Pulu.

– Xəstə verən kimi göndərəcəyəm. Bir neçə həftə çəkər. O çıxası... verəsi...

Düran əllərini silməyə başladı. Sonra bir şüşə «d`Orse» odekolonu götürüb ovçuna çilədi, əllərini ovuşdurdu:

– Siz ki mənə inanırsınız, elə deyilmi?

«Əclaf! – Ravik ürəyindən keçirdi. – Məni alçaltmaq istəyir».

– Bəs deyirdiniz, xəstə dostunuzdur, təkcə xəstəxana xərclərini verəcək?!

– Bəli... – Düran bilmədi, nə desin.

– Elə isə bu xərclər az olacaq. İşlədilən şeylər, bir də tibb bacılarının haqqı... Xəstəxana sizinkidir. Hamısına bir yerdə yüz frank çəkin, üstündən çıxın, qalanını verin.

– Xəstəxana xərcləri, doktor Ravik, – Düran dikəldi, – təəssüf ki, mən gözlədiyimdən çox oldu. Sizin iki min

frank da ona aiddir, onu da, gərək, xəstədən alam. – O, əllərini iylədi. – Görürsünüzmü...

Düran gülümsədi. Sapsarı dişləri qar kimi ağ saqqalı ilə qəribə təzad yaradırdı. «Elə bil, qarın üstünə çirkli su töküblər. – Ravik ürəyindən keçirdi. – Nə istəyir eləsin, pulu verəcək. Hələlik Veberdən alaram. Bu qoca qurd istəyir minnət eləyim. Bircə onu görməyəcək!»

– Yaxşı, – dedi, – əgər indi elə çətindirsə, sonra göndərərsiniz.

– Elə bir çətinliyi yoxdur. Sizin bu təklifiniz qəfildən, gözlənilməz olsa da... Axı qayda var, qanun var...

– Eybi yoxdur, onda biz də hər şeyi qayda-qanunla eləyərik. Eyni şeydir.

– Heç də eyni şey deyil.

– Nəticəsi birdir. İndi isə məni bağışlayın, gedim araq içim. Hələlik...



– Hələlik... – Düran lap mat qalmışdı.

* * *

Ket Heqstrem gülümsədi:

– Niyə mənimlə getmək istəmirsiniz, Ravik?

Zərif, uzun, şax qamətli, məğrur Ket onunla üzbəüz dayanıb, əllərini paltosunun cibinə qoymuşdu.

– İndi Fezolada Forsite gülləri açmış olar. Bağın hasarı onların sarımtıl alovuna bürünüb. Soba, kitablar, sakitlik...

Küçədə bir yük maşını uğuldadı. Xəstəxananın balaca qəbul otağında asılmış şəkillərin çərçivəsindəki şüşələr cingildədi. Şartr kilsəsinin şəkilləri idi...

– Gecələrin sükutu. Tənhalıq... Bunlar xoşunuza gəlmir?

– Gəlir. Ancaq, bəlkə də, dözə bilmədim.

– Niyə dözmürsünüz?

– Sükut o vaxt yaxşı olur ki, adam özü də sakit olsun.

– Mən özüm də heç sakit deyiləm.

– Ancaq nə istədiyinizi bilirsiniz. Təxminən, bu, elə o deməkdir.

– Siz bilmirsiniz?

– Mən heç nə istəmirəm.

Ket yavaş-yavaş paltosunun qabağını düyməməməyə başladı:

– Bunu necə başa düşmək lazımdır, Ravik? Xoşbəxtlikdir, yoxsa bədbəxtlik?

Ravik narahat halda gülümsədi:

– Çox güman ki, hər ikisidir. Axı onlar həmişə qoşa olur. Bu haqda çox düşünmək də lazım deyil.

– Bəs neyləmək lazımdır?

– Sevinmək.

Ket ona baxdı:

– Bunun üçün ikinci adam lazım deyil.

– Əksinə, lazımdır...

Ravik susdu, «Gör nələr danışıram?! – deyə ürəyindən keçirdi. – Kimisə yola salanda, adam həmişə belə olur. Ayrılanda bilmir neyləsin, başlayır keşiş kimi xeyir-dua verməyə...»

– Yadınızdadırmı, Ket, bir dəfə cüzi səadətdən danışırdınız? Belələri, yanmış evin yan-yörəsində bitən bənövşə kimi, hər yerdə çoxdur. Həyatın çox yaxşı qanunu var: heç nə gözləmirsənsə, məyus qalmayacaqsan. Sonrakılar o qədər də təsirli olmur.

– Elə deyil! – Ket etiraz etdi. – Siz deyənlər, adam xəstə olanda, qorxa-qorxa gələcək haqqında düşünəndə olur. Elə ki sağalıb durdun, hamısı keçib gedir, başlayırsan çox şey istəməyə...

Bu vaxt pəncərədən Ketin üzünə gur işıq düşdü və onun gözləri kölgədə itdi, təkcə zərif dodaqları göründü.

– Florensiyada tanış həkiminiz var? – Ravik soruşdu.

– Xeyr. Lazım olacaq ki?

– Demək olmaz. Bilsəm, orada həkiminiz var, rahat olaram.

– Özümü lap yaxşı hiss edirəm. Bir şey olsa, qayıdaram.

– Əlbəttə, qayıtmaq lazımdır. Ancaq indi ehtiyat üçün deyirəm. Florensiyada bir yaxşı həkim var, professor Feola. Yadınızda qalar? Feola...

– Qalmaz. Lazım deyil, Ravik.

– Ona məktub yazacağam, hərdən sizi yoxlayar.

– Nəyə lazımdır? Axı məndə heç nə yoxdur.

– Professional ehtiyatkarlıqdır, Ket, heç nə yoxdur. Ona yazaram, özü zəng vurub sizi tapar.

– Necə istəyirsiniz... – O, çantasını götürdü. – Salamat qalın, Ravik, mən getdim. Bəlkə, Florensiyadan elə birbaşa

Kanna, oradan da «Conte di Savoy»la Nyu-Yorka getdim. Əgər yolunuz Amerikaya düşsə, görəcəksiniz ki, ucqar bir kənddə yaşayıram, ərim, uşaqlarım var, at, it saxlayıram. Sizin tanıdığınız Ket Heqstremi burada qoyub gedirəm. Onun qəbri «Şəhrizad»da olacaq. Oralara gedəndə hərdən məni də xatırlayın, sağlığıma için.

– Yaxşı, araq içərəm.

– Hə, araq için.

Ket yarıqaranlıq otaqda dayanmışdı və nə edəcəyini bilmirdi. Bayaqkı işıq indi şəkillərdən birinin üstünə düşürdü. Ucunda xaç olan baş mehrab idi...

– Qəribədir, – Ket dilləndi. – Gərək mən indi sevinəydim. Ancaq nədənsə heç sevinmirəm...

İndi onunla üzbəüz dayanıb tərəddüd eləyən Ket kövrəlmişdi, artıq nəyisə qət eləmişdi, bir az da qüssəli idi.



– Ayrılıq zamanı ən yaxşısı tez çıxıb getməkdir, – Ravik sükutu pozdu. –Gəlin, mən sizi ötürərəm.

– Elədir...

Mülayim havadan nəmişlik qoxusu gəlirdi. Günəş qürub edirdi, səma da polad kimi közərmişdi.

– Gedim, sizə taksi gətirim, Ket.

– Lazım deyil, tinə qədər piyada getmək istəyirəm. Orada özüm taparam. Elə bil, birinci dəfədir, küçəyə çıxıram.

– Necədir?

– Şərab kimidir, adam məst olur.

– Bəlkə, taksi gətirim?

– Xeyr, piyada gedəcəyəm. – O, yaş küçəyə baxıb güldü. – Qəlbimin harasındasa qorxu hissi hələ də qalıb. Bu da ayrılıqdandır?

– Bəli, ondandır.

– Salamat qalın, Ravik.

– Hələlik, Ket.

Ket bircə anlığa yenə tərəddüd elədi, sanki, nəsə demək istədi. Sonra asta-asta, ehtiyatla, sərrast addımlarla pilləkəni düşüb, küçəyə çıxdı, bənövşəyi rəngə çalan qaranlığa, haradasa gizlənib onu gözləyən ölümünə doğru addımladı, bir daha dönüb geri baxmadı.

* * *

Ravik geri qayıtdı, Ket yatan palatanın yanından keçəndə qulağına musiqi sədası dəydi. Təəccüblə dayandı. Bilirdi ki, təzə xəstə götürməyiblər...

Ehtiyatla qapını açanda gördü ki, tibb bacısı dizi üstə oturub, qabağında da qrammofon var. O, Raviki görən kimi dikəldi, sıçrayıb qalxdı. Qrammofonda qədim bir musiqi – «Le dernier valse»[1] çalınırdı.

Qız xalatının qırışığını düzəltdi:

– Bunu miss Heqstrem bağışlayıb, – dedi. – Amerikanındır, buralarda tapılan şey deyil. Parisin heç yerində yoxdur, təkcə məndədir. O dəqiqə yoxladım. Beş valı bir dəfəyə qoyursan, özü dəyişə-dəyişə oxudur! – Onun üz-gözündən bəxtiyarlıq yağırdı. – Qiyməti, ən azı, üç min frank olar. Hələ vallarını demirəm, düz əlli altı dənədir. Radiosu da var. Əsl xoşbəxtlikdir!

«Yenə də xoşbəxtlik! – Ravik ürəyindən keçirdi. – İndi də qrammofon xoşbəxtlik oldu..» O dayanıb musiqiyə qulaq asdı. Skripkanın iniltisi, sentimental ah-naləsi orkestrin başı üzərində göyərçin kimi süzürdü. Bəzən belə düşük mahnılar adamın ürəyinə Şopenin noktürnlərindən tez yol tapır! Ravik otağı nəzərdən keçirdi. Çarpayı yığışdırılmış, yorğan-döşək çevrilmişdi. Döşəkağı, yastıqüzü və başqa işlənmiş şeylər qapının ağzında bir yerə yığılmışdı. Pəncərələr açıq idi və gecə, kinayəli bir təbəssümlə içəri boylanırdı. Bu otaqda indi Ketdən yalnız yavaş-yavaş uçub gedən ətir qoxusu və bir də yüngül valsın son akkordları qalmışdı...

– Hamısını bir dəfəyə apara bilmərəm. – Qızın səsi onu xəyaldan ayırdı. – Çox ağır olar. Əvvəlcə özünü apararam, sonra da iki dəfə qayıdıb valları. Bəlkə də, üç dəfə qayıdası oldum. Əntiqə şeydir, bunun xatirinə lap bir kafe də açmaq olar.

– Yaxşı fikirdir. – Ravik dilləndi. – Ehtiyatlı olun, sınar!

---

[1] “Axırıncı vals” *(fran.)*

# XV

Ravik yavaş-yavaş ayıldı. Bir xeyli yuxu ilə gerçəklik arasında tərəddüd elədi. Qəribə aləm idi: yuxu hələ tamam getməmişdi, qırıq-qırıq da olsa davam edirdi, o, eyni zamanda bilirdi ki, bunların hamısı yuxudur. Görürdü ki, alman sərhədinin lap yaxınlığında – Şvartsvaldda, balaca bir dəmir yolu stansiyasındadır. Haradansa su şırıltısı eşidilirdi. Dağlardan şam ağaclarının ətri gəlirdi. Yay idi və hər yanı qətran iyi, çəmən qoxusu bürümüşdü. Qürub edən günəşin qıpqırmızı saçaqları relslərə dolanmışdı, sanki, onların üstü ilə təkərlərindən qan daman bir qatar keçmişdi. «Mən burada neyləyirəm? – Ravik ürəyindən keçirdi. – Mənim Almaniyada nə işim? Mən ki Fransadayam... Parisdəyəm...» Yumşaq, al-əlvan ləpələr onu qoynuna alıb təzədən yuxu aləminə apardı. Paris dalğaların qoynunda çalxandı, dumana qarışdı, haradasa qərq olub getdi. O, Parisdə deyildi... Almaniyada idi... Təzədən buraya niyə qayıtmışdı?



Balaca vağzalda vurnuxurdu. Bələdçi qəzet köşkünün yanında dayanmışdı. Ortayaşlı bu kişi «Folkişer Beobaxter» qəzeti oxuyurdu və ətli yanaqları, sapsarı qaşları var idi.

– Növbəti qatar nə vaxt olacaq? – Ravik ondan soruşdu.

Bələdçi süst nəzərlərlə onu süzdü:

– Hara gedirsiniz?

Ravikin üz-gözünü qəfil bir qorxu dalğası qarsaladı. Hara gəlib çıxmışdı? Bura hara idi? Hansı stansiya idi? Frayburqa getdiyini desinmi? Lənət şeytana, harada olduğunu niyə bilmirdi? Gözləri perronu dörd dolandı: heç yerdə heç nə yazılmamışdı. Gülümsədi:

– Məzuniyyətdəyəm, – dedi.

– Bəs hara gedirsiniz? – Bələdçi yenə soruşdu.

– Gəzməyə çıxmışam... Görməzə-bilməzə düşmüşəm. Pəncərədən baxanda çox xoşuma gəldi... İndi isə gəlmir... Şəlalədən zəhləm gedir... Çıxıb getmək istəyirəm.

– Axı hara getmək istəyirsiniz? Hara getdiyinizi bilmirsiniz?

– Birisi gün Frayburqda olmalıyam. Hələ iki gün vaxtım var. Hara gəldi getməkdən, gəzməkdən yaman xoşum gəlir...

– Bu, Frayburq yolu deyil. – Bələdçi diqqətlə onu süzdü.

«Bu nə qələtdir elədim?! – Ravik ürəyindən keçirdi. – Niyə soruşuram? Nəyimə lazımdı? Sakitcə oturub gözləmirəm? Necə gəlib çıxmışam bura?»

– Bilirəm, – dedi, – hələ vaxtım çoxdur. Buralarda albalı arağı tapılar? Əsl Şvartsvald arağı olsun.

– İçəridə, bufetdə var. – Bələdçi gözlərini ondan çəkmirdi.

Ravik sal daşlar döşənmiş perronla yavaş-yavaş bufetə tərəf getdi. Stansiyanın üstü açıq idi və onun addım səsləri hər yanda aydınca eşidilirdi. Birinci və ikinci dərəcəli gözləmə zalında iki kişi oturmuşdu. Onların baxışları Ravikin kürəyinə sancılmışdı. Eyvanda bir cüt qaranquş vurnuxurdu. Özünü elə göstərdi ki, guya, qaranquşlara tamaşa edir və gözünün ucu ilə bələdçiyə sarı baxdı. O, qəzeti bürmələdi və Ravikin dalınca gəldi. Ravik bufetə girdi. İçəridən pivə iyi gəlirdi, heç kəs də yox idi. Geri döndü. Bələdçi bayırda dayanmışdı və onun gəldiyini görüb zala girdi. Ravik addımlarını yeyinlətdi. Birdən hiss elədi ki, ondan şübhələniblər. Binanın tininə çatanda dayanıb yan-yörəsinə boylandı. Perronda heç kəs yox idi. Tez özünü baqaj şöbəsi ilə boş kassaların arasına verdi, sinə-sinə platforma sütunlarının altından keçib teleqraf otağına çatdı. İçəridən tıqqıltı gəlirdi; otağın pəncərəsi altından sivişib, binanın o biri başına çıxdı. Oğrun-oğrun ətrafa göz gəzdirdi, cəld relsləri adlayıb, yamyaşıl çəmənliklə şam meşəsinə tərəf götürüldü. Zəncirotunun tozlu ləçəkləri ətrafa səpələndi. Meşəyə çatan kimi dayanıb geri baxdı, gördü ki, dəmiryolçu ilə kişilər perronda dayanıblar. Dəmiryolçu əli ilə onu göstərdi və kişilər yüyürməyə başladılar. Ravik özünü şamlığa vurdu, tikanlı budaqlar üz-gözünü daladı. Bir xeyli yana sapınıb dayandı, yerini bildirməmək üçün səsini içinə çəkdi. Kişilərin kolkosu yara-yara, budaqları şaqqıldada-şaqqıldada bu tərəfə gəldiyini görüb yenə qaçmağa başladı. Ancaq diqqəti arxada idi. Bəzən heç nə eşidilmirdi və onda dayanıb dinşəyirdi. İndi yerə uzanmışdı və şıqqıltı gələn kimi, səs salmamaq üçün irəli sürünürdü. Ətrafı dinşəyəndə yumruqlarını sıxaraq nəfəsini içinə çəkirdi. Bütün bədəni qıc olmuşdu, az qalırdı durub qaçsın. Ancaq bununla yerini bildirərdi. Yalnız kişilər hərəkətə gələndə tərpənmək olardı. Çəmənlikdə,

mavi Hepatica triloba çiçəklərinin arasında uzanmışdı. O, bu çiçəkləri yaxşı tanıyırdı... Elə bil, meşənin ucu-bucağı yox idi... İndi hər tərəfdən şıqqıltı gəlirdi... Hiss etdi ki, bədənindən tər sel kimi axır. Birdən, sanki, ayağı dizdən aşağı qopub düşdü, oynaqları sustaldı. İstədi qalxsın, ancaq yerə çökdü, elə bil, bataqlığa düşmüşdü. Tez yerə baxdı: bərk idi. Demək, ayaqları üyüşmüşdü. Onlar, sanki, sümükdən deyil, rezindən idi. Kişilər getdikcə yaxınlaşırdılar. Güc verib bir də qalxdı, ancaq «rezin ayaqları» yenə bərkimədi. O, yerə çökdü. Üyüşmüş ayaqlarını cırmaqladı. İrəli süründü, hiss etdi ki, şıqqıltı getdikcə yaxınlaşır və bu anda mavi səma budaqların arasından boylandı, hər tərəf işıqlandı, bildi ki, durub qaçmasa, axırı çatıb... Yenə bütün gücünü toplayıb, ayaqlarını arxasınca sürüdü... sürüdü... Dönüb geri baxdı və acı təbəssümlü bir sifət gördü. Bu, Haakenin sifəti idi... Batırdı, yer onu udurdu, heç nə eləyə bilmirdi, yavaş-yavaş batırdı, yavaş-yavaş boğulurdu... və əlini yaxasına aparıb dartışdırmağa başladı, elə bil, özünü çəkib çıxarmaq istəyirdi... Sonra inildədi.



* * *

İnildəyirdi? Harada idi? Hiss edirdi ki, əlləri boğazına keçib. Əli də, boğazı da suyun içindəydi... Sinəsi də, üz-gözü də... Gözlərini açdı. Harada olduğunu hələ də kəsdirə bilmirdi. Hara idi? Körpə şam meşəsindəki bataqlıq, yoxsa?.. Paris hələ ağlına gəlmirdi. Tanımadığı bir aləmə düşmüşdü və elə bil, ay göydə çarmıxa çəkilmişdi. Güclə sezilən xaçın arxasında solğun bir işıq parçası asılmışdı, sanki, işgəncə içində qovrulan müqəddəsin fəryadı idi. Ağımtıl, solğun işıq bomboz səmada səssiz-səmirsiz fəryad qoparırdı. Bədirlənmiş ay idi, «İnternasional» mehmanxanasındakı otağın xaç-şəkilli pəncərəsindən belə görünürdü...

Ravik dikəldi. Bu nə demək idi? Qan dolu qatar qanı süzülə-süzülə qanlı relslərin üstü ilə şütüyürdü... Bu yuxunu yüz dəfə görmüşdü. Görmüşdü ki, yenə Almaniyadadır, yenə qovulur, izlənir, adam öldürməyi qanun halına salmış qanlı rejimin cəlladları onu təqib edir. Bir yuxunu nə qədər görmək olardı?! Diqqətlə aya baxdı. O, sanki, haradansa çoxlu işıq borc alıb, yer üzündəki bütün rəngləri udurdu.

Gördüyü bu yuxular həbs düşərgələrinin dəhşətləri, qanına qəltan edilmiş dostlarının donuq sifəti, bütün bu dəhşətlərə dözməli olan adamların qurumuş göz yaşları, daşa dönmüş ağrıları, çətin ayrılıq anları və zülmlərin zülmü olan tənhalıqla dolu idi. Gündüzlər yenə birtəhər unutmaq olurdu. Həmin günlərlə indinin arasına uca bir hasar çəkirsən, onda heç nə görünmür. Bu hasar yavaş-yavaş, həmin ağır illər uzunu tikilmiş, bütün arzuları arsızlıq boğmuş, keçmiş xatirələr torpağın dərin qatlarına gömülüb üstü döyülmüş, lap adın özünə kimi keçmişlə bağlı hər şey qoparılıb atılmış, hisslər daşa-dəmirə dönmüşdü. Və nə vaxtsa, özünü unutduğun anda keçmişin acılı-şirinli xatirələri baş qaldırıb sənə «gəl-gəl» deyəndə, huşun başından çıxanacan içirsən, hər şeyi unudursan. Ancaq bunu təkcə gündüzlər eləmək olur. Gecələr isə özündə olmursan, xatirə köhləninin cilovu boşalır, şahə qalxıb şüurun sərhədlərini keçir və bir vaxt torpağın dərin qatlarına basdırdığın anlar təzədən baş qaldırır, xatirələrin donu açılır, kölgələr sayrışır, yaralar göz-göz olub sulanır, dəhşətli bir tufana dönüb, qurduğun bütün bənd-bərəni yerlə-yeksan eləyir! Unutmaq! Ancaq bu da o vaxt mümkün olur ki, dünya insan iradəsinin nuruna boyanmış olsun. Həmin nurlu işıq sönüb, hətta soxulcanların xışıltısı belə eşidiləndə, çoxdan ölüb getmiş dünya Vineta[1] kimi dalğaların qoynundan baş qaldırıb təzədən canlanmağa başlayanda isə hər şey başqa cür olur. Onda, gərək, hər axşam ağlın başından çıxanacan içəsən, hər şeyi unudasan, gecələri gündüzə, gündüzü də gecələrə çevirəsən. Gündüzlər gördüyün yuxu gecələr gördüyün yuxu kimi dəhşətli olmur. Özü azmı belə eləmişdi? Çox vaxt bütün gecəni küçələrdə dolaşıb, səhərin gözü açılanda mehmanxanaya qayıtmamışdımı? Ya da bütün gecəni «katakomba»da bir yoldaş tapıb içə-içə Morozovun «Şəhrizad»dan qayıtmasını gözləmiş, sonra onunla süni palmaların «kölgəsində» azmı vurmuşdu? Həmişə də bu pəncərəsiz otaqda səhərin açıldığını divardakı saatdan bilmişdilər... Adətən, sualtı qayıqda qalanlar belə çox içər... Əlbəttə, başını bulaya-bulaya «daha yetər, bir az ağıllı olmaq lazımdır» deməyə nə var! Ancaq görürsən ki, lənət şeytana, bundan çətin heç nə yox imiş. Neyləyəsən, həyat öz həyatlığında qalır, gah heç nə olur, gah da

[1] *Vineta* – Əfsanəyə görə, Baltik dənizində batmış şəhər

hər şey... Ondan əl çəkmək də lap asandır. Ancaq bu həm də intiqam arzusundan, hər gün, hər saat ələ salıb tüpürdüyünə, gözdən salmağa çalışdığına baxmayaraq, təxminən, «adamlığa, insanlığa inam» adlanan şeydən əl çəkmək deyilmi? Həyat nə qədər mənasız olsa da, onu boş giliz kimi tullamaq olmaz. Lazım gələndə, mübarizə vaxtı çatanda o həmişə mənalı olur. Həyat adama təkcə öz şəxsi istəkləri, qisas, lap qanına işləsə də – xudpəsəndlik, özünü yaddan çıxarıb başqalarına kömək eləmək, çox vacib hesab eləyib dünyanı bircə addımlığa da olsa, bu qan çanağından, çirkabdan uzaqlaşdırmaq üçün lazım deyil. Həyat adama bir də ona görə lazımdır ki, mübarizə aparsın, sadəcə olaraq, nəfəsi nə qədər gedib-gəlir, mübarizə üçün fürsət gözləsin. Ancaq gözləmək də adamı için-için yeyir, ümidlər alt-üst olur, üstəlik, səni gizli bir qorxu hissi də bürüyür ki, tamam əldən düşəcəksən, gözləməkdən üzüləcəksən, yorulacaqsan, həyatla ayaqlaşa bilməyəcəksən. Adam elə buna görə də əsəblərini yerindən oynadan hər şeyi yerli-dibli unutmaq, amansızcasına, rişxəndlə, acı kinayə ilə, peşmançılıq hissi duymadan onun başını biryolluq əzmək, sonra isə tamam başqa adam, özgə bir «mən» olmaq istəmirmi? Ancaq bir azdan yenə yatırsan, özündə olmursan və o dəhşətli xatirələr təzədən səni öz qoynuna alır...



Bədirlənmiş ay yavaş-yavaş pəncərədən çəkilirdi. İndi o, çarmıxa çəkilmiş müqəddəs İsaya deyil, uzaqda dayanıb sırtıq-sırtıq onun-bunun pəncərəsinə, yatağına tamaşa eləyən xəfiyyəyə oxşayırdı. Ravik tamam ayılmışdı. Əslində, o qədər də dəhşətli yuxu deyildi, bundan da betərini görmüşdü. Ancaq çoxdan idi ki, yuxu görmürdü. Fikrə getdi: hə, tək yatmağın daşını atandan bəri yuxu görmürdü...

Əli ilə yan-yörəsini yoxladı. Şüşə yox idi. Çoxdan onu bura qoymurdu, küncdəki stolun üstündə olurdu. Bir anlığa tərəddüd elədi. Bilirdi ki, içməsə də keçinər. İçsə nə olardı ki? Durub ayaqyalın stola tərəf getdi, bir qədəh tapıb, şüşəni açdı. Onda gətirdikləri kalvadosdan qalmışdı. Qədəhi yenə doldurub, pəncərəyə tutdu. Ayın işığında opal kimi bərq vururdu. «Arağa, gərək, işıq düşməsin, – deyə fikirləşdi. – Nə günəş, nə də ay işığı... Bütün gecəni bədirlənmiş ayın işığında qalan yaralı əsgərlər adi gecələrdən çox

zəifləyirdi...» Başını bulayıb qədəhi qaldırdı. Yenə süzdü. Geri dönəndə gördü ki, Joan gözlərini açıb ona baxır. Qımıldanmadı. Görəsən, Joan, doğrudan da, ayılmışdı?!

– Ravik... – Joan dilləndi.

– Hə...

Joan diksindi, elə bil, yenicə oyandı.

– Ravik... – Onun səsi dəyişdi. – Ravik... Orada neyləyirsən?

– İçirəm...

– Niyə? – Joan dikəldi, həyəcanlandı. – Nə olub? Nəsə olub?

– Yox, heç nə.

Joan əli ilə saçlarını geri sığalladı:

– Allah, sən saxla! – dedi. – Yaman qorxdum.

– Bilsəm heç qalxmazdım. Dedim, oyanmazsan.

– Gözümü açanda gördüm, küncdə durmusan... Özü də lap birtəhərsən...

– Bağışla, Joan, elə bildim, oyanmazsan...

– Birdən hiss elədim ki, yanımda yoxsan. Soyuq idi, elə bil, külək əsirdi... Diksinib ayıldım. Səni o küncdə görəndə, lap qorxdum. Nəsə olub?

– Yox, Heç nə... heççə nə, Joan. Oyanmışdım, istədim içəm ..

– Bir qurtum da mənə ver.

Ravik qədəhi doldurub ona tərəf getdi:

– İndi lap uşağa oxşayırsan, – dedi.

Joan qədəhi ikiəlli alıb içməyə başladı. Yavaş-yavaş içir, şüşədən Ravikə baxırdı.

– Niyə ayıldın, Ravik?

– Bilmirəm, deyəsən, ay işığı oyatdı.

– Mənim aydan zəhləm gedir.

– Antibdə isə xoşun gələcək.

Joan qədəhi yerə qoydu.

– Doğrudan, gedirik?

– Hə, gedirik.

– Bu lənətə gəlmiş dumandan, çiskindən canımız qurtaracaq?

– Hə, canımız bu lənətə gəlmiş dumandan, çiskindən qurtaracaq.

– Onda bir qədəh də süz.

– Yatmaq istəmirsən?

– Yox! Adamın yatmağa heyfi gəlir. Həyatımızın çoxu elə yuxuda keçir. Bir qədəh araq ver. Hansındandır? Bəs onu da özümüzlə götürmürdük?

– Heç nə götürmək lazım deyil.

Joan diqqətlə onun üzünə baxdı:

– Həmişə belə olacaq?

– Həmişə.

Ravik gedib pəncərənin pərdələrini çəkdi. Ancaq onlar aralı qalırdı. Açıq yerdən içəri süzülən ay işığı otağı iki bölürdü.

– Niyə gəlib uzanmırsan, Ravik?

Ravik divanın yanında dayanmışdı. İndi hərəsi ay işığının bir tərəfində qalmışdı. Çarpayının üstündə oturmuş Joan kölgə kimi görünürdü. Tutqun parıltılı saçları boyunboğazına dağılmışdı. Çılpaq idi. Onların hərəsi bir qaranlıq sahilə bənzəyirdi və pəncərədən süzülən bu soyuq işıq nəhayətsiz dəniz kimi onları ayırmışdı. Yuxu ətirli bu işıq otağın küncünə düşürdü və elə bil, efir qoxulu, havasız bir uzun yoldan keçib gəlmişdi, elə bil, isti günəş şüası idi, lap uzaqlarda sönmüş bir ulduza dəyib soyuyur, oradan da yavaş-yavaş otağa süzülür və heç yana çıxıb getməsə də, onu doldura bilmirdi...



– Niyə gəlmirsən, Ravik?

Ona sarı getdi, qaranlıqdan çıxıb işığa düşdü, sonra yenə qaranlığa girdi. İkicə addımlıq yol idi, ancaq Ravikə yaman uzaq göründü...

– Şüşəni də gətirdin?

– Hə.

– Qədəhi istəyirsən? Saat neçədir?

Ravik balaca saatın fosforlu əqrəblərinə baxdı:

– Beşə az qalır.

– Demək, beşdir... Ancaq üç də ola bilərdi... Ya da yeddi... Gecələr zaman dayanır, təkcə saatlar işləyir.

– Hə... Ancaq buna baxmayaraq, hər şey gecələr olur. Bəlkə də, elə ona görədir.

– Nə olur?

– Elə şeylərdir ki, nəticəsi gündüzlər bilinir.

– Məni qorxutma. Sən adamlar yatanda olan şeyləri deyirsən?

– Hə.

Joan qədəhi onun əlindən alıb içdi. O, çox gözəl idi və Ravik hiss etdi ki, onu sevir. Bu gözəllik heykəl gözəlliyi, şəkil gözəlliyi deyildi. O, küləyin hər gün sığalladığı çəmənlik kimi gözəl idi. Qəlbi həyat eşqi ilə döyünürdü. Bu, həmin həyat idi ki, iki sehirli hüceyrəni birləşdirib, bomboş ana bətnində onu bu cür gözəl yaratmışdı. Sirli bir tapmaca idi: balaca bir toxumun mikroskopla görünən hüceyrələrində gələcəyin böyük bir ağacı yatır və əvvəlcədən bilinir ki, həmin ağac böyüyüb qol-budaq atacaq, bar gətirəcək, hər ilin hansı aprel səhərindəsə çiçək açacaq. Ya da bircə vüsal gecəsində kiminsə üzü, çiyinləri, gözləri, bax, lap elə bu çiyinlər, bu gözlər yaranıb, sonralar dünyanın hansı nöqtəsindəsə milyonların arasında itib-batacaq və günlərin bir günü, soyuq noyabr gecəsində, Parisdə, «de Alma» körpüsünün üstündə ona rast gələcək...

– Niyə hər şey gecələr olur, Ravik?

– Ona görə ki... Yaxın gəl, əzizim, ey mənim dəhşətli yuxuların çəngindən qopardığım, aylı çəmənlərin qoynunda tapdığım mələyim, yaxın gəl... hə, ona görə ki, gecə də, yuxu da satqındır. Yadındadırmı, bu gecə bir yerdə yatdıq. Elə yaxın yatdıq ki, yalnız insanlar belə yaxın yata bilərlər. Üz-gözümüz, bütün bədənimiz birləşdi, fikirlərimiz, nəfəslərimiz bir-birinə qarışdı. Sonra yuxu asta-asta aramıza girdi. Əvvəlcə bomboz, gözə görünməyən bir ləkə kimi gəldi, sonra cüzam xəstəliyi təki beynimizə, qanımıza işlədi, damcı-damcı şüurumuza çiləndi, gözlərimizi yumdu və axırda bizi ayırdı. Hərəmiz qaranlıq bir kanala düşüb üzdük, tanımadığımız yerlərə gedib çıxdıq, başımıza nələr gələcəyini bilmədik... Mən ayılan kimi sənə baxdım, gördüm ki, yatırsan. Ancaq çox uzaqlarda idin, itirmişdim səni... Məndən xəbərin yox idi... Elə yerə getmişdin ki, əlim çatmırdı... – Ravik onun əlindən öpdü. – Bu necə məhəbbətdir ki, hər gecə yuxu səni mənim əlimdən alır?!

– Mən ki sənə sığınıb yatmışdım. Yanındaca uzanmışdım... Qollarının arasındaca....

– Yox, sən yad bir ölkədə idin. Yanımda uzanmışdın, ancaq özün uzaqlarda idin. Bəlkə də, gedib Siriusa çıxmışdın. Sən gündüzlər çıxıb gedəndə belə olmur. Çünki hara getdiyini bilirəm. Bəs gecələr?

– Yanında idim...

– Yox, yanımda deyildin. Yanımda uzanmışdın, ancaq özün yox idin. Adam şüurun nəzarəti itən bir aləmdən necə qayıtdığını bilmir. Özünün xəbəri olmur, başqalaşıb qayıdır.

– Sən də eləsən.

– Hə, mən də eləyəm. Qədəhi bura ver, mən boş-boş danışıram, sən isə içirsən.

Joan qədəhi ona uzatdı:

– Yaxşı ki ayıldın, Ravik. Sağ olsun ay! O olmasaydı, indi yatırdıq, bir-birimizdən xəbərimiz yox idi. Ya da hansımızınsa qəlbinə ayrılıq toxumu düşərdi. Axı özümüzdən xəbərimiz yox idi! O da yavaş-yavaş, gizli-gizli cücərər, boy atar, böyüyər və günlərin birində...

Ravik astadan güldü:

– Belə şeylər sənin beyninə batmaz... Düz demirəm, Joan?

– Elədir. Bəs sənin?

– Mənim də. Ancaq, görünür, nəsə var, ona görə də fikir vermirik. İnsanın böyüklüyü də elə bundadır.



Joan yenə güldü:

– Mən belə şeylərdən qorxmuram. Ona görə ki, bədənimizə arxayınam. Onlar nə istədiklərini hər cür zirzibillə dolmuş başımızdan yaxşı bilir.

Ravik qədəhi başına çəkdi:

– Yaxşı, o da düzdür, – dedi.

– Bundan sonra yatmasaq nə olar?

Ravik şüşəni ayın gümüşü rəngli işığına tutdu. Kalvados yarıdan keçmişdi.

– Az qalıb, – dedi. – Hər halda, çalışarıq.

Şüşəni çarpayının yanındakı balaca stolun üstünə qoydu, sonra geri dönüb Joanın üzünə baxdı:

– Sən bütün kişilərin arzuladığı bir qadınsan, Joan! Hələ bir az da artıqsan, heç bir təsəvvürə sığmazsan.

– Yaxşı, Ravik, onda gəl hər gecə oyanaq. Sən gecələr başqa adam olursan.

– Yaxşı oluram?

– Başqa cür olursan. Gecələr adamı lap mat qoyursan, elə bil, sehirli bir aləmdən qayıdırsan...

– Gündüzlər belə olmuram?

– Həmişə yox... hərdən olursan.

– Yaxşı etirafdır. Ancaq iki-üç həftə əvvəl bunu deyə bilməzdin.

– Yox. Onda səni yaxşı tanımırdım.

Ravik diqqətlə onun üzünə baxdı. Bu sözlərin səmimiliyinə söz ola bilməzdi. Joanın doğru sözü idi və elə bilirdi ki, belə də olmalıdır. Nə Ravikin ürəyinə toxunmaq, nə də onu heyrətləndirmək üçün demişdi...

– Elə isə işlərimiz yaxşı olacaq.

– Nəyə görə?

– Bir-iki həftədən sonra məni daha yaxşı tanıyacaqsan, lap adiləşəcəyəm.

– Mənim kimi olacaqsan. – Joan güldü.

– Sənin kimi yox.

– Niyə?

– Bunun cavabını əlli min il tarixi olan bioloji inkişaf verə bilər. Məhəbbət qadını ağıllandırır, kişini isə dayazlaşdırır.

– Sevirsən məni?

– Hə...

– Bunu yaman az deyirsən! – Joan gərnəşdi.

«Qarnı tox pişikdir, – Ravik ürəyindən keçirdi. – Qarnı doyub, bilir ki, ovu əlindən qaça bilməz...» Və dedi:

– Hərdən, az qalır səni pəncərədən atam.

– Bəs niyə atmırsan?

Ravik onun üzünə baxdı.

– Doğrudan, atarsan? – Joan dikəldi.

Ravik cavab vermədi. Joan təzədən uzandı:

– Kimisə öldür ki, onu çox sevirsən? Çox sevdiyin üçün kimisə öldürərlər?

Ravik şüşəni götürdü:

– Pərvərdigara, – dedi, – günahım nə idi? Bu sözləri eşitmək üçünmü ayıldım?

– Düz demirəm?

– Düz deyirsən. Bu, qondarma şairlər və qadınlar üçündür, onların başına belə şey gəlməz.

– Belə iş görənlərin də...

– Qoy sən deyən olsun.

– Belə iş görərdin?

– Boş-boş danışma, Joan, elə şeylər mənim əlimdən gəlməz. Onsuz da çox adamın qanına bais olmuşam. Həm həvəskar, həm də peşəkar kimi. Yəni əsgər kimi də öldürmüşəm, həkim kimi də... Öldürənin qazancı nifrət, biganəlik və bir də həyata ehtiram olur. Ondan heç kəs

xeyir görməyib. Peşəkar qatil də sevəndən sonra adam öldürə bilməz. Ölüm onda gülünc və mənasız olardı. Ancaq o heç vaxt gülünc, mənasız olmaz. Bunlar hamısı kişi işidir, qadınlara aid deyil... – Ravik sözünə bir az ara verdi. – Gör nələr danışırıq? – deyib ona tərəf əyildi: – Bəs sən mənim nəhayətsiz səadətim, həm dumanlı, həm də parlaq həyat eşqim deyilsənmi?! Gəl səni öpüm! Bu vəfasız həyat heç vaxt belə şirin olmayıb...

# XVI



İşıq! Yenə işıq. Elə bil, gömgöy dənizin mavi səma ilə birləşdiyi üfüqdən dümağ köpük yağırdı, həm şişir, həm səngiyirdi, gah parıldayır, gah da bərq vururdu. Bu cür parıldamaq, bu cür sayrışmaq, göylərin qoynunda bu cür süzmək ulu bir səadət deyildimi? «Joana bax, elə bil, başına nur ələnib, tamam işığa qərq olub... – Ravik ürəyindən keçirdi. – Gör çiyinlərinə necə çilənir! Elə bil, süddür, günəşin saçaqlarından toxunmuş ipəkdir. Belə işıqda heç kəs çılpaq qalmaz, onun özü elə paltardır. Dəniz özünü qayalara çırpan kimi, o da adamın dərisinə dəyib geri qayıdır. Köpüklənmiş işıq, göz yaşı kimi dupduru sel, dümağ dumandan biçilmiş nazik paltar...»

– Neçə gündür buradayıq, Ravik?

– Səkkiz.

– Ancaq, elə bil, səkkiz ildir... Düz demirəm?

– Yox. Elə bil, səkkiz saatdır. Daha doğrusu, üç min il səkkiz saatdır. Düz üç min il bundan əvvəl indi durduğun yerdə Etrüsk qəbiləsindən olan gənc bir qız da sənin kimi dayanıbmış. Onda da Afrika tərəfdən belə külək əsir, onu qoynuna alıb dənizin o tayına aparır...

Joan gəlib qayanın üstündə onunla yanaşı oturdu:

– Parisə nə vaxt qayıdırıq?

– Ona bu axşam kazinoda baxarıq.

– Bir şey udmuşuq?

– Bir az...

– Sən elə oynayırsan ki, elə bil, ömrün boyu qumar oynamısan. Nə bilim, bəlkə də, oynamısan... Axı, sənin keçmişin barədə mən heç nə bilmirəm. Bəs qumarxa-

nanın xidmətçisi səninlə niyə hərbi zavod sahibi kimi görüşdü?

– Məni hansı hərbi zavod sahibi iləsə dəyişik salmışdı.

– Düz demirsən, sən də onu tanıdın.

– Nəzakət xatirinə özümü elə göstərdim ki, guya, tanıyıram.

– Axırıncı dəfə burada nə vaxt olmusan?

– Bilmirəm. Deyəsən, lap çoxdan olmuşam. Nə yaman qaralmısan, Joan?! Ancaq yaxşı yaraşır sənə!

– Onda, gərək, həmişəlik burada qalam.

– Qalmazsan?

– Həmişəlik yox. Ancaq bu cür yaşamağı həmişə istərdim. – O, saçlarını geri atdı. – Yəqin, ürəyində mənə yüngül deyirsən... Elə deyil?

– Yox.

Joan gülümsəyib üzünü ona tutdu:

– Özüm də bilirəm ki, yüngüllükdür, əzizim. Ancaq bizim bu lənətə gəlmiş həyatımızda yüngüllüklər azmı olub? Müharibə, aclıq, dağıntı, inqilab, inflyasiya nə qədər istəsən olub. Ancaq heç vaxt bir tikə inam, rahatlıq, sakitlik, boş vaxtımız olmayıb. Hələ deyirsən, bir müharibə də gəlir. Valideynlərimiz bizdən rahat yaşayıblar, Ravik.

– Elədir.

– Həyat adama bircə dəfə verilir. O da çox qısa olur, tez qurtarır. – O, əllərini isti qayanın üstünə qoydu. – Mən balaca adamam, Ravik, belə tarixi keşməkeşlərdən baş çıxara bilmərəm. İstəyirəm, xoşbəxt olum. İstəmirəm, hər şey belə çətin, belə ağır olsun. Özgə diləyim yoxdur.

– Bunu kim istəmir, Joan?

– Sən də?

– Əlbəttə.

«Maviliyə bax! – Ravik ürəyindən keçirdi. – Göylərin dənizə baş vurduğu yer o qədər mavidir ki, az qalır, rəngini itirsin. Oradan süzülən mavi işıq seli dənizi, ənginlikləri yara-yara gəlib, onun gözlərinə dolur. Bu gözlər Parisdə heç vaxt belə mavileşməzdi...»

– Kaş istədiyimiz kimi yaşaya biləydik!

– İndi elə yaşamırıq?

– Hə, indi elə yaşayırıq. Ancaq çox çəkməyəcək. Bir azdan yenə Parisə qayıdacağıq. Yenə həmin yeknəsəq

gecə klubu, yenə həmin çirkli mehmanxana, yenə o həyat...

– Çox şişirdirsən, Joan. Sənin qaldığın mehmanxana çirkli deyil, mənimki dəhşətdir. Bircə mən qaldığım otağı çıxmaq şərtilə.

Joan dikəlib əllərini qayaya söykədi. Külək onun saçlarını yellətdi.

– Morozov deyir, sən çox yaxşı həkimsən. Heyif ki, işləməyə ixtiyarın yoxdur, yoxsa cərrah kimi yaxşı qazanardın. Professor Düran...

– Sən onu haradan tanıyırsan?

– Hərdən «Şəhrizad»a gəlir. Baş xidmətçi Rene deyir ki, on mindən az olanda Düran yaxın qoymur.

– Rene düz deyir.

– Bir gündə iki, üç təşrih eləyir. Qəşəng evi, «Pakkard» maşını var.



«Qəribədir... – Ravik ürəyindən keçirdi. – Üzünün ifadəsi heç dəyişmir. Minillik tarixi olan adi qadın boşboğazlığını təkrar eləyəndə də adam ona məftun olur. Şirin xülyalardan danışanda gözləri mavi dənizə oxşayan Amazonkaya bənzəyir. Ancaq düz eləmirmi? Belə gözəlliyin sahibi haqsız olarmı? Bu dünyada hər şey onların deyilmi?!

Ravik bir motorlu qayığın köpüklü dalğaları yara-yara onlara tərəf gəldiyini gördü, ancaq yerindən tərpənmədi. Onun niyə gəldiyini bilirdi...

– Dostların gəlir, – dedi.

– Niyə? – Joan qayığı çoxdan görmüşdü. – Niyə mənim dostlarım olur? Öz dostlarım desən, daha düz olar. Məndən qabaq səni tanıyırdılar.

– Hə, səndən on dəqiqə qabaq tanış olmuşam.

– Hər halda, əvvəldir.

Ravik güldü:

– Yaxşı, sən deyən olsun, Joan.

– Yaxşısı budur, heç getməyim. Getmirəm, vəssalam.

– Əlbəttə, getməyəcəksən...

Ravik qayanın üstünə sərələnib gözlərini yumdu. Günəş həmin dəqiqə öz isti, qızılı saçaqlı örtüyünü onun üstünə çəkdi. Nə olacağını bilirdi...

– Biz, sən deyən qədər də nəzakətli deyilik, – Joan bir azdan dilləndi.

– Vurulanlar heç vaxt nəzakətli olmurlar.

– Onlar bizə görə gəliblər, istəyirlər, biz də gedək. Əgər getmiriksə, heç olmasa, aşağı düş, onlara de.

– Yaxşı, – Ravik gözlərini bir az açdı. – Gəl çox uzatmayaq. Sən özün aşağı düş, de ki, mənim işim var, onlarla get. Dünən də elə eləmədik?

– «İş» bir az qəribə çıxır. Kim burada işləyir? Sən niyə getmirsən? İkisinin də səndən yaman xoşu gəlib. Dünən də getmədiyinə çox heyifsiləndilər.

– Allah eşqinə, qurtar, Joan, – Ravik gözlərini tamam açdı. – Niyə bütün qadınlar bu cür boş-boş danışmağı xoşlayırlar?! Sən dənizdə gəzmək istəyirsən, mənimsə qayığım yoxdur. Ömür çox qısadır, bizim də burada bir-iki günümüz qalıb. Axı mən nə üçün özümü alicənab kimi göstərib, səni hər dəfə onsuz da görəcəyin işlərə məcbur etməliyəm? Ona görə ki, sən vicdan əzabı çəkməyəsən?

– Məni məcbur etmək lazım deyil, özüm eləyərəm. – Joan diqqətlə onu süzdü. Onun gözləri yenə də alışıb-yanırdı. Bircə anlığa dodaqları qaçdı və bu, elə ani oldu ki, Ravik az qaldı yanıldığına inansın. Ancaq bilirdi ki, yanılmır...

Dəniz şappıltı ilə özünü körpüdəki qayalara çırpırdı. Şahə qalxanda külək ətrafa səpələnən damcıları yuxarı sovururdu. Bu soyuq damcılar hərdən Ravikin bədənini qıdıqlayırdı.

– Sənin dalğandır, Ravik, Parisdə söylədiyin nağıldakı dalğa.

– Yadında qalıb?

– Hə... Ancaq sən qaya deyilsən... Beton, sal daşsan...

Joan körpüyə endi. Bütün səma onun gözəl çiyinləri üstündə idi və deyərdin, onu da özü ilə aparır. Ona heç nə demək olmazdı. «İndicə qayıqda oturacaq, külək saçlarını yelləyəcək. Mənsə axmağam, getmədim. – Ravik ürəyindən keçirdi. – Ancaq mən bu rolu hələ oynaya bilmərəm. Çünki o köhnəlib vaxtı keçmiş təkəbbür, donkixotluq canımdan çıxmayıb. Bunlardan başqa bizə nə qalıb ki? Aylı gecələrdə çiçəkləyən əncir ağacı, Seneka ilə Sokratın fəlsəfəsi, Şumanın veolonçel üçün konserti və bir də gələcəkdəki itkini əvvəlcədən duymaq bacarığı...»

Aşağıdan Joanın səsi gəldi. Sonra motorun boğuq uğultusu eşidildi. Ravik dikəldi. Joan indi qayığın arxa tərəfində oturub... Dənizin harasındasa bir ada, həmin adada da

monastır var. Hərdən orada xoruzlar banlayırdı... Gör günəş necə qızarıb! Uşaqlığın zərif çəmənliyinin həsrət çiçəkləri – lalələr al qana boyanmışdı... Dənizin ulu laylası... Vinetanın haray dolu zəngləri... Heç nə haqda düşünməmək, doğrudan da, sehirli bir səadət imiş... Ravik o dəqiqə yuxuya getdi.

Günortadan sonra maşını qarajdan çıxardı. «Talbo» markalı bu maşını onun üçün Morozov Parisdə kirayəyə götürmüşdü, Joanla ona minib gəlmişdilər.

Ravik onu sahillə sürürdü. Səma aydın və işıqlı idi. Nitsanı keçib Monte Karloya, oradan da Vill-Franşa gəldi. Ravikin bu qədim, balaca limandan çox xoşu gəlirdi və sahildəki bistroların birinin qabağında xeyli oturdu. Sonra Monte-Karlodakı kazinonun qarşısındakı parkda gəzişdi, dənizin yanındakı təpənin başında salınmış qəbiristanlığa getdi. Bu, özünü öldürənlərin qəbiristanlığı idi və Ravik hansı qəbirisə axtarıb tapdı, xeyli onun yanında dayandı, sonra gülümsədi. Qədim Nitsanın dar küçələrindən, təzə şəhərin heykəllərlə bəzənmiş meydanlarından keçdi. Sonra Kanna qayıtdı, onu da keçib, sahillə şütüməyə başladı. Buradan o yana qıpqırmızı qayalar, adlarını İncildən götürmüş balıqçı kəndləri uzanıb gedirdi...



Joan yadından çıxmışdı. Hətta özünü də unutmuşdu. Bütün ixtiyarını bu parlaq gündüzə, hələ dağ yollarının qarı əriməmiş, sahili çiçəkləndirən günəşə, dənizə, torpağa – təbiətin bu üç sehirli qüvvəsinə vermişdi. Fransanın səmasını yağış, Avropanınkını isə tufan bürümüşdü. Ancaq, deyəsən, bu balaca sahilin heç nədən xəbəri yox idi və o, təbiətin yadından çıxmışdı. Həyatın nəbzi burada başqa cür vururdu. Bir az o tərəfdə aləm dərd-ələmdən, təhlükədən xəbər verən boz dumana bürünmüş, burada isə günəş çıxmışdı. Bu günəş gülümsəyirdi və ölməkdə olan dünyanın bütün köpükləri onun işığına yığışmışdı...

Elə bil, pərvanə sönməkdə olan şamın başına dolanır, ancaq bir xeyri olmurdu. Dünya gecə barlarında çalınan yüngül, bayağı musiqi kimi öz mənasını itirmişdi və artıq oktyabr ayında üşüməyə başlayan qanadı xallı kəpənəyə oxşayırdı: tufan qopub onu su basınca gah rəqs eləyir, gah qüssələnir, gah sevib-sevilir, gah xəyanət edir və hərdən də təlxək oyunu çıxarırdı....

Ravik maşını San-Rafaelə döndərdi. Balaca, dördkünc liman yelkənli və motorlu qayıqlarla dolu idi. Sahildəki

kafelərin qabağında rəngbərəng çətirlər açılmışdı. Stolların ətrafında gündən qaralmış qadınlar əyləşmişdi... Bunların hamısı ona yaxşı tanışdı; həyatın al-əlvan, zərif şəkli idi, adamı məst eləyir, dərd-qəmini unutdurur, yüngülləşdirirdi. Aradan lap çox keçsə də, bu həyat ona yaxşı tanış idi. Onu nə vaxtsa yaşamışdı və elə bilmişdi ki, kəpənək kimi çiçəkdən-çiçəyə qonmaq hər şeyə dəyər...

Döngədən güllə kimi çıxan maşın qürub edən günəşin qızılı saçaqlarına büründü...

Mehmanxanaya çatanda ona dedilər ki, Joan zəng eləyib, şam yeməyinə gəlməyəcək. Ravik «Eden Rok» restoranına düşdü. Adam az idi. Camaatın çoxu indi Jüan-le-Pendə, ya da Kannda olardı. O, artırmadakı çətirin altında oturdu. Qayanın üstündə tikilmiş bu artırma gəminin göyərtəsinə oxşayırdı. Aşağıdan qayaya çırpılan dalğaların şappıltısı eşidilirdi. Sanki, üfüqdən baş alıb gələn qızılı rəngə boyanmış mavi dalğalar buraya yaxınlaşdıqca rəngini dəyişir, al-qırmızıya, narıncıya çalır, asimandan dənizə süzülən qaranlığı da qoynuna alıb, özünü sahildəki qayalara çırpır, çilik-çilik olurdu...

Ravik burada xeyli oturdu. Axırda bu tənhalıqdan bezikib üşəndi. Fikri durulmuşdu və ayıq başla gələcək haqda düşünürdü. Bilirdi ki, tufanın qabağını, müvəqqəti də olsa, almaq mümkündür. Nə çox idi dünyada bicliklər, atişləməz yollar! Çoxundan da xəbəri var idi və onu da bilirdi ki, bunlardan heç vaxt istifadə etməyəcək, çünki onun işi artıq bunlarlıq deyildi. Biclik xırda-xuruş fırıldaqlar üçün idi. Burada isə bircə yol qalırdı: dözmək! Özünü aldatmadan, geri çəkilmədən, mərdi-mərdanə dözmək!

Ravik şəffaf Provans şərabı ilə dolu qədəhi işığa tutdu. Sərin gecə, dənizin xışıltısına qərq olmuş artırma, qürub edən günəşin qızılı təbəssümü, kəhkəşanda sayrışmağa başlayan ulduzlar... «Mənimsə beynimdə projektor yanır. – Ravik ürəyindən keçirdi. – Onun bumbuz işığı gələcəyin lal-dinməz aylarına qədər gedib çıxır, onların üstü ilə sürüşüb o tərəflərə keçir. Həmin aylar yenə qaranlıqda qalır və mən də hələ ağrı hiss eləmirəm, ancaq bilirəm ki, belə qalmayacaq, nə vaxtsa ağrıyacaq, onda həyatım indi əlimdə tutduğum qədəh kimi dupduru olacaq. Yad ölkənin şəffaf şərabı ilə dolu bir qədəh!

Bu şərabı orada çox saxlamaq da olmaz, çünki qıcqırıb sirkəyə dönəcək... Tünd sirkə olacaq!»

Yox, o, çox qalmaz. Bu cür özgə həyatda çox şey təzədən başlanırdı və onun da bunlara ömrü çatmazdı. Onda da heç nə ilə hesablaşmayıb, günəş həsrətli bitkilər kimi, özünü bu sınaqların, yüngül, eyş-işrətlə dolu bir həyatın qoynuna atdı. Həyat ondan gələcək istədi, Raviksə ona indi yaşadığı miskin ömrü verdi... Əslində, elə bir şey olmamışdı. Heç lazım da deyildi. Onsuz da hər şey əvvəlcədən həll olunur. Ancaq adam bundan xəbər tutmur, hansı dramatik anı isə gözləyir, bilmir ki, bu an çoxdan, neçə ay bundan qabaq səssiz-səmirsiz gəlib də, gedib də...

Ravik qədəhi başına çəkdi. Şərab əvvəlki dadı vermədi. Onu bir də doldurub içdi. Bu, başqa məsələ... Yenə həminki şərab idi...

Ravik durub Kanndakı kazinoya getdi.



Çox sakit oynayır, az pul qoyurdu. Bayaqkı üşərgələnmə hələ də canından çıxmamışdı və bilirdi ki, hələlik udacaq. İki nömrəyə oynayırdı və bir saata üç min frank udmuşdu. Pulu ikiqat artırıb, bir nömrə də götürdü.

İçəri girən Joan gözündən yayınmadı. Paltarını dəyişmişdi. Deyəsən, Ravik çıxan kimi mehmanxanaya qayıdıbmış. Motorlu qayıqda onu gəzməyə aparan kişilər də yanında idi. Ravik bilirdi ki, belçikalının adı Leklerk, amerikalınınkı isə Nacentdir. Joan iri güllü ağ paltar geymişdi və çox gözəl görünürdü. Ravik onu bura gələndə almışdı. Joan paltarı görən kimi, sevincindən qışqırıb özünü onun üstünə atmışdı. «Sənin belə paltarlardan nə yaxşı başın çıxır? – deyə soruşmuşdu. – Mənim paltarımdan min dəfə yaxşıdır». Bir az baxandan sonra: «Həm də bahadır!» – demişdi. Ravik də o saat ürəyindən keçirmişdi: «Çiynimə qonmuş quşdur, qanadlarını yığmır, bilir ki, bir azdan uçacaq...»

Qumarxananın xidmətçisi yumru şarları onun qabağına çəkdi. Nömrəsi düşmüşdü. Ravik udduğu pulu götürdü, mayaya isə toxunmadı. Joan bakkara oynayanlara tərəf getdi. Ravik Joanın onu görüb-görmədiyini kəsdirə bilmədi. Qıraqda dayanıb oyuna tamaşa edənlər onun dalınca baxdılar. Elə yeriyirdi ki, deyərdin, üzü küləyədir və hara, nə üçün getdiyini də bilmir. Birdən çevrilib Nacentə nəsə dedi və Ravik həmin anda əlindəki şarları tullayıb yaşıl meşinli stolu

çevirmək, qaça-qaça gedib Joanı qucağına almaq, adamların arasından keçib qapılardan çıxmaq, onu Antibdəki uzaq adalardan birinə aparmaq, hamıdan gizlədib özü üçün saxlamaq istədi...

Təzədən pul qoydu. Yeddinci nömrə çıxdı. «Adalar heç kimi gizlətmir... Ürək çırpınmağa başlayanda, onu saxlamaq olmur... Əlində olan şey tez itib gedir, haradasa qoyub getdiyin isə heç vaxt itməz!» Şar yavaş-yavaş diyirləndi. On iki çıxdı. Ravik yenə pul qoydu.

Başını qaldıranda, nəzərləri toqquşdu. Joan stolun yanında durub ona baxırdı. Ravik başını tərpədib gülümsədi. Joan gözlərini ondan çəkmirdi. Ravik ruletkaya baxıb, çiyinlərini çəkdi. Bu dəfə on doqquz çıxdı. Yenə pul qoyub, Joana tərəf baxdı. Ancaq o yox idi. Durub getməkdən özünü güclə saxladı. Stolun üstündəki qutudan siqaret götürdü. Xidmətçi kibrit çəkdi. Dazbaş, yekəqarın bir kişi idi və frak geymişdi.

– Zəmanə dəyişib... – Bunu xidmətçi dedi.

– Elədir... – Ravik onu heç tanımırdı.

– İyirmi doqquzda başqa aləm idi...

– Elədir...

Ravik bilmədi, doğrudan da, 1929-cu ildə Kannda olub, ya xidmətçi çənə yoldaşı axtarır. Baxmamış bildi ki, dörd çıxdı, diqqətini cəmləməyə çalışdı. Ancaq cibinə azacıq pul qoyub Antibdə bir-iki gün də artıq qalmağın xatirinə qumar oynamaq ona mənasız göründü. Nəyə lazım idi? Buralarda nə işi vardı? Lənətə gəlsin, zəiflik eləmişdi, vəssalam! Bu zəiflik yavaş-yavaş, səssiz-səmirsiz, için-için onu yemişdi, xəbər tutanda görmüşdü ki, iş işdən keçib. Morozov düz deyirmiş, qadından canını qurtarmaq istəyirsənsə, ona iki-üç günlüyəcə görmədiyi bir həyat bəxş elə. Həmin həyatı yenə istəyəcək, görəndə ki, səndən bir şey çıxmır, gedib başqasını tapacaq. Eləsini ki, bu cür həyatı ona həmişəlik bəxş eləyə bilsin. «Deyəcəyəm ki, daha bəsdir! – Ravik ürəyindən keçirdi. – Nə qədər ki gec deyil, Parisə çatan kimi ayrılacağam...»

* * *

İstədi gedib başqa stolda oynasın. Ancaq gördü ki, həvəsi yoxdur. Hər şeyi bu qədər xırdalamaq lazım deyil.

Yan-yörəsinə boylandı. Joan görünmürdü. Bara gedib bir qədəh konyak içdi. Sonra dayanacağa getdi, maşını götürüb, bir az gəzmək istədi. Yenicə motoru işə salmışdı ki, Joan qaça-qaça gəldi. Tez maşından düşdü.

– Evə mənsiz gedirdin? – Joan soruşdu.

– İstədim bir saat fırlanıb qayıdam.

– Yalan deyirsən! Qayıtmaq istəmirdin! İstəyirdin, məni o səfehlərin yanında qoyub gedəsən...

– Joan, indicə deyəcəksən ki, səni o səfehlərin yanına da mən göndərmişdim.

– Sən eləmədin? Acıqla getdim. Niyə mən qayıdanda mehmanxanada yox idin?

– Axı sən o səfehlərlə yeməyə getmişdin...

Joan bir anlığa tutuldu, sonra:

– Ona görə getdim ki, yox idin, – dedi. – Qayıdanda sən yox idin...



– Yaxşı, Joan, daha bu haqda danışmayaq. Gəzmək xoşuna gəldi?

– Yox!

Sakit gecənin mavi qaranlığında dayanmış Joan həyəcanlı idi, tövşüyürdü. Ay, elə bil, onun saçlarına qonmuşdu. Sifəti avazımış, qırmızı boyanmış dodaqları qara rəngə çalırdı. 1939-cu ilin fevral ayı idi və Parisə qayıdan kimi o çəkişmələr, o təhqirlər, o yalanlar yavaş-yavaş, gizli-gizli öz işini görməyə başlayacaqdı. Bütün bunlar başlamamış, Ravik ondan ayrılmaq istəyirdi. Ancaq hələlik burada idilər və getməyə lap az qalmışdı...

– Hara gedirsən? – Joan soruşdu.

– Heç yerə... Elə-belə fırlanmaq istəyirdim...

– Mən də gedirəm.

– Bəs sənin o səfehlərin nə düşünər?

– Heç nə. Onlarla xudahafizləşdim, dedim ki, sən gözləyirsən.

– Pis deyil... Sən ağıllı uşaqsan... Qoy onda maşının örtüyünü çəkim, sonra otur.

– Lazım deyil, əynimdə isti palto var. Yavaş-yavaş sürərsən. Heç bir kafenin yanında dayanmarıq. İçəri adamla dolu olur. Hamısının da istəyi xoşbəxt olmaqdır, ancaq heç biri bunu büruzə vermək istəmir.

Ravikin yanında oturub, onu öpdü.

– Riveraya birinci dəfədir gəlirəm, Ravik. Qınama məni! Birinci dəfədir ki, sözün əsl mənasında, səninlə bir yerdəyəm, daha gecələr üşümürəm... Xoşbəxtəm...

Ravik maşını gur yerdən çıxardı, «Karlton» mehmanxanasının yanından keçib, Jüan-Le-Pen tərəfə üz qoydu.

– Birinci dəfədir... – Joan təkrar elədi. – Birinci dəfədir, Ravik! Hamısını başa düşürəm... Deyəcəksən ki, bunun məsələyə nə dəxli?! – Ravikə sığınıb, başını onun çiyninə söykədi. – Bu günü unut getsin, Ravik! Hamısını unut! Bilirsən nə yaxşı maşın sürürsən? İndicə lap səkdirirdin! O səfehlər də belə deyirlər. Dünən necə sürdüyünü görüblər... Səninlə adamı vahimə basır... Sənin keçmişin yoxdur... heç bilinmir... O səfehlərin bioqrafiyasını səninkindən yüz dəfə yaxşı bilirəm. Görəsən, buralarda kalvados olur? Bu qədər həyəcandan sonra ürəyim gecə kalvados istəyəcək. Səninlə ömür sürmək nə çətin imiş!

Maşın alçaqdan uçan quş kimi küçələrdə süzürdü.

– Bərk sürürəm?

– Yox, bir az da bərk sür. Qoy külək məni yarpaq kimi yelləndirsin! Gecənin uğultusuna bax! Məhəbbət məni xəlbirə döndərib, baxsam, özüm öz daxilimi görərəm! Səni o qədər sevirəm ki, ürəyim yerindən oynayır, gah da dağa dönür... Torpaq, çəmənlik həsrətindədir... Gah sərilmək, gah da uçmaq istəyir! Lap ağlını itirib, nə istədiyini özü də bilmir! İndi də maşın sürməyinə vurulub! Gəl bir də Parisə dönməyək! Bir zərgər dükanı, ya da bank yaraq, bu maşını da oğurlayaq, baş götürüb qaçaq...

Ravik maşını balaca bir barın qabağında saxladı. Motorun uğultusu kəsildi. Lap uzaqlarda dəniz aram-aram, dərindən nəfəs alırdı...

Ravik:

– Gəl, – dedi, – burada kalvados olur. Bu gün nə qədər içmisən?

– Ço...o...x! Özü də sənin acığına! O səfehlərin çərənləməsinə dözə bilmirdim.

– Bəs onda niyə qayıdıb yanıma gəlmədin?

– Qayıtmadım?!

– Hə, elə bildin, çıxıb gedirəm, ona görə qayıtdın. Bir şey yemisən?

– Lap az... Acmışam. Sən uddun?

– Hə.

– Onda gəl bahalı restorana gedək, kürü yeyək, şampan içək, ata-analarımız müharibələrdən qabaq necə qayğısız, sentimental, qorxusuz-ürküsüz, zövqsüz-filansız oturublarsa, eləcə də oturaq! Gözüyaşlı oleandr kolları... Bir yanda skripka, bir yanda dəniz... Bir yanda da ay... məhəbbət... Az qalır, inanam ki, nə vaxtsa bizim də ev-eşiyimiz, uşağımız, bağımız, sənin isə pasportun, gələcəyin olacaq. Mən də şöhrətimi sənə qurban verəcəyəm, lap qocalanda da bir-birimizi belə sevəcək, qısqanacağıq, sənin gözlərində həmişə gözəl qalacağam, bir gecə evə gəlməyəndə, gözümə yuxu getməyəcək!

Ravik gördü ki, onun yanaqlarından göz yaşı sel kimi axır. Joan birdən gülümsədi:

– Bunların hamısı, əzizim, zövqsüzlüyün nişanəsidir.



– Getdik! «Şato Madrid» restoranına gedirik. Dağların qoynundadır... Rus qaraçıları da var... Orada nə istəsən taparsan!

* * *

Dan sökülürdü. Bomboz dəniz sakit idi. Buludsuz səmanın rəngi seçilmirdi. Təkcə üfüqdə sudan gümüşü rəngli bir zeh keçirdi. Elə sakitlikdi ki, bir-birinin nəfəsini də eşidirdilər... Restorandan axırıncı çıxdılar. Onlardan qabaq qaraçılar köhnə bir «Ford»a, xidmətçilər isə «Sitroen»lərə oturub, dağların arası ilə qıvrılan asfalt yola çıxdılar. Aşpaz isə 1929-cu ilin istehsalı olan altıyerlik «Delae»yə minib ərzaq dalınca getdi.

– Gün günorta olub! – Ravik dilləndi. – Ancaq dünyanın harasındasa hələ də gecədir. Bir vaxt elə təyyarələr çıxacaq ki, onunla zamanı haqlayacaqsan. Onların sürəti Yerin fırlanma sürəti qədər olacaq. Əgər sən məni gecə saat dörddə sevməyə başlamısansa, elə eləyərik, saat həmişə dörddə qalar. Bu lap asan olacaq: biz Yer kürəsi ilə birlikdə fırlanacağıq, zaman isə dayanacaq

Joan ona sığındı:

– Daha dözə bilmirəm... Of, necə gözəldir! Adamın ürəyini yerindən oynadır! Gül, nə qədər istəyirsən, mənə gül...

– Doğrudan, gözəldir, Joan!

Joan ona baxdı:

– Hanı indi o dediyin təyyarə? Onu düzəldib hazırlayana kimi biz qocalıb gedəcəyik, əzizim. Mən də qocalmaq istəmirəm... Sən necə?

– Mən istəyirəm.

– Doğrudan?

– Hə... Mən imkan daxilində çox qocalmaq istəyirəm.

– Niyə?

– Baxım, görüm bu dünyanın axırı nə olur!

– Mən isə qocalmaq istəmirəm.

– Heç qocalmayacaqsan da. Həyat sənin yanaqlarını sığallayıb keçəcək, onlar daha da gözəlləşəcək... Vəssalam... Adam o vaxt qocalır ki, artıq heç nə hiss eləmir.

– Yox, adam sevməyəndə qocalır.

Ravik cavab vermədi. «Ayrılmaq! – deyə yenə ürəyindən keçirdi. – Səndən ayrılmaq?! Bir az bundan əvvəl Kannda ağlıma nələr gəlmişdi?!»

Joan onun qolları arasında tərpəndi:

– Bayram qurtardı, Ravik. İndi evə gedib gecəni bir yerdə qalarıq. Ah, nə gözəldir! Həyatı həyat kimi yaşamaq nə şirin imiş! Adam yalnız səadətdən doyanda sakitləşir, çünki özgə heç nə istəmir. Heççə nəyə orada yer qalmır. Gəl öz müvəqqəti evimizə, ağardılmış bağ evinə oxşayan mehmanxanaya gedək!

Ravik ayağını qazdan çəksə də, maşın dağların arası ilə qıvrılan yollarda şütüyürdü. Hava yavaş-yavaş işıqlaşırdı. Torpaqdan şeh ətri qalxırdı. Ravik işıqları söndürdü. Korniş[1] yoluna çıxanda gül, tərəvəzlə dolu furqonlara rast gəldilər. Hamısı Nitsaya gedirdi. Sonra süvari dəstəsini ötdülər. Atların tappıltısı motorun uğultusunda aydınca eşidilirdi. Asfaltın kənarına səpilmiş çınqıl xırçıldayırdı. Çiyinlərinə plaş salmış atlıların sifəti qapqara görünürdü.

Ravik Joana baxdı. O da təbəssümlə cavab verdi. Rəngi qaçmış, üz-gözündən də yorğunluq yağırdı və daha da zərifləşmişdi. Joan öz zərif yorğunluğu ilə dünənin acı xatirələrini udmuş bu sehirli, alaqaranlıq, sakit səhərçağı həmişəkindən də gözəl görünürdü. Ancaq həmin səhərin özündə də bir qeyri-müəyyənlik var idi. Yer üzünü asta-asta nura qərq eləsə də, vaxtı-vədəsi hələ bilinmirdi və elə bil, nə istədiyindən özünün də xəbəri yox idi!

---

[1] *Korniş* – Aralıq dənizinin sahili ilə Nitsadan Genuyaya gedən yol.

Qurşağa oxşayan Antib buxtası sürətlə onlara tərəf gəlirdi. Hər yan getdikcə işıqlaşırdı. Yavaş-yavaş mavilәşən gündüz dənizdəki dörd hərbi gəminin bomboz kölgəsini əridirdi. Onların biri kreyser, qalan üçü isə eskadra mina gəmisi idi. Deyəsən, gecə gəlmişdilər. Getdikcə ağaran səmanın fonunda lal dənizin qoynuna sinmiş bu gəmilər adamı qorxudurdu. Ravik Joana baxdı. Joan başını onun çiyninə söykəyib yatmışdı...

## XVII



Ravik xəstəxanaya yollandı. Riveradan qayıtdığı bir həftə idi. Qəflətən dayandı. Gözləri önündə açılan mənzərə uşaq oyununa bənzəyirdi. Tikilməkdə olan təzə bina günəş işığında elə bərq vururdu ki, deyərdin, daşdan deyil, uşaq oyuncağından quraşdırılıb. Taxta körpülər aydın səmanın fonunda tük kimi nazik görünürdü və qəflətən onlardan hansısa sındı, tirlərdən biri ayrılıb göydə yellənməyə başladı. Onun üstündə insan fiquruna oxşar bir şey var idi və sanki, üstünə milçək qonmuş kibrit çöpü üzüaşağı yerə gəlirdi... Tir hələ göydə idi, yol gəlirdi, yerə çatmırdı ki, çatmırdı... Fiqur tirdən aralanmışdı, boş havada əl-qol atıb dayaq axtaran balaca gəlinciyə bənzəyirdi. Sanki, yer üzündəki həyat bircə anlığa dondu, dünyaya ölüm sükutu çiləndi, heç nə tərpənmədi... Külək də, nəfəs də, hənirti də dayanmışdı. Yer üzündə tərpənən təkcə o fiqurla tir idi, onlar da elə hey gəlir, gəlirdi...

Birdən hamı hərəkətə gəldi, səs-küy eşidildi. Ravik indi hiss etdi ki, bayaqdan nəfəsini içinə çəkib gözləyirmiş. Yüyürməyə başladı.

Yıxılan adam asfalta sərilmişdi. Birçə saniyə əvvəl küçə, demək olar ki, bomboş idi, indisə adam əlindən tərpənmək olmurdu. Hər yandan axışıb gəlirdilər, elə bil, həyəcan siqnalı verilmişdi. Ravik camaatı yara-yara irəlilədi. Gördü ki, iki fəhlə yaralını qaldırmaq istəyir.

– Tərpətməyin! Qoyun eləcə qalsın! – deyə qışqırdı.

Hamı ona yol verdi. Fəhlələr yaralını yerdən üzmüşdülər.

– Asta-asta yerə qoyun! Ehtiyatla! Yavaş-yavaş...

– Nəçisiniz? – fəhlələrdən biri soruşdu. – Həkimsiniz?

– Bəli.

– Yaxşı oldu!

Fəhlələr yaralını asfaltın üstünə uzatdılar. Ravik dizi üstə çöküb, onun ürəyini dinlədi. Ehtiyatla, qan-tərə batmış köynəyinin yaxasını açdı, əli ilə bədənini yoxladı. Sonra ayağa durdu.

– Nə olub? – bayaqkı fəhlə soruşdu. – Huşunu itirib?

Ravik başını buladı:

– Ölüb! – dedi.

– Ölüb?!

– Bəli.

– Ola bilməz! – Kişi heç nə başa düşmədi. – Axı biz indicə bir yerdə nahar elədik?!

– Həkim gəldi? – Arxada dayanıb irəli boylanan adamlardan hansısa soruşdu.

– Nə olub? – Ravik gözləri ilə onu axtardı.

– Həkim gəlib? Tez olun!

– Nə olub?

– Qadın...

– Hansı qadın?

– Tir ona dəyib! Qan aparır...

Ravik camaatı yara-yara o tərəfə getdi. Bəstəboy, göy rəngli iri önlük taxmış bir qadın əhəng quyusunun yanındakı qum yığınının üstünə yıxılmışdı. Qırışmış sifəti avazımış, bir nöqtəyə zillənib qalmış gözləri isə kömür kimi qaralmışdı. Boğazından sızan qan kiçik fəvvarəyə bənzəyirdi, bir az yuxarı qalxan kimi əyilir, yana tökülürdü. Başının altında artıq qapqara bir gölməçə yaranmışdı.

Ravik arteriya damarını sıxdı. Həmişə yanında gəzdirdiyi əl çantasından sarğı çıxardı, çantanı yanındakılara uzatdı:

– Bunu tutun, – dedi.

Dörd əl birdən uzandı, ancaq çanta yerə düşüb açıldı. Ravik tez qayçını, tamponu götürdü, sarğını açdı.

Qadın dinmirdi. Gözləri də bayaqkı kimi bircə nöqtəyə zillənib qalmışdı. Bütün əzələləri gərilmiş, bədəni taxtaya dönmüşdü.

– Heç nə yoxdur, anacan, – Ravik dilləndi. – Heç nə yoxdur.

Tir onun çiyni ilə boğazını tutmuşdu. Çiyni bərk əzilmişdi. Körpücük sümüyü sınmışdı. Xınçım-xıncım olmuş oynaq sümüyü daha bitişməzdi.

– Sol qoludur, – Ravik əlini yavaş-yavaş onun boynuna tərəf apardı. Yalnız dərisi sıyrılmışdı, qalan hər şey salamat idi. Ayağı burxulmuşdu. Ravik topuğu, sümüyü yoxladı. Boz rəngli corabları çox yerdən gözənmişdi, ancaq deşiyi yox idi. Dizdən bir az aşağı qara lentlə bağlanmışdı. Ravik bunları o qədər görmüşdü ki! Qara qaytanlı yamaqlı ayaqqabılar, ilgək vurulmuş bağlar... Çoxunun da burnu deşik olurdu...

– Təcili yardıma zəng vuran olub? – deyə soruşdu. Cavab verən olmadı.

– Deyəsən, polis zəng elədi. – Kimsə bir azdan dilləndi. Ravik dikəldi.

– Polis? Haradadır?

– Orada... O birinin yanında.

Ravik ayağa qalxdı:

– Demək, hər şey qaydasındadır...



Aralanmaq istədi. Elə bu vaxt polis camaatı yara-yara gəldi. Əlində qeyd dəftərçəsi tutmuş cavan bir oğlan idi və əsəbi halda ucu yeyilmiş balaca karandaşı tüpürcəkləyirdi.

– Hər şey qaydasındadır.

– Bircə dəqiqə, –deyə o, nəsə yazmağa başladı. – Bircə dəqiqə, müsyö!

– Tələsirəm, ağır xəstəm var.

– Bircə dəqiqə, müsyö! Həkimsiniz?

– Damarı tapıb bağladım, vəssalam. İndi təcili yardımı gözləmək lazımdır.

– Bircə dəqiqə, müsyö! Qoyun adınızı qeyd eləyim, sizin şahidliyiniz vacibdir. Qadın ölə bilər...

– Ölməz.

– Kim bilir?! Hələ dəyən ziyanın ödənməsi də var.

– Təcili yardıma zəng vurmusunuz?

– Yoldaşım vurası idi. Mane olmayın, daha da uzanacaq.

– Qadın çan verir, siz isə getmək istəyirsiniz, – fəhlələrdən hansısa giley-güzar elədi.

– Mən olmasaydım, ölərdi.

– Lap yaxşı! – Fəhlə çox məntiqsiz danışırdı. – Demək, qalmalısınız.

Yanında fotoaparat çıqqıldadı. Şlyapalı bir kişi özünü irəli təpmişdi və təbəssümlə deyirdi:

– Bəlkə, yenə əyiləsiniz? Guya, yaranı sarıyırsınız?!

– Xeyr!

– Mən qəzetdənəm, şəklinizi verəcəyik. Adınız, ünvanınız da göstəriləcək. Yazacağıq ki, qadını xilas edibsiniz. Yaxşı reklamdır. Xahiş edirəm, bu tərəfə keçin, bura yaxşı işıq düşür.

– Cəhənnəm olun! Qadına indi təcili yardım lazımdır. Sarğını çox saxlamaq olmaz, gərək dəyişilsin. Siz təcili yardımın dərdinə qalın.

– Hər şeyin öz vaxtı var, müsyö, – polis araya girdi. – Əvvəlcə protokol tərtib etmək lazımdır.

– Ölən kişi adını sənə dedi? – yeniyetmə bir oğlan soruşdu.

– Tfu! Sən mumla!

– Bu tərəfdən də çəkin! – Kim isə fotoqrafa göstəriş verdi.

– Niyə?

– Çəpərlənmiş səkidən keçdiyi də görünsün. Bu küçədən getmək olmazdı. Ora baxın, – o, üstünə «Diqqət! Giriş qadağandır!» sözləri yazılmış çəp lövhəni göstərdi. – Elə çəkin ki, o da görünsün, bizə lazım olacaq. Burada ziyandan, təqaüddən söhbət ola bilməz!

– Mən fotomüxbirəm, – şlyapalı kişi onun dediklərinə fikir vermədi, – özüm nəyi maraqlı hesab edirəmsə, onu da çəkirəm.

– Bu ki maraqlıdır! Maraqlı nəyə deyirsiniz? Lövhənin fonunda qadının şəkli...

– Lövhə heç... Hadisənin özü maraqlıdır.

– Onda dediklərimi protokola salın! – Kişi polisin çiyinlərinə toxundu.

Polis nəfəri acıqlandı:

– Siz kimsiniz?

– Tikinti firmasının nümayəndəsi.

– Çox gözəl, siz də getməyin! – Polis qadına tərəf əyildi: – Adınız nədir? Onu da bilmirsiniz?

Qadının dodaqları tərpəndi, kirpikləri qalxıb-endi.

«Kəpənəyə, yorulub heydən düşmüş kəpənəyə oxşayır! – Ravik ürəyindən keçirdi və o dəqiqə də özünü söydü, – ay axmaq, sən öz dərdinə qal, gör birtəhər aradan çıxa bilirsənmi...»

– Lənət şeytana! – Polis deyindi. – Bəlkə də, ağlını itirib. İşə düşmədik?! Növbəm də saat üçdə qurtarır.

– Marsel... – Nəhayət, qadından səs çıxdı.

– Nə? Sakit! Nə? – Polis yenə ona tərəf əyildi.

Qadın susurdu...

– Nə? – Polis cavab gözləyirdi. – Bir də deyin! Onu bir də deyin!

Qadın susurdu...

– Boş-boş çərənləməyi qurtaracaqsınız, ya yox! – Polis tikinti firmasının nümayəndəsinə acıqlandı. – Gəl burada protokol yaz, görüm necə yazırsan...

Həmin anda fotoaparat çıqqıldadı.

– Çox sağ olun – Fotoqraf sevindi. – Təbii oldu.

– Bizim lövhə də düşdü? – Polisə fikir verməyən nümayəndə soruşdu. – Əgər düşübsə, altısını indidən mən özüm sifariş verirəm.

– Yox! Mən sosialistəm. Sığortanı versəniz, daha yaxşı olar! Milyonçuların ovçu tulasına bax!



Həyəcan siqnalı eşidildi. Təcili yardım gəlirdi. «Yaxşı fürsətdir», – Ravik ürəyindən keçirdi və ehtiyatla bir addım atdı. Ancaq polis nəfəri bərk-bərk ondan yapışdı:

– Mənimlə polis məntəqəsinə gedəcəksiniz, müsyö. Özüm də çox təəssüf edirəm, ancaq hər şey yazılmalıdır.

İkinci polis də buradaydı. İş işdən keçmişdi... «Çox güman ki, heç nə olmaz», – deyə düşünən Ravik onlarla getdi.

* * *

Polis məntəqəsindəki növbətçi dinməz-söyləməz təzədən protokol tərtib eləyən polislə jandarma qulaq asdı, birdən Ravikə tərəf döndü:

– Fransız deyilsiniz, – dedi. Bu, sual deyildi, o dəqiqə başa düşmüşdü.

– Xeyr! – Ravik cavab verdi.

– Haralısınız?

– Çexəm.

– Bəs burada necə həkimlik edirsiniz? Axı əcnəbi kimi icazəsiz həkim işləməyə ixtiyarınız yoxdur?!

Ravik gülümsədi:

– İşləmirəm. Turistəm, gəzməyə gəlmişəm.

– Pasportunuz yanınızdadır?

– Bu, nəyə lazımdır, Fernan? – O biri məmur sözə qarışdı. – Müsyö qadına kömək eləyib, ünvanı da bizdə var, bəs eləyər. Onsuz da şahid çoxdur.

– Mənim üçün maraqlıdır. Pasportdan, vəsiqədən yanınızda bir şey var?

– Haradan olsun? Kim pasportunu həmişə yanında gəzdirir ki?

– Bəs haradadır?

– Səfirlikdə. Keçən həftə vaxtını uzatmağa vermişəm.

Ravik bilirdi ki, mehmanxanadadır desə, polis göndərib, yalanının üstünü açarlar. Bundan başqa da, ehtiyat üçün özgə mehmanxananın adını vermişdi. Səfirliklə canını qurtara bilərdi.

– Hansı səfirlikdə? – Fernan soruşdu.

– Çexoslovakiya səfirliyində. Özgə harada ola bilər?

– Bu dəqiqə zəng vurub soruşarıq. – Fernan diqqətlə onun üzünə baxdı.

– Buyurun.

Fernan bircə anlığa fikrə getdi, sonra:

– Yaxşı, – dedi, – soruşarıq.

O durub qonşu otağa keçdi. Raviki gətirən məmur pərt olmuşdu:

– Bağışlayın, müsyö, – dedi, – o qədər də vacib deyildi. Bu dəqiqə aydınlaşacaq. Kömək üçün çox sağ olun.

«Bəli, aydınlaşacaq!» – deyə ürəyindən keçirən Ravik ehtiyatla yan-yörəsinə baxdı, siqaret çıxardı. Jandarm qapının ağzında dayanmışdı. Təsadüf idi, hələ heç kim ondan ciddi şübhələnmirdi. İtələyib qaça bilərdi, ancaq tikinti firmasının nümayəndəsi ilə iki fəhlə də burada idi. Fikrindən vaz keçdi. Adətən, qapının ağzında da polislər dayanırdı, aradan çıxmaq müşkül məsələ idi.

Fernan qayıtdı:

– Səfirlikdə sizin adınıza pasport yoxdur.

– Ola bilər.

– Necə yəni ola bilər?

– Tək bir məmur hamının pasportunu tanıya bilməz. Bu işlə orada çox adam məşğul olur.

– O, dəqiq bilir.

Ravik dinmədi.

– Siz çex deyilsiniz.

– Bura bax, Fernan... – o biri məmur sözə başladı.

– Ləhcəniz çex ləhcəsinə oxşamır.

– Bəs nədir?

– Almansınız, – Fernan özündən razı halda dilləndi. – Üstəlik, pasportunuz da yoxdur.

– Xeyr! – Ravik etiraz etdi. – Mərakeşliyəm, nə cür fransız pasportu desəniz, varımdır.

– Qurtarın, müsyö! – Fernan qışqırdı. – Bu, nə cəsarətdir?! Siz Fransanın müstəmləkə imperiyasını təhqir edirsiniz.

– Zibili çıxdı! – fəhlələrdən hansısa söz atdı. Tikinti firmasının nümayəndəsi özünü elə yığışdırdı, deyərdin əlini indicə gicgahına aparacaq.

– Burax, Fernan...

– Yalan danışırsınız. Siz çex deyilsiniz. Pasportunuz var, ya yox? Cavab verin!



«İnsanın daxilində həmişə bir siçovul gizlənir, onu heç vaxt boğub öldürmək olmur... – Ravik ürəyindən keçirdi. – Bu səfehlərin nə borcuna, mənim pasportum var, ya yox?! Hə, siçovul iyi alıb, başını deşikdən çıxarır....»

– Cavab verin! – Fernan böyürdü.

«Bir parça kağızın hünərinə bax! O olsaydı, bu alçaqlar ikiqat olub üzr istəyərdilər. Fərqi yoxdur, istəyir bir ailəlik adam qır, ya da bank yar, əlini gicgahına aparıb, «xoş getdin!» deyərdilər. Pasport olmasa, Həzrət İsanın özünü də qazamata göndərərlər. Yazığı oradaca öldürərlər, otuz üç yaşına çatmağa da qoymazlar!»

– Kim olduğunuz müəyyənləşənə kimi getmək yoxdur. Mən bu dəqiqə taparam...

– Çox gözəl...

Fernan iri addımlarla çıxdı. İkinci məmur kağızları qurdaladı.

– Müsyö, – dedi, – mən çox təəssüf edirəm! O, belə şeylərin dəlisidir.

– Eybi yoxdur.

– Biz qurtardıq? – fəhlələrdən biri soruşdu.

– Bəli.

– Yaxşı, onda salamat qalın! – Sonra Ravikə sarı döndü. – Dünya inqilabından sonra sizə pasport lazım olmayacaq.

– Onu da başa düşmək lazımdır, müsyö, – məmur davam etdi. – Fernanın atası dünya müharibəsində ölüb, ona görə də almanlardan zəhləsi gedir, bu oyunları çıxarır. – O, peşman-peşman Ravikə baxdı. Deyəsən, işin nə yerdə olduğunu başa düşmüşdü. – Çox təəssüf edirəm, müsyö! Tək olsaydım...

– Eybi yoxdur, – Ravik yan-yörəsinə boylandı. – Fernan qayıdana kimi zəng vurmaq olar?

– Buyurun! Odur, stolun üstündədir. Ancaq bir az tez eləyin.

Ravik Morozova zəng vurdu, almanca başına gələni ona danışdı, dedi ki, Veberə də çatdırsın.

– Joana da deyim?

Ravik tərəddüd etdi:

– Yox, hələ lazım deyil. Eləcə de ki, bir-iki günlüyə saxlayıblar, hər şey qaydasında olacaq. Onda gözün olsun.

– Oldu! – Deyəsən, bu son sözlər Morozovu açmadı, – Oldu, Voyçek!

Ravik dəstəyi asanda, Fernan içəri girdi.

– İndicə hansı dildə danışırdınız? – O irişdi. – Çex dilində?

– Esperanto[1] dilində... – Ravik cavab verdi.

* * *

Veber səhəri gün gəldi.

– Nə pis yerdir, – deyib yan-yörəsinə baxdı.

– Fransanın həbsxanaları hələ də əsl həbsxana kimi qalır... – Ravik cavab verdi. – İçində yalançı humanizm kif atmayıb, XVIII əsrin qədim həbsxana qoxusunu saxlayıb.

– Adamın lap ürəyi bulanır... Gör gəlib hara düşmüsünüz... Ürəyim bulandı...

– Heç kəsə yaxşılıq etmək lazım deyilmiş, o dəqiqə cəzasını çəkirsən. Gərək, əl vurmayaydım, qadını qan aparaydı. Çox pis zəmanədə yaşayırıq, Veber!

– Pisdən də pisdir. Burada xəlvəti qaldığınızı dostlarınız eşələyib tapdılar?

– Bəs necə...

– Harada qaldığınızı da?

---

[1] *Esperanto* – beynəlxalq süni dil

– Elə şey olar?! Mən heç o vəfalı «İnternasional»ı sataram? Qeydiyyatsız adam saxladığına görə sahibkarı da cərimələyərdilər. Sürək eləyib qaçqınları tutardılar. Bu dəfə «Lankaster» mehmanxanasını nişan verdim. Qabaqlar bir dəfə orada qalmışam, balaca, xudmani mehmanxanadır.

– Təzə adınız Voyçekdir?

– Vladimir Voyçek, – Ravik irişdi, – dördüncüdür...

– Tfu! – Veber söydü. – Neyləyək, Ravik?

– Heç nə... Əsas məsələ odur ki, əvvəllər də burada olduğumu dostlarım bilməsin, yoxsa altı ay basacaqlar.

– Lənət şeytana...

– Bəli, dünya gündən-günə düzəlir. Nitşe deyirdi ki, həmişə qorxu içində yaşa. Mühacirlər, istər-istəməz, belə yaşayırlar.

– Əgər bilməsələr?

– Zənnimcə, iki həftə... Sonra da ölkədən çıxaracaqlar.



– Bəs sonra?

– Sonra da qayıdacağam.

– Ələ keçənə kimi qalacaqsınız...

– Elədir. Ancaq bu dəfə çox qaldım. Düz iki il! Az qala, bir insan ömrüdür.

– Nəsə fikirləşmək lazımdır, yoxsa belə olmayacaq...

– Olar, olar! Neyləmək istəyirsiniz?

Veber fikrə getdi.

– Düran! – Birdən yadına düşdü. – Onun tanış-bilişi çoxdur, sözü də keçir... – Nədənsə dayandı, – aman Allah, Heç yadıma düşmür, onların böyüyünü ki özünüz təşrih elədiniz! Öd kisəsini kəsdiyinizi deyirəm!

– Mən yox, Düran özü...

Veber güldü:

– Qorxmayın, bunu bildiyimi qoca qurda deməRəm. Ancaq o, nəsə eləyə bilər. Eləməsə, canını alaram.

– Bir şey çıxmayacaq! O gün iki min frankını qopartmışam, elə şeyi unudan tiplərdən deyil.

– Eləyər! – Veber arxayın idi. – Onu satmağınızdan qorxaçaq. O qədər təşrih eləmisiniz! Bundan əlavə, ona lazımsınız.

– İstəsə, başqasını tapar. Bino... O da olmasa, nə çoxdur gəlmə cərrah...

Veber bığlarını tumarladı:

– Belə qızıl əlləri tapa bilməz. Hər halda, çalışarıq, bəlkə, bir şey çıxdı. Elə bu gün başlayaram. Sizə bir şey lazımdır? Yeməkləri necədir?

– İyrənc! Özüm pul verib gətirtdirirəm.

– Bəs siqaret?

– Varımdır. Mənə indi lazım olan şey hamamdır, ona da gücünüz çatmaz...

* * *

Ravik həbsxanada iki həftə qaldı. Ondan başqa kamerada bir suçəkən usta, bir yazıçı və bir nəfər də polyak qalırdı. Usta təmiz, yazıçınınsa bir tərəfi yəhudi idi. Usta Berlindən ötrü darıxır, yazıçınınsa ondan zəhləsi gedirdi. Polyakınsa heç nə vecinə deyildi. Siqaret işinə Ravik baxırdı. Yazıçı isə yəhudi lətifələri danışırdı. Ayaqyolundan içəri dolan iyi kəsməkdə ustanın əvəzi yoxdu.

İki həftədən sonra Raviki apardılar. Onu əvvəlcə inspektorun yanına gətirdilər, o da Ravikdən pulu olub-olmadığını soruşdu. Ravik:

– Var, – dedi.

– Çox yaxşı, onda taksi ilə gedin.

Məmurlardan biri də onunla gedirdi. Bayırda günəş çıxmışdı. Təmiz havaya çıxmaq nə gözəl imiş! Qapının ağzında qoca bir kişi hava şarı satırdı. Ravik nə qədər baş sındırsa da, onun bu şarları nə üçün həbsxananın yanında satdığını kəsdirə bilmədi. Məmur taksiyə əl elədi.

– Hara gedirik? – Ravik soruşdu.

– Şefin yanına.

Ravik onun hansı şef oluğunu bilmirdi. Nə fərqi var, kim olur olsun, təki alman ölüm düşərgəsinin şefi olmasın. Bu dünyada bircə dənə əsl dəhşət var idi: amansız terrorun çənginə düşəsən, heç nə də eləyə bilməyəsən! Qalanı boş şeydir!

Maşında radio var idi və Ravik onu işə saldı. Əvvəlcə bazarda meyvə-tərəvəzin qiyməti haqda məlumat, sonra isə siyasi xəbərlər verildi. Məmur əsnədi. Ravik düyməni bir az da burdu. Estrada musiqisi başladı. Məmurun qırışı açıldı.

– Şarl Trenedir, – dedi, – «Menillmanton»! Söz ola bilməz!

Taksi dayandı, Ravik pulunu verdi. Onu gözləmə otağına gətirdilər. Yer üzündəki bütün gözləmə otaqları kimi, onu da tər, toz, ümid qoxusu doldurmuşdu.

Yarım saat burada oturub, kiminsə qoyub getdiyi köhnə «Le vi Parizan»[1] qəzetinə baxdı. İki həftə kitab üzü görmədiyi üçün onu klassik ədəbiyyat nümunəsi kimi oxudu. Sonra onu şefin yanına apardılar. Bu bəstəboy, kök kişini o dəqiqə tanımadı. Adətən, təşrih elədiyi adamların üzünə baxmırdı. Onu maraqlandıran yalnız xəstə olan yer idi, yardığının kim olmasının mənası yoxdu. Ancaq bu sifətə təfərinclə, diqqətlə baxmışdı. Leval idi, sağalmış, qarnı yenə piy bağlamışdı. Öd kisəsi yox idi. Ravik Veberlə, Düran haqda olan söhbətini tamam unutmuşdu və şəxsən Levalın yanına gətiriləcəyini heç gözləmirdi.

Leval onu təpədən-dırnağacan süzdü, bir xeyli dinmədi, sonra mızıldandı:



– Əlbəttə, sizin adınız Voyçek deyil...

– Xeyr.

– Bəs nədir?

– Noyman. – Ravik Veberlə belə sözləşmiş, o da Dürana çatdırmışdı. Voyçek nəsə bir az qeyri-adi səslənirdi.

– Almansınız, eləmi?

– Bəli.

– Qaçmısınız?

– Bəli.

– Adam heç ağlına sığışdıra bilmir... Eləsinə oxşamırsınız.

– Qaçqınların hamısı yəhudi deyil.

– Niyə yalan danışmısınız? Adınızı düz deməmisiniz?

Ravik çiyinlərini çəkdi:

– Bəs neyləyəydim? Biz bacardığımız qədər az yalan danışırıq. Ancaq məcburuq, kefdən eləmirik.

Leval barıt kimi partladı:

– Elə bilirsiniz sizinlə çənə döymək bizə çox xoşdur?

«Onda bomboz olmuşdu... – Ravik həmin günü xatırladı. – Ağarmış başı boz rəngə çalırdı. Gözlərinin altı da torbalanıb göyərmişdi, dodaqları aralanmışdı... Onda danışmırdı... Onda iylənmiş bir cəmdək idi, öd kisəsi də irinləmişdi...»

– Harda qalırsınız? Ünvan da düz çıxmadı.

– Hara gəldi... Bir gün burada, bir gün orada...

---

[1] "Paris xəbərləri" *(fran.)*

– Nə vaxt gəlmisiniz?

– Üç həftədir. Üç həftə bundan qabaq İsveçrədən keçmişəm. Oradan qovub sərhədi keçirtdilər. Özünüz bilirsiniz, sənədimiz olmadığı üçün bizi heç yana qoymurlar, xəlvəti qalırıq, çoxumuz özümüzü öldürməyə qorxuruq. Sizi narahat etməyimizin səbəbi budur...

– Onda Almaniyada qalın, – Leval donquldandı. – Orada vəziyyət o qədər də pis deyil, çoxunu da şişirdirlər.

«Başqa cür kəssəydim, indi burada oturub belə mənasız danışmazdın, – Ravik ürəyindən keçirdi. – Çox yox, lap azca... Onda soxulcanlar sənədsiz-filansız sənin sərhədlərini keçərdilər... Ya da yöndəmsiz qutuda bir ovuc kül idin...»

– Harada qalırsınız? – Leval bir də soruşdu.

«Başqalarını da tutmaq üçün bunu bilmək sənə mütləq lazımdır», – deyə ürəyindən keçirən Ravik cavab verdi:

– Bahalı mehmanxanalarda. Hərəsində də iki-üç gün, başqa-başqa adlarla qalmışam.

– Düz demirsiniz!

Ravik yavaş-yavaş cana doyurdu:

– Əgər düzünü bilirsinizsə, məndən niyə soruşursunuz?

Leval hirslə əlini stola çırpdı:

– Özünüzü arsız yerinə qoymayın! – O dəqiqə də diqqətlə əlinin içinə baxdı.

– Əliniz qayçıya dəydi!

Leval əlini cibinə qoydu:

– Sizə elə gəlmirmi ki, həddən artıq həyasızlıq eləyirsiniz?! – Leval qarşısındakının tamamilə onun ixtiyarında olduğunu düşünərək, özünü tez ələ almağı bacaran adam kimi, sakit danışmağa başladı.

– Həyasızlıq?! – Ravik təəccüblə ona baxdı. – Buna həyasızlıq deyirsiniz? Bura nə məktəbdir, nə də peşman olmuş canilər üçün pansion! Mənim başqa yolum yoxdur... Deyirsiniz, özümü indi cəzasını yüngülləşdirmək üçün yalvaran cani kimi aparım? Ona görə ki, nasist deyiləm, sənədim də yoxdur? Yalnız yaşamağın xatirinə çox təhqirlər, həbsxanalar, polis görsək də, biz heç vaxt özümüzü cani hesab etmirik. Niyə başa düşmürsünüz ki, bizi yaşadan da elə budur? Bu, həyasızlıq deyil, Allah bilir, nəsə başqa şeydir...

Leval bu sözləri cavabsız buraxdı.

– Burada həkimlik eləyirdiniz? – deyə soruşdu.

– Xeyr.

«Tikiş indi bilinməz, – Ravik ürəyindən keçirdi. – Onda çox yaxşı tikdim. Elə piyin içində işləmək hünər istəyirdi. Sonradan o qədər yeyib-içib ki, yenə piy bağlayıb...»

– Ən dəhşətlisi odur ki, sizlər imtahansız-filansız, nəzarətsiz hər işə başınızı soxursunuz. Allah bilir, nə vaxtdan başlamısınız! Elə düşünməyin ki, üç həftə dediniz, mən də inandım. Kim bilir, indiyəcən nə qədər fırıldaq işlərdə əliniz olub.

«Düz deyirsən, əlim sənin piy basmış qarnında olub, şişmiş qara ciyərinə, irinləmiş öd kisənə toxunub... – Ravik ürəyindən keçirdi. – Ancaq mənim əlim olmasaydı, o dostun səni rüsvayçı bir insanpərvərliklə öldürərdi, sonra da məşhur cərrah kimi ad çıxarardı, təşrihin qiymətini qaldırardı...»

– Çox böyük təhlükədir, – Leval təkrar etdi. – İşləməyə ixtiyarınız yoxdur, ona görə də nə iş təklif eləsələr, görürsünüz. Bu barədə bizim adlı-sanlı mütəxəssislərdən biri ilə söhbət eləmişəm. O da bu fikirdədir. Əgər, doğrudan da, təbabət elminə az-çox bələdliyiniz varsa, onu tanıyarsınız...



«Yox! – Ravik ürəyindən keçirdi. – Elə şey yoxdur, Düranın adını çəkmək olmaz. Həyat belə zarafatları xoşlamır...»

– Professor Düran! – Leval qürurla sözünə davam etdi. – O, mənə başa saldı... Sanitarlar, yenicə qurtarmış tələbələr, massajçılar, assistentlər, hamısı özünü burada Almaniyanın tanınmış həkimləri kimi qələmə verir. Hansının dalınca düşəsən? Qadağan olunmuş təşrihlər eləyir, uşaq saldırır, mamaçalarla əlbir olub çoxunu şikəst eləyir... Allah bilir, daha nə oyunlardan çıxırlar. Hamısının izinə düşmək də olmur...

«Düranın işidir, – Ravik ürəyindən keçirdi. – İki min frankın əvəzini çıxıb. Bəs bundan sonra kim onun üçün təşrih eləyəcək? Əlbəttə Bino! Barışmış olarlar...»

Birdən hiss elədi ki, Levala qulaq asmır. Yalnız Veberin adı qulağına dəyəndə, diqqətini topladı.

– Doktor Veber adlı bir nəfər sizi xahiş edirdi. Tanıyırsınız?

– Elə-belə...

– Gəlmişdi... – Leval bir anlığa gözlərini döyə-döyə hansı nöqtəyəsə baxdı, sonra bərkdən asqırdı, cib dəsmalını çıxarıb ağız-burnunu təmiz-təmiz sildi, dəsmala baxdı, onu qatlayıb cibinə qoydu. – Sizə heç cür kömək edə bilmərəm. Biz, gərək, ciddi olaq. Ölkədən çıxarılacaqsınız...

– Bilirəm.
– Fransada əvvəllər də olmusunuz?
– Xeyr.
– Bir də qayıtsanız, altı ay... Bunu da bilirsiniz?
– Bəli.
– Çalışaram ki, sizi tez aparsınlar. Başqa cür kömək eləyə bilmərəm. Pulunuz var?
– Bəli.
– Lap yaxşı... Onda sizi müşayiət edən polisin də, özünüzün də sərhədə kimi yol pulunu verərsiniz. – O, başını yırğaladı. – Gedə bilərsiniz...

* * *

– Qayıtmaq üçün dəqiq vaxt qoyulub? – deyə Ravik onu geri aparan məmurdan soruşdu.
– Xeyr, işin gedişindən asılıdır. Niyə soruşursunuz?
– Bir qədəh «Aperativ» içmək istədim.
Məmur şübhəli nəzərlərlə onu süzdü.
– Qaçmaram, – deyə Ravik cibindən bir iyirmi franklıq çıxarıb əlində oynatdı.
– Eybi yox, bir-iki dəqiqə ilə heç nə olmaz.
Taksini qarşılarına çıxan ilk bistronun qabağında saxlatdılar. Səkiyə bir-iki stol qoyulmuşdu. Gün çıxsa da, hava soyuq idi.
– Nə içəcəksiniz? – Ravik soruşdu.
– «Amer Piksi». Belə havada özgə şey içməzlər.
– Mənə isə iri qədəhdə konyak gətirin. Su lazım deyil.
Ravik sakitcə oturub sinədolusu nəfəs alırdı. Təmiz hava nəyə desən, dəyərdi. Səkidəki ağacların budaqlarındakı tumurcuqlar qəhvəyi rəngə çalırdı. Təzə çörək ətri, yenicə çəkilmiş şərab qoxusu hər yanı bürümüşdü. Xidmətçi qədəhləri gətirdi.
– Buralarda telefon var? – Ravik ondan soruşdu.
– İçəridədir. Sağ tərəfdə, tualetin yanında...
– Bilirsiniz... – Məmur dilləndi.
Ravik iyirmi franklığı onun ovcuna basdı:
– Guya, başa düşmürsünüz, kimə zəng vururam?! Qaçmaram. İstəyirsiniz, siz də gəlin.
Məmur çox tərəddüd eləmədi:

– Yaxşı, – deyib ayağa durdu. – Neyləyəsən, insan yenə öz insanlığında qalır...

* * *

– Joan...

– Ravik! Aman allah! Haradasan? Buraxdılar? De görüm haradasan?

– Bistroda...

– Zarafatı burax! Doğrudan, de görüm haradasan?

– Bistroda...

– Harada? Həbsdən buraxdılar? Bu neçə günü haradaydın? Bu Morozovun...

– O, sənə həqiqəti deyib.

– Nə qədər elədim, hara apardıqlarını demədi. Yoxsa o dəqiqə...



– Elə ona görə deməyib, Joan. Belə yaxşıdır.

– Bəs niyə bistrodan zəng vurursan? Nə üçün gəlmirsən?

– Gələ bilmərəm, vaxtım çox azdır. Məmuru birtəhər yola gətirib, iki dəqiqəliyə saxlamışam. Bir-iki günə məni İsveçrəyə geçirəcəklər, Joan! Ancaq... – Ravik oğrun-oğrun telefon köşkünün şüşəsindən məmura tərəf baxdı. O, piştaxtaya söykənib satıcı ilə söhbət edirdi. – Ancaq qayıdacağam... – Azacıq ara verdi. – Joan... gəlmə! Sənin yanından bura yarım saatlıq yoldur... Mənimsə bir-iki dəqiqə vaxtım qalıb.

– Məmuru dilə tut, pul ver! Özüm pul gətirərəm...

– Mümkün deyil, Joan! Gəlməsən, yaxşıdır... Belə yaxşıdır...

Ravik telefonda onun necə nəfəs aldığını eşidirdi.

– Mənimlə görüşmək istəmirsən? – Joan soruşdu.

Nə desin? «Gərək, heç zəng eləməyəydim! – deyə ürəyindən keçirdi. – Göz-gözə dayanmasan, kimə nəyi başa sala bilərsən?!»

– İndi səni görməkdən başqa, heç nə istəmirəm, Joan!

– Onda gəl! Qoy o kişi də gəlsin!

– Olmaz, Joan! Vaxtım qurtarır, tez ol, de görüm, indi neyləyirsən?

– Nə? Nəyi neyləyirəm?

– Nə geyinmisən? Haradasan?

– Otağımda... Uzanmışam... Dünən gec qayıtmışam... Bu dəqiqə geyinib gəlirəm.

Dünən gec qayıdıb! Düz deyir! Nə olsun, sən həbsdəsən, hər şey öz qaydası ilə gedir.. Hər şey yaddan çıxır... İndi uzanıb, yavaş-yavaş onu yuxu tutur, saçları yastığa səpələnib... Corablarını, paltarını necə gəldi, stolun üstünə tullayıb... Bütün bunları, sanki, isti telefon köşkünün nəfəsi ilə tərlətdiyi şüşəsindən görürdü. Məmurun başı lap uzaqda görünürdü, elə bil, akvariumda üzürdü... Özünü ələ aldı:

– Vaxtım bitdi, Joan!

Dəstəkdən onun getdikcə zəifləyən səsini eşidirdi.

– Ola bilməz! Necə yəni gedirsən? Elə şey olar? Hara gedirsən? Niyə gedirsən?

«Durub. Yastıq yerə düşüb... Əlindəki telefon dəstəyi həm silahıdır, həm də düşməni... Ah, onun çiyinləri... Bilmir, neyləsin... Gözləri dörd olub...»

– Mən ki müharibəyə getmirəm, Joan! Sadəcə olaraq, İsveçrəyə səyahətə gedirəm, tez qayıdacağam. Elə bil ki, tacirəm, Millətlər İttifaqına pulemyot satmağa gedirəm...

– Qayıdanda hər şey əvvəlki kimi olacaq? Mən qorxudan ölərəm...

– Axırıncı sözləri bir də təkrar elə...

– Düz sözümdür... – Onun səsində yanğı var idi. – Mənə hamıdan sonra deyirsən. Veber sənin yanına gedə bilər, mən yox! Morozova zəng vurursan, mənə yox! İndi də çıxıb gedirsən...

– Aman Allah! Gəl söz güləşdirməyək, Joan!

– Söz güləşdirmirəm, həqiqəti deyirəm.

– Yaxşı, vaxtdır... Salamat qal, Joan!

– Ravik! – O, telefonda qışqırdı. – Ravik!

– Hə...

– Qayıt! Qayıt! Sənsiz mənim nə günüm?!

– Qayıdacağam...

– Mütləq! Mütləq!

– Hələlik, Joan! Tezliklə qayıdacağam...

Ravik dar, bürkülü köşkdə bir az da dayandı. Gördü ki, dəstək hələ də əlindədir. Qapını açdı. Məmur geri döndü, mehribanlıqla gülümsədi.

– Qurtardınız?

– Bəli.

Qayıdıb bayaqkı yerdə oturdular. Ravik qədəhini axıra kimi içdi. «Gərək, zəng vurmayaydım, – deyə fikirləşdi. – Zəngdən

qabaq rahat idim, indisə dəli kimi olmuşam. Gərək, əvvəlcədən biləydim ki, bu telefon söhbəti bizə heç nə verməyəcək. Nə mənə, nə də Joana...» İstədi durub təzədən zəng vursun, əslində, bayaq demək istədiyinin hamısını desin. Desin ki, niyə onunla görüşmək istəmədi. Desin ki, həbsxananın çirkpasını ona göstərmək istəmədi... Ancaq yenə də bir yol tapacaq, hər şey əvvəlki kimi olacaq...

– Zənnimcə, durmaq vaxtıdır, – məmur dilləndi.

– Elədir...

Ravik xidmətçiyə əl elədi:

– İki balaca şüşə konyak, nə qədər qəzetiniz varsa, hamısını, bir də on qutu «Kaporal» siqareti gətirin. Hesabımızı da deyin. – Məmura tərəf baxdı: – Olar?

– İnsan insanlığında qalır! – Məmur cavab verdi.

Xidmətçi onun dediklərini gətirdi.



– Tıxaclarını çıxarın, – deyə Ravik qəzetləri bölüb, səliqə ilə hər cibinə bir-ikisini qoydu, sonra tıxacları yarıyacan şüşələrə elə taxdı ki, orada burğusuz çıxara bilsin və paltosunun hər qoltuq cibinə birini qoydu.

– Siz lap usta imişsiniz. – Məmur dilləndi.

– Neyləyim, adətkar olmuşam. Uşaq vaxtı ağlıma gətirməzdim ki, böyüyəndə də «hindu-hindu» oyunu oynayacağam...

Yazıçı ilə polyak konyakı görəndə bilmədilər, neyləsinlər! Ustanınsa spirtli içkilərdən xoşu gəlmirdi. Onunku pivə idi və deyirdi ki, ən yaxşısı Berlin pivəsidir. Ravik quru taxtın üstündə uzanıb qəzet oxuyurdu. Polyak fransızca bilmədiyi üçün əlinə qəzet almırdı. O, çoxlu siqaret çəkdi, kefi kökəldi. Gecə usta ağlamağa başladı. Ravik oyaq idi. Ustanın boğuq hıçqırtılarına qulaq asa-asa, balaca pəncərədən çölə baxdı. Yata bilmirdi... Usta sakitləşəndən sonra da gözünə yuxu getmədi. Fikirləşdi ki, usta yaxşı dolanırmış. O qədər yaxşı yaşayıb ki, onu itirdiyinə yanır...

## XVIII

Ravik vağzaldan gəlirdi. Pal-paltarı çirkli, özü isə yorğun idi. On üç saat üst-başı sarımsaq iyi verən adamlarla, yanı tulalı ovçularla, zənbillərdə toyuq-cücə, göyərçin aparan

qadınlarla bürkülü vaqonda yol gəlmişdi. Bundan əvvəl isə üç ay sərhəddə qalmışdı...

Axşamın yenicə düşən toranlığında nəsə parıldadı. Ravik başını qaldırdı. Sanki, Ron-Puenin ətrafına piramida-şəkilli güzgülər düzülmüşdü və indicə qürub etmiş may günəşinin son şəfəqləri onlara ilişib qalmışdı...

Dayanıb bir xeyli onlara baxdı. Doğrudan da, piramida-şəkilli güzgülər idi və zanbaq ləklərinin kənarına sıra ilə düzülmüşdü.

– Bunlar nədir? – deyə o, yenicə düzəldilmiş ləki dırmıqlayan bağbandan soruşdu.

– Güzgüdür, – bağban başını qaldırmadan cavab verdi.

– Güzgü olduğunu görürəm, ancaq mən axırıncı dəfə burada olanda yox idi.

– Çoxdan buralara gəlmirsiniz?

– Üç aydır.

– Vah, üç ay! Bunları iki həftədir qoyublar. İngilis padşahı üçündür... Qonaq gələcək! Sir-sifətini görər...

– Adamın tükü ürpəşir...

– Elədir... – Bağban heç təəccüblənmədi.

Ravik yoluna davam etdi. Üç ay... Üç il... Üç gün... Görəsən, vaxt, zaman nə olan şeydir?! Həm heç nə, həm də hər şey... Şabalıd ağacları indi çiçək açır... Ancaq Almaniya yenə də müqavilələri pozub Çexoslovakiyanı büsbütün tutanda heç puçurlamamışdı... Bu vaxt ərzində mühacir Yozef Blumental çılğın gülüşlərlə özünü Cenevrədəki «Millətlər İttifaqı»nın sarayı önündə güllələmişdi... Belforda Qünter adı ilə yaşayarkən keçirdiyi sətəlcəmin izləri köksünün harasındasa gizlənib qalmışdı... İndi isə qadın sinəsi kimi yumşaq bir gecədə yenə bura gəlmişdi.... Sanki, bunların hamısı məhz belə də olmalı imiş... Hər şeyi necə qəbul edirsənsə, bunlara da eləcə «qismətdir» deyib, ümidsizliyin yeganə silahı olan təmkinlə dözürsən. Səma hər yerdə eynidir, yer üzündəki qətllərin, nifrətin, məhəbbətin, qurbanların üstünə çadır kimi çəkilib... Heç nədən xəbəri olmayan gözəl güllər isə hər il açır, mavi toranlıq gündüzlə gizlənqaç oynayır, nə pasport dərdi çəkirlər, nə də satqınlıqdan, tənhalıqdan, ümidsizlikdən qorxurlar... Nə yaxşı ki yenə Parisdədir! Onun gümüşü rəngə boyanmış küçələrində heç nəyi düşünmədən, yavaş-yavaş gəzişmək nə gözəl imiş! Belə

saatları yaşamaq nə yaxşı imiş! Sanki, həyatdan möhlət almışdı, uzaq keçmişdə qalmış qüssə-kədərlə, sadəcə olaraq, hələ ölməyib yaşadığına görə keçirdiyi ülvi səadət hisslərinin qovuşduğu üfüqlərdə asta-asta süzürdü... Bu saat elə saat idi ki, Parisə yenicə çatmışdı, ürəyinin başı hələ neştərlənməmişdi... Bir də bu qəribə həqarət hissi... Sinədolusu nəfəs almaq... Bu nəfəs, sanki, xəfif bir meh idi, haradansa lap uzaqlardan, ürəyin damar-damar yollarından, gerçəkliyin qüssə dolu alovundan, çarmıxa çəkilmiş keçmişlərdən, gələcəyin neştərli kəşməkəşlərindən süzülürdü... Bir də ətrafa çilənmiş bu sükut... Ölümlə həyat arasındakı bir anlıq fasilə... Aydın olduğu qədər də zülmətlə dolu bir ömür... Ulu dünyanın həzin əbədiyyət nəğməsi...

* * *



Morozov «İnternasional»ın «Palma zalı»nda oturmuşdu. Qabağında bir qrafin açıq çaxır var idi.

– Boris! Salam, qoca! Deyəsən, lap vaxtında gəlib çıxmışam. «Vuvre» şərabıdır?

– Bəs necə! Bu dəfə otuz dörd illikdir. Həm şirindir, həm də qatı. Nə yaxşı gəldin, Ravik! Üç ay çəkdi, eləmi?

– Hə, bu dəfə yaman çox oldu...

Morozov stolun üstündəki qədimi zəngi götürüb silkələdi. Elə bil, kənd kilsəsinin xidmətçiləri zəng çalırdı... «Katakomba»da elektrik xətti olsa da, elektrik zəngi yox idi. Buna heç ehtiyac da yoxdu, çünki mühacirlər çox təsadüfi halda ondan istifadə edirdilər.

– İndi adın nədir? – Morozov soruşdu.

– Yenə Ravikdir. Polisdə bu adı çəkməmişəm, gah Voyçek, gah Noyman, gah da Qünter oldum. Heç nə, şıltaqlıqdır, çox xoşuma gəlir, ona görə də dəyişmək istəmədim.

– Çox güman ki, burada qaldığını səndən qopara bilməyiblər, eləmi?

– Əlbəttə!

– Aydındır. Yoxsa, mütləq sürək eləyərdilər. Onda yenə burada qalarsan, otağın boşdur.

– Qarının bu işdən xəbəri olmadı?

– Yox, heç kim bilmədi. Dedim ki, Ruana getmisən. Şeylərin mənim otağımdadır.

Xidmətçi qız, əlində məcməyi, gəldi.

– Klarisse, müsyö Ravikə də qədəh gətirin.

– Ah, müsyö Ravik! – Qız dişlərini ağartdı. – Qayıtdınız? Getdiyiniz yarım ildən çoxdur, müsyö...

– Üç ay, Klarisse.

– Ola bilməz! Elə bilirdim, yarım ildir...

O, ayağını sürüyə-sürüyə getdi. Bir az keçməmiş «katakomba»nın piy basmış xidmətçisi, əlində qədəh gəldi... O, məcməyi götürməzdi. Burada çoxdan işlədiyi üçün özünü bir az sərbəst aparırdı. Morozov onun sir-sifətindən bildi ki, bu saat sorğu-sual başlanacaq və tez onu qabaqladı:

– Jan, de görüm, müsyö Ravik nə qədər burada olmayıb? Dəqiq deyə bilərsən?

– Bu nə sözdür, müsyö Morozov?! Əlbəttə, deyərəm! Lap gününü də bilirəm. Düz... – O, süni şəkildə fasilə verdi, gülümsədi və dedi: – Dörd həftə yarımdır.

– Elədir! – Ravik Morozovu qabaqladı.

– Elədir! – Morozov da təsdiqlədi.

– Gördünüz?! Mən heç vaxt səhv eləmərəm, – deyə Jan aralandı.

– Özüm onu pərt eləmək istəmədim, Boris.

– Mən də. Görürsənmi, zaman keçmişə çevriləndə öz mənasını itirir. Adama həm təsəlli verir, həm diksindirir, həm də biganələşdirir. Preobrajenski qvardiya polkunun poruçiki Belskini 1917-ci ildə Moskvada gözdən itirdim. Dost idik. O, Finlandiyaya keçib şimala getdi. Mənimsə yolum Mancuriyadan Yaponiyaya düşdü. Səkkiz ildən sonra görüşəndə, mənə elə gəldi ki, onu axırıncı dəfə 1919-cu ildə Harbində görmüşəm. O da dedi ki, 1921-ci ildə Helsinkidə görüşmüşük. Hərəmiz iki il və neçə min kilometr səhv elədik. – Morozov qrafini götürüb şərab süzdü. – Görürsənmi, səni burada unutmayıblar. Ona görə də adama elə gəlir ki, vətənə qayıdıb... Düz demirəm?

Ravik şərabdan bir az içdi. Sərin və xoş idi.

– Bir dəfə lap Almaniyanın sərhədində oldum. Küçənin bir tərəfi İsveçrənin idi, o biri tərəfi isə Almaniyanın... Mən də İsveçrə tərəfdə gilas yeyirdim. İstəsəm, çiyidini Almaniyaya tüpürərdim...

– Onda özünü vətənə yaxın hiss eləyə bilmədin?

– Yox! Mən ondan heç vaxt belə uzaq olmamışdım.

Morozov irişdi:

– Başa düşürəm. Bəs yollar necədir?

– Həmişəki kimi. Getdikcə də çətinləşir, vəssalam. Sərhəddə nəzarəti artırıblar. Bir dəfə İsveçrədə, bir dəfə də Fransada tutuldum.

– Bəs niyə heç yerini-yurdunu bildirmədin?

– Məndən sonra polisin nəyi eşələyib tapdığını bilmirdim. Axı hərdən yaman quduzlaşır. Fikirləşdim ki, heç kəsin həyatını təhlükəyə salmasam yaxşıdır. Axı bizim günahsızlığımız hələ hər şey demək deyil. Müharibənin ulu qanunudur: sakitcə yerə yat, sonra aradan çıx! Sən nəsə gözləyirdin?

– Mən yox.

Ravik diqqətlə onun üzünə baxdı:

– Məktub gözləyirmişsən, – dedi, – axı məktubun özü nədir ki?! Onun heç vaxt xeyri olmur.

– Elədir.



Ravik cibindən bir qutu siqaret çıxardı.

– Qəribədir, – dedi, – adam burada olmayanda, çox şey dəyişir...

– Heç nəyi vecinə alma.

– Elə də eləyirəm.

– Uzaqda olmaq yaxşıdır. Qayıdanda görürsən ki, hər şey dəyişib. Sonra yavaş-yavaş öyrəşirsən.

– Bəlkə də... Bəlkə də, heç elə deyil.

– Sən həddən artıq bürüncəkli danışırsan. Yaxşı ki, hər şeyi bu cür qəbul edirsən. Şahmat oynayaq? Professor da öldü. Yeganə layiqli rəqibim idi. Levi də Braziliyaya getdi. Restoranda xidmətçi işləyir. Həyat indi qanad taxıb uçur, heç nəyə öyrəşmək lazım deyil.

– Lazım deyil...

Morozov diqqətlə onun üzünə baxdı:

– Mən elə demirəm...

– Mən də. Bu iyli-qoxulu qəbirdən çıxmayaq? Üç ay olmamışam, ancaq yenə də mətbəx, toz-torpaq qoxusu, qorxu... İşə nə vaxt gedəcəksən?

– Bu gün getməyəcəyəm, boş günümdür.

– Yaxşı oldu! – Ravik ötəri təbəssümlə gülümsədi. – Demək, bu axşam gözəllik, köhnə Rusiya, böyük qədəhlər axşamıdır!

– Mənimlə gedirsən?

– Yox, bu gün olmaz, yorulmuşam. Axırıncı gecələri heç yata bilməmişəm. Yatanda da səksəkəli yatmışam. Gəl çıxaq, bir-iki saat fırlanaq, bir yer tapıb oturaq. Çoxdandır belə eləməmişəm...

* * *

– Yenə «Vuvre»? – Morozov təəccübləndi. Onlar «Kolize» kafesinin qabağında oturmuşdular. – Niyə? Axşam indi düşür, qoca, arağın əsl vaxtıdır.

– Elədir. Ancaq buna baxmayaraq, «Vuvre» yaxşıdır. Mənə bəs eləyər.

– Nə olub? Bəlkə, konyak içəsən?

Ravik başını buladı. Morozov əl çəkmədi:

– Bir yerə gəlib çatanda, elə birinci axşamı dəm olmaq lazımdır, qardaş. Bu cür qəhrəmanlıq eləyib, ayıq gözlə qüssə dolu tutqun keçmişin gözlərinə baxmaq kimə lazımdır?

– Mən heç yana baxmıram, Boris, həyatdan yavaş-yavaş zövq alıram.

Ravik gördü ki, Morozov ona inanmır. İnandırmağa da çalışmadı. Lap səkinin qırağındakı stol arxasında sakitcə oturub özü üçün şərab içir, axşam gəzintisinə çıxmış camaata tamaşa edirdi. Parisdən uzaqlarda hər şey onun üçün qəti və aydın idi. İndi isə hamısı dumanlanmışdı, gah solur, gah da min rəngə çalırdı, şirin-şirin xumarlanırdı, elə bil, hansı dağısa yüyürə-yüyürə düşmüşdü, qulaqları güyüldəyirdi...

– Mehmanxanadan qabaq bir yerə getmişdin? – Morozov soruşdu.

– Yox.

– Veber səni soruşurdu.

– Zəng eləyərəm.

– Heç xoşuma gəlmirsən... Düzünü de, nə olub?

– Elə bir şey deyil. Cenevrədə sərhəd çox möhkəm idi. Əvvəlcə oradan keçmək istəyirdim, sonra Bazelə gəldim. Gördüm, bura da çətindir. Ancaq birtəhər adladım. Hər gecə qarın-yağışın altında qaldım, soyuq dəydi. Tez keçə bilmədim, sətəlcəm haqladı. Belforda bir həkim xəstəxanaya düzəltdi. Elə elədi ki, bilən olmadı. Sonra on gün də evində saxladı. Gərək, pulunu göndərəm.

– İndi yaxşısan?

– Bir az.

– Ona görə araq içmirsən?

Ravik gülümsədi:

– Bu söhbətlər nəyə lazımdır, Boris? Bir az yorulmuşam, gərək, buralara təzədən öyrəşəm. Düz sözümdür... Qəribədir, adam üzübəri yolda olanda nələr fikirləşmir?! Gəlib çatanda isə əksinə olur.

Morozov əlini yellədi, ata qayğısı ilə dedi:

– Ravik, sən atan yerində olan Borislə oturmusan! O, insan ürəyinin mahir bilicisidir. Nala-mıxa döymə, ürəyində nə varsa, soruş, canımız da qurtarsın.

– Yaxşı. Joan haradadır?

– Bilmirəm. İki-üç həftədir ki, xəbərim yoxdur. Heç görməmişəm də...

– Bəs ondan əvvəl?



– Bir-iki dəfə səni soruşdu. Sonra onu da eləmədi.

– İndi «Şəhrizad»da işləmir?

– Yox, təxminən, beş həftədir çıxıb. Arada iki-üç dəfə gəldi, sonra ayağı tamam kəsildi.

– Parisdə deyil?

– Deyəsən, yoxdur. Parisdə olana oxşamır, yoxsa hərdən «Şəhrizad»a gələrdi.

– Harada işlədiyini də bilmirsən?

– Deyəsən, filmə çəkilir. Asılqanda işləyən qadına deyib. Belə şeyləri sən yaxşı bilərsən. Bəhanədir də...

– Bəhanə?

– Əlbəttə, bəhanədir! – Morozov acı-acı güldü. – Bəhanə olmayanda nədir? Yoxsa, başqa cür gözləyirdin, Ravik?

– Hə...

Morozov susdu.

– Gözləməklə bilmək ayrı-ayrı şeylərdir, – Ravik dilləndi.

– Yalnız miskin romantiklər üçün elədir. Bu limonadı burax, əməlli şey iç. Heç olmasa, kalvados götür.

– Kalvados heç olmaz. Yaxşı, konyak içərəm, qoy ürəyin yerinə gəlsin. Lap elə kalvados da içərəm...

– Bu, başqa məsələ!

* * *

Pəncərələr... Damların mavi silueti... Köhnəlmiş qırmızı divan. Çarpayı... Ravik bilirdi ki, bunların hamısına dözməlidir. Divanın üstündə oturub siqaret çəkirdi. Morozov onun çamadanını gətirmiş, harada olacağını deyib getmişdi.

Əynindəki köhnə pencəyi çıxarıb atmışdı. Sonra isti suda yuyunmuş, çoxlu-çoxlu sabunlanmışdı. Son üç ayın çirk-pasını canından çıxarmışdı, necə deyərlər, dərisindən qaşımışdı. Təmiz alt paltarı, ayrı pencək geymiş, üzünü qırxmışdı. Çox gec olmasaydı, hələ türk hamamına da gedərdi. Bütün bunlardan sonra xeyli gümrahlaşmışdı. Hələ çox şey eləyərdi, ancaq pəncərənin qabağında oturanda, qəflətən canına künc-bucaqdan qəribə bir boşluq dolmağa başladı...

Bir qədəh kalvados süzdü. Şeylərinin arasındakı şüşənin dibində bir az qalıbmış. Onu Joanla içdiyi axırıncı gecəni xatırladı, ancaq bu xatirələr ləzzət vermədi. Çoxdan olmuşdu... Öz-özünə bircə onu dedi ki, köhnədən qalıb, yaxşı kalvadosdur...

Ay asta-asta evlərin damına qalxırdı. Çirkli həyət kölgəyə, gümüşü rəngli saraya dönürdü. Zərrə qədər fantaziya bu zirzibili gümüşə döndərirdi... Pəncərədən içəri gül ətri doldu. Kəskin qərənfil qoxusu idi. Əyilib pəncərədən aşağı baxdı. Alt mərtəbədəki pəncərəyə taxta güldan qoyulmuşdu. Bu güllər – əgər getməmişdisə – mühacir Vizenhofun idi. Ravik bir dəfə onun mədəsini yumuşdu. Ötən ilin milad bayramında...

Şüşə boş idi. Onu çarpayının üstünə tulladı. Şüşə uzaqdan qara ləkəyə oxşayırdı. Ayağa durdu. Gözünü zilləyib çarpayıya niyə baxırdı? Qadın lazımdırsa, get, tap, gətir! Parisdə bundan asan heç nə yoxdur...

Dar küçələrlə Etual meydanına tərəf getdi. «Yelisey çölləri» küçəsindəki qaynar həyatın dalğaları üz-gözünü qarsaladı. Geri döndü. Əvvəlcə iri, sonra asta addımlarla getdi. «Milan» mehmanxanasına gəlib çıxmışdı...

– İşlər necədir? – deyə növbətçidən soruşdu.

– Ah, müsyö, sizsiniz?! – Növbətçi ayağa durdu. – Müsyö çoxdan görünmürdü.

– Bəli, bir az var... Parisdə deyildim.

Növbətçi zirək baxışlarla onu süzdü:

– Madam daha burada qalmır.

– Bilirəm, çoxdan köçüb.

Növbətçi arif adam idi, deməsələr də, ondan nə istədiklərini bilirdi:

– Dörd həftədir, – dedi. – Dörd həftə bundan əvvəl köçdü. Ravik siqaret çıxardı.

– Madam Parisdə deyil?

– Kanndadır.

– Ah, Kann! – Növbətçi əlini üzünə çəkdi. – Desəm ki, on səkkiz il əvvəl Nitsadakı «Rul» mehmanxanasında növbətçi işləmişəm, inanmayacaqsınız... Elə deyil?

– Niyə? İnanıram.

– Ayrı zəmanə idi. Nə qədər çaypulu olardı?! Müharibədən sonrakı ən gözəl günlər idi. Ancaq indi...

Ravik də arif idi, açıq deməsə də, onun nəyə işarə vurduğunu bilirdi. Bir dənə beşfranklıq çıxarıb stolun üstünə qoydu.

– Çox sağ olun, müsyö! Kefiniz kök, damağınız da çağ olsun... Siz lap cavan görünürsünüz, müsyö!



– Özümü cavan kimi də hiss eləyirəm. Gecəniz xeyrə qalsın.

Küçədə dayanmışdı. Mehmanxanaya niyə gəldi? İndi bircə o qalmışdı ki, «Şəhrizad»a gedib, keflənənə kimi vursun!

Ulduz dolu göylərə baxdı. Gərək, sevinəydi ki, iş belə gətirdi. Uzun-uzadı, mənasız sorğu-sualdan canı qurtarmışdı. Belə olacağını özü də bilirdi, Joan da. Ən azı, sonu belə olmalıydı... Joan yeganə düzgün yolu seçmişdi. Sorğusuz-sualsız... Sorğu-sual ikinci dərəcəli şeylərdir. Duyum olan yerdə nə sorğu-sual? Əsas işdir, əməldir... Allaha şükür ki, hər şey çək-çevirsiz qurtardı. Allaha şükür ki, Joanın belə şeylərdən xəbəri yox idi. Onunku iş görmək idi. Gördü, qurtardı. Nə inciklik oldu, nə də küsüşmə... Onun özü də dayanmadı.. Elə isə burada niyə durmuşdu? Yəqin, havadan idi. Paris axşamının, may havasının toruna düşmüşdü, tərpənə bilmirdi. Bir də gecənin toru. Adam gecələr nədənsə başqa cür olur...

Qayıdıb mehmanxanaya girdi:

– Zəng vurmaq olar?

– Əlbəttə, müsyö! Ancaq telefon köşkü yoxdur, olanımız bu aparatdır.

– Eybi yoxdur.

Ravik saatına baxdı. Çox güman ki, Veber xəstəxanada olardı. İndi axşam yoxlamasının vaxtı idi.

– Doktor Veberi olar? – deyə o, tibb bacısından soruşdu. Deyəsən, qız təzələrdən idi, səsini tanımadı.

– Xeyr.

– Orada yoxdur?

– Buradadır, ancaq işi var.

– Gedin, ona deyin ki, Ravik telefona çağırır. Tez olun, təcilidir, gözləyirəm.

– Yaxşı... – Qız tərəddüd elədi. – Deməyinə deyərəm, ancaq gəlməyəcək...

– Baxarıq. Siz gedin deyin ki, Ravik çağırır.

Veber o dəqiqə gəldi.

– Ravik! Haradan zəng vurursunuz?

– Parisdən. Bu gün gəlmişəm. Təşrih eləyirsiniz?

– Bəli, iyirmi dəqiqədən sonra başlayıram. Kor bağırsaqdır, qəfil tutub. Sonra görüşək?

– Özüm gələrəm.

– Lap yaxşı! Bəs nə vaxt?

– Elə indi.

– Yaxşı, gözləyirəm.

Veber:

– Yaxşı arağım var, – dedi. – Bu da qəzetlər, tibb jurnalları... Dincəlin...

– Əvvəlcə bir qədəh araq verin, sonra da xalat, əlcək...

Veber diqqətlə onun üzünə baxdı:

– Adicə kor bağırsaqdır, sizə yaraşan iş deyil. Tibb bacıları kömək eləyər, bircə dəqiqəyə qurtararam. Siz yorulmuş olarsınız...

– Veber, əgər mənə yaxşılıq eləmək istəyirsinizsə, qoyun təşrihi eləyim. Yorulmamışam, özümü də yaxşı hiss eləyirəm.

Veber güldü:

– İşə başlamağa yaman tələsirsiniz. Yaxşı, necə istəyirsiniz... Başa düşürəm.

Ravik əllərini yudu, tibb bacısı xalatı ona geydirib, əlcəkləri taxdı. Bu da cərrahiyyə otağı... Efir qoxulu havanı acgözlüklə ciyərlərinə çəkdi. Ejeni xəstənin başı üzərində dayanıb bihuşdarı verirdi. Çox qəşəng tibb bacısı da alətləri qaydaya salırdı.

– Axşamınız xeyir, Ejeni! – Ravik salam vardi. Az qaldı dərman Ejeninin əlindən düşsüm.

– Axşamınız xeyir, doktor Ravik, – dedi.

Veber irişdi. Birinci dəfə idi ki, Ejeni ona doktor deyirdi. Ravik xəstəyə tərəf əyildi. Dümağ cərrahiyyə işığı yaman gur idi, ətrafda nə vardısa, hamısını, hətta beynindəki kənar fikirləri də udmuşdu. Bu işıqdan işgüzarlıq, soyuqluq, ayıqlıq yağırdı... Qəşəng tibb bacısının uzatdığı skalpeli aldı. Nazik əlcəkdən poladın buz kimi soyuqluğunu duydu! Tərəddüdlərlə dolu naməlum bir dünyadan aydın, dəqiq bir aləmə qayıtmaq nə gözəl imiş! Skalpeli ətə çəkdi. Nazik qan şırımı çözələndi... Birdən-birə hər şey adiləşdi. Qayıdandan sonra ilk dəfə əsl özü oldu. Gur işığın səsiz-səmirsiz xışıltısı... «Bu da ev! – ürəyindən keçirdi. – Axır ki, evdəyəm...»



# XIX

Morozov onu görən kimi:

– Buradadır, – dedi.

– Kim?

Morozov frakının qırışığını sığalladı:

– Zarafatı burax, guya, bilmirsən, kimi deyirəm? Sən gəl atan yerində olan Borisi küçənin ortasında özündən çıxarma! Elə bilirsən, ikicə həftənin içində üç dəfə «Şəhrizad»a niyə gəldiyini başa düşmürəm? Bir dəfə mavigözlü, qarasaçlı bir nazəninlə, iki dəfə də tək gəlmisən. İnsan çox zəif məxluqdur, yoxsa o, bu qədər gözəl olardı?!

– Cəhənnəm ol, çərənçinin biri çərənçi! Mənə indi möhkəm dayanmaq lazımdır, sən isə adamı alçaldırsan.

– Deməsəm, yaxşı olardı?

– Əlbəttə.

Morozov geri çəkilib, iki amerikalını içəri buraxdı.

– Onda qayıt, get, – dedi, – başqa vaxt gələrsən.

– Təkdir?

– Sən özün yaxşı bilirsən ki, yanında kişi olmasa, heç əlahəzrət knyaginyanı da içəri buraxmarıq. Bu sualın Ziqmund Freydin xoşuna gələrdi.

– Sən nə bilirsən, Ziqmund Freyd kimdir?! Sərxoşsan... Şefin kapitan Çeçenidzeyə şikayət edəçəyəm...

– Kapitan Çeçenidze o vaxtlar mən podpolkovnik olduğum polkda poruçik idi, oğul bala! O, bunu yadından çıxarmır. İstəyirsən, get, şikayət elə...

– Yaxşı, qoy keçim.

– Ravik! – Morozov ağır əllərini onun çiyninə qoydu. – Eşşək olma! Get o mavigözlü nazəninə zəng elə, onunla buyur. Dünyagörmüş qoçanın ağıllı məsləhətinə qulaq as. Üzdən elə qiymətli sözə oxşamır, ancaq tutarlıdır.

– Yox, Boris, – Ravik onun üzünə baxdı. – Elə kələklər burada keçmir. Heç özüm də istəmirəm.

– Onda evə get.

– İyli-qoxulu «Palma zalı»na? Yoxsa, yatdığım tövləyə?

Morozov, Raviki buraxıb, taksi axtaran qadınla kişiyə köməyə getdi. Ravik onu gözlədi.

– Sən, mən düşündüyümdən də ağıllı imişsən, yoxsa indi keçib oturmuşdun... – Morozov qızılı haşiyəli furajkasını peysərinə itələdi və yenə nəsə demək istəyəndə, əynində ağ smokinq olan sərxoş bir cavan oğlan qapıda göründü:

– Cənab polkovnik, bir yarış maşını!

Morozov növbəti taksinin sürücüsünə əl elədi, sənədləyən oğlanı maşına oturtdu.

– Niyə gülmədiniz?! – Oğlan təəccübləndi. – «Polkovnik»i yaman dedim... Elə deyil?

– Yaxşı dediniz. Ancaq «yarış maşını» ondan da yaxşı çıxdı.

Morozov geri qayıtdı:

– Fikrimi dəyişdim, – dedi, – keç otur, tüpür getsin. Mən də olsam, gedərdim. Bu, nə vaxtsa olmalıdır, tez olsa, yaxşıdır. Qurtar getsin! Ya elə, ya da belə... Bəzən uşaq kimi hərəkət etmiriksə, demək, qocalmışıq.

– Mən də fikrimi dəyişdim, başqa yerə gedəcəyəm.

Morozov sevinclə ona baxdı:

– Yaxşı, – dedi, – onda yarım saatdan sonra görüşərik

– Bəlkə də, yox.

– Bir saat olsun.

İki saat sonra Ravik «Kloş d`Or» meyxanasında oturmuşdu. Adam lap az idi. Aşağıdakı barda fahişələr tara düzülmüş tutuquşuları kimi cərgə ilə oturub laqqırtı vururdular. Əllərində kokain tutmuş iki alverçi turist gözləyirdi. Yuxarıdakı zalda soğan şorbası yeyirdilər. Raviklə üzbəüz

divanda iki lesbos qadın oturub «Şerri Brendi» içir, nəsə pıçıldaşırdı. Biri kişi kostyumu geyib, qalstuk bağlamış, gözünə monokl vurmuşdu. O birininsə özü kök, saçı qıpqırmızı idi və dar, çox yeri açıq, işıldayan paltar geymişdi.

«Axmaqlığa bax! – Ravik ürəyindən keçirdi. – «Şəhrizad»a niyə girmədim? Nədən qorxuram? Kimdən qaçıram? Bilirəm, ona qarşı olan hisslərim daha da güclənib. Bu üç ayın ayrılığı onları boğa bilməyib, əksinə, daha da möhkəmləndirib. Artistlik eləməyim havayıdır. Qaranlıq döngələrdən sinə-sinə keçəndə, onun-bunun evində gizlənəndə, ulduzsuz qərib gecələrdən qəlbimə damcı-damcı tənhalıq süzüləndə, onlar mənim yeganə həmdəmim olub. Ayrılıq onları elə çoşdurub ki, Joan özü onu belə coşdura bilməzdi. Ancaq indi...»



Boğuq bir qışqırtı onu xəyal dünyasından qopardı. Başı öz aləminə qarışanda, içəri bir neçə qadın girmişdi. Onlardan biri ağdərili zənciyə oxşayırdı, güclə ayaq üstə dayanırdı, başındakı gül taxılmış şlyapanı boynunun ardına itələmişdi və əlindəki mətbəx bıçağını tullayıb, yavaş-yavaş pilləkənlə aşağı düşürdü. Heç kəs onun qabağına durmadı. Pilləkənlə bir xidmətçi qalxırdı. Qadınlardan biri yuxarıda dayanmışdı və onun yolunu kəsdi:

– Heç nə yoxdur, – dedi, – heççə nə yoxdur.

Xidmətçi çiyinlərini çəkib geri döndü. Ravik gördü ki, küncdəki qırmızıbaş qadın ayağa durdu. Həmin anda bayaq xidmətçinin yolunu kəsən qadın tələsik bara düşdü. Qırmızıbaş əlini ətli əndamına sıxıb dayanmışdı. Ehtiyatla iki barmağını qaldırıb, ora baxdı. Paltar deşilmişdi və yara aydınca bilinirdi. Dərisi görünmürdü. Görünən yalnız par-par parıldayan yaşıl paltarının altındakı yara idi. Qırmızıbaş diqqətlə ona baxır, sanki, gözlərinə inanmırdı.

Ravik, qeyri-ixtiyari, yerində qurcuxdu, ancaq durmadı. Bir dəfə cəzasını çəkmişdi, bəsi idi. Kişi paltarı geymiş qadın qırmızıbaşı çəkib divana oturtdu. Həmin anda ikinci qadın, əlində bir qədəh araq, bardan qayıdırdı. Kişi paltarı geymiş qadın dizlərini divana dayayıb bir əli ilə qırmızıbaşın ağzını tutaraq, o biri ilə onun əlini yaranın ağzından çəkdi. İkinci qadın arağı yaraya tökdü. «Bu da dezinfeksiyanın primitiv növüdür», – Ravik ürəyindən keçirdi. Qırmızıbaş zarıdı, dartındı, ancaq o biri möhkəm tutmuşdu. Qadınların ikisi də

stolun qabağını elə kəsmişdi ki, heç kim heç nə görmürdü. Hər şey birdən, özü də lap tez oldu, heç kim də heç nə hiss eləmədi. Həmin dəqiqə bir dəstə lesbos qadın və homoseksualist içəri doluşdu, sanki, iy bilmişdilər. Onlar küncdəki stolu dövrəyə aldılar, ikisi qırmızıbaşı qaldırıb qoluna girdi, qalanları onları dövrələdi, deyə-gülə meyxanadan çıxdılar, elə bil, heç nə olmamışdı. İçəridəkilərdən çoxu heç nə hiss eləmədi...

– Gözəl səhnə idi, eləmi? – kimsə arxadan dilləndi. Xidmətçi idi. Ravik başını yırğaladı:

– Nə olmuşdu? – deyə soruşdu.

– Qısqanclıq! Bu pozğunlar lap qızışıb! Özü də bir dəstədir...

– Bəs o birilər nə tez gəldilər? Əsl telepatiya idi.

– Onlar iy bilir, müsyö!

– Yəqin, hansısa gedib zəng vurub. Ancaq yenə də... Heç bir dəqiqə çəkmədi.

– Onlar iyi bilirlər. Özü də Əzrayılla şeytan kimi bir yerdə gəzirlər, biri o birini satmaz. Bunlarınkı bircə odur ki, polis qarışmasın, özləri öz aralarında düzəlişirlər. – Xidmətçi onun qədəhini götürdü.

– Yenə gətirim? Nə içirdiniz?

– Kalvados.

– Oldu, bir qədəh də kalvados.

Xidmətçi aralandı. Ravik başını qaldıranda gördü ki, Joan bir-iki stol o tərəfdə oturub. Xidmətçi ilə söhbət eləyəndə gəlmişdi. Yanında iki kişi vardı. Ravik ona baxan anda Joan da gözlərini qaldırdı və nəzərləri toqquşdu. Onun gündən qaralmış sifəti sapsarı oldu. Bircə saniyəliyə baxışlarını Ravikdən çəkmədən oturub qaldı, sonra sərt bir hərəkətlə stolu itələyib qalxdı, ona tərəf gəldi. Gələ-gələ də üzünün rəngi dəyişdi, bayaqkı ifadə əriyib yox oldu; üzü avazıdı, təkcə büllur təki aydın gözlər əvvəlki kimi ona zillənmişdi. Ravikə elə gəldi ki, bu gözlər heç vaxt belə işıldamayıb. Onlardan kin-küdurət yağırdı.

– Demək, qayıtmısan... – deyə pıçıldadı, sanki, nəfəsi çatmırdı.

Ravikə lap yaxın dayanmışdı. Bircə anlığa ona tərəf meyilləndi, sanki, qucaqlamaq istəyirdi. Ancaq qucaqlamadı, heç əl də uzatmadı.

– Deməmk, qayıtmısan... – təkrar elədi.
Ravik dinmədi.

– Nə vaxt qayıtmısan? – Yenə bayaqkı kimi pıçıltı ilə soruşdu.

– İki həftədir...

– İki həftə! Mənimsə xəbərim yoxdur! Bəs yadına düşmədi ki...

– Sənin yerini bilən olmadı. Nə mehmanxanada, nə də «Şəhrizad»da.

– «Şəhrizad»da olmuşam axı! – O nədənsə dayandı. – Niyə məktub yazmırdın?

– Yaza bilmədim.

– Yalan deyirsən.

– Yaxşı, istəmirdim... Qayıdaçağımı bilmirdim.

– Yenə yalan danışırsan... Bu, bəhanə deyil.



– Yox, qayıda da bilərdim, qayıtmaya da... Başa düşmək istəmirsən.

– Yox, mən bircə onu başa düşürəm ki, qayıtdığın iki həftədir, ancaq mən yadına düşməmişəm.

– Joan, – Ravik çox sakit danışırdı. – Sənin çiyinlərini gün Parisdə yandırmayıb...

Xidmətçi qorxa-qorxa onlara sarı gəldi, gah Joana, gah da Ravikə baxdı. Bayaqkı səhnədən sümüyü səksənmişdi. Guya, təsadüfən stolun üstündəki artıq boşqabla çəngəl-bıçağı götürdü... Bu, Ravikin nəzərindən yayınmadı:

– Hər şey qaydasındadır, – dedi.

– Qaydasında olan nədir? – Joan soruşdu.

– Heç nə... Bayaq burada bir hadisə oldu...

Joan diqqətlə onun üzünə baxdı:

– Sən qadın gözləyirsən?

– Aman allah! Yox! Bayaq burada dalaşdılar, biri yaralandı. Bu dəfə qarışmadım...

– Qarışmadın?! – Joan yenicə başa düşdü, rəngi dəyişdi. – Burada nə işin var?! Yenə tutacaqlar. İndi hər şeyi bilirəm, ikinci dəfə tutulanda altı ay verirlər. Aradan çıx! Sənin Parisdə olduğunu bilmirdim. Elə bilirdim, qayıtmayacaqsan...

Ravik dinmədi.

– Elə bilirdim, qayıtmayacaqsan... – O, yenə təkrar elədi. Ravik ona baxdı:

– Joan...

– Yox! Bunlar həqiqət deyil! Heç biri həqiqət deyil! Heç biri!

– Joan! – Ravik bu sözləri ehtiyatla dedi: – Öz stoluna qayıt!

Joanın gözləri doldu.

– Öz stoluna qayıt, Joan!

– Günahkar sənsən! – O hıçqırdı. – Sən! Sən özün!

O, sərt bir hərəkətlə dönüb getdi. Ravik stolu bir az yana çəkib oturdu. Kalvadosla dolu qədəh gözünə sataşdı, götürüb içmək istədi, ancaq nədənsə içmədi, Joanla danışanda sakit idi, indisə həyəcanlanmışdı. «Qəribədir...» – ürəyindən keçirdi. Sinəsindəki dərialtı əzələlər titrəyirdi. Niyə məhz onlar titrəyirdi? Qədəhi götürüb, diqqətlə əlinə baxdı. Titrəmirdi... Joan tərəfə baxmadan içdi.

Yanından keçən xidmətçiyə:

– Bir qutu «Kaporal» gətirin, – dedi.

Siqaret yandırıb, kalvadosun qalanını içdi. Hiss elədi ki, Joan ona baxır. «Nə istəyir? – Ürəyindən keçirdi. – İstəyir, onun gözləri qabağında qüssədən içib sərxoş olum?!» İşarə ilə xidmətçini çağırıb, pulunu verdi. O qalxan anda Joan yanındakılardan biri ilə söhbətə başladı. Onların yanından keçəndə, başını da qaldırmadı. Gərgin bir təbəssümlə gülümsəyəndə, üz-gözündən amansızlıq, soyuqluq yağırdı, heç bilinmirdi, nə istəyir...

Ravik küçələri xeyli dolaşandan sonra gördü ki, yenə gəlib «Şəhrizad»a çıxıb. Onu görəndə Morozovun üzünə təbəssüm qondu:

– Yaxşı dayandın, əsgər qardaş! Elə bilirdim, biryolluq getdin. Adamın peyğəmbərliyi üzə çıxanda kefi açılır!

– Sevinməyə tələsmə.

– Sən də tələsmə, gecikmisən.

– Bilirəm... Görüşmüşük...

– Nə?

– «Kloş d`Or» restoranında rastlaşdıq.

– İşə bax! – Morozov lap çaşbaş qalmışdı. – Ana təbiətin də belə işlərindən keçməyəsən.

– İşdən nə vaxt çıxırsan, Boris?

– İndicə qurtarıram, adam qalmayıb. Gedim geyimimi dəyişim. Ona kimi içəri keç, böyüklərin hesabına bir az araq iç.

– Yox, gözləyirəm.

Morozov ona baxdı:

– Özünü necə hiss eləyirsən?

– Çox pis.

– Elə bilirdin, başqa cür olacaq?

– Hə. Adam həmişə nəsə başqa cür gözləyir... Get, geyimini dəyiş.

Ravik divara söykəndi. Lap yanında gülsatan yaşlı qadın gülləri yığışdırırdı. Ona təklif eləmədi. Ürəyindən keçən özünə də gülünc gəlirdi, ancaq təklif eləsəydi, alardı. Bu isə o demək idi ki, qadın onun gül alacağına inanmırdı. Cərgə ilə düzülmüş evlərə baxdı. Pəncərələrin bəzilərindən hələ də işıq gəlirdi. Taksilər yavaş-yavaş o tərəf-bu tərəfə keçirdi. Özgə nə gözləyirdi? Belə olacağını əvvəlcədən bilmirdimi? Gözləmədiyi bircə o idi ki, Joan birinci başlayacaq. Niyə də başlamamalı idi? Birinci vuran qazanar, deyiblər...



Xidmətçilər bir-bir çıxmağa başladı. Bütün gecəni qafqazlı olmuş, qırmızı rəngli çərkəzi çuxa, uzunboğaz çəkmə geymişdilər. İndi isə adicə yorğun adamlar idilər və Ravikə qəribə görünən gündəlik geyimdə yavaş-yavaş evlərinə dağılışırdılar. Lap axırda Morozov çıxdı.

– Hara gedirik? – deyə soruşdu.

– Bu gün hər yerdə olmuşam.

– Onda gəl mehmanxanaya gedək, şahmat oynayaq.

– Nə?

– Şahmat oynayaq. Taxta fiqurlar adamın həm fikrini dağıdır, həm də diqqətini toplayır.

– Yaxşı, – Ravik razılaşdı, – niyə də oynamayaq?!

* * *

Ravik oyandı və o dəqiqə də hiss elədi ki, Joan otaqdadır. Qaranlıq idi, görə bilmirdi, ancaq hiss eləyirdi ki, gəlib. Otaq da, pəncərə də, hava da, hətta özü də başqalaşmışdı...

– Oyun çıxarma, – dedi, – işığı yandır, yaxın gəl!

Joan yerindən tərpənmədi, elə bil, heç nəfəs də almırdı.

– Gizlənpaç oynama, Joan!

– Yaxşı... – O, astadan dilləndi.

– Onda yaxın gəl!

– Bilirdin ki, gələcəyəm?

– Yox, qapı həmişə açıq olur.

Joan bir anlığa susdu, sonra:

– Elə bilirdim, hələ qayıtmamısan, – dedi. – İstəyirdim... Elə bilirdim... Dedim, indi haradasa oturub içirsən...

– Mən də elə bilirdim. Ancaq gəlib şahmat oynadım.

– Nə?

– Şahmat oynadım. Morozovla... Aşağıda, susuz akvariuma oxşayan zalda...

– Şahmata bax! – O, bir az irəli gəldi. – Şahmat! Bu ki... Şahmatı elə adam oynayar ki...

– Mən də elə bilirdim, ancaq oynadım. Hətta yaxşı oynadım, bir partiya da uddum.

– Sən dünyanın ən soyuq, ən daşqəlbli adamısan!

– Artistlik eləmə, Joan! Mənim özümün də artistlikdən xoşum gəlir, ancaq bu gün lazım deyil.

– Artistlik eləmirəm. Mən bədbəxtlərin bədbəxtiyəm.

– Yaxın gəl! Bunları da bir tərəfə qoyaq... Adam bir az bədbəxt olanda artistlik eləməyi yaxşıdır. Mən bir kişi tanıyırdım, arvadı ölən dəqiqədən torpağa qoyulana kimi öz otağına çəkilib, şahmat məsələsi həll elədi. Hamı ona daşürəkli deyirdi, ancaq bircə mən bilirdim ki, arvadını dünyada hər şeydən çox istəyirdi. Sadəcə olaraq, nə edəcəyini bilmir, gecə-gündüz şahmat məsələsi həll eləyirdi ki, onu yadından çıxara bilsin...

Joan indi düz otağın ortasında dayanmışdı:

– Sən də ona görə oynayırdın?

– Yox! Dedim ki, başqası idi. Sən gələndə yatırdım.

– Hə, yatmışdın! Yata da bilirsən...

Ravik yerin içində dirsəkləndi:

– Arvadını itirən başqa bir kişi də tanıyırdım. Üzüqoylu yıxılıb, iki gün, iki gecə yatdı. Arvadın anası yaman özündən çıxmışdı. Başa düşmürdü ki, adam bədbəxtlərin bədbəxti olanda da həmin bədbəxtliyə yaraşmayan işlər görə bilər. Görürsənmi, bədbəxtliyin ölçüsü nə olub?! Gəlib görsəydin, ağlım başımda deyil, sərxoşam, onda hər şey təbii olardı. Ancaq şahmat oynamağım, sonra da yatmağım o demək deyil ki, daşürəkliyəm. İndi aydın oldu?

Nəsə yerə dəyib çilik-çilik oldu. Joan gülqabını götürüb döşəməyə çırpmışdı.

– Eybi yoxdur, onsuz da ondan zəhləm gedirdi. Ehtiyatlı ol, qırıqları ayağına batar...

Joan ayağı ilə şüşə qırıqlarını yana itələdi:

– Ravik, – dedi, – niyə belə eləyirsən?

– Doğrudan, niyə eləyirəm? Özüm özümə ürək-dirək verirəm... Elə deyil, Joan?

Üzünü tez Ravikə tərəf çevirdi:

– Oxşayır.. Ancaq səndən baş açmaq çətin məsələdir.

O, döşəməyə səpələnmiş şüşə qırıqlarının arasından ehtiyatla keçib, çarpayının ayaq tərəfində oturdu. Hava işıqlanmışdı və Ravik onun sifətini aydınca seçirdi. İşə bax, orada yorğunluqdan əsər-əlamət yox idi! Əksinə, cavan görünürdü, təravətli idi. Əynində təzə plaş vardı və «Kloş d'Or»a geydiyi paltarı da dəyişmişdi.

– Elə bilirdim, heç vaxt qayıtmayacaqsan, Ravik!

– Hə, çox çəkdi, tez qayıda bilmədim.



– Niyə məktub yazmadın?

– Xeyri olardı?

Joan baxışlarını başqa səmtə döndərdi:

– Yazsan, yaxşı olardı...

– Qayıtmasam, daha yaxşı olardı. Ancaq neyləyim, başqa ölkədə, başqa şəhərdə qərar tuta bilmirəm. İsveçrə çox balacadır, qalan ölkələr də faşistlərlə doludur.

– Bura da... polislə...

– Polis elədir ki, həmişəki kimi, tuta da bilər, tutmaya da... Bu da bir təsadüf idi, haqqında fikirləşməyə dəyməz.

Ravik siqaret qutusunu götürdü. Yaxındakı stolun üstündə idi. Bir az iri, rahat stol idi, üstünə kitab, siqaret, başqa şeylər qoyurdu. Adətən, çarpayıların yanına qoyulan dolabçalardan, ayaqları diyircəkli, üstü süni mərmərdən düzəldilmiş alçaq stollardan zəhləsi gedirdi.

– Mənə də siqaret ver, – Joan dilləndi.

– İçmək istəyirsən? – Ravik soruşdu.

– Hə. Ancaq sən durma, özüm gətirərəm.

Şüşəni gətirib qədəhləri doldurdu. Birini Ravikə verdi, birini də özü içdi. İçəndə, plaş sürüşüb çiyinlərindən düşdü. Ravik getdikcə işıqlaşmağa başlayan alaqaranlıqda onun əynindəki donu gördü. Antibə gedəndə aldığı idi. Niyə bunu geymişdi? Ona aldığı yeganə paltar idi. O haqda heç düşünməmişdi. Heç düşünmək də istəmirdi...

– Səni görəndə... Ravik... birdən... quruyub qaldım.. qurudum. Çıxıb gedəndə... elə bildim, səni heç vaxt... görməyəcəyəm. Yox... o dəqiqə yox... Əvvəlcə gözlədim ki, bəlkə, qayıdarsan. Elə bilirdim, mütləq qayıdaçaqsan... Niyə qayıtmadın?

– Nəyə görə qayıtmalıydım?

– Qayıtsan, səninlə gələrdim.

Ravik bilirdi ki, yalan deyir, ancaq üstünü vurmadı. Birdən-birə hər şeyi unutmaq istədi. Ağlına gətirməzdi ki, onun gəlişi ilə belə yumşalacaq. Niyə gəldiyini, nə istədiyini bilmirdi, ancaq bu gəliş onu, qəribə də olsa, sakitəşdirdi, yumşaltdı. «Bu, nədir? – ürəyindən keçirdi. – Yenə başlandı? Yenəmi öz dünyasından qopurdu? Yenəmi qanı kükrədi, xəyalı çoşdu, o tilsimli qaranlıq aləmə düşdü?!

– Elə bildim, məni həmişəlik atırsan, – Joan dilləndi. – Doğrudan da, atmaq istəyirdin. Düzünü de!

Ravik dinmədi. Joan diqqətlə onun üzünə baxdı:

– Özüm bilirdim, – deyə inamla təkrar etdi.

– Kalvadosdan bir qədəh də ver.

– Kalvados idi?

– Hə. Hiss eləmədin?

– Yox! – Joan qədəhləri dolduranda, bir əli ilə şüşəni tutdu, o biri əlini isə Ravikin sinəsinə qoydu. Ravik sinəsində ağırlıq duydu. Joan öz qədəhini götürüb içdi.

– Hə, kalvados imiş! – Yenə Ravikin üzünə baxdı: – Yaxşı ki, gəldim. Belə olacağını bilirdim. Yaxşı ki, gəldim...

Hava işıqlaşırdı. Açılan pəncərələrin asta tıqqıltısı eşidilirdi. Səhərin xəfif mehi içəri süzülürdü.

– Gəlməkdə yaxşı elədim? – Joan soruşdu.

– Bilmirəm, Joan.

Joan ona tərəf əyildi:

– Bilirsən... Bilməlisən!

O qədər əyilmişdi ki, saçları Ravikin çiyinlərinə dağılmışdı. Bu saçlara baxırdı. Tanış mənzərə idi. Həm doğma idi, həm də yad... Gah dəyişir, gah da eyni olurdu... Gördü ki, üzünün dərisi qabıq qoyub. Gördü ki, üst dodağının qırmızı boyası xal-xal olub. Gördü ki, sir-sifətini diqqətlə boyamayıb... Bütün bunları onun sifətindən görürdü. Joanın üzü az qalırdı onun üzünə toxunsun, bütün dünyanın qabağını kəsmişdi. Ravik ondan başqa heç nə görmürdü. Təkcə onu

görürdü və bilirdi ki, onu belə sirli-soraqlı eləyən özünün vurğun könlüdür. Bilirdi ki, bundan da qəşəng, bundan da ağıllı, bundan da saf üzlər var. Ancaq onu da bilirdi ki, başqa üz yox, məhz bu üz onun qəlbinə hakim kəsilib. Bu hakimliyi də ona özü vermişdi!

– Hə, – dedi, – yaxşı ki, gəldin. O da yaxşı idi, bu da yaxşıdır...

– Dözə bilməzdim, Ravik!

– Nə?

– Məni atmağına dözə bilməzdim. Tamam atmağına...

– İndicə özün dedin ki, qayıdacağıma inanmırdın.

– Bu, başqa şeydir. Ayrı ölkədə qalsaydın, belə olmazdı. Onda ayrı düşmüş olardıq. Nə vaxtsa sənin yanına gedə bilərdim. Ya da, heç olmasa, bu ümidlə yaşayardım... Ancaq burada, bir şəhərdə... Başa düşmürsən?

– Düşürəm.



Joan dikəlib, saçlarını geri atdı:

– Məni yalqız qoymağa ixtiyarın yoxdur! Sən mənə çavabdehsən!

– Yalqız qalmısan?

– Sən mənə cavabdehsən, – deyə Joan gülümsədi.

Ravik bircə anlığa bu sözlərə, bu təbəssümə görə ona nifrət elədi.

– Boş-boş danışma, Joan!

– Yox, cavabdehsən! Elə o vaxtdan... Sən olmasaydın...

– Yaxşı, yaxşı, Çexoslovakiyanın işğal olunmasına da cavabdeh mənəm. Daha bəsdir, qurtar! Hava işıqlaşır, indicə gedəcəksən.

– Nə? – Joan diqqətlə onun üzünə baxdı. – Qalmağımı istəmirsən?

– Yox!

– Belə de... – pıçıltı ilə deyən Joan birdən əsəbiləşdi: – Demək, belə oldu! Məni daha sevmirsən...

– İlahi, bircə bu çatmırdı! Bu üç ayda hansı axmaq sənin ağlını oğurlayıb?

– Axmaq deyildi! Bəs neyləyəydim? Bütün günü mehmanxada oturub divarlara baxa-baxa dəli olaydım?

Ravik bir az dikəldi:

– Etiraf lazım deyil. Məqsədim nəyisə etiraf elətdirmək deyildi. İstəyirdim, söhbətin səviyyəsini bir az qaldırım...

Joan gözlərini döyə-döyə ona baxırdı. Dodaqları büzülmüş, gözləri qıyılmışdı:

– Niyə həmişə mənə acıqlanırsan? Başqaları heç belə eləmir, təkcə sən hər şeyi o dəqiqə problemə çevirirsən.

– Elədir, – deyə Ravik kalvadosdan bir qurtum alıb, təzədən uzandı.

– Doğru sözümdür! Adam bilmir səninlə necə dolansın. Məni məcbur eləyib, istəmədiyim şeyləri danışdırırsan, sonra da acıqlanırsan...

Ravik dərindən nəfəs aldı. Bir az bundan qabaq nə fikirləşmişdi? Zülmət kimi qaranlıq məhəbbət aləmi, aşıb-daşan xəyal dünyası – hansı tərəfə istəsən, çəkərsən! Bunu insanlar özü eləyir. Həmişə də özləri eləyib! Onlar bütün arzu və xəyalları çilik-çilik eləməkdə mahirdirlər. Əllərindən özgə nə gəlir? Doğrudan da, dünyanın ən gözəl məxluqu, həm də ən bəxtiqarası neyləyə bilər? Haradasa yerin altında böyük bir maqnit gizlənib, üstündə isə rəngarəng fiqurlar gəzişir və elə bilirlər ki, hərəsinin öz arzusu, öz taleyi var... Belə olan halda neyləyə bilərsən?! O da həmin insanlardan biri deyildimi?! Özü də ən inamsızı və hər şeyin belə olacağını bilə-bilə miskin bir ehtiyatın, ucuz bir kinayənin quyruğundan yapışıb durmuşdu...

Joan çarpayının ayaq tərəfində büzüşüb oturmuşdu. Gah nəyəsə acığı tutmuş evdar qadına, gah da başqa planetdən uçub gəlmiş, hələ də buralara uyuşmayan bəni-insana bənzəyirdi. Dan yeri sökülmüşdü və günəşin qızılı şəfəqləri onun üstünə düşürdü. Yenicə açılmış səhərin təmiz havası iyli-qoxulu həyətlərdən keçib, hisli-qurumlu damlardan aşaraq pəncərədən içəri dolur, özü ilə meşə, həyat ətri gətirirdi...

– Joan! – Ravik sükutu pozdu. – Niyə gəldin, Joan?!

– Niyə soruşursan?

– Hə, doğrudan, niyə soruşuram?

– Niyə sən həmişə nəsə soruşursan? Gəlmişəm, bu, bəs deyilmi?

– Düz deyirsən, Joan, bəsdir.

Joan başını qaldırdı:

– Axır ki, mən deyənə gəldin! Ancaq qabaqca, gərək, adamın bütün sevincini əlindən alasan!

Sevinc! Buna sevinc deyir! Qara yellərin adamı qabağına

qatıb çöllərə salmasına, bu yellərin caynağından qurtarmaq arzusuna sevinc demək olarmı? Sevinc bayaq bircə anlığa bayırda oldu: günəş yer üzünü nura bələməmişdən qabaq onca dəqiqəlik sükut çökdü, səhər şehi düşdü... Qoy cəhənnəm olsun, bunlar kimə lazım idi? Joan haqlı deyildimi? O da bu səhər şəbnəmi, qaranquşlar, külək, damarlarda axan qan kimi haqlı deyildimi? Niyə onu sorğu-suala tutmuşdu? Öyrənmək istədiyi nə idi? İndi yanında idi, pərvanə kimi uçub onun otağına qonmuş, gəlib çiçək kimi onun otağında açılmışdı, tovuz quşu kimi cilvələnirdi. O isə yanı üstə yıxılıb onun qanadlarındakı xalları, yarıqları sayırdı, gözlərini döyə-döyə rəngdən-rəngə düşən sifətinə baxırdı. «Özü gəldi... Və elə özü gəldiyi üçün də mən mənasız yerə özümü dartıram, – deyə ürəyindən keçirdi. – Ancaq gəlməsəydi, uzanıb bütün gecəni fikirləşərdim, qəlbimin hansı guşəsindəsə oğrun-oğrun onun gəlməsini arzulaya-arzulaya güclə özümü aldadardım ki, istəmirəm!» Adyalı kənara tullayıb qalxdı, çəkələklərini ayağına keçirdi.

– Niyə durdun? – Joan heyrətləndi. – Məni bayıra atacaqsan?

– Yox, öpəcəyəm! Bunu çoxdan eləməli idim! Nə yaxşı ki, gəldin, Joan

Joanın gözləri parıldadı:

– Məni öpmək üçün qalxmaq lazım deyil, – dedi.

Səhərin al şəfəqləri evlərin damına sancılmışdı. Səma tutqun mavi rəngə çalırdı. Ənginliklərə doğru sürünən bir-iki topa bulud yatmış flaminqolara oxşayırdı...

– Bir ona bax, Joan, gör nə gözəl gündür! O leysan yağışlar yadındadır?

– Hə, yaman yağırdı, əzizim. Hava heç açılmırdı, bütün günü yağırdı.

– Yağışlar mən gedəndə başlamışdı. Sənin bütün ümidlərini də alt-üst eləyən o yağışlar olub. Ancaq indi...

– Hə, indi...

Joan ona lap yaxın uzanmışdı.

– İndi hər şey təzədən qayıdıb. Hətta bağımız da var. Mühacir Vizenhofun pəncərəsi önündəki qərənfilləri deyirəm. Həyətdəki şabalıd ağaclarının budaqlarında quşlar nəğmə deyir...

Gördü ki, Joan ağlayır.

– Niyə məndən heç nə soruşmursan, Ravik?

– Son vaxtlar sənə çox sual verirəm. İndicə özün demədin?

– Bunlar ayrı sualdır.

– Soruşmağa heç nə yoxdur.

– Sən gedəndən sonra olan şeyləri soruş.

– Heç nə olmayıb...

Joan başını buladı.

– Məni nə hesab elayirsən, Joan?! Bir bayıra bax! Gör neçə rəngə çalır! Qırmızı, qızılı, mavi... Günəş çıxanda heç soruşarmı, dünən yağıb? Çində, ya İspaniyada müharibə olub? Həmin anda neçə min adam qırılıb, neçə min adam dünyaya gəlib? Günəş çıxıb, bu, hər şeyə dəyər! Sən də deyirsən, sual verim?! Sənin çiyinlərin onun işığında tunca dönüb, mən də sənə sual verim? Onun al şəfəqlərində sənin gözlərin qədim yunanların dənizinə bənzəyir, gah bənövşəyi, gah da min cür şərab rənginə çalır, mən də olub-keçmiş hadisələri soruşum?! Sən yanımda ola-ola səfehlik eləyib, keçmişin xəzəl kimi saralmış xatirələrini təzədən oyadım?! Məni nə hesab eləyirsən, Joan?!

Joan daha ağlamırdı:

– Çoxdan belə sözlər eşitmirdim, – dedi.

– Demək, indiyə qədər balqabaqlarla oturub-durmusan. Qadına ya səcdə eləmək, ya da onu biryolluq atmaq lazımdır! Qalanları yalan şeydir!

Joan yuxuya getmişdi. Raviki elə qucaqlamışdı ki, deyərdin, onu heç vaxt buraxmayacaq. Dərin yuxuya getmişdi və onun ılıq, ahəngdar nəfəsi Ravikin sinəsini qıdıqlayırdı. O, xeyli oyaq qaldı. Mehmanxana yavaş-yavaş oyanırdı. Su şırıldayır, qapılar taqqıldayır, aşağıdan mühacir Vizenhofun öskürək səsi eşidilirdi. Joanın çiyinləri Ravikin qolları arasındaydı, onun hərarətli dərisi hərdən titrəyirdi və əgər başını bir az qaldırsaydı, onun saf, məsum sifətini görərdi. O, elə məsum idi ki, elə bil, günahsız körpə idi. «Səcdə eləmək, ya da atmaq!..» – deyə ürəyindən keçirdi. Böyük sözlər idi. Kimin buna gücü çatardı? İndi bunları eləmək istəyən tapılardımı?!

# XX

Ravik oyandı. Joan yanında yox idi. Vanna otağında su şırıldayırdı. Ravik dikəldi, o dəqiqə də tamam ayıldı. Son aylar buna təzədən öyrəşmişdi. «Tez ayılan tez qaçar», – deyiblər. Saata baxdı. On idi. Joanın paltarı ilə plaşı yerdəydi. Zərli ayaqqabıları pəncərənin qabağında qalmışdı. Biri yanı üstə çevrilmişdi...

– Joan! Gecə vaxtı çimirsən?

Joan qapını açdı:

– Bağışla, səni oyatdım.

– Eybi yoxdur, yatmağa vaxt tapılar. Niyə durmusan?

Joanın başına qoyduğu çimərlik papağından su damcılayır, çiyinləri işım-işım işıldayırdı. Başına dəbilqə qoymuş amazonkaya oxşayırdı.



– Mən daha yarasa deyiləm, Ravik, «Şəhrizad»dan çıxmışam.

– Bilirəm.

– Kim deyib?

– Morozov.

Joan sınayıcı nəzərlərlə ona baxdı:

– Morozov çoxdanın qarayaxanıdır. Özgə nə deyib?

– Heç nə. Deməyə nəsə var ki?

– Yox, mən elə iş tutmaram ki, qapıçıların dilinə düşsün. Onlar da asılqanda işləyən qadınlar kimidir, ağızlarını allah yoluna qoyurlar...

– Morozovla işin olmasın. Gecə restoranlarının qapıçıları ilə həkimlər peşəkar bədbinlərdir. Onları yaşadan həyatın qara günləridir. Ancaq ağızlarını allah yoluna qoymaz, onun-bunun sözünü danışmazlar.

– Yenə həyatın qara günləri... Ondan kimin xoşu gəlir?

– Heç kimin. Ancaq çox adam elə bu qara günlərdə yaşayır. Bunlar bir yana, onda səni «Şəhrizad»a düzəldən Morozov olub.

– Buna görə ömrüm boyu onun qabağında qul kimi dayanmalıyam? Kimin başını aşağı elədim? Puluma minnət, yoxsa bircə gün də saxlamazdılar. Bir də ki onu mənə yox, sənə görə eləyib.

Ravik siqaret çıxardı:

– Morozov sənə neyləyib axı?

– Heç nə! Ancaq ondan xoşum gəlmir. Adama birtəhər baxır. Mən ona inanmıram. Sən də inanma!

– Nə?

– Ona çox da bel bağlama. Özün bilirsən ki, Fransadakı bütün restoran qapıçıları polisə işləyir.

– Elə bu?! – Ravik heç əhvalını pozmadı.

– Əlbəttə, mənə inanmayacaqsan, ancaq «Şəhrizad»da hamı bilirdi. Kim bilir, bəlkə də, elə o, səni...

– Joan! – Ravik adyalı tullayıb qalxdı. – Boş-boş danışma! Sənə nə olub?

– Heç nə! Nə olmalıdır ki? Ondan zəhləm gedir, vəssalam. Adamı tez yoldan çıxarır. Sən də onunla canbir qəlbdəsən.

– Belə de... Hamısı buna görə imiş...

Joan birdən gülümsədi:

– Hə, ona görədir.

Ravik hiss elədi ki, təkcə buna görə deyil, arada başqa şey də var.

– Səhər yeməyinə nə istəyirsən? – deyə soruşdu.

– Acığın tutdu? – Joan cavab əvəzinə soruşdu.

– Yox.

Joan vanna otağından çıxdı və gəlib əlini onun çiyninə qoydu. Əynindəki nazik pijamadan onun yaş ətini hiss elədi, bütün bədənini, damarlarından axan qanını duydu.

– Səni dostlarına qısqanmağıma acığın tutdu? – deyə bir də soruşdu.

Ravik başını buladı. Yenə dəbilqə... Amazonka... Dalğalar qoynundan çıxmış su pərisidir, pambıq kimi yumşaq dərisindən su ətri, gənclik qoxusu gəlir...

– Əlini çək, – dedi.

Joan dinmədi. Yenə o yanaqlar, o ağız, çatma qaşlar və bir də pijamanın açıq yerindən sinəsinə yol axtaran döşlər...

– Əlini çək, yoxsa...

– Yoxsa neyləyərsən?!

* * *

Açıq pəncərənin qabağında bir arı vızıldayırdı. Ravik baxışları ilə onu izlədi. Yəqin, onu bura mühacir Vizenhofun

qərənfilləri çəkib gətirmişdi, indi isə ayrı gül axtarırdı. Arı içəri girib, pəncərənin qabağındakı boş qədəhin üstünə qondu.

– Məndən ötrü darıxırdın? – Joan soruşdu.

– Hə.

– Çox?

– Hə.

Arı qalxdı, bir xeyli qədəhin başına dolandı. Sonra açıq pəncərədən çıxıb, günəşə sarı – Vizenhofun qərənfillərinə tərəf uçdu.

Ravik Joanın yanında uzanmışdı. «Yay gəlib, – deyə fikirləşirdi. – Yay gəlib, yenə çəmənlərə şeh düşüb, Joanın saçlarından qurumuş otların ətri, dərisindən isə yonca qoxusu gəlir». Ona həyat verən qanı sakit-sakit axan çay kimi damarları ilə yuxarı qalxır, ağına-bozuna baxmayıb, bütün sahilləri basır, göllənir və onun sularında təbəssümlü bir sifət əks olunurdu. Sanki, birçə anlığa hər şey canlanır, su həsrətli ağcaqayınlar, qovaq ağacları çiçək açır, sonra sükut çökürdü. Yalnız həzin bir pıçıltı eşidilirdi, elə bil, uzaq-uzaq ənginliklərin əks-sədası idi, damarlarından axan qanı dalğalandırırdı...



– Sənin yanında qalmaq istəyirəm! – Joan başını onun çiyninə qoymuşdu.

– Qal! Yatarıq... Az yatmışıq...

– Yox, getməliyəm.

– Bu bayırlıq paltarında hara gedəcəksən?

– Paltar gətirmişəm.

– Harada gətirmisən?

– Plaşın altından geymişdim. Ayaqqabım da var, çantamdadır. Hə şey götürmüşəm...

O, hara gedəcəyini demədi. Nə üçün getdiyini də bildirmədi. Ravik də heç nə soruşmadı...

Arı təzədən qayıtdı. İndi boş-boşuna fırlanmadı, birbaşa qədəhə sarı uçdu, ona qondu. Deyəsən, onun da kalvadosdan başı çıxırdı. Ya da şirnisi xoşuna gəlmişdi...

– Gələndə qalacağını dəqiq bilirdin?

– Hə... – Joan qımıldanmadan cavab verdi.

Rolanda məcməyidə şüşə və qədəh gətirdi. Ravik etiraz etdi:

– İçməyəcəyəm.

– Araq istəmirsən? «Zubrovka»dır.

– Bu gün istəmirəm. Qəhvə gətir, tünd olsun.
– Yaxşı.
Mikroskopu yerə qoyub siqaret yandırdı, pəncərənin qabağına gəldi. Çinarların yarpaqları irilənmiş, yamyaşıl olmuşdu. Axırıncı dəfə bura gələndə, onlar tamam keçəl idi...
Rolanda qəhvə gətirdi.
– Qızlarınız çoxalıb, Rolanda.
– Bəli, iyirmi nəfər...
– Alver hələ yaxşı gedir ki? İndi iyun ayı deyil?
Rolanda onun yanında oturdu:
– Müştəri o qədər çoxalıb ki, lap başımızı itirmişik. Deyəsən, camaatın ağlı çaşıb. Günortadan sonra dolu olur. Axşamlar isə...
– Bəlkə də, havadandır.
– Yox, havadan deyil. May, iyun aylarında heç vaxt belə olmayıb. Bu da dəliliyin bir növüdür. Bara baxsan, gözlərinə inanmazsan. Heç ağlına gətirərdin ki, fransızlar gəlib burada «Şampan» sifariş verəcəklər?
– Xeyr!
– Əcnəbilər heç, onlar həmişə alıblar. Bəs fransızlar? Özü də parisli ola?! «Şampan»! Pulunu da özləri verir! Daha «Dübene», «Fine», pivə içən yoxdur. İnanmırsan?
– Görməsəm, inanmaram.
Rolanda qəhvə süzdü:
– Nə qədər müştəri olar? Adam lap başını itirir. Aşağı düşəndə özün görəcəksən. İndidən gəlib dolublar. Özü də həmişə sənin gəlişini güdən peşəkarlar deyil, ayrı dəstədir. Bu adamlara nə olub, Ravik?
Ravik çiyinlərini çəkdi:
– Sulara qərq olan okean gəmisi haqqındakı əhvalat yadıma düşdü.
– Xeyr, biz sulara qərq olmuruq. Əksinə, işlərimiz yağ kimi gedir.
Qapı açıldı. İyirmi bir yaşlı, cavan oğlanlar kimi şax qamətli, əyninə çəhrayı rəngli qısa ipək paltar geymiş Ninetta içəri girdi. Mələk sifətli bu qız «Firma»nın ən yaxşı fahişələrindən hesab olunurdu. Əlindəki məcməyidə çörək, yağ və iki bölmə cem gətirmişdi.
– Madam eşidib ki, doktor qəhvə içir, – o, boğuq səslə dedi. – Deyir, cemin dadına baxsın. Özü hazırlayıb. – Ninetta

irişdi və onun mələk sifəti birdən-birə küçə uşaqlarının sırtıq sifətinə oxşadı. Məcməyini stolun üstünə qoyub, yırğalana-yırğalana çıxdı.

– Görürsən?! – Rolanda köks ötürdü. – O dəqiqə sırtılırlar. Bilirlər ki, işimiz onlardan keçir.

– Elədir. Ançaq indi sırtılmayıb nə vaxt sırtılacaqlar? Bunlar nə cemidir?

– Madamın fəxridir! Özü düzəldir, Riverada bostanı var. Doğrudan, yaxşıdır. Dadına baxmaq istəmirsən?

– Cemdən zəhləm gedir. Xüsusilə, onu milyonçular düzəldəndə...

Rolanda şüşə qapağı açıb cemdən iki-üç qaşıq götürdü, qalın kağızın üstünə qoydu, yanına bir az yağ, iki-üç dilim çörək əlavə elədi, sonra hamısını bir yerdə büküb Ravikə uzatdı:



– Yolda atarsan, – dedi, – xətrinə dəyməsin. Sən gedəndən sonra mütləq soruşacaq. Qocalmağa başlayan bir qadının son təsəllisidir. Onun xəyal dünyası çoxdan dağılıb. Hörmət xatirinə götür!

– Yaxşı! – Ravik durub qapını açdı. Aşağıdan müxtəlif səslər, musiqi, gülüş, qışqırtı eşidilirdi. – Nə çox səs-küy var? Fransızlardır?

– Fransızlar deyil. Çoxu əcnəbidir.

– Amerikalı?

– Ən qəribəsi də odur ki, elə deyil. Çoxu almandır. İndiyə kimi bura bu qədər alman gəlmirdi.

– Burada qəribə heç nə yoxdur.

– Çoxu da fransızca lap yaxşı danışır. Bir-iki il bundan qabaqkı almanlar hara, bunlar hara...

– Belə olacağını bilirdim. Əsgərlər də çox gəlir? Çağırışçılar, müstəmləkədən gələnlər...

– Onlar həmişə gəlirlər.

Ravik başını yırğaladı:

– Almanlar yaxşı pul xərcləyir, elə deyilmi?

Rolanda güldü:

– Kimin könlündən içmək keçirsə, qonaq eləyirlər.

– Deyəsən, bunlar ayrı əskərlərdir. Almaniyada valyuta məsələsi qəlizləşib, bütün sərhədlər də bağlıdır. Bir yana getmək üçün hökumətdən icazə almalısan. On markdan artıq götürməyə də qoymurlar. Doğrudan da, bu şən, pullu

almanların fransızca belə sərbəst danışması qəribədir, elə deyilmi?

Rolanda çiyinlərini çəkdi:

– Nə bilim, təki pulları saxta olmasın.

* * *

Evə saat doqquza işləyəndə çatdı.

– Mənə zəng vuran olub? – deyə qapıçıdan soruşdu.

– Xeyr.

– Günortadan sonra da?

– Xeyr, bu gün heç kəs zəng eləməyib.

– Gəlib soruşan necə?

Qapıçı başını buladı:

– Heç kim gəlməyib.

Ravik pilləkənlərlə yuxarı qalxdı. Birinci mərtəbədə ər-arvad Qoldberqlər yenə deyişirdi. İkincidə isə uşaq ağlayırdı. Bu, Fransa vətəndaşı Lüsyen Zilberman idi. Atası Ziqfrid Zilberman qəhvə alverçisi idi, qızlıq familiyası Levi olan anası frau Nelli Frankfurt-Maynda doğulmuşdu. Uşaq onlar üçün müqəddəs olduğu qədər də yaxşı bəhanə idi, çünki Fransada dünyaya gəlmişdi və onun sayəsində vaxtından iki il əvvəl fransız pasportu alacaqlarına ümid bəsləyirdilər. Buna görə də Lüsyen, bütün biryaşlı uşaqlar kimi, ailənin zülmkarına çevrilmişdi. Üçüncü mərtəbədə qrammofon oxuyurdu. Qaçqın Volmayer idi, alman xalq mahnılarına qulaq asırdı. Didərgin düşməzdən əvvəl Orannenburq həbs düşərgəsində olmuşdu. Dəhlizdən kömür, qaranlıq qoxusu gəlirdi...

Ravik öz otağına girdi. Oxumaq istəyirdi. Nə vaxtsa «Dünya tarixi» kitabının bir neçə cildini almışdı və onları axtarıb tapdı. Ancaq bu kitablar da ləzzət vermədi. Məyusedici olsa da, qəribə bir təsəlli tapdı ki, indi baş verən hadisələrin heç biri təzə deyil, hamısı bir neçə dəfə baş vermişdi. Alıb-aldatma, xəyanət, qırğınlar, Valpurgiya gecələri, kapital dünyasında taxt-taca sahib olmaq üçün satqınlıq, rüşvətxorluq, bir-birinə calanan müharibələr... Bəşər tarixi qanla, göz yaşları ilə yazılmışdı və tarixin minlərlə qana bələnmiş abidələri arasında təsadüfən, hansısa xeyirxahlığın gümüş suyuna çəkilmiş olurdu... Demaqoqlar, fırıldaqçılar, ata qatilləri, dost qanına susayanlar, hakimlik arzusundan məst

olmuş eqoistlər, məhəbbəti qılıncla qəbul elətdirən fanatik peyğəmbərlər... Tarix təkrar olunurdu və həmişə də imperatorlar yolunda, din yolunda mənasız yerə bir-birini qıran səbirli xalqlar, axmaqlar tapılmışdı... Bunların sonu yox idi...

Kitabları örtüb bir tərəfə qoydu. Açıq pəncərədən içəri səs-küy doldu. O dəqiqə tanıdı: Vizenhofla frau Qoldberq idi.

«Olmaz! – Bunu Rut Qoldberq dedi. – İndicə qayıdacaq. Bir saata gələr».

«Bir saat az vaxt deyil...»

«Bəlkə də, tez qayıtdı...»

«Hara gedib?»

«Amerika səfirliyinə. Hər axşam gedir, küçədə dayanıb, ona tamaşa edir, vəssalam... Sonra da qayıdıb gəlir...»

Vizenhof nəsə dedi, ancaq Ravik başa düşmədi.

«Bəs necə, – Rut Qoldberq acıqlandı. – İndi ağlı özündə olan adam var?! Qocaldığını mən də bilirəm».



«Qurtar!» – O, bir az ara verəndən sonra yenə dilləndi: – «İndi həvəsim yoxdur, istəmirəm...»

Vizenhof nəsə dedi.

«Danışmağa qoçaqsan! – frau Qoldberq cavab verdi. – Axı pul ondadır... Məndə bircə santim də yoxdur, sən də başlamısan...»

Ravik durdu, telefona baxdı, tərəddüd elədi. Saat ona az qalırdı. Joan səhər getdiyi idi, xəbər-ətər çıxmamışdı. Bu axşam gəlib-gəlməyəcəyini də soruşmamışdı. Bilirdi ki, gələcək. İndi isə inanmırdı...

«Sənin nə vecinə?! – Frau Qoldberqin səsi eşidildi. – Sənə bircə kef olsun, vəssalam...»

Ravik Morozovun otağına getdi. Qapı bağlı idi. «Katakomba»ya düşdü. Yolda qapıçıya dedi:

– Zəng vuran olsa, mən aşağıdayam.

Morozov burada idi, qırmızıbaş bir kişi ilə şahmat oynayırdı. Künc tərəflərdə qadınlar oturmuşdular. Kimi toxuyur, kimi də qəzet, kitab oxuyurdu. Hamısının da üz-gözündən qayğı yağırdı.

Ravik xeyli şahmata baxdı. Qırmızıbaş kişinin vəziyyəti yaxşı idi. Çox fikirləşmir, tez-tez oynayırdı. Morozov uduzurdu.

– Görürsən, başıma nə oyun gətirir? – Morozov dilləndi. Ravik çiyinlərini çəkdi. Qırmızıbaş kişi ona baxdı.

– Cənab Finkenştayn, – Morozov onu təqdim etdi. – Almaniyadan yenicə gəlib.

Ravik başını tərpətdi.

– Oralarda vəziyyət indi necədir? – deyə elə-belə, nəsə soruşmaq xatirinə dilləndi.

Qırmızıbaş kişi dinməyib, çiyinlərini çəkdi. Ravik də başqa cür gözləmirdi. Adətən, ilk günlərdə belə olurdu: sualı sual üstündən yağdırırdılar, həsrətlə gözləyirdilər ki, indicə «çevriliş oldu!» eşidəcəklər, «Üçüncü Reyx dağıldı» deyəcəklər. Ancaq indi hamı bilirdi ki, onu yalnız müharibə dağıda bilər. Az-çox ağlı olan adamlar onu da bilirdi ki, işsizlik problemini hərbi sənayeni gücləndirməklə həll eləyən hökumətin axırı iki çür ola bilər: ya müharibə, ya da daxilən sarsılmaq! Bununku müharibə olmalı idi...

– Mat! – deyə Finkenştayn sakitcə ayağa durdu, Ravikə tərəf döndü:– Yatmaq üçün neyləmək lazımdır? Burada yata bilmirəm, gözümə yuxu gedən kimi ayılıram.

– İçmək lazımdır, – Morozov dilləndi. – «Burqund» şərabı... Çoxlu «Burqund» şərabı, ya da pivə...

– İçən deyiləm. Bütün günü küçələri ayaqdan salıram, heydən düşənəcən küllənirəm, ancaq xeyri yoxdur, yenə yata bilmirəm.

Ravik:

– Bir-iki həb verərəm, – dedi, – gedək yuxarı.

– Qayıt gəl, Ravik! – Morozov onların arxasınça qışqırdı. – Məni tək qoyma, qardaş!

Qadınlardan bir-ikisi başını qaldırdı, sonra yenə toxumağa, oxumağa başladılar, sanki, həyatları bundan asılı idi.

Ravik Finkenştaynı öz otağına apardı. Qapını itələyəndə, açıq pəncərədən içəri dolmuş sərin hava dalğa kimi üzünə vurdu. Dərindən nəfəs alıb, işığı yandırdı, tələsik otağı nəzərdən keçirdi. Heç kəs yox idi. Finkenştayna həb verdi.

– Təşəkkür edirəm, – deyən Finkenştaynın üzündə bircə əzələ də tərpənmədi və o, kölgə kimi çəkilib getdi.

Ravik birdən hiss elədi ki, Joan gəlməyəcək. Bildi ki, bunu səhər də duymuşdu, ancaq onda inanmaq istəməmişdi. Yan-yörəsinə boylandı, elə bil, səs eşitmişdi. Birdənbirə hər şey aydınlaşdı, sadələşdi. Raviklə istədiyinə çatmışdı, daha tələsmirdi. Başqa cür də ola bilərdimi? Ravikə görə hər şeydən keçməli idi? Yenə həmişəki kimi qayıdardımı?

Axmaqlığa bax! Əlbəttə, başqasını tapmışdı! Özü də təkcə adam yox, həm də elə bir həyat tapmışdı ki, əl çəkmək istəmirdi...

Aşağı düşdü. Özü özündən iyrənirdi...

– Zəng vuran oldu?

Yenicə növbəyə başlayan qapıçı ağzındakı sarımsaqlı kolbasanı çeynəyə-çeynəyə başını buladı.

– Zəng vurasıdırlar... Mən hələlik aşağıdayam, – deyib, Morozovun yanına getdi.

Onlar bir partiya şahmat oynadılar. Oyunu udan Morozov özündən razı halda ətrafa boylandı. Qadınlar səssiz-səmirsiz çıxıb getmişdilər. O, zəngi çaldı:

– Klarisse, bir qrafin çəhrayı şərab gətir, – dedi. – Bu Finkenştayn da lap avtomat kimi oynayır. Qoy rədd olsun! Riyaziyyatçıdır. Bu cür kamil adamlardan zəhləm gedir, insanlıqları olmur. – Ravikin üzünə baxdı: – Xeyir ola, sən bu vaxt buralarda neyləyirsən?



– Zəng gözləyirəm.

– Yenə elmin köməyi ilə kiminsə axırına çıxacaqsan?

– Dünən birinin mədəsini kəsib götürmüşəm.

Morozov qədəhləri doldurdu:

– İndi də burada oturub vurursan, – dedi. – Sənin qurbanın isə orada sayıqlayır. Bunun özündə də insanlığa xas olmayan nəsə var. Gərək, heç olmasa, sənin də mədən ağrıyaydı.

– Düz deyirsən, Boris! Dünyanın bədbəxtliyi də elə ondadır ki, nələr elədiyimizi özümüz də bilmirik. Ancaq sən bu islahatı niyə həkimlərdən başlayırsan? Siyasi xadimlərdən, generallardan başlasaydın, yaxşı olardı, müharibədən canımız qurtarardı.

Morozov arxaya söykənib, diqqətlə Ravikə baxdı:

– Həkimləri şəxsən tanımaq yaxşı deyilmiş, – dedi. – Onlara inamın itir. Səninlə o qədər bir yerdə içib keflənmişik ki! Bundan sonra heç qoyaram sən məni təşrih eləyəsən?! Lap tutaq ki, mənim tanımadığım cərrahdan qat-qat yaxşısan, ancaq yenə onun yanına gedərəm. Tanımadığına daha çox inanmaq adamın qanında var, ay saqqallı uşaq! Həkimlər, gərək, həmişə xəstəxanada qalalar, adam arasına çıxmayalar. Sizin sələflər – cadugərlər və loğmanlar bunu yaxşı biliblər. Mən özümü o vaxt bıçağın

altına verərəm ki, qabağımdakının qeyri-adi adam olduğuna inanam!

– Mən səni təşrih eləmərəm, Boris.

– Niyə?

– Heç bir cərrah qardaşını yarmaz.

– Narahat olma, belə xoş təsadüf qoymaram sənə qismət olsun! Yata-yata ürəyim birdən dayanacaq. Bunun üçün əlimdən gələni eləyirəm... – Morozov dəcəl uşaqlar kimi Ravikə baxdı, ayağa durdu. – Mən gedim, yoxsa Monmartrdakı mədəniyyət mərkəzinin qapıları bağlı qalar! İnsan nə üçün yaşayır, Ravik?

– Elə bu haqda düşünmək üçün. Yenə sualın var?

– Var. Nə üçün o, bu haqda düşünə-düşünə kamala çatan kimi ölür?

– Bəziləri kamala çatmamış da ölür.

– Ağzımı boza salma! İndi başlayacaqsan ki, ruh gəzir...

– Başlamamışdan qabaq mənim də sənə bir sualım var. Bax, şirlər dağkeçilərinin, hörümçəklər milçəklərin, tülkülər də toyuqların qənimidir. İndi de görüm, yer üzünün hansı yeganə canlısıdır ki, həmişə bir-biri ilə çəkişir, vuruşur, bir-birinin qənimi olur?

– Bu lap uşaq sualı oldu! Əlbəttə, «məhəbbət», «yaxşılıq», «mərphəmət» kimi sözləri icad eləyən insan – yer üzünün əşrəfi!

– Yaxşı, o, təbiətin hansı canlısıdır ki, özünü öldürə bilər və öldürür də?

– Yenə də «axirət dünyası», «Allah», «zühur eləmək» sözlərini icad eləyən insanlar.

– Əla! Özün görürsən ki, həyatımız ziddiyyətlərlə doludur, özün də soruşursan niyə ölürük...

Morozov heyrətlə onu süzdü:

– Ay sofist! – dedi. – Ay tənbəl...

Ravik də ona baxdı. «Ah, Joan! – Bunu özündən xəbərsiz ürəyi dedi. – Kaş indi bu çirkli şüşə qapıdan girəydin!»

– Boris, biz onda səhv elədik ki, fikirləşməyə başladıq. Əgər ehtiras, vəhşilik kimi bir səadətdən qaçmasaydıq, belə olmazdı. Kimsə bizim üstümüzdə təcrübə aparır, ancaq, deyəsən, cavabını hələ tapmayıb. Gəl taleyimizdən şikayətlənməyək. Hətta üzərində təcrübə aparılan heyvanlarda da peşəkar qürur olmalıdır.

– Bu sözləri öküzlər yox, qəssablar deyər! Alimlər deyər, dəniz heyvanları deməz! Ağ siçovullar deməz, ancaq həkimlər deyər!

– Elədir! Yaşasın «hər şeyin bir səbəbi var» deyən qanun! Boris, gəl gözəlliyin, bircə andakı əbədi səadətin sağlığına badə qaldıraq! Bilirsənmi, insana yeganə varlıq kimi bir də nə bəxş olunub? Gülmək və ağlamaq!

– Həm də sərxoş olmaq! Araqla, çaxırla, fəlsəfə ilə, qadınlarla, ümidlə, tənhalıqla keflənmək! Xəbərin varmı, o, yeganə canlı kimi bir də nəyi bilir? Bilir ki, öləcək! Buna görə də ona dərman kimi şirin xəyallar verilib. Daş da real varlıqdır, bitkilər də! Heyvanlar da elədir. Namısını da təbiət yaradıb. Ancaq heç biri öləcəyini bilmir. İnsan isə bilir! Oyan, ey ruh! Göylərə baş vur! Sən də çox ah-vay eləmə, ey qanuni qatil! Məgər biz indicə bir yerdə bəşəriyyətin səadət himnini oxumadıq?! – Morozov qurumuş palmanı elə silkələdi ki, toz qalxdı. – Əlvida, ey ürəkləri riqqətə gətirən cənub həsrətinin həqiqi simvolu, mehmanxana sahibəsinin sevimli ağacı! Sən də salamat qal, ey vətənsiz insan, kökündən qopmuş sarmaşıq gülü, ölüm oğurlayan cibgir! Get fəxr elə ki, romantiksən!



Morozov irişdi. Ancaq Ravikin dodağı da qaçmadı. Gözü qapıda idi. Qapı açıldı, növbətçi içəri girdi, onlara sarı gəldi. «Zəng elədi! – Ravik ürəyindən keçirdi. – Axır ki, elədi!» Yerindən tərpənmədi, gözlədi. Hiss etdi ki, qollarının əzələləri dartılır...

– Bu siqaret sizə çataçaq, müsyö Morozov, oğlan indicə gətirdi.

– Təşəkkür edirəm, – deyə Morozov rus siqaretini alıb çibinə qoydu. – Hələlik, Ravik! Bu gün yenə görüşəcəyik?

– Bəlkə də... hələlik, Boris.

* * *

Mədəsi kəsilmiş kişi gözlərini Ravikə zilləmişdi. Ürəyi bulanır, ançaq qaytara bilmirdi. Qaytarmağa bir şey də yox idi. Qıçları kəsiləndən sonra onun ağrısını hiss eləyən adam kimi idi...

Rahatlıq tapa bilmirdi. Ravik iynə vurdu. Yaşamasına ümid az idi. Ürəyi zəifləmiş, ciyərinin bir tayı da sıradan

çıxmışdı. Otuz beşçə yaşı olsa da, çox xəstəliklər geçirmişdi. Uzun müddət mədə xorasından əziyyət çəkmiş, sonra vərəm olmuşdu və onu da yaxşı müaliçə etdirməmişdi. İndi də xərçəng yaxalamışdı. Xəstəlik tarixindən bilinirdi ki, dörd il evli olub. Arvadı uşaq üstə ölmüşdü. Üç il keçəndən sonra uşaq da vərəmdən getmişdi... Özgə heç kəsi yox idi. İndi burada uzanıb gözlərini Ravikə zilləmişdi və ölmək istəmirdi. Səbirli, dözümlü idi və xəbəri yox idi ki, mədəsini kəsib götürüblər, yemək birbaşa onikibarmaq bağırsağa töküləcək, adama az-çox ləzzət verən duzlu xiyarı, qızardılmış donuz ətini heç vaxt yeyə bilməyəcək. Buradaca uzanmışdı, bədəni doğram-doğram idi, yavaş-yavaş çürüməyə başlamışdı, gözlərində nəsə tərpənirdi və onun da adına ruh deyirdilər. Get fəxr elə ki, romantiksən! Bu da bəşəriyyətin həyat himni!

Ravik hərarət çədvəlini yerinə asdı. Tibb bacısı durub göstəriş gözləyirdi. Yeniçə toxumağa başladığı köynəyi yanındakı stolun üstünə qoymuşdu. Millər üstündə idi, yumaq yerə düşmüşdü. Stoldan sallanan nazik yun ip uzaqdan, sızqı ilə axan qana oxşayırdı. Sanki, köynəkdən qan damırdı...

«Buradaca uzanıb qalıb... – Ravik ürəyindən keçirdi. – İndicə vurulan iynəyə baxmayaraq, gecə halı xarablaşacaq, dəhşətli ağrılar başlayacaq, yerindən tərpənə bilməyəcək, təngnəfəs olacaq, yuxusunu qarışdıracaq. Mən isə qadın gözləyirəm və düşünürəm ki, gəlməsə, bu gecə ən ağır gecə olacaq... Can üstə olan bu kişi, qonşu palatadakı qolları əzik-əzik olmuş Qaston Pere... Bu gecə bütün dünyada baş verəcək min cür hadisə ilə müqayisədə mənim dərdimin gülünc olduğunu özüm də bilirəm, ancaq yenə də xeyri yoxdur.... Heç xeyri yoxdur, kömək eləmir, heç nəyi dəyişmir, hər şey olduğu kimi qalır... Morozov necə dedi? Niyə sənin də mədən ağrımır? Hə, doğrudan, niyə ağrımır?»

Tibb bacısına:

– Bir şey olsa, mənə zəng eləyin, – dedi. Bu, Ketin qrammofon bağışladığı qız idi.

– Bu cənab çox fağır adamdır... – Qız dilləndi.

– Necədir? – Ravik heyrətləndi.

– Çox fağırdır... Yaxşı xəstədir...

Ravik yan-yörəsinə baxdı. Burada ona hədiyyə ediləsi heç nə yox idi. Çox fağırdır! Bu tibb bacıları bəzən qəribə

sözlər tapırlar! Yazıq olub-qalan gücünü, bütün əsəblərini toplayıb ölümlə çarpışır. Yox, fağır adam deyil!

Ravik mehmanxanaya qayıtdı. Qapıda Qoldberqlə rastlaşdı. Saqqalına dən düşmüş yaşlı adam idi, döş cibindən qızıl saatının qalın zənciri sallanırdı.

– Gözəl axşamdır! – Qoldberq onu söhbətə tutdu.

– Bəli... – Ravik onun indi Vizenhofun otağında olan arvadını xatırladı. – Bəlkə, bir az gəzək?

– Gəzdim... «Konkor» meydanına qədər getmişdim...

Hə, «Konkor» meydanına qədər! Amerika səfirliyi orada yerləşirdi. Ağ rəngli bina idi, damında ulduzlu bayraq yellənirdi. Gediş-gəliş az olan, sakit bir yerdi. Orada bir mücrü vardı və həmin mücrünün içində saxlanılan möhürlə vizalar təsdiq olunurdu. Əlçatmaz yer idi! Qoldberq də «Krilo» mehmanxanasının yanında dayanıb, gözlərini onun bağlı qapısına, işıq gəlməyən pəncərələrinə dikir və elə baxırdı ki, deyərdin, Rembrandtın hansı əsərinəsə, ya da əfsanəvi «Koxinor»[1] brilyantına tamaşa edir...



– Bəlkə, bir az da gəzək? «Zəfər tağı»na çatıb qayıdarıq, – deyə Ravik fikirləşdi: əgər yuxarıdakı iki nəfəri xilas edə bilsəm, gedib görəçəyəm, Joan gəlib, ya da bir azdan gələcək.

Qoldberq başını buladı:

– Evə gedirəm. Yəqin, arvadım indi məni gözləyir. İki saatdan çoxdur getdiyim...

Ravik saata baxdı. Birin yarısına az qalırdı. İndi heç kəsi xilas etmək lazım deyildi. Qadın çoxdan öz otağına qayıtmış olardı. O, pilləkəni yavaş-yavaş qalxan Qoldberqin arxasınca baxdı, sonra növbətçiyə yaxınlaşdı.

– Mənə zəng vuran olub? – deyə soruşdu.

– Xeyr.

Otağından işıq gəlirdi. Yadına düşdü ki, çıxanda özü söndürməmişdi. Stolun üstündəki kağız parçası elə işıldayırdı ki, deyərdin, üstünə qar yağıb. Yazmışdı ki, yarım saatdan sonra qayıdacaq. Onu götürüb cırdı. İçməyə bir şey axtardı, ancaq heç nə tapmadı. Təzədən aşağı düşdü. Növbətçidə kalvados tapılmadı. Təkcə konyak var idi. Ravik bir şüşə «Enessi», bir şüşə də «Vuvre» götürdü. Növbətçi ilə xeyli söhbət elədi. Kişi ona sübut etməyə çalışırdı ki,

---

[1] *“Koxinor”* – İngilis krallarının tacındakı brilyant. Dünyada ən böyük brilyant daşlarından biridir.

ikiyaşlıların Sən-Kludakı növbəti qaçış yarışında II Ludunun imkanları daha böyükdür. İspaniyalı Alvares gəlib keçdi. Ravik gördü ki, o, azacıq axsayır. Bir qəzet də götürüb otağına qayıtdı. Gecə heç cür qurtarmaq bilmirdi. «Sevən adam möcüzəyə inanmırsa, batıb!» Bu sözləri 1933-cü ildə vəkil Arensen Berlində demişdi. Üç həftədən sonra onu həbs düşərgəsinə göndərdilər, çünki sevgilisi şeytanlamışdı... Ravik «Vuvre»ni açdı, Platonun kitabını əlinə götürdü. Bir-iki dəqiqə keçməmiş, qaytarıb yerinə qoydu, gəlib pəncərənin qabağında oturdu.

Gözlərini telefona zilləmişdi. Lənətə gəlmiş bu qara aparatdan da kömək yox idi. Joanın nömrəsini bilmədiyi üçün zəng eləyə bilməzdi. Harada yaşadığını da bilmirdi. Özü soruşmamış, Joan da deməmişdi. Bəlkə də, qəsdlə deməmişdi. Onsuz da bəhanə tapacaqdı...

Tünd olmayan şərabdan bir qədəh içdi. «Lap axmağam, – deyə ürəyindən keçirdi. – Bu gün səhər yanımda olan qadını gözləyirəm. Üç ay yarım ayrı düşdüm, vecimə olmadı, indi bircə gün gəlməyib, dözə bilmirəm. Ondan sonra görməsəydim, belə olmazdı. Özümü hazırlamışdım. Ancaq indi...»

Ayağa durdu. Yox, günah bunda deyil. Günah onun içini gəmirən məchulluqda idi. Saatbasaat beyninə pərçimlənən inamsızlıqda idi...

Qapıya tərəf getdi. Bilirdi ki, açıqdır. Ancaq yenə yoxladı. Qəzet oxumağa başladı. Hərfləri güclə seçirdi. Polşa münaqişələri... Labüd toqquşmalar... Torpaq iddiası... İngiltərə və Fransanın Polşa ilə müqavilə bağlaması... Getdikcə yaxınlaşan müharibə... Qəzeti yerə atıb, işığı söndürdü. Qaranlıqda uzanıb gözləməyə başladı. Yata bilmirdi. Düyməni basıb işığı təzədən yandırdı. «Enessi» stolun üstündə idi. Ancaq açmadı. Durub pəncərənin önündə oturdu. Hava sərin idi, uzaq səmada ulduzlar sayrışır, həyətdə pişiklər boğuşurdu. Üzbəüz evin eyvanında bir kişi tuman-köynəkdə dayanıb ora-burasını qaşıyırdı. Sonra ucadan əsnəyib, işıq gələn otağına girdi. Ravik çarpayıya baxdı. Bilirdi ki, yata bilməyəcək. Oxumağın da mənası yox idi. İndicə oxuduqlarının heç biri yadında qalmamışdı. Yaxşısı budur ki, çıxıb getsin. Ancaq hara? Eyni şey idi. Getmək də istəmirdi. Ancaq bir xəbər bilmək istəyirdi. Lənət şeytana,

konyak şüşəsi yenə əlində idi! Onu yerinə qoydu. Sonra əl çantasından həb götürdü. Bunlardan bayaq qırmızıbaş Finkenştayna da vermişdi. O, indi yatmış olardı. Həbləri atdı. Özünün bunlarla yuxuya gedəcəyi isə şübhəli idi... Birini də atdı. Joan gəlsə, oyanardı. Ancaq o gəlmədi. Heç sonrakı axşam da gəlmədi...

## XXI

Ravik mədəsi kəsilmiş kişinin yanında idi. Ejeni başını palatanın qapısından içəri uzatdı:

– Telefona, müsyö Ravik!

– Kimdir?

– Bilmirəm, soruşmadım. – Telefonçu qız bayırda dedi.

Ravik Joanın səsini əvvəlcə tanımadı. Səs lap uzaqdan gəlirdi və anlaşılmırdı.



– Joan, sənsən? Haradasan?

Səs elə gəlirdi ki, deyərdin, Parisdən danışmır. Gözləyirdi ki, Joan indicə dəniz sahilindəki şəhərlərdən birinin adını çəkəcək. O, indiyə kimi xəstəxanaya zəng vurmamışdı.

– Evimdəyəm, – dedi.

– Parisdə?

– Əlbəttə! Özgə harada olasıyam?

– Xəstəsən?

– Yox. Niyə elə deyirsən?

– Xəstəxanaya zəng elədiyin üçün.

– Mehmanxanaya zəng vurmuşdum, yox idin. Ona görə də xəstəxanaya vurdum.

– Bir hadisə olub?

– Yox! Nə olmalı idi? Kefini soruşmaq istəyirdim.

Onun səsi indi aydınlaşmışdı. Ravik siqaret və kibrit çıxardı. Kibritin bir tərəfini stola dayayıb, çöp çıxardı, siqaretini yandırdı.

– Bura xəstəxanadır, Joan, – dedi, – adam hər dəqiqə nəsə gözləyir. Qəza olur, xəstələnən olur...

– Mən xəstə deyiləm. Düzdür, uzanmışam, ancaq xəstə deyiləm.

– Lap yaxşı... – Ravik əlindəki kibrit qutusunu stolun üstündə oynatmağa başladı. Joanın nə deyəcəyini gözləyirdi.

Joan da nəsə gözləyirdi. Ravik onun nəfəsini aydınca eşidirdi. Joan gözləyirdi ki, o başlasın. Onda işi asan olardı...

– Joan, telefonda çox qala bilmərəm. Yaranı açmışam, tez qayıdıb sarımaq lazımdır.

Joan bir anlığa susdu, sonra:

– Niyə görünmürsən? – dedi.

– Ona görə ki, nə telefon nömrəni bilirəm, nə də qaldığın yeri.

– Deməmişəm?

– Yox, Joan.

– Elə şey olmaz, demişəm... – onun ayağı yer aldı. – Dəqiq yadımdadır, dedim. Yenə unutmusan.

– Yaxşı, unutmuşam, bir də de. Yanımda qələm var.

Joan ünvanı da, telefonu da dedi.

– Dəqiq bilirəm ki, vermişdim, Ravik. Düz sözümdür.

– Oldu, Joan. Mən getdim. Bu axşam bir yerdə şam eləyək?

Joan bir anlığa ləngidi, sonra:

– Niyə gəlib mənə baş çəkmirsən? – dedi.

– Yaxşı, bunu da eləyərəm. Axşam səkkizdə gəlim?

– Niyə indi gəlmirsən?

– İşim var.

– Çox çəkər?

– Təxminən, bir saat.

– Qurtaranda gəl.

«Hə, başa düşürəm, axşam vaxtın yoxdur», – deyə fikirləşən Ravik soruşdu:

– Axşam niyə olmur ki?

– Ravik, sən hərdən lap adi şeyləri də başa düşmürsən. Ona görə ki, indi gəlməyini istəyirəm... Axşama qədər gözləmək istəmirəm... Yoxsa bu vaxt xəstəxanaya niyə zəng vururdum?!

– Yaxşı, qurtaran kimi gələrəm.

Ravik əlindəki kağızı fikirli-fikirli qatlayıb, geri qayıtdı...

* * *

Bina Paskal küçəsinin tinində idi. Joan yuxarı mərtəbədə yaşayırdı. Qapını özü açdı:

– Gəl, – dedi, – nə yaxşı gəlib çıxdın! İçəri keç.

Əynində adi, qara rəngli kişi xalatı vardı. Onun bu xasiyyəti Ravikin xoşuna gəlirdi. Heç vaxt tül, ipək paltar geyməzdi. Rəngi həmişəkindən də çox qaçmışdı, bir az da həyəcanlı idi.

– Gəl, – dedi, – səhərdən gözləyirəm. Bax, gör neçə yaşayıram.

O, qabağa düşdü. Ravik gülümsədi. Yaman bic idi, onu qabaqlayıb, sual verməyə qoymadı. Onun qəşəng, şax çiyinlərinə baxdı. İşıq düz saçlarına düşürdü. Bircə anlığa nəfəsi tutuldu, ona elə gəldi ki, Joana əməlli-başlı vurulub...

Joan onu böyük bir zala gətirdi. İşıqlı emalatxanaya oxşayırdı. Enli, hündür pəncərəsi Rafael prospekti ilə Prudon prospektinin arasındakı bağa açılırdı. Bir az sağda isə Port-de-la-Mote görünürdü. Onun arxa tərəfində isə Bulon meşəsi qızılı-yaşıl rəngə çalırdı.



Otaq yarımçıq da olsa, müasir dəbdə bəzədilmişdi. Böyük divanın üstündəki örtük gömgöy idi. Kreslolar üzdən çox rahat görünsə də, o qədər də rahat deyildi. Stollar da çox alçaq idi. Ortalığa həmişəyaşıl fikus ağacı qoyulmuşdu. Bunlardan əlavə, bir amerikan qrammofonu var idi və Joanın çamadanlarından biri də küncə qoyulmuşdu. Hər şey yerli-yerində idi, ancaq buna baxmayaraq, Ravikin o qədər də xoşuna gəlmədi. Ya lap yaxşı olsun, ya da lap pis, yarımçıq şeyləri xoşlamırdı. Fikusdan da lap zəhləsi gedirdi...

Hiss elədi ki, Joan ona baxır. Ravikin bunu neçə qəbul edəcəyini bilmirdi, ancaq cəsarət eləyib onu bura çağırması böyük risq idi.

– Çox gözəldir, – deli, – böyükdür, gözəldir.

O, qrammofonun qapağını qaldırdı. Əntiqə cihaz idi, valları özü avtomatla dəyişirdi. Stolun üstündə bir qalaq val vardı və Joan bir-ikisini götürüb diskin üstünə qoydu:

– İşlətməyi bilirsən?

Ravik bilsə də, «yox» dedi.

Joan düymələrdən birini basdı:

– Əntiqə şeydir, saatlarla çalır. Valları dəyişdirmək, söndürmək üçün tez-tez durmaq lazım deyil. Uzan, qulaq as, günəşin qürub etməsinə bax, xəyala dal...

Doğrudan da, əla cihaz idi. Ravik onu görmüşdü və bilirdi ki, qiyməti, təxminən iyirmi min frankdır. Həzin

musiqi sədaları ətrafa yayıldı. Parisin sentimental mahnılarından idi... «J`attendrai».[1]

Joan bir az aşağı əyilib diqqətlə qulaq asırdı.

– Xoşuna gəlir? – deyə soruşdu.

Ravik başını tərpətdi. O, qrammofona deyil, Joanın musiqinin sehrinə düşmüş cazibədar sifətinə baxırdı. O istədiyi anda vurula bilirdi və Ravik də özündə olmayan bu xasiyyətinə görə ona yaman vurulmuşdu. Ürəyindən keçirdi: «Daha qurtardı!» Ürəyi ağrımadı. Elə bil, günəşli İtaliyadan dumanlı-çiskinli şimala qayıtdı...

Joan dikəlib gülümsədi:

– Gəl, – dedi, –hələ yataq otağını görməmisən.

– Mütləq görməliyəm?

Joan sınayıcı nəzərlərlə ona baxdı:

– İstəmirsən? Nə üçün baxmırsan?

– Doğrudan, nə üçün baxmıram? Əlbəttə, baxacağam!

Joan onun yanaqlarını sığallayıb öpdü. Nə üçün belə elədiyini Ravik başa düşdü...

– Gəl, – deyə Joan onun əlindən yapışdı.

* * *

Yataq otağı fransızsayağı bəzədilmişdi. Çarpayı iri idi, süni naxışlarla XVI Lüdovik üslubuna oxşadılmışdı. Balaca dolabça da onun eyni idi və böyrəyə oxşayırdı. Güzgü barokko üslubunu xatırladırdı. Divardan müasir Həbəş xalçası asılmışdı. Stulları, kresloları, sanki, ucuz macəra filmlərindən götürmüşdülər. Üstündə «XVI əsr» yazılmış naxışlı Florensiya sandığı buradakıların heç birinə yaraşmırdı, elə bil, gözəl şahzadə qız görməmiş cavanların arasına düşmüşdü. Bir küncə atılıb qalmışdı və üstündə bənövşə taxılmış şlyapa, bir cüt gümüşü ayaqqabı vardı.

Çarpayı yığışdırılmamışdı. Ravik onun bayaq harada uzandığını gördü. Dolabçanın üstünə çoxlu ətir şüşəsi düzülmüşdü. Divardakı dolablardan biri açıqdı. İçərisində xeyli paltar asılmışdı. Əvvəllər onun bu qədər paltarı yox idi...

Joan Ravikin əlini hələ də buraxmamışdı və ona sığındı:

– Xoşuna gəlir?

– Yaxşıdır. Sənə yaman yaraşır...

---

[1] “Gözləyəcəyəm” *(fran.)*

Joan başını tərpətdi. Ravik onun yumşaq qolunu, döşlərini hiss etdi və qeyri-ixtiyari onu özünə tərəf çəkdi. Joan müqavimət göstərmədi. Çiyinləri bir-birinə toxundu. Joan sakitləşmiş, bayaqkı yüngül həyəcanından əsər-əlamət qalmamışdı. Sifəti aydın idi və Ravikə elə gəldi ki, onun gizlətməyə çalışdığı razılıq hisslərindən başqa, üzündə güclə sezilən bir qalibiyyət kölgəsi də dolaşır...

«Qəribədir, bunlara alçaqlıq da yaraşır, – deyə ürəyindən keçirdi. – İndi mən ikinci dərəcəli yelbeyin bir məşuq rolunu oynayıram, o da utanıb-qızarmadan birinci dərəcəli məşuqun bağışladığı bərbəzəkli otaqları mənə göstərir və onları göstərə-göstərə də zəfər ilahəsi Nikeyə oxşayır...»

– Heyif ki, sənin də belə mənzil almağa ixtiyarın yoxdur. O miskin mehmanxanalar hara, bu hara... Bu, başqa aləmdir.



– Düz deyirsən. Çox sağ ol ki, bunları mənə göstərdin. İndisə gedim, Joan.

– Gedirsən? Belə tez? İndicə gəlmədin?

Ravik onun əllərindən yapışdı:

– Gedirəm, Joan... həmişəlik gedirəm... Sən başqası ilə yaşayırsan... Mən isə sevdiyim qadını başqa kişilərlə bölüşmək istəmirəm!

Joan əllərini geri çəkdi:

– Nə? Nə dedin? Mən? Bunu sənə kim çatdırıb? Yaramazlığa bax! – O, diqqətlə Ravikin üzünə baxdı: – Hə, bildim! Yəqin, Morozov deyib. Ay...

– Nə Morozov? Bunu demək lazım deyil ki! Özüm görmürəm?

Hirsindən Joanın rəngi ağardı. O, bayaq qələbə çalacağına əmin idi, ancaq vəziyyət birdən-birə dəyişdi.

– Hə, başa düşdüm! Belə mənzildə qaldığıma, «Şəhrizad»dan çıxdığıma görə deyirsən! Belə çıxır, kimsə məni saxlamalıdır... Başqa cür ola bilməz...

– Demədim ki, səni saxlayan var.

– Eyni şeydir! Məsələ aydındır! Əvvəlcə məni o lənətə gəlmiş gecə restoranında işə düzəldirsən, sonra da tək qoyub gedirsən, mən də kiminləsə söhbət edəndə, ya da kimsə qeydimə qalanda, deyirlər ki, səni saxlayan var! Restoran qapıçısının uydurduğu bundan artıqmı olacaq! Kiminsə mənliyi olmasını, işləyib özünə gün ağlamasını dilənçi

kimi çaypulu yığan bir adam haradan başa düşər? Sən, sən də onun sözünə inanırsan. Heç utanmırsan?

Ravik geri dönüb, onun qollarından yapışdı, göyə qaldırıb, çarpayının üstünə atdı:

– Gördün?! – dedi. – Boş-boş danışma!

Bu, Joan üçün o qədər gözlənilməz oldu ki, o, yerindəcə uzanıb qaldı.

– Bəlkə, gəlib döyəsən də?! – dedi.

– Yox! İstəyirəm, sən boş-boş danışmayasan.

– Belə də olmalı idi... – Joan astadan, boğuq səslə dilləndi. – Belə olmalıydı...

Sakitcə uzanmışdı. Sifəti ifadəsiz, dümağ idi, qanı qaçmışdı, bir nöqtəyə zillədiyi gözləri şüşə kimi parıldayırdı. Sinəsi yarıyacan açılmış, çılpaq baldırı çarpayıdan sallanmışdı.

– Mən də sənə zəng vururam, sevinirəm ki, gələcəksən... Sən də gəlib belə oyun çıxarırsan... – O, ikrahla bir də təkrar elədi: – Oyun çıxarırsan! Elə bilirdim, sən başqa adamsan...

Ravik yataq otağının qapısında dayanmışdı. Zövqsüz bəzədilmiş otağa, çarpayıda uzanıb qalmış Joana baxır və görürdü ki, onlar bir-birinə yaraşır. Bu söhbəti saldığına peşman oldu, özünü danladı. Gərək, bu söhbəti başlamayaydı, dinməzcə çıxıb gedəydi, vəssalam... Yox, elə eləsə, Joan dalınca gələrdi, həmin söz-söhbət orada başlanardı.

– Demək, sən belə imişsən! – Joan bir də tərkar elədi. – Heç gözləməzdim... Elə bilirdim, sən başqa adamsan...

Ravik dinmirdi, ancaq onun belə ucuz-ucuz danışmasına da dözə bilmirdi. Necə olub ki, üç gün elə bilib, o gəlməsə, gözünə yuxu getməyəcək? İndi bunu xatırlamağın mənası vardımı? Siqaret çıxarıb yandırdı. Ağzı qurumuşdu. Qonşu otaqda qrammofon hələ də oxuyurdu. Yenə həmin mahnı idi: I`attendrai... Gedib onu söndürdü.

Geri qayıdanda Joan hələ də uzanmışdı. Sanki, heç qımıldanmamışdı. Ancaq xalatın ətəyi bir az da açılmışdı.

– Bu barədə nə qədər az danışsaq, o qədər yaxşı olar, Joan...

– Sən özün başladın.

Ravik az qaldı ətir şüşələrindən birini götürüb onun təpəsinə çırpsın...

– Bilirəm, – dedi, – mən başladım, mən də qurtarıram...

Geri dönüb qapıya tərəf getdi. Ancaq Joan onu qabaqladı, qapının cəftəsini vurub, üzünü Ravikə çevirdi, qolları ilə yolunu kəsdi:

– Belə oldu? Necə yəni qurtarıram? Qurtarıb gedirsən? Getmək nə yaxşı belə asan imiş? Ancaq mən hələ qurtarmamışam, sözüm qalıb! Çox sözüm qalıb! Sən, sən özün məni «Kloş d `Or»da gördün! Gördün ki, yanımda kişi var, ancaq gecə yanına gələndə bu vecinə olmadı, mənimlə yatdın, səhəri də fikir vermədin, doymamışdın, yenə mənimlə bir yastığa baş qoydun... Onda xoşuma gəldin, çünki ağıllı idin, heç nə soruşmurdun və elə buna görə də səni əvvəlkindən də çox sevdim, dedim ki, nə yaxşı, başqa cür yox, məhz belədir... Sən yatanda doyunca ağladım, öpdüm... Onda xoşbəxt idim və evə qayıdanda Allaha min şükür dedim. Ancaq indi... İndi gəlib, o vaxt mənimlə yatmaq xatirinə əlini yellədərək «cəhənnəmə ki!» dediyin şeyi təzədən üzümə çırpırsan, özünü namusu ləkələnmiş adam kimi aparırsan, qısqanc ər təki hay-küy salırsan. Nə istəyirsən məndən? Ərkin çatırmı buna?



– Yox, çatmır.

– Gördün? Yaxşı ki, bunusa boynuna alırsan. Onda niyə bunları mənim başıma qaxırsan? O gecə yanına gələndə niyə demədin? Hə, onda...

– Joan!

O susdu. Tövşüyür, gözlərini Ravikdən çəkmirdi.

– Joan, sən o gecə gələndə elə bildim, qayıtmısan... Mənə özgə şey lazım deyildi. Ancaq yanılmışam... Sən qayıtmamışdın...

– Sənin yanına qayıdan mən deyildim? Yoxsa, başqası idi? Bəlkə, kölgəm olub?

– Sən gəlmişdin... Ancaq qayıtmamışdın...

– Çox qəliz oldu. Bunların da fərqi var?

– Fərqini özün yaxşı bilirsən. Əvvəllər mən də bilmirdim. Ancaq indi bilirəm! Sən başqası ilə yaşayırsan...

– Yenə başladı! Başqası ilə yaşayıram! Bir-iki dost-tanışım varsa, demək, başqası ilə yaşayıram!.. Bəlkə, bütün günü dörd divar arasında qaxılıb oturum, heç kəslə danışmayım ki, mənə «kiminləsə yaşayır» deməsinlər?

– Belə gülünc olma, Joan.

– Gülünc? Gülünc kimdir? Gülünc sən özünsən.

– Yaxşı, qoy mən olum. İndi deyirsən, səni zorla qapıdan aralayım?

Joan yerindən tərpənmədi:

– Mənim kiminləsə yaşamağımın sənə isti-soyuğu var? Özün deyirdin ki, bu, səni maraqlandırmır.

– Düz deyirsən, doğrudan da, maraqlandırmırdı. Elə bilirdim, buna son qoymusan. Keçmişin mənə dəxli yox idi. Ancaq səhv eləmişəm, gərək, maraqlanaydım... Ola bilsin ki, özüm özümü aldatmaq istəmişəm... Zəiflik eləmişəm... Ancaq bu da heç nəyi dəyişmir!

– Necə yəni heç nəyi dəyişmir? Özün görəndə ki, düz eləmirsən...

– Burada söhbət düz, ya səhv eləməkdən getmir. Sən təkçə kiminləsə yaşamamısan, indi də yaşayırsan! Ondan əl çəkmək də istəmirsən. Onda bunu bilmirdim...

– Yalan danışma! – Joan qəfildən, sakitcə onun sözünü kəsdi. – Həmişə bilmisən! Onda da bilirdin! – deyib Ravikin gözlərinin içinə baxdı.

– Yaxşı, tutaq ki, bilirdim, ancaq onda bilmək istəmirdim. Bilirdim, ancaq inanmırdım. Sən bunu başa düşməzsən. Qadınlar belə şeyi bilməz... Bunun da məsələyə dəxli yoxdur.

Joanın üzünə qəfil, dəhşətli bir qorxu çökdü:

– Mənə heç bir pisliyi keçməmiş adamı birdən-birə, heç nədən necə atım? Nədir, nədir, sən gəlib çıxmısan... Niyə başa düşmürsən?

– Başa düşürəm.

Joan indi küncə qısnanmış pişiyə oxşayırdı. Elə bil, tullanmaq istəyəndə, yeri ayağının altından çəkib aparmışdılar...

– Başa düşürsən?! – O, heyrətlə soruşdu. Həmin dəqiqə də gözlərindəki gərginlik yoxa çıxdı, qabarmış çiyinləri yerinə düşdü. – Başa düşürsənsə, niyə mənə zülm edirsən? – deyə yorğun səslə soruşdu.

– Çəkil qapıdan! – Ravik çox da rahat olmayan kreslolardan birində oturdu. Joan tərəddüd elədi. – Gəl! Qorxma, qaçmaram...

Joan asta addımlarla qapıdan aralandı, özünü divanın üstünə saldı. Guya, heyi qalmamışdı və Ravik gördü ki, bu da qondarmadır.

– İçməyə bir şey ver, – dedi.

Ravik başa düşdü ki, o vaxt qazanmaq istəyir. Ancaq onun üçün fərqi yox idi, qoy qazansın...

– Haradadır?

– Dolabda.

Ravik dolabı açdı. Xeyli şüşə vardı. Çoxu da nanəli araq. İkrahla onlara baxdı, hamısını bir tərəfə yığdı. Künc tərəfdə yarım şüşə «Mortel» konyakı və kalvados tapdı. Kalvados şüşəsi hələ açılmamışdı. Ravik ona toxunmayıb, konyakı götürdü.

– İndi də nanəli araq içirsən? – deyə çiyni üstündən soruşdu.

– Yox!

– Onda konyak gətirirəm.

– Orada kalvados da var, onu aç.

– Konyak bəs eləyər.

– Kalvadosu aç!

– Başqa vaxt...



– Konyak istəmirəm, kalvados gətir! Xahiş edirəm, onu iç!

Ravik təzədən dolaba baxdı. Sol tərəfdəki kalvados Ravik üçün idi, sağdakı nanəli araq isə o biri üçün. Elə bil, bunları səliqəli evdar qadın yerbəyer düzmüşdü, adamın ürəyi şan-şan olurdu. Kalvadosu götürdü. Niyə də götürməyəydi?! Hər ikisinin sevimli içkisi idi, onların məhəbbət rəmzinə çevrilmişdi və bu sentimental ayrılıq səhnəsi də onunla bitsə, yaxşı olardı. İki qədəh də götürüb, stola yaxınlaşdı, Joanın baxışları altında kalvados süzdü.

Gün günorta yerinə qalxmış, onun qızılı saçaqları pəncərəyə səpələnmişdi. Əsl işıq bu idi! Min rəngə çalırdı və səma da ona boyanmışdı... Ravik saata baxdı. Dördə yenicə işləyirdi. Baxışları saniyəölçənə ilişib qaldı. Ona elə gəldi ki, saat yatıb. Ancaq saniyəölçən balaca, qırmızı quş dimdiyi kimi çevrədəki xətləri, rəqəmləri bir-bir dənləyirdi... Düz tapdı, bura gəldiyi yarım saat ancaq olardı. «Nanəli araq! – ürəyindən keçirdi. – Zövqə bax!»

Joan üstünə göy örtük salınmış divanda oturmuşdu.

– Ravik!.. – Çox ehtiyatla, yorğun, həzin səslə danışırdı. – Bunu başa düşməyin növbəti kələyin idi, yoxsa doğru deyirdin?

– Kələk deyildi, doğru sözüm idi.

– Başa düşürsən?

– Hə...

– Bilirdim, belə olacaq... – Onun çöhrəsinə təbəssüm qondu. – Bilirdim, Ravik!

– Bunu başa düşməyə nə var ki...

Joan başını tərpətdn:

– Mənə bir az vaxt ver... İndi deyə bilmərəm... Pislik eləməyib axı... Haradan biləydim ki, qayıdacaqsan?! Belə tez deyə bilmərəm....

Ravik kalvadosu bir dəfəyə atdı:

– Xırdalamaq nəyə lazımdır?

– Yox, bilsən, yaxşıdır. Gərək, başa düşəsən! Bu elə şeydir ki... Mənə bir az vaxt lazımdır. Bəlkə də, özü... Heç bilmirəm neyləyəcək... Məni sevir... Ona lazımam... Onun günahı yoxdur... .

– Əlbəttə, yoxdur! Vaxt da nə qədər istəsən, var. Dünyanın bütün vaxtları sənə qurbandır, Joan.

– Yox, bir az olsa, bəsimdir. İndi deyə bilmərəm... – O, divanın mütəkkəsinə söykəndi. – Bu mənzil də, Ravik, sən fikirləşdiyin kimi deyil. Özüm işləyirəm, əvvəlkindən çox qazanıram... O, mənə kömək eləyib. Aktyordur. Mən də filmlərdə xırda rollara çəkilirəm. O düzəldib...

– Bilirdim...

Joan ona fikir vermədi:

– Mən o qədər də istedadlı deyiləm. Özüm özümü də aldatmıram. Məqsədim yalnız gecə restoranlarından uzaqlaşmaq idi. Orada irəli getmək olmur. Burada isə imkan var... İstedadsız da olar... Müstəqil olmaq istəyirəm... Bunlar sənə gülünc görünəcək, ancaq...

– Yox, ağlabatandır.

Joan onun üzünə baxdı.

– O vaxt Parisə də elə bu niyyətlə gəlməmişdin? – Ravik soruşdu.

– Hə.

«İndi o, acı-acı ağlayan günahsız körpəyə oxşayır. Həyat da, mən də onunla sərt rəftar elədik. Ancaq indi bir az sakitləşib, ilk tufan səngiyib. Günahımdan keçəcək və indi çıxıb getməsəm, son üç ayda başına gələnləri bircə-bircə danışaçaq. Hər şeyə son qoymaq üçün yanına gəldiyim bu səhləb çiçəyi poladdandır, məni elə kökə salıb ki, az qalır deyəm, düz eləmisən!..»

– Yaxşı, Joan, arzuna çatmısan. İrəli gedəcəksən...

– Doğru sözündür?

– Mütləq gedəcəksən!

– Doğrudan, Ravik?

Ravik ayağa durdu. Üçcə dəqiqə də ləngisə, hansı film haqdasa peşəkar söhbət başlanacaq! Fikirləşdi ki, onunla mübahisəyə girişməyin xeyri yoxdur, onsuz da uduzaçaq... Beləlǝri məntiqi muma döndərir! Burada sözün xeyri yoxdur, iş görmək lazımdır, vəssalam.

– Mən o mənada demədim. Yaxşısı budur, öz mütəxəssisindən soruş!

– Gedirsən?

– Getməliyəm.

– Niyə bir az da qalmırsan?

– Xəstəxanada işim var.

– Bəs bayaq deyirdin, işini qurtarıb gələcəksən? – deyə Joan onun qolundan yapışıb, üzünə baxdı.



İndi neyləsin? Ona desinmi, heç vaxt gəlməyəcək? Yox, bu gün üçün bəs idi. Ona da, Joana da. Demək istəmişdi, ancaq özü imkan verməmişdi. Ancaq qoysa da, qoymasa da, belə olacaq...

– Getmə, Ravik!

– Getməliyəm!

Joan ayağa durub, ona sığındı. «Yenə başlandı! Köhnə söhbət! Ucuzluqdur, çox eləyib bunu! Hər şeyə əl atır... Fəqət pişiyə ot yedirtmək olarmı?!»

Onun əlindən çıxdı:

– Gedəsiyəm, – dedi, – xəstəxanada bir kişi can üstədir.

– Həkimlər həmişə bəhanə tapır! – Bu sözləri Joan asta-asta dedi.

– Qadınlar kimi, Joan! Biz ölümlə oynayırıq, siz isə məhəbbətlə... Dünyanın bütün bəhanələri də, həqiqətləri də bunun üstündə bərqərar olub.

Joan dinmədi.

– Bizim mədəmiz də sağlamdır, –o, sözünə davam etdi, – özü də bu, bizə lazımdır, yoxsa çox şeyi həzm edə bilmərik. Başqaları heydən düşəndə, biz çanlanmağa başlayırıq... Əlvida, Joan!

– Daha gəlməyəcəksən, Ravik?

– Bunu özünə dərd eləmə... Tələsmə, özün bir yol tapacaqsan.

O, bir də geri dönmədən, tələsik qapıya yönəldi. Joan yerindən tərpənmədi. Ancaq Ravik bilirdi ki, onun arxasınca baxır. Birdən qulaqları batdı, sanki, dənizin dibinə enirdi...

## XXII

Qışqırtı Qoldberqin pəncərəsindən gəlirdi. Ravik bir az da dinşədi. Qoca Qoldberqin arvadını döyəcəyini, onun başına nəsə çırpacağını heç cür ağlına sığışdıra bilmirdi. Sükut çökdü. Sonra kimsə dəhlizlə yüyürdü, mühacir Vizenhofun otağından həyəcanlı səslər eşidildi, qapılar açılıb-örtüldü. Az sonra onun da qapısı döyüldü, mehmanxana sahibəsi özünü içəri saldı:

– Tez olun... Tez... Müsyö Qoldberq...

– Nə olub?

– Özünü asıb... Pəncərədən... Tez olun!

Ravik əlindəki kitabı qırağa qoydu:

– Polis gəlib?

– Yox, yox, polis gəlsəydi, sizi çağırardım? Arvadı indicə görüb.

Ravik aşağı yüyürdü:

– Kəndiri kəsiblər?

– Hələ yox... Bir az yuxarı qaldırıblar.

Alaqaranlıq otağın pəncərəsi önündə bir dəstə adam qaralırdı. Rut Qoldberq, mühacir Vizenhof və bir də kimsə var idi. Ravik işığı yandırdı. Vizenhofla Rut Qoldberq qoça Qoldberqi gəlincik kimi qucaqlarına almışdılar və üçüncü kişi tələsə-tələsə pəncərənin dəstəyinə bağlanmış qalstukun düyününü açmağa çalışırdı.

– Kəsin!

– Bıçağımız yoxdur, – Rut Qoldberq qışqırdı.

Ravik əl çantasından qayçı çıxarıb, kəsdi. Qalstuk qalın, şümal ipəkdən idi və kəsilməsi xeyli çəkdi. Ravik onu kəsəndə az qalırdı üzü Qoldberqin sifətinə toxunsun. Kişinin gözləri bərəlmiş, ağzı açıla qalmış, dili çıxmışdı. Seyrək saqqalına dən düşmüşdü və ağ xallı tünd-yaşılı qalstuk qırış-qırış olub, şişmiş boğazının ətinə işləmişdi. Meyit Vizenhofla Rutun qolları arasında asta-asta yellənirdi. Onlar, sanki, üzündə təbəssümü donmuş qoça Qoldberqi səssiz-səmirsiz yırğalayırdılar...

Rut Qoldberqin yanaqları qızarmışdı, göz yaşı da sel kimi axırdı, Vizenhof isə daş kimi ağır meyitin altında tər tökürdü. Qoca, sağlığında belə ağır olmazdı! Onların ikisini də tər basırdı, qorxudan sifətləri qırış-qırış olmuşdu, inildəyirdilər... Çiyinləri üzərindəki baş isə səssiz-səssiz, asta-asta yırğalanır, sanki, kiməsə, nəyəsə dişlərini ağardırdı. Ravik qalstuku kəsəndə, baş Rut Qoldberqə tərəf əyildi. O, diksinərək qışqırdı, əllərini buraxdı, meyit yana əyildi, bir qolu qalxdı, elə bil, təlxək kimi yalandan yıxıla-dura arvadın dalınca getmək istədi... Ravik onu tutub, Vizenhofun köməyi ilə döşəməyə uzatdı. Qalstukun düyününü açaraq, müayinəyə başladı.

– Məni... – Rut qırıq-qırıq danışmağa başladı. – Məni kinoya göndərdi. «Rütxen, – dedi, – bütün günü evdə oturub darıxırsan. Niyə kinoya getmirsən? «Kursel» kinoteatrına get, «Kraliça Kristiana» filmi gedir, Qrete Qarbo oynayır. Niyə gedib baxmırsan? Yaxşı yerə bilet al, ya parter olsun, ya da loja, otur bax; iki saatlığa bu cəhənnəmdən ayrılmağın özü də böyük şeydir». Elə sakit, elə mehriban danışırdı ki! Sonra başımı sığalladı, «Kinodan çıxanda da Monse parkının yanındakı şirniyyat dükanında şokoladlı, ya da südlü dondurma yeyərsən. Get, bir az əylən», – dedi. Mən də getdim. Qayıdanda...



Ravik ayağa duranda Rut Qoldberq səsini kəsdi.

– Deyəsən, siz çıxan kimi asıb...

Qadın düyünlənmiş yumruqlarını ağzına apardı:

– Ö... ölüb?

– Hələ demək olmaz, baxarıq... İndi süni nəfəs vermək lazımdır. Bilirsiniz, necə eləyirlər? – deyə Vizenhofdan soruşdu.

– Xeyr... Bir az... Lap az...

– Onda bura baxın!

Qoldberqin qollarını geniş açıb, təzədən sinəsinə qatladı, bir-iki dəfə belə elədi. Qoldberqin boğazında xırıltı eşidildi.

– Sağdır! – Qadın qışqırdı.

– Xeyr, ora yığılıb qalmış havadır.

Ravik onun qollarını bir az da hərəkət elətdirdi, sonra Vizenhofa tərəf döndü:

– İndi də siz eləyin, – dedi.

Vizenhof tərəddüdlə meyitin yanında diz çökdü.

– Tez olun! – Ravik hövsələdən çıxdı. – Biləklərindən tutun... Yox, bir az yuxarıdan tutsanız yaxşıdır.

Vizenhofu tər basdı.

– Bir az bərk eləyin! Ciyərlərdə qalmış havanın hamısı çıxsın.

Sonra mehmanxana sahibəsinə tərəf döndü. Onların başı qarışanda, otaq adamla dolmuşdu. İşarə ilə sahibəni yanına çağırdı, dəhlizə çıxdılar.

– Keçinib, – dedi, – indi elədiyimiz də boş şeydir. Qayda belədir, gərək, eləyəsən. Onu yalnız möcüzə xilas eləyə bilər.

– Bəs neyləyək?

– Həmişə elədiyinizi.

– Təcili yardım? Bu o deməkdir ki, on dəqiqədən sonra polis gələcək.

– Polisə, onsuz da, xəbər verməlisiniz. Qoldberqin sənədi var idi?

– Bəli, yaxşı sənədləri var. Pasportu da, şəxsi vərəqəsi də...

– Bəs Vizenhofun?

– Müvəqqəti icazəsi var. Vizası uzadılıb.

– Yaxşı oldu. Deməli, hər şey qaydasındadır. Onların ikisinə də deyin ki, mənim adımı çəkməsinlər. Qadın evə qayıdanda onu belə görüb, haray salıb, Vizenhof kəndiri kəsib, təcili yardım gələnə kimi süni nəfəs verib... Deyə bilərsiniz?

Sahibənin xırda, quş gözləri ona zilləndi:

– Əlbəttə. Onsuz da polis gələndə özüm yanlarında olacağam, qoymaram...

– Oldu.

Onlar otağa qayıtdılar. Vizenhof Qoldberqin üzərinə əyilərək işləyirdi. Sanki, onların ikisi də səhər idmanı edirdi. Sahibə qapının ağzında dayandı:

– Xanımlar və ağalar, – dedi, – təcili yardım çağırasıyam. Oradan gələn həkim, ya sanitarlar polisə zəng vuracaqlar, o da yarım saata burada olacaq. Kimin sənədi yoxdursa, şeylərini yığışdırsın, ən azı əldə-ayaqda olanları götürüb, «katakomba»ya düşsün, orada gözləsin. Ola bilsin, polis otaqları axtaracaq, şahidləri dindirəcək.

Otaq o dəqiqə boşaldı. Sahibə başını tərpətməklə Raviki arxayın elədi ki, Rut Qoldberqi də, Vizenhofu da öyrədəcək. Ravik döşəməyə atılmış qalstukun yanındakı əl çantasını və qayçını götürdü. Qalstuk elə düşmuşdü ki, üstündəki firma

nişanı görünürdü: «S. Fördör. Berlin». Onun ən azı on mark qiyməti vardı, Qoldberq kefinin kök vaxtlarında almış olardı. Bu firma Ravikə tanışdı, özü onun qalstuqlarını taxardı.

O, şeylərini yığışdırıb, Morozovun otağına qoydu. Ehtiyat üçün belə eləyirdi. Çox güman ki, polis heç nə ilə maraqlanmayacaq. Ancaq belə yaxşıdır, Fernandan sümüyü səksənmişdi.

O, «katakomba»ya düşdü.

Xeyli adam içəridə həyəçanla ora-bura vurnuxurdu. Hamısı da sənədi olmayan mühaçirlər, «gizli briqada» idi. Klarisse ilə Jan onlara kömək edib, çamadanları «katakomba»dakı zirzəmiyə oxşayan otağa yığırdılar. Zalın özü isə şam yeməyi üçün hazırlanırdı. Stollar açılmış, çörək qoyulmuşdu və mətbəxdən qızardılmış balıq iyi gəlirdi.

– Vaxt çoxdur, tələsməyin, – deyə Jan həyəcanlanmış mühacirləri sakitləşdirməyə çalışırdı. – Polis hara, belə tezliklə gəlmək hara!



Mühacirlər isə tələsirdilər. Onların bəxti nə vaxt gətirmişdi ki?! Əllərində çamadan, basabasla zirzəmiyə doluşurdular. İspan Alvares də onların arasında idi. Sahibə bütün mehmanxanaya car çəkmişdi ki, polis gələcək. Alvares Raviki görəndə günahkar-günahkar gülümsədi. Ravik də bilmədi nə üçün...

Arıq bir kişi arxayın addımlarla ona tərəf gəldi. Filologiya və fəlsəfə elmləri doktoru Ernst Zaydenbaum idi.

– Manevr başlandı? – deyə Ravikə müraciət etdi. – Axırıncı məşqdir. «Katakomba»da qalacaqsınız?

– Xeyr.

Mehmanxananın altıillik veteranı Zaydenbaum çiyinlərini çəkdi:

– Mən qalacağam, – dedi, – getməyə həvəsim yoxdur. Mənə elə gəlir, uzaqbaşı, protokol bağlayıb gedəcəklər. Qoca, ölü yəhudi kimin nəyinə lazımdır?!

– O lazım deyil. Ancaq dirilər, sənədi olmayan diri qaçqınlar çox lazımdır.

Zaydenbaum pensnesini düzəltdi:

– Mənim üçün fərqi yoxdur. Bilirsiniz, axırıncı dəfə polis bura sürək eləyəndə neylədim? İki ilin söhbətidir... Bir serjant da aşağı düşmüşdü. Janın ağ fraklarından birini geyib, xörək payladım, hələ onun özünə də araq gətirdim!

– Yaxşı ağlınıza gəlib...

Zaydenbaum başını tərpətdi:

– Vaxt gələcək ki, bu ora-bura kalvados qaçmaq da adamı bezdirəcək...

O, asta addımlarla axşama nə verəcəklərini öyrənmək üçün mətbəxə sarı getdi.

Ravik «katakomba»nın arxa qapısından həyətə çıxdı. Ayağının altında bir pişik qaldı. Onun qabağınca qaçqınlar gedirdi. Onlar küçələrə səpələndilər. Alvares bir az axsayırdı. «Bəlkə də, ikinçi dəfə təşrih olunsa, sağalar», – deyə Ravik, fikri dağınıq olsa da, ürəyindən keçirdi.

Tern meydanındakı kafedə oturmuşdu və qəflətən hiss elədi ki, Joan bu axşam gələçək. Bunun haradan ağlına gəldiyini özü də bilmədi, ancaq hiss elədi ki, gələcək...

Yeməyin pulunu verib, tələsmədən mehmanxanaya qayıtdı. Hava bürkü idi və dar küçələrdəki bir-iki saatlığa kirayə verilən mehmanxanaların qarşısındakı lövhələr, hələ axşam yeniçə düşdüyünə baxmayaraq, işıqlandırılmışdı. Pənçərədəki pərdənin arasından işıq süzülürdü. Bir dəstə matros fahişələrin dalınca düşmüşdü. Cavan idilər, şərab, isti yay axşamı onları qızışdırmışdı və həmin mehmanxanalardan birinə girdilər... Haradansa qarmon səsi gəlirdi. Qəflətən bir fikir beynində şimşək kimi çaxdı, sonra duruldu, yavaş-yavaş süzməyə başladı, qaranlıqdan sehirli bir mənzərə baş qaldırdı: Joan mehmanxanada oturub Raviki gözləyirdi ki, içəri girən kimi özünü onun üstünə salsın, ağlaya-ağlaya hər şeyi atdığını, qayıtdığını desin...

Dayandı. «Mənə nə olub? – Ürəyindən keçirdi. – Niyə dayandım? Niyə əllərim havanı onun saçları kimi qucaqlayır? Daha gecdir, heç nəyi qaytarmaq olmaz! Heç kəs də qayıtmaz! Nə vaxtsa yaşanmış anlar bir də geri dönərmi?»

Yoluna davam etdi, həyətə keçib, arxa qapıdan «katakomba»ya girdi. Elə astanadan gördü ki, içəridə xeyli adam var. Zaydenbaum da onların arasındaydı, ancaq xidmətçi kimi yox, müştəri təki oturmuşdu. Deyəsən, təhlükə sovuşmuşdu. İçəri keçdi.

Morozov otağında idi.

– Çıxmağa hazırlaşırdım, – dedi, – çamadanlarını görəndə elə bildim, yenə İsveçrəyə göndəriblər.

– Sakitlikdir?

– Hə, polislik iş qalmadı. Hətta meyiti sahibinə qaytardılar. Deyiblər ki, qaranlıq məsələ yoxdur, özünü öldürüb. Yuxarıdadır, indicə aparacaqlar.

– Yaxşı, onda mən də köçümü aparım otağıma.

Morozov güldü:

– Bu Zaydenbaum lap kef imiş! Bütün vaxtı orada oldu. Əlində qovluq, kağız-kuğuz, gözündə də pensne... Deyirdi ki, vəkildir, sığorta idarəsindən gəlib. Polisə heç aman vermədi, qoca Qoldberqin pasportunu götürdü. Dedi ki, ona lazımdır, polis təkcə şəxsi vəsiqəsini apara bilər. Onların öhdəsindən yaxşı gəldi... Onun özünün kağız-kuğuzu var?

– Nə gəzir!

– Onda yaxşı eləyib. Pasport indi qızıl qiymətinədir. Hələ bir il vaxtı var, kimsə istifadə eləyər. Ancaq həmin adam Zaydenbaum kimi həyasızlıq eləməsə, Parisdə yaşaya bilməz. Şəkli dəyişməyə nə var?! Təzə Aron Qoldberq cavan olsa, mütəxəssislər lap ucuz qiymətə tarixləri də dəyişər. Bu da ruhun ölməməsinin yeni növüdür, bir pasportla iki-üç adam yaşaya bilər...



– Deməli, bundan sonra Zaydenbaum Qoldberq oldu?

– Zaydenbaum istəmədi. Özünə sığışdırmır. O da yurdsuz-yuvasızların, didərginlərin Don Kixotudur. Qismətə inanan adamdır, kiminsə saxta pasportu ilə yaşayıb idealına xəyanət etməkdənsə, oturub başına nə gələcəyini gözləməyi üstün tutur. Bəlkə, sən götürəsən?

Ravik başını buladı:

– Mən də istəmirəm. Zaydenbaum düz eləyir...

Camadanları götürüb, aşağı düşdü. Qoldberq yaşayan mərtəbənin dəhlizinə çatanda uzun arxalıq geymiş yaşlı bir yəhudi onu ötdü. Uzunsaqqalı, gicgahlarında saxladığı saç onu üzdən İncildə təsvir olunan yepiskoplara oxşadırdı. Rezin altlıqlı ayaqqabı geymiş qoca elə səssiz gedirdi ki, deyərdin, qaranlıq dəhlizdə tutqun kölgə kimi süzür. O, Qoldberqin qapısını açdı və şamların qırmızımtıl işığı bir anlığa dəhlizə düşdü. Ravik qəribə, bir az boğuq, bir az da yad, eyni zamanda qəmli, yeknəsəq sızıltı eşitdi. Fikirləşdi ki, ağı deyən qadınlardır. İndi də elə şeylər var? Yoxsa, Rut Qoldberq təkcə özü idi?

* * *

Ravik qapını açanda gördü ki, Joan pəncərənin qabağında oturub. O diksindi.

– Sənsən? Nə olub. Bu çamadanlar nədir? Yenə gedirsən?

Ravik çamadanları çarpayının yanına qoydu:

– Heç nə olmayıb, ehtiyat üçün aparmışdım. Bir nəfər ölüb... Polis gəlmişdi... Keçib getdi...

– Zəng vurmuşdum. Dəstəyi kimsə götürüb dedi ki, daha burada qalmırsan.

– Sahibəmizdir. Çox ağıllı, ehtiyatlı qadındır.

– Yüyürə-yüyürə gəldim, qapı açıq, otaq da bomboş... Ravik, elə bildim... – Onun səsi titrədi.

Ravik güclə gülümsədi:

– Görürsən, mən çox etibarsız əclafam, örkənimin üstünə odun yığmaq olmaz.

Qapı döyüldü. Morozov əlində iki şüşə tutmuşdu:

– Ravik, yaraq-yasağın yadından çıxıb qalıb...

O, qaranlıqda dayanmış Joanı tanıdı, ancaq özünü görməzliyə vurdu. Ravik bunu sezmədi. Morozov şüşələri Ravikə uzadıb, qapının ağzındaca xudahafizləşdi, içəri gəlmədi.

Ravik kalvadosla «Vuvre» şərabını stolun üstünə qoydu. Bayaq dəhlizdən eşitdiyi səs indi pəncərədən gəlirdi. Dil deyib ağlayırdılar. Səs dalğa-dalğa qalxır, enir və təzədən başlayırdı. Çox güman ki, hava isti olduğundan, Qoldberqin pəncərəsi açıq idi və qızılağacdan düzəldilmiş mebelli otaqda qoca Aronun meyiti yavaş-yavaş çürüməyə başlayırdı...

– Ravik! – Joan sözə başladı. – Yaman darıxıram... Bilmirəm, nədəndir. Bütün günü beləcə olub... Qoy burada qalım...

Ravik cavabında ləngidi. Yaman yerdə yaxalanmışdı. O, başqa cür gözləyirdi. Belə başlayacağını fikirləşməmişdi...

– Nə qədər? – deyə soruşdu.

– Sabaha kimi.

– Çox olmadı ki!

Joan çarpayının üstündə oturdu:

– Bunları unuda bilmərik, Ravik?

– Yox, Joan!

– Heç nə istəmirəm. Qoy yanındaca uzanıb yatım. Ya da elə divandaca...

– Olmaz, indi xəstəxanaya gedəsiyəm.

– Eybi yoxdur, gözləyərəm. Azmı gözləmişəm?

Ravik cavab vermədi. Belə sakit olduğuna özü də təəccüblənirdi. Bayaq küçədə hiss elədiyi bürkü, həyəcan birdən-birə yoxa çıxmışdı.

– Sən də xəstəxanaya getmə!

Ravik hələlik susurdu. Bilirdi ki, onunla yatsa, uduzacaq. Bu heç nə ilə ödəyə bilməyəcəyi bir vekseli imzalamaq kimi bir şey idi. Sonra hər gün gələcək, çaldığı qələbə ilə öyünəcək, özü heç bir güzəştə getmədən, ondan hər dəfə yeni bir şey istəyəcək, onu büsbütün ələ alana kimi belə eləyəcək, axırda da özü bezəçək, onu zəifliyin, ehtirasın qurbanı eləyib, əxlaqsız adam kimi atacaq. Əlbəttə, indi o niyyətlə gəlməyib, belə şeylərdən heç başı çıxmazdı da, ancaq, hər halda, axır nəticəsi bu çür olmalı idi. «Bir gecə heç nə eləyə bilməz!» – deməyə nə var ki! Ancaq hər dəfə də müqavimət hissi bir az zəifləyəcək. Müqavimət hissi də yeganə şeydir ki, onunla alver eləmək olmaz. Katoliklərin şəriət kitabında buna çox ehtiyatla, qorxa-qorxa «ruhun günahına batmaq» deyilir və sonra da orada yazılanların əksinə olaraq, dolayı yolla işarə vurulur ki, o nə bu dünyada, nə də o birində bağışlanır...



– Düz deyirsən, Joan, xəstəxanalıq işim yoxdur. Ancaq burada qalmağını istəmirəm.

Elə bilirdi, Joan indicə barıt kimi partlayacaq. Ancaq o, çox sakit halda soruşdu:

– Niyə istəmirsən?

Səbəbini ona izah eləsinmi? İzah eləyə bilərdimi?

– Sən daha buranın adamı deyilsən, Joan.

– Buranın adamıyam!

– Yox!

– Niyə yox?

Ravik susdu. «Nə yaman bicdir! – Ürəyindən keçirdi. – Adicə suallarla məni danışdırdı, izah elətdirdi. İzaha başlayırsansa, deməli, özünü müdafiə edirsən!»

– Özün bilirsən, – dedi, – belə axmaq suallar vermə.

– Ürəyin daha istəmir məni?

– Yox! – dedi və qeyri-ixtiyari əlavə elədi: – Elə deyil...

Qoldberqin otağındakı yeknəsəq ağlaşma səsi pəncərədən içəri dolurdu. Ağı deyirdilər. İşə bax, Livan dağlarındakı çobanların yas mərasimi Parisin ucqar bir küçəsinə gəlib çıxmışdı...

– Sən mənə kömək etməlisən, Ravik!

– Səni özbaşına buraxmağım ən böyük köməkdir. Sən də məni burax.

Joan ona fikir vermədi:

– Mənə kömək etməlisən, – dedi. – İstəsəm, yalan danışardım. Ancaq istəmirəm. Elədir, mənim ayrı adamım var! Ancaq onunla olan münasibətim səninlə olan münasibətim kimi deyil. Eyni şey olsaydı, durub bura gəlməzdim...

Ravik siqaret çıxardı, hiss elədi ki, çox qurudur. Belə de! İndi başa düşdü! Bıçaq ülgüc kimi iti olanda ağrıtmaz! Bir şey ki yəqinləşdi, ağrı o dəqiqə kəsilir. Ağrı həmişə o dərd yəqinləşənə kimi, bir də yəqinləşib qurtarandan sonra başlayır...

– Eyni şey heç vaxt ola bilməz, – dedi. – Ancaq, əslində, eyni şeydir.

«Niyə belə ucuz-ucuz danışıram? – deyə ürəyindən keçirdi. – Qəzetlərin verdiyi paradoksdur. Həqiqəti ucadan deyəndə nə yaman miskin olurmuş!»

Joan dikəldi:

– Ravik! – dedi.

– Özün də bilirsən, «adam yalnız bircəciyini sevə bilər» fikri düzgün deyil. Düzdür, elə adamlar var ki, yalnız birini sevir. Belələri xoşbəxtdir! Ancaq elələri də var ki, onlarda tərsinədir. Bunu da bilirsən...

Siqaretini yandırdı. Üzünə baxmasa da, Joanın indi necə göründüyünü bilirdi. Rəngi saralmışdı, gözləri kölgələnmişdi, sakit idi, fikrini cəmləmişdi və elə kövrəlmişdi ki, deyərdin, indicə yalvarmağa başlayacaq... Ancaq qürurunu sındırmırdı... Günorta öz mənzilində də belə idi, müjdə gətirən mələkəyə oxşayırdı, inamla göylərdə pərvazlanırdı, özünü elə göstərirdi ki, guya, kimisə xilas etmək istəyir, ancaq əlindən çıxmasın deyə, onu yavaş-yavaş çarmıxa çəkirdi...

– Bilirəm, – dedi, – o da bir bəhanədir.

– Bəhanə-zad deyil! Onda adam bədbəxt olur. Həmin burulğana düşən xilas ola bilmir. Dəhşətli şeydir, baş açmaq

olmur, adamla əlbəyaxa döyüşür... Elə şeydir ki, qaça bilmirsən, hara getsən, dalınca düşüb səni tapır. Sən istəmirsən, ancaq o gəlir... Özü də çox güclüdür...

– Niyə bunu özünə dərd eləyirsən? Əgər belə güclüdürsə, tabe ol!

– Tabe oluram. Bilirəm ki, başqa yolum yoxdur. Ancaq... – onun səsi birdən dəyişdi. –Səni də itirmək istəmirəm, Ravik!

Ravik susurdu. Siqareti sümürsə də, tüstüsünü hiss eləmirdi. «Məni itirmək istəmirsən, – deyə ürəyindən keçirdi, – ancaq o birini də əldən qoymursan. Məsələ bundadır! Bunu da özünə sığışdırırsan! Ona görə də səndən uzaq qaçmalıyam. Özü də bir nəfər deyil! Elə olsa, dərd yarı idi! Hamısına da bəhanə tapırsan... Dərd ondadır ki, indi bərk ilişmisən, aradan çıxa bilmirsən... Ancaq yenə çıxacaqsan, hamısı təzədən başlayacaq... biri ilə qurtaran kimi, o biri gələcək... beləcə davam eləyəcək... Çünki bu, sənin qanındadır! Mən də bir vaxt elə olmuşam... Ancaq səninlə bacarmaram... Ona görə də səndən uzaq gəzməliyəm! İndi buna gücüm çatar. Gələn dəfə isə...»



– Sən elə bilirsən ki, təkcə bizim başımıza gəlib, – dedi. – Ancaq, əslində, hamının başına gələn işdir: ər, yoxsa oynaş?!

– Elə deyil!

– Elədir! Ancaq onun növləri çoxdur, biri də gəlib səni tapıb...

– Belə danışmağa necə dilin gəlir?! – Joan ayağa durdu. – Sən bunların heç birindən deyilsən. Heç vaxt olmamısan və olmayacaqsan da! O... – Joan duruxdu. – Yox, o da belə deyil... Söz tapıb deyə bilmirəm!

– Onda gəl belə deyək: həm dinc həyat, həm də macəra! Yaxşı səslənir! Mənə da dəyişmir... Birindən xoşun gəlir, o birini də əldən vermək istəmirsən.

Joan başını buladı:

– Ravik! – Qaranlıqlardan gələn bu səs Ravikin ürəyini yerindən oynatdı. – Bunu izah eləmək üçün yaxşı sözlər də tapmaq olar, pisini də... İş onda deyil! Mən səni sevirəm və nə qədər ömrüm var, sevəcəyəm! Bu, özümə gün kimi aydındır! Sən elə bir üfüqsən ki, mənim bütün fikir və duyğularım orada birləşir! Qoy nə istəyir olsun, bu heç vaxt

dəyişməyəcək! Doğru sözümdür... Sən burada heç nə itirmirsən. Elə buna görə gəlmişəm... Elə buna görə də təəssüflənmirəm, özümü günahkar saymıram...

– Sevən adamın günahı olmaz, Joan! Bu, haradan ağlına gəlib?

– Səndən sonra fikirləşdim. Çox fikirləşdim, Ravik. Sənin haqqında da, öz haqqımda da... Sən mənə tam sahib olmaq istəmədin. Bəlkə, heç özün də bilmirsən... Həmişə nəsə qabağımı kəsirdi, istədiyim kimi sənin qəlbinə girməyə qoymurdu. Mən isə bunu çox istəyirdim. Lap çox! Həmişə mənə elə gəlib ki, indicə çıxıb gedəcəksən. İnamım yox idi... Bu dəfə polis qovmuşdu, getməli idin, ancaq başqa cür də ola bilərdi, günlərin bir günü kefin istəsəydi, gedərdin, mən də tək qalardım, hara getdiyini də bilməzdim...

Ravik diqqətlə qarşısındakı kölgəyə baxırdı. Onun dediklərində nəsə bir həqiqət vardı...

– Həmişə də elə olub! – Joan sözünə davam etdi. – Həmişə! Onda da ortaya ayrısı çıxdı. O, məndən başqa heç kəsi istəmirdi, deyirdi ki, ömrüm boyu onun olum. Çox dərinə də getmirdi. Mən isə istəmirdim, ona görə də güldüm, taleyimlə oynamağa başladım, elə bildim ki, qorxusu yoxdur, istədiyim anda yığışdıraram... Lakin birdən hər şey dəyişdi, qəlbimdə nəsə baş qaldırdı, məni ona tərəf çəkməyə başladı... Çox müqavimət göstərdim, ancaq xeyri olmadı. Bilirdim ki, onu bütün varlığımla sevmirəm, istəyən qəlbimin balaca bir guşəsidir, ancaq bacarmırdım... Elə bil, yer yavaş-yavaş yırğalanmağa başlayır, sən də vecinə almayıb gülürsən və bir də görürsən ki, yarıldı, tutub dayanmağa heç nə qalmadı. Onda da gedirsən quyunun dibinə... Ancaq mən onun yox, səninəm, Ravik!

Ravik siqareti pəncərədən atdı. O, işıldaquş kimi uça-uça həyətə düşdü.

– Olan olub, keçən də keçib, Joan, – dedi, – daha heç nəyi geri qaytarmaq olmaz!

– Mən heç nəyi qaytarmaq istəmirəm. Hər şey keçib gedəcək... Əsas məsələ budur ki, mən səninəm! Yoxsa qayıdıb gəlməzdim! Yoxsa gəlib sənin qapını kəsdirməzdim! Yoxsa oturub gözləməzdim və sən də gələndə məni qovmazdın! Qovsan da, qayıdacağam! Bilirəm, mənə inanmırsan, ürəyində deyirsən ki, başqa niyyətlə gəlib. Hansı

niyyətlə gələ bilərəm? Əgər o biri qəlbimi məhəbbətlə doldura bilsəydi, gəlməzdim, səni də unudardım... Deyirsən ki, sənin yanında dinc həyat axtarıram... Elə deyil, Ravik, mən səndən məhəbbət umuram!

«Sözlərə bax! – Ravik ürəyindən keçirdi. – Çox şirin sözlərdir... Adamın canına yağ kimi yayılır. Ancaq... kömək elə... sevirəm... qayıtdım... səninəm... – bunlar hamısı şirin sözlərdir. Eləcə sözlərdir, vəssalam. İki bədənin vəhşiliklə bir-birinə qovuşması kimi adicə bir şey üçün gör nə qədər söz var! Bu sözlərdə də nə qədər yalan, uydurma, saxta hisslər, özünüaldatma gizlənib! O da bu ayrılıq gecəsində qaranlıqda dayanıb, həmin şirin sözlər də başından yağış kimi ələnir... Ancaq hamısının da bircə mənası var: ayrılıq, ayrılıq, yenə də ayrılıq! Əgər söhbət bu həddə çatıbsa, deməli, hər şey qurtarıb! Məhəbbət allahının gözlərindən qan damır, onun belə boş sözlərlə arası yoxdur...»



– İndi isə çıx get, Joan!

Joan ayağa durdu:

– Heç getmək istəmirəm... Qoy qalım... Bircə gecəliyə...

Ravik başını buladı:

– Məni nə hesab edirsən, Joan? Mən müqəvva deyiləm!

Joan ona sığındı. Ravik hiss elədi ki, o titrəyir.

– Mənim üçün fərqi yoxdur... Qoy qalım!

Ravik ehtiyatla onu özündən araladı.

– Başqasını aldatmaq üçün nahaq məndən başladın. Onsuz da, onun çəkməyə dərdi çox olacaq.

– Mən indi evə tək qayıda bilmərəm.

– Tək qalmazsan...

– Yox, təkəm... Üç gündür yalqızam... Çıxıb gedib... Parisdə deyil.

– Belə de...e! – Ravik çox sakit danışır və diqqətlə Joanın üzünə baxırdı. – Bircə o xasiyyətin xoşuma gəlir ki, açıq danışırsan! Adam səninlə necə rəftar edəcəyini bilir...

– Mən bundan ötrü gəlməmişəm.

– Özüm bilirəm.

– İstəsəm, heç deməzdim...

– Elədir.

– Mən evə tək qayıtmaq istəmirəm, Ravik!

– Yaxşı, evə qədər ötürərəm.

Joan bir addım geri çəkildi, astadan:

– Məni daha sevmirsən! – dedi. Onun səsində hədə də var idi.

– Bunu öyrənməyə gəlmişdin?

– Hə, həm də buna görə... Təkcə bu deyildi... ancaq bu da var idi!

– Allah eşqinə qurtar, Joan! – Ravik hövsələdən çıxırdı. – Hesab elə ki, mən son sözümü dedim, ürəyimdəkiləri açıb tökdüm.

Joan dinməzcə onun üzünə baxırdı.

– Elə bilirsən, bundan sonra sənin başqası ilə yaşadığına göz yumub, «burada qal!» deyəcəyəm?!

Joan yavaş-yavaş gülümsəməyə başladı. Ancaq bu, adi təbəssüm deyildi. Daxilindən süzülən parıltıya oxşayırdı, elə bil, orada məşəl yandırmışdılar və onun alovu yavaş-yavaş gözlərinə qalxırdı...

– Çox sağ ol, Ravik! – dedi. Bir az ara verəndən sonra onun üzünə baxa-baxa soruşdu: – Sən məni unutmayacaqsan?

– Niyə soruşursan?

– Məni gözləyəcəksən? Məni unutmayacaqsan?

– Mənə elə gəlir, bunun çox da qorxusu yoxdur. Təcrübə özü göstərdi...

– Çox sağ ol! – Joan tamam dəyişmişdi.

«Gör nə tez təsəlli tapdı! Niyə də tapmasın?! Elə bilir burada qalmasa da, arzusuna çatdı...»

Joan onu öpdü:

– Belə olacağını bilirdim, – dedi. – Sən başqa cür ola bilməzdin! İndisə gedirəm! Ötürmək lazım deyil, özüm gedərəm!

Qapıya çatanda dayandı.

– Bir də gəlmə, Joan! Heç nəyi də özünə dərd eləmə! Qorxma, sənə heç nə olmaz!

– Yaxşı, gecən xeyrə qalsın, Ravik.

– Xeyrə qarşı, Joan.

Ravik işığı yandırdı. «Sən başqa cür ola bilməzdin!» Üşürgələndi. «Bütün qadınların xəmrəsi gillə qızıldan, yalanla rəzalətdən, riya ilə çılpaq həqiqətdən tutulub!» – deyə ürəyindən keçirdi. Gedib, pəncərənin qabağında oturdu. Aşağıdan yenə həzin, yeknəsəq ağlaşma səsi gəlirdi. Ərinə həmişə xəyanət etmiş bir qadın indi onun ölümünə acıyırdı...

Bəlkə də, dinləri tələb etdiyi üçün belə ağlayırdı... Ravik təəccübləndi ki, nə yaxşı özünü çox da bədbəxt hiss eləmədi...

## XXIII

– Mən yenə qayıtdım, Ravik! – Bu sözləri Ket Heqstrem deyirdi.

O, «Lankaster» mehmanxanasındakı otağında oturmuşdu. Çox arıqlamış, dərisinin altında ət deyilən şey qalmamışdı. Sanki, onu zərif bir alətlə deşib hamısını çıxarmışdılar. Bütün əzələləri görünürdü. Dərisi ipək kimi idi, deyərdin, indicə deşiləcək..,

– Mən elə bilirdim, siz indi Florensiyada, ya da Kanndasınız, Ket! Ya da çoxdan Amerikaya getmisiniz...



– Bütün vaxtı Florensiyada olmuşam. Fezolada qalırdım. Axırda dözə bilmədim. Yadınızdadırmı, sizi də tovlayıb aparmaq istəyirdim? Deyirdim, kitablar, soba, gecələr, sakitlik... Kitablar da, soba da var idi. Sakitlik isə... Hətta Fransiska fon Assinin şəhəri də səs-küylü idi, Ravik! Bütün İtaliya kimi, ora da səs-küylü, narahat idi! Fransiskanın bir vaxtlar quşları da məhəbbəti mədh elədiyi yerlərindən indi faşist forması geymiş əsgərlər keçir. Gurultulu sözlər, başqa millətlərə nifrət onların gözünü tutub, böyük əməllərdən dəm vururlar...

– Bu, həmişə belə olub, Ket.

– Belə deyildi. Bir-iki il bundan qabaq mənim təsərrüfat işlərimə baxan kişi mehriban adam idi, velvet şalvar, çarıq geyərdi. Ancaq indi uzunboğaz çəkmə, qara köynək geyən millət qəhrəmanı olub, qızıl dəstəkli xəncər qurşayır, yığıncaqlarda çıxış eləyib deyir ki, Aralıq dənizi İtaliyanın olmalıdır, İngiltərəni dağıtmaq lazımdır, Nitsa, Korsika, Savay İtaliyaya qaytarılmalıdır. Çoxdan qələbə sevinci dadmayan bu mehriban millət Həbəşistanda, İspaniyada qalib gələndən sonra lap ağlını itirib. Üç il bundan qabaq ağlı başında olan dostlarım indi göz qırpmadan deyirlər ki, İngiltərəni üççə ayın içində almaq olar. Bütün ölkə qaynayır. Nə oldu birdən-birə? Bir vaxt qəhvəyi köynək geyən adamların qəddarlığı məni Vyanadan didərgin saldı, indi də qara köynək geyənlərin axmaqlığı İtaliyadan qaçırtdı. Deyirlər, haradasa yaşıl köynək

geyənlər də peyda olub. Yəqin, Amerikada da gümüşü köynək geyirlər. Dünya da indi bu köynəklilərin əlində qalıb?

– Deyəsən. Ancaq bir azdan dəyişəcək, hamı bir nəfər kimi qırmızı geyəcək.

– Qırmızı?

– Bəli, qan kimi qırmızı.

Ket əyilib pəncərədən həyətə baxdı. Qürub edən günəşin solğun şəfəqləri şabalıd ağaclarının yarpaqlarından süzülərək yaşılı rəngə çalırdı.

– Adam heç inanmaq istəmir, Ravik! İyirmi ildə iki müharibə. Çoxdur... Birincinin yorğunluğu canımızdan hələ çıxmayıb.

– Təkcə qaliblərin! Bu, məğlub olanlara aid deyil. Qalib gələn yorğunluğa baxmır.

– Bəlkə də, elədir. – Ket onun üzünə baxdı. – Deyəsən, lap az qalıb, elə deyil?

– Qorxuram, azdan da az qalmış olsun.

– Görəsən, mən o vaxta qalacağam?

– Niyə qalmırsınız? – Ravik düz onun gözlərinin içinə baxdı. Ket baxışlarını qaçırtmadı. – Fiolonun yanına getdiniz?

– Bəli, bir-iki dəfə getdim. Qara taun bəzilərini yaxalaya bilməyib. O da həmin adamlardan biridir...

Ravik dinməyib onun daha nə deyəcəyini gözlədi. Ket stolun üstündəki mirvari muncuğu götürüb əlində oynatmağa başladı. Nazik, uzun barmaqların arasında gəzişən mirvari dənələri qiymətli daş-qaşa bənzəyirdi.

– İndi mən ömrü boyu dinclik axtaran yəhudiyə oxşayıram. Ancaq, deyəsən, pis vaxtda başlamışam, onu heç yerdə tapmaq olmaz. Bir azca burada qalıb...

Ravik mirvari dənələrinə baxdı. Onlar qişasına yad toxum – balaca bir qum dənəsi düşmüş kələ-kötür, bomboz təkhüceyrələrdən yaranmışdı. Təsadüfi qıcıqlanmadan zərif bir gözəllik yaranmışdı. «Bu da bir hikmətdir», – deyə ürəyindən keçirdi.

– Siz ki Amerikaya getmək istəyirdiniz, Ket? Kimin Avropadan çıxmaq imkanı var, əldən verməsin, gərək. Onsuz da burada heç nə eləyə bilməyəcəksiniz.

– Qovursunuz?

– Xeyr! Axırıncı dəfə özünüz demədiniz ki, işlərinizi qaydaya salandan sonra Amerikaya gedəcəksiniz?

– Bəli, dedim. Ancaq indi istəmirəm. Hələ yox... Bir az burada qalacağam.

– Paris yayda çox isti olur, adam heç dözə bilmir.

Ket muncuğu stolun üstünə qoydu:

– Xeyr, axırıncı yay elə olmaz...

– Axırıncı?

– Bəli, bu, mənim axırıncı yayım olacaq.

Ravik susdu. «Görəsən, bilirmi? – deyə fikirləşdi. – Fiolo ona nə deyib?»

– «Şəhrizad»da işlər necə gedir? – Ket birdən soruşdu.

– Çoxdan ora getməmişəm. Morozov deyir ki, hər axşam dolu olur. İndi bütün gecə restoranları belədir.

– Yayda da?

– Bəli, yayda da! Adətən, bu vaxtlar bütün əyləncə yerləri bağlanardı... Gözləmirdiniz?

– Xeyr, gözləyirdim. Hamı son nəfəsində həyatdan nəsə qoparmaq istəyir.

– Elədir.

– Məni ora aparacaqsınız?

– Əlbəttə, Ket, nə vaxt istəsəniz! Elə bilirdim, ora daha xoşunuza gəlmir.

– Mən də elə bilirdim, ancaq fikrimi dəyişdim. Mən də bacardıqca nəsə qoparmalıyam.

Yenə Ketin üzünə baxdı:

– Yaxşı, – dedi, – nə vaxt istəsəniz, apararam.

Ravik durdu. Ket onunla qapıya kimi gəldi. Yaman arıqlamışdı... Qurumuş dərisi ipək kimi idi və adama elə gəlirdi ki, əl vursa, xışıldayar. Gözləri dupduru idi, əvvəlkindən də iri görünürdü. Sümüyü çıxmış hərarətli əlini Ravikə uzatdı:

– Niyə onda xəstəliyimi özümə demədiniz? – Bunu elə saymazyana dedi ki, elə bil, çöldəki havanı soruşurdu.

Ravik diqqətlə onun üzünə baxdı, amma dinmədi.

– Dözərdim... – Ketin yanaqlarına xəfif, kinayəli bir təbəssüm qondu. Ancaq bu kinayədə inciklik əlaməti yox idi. – Hələlik, Ravik!

* * *

Mədəsi kəsilmiş kişi öldü. Düz üç gün zarıdı. Daha morfi də kömək eləmirdi. Ravik də, Veber də bilirdi ki, öləcək.

İstəsəydilər, onu üç gün belə əzab çəkməyə qoymazdılar. Ancaq eləmədilər, çünki bu dünyada bir din var idi və həmin din də bütün bəndələri sevməyi nəsihət edir, onların əzablarını qısaltmağa qoymurdu və bir qanun da onu müdafiə edirdi...

– Qohumlarına teleqram vurdunuz? – deyə Ravik soruşdu.

– Qohumu yoxdur, – Veber cavab verdi.

– Bir simsarı da yoxdur?

– Heç kəsi yoxdur.

– Heç kəsi?

– Heççə kəsi! Qulluqçusu gəlmişdi. Heç kəslə məktublaşmırmış, təkcə univermaq kataloqları, alkoqolizm, vərəm, zöhrəvi xəstəliklər və s. haqqında tibbi bülletenlər alırmış. Gedib-gələni də yox imiş. Təşrihin, bir də dörd həftəlik xəstəxana haqqını qabaqcadan vermişdi. Ancaq iki həftəsi artıq qaldı. Qulluqçu deyirdi ki, kişiyə özü baxırmış və buna görə də hər şeyini ona söz veribmiş. İki həftənin pulunu da geri istəyirdi. Guya, ona ana əvəzi olubmuş. Kaş bu ananı özünüz görəydiniz! Deyirdi ki, ona xərci çox çıxıb, mənzil kirəsini də verib. Dedim ki, o, hər şeyin pulunu burada əvvəlcədən verdi, görəsən, mənzil haqqını niyə belə eləməyib?! Bir də ki polis hər şeyi aydınlaşdıracaq. Ağzına gələni mənə dedi...

– Pul adamı hansı yola salmır ki!

Veber güldü:

– Lazımi yerlərə xəbər verərik, qoy hər şeyi aydınlaşdırsınlar, dəfn işini də təşkil etsinlər.

Ravik mədəsi kəsilmiş qohum-əqrəbasız kişiyə nəzər saldı. O, hərəkətsiz uzanıb qalmışdı, üz-gözü elə hala düşmüşdü ki, onu otuzbeşillik həyatında görməmişdi. Son nəfəsində qıc olan sifətindən əcəlin boz üzü yavaş-yavaş baş qaldırırdı. Üzündəki başqa ifadələr getdikcə əriyir, ölüm nişanəsi çəkilir, onların yerinə asta-asta, səssiz-səmirsiz əbədiyyət nişanəsi qonurdu. Bircə saatdan sonra üzündə təkcə həmin nişanə qalacaqdı...

Ravik palatadan çıxdı. Dəhlizdə növbətçi tibb baçısı ilə rastlaşdı. Qız yenicə gəlirdi.

– On ikinci palatadakı cənab öldü. Yarım saat bundan qabaq keçinib, daha növbə çəkmək lazım deyil... – Diqqətlə qızın üzünə baxandan sonra soruşdu: – Sizə bir şey vermədi?

Qız tərəddüd elədi:

– Xeyr... Çox qaradinməz adam idi... Axır zamanlar heç kəlmə də kəsmirdi.

– Edədir, danışmırdı.

Tibb bacısı hər şeyin qədrini bilən evdar qadınlar sayağı Ravikə baxdı:

– Qəşəng bir nesesseri vardı. Hamısı da gümüş! O qədər zərif idi ki, kişilərə yaraşmazdı. Əsl qadınların malı idi... – dedi.

– Bunları ona demədiniz?

– Bir dəfə dedim. Çərşənbə axşamı bir az sakitləşmişdi, onda söhbət saldım. Ancaq dedi ki, gümüş kişilərə də yaraşır. Qəşəng də diş fırçaları var idi. Elələri indi tapılmır. Özgə heç nə demədi...

– Gümüş polisə qaldı. Qohum-əqrəbası yox imiş...

Qız başını tərpətdi:



– Heyif! Gümüş qaralacaq! İşlətməyəndə diş fırçaları da xarab olur. Onları yaxşı-yaxşı yumaq lazım idi...

– Düz deyirsiniz, heyif oldu. Gərək, sizə verəydi. Heç olmasa, kimisə sevindirərdi...

Qız minnətdarlıq hissi ilə gülümsədi:

– Eybi yoxdur. Onsuz da bilirdim ki, heç nə verməyəcək. Ölüm ayağında olanlar təsadüfi hallarda nəsə bağışlayar. Nə versə, sağalanlar verir. Can üstə olanlar öləcəyinə inanmırlar, ona görə də heç nə vermirlər. Bəziləri də acıqla vermirlər. Siz təsəvvür edə bilməzsiniz, cənab doktor, ölənlər yaman dəhşətli olurlar. Ölməmişdən qabaq adama elə sözlər deyirlər ki!

Qızın uşaq üzü kimi allanmış üzü saf və aydın idi. Ətrafında baş verən hadisələr onun balaca dünyasına aid olmayanda vecinə deyildi. Ölüm ayağında olanlar onun üçün ya ərköyün, ya da yetim uşaq kimi idi. Canlarını tapşırana qədər onlara qulluq edir, sonra təzələri gəlirdi. Bəziləri sağalır, yaxşılığın əvəzini çıxır, bəziləri heç nə vermir, bəziləri də ölürdü. Dünyanın işi belə idi, ürəyə salmağa dəyməzdi. Mağazalarda, «Bonmarşe»də qiymətlərin beş faiz düşüb-düşməyəcəyi, Janın öz xalası qızı Anne Kübüre ilə evlənib-evlənməyəcəyi bundan vacib idi... «Yaxşı da eləyir, – Ravik ürəyindən keçirdi, – bu balaca aləm onu çalxanan dünyadan qoruyur. Yoxsa axırı hara gedib çıxardı?!»

* * *

«Zəfər» kafesinin qabağında oturmuşdu. Gecə tutqun, buludlu, ancaq bürkülü idi, lap uzaqlarda şimşək də çaxırdı. Küçələrdə iynə atsaydın, adam əlindən yerə düşməzdi. Başına mavi atlazdan şlyapa qoymuş bir qadın gəlib onun yanında oturdu.

– Mənə bir qədəh «Vermut» alarsan? – deyə soruşdu.

– Alaram! Ancaq içən kimi aralan, adam gözləyirəm.

– Nə olar, bir yerdə gözləyərik.

– Aralansan, yaxşıdır. Gözlədiyim qadın idman sarayının boksçusudur.

Qadın gülümsədi. Üz-gözünü elə boyamışdı ki, təbəssümü təkcə dodaqlarında hiss olunurdu, qalan yerlərə, sanki, ağ maska taxılmışdı.

– Mənimlə gedək, – dedi, – qəşəng mənzilim var... Sənə bir kef verərəm ki...

Ravik başını buladı, cibindən beşfranklıq çıxarıb stolun üstünə atdı:

– Götür! Xoş getdin! Salamat qal!

Qadın pulu götürdü, onu qatlayıb corabının boğazına qoydu.

– Xiffət eləyirsən?

– Yox.

– Onun dərmanı məndə! Qəşəng bir rəfiqəm var, lap sütüldür... – Bir az ara verdi. – Döşləri Eyfel qülləsi kimidir!

– Gələn dəfə...

– Özün bil... – Qadın durub bir-iki stol o tərəfdə oturdu. Yenə Ravikə sarı boylandı, sonra bir idman qəzeti alıb, xəbərləri oxumağa başladı.

Ravik diqqətlə stolların arasında gəzişən axına baxırdı. İçəridə orkestr Vyana valsları çalırdı. Bir dəstə cavan homoseksualist hay-küylə, bir-birinə naz sata-sata gəlib qonşu stolda oturdu. Lap son dəbdə saqqal buraxmışdılar, əyinlərindəki pencəyin çiyinləri enli, beli isə dar idi.

Bir qız yanında dayanıb, üzünə baxırdı. Çox tanış gəlirdi, ancaq yadına sala bilmirdi. Qız ömrü boyu taleyindən şikayətlənən fahişələrə oxşayırdı...

– Tanımadınız? – deyə o soruşdu.

– Əlbəttə, tanıdım, – deyən Ravik, əslində, onu tanımamışdı. – Necəsiniz?

– Yaxşıyam. Ancaq, deyəsən, tanımadınız.

– Ad yadımda qalmır, amma tanıyıram. Çoxdan görüşməmişik...

– Bəli... Onda Bobonu yaman qorxutdunuz! – Qız gülümsədi. – O vaxt həyatımı xilas etdiniz, indisə tanımırsınız...

Bobo... Həyatımı xilas etdiniz... Mamaça... İndi yadına düşdü.

– Lüsyensiniz, – dedi – Əlbəttə, tanıdım! Onda xəstə idiniz, indisə sağlam adam... Ona görə çaşdım.

Lüsyenin kefi açıldı:

– Doğrudur! Hamısı yadınızda imiş. Mamaçadan alıb göndərdiyiniz yüz franka görə sağ olun.

– Hə, yadıma düşdü... – Madam Buşedən ala bilməyəndə öz cibindən göndərmişdi. – Heyif ki, hamısını ala bilmədim.



– Bəs elədi. Mən ümidimi tamam üzmüşdüm.

– Yaxşı, Lüsyen, mənimlə bir şey içərsiniz?

Qız başını tərpədib çəkinə-çəkinə oturdu:

– Mədən suyu ilə bir qədəh «Çinzano» içərəm.

– İşləriniz necədir, Lüsyen?

– Çox yaxşı!

– Yenə də Bobonun yanında qalırsınız?

– Əlbəttə! Ancaq o, indi tamam dəyişib, yaxşılaşıb.

– Əla!

Soruşmağa özgə heç nə qalmadı. Balaca toxucu qız balaca bir fahişəyə çevrilmişdi. Ravik onu elə buna görə sağaltmışdı. Bobo da müalicəni davam etdirmişdi. Uşaq sarıdan çəkəcəyi qalmamışdı. Fahişə olmaq üçün bir səbəb də bu idi. Hələ yenicə başlayırdı və ondakı uşaq sadəlövhlüyü yaşlı şorgözləri özünə çəkə bilirdi. Elə bil, çox işlənməmiş çini qab idi, şirəsi hələ tökülməmişdi. Lüsyen lap quş kimi duruxa-duruxa içirdi, gözləri ilə kimisə axtarırdı. Kədərli səhnə olsa da, çox təəssüflənməyə dəyməzdi. Adicə bir həyat parçası idi, yavaş-yavaş keçib gedirdi...

– Taleyindən razısan, Lüsyen?

Qız başını tərpətdi. Ravik gördü ki, o, doğrudan da, razıdır. Hər şey ona təbii görünür, heç nəyi böyüdüb özünə dərd eləmirdi...

– Təksiniz?

– Təkəm, Lüsyen.

– Belə bir gecədə?

– Bəli.

Qız ürkək-ürkək ona baxıb gülümsədi:

– Mən boşam, – dedi.

«Mənə nə olub? – Ravik ürəyindən keçirdi. – Nə kökə düşmüşəm ki, hər yetən fahişə mənə məhəbbət sədəqəsi təklif eləyir?!»

– Sən uzaqda olursan, Lüsyen, mənimsə vaxtım azdır.

– Bizə getməyək... Gərək, Bobo bilməsin...

Ravik onun üzünə baxdı:

– Bobonun bundan xəbəri yoxdur?

– Var... Başqalarını bilir. Axı göz qoyur! – Qız gülümsədi. – Lap uşaq kimidir, elə bilir, qazancımı ondan gizlədəcəyəm. Ancaq sizdən pul istəmirəm...

– Bobo ona görə bilməsin?

– Ona görə yox! Görsə, qısqanacaq. Qısqananda da vəhşiyə dönür!

– Hamıya qısqanır?

Lüsyen təəccüblə ona baxdı:

– Xeyr, hamıya qısqanmır. Bilir ki, puldan ötrüdür.

– Qısqanclıq pulsuz olanda baş qaldırır?

– Ona görə yox... Biləndə ki, arada ayrı şey də var... – O, yenə duruxdu. – Biləndə ki, ürəyim...

Qız gözlərini yerə dikdi. Ravik onun stolun üstündə özünə yer tapa bilməyən əllərindən yapışdı:

– Lüsyen, – dedi, – çox sağ ol ki, gəlib görüşdün. Çox sağ ol ki, mənimlə getmək istəyirsən! Sən qəşəng qızsan, məmnuniyyətlə aparardım. Ancaq nə vaxtsa təşrih elədiyim qadınla yata bilmərəm... Məni başa düşürsənmi, Lüsyen?!

Qız qara, uzun kirpiklərini qaldırıb, tələsik başını tərpətdi:

– Bəli, – deyib ayağa durdu. – Onda gedim...

– Hələlik, Lüsyen, salamat qal. Özünü gözlə, bir də xəstələnmə...

– Yaxşı...

Ravik kağıza nəsə yazıb ona verdi:

– Yoxundursa, bundan al, – dedi, – ən yaxşı dərmandır. Pulun hamısını da Boboya vermə!

Qız gülümsəyib başını tərpətdi. O da, Ravik də bilirdi ki, hamısını verəcək. Lüsyen adamların arasında gözdən itənə kimi Ravik onun arxasınca baxdı, sonra işarə ilə xidmətçini çağırdı. Göy şlyapalı qadın yenə yolunu onun yanından saldı. Hər şeyə göz qoymuşdu. Əlindəki qatlanmış qəzetlə özünü yelləyə-yelləyə düzəlmə dişlərini ağardırdı:

– Sən ya impotentsən, ya da mavi, əzizim! – Ravikə çatanda mehribanlıqla dilləndi. – Çox sağ ol, sənə uğurlar...

Ravik durub, bürkülü qaranlığa qarışdı. Şəhərin başı üzərində tez-tez şimşək çaxsa da, hava sakit idi. «Luvr» muzeyinin qapısından işıq gəlirdi. Açıq idi. İçəri girdi...

Muzey bu gün gecə yarıyacan işləyirdi. Bəzi zallardan işıq gəlirdi. O, gur işığa qərq olmuş nəhəng qəbrə oxşayan Misir pavilyonuna keçdi. Üç min il əvvəl yaşamış fironlar daşa dönmüşdü. Bəziləri oturmuş, bəziləri də ayaq üstə dayanmışdı və qranit gözləri dəstə-dəstə gəzişən tələbələrə, başlarında dəbdən düşmüş şlyapa olan qadınlara, darıxdıqlarından bura gələn yaşlı kişilərə zillənmişdi. Burada toz, meyit, əbədiyyət qoxusu bir-birinə qarışmışdı...



Yunan pavilyonundakı gözəllik ilahəsi Veneranın heykəli önündə ona oxşarı olmayan qızlar dayanıb nəsə pıçıldaşırdı. Ravik ayaq saxladı. Misirlilərin qranitindən, yaşıl rəngə çalan siyenitlərindən sonra yunanların mərməri adama zərif dekadent təsiri bağışlayırdı. İncə naxışlarla işlənmiş Venera məmnun-məmnun çimən evdar qadına bənzəyirdi. Qənirsiz gözəl idi və özünü büsbütün unutmuşdu. Günəş Allahı Apollon isə görkəmindən homoseksualistə oxşayırdı, gərək, idmanla çox məşğul olaydı. Heykəllərin hamısını zallara qoymuşdular, onları öldürən də bu idi. Ancaq həmin zallar misirlilərə heç nə eləyə bilmirdi, çünki onlar elə ilkindən qəbir və sərdabələr üçün düzəldilmişdi. Yunanlara isə günəş, hava, Afinanın qızılı şəfəqlərinə bələnmiş sütunlar lazım idi...

Ravik heykəllərə baxa-baxa irəlilədi. Pilləkənli böyük zal qurtarmaq bilmirdi. Birdən lap hündürdə zəfər ilahəsi Nike göründü...

Onu axırıncı dəfə gördüyü vaxtdan çox keçmişdi. Onda hava tutqun idi və bu mərmər heykəl diqqəti o qədər də cəlb eləmirdi; muzeyin pəncərəsindən süzülən qış günəşinin solğun şüaları zəfər ilahəsini, sanki, üşüdürdü, ona görə də büzüşmüşdü. Ancaq indi pilləkənin başında, mərmər

gəmi təsvirinin üstündə dayanmışdı, projektorların gur işığı düz üstünə düşürdü, o da par-par parıldayırdı, qanadlarını gərmişdi, elə bil, külək onun paltarını bir az qabağa əyilmiş bədəninə sıxmışdı və deyərdin, indicə uçacaq. Adama elə gəlirdi ki, onun arxa tərəfində şərab rəngli Salamina dənizi uğuldayır və başı üstündəki səmanın üzünə qara məxmərdən həsrət pərdəsi çəkilib...

Bu zəfər ilahəsi əxlaq normalarından bixəbər idi, heç bir dərd-sər də tanımırdı. Tanıdığı bir qələbə idi, bir də məğlubiyyət və onların da arasında, demək olar ki, fərq görmürdü. Adamın ağlını çaşdırmır, ancaq «gəl-gəl» deyirdi. Cazibədar deyildi, ancaq «durma, gəl» deyirdi. Heç nəyini də gizlətmirdi, ancaq əli ilə eyib yerini örtərək, hamını məhz ora baxmağa məcbur edən Veneradan çox cəlb edirdi. O, quşlarla, gəmilərlə, küləklə, dalğalarla, üfüqlə qohum idi... Yurdu-yuvası yox idi onun!

«Yurdu-yuvası yoxdu... – Ravik ürəyindən keçirdi. – Heç lazım da deyil. Bütün gəmilər ona yurd-yuva olub. Bütün müharibə və qəhrəmanlıq meydanları, hətta yeniləndə belə ona yurd-yuva olub! Təki ümidini itirməsin! O təkcə zəfər ilahəsi deyil, həm də müxtəlif macəralar və bir də qılıncı qınına qoymayan mühaçirlərin ilahəsidir».

Yan-yörəsinə baxdı. Zalda heç kəs qalmamışdı. Tələbələr də, əllərindəki «bələdçi» ilə zalları dolaşan adamlar da evlərinə getmişdilər. Bəli, evlərinə! Bəs o? Yurdsuz-yuvasız bir adamın evi, uzaqbaşı, kiminsə həyəcanlı qəlbinin bir guşəsi olardı və çox çəkməzdi ki, o da uçub-dağılardı... Vətənsiz adamın qəlbinə qonan məhəbbətin ona tam hakim kəsilməsinin, ürəyini şan-şan eləməsinin səbəbi də elə bu deyildimi? Elə buna görə də məhəbbətdən uzaq qaçmağa çalışmırdımı? Bu məhəbbət də əl çəkməyib, onun dalınca düşmədimi? Axırda da tapıb diz çökdürmədimi? Yox, duruş gətirə bilmədi, çünki qərib ölkənin sürüşkən buzu doğma torpağın etibarlı ağuşu deyildi...

Gözləri nəyisə aldı. Balaca, ağ bir şey idi, uçurdu... Gördü ki, kəpənəkdir. Deyəsən, açıq qapıdan girmişdi. Bəlkə də, Tüleri parkındakı qızılgüllərin isti qoynunda məst ola-ola yatarkən sevgililərin pıçıltısına səksənib oyanmışdı, öyrəşdiyi günəş işığına bənzəməyən gur lampa işıqları gözlərini qamaşdırmış, o, özünü ora-bura vurmağa başlamış, axırda

muzeyin çox da işıqlı olmayan girişini sığınacaq bilib, içəri girmişdi. İndi isə tezliklə öləcəyi bu böyük zalda inadla vurnuxur, çıxmağa yol axtarırdı. Ancaq bir azdan yorulacaq, ya karnizin üstünə, ya pəncərənin qabağına, ya da lap yuxarıda işıq saçan ilahənin çiyninə qonub yatacaq, səhər oyanan kimi ləçəklərinə qonub şirə yığmaq üçün gül – həyat axtaracaq, ancaq tapa bilməyəcək və beləliklə, axşam düşəcək, o, yenə yorulacaq, minillik tarixi olan mərmərin üstündə yatacaq, getdikcə zəifləyəcək və günlərin bir günü zərif caynaqları boşalacaq, vaxtsız xəzan vurmuş yarpaq kimi yerə düşəcək...

«Sentimentallığa bax! – Ravik ürəyindən keçirdi. – Zəfər ilahəsi və didərgin düşmüş kəpənək! Nə ucuz bənzətmədir! Ancaq adamın qəlbini daha çox riqqətə gətirən bu ucuz şeylər – ucuz bənzəyişlər, ucuz hisslər, ucuz sentimentallıq deyilmi? Bəs onları ucuzlaşdıran nə idi? Onlardakı aydın həqiqətmi? Bıçaq sümüyə dayananda özünü kübarlara bənzətmək arzusu yaddan çıxır!»



Kəpənək alaqaranlıq qübbədə gözdən itdi...

Ravik muzeydən çıxdı. Bayırın isti havası üzünə vurdu, elə bil, ılıq su ilə dolu vannaya girdi. Dayandı. Ucuz hisslər! İndi özü ucuzların ucuzu deyildimi? Uzaq-uzaq əsrlərin kölgəsi qonmuş böyük həyətə baxdı və birdən ona elə gəldi ki, kim isə baş-gözünü yumruqlayır. Az qaldı, bu yumruq selinə tab gətirməyib səndələsin. Qanadlarını gərmiş dümağ Nike gözləri önündən hələ çəkilməmişdi, ancaq onun arxasından, qaranlıqlardan başqa bir qadın surəti də baş qaldırmışdı. Gah ucuz, gah da qiymətli görünən bu surət onun xəyalını elə çaşdırmışdı ki, elə bil, ipək Hindistan örpəyi tikanlı qızılgül kolunun üstünə düşmüşdü: sən dartırsan, o qopmur, tikanlar qızılı rəngə çalan ilmələri bərk-bərk tutub buraxmır və onlar bir-birinə elə sarmaşıb ki, gözün tikanlı budaqlarda işıldayan sapları seçə bilmir...

Surət! Surət! O gələndə kim soruşur ki, ucuzdur, ya qiymətli, birdəfəlikdir, ya mindəfəlik?! Gəlməmişdən qabaq nə qədər istəyirsən, soruş! Ancaq elə ki gəlib səni tapdı, bütün suallar qurtarır. Gəlib səni əsir eləyən də məhəbbətin özü olur, daha təsadüfən onun adını daşıyan adam yox! Al-əlvan xəyal dünyasının kor elədiyi adam yaxşını pisdən seçə bilərmi? Məhəbbət hara, ölçü hissi hara...

Qalın duman, az qala, yerlə göyü birləşdirmişdi. Səssiz çaxan şimşəklər hərdən kükürd qoxulu bu dumanı bircə anlığa gecənin qaranlığından qoparırdı. İndicə yağış yağacağını xəbər verən bürkü sinə-sinə gəlib evlərin damına qonmuşdu. Ravik, Rivoli küçəsilə üzüaşağı gedirdi. Mağazaların ayparaşəkilli vitrinləri gur işığa bələnmişdi. Küçədə adam çox idn. Bir-birinin ardınca düzülmüş avtomobillər sayrışan zəncir həlqələrinə oxşayırdı. «Mən də bu minlərlə adamın biriyəm, – Ravik ürəyindən keçirdi, – əllərim cibimdə, axşam gəzintisinə çıxmış adamlarla daş-qaşlı, bərbəzəkli vitrinlərin yanından saymazyana keçib gedirəm, ancaq damarlarımdan axan qan yenə coşub, beynim dumanlanıb, hər şeyi qarışdırır, ağı qara, qaranı ağ göstərir. Yanımdan keçən adamların əlləri əlimə, paltarları paltarlarıma toxunur, üzümə yad baxışlar qonur, maşınların uğultusunu, adamların səsini eşidirəm, bu qaynar həyatın gerçəkliyini duyuram və bilirəm ki, mən də həmin adamlardan biriyəm. Ancaq özümü lap uzaqda, aydan da o tərəfdə hiss edirəm, sanki, uzaq bir planetə düşmüşəm, məntiqin, həqiqətin ünü oralara yetmir və daxilimdən gələn bir səs kiminsə adını haraylayır. Bilirəm ki, məni sehirləyən bu ad deyil, ancaq buna baxmayaraq, haraylayır, görür cavab gəlmir, yenə haraylayır, bu dəfə də cavabı sükut olur. Bu sükutda neçə-neçə haraylar batıb, heç birinə cavab çıxmayıb... Özü də bunu bilir, ancaq yenə haraylayır. Bu haray vüsal gecələrinin, ölümün harayıdır, nəşənin və getdikcə itirilən şüurun harayıdır, cəngəlliklərin, səhraların harayıdır! Bu haraylara min cür cavab taparam, ancaq heç biri mən deyən olmayacaq, çünki o cavab mənim imkanım xaricindədir, ona heç vaxt əlim yetməyəcək...»

Məhəbbət! Bircə sözdə gör nələr gizlənir! Onda şəhvət hissindən tutmuş müqəddəs qəlb çırpıntıları, adicə ailə qurmaq həvəsi, vəhşi ehtiras və Yakobun mələkə ilə təkbətək döyüşünə qədər hər şey var! «İşə bax! – Ravik gedə-gedə düşünürdü. – Yaşım qırxı ötüb, neçə-neçə həyat məktəbi keçmişəm, gah yıxılmışam, gah durmuşam, həyat təcrübəsi qazanmışam, bilik öyrənmişəm, illərin süzgəcindən keçmişəm, bərkimişəm, yaxşını pisdən ayırmağı, soyuqqanlı olmağı öyrənmişəm, ancaq heç vaxt məhəbbət sorağında olmamışam, ona inanmamışam və bilməmişəm ki,

nə vaxtsa gəlib məni də tapacaq. İndi budur, gəlib çıxıb və heç bir həyat təcrübəsi də kömək eləmir, əksinə, onu daha da qızışdırıb alovlandırır. Hisslərin alovunda qanlı-qadalı illərin qurumuş odunundan və bir də qaxaca dönmüş arsızlıqdan başqa yaxşı yanan özgə şey tapılarmı?!»

* * *

Ravik gedir, hey gedirdi... Qurtarmaq bilməyən gecə də onun addım səslərindən səksənirdi. Heç nəyə fikir vermirdi, eləcə gedirdi... Nə qədər getdiyini bilmədi və bir də gözünü açıb görəndə ki, Rafael prospektindəki parka gəlib çıxıb, o qədər də təəccüblənmədi..

Bu da Paskal küçəsindəki ev! Bu da mərtəbələr və getdikcə qaranlığa qarışan evlər... Bəzilərindən işıq gəlirdi. Joanın pəncərəsini tapdı. Orada da işıq yanırdı, evdəydi. Kim bilir, bəlkə də, yox idi, özü yana-yana qoymuşdu. Qaranlıq otağa girməkdən zəhləsi gedirdi. Özü də belə deyildimi? Evə yaxınlaşdı. Binanın qabağında xeyli maşın dayanmışdı. Onların içində sarı rəngli bir «Rodster» də vardı. Pis deyildi, yarış maşınlarına oxşadılmışdı. Bəlkə də, «o»nun maşını idi. Əsl aktyor malı idi. Qırmızı rəngli dəri oturacaqlar, təyyarədəki kimi içi lazımsız alətlərlə dolu böyük qutu... Əlbəttə, «o»nunku idi... «Qısqanmağa başlamışam? – deyə təəccüblə ürəyindən keçirdi. – Onu təsadüfən ilişdiyi adama qısqanıram? Mənə dəxli olmayan birisinə qısqanıram? Yox, adamdan üz döndərmiş məhəbbətin özünə qısqanmaq olar, daha onun yönəldiyi adama yox!»

Təzədən parka qayıtdı. Qaranlıqlardan gələn gül-çiçək qoxusu torpağın, şeh düşmüş yarpaqların ətrinə qarışmışdı. Bu ətir elə güclü idi ki, adətən, tufanqabağı belə olardı. Boş oturacaq tapıb əyləşdi... «Yox, onu atmış qadının evinin qabağındakı oturacaqda əyləşib, gözünü pəncərəyə zilləyən gecikmiş məşuq mən deyiləm! Qəlbində baş qaldırmış arzuların yerindən oynatdığı adam mən deyiləm! Onları alt-üst eləməyə gücüm çatar, ançaq neyləyim, özümlə bacarmıram! Yox, indi tarixin təkərini geri fırladaraq bir az bundan qabaq eyni şeyləri qulağıma pıçıldayan o sarışın ifritəni qaytarmaq üçün ömrümün yarısından keçməyə hazır olan axmaq mən deyiləm! Yox, lənət şeytana, burada miskin-miskin otu-

rub qısqanclıqdan sarsılan, az qala, durub o sarı maşına od vurmaq istəyən də mən deyiləm!» Ciblərində siqaret axtardı. Zəif közərti... Gözə görünməyən tüstü... Havada odlu qövs cızaraq yerə düşən kibrit çöpü... Niyə yuxarı qalxmadı? Qalxsa, nə olardı? Hələ gec deyildi, işıq yanırdı. Özünü, necə lazımdırsa, elə də apara bilərdi. Niyə gedib onu özü ilə aparmadı? İndi hər şey artıq aydın olandan sonra? Niyə götürüb aparmadı, onun ayağını biryolluq bu evdən kəsmədi?

Qaranlıqlara baxdı... Nə xeyri olardı? Bir şey çıxardımı? Bəs o biri? Başqasının ürəyindən heç kəsi, heç nəyi, heç vaxt çıxarıb atmaq olmazdı... O gecə, yanına gələndə saxlasaydı, necə olardı? Niyə belə eləmədi?

Siqareti atdı... Hə, ona görə ki, bu gəliş bəs eləmirdi... Ona görə... O, çox şey istəyirdi, o gəliş bəs eləməzdi. Bundan sonra lap yenə gəlsin, qoy min dəfə gəlsin, hər şey unudulsun, izi-tozu qalmasın, xeyri yox idi, bəs eləməzdi... Çox qəribə, çox dəhşətli olsa da, bəs eləməzdi... Çünki nə vaxtsa, nəsə düz gətirməmişdi, nə vaxtsa onu qoynuna alıb alova döndərəcək güzgüyə tuş gəlməmiş, yanından ötüb, zülmət dolu bir boşluqda azmışdı və indi həmin qığılcımı heç kəs ilə qaytarmaq olmazdı. Bir güzgü yox, lap min güzgü olsun, xeyri yox idi. Ola bilsin ki, bu güzgülər onun bir parçasını tutsun, ancaq nə xeyri, qaytara bilməyəçəkdir. O qığılcım çoxdandır məhəbbətin sonsuz ənginliklərində xəyal kimi süzür, onun qoynunda dumanlı, qarışıq izlər salırdı və məlum şeydir ki, o dumanlı yollar heç vaxt göy qurşağına dönüb, həsrətində olduğu zirvənin başına dolana bilməyəcək! Keçmişin sehirli aləmi dağılmış, ümidlər çilik-çilik olmuşdu və qalan yalnız inilti-sızıltı idi...

Binadan bir adam çıxdı. Kişi idi. Ravik dikəldi. Sonra bir qadın da gəldi. Nəyəsə gülüşdülər. Onlar deyildi. Maşınlardan birinə oturub getdilər. Yenə siqaret yandırdı. Onlar olsa, neyləyərdi? Joanı saxlaya bilərdimi? Ümumiyyətlə, bu dünyada nəyisə tutub saxlamaq olardımı? Yox, uzaqbaşı xülyaları tutub saxlamaq olar... Ancaq xülyalar da bəs edərdimi? Daha nəyi saxlamaq olardı? Duyğuların altında gizlincə coşan ömür burulğanından baş açan tapılarmı? Hiss və duyğular onun boğuq uğultusunu masa, çıraq, vətən, insan, məhəbbət kimi varlıqlara çevirir... Uzaqbaşı, ürəyinə nəsə damır, nəyisə alatoran şəkildə görürsən... Bu, bəs deyildimi?

Yox, bəs deyildi! O vaxt bəs olardı ki, buna inanasan. Əgər şübhə dalğası bülluru bir dəfə sındırıbsa, onu, uzaqbaşı, yapışdırmaq olar. Yapışdırıb, bir vaxt işım-işım işıldayan büllurun sınıq parıltısına baxa-baxa özünü aldadarsan. Yox, heç nəyi qaytarmaq olmaz, heç nəyi ilkin şəklinə salmaq mümkün deyil. Heççə nəyi! Hətta Joan bundan sonra qayıtsa da, əvvəlkinin eyni olmayacaq. Yapışdırılmış büllur kimi... O an keçib getmişdi, daha geri qaytara bilməzdin...

Kəskin, dözülməz bir ağrı hiss elədi. Nəsə içini doğrayır, parça-parça edirdi. «İlahi, ilahi! Görəcəyim günlər var imiş! Məhəbbət məni gör nə kökə salıb! Dönüb özümə baxıram, ancaq xeyri yoxdur. Bilirəm ki, indi qayıtsa da, bir vaxt yenə itirəcəyəm, ancaq qəlbimdəki istəyi boğa bilmirəm. Onu meyitxanadakı quru cəsəd kimi doğram-doğram eləyirəm, ancaq mən doğradıqca qızışır, canlanır. Bilirəm ki, nə vaxtsa hər şey sovuşub gedəcək, yenə xeyri yoxdur...»



Gözləri qamaşa-qamaşa pəncərəyə baxdı və birdənbirə öz-özünə lap gülünc göründü, ancaq bunun da xeyri olmadı...

Şəhərin başı üzərində qəflətən ildırım çaxdı, iri yağış damcıları yarpaqları döyəclədi. Ravik ayağa durdu. Elə bil, küçələrə gümüşü nur çilənirdi, yağış da astadan zümzümə eləyirdi. Üzünə dəyən ılıq damlalardan xoşhallandı. Və birdən özünə gülünc görünməsi də, miskinliyi də, ağrıları da yadından çıxdı, bircə onu bildi ki, yaşayır. Bəli, o yaşayırdı! Yaşayırdı və həyat da onu bərkə-boşa salırdı. Daha tamaşaçı kimi hər şeyə kənardan baxmırdı, yenə hissləri coşmuşdu, domna sobalarının buxarılarından çıxan alov kimi göylərə pərvazlanırdı. İndi fərqi yox idi, istəyir xoşbəxt olsun, istəyir bədbəxt, əsas məsələ o idi ki, yaşayırdı, yaşadığını da bütün varlığı ilə duyurdu və bu da ona bəs idi!

Pulemyot atəşi kimi göylərdən başına ələnən yağışın altında dayanmışdı. Dayanıb da yağışa, tufana, dənizə, torpağa dönmüşdü və göylərin şimşəyi indi onun beynində çaxırdı. Kükrəmiş təbiətin bir hissəsinə çevrilmişdi; indi hər şey qarışmışdı, adların qoyduğu sərhəd götürülmüşdü, məhəbbət də, çoşqun dənizlər də, evlərin damına qonmuş solğun ay işığı da, dalğaya bənzəyən Yer kürəsi də bir olmuşdu, bütün bənd-bərə dağılmışdı, onun özü də bunlardan biri

idi... Yaşamaq və bu yaşamağı duymaq hissi xoşbəxtliyi də, bədbəxtliyi də boş giliz kimi uzaqlara atmışdı...

– Sən, ey göylərin işartısı! – Bu sözləri o, işıq gələn pəncərəyə dedi, güldü və güldüyündən də özünün xəbəri olmadı. – Sən, ey gülüzlü mələk! Yer üzündə səndən də yaxşısı, gözəli, ağıllısı, mehribanı, etibarlısı, həssası olmasına baxmayaraq, qəlbimə əbədi hakim kəsilən afət! Sən, ey taleyin bir gecə yoluma çıxarıb ömrümə əbədi həkk elədiyi təsadüf! Sən, ey çaylar kimi çağlayan, ürəkləri dağlayan, məndən xəbərsiz qəlbimə yol tapan qəfil məhəbbət! Sən, ey məndə müqavimətdən başqa heç nəyə rast gəlməyən, lakin bu müqaviməti sındırmayınca əl çəkməyən və sonra daha çox şeylər tələb etməyə başlayan mələk, sənə salamlar olsun! Heç inanmazdım ki, nə vaxtsa gəlib, sənin pəncərən önündə belə dayanacağam. Yağış bədənimdən sel kimi axır, ancaq o, sənin əllərindən də, bütün bədənindən də hərarətlidir, soyuqdur, yumşaqdır. Boynumu büküb dayanmışam, qısqanclıq hissi qəlbimi didir, istəyə-istəyə, nifrət eləyə-eləyə, heyran qala-qala, dua edə-edə səni arzulayıram, sənə «sağ ol!» deyirəm! Çünki göydən atdığın şimşək məni alovlandırdı! Bu bir parça şimşəkdən hamının qəlbində var! Sən mənim qəlbimə həyat qığılcımı, ani bir alov saldın!

Mən indi bu dünyaya məzuniyyətə gələn, arsız-arsız kiməsə cəsarətlə, rişxəndlə baxan meyit deyiləm! Heç nəyə də biganə qalmıram! Əzab çəksəm də, yaşayıram, həyat nə desə, onu da eləyirəm, onun hər tufanına da dözməyə hazıram. Qoy tanrı özü sənə yar olsun, ey ürəkdən ürəyə qonan madonna, rumın ləhcəsində danışan zəfər ilahəsi Nike! Ey şirin arzu və yalançı xəyal, hansı Allahınsa sındırdığı güzgü, sən, ey heç nədən xəbərsiz, min yaşa! Bunları sənin özünə heç vaxt deməyəcəyəm, çünki insafsızsan, istifadə eləyərsən! Ancaq sən mənə nə Platonun, nə də payızgüllərinin, nə qüdrətli poeziyanın, nə də mərhəmət hissinin, nə düşkünlüyün, nə də böyük-böyük ümidlərin qaytara bilməyəcəyi bir şeyi qatardın! Bu, adicə, mənalı, çılpaq həyatdır! Həmin həyatı yaşamaq iki müharibənin arasındakı dövrdə mənə cinayət kimi görünürdü... Sənə salamlar olsun! Səni min yaşa! Bunları bilmək üçün səni itirməli idim! Bir də salamlar olsun!

Yağış göyün üzünə gümüşü pərdə çəkmişdi. Kol-kos ətri hər yanı bürümüşdü. Cana gəlmiş torpaq öz ətri ilə yağışa «sağ ol!» deyirdi. Üzbəüz evdən kimsə yüyürə-yüyürə gəlib sarı «Rodster»in çadırını qaldırdı. Qoy kim olursa olsun, daha fərqi yox idi!

Gecə düşmüşdü və ulduzlardan ələnən yağış daşa dönmüş şəhərin xiyabanlarına, bağ-bağçalarına can verir, bəhər gətirirdi. Milyon-milyon çiçəklər, ağaclar al-əlvan ləçəklərini onun qabağına sərmişdi və o da çəkinmədən özünü bu milyonların geniş açılmış qoynuna atır, lələk-lələk olmuş budaqların arası ilə süzülərək torpağın dərin qatlarına işləyir, milyon-milyon vüsal həsrətli köklərin boynuna dolanırdı! Yağış da, gecə də, təbiət də, boy atan köklər də öz işində idi, nə dağıntı, nə ölüm, nə cani, nə müqəddəs fürer, nə qələbə, nə də məğlubiyyət dərdi çəkirdi. Onlar hər il belə idi, Ravik də bu gecə onlara yoldaş olmuşdu... «Sən, ey piyalə qönçə, sən, ey önümdə açılan həyat, həyat, bir də həyat, xoş gəlmisən! Tanrı sənə yar olsun!»



Tələsə-tələsə bağlarla, küçələrlə geri qayıdırdı. Heç dönüb arxaya da baxmır, elə hey gedir, gedirdi. Bir az sonra arı pətəyi kimi qaynaşan Bulon meşəsi onu öz qoynuna aldı. Yağış ağacların yarpaq çətirlərini döyəcləyir, onlar da, sanki, yellənə-yellənə ona cavab verirdi... və birdən Ravikə elə gəldi ki, cavanlaşıb, ömründə ilk dəfə qız yanına gedir...

## XXIV

– Nə buyurursunuz? – Xidmətçi Ravikdən soruşdu.

– Mənə bir...

– Nə? – Ravik susurdu. – Sizi başa düşmədim, müsyö.

– Nə olursa olsun... Nəsə bir şey gətirin...

– Bir qədəh «Perno» olar?

– Olar...

Ravik gözlərini yumub, təzədən yavaş-yavaş açdı. Kişi yerində idi! Yox, bu dəfə yanıla bilməzdi...

Haake qapının ağzındakı stolun arxasında oturmuşdu. Tək idi, çörək yeyirdi. Stolun üstündəki gümüş məcməyidə iki bölünüb qızardılmış dəniz xərçəngi, içində buz olan balaca vedrədə isə bir şüşə «Şampan» şərabı vardı. Yanında

dayanmış xidmətçi salata pomidor doğrayırdı. Ravik bunların hamısını elə aydın görürdü ki, deyərdin, həmin mənzərəni kimsə gözləri önündə mumdan düzəldirdi... Haake şüşəni sərin sudan çıxaranda barmağındakı üzüyü gördü. Qırmızı qaşına gerb çəkilmiş bu üzük həm də şəxsi möhür əvəzi idi. Dümağ koppuş əllər də, həmin üzük də Ravikə yaxşı tanış idi. İkisini də o cəlladlar «huşsuzlaşdırma» metoduna əl atanda görmüşdü: huşu başından çıxanacan döydülər, sonra üzünə gur işıq salıb, ayıltmaq üçün bir vedrə su tökdülər. Həmin anda Haake, şax paltarına su düşməsin deyə, ehtiyatla geri çəkildi, dümağ koppuş əlini Ravikə uzadaraq bic-bic güldü: «Bu hələ muştuluqdur... Hələ nə görmüsən ki... İndi o adları deyirsiniz, yoxsa davam elətdirək? Hər şeyə gücümüz çatar... Görürəm ki, dırnaqlarınız da hələ yerindədir...»

Haake başını qaldırdı və düz Ravikin gözlərinin içinə baxdı. Ravik güclə özünü saxlayıb yerindən tərpənmədi. Qədəhi götürüb, bir qurtum aldı, baxışlarını birtəhər salat qabına tərəf döndərdi, sanki, onun necə hazırlandığı ilə maraqlanırdı. Haakenin onu tanıdığını dəqiqləşdirə bilmədi. Hiss etdi ki, bircə anın içində bütün kürəyi suya döndü. Bir az keçəndən sonra gözünün ucu ilə yenə o tərəfə baxdı. Haake yeyirdi və gözləri də boşqabında idi. Daz kəlləsi işım-işım işıldayırdı. Ravik yan-yörəsinə nəzər saldı. Restoran ağzına kimi dolmuşdu, heç nə eləmək olmazdı. Yanında silah yox idi və boş əllə onun üstünə atılsa, o dəqiqə beş-on adam tökülüşüb aralayacaq... İki dəqiqədən sonra da polis özünü yetirəcək... Başqa çıxış yolu yox idi, gərək, gözləyəydi, Haake çıxanda dalınca düşəydi, harada qaldığını öyrənəydi...

Özünü məcbur eləyib siqaret yandırdı, yalnız onu çəkib qurtarandan sonra Haake tərəfə baxdı. Arxayın-arxayın ətrafına nəzər saldı, guya, kimisə axtarırdı. Haake yeməyi qurtarmışdı. Dəsmalla dodaqlarını silirdi. Özü də bunu ikiəlli eləyirdi. Dəsmalı darta tutub, əvvəlcə alt dodağını, sonra da üst dodağını quruladı, elə bil, qadın kimi dodaqlarındakı boyanı götürürdü. Silə-silə də təfərinclə Ravikə baxırdı...

Ravik baxışlarını döndərdi. Hiss etdi ki, Haake hələ də ona baxır. İşarə ilə xidmətçini çağırıb, bir «Perno» da gətirtdi. Başqa bir xidmətçi də Haakenin stolunu yığışdırırdı. O, xərçəngin sür-sümüklərini bir yerə yığıb, boş qədəhi

doldurdu, gedib, içində cürbəcür pendir olan təzə bir məcməyi gətirdi. Haake «Bri» pendirini göstərdi.

Ravik yenə siqaret yandırdı. Gözünün qulağı ilə bir də o tərəfə baxanda gördü ki, Haake hələ də nəzərlərini ondan çəkməyib. Artıq buna təsadüf demək olmazdı. Ravik hiss elədi ki, titrəyir. Əgər Haake onu tanıyıbsa... Yanından keçən xidmətçini saxladı:

– Bu «Perno»nu mənim üçün bayıra apararsınız? Artırmada oturmaq istəyirəm, ora sərindir.

Xidmətçi tərəddüd elədi:

– Pulunu burada versəniz, yaxşı olar. Ora başqası baxır. Sonra mən özüm gətirərəm...

Ravik başını bulayıb, pul çıxardı:

– Yaxşı, bunu burada içərəm, bayırda ayrısını sifariş verərəm. Onda qarışıq düşməz.

– Oldu, müsyö! Təşəkkür edirəm, müsyö!



Ravik tələsmədən qədəhini boşaltdı. Bilirdi ki, Haake hamısına qulaq asır. Ravik danışanda yeməyinə ara vermişdi, indi isə təzədən başladı... Ravik də bir xeyli sakitcə oturub qaldı. Əgər, doğrudan da, Haake onu tanımışdısa, onda bircə yolu qalırdı: özünü elə göstərsin ki, guya, onu tanımayıb və artırmadan izləsin.

Bir az sonra durub, tələsmədən bayıra çıxdı. Demək olar ki, bütün stollar tutulmuşdu. Ravik dayanıb gözlədi, stol boşalan kimi keçib oturdu. Buradan Haakenin stolunun yarısı görünürdü. Onun özünü isə görə bilmirdi... Ancaq, gərək, qalxdığını biləydi, tez dalınca çıxaydı. Bir qədəh «Perno» gətirdib, pulunu da əvvəlcədən verdi ki, istədiyi anda dura bilsin...

– Ravik! – Lap yanında adını çəkdilər. Elə diksindi ki, deyərdin, kimsə ona qəfil zərbə endirdi. Joan idi...

Gözünü döyə-döyə Joanın üzünə baxırdı.

– Ravik! – O, yenə təkrar elədi. – Daha məni tanımırsan?

– Niyə tanımıram?! – Onun gözləri Haakenin stolunda idi. Dərindən nəfəs aldı. Hələ vaxt var idi. – Joan! – O, güclə danışırdı. – Sən hara, buralar hara?

– Bu, nə sualdır? Hər gün «Fuke»yə gəlməyən adam olar?

– Təksən?

– Təkəm.

Gördü ki, Joan hələ də ayaq üstədir, özü isə oturub. Tez ayağa durdu. İndi Haakenin stolunu görə bilirdi.

– Mənim ayrı işim var, Joan... – Bu sözləri onun üzünə baxmadan, tələsə-tələsə dedi. – Nə olduğunu deyə bilmərəm. Ancaq sənlik iş deyil, getməyin məsləhətdir.

– Getməyəcəyəm, – Joan oturdu, – baxım, görüm, o, necə qadındır.

– Hansı qadın? – Ravik heç nə anlamadı.

– Gözlədiyin...

– Qadın deyil.

– Bəs nədir?

Joanın üzünə baxdı, dinmədi.

– Məni heç tanımaq istəmirsən! – Joan şikayətləndi. – Qovursan! Özün də həyəcanlısan. Bilirəm, kimisə gözləyirsən... Qoy görüm, kimdir...

«Qəhvə içməyi də beş dəqiqə çəkər, – Ravik ürəyindən keçirdi. – Ya da on, on beş dəqiqə... Sonra da bir siqaret çəkəcək. Yəqin, siqaret çəkər...»

Gərək, o vaxta qədər Joanı birtəhər başından eləyəydi.

– Yaxşı, – dedi, – öz işindir! Ancaq get, başqa stolda otur.

Joan cavab vermədi. Gözləri parıldadı, rəngi tutuldu.

– Qadın gözləmirəm... Lənət şeytana, lap tutaq ki, qadın gözləyirəm, bundan sənə nə? Gülünc olma, Joan, özün bir aktyorla kefdəsən, məni də başqasına qısqanırsan.

Joan dinmədi. Gözlərini Ravik baxan səmtə çevirdi, onun kimə baxdığını müəyyənləşdirmək istədi.

– Qurtar, Joan!

– O da özünə başqasını tapıb?

Ravik nə fikirləşdisə, birdən oturdu. Haake onun artırmaya çıxacağını eşitmişdi və əgər, doğrudan da, tanımışdısa, onun artırmada oturduğunu bilmək üçün mütləq gəlməli idi... Elə isə qadınla oturmağı yaxşı idi, daha təbii görünərdi.

– Yaxşı, – dedi, – qal! O dediklərinin də hamısı boş şeydir. Bir azdan durub gedəcəyəm. Məni taksiyə qədər ötürərsən, ancaq səni aparmayacağam, razısan?

– Niyə belə müəmmalısan?

– Müəmmalı deyiləm. Burada bir kişi var, çoxdandır onu görmürdüm. İndi onun harada yaşadığını öyrənmək istəyirəm, vəssalam...

– Qadın deyil?

– Yox, kişidir... Özgə heç nə deyə bilmərəm. – Xidmətçi onlara yaxınlaşdı. – Nə içəcəksən? – deyə Ravik soruşdu.

– Kalvados.

– Bir qədəh kalvados gətirin!

Xidmətçi ayağını sürüyə-sürüyə getdi.

– Özün içmirsən?

– Yox, mən bunu içirəm.

– Heç bilirsən, hərdən sənə necə nifrət edirəm?

– Olan şeydir! – Ravik Haakenin stoluna baxdı. «Şüşəyə bax, – deyə ürəyindən keçirdi, – titrəyir, elə bil, harayasa axıb gedir... Küçə də, stollar da, adamlar da bu tutqun şüşənin içindəki bulanıq meyvə şirəsində üzürlər...»

– Sən buz kimi soyuqsan, xudpəsəndsən!

– Joan, bunu başqa vaxt ayırd edərik...

Xidmətçi qədəhi gətirib onun qabağına qoyanda Joan susdu. Ravik o dəqiqə kalvadosun pulunu verdi.



– Məni bu günə salan sən oldun! – Joan, sanki, onu döyüşə çağırırdı.

– Bilirəm... – Bircə anlığa Haakenin qənd götürən koppuş əlini gördü.

– Sən! Təkcə sən oldun! Heç vaxt məni sevmədin, məhəbbətimlə oynadın, elə ki gördün vurulmuşam, saya salmadın!

– Düz deyirsən... – Ravik onun üzünə baxmadan təkrar elədi. – Hər şey sonradan dəyişdi.

– Hə, sonra... sonra... hər şey bir-birinə qarışdı. Onda da gec idi... Sən, sənsən günahkar!

– Bilirəm...

– Mənimlə bu cür danışma! – Hirsindən Joanın rəngi avazıdı. – Heç mənə qulaq da asmırsan!

– Asıram... – Ravik onun üzünə baxdı. Danışmaq lazım idi, nəsə demək lazım idi. Nə olursa olsun, fərqi yox idi...

– Aktyorunla sözləşmisən?

– Hə!

– Keçib gedər...

Qapı tərəfdən mavi tüstü qalxırdı. Xidmətçi yenə qəhvə süzdü. Haake, deyəsən, tələsmirdi.

– İstəsəm, «yox» deyərdim. İstəsəm, deyərdim ki, təsadüfən buradan keçirdim. Ancaq təsadüf deyil, səni axtarırdım. Daha onun yanında qalmaq istəmirəm.

– Hamının başına gələn işdir. Belə də olmalıydı...
– Qorxuram ondan! Hədələyir, deyir ki, güllə ilə vuracaq.
– Nə? – Ravik, sanki, yuxudan ayıldı. – Nə dedin?
– Deyir ki, səni vuracağam...
– Kimi? – Ravikin fikri ayrı yerdə idi, ona görə də gec başa düşdü. – Belə de..e.. Sən də inanırsan?
– Yaman tez özündən çıxandır.
– Boş şeydir... Öldürən adam heç vaxt elə deməz! O da ola aktyor...
«Mən niyə belə danışıram? – Ravik ürəyindən keçirdi. – Bu, nə deməkdir? Mən burada neyləyirəm? Bu, kimin səsidir? Bu, kimin sifətidir? Qulaqlarım niyə güyüldəyir? Bunun mənə nə dəxli?»
– Bunları mənə niyə deyirsən?
– Onunla üzülüşmək istəyirəm! İstəyirəm, sənin yanına qayıdım...
«Əgər taksiyə minsə, gecikəcəyəm, taksi tapmağım xeyli çəkəcək, – Ravik ürəyindən keçirdi. – O da yerindən tərpənənə kimi gec olacaq!»
Ayağa durdu:
– Gözlə, indicə qayıdıram, – dedi.
– Neyləmək istəyirsən?
Cavab vermədi. Tez səkinin o biri tərəfinə keçdi, taksi saxlatdı:
– Bu on frankı götürün, – dedi, – məni bir-iki dəqiqə gözləyə bilərsiniz? İçəridə işim var.
Sürücü əvvəlcə pula, sonra da Ravikə baxdı. Ravik göz vurdu. Sürücü də göz basıb, pulu əlində oynatdı.
– Yol haqqı ayrı olacaq... Özünüz başa düşərsiniz...
– Aydındır! – Sürücü irişdi. – Yaxşı, gözləyirəm.
– Elə yerdə saxlayın ki, tez tərpənə biləsiniz.
– Baş üstə, şef!
Ravik küçədən keçən adamları yara-yara geri qayıtdı. Birdən gözü kəlləsinə çıxdı. Haake qapının ağzında dayanmışdı. Joan nəsə dedi, ancaq o eşitmədi.
– Dayan! – dedi. – Bu dəqiqə... Bircə saniyə...
– Yox! – Joan durdu. – Peşman olacaqsan!
Joan az qalırdı ağlasın. Ravik özünü birtəhər gülümsəməyə məcbur etdi, bərk-bərk onun qolundan yapışdı. Haake hələ də orada dayanmışdı.

– Otur! Bircə saniyə də otur!

– Yox!

Joan dartındı, Ravik də buraxdı. Hay-küy salmaq istəmirdi. Joan iri addımlarla stolların arasından keçib qapıya tərəf getdi. Haake onun arxasınca baxdı. Sonra baxışlarını asta-asta geriyə, Ravikə sarı döndərdi və yenə təzədən Joan gedən tərəfə çevirdi. Ravik oturdu. Qan beyninə vurdu. Pulqabını çıxardı, sanki, nəsə axtarırdı. Hiss elədi ki, Haake stolların arası ilə ona tərəf gəlir. Biganəliklə əks tərəfə baxdı, yoxsa baxışları toqquşa bilərdi.

Gözləyirdi və bu gözləmək də əbədiyyətin özü qədər uzun çəkirdi. Qəflətən onu dəhşətli bir qorxu bürüdü. Birdən Haake qayıtmış olsa, neyləyər?! Tez o tərəfə çevrildi. Haake görünmürdü. Dünya başına fırlandı.

– İcazə olar? – Kimsə lap yanında soruşdu.



Ravik eşitmədi. Gözləri qapıda idi. Haake içəri qayıtmamışdı. «Tez qalxmaq lazımdır! Dalınca qaçmaq, mütləq tutmaq lazımdır!» Arxadan yenə səs eşidildi və geri dönəndə döyükə-döyükə qaldı. Haake arxa tərəfdən gəlib onun yanında dayanmışdı, bayaq Joan oturan boş stula işarə edirdi:

– İcazə olar? Bütün stollar tutulub, yoxsa...

Ravik başı ilə: «hə», – dedi, çünki danışmağa heyi qalmamışdı. Bayaq beyninə vuran qan indi geri süzülürdü. Hey axır, axırdı və sanki, stolun altına tökülürdü, bədəni boş kisə kimi dik dayana bilmirdi. Kürəklərini bərk-bərk söykənəcəyə sıxdı. Gözü, içində süd kimi maye olan qədəhi birtəhər seçə bildi. Götürüb içdi. Qədəh daş kimi idi. Onu tutan əlinə baxdı: titrəmirdi. Titrəyən damarları, əzələləri idi...

Haake «Finşampan» konyakı sifariş verdi. Dedi ki, köhnəsi olsun. Fransızca çətin, özü də alman ləhcəsində danışırdı. Ravik işarə ilə qəzetsatan oğlanı çağırdı, «Pari suar» istədi. Oğlan qapıya tərəf baxdı. Qəzetsatan arvadın həmişə orada dayandığını bilirdi. Bükülmüş qəzeti gizlicə Ravikə uzatdı, pulu alıb aradan çıxdı.

«Tanımış olar! – Ravik ürəyindən keçirdi. – Yoxsa niyə durub gəlirdi?!»

Bunu gözləmirdi. İndi əlac ona qalırdı ki, dayanıb Haakenin nə edəcəyini gözləsin, ona uyğun da hərəkət etsin... Qəzeti götürüb, başlıqlara baxdı, sonra qatlayıb stolun üstünə qoydu. Haake ona baxırdı...

– Gözəl gecədir, – bunu Haake almanca dedi. Ravik başını tərpətdi. Haake gülümsədi:

– Gözlərimə söz ola bilməz, düzdür?

– Deyəsən...

– Sizi əvvəlcə içəridə gördüm.

Ravik diqqətini toplayıb, biganəliklə başını tərpətdi. Sinirləri tarımlanmışdı, Haakenin niyyətini heç cür başa düşə bilmirdi. Ravikin gizlincə Fransaya keçdiyini bilməzdi. Ancaq, ola bilsin, gestapo bunu da bilirdi... Eybi yox, hələ vaxt var...

– O dəqiqə tanıdım, – Haake dilləndi.

Ravik döyükə-döyükə onun üzünə baxırdı...

– Çapıqdan tanıdım! – Haake Ravikin alnına işarə etdi. – Bildim ki, tələbə cəmiyyətinin üzvü olmusunuz. Deməli, almansınız. Ya da Almaniyada oxumusunuz.

Bunu deyib, Haake güldü. Ravikin gözü hələ də onun üzündə idi. Ola bilməzdi! Lap gülünc idi! Gərginlik o dəqiqə yoxa çıxdı, dərindən nəfəs aldı, yüngülləşdi. Haake onu tanımamışdı. Elə bilmişdi ki, alnındakı çapıq tələbə duelində olub. Ravik də güldü. Haakeyə qoşulub güldü. Gülməyini saxlamaq üçün də yumruqlarını elə sıxdı ki, dırnaqları ətinə yeridi...

– Düz tapdım? – Haake məmnun halda soruşdu.

– Bəli, düz tapmısınız.

Alnındakı çapığın tarixi yadına düşdü. Onu gestaponun zirzəmisində, Haakenin gözləri qabağında eləmişdilər. Qan gözlərinə, ağzına dolurdu. Haake isə indi deyirdi ki, tələbə duelində olub və bunu tapması ilə də öyünürdü...

Xidmətçi Haakenin konyakını gətirdi. O, ləzzətlə qədəhi iylədi.

– Konyaklarına söz ola bilməz, – dedi, – əntiqə olur! Qalan şeylərdə... – Ravikə göz basdı – ölkə batır. Borc içində boğulur. Bunlarınkı dinc və yüngül həyatdır. Bizimlə bacarmayacaq!

Ravikə elə gəlirdi ki, danışa bilməyəcək. Elə bilirdi ki, danışsa, əlindəki qədəhi stola çırpacaq, şüşə qırıqlarının hamısını onun gözünə soxacaq... Ehtiyatla daş kimi ağır qədəhi götürdü, axıracan içdi, sakitcə qaytarıb yerinə qoydu.

– Bu, nədir? – Haake soruşdu.

– «Perno». «Absent» əvəzidir.

– «Absent» barədə eşitmişəm. Fransızları kişilikdən salan o deyil? – Haake irişdi. – Bağışlayın, sizi nəzərdə tutmuram.

– «Absent» qadağandır. Bu da onun əvəzinədir, ziyansızdır. «Absent» adamı kişilikdən salmır, ancaq nəsil artırmağa qoymur, ona görə də qadağan olunub. Mən içdiyim anis almasından çəkilmiş araqdır, biyan dadı verir.

Yox, danışa bilirmiş! Hətta heç həyəcanlanmır da! Suallara da sakitcə, sərrast cavab verirdi. Tufan haradasa daxilində idi, hay salırdı, uğuldayırdı, ancaq üzdən sakit idi...

– Burada yaşayırsınız? – Haake soruşdu.

– Bəli.

– Çoxdan?

– Anadan olandan.

– Aydındır! Xarici ölkədə yaşayan alman! Burada anadan olmusunuz?

Ravik başını tərpətdi. Haake konyakını içdi:



– Xalqımızın ən yaxşı oğullarından bir neçəsi də xaricdə yaşayan almanlardır, – dedi. – Fürerin müavini Misirdə anadan olub. Rozenberq Rusiyada, Darre isə Argentinada doğulub. Hər şey dünyagörüşündən asılıdır, düz demirəm?

– Tamamilə düzdür.

– Sizin də belə fikirləşəcəyinizi bilirdim! – Haakenin üzgözündən razılıq yağırdı. O, bir az stola tərəf əyildi və deyəsən, stolun altında dabanlarını da cütlədi. – Yeri gəlmişkən, özümü təqdim edim: fon Haake!

Ravik də eyni əda ilə cavab verdi:

– Horn!

Əvvəlki ləqəblərindən biri idi...

– Fon[1] Horn? – Haake soruşdu.

– Bəli.

Haake başını tərpətdi, tam arxayınlaşdı. Öz zümrəsindən olan adama tuş gəlmişdi.

– Parisi yaxşı tanıyırsınız, elə deyilmi?

– Bir balaca...

– Muzeyləri nəzərdə tutmuram, – Haake bic-bic güldü.

– Nəyi nəzərdə tutduğunuzu başa düşürəm.

«Arilər nəslindən olan bu ali adam, deyəsən, özü bataqlığa düşmək istəyir, ancaq yaxşı yer tapa bilmir... – Ravik ürəyindən keçirdi. – Kaş başını tovlayıb onu dalda yerə,

---

[1] *Fon* – kübar nəslə mənsub olduğunu göstərir

ya gözdən iraq bir meyxanaya, ya da ucqar bir fahişəxanaya çəkə biləydim! – Bu fikir onun beynindən ildırım sürəti ilə keçdi. – Elə yerə ki, qabağıma duran, əlimdən alan olmasın!»

– Burada yaxşı yerlər çoxdur, eləmi?

– Təzəlikcə Parisdəsiniz?

– İki həftədən bir iki-üç günlüyə gəlirəm. Bu da bir növ nəzarətdir. Çox vacib işdir. Son ildə işlərimizi burada yaxşı qurmuşuq, əla gedir! Nə iş olduğunu deyə bilmərəm, ancaq... – Haake güldü. – Burada hər şeyi pulla almaq olar. Satqın millətdir. Az qala, istədiklərimizin hamısını öyrənmişik. Çox əziyyət çəkmirik, özləri gəlib deyirlər. Vətəni satmaq da bunlarda vətənpərvərliyin bir növünə çevrilib. Çoxpartiyalılıq belədir. Qalib gəlmək üçün partiyalar bir-birini, beləliklə də, vətəni satırlar. Bu, bizim xeyrimizədir. Çoxlu həmfikir tapmışıq, hamısı da təsirli dairələrdəndir... – O, qədəhini qaldırıb içinə baxdı, boş olduğunu görüb, yerə qoydu. – Heç silahlanmır da... Elə bilir, silahlanmasa, onlarla işimiz olmayacaq. Təyyarələrinin, tanklarının sayını bilsəniz, özünə qəbir qazan bu xalqa gülməkdən ölərsiniz...

Ravik onun dediklərinə qulaq asırdı. Bütün diqqətini cəmləmişdi, ancaq buna baxmayaraq, hər şey – stollar da, xidmətçilər də, axşam sərinliyində qaynayan həyat da, yollarda şütüyən maşınlar da, evlərin başına dolanan ay da, küçələrdə sayrışan al-əlvan reklamlar da, hətta bir vaxt onun həyatını məhv eləmiş, indisə üzbəüz oturub boşboğazlıq eləyən qatillər qatili də ona yuxu kimi gəlirdi...

İki şıq geyinmiş qız onların yanından keçəndə Ravikə baxıb gülümsədi. «Oziris»də işləyən İvetta ilə Marta idi. Bu gün istirahət edirdilər...

– Lənət şeytana, əntiqə şeylərdir! – deyə Haake onların dalınca baxdı.

«Kaş dalda bir küçədə əlimə düşəydi! Dar, bomboş küçə olaydı.. Ya da Bulon meşəsində...» – Ravik ürəyindən keçirdi.

– Bu xanımların çörək pulu məhəbbətdən çıxır, – dedi.

Haake onların arxasınca baxdı:

– Pis deyillər. Zənnimcə, sizin başınız belə şeylərdən yaxşı çıxmalıdır, – deyib Haake yenə konyak sifariş verdi. – İcazə verin, sizi də qonaq eləyim.

– Təşəkkür edirəm. «Perno» içəcəyəm.

– Deyilənə görə, burada yaxşı yerlər var, adam görəndə ağlı başından çıxır. – Haakenin gözləri parıldadı. O vaxt gestaponun zirzəmisindəki gur işıqda da beləcə parıldamışdı...

«İndi onları yada salmaq lazım deyil, – Ravik ürəyindən keçirdi. – İndi olmaz!»

– Heç birində olmamısınız?

– Bir neçəsində olmuşam. Əlbəttə, tanışlıq məqsədilə getmişəm. Bu xalq hara yuvarlanır? Çox güman ki, mən hələ yaxşılarında olmamışam. Əlbəttə, ehtiyat elədim, adam elə yerlərdə tez ilişər.

Ravik başını tərpətdi:

– O sarıdan narahat olmağa dəyməz. Burada elə yerlər var ki, ora turist ayağı dəymir.

– Eləsini tanıyırsınız?



– Əlbəttə, lap ürəyiniz istəyən kimi.

Haake ikinci konyakı da içdi. Lap arxayınlaşdı. Almaniyadakı əngəllər burada yox idi. Ravik gördü ki, o heç nədən şübhələnmir və dedi:

– Elə mən özüm də bu gün bir az əylənmək istəyirdim.

– Doğrudan?

– Bəli. Hərdən eləyirəm... Adam bacardığı qədər çox görüb-götürməlidir.

– Düzdür! Çox düzdür!

Haake onu bircə anlığa donuq nəzərlərlə süzdü. «Sərxoş eləmək lazımdır, – deyə Ravik ürəyindən keçirdi. – Başqa cür alınmasa, sərxoş eləyib qaranlıq yerə çəkmək lazımdır!»

Haakenin üzündəki ifadə dəyişdi. Sərxoş deyil, sadəcə olaraq, fikrə gedibmiş...

– Heyif! – nəhayət dilləndi. – Mən də gedərdim!

Ravik dinmədi. Onu hürkütmək olmazdı.

– Bu gün Berlinə qayıtmalıyam, – deyə Haake saatına baxdı. –Saat yarım vaxtım qalıb.

Ravik halını pozmadı. «Mən də gedərəm, – ürəyindən keçirdi. – Yəqin, hansı mehmanxanayasa düşüb... Evdə qalmaz... Onunla otağına gedərəm, içəridəcə işini bitirərəm...»

– İki tanış gələsidir, onları gözləyirəm. – Haake sözünə davam etdi. – İndi gəlirlər. Onlar da mənimlə gedirlər. Çamadanları vağzala qoymuşam. Buradan birbaş ora gedəcəyik.

«Əldən çıxdı! – Ravik ürəyindən keçirdi. – Niyə tapançanı götürmədim? Mən axmaq niyə elə bildim ki, onda yanılmış olaram? İndi küçəyə çıxan kimi vurardım, qaçıb metroda gizlənərdim...»

– Heyif! – Haake yenə təəssüfləndi. – Ancaq eybi yoxdur, bəlkə, gələn dəfə getdik. İki həftədən sonra yenə buradayam.

Ravik dərindən nəfəs aldı:

– Olsun, – dedi.

– Harada yaşayırsınız? Gələn dəfə zəng vurardım.

– «Prins de Qall» mehmanxanasında. Elə bu küçədədir.

Haake cib dəftərçəsini çıxarıb, ünvanı yazdı. Ravik dəftərçənin yumşaq dəridən düzəldilmiş zərif üz qabığına baxdı. Nazik qələmi də qızıldan idi. «Görəsən, orada nə yazılıb? – deyə ürəyindən keçirdi. – Yəqin, kimisə işgəncəyə, ölümə aparan xəbərlərdir...»

Haake cib dəftərçəsini yerinə qoydu.

– İndicə söhbət elədiyiniz də qəşəng idi, – dedi.

Ravik bir anlığa çaşdı:

– Onu deyirsiniz? Bəli, çox qəşəngdir.

– Aktrisadır?

– Ona oxşar şeydir.

– Yaxından tanıyırsınız?

– Bəli, yaxın tanışımdır.

Haake dalğın halda harasa baxdı.

– Burada ən çətin şey belə bir qəşəng qadınla tanış olmaqdır. Vaxt çox az olur, elə bir təsadüf də düşmür.

– Düzələn işdir.

– Doğrudan? Özünüzün marağınız yoxdur?

– Nəyə?

Haake sıxıla-sıxıla gülümsədi:

– Məsələn, indicə söhbət elədiyiniz qadına...

– Zərrə qədər də...

– Lənət şeytana, pis olmazdı. Fransızdır?

– Deyəsən, italyandır. Hələ başqa millətdən də qarışığı var.

Haake irişdi:

– Pis deyil. Bizdə beləsi olmur. Buraya da, necə deyərlər, başqa adla gəlirsən...

– Başqa adla gəlirsiniz?

Haake bir anlığa duruxdu, sonra gülümsədi:

– Aydındır! Əlbəttə, yaxşı adamlar üçün öz adım var. Ancaq başqaları üçün tamam ayrı adamam. Yeri gəlmişkən, yaxşı yadıma düşdü, qaçqınlarla heç bir əlaqəniz yoxdur?

– Çox az, – Ravik ehtiyatla cavab verdi.

– Heyif! Bizə bu cür məlumatlar çox lazımdır. Hətta əvəzində pul da veririk. – Haake əlini qaldırdı. – Məlum şeydir ki, sizin əlaqəniz olmaz. Ancaq yenə də ən adi məlumat belə...

Ravik hiss etdi ki, Haake onun üzünə baxır.

– Ola bilər, – dedi. – Bilmək olmaz, bəlkə, nə vaxtsa rast gələrəm...

Haake stulunu ona yaxın çəkdi:

– Bilirsinizmi, mənim bir işim də budur, əlaqələri tapıb öyrənmək. Hərdən izə düşmək çətin olur. Burada yaxşı adamlarımız var... – O, mənalı-mənalı qaşlarını dartdı. – Bizə görə bu işin başqa mənası var. Şərəfli vəzifədir... Bir sözlə, vətən qarşısındakı borcumuzdur...



– Buna söz ola bilməz!

Haake başını qaldırdı:

– Tanışlarım gəldi. –Ürəyində hesablayandan sonra pul çıxarıb çini boşqabın içinə qoydu. – Qiymətlərin boşqabın üstünə yazılmısı çox rahatdır. Bunu bizdə də tətbiq etmək lazımdır... – O durub, əlini Ravikə uzatdı. – Hələlik, cənab fon Horn, sizinlə tanış olduğuma çox şadam. İki həftədən sonra zəng vuracağam, – deyib gülümsədi. – Şübhəsiz ki, hər şey aramızda qalacaq.

– Sözsüz! Zəng vurmağı unutmayın.

– Unutmaram. Mən bir dəfə gördüyüm sifəti, verdiyim vədi heç vaxt unutmuram. Özümə rəva bilmərəm, sənətim belədir.

Ravik onunla üzbəüz dayanmışdı. Ona elə gəlirdi ki, indi beton bir divarı yarmalıdır. Sonra Haakenin əlini öz əlində hiss elədi. Onun əli balaca və həddindən artıq yumşaq idi.

Haake gedəndən sonra nə edəcəyini bilməyib, bir anlığa yerindən tərpənmədi. Sonra oturdu. Hiss elədi ki, titrəyir. Bir az oturandan sonra pulunu verib çıxdı. Haake gedən tərəfə üz qoydu. Birdən yadına düşdü ki, o, iki dostu ilə taksiyə mindi. Onda dalınca getməyin mənası yox idi. Haakeyə hansı mehmanxanaya düşdüyünü demişdi. Onu təsadüfən başqa yerdə görsə, şübhələnərdi. Ravik qaldığı mehmanxanaya qayıtdı.

* * *

Morozov dedi:

– Çox ağıllı hərəkət eləmisən.

Onlar Ron-Puen küçəsindəki kafelərdən birində oturmuşdular.

Ravik sağ əlinə baxdı. Onu bir neçə dəfə araqla yumuşdu. Özü bilirdi ki, səfehlik eləyir, ancaq yumasa, dözə bilməzdi. Əlinin dərisi indi perqament kimi qupquru olmuşdu.

– Başqa cür hərəkət etmiş olsaydın, səfehlik olardı. Yaxşı ki, yanında heç nə yox imiş.

– Hə, – deyə Ravik inamsız səslə dilləndi.

Morozov onun üzünə baxdı:

– Sən o qədər də axmaq deyilsən ki, qətl üstündə, ya da ona cəhd elədiyinə görə məhkəməyə düşəsən.

Ravik cavab vermədi.

– Ravik! – Morozov əlindəki şüşəni acıqla stolun üstünə qoydu. – Xəyalpərvər olma!

– Xəyalpərvər deyiləm. Niyə başa düşmürsən, ürəyimə damıb ki, onu əldən qaçırtdım. İkicə saat əvvəl görsəydim, gizli bir yerə çəkərdim, ya da başqa cür eləyərdim...

Morozov qədəhlərə araq süzdü:

– Bunu iç, araqdır... Ona yenə rast gələcəksən.

– Bəlkə də, gəlmədim.

– Tapacaqsan! O özü gələcək. Elə qarmaq atmamısan ki, düşməyə. Nuş olsun!

Ravik də içdi.

– Gərək, vağzala gedib onun qatara mindiyini öz gözümlə görəydim.

– Bəs necə?! Hələ güllə də ataydın! Ən azı iyirmi il katorqa alardın. Belə ağıllı ideyalardan yenə varındır?

– Var! Heç olmasa, onun qatara mindiyinə baxardım.

– O da səni görəydi və hər şey də bitəydi!

– Gərək, hansı mehmanxanaya düşdüyünü soruşaydım.

– Soruşaydın da, şübhəyə salaydın da! – Morozov qədəhləri yenə doldurdu. – Qulaq as, Ravik, indi sənə elə gəlir ki, düz eləməmisən. Bu fikri başından çıxar getsin! Əgər bacarmırsansa, nəyisə vur, dağıt. Elə şey deyirəm ki,

həcmcə iri, qiymətcə ucuz olsun. Zənnimcə, «İnternasional»ın «Palma zalı»nı dağıtsan, bəsindir.

– Xeyri olmayacaq...

– Onda danış! Yorulana qədər danış! Danış ki, yüngülləşəsən, sakitləşəsən. Rus deyilsən, yoxsa bunun xeyrini başa düşərdin.

Ravik başını qaldırdı:

– Boris, – dedi, – bilirəm, siçovulu öldürmək lazımdır ki, qayıdıb səni dişləməsin. Ancaq mən bu haqda danışa bilmərəm. Onun əvəzinə fikirləşərəm. Fikirləşərəm ki, bir də rast gələndə, necə eləyim. Təşrihə hazırlaşan kimi hazırlaşacağam. Bacardığım qədər yaxşı hazırlaşacağam. Məşq edəcəyəm. Hələ on dörd gün vaxtım var. Belə yaxşıdır. Çox yaxşı oldu. Özümü sakit aparmağa öyrəşərəm. Sən düz deyirsən. Sakitləşib fikrini cəmləmək üçün danışmaq lazımdır. Bunu düşünməklə də eləmək olar. Soyuqqanlılıqla düşünürsən, nifrətin daha da artır. Onu xəyalımda o qədər öldürəcəyəm ki, görüşəndə, artıq öyrəşmiş olacağam. Öyrəşəndə adam birinci dəfəyə nisbətən çox qətiyyətli, sakit olur. İndisə gəl söhbət eləyək. Ancaq başqa şey barədə danışaq. Mənə qalsa, ağappaq qızılgüllərdən danışarıq. Bir onlara bax! Bu bürkülü gecədə qara oxşayır? Elə bil, bu narahat gecənin ləpədöyənindəki köpükdür! Hə, indi razı qaldın?

– Yox!

– Yaxşı, onda bu yaya bax! 1939-cu ilin yayına! Barıt qoxusu verir. Bu qızılgüllər də gələn qış milyonlarla qəbrin üstünü örtəcək qara oxşayır. Biz də bunun sağlığına badə qaldırırıq... Düz demirəm? Yaşasın neytrallıq əsri! Yaşasın daşqəlblilər zəmanəsi! Bu gecə nə qədər adam qırılır, Boris! Hər gecə belədir... Çox adam ölür! Şəhərlər yanır, haradasa yəhudilər fəryad qoparır, çexlər meşələrdə qırılır, çinlilərin üstünə yapon nefti töküb od vururlar, həbs düşərgələrində əzab, işgəncə dolu ölüm kabusu dolaşır... Belə bir zəmanədə hansı qatilisə qanına qəltan edərkən kövrək arvadlar kimi göz yaşı axıtmaq yaraşarmı bizə? Onu tapıb çıraq kimi söndürəcəyik, vəssalam! Onsuz da əynimizdə başqa cür hərbi geyim olduğuna görə çox günahsız adamın qanına bais olmuşuq. Bu da onlardan biri...

– Bu, başqa məsələ! Belə danışmaq yaxşıdır. Bıçaqla necə davranmağı öyrənmisən? Bıçaq səs eləmir...

– Bu gün elə şeyi məndən uzaq elə. Qoy bir az yatım. Gedib sakitcə yerimə girəcəyəm, ancaq, allah bilir, gözümə nə vaxt yuxu gedəcək. Başa düşürsən?

– Hə.

– Bu gecə səhərəcən onu öldürəcəyəm. On dörd gün ərzində avtomata dönəcəyəm. İndi əsas məsələ bu on dörd günü salamat qalmaqdır. Həmin gün ilk dəfə gözümə yuxu gedəcək. İçməyin xeyri yoxdur. İynə də kömək eləməz. Gərək, çox yorulam ki, gözümə yuxu getsin. Səhər oyananda yenə gümrah olacağam. Aydın oldu?

Morozov xeyli dinməzcə oturdu, sonra:

– Özünə bir qadın tap, – dedi.

– Bunun nə xeyri?

– Nəyəsə xeyri olar. Qadınla yatmağın həmişə xeyri olub. Joana zəng vur, gələcək.

Joan... Düz deyir... O da orada idi... Nəsə dedi... Onu tamam unutmuşdu.

– Mən rus deyiləm, Boris! Başqa təklifin yoxdur? Bir az sadə olsun. Lap sadə...

– Allah xatirinə, burax, belə mürəkkəb olma. Qadından can qurtarmağın ən sadə yolu hərdən onunla yatmaqdır. Xəyal dünyasını çox şişirtmək olmaz. Təbiətin adicə qanununa bu çür bəzək-düzək vurmaq kimə lazımdır?

– Doğrudan, kimə lazımdır?

– Elə isə, qoy gedib zəng vurum. Sənin xatirinə eləyirəm. Havayı yerə restoran qapıçısı deyiləm ki...

– Getmə! Hər şey qaydasındadır. Gəl içə-içə qızılgüllərə tamaşa eləyək. Göydən yağış kimi səpələnən pulemyot güllələrindən sonra meyitlərin sifəti də ay işığında belə ağarır... Bunu bir dəfə İspaniyada görmüşəm. Onda fəhlə Pablo Nona deyirdi ki, səmanı faşistlər icad eləyib... Bir ayağı da yox idi... Məndən də bir az incimişdi, deyirdi ki, niyə kəsilən qıçını spirtin içində konservləşdirib saxlamadım. Elə bilirdi ki, bədəninin dörddən birini, yəni kəsilmiş ayağını qəbrə qoyublar. Xəbəri yox idi ki, itlər onu oğurlayıb yeyib...

# XXV

Veber sarğı otağına gəldi. Ravikə işarə elədi, ikisi də otaqdan çıxdı.

– Düran zəng vurmuşdu. Təcili səni istəyir. Deməyinə görə, qeyri-adi işdir, mürəkkəb vəziyyətdir.

Ravik Veberin üzünə baxdı:

– Daha doğrusu, təşrihi korlayıb, indi mənim boğazıma bağlamaq istəyir. Elə deyil?

– Məncə, yox. Həyəcanlıdır. Çox güman ki, çətin vəziyyətə düşüb, nə edəcəyini bilmir.

Ravik başını buladı. Veber susurdu.

– Mənim qayıtdığımı haradan bilir?

Veber çiyinlərini çəkdi:



– Bilmirəm. Tibb bacılarının işi olacaq.

– Niyə Binoya zəng eləmir? O ki yaxşı çərrahdır.

– Mən də elə məsləhət gördüm. Ancaq deyir ki, çox mürəkkəb vəziyyətdir, sizin sahə ilə bağlıdır.

– Boş şeydir. Parisdə hər sahə üzrə əla cərrahlar var. Niyə Martelə zəng vurmur? O da dünyanın ən məşhur cərrahlarından biridir.

– Səbəbini özünüz bilmirsiniz?

– Əlbəttə, bilirəm! Həmkarlarının yanında rüsvay olmaq istəmir. Yurdsuz-yuvasız həkimin yanında isə hər şey olar, çünki o, dilini qarnına qoyacaq...

Veber onun üzünə baxdı:

– Təcilidir... Gedəcəksiniz?

Ravik xalatının bağlarını dartıb açdı:

– Əlbəttə! Başqa yolum da var? Ancaq bu şərtlə ki, siz də gələsiniz.

– Yaxşı, mənim maşınımla gedərik.

Onlar pilləkənlə aşağı düşdülər. Veberin maşını xəstəxananın qabağında dayanmışdı və günün altında par-par yanırdı. Mindilər.

– Siz içəridə olmasanız, təşrihi boynuma götürən deyiləm. Allah bilir, dostumun nə planı var.

– İnanmıram ki, belə vəziyyətdə başqa planı da olsun.

Maşın tərpəndi.

– Mən çox şeylər görmüşəm, – Ravik sözə başladı. – Berlində çavan bir assistent tanıyırdım, gələcəkdə yaxşı cərrah olmaq üçün hər cür imkanı var idi. Bir dəfə professor təşrih eləyərkən düz kəsmir, üstünü vurmayıb, gerisini assistentə elətdirir. O da başa düşmür, professor yarım saatdan sonra hay-küy qaldırır, hər şeyi onun boynuna yıxır. Xəstə təşrih zamanı ölür. Bir gün sonra da oğlan özünü öldürdü... Həmin professor yenə də öz təşrihində, yenə də içməyindədir.

Marso prospektində dayanmalı oldular. Qaliley küçəsində çoxlu yük maşını qatarlanmışdı. Pəncərələrdən içəri süzülən günəş şüaları onları bişirirdi. Veber düymələrdən birini basdı, maşının üstündəki çadır yavaş-yavaş geri yığıldı. O, qürurla Ravikə baxdı:

– Təzəcə düzəltdirmişəm, elektriklə işləyir. Əntiqə şeydir. Görürsünüz, insanlar nələr kəşf eləyir?

Külək açıq damdan içəri doldu. Ravik başını tərpətdi:

– Bəli, əntiqədir. Ən yeni kəşflər isə maqnitli minalar və bir də sualtı qayıqlardır. Dünən haradasa oxudum. Hədəfə dəyməyəndə, dövrə vurub təzədən qayıdır, hara getsə, tutur... Biz insanlar əcəb ixtiraçılarıq!

Veber qırmızı sifətini ona tərəf çevirdi, mehriban bir təbəssümlə gülümsədi:

– Sizinki də müharibədir, Ravik. Ancaq o müharibə bizdən ulduzlar qədər uzaqdır. Onun haqqında gedən söz-söhbət də siyasi təzyiqdən başqa bir şey deyil. İnanın ki, elədir!

* * *

Xəstənin dərisi göy rəngli sədəfə çalırdı. Bənizi külə dönmüşdü. Qızılı saçları isə, elə bil, yuxarıdan ələnən gur işıqdan od alıb yanırdı, şöləsi də kül rəngli sifətində titrəyirdi. Yeganə həyat işartısı təkcə bu sifətdə qalmışdı, o da, sanki, bu işartının süzülə-süzülə gedib, saçlara ilişdiyi üçün fəryad qoparırdı...

Cərrahiyyə stoluna uzadılmış gənc qadın çox qəşəng idi. Hətta indiki bayğınlıq da bu ucaboylu, şax qamətli qızın zərif sifətinin gözəlliyini poza bilməmişdi, deyərdin, tanrı onu yalnız məhəbbət və zinət üçün xəlq eləyib...

Qanaxma, demək olar ki, dayanmışdı.

– Uşaqlığı açmısınız? – Ravik Dürandan soruşdu.

– Bəli.

– Sonra?

Düran cavab vermədi. Ravik başını qaldıranda gördü ki, Düran gözlərini döyə-döyə onun üzünə baxır.

– Aydındır. Tibb bacıları hələlik bizə lazım deyil. Üç həkim bəs eləyər.

Düran onun sözlərini başı ilə təsdiqlədi. Tibb bacıları da, assistent də geri çəkildilər.

– Nə olmuşdu? – Onlar uzaqlaşan kimi Ravik bir də soruşdu.

– Özünüz ki görürsünüz.

– Xeyr!

Ravik nə olduğunu görürdü, ancaq istəyirdi ki, Veberin yanında Düran özü etiraf eləsin. Bu daha etibarlı olardı.



– Hamiləliyin üçüncü ayı... Qanaxma... Məcbur olub çəngəldən istifadə elədim. Deyəsən, iç tərəfdən zədələndi.

– Sonra? – Ravik Düranın üzünə baxdı. Orada zəif bir hikkə düyünlənmişdi: «Ömrü boyu mənə nifrət edəcək, – deyə Ravik ürəyindən keçirdi. – Çünki Veber hamısını eşidir».

– Uşaqlıq deşilib, – Düran dilləndi.

– Çəngəllə?

– Əlbəttə, – Düran duruxdu. – Özgə nə ilə deşmək olar?

Qanaxma tamam dayanmışdı. Ravik dinmədən müayinəni davam etdirdi. Sonra dikəldi:

– Deşmisiniz, – dedi, – ancaq xəbəriniz olmayıb. Bir bağırsaq ilməsi həmin deşikdən içəri keçib. Nə olduğunu başa düşməmisiniz. Elə bilmisiniz döl pərdəsidir, qaşımısınız, zədələnib... Elədir?

Düranı tər basdı. Üzünə çəkdiyi tənzifin altından saqqalı tərpəndi, elə bil, ağzına güclə sığışan bir şey çeynəyirdi.

– Ola bilər...

– Çoxdan başlamısınız?

– Siz gələnə kimi hamısı bir yerdə qırx beş dəqiqə çəkmişdi.

– Qan içəri axıb. Nazik bağırsaq zədələnib. Sepsis təhlükəsi çoxdur. Təcili olaraq bağırsağı tikmək, uşaqlığı isə kəsib götürmək lazımdır.

– Nə? – Düran az qala qışqırdı.

– Nə olduğunu özünüz yaxşı bilirsiniz.

Düran gözlərini döydü:

– Bəli, bilirəm... Ancaq sizi buna görə çağırmamışdım...

– Bundan artıq heç nə deyə bilmərəm. Adamlarınızı çağırın, davam etdirin. Cəld tərpənmək məsləhətdir.

Düranın saqqalı yenə tərpəndi:

– Mən çox həyəcanlıyam. Əvəzimə təşrih eləmək istəmirsiniz?

– Xeyr, özünüz bilirsiniz ki, mənim Fransa pasportum yoxdur, ona görə də təşrih eləyə bilmərəm.

– Siz... – Düran sözünün dalını demədi.

«Sanitarlar, alayarımçıq tələbələr, masajçılar, assistentlər özlərini burada Almaniyanın məşhur həkimləri kimi qələmə verirlər...» Düranın Levala dediyi bu sözləri Ravik hələ də unutmamışdı.

– Məni ölkədən çıxaranda müsyö Leval bəzi şeyləri başa saldı.

Veber o dəqiqə dikəldi, Düran isə dinmədi.

– Doktor Veber sizin əvəzinizə təşrih eləyər.

– Siz mənim əvəzimə çox təşrihlər eləmisiniz. Əgər qonorar...

– Söhbət qonorardan getmir. Qayıdandan sonra təşrih eləmirəm. Özü də belə təşrihə razılıq verməmiş adamı heç eləmərəm!

Düran döyükdü:

– Axı xəstəni ayıldıb ondan soruşmaq da olmaz...

– Kim deyir? Olar! Ancaq unutmayın ki, sepsis təhlükəsi var.

Düranı tər basmışdı. Veber Ravikə baxdı. Ravik başını tərpətdi.

– Tibb bacılarına bel bağlamaq olar? – Veber Dürandan soruşdu.

– Olar...

– Assistent lazım deyil! – Veber Ravikə tərəf döndü: – Üç həkim, iki tibb bacısı bəs eləyər.

– Ravik... – Düran nəsə demək istədi.

– Binoya zəng eləmək lazım idi... – Ravik onu qabaqladı. – Ya Mallona, ya da Martelə... hamısı birinci dərəcəli cərrahlardır.

Düran dinmədi.

– İndi Veberin yanında etiraf edirsinizmi, uşaqlığı deşmisiniz, nazik bağırsağı döl pərdəsi bilib zədələmisiniz?

Düranın cavabı bir az ləngidi.

– Bəli... – nəhayət, o, xırıltılı səslə dilləndi.

– Bundan əlavə, mənimlə, yəni təsadüfi bir assistentlə histrektomiya eləməyi, bağırsağı kəsib götürməyi, anostomiya eləməyi Veberdən xahiş edirsinizmi?

– Bəli...

– Təşrihin bütün məsuliyyətini, onun nəticəsini, xəstənin xəbəri və razılığının olmamasının səbəbini öz boynunuza götürürsünüzmü?

– Əlbəttə! Bu, nə sözdür?! – Düran xırıldadı.

– Yaxşı, elə isə, tibb bacılarını çağırın. Assistent lazım deyil. Ona deyin ki, Veberlə mənə mürəkkəb bir vəziyyətlə əlaqədar, assistentli getməyə icazə verirsiniz. Guya, çoxdan söz veribmişsiniz. Ya da... Nə istəyirsiniz, deyin... Anesteziya ilə özünüz məşğul olun. Tibb bacılarına təzədən sterilizasiya lazım gələcək?



– Lazım deyil, etibarlı qızlardır, heç nəyə əl vurmuş olmazlar.

– Daha yaxşı...

* * *

Qarın boşluğu açıq idi. Ravik çox ehtiyatla bağırsaq ilgəyini uşaqlıqdan çəkməyə başladı. Çıxardıqca onu sepsisdən qorumaq üçün hissə-hissə sterilə olunmuş tənziflərə bükdü, axırda zədələnmiş yeri tapdı. Sonra uşaqlığın yan-yörəsinə də həmin tənziflərdən düzdü, dodaqaltı Veberə dedi:

– Hamiləlik qarın boşluğundadır. Bura baxın, yarısı uşaqlıqdadır, yarısı da boruda. Onu da çox qınamaq olmaz... Nadir təsadüfdür. Ancaq buna baxmayaraq...

– Nə? – Düran cərrahiyyə stolunun baş tərəfindəki ekranın arxasından soruşdu. – Nə dediniz?

– Heç nə, – deyə Ravik bağırsağı iki tərəfdən sıxdı, ortada qalan yeri kəsib götürdü, sonra ucları ağız-ağıza qoyub, cəld hərəkətlə tikdi, maili anostomiya elədi.

Belə iti işləməsi özünə də ləzzət verirdi. Düran yaddan çıxmışdı. Borunu da, ona birləşən qan damarlarını da sıxdı, borunun ucunu kəsdi. Sonra uşaqlığı kəsib götürməyə

başladı. «Niyə belə az qanayır? – Ürəyindən keçirdi. – Niyə həyatın kiməsə ömür bəxş edən möcüzəsini kəsib götürəndə adamın ürəyi ondan çox qanayır?!»

İndi burada uzanmış insan ölmüşdü. O dirilib yaşaya bilər, ancaq, əslində, ölü kimi olacaq. Nəsil ağacının qurumuş budağıdır, çiçək açacaq, lakin bəhər ləzzəti görməyəcək. Bir vaxtlar dərin-dərin, qalın-qalın meşələrdə nəhəng insanabənzər meymunlar yaranıb və sonralar min-min nəslin süzgəcindən keçib, zərifləşib. Bir az sonra misirlilər uca-uca məbədlər tikib, Elladanın çiçəklənmə dövrü başlayıb... Həmin müəmmalı qan nəsildən-nəslə keçib və axırda bu gözəl qadın yaranıb. Ancaq o, boş sünbül kimi bar verməyəcək, öz qanını heç kimə – nə oğluna, nə də qızına keçirə bilməyəcək. Düranın qaba əlləri bu zənciri qırmışdı. Bəs Düranın özü də həmin min-min nəsildən törəməmişdimi? Ellada da, İntibah dövrü də onun özünü, təkəsaqqalını yaratmaq üçün çiçəklənməmişdimi?

– Əclaf...

– Nə? – Veber soruşdu.

– Heç, boş şeydir...

Ravik dikəldi:

– Qurtardı...

Ravik əvvəlcə saralmış məşum sifətə, işım-işım işıldayan saçlara, sonra da vedrənin içindəki qana bələnmiş tənziflərə baxdı. Bu sifəti gözəlləşdirən həmin qan idi... Axırda da Dürana baxdı...

– Qurtardı, – deyə bir də təkrar elədi.

Düran bihuşdarını kəsdi. Ravikin üzünə baxa bilmirdi. Gözləyirdi ki, tibb bacıları xərəyi gətirsinlər. Axırda da heç nə deməyib, onların dalınca getdi. Ravik Veberə tərəf döndü:

– Sabah ondan beş min frank da əlavə istəyəcək. Deyəcək ki, ölümdən qurtarıb...

– İndiki görkəmindən eləsinə oxşamır.

– Bir gün az vaxt deyil. Peşmançılığın da ömrü az olur. Xüsusilə, ortada qazanc söhbəti olanda...

Ravik əllərini yudu. Əlüzyuyanın yanındakı pəncərədən baxanda gördü ki, üzbəüz evin pəncərəsində ətirşah gülləri çiçək açıb və onların altında da bomboz bir pişik oturub...

* * *

Gecə saat birdə Düranın xəstəxanasına zəng vurdu. «Şəhrizad»dan danışırdı. Növbətçi tibb bacısı dedi ki, qadın yatır. İki saat bundan əvvəl halı pis olub. Veber orada imiş və ağrıkəsən dərman vurub. Deyəsən, indi hər şey qaydasına düşüb...

Telefon köşkünün qapısını açanda kəskin ətir qoxusu üzünə vurdu. Saçlarını sarı rəngə boyamış bir qadın paltarını xışıldada-xışıldada, adama «gəl-gəl» deyə-deyə dəhlizin o başındakı ayaqyoluna tərəf gedirdi. Xəstəxanadakı qadının sarı saçları isə süni deyildi. Qızılı rəngə çalır, işım-işım işıldayırdı... Siqaret yandırıb, zala qayıtdı. Rus xoru özünün həmişəki «Qara gözlər» mahnısını oxuyurdu. Onlar bu mahnını iyirmi il idi ki, dünyanın hər yerində oxuyurdular «Faciə iyirmi il davam eləyəndə, onun komediyaya çevrilmək qorxusu olur! – Ravik ürəyindən keçirdi. – Əsl faciənin ömrü qısa olsun gərək!»



– Bağışlayın, – deyə o, Ketdən üzr istədi, – zəng vurmalı idim.

– Hər şey qaydasındadır?

– Hələlik elədir.

«Niyə soruşur? – Ravik təşvişə düşdü. – Axı özünün vəziyyəti heç də yaxşı deyil?!»

– Arzunuza çatdınız? – deyə o, araq dolu qrafini göstərdi.

– Xeyr.

– Xeyr?

Ket başını buladı:

– İndi yaydır, – dedi. – Yayda adam gecə restoranlarında yox, açıq havada, artırmada oturar. Mənə qalsa, lap elə çor vurmuş ağacın yanında da oturmaq olar. Qoy dörd tərəfinə də dəmir hasar çəkilmiş olsun...

Ravik başını qaldıranda baxışları Joanla toqquşdu. Çox güman ki, o zəng vurmağa gedəndə gəlmişdi. Əvvəlcə yox idi... İndi isə onunla üzbəüz küncdə oturmuşdu.

– Bəlkə, başqa yerə getmək istəyirsiniz? – Ketdən soruşdu.

Ket başını buladı:

– Xeyr. Bəs siz? Çor vurmuş ağacın yanına?

– Elə yerdə araq da çor dadar... Bura yaxşıdır.

Xor daha oxumurdu. Orkestr oyun havası çalmağa başladı. Joan durub, rəqs meydançasına sarı getdi. Ravik onu yaxşı görə bilmirdi. Kiminlə oynadığını da seçmirdi.

Yalnız işıqvuranların zəif, göyümtül işığı gəzə-gəzə rəqs meydançasına gələndə o, bir anlığa görünür, sonra alaqaranlıqda gözdən itirdi...

– Bu gün təşrih eləmisiniz? – Ket soruşdu.

– Bəli.

– Təşrihdən sonra restoranda oturmaq necədir? Elə bil, cəbhədən evə qayıtmısınız? Ya da ağır bir xəstəlikdən durmusunuz?

– Həmişə elə olmur. Bəzən adam qəribə bir boşluq hiss edir...

Joanın gözləri işıqvuranların solğun şüalarında parıldadı. Ravikə tərəf baxırdı. «Yox, qətiyyən, ürəyim deyil... – Ravik düşündü. – Nəsə başqa şeydir... Bəlkə də, mədəm ağrıyır. Günəş kələfinə nəsə toxunub... Bu haqda minlərlə şeir yazılıb... Yox, ora dəyən zərbə sən tərəfdən gəlməyib, ey rəqs meydançasında tərləyə-tərləyə süzən daşqəlbli afət! O zərbə beynimin qaranlıq guşələrindən qopur. Sən orada işıqla gizlənqaç oynayanda, təsadüfən hansı xətlərsə birləşir, həmin zərbə də qüvvətlənir...»

– O, keçən dəfə burada oxuyan qadın deyil? – Ket soruşdu.

– Odur.

– Daha oxumur?

– Deyəsən, oxumur.

– Gözəldir...

– Doğrudan?

– Bəli, gözəldir, hələ bir az da o yana... Üz-gözündə həyat qaynayır.

– Ola bilsin...

Ket Ravikə qıyqacı bir nəzər salıb, kövrək təbəssümlə gülümsədi. Belə təbəssümün sonu çox vaxt göz yaşları olurdu...

– Mənə bir qədəh də araq süzün, Ravik. Onu da içim, gedək...

Ravik duranda hiss elədi ki, Joan ona baxır. Ketin qoluna girdi. Bu heç lazım deyildi, Ket özü gedə bilirdi. Ançaq Ravikə elə gəldi ki, bunu görmək Joana təsir eləməz...

Onlar «Lankaster» mehmanxanasına çatanda Ket dedi:

– Mənə bir yaxşılıq da edərsiniz, Ravik?

– Əlbəttə! Bacardığım qədər...

– Mənimlə Manfor balına gedərsiniz?

– Bu, nə olan şeydir? Birinci dəfədir eşidirəm.

Ket kresloya oturdu. Kreslo çox böyük idi, onu daha da arıq göstərirdi, lap Çin rəqqasəsinə oxşayırdı. Qaşları çatılmışdı.

– Manfor balı Parisin yüksək cəmiyyəti üçün yay mövsümünün ən böyük hadisəsi hesab olunur. Gələn cümə günü Lüiz Manforun evində başlayıb, bağında qurtaracaq. Bu da sizə heç nə demir?

– Heççə nə...

– Mənimlə gedərsiniz?

– Məni ora buraxarlar?

– Dəvətnamə taparam.

Ravik onun üzünə baxdı:

– Çox vacibdir, Ket?

– Mən getmək istəyirəm... Ancaq tək yox...

– Mən olmasam, tək gedərdiniz?



– Bəli. Əvvəlcə getdiyim adamların heç biri ilə gedə bilmərəm. Daha dözə bilmirəm. Bilirsiniz niyə?

– Bəli...

– Bu, mənim Parisdə ən gözəl, həm də axırıncı bayramım olacaq. Son dörd ildə həmişə getmişəm. İndi sözünüz nədir?

Ravik Ketin nə üçün onunla getmək istədiyini bilirdi. Bilirdi ki, özünü inamlı hiss edir. Ona görə də «yox» deyə bilməzdi...

– Gedərəm, Ket. Mənə xüsusi dəvətnamə də lazım deyil. Zənnimcə, tək gəlməyəcəyinizi desəniz, kifayət eləyər.

– Elədir. Təşəkkür edirəm, Ravik! Bu saat Sofi Manfora zəng edərəm.

Ravik durdu:

– Onda cümə günü gəlib götürərəm. Nə geyəcəksiniz?

Ket gözlərini qaldırıb onu süzdü. Gur işıq onun başına yapıxmış saçlarında bərq vururdu. «Lap kərtənkələ başına oxşayır... – Ravik ürəyindən keçirdi – Ölümqabağı yetkinliyin bu cür zərif, soyuq, amansız gözəlliyi heç sağlamlığın özünə də qismət olmur...»

– İndiyəçən ürəyimdən keçənlərin biri də elə bu idi... – Ket azacıq tərəddüddən sonra dilləndi. – Maskarad balıdır. Ravik, XIV Lüdovikin saray bağında keçiriləcək...

– Allah, sən saxla! – Ravik təzədən oturdu.

Keti gülmək tutdu. Bu gülüş saf, məsum uşaq gülüşü idi.

– Yaxşı konyakım var, Ravik, içirsiniz?

Ravik başını buladı:

– Gör camaat nələr fikirləşib tapır!

– Hər il buna bənzər müsamirələr düzəldilir.

– Bu, o deməkdir ki, mən də...

– Hər şey mənim boynuma... – Ket tələsik onun sözünü kəsdi. –Siz narahat olmayın, kostyumu özüm taparam. Sadə olacaq... Heç geyib yoxlamaq da lazım deyil... Təkcə ölçünüzü deyin.

– Deyəsən, ürəyim konyak istədi.

Ket şüşəni ona uzatdı:

– Ancaq «yox» deməyin, Ravik!

Konyak süzüb içdi. «On iki gün! – Ravik ürəyindən keçirdi. – On iki gündən sonra Haake Parisə gələcək... Bu on iki günü birtəhər dözməliyəm. On iki gün!»

İndi həyatı təkcə bu on iki gündən ibarət idi, ondan başqa heç nə haqda düşünə bilmirdi. Bu on iki günün arxasından dərin bir uçurum ağzını geniş açıb əsnəyirdi... Bu on iki günü necə keçirməyin heç bir fərqi yox idi... Geyim balı... Müəmmalarla dolu həmin on iki gündə bundan da gülməli bir şey ola bilərdimi?

– Oldu, Ket!

Qayıdanda yolunu Düranın xəstəxanasından saldı. Sarışın qadın yatırdı. Alnında tər damcıları düyünlənmişdi.

Üzünün rəngi yerinə gəlmiş, dodaqları azacıq aralanmışdı.

– Hərarəti neçədir? – Tibb bacısından soruşdu.

– 37,8.

– Pis deyil.

Tər basmış sifətə tərəf əyildi. Qadının zəif nəfəsi üzünə vurdu. Bu nəfəsdən daha efir iyi gəlmirdi. Saf bir nəfəs idi, kəklikotu qoxusu verirdi. Kəklikotu! Nəyisə xatırladı... Şvartsvaldakı Alp çəmənliyi... Tövşüyə-tövşüyə, nəfəsi tutula-tutula qaçır, aşağıdan dalınca düşmüş adamların qışqırtısı eşidilir, kəklikotu iyi adamı lap məst edirdi... Qəribə idi, hər şey yaddan çıxır, qoxu isə burunda qalır. Kəklikotu! Onun qoxusu iyirmi ildən sonra da xatirələrin qurumuş qaysağını qoparacaq, Şvartsvaldda qaçdığı günləri gözləri önündə elə canlandıracaq ki, deyəcəksən, bunlar hamısı dünən

olub... «Yox, niyə iyirmi il? – Ravik ürəyindən keçirdi. – On ikicə gün!..»

Şəhərin bürkülü küçələri ilə mehmanxanaya qayıtdı. Saat üçə az qalırdı. Pilləkənlə yuxarı qalxdı. Qapının ağzına ağ rəngli bir zərf qoyulmuşdu. Götürüb, ora-burasına baxdı. Üstündə onun adı yazılmışdı, ancaq nə markası, nə möhürü vardı. «Joanın işidir», – deyə fikirləşə-fikirləşə zərfi açdı. İçindən çek çıxdı. Düran göndərmişdi. Ravik biganəliklə rəqəmlərə baxdı. Gözlərinə inanmadı. Adətən, iki yüz frank olardı. Ancaq indi iki min idi! «Deyəsən, çox qorxub! – ürəyindən keçirdi. – Düran? İki min frank? Özü də könüllü? Bu ki dünyanın səkkizinci möcüzəsidir!»

Çeki pulqabına qoydu, bir neçə kitab götürüb, çarpayının yanındakı balaca stolun üstünə yığdı. Onları iki gün bundan qabaq almışdı ki, gözünə yuxu getməyəndə oxusun. Bu kitablar da qəribə olmuşdu, Ravik getdikcə mehrini onlara salırdı. Düzdür, onlar hər şeyi əvəz eləyə bilmirdi, ancaq Ravikə çox şeyin verə bilmədiyini bəxş edirdi. Xatırladı ki, didərgin düşdüyü ilk illərdə əlinə bircə kitab da götürməzdi. Hər gün rast gəldiyi dəhşətlərin qabağında onlar çox zəif görünürdü. İndi isə dağa dönmüşdü, adamı hər şeydən qoruya bilməsə də, onlara arxalanmaq olardı. Ravikə elə böyük köməyi dəymirdi, ancaq zülmətlərlə dolu bir zəmanədə onu ümidsizlik girdabına düşməyə qoymurdu. Elə bu da yetərdi! Nə vaxtsa, kiminsə ağlına fikirlər gəlmişdi və indi həmin fikirlər hamıya gülünc görünsə də, hamının onlardan zəhləsi getsə də, nə vaxtsa insanların ağlına gəlmiş fikir kimi qalır, yaşayırdı... Elə bu da yetərdi...

Ancaq kitabı əlinə götürməmiş telefon səsləndi. Dəstəyi götürmədi. Zəng ara vermirdi. Xeyli gözlədi və telefon susan təki dəstəyi qaldırdı, növbətçidən kimin zəng elədiyini soruşdu.

– Adını demədi. – Növbətçi cavab verdi. Ravik dəstəkdən onun marçıltısını eşidirdi.

– Qadın idi?

– Bəli.

– Ləhcə ilə danışırdı?

– Bilmirəm... – Dəstəkdən yenə marçıltı səsi gəldi.

Ravik Veberin xəstəxanasına zəng vurdu. Oradan zəng eləyən olmamışdı. Düranın xəstəxanasından da axtarma-

mışdılar. «Lankaster» mehmanxanasına da zəng elədi. Telefonçu qız dedi ki, oradan da zəng vuran olmayıb. Elə isə Joan idi. Yəqin, «Şəhrizad»dan zəng eləyirdi...

Bir saatdan sonra telefon yenə səsləndi. Ravik kitabı stolun üstünə qoydu. Durub pəncərəyə sarı getdi. Dirsəklərini çərçivəyə söykəyib, küçəyə baxdı. Xəfif külək zanbaq iyini yuxarı vururdu. Mühacir Vizenhof solmuş qərənfilləri zanbaqla əvəz etmişdi. Ona görə də yay gecələrində evi qəbristanlıq, monastır qoxusu bürüyürdü... Ravik ayırd edə bilmədi ki, niyə Vizenhof qərənfilləri zanbaqla əvəz eləyib; Qoca Qoldberqin ruhunu yad etmək üçünmü, yoxsa taxta dibçəkdə yaxşı qaldığına görəmi... Telefon susurdu. «Bəlkə, bu gecə gözümə yuxu getdi», – deyib Ravik yerinə uzandı...

Joan gələndə yatmışdı. O, içəri girən kimi işığı yandırıb, qapının ağzında dayandı. Ravik gözlərini açdı.

– Təksən? – Joan soruşdu.

– Yox! İşığı söndür, özün də çıx get!

Joan bir anlığa tərəddüd etdi, sonra gedib vanna otağının qapısını açdı.

– Yalançı! – O gülümsədi.

– Cəhənnəm ol, yorulmuşam...

– Yorulmusan? Nədən?

– Yorulmuşam! Xoş getdin!

Joan yaxına gəldi:

– Evə yenicə qayıtmısan... Hər on dəqiqədən bir zəng vururdum.

Joan oğrun-oğrun ona tərəf baxdı. Ravik onun yalanını üzə vurmadı. Paltarını dəyişmişdi. «Məşuqu ilə bir dəfə yatıb, sonra onu evə göndərib. Bura da gəlib ki, mənə yanıq versin, elə bilib, Ket yanımdadır və ona da göstərsin ki, mən alçaq bir arvadbazam, hər gecə yanıma cürbəcür qadınlar gəlib-gedir, məndən uzaq gəzsin», – deyə ürəyindən keçirdi. Özünü məcbur eləyib gülümsədi. Heyif ki, belə ağıllı, hiyləgər qurğulara, lap ziyanına da olsa, həmişə məftun olmuşdu...

– Nəyə gülürsən? – Joan əsəbiləşdi.

– Kefim istəyir, gülürəm, sənə nə? Söndür işığı! Görkəmindən adam ürkür... Çıx get!

Joan ona fikir vermədi.

– Bayaq qoluna girib getdiyin fahişə kim idi?

Ravik yerində dirsəkləndi:

– Cəhənnəm ol, yoxsa əlimə keçəni təpənə çırparam!

– Belə de... – Joan diqqətlə onun üzünə baxdı. – Belə oldu?! Gör hara gəlib çıxdı...

Ravik siqaret götürdü:

– Gülünc olma, Joan! Özün başqası ilə yaşayırsan, sonra da gəlib, burada qısqanclıq teatrı çıxarırsan. Çıx get öz aktyorunun yanına, məni də rahat burax!

– Bu, ayrı şeydir...

– Əlbəttə!

– Əlbəttə, ayrı şeydir! – Joan güllə kimi açıldı. – Özün yaxşı bilirsən ki, ayrı şeydir! Elə şeydir ki, onunla bacarmıram, məni də bədbəxt elədi. Heç bilmirəm, necə gəldi...

– Adam elə şeyi heç vaxt bilmir.

Joan gözlərini qırpmadan ona baxırdı:



– Sən... Sən özünə həmişə belə arxayın olmusan. Sənin bu arxayınlığın adamı dəli eləyir. Heç nə sənin özünə olan bu inamını sındıra bilmədi. Sənin bu ölçülü-biçili hərəkətinə nifrət edirəm! Həmişə də eləmişəm! Mənə elə adam lazımdır ki, məftun olmağı bacarsın! Elə adam lazımdır ki, dərdimdən dəli olsun! Elə adam lazımdır ki, mənsiz yaşaya bilməsin! Sən isə mənsiz yaşaya bilirsən. Həmişə də yaşamısan. Mən sənə lazım olmamışam! Sən soyuqsan! Sən ürəksizsən! Sənin məhəbbətdən xəbərin yoxdur! Mən səni heç vaxt ürəkdən sevməmişəm. Onda da yalan danışdım, dedim ki, iki ayın ayrılığı belə elədi. Lap getməmiş olsaydın da, belə olardı! Gülmə! Səninlə «o»nun fərqini bilirəm... Bilirəm ki, «o», sənin kimi ağıllı deyil, ancaq özünü mənim yolumda qurban eləyər, onun üçün bu dünyada var da mənəm, yox da mən! Bütün fikri, düşüncəsi mənəm! Məndən başqa heç kəsi istəmir, heç kəsi tanımır... Mənə də beləsi lazımdır!

Joan tövşüyə-tövşüyə çarpayının yanında dayanmışdı. Ravik əlini kalvados şüşəsinə uzatdı:

– Elə isə, bura niyə gəlmisən?

Joan o dəqiqə cavab verə bilmədi, sonra lap yavaşdan:

– Özün bilirsən, – dedi. – Nə üçün soruşursan?!

Ravik qədəhi doldurub ona uzatdı.

– İstəmirəm... O qadın kim idi?

– Xəstəmdir. – Ravikin yalan danışmağa həvəsi yox idi. – Özü də çox ağır xəstədir.

– Yalan deyirsən! Elə şey uydur ki, bir az inandırıcı olsun. Xəstə qadın xəstəxanada olar, gecə restoranına getməz!

Ravik qədəhi qaytarıb yerinə qoydu. Neyləyəsən, çox vaxt həqiqətin özü də yalan kimi səslənirdi!

– Düz sözümdür.

– Onu sevirsən?

– Bunun sənə nə dəxli?

– Sevirsən, ya yox?

– Doğrudan, bunun sənə nə dəxli?

– Dəxli çoxdur! Nə qədər ki sən heç kəsi sevmirsən... – Joan duruxdu.

– İndicə ona fahişə deyirdin, belə yerdə məhəbbətdən danışmaq olar?

– Özüm qəsdlə elə dedim... O dəqiqə gördüm ki, eləsinin yanına gəlməzdim. Sevirsənmi onu?

– Söndür işığı, özün də çıx get!

Joan bir az da ona yaxın gəldi:

– Bilirəm... Gördüm... – dedi.

– Rədd ol, get! Yorulmuşam... Bu ucuz həngamələri də yığışdır. Özün də bilirsən ki, onların yeri deyil. Birini ehtirasını söndürmək, əylənmək, şan-şöhrət qazanmaq üçün əlində saxlayırsan, o birinə də deyirsən ki, səni sevirəm, lap ürəkdən sevirəm, başqa cür sevirəm... Ancaq qabağındakı da eşşək deyil, bilir ki, onu da ehtiyatda saxlayırsan. Rədd ol, get! Belə görürəm ki, sən çox məhəbbət növlərinə bələdsən.

– Elə deyil! Sən dediyin kimi deyil! Başqa şeydir... Sən deyən kimi deyil... Mən qayıtmaq istəyirəm... Sənin yanına qayıdacağam...

Ravik qədəhi yenə doldurdu:

– Ola bilsin ki, istəyirsən. Ancaq bu da özünü aldatmaqdır. Özün özünü güclə aldadırsan ki, düşdüyün vəziyyətdən canını qurtarasan. Sən heç vaxt qayıtmayacaqsan!

– Qayıdacağam!

– Yox! Qayıtsan da, çox qalmayacaqsan! Çünki sabah başqası çıxacaq, o da təkcə səni istəyəcək, varı da, yoxu da sən olacaqsan və hər şey təzədən başlayacaq. Həmişə də belə olacaq... Görəcəkli günlərim var imiş...

– Yox! Yox! Heç yerə getməyəcəyəm...

Ravik güldü:

– Əzizim, iki gözüm, – onun səsində nəsə nəvazişə oxşar bir şey var idi, – sən mənim yanımda qalan deyilsən. Küləyi də, axar suyu da tutub saxlamaq olmaz. Suyu saxlasan, iylənəcək, küləyin qabağını kəssən, boğuq havaya dönəcək... Sən bir yerdə qərar tutub qalmaq üçün yaranmamısan, Joan!

– Elə sən də...

– Mən? – Ravik qədəhi başına çəkdi, «səhər-səhər o sarışın qadın, sonra da ölümünü qoynunda gəzdirən, dərisi kövrək ipəyə dönmüş Ket, – deyə ürəyindən keçirdi. – İndi də bu... Təklif gözləmədən gəlir, həyat eşqi ilə alışıb-yanır, nə etdiyini də bilmir, ancaq elə inamla eləyir ki, kişilər ondan baş aça bilmir, gah sadəlövh olur, gah da adamı valeh edir, öz aləmində etibarlıdır, ancaq, əslində, anası təbiət kimi etibarsızdır, adamı didərgin salır, ancaq özünün də yurdu-yuvası yoxdur, kimisə tutub saxlamaq istəyir, lakin axırda özü qoyub gedir...»



– Mən? – Bir də təkrar elədi. –Sən mənim nəyimə bələdsən? Həyatı suallarla dolu olan bir adamın qəlbinə məhəbbət odu düşməsini sən haradan bilərsən? Sənin ucuz ehtirasın onun yanında nədir ki?! Ömrü boyu yıxılıb-durmağa məhkum olmuş bir adam təsadüfən özünə dayaq tapanda, sonsuz «niyə»lər sonu görünən «sən»ə çevriləndə, sükut səhrasından hiss və duyğular ilğım kimi baş qaldıranda, səndən ixtiyarsız qanın cuşa gəlib, təlxəklik eləyə-eləyə adi meşşan həyatından da, şirin-şirin arzulardan da füsunkar bir aləm yaradanda sənin o ucuz ehtirasın neyləyər? Sən heç bilirsənmi, gümüşü rəngə boyanmış aləm, evləri sədəfdən və qızılgül kvarsından hörülmüş, qıpqırmızı qan kimi bərq vuran şəhər nə deməkdir? Elə bilirsən, bunlar haqda o dəqiqə danışmaq olar? Elə bilirsən, dil o dəqiqə dönüb onları söz və hisslərin hazır qəlibinə sala bilir? Sən nə bilirsən, qəbirlərin ağzını əjdaha kimi açıb gözləməsi, dünənin, zülmət dolu gecələrin dəhşətli qorxusu nə deməkdir? Qəbirlər qorxuya baxmır, ağzını açıb gözləyir, sən də görürsən ki, onun içində heç skelet də qalmayıb, hamısı torpağa dönüb. Bu torpaq gələcək məhsulun rüşeymidir, ilk cücərtisidir! Sənin belə şeylərdən xəbərin varmı? Yox, sən təkcə ehtirası, həmişə qalib gəlməyi xoşlayırsan. Eləsini istəyirsən ki, əriyib sənə qarışmağa hazır olsun, ancaq bacarmasın...

Sən coşqunluğu, çılğınlığı xoşlayırsan, ona görə də ürəyin həmişə boş qalacaq... Çünki adam elə şeyi saxlaya bilər ki, onun öz qəlbində bitmiş olsun. Belə tufan olan yerdə də çox şey bitməz! Onlar yalnız tənhalığın zülmət dolu gecələrində bitir... Ancaq bu şərtlə ki, ümidsizliyə qapılmayasan... Sənin belə şeylərdən xəbərin varmı? – O, bu sözləri yavaş-yavaş, Joanın üzünə baxmadan dedi, sanki, onu tamam unutmuşdu... Və qurtaran kimi ona baxdı:– Gör bir nələr danışıram?! Bu çeynənmiş səfeh sözlər kimə lazımdır? Bu gün həddən artıq içmişəm... Gəl, sən də bir az iç, sonra da çıx get...

Joan onun yanında çarpayıya oturub, qədəhi aldı:

– Başa düşdüm! – dedi. Üzünün ifadəsi tamam dəyişmişdi.

«Sifəti yenə güzgüyə döndü! – Ravik ürəyindən keçirdi. – Nə deyirsən, orada əks olunur...»

Bu sifət indi mənalı və gözəl idi!

– Başa düşdüm... – Joan təkrar elədi. – Bəzilərini də duydum... Ancaq, Ravik, sən də məhəbbətə, həyata çox vurulduğun üçün məni tez-tez unudurdun. Mən sənin üçün həmişə bəhanə olmuşam... Yanına gələn kimi öz gümüşü aləminə qapılmısan, mənə fikir verməmisən...

Ravik xeyli onun üzünə baxandan sonra:

– Bəlkə də... – dedi.

– Sən həmişə öz aləminlə məşğul olmusan və orada elə şeylər tapmısan ki, mən çox vaxt sənin həyatından uzaqlarda qalmışam...

– Bəlkə də... Ancaq sənin ipinin üstünə odun yığmaq olmaz, Joan. Bunu özün də bilirsən...

– Nə vaxt istəmisən ki?

– Heç vaxt... – Ravik bir az fikirləşəndən sonra dilləndi. – Adam öz isti yuvasından didərgin düşəndə başına bəzən çox qəribə işlər gəlir, özü də qəribə işlər görür... Mən isə bunu istəmirdim.

Qəflətən gecənin qəlbinə dərin sükut çökdü. Və birdən əbədiyyətin özü qədər uzaq keçmişdə Joanın onunla yanaşı uzandığı gecələrdən birinə çevrildi... Bütün şəhər yenə də harayasa köçüb getmişdi, yalnız üfüqlərdən həzin bir zümzümə eşidilirdi və elə bil, saatların zənciri qırılmış, zaman da səssiz-səmirsiz dayanmışdı. Dünyanın ən adi, ən sirli möcüzəsi yenə gəlib onları tapmışdı: iki insan bir-biri ilə

söhbət edir və hərəsi də öz aləmində... Sözlər adlanan o səslər də beyinlərin qaranlıq guşələrində bir-birinə oxşayan səksəkəli lövhələr, hisslər oyadır, səs tellərinin təsadüfi titrəyişindən, o titrəyişin sehirli əks-sədasından, bomboz, tutqun təsəvvürlərin arasından yenə bir səma boylanır və buludlar, çaylar, uzaq keçmişlər, çiçəklənən, solan güllər, acılı-şirinli həyat təcrübəsi də həmin səmada əks olunurdu...

– Sən məni sevirsən, Ravik?! – Bu sözlər həm sual idi, həm də cavabı...

– Hə... Ancaq səndən uzaq gəzmək üçün əlimdən gələni edirəm...

Ravik bu sözləri elə yavaşdan dedi ki, elə bil, heç birinə dəxli yox idi. Joan ona fikir vermədi:

– Heç cür təsəvvür edə bilmirəm ki, biz nə vaxtsa ayrılacağıq. Müvəqqəti ayrılıq ola bilər, ancaq həmişəlik ayrıla bilmərik. Heç vaxt ömürlük ayrılmarıq... – Joan özü öz dediyindən üşürgələndi. – «Heç vaxt» dəhşətli sözdür, Ravik! Təsəvvür edə bilmirəm ki, biz heç vaxt bir yerdə ola bilməyəcəyik...

Ravik cavab vermədi.

– Qoy burada qalım, Ravik, – Joan sözünə davam elədi. – Heç geri qayıtmaq istəmirəm... Heç vaxt!

– İndi də qayıtmasan, sabah qayıdacaqsan... Özün ki bilirsən...

– Sənin yanına gələndə nə vaxtsa ora qayıdacağımı təsəvvür edə bilmirəm.

– Fərqi yoxdur, gedəcəksən... Özün də bilirsən...

Zamanın axınında yenə boşluq yaranmışdı. Yenə o balaca, işıqlı otaq... Yenə sevdiyi adam... Yenə o möcüzə... Həmin adam lap yaxında idi, əlini uzatsa, çatardı... Ancaq bu yaxınlığın özündə elə bir uzaqlıq var idi ki, əli heç cür çatmırdı...

Ravik qədəhi yerə qoydu:

– Bilirsən ki, yenə çıxıb gedəcəksən. Ya sabah, ya birisi gün, ya da haçansa...

Joan başını aşağı saldı:

– Elədir...

– Özün də bilirsən, bir də gəlsən, yenə də çıxıb gedəcəksən...

– Elədir... – Joan başını qaldırdı. Gözündən yaş sel kimi axırdı. – Bu, nə deməkdir, Ravik? Niyə belə oldu?

– Özüm də bilmirəm, – deyən Ravikin üzünə xəfif bir təbəssüm qondu. – Məhəbbət bəzən adama qüssə gətirir... Düz demirəm?

– Yox! Joan onun üzünə baxdı. – Bizə nə olub, Ravik?

Ravik çiyinlərini çəkdi:

– Mən özüm də bilmirəm, Joan. Bəlkə də, ona görədir ki, göydən asıla qalmışıq. Əvvəllər çox şey var idi: inam, söykənəcək, aydın məqsəd... Məhəbbət səni qəfil silkələyəndə etibarlı dayaq kimi onlardan tutub dururdun. İndisə heç nəyimiz qalmayıb... Uzaqbaşı, bir az ümidsizlik, bir az da cəsarət qalmış olar... Özgələrə də, özünə də yadlaşmısan... Belə vəziyyətdə məhəbbətin gəlib səni yaxalaması quru saman tayasına od düşməsi kimi bir şeydir... Qəlbində məhəbbətdən başqa heç nə olmur və bu tənhalıq da onu qızışdırır, vəhşiləşdirir, azğınlaşdırır... – O, qədəhi yenidən doldurdu. – Bu haqda çox fikirləşməyə dəyməz. Çox fikirləşməyə heç halımız da qalmayıb. Fikirləşdikcə də dəli oluruq... Ancaq biz dəli olmaq istəmirik, elə deyilmi?

Joan başını tərpətdi:

– Elədir... O qadın kim idi, Ravik?

– Xəstəmdir. Onunla «Şəhrizad»a bir dəfə də getmişəm. Sən orada oxuyan vaxt... Yüz il bundan qabaq... İndi nə işlə məşğul olursan?

– Xırda rollara çəkilirəm. Ancaq, deyəsən, mən girən kola oxşamır... Pulu isə yaxşıdır, heç kəsə ehtiyacım qalmır. İstədiyim vaxt oradan çıxaram. Mən şöhrət düşkünü deyiləm, Ravik!

Joanın göz yaşları qurumuşdu. Qədəhi başına çəkib, ayağa durdu. Yaman yorğun görünürdü...

– Niyə adam bu qədər ziddiyyətli olur, Ravik? Axı nə üçün? Bunun bir səbəbi olmalıdır. Yoxsa bu qədər sual verərik?!

Ravik qüssəli-qüssəli gülümsədi:

– Bu, bəşəriyyətin ulu sualıdır, Joan! «Nə üçün» elə sualdır ki, bütün məntiq də, fəlsəfə də, qalan elmlər də onun qarşısında aciz qalır...

Gedir... Gedir... Qapıya çatıb... Elə bil, Ravikin daxilində nəsə baş qaldırdı. Gedir... Gedir... Dikəldi. Birdən dözə bilmədi. Neyləsə də, bacarmadı. Bircə gecə də qalsın... Bircə gecə... Başını onun çiyninə qoyub yatsın... Sabah

istəməyəcək... Onun nəfəsini bircə dəfə də hiss eləsin, yenə o şirin xəyal aləminə baş vursun, məst olsun... Getmə! Getmə! Onsuz da əzablar içində yaşayır, əzablar içində ölürük! Getmə! Getmə! Mənə nə olub? Bu miskin qeyrət kimə lazımdır? Hara gedir? Bircə sən gerçəksən, ey gülüzlü xəyal! Ah, harada qaldın, ey tərkidünyalığın ölüm qoxulu çəmənliyi, bircə dəfə də qayıt! Sən, ey əbədiyyət qığılcımı! Axı mən özümü kimin üçün saxlayıram? Hansı qüssə, kədər dolu gələcək üçün qoruyuram? Hansı zülmət dolu məhculluq üçün saxlayıram? Onsuz da, diri ikən ölmüşəm, torpağa gömülmüşəm, on ikicə günüm qalıb... On ikicə gün... Bu on iki gündən sonra hər şey boşluğa, heçliyə dönəcək... On iki gün və bir də bu gecə... İpək kimi saçlar... Niyə sən ulduzlardan ayrı düşüb keçmiş yuxuların dumanlı qoynunda süzən bu gecədə gəldin? Niyə məhz bu gecə gəlib bütün hasar-çəpərləri darmadağın elədin? Elə bir gecədə ki, hamı yatıb, təkcə biz oyaq qalmışıq! Bu, nədir? Dalğalar yenəmi şahə qalxdı? Özünü yenəmi...



– Joan!

Joan geri döndü. Sifətində qəfil, ani, coşqun bir qığılcım parıldadı. Heç bilmədi, nə vaxt soyundu, özünü onun üstünə atdı...

## XXVI

Maşın Vojiror küçəsinin tinində dayandı.

– Nə olub? – Ravik soruşdu.

– Nümayiş dəstəsi keçir, – sürücü geri dönmədən cavab verdi... – Bu dəfə kommunistlərdir.

Ravik Ketə baxdı. O, bir küncə qısılıb oturmuşdu. XIV Lüdovikin saray xanımı kimi geyinmişdi və bu maskarad paltarı onu daha da arıq, incə göstərirdi. Üzünə çoxlu boya yaxmışdı. Ancaq rənginin sarılığı yenə də bilinirdi. Almacıq sümükləri çıxmışdı...

– Çox gözəl! – Ravik dilləndi. – 1939-cu il, iyul ayı... Beş dəqiqə bundan əvvəl «Odlu xaç» cəmiyyətindən olan faşistlərin nümayişi keçdi, indi də kommunistlər... Biz də əynimizdə məşhur XVII əsrin bal paltarı, onların arasında... Gözəldir, Ket!

– Eybi yoxdur! – Ket gülümsədi.

Ravik qayığa oxşayan ayaqqabılarına baxdı. Əcəb dövran idi! Hələ bunlar bir yana qalsın, istənilən polis əynindəki paltara baxmayıb onu tuta bilərdi...

– Başqa yolla gedim? – Sürücü soruşdu.

– Dönə bilməzsiniz. – Ketin əvəzinə Ravik cavab verdi. – Arxada maşın çoxdur.

Nümayişçilər səssiz-səmirsiz kəsmə küçədən keçirdilər. Əllərində bayraq, şüar var idi, ançaq mahnı oxumurdular. Bir dəstə polis də onları müşayiət edirdi. Vojiror küçəsinin tinində də bir dəstə polis dayanmışdı. Diqqəti cəlb etməmək üçün aralı-aralı düzülmüşdülər və hərəsinin də bir velosipedi vardı. Onlardan biri küçə boyu gəzişir, patrulluq eləyirdi. Həmin polis yaxınlaşıb maşının içinə baxdı, heç nə deməyib, yoluna davam etdi.

Ket Ravikin baxışlarını o dəqiqə tutdu və dedi:

– Gördünüz, heç təəccüblənmədi. Özü bilir... Polisin hər şeydən xəbəri var. Manforların təşkil etdiyi bu bal yay mövsümünün hadisəsi hesab olunur. İndi evi də, bağı da polis üzük qaşı kimi araya alıb.

– Elə isə mən lap arxayın ola bilərəm.

Ket gülümsədi. Ravikin başına gələnlərdən xəbəri yox idi...

– Bu gün Parisdəki bütün daş-qaşlar ora yığışacaq. Tarixi geyimlər, xalis daş-qaşlar... Belə məclislərdə polis risqə getməz. Hələ qonaqların arasında da, şübhəsiz, xəfiyyələr olacaq...

– Bal paltarında?

– Ola bilsin... Niyə soruşursunuz?

– Bilməyim yaxşıdır, yoxsa Rotşild zümrüdlərini oğurlamaq istəyirdim.

Ket pəncərənin şüşəsini bir az aşağı saldı:

– Bilirəm, darıxacaqsınız, –dedi, – ancaq bu dəfə əlimdən çıxa bilməzsiniz...

– Xeyr, darıxmaram. Əksinə, yaxşı olacaq, çünki elə özüm də bu gün getməyə yer axtarırdım. Orada içməyə bir şey olacaq?

– Deyəsən, olacaq. Olmasa da, baş lakeyə bircə işarəm bəsdir... Aramız çox yaxşıdır.

Nümayişçilərin addım səsləri eşidilirdi. Onlar nizamsız, istədikləri kimi yeriyirdilər. Küçədən, sanki, nümayişçilər deyil, bir dəstə yorğun-arğın adam keçirdi...

– Ravik, əgər seçmək imkanınız olsa, yaşamaq üçün hansı əsri götürərdiniz?

– Bu əsri. Yoxsa mən çoxdan ölmüş olardım və axmağın biri də indi mənim bu kostyumumu geyib bala gedərdi...

– Onu demirəm, Ravik. Dediyim odur ki, hansı əsrdə təzədən yaşamaq istərdiniz?

Ravik kostyumunun məxmər qollarına baxdı:

– Sözümdən dönən deyiləm, – dedi, – öz əsrimizdə. Bilirəm, ən iyrənc, ən qanlı, ən səfeh, ən simasız, ən qorxaq, ən natəmiz zəmanədir, ancaq bunlara baxmayaraq, yenə götürərdim.

– Mən isə yox! – Ket əllərini qoynuna qoydu, sanki, üşüyürdü. Yumşaq zərxara dirsəklərini tutdu... – Bu əsri heç götürməzdim. XVII əsr, ya da bir az ondan qabaq yaxşıdır... Hansı olur olsun, təki bu olmasın! Lap son aylarda gəlmişəm bu qərara. Əvvəllər heç bu haqda düşünməzdim. – O, şüşəni tamamilə aşağı saldı. –Gör nə istidir! Həm də bürkü! Nümayiş qurtarmadı?



– Qurtarır. Lap az qalıb, sonu görünür.

Kambron küçəsi tərəfdən güllə səsi eşidildi. Tində dayanmış polislər o dəqiqə velosipedə mindilər. Qadın fəryadı eşidildi. Dəstədən qəfil bir uğultu qopdu. Velosipedli polislər əllərindəki dəyənəyi yellədə-yellədə özlərini nümayişçilərin arasına vurdular.

– Nə oldu? – Ket qorxa-qorxa soruşdu.

– Heç nə, hansı maşınınsa təkəri partladı.

Sürücü geri döndü. Onun rəngi qaçmışdı.

– Bu...

– Sürün! – Ravik ona aman vermədi. – İndi keçmək olar. Küçə tamam boşalmışdı. – Sanki, külək hər şeyi süpürüb aparmışdı. – Tez olun! – Ravik səsləndi.

Kambron küçəsi tərəfdən qışqırtı eşidilirdi... Yenə güllə açıldı... Sürücü maşını tərpətdi.

* * *

Onlar üzü bağa düzəldilmiş artırmada dayanmışdılar. Hamı bal paltarında idi. Ağacların kölgə düşən aralalarında qızılgüllər açmışdı. Çıraqların içindəki şamların közərtisi sayrışırdı. Hansı pavilyondasa balaca bir orkestr menuet

çalırdı. Bütün bu mənzərə Vattonun əsərini xatırladırdı. Elə bil, hər şey canlanmışdı...

– Gözəldir? – Ket soruşdu.

– Bəli.

– Doğrudan?

– Bəli, Ket. Ən azı, uzaqdan yaxşı görünür.

– Gəlin bir az bağda gəzək.

Hündür, qocaman ağacların altında qeyri-adi bir mənzərə yaranmışdı. Saysız-hesabsız şamların titrək şöləsi gümüşü, qızılı zərxaraların, gömgöy, çəhrayı, dəniz rəngli, bahalı məxmərlərin üstünə düşür, kişilərin uzunsaçlı pariklərində, qadınlarınsa həzin skripka səsinin oxşadığı çılpaq, ənlik-kirşanlı çiyinlərində bərq vururdu. Adamlar cüt-cüt, dəstə-dəstə gəzişir, qılıncların qəbzələri işıldayır, haradasa fəvvarə şırıldayır və fıstıq ağacları da, sanki, bunlardan məst olub səssiz-səmirsiz uyuyurdu...

Ravik gördü ki, xidmətçilər də bal paltarı geyib. Fikirləşdi ki, xəfiyyələr də paltarlarını dəyişmiş olar. Birdən Molyer, ya da Rasin gəlib onu yaxalaya... Lap kef olar! Ya da elə, ləzzət üçün, saray təlxəyi...

Qəflətən əlinin üstünə iri bir yağış damlası düşdü. Başını qaldırıb göyə baxdı. Bayaq qızılı rəngə çalan səmanı qara buludlar qoynuna almışdı...

– Yağış yağır, Ket.

– Ola bilməz! Bağ...

– Yağacaq, tez qaçaq...

Ravik onun qolundan tutub artırmaya gətirdi. Yenicə çatmışdılar ki, leysan başladı, nə başladı! Elə bil, göydən su ələnirdi. Çıraqdakı şamlar söndü, bir neçə saniyə keçməmiş rəngarəng dekorasiyalar yaş əskiyə döndü; çaxnaşma düşdü. Markizalar, hersoginyalar, saray xanımları zərxara paltarlarının ətəklərini yığışdıraraq, artırmaya qaçdılar. Qraflar, əlahəzrətlər, feldmarşallar pariklərini tuta-tuta ürküdülmüş toyuq-cücə kimi pərən-pərən düşmüşdülər. Yağış pariklərin, yaxalıqların, çiyniaçıq paltarların üstü ilə sel kimi axır, ənlik-kirşanı yuyub aparırdı. Göydə boğuq bir şimşək oynadı, bağ bircə anlığa tutqun işığa boyandı və sonra ildırım çaxdı.

Çadırın altında hərəkətsiz dayanmış Ket, Ravikə qısılmışdı.

– Heç vaxt belə olmamışdı... – Ket lap özünü itirmişdi. – Mən bura tez-tez gəlirəm. Heç vaxt belə olmamışdı... Heç vaxt!

– Zümrüdləri çırpışdırmaq üçün əla şəraitdir.

– Doğru deyirsiniz. İlahi, bu...

Əyinlərinə plaş geyib, başlarına çətir tutmuş xidmətçilər bağda ora-bura qaçışırdılar. Qayığa oxşayan ipək məstləri plaşın altından qəribə görünürdü. Onlar bağda azaraq islanmış saray xanımlarının əlindən tutub, artırmaya gətirir, sonra qayıdıb, haradasa düşüb qalmış bürüncəkləri, itən şeyləri axtarırdılar. Hansısa bir cüt qızılı ayaqqabı gətirdi. Onlar çox zərif idi və xidmətçi onları ehtiyatla tutmuşdu. Yağış boş qalmış stolların üstünü yuyur və tarım çəkilmiş günlükləri elə döyəcləyirdi ki, deyərdin, səma büllur çubuqlarla təbil çalır, kimisə yürüşə çağırırdı...



* * *

– İçəri gedək, Ravik.

Otaqlar qonaqlar üçün darlıq eləyirdi. Deyəsən, heç kəs belə hava olacağını gözləməmişdi. Yağışdan qabaqkı bürkünün hamısı içəri dolmuşdu. Üstəlik də camaatın nəfəsi... Qadınların yerlə sürünən ətəkləri ayaq altda qalır, ipək o dəqiqə də cırılırdı. Elə sıxlıq idi ki, tərpənmək olmurdu...

Raviklə Ket qapının yanında durmuşdular. Lap yaxında dayanmış markiza de Montespanın nəfəsi Ravikin üzünə vururdu. Qadın tamam suyun içində idi, saçı pırpızlanmışdı. Uzun boğazından armudşəkilli brilyant boyunbağı asılmışdı, elə bil, islanıb cücəyə dönmüş göysatan karnavala gəlmişdi. Onun yanında da güdmülçənə, dazbaş bir kişi öskürürdü. Ravik onu tanıdı: Xarici İşlər Nazirliyində işləyən Blanşe idi, özünü Kolberə oxşatmışdı. Ondan bir az o yana iki qəşəng, şax qamətli saray xanımı dayanmışdı və yan tərəfdən baxanda ov itlərinə oxşayırdılar. Kök, ucadan danışan, başına daş-qaşla bəzədilmiş şlyapa qoymuş yəhudi baron da ləzzətlə onların çılpaq çiyinlərini sığallayırdı. Paj paltarında bir neçə cənubi amerikalı da təəccüblə, diqqətlə ona baxırdı. Markiza Lavaler kimi geyinmiş qrafinya Bellen də onların arasında idi və yerə enmiş mələkəyə oxşayırdı, çoxlu

da yaqut taxmışdı. Yadına düşdü ki, bir il qabaq Düranın diaqnozu ilə onun yumurtalığını kəsib götürdü... Ümumiyyətlə, bunların hamısı Düranın adamları idi. Bir-iki addım o tərəfdə dayanmış gənc, varlı baronessa Ranpları da tanıdı. Baronessa ingilisə ərə gedəndən sonra Ravik Düranın səhv diaqnozu ilə onun uşaqlığını kəsib götürmüşdü. Katibəsinin dediyinə görə, Düran ondan beş min frank almışdı. Ravikə isə ikicə yüz çatmışdı. Bununla qadının ömrü on il azalmış, uşağı olmaq imkanını da tamam itirmişdi...

Yağış qoxusu, boğanaq hava, ətir, tər iyi, nəm saçların rayihəsi bir-birinə qarışmışdı. Yağış üzlərdəki ənlik-kirşanı yuyub aparmışdı və onlar pariklərin altında olduğundan da çılpaq görünürdülər. Ravik ətrafına göz gəzdirdi. Çox gözəllər gördü, çox ariflərə, hər şeyə şübhə ilə yanaşan zəka sahiblərinə rast gəldi. Ancaq güclə sezilən xəstəlik əlamətləri də gözündən qaçmadı. Eyibsiz xarici görkəmlər onu çaşdıra bilməzdi! Bilirdi ki, cəmiyyətin müəyyən dairələri istər böyük olsun, istərsə də kiçik, bütün əsrlərdə, dəyişməz qalır. Bir də onu bilirdi ki, qızdırma, tənəzzül nə deməkdir və onun simptomlarına yaxşı bələd idi: hara gəldi, kiminlə oldu həvəssiz eyş-işrət, təbiətən zəif olduqlarından hər şeyə dözmək, xeyirsiz idman, təmkinsiz ariflik, yumor xatirinə yumor, kiməsə yuxarıdan baxmaq, macəra həvəsi, şit tamahkarlıq, cilalanmış fatalizm, məqsədsizlik... «Beləleri dünyanı heç vaxt xilas eləyə bilməz, – deyə ürəyindən keçirdi. – Bəs kim xilas eləyə bilər?» Ketin üzünə baxdı.

– İçməyə bir şey olmadı, – Ket təəssüflə dilləndi. – Xidmətçilər bu qədər adamın arasından keçə bilməz.

– Eybi yoxdur.

Onları yavaş-yavaş qonşu otağa sıxışdırdılar. Divarın dibində üstünə «Şampan» düzülmüş stollar var idi və onları ortaya çəkib, tələsik açdılar.

Haradasa bir-iki şam yandırmışdılar. Bayırda çaxan şimşəklərin qığılcımları onların zəif işığına qarışanda adamların sifəti bircə anlığa saralır, meyit rənginə çalırdı. Sonra ildırım çaxır, otaqdakı səs-küyü öz gurultusunda itiribbatırır, bircə anlığa otağa hakim kəsilir, hamını qorxudurdu. Sonra şamların zəif işığı təzədən qayıdır və özü ilə canlanma, bürkü gətirirdi...

Ravik üstünə «Şampan» düzülmüş stollara işarə etdi:

– Sizə də gətirim?

– Xeyr, çox istidir. – Ket onun üzünə baxdı. – Bu da mənim bayramım...

– Bəlkə, yağış tez kəsdi.

– Xeyr, kəsməz. Kəssə də, xeyri yoxdur, hamısını korladı. Bilirsiniz, indi nə istəyirəm? Getmək...

– Yaxşı oldu, elə mən də. Elə bil, indicə Fransa inqilabı başlayacaq, sanskülötlər böyürdən çıxacaq...

Çox çətinliklə çıxa bildilər. Ketin paltarı elə kökə düşmüşdü ki, deyərdin, bir neçə saat əynində yatıb. Bayırda selləmə qopmuşdu. Üzbəüz evlərə, sanki, pəncərəsində sellər-sular oynayan gül mağazasından baxırdın: suyun içində üzürdü... Maşın onların qabağına gəldi.

– Hara gedəcəksiniz, Ket? Mehmanxanaya?

– Hələ yox. Ancaq bu paltarda da heç yerə getmək olmaz. Şəhərdə bir az fırlanaq.



– Oldu.

Maşın asta-asta Parisin qaranlığa bürünmüş küçələri ilə süzürdü. Yağış ara vermədən özünü maşına çırpır və onun səsindən başqa heç nə eşidilmirdi. «Zəfər tağı»nın bomboz kölgəsi gümüşü rəngli yağışın arasından boylanıb yox oldu. «Yelisey çölləri»ndə sıralanmış mağazaların vitrinləri min rəngə çalırdı. Ron-Puen küçəsini gül-çiçək qoxusu, ətir bürümüşdü və o, tüstü-duman içindən baş qaldıran rəngarəng dalğaya oxşayırdı. Uzaqda qaralan «Konkor» meydanı tritonların, nəhənglərin məskəni olan dəniz kimi nəhayətsiz idi... Rivoli küçəsi öz işıqlı tağları ilə onlara tərəf üzürdü və sanki, Venesiyanın parıltısı bircə anlığa qaçıb bura gəlmişdi. Sonra Luvr muzeyinin bomboz, əzəmətli binası, ucu-bucağı bilinməyən həyəti, işıq süzülən pəncərələri göründü. Daha sonra isə sahil parkı... Sakit axan çayların üstündə asta-asta yırğalanan körpülər... Yükdaşıyan qayıqlar... Yedəkçi gəminin hərarət, təsəlli dolu işığı... Bu işıq, sanki, öz hərarətli qoynunda min-min qaçqına vətən bəxş eləmişdi... Sena çayı... Bulvarlar avtobusla, səs-küylə, adamlarla, mağazalarla dolu idi. Lüksemburq sarayının dəmir barmaqlıqları, ondan bir az o tərəfdə isə Rilkenin kövrək şeirlərini andıran park... Unudulmuş, sükuta qərq olmuş Monparnas qəbiristanlığı... Tez-tez bir-biri ilə kəsişən qədim ensiz küçələr, evlər, gözlənilmədən qabağına çıxan sakit meydanlar,

ağaclar, külək döyən fasadlar, kilsələr, ovulmuş abidələr, küləyin yelləndirdiyi fənərlər, torpaqdan baş qaldırmış istehkamlara oxşayan balaca ayaqyolular, otaqlarını saathesabı kirayəyə verən mehmanxanalarla dolu döngələr, həmin döngələrin arasında da qədim küçələr və bu küçələrdə də xalis rokoko, barokko üslubunda tikilmiş evlər, Prustun romanlarında olduğu kimi, qaranlığa qərq olmuş darvazalar...

Ket küncə qısılıb oturmuşdu və susurdu. Ravik siqaret çəkirdi. Elə bil, qaranlıq maşının içində oturub, tüstüsüz siqaret çəkirdi və getdikcə hər şey öz gerçəkliyini itirirdi. Sanki, bu gəzinti də, yağışın altında səssiz-səmirsiz süzən maşın da, bir-bir geridə qalan küçələr də, bir küncə qısılıb oturan qadın da, onun əynindəki qeyri-adi paltar da, bu paltarın üstündə sayrışan əlvan işıqlar da, zərxaranın üstünə süst düşüb qalmış ölüm nişanəli əllər də həqiqət deyil, xəyali Parisdə hiss və duyğularının, naməlum, səbəbsiz ayrılığın kövrəklik dolu xəyali bir səyahəti idi...

Haake yadına düşdü. Onunla nə edəcəyini dəqiqləşdirmək istədi. Ancaq bir şey çıxmadı, sanki, yağış bütün fikir və düşüncələrini yuyub aparırdı. Təşrih elədiyi qadını, sonra da Rotenburqdakı yağışlı gecəni, həmin gecəni birlikdə keçirdiyi qadını xatırladı. Onu tamam unutmuşdu. Bir də «Ayzenhut» mehmanxanası, hansı pəncərədənsə süzülən skripka səsi... 1917-ci ildə Flandriyanın laləli çöllərində çovğuna düşüb ölmüş Romberq də yadına düşdü. O çovğun başqa çovğun idi və alov kimi püskürürdü, uğultusundan qulaq tutulurdu. Sanki, Allah yer üzündəki bəndələrindən bezmişdi, onları atəşə tutmuşdu... Sonra Hotholtsda dəniz piyadası batalyonundan bir əsgərin qarmon çaldığını, həmin qarmonun səsindəki iniltini, sızıltını, dözülməz həsrəti xatırladı. Yağışlı Roma, Ruanın nəm şosesi, həbs düşərgəsi, əbədi noyabr yağışlarının döyəclədiyi baraklar xəyalından bir-bir gəlib keçdi... Ölmüş ispan kəndliləri... Ağızları bir az aralı qalmışdı və yağış da orada göllənmişdi... Klerin nəm, aydın sifəti... Haydelberq universitetinin yasəmən ətrinə bürünmüş yolu... Keçmişin sehirli çırağı... Oradan baş qaldıran nəhayətsiz xatirələr Parisin küçələri kimi bir-bir arxada qalır, gah zəhər olurdu, gah da təsəlli...

Siqareti söndürüb dikəldi. Daha bəsdir! Tez-tez geriyə baxan adam ya gedib nəyəsə dəyər, ya da yıxılar...

Maşın Monmartrın döngələri ilə şütüyürdü. Yağış kəsmişdi. Göydə gümüşü rəngli buludlar ağır-ağır sürünür, gah da yeyinləşir və boylu analar kimi balaca bir ay doğmağa tələsirdi... Ket maşını saxlatdırdı. Onlar düşüb, bir neçə döngəni üzüyuxarı piyada qalxdılar, sonra tinə buruldular...

İndi Paris ayaqlarının altında idi. Ucu-bucağı görünməyən, işıqları sayrışan, sulara qərq olmuş Paris! Bu da onun küçələri, meydançaları... Gecəsi aylı, buludlu Paris! Bu da onun çələngə oxşayan bulvarları... Sarımtıl işığa bələnmiş yamacları, qüllələri, damları ilə özünü qaranlıqların qoynuna atmış Paris! Üfüqlərdən əsən külək, işıq saçan düzənliklər, gah ağaran, gah qaralan körpülər, Sena çayı, lap uzaqlarda onun üstündən oynayıb keçən şimşək, leysan yağış, maşınların saysız-hesabsız işıqları... Arı pətəyi kimi qaynar həyatı ilə gecəni döyüşə çağıran, altından milyon-milyon çirkarxlar keçən, torpağın altındakı üfunətdən qidalanıb çiçəklənən, qoynunda xərçəng xəstəliyi gəzdirən, özü isə Mona Lizaya oxşayan Paris!



– Bircə dəqiqə məni gözlə, Ket, gedim, içməyə bir şey alım.

Ravik yaxındakı meyxanaya girdi. Təzə iç-ciyər kolbasasının iyi üzünə vurdu. Heç kim onun əynindəki paltara fikir vermədi. Bir şüşə konyak, iki dənə də qədəh götürdü. Xidmətçi tıxacı çıxarıb, onu təzədən şüşənin ağzına qoydu.

Ket yerindən tərpənməmişdi. Əynindəki paltar ləngər vuran səmanın fonunda onu elə arıq göstərirdi ki, deyərdin, başqa əsrdən qalıb, Bostonda doğulub, İsveçdə yaşayan amerikalı Ket deyil...

– Buyurun, Ket! Soyuğun da, yağışın da, tənhalıq qorxusunun da ən yaxşı dərmanı budur! Gəlin bu şəhərin sağlığına içək!

– İçək! – Ket qədəhi götürdü. – Yaxşı ki, bura gəldik Ravik. Dünyanın heç bir bayramı buna çatmaz...

O, qədəhi başına çəkdi. Ayın işığı çiyinlərinə, paltarına, üzünə düşürdü.

– Konyak! Özü də yaxşısı!

– Elədir, Ket. Əgər siz bunun dadını hiss edirsinizsə, demək, hər şey qaydasındadır.

– Bir qədəh də süzün! Sonra şəhərə qayıdaq, ikimiz də paltarımızı dəyişək, «Şəhrizad»a gedək. Bu gün sentimentallaşmaq, şərabdan məst olmaq, kövrəlmək, həyatın ən

şirin əyləncələri ilə vidalaşmaq istəyirəm. Sabahdan filosofları oxuyacaq, vəsiyyətnamə yazacaq və özümü ölümə məhkum olunmuş adam kimi ləyaqətlə aparacağam!

* * *

Ravik mehmanxananın pilləkənində sahibə ilə rastlaşdı. Qadın onu saxladı:

– Bircə dəqiqə vaxtınız olar?

– Əlbəttə, buyurun.

Qadın onu birinci mərtəbəyə gətirdi, ehtiyat açarla otaqlardan birini açdı. Ravik gördü ki, burada adam yaşayır.

– Bu, nə deməkdir? – deyə soruşdu. – Bura niyə hücum çəkirsiniz?

– Bu otaqda Rozenfeld qalır... Çıxmaq istəyir.

– Axı mən otağımı dəyişmək istəmirəm?!

– Çıxmaq istəyir, ancaq son üç ayın pulunu verməyib.

– Şeyləri ki buradadır, onları da siz verməyin!

Qadın ikrahla çarpayının yanında böyrü üstə qalmış açıq çamadanı ayağı ilə itələdi:

– Burada nə var ki? Qiymətli heç nə yoxdur. Köhnə çamadan, üzülmüş köynəklər. Kostyumu da özünüz görürsünüz, ikicə dəstdir. Hamısı bir yerdə heç yüz franka da getməz...

Ravik çiyinlərini çəkdi:

– Çıxmağını özü dedi?

– Xeyr! Ancaq bilinir... Bu gün üzünə dedim... Boynuna aldı! Dedim ki, sabaha qədər pulu tapıb versin. Pulunu verməyən kirayəçini çox saxlaya bilmərəm.

– Yaxşı eləmisiniz. Bəs mənlik burada nə iş var?

– Şəkillərə görə gətirmişəm. Bunlar da onundur. Deyir ki, çox qiymətlidir, pulu kirayəyə çatar, hələ artıq da qalar. Bir bu şəkillərə baxın...

Ravik divarlara fikir verməmişdi. Başını qaldıranda çarpayının üzərində asılmış Van Qoqun yaradıcılığının çiçəkləndiyi dövrdə çəkdiyi «Arle mənzərələri»ni gördü. Bir addım da irəli getdi, onun əsli olduğuna şübhəsi qalmadı.

– Baxanda adamın əti ürpəşir, düz demirəm? – Qadın soruşdu. – Bu əyri-üyrü şeylər də, guya, ağacdır! Hələ bir buna da baxın...

Əlüzyuyanın üstündə Qogen asılmışdı. Çılpaq cənublu qız tropik mənzərənin fonunda...

– Ayaqlarına bax! – Sahibə rişxəndlə davam etdi. – Topuqları fil topuğuna oxşayır. Sir-sifətindən də giclik yağır... Hələ onun bir duruşuna baxın! Bir şəkil də var, yarımçıq qalıb...

Yarımçıq şəkil Sezanın öz arvadının portreti idi.

– Ağzına baxın, əyridir. Yanaqlarına da rəng çatmayıb... Gör nə ilə mənim başımı piyləmək istəyir! Məndəki şəkilləri görmüsünüz? Hamısı naturadan çəkilib, elə bil, özləridir. Yeməkxanadakı qış mənzərəsi, marallar... Onlar hara, bu zirzibil hara... Təhər-töhüründən özü çəkənə oxşayır, elə deyil?

– Təxminən, elədir.

– Mən də elə bunu bilmək istəyirdim. Axı siz oxumuş adamsınız, belə şeylərdən başınız çıxır. Heç çərçivələri də yoxdur!



Şəkillərin üçü də çərçivəsiz asılmışdı. Çirkli divar kağızının üstündə başqa bir dünyaya açılan pəncərəyə oxşayırdı.

– Heç olmasa, qızıl suyuna çəkilmiş çərçivələri olsaydı, götürərdim. Ancaq bu kökdə... Deyəsən, mənə qalan axırda bu zirzibil olaçaq! Əcəb günə düşdüm! Bu da yaxşılıq...

– İnanmıram ki, bunlar sizə lazım olsun.

– Bəs necə olacaq?

– Rozenfeld pulu tapıb verəcək.

– Haradan tapacaq? – Qadın birdən Ravikə baxdı, üzünün rəngi dəyişdi. – Bunlar bir şeyə dəyər? Bəzən belələri çox qiymətə minir. – O dəqiqə hiss olundu ki, beynində nəyisə götür-qoy edir. – İstəsəm, son ayın əvəzinə birini götürərəm. Hansını məsləhət görürsünüz? Çarpayının üstündəki böyüyü?

– Heç birini. Rozenfeldin özünü gözləyin. Mən əminəm ki, pul tapacaq.

– Mənsə inanmıram. Mən mehmanxana sahibiyəm, gözləyə bilmərəm.

– Elə isə, bu qədər vaxtı niyə gözləmisiniz? Yoxsa elə şey eləməzdiniz?

– Ağzımı açmağa qoyurdu? Elə dillər tökürdü ki! Özünüz ki belələrini yaxşı tanıyırsınız...

Qəflətən Rozenfeld qapıda göründü. Balaca, sakit bir adam idi. Qadına ağzını açmağa imkan vermədi, çibindən pul çıxarıb dedi:

– Buyurun, bu da mənim haqq-hesabım. Lütfən, qəbz verin.

Qadın heyrətlə çeklərə, şəkillərə və sonra yenə pula baxdı. Nəsə demək istədi, ancaq səsi çıxmadı. Axırda birtəhər:

– Bu, çoxdur, – dedi.

– Bilirəm. Artığını indi qaytara bilərsiniz?

– Qaytararam, ançaq üstümdə yoxdur. Kassa aşağıdadır, xırdalayaram.

O, elə getdi ki, deyərdin, kimsə xətrinə bərk dəyib. Rozenfeld Ravikə baxdı.

– Bağışlayın! – Ravik üzr istədi... – Məni zorla çəkib gətirdi. Nəyə gətirdiyini heç bilmirdim. Şəkillərin qiymətini öyrənmək istəyirdi.

– Dediniz?

– Xeyr.

– Yaxşı eləmisiniz... – Rozenfeld Raviki qəribə bir təbəssümlə süzdü.

– Belə şəkilləri buradan asmaq olar? – Ravik təəccübləndi. –Sığorta elətdirmisiniz?

– Xeyr. Şəkli kim oğurlayar?! Təsadüfən, iyirmi ildə bir dəfə muzeydən oğurlayarlar, ya yox...

– Otaq yana bilər.

Rozenfeld çiyinlərini çəkdi:

– Bəzən risqə getmək lazımdır. Sığorta elətdirməyə pulum çatmaz.

Ravik Van-Qoqa baxdı. Ən azı bir milyon frank qiyməti var idi. Rozenfeld onun baxışlarını tutdu.

– Nə fikirləşdiyinizi bilirəm, – dedi, – belə şəkilləri olanın onları sığorta elətdirməyə pulu da olmalıdır. Ancaq yoxumdur. Məni dolandıran bu şəkillərdir, yavaş-yavaş satıram. Ancaq ürəksiz satıram...

Portretin altındakı stolun üstündə spirt lampası, bir qutu qəhvə, çörək, yağ, balaca kağız torbaları vardı. Otaq da balaca və kasıb idi. Ancaq divarlardan dünyanın gözəlliyi gülürdü.

– Başa düşürəm... – Ravik dilləndi.

– Elə bilirdim, çatdıracağam. Qatara da, gəmiyə də bilet almışam. Hər şeyə çatdı, təkcə bu üç ayın pulunu verə bilmədim. Əməlli-başlı çörək də yemirdim, ancaq yenə çatmadı. Viza almaq çox çəkdi. Bu axşam Moneni satmalı

oldum. Veteyl mənzərəsi idi. Elə bilirdim, onu da özümlə apara biləcəyəm.

– Onsuz da, harada olsa satmalı deyildiniz?

– Elədir... Ancaq dollara satardım, ikiqat artığına düşərdi.

– Amerikaya gedirsiniz?

Rozenfeld başını tərpətdi:

– Buradan uzaqlaşmaq vaxtı çatıb.

Ravik sualedici nəzərlərlə onun üzünə baxdı.

– Kor yapalaq da gedir, – Rozenfeld əlavə etdi.

– Kor yapalaq kimdir?

– Tanımırsınız? Markus Mayeri deyirəm. Onun adını kor yapalaq qoymuşuq. İy bilir, qaçmaq vaxtı gələndə duyur.

– Mayer? Hərdənbir «katakomba»da piano çalan dazbaş kişi deyil?

– Odur. Praqa hadisəsindən sonra adı kor yapalaq qaldı.



– Yaxşı addır.

– Həmişə iy bilib, Hitler hakimiyyətə gəlməmişdən iki ay qabaq Almaniyadan çıxıb. Vyanada da nasistləri üç ay qabaqlayıb. Almanlar Praqaya girməmişdən ay yarım qabaq da oradan qaçıb. Hər şeyi onun dediyi ilə ölçürəm. Həmişə! İy bilir... Elə ona görə də şəkilləri qoruya bilmişəm. Almaniyadan çıxanda pul götürə bilmədim, markı buraxmırdılar. Milyon yarım pul qoymuşdum. İstədim hamısını nağd geri alam, ancaq nasistlər gəldi, çatdıra bilmədim. Mayer ağıllı tərpəndi, bir hissəsini aradan çıxara bildi. Mənimsə əsəblərim dözmədi, yarımçıq buraxdım. İndi Amerikaya gedir, mən də ona qoşuluram. Heyif Monedən...

– Eybi yoxdur, onun pulundan qalanı götürərsiniz. Frankı aparmaq qadağan deyil.

– Elədir. Ancaq orada satsaydım, uzun müddət dolana bilərdim. Görünür, Qogeni də qurban verəsi olacağam... – Rozenfeld spirt lampasının ora-burasına baxdı. – İndi bu üçü qalıb. Gərək, onlarla dolanam. İş tapmağa ümidim yoxdur, elə möcüzə indi haradadır?! Hələ üçü qalıb! Hərəsi ömrümdən bir parça özü ilə aparır... – O, indi çamadanın yanında yazıq-yazıq dayanmışdı. – Vyanada beş il yaşadım. Çox bahalıq deyildi, birtəhər başımı girləyirdim... Ancaq yenə də iki Renuara və Deqanın bir pastelinə başa gəldi. Praqada isə bir sisle və beş rəsm əsəri yedim: ikisi Deqanın,

biri Renuarın qrafikası, ikisi də Delakruanın sepiyaları idi... Heç kəs rəsm əsərinə pul vermək istəmirdi... Bunlar Amerikada mənim həyatımı bir il uzadardı. Görürsünüzmü, indi üççə şəklim qalıb... – Onun səsində dərin bir hüzn vardı. – Dünən dörd idi... Bu viza mənə ən azı iki il ömür bahasına başa gəldi! Bəlkə də, üç il...

– Ancaq elə adamlar da var ki, dolanmağa heç şəkilləri də yoxdur.

Rozenfeld sümüyü çıxmış çiyinlərini çəkdi:

– Bu, təsəlli deyil...

Ravik etiraz etdi:

– Xeyr, doğrudan, elədir...

– Gərək, bu üç şəkillə müharibəni başa vuram. Müharibə də çox çəkəcək... Ravik dinmədi.

– Bunu kor yapalaq deyir, – Rozenfeld əlavə etdi. – Ancaq özü də Amerikanın kənarda qalacağına inanmır.

– Bəs onda hara getmək istəyir? Daha yer qalmadı ki!

– Özü də dəqiq bilmir. Könlündən Haiti keçir. Zənci respublikasının müharibəyə qoşulacağına inanmır. – Rozenfeld tamamilə ciddiləşmişdi. – Ya da Hondurasa. Cənubi Amerikada kiçicik bir respublikadır. San-Salvador... Bəlkə də, Yeni Zellandiyaya getdi...

– Yeni Zellandiyaya? Ora çox uzaq deyil?

– Uzaqdır? – Rozenfeld qüssəli-qüssəli gülümsədi. – Baxır haradan...

## XXVII

Dəniz... Dəhşətli uğultusu ilə qulaqları batıran dəniz... Tükürpərdici həyəcan siqnalları... Siqnal verə-verə sulara qərq olan gəmi... Gecə... Ayıldıqca yavaş-yavaş doğmalaşan otaq, pəncərənin kölgəsi... Siqnallar kəsilmək bilmir... Telefon imiş!

Ravik dəstəyi qaldırdı:

– Bəli...

– Ravik!

– Nə olub? Danışan kimdir?

– Mənəm... Tanımadın?

– İndi tanıdım. Nə olub?

– Bura gəl, Ravik! Tez ol! Yubanma!

– Nə olub!

– Tez ol, Ravik! Başıma iş gəlib...

– Nə iş?

– Başıma iş gəlib... Qorxuram... Gəl! Tez gəl! Kömək elə, Ravik! Gəl!

Dəstəkdən şıqqıltı eşidildi. Ravik gözlədi. Qırıq-qırıq zənglər eşidildi. Joan dəstəyi asmışdı. O da dəstəyi yerinə qoyub, gözlərini alaqaranlıq gecəyə zillədi. İçdiyi dərmanın təsiri hələ də qalmış, o, tamam ayılmamışdı. Əvvəlcə elə bilmişdi ki, Haakedir. Ancaq pəncərəni görəndə bildi ki, «Prins de Qall» mehmanxanası deyil, «İnternasional»dadır. Deməк, Haake ola bilməzdi. Saata baxdı. Beşə iyirmi dəqiqə işləmişdi. Birdən sıçrayıb qalxdı. Haakeyə rast gələndə Joan nəsə demişdi: təhlükə... qorxu... Əgər... Hər şey ola bilərdi! Belə səfehlikləri azmı görmüşdü? Tələsik lazım olan şeyləri yığışdırdı, geyindi.



Elə birinci tində taksi düşdü. Sürücünün yanında balaca bir it də vardı və onun çiynində elə oturmuşdu ki, deyərdin, boynuna xəz yaxalıq taxıb. Maşın silkələndikcə, o yırğalanırdı və bu da Ravikin əsəblərinə toxunurdu, az qalırdı ki, onu götürüb oturacağın üstünə tullasın. Ancaq Parisin taksi sürücülərinə yaxşı bələd idi...

Maşın bürkülü iyul gecəsində uğuldayırdı. Haradansa həzin-həzin pıçıldaşan yarpaqların ətri gəldi. Haradasa cökə çiçək açdı, kölgə saldı... Yasəmən rəngli səmanın qoynunda ulduzlar sayrışır, onların arası ilə bir təyyarə uçur, onun da yaşıl, qırmızı xəbərdarlıq işığı göz vurur... Sanki, nəhəng bir böcək işıldaquşların arasına düşüb! Kimsəsiz küçələr, uğuldayan boşluq, mahnı oxuyan iki sərxoş, hansı zirzəmidənsə gələn akkordeon səsi... Və qəfil bir qorxu... Az qala, nəfəsi tutulurdu. Sanki, daxilində nəsə onu didir, «tez ol, tez ol!» deyirdi. Bəlkə də, artıq gec idi...

Bu da ev! Mürgü döyən qaranlıq... Lift sürünə-sürünə gəlir... Elə bil, işıldayan ilbizdir, asta-asta sürünür... Ravik artıq ikinci mərtəbəyədək pillələnlərin yarısını çıxmışdı, ançaq nə fikirləşdisə, geri qayıtdı. Nə qədər yavaş getsə də, lift ondan tez çatardı...

Bu da Parisin oyuncaq liftləri! Təkadamlıq kameraya oxşayır, cırıldayır, guruldayır, üstüaçıq, yanıaçıq, təkcə

ayağının altında bir parça dəmir... Lampanın biri də yanmır, xətlər birləşəndə közərir, o biri isə... Bu da axırıncı mərtəbə! Tor qapını açıb çıxdı, zəngi basdı...

Qapını Joan açdı. Ravik diqqətlə onu süzdü: qan ləkəsi yox idi, rəngi də özündə... Heç nə yox idi...

– Nə olub? Haradadır? – deyə soruşdu.

– Nə yaxşı gəldin, Ravik!

– Haradadır? Neyləmisən?

Joan geri çəkildi, Ravik içəri girdi, otağa göz gəzdirdi: heç kəs yox idi.

– Hardadır? Yataq otağında?

– Kim? – Joan təəccübləndi.

– Yataq otağında adam var? Kim var orada?

– Heç kim. Niyə soruşursan? – Ravik diqqətlə onun üzünə baxdı. – Burada ayrısı olsa, səni çağırardım?

Ravik gözlərini hələ də ondan çəkməmişdi. Heç nə olmamışdı, sağ-salamatca dayanıb gülümsəyirdi.

– Bu, nə oyundur?

Joan təbəssümlə:

– Ravik! – dedi.

Elə bil, başına bir qazan qaynar su töküldü: Joan elə bilirdi ki, o qısqanır və bundan ləzzət alırdı! İçində alətlər olan balaca əl çantası birdən-birə elə ağırlaşdı ki! Sanki, pudluq daş idi... Onu stullardan birinin üstünə qoydu:

– Sən lap ifritə imişsən! – dedi.

– Nə? Nə dedin?

– İfritəsən! – Ravik təkrar elədi. – Mən də eşşəyəm ki, sənə inandım!

Çantanı götürüb qapıya tərəf döndü. Joan o dəqiqə onun qabağını kəsdi:

– Neyləyirsən? Getmə! Məni tək qoyma! Tək qalsam, neyləyərəm?!

– Yalançısan! Miskin bir yalançı! Yalan danış, eybi yoxdur, ancaq bu cür ucuz yalan adamı iyrəndirir... Belə zarafat olmaz!

Joan darta-darta onu qapıdan araladı:

– Bir yan-yörənə bax! Görmürsən, nəsə olub?! Görmürsən, necə özündən çıxıbmış? Qorxuram, yenə qayıdar. Sən onu tanımırsan...

Stullardan biri yanıüstə çevrilmişdi. Yerdə bir lampa və şüşə qırıqları vardı.

– Otaqda gəzəndə ayaqqabı gey ki, şüşə qırığı batmasın! Bu da sənə yeganə məsləhətim...

Şüşə qırıqlarının arasında bir şəkil vardı. Ravik ayağı ilə qırıqları bir tərəfə eləyib, şəkli götürdü.

– Bu da sənin... – şəkli stolun üstünə atdı, – daha məndə işin olmasın!

Joan onunla üzbəüz dayanıb üzünə baxırdı. Rəngi dəyişmişdi.

– Ravik, – deyə astadan, yazıq-yazıq dilləndi. – Eybi yoxdur, mənə nə ad qoyursan qoy. Çox yalan danışmışam... Çünki, siz özünüz belə istəyirsiniz! – Şəkli əli ilə itələdi. Şəkil stolun üstü ilə sürüşə-sürüşə elə dayandı ki, Ravik oradakı adamı gördü. Ancaq Joanla «Kloş d`Or»da gördüyü kişi deyildi. – Hamı elə istəyir, – deyə Joan nifrətlə sözünə davam etdi. – Yalan danışma! Yalan danışma! Həmişə düz danış! Düzünü deyəndə də dözə bilmirlər! Heç biri dözmür! Ancaq səni çox aldatmamışam... Səni yox... Səni aldatmaq istəmirdim...



– Yaxşı, – deyə Ravik onun sözünü kəsdi. – Bunu indi saf-çürük eləmək lazım deyil...

Birdən-birə nədənsə ürəyi şan-şan oldu... Nəsə onu kövrəltdi... Özünə acığı tutdu. Ona kövrəlmək olmazdı!

– Düz sözümdür, sənə yalan danışmağa ehtiyac yox idi, – deyə Joan imdad diləyən baxışlarla onu süzdü.

– Joan...

– İndi də aldatmıram. Hamısı yalan deyil, Ravik! Ona görə zəng vurub çağırdım ki, qorxurdum. Yaxşı ki, onu birtəhər qapıdan bayıra sala bildim, o dəqiqə də cəftəni vurdum. Ağlıma gələn ilk fikir bu oldu... Pis eləmişəm?

– Mən gələndə çox sakit idin, qorxduğun heç bilinmirdi.

– Çünki getmişdi. Çünki bilirdim, sən gəlib, kömək duracaqsan.

– Yaxşı, deməli, hər şey qaydasındadır, mən də gedə bilərəm...

– Qayıdacaq! Gedə-gedə qışqırdı ki, qayıdacaq. İndi haradasa oturub içir. Bilirəm... Sərxoş olan kimi qayıdacaq. O, sənin kimi deyil, içə bilmir...

– Bəsdir! – Ravik onun sözünü kəsdi. – Qurtar getsin, boş şeydir. Qapın da möhkəmdir... Bir də elə şey eləmə!

Joan yerindən tərpənmədi:

– Bəs neyləyim? – deyə qəfildən hıçqırdı.

– Heç nə.

–Sənə zəng vururam... Üç dəfə, dörd dəfə... Cavab vermirsən. Cavab verəndə də deyirsən ki, məni rahat burax... Bunu necə başa düşüm?

– Necə var, elə.

– Necə var, elə? Bu, nə deməkdir? Məgər biz avtomatıq ki, istəyəndə işə salıb, istəməyəndə də dayandırsınlar? Gecə hər şey gözəl olur, məhəbbət aşıb-daşır, sabah açılan kimi...

Ravik üzünə baxan kimi səsini kəsdi.

– Bilirdim, belə olacaq, – Ravik astadan dilləndi. – Bilirdim ki, sən bundan istifadə etməyə çalışacaqsan. Belə şeylər sənə çox yaraşır. Onda bilirdin ki, axırıncı dəfədir, gərək, bunu eləməyəydin! Onda özün gəldin və olanlar da ona görə oldu ki, axırıncı dəfə idi... Yaxşı da oldu, ayrılıq gecəsində bir-birimizdən doyduq və həmin gecə də xoş xatirəyə döndü... Ancaq sən başqa yol seçdin, alverçi kimi ondan istifadə eləyib, alçaq niyyətini həyata keçirmək, bircə anın içində bircə dəfə olan müqəddəs bir şeyi eybəcər eyş-işrətə çevirmək istədin. Görəndə ki, mən yaxınlıq vermirəm, bu iyrənc hiyləyə əl atdın və indi deyilənləri təzədən çeynəmək lazım gəlir. O sözləri ki, adam bir də deməyə utanır...

– Mən...

– Bilirdin, – Ravik ona aman vermədi. – Yenə yalan danışma! Sənin onda dediklərini təkrar eləmək istəmirəm. Mən hələ elə şeyləri bacarmıram! İkimiz də bilirdik... Dedin ki, bir də gəlməyəcəksən...

– Gəlmədim də.

Ravik diqqətlə onun üzünə baxdı. Yavaş-yavaş özünü ələ alırdı:

– Razıyam... Ancaq zəng elədin.

– Ona görə zəng elədim ki, qorxurdum.

– İlahi, həyasızlığın dərəcəsinə bax! Yaxşı, mən təslim!

Joan gülümsəməyə başladı:

– Mən də, Ravik! Görmürsən, yeganə məqsədim səni burada saxlamaqdır?

– Mənim də yeganə məqsədim getməkdir.

Joan hələ də gülümsəyirdi:

– Niyə?

Ravikə elə gəldi ki, daha taqəti qalmayıb. Joan, sadəcə olaraq, onu başa düşmək istəmirdi. Niyəsini ona izah eləməyə başlasa, Allah bilir, nə vaxt, harada qurtaracaqdı...

– Ona görə ki, bu, iyrənc bir əxlaqsızlıqdır! – nəhayət, dilləndi. –Sən bunu başa düşməzsən.

– Başa düşürəm, – deyə Joan astadan təkrar etdi. – Bəlkə də, elədir. Ancaq niyə bir həftə bundan qabaq elə idi, indi belə?

– Onda da belə idi.

Joan dinməyib, xeyli onu süzdü, sonra:

– Məni maraqlandırmır, nə ad qoyursan, qoy, – dedi.

İndi də Ravik susurdu. Hiss edirdi ki, inandıra bilməyəcək.



– Ravik! – Joan ona yaxın gəldi. – Elədir! Onda dedim ki, axırıncıdır. Dedim ki, bir də məni görməyəcəksən. Ancaq ona görə dedim ki, sən belə istəyirdin. Elə olmayaçağını bilə-bilə dedim... Başa düşmürsən? – deyə Joan onun üzünə baxdı.

– Yox! – Ravik kobud cavab verdi. – Mən birçə bunu başa düşürəm, sən iki kişi ilə birdən yatmaq istəyirsən!

Joanın heç tükü də tərpənmədi:

– Elə deyil... – nəhayət, dilləndi. – Ancaq, tutaq ki, lap elədir, bunun sənə nə dəxli? – Ravik döyükə-döyükə qaldı. – Doğrudan, bunun sənə nə dəxli? – Joan bir də təkrar elədi. – Mən səni sevirəm, bu, bəs deyil?

– Yox!

– Qısqanc olma, Ravik! Sənə heç yaraşmır... Əvvəllər də olmamısan.

– Bu cür olum?

– Yox... Sən heç bilmirsən, qısqanclıq nə olan şeydir.

– Əlbəttə, bilmərəm! Çünki sənin o cüvəllağın kimi artistlik eləmirəm.

Joan gülümsədi:

– Qısqanclıq əvvəlcə rəqibin nəfəs aldığı havadan başlayır, Ravik.

Ravik dinmədi. Joan indi qarşısında dayanıb, üzünə baxırdı. Baxır və susurdu. Qəflətən hər şey – hava da, bu balaca dəhliz də, zəif işıq da Joanın özünə gizli bir həsrətə

döndü. Elə bil, uca bir qüllənin başında dayanıb, gözlərin qarala-qarala aşağı baxırsan və yer də, sanki, səni özünə tərəf çəkir...

Ravik hiss edirdi ki, nəsə onu çəkir. Ancaq bu tilsimə düşmək istəmirdi. Daha getmək haqda da düşünmək istəmirdi, Getsəydi, həmin şey əl çəkməyib, onun dalınca gələrdi. O isə istəmirdi, dalınca gələn olsun! Hər şeyin axırına yetmək, aydınlaşdırmaq istəyirdi. Bu aydınlıq sabah üçün lazım idi...

– İçməyə bir şeyin var? – deyə soruşdu.

– Var. Nə istəyirsən? Kalvados?

– Varsa, konyak ver. Ancaq kalvados da olar, fərqi yoxdur.

Joan balaca dolaba tərəf getdi. Ravik onun arxasınca baxdı. Sən demə, o məchul tilsim bu otağın havasında, gur işığında gizlənibmiş: adama: «gəl burada məskən sal, kükrəyib şahə qalxmış qanın əbədi sakitlik tapacaq», – deyir. Ancaq inanma, coşmuş hisslər yenə səni aldadır, bu əbədi sakitliyin ömrü bircə gecədir!

Qısqanclıq... Onun nə olduğunu bilmirdi? Kamala çatmamış məhəbbətləri azmı görmüşdü? Qısqanclıq deyilən şey adama bütün dərdlərindən də çox əzab verən köhnə bəla deyildimi?! Qısqanclıq deyilən şey iki sevəndən birinin qabaqca öləcəyini bilən gündən başlamırmı?!

Joan kalvados gətirmədi. Əlində bir şüşə konyak tutmuşdu. «Yaxşı oldu, – deyə Ravik ürəyindən keçirdi. – Bəzən o da həssas olmağı bacarır...» Qədəhi qoymaq üçün şəkli bir az o tərəfə itələdi. Ancaq tez də əlinə götürüb baxdı. Yaranmış psixoloji səddi aradan qaldırmağın ən asan yolu öz sələfinin şəklinə baxmaq idi...

– Qəribədir, – dedi, – nə pis yaddaşım var imiş. Sənin o cüvəllağını tamam başqa cür təsəvvür edirdim.

Joan şüşəni stolun üstünə qoydu:

– Bu heç o deyil, – dedi.

– Belə de... Bu da ayrısı imiş...

– Hə, hamısı da onun ucbatından oldu.

Ravik konyakdan iri bir qurtum aldı:

– Bəs bilmirdin ki, köhnə məşuqun gələndə üzdəki kişi şəkillərini yığışdırmaq lazımdır? Ümumiyyətlə, evi şəkillə doldurmaq lazım deyil. Zövqsüzlükdür...

– Üzdə deyildi, özü eşələyib tapdı. Şəkil də hamıda olan şeydir. Sən belə şeyləri başa düşməzsən... Onu yalnız qadınlar bilər. İstəmirdim, o, bu şəkli görsün.

– Ona görə də davaya düşdün. Ondan asılılığın var?

– Yox, özüm iki illiyə müqavilə bağlamışam.

– Bunu da o düzəldib?

– Niyə düzəltməsin ki? – Joan, doğrudan da, heyrətləndi. – Bunun da bir mənası var?

– Yox... Ancaq elə adamlar var ki, bunu nankorluq hesab edir...

Joan çiyinlərini çəkdi. Bu çiyinləri görən kimi keçmiş xatirələr yenə baş qaldırdı. Nə vaxtsa Joan yanında uzananda nəfəs aldıqca bu çiyinlər asta-asta, bir qaydada qalxıb-düşürdü. Sanki, qızılı rəngə boyanmış səmada qızılı rəngə çalan bir dəstə quş qanad çala-çala yoxa çıxdı. Doğrudanmı, bunlar uzaqda qalmışdı? Çoxmu uzaqlarda idi? Danış, sən, ey şirin xatirələrin gözəgörünməyən hesabdarı, danış! Doğrudanmı, o zəif işartılar çoxdan torpağa gömülüb? Yoxsa, bunlarmı axırıncıdır? Yox, bunu heç kim deyə bilməz...



Pəncərələr taybatay açıq idi. Nəsə qara, qırçınlı parçaya oxşayan bir şey uça-uça içəri girdi, özünü ora-bura vurdu, sonra lampanın çətirinə qonub, qanad çala-çala caynaqlarını ilişdirdi və özünü onun üstünə sərdi. Al-qırmızı, göy, boz rənglərə çalırdı və deyərdin, gecənin ipək çətirə sancılmış ordenidir.. Gördü ki, qaranlıqda yol azmış kəpənəkdir. Məxmər qanadları asta-asta tərpənirdi və indi onunla üzbəüz dayanmış qadın da nəfəs aldıqca sinəsi nazik paltarının altında eləcə titrəyirdi. Nə vaxtsa kəpənəyi bir dəfə də belə görmüşdü. Nə vaxt? Yüz ilmi keçmişdi o vaxtdan?

Luvr muzeyi... Nike... Yox, ondan da əvvəl görmüşdü. Lap qədimdə, toz-duman içində itmiş qızılı rəngli ulu keçmişdə görüb... Onda min rəngə çalan daşlardan tikilmiş uca mehrabların tüstüsü ərşə qalxmışdı... Vulkanların uğultusundan qulaq tutulurdu, yer üzünə ehtirasdan, coşqunluqdan dumanlı bir pərdə çəkilmişdi... Onda idrakın qayığı çox balaca idi, belə fırtınaya tab gətirə bilməzdi... Onda hər yandan alov püskürürdü, əjdaha kimi ağzını açaraq, yer üzündəki bütün canlıları udurdu... Və bir az sonra meduza zəmanənin qumlu sahilinə sərilib qalmış, heroqlifə oxşayan insan ruhlarına baxıb, rişxəndlə gülürdü...

Kəpənək tərpəndi, yeriyə-yeriyə çətirin altına girdi və qanadlarını isti elektrik lampasına çırpmağa başladı, bənövşəyi toz qalxdı... Ravik onu götürüb, pəncərənin qabağına gəldi, qaranlığın qoynuna atdı...

– Yenə qayıdacaq! – Joan dilləndi.

– Bəlkə də, qayıtmadı...

– Hər gecə gəlirlər... Parkdan uçub gəlirlər. Bir gələn, bir də gəlir... Keçən həftə gələnlər sapsarı limon rəngində idilər. İndi də beləlləri...

– Elədir, bir gələn, bir də gəlir. Sonra da başqaları gəlir. Gah əvvəlkilər, gah da sonrakılar...

Niyə belə danışırdı? Sanki, kimsə arxasında dayanıb, onun əvəzinə danışırdı. Sanki, lap uzaqlardan, son ümid qığılcımları işaran yerdən əks-səda gəlirdi. Nəyə ümid edirdi? Bu zəif vaxtında ona dəyən zərbə nə idi? Çoxdan qaysaqlanıb sağaldığını güman etdiyi yerə skalpel kimi çəkilən nə idi? Bəlkə, indi inanmaq istəmədiyi o ümid qığılcımı, doğrudan da, hələ qalmışdı, haradasa gizlənmişdi, cildini dəyişib, qış yuxusuna getmişdi?

Stolun üstündəki şəkli götürüb yaxından baxdı. Sifət... Kiminsə sifəti... Milyonlardan birinin sifəti...

– Bununla nə vaxtdan başlamısan? – deyə soruşdu.

– Bu yaxınlarda... Bir yerdə işləyirik. İki-üç gündür. Əgər sən «Fuke» restoranında məni...

Ravik əlini yellətdi:

– Yaxşı, yaxşı, bilirəm, nə deyəcəksən! Əgər o gecə... Özün də bilirsən, elə deyil!

Joan tərəddüd elədi:

– Yox...

– Bilirsən! Yalan danışma! Həqiqi hisslərin ömrü heç vaxt belə qısa olmaz!

İndi nə istəyirdi? Bunu niyə dedi? Bəlkə, yenə mərhəmət dolu bir yalan eşitmək istəyirdi?

– Həm elədir, həm də yox... – Joan sükutu pozdu. – Mən özümlə bacarmıram, Ravik. Elə bil, nəsə məcbur edir... Sanki, nəsə əlimdən gedir. Onu tuturam, saxlamaq istəyirəm, ancaq görürəm ki, mən istəyən deyilmiş. Onda da təzəsindən yapışıram. Əvvəlcədən də bilirəm ki, bunun da axırı o biri kimi olacaq, ancaq yenə də yapışıram... Elə bil, nəsə məni məcbur eləyir, harayasa çəkib aparır, bir anlığa

gözüm doyur, ancaq axırda yenə buraxır. Özümdə qəribə bir boşluq hiss edirəm, sanki, acmışam, onda yenə başlayır...

«Getdi! – Ravik ürəyindən keçirdi. – Bu dəfə, doğrudan da, həmişəlik getdi!»

Bir də yanılmayacaq, bir də tora düşməyəcək, keçmiş xatirələr bir də baş qaldırmayacaq! Yaxşı ki, bunu bildi! Coşan xəyal yenə öz qanadları ilə idrak güzgüsünün qabağını kəsmək istəyəndə lazım olacaq!

Bu zavallı kimyəvi tərkib nə yaman amansız, nə yaman kinli olurmuş! Nə vaxtsa qarışıb bir yerdə axan iki qan, indi bir-birindən uzaq qaçır... Onun qəlbində elə bir guşə var idi ki, Joan hələ ora yol tapa bilməmişdi, ona görə də hərdən qayıdırdı. Ora yol tapan kimi həmişəlik gedəcək, heç vaxt qayıtmayacaq! Kim o günü gözləyərdi? Kim buna imkan verərdi? Kim özünü bu yolda qurban edərdi?

– Kaş mən də sənin kimi güclü olaydım, Ravik!



Ravik güldü. Bircə bu çatmırdı!

– Sən məndən də güclüsən.

– Yox... Özün görürsən ki, mən həmişə sənin dalınca qaçıram.

– Elə ona görə də məndən güclüsən. Sən bunu özünə rəva görürsən, mən isə yox...

Joan onu bir anlığa diqqətlə süzdü. Üzündə ani bir qığılcım oynadı:

– Sən sevə bilməzsən, – dedi. – Sən heç vaxt özünü sevdiyinə təslim etməzsən!

–Sən isə həmişə elə edirsən! Ona görə də həmişə kimsə xilas edir...

– Mənimlə ciddi danışa bilərsən?

– Ciddi sözümdür!

– Əgər məni xilas eləyən varsa, onda canımı səndən niyə qurtara bilmirəm?

– Qorxma, qurtaracaqsan!

– Boşla, Ravik! Özün də bilirsən ki, bunlar başqa-başqa şeylərdir. Əgər canımı qurtara bilsəydim, dalınca belə düşməzdim. Başqalarını tez unutdum, səni isə bacarmadım... Axı niyə?

Ravik konyakdan bir qurtum da aldı:

– Bəlkə də, ona görə ki, məni tamamilə öz toruna sala bilmədin!

Joan əvvəlcə duruxdu, sonra başını buladı:

– Mən hamını, sən fikirləşdiyin kimi, tora sala bilməmişəm. Çoxu heç yaxın gəlməyib. Ancaq hamısını unutdum getdi... Düzdür, bir az kədərləndim, ancaq yenə də unutdum.

– Məni də unudacaqsan.

– Yox, səninlə bacarmıram... Yox, heç vaxt!

– Adam bəzən inanmaq istəmir ki, o, çox şeyi unuda bilər. Bu həm müqəddəs bir alqışdır, həm də dəhşətli bir qarğış...

– Sən yenə də bizim axırımızın niyə belə olduğunu demədin.

– Bu, elə şeydir ki, nə qədər danışsaq da, bir-birimizi başa sala bilməyəcəyik. Danışdıqca da zibili çıxacaq. Elə şeylər var ki, onu izah eləmək olmur! Elələri də var ki, başa düşülmür. Allaha şükür ki, bizim aramızda, az da olsa, cəngəllik qalıb... Yaxşı, mən getdim.

Joan tez ayağa durdu:

– Məni tək qoymaq istəyirsən?

– Mənimlə yatmaq istəyirsən? – Joan onun üzünə baxdı, dinmədi. – Güman eləmirəm... – Ravik əlavə etdi.

– Bunu niyə soruşursan?

– Kefimi bir az açmaq üçün... Get yat, hava işıqlaşır. İndi yas qurmaq vaxtı deyil.

– Qalmaq istəmirsən?

– Yox! Daha gəlməyəcəyəm də!

Joan çox sakit idi:

– Heç vaxt?

– Heç vaxt! Sən də gəlməyəcəksən!

Joan asta-asta başını tərpətdi, sonra şəklə işarə etdi:

— Buna görə?

– Yox.

– Səni başa düşə bilmirəm. Ancaq biz...

– Yox! – Ravik tez onun sözünü kəsdi. – O da olmaz! Deyirsən, dost olaq? Sel aparmış gül bağçasının yerində balaca bir bostan əkək? Yox, bacarmarıq... Bizə heç olmaz! Ortada adi bir fırıldaq iş olsaydı, bəlkə də, sən deyən kimi düzələrdi... Ancaq onun da axırı yoxdur.. Məhəbbəti dostluq ilə ləkələmək olmaz! Ayrılıq ayrılıqdır!

– Niyə məhz indi?

– Düz deyirsən, gərək, çoxdan olaydı. Mən İsveçrədən qayıdanda... Ancaq heç kim hər şeyi əvvəlcədən bilmir. Bəzən də özü bilmək istəmir. Onda... – Ravik nədənsə sözünü axıra çatdırmadı.

– Onda nə? – Joan onun qabağını kəsmişdi, sanki, nəyisə başa düşməmişdi və mütləq başa düşmək istəyirdi. Rəngi saralmışdı, gözləri parıldayırdı.

– Bizi bu günə qoyan nə oldu, Ravik? – deyə pıçıldadı.

Joanın saçları arxasındakı alaqaranlıq dəhliz, elə bil, dərin bir şaxtaya gedən yol idi və bu şaxtada bütün vədlər əriyib yox olurdu. Bu şaxta neçə-neçə nəslin göz yaşı, neçə-neçə təzə yaranan ümid şəbnəmi ilə sulanmışdı...

– Məhəbbət... – dedi.

– Məhəbbət?

– Məhəbbət... Elə ona görə də hər şey bitdi!



Qapını arxasınca çəkdi. Bu da lift. Düyməni basdı. Ancaq onun sürünə-sürünə gəlməsini gözləmədi, qorxdu ki, Joan dalınca gələr. Yüyürə-yüyürə pilləkənləri düşdü. Yuxarıdan səs gəlmədiyinə çox təəccübləndi. İki mərtəbə düşəndən sonra dayandı, ətrafı dinşədi. Səs-səmir yox idi. Heç kim də gəlmirdi...

* * *

Taksi hələ də evin qabağında gözləyirdi. Ravik onu büsbütün unutmuşdu. Sürücü başını bulayıb bic-bic güldü.

– Nə qədər verəsiyəm? – Ravik soruşdu.

– On yeddi frank yarım.

Ravik pulu verdi.

– Qayıtmırsınız? – Sürücü təəccübləndi.

– Qayıdıram. Ancaq piyada gedəcəyəm.

– Çox uzaq olar, müsyö.

– Bilirəm.

– Onda məni nahaq yerə gözlətdiniz, heç nədən də on bir frank ziyana düşdünüz.

– Eybi yoxdur.

Sürücü üst dodağına yapışıb saralmış siqaret kötüyünü yandırmaq istədi:

– Deyəsən, orada qalmağınıza dəyər, – dedi.

– Hələ bir az da artıq...

Xiyabanlar səhərin ayazında büzüşmüşdü. Hava isinsə də, səhər soyuğu duyulurdu. Yasəmənlərin, oturacaqların üstünə bozumtul toz qonmuşdu... Bu skamyalardan birinin üstündə üzünə «Pari suar» qəzeti sərmiş kişi yatmışdı – Ravikin o yağışlı gecədə oturduğu skamya idi. Dayanıb, yatan kişiyə baxdı. O nəfəs aldıqca qəzet asta-asta tərpənirdi, sanki, canlı idi, ya da deyərdin, pərvanədir, indicə səmaya qalxıb, özündəki xəbərləri dünyaya yayacaq. Yağlı hərflərlə yazılmış iri başlıq, sanki, asta-asta nəfəs alırdı: Hitler bəyanat verib ki, Polşada Qdansk keçidindən başqa ərazi iddiasında deyil. Bir az aşağıda isə paltar ütüləyən qadın əlindəki isti ütü ilə kişini öldürür. Yazının altındakı şəkildən bayırlıq paltar geymiş əndamlı bir qadın baxırdı. Onunla bərabər, yanındakı şəkil də yellənirdi: Çemberlen belə hesab edir ki, sülhü qorumaq olar! Şəkildəki çətir tutmuş tipik bank məmuru üzdən xoşbəxt qoyuna oxşayırdı. Onun ayağının altında xırda hərflərlə yazılmış başqa bir başlıq o qədər də nəzərə çarpmırdı: sərhəddə minlərlə yəhudi qırılıb...

Bu dünya xəbərlərini səhərin şehindən və gözünə düşən günəşdən qorunmaq üçün üzünə sərmiş kişi sakit, dərin yuxuya getmişdi... Ayağında parusin ayaqqabı, əynində qəhvəyi rəngli yun şalvar və cırıq-cırıq olmuş köynək vardı. Qəzetdə yazılanlar vecinə deyildi. Həyatın elə dərin qatına enmişdi ki, heç birinin ona dəxli yox idi, həmişə suyun dibində yaşayan balıq kimi okeanın üst qatındakı tufandan xəbər tutmurdu.

Ravik «İnternasional» mehmanxanasına qayıtdı. Tamam yüngülləşmiş, beyni durulmuşdu. Hər şey aydınlaşmış, keçmişdən heç nə qalmamışdı. İndi heç nə ona mane ola bilməzdi. Bu gün «Prins de Qall» mehmanxanasına köçmək istəyirdi. Hələ iki gün qalmışdı onun gəlməyinə. Haakeni iki gün gec gözləməkdənsə, iki gün tez gözləmək yaxşı idi...

## XXVIII

Ravik aşağı düşəndə «Prins de Qall» mehmanxanasının vestibülündə heç kəs yox idi. Növbətçi stolunun üstündə əl radiosu oxuyurdu. Künc-bucaqda süpürgəçilər

təmizlik işi aparırdılar. Ravik nəzərə çarpmadan iri addımlarla zalı keçib getdi. Qapının yanındakı saata baxdı. Səhər saat beş idi.

V Georq prospekti ilə üzüyuxarı qalxıb, «Fuke» restoranına tərəf getdi. Restoran çoxdan bağlanmışdı, heç kəs də yox idi. Bir anlığa duruxdu, sonra taksi saxlatdırıb, «Şəhrizad»a sürdürdü.

Morozov qapının ağzında dayanıb, sualedici nəzərlərlə ona baxırdı.

– Bir şey yoxdur, – deyə Ravik onu qabaqladı.

– Bilirdim. Axı bu gün heç gözləmirdin də.

– Yox, bu gün zəng vurmalı idi. On dörd gün keçib...

– Bir günün eybi yoxdur. Bütün vaxtı «Prins de Qall»-da olmusan?

– Hə, dünən səhərdən indiyə kimi.



– Sabah zəng vuracaq. Ola bilsin, bu gün işi var imiş, ya da oradan bir gün gec çıxıb.

– Sabah tezdən təşrihim var.

– Tezdən zəng eləməz.

Ravik heç nə demədi, yenicə dayanan taksiyə baxdı. Restoranın ağ smokinq geymiş muzdlu rəqqası, onun dalınca da rəngi saralmış qabandiş bir qadın düşdü. Morozov qapını açdı. «Şanel» ətri küçəni başına götürdü. Qadın ayağını yüngülcə çəkirdi. Kişi də taksinin pulunu verib, tənbəl-tənbəl onun arxasınca getdi. Qadın qapının ağzında kişini gözlədi. Fənərin işığında gözləri yaşıl rəngə çalırdı. Bəbəkləri elə balaca idi ki, ləkəyə oxşayırdı...

Morozov geri qayıdanda:

– İnanmıram, bu vaxt zəng vurmaz, – dedi.

Ravik dinmədi.

– Açarı versən, səkkizdə çıxan kimi ora gedərəm, sən qayıdanadək gözləyərəm.

– Sən yatmalısan axı.

– Boş-boş danışma! Lazım gəlsə, sənin yerində yataram. Bilirəm, zəng vuran olmayacaq, ancaq gedirəm ki, nigaran qalmayasan.

– Saat on birə kimi təşrihim var.

– Yaxşı, açarı ver. İstəmirəm, fikirli olasan, qadının uşaqlığını mədəsinə calayasan, o da doqquz aydan sonra uşaq qusa. Açar yanındadır?

– Hə, götür...

Morozov açarı alıb cibinə qoydu. Sonra bir qutu nanəli həb çıxarıb Ravikə uzatdı. Ravik başını buladı. Morozov həblərdən bir-ikisini götürüb ağzına atdı. Həblər saqqalının arasında gözdən itdi, sanki, dümağ quşlar meşəyə girdi...

– Adamın yuxusunu qaçırır, – dedi.

– Heç ömründə məxmər üzlü mebel qoyulmuş otaqda oturub bütün günü kimisə gözləmisən? – Ravik soruşdu.

– Ondan da çox! Sən gözləməmisən?

– Mən də. Ancaq beləsini gözləməmişəm.

– Oxumaq üçün bir şey aparmamısan?

– Aparmışam, ançaq birçə sətir də oxumamışam. Burada işin çox olacaq?

Morozov taksinin qapısını açıb, amerikanları içəri ötürdü.

– Ən azı iki saat. – Morozov geri qayıtdı. – Vəziyyəti özün görürsən. Çoxdan belə səfeh yay olmamışdı... Joan da içəridədir.

– Doğrudan?

– Hə. Çox maraqlanırsansa, adamı da yanındadır.

– Yox, maraqlanmıram... – Ravik getməyə hazırlaşdı. – Onda sabah görüşərik.

– Ravik! – Morozov onun arxasınca qışqırdı. O qayıtdı. Morozov açarı cibindən çıxardı:

– Götür, – dedi, – bəs «Prins de Qall»dakı otağına indi necə girəcəksən? Axı sabaha qədər səni görməyəcəyəm. Çıxanda qapını açıq qoyarsan.

– Orada yatmayacağam, – deyə Ravik açarı götürdü. – «İnternasional»da qalacağam. O tərəflərdə nə qədər az görünsəm, o qədər yaxşıdır.

– Ancaq yatmağa, gərək, ora gedəsən. Orada qalırsan, deməli, orada da yatmalısan. Yoxsa polis şübhələnər.

– Düz deyirsən, ancaq belə də yaxşıdır. Sonra polisə sübut etmək olar ki, mən həmişə «İnternasional»da qalmışam. «Prins de Qall»da hər şeyi elə düzəltmişəm ki, baxan deyər, səhər-səhər burada imiş: çarpayını yığışdırmamışam, dəsmalları da vanna otağında hara gəldi atmışam.

– Yaxşı eləmisən. Onda açarı qaytar.

Ravik başını buladı:

– Səni də orada görməsələr, yaxşıdır.

– Eybi yoxdur, qoy görsünlər.

– Lazım deyil, Boris, gəl axmaqlıq eləməyək.. Belə saqqal hamıda yoxdur. Sən də bir şeydə haqlısan: özümü elə aparmalıyam ki, heç kəs şübhələnməsin. Əgər Haake, doğrudan da, səhər-səhər zəng vuracaqsa, deməli, günortadan sonra da vuracaq. Yoxsa bütün günü telefonun yanında oturub gözləsəm, məndə əsəb deyilən şey qalmaz.

– İndi hara gedirsən?

– Yatmağa. Ağlım kəsmir ki, bu vaxt zəng vurar.

– İstəyirsən, işdən sonra bir yerdə görüşək.

– Yox, Boris. Çox güman ki, sən çıxanda mən yatmış olacağam. Səkkizdə də təşrihim var.

Morozov şübhəli baxışlarla onu süzdü:

– Yaxşı, – dedi, – onda sabah günorta özüm gəlib səni «Prins de Qall»da taparam. Əgər o vaxta kimi bir şey olsa, mehmanxanaya zəng vurarsan.

– Oldu.



* * *

Küçələr... Şəhər... Qızılı rəngə boyanmış səma... Gah qırmızı, gah ağ, gah da mavi rəngə çalan evlər... Meyxanaların divarlarını balaca pişik kimi sığallayan külək... Bürkülü mehmanxana otağında bir gün gözləyəndən sonra yenə adamlar, təmiz hava... Ravik «Şəhrizad»ın arxa tərəfindəki prospektlə gedirdi. Dəmir hasarlara alınmış ağaclar bu qurğuşun rəngli gecədə hərdən meşə ilə, yaşıllıqla bağlı xatirələri oyadırdı... Birdən-birə özünü elə yorğun, elə əzgin hiss elədi ki, az qaldı yıxılsın. «Bəlkə, buraxım getsin?! – Daxilində nəsə bir səs baş qaldırdı. – Hamısını unudum, ilan hər il qabığını dəyişən kimi, beynimdəkilərin hamısını sıyırıb atım?! Az qala, büsbütün unudulmuş bir keçmişin bu cür melodramı indi mənəmi qalıb? Zülmətlə dolu orta əsrlərin dəhşətli mexanizminin əhəmiyyətsiz bir hissəsi, Mərkəzi Avropa üzərində tutulmuş günəşin zərrəciyi olan, kiminsə əlində alətə çevrilmiş bir yaramazı öldürmək mənəmi qalıb?!»

Doğrudan da, nə işinə qalmışdı? Bir fahişə onu dalda yerə çağırdı. Qaranlıqda yaxasını açdı. Paltar elə tikilmişdi ki, kəmərin açılmasına bənd idi, o dəqiqə xalat kimi aralandı, çılpaq bədəni göründü. Uzun corabları da, sinəsi də, göz

çuxurları da qapqara idi və bu qaralıqdan gözləri də seçilmirdi. Qırışmış, lalıxlamış dərisi qaranlıqda fosfor kimi işıldayırdı...

Fahişələrin hesabına dolanan bir əyyaş da, damağında siqaret, ağaca söykənib gözlərini ona zilləmişdi. Tərəvəz daşıyan bir neçə furqon gəlib keçdi. Dərisinin altından gərilmiş əzələləri görünən atlar başlarını tərpədə-tərpədə, ağır-ağır gedirdilər... Cürbəcür göyərtilərin, yaşıl yarpaqlar içində daşa dönmüş beyinlərə oxşayan gül kələmlərin kəskin qoxusu küçəyə yayıldı. Qıpqırmızı pomidor, lobya, soğan, gilas, kərəviz dolu səbətlər...

Doğrudan da, nə işinə qalmışdı? Biri çox, biri az – nə fərqi? Haake kimi və yaxud ondan da betər yüz minlərlə yaramazın biri çox olsun, ya az... Biri az... Qəflətən dayandı. Məsələ elə bunda idi! Birdən-birə tamam ayıldı. Məsələ elə bunda idi! Haake kimilər də ona görə belə qol-qanad açmışdılar ki, çox adam yorulmuşdu, mübarizəni atmışdı və deyirdi: «Mənə nə dəxli?!» Məsələ elə bunda idi! Biri azalardı... Bəli, biri azalardı və bu, bir tərəfdən heç nə idisə, digər tərəfdən də hər şey idi! Hər şey! Yavaş-yavaş cibindən siqaret çıxardı, tələsmədən yandırdı. Birdən kibritin sapsarı alovu divarları çat-çat olmuş mağaraya bənzəyən ovcunu işıqlandıranda bildi ki, heç nə onu Haakeni öldürməkdən çəkindirə bilməyəcək! Və birdən, qəribə də olsa, başa düşdü ki, hər şey elə bunun başında imiş! Yox, bu, təkcə şəxsi intiqam hissi deyildi, ondan çox-çox o yana keçirdi... Ona elə gəldi ki, bu işi eləməsə, dəhşətli bir cinayət törətmiş olacaq, əlini qoynuna qoyub otursa, dünya nəsə itirəcək. Eyni zamanda da dəqiq bilirdi ki, bunların heç biri olmayacaq, ancaq buna baxmayaraq, haradasa lap uzaqlarda, məntiqin, həqiqətin ünü yetməyən bir nöqtədə bütün varlığı ilə hiss edirdi ki, mütləq eləməlidir! Sanki, bundan gizli-gizli dalğalar yaranacaq və axırda tufan qopacaq! Bilirdi ki, Haake zülm ocağının kiçik bir məmurudur, elə böyük adam deyil... Ancaq birdən-birə onu da bildi ki, mütləq, mütləq öldürmək lazımdır...

Ovcundakı mağarada alov söndü, o, kibrit çöpünü tulladı. Dan sökülürdü və elə bil, ağacların başına gümüşü tor çəkilmişdi. Yenicə oyanmış sərçələrin cikkiltisi aləmi başına götürmüşdü. Ravik təəccüblə ətrafına boylandı. Daxilində nəsə baş vermişdi. Ürəyində qurduğu qapalı məhkəmə

öz hökmünü vermişdi! Hələ heç vaxt ağacları, evlərin sarı rəngli divarlarını, lap yanındakı bomboz dəmir hasarı, mavi dumana bürünmüş küçəni belə aydın görməmişdi... Hiss elədi ki, bunları heç vaxt unutmayacaq. Və elə həmin andaca bildi ki, Haakeni, doğrudan da, öldürəcək və bu, onun şəxsi işi deyil, çox şey deməkdir! Başlanğıcdır...

Yolu «Oziris»in qapısından düşdü. İçəridən səndələyə-səndələyə bir neçə sərxoş çıxdı. Hamısının da gözü şüşə kimi parıldayırdı, yanaqları qıpqırmızı olmuşdu. Taksi yox idi. Sərxoşlar bir az gözləyəndən sonra söyə-söyə, ləngərlənə-ləngərlənə, səs-küylə uzaqlaşdılar. Almanca danışırdılar...

Ravik mehmanxanaya qayıtmaq istəyirdi, ancaq indi fikrini dəyişdi. Yadına düşdü ki, Rolanda son vaxtlar alman turistlərinin «Oziris»ə tez-tez gəldiklərini demişdi. İçəri girdi.



Rolanda yenə qara rəngli dayə paltarında, barın piştaxtasına söykənib, soyuq nəzərlərlə zala baxırdı. Pianoların gur səsi Misir üslubunda naxışlanmış divarlara dəyib geri qayıdırdı...

– Rolanda!

O, geri döndü:

– Ravik! Çoxdan görünmürdün. Yaxşı ki, gəldin, – dedi.

– Nə olub?

İndi Rolanda ilə yanaşı dayanıb, zalı nəzərdən keçirirdi. Müştəri az idi. Adda-budda oturub mürgü döyürdülər.

– Buradan çıxıram, Ravik. Bir həftəyə gedirəm!

– Həmişəlik?

Rolanda başını tərpədərək, qoynundakı teleqramı çıxardı:

– Budur, – dedi.

Ravik onu oxuyub qaytardı:

– Xalan? Axır ki öldü?

– Bəli, ora qayıdıram. Madama başa saldım. Düzdür, acıqlandı, ancaq başa düşdü. Yerimdə Janetta qalacaq. Ancaq, gərək, işin yönünü ona öyrədəm. – Rolanda güldü. – Yazıq madam! İstəyirdi, bu yayı Kannda dincəlsin, özünü göstərsin. Keçən il zadəgan nəslindən olan tuluzalı bir əyyaşa ərə gedib, qrafinya olub. İndi villasında çoxlu qonağı var. Kişiyə də ayda beş min frank verir ki, Tuluzadan heç yana çıxmasın... Daha gedə bilmədi!

– Dediyin kafeni açacaqsan?

– Bəli. Bütün günü ora-bura qaçıram, lazım olan şeyləri sifariş verirəm. Parisdə ucuz düşər. Pərdəlik sifariş vermişəm. Beləsi yaxşıdır?

Qoynundan əl boyda əzik-üzük parça çıxardı. Güllü parçanın yerliyi sarı idi.

– Əntiqədir! – Ravik təriflədi.

– Qiyməti yetmiş faiz düşüb. Keçən ildən yatıb qalıb, – Rolandanın gözləri sevinclə parıldadı. – Bununla yüz yetmiş franka qənaət eləyirəm. Yaxşı deyil?

– Lap əntiqədir! Ərə gedəcəksən, Rolanda?

– Bəli.

– Nə tez? Niyə bir az da gözləyib, bütün işlərini qaydaya salmırsan?

Rolanda güldü:

– Sənin alverdən başın çıxmaz, Ravik. Kişisiz heç nə eləmək olmur. Kişi də elə alver deməkdir. Mən neylədiyimi yaxşı bilirəm!

Rolanda çox sakit və inamla danışırdı. Hər şeyi ölçüb-biçmişdi. Kişi də ona alver üçün lazım idi!

– Pulu onun adına tez keçirmə! – Ravik nəsihətə başladı. – Bir az gözlə, işlər tamam qaydasına düşsün...

Rolanda yenə güldü:

– Necə olacağını bilirəm. Biz ağıllı adamlarıq, bilirik ki, bir-birimizə alver üçün lazımıq. Pulu arvadında olan kişi nə kişidir? Mənə müftəxor kişi lazım deyil! Mən ərimi həmişə hörmətli tutacağam. Qoymaram, hər dəqiqə gəlib məndən pul istəsin. Başa düşmürsən?

– Başa düşürəm, – deyə Ravik bunu başa düşməsə də, cavab verdi.

– Bu, başqa məsələ! – Rolanda razılıqla başını tərpətdi. – İçmək istəyirsən?

– İstəmirəm, gedəsiyəm. Elə buradan keçirdim, ona görə girdim. Səhər tezdən təşrihim var.

Rolanda diqqətlə ona baxdı:

– Sən tamam ayıqsan, – dedi. – Qız istəyirsən?

– Xeyr.

Rolanda işarə ilə iki qıza elə divanda otura-otura yuxuya getmiş kişini göstərdi. Qızlardan bir neçəsi zalın ortasında iki sıra düzülmüş balaca kətillərdə oturmuş, qalanı isə kefdə idi. Dəhlizdəki şüşə kimi daş döşəmənin üstündə

uşaqlar qışda buzun üstündə sürüşən kimi sürüşürdülər. Biri çöməlir, ikisi onun əlindən tutub uzun dəhlizlə obaşbubaşa çəkirdi. Saçları yellənir, döşləri atılıb-düşür, çılpaq çiyinləri işıldayırdı. Əyinlərindəki bircə qarış ipək heç nəyi gizlədə bilmirdi. Qızlar ləzzətdən qışqırışırdı, «Oziris» də birdən-birə günahsız mələklərin yığışdığı cənnətə dönmüşdü...

– Yaydır, – Rolanda izahat verdi, – onlara səhər-səhər bir az sərbəstlik vermək lazımdır... – Sonra Ravikin üzünə baxdı: – Cümə axşamı madam mənim şərəfimə ziyafət verir. Gələrsən?

– Cümə axşamı?

– Bəli.

«Cümə axşamı? – Ravik ürəyindən keçirdi. – Yeddi gündən sonra... Yeddi gün... Yeddi il kimi çəkəcək... – Cümə axşamı hər şey bitmiş olacaq! Cümə axşamı... Kim bilir, o vaxta kimi nələr olacaq...»



– Əlbəttə! – dedi. – Harada?

– Burada. Saat altıda.

– Yaxşı, mütləq gələrəm. Gecən xeyrə qalsın, Rolanda.

– Xeyrə qarşı, Ravik.

* * *

Hər şey retraktoru qoyanda baş verdi. Qəflətən üzünə kəskin, isti bir dalğa vurdu. Bir anlığa nə edəcəyini bilmədi. Qıpqırmızı açıq yara, bağırsaqların arasına qoyduğu isti, yaş tənziflərdən qalxan seyrək buxar, sıxılmış nazik damarlardan sızan qan... Birdən Ejeninin sualedici baxışlarını, cərrahiyyə lampalarının bumbuz işığında Veberin iri sifətinin qırışlarını, saqqalındakı tükləri gördü, özünü ələ alıb, sakitcə işinə davam etdi.

Yaranı tikirdi. Tikən yalnız əlləri idi... Yaranın ağzı yumuldu. Hiss etdi ki, tər bədənindən sel kimi axır...

– Tikişi axıra çatdırmaq istəmirsiniz? – deyə Veberdən soruşdu.

– İstəyirəm. Nə olub?

– Heç nə... Yaman istidir... Yuxudan doymamışam...

Ejeninin təəccüblü baxışlarını Veber də gördü.

– Belə şeylər olur, Ejeni, – dedi. – Hətta mömin adamların da başına gəlir.

Qəflətən otaq başına fırlandı. Dəhşətli bir yorğunluq hiss elədi. Veber tikiş qoyur, Ravik də qeyri-ixtiyari ona kömək edirdi. Dili şişib ağzına sığmırdı. Damağı pambıq kimi olmuşdu. Ağır-ağır nəfəs alırdı... «Lalələr... – elə bil, bu sözləri kimsə ona deyirdi, – Flandriya çöllərindəki lalələr... Qıpqırmızı qızaran yarılmış qarın boşluğu... həyatın bu açıq-saçıq sirri bıçaq tutan əlinin altındadır... Əli bir balaca titrədi, vəssalam, dövrə qapanacaq, ölüm yavaş-yavaş ona tərəf sürünəcək... Yox, daha təşrih eləyə bilmərəm, – deyə ürəyindən keçirdi. – O işi görüb qurtarandan sonra...»

Veber yaraya yod çəkib dedi:

– Qurtardı.

Ejeni xəstənin ayaqlarını düzəltdi, xərək səssiz-səmirsiz otaqdan çıxdı.

– Siqaret verim? – Veber soruşdu.

– Xeyr, getməliyəm, işim var. Mənlik heç nə qalmadı ki?

– Xeyr. – Veber təəccüblə onun üzünə baxdı. – Hara tələsirsiniz? Bəlkə, sodalı «Vermut», ya da sərin bir şey içəsiniz?

– Heç nə istəmirəm, getmək lazımdır. Belə gec olduğunu bilmirdim. Hələlik, Veber.

Tələsik xəstəxanadan çıxdı. Taksi lazım idi. Tez bir taksi tapmaq! Gördü ki, bir «Sitroen» gəlir, tez onu saxlatdı.

– «Prins de Qall» mehmanxanasına! Cəld olun!

«Gərək, Veberə deyəm ki, bu bir neçə günü mənsiz keçinsin, – deyə ürəyindən keçirdi. – Bu cür yaramaz! Təşrihin şirin yerində yadıma düşsə ki, Haake indi zəng vurur, huşum başımdan çıxar!»

Taksinin pulunu verib, mehmanxanaya girdi. Liftin gəlib çıxması əbədiyyət qədər uzun çəkdi... Enli dəhlizdən keçib otağın qapısını açdı. Bu da telefon! Dəstəyi elə qaldırdı ki, elə bil, ondan daş asılmışdı.

– Danışan fon Horndur, mənə zəng eləyən olub?

– Bircə dəqiqə, müsyö!

Ravik gözlədi. Nəhayət, telefonçu qızın səsi eşidildi:

– Xeyr, heç kəs zəng eləməyib.

– Təşəkkür edirəm.

* * *

Morozov günortadan sonra gəldi.

– Çörək yemisən? – deyə ondan soruşdu.

– Yox, səni gözləyirəm, burada yeyərik.

– Səfehlikdir, diqqəti cəlb eləyər. Parisdə yalnız xəstə adamlar evdə çörək yeyir. Get, çörəyini ye, mən qalaram. Bu vaxt heç kim zəng vurmaz, hamının başı yeməyə qarışıb. Çox müqəddəs adətdir... Zəng eləsə, sənin xidmətçinəm, telefonunu yazaram, deyərəm ki, yarım saata qayıdacaq.

Ravik tərəddüd etdi:

– Yaxşı, – deyə, nəhayət, razılaşdı, – iyirmi dəqiqəyə qayıdıram.

– Tələsmə, onsuz da çox gözləmisən, qoy əsəblərin bir az sakitləşsin. «Fuke»yə gedəcəksən?

– Hə.

– Onda otuz yeddinci ilin açıq «Vuvre» şərabından götür. İndicə ondan içmişəm, əntiqədir.



– Yaxşı.

Ravik liftlə aşağı düşdü. Tez küçənin o biri tərəfinə keçib, artırmaya göz gəzdirdi. Sonra restorana girdi, hər yana boylandı. Haake görünmürdü. V Georq prospekti tərəfdə boş stol tapıb oturdu, qızartma, salat, keçi pendiri və bir qrafin də «Vuvre» sifariş verdi.

Yeyə-yeyə əllərinə, ora-bura baxırdı. Özünü məcbur eləyib şərabın dadına baxdı, gördü ki, bir az turşdur. Asta-asta yeyir, yan-yörəsinə, «Zəfər tağı»nın üstündə ipək bayraq kimi yellənən səmaya baxırdı. Sonra qəhvə gətirtdi, dadına baxıb gördü, acıdır, tələsmədən siqaret yandırdı ki, bir az da otursun, küçədən keçənlərə baxsın. Sonra durub «Prins de Qall» mehmanxanasına tərəf getdi və hər şeyi unutdu...

– «Vuvre» necə idi? – deyə Morozov soruşdu.

– Yaxşı.

Morozov cib şahmatını çıxardı:

– Bir partiya oynayaq?

– Oynayaq.

Fiqurları balaca taxtanın üstündəki deşiklərə taxdılar. Morozov kresloya əyləşdi. Ravik də divanda oturub dedi:

– İnanmıram, məni burada pasportsuz üç gündən artıq saxlasınlar.

– Müdiriyyətdən soruşan olub?

– Hələ yox. Bəzən pasportla vizanı otağı verəndə soruşurlar, ona görə də gecə gəldim. Növbətçi oğlan çox sorğu-suala tutmadı. Dedim ki, mənə beş günlüyə bir otaq lazımdır.

– Bahalı mehmanxanalarda elə şeyə çox fikir vermirlər.

– Gəlib pasport istəsələr, çətin olacaq...

– Hələ gəlməzlər. «V Georq» və «Rits» mehmanxanalarından öyrənmişəm... Amerikalı kimi qeyd olunmusan?

– Yox, Utrextdən gəlmiş hollandiyalı kimi yazdırdım. Adım bir az şübhəli görünərdi, ehtiyat üçün onu da bir az dəyişdim, «Fon» Horn əvəzinə, «Van» yazdırdım. Haake zəng eləsə, baş açmayacaq, ikisi də eyni səslənir.

– Yaxşı eləmisən. Mənə elə gəlir, hər şey yaxşı olacaq. Axı sən ucuz otaq tutmamısan, ona görə də fikir verən olmayacaq.

– Yəqin, elə olar.

– Heyif ki, onda adını Horn demisən. Şəxsi vəsiqə yeri bilirdim, hələ bir il vaxtı qalmışdı. Yeddi ay bundan qabaq ölən dostumun idi. Meyiti yoxlayanda dedik ki, Almaniyadan qaçıb, sənədi yoxdur. Vəsiqəni xilas etdik. Yozef Vays adı ilə torpağın altında yatmağın ona heç bir ziyanı olmayacaq, ancaq iki mühacir o sənədlə xeyli yaşayıb. Adı İvan Kluke idi. Rus adına oxşamır. Şəkli də saralıb, profildən çəkilib, möhürü də yoxdur, asanca dəyişmək olar.

– Yox, belə yaxşıdır. Buradan çıxandan sonra nə Horn, nə də onun sənədi olacaq.

– Polisə görə deyirdim. Ancaq o da gəlməz. Hər nömrəsi yüz frankdan artıq olan mehmanxanalara gəlmirlər. Mən bir qaçqın tanıyıram, beş ildir «Rits»də sənədsiz qalır. Bundan bircə gecə növbətçisinin xəbəri var. Ancaq bütün bunlara baxmayaraq, dostların səninlə maraqlansa, nə deyəcəyini fikirləşmisən?

– Əlbəttə! Pasportumu viza almaq üçün Argentina səfirliyinə vermişəm. Deyəcəyəm ki, sabah alıb gətirərəm. Çamadanımı qoyub çıxaram, bir də bu tərəflərə fırlanmaram. Ona kimi vaxtım çox qalır. Əvvəlcə polisin özü gəlmir, müdiriyyətdən soruşurlar. Mən də buna ümidliyəm. Başqa cür olsa, burada qalmağım mənasız şeydir.

– Hər şey yaxşı olacaq.

Onlar doqquzun yarısına kimi oynadılar. Axırda Morozov dedi:

– İndi də get, şam elə, mən hələ buradayam, bir azdan gedəcəyəm.

– Sən get, özüm sonra burada yeyərəm.

– Boş-boş danışma! Get, əməlli-başlı çörək ye! Dostun zəng eləsə, çox güman ki, əvvəlcə onunla vurası olacaqsan. O vaxta kimi yaxşıca yemək lazımdır. Onu hara aparacağını bilirsən?

– Hə.

– Dediyim odur ki, bəlkə, harayasa getmək, ya da içmək istədi.

– Çox yer tanıyıram, heç kim mane olmayacaq.

– İndisə get, çörəyini ye. Ancaq içmə. Yağlı şey götür ki, ürəyini bassın.

– Oldu.

Ravik yenə «Fuke»yə tərəf getdi. Birdən ona elə gəldi ki, bunların heç biri gerçək deyil. Sanki, hamısını kitabda oxuyur, melodramatik filmə baxır, ya da yuxusunda görürdü. Yenə bayaqkı kimi restoranın hər iki tərəfini yoxladı. İşıqlı artırmalar adamla dolu idi. Bütün stolları bircə-bircə yoxladı. Haake görünmürdü.



Qapıya yaxın yerdə oturdu. Buradan içəri girənlər də, küçədən keçənlər də görünürdü. Qonşu stolda iki qadın «Menboş» və «Skaparelli» mağazalarından danışırdılar. Çənəsaqqal bir kişi də onların yanında oturub susurdu. Bir az o tərəfdə fransızlar siyasətdən dəm vururdular. Biri «Croix de fei»[1] təşkilatını, digəri isə kommunistləri müdafiə edirdi, qalanları da hər ikisini lağa qoyurdu. Hamısı da arabir qonşu stolda «Vermut» içən iki qəşəng, özünüçəkən amerikalı qıza baxırdı.

Ravik şərab içə-içə küçəyə baxırdı. O qədər axmaq deyildi ki, təsadüfə inansın. Təsadüflər təkcə maraqlı əsərlərdə tapılmaz, həyatın özündə isə addımbaşı rast gəlirsən, çoxu da axmaq təsadüf olur... «Fuke»də yarım saat da ləngidi. Günortadan indi yaxşı idi. Bir dəfə də «Yelisey çölləri» tərəfdən artırmaya baxdı, sonra mehmanxanaya qayıtdı.

– Bu da maşının açarı, – deyə Morozov açarı ona uzatdı. – Dəyişdim, indi göy rəngli «Talbo»dur. Oturacaqları da dəridir. O birininki parçadan idi. Dərini asan yumaq olur.

[1] "Odlu xaç" – Fransada faşist təşkilatının adı

Bu, kabrioletdir, istəyirsən, üstüaçıq sür, istəyirsən də bağlı. Ancaq pəncərələri həmişə açıq qoy. Örtülü maşında güllə atası olsan, arxa pəncərəni açıq qoy, güllə çölə çıxsın, heç yeri deşməsin. İki həftəliyə götürmüşəm. O dəqiqə də qaraja salma. Qoy həmişə maşın çox olan ucqar bir küçədə qalsın, havası dəyişsin. İndi «Lankaster» mehmanxanası ilə üzbəüz Berri küçəsindədir.

– Yaxşı, – deyə Ravik açarı alıb telefonun yanına qoydu.

– Bu da onun sənədləri. Ancaq sənə sürücü vəsiqəsi tapa bilmədim. Çox adama ağız açmaq istəmədim...

– Lazım deyil. Antibdə olanda onsuz sürürdüm, – deyə Ravik sənədləri də açarın yanına qoydu.

– Maşının yerini də bu axşam dəyiş, – deyə Morozov əlavə etdi.

«Melodramdır! – Ravik ürəyindən keçirdi. – Özü də çox pis melodramdır!»

– Dəyişərəm, çox sağ ol, Boris.

– Mən də səninlə gedərdim...

– Lazım deyil, belə işi tək görərlər.

– Elədir. Boş yerə riskə getmə, imkanı da əldən buraxma. İşini bitir, vəssalam.

Ravik gülümsədi:

– Bunları mənə yüz dəfə demisən, Boris!

– Deməyin ziyanı yoxdur. Vay o günə ki, həlledici anda başına səfeh bir fikir gəlsin. 1915-ci ildə Moskvada Volkovskinin başına elə bir iş gəlmişdi. Birdən-birə şərəf hissi baş qaldırmışdı. Hərdən ovçular da belə insaflı olur. Guya, adamı soyuqqanlıqla öldürmək olmaz və buna oxşar şeylər... Axırda əclafın biri onu güllə ilə vurdu. Siqaretin çatar?

– Hələ artıq da qalar. Burada istədiyin şeyi telefonla sifariş vermək olur.

– «Şəhrizad»da olmasam, mehmanxanaya gəl, məni oyat.

– Onsuz da gələcəyəm. Oldu, ya olmadı...

– Yaxşı, salamat qal, Ravik.

– Xoş getdin.

Ravik qapını onun arxasınca bağladı. Otağa qəflətən dərin bir sükut çökdü. Gəlib, divanın bir güncündə oturdu, divarlara baxdı. Mavi zolaqlı divar kağızı çəkilmişdi... Bu ikicə gündə onlara illər uzunu yaşadığı mehmanxananın

divarlarından yaxşı bələd olmuşdu. Güzgünü də, boz rəngli velür xalı çəkilmiş döşəməni də, pəncərədəki qara ləkəni də, çarpayının, stolun cizgilərini, kreslonun üstündəki örtükləri də yaxşı tanıyırdı, hamısına bitdə-bitdə, iyrənə-iyrənə bələd olmuşdu. Bircə telefon qalmışdı...

## XXIX

«Talbo» Bassona küçəsində «Reno» ilə «Mersedes-Bens»in arasında dayanmışdı. «Mersedes» lap təzə idi və ona italyan nömrəsi taxılmışdı. Ravik «Talbo»nu fırladıb aradan çıxardı. Ancaq səbri o qədər tükənmişdi ki, diqqətini toplaya bilmədi, «Talbo»nun arxa buferi «Mersedes»in sol böyrünə toxunub cızdı. Ravik buna fikir verməyib maşını sürətlə Osman bulvarına sürdü.



Çox bərk gedirdi. Yaxşı ki, əlinin altında maşın var idi, ürəyindən daş kimi asılmış qara fikirləri dağıdırdı.

Səhər saat dörd idi. Çox gözləməli olmuşdu. Ancaq birdən-birə hər şey mənasını itirmişdi. Çox güman ki, Haake o təsadüfi görüşü çoxdan unutmuşdu. Bəlkə də, ondan sonra heç Parisə gəlməmişdi. Onların işi indi çox olardı...

Morozov «Şəhrizad»ın qabağında dayanmışdı. Ravik maşını bir tin uzaqda saxlayıb, piyada geri qayıtdı. Morozov onu uzaqdan gördü.

– Xəbər göndərmişdim, aldın?

– Yox, Boris, nə olub ki?

– Beşcə dəqiqə bundan əvvəl zəng eləmişdim. İçəridə bir dəstə adam oturub, biri sən deyənə oxşayır.

– Harada oturublar?

– Orkestrin yanında. Təkcə həmin stolda dörd nəfər oturub. Qapıdan da görərsən.

– Oldu.

– Qapının yanındakı balaca stol arxasında otur, sənə saxlatmışam.

– Yaxşı, yaxşı, Boris...

Ravik qapının ağzında dayandı. Zal qaranlıq idi. Rəqs meydançası projektorların işığına qərq olmuşdu. Gümüşü paltar geymiş müğənni meydançanın ortasında dayanmışdı. İşıq o qədər gur idi ki, rəqs meydançasından başqa heç

nəyi seçmək olmurdu. Ravik diqqətlə orkestrin yanındakı stola baxdı, ancaq heç nə seçə bilmədi. Projektorun titrəyən dümağ işığı onun qabağını kəsmişdi...

Qapının yanındakı stol arxasında oturdu. Xidmətçi bir qrafin araq gətirdi. Orkestr, sanki, inildəyirdi. Həzin musiqi dalğaları elə asta-asta yayılırdı ki, elə bil, ilbiz sürünürdü: «J attendrai... j attendrai».

Müğənni qız baş əydi, alqış sədaları qopdu. Ravik başını bir az da irəli uzatdı. İşıqvuranların sönməsini gözləyirdi. Müğənni qız orkestrə tərəf döndü. Qaraçı başını tərpədib, skripkanı çənəsinə söykədi. Simbalın boğuq ruladası eşidildi. Təzə mahnı başladı:

La chapelle au elai de la lune[1]

Ravik gözlərini yumdu. Daha dözə bilmirdi, səbri tükənmişdi. Mahnı qurtarmamış dikəldi. İşıqvuranlar söndü, stolların altındakı lampalar yandı. Projektorun işığına çox baxdığı üçün əvvəlcə qaranlıq kölgələrdən başqa heç nə seçə bilmədi. Gözlərini yumub, təzədən açdı. Stolu o dəqiqə tapdı.

Yavaş-yavaş geri söykəndi. Kişilərdən heç biri Haake deyildi. Xeyli beləcə oturdu. Qəflətən dəhşətli bir yorğunluq hiss elədi. Hətta gözləri də yorulmuşdu. Zaldakı şeylər gah birdən, gah da dalğa-dalğa üstünə gəlirdi. Musiqi, tez-tez enib-qalxan səslər, zaldakı boğuq uğultu mehmanxanadakı sükutdan və yeni bir məyusluqdan sonra onun beynini dumanlandırdı. Sanki, cürbəcür, rəngarəng yuxular görürdü, ağır düşüncələrə dalmış, gözləməkdən yorulmuş beyin hüceyrələri şirin bir hipnozla uyuyurdu...

Haradasa lap uzaqlarda, tutqun bir işıq ləkəsində rəqs edənlərin arasında Joanı gördü. Başı az qalırdı oynadığı kişinin çiyninə dəysin. Bu, Ravikə heç təsir eləmədi. «Heç kəs sənə bir vaxtlar sevdiyin adam kimi yadlaşa bilməz, – deyə yorğun-yorğun ürəyindən keçirdi. – Çətini adamın xəyal dünyası ilə onu bağlayan sehrli sap qırılana kimidir. Qırılandan sonra, bəlkə də, həmin sapın ucları getdikcə sönən ulduz kimi közərə-közərə gah sənə, gah da ona tərəf yellənsin, ancaq xeyri yoxdur, o közərti də onu alovlandırmır, çünki ürəklər arasındakı körpü uçub...» Başını divanın

[1] Kilsə də bürünmüş ay işığına

söykənəcəyinə qoydu. «Dərin-dərin uçurumların üstündən salınmış qıl körpü... Dumanlı şəhvət hisslərini cilalayan şirin sözlər... Dəniz üzərində bitən çayır çiçəkləri... Dərmək istəyirsən, əlin boşa çıxır, sulara qərq olursan...»

Dikəldi. Yuxu aparmamış buradan çıxmaq lazım idi. İşarə ilə xidmətini çağırdı:

– Nə verəsiyəm?

– Heç nə.

– Necə yəni?

– Heç nə içməmisiniz.

– Ah, düz deyirsiniz... – Ona çaypulu verib çıxdı.

– O deyil? – Morozov bayırda soruşdu.

– Yox.

Morozov peşman-peşman onun üzünə baxdı.

– Daha bəsdir! – Ravik sükutu pozdu. – Qoy cəhənnəm olsun, gülünc işdir, uşaq oyunudur... Beş gündür gözləyirəm. Özü deyirdi ki, Parisdə iki-üç gün qalır. O hesabla getmiş olar. Bəlkə də, heç gəlməyib... Yata bilmirəm. İndi «Prins de Qall»a gedirəm. Çamadanımı götürüb, otağı təhvil verəcəyəm.



– Yaxşı, onda sabah günorta orada görüşərik.

– Harada?

– «Prins de Qall» mehmanxanasında.

Ravik onun üzünə baxdı:

– Hə, düz deyirsən... Mən yenə boş-boş danışıram... Bəlkə də, doğru sözümdür... Nə bilim...

– Sabah axşama kimi gözlə.

– Yaxşı, baxaram. Gecən xeyrə qalsın, Boris.

– Xeyrə qarşı, Ravik.

* * *

«Oziris»in yanından keçirdi. Maşını tində saxladı. «İnternasional»da qalacağını fikirləşəndə canına üşütmə düşürdü. Bəlkə, burada bir-iki saat gözünün acısını ala bildi. Bazar ertəsi idi və bu gün fahişəxanalarda sakitlik olurdu. Qapıçı çöldə yox idi. Çox güman ki, içəridə də adam qalmamışdı.

Rolanda qapının ağzında dayanıb böyük zalı nəzərdən keçirirdi. Pianolanın səsi, demək olar ki, boş qalmış zalı başına götürmüşdü.

– Deyəsən, bu gün sakitlikdir, Rolanda?

– Elədir. Təkcə bu balqabaq qır-saqqız olub yapışıb. Lap heyvan kimi qızışıb, ancaq quyruq ələ vermir. Belələrini özün yaxşı tanıyırsan: ürəyindən keçir, ancaq qorxur. Bu da almandır. Ancaq pulunu verib, indi durar.

Ravik laqeyd-laqeyd o tərəfə baxdı. Kişinin arxası ona sarı idi. Yanında iki qız oturmuşdu. Kişi qızlardan birinə tərəf əyilib döşlərindən tutanda, Ravik onun üzünü gördü: Haake idi!

Rolanda nəsə dedi, ancaq Ravik heç nə başa düşmədi. Səs, sanki, quyudan gəlirdi. Təkcə onu hiss etdi ki, bir az geri çəkilib, qapıda elə dayanıb ki, yalnız stolun bircə tərəfini görə bilir. Özü isə görünməzdi.

– Konyak istəyirsən? – Rolandanın səsi yenə, elə bil, quyudan gəlirdi.

Orqanın xışıltılı səsi... Ravik hələ də səntirləyirdi, elə bil, damarlarındakı qanı da donmuşdu. Yumruqlarını elə sıxmışdı ki, dırnaqları ətə yerimişdi. Gərək, Haake onu görməsin! Gərək, onu tanıdığını Rolanda bilməsin!

– Xeyr... – İndi də öz səsini eşitdi. – Çox içmişəm. Deyirsən, almandır? Tanıyırsan?

– Haradan tanıyıram? – Rolanda çiyinlərini çəkdi. – Hamısı bir-birinə oxşayır. Deyəsən, bu, birinci dəfədir gəlib. Bəlkə, bir şey içəsən?

– Xeyr, elə-belə gəlmişdim...

Hiss etdi ki, Rolanda ona baxır, güclə özünü yığışdırdı:

– Ziyafətin vaxtını dəqiqləşdirməyə gəlmişdim. Cümə axşamı dedin, ya cümə günü?

– Cümə axşamı. Özün demədin ki, gələcəksən?

– Mütləq gələcəyəm! Ona görə də dəqiqləşdirmək istədim...

– Cümə axşamı saat altıda.

– Yaxşı, bir dəqiqə də o yan-bu yana olmayacaq. Elə buna görə gəlmişdim. Mən getdim, gecən xeyrə qalsın, Rolanda.

– Xeyrə qarşı, Ravik.

Aydınlıq gecə birdən-birə uğuldamağa başladı. Evlər evlikdən çıxıb daş yığnağına, pəncərə cəngəlliklərinə döndü. Sanki, müharibə başlamışdı, kəşfiyyatçılar bomboş küçə ilə sürünə-sürünə gedirdilər. Maşını gizlətmişdilər, motoru uğuldayırdı, özü də düşməni pusurdu..

Çıxanda tapança ilə vursunmu? Diqqətlə küçə uzunu baxdı. Bir-iki maşın, sarı işıqlar, pişiklər... Lap uzaqda, fənərin altında kimsə dayanıb, polisə oxşayır. Maşının nömrəsi, güllə səsi, onu indicə burada görmüş Rolanda... Qulağına Morozovun səsi gəldi: «Heç vaxt, heç vaxt risk eləmə... Risk etməyə dəyən iş deyil.»

Nə qapıçı var, nə də taksi. Bazar ertəsi bu vaxtlar minik həmişə az olur. O, bunları ürəyindən keçirən anda bir taksi gəlib qapının ağzında dayandı. Sürücü siqaret yandırıb, əsnədi. Ravik hiss etdi ki, bütün bədəni üşürgələnir, ancaq yerindən tərpənmədi...

İndi neyləsin? Bəlkə, düşüb sürücüyə desin ki, içəridə heç kəs yoxdur? Yox, elə yaramazdı. Onu harayasa göndərmək lazımdır. Pulunu versin, nəsə tapşırsın, Morozovun yanına göndərsin. Tez dəftərçədən bir vərəq çıxarıb nəsə yazdı, sonra onu cırıb, təzəsini yazdı. Morozov onu «Şəhrizad»ın qabağında gözləsin, altında da ağlına gələn bir ad yazdı...



Taksi birdən tərpəndi. Tez pəncərədən çölə baxdı, ancaq heç nə görə bilmədi. Bəlkə, o yazanda, Haake minmişdi? Tez maşını işə saldı. «Talbo» taksinin arxasınca tini buruldu. Arxa şüşədən heç kim görünmürdü. Ancaq Haake bir az yana da çəkilmiş olardı... Maşınlar yavaş-yavaş qoşalaşdı. İçəri qaranlıq idi, seçmək olmurdu. Bir az geri qalıb, təzədən taksiyə çatdı. İndi lap yaxın sururdü. Taksinin sürücüsü ona tərəf baxıb söydü:

– Ey, balqabağın biri balqabaq, məni hara sıxırsan?

– Sənin maşınında bir dostum oturub...

– Sərxoş heyvan, görmürsən ki, maşın boşdur?

Ravik özü də həmin anda gördü ki, taksinin hesablayıcısı qoşulmayıb. Tez geri dönüb, maşını «Oziris»ə qovmağa başladı.

Haake səkidə dayanmışdı və ona əl elədi:

– Ey taksi, taksi...

Ravik ona yaxınlaşıb, əyləci basdı,

– Taksidir? – Haake soruşdu.

– Xeyr, – deyə Ravik başını pəncərədən çıxardı. –Salamlar!

Haake diqqətlə ona baxdı, gözləri qıyıldı.

– Nə?

– Deyəsən, biz tanışıq... – Ravik almanca danışırdı.

Hakke irəli əyildi və üzündəki şübhə əlaməti o dəqiqə yox oldu:

– İlahi! Cənab fon... fon...

– Horn.

– Elədir, elədir! Cənab fon Horn! Yadıma düşdü! Təsadüfə bax! Bu neçə vaxtı haralarda idiniz, dost?

– Parisdə. Gəlin, əyləşin. Gəldiyinizi bilmirdim.

– Bir-iki dəfə zəng elədim. Başqa mehmanxanaya köçmüsünüz?

– Xeyr, hələ də «Prins de Qall»da qalıram. – Ravik maşının qapısını açdı. – Gəlin, aparım, bu vaxt taksi tapa bilməzsiniz.

Haake bir ayağını maşının ayaq yerinə qoydu. Ravik onun nəfəsini duydu, qıpqırmızı, allanmış yanaqlarını gördü.

– Hə, «Prins de Qall»... – Haake təkrar elədi. – Lənət şeytana, doğrudan da, elə idi. «Prins de Qall!». Mən «V Georq»a zəng vururam... – Ucadan güldü. – Sizi tanımadılar... İndi başa düşdüm... Düz deyirsiniz, «Prins de Qall» idi! Qarışdırmışam... Köhnə qeyd dəftərçəmi götürmədim, elə bildim, yadımda qalıb.

Ravikin gözü «Oziris»in qapısında idi. Oradakıların çıxması xeyli çəkəcəkdi. Qızlar paltarını dəyişməli idi... Buna baxmayaraq, Haakeni maşına tez çəkmək lazımdı. Haake isə tələsənə oxşamırdı:

– Ora getmək istəyirsiniz?

– O məqsədlə gəlmişdim, ancaq, deyəsən, gecdir.

Haake fısıldadı:

– Elədir, əzizim, axırıncı mən çıxdım. Bağlayırlar.

– Eybi yoxdur! Onsuz da, sən deyən, yer də deyil. Başqasına gedərik. Gəlin!

– Başqası da var?

– Əlbəttə! Yaxşıları hələ bundan sonra başlayır. Bu, turistlər üçündür.

– Doğrudan? Mən elə bilirəm, ən yaxşısı budur.

– Xeyr, bundan da yaxşıları var. Bu, onların yanında heç nədir.

Ravik bir-iki dəfə qaz verdi, motor uğuldayıb sakitləşdi. Düz hesablamışdı, Haake onun yanında yerini rahatlayırdı:

– Sizi görməyimə çox şadam, – dedi. – Doğrudan da, çox şadam.

Ravik onun arxa tərəfindən əlini uzadıb qapını çəkdi.

– Mən də çox şadam, – dedi.

– Bura da pis yer deyil, lüt qızlar çoxdur. Polis də buna icazə verir! Yəqin, çoxu xəstə olar, eləmi?

– Bəlkə də. Belə yerlərə adam ürəklə gedə bilmir, – deyə Ravik maşını tərpətdi.

Haake siqaret çıxardı:

– Tam etibarlı yerlər var? Sözün düzü, evə süzənəklə qayıtmaq istəmirəm. Bir tərəfdən də adam dünyaya bircə dəfə gəlir...

– Elədir, – deyə Ravik elektrik alışqanı ona verdi.

– İndi hara gedirik?

– Başlanğıc üçün «Maison de Rendez-vous»[1] necə olar?

– Bu, nə olan şeydir?

– Orada yüksək cəmiyyətin qadınları macəra axtarır.



– Nə? Doğrudan, yüksək cəmiyyətin xanımlarıdır?

– Bəli. Kiminin əri qocadır, kimininki cansıxıcıdır, bəzilərininki də yaxşı pul qazanmır.

– Bəs necə... Axı onlar birdən-birə... Bu, necə olur?

– Həmin qadınlar bir-iki saatlığa ora gəlirlər. Necə deyərlər, kokteyl içməyə yığışırlar. Bəziləri də zəng vurandan sonra gəlir. Əlbəttə, ora Monmartrdakı fahişəxana kimi açıq-saçıq deyil... Hələ Bulon meşəsində əntiqə bir ev tanıyıram, sahibə xarici görkəmindən hersoginyaya oxşayır. Orada hər şey gözəl, intim, abırlıdır.

Ravik yavaş-yavaş, sakit-sakit danışır, asta-asta nəfəs alırdı. Sanki, təcrübəli bir turist bələdçisi idi, ancaq yenə özünü danışmağa məcbur edirdi ki, sakitləşsin. Qolunun damarları titrəyirdi. Sükandan ikiəlli yapışmışdı ki, titrədiyi bilinməsin.

– Otaqlara valeh olacaqsınız. Müasir mebellər... Döşəmədə, divarlarda qədim xalçalar... Seçmə şərab, əla xidmət... Qadınlara da söz ola bilməz, hamısı gül kimi təmiz!

Haake ağzındakı tüstünü havaya üfürüb, Ravikə baxdı:

– Bura baxın, cənab fon Horn, əzizim, bunlar hamısı gözəl səslənir! Ancaq bircə şey qaranlıq qaldı: yəqin, çox baha olar?!

– Əksinə, çox ucuzdur.

---

[1] "Görüş evi" *(fran.)*

Haake pərt olsa da, qaqqıltı ilə güldü:
– Baxır, kimə ucuzdur! Biz almanlar da...
Ravik başını buladı:
– Sahibə ilə aram yaxşıdır. Ona çox yaxşılığım keçib, bizi xüsusi qonaq kimi qəbul edəcək. Siz ora mənim dostum kimi gedirsiniz, ona görə də heç nə almayacaqlar. Uzaqbaşı kiməsə çaypulu verəcəksiniz. «Oziris»də bir şüşə şampan şərabı bundan çox eləyir.
– Doğrudan?
– Özünüz görəcəksiniz.
Haake yerini rahatladı:
– Lənət şeytana, bu, nəyə desən dəyər! – Ravikin üzünə baxıb irişdi. – Deyəsən, belə şeylərdə ustasınız, qadına da böyük yaxşılıq eləmisiniz.
Ravik düz onun gözlərinin içinə baxdı:
– Belə ev saxlayanlar hökumət orqanları ilə tez-tez toqquşurlar. Hərdən onları bir az sıxma-boğmaya salırlar. Nəyi nəzərdə tutduğumu özünüz yaxşı başa düşərsiniz...
– Lap yaxşı başa düşürəm! – Haake bircə anlığa fikrə getdi. – Burada əlaqələriniz genişdir?
– Bir az var. İki-üç dostum yüksək dairələrdə işləyir.
– Az iş deyil! Bizə lazım olar. Bu haqda sizinlə söhbət etmək olar?
– Əlbəttə! Parisdə nə qədər qalacaqsınız?
Haake güldü:
– Deyəsən, sizə həmişə gedən vaxt rast gəlirəm. Səhər tezdən, səkkizin yarısında yola düşürəm. – O, maşındakı saata baxdı. – İki saat yarım qalıb. Elə indi onu soruşmaq istəyirdim. Şimal vağzalına gedəsiyəm, çatarıq?
– Əlbəttə! Əvvəlcə mehmanxanaya gedəcəksiniz?
– Xeyr, çamadanım vağzaldadır. Otağı günorta təhvil verdim, bir günə qənaət elədim. Biz almanlar... – O, yenə güldü.
Ravik birdən hiss elədi ki, özü də gülür. Əllərini bərk-bərk sükana sıxdı. «Ola bilməz! – ürəyindən keçirdi. – Ola bilməz! Heç nə olmayacaq, araya heç nə düşməyəcək! Bu qədər təsadüf olmaz...»
Təmiz hava şərabın təsirini daha da artırdı. Haake güclə, yavaş-yavaş danışırdı. Küncə çəkilib yerini rahatladı və mürgüləməyə başladı. Alt çənəsi bir az da aşağı düşdü,

gözləri yumuldu. Maşın Bulon meşəsinin sükuta dalmış qaranlığına baş vurdu.

Fənərlərin işığı maşının qabağında səssiz-səmirsiz, xəyal kimi süzür və ağacları bir-bir qaranlığın caynağından qoparırdı. Akasiya ağaclarının ətri açıq pəncərədən içəri dolurdu. Təkərlər asfaltın üstündə elə xışıldayırdı ki, deyərdin, maşın heç vaxt dayanmayacaq. Motorun asta, ahəngdar uğultusu bu gecənin nəmli havasına qarışmışdı. Uzaqdakı balaca çay işıldayır, qaranlıq cökələrin fonunda söyüdlərin silueti işıq saçırdı. Şeh düşmüş çəmənliklər sədəf kimi parıldayırdı. Madrid şosesi, sonra Sən-Jem şosesi, Neyiyə gedən yol... Qaranlıqda mürgü döyən bir ev. Su ətri... Sena çayı...

Ravik Sena bulvarına çıxdı. Ay işığına bələnmiş sularda iki balıqçı qayığı qaralırdı. Haradasa lap uzaqlarda it hürürdü. Çaydan səs gəlirdi. Birinci qayığın baş tərəfində fənər yanırdı. Ravik maşını saxlamadı. Sürətin ahəngini pozmadı ki, maşın silkələnəndə Haake oyanar. Sena boyunca irəliləməyə başladı. Burada dayanmaq istəyirdi, ancaq mümkün deyildi. Qayıqlar sahilə çox yaxın idi. Fam şosesinə buruldu, çaydan uzaqlaşaraq, Lonşan xiyabanına tərəf sürdü. Oradan da «Kraliça Marqarite» xiyabanına keçib, yan tərəfdəki ensiz xiyabanlara sarı döndü.



Haake tərəfə baxanda gördü ki, gözləri açıqdır və diqqətlə ona baxır. Gözləri göy rəngli şüşə şar kimi parıldayırdı. Raviki, sanki, elektrik cərəyanı vurdu...

– Ayıldınız?

Haake cavab vermədi. Gözlərini Ravikdən çəkmirdi. Qımıldanmırdı. Heç gözləri də tərpənmirdi.

– Haradayıq? – deyə nəhayət soruşdu.

– Bulon meşəsində, «Kaskada» restoranının lap yanında...

– Çoxdan yoldayıq?

– On dədiqədir.

– Çox olar.

– Olmaz.

– Yatmazdan əvvəl saata baxdım. Yarım saatdan çoxdur ki, yol gəlirik.

– Doğrudan? Elə bilirdim, az getmişik. İndicə çatırıq...

Haake gözlərini hələ də Ravikdən çəkməmişdi.

– Hara çatırıq?
– «Görüş evi»nə.
Haake qımıldandı:
– Geri qayıdın, – dedi.
– İndi?
– Bəli.
Sərxoşluq keçib getmiş, o, tamam ayılmışdı. Üzünün rəngi də dəyişmişdi. Bayaqkı şən ovqatdan, səmimiyyətdən nişanə qalmamışdı. Ravik indi gestaponun əzab-işgəncə dolu divarları arasında beyninə əbədi həkk olunmuş tanış sifəti gördü. Haake yanında oturan andan onu bürüyən həyəcan hissləri birdən-birə yoxa çıxdı. İndiyəcən ona elə gəlirdi ki, tanımadığı yad bir adamı öldürməyə hazırlaşır. Sanki, yanında oturan miskin bir şərab düşkünü idi və o da nahaq yerə kişinin üzündə, öz beynində əvvəlcədən dəqiqləşdirdiyi, indisə yadına salmaq istədiyi səbəbləri axtarırdı. Lakin qəflətən o vaxtlar dəhşətli ağrılardan huşunu itirib, təzədən özünə gələndə gördüyü gözləri tanıdı. Yenə həmin soyuq baxışlar, yenə həmin soyuq, sakit, təkid dolu səs...
Həmin anda beynində, sanki, çevriliş oldu. Elə bil, elektrik cərəyanı öz axın səmtini dəyişdi. Gərginlik qalmışdı, ancaq səhərdən bəri onu üzən qarmaqarışıq, ziddiyyətli, tez-tez istiqamətini dəyişən hisslər yığışıb bircə məqsədə yönələn axına çevrildi. İndi beynində həmin məqsəddən başqa heç nə yox idi... İllərin tutqun pərdəsi yanıb külə döndü, bomboz divarlı bina, gur işıqlı çətirsiz lampalar, qan, tər qoxusu, əzab-işgəncə dolu anlar təzədən baş qaldırdı...
– Neyçin? – Ravik soruşdu.
– Qayıtmalıyam, mehmanxanada gözləyəcəklər.
– İndi deyirdiniz, şeyləriniz vağzaldadır?
– Vağzaldadır, ancaq başqa işim var. Yadımdan çıxmışdı... Geri qayıdın!
– Oldu.
Ravik bir həftə bundan əvvəl Bulon meşəsində gecə-gündüz məşq eləmişdi. İndi harada olduqlarını bilirdi. Bir-iki dəqiqə də lazım idi...
Sol tərəfdəki ensiz xiyabana tərəf döndü.
– Qayıdırıq?
– Bəli.

Hətta gündüzlər belə günəş işığını buraxmayan ağacların altındakı boğuq hava içəri doldu. Zülmət qaranlıq... Ravik güzgüdə gördü ki, Haake sol əlini yavaş-yavaş, ehtiyatla qapının tutacağından geri çəkdi. «Nə yaxşı ki, «Talbo»nun sükanı sağdadır», – deyə Ravik ürəyindən keçirdi. Döngəni buruldu, sükanı təkcə sol əli ilə tutub, Haake tərəfə meyilləndi, sanki, döngədə müvazinətini saxlaya bilmədi, dümdüz xiyabana çıxan kimi qaz verdi. Maşın irəli atıldı və bir neçə saniyədən sonra o var gücü ilə əyləci basdı... «Talbo», elə bil, yerə mıxlandı, təkərlər xırçıldadı. Bir ayağı əyləcdə, bir ayağını da döşəməyə dayayan Ravik müvazinətini saxlaya bildi. Bu təkanı gözləməyən Haakenin ayaqları ilişəcək tapa bilmədi, başı qabağa əyildi. Əlini vaxtında cibindən çıxara bilmədi, alnı maşının şüşəsi ilə alətlər yığılan qutunun tininə dəydi. Həmin anda Ravik sağ cibindən çıxardığı ağır açarla onun boynunun kökündən vurdu...



Haake bir daha dikəlmədi. Yana əyilərək, yavaş-yavaş oturacaqdan sürüşdü, çiyni qapıya ilişəndə dayandı. O biri çiyni də alətlər yığılan qutuya söykəndi...

Ravik maşını o dəqiqə tərpətdi. Xiyabanı keçib, fənərlərin işığını azaltdı. Sürə-sürə ətrafı dinşədi: görəsən, əyləci basarkən xırçıltını eşidən oldumu?! Götür-qoy etməyə başladı. Gələn olsa, Haakeni tez sürüyüb kolların arasında gizlətsinmi? Bir az gedəndən sonra dayandı, motoru da, işıqları da söndürdü, cəld maşından düşüb qapağı qaldırdı, Haake tərəfdəki qapını açıb hazır qoydu, ətrafı dinşədi. Elə yerdə dayanmışdı ki, gələn olsa, həm görərdi, həm də ayaq səsini eşidərdi. Haakeni sürüyüb kolun dalında gizlətməyə vaxt çatardı. Özünü elə göstərdi ki, guya, motor xarab olub.

Sükutun özü də haraya dönmüşdü. Elə qəfildən, elə gözlənilmədən çökdü ki, beyni uğuldamağa başladı. Əti ağrıyanacan yumruqlarını sıxdı. Bilirdi ki, qulaqlarındakı küyültü öz qanının səsidir... Yavaş-yavaş, dərindən nəfəs aldı...

Uğultu xışıltıya çevrildi. Bir az sonra həmin xışıltının arasından şıqqıltı eşidildi və getdikcə ucalmağa başladı. Ravik bütün varlığı ilə diqqət kəsildi. Səs ucalırdı, özü də metal cingiltisinə oxşayırdı. Və birdən gördü ki, cırcıramalardır. Xışıltı o dəqiqə kəsildi. İndi bir özü idi, bir də qarşısındakı balaca çəmənlikdə səhərlə birgə oyanan cırcıramalar...

Dan sökülürdü. Ravik motorun qapağını saldı. Vaxt idi,

işıqlaşmamış qurtarmalıydı. Ətrafına boylandı. Bura əlverişli deyildi. Ümumiyyətlə, Bulon meşəsində yaxşı yer olmazdı. Senaya da atmaq yaramazdı, çünki hava işıqlaşırdı. Onunla belə gec rastlaşacağını hesablamamışdı. Birdən diksindi. Xışıltı eşidildi. Elə bil, nəyisə cırmaqlayırdılar... Sonra inilti eşitdi. Haakenin bir əli açıq qapıdan çıxıb, ayaq yerini cırmaqlayırdı... Ravik gördü ki, açar hələ də əlindədir. Onun pencəyinin yaxasından tutub özünə tərəf çəkdi, başı çölə çıxan təki açarla iki dəfə peysərinə vurdu. İnilti kəsildi...

Nəsə şıqqıldadı. Ravik yerindən tərpənməyib, qulaq verdi. Sonra gördü ki, Haakenin tapançasıdır, oturacaqdan ayaq yerinə düşüb. Əyləci basmamışdan qabaq əlində imiş... Ravik onu götürüb maşına atdı. Yenə ətrafı dinşədi. Cırcıramalar, balaca çəmənlik... Yavaş-yavaş ağaran səma, elə bil, geri çəkilirdi. Tezliklə günəş çıxacaq! Ravik qapını açıb Haakeni çıxardı, qabaq oturacağı irəli çəkdi, onu oturacaqların arasındakı ayaqaltına qoymaq istədi, ancaq alınmadı, yer çox dar idi. Arxaya qaçdı, yük yerini açıb, oradakıların hamısını bir tərəfə yığdı. Təzədən qayıdıb, Hakkeni çıxardı, arxa tərəfə gətirdi. Hələ ölməmişdi. Çox ağır idi. Tər üzündən sel kimi axırdı. Birtəhər onu yük yerinə yerləşdirdi. Dizlərini qatlamışdı və Haake indi ana bətnində büzüşmüş körpəyə oxşayırdı...

Sonra yerə qoyduğu alətləri: beli və qaldırıcını gətirib maşının içinə qoydu. Lap yaxınlıqdakı ağacın başında bir quş cəh-cəh vurdu. Ravik diksindi. Ona elə gəldi ki, ömründə belə uca səs eşitməyib... Çəmənliyə baxdı. Hava getdikcə işıqlaşırdı...

Risq etməyə dəyməzdi. Geri qayıdıb, yük yerinin qapağını yarıyacan qaldırdı. Sol ayağını arxa buferin üstünə qoyub, dizi ilə qapağı saxladı. Çox qaldırmadı, əlləri girsə bəs idi. Görən olsa, deyərdi ki, cidd-cəhdlə iş görür. İstədiyi anda qapağı salardı. Yolu uzun idi və Haakeni indidən öldürmək lazımdı...

Onun başı sol küncə yaxın idi və görünürdü. Boğazı nazilmişdi. Dodaqlarına qan hələ də işləyirdi. İkiəlli xirtdəyindən yapışıb, sıxmağa başladı. Haakenin ölməsi, sanki, əbədiyyətin özü qədər uzun çəkdi. Başı azacıq tərpəndi, bədəni dikəlməyə çalışdı, sanki, paltar sıxırdı... Sonra dodaqları aralandı, quş yenə də cəh-cəh vurdu... Dili ağzından

çıxdı. Şişib sapsarı olmuşdu. Və qəflətən Haake bir gözünü açdı. Həmin göz bərəldi, sanki, işıq tapıb Ravikə baxdı, sonra da, elə bil, yerindən qopub ona tərəf gəldi... Ancaq həmin anda bədən sustaldı... Ravik onu bir az da saxladı. Nəhayət, Haake keçindi...

Qapağı saldı. Bir-iki addım atdı. Gördü ki, dizləri əsir. Ağaca söykənib öyüdü. Elə bil, ürəyi ağzına gəldi. Nə qədər çalışsa da, özünü saxlaya bilmədi, qusdu...

Başını qaldıranda gördü ki, çəmənliklə bir kişi gəlir. Kişi Ravikə baxdı. Ravik yerindən tərpənmədi. Kişi yaxınlaşırdı. Çox asta yerişi vardı. Geyimindən bağbana, fəhləyə oxşayırdı. Ravikə tərəf baxdı. Ravik tüpürüb, bir qutu siqaret çıxardı, birini yandırıb, tüstünü ciyərlərinə çəkdi. Tüstü acı idi, boğazını yandırdı. Kişi xiyabana buruldu. Onun qusduğu yerə, maşına, sonra da Ravikin özünə baxdı. Heç nə deməd və Ravik də onun üzünün ifadəsindən heç nə anlaya bilmədi. Kişi asta addımlarla tini burulub gözdən itdi.



Ravik bir neçə saniyə də gözlədi. Sonra yük yerini bağlayıb, motoru işə saldı. Daha Bulon meşəsində heç nə eləmək olmazdı. Hava çox işıqlaşmışdı. Sən-Jermenə getmək lazım idi, oradakı meşələrə yaxşı bələddi...

## XXX

Bir saatdan sonra maşını balaca mehmanxananın qabağında saxladı. Çox ac idi, başı hərlənirdi. Maşını binanın qabağına çəkdi. Bayıra iki stol və stullar qoyulmuşdu. Qəhvə ilə kökə sifariş verib, əlini yumağa getdi. Vanna otağından pis iy gəlirdi. Bir stəkan alıb, ağzını yaxaladı. Sonra əllərini yuyub, geri qayıtdı.

Səhər yeməyi stolun üstündə idi. Bu qəhvənin də iyi bütün dünyadakı qəhvələrin iyi kimi idi və qaranquşlar damların üstündə dövrə vurur, günəş özünün ilk qızılı saçaqlarını evlərin divarlarına dolayır, adamlar işə gedir, meyxananın pəncərələrinin ipək pərdəsi arxasında ətəyini belinə sancıb, daş döşəməni silən xidmətçi qız görünürdü... Ravik çoxdan belə sakit yay səhəri görməmişdi! İsti qəhvəni içdi, ancaq yeməyə ürək eləmədi. Kökələri əlinə götürməyə qorxurdu. Əllərinə baxdı. «Boş şeydir... – ürəyindən keçirdi. – Lənət

şeytana, vasvası olub getmişəm. Yemək lazımdır...» Bir fincan da qəhvə içdi. Siqaret çıxardı, bilə-bilə əli dəyməyən tərəfini ağzına apardı. «Yox, belə olmaz!» – deyə fikirləşdi. Ancaq yenə də yemədi. Qət etdi ki, əvvəlcə işi qurtarmaq lazımdır və durub pulunu verdi.

Naxır... Kəpənəklər... Çöllərlə, maşının şüşəsi ilə qucaqlaşan günəş... Maşının üstündəki çadırı qızdıran günəş... Haakenin üstündəki metal qapaqda bərq vuran günəş... O öldü, ancaq kim öldürdü, niyə öldürdü, bilmədi! Gərək, başqa cür olaydı. Başqa cür...

«Məni tanıdın, Haake? Bilirsən kiməm?»

Onun qıpqırmızı sifəti gözləri önündə çanlandı:

«Xeyr, neçə bəyəm? Kimsiniz? Əvvəllər də görüşmüşük?»

«Bəli».

«Nə vaxt? Bir-birimizə «sən» deyə müraciət etmişik? Bəlkə, hərbi məktəbdə? Yadıma düşmür.»

«Yadına düşmədi, Haake, Hərbi məktəbdə olmayıb. Sonralar idi»,

«Sonralar? Bəs siz xaricdə yaşamamısınız? Mən isə Almaniyadan kənara çıxmamışam. Təkcə son iki ildə Parisə gəlirəm. Bəlkə, hardasa vurmuşuq?»

«Xeyr, içki yoldaşı olmamışıq. Burada yox... Almaniyada görüşmüşük, Haake!»

Şlaqbaum... Dəmiryol xətləri... Qızılgül, floks, günəbaxanlarla dolu bağ... Dayanıb gözlədi. Vaqonları qaralan tənha bir qatar bu nəhayətsiz səhərin qoynunda fısıldayır. Maşının şüşəsindən bir cüt qızarmış göz baxırdı. Yük yerindəki tozun hamısı onlara dolmuşdu...

«Almaniyada? Aha başa düşdüm! Partiya qurultayında... Nürnberqdə... Deyəsən, yadıma düşdü. Nürnberqdə görüşmüşük?»

«Xeyr, Haake, – Ravik bu sözləri asta-asta şüşəyə dedi və hiss elədi ki, o dəhşətli illər dalğa-dalğa geri qayıdır. – Nürnberq yox... Berlində...»

«Berlində?» – Maşının şüşəsində titrəyən kölgəli sifətdə gülümsər, səbirsizlik dolu bir ifadə oynadı. – Qurtarın, əzizim, oxunu atıb yayını gizlətməyin, özünüz deyin! Neyçin mənə bu qədər əziyyət verirsiniz? Nə vaxt görüşmüşük?»

Sanki, yerdən bir dalğa baş qaldırdı, yavaş-yavaş Raviki qoynuna almağa başladı.

«Əziyyət verəndə, Haake! Elədir! Əziyyət verəndə!»

Ehtiyatlı, inamsız bir gülüş...

«Lağlağı eləməyin!»

«Əziyyət verəndə, Haake! İndi bildin, mən kiməm?»

Ehtiyatlı, inamsız, hədə dolu bir gülüş...

«Haradan bilim? Əgər gizli dövlət polisinə işarə vurursunuzsa...»

«Bəli, Haake, gestaponu deyirəm».

Çiyinlərini çəkir. Təfərinclə baxır.

«Əgər sizi orada dindirmişəmsə...»

«Bəli. Yadına düşdü?»

Yenə çiyinlərini çəkir.

«Haradan yadıma düşsün? Minlərlə adam dindirmişik...»

«Dindirmisiniz! İşgəncə vermisiniz, huşunu itirənəcən döymüsünüz, vurub böyrəklərini içinə salmısınız, sümüklərini sındırmısınız, sonra da boş kisə kimi zirzəmilərə atmısınız, təzədən aparmısınız, üz-gözündə tutar qoymamısınız, xayasını yırtmısınız! Bütün bunlara siz «dindirmək» deyirsiniz! Qışqırmağa heyi qalmayan insanların fəryad dolu dəhşətli iniltisinə «dindirmək» deyirsiniz! Huşsuzluqdan ayılanda, onun sızıltısına, qarnına dəyən təpiklərə, rezin toppuzlara, qamçılara adicə «dindirmək» deyirsiniz!»



Ravik gözlərini şüşədəki xəyali sifətdən çəkmirdi. Taxıl zəmiləri, laləli çöllər, itburnu kolları həmin sifəti yalayıb keçirdi. O isə gözlərini şüşədən çəkmirdi, dodaqları tərpənir, demək istədiyi və ya nə vaxtsa deyilməli olan sözlərin hamısını bircə-bircə deyirdi...

«Əllərini tərpətmə, yoxsa beyninə bir güllə çaxaram! Balaca Maks Rozenberq yadındadır? Zirzəmidə mənim yanımda uzanmışdı, bədənində salamat yer yox idi, başını beton divara vurmağa çalışırdı ki, bir də dindirməyə aparmasınlar. Niyə dindirirdiniz? Çünki demokrat idi! Bəs qan qusan Villman? İkicə saat «dindiriləndən» sonra ağzında bircə dişi də qalmadı, gözünün biri də getdi... Niyə dindirirdiniz? Çünki katolik idi, sizin fürerin ikinci Musa peyğəmbər olduğuna inanmırdı! Bəs başı, bədəni çiy ət parçasına dönmüş Rizenfeld? Bizə yalvarırdı ki, onun venasını dişimizlə deşək! Çünki sən «dindirəndən» sonra özünün bircə dişi də qalmamışdı. Niyə dindirirdin? Ona görə ki, müharibə istəmirdi, bombaların, odlu silahların ən yüksək

mədəniyyət əlaməti olduğuna inanmırdı! Dindirmək! Bəli, siz minlərlə adamı «dindirmisiniz!» Əl-qol atma, donuz! İndi yaxşı düşmüsən əlimə, bir az o tərəfə gedək! Orada qalın divarları olan bir bina var, səni özüm «dindirəcəyəm!» Özü də yavaş-yavaş, gecə-gündüz... Bir vaxtlar məni, Rozenberqi, Rizenfeldi, Villmanı saldığın günlərə salacağam səni! Sonra da bunları qurtaran kimi...»

Ravik birdən hiss etdi ki, maşın qanad açıb uçur. Ayağını qazdan çəkdi. Evlər... Kənd... Toyuq-cücə... Çəmənlikdə başlarını dik tutaraq dördanla çapan atlar... Elə bil, buralarda köçəri tayfalar yaşayır... Kentavrlar... Hər yanda həyat qaynayır... Bir qadın gülə-gülə paltar sərir. İpdən asılmış rəngarəng paltarlar əbədi səadət bayrağı kimi dalğalanır... Həyətlərdə uşaqlar oynayır... Bütün bunları, sanki, şüşə divardan görürdü və həm yanında idi, həm də əlyetməz bir uzaqlıqda! Ürəyini şan-şan eləyən bu gözəllik, bu sakitlik, bu məşumluq ondan uzaqlaşmışdı, bu gecə hamısını əlindən alıb aparmışdı. Ancaq heyifsilənmədi. Neyləyəsən, tale belə yazıbmış...

Yavaş sürmək lazımdır. İndi bircə şeyin qorxusu qalmışdı: kəndlərin arası ilə belə bərk sürsə, saxlaya bilərdilər! Bəs vaxt? Yol gəldiyi az qalırdı iki saat olsun. Elə şey olar? Özü heç hiss eləməyib... Bayaq söhbət etdiyi sifətdən başqa heç nə görməyib...

Bu da Sən-Jermen! Park. Sanki, mavi səmaya sancılmış qapqara dəmir hasar və ağaclar. Ağaclar... Ağaclarla dolu xiyabanlar. Çoxdan gözlədiyi, arzuladığı qalın park. Və bir az o tərəfdə meşə. Maşın yavaşımışdı. Qızılı, yaşılı dalğa kimi baş qaldıran meşə sağa, sola səpələnmişdi, üfüqü qoynuna almışdı, hər şeyi, hətta onun sinəsindəki çınqıllı yollarda işıldayan böcək kimi şıqqıltı sala-sala gedən maşını da udmuşdu...

Kol-kos basmış torpaq yumşaq idi. Şosedən görünməzdi. Ravik maşını bir az aralı saxlamışdı, ancaq yanından görünürdü. Beli götürüb qazmağa başladı. Asan qazılırdı. Bu tərəflərə gələn olsa, beli gizlədərdi, özü üçün gəzməyə çıxmış adam kimi maşının yanına qayıdardı.

Xeyli qazdı ki, oradan çıxan torpaq meyitin üstünü örtə bilsin. Sonra maşını yaxın çəkdi. Meyit ağır olardı. Ancaq yenə də yumşaq torpağa çatmamış saxladı, yoxsa təkərlərin izi qalardı.

Meyit hələ soyumamışdı. Ravik onu qucağına alıb, qazdığı yerə gətirdi, əynindəki paltarları çıxarıb, bir yerə yığdı. Sən demə, bu, o qədər də çətin deyilmiş. Çılpaq meyiti yerə uzadıb, paltarları maşının yük yerinə qoydu, onu bayaqkı yerinə qaytardı. Qapıları, yük yerini bağladı, özü ilə bir çəkic də götürüb geri qayıtdı. Fikirləşdi ki, meyit təsadüfən tapıla bilər, onu elə hala salmaq lazımdır ki, tanınmasın. Bircə anlığa, qayıtmaq ona yaman çətin gəldi. Az qalırdı, meyiti eləcə də qoyub, maşına minsin, buralardan uzaqlaşsın. Dayanıb ətrafına nəzər saldı. Yaxınlıqdakı ağacın kökündə iki dələ oynaşırdı. Onların qızılı xəz dəriləri günün altında parıldayırdı. Ravik meyitə tərəf getdi.

Meyit şişmişdi, göy rəngə çalırdı. Maşın yağına bulaşmış əskini onun üzünə sərdi, çəkici qaldırdı. Bircə dəfə vuran kimi dayandı. Səs yaman boğuq çıxırdı. Sonra tez-tez vurmağa başladı. Bir azdan əskini qaldırdı. Sifət qana bələnmiş, tanınmaz olmuşdu. «Rizenfeldin başı da belə idi... – deyə ürəyindən keçirdi. Hiss etdi ki, dişləri bir-birinə sıxılıb. – Yox, Rizenfeldin başına oxşamır. O, bundan betər idi. Çünki ölməmişdi, hələ nəfəsi vardı...»



Bu da sağ əlindəki üzük! Onu çıxarıb, meyiti quyuya saladı. Bir az qısa eləmişdi. Dizlərini qarnına tərəf qatladı. Üstünü torpaqladı. İşlər yaxşı gedirdi. Torpağı ayaqlayıb hamarladı, əvvəlcədən bellə kəsdiyi çimləri üstünə düzdü. Hamısı düz gəldi. Lap əyilib baxanda ağız-ağıza qoyulan yerlər güclə seçilirdi. Çimlərin üstündəki yapıxmış ot-alağı düzəltdi.

Bu çəkic, bu bel, bu da əski... Hamısını gətirib, yük yerindəki paltarın yanına qoydu. Sonra bir də qayıtdı, tələsmədən, diqqətlə baxdı ki, bəlkə, iz qalıb. Heç nə qalmamışdı. Olsa da, yağış yuyub aparacaq, bir-iki günə təzə ot qalxacaq, hər şeyi itirəcək...

Qəribədir, bu, ölən adamın ayaqqabıları, bu da corabları... Bu da alt paltarı... Kostyumu diqqətini o qədər də cəlb etmədi. Corabların da, köynəyin də, alt paltarlarının da rəngi solmuşdu, meyit qoxusu verirdi və elə bil, onlar də ölmüşdü... Bunları təzədən bir-bir əlinə götürüb monoqramları, firma yarlıqlarını axtarmağa iyrənirdi... Canını dişinə tutaraq hamısını tapdı, kəsib götürdü. Qalan paltarları bir yerə yığıb bağladı, meyiti basdırdığı yerdən çox aralıda basdırdı ki, ikisi bir yerdə tapılmasın...

Maşını irəli sürüb, bir çaya çatdı. Kəsib götürdüyü yarlıqları kağıza bükdü. Sonra onun qeyd dəftərçəsini xırda-xırda cırdı, pulqabını yoxladı. İki min franklıq çek, Berlinə qədər bilet, on alman markı, ünvan yazılmış bir neçə kağız parçası və pasportunu tapdı. Fransız pulunu cibinə qoydu. Haakenin şalvar cibindən də bir neçə beşfranklıq çıxmışdı...

Baxışları bir anlığa yol biletinə ilişib qaldı. Üstündəki «Berlin» sözü ona lap qəribə görünürdü. Onu da cırdı. Pasporta isə xeyli baxdı. Hələ üç il vaxtı var idi. İstəyirdi, saxlayıb onunla yaşasın. Bu, onun həyat tərzinə də uyğun gəlirdi. Əgər təhlükəli olmasaydı, çox götür-qoy etməzdi...

Onu da cırdı. Alman pullarını da... Açarı, tapançasını və bir də vağzala qoyduğu çamadanın qəbzini saxladı. Fikirləşdi ki, bəlkə, Parisdəki izi tamam itirmək üçün onu götürməli oldu. Mehmanxananın haqq-hesab qəbzini də tapıb cırdı.

Sonra hamısını yandırdı. Bu isə gözlədiyindən çox çəkdi. Ancaq, yaxşı ki, parça kəsiklərini arasına qoyub yandırmaq üçün qəzet götürmüşdü. Külü çaya sovurdu. Daha sonra maşını diqqətlə yoxladı ki, bəlkə, qan izi qalıb. Heç nə tapmadı. Çəkiclə açarı təmiz-təmiz yudu, aparıb yük yerinə qoydu. Qayıdıb əllərini yaxşı-yaxşı yudu, siqaret çıxarıb yandırdı, bir xeyli beləcə oturdu...

Hündür fıstıq ağaclarının arasından günəş boylanırdı. Ravik də oturub siqaretini çəkirdi. Tamam yüngülləşmişdi və heç nə haqda düşünmürdü...

Yalnız qalaya tərəf uzanan şoseyə burulanda Sibillanı xatırladı. Qala XVIII əsrin əbədi səmasından boylanan parlaq yay günəşinin şüaları altında bərq vururdu. Qəflətən Sibilla yadına düşdü və o vaxtdan bəri ilk dəfə müqavimət göstərmədi, onun haqqındakı xatirələri boğmaq istəmədi, özündən uzaqlaşdırmağa çalışmadı. Sibilla haqqında xatirələr həmişə Haake onu gətirtdiyi anda kəsilərdi. Üzündə gördüyü vahimədən, dəhşətli qorxudan o yana gedə bilmirdi. Qalanları bunun yanında itib-batırdı. Bir də onun özünü asması xəbəri yadında idi. İnanmamışdı. Halbuki elə şey ola bilərdi. Ancaq ondan qabaq nələr olduğunu kim bilirdi? Sibilla haqqında düşünəndə beyni qıc olurdu, əlləri əllikdən çıxıb pəncəyə dönürdü, nəsə sinəsini deşirdi və uzun müddət qan rəngli ümidsiz intiqam dumanında çabalayırdı...

İndi xatırlayanda isə o qıcolma da, sinəsini deşən şey də, duman da birdən-birə qeybə çəkildi. Nəsə əriyib yox oldu, hansı maneəsə dəf edildi və o dəhşətli anları yaşamış donuq surət yavaş-yavaş canlandı, əriyə-əriyə ötən illərin buzundan ayrılmağa başladı. Əyilmiş ağzı düzəldi, gözlərindəki donuqluq əridi, əhəng kimi ağarmış sifətinə qan gəldi. İndi həmin surət əbədi qorxu mücəssəməsi deyil, yaxşı tanıdığı, iki il bir yerdə yaşadığı, zərif döşlərini həmişə sinəsində hiss etdiyi, ömrünün iki ilindən ılıq iyun gecəsi kimi keçib gedən Sibilla idi.

Gündüzlər, gecələr bir-bir baş qaldırdı. Sanki, lap uzaqlarda, üfüqdən də o tərəfdə tənha bir məşəl alovlandı. Keçmişin bərk-bərk bağlanıb qanla möhürlənmiş qapısı qəfildən, öz-özünə, səssiz-səmirsiz açıldı və Ravik onun arxasında gestaponun zirzəmisi əvəzinə, güllü-çiçəkli bir bağ gördü...



Bir saatdan artıq idi ki, yol gedirdi. Ancaq üzü Parisə tərəf deyildi. Sən-Jermendən bir az o yanda Senanın körpüsünü keçərkən dayandı, Haakenin açarını da, tapançasını da suya tulladı. Sonra maşının üstündəki çadırı geri yağıb, yoluna davam etdi.

Bütün Fransada onun üzünə günəş açılmışdı. Arxada qalan gecəni, demək olar ki, unutmuşdu. Elə bil, həmin gecə on il, yüz il bundan qabaq olmuşdu. Bir neçə saat bundan əvvəl baş verən hadisələr dumana bürünmüşdü. İllərin yaddaş quyusunda batanlar isə müəmmalı-müəmmalı baş qaldırır, yavaş-yavaş üzə çıxırdılar. İndi onların arasında heç bir uçurum yox idi...

Ona nə olduğunu özü də anlamırdı. Elə bilmişdi ki, özündə nəsə bir boşluq, yorğunluq, biganəlik hiss edəcək, həyəcanlı olacaq. Gözləyirdi ki, özü özündən iyrənəcək, ürəyində özünə bəraət qazandırmağa çalışacaq, araq içib keflənmək, hər şeyi unutmaq istəyəcək. Ancaq bircə bunu gözləmirdi. Gözləmirdi ki, belə yüngülləşəcək, azad nəfəs alacaq, sanki, keçmişin ağır dağı çiyinlərindən götürüləcək. Ətrafına baxdı, gözləri önündə əlvan bir mənzərə çanlandı: yolların üstündə vüqarla dayanmış qovaqların başında, sanki, yaşıl məşəllər yandırılmışdı. Laləyə, peyğəmbərçiçəyinə bələnmiş çöllərin sonu görünmürdü. Balaca kəndlərin çörəkxanalarından isti çörək ətri gəlirdi. Uşaqlar məktəbdə skripkanın müşayiətilə mahnı oxuyurdular...

Bayaq buradan keçəndə nə haqda düşünmüşdü? Bir neçə saat bundan qabaq keçmişdi, ancaq, deyərdin, çoxdan, lap çoxdan keçib. Bayaqkı şüşə divar, bayaqkı yalqızlıq hara getdi? Duman günəş işığında əriyən kimi, əriyib yox oldu. Yenə evlərin qabağındakı pilləkənlərdə oynayan uşaqları gördü. Gördü ki, itlər, pişiklər həyətdə uzanıb özlərini günə verir. Gördü ki, külək rəngarəng paltarları yenə yellədir, atlar çəmənlikdə dördnala çapır və bayaqkı qadın da əlində sancaq çəmənlikdəki zivəyə çoxlu köynək sərir. İndi bunları görür və hiss edirdi ki, onun da bu həyatda payı var və həmin pay heç vaxt belə çox olmayıb. Elə bil, daxilində nəsə əriməyə başladı, suya dönüb çölə süzüldü, yanıb külə dönmüş torpaq cana gəldi, göyərdi və çoxdan itirdiyi bir şey təzədən yerinə qayıtdı, haçansa pozulmuş tarazlıq yavaş-yavaş düzəlməyə başladı.

Sükanın arxasında sakitcə oturmuşdu və qımıldanmırdı. Qorxurdu ki, tərpənsə bu şirin duyğular ürkər. Onlar da getdikcə çoxalır, nur kimi üstünə çilənirdi. O isə sakitcə oturmuşdu, hələ tamam inanmırdı, ancaq buna baxmayaraq, onları hiss edir və bilirdi ki, hamısı həqiqətdir. Gözləyirdi ki, Haakenin kölgəsi yanında oturub, gözlərini ondan çəkməyəcək. Lakin indi öz həyatı qayıdıb, onunla yanaşı oturmuşdu və üzünə baxırdı.

Neçə illərdən bəri səssiz-səmirsiz, üzünə baxa-baxa nəsə tələb eləyən, onu ittiham edən bir cüt, az qala, hədəqəsindən çıxan göz o dəqiqə yumuldu, iztirabla dolu dodaqlar qapandı, dəhşətlə irəli uzanmış qollar yana düşdü. Haakenin ölümü Sibillanın üzündəki ölüm ifadəsini yuyub apardı, onun surəti bircə anlığa təzədən canlandı və sonra yenə yavaş-yavaş görünməz oldu. Sibilla, axır ki, sakitləşdi, biryolluq çəkilib getdi ki, heç vaxt geri dönməsin. Qovaqlar, cökələr onu oxşaya-oxşaya öz yarpaqları arasında dəfn elədi... İndi hər yanda yay idi, arılar vızıldaşırdı və Raviki də şirin bir yorğunluq bürüyürdü, elə bil, neçə gecə idi ki yatmırdı, indi dərin bir yuxuya gedəcək, ya da ömrü boyu yata bilməyəcəkdi...

Maşını Ponsel küçəsində qoydu. Yalnız motoru söndürüb düşən anda hiss elədi ki, yaman yorulub. Bu, uzun yolun yorğunluğu deyil, dəhşətli, çılğın bir yuxu həsrəti idi. «İnternasional»a tərəf addımladı. Güclə yeriyirdi, günəş, elə bil, ağır yükə dönüb boynundan asılmışdı. Birdən yadına

düşdü ki, «Prins de Qall»dakı otağını təhvil verməlidir. Tamam unutmuşdu. Ancaq elə yorulmuşdu ki, az qaldı bunu da sonraya saxlasın. Özünü məcbur eləyib, taksi tutdu, ora sürdürdü. Pulunu verib qurtarandan sonra yadına düşdü ki, çamadanı da gətirtmək lazımdır. Sərin zalda oturub gözlədi. Sağ tərəfdəki barda bir neçə adam «Martini» içirdi. Xidmətçi çamadanı gətirəndə, demək olar ki, onu yuxu tutmuşdu. Ona çaypulu verib, taksi saxlatdı:

– Cənub vağzalına! – Bunu elə ucadan dedi ki, qapıçı da, çamadanı gətirən xidmətçi də eşitdilər.

Beti küçəsinin tininə çatanda taksini əylətdi.

– Bir saat səhv eləmişəm, – dedi, – çox tez gedirəm. Meyxananın yanında saxlayın.

Pulunu verib çamadanı götürdü, meyxanaya girdi, taksi gözdən itincə gözlədi. Sonra çıxıb başqasını tutdu, «İnternasional»a sürdürdü.



Aşağıda mürgü döyən oğlandan başqa heç kəs yox idi. Saat on ikini vururdu. Sahibə indi nahara getmiş olardı. Ravik, əlində çamadan, öz otağına çıxdı. Soyunub şırnağın altına girdi, uzun-uzadı, təmiz-təmiz yuyundu. Sonra spirtlə bədənini ovuşdurdu, bir az da gümrahlaşdı. Çamadanı açıb, içindəkiləri çıxardı. Təmiz alt paltarı götürdü, ayrı pencək geyib, Morozovun yanına düşdü.

– Elə durub sənin yanına getməyə hazırlaşırdım! – Morozov dilləndi. – Bu gün boşam, ikimiz də «Prins de Qall»... – susaraq, diqqətlə Ravikin üzünə baxdı.

– Daha lazım deyil, Boris.

Morozov hələ də onun üzünə baxırdı.

– Qurtardı... Bu gün səhər... Heç nə soruşma. Yatmaq istəyirəm.

– Daha heç nə lazım deyil?

– Heççə nə... Qurtardı... Bəxtim gətirdi...

– Maşın haradadır?

– Ponsel küçəsində. Hər şey qaydasındadır...

– Heç nə eləmək lazım deyil?

– Heççə nə... Başım birdən-birə yaman ağrıdı. Yatmaq istəyirəm... Sonra gələrəm.

– Yaxşı, get. Görüləsi bir iş qalmayıb ki?

– Yox, Boris, heç nə qalmadı... Asan imiş...

– Heç nəyi unutmadın ki?

– Məncə, yox... Yox... İndi bir-bir yadıma sala bilmərəm. Gərək, əvvəlcə yatam. Sonra... Burada olacaqsan?

– Əlbəttə.

– Yaxşı, onda özüm düşərəm.

* * *

Ravik otağına qayıtdı. Başı çox bərk ağrıyırdı. Bir xeyli pəncərənin qabağında dayandı. Aşağıda mühacir Vizenhofun zanbaqları parıldayırdı. Üzbəüz binanın bom-boz divarı, bomboş pəncərələri... Hər şey qurtarmışdı. Belə də olmalı idi. Yaxşı da olmuşdu. Ancaq hər şey bitmişdi, sabaha, o biri günə heç nə qalmamışdı. Sabah üçün mənasız bir adam idi. Pəncərəsi önündə gün yavaş-yavaş əyilirdi...

Soyunub bir də yuyundu. Əllərini uzun-uzadı spirtlə ovuşdurdu, sonra günə verib qurutdu. Barmaqlarındakı oynaqların dərisi dartıldı. Başı ağırlaşmışdı, beyni isə onun içində boş-boşuna üzürdü. Şpris götürüb, onu pəncərənin ağzındakı balaca elektrik qızdırıcısı ilə qaynatdı. Su xeyli pıqqıldadı. Bu səs ona çayı xatırlatdı. Yalnız çayı... İki ampulanın başını sındırıb, şəffaf mayeni şprislə çəkdi. Özünə iynə vurub, yerinə girdi. Bir azdan durub köhnə xalatını üstünə saldı. Birdən-birə ona elə gəldi ki, on iki yaşında oğlandır, yorulub, yalnız təzəcə boy atmağa başlayan yeniyetmələrə xas qəribə bir tənhalıqda yalqız qalıb...

* * *

Şər qarışanda ayıldı. Qürub edən günəşin qızılı şüaları evlərin damına sancılmışdı. Aşağıdan Vizenhofla frau Qoldberqin səsi gəlirdi. Nə danışdıqlarını başa düşmədi. Heç düşmək istəmirdi də. İndi gündüzlər yatmağa öyrəşməyən adamlar kimi idi: təsadüfən günortadan sonra yuxuya getmiş, birdən-birə öz məhvərindən qopmuşdu və bircə anın içində heç nədən özünü öldürməyə hazır idi... Ürəyindən keçirdi ki, kaş indi təşrih eləməyə bir adam olaydı. Vəziyyəti nə qədər ümidsiz olsa da, çarə tapardı. Birdən yadına düşdü ki, bu gün heç nə yeməyib. Elə həmin dəqiqə də qarnı acından doğranmağa başladı. Başağrısı keçib getmişdi. Geyinib, aşağı düşdü.

Morozov otağında idi və köynəyinin qolunu çırmalayıb şahmat məsələsi həll edirdi. Otaq, demək olar ki, bomboş idi. Divardan livreyası asılmışdı. Bir küncdə ikonaşəkilli lampa, başqa küncdə isə üstündə samovar olan stol, o birində də müasir soyuducu qoyulmuşdu. Morozov bu soyuducu ilə fəxr edirdi. Onun içində araq, yemək şeyləri, sərin pivə saxlayırdı. Çarpayının qarşısında isə türk xalısı salınmışdı.

Morozov dinmədən durub, iki qədəh, bir şüşə də araq gətirdi, qədəhləri doldurdu.

– «Zubrovka»dır, – dedi.

Ravik oturdu.

– İçmək istəmirəm, Boris. Yaman acmışam.

– Yaxşı, onda çörək yeməyə gedərik. Hələlik... – Morozov eşələyib soyuducudan qara rus çörəyi, turşu xiyar, yağ və bir balaca qutu da kürü çıxardı. – Bunları götür! Kürünü «Şəhrizad»ın baş aşpazı bağışlayıb. Hər adama vermir...



– Boris, gəl gizlənqaç oynamayaq. Ona «Oziris»də rast gəldim, Bulon meşəsində öldürdüm, Sən-Jermendə də basdırdım.

– Görən oldu?

– Yox, heç «Oziris»in qabağında da görən olmadı.

– Heç yerdə?

– Bulon meşəsində bir nəfər gördü. Onda da hər şey qurtarmışdı. Maşında idi. Bir maşını gördü, bir də məni... Mən də qusurdum. Burada elə bir şey yoxdur, çox içmişəm, özümü pis hiss eləmişəm...

– Bəs onun şeylərini neylədin?

– Basdırdım. Monoqramları, yarlıqları kəsib götürdüm, qalan kağız-kuğuzu ilə bir yerdə yandırdım. Yalnız pulu və bir də Şimal vağzalına qoyduğu çamadanın qəbzi qalıb. Otağını təhvil vermişdi, bu gün tezdən getməli idi.

– Lənət şeytana, bəxti gətirmək buna deyərlər! Qan izi qalmadı?

– Yox. Heç qanı çıxdı ki? «Prins de Qall»dakı otağı da təhvil verdim, çamadanımı da gətirdim. Burada əlaqəsi olan adamlar elə biləcək çıxıb gedib. Çamadanını oradan götürmək mümkün olsa, heç bir iz qalmazdı.

– Berlində görəcəklər gəlmədi, buradan soruşacaqlar.

– Çamadan orada olmasa, hara getdiyini bilməzdilər.

– Biləcəklər. Qatarda yeri boş gedib. Bileti yandırdın?

– Hə.

– Onda qəbzi də yandır.

– Bəlkə, baqaj komissiyasına göndərək? Onu Berlinə, ya da lazım olan yerə verərlər.

– Fərqi yoxdur. Yandırmaq yaxşıdır. Nə qədər çox hiylə işlətməyə çalışsan, o qədər pis olaçaq, iz qoyacaqsan. Ancaq indi, sadəcə olaraq, kimsə yoxa çıxıb. Parisdə belə şeylər çox olur. Axtarış başlanacaq, o saat biləcəklər ki, axırıncı dəfə «Oziris»də olub. İçəri girmişdin?

– Hə, bircə dəqiqəliyə girdim və onu gördüm. Özünün xəbəri olmadı. Çıxıb bayırda gözlədim. Heç kəs də görmədi.

– Soruşa bilərlər ki, həmin vaxt «Oziris»də özgə kim olub. Rolanda da səni deyəcək.

– Bunun ziyanı yoxdur, mən ora tez-tez gedirəm.

– Yaxşı olardı ki, səni heç sorğu-suala çəkməyəydilər. Özün mühacir, sənədin də yox... Rolanda harada qaldığını bilir?

– Yox, ancaq Veberin ünvanını bilir. Rəsmi həkim odur. Rolanda da oradan bir-iki günə gedir.

– Hara getdiyini öyrənəcəklər, – Morozov özünə bir qədəh də süzdü. – Ravik, mənə elə gəlir ki, bir neçə həftəliyə aradan çıxsan, yaxşı olar.

Ravik onun üzünə baxdı:

– Demək asandır, Boris. Hara?

– Hara gəldi. Adam çox olan yerə. Ya Kanna, ya da Dövilə get. Oralar indi qarışıqdır, nəzərə çarpmazsan. Ya da Antibə get. Orada olmusan, heç kəs səndən pasport istəməyəcək. Mən də burada Veberlə, Rolanda ilə əlaqə saxlayaram, polisin səni şahid kimi dindirmək istədiyini öyrənərəm.

Ravik başını buladı:

– Yaxşısı budur, heç yerimdən tərpənməyim, özümü elə göstərim ki, guya, heç nə olmayıb.

– Yox, bu dəfə elə yaramaz.

Ravik yenə Morozovun üzünə baxdı:

– Heç yerə qaçan deyiləm, buradaca qalacağam. Bu da həmin işin bir tərəfidir. Başa düşmürsən?

Morozov onun sualını cavabsız buraxdı.

– Əvvəlcə sən o qəbzi yandır, – dedi.

Ravik qəbzi cibindən çıxarıb külqabında yandırdı. Morozov mis külqabını götürüb narın külü pəncərədən çölə sovurdu.

– Bu da belə... Özgə nəyi qalıb?

– Pulu.

– Baxım.

Çekləri diqqətlə yoxladı. Heç bir işarə yox idi.

– Bunu istifadə eləmək olar. Neyləmək istəyirsən?

– Qaçqınların fonduna keçirə bilərəm. Öz adımı yazmaram.

– Sabah onları dəyişdir, ancaq iki həftədən sonra göndər.

– Yaxşı.

Ravik pulu qaytarıb cibinə qoydu. Onu qatlayanda birdən yadına düşdü ki, bu əli ilə indicə çörək yeyirdi. Oğrun-oğrun əllərinə baxdı. Gör səhər-səhər ağlına nələr gəlmişdi! Qara çörəkdən bir dilim də götürdü.



Morozov soruşdu:

– Yeməyə hara gedəcəyik?

– Hara olursa olsun.

Morozov onun üzünə baxdı. Ravik gülümsədi. Birinci dəfə idi ki, gülümsəyirdi...

– Boris, – dedi, – mənə elə baxma! Elə bil, tibb bacısı xəstəsini infarkt vuracağından qorxur... Mən elə bir heyvanı öldürmüşəm ki, o, buna min qat layiq idi. Həyatımda çox günahsız adam qırmışam, əvəzində də, medal almışam, ancaq heç birini üzbəüz döyüşdə öldürməmişəm, əksinə, sinə-sinə gözləmişəm, xəbərləri olmayıb, arxadan vurmuşam. Onda müharibə idi və bu da mənim şərəfli vəzifəm hesab olunurdu. Lakin məni indi bircə şey yandırdı ki, öldürməmişdən qabaq hər şeyi üzünə oxuya bilmədim. Heç bilirsən bunu necə istəyirdim?! Hər halda, öldürdüm, daha heç kəsə işgəncə verə bilməyəcək. Sonra da gəlib yatdım və indi, elə bil, bunu nə vaxtsa qəzetdə oxumuşam...

Morozov pencəyinin yaxasını düymələdi:

– Yaxşı, onda gedək. İçmək istəyirəm.

Ravik heyrətlə ona baxdı:

– Sən?

– Hə, mən! Mən! – Morozov bircə anlığa tərəddüd elədi. – Bu gün birinci dəfə qocaldığımı hiss elədim!

# XXXI

Rolandanın vida ziyafəti düz saat altıda başladı və bircə saat çəkdi. Saat yeddidə isə alver başladı...

Stol başqa otaqda açılmışdı. Qızların hamısı paltar geymişdi. Çoxunun əynində qara ipək don var idi. Onları həmişə lüt və ya qısa ipək paltarda görmüş Ravik indi çoxunu tanıya bilmədi. Yalnız beş-altısı, hər ehtimala qarşı, zalda qalmışdı. Onlar da düz saat yeddidə paltarlarını dəyişib gəlməli idilər. Heç biri iş paltarında Rolanda ilə vidalaşmağa gəlməzdi. Bu, madamın göstərişi ilə deyildi, qızların özü belə istəmişdi. Ravik başqa cür də gözləmirdi. Fahişələrin qayda-qanunu möhkəm olurdu, hətta yüksək cəmiyyətin qadınlarından da ciddi idilər.

Qızlar pul yığıb Rolandanın gələcək kafesi üçün altı ədəd hörmə kreslo almışdılar. Madam isə bir kassa, Ravik də kreslolar üçün iki mərmər stol bağışlamışdı. O, bu ziyafətdə yeganə kənar adam və həm də yeganə kişi idi.

Yemək yeddiyə beş dəqiqə işləyəndə başladı. Masabəyi madam özü idi. Sağında Rolanda, solunda isə Ravik oturmuşdu. Sonra təzə dayə, onun köməkçisi və qızlar əyləşmişdilər.

Xörəklər seçmə idi: qaz pətənəyindən hazırlanmış Strasburqsayağı paştet, «Şerri-brend» içkisi. Ravikin qabağına bir şüşə araq qoyulmuşdu, çünki onun «Şerri-brend»dən zəhləsi gedirdi. Sonra əla keyfiyyətli «Viçoz» və türbo balığı ilə 1933-cü ildən qalmış «Merso» şərabı gəldi. Balıq «Maksim» restoranındakından pis hazırlanmamışdı. Şərab da çox tünd deyildi, balığın yanında tündlüyü heç bilinmədi. Sonra gömgöy körpə qulançar verildi. Onun dalınca da şişdə qızardılmış cücə, üstünə azacıq sarımsaq vurulmuş salat və «Şato Sən-Emilion» şərabı gətirdilər. Stolun baş tərəfində bir şüşə 1921-ci ildən qalmış «Romane konte» şərabı açıldı. Madam dedi ki, qızlar bunun ləzzətini bilməz. Ravik isə ona yaxşı bələd idi. Nə «Şampan», nə də şirin «Mos şokolad» içdi, əvəzində, bir şüşə də verdilər. Madamla birlikdə şərabın üstündən ağ çörəklə sıyıq «Bri» yedilər.

Stol arxasında gedən söhbətlər qız pansionunu xatırladırdı. Kresloların üstünə rəngarəng lentlər bağlanmışdı. Kassa par-par parıldayır, stollar isə işıldayırdı. Ancaq otağa qüssə qonmuşdu. Madam özü də qara geymiş, brilyant taxmışdı. Ancaq çox deyildi: bir sancaq, bir də üzük. Onların göy rəngə çalan qaşlarına söz ola bilməzdi. Çoxdan qrafinya olsa da, çələng qoymamışdı. Yaxşı zövqü var idi, brilyantdan xoşu gəlirdi. Deyirdi ki, yaqut da, zümrüd də qiymətdən düşə bilər, ancaq brilyant etibarlıdır... Gah Rolanda ilə, gah da Raviklə laqqırtı vururdu. Oxumuş qadın idi. Şirin söhbəti vardı, çox sərbəst, ürəkdən danışır, tez-tez Montendən, Şato-briandan, Volterdən misallar gətirirdi. Bir az göy rəngə çalan ağ saçları–madam onu rəngləyirdi–hərdən ağıllı, kinayəli ifadəsi olan sifətinə dağılırdı.



Düz saat yeddidə, qəhvədən sonra qızlar pansion tərbiyəsi görmüş uşaqlar kimi ayağa durdular. Nəzakətlə madama təşəkkür edib, Rolanda ilə vidalaşdılar. Madam bir az da oturdu. Bir şüşə «Armanyak» gətirtdi. Ravik ömründə beləsini içməmişdi. Bayaq növbə çəkən «köməkçi briqada» gəldi. Tərtəmiz yuyunmuş, paltarlarını dəyişmişdilər. Ənlik-kirşanı da çox vurmamışdılar. Qızlar türbo balığını yeyənə kimi madam oturdu. Onların hərəsi ilə bir-iki kəlmə kəsib, bir saat vaxtlarını bu ziyafətə qurban verdikləri üçün təşəkkür etdi. Sonra çox incə əda ilə vidalaşdı:

– Yola düşməmişdən qabaq sizi görəcəyəm, Rolanda.

– Əlbəttə, madam.

Sonra Ravikə tərəf döndü:

– İcazənizlə, «Armanyak»ın qalanını burada qoyuram.

Ravik təşəkkür etdi. Madam bayaqkı duruşundan da, indiki zərif yerişindən də yüksək cəmiyyətin qadınlarına bənzəyirdi...

Ravik şüşəni götürüb, Rolandaya yaxın oturdu.

– Nə vaxt gedirsən? – deyə soruşdu.

– Sabah günortadan sonra. Saat beşə yeddi dəqiqə işləyəndə...

– Mən də vağzala gələcəyəm.

– Lazım deyil, Ravik. Yaxşı çıxmaz. Nişanlım bu axşam gəlir, bir yerdə gedəcəyik. İndi bildin, niyə ora gəlmək olmaz? Fikirləşər ki, görəsən, bu, kimdir?

– Düz deyirsən.

– Sabah tezdən bəzi şeylər alıb göndərməliyik. Bu axşam «Belfor» mehmanxanasına köçəcəyəm. Yaxşı yerdir, həm ucuz, həm də təmiz...

– O da həmin mehmanxanada qalacaq?

– Nə danışırsan?! – Rolanda təəccübləndi. – Biz hələ kəbin kəsdirməmişik.

– Düzdür...

Ravik bilirdi ki, o, yalandan cildə girmir. Rolanda burjua ailəsindən çıxmışdı və burada da işçi kimi öz vəzifəsini yerinə yetirmişdi. Fərqi yox idi, istər qızlar pansionu olsun, istərsə də fahişəxana, o, vəzifəsini yerinə yetirmişdi və indi də çıxıb gedir, təzədən öz bürger aləminə qayıdırdı. Buradakıların da hamısı buradaca qalırdı. Fahişələrin də çoxu belə idi. Onlardan bəziləri hətta yaxşı arvad olurdu. Fahişəlik ciddi peşə idi, əxlaqsızlıq hesab olunmurdu. Onları düşkünlükdən xilas edən də elə bu idi...

Rolanda şüşəni götürüb Ravikə «Armanyak» süzdü, sonra əl çantasından bir vərəq çıxardı:

– Haçansa Parisdən gedəsi olsan, bu da bizim evin ünvanı. Nə vaxt istəsən, gələ bilərsən.

Ravik ünvana baxdı.

– İki ad yazılıb, – Rolanda izahat verdi – ilk iki həftə mənim adıma olacaq, sonra isə nişanlımın.

Ravik vərəqi cibinə qoydu.

– Çox sağ ol, Rolanda, hələlik Parisdə qalacağam. Gəlsəm də, nişanlın təəccüblənəcək, deyəcək, bu, haradan çıxdı.

– Bayaqkı «vağzala gəlmə» sözlərinə görə deyirsən? O ayrı, bu ayrı. Bunu ona görə verirəm ki, birdən Parisdən gedəsi oldun. Özü də təcili. Ona görə verdim...

Ravik onun üzünə baxdı:

– Niyə gedəsi oluram?

– Ravik, sən qaçqınsan! Qaçqınlar da bəzən çətinə düşürlər. Həmin anda bilərsən ki, polisdə qaçıb qurtarmaq üçün sənin də haradasa bir sığınacağın var.

– Qaçqın olduğumu sən haradan bilirsən?

– Bilirəm... Ancaq heç kəsə deməmişəm. Heç kimə də dəxli yoxdur. Ünvanı yaxşı saxla! Lazım olsa, gələrsən. Bizdə sərbəstlikdir.

– Yaxşı, gələrəm. Çox sağ ol, Rolanda.

– Srağagün polisdən bir nəfər gəlmişdi, bir alman haqda soruşurdu, deyirdi, bəlkə, burada olub...

– Doğrudan? – Ravik diqqətini topladı.

– Bəli. Sən axırıncı dəfə gələndə o da burada idi. Yəqin, yadında qalmaz. Kök, dazbaş kişi idi, içəridə İvonna və Klerlə oturmuşdu. Soruşurdu ki, o, burada olanda daha kim var idi.

– Yadıma gəlmir...

– Çox güman ki, sən onu heç görmədin. Əlbəttə, həmin anda sənin bir dəqiqəliyə bura gəldiyini demədim...

Ravik başını tərpətdi.

– Belə yaxşıdır, – Rolanda sözünə davam etdi. – Bu casuslara günahsız adamlardan pasport soruşmağa imkan vermək lazım deyil.

– Elədir... Nə istədiyini demədi?

Rolanda çiyinlərini çəkdi:



– Xeyr. Bizə nə dəxli? Dedim ki, burada heç kim olmayıb. Bizim köhnə qanundur: heç vaxt heç nə bilmirik və görməmişik. Belə yaxşıdır... O da çox dərinə getmədi.

– Getmədi?

Rolanda gülümsədi:

– Ravik, fransızların nə vecinə ki, adi bir alman turistinin başına nələr gəlir?! Bizim öz dərdi-sərimiz özümüzə bəsdir.

O ayağa durdu:

– Mən gedəsiyəm... Salamat qal, Ravik.

– Xoş getdin, Rolanda! Sənin yerin burada həmişə bilinəcək.

Rolanda gülümsədi:

– Bəlkə də, o dəqiqə bilinmədi... Bir azdan bilinər...

Vidalaşmaq üçün qızlara tərəf getdi. Gedə-gedə kassaya, kreslolara, stollara baxdı. Lap yerinə düşən hədiyyələr idi. Hamısını bir anlığa kafedə təsəvvür elədi. Xüsusilə kassa... Gəlir, gələcəyə inam, ev-eşik, rahat həyat demək idi. Rolanda bir anlığa tərəddüd elədi, özünü saxlaya bilmədi, əl çantasından pul çıxarıb işım-işım işıldayan aparatın yanına qoydu, düymələri vurdu. Kassa şıqqıldadı, iki frank əlli santim göstərdi, siyirmə çıxdı, Rolandanın üzünə təbəssüm qondu, uşaq kimi sevindi. Qızlar maraqla onu dövrəyə aldılar. Rolanda düymələri yenə basdı, bir frank yetmiş beş santim vurdu.

– Sizdə bir frank yetmiş beş santimə nə düşür?

Rolanda fikrə getdi:

– Bir qədəh «Dübene» və iki «Perno».

– Bir qədəh «Amer pikon», bir dənə də pivə neçə eləyir?

– Yetmiş santim. – Rolanda düymələri basdı. – On frank yetmiş santim.

– Ucuzdur! – «Kürən» ləqəbli Marqarita təəccübləndi.

– Biz tərəfdə ucuz olmalıdır da...

Qızlar hörmə kresloları mərmər stolların ətrafına düzdülər və ehtiyatla oturdular. Paltarlarını sığalladılar və Rolandanın gələcək kafesinin müştərilərinə çevrildilər.

– Bizə ingilis biskviti ilə üç fincan çay verin, madam Rolanda! – Xüsusilə, evli kişilərin çox xoşuna gələn sarışın, arıq Dezi sifariş verdi.

– Yeddi frank səksən santim, – Rolanda kassanı işə saldı. – Təəssüf ki, ingilis biskviti çox bahadır.

Qonşu stoldakı «Kürən» xeyli götür-qoydan sonra başını qaldırdı:

– İki şüşə «Pommeri»! – Xüsusi əda ilə dilləndi. Onun Rolandadan çox xoşu gəlirdi və bunu göstərmək istəyirdi.

– Doxsan frank. Yaxşı «Pommeri»dir.

«Kürən» fınxırdı:

– Dörd qədəh də konyak! Ad günümdür.

Kassa şıqqıldadı.

– Dörd frank qırx santim.

– Bəs «Beze» ilə dörd fincan qəhvə?

– Üç frank altmış santim.

Ehtizaza gəlmiş «Kürən» gözünü döyə-döyə Rolandanın üzünə baxdı. Özgə nə sifariş verəcəyini bilmirdi. Qızlar yenə kassanın başına yığışdılar.

– Hamısı bir yerdə nə qədər elədi, madam Rolanda?

Rolanda üstü rəqəmli kağızı onlara göstərdi:

– Yüz beş frank səksən santim.

– Bunun nə qədəri xalis gəlirdir?

– Təxminən, otuz frankı. «Şampan» şərabının sayəsində bu qədər oldu. Onun gəliri çoxdur.

– Əla! – «Kürən» sevinclə qışqırdı. – Əladır! Qazancınız həmişə belə çox olsun!

Rolanda Ravikin yanına qayıtdı. Onun gözləri parıldayırdı. Yalnız sevən, yaxud alverdə bəxti gətirən adamların gözləri belə parıldayardı...

– Salamat qal, Ravik! Dediklərim yadından çıxmasın.

– Çıxmaz! Yaxşı yol, Rolanda!

Rolanda qəti, şax addımlarla qapıya tərəf getdi. Gələcək onun üçün aydın, həyat isə mənalı idi...

* * *

Morozovla «Fuke» restoranının artırmasında oturmuşdu. Axşam saat doqquz idi. Adam çoxdu. Lap uzaqda, «Zəfər tağı»nın arxasından iki fənərin dümağ, bumbuz işığı görünürdü...

– Siçovullar Parisdən qaçır... – Morozov dilləndi. – «İnternasional»da iki otaq boşalıb. 1933-cü ildən bəri belə olmamışdı.

– Başqa mühacirlər gəlib dolacaq.

– Kim gələsidir? Ruslar da, italyanlar da, polyaklar da, ispanlar da, almanlar da oldu, qurtardı...



– Fransızlar! Sərhəd tərəfdən qaçanlar. Ötən müharibədəki kimi...

Morozov qədəhini götürəndə gördü ki, boşdur. İşarə ilə xidmətçini çağırdı:

– «Puyi»dən bir qrafin də gətirin. –Sonra Ravikə tərəf döndü:– Bəs sən nə fikirləşirsən?

– Məni də o siçovullara tay tutursan?

– Hə.

– İndi siçovullara da pasport, viza lazımdır.

Morozov narazı baxışlarla onu süzdü:

– İndiyə kimi səndə hansı olub?! Gəzmədiyin yer də qalmayıb... Vyanada, Sürixdə, İspaniyada, Parisdə... Sənin də aradan çıxmaq vaxtın yetişib.

– Hara? – Ravik xidmətçinin yenicə gətirdiyi qrafini götürdü. Şüşə soyuq və kələkötür idi. Tünd olmayan şərabdan qədəhlərə süzdü. – İtaliyaya? Gestapo sərhəddə dayanıb gözləyir. İspaniyaya? Falankistlər də orada gözləyir...

– İsveçrəyə get!

– İsveçrə də çox balacadır. Orada üç dəfə olmuşam. Hamısında da polis bircə həftədən sonra yaxalayıb, Fransaya qaytarıb.

– İngiltərəyə! Belçikadan gizlincə keçərsən.

– Mümkün deyil. Limanda tutub Belçikaya qaytaraçaqlar. Ora da mühacirlərə əl vermir.

– Amerikaya da gedə bilməzsən. Bəs Meksika necədir?

– Mühacirlərlə doludur. Ora getmək üçün də sənəd lazımdır.

– Sənin heç nəyin yoxdur?

– Həbsxanalardan buraxılış sənədlərim olub. Sərhədi keçəndə müxtəlif adlarla yatmışam. Belələri adama lazım olmur, ona görə də cırıb atmışam.

Morozov susdu.

– Daha qaçmağa yer qalmayıb, Boris baba! – Ravik kinayə ilə dilləndi. – Nə vaxtsa qurtarmalı idi...

– Bilirsən, müharibə başlasa, burada nələr olacaq?

– Məlum şeydir, fransız konslagerləri... Keyfiyyəti də lap aşağı olacaq, çünki hazırlıq görməyiblər.

– Bəs sonra?

Ravik çiyinlərini çəkdi:

– Çox uzağı fikirləşmək lazım deyil.

– Qoy belə olsun... Ancaq bilirsən, burada qarmaqarışıqlıq düşüb, səni də konslagerə göndərsələr, axırın necə olacaq? Almanların əlinə düşə bilərsən!

– Bəlkə də, düşdüm... Çoxu belə olacaq... Bəlkə də, bizi onlar gəlməmiş buraxdılar... Kim bilir, necə olacaq?

– Bəs sonrası?

Ravik siqaret çıxardı:

– Gəl bu söhbətləri bir yana qoyaq, Boris. Mən Fransadan heç yana gedən deyiləm. Başqa yerlər təhlükəlidir, getmək mümkün deyil. Heç özüm də daha getmək istəmirəm.

– Daha istəmirsən?

– Yox! Çox ölçüb-biçmişəm. Səni başa sala bilmərəm. Sözlə demək də çətindir. Getmək istəmirəm, vəssalam!

Morozov susaraq, artırmada oturanlara baxdı:

– Joan da burada imiş, – dedi.

O, V Georq prospekti tərəfdən uzaq bir stol arxasında kişi ilə oturmuşdu.

Morozov Ravikdən soruşdu:

– Kişini tanıyırsan?

Ravik həmin tərəfə baxdı:

– Yox.

– Deyəsən, gündə birini tapır.

– Həyatla ayaqlaşır, – Ravik laqeydliklə dilləndi. – Çoxumuz eləyik. Nəfəsimiz tutula-tutula onun arxasınca qaçırıq ki, əldən çıxmasın.

– Bunu başqa cür də demək olar.

– Olar, ancaq mənası dəyişməyəcək. Nigarançılıqdır, qoca! Son iyirmi beş ilin dəbdə olan xəstəliyidir. Daha heç kəs həyatının qalan hissəsini sakitcə başa vurub qocalacağına inanmır. Hamı yanğın qoxusunu duyur, həyatdan nəsə qoparmağa çalışır. Təkcə səndən başqa... Sənə adi sevinclər də bəs eləyir.

Morozov dinmədi.

– Ancaq şlyapadan başı çıxmır, – deyə Ravik sözünə davam etdi. – Başına qoyduğu şlyapaya bax! Ümumiyyətlə, zövqü pisdir. Onun gücü də elə bundadır. Çox mədəni olmaq adamı zəiflədir. Ancaq axır nəticədə hamı adi, çılpaq həyat həqiqətlərinə gəlib çıxır. Sən özün buna ən yaxşı misalsan.



Morozov irişdi:

– Mənim miskin səadətimdə işin olmasın, ey xəyalı həmişə göylərdə süzən insan! Zövqü adi olan adamın çox şey xoşuna gəlir, heç vaxt əli boşda qalmır. Altmış yaşında məhəbbət dalınca qaçan axmaqdır, qarşısındakıların manşır kartla oynadığını bilə-bilə onları udmaq xəyalına düşür. Yaxşı fahişəxanada adamın ürəyi dinclik tapır. Mən getdiyim yerdə on altı cavan qız var. Azacıq pulla paşalıq eləyirəm. Mənim orada gördüyüm nəvazişi bəzi məhəbbət qulları ömrü boyu görmür. Yenə deyirəm, məhəbbət qulları!

– Başa düşdüm, Boris.

– Yaxşı, onda gəl bu sərin, yüngül «Puyi» şərabını axıracan içək, Parisin hələ zəhərlənməmiş havasından doyunca udaq!

– Mən razı! Sən şabalıd ağaclarının bu il ikinci dəfə çiçək açdığını hiss elədin?

Morozov başını tərpətdi, qırmızı rəngə çalan nəhəng Mars planetinin işıq saçdığı səmanı göstərdi:

– Hiss elədim! Deyirlər, Mars da çoxdan bəri yerə belə yaxınlaşxmayıb. – O güldü. – Bir azdan qəzetlərdə oxuyarıq ki, haradasa yenicə doğulmuş uşağın üzündəki xal qılınca oxşayır. Ya da haradasa yağış əvəzinə, qan yağıb! Bu qəribə əlamətləri tamamlamaq üçün təkcə orta əsrlərin müəmmalı quyruqlu ulduzu çatmır.

– O quyruqlu ulduz da gəlib! – Ravik redaksiyanın binası üstündə hərəkət edən reklam– Yazını göstərdi. Hərflər, sanki, bir-birini təqib edirdi. Ora xeyli adam yığışmışdı və başlarını geri əyərək, dinmədən onlara tamaşa edirdilər...

Raviklə Morozov burada xeyli oturdular. Bir qarmonçalan səkidə dayanıb «Göyərçinim mənim» mahnısını çalırdı. Sonra xalça alverçiləri gəldi, hərəsi birini çiyininə almışdı. Bir oğlan da stolların arası ilə gəzə-gəzə püstə satırdı. Qəzetsatanlar gələnə kimi hər şey əvvəlki qayda ilə yerində idi. Ancaq onlar görünər-görünməz təzə xəbərləri əllərindən qapdılar və bir neçə saniyənin içində hərə bir qəzet açdı. Elə bil, artırmaya bir dəstə iri, dümağ, qansız güvə dolmuşdu və qanadlarını asta-asta tərpədərək, acgözlüklə öz qurbanlarını didişdirirdi...

– Joan gedir, – Morozov dilləndi.

– Hanı?

– O tərəfə bax...

Joan küçəni keçib, «Yelisey çölləri»ndəki üstüaçıq maşına tərəf gedirdi. Raviki görmədi. Yanındakı kişi maşının o biri tərəfinə keçib, sükanın arxasında oturdu. Şlyapa qoymamışdı və çox cavan görünürdü. Ustalıqla maşını o birilərin arasından çıxardı. «Deloe» idi...

– Gözəl maşındır... – Ravik sükutu pozdu.

– Təkərləri gözəldir! – deyə Morozov fısqırdı. – Polad qətiyyətli, əyilməz Ravikə bax! – Sonra da təəssüf hissi ilə əlavə elədi. – Vətənindən didərgin düşüb, gəlib mərkəzi avropalı olub. Gözəl maşına bax! Murdar bir əclaf desəydin, yenə bir az başa düşərdim.

Ravik gülümsədi:

– Bu, nəyisə dəyişir? Əclaf, ya müqəddəs, nə fərqi, hər şey ona münasibətdən asılıdır. Ömrü boyu sakit bir fahişəxana axtaran on altı qızın paşası belə şeyi başa düşməz! Məhəbbət gəlir güdən tacir deyil. Xəyal aləminə öz pərdəsini asmaq üçün iki-üç mismar bəs eləyər. İstəyir qızıldan olsun, istəyir qurğuşundan, ya da lap paslanmış olsun, ona fərq eləmir. Harada kefi gəlir, orada da adamı yaxalayır. İstəyir, qaratikan kolu olsun, istəyir, qızılgül, fərqi yoxdur, sədəf kimi parıldayan ay işığına bürünəndə «Min bir gecə» nağılına dönür.

Morozov şərabdan bir qurtum aldı.

– Sən yaman çox danışırsan, – dedi, – heç biri də düz deyil.

– Özüm bilirəm. Ancaq qatı qaranlıqda adicə bir mayak da gur işıqdır, Boris.

Etual meydanından gümüşü rəngə bələnmiş bir sərinlik gəldi. Ravik içində şərab olan köbəli qədəhi ovcuna aldı. Əlinə sərinlik yayıldı. Ürəyi də belə soyuq idi. Bu soyuqluq gecənin nəfəsi ilə gəlirdi və özü ilə bərabər Ravikin taleyinə sonsuz bir biganəlik də gətirirdi. Həm taleyinə, həm də gələcəyinə... Haçansa bir dəfə də belə olmamışdımı? Hə, yadına düşdü, Antibdə... Joanın onu atıb gedəcəyini biləndə... Bu, sonradan etinasızlığa çevrilən biganəlik idi. Heç yana getməməyi qərara alanda da belə soyuqqanlı oldu. Daha heç yerə gedən deyil! Bu da həmin işin davamıdır. İntiqamın da, məhəbbətin də dadını gördü. Bəsi idi! Bunlar hər şey olmasa da, hər halda, çox şey idi! Kişiyə bundan artıq nə lazımdır?! Əslində, heç birinə ümid eləmirdi. Haakeni öldürdü və Parisdən qaçmadı! Heç qaçmayacaq da! Bu da həmin işin davamıdır! Bir yandan dolan bir yandan boşalmalıdır... Yox, məyusluq deyildi bu! Sadəcə olaraq, adam qəti qərara gələn kimi sakitləşir, fərqi yoxdur, qoy bu qərar heç bir məntiqə sığmasın! Çox yıxılıb-durandan sonra ayağı yer tutmuşdu, nəsə gəlib yerinə düşmüşdü. İndi bir az ara vermək, özünü toplayıb diqqətlə ətrafa baxmaq lazımdır. Bu, çox müəmmalı bir inam idi, sanki, yaranan fasilədən istifadə edərək, nəyəsə hazırlaşırdı. Artıq hər şey mənasını itirmişdi. Axar sular dayanıb göl olub, gecənin qoynunda uyuyur. Bu gölün hara axıb töküləcəyini açılan səhər göstərəcək...

– Mən gedim, – deyə Morozov saata baxdı.

– Oldu, Boris. Mən bir az da oturacağam.

– Axırı çatmış bir dünyanın son gecələrindən nəsə qoparmaq istəyirsən, hə?

– Düz tapdın! Bunların heç biri qayıdan deyil...

– Qayıtsa yaxşıdır?

– Yox! Heç biz də qayıdan deyilik! Keçən gün keçib getdi, onu gözyaşı ilə, yalvarmaqla qaytarmaq olmaz!

– Sən yaman çox danışırsan! – Morozov ayağa durdu. – Allahına şükür elə ki, hansı əsrinsə son günlərini görürsən. Ancaq heç də yaxşı əsr olmadı...

– Hər halda, öz əsrimizdir. Sən isə yaman az danışırsan, Boris!

Morozov qədəhin dibində qalanı ayaqüstü içdi. Onu stolun üstünə elə ehtiyatla qoydu ki, deyərdin, icində dinamit var və saqqalını sildi. O, adi geyimdə Ravikə çox nəhəng, cüssəli göründü.

– Elə bilmə ki, sənin nə üçün getmədiyini başa düşmürəm... – Bu sözləri asta-asta dedi. – Niyə getmədiyini lap yaxşı bilirəm, ay: «Olacağa çarə yoxdur!» – deyən sınıqçı...

* * *

Mehmanxanaya səhər açılanda qayıtdı. İçəri girəndə vestibüldəki divanda balaca bir kölgə büzüşüb oturmuşdu və onu görən kimi əllərini qəribə tərzdə yellədərək, sıçrayıb ayağa durdu. Ravik gördü ki, onun bir qıçı yoxdur. Şalvarının altından çıxan taxta ayaq kələ-kötür və çirkli idi.

– Doktor! Doktor!

Ravik diqqətlə ona baxdı. Vestibülün zəif işığında gördü ki, oğlan uşağıdır, dişlərini ağardır.

– Janno! – Lap mat qaldı. – Hə də, Jannodur!

– Özüdür ki, var! Tanıdınız. Bütün gecəni oturub gözləmişəm. Ünvanınızı bu gün günortadan sonra tapa bildim. Xəstəxanadakı ifritədən çox soruşdum. Baş tibb bacısını deyirəm... Hər dəfə də dedi ki, Parisdə yoxsunuz.

– Düz deyir, burada xeyli olmadım.

– Axır ki, bu gün günorta burada qaldığınızı dedi. O dəqiqə də gəldim!

Oğlanın üz-gözündən sevinc yağırdı.

– Yoxsa, ayağına nəsə olub?

– Heç nə! – Janno taxta qıçını şappıldatdı, elə bil, sadiq itinin kürəyinə vurub: «sağ ol!» – deyirdi. – Heççə nə! Hiss olunmur da...

Ravik onun taxta qıçına baxdı:

– Deyəsən, istədiyinə çatmısan. Sığorta idarəsi ilə necə düzəlişdin?

– Pis olmadı. Mexaniki protezə razılaşdılar, mağaza da on beş faizini saxlayıb, qalanını nəqd pulla özümə verdi. Hər şey qaydasındadır.

– Bəs dükan?

– Elə ona görə gəlmişəm. Süd dükanı açdıq. Balacadır, ancaq bizi dolandırır. Anam satır. Malı özüm gedib alıram, sonra da haqq-hesab işinə baxıram. Etibarlı adamlarım var, birbaşa kənddən gətirirəm.

Janno taytıya-taytıya sınıq-salxaq divana tərəf getdi, möhkəm-möhkəm sarınmış qəhvəyi bir bağlama gətirdi.

– Buyurun, doktor, sizin üçündür! Özüm gətirmişəm! Elə şey deyil... Hamısı öz dükanımızdandır: çörək, yağ, pendir, yumurta... Bir yana çıxmaq həvəsi olmayanda, ala-babat axşam yeməyi olar, hə? – deyə Janno ərklə Ravikin gözlərinin içinə baxdı.

– Bundan yaxşı şam yeməyi olmaz, Janno.

Oğlan razılıqla başını tərpətdi:

– Mənə elə gəlir, siz pendiri çox xoşlayırsınız. «Bri» və «Pon le Eveg»dir...

– Lap ürəyimcə olan pendirlərdir.



– Əla! – Janno sevinclə əlini ayağının calaq yerinə vurdu. – «Pon le Evek» anamın ağlına gəldi! Mən elə bilirdim, «Bri» xoşunuza gəlir. «Bri» əsl kişi pendiridir.

– İkisi də əladır. Bundan yaxşı hədiyyə olmaz, – deyə Ravik bağlamanı aldı. – Çox sağ ol, Janno! Xəstələr çox nadir hallarda öz həkimlərini xatırlayırlar. Çox vaxt da verdikləri puldan bir az geri almağa gəlirlər.

– Elələri varlılar olar, düz demirəm? – Janno bic-bic güldü. – Bizlərə aid deyil. Axı sizə çox borcluyuq! Ayağım elə taxta kimi dümdüz qalsaydı, əlimiz də boşda qalardı...

Ravik onun üzünə baxdı. «Bəlkə, oğlan elə bilir, ayağını kefdən kəsmişəm?» –deyə ürəyindən keçirdi.

– Başqa yolumuz yox idi, Janno, – dedi, – mütləq kəsilməli idi.

– Əlbəttə! – Janno göz vurdu. – Aydın məsələdir! – O, papağını gözünün üstünə basdı. – İndisə gedim. Anam indi nigarandır, çoxdan çıxmışam evdən... Hələ bir nəfərlə də görüşməliyəm. Təzə qoyun pendiri üçün... Hələlik, doktor! Ümid edirəm ki, xoşunuza gələcək.

– Hələlik, Janno! Çox sağ ol! Xoşbəxt ol!

– Xoşbəxt olmağına olacağıq!

Balaca kölgə uzaqdan əl elədi və inamla axsaya-axsaya qapıya tərəf getdi.

* * *

Ravik otağa girən kimi bağlamanı açdı. Axtarıb köhnə bir spirt lampası tapdı. Neçə il idi ki, onu işlətmirdi. Ora-buranı eşələyib bir qutu quru spirt və balaca bir tava çıxardı. Qaxaclardan ikisini götürüb lampanın piltə yerinə qoydu, od vurdu. Mavi alov dilləri şölələndi. Tavaya bir az yağ atdı, iki yumurta sındırıb çırpdı. Sonra təzə, bürüştə ağ çörəyi dilimlədi, stolun üstünə bir-iki köhnə qəzet sərib, tavanı da onun üstünə qoydu, pendir çıxardı, bir şüşə də «Vuvre» açıb, yeməyə başladı. Çoxdan belə yeməmişdi. Fikirləşdi ki, sabah bir bağlama quru spirt alsın. Spirt lampası açılıb-yığılan idi, onu özü ilə həbs düşərgəsinə də apara bilərdi...

Asta-asta yeyirdi. Sonra da «Pon le Evek»in dadına baxdı. Janno düz deyirmiş, əntiqə şam yeməyi oldu...

## XXXII

– Misir köçü başlandı! – Bu sözləri filologiya və fəlsəfə elmləri doktoru Zaydenbaum Raviklə Morozova deyirdi. – Özü də Musa peyğəmbərsiz!

Rəngi saralıb, arıqlamış Zaydenbaum «İnternasional»ın qapısında dayanmışdı...

Küçədə Şternlər, Vaqnerlər ailəsi və bir də subay Ştolts köçlərini tutduqları mebel maşınına yükləyirdilər.

Həmin günəşli avqust günündə küçəyə çoxlu mebel yığılmışdı. Üzünə həbəş xalısı çəkilmiş qızılı haşiyəli divan, bir neçə qızılı haşiyəli kreslo və təzə bir həbəş xalçası... Hamısı da Şternlər ailəsinin idi. İndi də qızılağacdan düzəldilmiş iri stolu gətirirdilər. Solğunbənizli, qonurgözlü Selma Ştern onu, qırt toyuq cücələrini qoruyan kimi qoruyurdu:

– Ehtiyatlı olun! Üstünü cızmayın! Yavaş... Bir az yavaş!

Pardaqlanmış stol işım-işım işıldayırdı. Evdar qadınlar belə şeydən ötrü nədən keçməzdilər! Selma Ştern stolun yan-yörəsində vurnuxur, yükdaşıyanlar isə ona məhəl qoymurdular. Onlar stolu küçəyə çıxardılar.

Günəş stolun üstündə bərq vururdu. Selma bir az əyilərək, əlindəki əski ilə üstünün tozunu alır, künc-bucağını

silirdi. Stolun pardaqlanmış lövhəsi tutqun güzgü kimi onun solğun bənizini əks etdirirdi. Elə bil, minyaşlı ulu nənəsi sualedici nəzərlərlə zəmanənin güzgüsündən ona baxırdı...

Yükdaşıyanlar qızılağacdan hazırlanmış servantı çıxardılar. O da stol kimi pardaqlanmışdı və işım-işım işıldayırdı. Kişilərdən biri vaxtından əvvəl döndü və servantın bir tərəfi «İnternasional» mehmanxanasının giriş qapısına toxunub cızıldı.

Selma Şterndən səs çıxmadı, elə bil, daşa döndü. Əskini bir az yuxarı qaldırmışdı, ağzı da azacıq açılmışdı... Sanki, əskini ağzına basmaq istəyəndəcə daşlaşmışdı...

Balacaboy, eynəkli, sallaqdodaq əri Yozef Ştern ona yaxınlaşdı:

– Yaxşı, Selma, əzizim...



Qadın onu görmürdü, gözlərini harayasa uzaqlara zilləmişdi...

– Servant...

– Yaxşı, Selma, əzizim, axı əlimizdə viza...

– Anamdan qalmışdı... Ata-anamdan...

– Yaxşı, Selma, əzizim, nə böyük şeydir? Bir az cızılıb. Əsas məsələ odur ki, viza əlimizdədir...

– Qalacaq... Ömürlük qalacaq...

– Madam! – Yükdaşıyan almanca bilməsə də, söhbətin nədən getdiyini yaxşı başa düşürdü. – Elə isə zirzibilinizi özünüz yükləyin. Qapıları mən belə ensiz düzəltməmişəm!

–Sales boches[1] – O biri yükdaşıyan da donquldandı.

Yozef Ştern dikəldi:

– Biz «Boshe» deyilik, – dedi. – Biz mühacirik!

– Qoy olsun «Sales refugiys»[2] – Kişi yenə donquldandı.

Ştern arvadına tərəf döndü:

–Görürsən, Selma, başımıza nələr gəlir? İndi neyləyək? Sənin bu qızılağac mebellərin bizim başımıza çox oyunlar gətirdi. Koblensdə dörd ay ləngidik, çünki sən onlardan əl çəkmək istəmədin. Sonra oradan çıxmaq bizə on səkkiz min marka başa gəldi. İndi də qalmışıq küçənin ortasında, gəmi də bir azdan yola düşür...

Ştern bunu deyib yazıq-yazıq Morozova baxdı:

---

[1] Murdar alman! *(fran.)*
[2] Murdar qaçqınlar *(fran.)*

– İndi neyləyəsən? Gah «Sales boche», gah da «Sales refugiys» olduq! Desəm ki, yəhudiyik, onda da «Sales juifs»[1] deyəcək, hər şey də bitəcək!

– Pul verin!

– Pul? Təpəmə çırpar!

– Heç vaxt! – Ravik də söhbətə qarışdı. – Bu cür ağızdan yava adamları tez yola gətirmək olur.

– Elə şeyi bacarmaram... Kimsə məni təhqir eləsin, mən də ona pul verim!

Morozov etiraz etdi:

– Əsl təhqir odur ki, birbaşa sənin özünə deyilsin. Bununku ümumi təhqirdir. Siz də ona çaypulu verib təhqir eləyin!

– Yaxşı... yaxşı, – deyən Şternin gözlərinə təbəssüm qondu.

Pul çıxarıb yügdaşıyanlara verdi. İkisi də onu ikrahla götürdü. Ştern də eyni ikrah hissi ilə pulqabını qaytarıb cibinə qoydu. Yükdaşıyanlar ora-bura baxıb, Həbəşistan stullarını maşına yığmağa başladılar. Servantı qəsdlə lap axırda yüklədilər. Onu qoyanda bir az yana əydilər, sağ tərəfi maşına dəydi. Selma içini çəkdi, ancaq dinmədi. Ştern isə bunu heç görmədi. Elə hey dönə-dönə vizasını, kağızlarını yoxlayırdı.

Morozov:

– Heç nə küçəyə yığılmış mebel qədər adama pis təsir eləmir, – dedi.

Növbə Vaqnerlər ailəsinə çatdı. Bir neçə stul və görkəmindən qüssə-kədər yağan çarpayı... Onu da utanmadan düz küçənin ortasına qoymuşdular... Üstünə «Qrand-Otel», «Qardone» və «Adlon», «Berlin» şəkilləri yapışdırılmış iki çamadan... Qızılı çərçivəli açılıb-yığılan güzgü. Küçənin şəkli indi də ora düşürdü. Və bir də mətbəx ləvazimatı. Bilinmirdi ki, bunları Amerikaya nəyə aparırdılar...

– Qohumlarımız... – Leone Vaqner dilləndi. – Çikaqodakı qohumlarımız düzəltdi hamısını... Pul, viza göndərdilər, qonaq çağırdılar. Oradan da Meksikaya gedəcəyik. Qohumlarımız! Qohumlarımız elədi!

Qadın utanırdı. Burada qalanların baxışlarını üzərində hiss etdikcə özü özünə fərari kimi görünürdü. Ona görə də tez getmək istəyirdi. Hətta yükdaşıyanlara da kömək elədi.

---

[1] Murdar yəhudilər *(fran.)*

Yalnız birinci tini burulandan sonra rahat nəfəs alacaqdı. Ancaq onda da yeni bir qorxu başlayacaqdı. Görəsən, gəmi yola düşəcəkmi? Onları sahilə buraxacaqlarmı? Görəsən, geri göndərməzlər ki? Bir qorxu gedən kimi ayrısı gəlirdi. Neçə ildi ki, beləydi...

Subay Ştoltsun, demək olar ki, kitablardan başqa heç nəyi yox idi. Bircə çamadan pal-paltarı və bir də kitabları... İlk çaplar, qədim nəşrlər, təzə kitablar.

Qəddi əyilmiş bu qırmızıbaş kişi lap yazıqlaşmışdı...

Qalan qaçqınlar yavaş-yavaş mehmanxananın qapısı ağzına yığışırdılar. Çoxu dinmir, yalnız şeylərə, mebel maşınına baxırdı...

Şeyləri yükləyib qurtaran kimi əsəbləşmiş Leoni Vaqner dedi:



– Hə, indi hələlik! Ya da qud bay! – O, həyəcanlı-həyəcanlı güldü. – Ya da adye! İndi hamısı bir-birinə qarışıb, adam özü də çaşıb qalır!

O, qapıda dayananların bəzilərinə əl verdi:

– Oradakı qohumlarımız, – dedi. – Onlar elədi. Bizə qalsa, heç vaxt...

Leoni bir azdan səsini kəsdi. Doktor Ernst Zaydenbaum əlini onun çiyninə qoydu:

– Eybi yoxdur, – dedi, – kiminin bəxti gətirir, kimininki də yox...

– Çoxununku gətirmir! – Mühacir Vizenhof əlavə etdi. – Eybi yoxdur, yaxşı yol!

Yozef Ştern, Ravik, Morozov və bir neçə nəfərlə vidalaşdı. Günahkar bir təbəssümlə gülümsəyirdi, elə bil, əlində saxta pul tutulmuşdu:

– Kim bilir, axırı necə olacaq?! Bəlkə də, «İnternasional»dan ötrü ürəyimizin başı göynədi...

Selma Ştern artıq maşında idi. Subay Ştolts heç kəslə halallaşmadı. O, Amerikaya getmirdi, sənədləri Portuqaliyaya qədər idi. Bunu da mənasız şey hesab edir və ona görə də başqaları kimi təntənə ilə vidalaşmırdı. Yalnız maşın tərpənəndə o əl elədi...

Qapıda dayananlar yağışa düşmüş toyuq-cücə kimi xeyli büzüşüb durdular.

Morozov Ravikə tərəf döndü:

– Gəl, – dedi, – birbaşa «katakomba»ya! Bu yanğını təkcə kalvados söndürər!

Onlar oturmamış başqaları da gəldi. Sanki, külək xəzan vurmuş yarpaqları oynada-oynada içəri doldururdu. Seyrəksaqqallı, solğunbənizli iki yəhudi ruhanisi, Vizenhof, Rut Qoldberq, avtomat-şahmatçı Finkenştayn, fatalist Zaydenbaum, bir neçə ər-arvad, xeyli uşaq, impressionist şəkillərin sahibi, hələ də çıxıb gedə bilməyən Rozenfeld, bir-iki yeniyetmə və bir neçə qoca-qoltaq...

Şam yeməyinə hələ çox qalırdı, ancaq, deyəsən, heç kəs o otaqların tənhalığına qayıtmaq istəmirdi... Hamı bir yerdə oturdu. Heç biri danışmırdı, hamı öz taleyi ilə barışmışdı. Elə bədbəxtliklər görmüşdülər ki, bundan sonra başlarına nə gələcəyinin heç bir fərqi yox idi.

– Kübarlar getdi! – Zaydenbaum dilləndi. – Burada da ömürlük həbs cəzasına, ya da ölümə məhkumların iclası başladı. Seçmə xalqlar! Yehovvanın əziz-xələfləri! Yalnız fəlakət üçün yaranmışlar! Yaşasın həyat!

– Hələ İspaniya durur, – deyə Finkenştayn söz atdı. Onun əlində şahmat məsələləri dərc olunmuş «Matyen» qəzeti və qabağında şahmat taxtası vardı.

– Hə, İspaniya... Faşistlər ora keçən yəhudiləri öpüb gözlərinin üstünə qoyacaqlar!

Köklüyündən yırım-yırım yırğalanan xidmətçi qadın kalvados gətirdi. Zaydenbaum pensnesini taxdı:

– Çoxumuz əməlli-başlı içib keflənməyi də bacarmırıq. Heç olmasa, bircə gecə bu dəhşətlərdən uzaq olardıq. Bu da əlimizdən gəlmir! Özümüz də Aqasferin varisləriyik. İndi o qoca səyyahın özü də çaşıb qalar, sənədsiz çox uzağa gedə bilməzdi.

Morozov dedi:

– Bizimlə bir qədəh için. Kalvados yaxşıdır. Allaha şükür ki, sahibə bunu bilmir, yoxsa qiymətini qaldırardı.

Zaydenbaum başını buladı:

– İçən deyiləm.

Ravik bir az o tərəfdəki üzütüklü kişiyə baxırdı. O, tez-tez cibindən güzgü çıxarıb özünə baxır, yerinə qoyur, təzədən bir də çıxarırdı.

– Bu, kimdir? – deyə Ravik Zaydenbaumdan soruşdu. – Onu buralarda heç görməmişəm.

Zaydenbaum dodaqlarını büzdü:

– Təzə Aron Qoldberqdir.

– Necə? Qadın nə tez ərə getdi?

– Getməyib. Ölmüş Qoldberqin pasportunu ona iki min franka satıb. Qoca Qoldberqin çal saqqalı vardı. İndi də bu tayı saqqal buraxır. Pasport üçün şəkildən ötrü... Saqqalı çıxmamış pasportdan istifadə eləməyə qorxur. Zamanı qabaqlamaq istəyir!

Ravik yenə əsəbiliklə cod saqqalını didişdirə-didişdirə onu pasportdakı şəkillə müqayisə eləyən kişiyə baxdı:

– Uzaqbaşı, desin ki, saqqalımı yandırmışam.

– Yaxşı fikirdir, ona deyərəm. – Zaydenbaum pensnesini götürüb əlində oynatdı, gülümsədi. – Cəncəl işdir! İki həftə bundan qabaq xalis alver idi. İndi isə Vizenhof qısqanmağa başlayıb, heç Rut Qoldberqin də halı özündə deyil. Bu da sənədin iblisliyi! Kağıza əsasən, kişi onun halalca əridir...



O durub təzə Aron Qoldberqə tərəf getdi. Morozov Ravikə baxdı:

– «Sənədin iblisliyi»ni yaman dedi. Bu gün neyləyəcəksən?

– Ket Heqstrem axşam «Normandiya» gəmisi ilə gedir, onu Şerbura aparacağam. Öz maşınında gedir, onu qaytarıb qaraja salacağam. Maşını qaraj sahibinə satıb.

– Yol gedə bilər?

– Əlbəttə. İndi onun üçün neyləməyin fərqi yoxdur. Gəmidə yaxşı həkim var. Nyu-Yorkda da... – Ravik çiyinlərini çəkib, qədəhini boşaltdı.

«Katakomba»nın havası ağır, boğucu idi. Pəncərəsi yoxdu. Toza bələnmiş süni palmanın altında qoca ər-arvad oturmuşdu. Qüssə-kədər onların dörd yanına çəpər çəkmişdi. Əl-ələ tutub hərəkətsiz oturmuşdular və baxan deyərdi ki, onlar bir də ayağa dura bilməyəcəklər...

Ravikə birdən-birə elə gəldi ki, dünyanın bütün dərdələmi bu qaranlıq zirzəmiyə dolub. Divardan asılmış ölgün işıqlı sapsarı elektrik lampaları bu otağı daha da yoxsullaşdırırdı. Sükut, pıçıltı, gündə min dəfə oxunan kağız-kuğuzların xışıltısı, lal-dinməz oturub dönə-dönə günləri saymaq, ümidsiz-ümüdsiz öz sonunu gözləmək, cüzi, miskin bir qeyrət hissi, min dəfə alçaldılmış, min dəfə təhqir edilmiş

həyat! O həyatı indi bir küncə qısnayıblar, dəhşətə gəlib, nə edəcəyini bilmir! Birdən-birə o, bunların hamısını duydu, iyini aldı. Bu, qorxu iyi idi. Sonuncu nəhəng, lal bir qorxu idi və o da bunu duyurdu. Bildi ki, onu bir dəfə də həbs düşərgəsində, adamları küçələrdən, yatan yerdən gətirib baraklara dolduranda və həmin adamlar da başlarına nə gələcəyini gözləyəndə hiss etmişdi...

Qonşu stol arxasında iki nəfər oturmuşdu: saçını tağdan ayırmış qadın və onun əri. Qarşılarında, təxminən, yeddi-səkkiz yaşlarında bir oğlan uşağı dayanmışdı. Stolların arasında çox vurnuxmuş, hərədən bir-iki söz eşidəndən sonra qayıdıb gəlmişdi.

O:

– Niyə biz yəhudiyik? – deyə anasından soruşdu.

Qadın cavab vermədi.

Ravik Morozova baxdı:

– Mən xəstəxanaya gedəsiyəm, – dedi.

– Mən də çıxıram.

Onlar pilləkənlə yuxarı qalxanda Morozov dedi:

– Çox bilməyin özü də yaxşı deyil. Bunu sənə köhnə antisemit kimi deyirəm!

* * *

«Katakomba»dan sonra xəstəxana adama cənnət kimi görünürdü. Əlbəttə, burada da dərd-ələm, əzab-işgəncə, xəstəlik vardı, ancaq bilirdin ki, onların nəsə ağlasığan bir səbəbi var. Niyə belə olduğunu bilirdin və bir də onu bilirdin ki, nəyi eləmək olar, nəyi yox... Hər şey gerçək idi və görürdün, ona qarşı nəsə eləməyə çalışırdın...

Veber müayinə otağında oturub qəzet oxuyurdu. Ravik onun çiyinləri üzərindən ötəri qəzetə baxıb:

– Yaxşı yazıblar, eləmi? – dedi.

Veber qəzeti yerə tulladı:

– Satqınlar! Bizim siyasətçilərin əlli faizini asmaq lazımdır!

– Doxsan faizini, – deyə Ravik düzəliş verdi. – Düranın xəstəxanasında yatan qadından xəbər var?

Veber hirsli-hirsli siqaret çıxardı:

– Yaxşıdır... Sizin nə vecinizə, Ravik?! Ancaq mən fransızam!

– Mən isə heç nəyəm... Ancaq istərdim ki, Almaniyanın bütün bədbəxtliyi də bu cür satqınlıqdan ibarət olsun.

Veber başını qaldırdı:

– Mən yenə boş-boş danışdım, bağışlayın! – Siqareti yandırmaq da yadından çıxmışdı. – Müharibə ola bilməz, Ravik! Sadəcə olaraq, mümkün deyil! Hamısı hədə-qorxu, hay-küydür! Son anda nəsə olacaq... – O susdu. Əvvəlki inamından nişanə qalmamışdı. – Uzaqbaşı, bizim Majino xəttimiz var!

Son sözləri deyəndə, elə bil, kiməsə yalvarırdı...

– Əlbəttə! – Ancaq Ravikin səsində də inamsızlıq vardı. Bunu yüz dəfə eşitmişdi. Fransızlarla söhbət həmişə bununla bitirdi.

Veber alnının tərini sildi:

– Düran var-yoxunu Amerikaya göndərib. Katibəsi dedi.



– Elə də olmalı idi!

Veberin bərəlmiş gözləri Ravikə dikildi:

– Özü də Düran tək deyil. Mənim qaynım da fransız aksiyalarını amerikan aksiyalarına dəyişib. Qaston Nere də bütün pullarını dollara çevirib seyfində saxlayır. Deyirlər, Düpon da bağında bir neçə kisə qızıl basdırıb... – O ayağa durdu. – Danışmağa dilim də gəlmir. Heç inanmaq istəmirəm! Ola bilməz ki, Fransanı satsınlar, dağıtsınlar. Təhlükə yaranan kimi hər şey birləşəcək! Hər şey!

– Hər şey... – deyə Ravik də qüssəli-qüssəli təkrar etdi. –Sənaye də, indidən Almaniya ilə alverə başlamış siyasətçilər də...

Veber özünü güclə ələ aldı:

– Ravik! Bəlkə... bəlkə, başqa şey haqda danışaq?

– Yaxşı... Mən Ket Heqstremi Şerbura aparacağam. Gecəyarı qayıdaram...

– Oldu... – Veber tövşüyürdü. – Bəs siz... siz nə fikirləşirsiniz, Ravik?

– Heç nə. Fransız konslagerinə düşəcəyəm. Hər halda, almanlarınkından yaxşı olar.

– Ola bilməz! Fransa qaçqınlara toxunmaz!

– Baxarıq! Mütləq elədir, burada ayrı söhbət ola bilməz.

– Ravik...

– Yaxşı, baxarıq. Ümid edək ki, siz deyəndir. «Luvr»

muzeyindəki yır-yığışdan xəbəriniz var? Ən yaxşı şəkilləri Mərkəzi Fransaya köçürürlər.

– Xeyr. Bunu haradan bilirsiniz?

– Günortadan sonra getmişdim. Şartr kilsəsinin vitrajlarını da qablaşdırıblar. Dünən də oradaydım. Çox sentimental köçhaköçdür! İstəyirdim, onlara bir də baxım, ancaq yığışdırmışdılar. Axı təyyarə meydanı ora lap yaxındır! Yerinə təzə şüşələr də salınıb. Lap keçən il Münxen konfransı keçiriləndə elədikləri kimi...

– Görürsünüz?! – Veber elə bu sözlərdən yapışdı. – Onda da heç nə olmadı. Yalandan hay-küy qalxdı, ancaq Çemberlen sülh çətiri ilə özünü yetirdi.

– Elədir. Ancaq unutmayın ki, sülh çətiri Londondadırsa, zəfər ilahəsi də «Luvr»dadır. Düzdür, başı yoxdur, ancaq qalacaq... Çox ağırdır, apara bilmirlər. Yaxşı, mən getdim, Ket Heqstrem gözləyir.

Dümağ «Normandiya» gəmisi qaranlıq limanda öz əlvan işıqları ilə min rəngə çalırdı. Dənizdən sərin, duzlu külək əsirdi. Ket paltosunun yaxasını bərk-bərk bağladı. Çox arıqlamışdı. Almacıq sümükləri çıxmış sifətindəki qorxunc iri gözləri qaranlıq çökmüş bir cüt gölə bənzəyirdi.

– Qalsaydım, yaxşı olardı... – Ket dilləndi. –Getmək birdən-birə elə ağır gəlir ki!

Ravik diqqətlə onun üzünə baxdı. O nəhəng gəmi gəlib dayanmışdı, pilləkənləri işıqlı idi və camaat da içəri dolurdu. Çoxu da elə tələsirdi ki, elə bil, son anda gecikməkdən qorxurdu... O işım-işım işıldayan saray gəlib dayanmışdı və indi onun adı «Normandiya» deyil, «Can qurtarmaq», «Aradan çıxmaq», «Xilas olmaq» idi. O, indi Avropanın min-min şəhərində, evlərində, miskin mehmanxanalarında, zirzəmilərində yaşayan min-min adam üçün əlçatmaz bir xəyal idi və ölümün için-için yediyi bir adam da yanında dayanıb mehriban, həlim səslə deyirdi: «Qalsaydım, yaxşı olardı...»

Hər şey öz mənasını itirmişdi. İstər «İnternasional»da qalan mühacirlər, istərsə də Avropanın min-min «İnternasional»larındakı didərginlər, əzabkeşlər, nədənsə qaçıb canını birtəhər qurtaranlar, ümidsizlər bu gəmiyə minə bilsəydilər, «min şükür!» deyərdilər, bilet tapsaydılar, sevincdən dəli olar, hıçqıra-hıçqıra ağlayar, pilləkənləri qucaqlayıb

öpər, möcüzəyə inanardılar... O bilet ki indi külək ölümünə doğru gedən bir adamın yorğun əlində yelləndirirdi və həmin adam da deyirdi: «Qalsaydım, yaxşı olardı...»

Bir dəstə amerikalı gəldi. Yavaş-yavaş, deyə-gülə, səs-küy sala-sala... Dünyanın özü boyda vaxtları vardı. Onları getməyə səfirlik tələsdirmişdi. İndi də onu müzakirə edirdilər. Heyif, bir az da qalardılar! Qalıb bütün bu işlərin sonunu görsələr, lap fun[1] olardı! Onlara nə olası idi ki? Ax, bu səfirlik! Amerika ki bitərəfdir! Heyif!

Ətir qoxusu. Bərbəzək. Bir-birinə göz vuran brilyantlar. Bir az bundan qabaq «Maksim» restoranında oturmuşdular. Dollarla nə ucuz düşürmüş! Axırda da «Karton 29», «Pol Roje 28» içdilər. İndi də gəmi... Gedib barda oturacaq, «Trik-Trak» oynayacaq, bir neçə qədəh də viski içəcəklər...Ancaq konsulluqların qabağında indi nə qədər ümidsiz adam dayanıb, ölüm qorxusu da başlarının üstünü alıb və artıq getməyə hazırlaşan əməkdaşlar, ya da xırdaca bir məmur hərbi səhra məhkəməsi kimi hökm verir, başını bulayır: «Yox! Viza olmayacaq Yox, mümkün deyil!» Beləliklə də, bu səssiz-səmirsiz günahsızlara səssiz-səmirsiz ölüm hökmü oxunurdu. Ravik diqqətlə gəmiyə baxdı. O, indi adi gəmilikdən çıxıb, Nuhun gəmisinə dönmüşdü. Çox yüngül idi və tufan qopmamış getmək istəyirdi. Bu tufandan bir dəfə yaxa qurtarmışdı. Ancaq bu dəfə çətin idi...

– Vaxtdır, Ket.

– Vaxtdır? Əlvida, Ravik!

– Əlvida, Ket.

– Bir-birimizə yalan satmağa ehtiyac yoxdur, eləmi?

– Elədir.

– Siz də gəlin Amerikaya...

– Mütləq, Ket. Lap tezliklə...

– Əlvida, Ravik! Çox sağ olun! İndisə gedirəm... Göyərtədən əl eləyəcəyəm. Gəmi tərpənənə kimi gözləyin, mənə əl eləyin.

– Yaxşı, Ket.

O, asta-asta, güclə seziləcək qədər ləngər vura-vura gəmiyə qalxdı. Yanınca gedənlərin hamısından arıq idi, şax idi və sanki, bədənində ət deyilən şey qalmamışdı, labüd ölümün qüssə dolu gözəlliyinə bürünüb gedirdi...

[1] Kef *(ing.)*

Üz-gözündən cəsarət yağırdı, başı misirlilərin tunc pişik heykəlinin başına oxşayırdı, fərqi bircə onda idi ki, bunun üzündə cizgilər, həyat nişanəsi, gözlər vardı...

Axırıncı sərnişinlər... Qan-tərə batmış bir yəhudi xəz paltosunu qoltuğuna vurub, az qalır, ağlı başından çıxsın, iki hambal da onun yükünü gətirir... O gah yüyürür, gah da dayanıb qışqırırdı. Axırıncı amerikalılar da gəldilər. Pilləkənləri yavaş-yavaş çəkdilər. Raviki qəribə bir hiss bürüdü. Pilləkənlər, sanki, əbədilik yığıldı... Bu da sonu! Su tərpəndi. Sərhəd... İkicə metr su yolundan sonra Amerika ilə Avropa sərhədi başlayır. Həyatla fəlakətin sərhədi...

Ravik gözləri ilə Keti axtardı və o dəqiqə də tapdı. Göyərtədə dayanıb əl eləyirdi. Ravik də əlini yellətdi...

Deyəsən, gəmi asta-asta tərpəndi. Sanki, sahil özü geri çəkildi. Lap azca... heç hiss olunmadı da... Və dümağ gəmi birdən-birə sahildən qopdu, qaranlıq səmanın qoynundakı qaranlıq sularda əlçatmaz uzaqlığa doğru süzdü. Ket daha görünmürdü. Sahildə qalanlar dinməz-söyləməz, peşman-peşman, saxta təbəssümlə bir-birinə baxdılar və kimi tələsə-tələsə, kimi də tərəddüdlə oradan uzaqlaşdı.,.

Maşın qaranlıq gecədə Parisə tərəf üz qoymuşdu. Normandiyanın meyvə bağları, hasarları bir-bir arxada qalırdı. Bədirlənmiş ay buludlu səmadan asılmışdı. Gəmi yaddan çıxmış, yalnız bu gecə mənzərəsi, quru ot, yetişmiş alma ətri, sükut və bir də əbədi olan şeylərin həzin sədası qalmışdı...

Maşın, demək olar ki, səssiz gedirdi. Elə gedirdi ki, heç deməzdin, onda bu ağırlıq var... Evlər, kilsələr, kəndlər, işıq gələn balaca kafelər, qəlyənaltılar, işıldayan çaylar, dəyirmanlar bir-bir ötdü, qarşıda, sanki, sonu lap yaxındaca göylə birləşən bir düzənlik açıldı. Həmin düzənliyin üstündə qübbələnmiş səma də nəhəng balıqqulağının iç tərəfinə oxşayırdı və onun südrəngli sədəfində ay mirvari kimi bərq vururdu...

Hər şey başa çatıb tamama yetmişdi. Ravik buna oxşar hissləri artıq bir dəfə keçirmişdi. Ancaq bu dəfəki həmişəkindən aydın, həmişəkindən güclü idi, ondan qaçmaq olmurdu, hisslər onu caynağına alırdı. Heç özü də müqavimət göstərmirdi.

Sanki, hər şey çəkisizlikdə süzürdü... Gələcəklə keçmiş görüşmüşdü. Ancaq onların nə bir arzusu, nə bir çəkəcəyi qalmışdı. İndi keçmiş də, gələcək də eyni idi, heç nə ilə

fərqlənmirdi. Üfüqlər eyniləşmiş və hansı möcüzəli andasa həyat tərəzisinin gözləri də tarazlaşmışdı... Tale heç vaxt ona qarşı qoyulan cəsarət hissindən güclü olmayıb! Gördün, dözə bilmirsən, o vaxt özünü öldürürsən. Yaxşı ki, adam bunu bilir. Və bir də onu bilmək yaxşıdır ki, nə qədər nəfəsin gedib-gəlir, heç nə itirilməyib...

Ravik onu nə gözlədiyini bilirdi. Hara getdiyini də bilirdi. Və bir də onu bilirdi ki, sabah yenə özünü qoruyacaq. Ancaq bu gecə, itirilmiş zirvənin sahillərindən gələcək bədbəxtliyin qan qoxusuna bələnmiş bir dünyaya qayıtdığı saatda hər şey dəyişib mənasını itirmiş, bir-birinə qarışmışdı. Təhlükə öz təhlükəliliyində qalırdı, ancaq hələ gəlməmişdi. Tale özü həm qurban idi, həm də qurban qəbul edən bir səcdəgah. Açılan sabah isə naməlum bir dünya...



Hər şey yaxşı idi. Olan da, olacaq da! Bəsi idi. Əgər sonu çatıbsa, eybi yoxdur, qoy çatsın. Birini sevib itirmiş, başqasına da nifrət edib öldürmüşdü. İkisindən də canı qurtarmışdı. Biri onun hiss və duyğularını torpağa basdırmış, o biri isə keçmiş haqda xatirələri birdəfəlik söndürmüşdü. Daha heç nədən nigarançılığı qalmamışdı. Nə bir arzusu, nə bir nifrəti, nə də bir şikayəti vardı. Əgər bununla təzədən nəsə başlayırdısa, eybi yoxdur, qoy başlasın. Onsuz da çox şey görüb-götürmüş, zəifləmək əvəzinə, qüvvətlənmişdi, bir də başlayardı. Duman çəkilmiş, iflic vuran yerlər sağalmış, miskinlik gücə çevrilmişdi. Hər şey yaxşı olmuşdu...

Kanna çatmamış yolda çoxlu at gördü. Dəstə-dəstə atlar, atlar... Ay işığında kölgəyə oxşayırdılar. Sonra da dörd cərgə düzülmüş kişilər... Əllərində də bağlama, kağız torba, çanta... Səfərbərlik başlanmışdı!

Demək olar ki, səsləri çıxmırdı. Heç kəs oxumurdu. Danışan da yox idi. Bu kölgə dəstələri səssiz-səmirsiz qaranlıq gecədə yolun sağı ilə addımlayırdı. Yolun solu isə maşınlara qalmışdı...

Ravik onları bir-bir ötdü. «Atlar, – deyə ürəyindən keçirdi. – Atlar! 1914-cü ildəki kimi... Tank görünmürdü. Atlar...»

Yanyurda çatanda dayandı, benzin tökdürdü. Balaca qəsəbənin pəncərələrindən işıq gəlirdi, ancaq sükuta qərq olmuşdu. Bir dəstə də gəlib keçdi. Camaat onların arxasınca baxdı, heç kəs də əl eləmədi...

– Mən də sabah gedirəm... – Benzinsatan kişi dilləndi. Onun kəndlilərə məxsus aydın, gündən qaralmış sifəti vardı.

– Atam axırıncı müharibədə öldü. Babam isə 1871-ci il müharibəsindən qayıtmayıb. Sabah da mən gedirəm. Hər şey təkrar olunur. Artıq neçə yüz ildir ki, bu yolun yolçusuyuq, ancaq heç nəyin xeyri yoxdur, yenə də gedirik... – Kişi bircə baxışla köhnə nasosu, balaca evi və yanında dinməz dayanmış qadını süzdü. – İyirmi səkkiz frank otuz santim, müsyö.

Yenə mənzərə... Ay... Dəstələr, dəstələr... Atlar... Sükut... Ravik maşını balaca bir restoranın qabağında saxladı. Küçəyə iki stol qoyulmuşdu. Sahibə dedi ki, yeməyə heç nə yoxdur. Ancaq şam yeməyini ötürmək olmazdı. Fransada qayğanaqla pendir axşam yeməyi sayılmırdı. Axır ki, sahibə yola gəldi, üstəlik, salat, qəhvə, bir qrafin də əla şərab gətirdi.

Ravik çəhrayı rəngli evin qabağında təkcə oturub çörək yeyirdi. Çəmənliklərə duman çökürdü. Qurbağalar quruldayırdı. Sakitlik idi, yalnız yuxarı mərtəbədən radionun səsi gəlirdi. Təsəlli, inam dolu bir səsdə həm də anlaşılmaz bir ümidsizlik vardı. Hamı ona qulaq asır, ancaq heç kim inanmırdı.

Yeməyin pulunu verdi.

– Parisdə işıqları gizlədəcəklər, – sahibə dilləndi. – İndicə radio dedi. Bəli... Hava hücumundan qorunmaq üçün... Ehtiyat üçün... Radio deyir ki, hamısı ehtiyat üçündür. Müharibə olmayacaq. Danışıqlar gedir. Buna siz nə deyirsiniz?

– Heç inanmıram ki, müharibə olar... – Ravik bilmədi özgə nə desin.

– Allah eləsin, siz deyən kimi olsun. Bunun nə xeyri? Almanlar Polşanı alandan sonra Elzas-Lotaringiyanı istəyəcəklər... Sonra da müstəmləkələr... Sonra da başqa şeylər. Biz təslim olana, ya da müharibəyə başlayana kimi tələblər artacaq... Elə indidən başlasa, yaxşıdır...

Sahibə ağır addımlarla evə tərəf getdi. Küçədə təzə bir dəstə göründü...

Üfüqdə Parisin al-qırmızı işıqları sayrışırdı. Qaranlığa bürünəcək! Paris qaranlığa bürünəcək... Həqiqət olsa da, çox qəribə səslənirdi: Paris qaranlığa qərq olacaq! Elə bil, dünya qaranlığa qərq olurdu...

Qəsəbələr. Sena çayı. Ucqar küçələrdəki qaynar həyat. Birbaşa «Zəfər tağı»na çıxan dümdüz prospekt... «Zəfər tağı»nın tutqun kölgəsi Etual meydanının dumanlı işığından baş qaldırmışdı. Onun arxasında isə hələ də sayrışan işıqları bərq vuran «Yelisey çölləri»...

Ravik dərindən nəfəs aldı. Şəhərə girdi və birdən gördü ki, Paris, doğrudan da, qaranlığa bürünür. Adda-budda xəstə üzlü zülmətin ləkələri görünürdü, sanki, işım-işım işıldayan dərinin üstünə qotur düşmüşdü. Reklamların gizlənqaç oynayan əlvan işıqlarını bəzi yerlərdə sinə-sinə gəlib onların titrək qırmızı, ağ, mavi rənglərinin arasında gizlənmiş kölgələr udmuşdu. Küçələrin bir neçəsi artıq kor olmuşdu. Sanki, qara-qara soxulcanlar oralara doluşub, bütün işartıların qabağını kəsmişdilər. V Georq prospektində bircə işıq da yanmırdı, Monten prospektindəkilər də artıq can verirdi. Gecələr öz işıqları ilə ulduzlara kəmənd atan evlərin çılpaq, bomboz fasadları güclə seçilirdi. III Emmanuel Viktor prospektinin yarısı qaranlığa bürünmüşdü, yarısı isə hələ də işıqlı idi, deyərdin, bir tərəfini iflic vurmuş bədəndir, can verir, yarısı ölüb, yarısı hələ yaşayır. Xəstəlik yavaş-yavaş bütün şəhərə yayılırdı və Ravik «Konkor» meydanına qayıdanda gördü ki, onun geniş qoynuna da ölüm sükutu çöküb.



Nazirliklərin binaları da bomboz görünürdü. İşıq boyunbağılar sınmış, dümağ köpüklü gecələrdə rəqs edən trionlar və nereidalar öz delfinlərinin qoynunda bomboz, tutqun ləkə kimi düşüb qalmış, fəvvarələrin suyu qurumuş, axar sular dayanmış və nə vaxtlarsa işıq saçan obeliskin bozarmış kölgəsi əbədiyyətin hədə-qorxu gələn nəhəng barmağı kimi getdikcə qaranlıqlaşan səmanın bağrına tuşlanmışdı. Hava hücumundan müdafiə xidmətinin göy rəngli zəif, güclə sezilən işıqları xırdaca mikroblar kimi şəhərin canına daraşır, közərə-közərə kosmik vərəm kimi səssiz-səmirsiz məhv olan Parisi bürüyürdü...

Ravik maşını təhvil verdi, taksiyə minib «İnternasional»a gəldi. Sahibənin oğlu qapının ağzına bir nərdivan qoyub, oradakı lampanı göy rənglisi ilə dəyişirdi. Qapının üstündəki işıqda mehmanxananın adı aydınca oxunurdu, ancaq indi göy rəngli zəif işartıda sözün yarısı itmişdi və «nasional» hissəsi də güclə seçilirdi.

Sahibə onu görən kimi:

– Yaxşı ki, gəldiniz, – dedi, – biri dəli olub. Yeddinci otaqda. Otağı boşaltsa, yaxşıdır. Mən mehmanxanada dəli saxlayan deyiləm.

– Bəlkə, heç dəli olmayıb, tutması var?

– Fərqi yoxdur! Dəlilərin yeri dəlixanadır. Özlərinə də dedim. Əlbəttə, çıxmaq istəmirlər. Adam nə oyunlardan çıxarmış?! Sakitləşməsə, çıxaracağam. Belə olmaz, camaat yatmaq istəyir...

– Bu yaxınlarda biri «Rits»də dəli olmuşdu. Özü də şahzadə! Amerikanlar onun otağının üstündə dava salmışdılar...

– O, başqa şeydir. Şahzadə qarabasmadan dəli olmuşdu. Bu, yaxşı şeydir. Ancaq bizimki ehtiyacdan dəli olub.

Ravik diqqətlə ona baxdı:

– Həyatdan başınız çıxır, madam!

– Çıxmalıdır. Mən pis adam deyiləm, qaçqınları qanadımın altına almışam... Hamısını... Pis eləmirəm ki! Düzdür, bundan qazanıram, ancaq lap az. Amma bütün günü qışqıran dəliyə dözmək olmaz. Sakitləşməsə, çıxaracağam.

Bu, uşağı nə üçün yəhudi olduqlarını soruşan qadın idi. Bir küncə qoyulmuş çarpayıda oturub əlləri ilə gözünü tutmuşdu. Otaq çox işıqlı idi. Bütün lampalardan əlavə stolun üstündə iki şam da yandırılmışdı.

– Mətbəxböcəyi, – deyə qadın mızıldandı. – Mətbəxböcəyi! Qapqara, yepyekə... Mətbəxböcəyi... İşım-işım işıldayır... Odur, bax, küncdə oturublar. Gör nə qədərdir, min dənə... Yox, sayı-hesabı yoxdur... İşığı yandırın... işıq... yoxsa gələcəklər... işıq... işıq... bax, gəldilər, gəldilər...

Qadın qışqırıb güncə qısıldı. Ayaqlarını yığışdırmış, əllərini də üzünə tutmuşdu. Gözləri şüşə kimi idi, az qalırdı hədəqəsindən çıxsın.

Kişi onun əllərindən tutmaq istədi:

– Heç nə yoxdur, əzizim, küncdə heç nə yoxdur...

– İşıq, işıq! Gəldilər! Mətbəxböcəyi!

– İşıq yanır, əzizim. Bir onlara bax! Hətta stolun üstündə şam yandırmışıq.

O, cib fənərini çıxarıb, işıqlı otağın işıq dolu künclərini bir az da işıqlandırdı.

– Görürsən, küncdə heç nə yoxdur?! Özü də necə işıqlıdır, heççə nə yoxdur...

– Mətbəxböcəyi! Mətbəxböcəyi! Gəldilər! Gəlirlər! Hamısı da qaradır. Künc-bucaq doludur! İşıq! İşıq! Divarda yeriyirlər... Tavanda... Tavanda...

Qadın xırıldayıb, əllərini başına apardı. Ravik kişidən soruşdu:

– Nə vaxtdan başlayıb?

– Qaranlıq düşəndən. Mən yox idim. Demişdilər, Haiti konsulluğuna gedim, bəlkə, bir şey çıxdı. Uşağı da götürdüm.. Ancaq heç nə çıxmadı... Heççə nə... Qayıdanda gördük ki, çarpayının üstündə oturub qışqırır...

Ravik iynə hazırladı.

– Yatırmış?

Kişi yazıq-yazıq onun üzünə baxdı:

– Bilmirəm... Heç belə olmamışdı. Müalicə üçün pulumuz yoxdur. Bizim... heç sənədimiz də qaydasında deyil... Kaş sakitləşəydi! Əzizim, hamı buradadır... Mən də, Ziqfrid də... Həkim də gəlib. Mətbəxböcəyi nə gəzir!



Qadın onun sözünü ağzında qoydu:

– Mətbəxböcəyi! Hər yandan gəlir... Gör necə sürünürlər...

Ravik ona iynə vurdu.

– Əvvəllər də belə olub?

– Xeyr. Başa düşmürəm məhz...

Ravik əlini qaldırdı:

– Yadına salmayın. Bir-iki dəqiqədən sonra əldən düşüb yatacaq. Ola bilsin, yuxuda görüb, səksənib. Sabah ayılanda, bəlkə də, heç xatırlamadı. Siz də yadına salmayın, özünüzü elə aparın ki, guya, heç nə olmayıb.

– Mətbəxböçəyi. – Qadın yuxulu-yuxulu mızıldandı. – İri-iri...

– Bu işıqların hamısı lazımdır ki?

– Elə hey qışqırıb «işıq, işıq» deyirdi, ona görə yandırdıq.

– İşığı söndürün, şamlara isə hələlik dəyməyin, qoyun tamam yuxuya getsin. İndicə yatacaq, dozanı çox eləmişəm. Sabah on birdə gəlib dəyərəm.

– Təşəkkür edirəm. Doktor, deməyinizə görə...

– Xeyr. İndi belə şeylər çox olur. Bir neçə gün ehtiyatlı dolanın, kədərinizi büruzə verməyin.

«Demək asandır!» – Ravik öz otaqına gedərkən ürəyindən keçirdi.

İşığı yandırdı. Çarpayının yanında çoxlu kitab vardı: Seneka, Şopenhauer, Platon, Heraklit, Rilke, Lao-Tszı, Le Taybo, Paskal və bir də İncil... Ən mətin, ən həlim kitablar... Çoxu da balaca formatda nəfis tərtib olunmuşdu. Bu kitablar gəzərgi adamlar üçün idi, çünki onlar özləri ilə çox şey götürə bilməzdilər. Əvvəlcə özü ilə aparacağı, sonra da qalacaq şeylərə baxdı. Atılmalısı çox az idi. Həmişə bu gün, ya sabah tutulacağını gözünün altına alıb yaşamışdı. Adyal da, palto da köhnə dostları kimi yenə ona həyan olacaqdı... Bir də içərisi ovulmuş medaldakı zəhər... Onu özü ilə alman konslagerinə də aparmışdı, həmişə yanında olması o demək idi ki, istədiyi anda özünü öldürə bilər və bu da onun dözümünü artırırdı. Medalı gizlətdi. Yanında olsa, yaxşıdır! Adamı sakitləşdirir. Kim bilir, başına hələ nələr gələcək?! Yenə gestaponun əlinə düşə bilərdi... Stolun üstündə yarım şüşə kalvados da qalmışdı. Bir qədəh içdi. «Fransa! – deyə ürəyindən keçirdi. – Həyatın dinclik nə olduğunu bilməyən beş ili! Üç ay həbsxanada yatdı, gizlicə qalıb yaşadı, dörd dəfə qovuldu, yenə qayıtdı! Beşillik həyat! Pis həyat olmadı...»

## XXXIII

Telefon səsləndi. Yuxulu-yuxulu dəstəyi qaldırdı:
– Ravik! – Dəstəkdən səs gəldi.
– Bəli.
Joan idi.
– Gəl! – Yavaş-yavaş, astadan danışırdı. – Tez gəl, Ravik!
– Yox.
– Mütləq gəl...
– Yox! Məni rahat burax. Tək deyiləm. Gəlməyəcəyəm!
– Kömək elə...
– Heç bir kömək eləyə bilmərəm.
– Başıma iş gəlib... – Səs qırıq-qırıq çıxırdı. – Mütləq... tez...
– Joan! – Ravikin səbri tükəndi. – İndi artistlik vaxtı deyil! Bu tələni bir dəfə qurdun, mən də düşdüm. İndi aldada bilməzsən! Mənimlə işin olmasın, get özünə ayrısını tap!
Cavab gözləməyib dəstəyi yerinə qoydu. Yatmaq istədi, ancaq bir şey çıxmadı. Telefon yenə səsləndi. Götürmədi.

Aramsız zəng səsləri bu bomboz tənha gecənin bağrını dəlirdi. Yastığı götürüb telefonun üstünə qoydu. Boğuq səs bir az da eşidildi, sonra tamam kəsildi.

Ravik gözlədi. Sakitlik idi. Durub siqaret yandırdı. Ancaq ləzzət almadı, onu söndürdü. Kalvadosun qalanı stolun üstündə idi. Bir qurtum alıb, şüşəni kənara qoydu. «Qəhvə yaxşıdır, – deyə ürəyindən keçirdi. – İsti qəhvə, yağ, təzə kökə...»

Səhərə kimi işləyən bir qəlyənaltı tanıyırdı...

Saata baxdı. İkicə saat yatmışdı, ancaq bütün yorğunluğu canından çıxmışdı. İkinci dəfə dərin yuxuya gedib əzgin-üzgün oyanmağın mənası yox idi. Vanna otağına keçib açarları burdu.

Qulağına səs gəldi. Yenə telefon idi? Açarları geri burdu. Qapı tıqqıldadı. Özü də onun qapısını döyürdülər.



Ravik hamam xalatını çiyninə saldı. Qapı yenə bərkdən döyüldü. Joan ola bilməzdi, yoxsa içəri gələrdi. Qapının cəftəsi vurulmamışdı. Açmağa tərəddüd elədi. Əgər polisdirsə...

Qapını açdı. Astanada tanımadığı bir kişi dayanmışdı. Ancaq kiməsə oxşadırdı. Onun əynində smokinq var idi.

– Doktor Ravik?

Ravik dinməyib onu başdan-ayağa süzdü, sonra:

– Nə lazımdır? – deyə soruşdu.

– Doktor Ravik sizsiniz?

– Yaxşısı budur, nə istədiyinizi deyin...

– Əgər doktor Raviksinizsə, təcili Joan Madunun yanına gedin.

– Doğrudan?

– Bədbəxt hadisə üz verib.

– Nə hadisə? – deyə Ravik gülümsədi. İnanmırdı.

– Silahla... Qəsd olub..

– Dəyib? – Ravik hələ də gülümsəyirdi. «Çox güman ki, bu zavallı heyvancığazı qorxutmaq üçün özünü vurmaq istəyib», – deyə ürəyindən keçirdi.

– İlahi... o can üstədir... – kişi pıçıldadı, – gəlin! Ölür... Mən vurmuşam...

– Nə?!

– Bəli... mən...

Ravik xalatı tullayıb, paltarlarını götürdü.

– Taksi aşağıdadır?

– Maşınım var.

– Lənət şeytana! – Ravik xalatı təzədən çiynınə atdı, çantasını, ayaqqabılarını, köynəyini və pencəyini götürdü. – Maşında geyərəm. Getdik! Tez olun!

Maşın südrəngli gecə ilə süzürdü. Şəhər qaranlığa bürünmüşdü. Küçələr dumana, axar səhraya dönmüşdü, bir-birindən seçilmirdi... Hərdən mavi işıqlı tənha lampalar gözə dəyirdi. Maşın, sanki, suyun altı ilə gedirdi...

Ravik köynəyini, ayaqqabılarını geydi, əyninə taxıb gəldiyi xalatı bürmələyib bir küncə dürtdü. Nə corab götürmüşdü, nə də qalstuk...

Nigaran baxışları qaranlıq gecəyə zillənmişdi. Sürücüdən nəsə soruşmağın xeyri yoxdu. O, bütün diqqətini toplayıb maşını bərk sürürdü, gözlərini yoldan ayıra bilməzdi. Danışmağa vaxtı yox idi, çalışırdı ki, başqa maşınla toqquşmasın, adət etmədiyi qaranlıqda yolu itirməsin. «On beş dəqiqə itirdik! – Ravik ürəyindən keçirdi. – Ən azı on beş dəqiqə!»

– Bərk sürün! – dedi.

– Bacarmıram... fənərsiz qaranlıqdır... Hava hücumu...

– Cəhənnəmə olsun, fənərləri yandırın!

Kişi uzaqvuran işıqları yandırdı. Tində dayanmış polislər qışqırışdılar. Qarşıdan gələn «Reno»nun sürücüsünün gözü qamaşdı, az qaldı, onların belinə çıxsın...

– Sürün! Cəld olun!

Maşın sərt bir təkanla evin qabağında dayandı. Lift aşağıda idi, qapısı da açıq... Kimsə yuxarıda zəngi hirsli-hirsli basırdı. Çox güman ki, kişi çıxanda qapını örtməyi unutmuşdu. «Yaxşı oldu! – Ravik fikirləşdi. – Bir-iki dəqiqə tez olar...»

Lift sürünə-sürünə yuxarı qalxırdı... Bir dəfə də belə olmuşdu! Onda yaxşı qurtardı! İndi də elə olacaq... Lift birdən dayandı. Kimsə pəncərəsindən baxıb, qapını açdı:

– Bu, nə deməkdir? Lifti də bu qədər aşağıda saxlamaq olar?

Bayaq zəngi basan kişi idi. Ravik onu geri itələyib qapını örtdü:

– Bircə dəqiqə! – dedi. – Biz qalxaq, sonra...

Kişi onları söydü. Lift sürünməyə başladı. Dördüncü mərtəbədəki kişi elə hey hirslə zəngi basırdı. Lift dayandı. Ravik qapını tez açdı ki, kişi aşağıda səfehlik eləyər, onlar çıxmamış lifti tərpədər...

Joan çarpayıda uzanmışdı. Geyimli idi. Əynindəki axşam paltarının düymələri boğazınacan bağlı idi. Üstündə qan ləkəsi vardı. Döşəmə də qanlı idi. Burada yıxılmışdı... O səfeh də qucağına götürüb, çarpayıya uzatmışdı...

– Sakit ol! – Ravik ona ürək-dirək verdi. – Sakit ol! Hər şey qaydasına düşəcək. Qorxulu şey deyil...

O, paltarın döş hissəsini kəsib ehtiyatla aşağı qatladı. Sinəsi salamat idi. Boğazına dəymişdi. Qırtlağa toxunmayıb, yoxsa danışa bilməzdi... Arteriya da salamat idi...

– Ağrıyır? – deyə soruşdu.

– Hə...

– Çox?



– Hə...

– İndi keçib gedər.

İynə hazır idi. Joanın gözlərinin içinə baxdı:

– Heç nə deyil... Ağrını kəsmək üçündür. Bu dəqiqə kəsəcək...

İynə vurdu.

– Vəssalam, qurtardı... – Sonra kişiyə tərəf döndü. – Passi 27–43-ə zəng eləyin, təcili yardım çağırın. Deyin ki, iki sanitar da gəlsin. Tez olun!

– Mənə nə olub? – Joan güclə danışırdı.

– Passi 27–43! – Ravik təkrar etdi. – Tez olun! Cəld! Zəng eləyin!

– Mənə nə olub... Ravik?

– Qorxulu heç nə yoxdur. Burada müayinə etmək olmaz. Xəstəxanaya getməlisən...

Joan diqqətlə ona baxdı. Üzündəki ənlik-kirşan bir-birinə qarışmışdı, gözlərinə çəkdiyi qara boya kirpiklərinə süzülürdü, dodağındakı rəngin yarısı da silinmişdi. Sifətinin bir tərəfindən Joan ucuz sirk təlxəyinə, bir tərəfindən də yaşı ötmüş yorğun-arğın fahişəyə oxşayırdı. Saçları isə yenə əvvəlki kimi parıldayırdı.

– Təşrih olunmaq istəmirəm, – deyə o pıçıldadı.

– Baxarıq. Bəlkə də, heç lazım gəlmədi.

– Bundan... – O, sözünü axıra çatdırmadı.

– Yox.. Heç nə olmaz... Lazım gələn alətlərin hamısı oradadır.

– Alətlər...

– Yoxlamaq üçündür. Mən indi... Qorxma, ağrıtmayacaq...

İynə təsir eləmişdi. Ravik ehtiyatla yaraya baxanda onun gözlərində donub qalmış qorxu ərimişdi. Kişi qayıtdı:

– Təcili yardım yola düşdü.

– Otey 13–57-yə zəng vurun. Xəstəxanadır, özüm danışacağam.

Kişi itaətlə çıxdı.

– Kömək edəcəksən? – Joan pıçıldadı.

– Bəs necə...

– Ağrıdan qorxuram...

– Ağrı olmayacaq.

– Bacarmaram... Ağrıya dözə bilmərəm... – Onu yavaş-yavaş yuxu aparır, səsi batırdı. – Dözə bilmərəm...

Ravik güllə dəyən yerə baxdı. Qalın damarlara toxunmamışdı. Özü də içəridə qalmışdı. Heç nə demədi. Yaranın ağzına kompres qoyub sarıdı. Qorxduğu şeyi Joana demədi...

– Səni çarpayıya kim uzandırdı? Özün gəldin?

– O...

– Sən özün yeriyə... bilirdin?

Təzədən qorxu çökən gözlər ona zilləndi, sanki, bir cüt bulanmış göl idi...

– Nə?.. Elədir? Mən... yox... Ayağımı tərpədə bilmədim... Qıçım... Nə olub, Ravik?

– Heç nə... Belə olacağını bilirdim... Düzələcək.

Kişi qayıtdı:

– Xəstəxana.

Ravik tələsik telefona tərəf getdi.

– Kimdir? Ejeni? Palata... Bəli... Veberə də zəng eləyin. –Sonra yataq otağına tərəf boylanıb, yavaşdan əlavə elədi. – Hazırlayın, gələn kimi başlayacağıq. Təcili yardım çağırmışam... Bədbəxt hadisədir... Bəli, bəli, elədir... Bəli... On dəqiqəyə...

Dəstəyi asdı. Bir xeyli yerindən tərpənmədi. Stol. Bir şüşə nanəli araq. Adam lap iyrənir... Qədəhlər... Yumşaq, ətirli siqaretlər... Tfu! Lap o dəhşətli filmlərdə olduğu kimidir. Xalçanın üstündə də tapança... Qan ləkəsi... Heç həqiqətə

oxşamır... «Yox, niyə özümü aldadıram, hamısı həqiqətdir! – İndi bildi ki, onu gətirən kişi kimdir. Dümdüz çiyinləri olan pencək, lak vurub səliqə ilə daranmış saçlar, yol uzunu əsəblərinə toxunan «Şevalye d`Orse» ətri, barmaqlarındakı üzük... Onda hədə-qorxusuna lağ elədiyi aktyor idi. – Yaxşı nişan alıb... Yox, heç nişan almayıb... Belə düz nişan almaq olmaz! Yalnız vurmaq istəməyəndə belə dəyər...»

Geri qayıtdı. Aktyor çarpayının yanında diz çökmüşdü. Bəli, diz çökmüşdü. Başqa cur də ola bilməzdi. Elə hey danışır, sızıldayır, danışır... Nə dediyini özü də bilmir...

– Durun!

Kişi itaətlə ayağa qalxdı. Qeyri-ixtiyari şalvarının dizlərini çırpdı. Ravik onun üzünə baxdı. Aktyor ağlayırdı. Bircə bu çatmırdı!

– Vurmaq istəmirdim, müsyö... And içirəm! Vurmaq istəmirdim... istəmirdim... Təsadüfən... bədbəxtlik oldu... Kor bir təsadüf...



Ravikin ürəyi bulandı. Kor təsadüf! İndicə başlayacaq qafiyə ilə danışmağa!

– Bilirəm. İndisə aşağı düşün, təcili yardımı gözləyin.

Kişi nəsə demək istədi.

– Gedin! O lənətə gəlmiş lifti hazır saxlayın! Allah bilir, xərəyi ora necə yerləşdirəcəyik...

– Mənə kömək edəcəksən, Ravik? – Joan yuxulu-yuxulu dilləndi.

– Hə... – Ravikin səsindən ümidsizlik yağırdı.

– Gəldin... Sən gələndə rahat oluram... – Ənlik-kirşanı qarışmış sifətə təbəssüm qondu.

– Əzizim, mən... – Kişi qapının ağzından dilləndi.

– Rədd olun! – Ravik qışqırdı. – Rədd olun, gedin!

Joan bir anlığa sakitcə uzanıb qaldı. Sonra gözlərini açdı.

– O səfehdir! – dedi. Qəribə də olsa, bu sözləri çox aydın tələffüz elədi. – Düz deyir, yazıq eləcə qorxutmaq istəyirdi. – Onun gözlərində qəribə, demək olar ki, hiyləgər bir ifadə oynadı. – Heç mən də inanmadım, daha da qızışdırdım...

– Sənə danışmaq olmaz..

– Özündən çıxardım... – Onun gözləri qıyıldı. – Gör axırı da nə oldu, Ravik... Mənim həyatım... Vurmaq istəmirdi... Dəydi... Belə oldu...

Gözlər yumuldu, təbəssüm yoxa çıxdı. Ravik qapını dinşədi...

– Xərəyi liftə yerləşdirə bilmərik, çox dardır. Gərək, maili götürək.

– Pilləkənlərdəki duracaqlardan keçirə bilərsiniz?

Sanitarlar çıxdılar.

– Bəlkə də... Bir az qaldırsaq, keçər. Onu möhkəm-möhkəm bağlasaq, yaxşıdır.

Joanı bərk-bərk xərəyə sarıdılar. Alayuxulu idi, hərdən zarıyırdı. Sanitarlar onu götürüb çıxdılar.

– Açarınız var? – deyə Ravik aktyordan soruşdu.

– Mən... xeyr... Nəyə görə?

– Qapını bağlamaq üçün.

– Xeyr. Ancaq haradasa, buralarda olmalıdır.

– Tapın, qapını da bağlayın! – Sanitarlar artıq birinci duracağa çatmışdılar. – Tapancanı da götürün, yolda tullayarsınız.

– Mən... mən... polisə gedəcəyəm... Yarası ağırdır?

– Bəli.

Kişinin boyun-boğazından tər elə axırdı ki, deyərdin, dərinin altında sudan başqa heç nə yoxdur. Qayıdıb, otağa girdi.

Ravik xərəyi düşürən sanitarların arxasınca getdi. Pilləkənlərdə elektrik lampaları vardı, üççə dəqiqə yanıb, öz-özünə sönürdü. Onları yandırmaq üçün hər mərtəbədə bir düymə qoyulmuşdu. Sanitarlar düz pilləkənləri rahat düşürdülər, döngələrə çatanda isə vəziyyət çətinləşirdi. Keçirmək üçün xərəyi başları üzərinə qaldırmalı olurdular. Divarlarda iri kölgələr oynaşırdı. «Nə vaxtsa bir dəfə də belə olmamışdımı? – Ravik ürəyindən keçirdi. – Deyəsən, haradasa görmüşəm...» Yadına düşdü. Lap əvvəllər, yeni tanış olanda Raçinskini belə aparırdılar...

Sanitarların ucadan danışmağına, xərək toxunduqca divardan qopan suvağın səsinə qapılar açıldı və onların arasından maraq dolu sifətlər, dağınıq saçlar, pijamalar, yuxulu gözlər, ilan zəhəri kimi yamyaşıl, güllü, al-qırmızı ipək gecəköynəkləri göründü. İşıq yenə söndü. Sanitarlar qaranlıqda donquldana-donquldana dayandılar:

– İşıq!

Ravik düyməni axtardı. Əli kiminsə döşünü qarmaladı, üzünə nəfəs dəydi, ayağı nəsə yumşaq şeyə toxundu. İşıq yandı. Saçları sarı rəngə boyanmış bir qadın gözlərini ona zilləmişdi. Ətli yanaqları qırış-qırış idi, üzünə çəkdiyi kold-krem işıldayırdı, əli ilə də min cür haşiyəli-bəzəkli ipək xalatının yaxasını tutmuşdu. Elə bil, piy basmış buldoq idi, yorğana bükmüşdülər...

– Ölüb? – deyə qadının gözləri işıldadı.

– Xeyr.

Ravik yoluna davam etdi. Nəsə zingildədi, fınxırdı. Pişik imiş, ayağının altından sıçradı.

– Fifi! – Qadın güclə aşağı əyildi. – İlahi, Fifi, səni ayaqladılar?

Ravik aşağı düşdü. Xərək löngər vura-vura gedirdi..

Joanın yalnız başı görünürdü, sanitarların hərəkətinə uyğun tərpənirdi. Gözlərini seçə bilmirdi.



Axırıncı duracaq. İşıq yenə söndü. Ravik yuxarı yüyürüb düyməni axtardı. Həmin anda lift xırıldaya-xırıldaya aşağı düşürdü. Sanki, işıq saça-saça göylərdən enirdi. Qızıl suyuna çəkilmiş məftil səbətin içində aktyor dayanmışdı, xəyal kimi səssiz-səmirsiz, Ravikin də, xərəyin də yanından ötüb keçdi. Lifti yuxarıda tapıb minmişdi ki, onlara çatsın. Ağıllı tərpənmişdi, ancaq nədənsə yerinə düşmürdü, adama gülünc görünürdü...

Ravik başını qaldırdı. Canındakı əsməcə keçib getmişdi. Əlləri də daha rezin əlcəklərin içində tərləmirdi. Onları düz iki dəfə dəyişmişdi.

Veber onunla üzbəüz dayanmışdı.

– İstəyirsiniz Martoya zəng eləyin, Ravik. On beş dəqiqəyə buradadır. O işləyər, siz də assistentlik edərsiniz.

– Xeyr, daha gecdir. Dayanıb kənardan baxa da bilmərəm. Özüm eləsəm yaxşıdır.

Ravik dərindən nəfəs aldı. Sakitləşmişdi. İşə başladı. Bu da dəri... Dümağ... Joanın dərisi... Öz-özünə dedi ki, hamının dərisi kimidir. Qan... Joanın qanı... Hamının qanı kimidir... Tampon... Zədələnmiş əzələ... Tampon.. Ehtiyatlı ol! Bir az da irəli... Gümüş sancağın zərrəsi... Saplar... Bir az da irəli... Güllə yeri! Qəlpələr... Bir az da irəli! Güllə yeri gedir, hey gedir və...

Ravik birdən duruxdu. Yavaş-yavaş dikəldi.

– Baxın, Veber... Görürsünüzmü? Yeddinci fəqərə...

Veber yaraya tərəf əyildi:

– Vəziyyət ağırdır...

– Ağırdır! Ümidsizdir... Heç nə eləmək olmaz.

Ravik əllərinə baxdı. Onlar rezin əlcəklərin içində titrəyirdi. Bu əllər qüvvətli idi, bacarıqlı idi, min dəfə yarıb, doğram-doğram olmuş bədənləri min dəfə tikmişdi... Bəzən alınmasa da, əksəriyyəti yaxşı olmuşdu. Hətta bir neçə dəfə möcüzə göstərib, «olmaz»ı «olar» eləmişdi... Ancaq indi... indi... hər şeyin onlardan asılı olduğu bir anda... əllər aciz qalmışdı.... Heç nə eləyə bilməzdi. Heç kəs də bacarmazdı. Təşrihlik bir şey qalmamışdı... Dayanıb, eləcə yaraya baxırdı. İstəsəydi, Martonu çağırardı, ancaq o da belə deyəcək...

– Heç nə eləmək olmaz? – Veber soruşdu.

– Heççə nə... Əl dəysə, daha da pisləşəcək, zəifləşəcək... Görün güllə hara ilişib qalıb?! Çıxarmaq da olmaz...

Ekranın arxasından Ejeninin səsi gəldi:

– Nəbzi çox bərk vurur! Qalxır! Yüz otuz!

Yaraya kölgə qondu, elə bil, ona qara nəfəs dəydi. Kofein iynəsi əlində hazır idi...

– Koramin! Tez! Bihuşdarını kəsin! – İkinci iynəni vurdu.

– İndi necədir?

– Dəyişmədi.

Joanın qanı hələ də qurğuşun rənginə çalırdı.

– Adrenalin iynəsi, tənəffüs aparatını hazırlayın.

Qanın rəngi getdikcə qaralırdı. Elə bil, bayırda buludlar sürünür, kölgəsi yaranın üstünə düşürdü... Sanki, kimsə pəncərənin qarşısında dayanıb pərdələri salırdı.

– Qan... – Ravik ümidsiz-ümidsiz dilləndi. – Qan vurmaq lazımdır. Ancaq qrupunu bilmirəm.

Aparat yenə işləməyə başladı.

– Nə oldu? Nəbzi necədir? Xeyri olmadı?

– Düşür.. Yüz iyirmi... Zəifdir...

Həyat yavaş-yavaş qayıdırdı...

– İndi necədir? Fərq elədi?

– Dəyişmir.

Bir az da gözlədi.

– Bəs indi? Dəyişmədi?

– Yaxşıdır. Qaydasına düşdü.

Kölgələr çəkildi. Yaranın kənarları yenə qızarmağa başladı. Qan öz qan rənginə düşürdü... Qan kimi də işləyirdi. Aparat da işləyirdi.

– Kirpikləri tərpənir... – Ejeninin səsi eşidildi.

– Eybi yoxdur, qoyun ayılsın.

Ravik yaranı sarıdı.

– Nəbzi necədir?

– Qaydasında.

Veber dilləndi:

– Lap az qalmışdı...

Ravik hiss etdi ki, kirpikləri ağırlaşdı. Tər idi. İri-iri damcılar... Dikəldi. Aparat uğuldayırdı...

– Qoyun hələ işləsin, – deyə stolun baş tərəfinə gedib, orada xeyli dayandı. Heç nə haqda fikirləşmirdi. Gah aparata, gah da Joanın üzünə baxırdı. Joanın yanaqları səyriyirdi. Hələ sağ idi. Veberə tərəf döndü:



– Şok olub. Qanından analizə göndərmək lazımdır. Haradan qan ala bilərik?

– Amerika qospitalından.

– Yaxşı, baxarıq. Köməyi olmayacaq, ancaq bir az uzadar... – O, aparatı yoxladı. – Polisə xəbər verməliyik?

– Bəli, mən indiyə kimi verməli idim. O dəqiqə iki nəfər göndərəcəklər ki, dindirsinlər. Bunu istəyirsiniz?

– Xeyr.

– Yaxşı, onda sabah baxarıq.

– Aparatı dayandırın, Ejeni!

Joanın rəngi yavaş-yavaş özünə gəlirdi. Yanaqlarına xəfif qızartı çökürdü. Nəbzi qaydasında idi, zəif döyünsə də, aydınca bilinirdi.

– Palataya aparın. Yanında özüm qalacağam...

Joan qımıldandı. Bir əli tərpəndi. Sağ əli idi. Solu tərpədə bilmirdi...

– Ravik...

– Hə...

– Təşrih elədin?

– Yox, Joan, lazım gəlmədi. Yaranı yuduq, vəssalam.

– Burada qalacaqsan?

– Hə.

Gözləri yumuldu, yuxu apardı. Ravik qapıya sarı getdi. Növbətçi tibb bacısına:

– Mənə qəhvə gətirin, – dedi.

– Kökə də?

– Xeyr, təkcə qəhvə.

Qayıdıb pəncərəni açdı. Xoş, parlaq bir səhər açılırdı. Damlardakı novalçanın üstünə qonmuş sərçələr cikkildəşirdi. Ravik pəncərənin qabağında oturub, siqaret yandırdı, tüstünü çölə üfürdü.

Tibb bacısı qəhvə gətirdi. Onu yanına qoyub içə-içə, «siqaret çəkə-çəkə pəncərədən baxdı. Geri dönəndə səhərin parlaq işığına öyrəşmiş gözləri qaraldı. Gəlib Joana baxdı. Yatırdı. Üzünü yumuşdular, rəngi avazımışdı. Dodaqları heç seçilmirdi.

İçində qəhvədanla fincan olan məcməyini götürüb çıxdı, onu dəhlizdəki stolun üstünə qoydu. Dəhlizdən mastika, qan-irin qoxusu gəldi. Tibb bacısı bir vedrə işlənmiş tənzif aparırdı... Haradasa tozsoran uğuldayırdı...

Joan qımıldandı. İndicə ayılacaq! Ağrılar başlayacaq. Getdikcə də kəskinləşəcək... Ya bir neçə saat, ya da bir neçə gün yaşayardı... Ağrılar o qədər kəskinləşəcək ki, daha iynənin də köməyi olmayacaq...

Ravik iynə-dərman gətirməyə getdi. Qayıdanda Joan gözlərini açdı. Ravik diqqətlə ona baxdı.

– Başım ağrıyır... – Joan zəif səslə dilləndi.

Ravik gözlədi. Joan başını tərpətmək istədi, sanki, kirpikləri ağırlaşmışdı, döndərə bilmirdi. Birtəhər gözlərini Ravikə tərəf çevirdi:

– Elə bil, qurğuşundur... – Joan getdikcə ayılırdı. – Dözə bilmirəm...

Ravik iynə vurdu:

– İndi keçib gedər.

– Əvvəlcə belə ağrımırdı... – Başını tərpətdi, güclə pıçıldadı. – Ravik... mən əzab çəkmək istəmirəm... Mən... Söz ver ki, əzab çəkməyə qoymayacaqsan... Nənəm... Onu görmüşəm... Elə olmaq istəmirəm... Heç nə kömək eləmirdi... Söz ver...

– Söz verirəm, Joan! Sən çox əzab çəkməyəcəksən... Ağrı görməyəcəksən...

Joan dişlərini bir-birinə sıxdı:

– Tez kəsəcək?

– Hə... Bu dəqiqə.. Bir-ikicə dəqiqə...

– Qoluma... nə olub?

– Heç nə... İndi tərpədə bilmirsən... Yaxşı olacaq...

– Bəs ayağım... sağ ayağım...

Ayağını tərpətmək istədi, ancaq bacarmadı.

– O da belədir, Joan. Heç nə yoxdur, düzələcək...

Joan başını tərpətdi.

– İstəyirdim... başqa cür... yaşayam... – deyə pıçıldadı.

Ravik dinmədi. Nə desin? Bəlkə də, doğrudan, elə idi... Kim istəmirdi bunu?!

Joan başını yenə narahatçılıqla tərpətdi, yeknəsəq, iztirab dolu səsi eşidildi:

– Yaxşı ki... gəldin... Sənsiz halım necə olardı?!

– Hə...

«Eyni şey olardı, – deyə ümidsiz-ümidsiz ürəyindən keçirdi. – Eyni şey olardı! Lap baytar həkimi də mən eləyəni bacarardı. Kim olur olsun... Ömrümdə tək bircə dəfə bildiklərim, öyrəndiklərim belə lazım oldu, onda da heç nə... Mən elədiklərimi istənilən ara həkimi də eləyərdi... Heç nə...»



Joan günorta hər şeyi başa düşdü. Ravik demədi, özü qəfil başa düşdü.

– Mən şikəst olmaq istəmirəm, Ravik... Ayaqlarıma nə olub... heç birini...

– Heççə nə... Ayağa duran kimi düzələcək, yeriyəçəksən...

– Dura... bilsəm... Niyə aldadırsan? Lazım deyil...

– Aldatmıram, Joan.

– Yox, elə demək sənin borcundur... Qoyma məni böyrü üstə qalmağa! Hər yerim ağrıyır... Söz ver...

– Söz verirəm.

– Ağrılar güclənəndə dərman ver... Nənəm... beş gün... böyrü üstə qaldı... zarıdı... Mən elə olmaq istəmirəm, Ravik...

– Olmayacaqsan! Sən elə ağrılar görməyəcəksən..

– Güclənəndə, təsirli dərman ver... Birdəfəlik eləsin... Mütləq ver... Lap istəməsəm də... Huşumu itirsəm də... Bu, mənim son arzumdur... Söz ver...

– Söz verirəm! Ancaq elə dərman lazım olmayacaq...

Gözlərindəki qorxu nişanəsi yox oldu. Birdən-birə elə sakitləşdi ki!

– Bunu... eləməyə... haqqın var... – O pıçıldadı. – Sən olmasaydın... mən indi yaşamazdım...

– Boş-boş danışma! Niyə yaşamırdın?!

– Yox... Onda mən... Sənə birinci dəfə rast gələndə... nə edəcəyimi bilmirdim... Bu bir ili sən mənə bağışladın... Sən bağışladın! – Başını yavaş-yavaş Ravikə tərəf döndərdi. – Niyə mən sənin yanında qalmadım, Ravik?!

– Günah məndə oldu, Joan...

– Yox... günah... bilmirəm....

Günəşin qızılı şəfəqləri pəncərəni döyürdü. Pərdələr salınmışdı, ancaq işıq yan-yörəsindən içəri dolurdu. Joan dərmanın təsirindən yarıyuxulu idi. Əvvəlki Joandan nişanə qalmamışdı. Elə bil, bir-iki saatın içində ac canavarlar onu didib parçalamışdı. Bədəni adyalın altında yumağa dönmüşdü, müqavimət hissi sönüb getmişdi. Gah yatır, gah ayılır, gah huşunu itirir, gah da lap aydınca danışırdı. Ağrılar kəskinləşmişdi. Zarımağa başladı. Ravik iynə vurdu.

– Başım... – O mızıldandı. – Yaman ağrıyır...

Bir az keçəndən sonra yenə danışmağa başladı:

– İşıq... Çoxdur... Gözüm qamaşır...

Ravik gedib jalüzü aşağı buraxdı, pərdəni kip çəkdi. Otaq qaranlıqlaşdı. Qayıdıb çarpayının yanında oturdu.

Joanın dodaqları tərpəndi:

– Nə çox çəkdi... Dözə bilmirəm, Ravik...

– Bir-iki dəqiqə də döz.

Joan sakitləşdi. Qolları adyalın üstünə düşmüşdü.

– Sənə... çox şey... deməliyəm...

– Sonra deyərsən, Joan.

– Yox... indi.... Gec olar... Çox şeyi başa... salardım...

– Mənə elə gəlir, lazım olanları bilirəm, Joan!

– Bilirsən...?

– Deyəsən...

Ravik birdən onun bədəninin qıc olduğunu gördü. Hər iki qıçını iflic vurmuşdu. İndi də qollarını... Sinəsi hələ qalxıb-düşürdü.

– Özün bilirsən... mən həmişə... səninlə...

– Bilirəm, Joan!

– Qalanlar... hamısı... boş şey... idi...

– Hə, bilirəm...

Joan duruxdu. Güclə nəfəs alırdı.

– Qəribədir... – deyə lap astadan pıçıldadı. –Sevən adam da... ölərmiş...

Ravik ona tərəf əyildi. İndi bir qaranlıq qalmışdı, bir də Joanın sifəti...

– Sənə... yaxşı... olmadım... – Joan pıçıldadı.

– Sən mənim həyatım idin!

– Mən... istəyirəm... əllərimi... Səni quçaqlamaq... istəyirəm... Qollarım... qalxmır...

Ravik gördü ki, o bütün varlığı ilə qollarını qaldırmaq istəyir.

– Sən mənim qollarımın arasındasan, – dedi. – Mən də sənin...

Joan bir anlığa heç nəfəs də çəkmədi. Gözləri yumulmuşdu, onları açdı. Bəbəkləri böyümüşdü. Ravik bilmədi, Joan onu görür, ya yox...

– Ti amo![1] – deyə pıçıldadı.



O, indi uşaqlıq çağlarının dilində danışırdı. Elə yorulmuşdu ki, başqa dildə danışa bilməzdi. Ravik onun hərəkətsiz əllərini ovcuna aldı. Sanki, içində nəsə qırılıb düşdü.

– Sən mənə həyat verdin, Joan! – Bu sözləri uzaqlara zillənmiş gözlərə deyirdi. – Sən mənə həyat verdin! Mən daş kimi bir şey idim... Məni yaşadan sən oldun!

– Mi ami?[2]

Bu sual, bütün günü oynayıb əldən düşmüş uşağı yatmaq üçün yerinə uzadanda verilən sual idi...

– Sevmək nədir ki, Joan? Yox, sevmək çox azdır... Bu, bircə tərəfidir... Dəryadan bir damladır... Ağacdan bir yarpaqdır... O, nədir ki!

– Sono stata... sempre con te[3]...

Ravik onun əllərindən tutmuşdu. O əllərdən ki, artıq heç nə hiss eləmirdi...

– Sən də həmişə mənimlə olmusan, – dedi və hiss eləmədi ki, birdən-birə almanca danışmağa başladı. –Sən həmişə mənimlə olmusan... Sevəndə də, nifrət edəndə də, biganə qalanda da... həmişə elə olub. Sən həmişə qəlbimdə olmusan...

Bu vaxta kimi bir-biri ilə əcnəbi dillərdə danışmışdılar.

---

[1] Sevirəm səni! *(ital.)*

[2] Məni sevirsən? *(ital.)*

[3] Mən həmişə səninlə idim... *(ital.)*

İndi birinci dəfə, heç birinin də xəbəri olmadan, hərə öz ana dilində danışırdı. Sözlərin bənd-bərəsi dağılmışdı və bir-birini həmişəkindən də yaxşı başa düşürdülər.

– Baciami...[1]

Ravik onun od tutub alışan qupquru dodaqlarından öpdü.

– Sən həmişə mənimlə olmusan, Joan, həmişə...

– Sono stata... perduta... senza di te...[2]

– Mən də sənsiz yetim qalardım. Sən mənim gözümün işığı idin... Həyatımın şirini də sən oldun, acısı da... Sən məni qəflət yuxusundan oyatdın, həm özünü mənə bağışladın, həm də məni özümə qaytardın!

Joan bir neçə dəqiqə hərəkətsiz qaldı. Ravik onun üzünə baxdı. Bütün əzalar ölmüşdü, yaşayan təkcə gözləri, dodaqları və bir də nəfəsi idi. Bildi ki, iflic yavaş-yavaş nəfəs tellərini də vurur... Daha danışa bilmədi, təngnəfəs oldu, dişləri şaqqıldadı, üz-gözü əyildi. Ölümlə döyüşürdü. Boğazı qıc olmuşdu, nəsə demək istədi, dodaqları titrədi. Sonra xırıldadı... Dəhşətlə xırıldadı və axır ki, səs çıxdı:

– Kömək elə! Kömək! İndi...

İynə əlində hazır idi...

Onu yavaş-yavaş, əzab çəkə-çəkə, boğula-boğula ölməyə qoymazdı! Boş yerə niyə əzab çəksin! İndi onu yalnız və yalnız ağrılar gözləyirdi! Kim bilir, neçə saat çəkərdi...

Joanın kirpikləri tərpəndi. Sonra sakitləşdi. Dodaqları yumuldu. Nəfəsi də dayandı...

Ravik gedib pərdələri geri çəkdi, jalüzü qaldırdı. Joanın yanına qayıtdı. O donmuş sifət heç deməzdin Joanındır...

Qapını bağlayıb, qəbul otağına getdi. Ejeni xəstəlik tarixçələrini vərəqləyirdi.

– On ikinci palatadakı xəstə öldü, Ejeni.

O, gözlərini kağızlardan ayırmadan başını tərpətdi.

– Doktor Veber otağındadır?

– Deyəsən...

Ravik dəhlizlə gedəndə gördü ki, bəzi otaqların qapısı açıqdır. Veberin otağına tərəf addımladı.

– On ikinci palatadakı xəstə öldü, Veber. Polisə xəbər verə bilərsiniz.

---

[1] Məni öp... *(ital.)*

[2] Sənsiz... mən yaşaya bilməzdim *(ital.)*

Veber heç başını da qaldırmadı:

– Polisin indi bundan da vacib işləri var...

– Nə?

Veber «Matyen» qəzetinin xüsusi buraxılışına işarə etdi. Alman qoşunları Polşaya girmişdi.

– Nazirlikdən dedilər ki, müharibə elan olunacaq.

Ravik qəzeti yerinə qoydu:

– Başladı, Veber...

– Bəli! Bu da sonu! Yazıq Fransa...

Ravik bir az da oturdu. Hər şey daha öz mənasını itirmişdi.

– Təkcə Fransa deyil... Çox şeydir, Veber...

Veber döyükə-döyükə onun üzünə baxdı:

– Mənim üçün Fransa deməkdir. Məgər bu azdır?

Ravik cavab vermədi.

– Neyləmək fikrindəsiniz? – deyə bir azdan soruşdu.



– Bilmirəm. Yəqin ki, öz polkuma gedəcəyəm. Bura da, – o, qeyri-müəyyən tərzdə əlini yellətdi, – kiməsə qalar...

– Heç kəsə verməyin. Müharibədə hospital çox lazım olur. Sizi aparmazlar.

– Qalmaq istəmirəm.

Ravik ətrafına baxdı:

– Bu gün burada axırıncı günümdür, – dedi. – Mənə elə gəlir, hər şey qaydasındadır. Uşaqlıqdan elədiyimiz təşrih müvəffəqiyyətli oldu, öd kisəsini kəsdiyimiz də sağalır. Xərçəngə əlac yoxdur, təzədən təşrih eləməyin nə mənası?! Vəssalam...

– Niyə? – Veber yorğun-yorğun dilləndi. – Niyə axırıncı gününüz olur?

– Müharibə olan kimi bizi həbs edəcəklər. – Ravik gördü ki, Veber nəsə demək istəyir, ancaq imkan vermədi. –Gəlin mübahisə eləməyək. Olmalıdır və ona görə də olacaq!

Veber oturdu:

– Daha heç nə deyə bilmərəm. Bəlkə də, elə olacaq. Ya da bizimkilər müharibə eləmədi, təslim oldu... Bilmək olmaz...

Ravik ayağa durdu:

– Tutulmasam, axşam gələcəyəm. Səkkizdə.

– Oldu.

Ravik çıxdı. Qəbul otağında aktyoru gördü. Onu tamam unutmuşdu. Kişi onu görən kimi sıçrayıb qalxdı:

– Vəziyyəti necədir?

– Öldü...

Kişi döyükə-döyükə qaldı:

– Öldü?! – Ürəyini tutub səntirlədi.

«Əclafın artistlik eləməyinə bax! – Ravik ürəyindən keçirdi. – Yəqin, buna oxşar rolları çox oynayıb, öz başına gələndə də rola girir. Ancaq, bəlkə də, doğrudan, ürəyi ağrıdı, sənətindən gələn jestlər isə onun həqiqi iztirablarını belə gülünc hala salır...»

– Onu görə bilərəm?

– Nə üçün?

– Ona bir də baxmalıyam! – Kişi əllərini ürəyinin üstünə qoydu. Əlində ipək lentli açıq qəhvəyi şlyapa tutmuşdu. – Başa düşün! Mən...

Onun gözləri yaşardı.

– Bura baxın, – Ravikin səbri tükəndi, – yaxşısı budur, rədd olun! O ölüb, təzədən dirildə bilməzsiniz. O iztirablarınızı da özünüzə saxlayın! Cəhənnəm olun! Heç kimin marağı yoxdur ki, sizə bir il iş kəssinlər, ya da ruhi xəstə kimi buraxsınlar... Onsuz da bir neçə ildən sonra ələ gətirmək üçün başqa qadınların yanında bununla öyünəcək, «mən, mən» deyəcəksiniz! Rədd olun, axmağın biri axmaq!

Aktyoru qapıya tərəf itələdi. O, bir az dartındı... Qapıya çatanda geri döndü:

– Daşürəkli əclaf! Sales boches!

Küçələr adamla dolu idi. Onlar dəstə-dəstə yığışıb hərisliklə reklam-qəzetin tez-tez qaçan hərflərini izləyirdilər. Ravik Lüksemburq parkına getdi. Tutulmamışdan qabaq bir neçə saat tək qalmaq istəyirdi.

Bağ bomboş idi və qızmar avqust günəşinin tellərinə bürünmüşdü. Ağaclar artıq payız nəfəsini duyurdu. Ancaq bu nəfəsdən solğunluq deyil, yetkinlik ətri gəlirdi. Günəşin özü də qızılı-mavi rəngə çalırdı və deyərdin, yayın sonuncu ipək bayrağıdır.

Ravik çox oturdu. Gördü ki, günəşin rəngi dəyişir, kölgələr uzanmağa başlayır. Bilirdi ki, azadlığın son saatlarıdır. Müharibə elan ediləndən sonra «İnternasional»ın sahibəsi daha heç kəsi saxlaya bilməyəcək. Rolandanı xatırladı. Daha o da kömək eləyə bilməzdi. Heççə kəs... Bir yana qaçmaq istəsə də, casus kimi tutulardı...

Axşam düşənə kimi oturdu. Kədərli deyildi. Keçmiş xatirələr bir-bir gəlib gözləri önündən keçdi. Surətlər və illər... Lap axırda da Joanın donmuş sifəti...

Saat yeddidə durdu. Bilirdi ki, bu qaranlıq parkdan getmək, azadlığın son saatlarından ayrılmaq deməkdir. Elə küçəyə çıxan kimi qəzetlərin xüsusi buraxılış nömrələrini aldı. Müharibə elan edilmişdi!

Qəlyənaltılarından birinə girdi, bir az oturdu. Ancaq içəridə radio yox idi. Sonra xəstəxanaya yollandı. Veber onun qabağına gəldi:

– Qeysər kəsiyi eləmək lazımdır. İndicə gətiriblər. Eləyərsiniz?

– Əlbəttə!

Paltarını dəyişməyə getdi. Yolda Ejeniyə rast gəldi. O, Raviki görəndə duruxdu.

– Deyəsən, məni daha gözləmirdiniz, Ejeni?



– Xeyr... – deyə qız onu qəribə nəzərlərlə süzdü, sonra tələsik yanından keçib getdi.

Qeysər kəsiyi Ravik üçün su içmək kimi bir şey idi və əlüstü elədi. Bir neçə dəfə Ejeninin baxışlarını öz üzərində duydu. Çox təəccübləndi. Görəsən, niyə belə baxırdı?!

Çağa çığırdı. Onu yudular. Ravik körpənin qıpqırmızı sifətinə, xırdaca əllərinə baxdı. «Biz bu dünyaya təbəssümlə gəlmirik!» – deyə ürəyindən keçirdi. Çağanı tibb bacısına verdi. Oğlan idi...

– Kim bilir, hansı müharibə üçün dünyaya gəlib... – deyə Ravik yuyunmağa başladı. Veber də onunla yanaşı əllərini yuyurdu.

– Ravik, əgər, doğrudan da, sizi həbs etsələr, yerinizi mənə bildirməyəcəksiniz?

– Başınızı niyə bəlaya salırsınız, Veber? İndi mənim kimi adamlardan uzaq gəzsəniz, yaxşıdır.

– Niyə? Ona görə ki, almansınız? Siz qaçqınsınız...

– Bəs bilmirsiniz ki, qaçqınların əskisi həmişə tüstülü olur? Onlar vətənləri üçün satqın, qərib ölkədə isə həmişə əcnəbi sayılırlar.

– Bunun mənə dəxli yoxdur. İstədiyim odur ki, sizi lap tez buraxsınlar. Məni şahid kimi göstərə bilərsiniz.

– Yaxşı! – deyən Ravik bilirdi ki, bunu heç vaxt eləməyəcək. – Həkimə hər yerdə iş var. – O, əllərini quruladı. – Siz

mənə yaxşılıq etmək istəyirsiniz? Elə isə Joan Madunun dəfni ilə məşğul olun. Mən çatdıra bilmərəm.

– Arxayın olun! Özgə nə kömək lazımdır? Bəlkə, miras məsələsi və ya...

– Bununla polis məşğul olar. Heç bilmirəm, onun qohumu var, ya yox... Bu, o qədər də vacib deyil...

Ravik paltarını dəyişdi.

– Əlvida, Veber. Sizinlə işləmək çox xoş idi.

– Əlvida, Ravik. Axırıncı təşrihin pulu da qalıb...

– Qoyun qalsın, dəfn üçün lazım olacaq. Yeri gəlmişkən, bahadır, indi pul da verərəm.

– O barədə söhbət ola bilməz, Ravik! Qətiyyən... Harada dəfn etdirim?

– Bilmirəm. Hansı qəbiristanlıq olur, olsun... İndi adını, ünvanını yazaram.

Ravik onları xəstəxananın haqq-hesab kağızlarından birinə yazıb, Veberə uzatdı. Veber onu alıb, üstündə gümüşdən qoyun şəkli həkk olunmuş büllur basmanın altına qoydu.

– Oldu, Ravik! Çox güman ki, bir-iki günə mən də gedərəm. Sizsiz bu cür təşrihlər eləyə bilmərik.

O, Raviklə birlikdə çıxdı. Ravik Ejeni ilə də sağollaşdı:

– Əlvida, Ejeni.

– Əlvida, müsyö Ravik... – O, Raviki diqqətlə süzdü. – Mehmanxanaya gedirsiniz?

– Bəli. Nə olub ki?

– Ah, heç nə... Elə bilirdim...

Qaş qaralmışdı. Mehmanxananın qabağında bir yük maşını dayanmışdı.

– Ravik!

Morozov yaxındakı evlərdən birinin giriş qapısından çıxdı.

– Boris?!

– O xarabaya polis gəlib.

– Bilirəm...

– İvan Klugenin vəsiqəsi yanımdadır. O ölmüş rusu deyirəm. İl yarım vaxtı qalıb. «Şəhrizad»a gedək, şəkilləri dəyişək. Ayrı mehmanxanada rus mühaciri kimi qalarsan...

Ravik başını buladı:

– Böyük risk olar, Boris. Müharibədə saxta sənəd gəzdirmək qorxuludur. Heç olmaması bundan yaxşıdır.

– Bəs neyləmək istəyirsən?

– Mehmanxanaya gedirəm.

– Bu, sənin qəti qərarındır, Ravik?

– Hə, qətidir.

– Lənət şeytana! Kim bilir, hara göndərəcəklər...

– Hər halda, Almaniyaya göndərməyəcəklər. Ondan keçdi... İsveçrəyə də qovmazlar. – Ravik gülümsədi. – Son yeddi ildə birinci dəfədir ki, polis bizi heç yana göndərməyəcək. Belə qiymətə minməyimiz üçün müharibə lazım imiş...

– Deyirlər, Lonşanda həbs düşərgəsi açılır, – Morozov saqqalını didişdirdi. – İşə bax, alman konslagerindən qaçmısan ki, gəlib Fransa konslagerinə düşəsən...

– Bəlkə də, tez buraxdılar.

Morozov dinmədi.

– Məndən nigaran qalma, Boris. Müharibədə həkim çox lazım olur.

– İndi hansı adla tutulacaqsan?



– Öz adımla. Ondan bircə dəfə, özü də beş il bundan qabaq istifadə eləmişəm... – Ravik bir az susandan sonra: – Boris, – dedi, – Joan öldü. Bir kişi güllə ilə vurdu. İndi Veberin xəstəxanasındadır. Onu dəfn etmək lazımdır. Veber söz verib, ancaq bilmirəm, çatdıra biləcəkmi... O da getməlidir. Bu işi boynuna götürərsən? Heç nə soruşma, bircə kəlmə «hə» de, vəssalam.

– Hə.

– Yaxşı, onda əlvida, Boris. Mənim şeylərimdən özünə lazım olanı götürərsən. Mənim otağıma köç... Axı vanna otağından çox xoşun gələrdi. İndisə gedirəm, əlvida...

– Tfu!

– Yaxşı, müharibədən sonra «Fuke» restoranında görüşərik.

– Hansı tərəfdə? «Yelisey çölləri», ya V Georq prospekti tərəfdə?

– V Georq prospekti tərəfdə. Biz səfeh olmuşuq, Boris. Burnu fırtıqlı qəhrəmanlara bax! Əlvida, Boris!

– Tfu! Heç adam kimi də görüşüb ayrıla bilmirik. Yaxın gəl, axmaq!

Morozov Ravikin üzündən öpdü. Saqqalı Ravikin üzünü daladı. Morozovdan qara tənbəki qoxusu gəlirdi. Birtəhər dözdü...

Ravik mehmanxanaya yollandı...

Mühacirlər «katakomba»ya yığışmışdılar. «İlk xristianlara oxşayırlar, – deyə Ravik ürəyindən keçirdi. – İlk avropalılar...»

Süni palmanın altındakı stolun arxasında mülki paltarda bir kişi oturub, onları qeyd edirdi. İki polis də qapını qoruyurdu. Ancaq qaçmaq istəyən yox idi...

– Pasportunuz var? – deyə məmur Ravikdən soruşdu.

– Xeyr.

– Başqa sənədləriniz necə?

– Xeyr.

– Burada gizli yaşayırsınız?

– Bəli.

– Nə üçün?

– Almaniyadan qaçmışam. Bizə sənəd vermirlər.

– Familiyanız?

– Frezenburq.

– Adınız?

– L üdviq.

– Yəhudisiniz?

– Xeyr.

– Sənətiniz?

– Həkim.

Kişi hamısını yazdı.

– Həkim? – deyə kişi balaca bir kağız parçasını gözlərinə yaxınlaşdırdı. – Ravik adlı həkim tanımırsınız?

– Xeyr.

– O da burada qalır. Məlumatımız var...

Ravik diqqətlə kişiyə baxdı. «Ejeni!» –deyə ürəyindən keçirdi. Mehmanxanaya qayıtdığını soruşdu! Ona rast gələndə də çox heyrətləndi! Mətbəxin qapısında dayanmış sahibə də dilləndi:

– Sizə dedim ki, burada elə adam yaşamır.

– Siz danışmayın! – deyə məmur onun sözünü kobudluqla kəsdi. – Onsuz da polisdən xəbərsiz bu qədər adam saxladığınıza görə cəza alacaqsınız.

– Mən bununla fəxr edirəm. İnsanpərvərliyə görə cəza verirlərsə, eybi yoxdur, qoy versinlər.

Məmur, sanki, yenə nəsə demək istədi, ancaq dinməyib, əlini yellətdi. Sahibə təkəbbürlə ona baxdı. Əlaqələri geniş idi, heç nədən qorxusu yox idi. Məmur Ravikə tərəf döndü:

– Şeylərinizi yığışdırın. Özünüzlə dəyişək, bir günlük də yemək götürün. Varsa, adyal da götürün.

Ona bir polis də qoşdular. Otaqların çoxu açıq idi. Ravik çoxdan qablaşdırıb hazır saxladığı çamadanı və adyalı götürdü.

– Özgə heç nə götürməyəcəksiniz? – deyə polis soruşdu.

– Heç nə.

– Bunlar qalır?

– Qalır.

– Bu da? – deyə polis çarpayının yanındakı stolun üstünə qoyulmuş balaca madonna fiqurunu göstərdi. Bunu o vaxt Joan «İnternasional»a göndərmişdi...

– Bu da...

Aşağı düşəndə elzaslı Klarissa ona bir bağlama uzatdı. Ravik gördü ki, bu bağlamadan hamıda var.



– Yeməkdir, – sahibə dilləndi. – Ac qalmayın... Bilirəm ki, getdiyiniz yerdə hələ heç nə hazırlamayıblar...

Sahibə gəc nəzərlərlə məmuru süzdü. O da hirslə:

– Az danışın! – dedi. – Müharibəni mən başlamamışam...

– Bunlar da başlamayıb.

– Məni niyə belə qaralamısınız?! – Məmur yanındakı polisə tərəf döndü:– Qurtardı? Aparın.

Kölgəyə oxşayan dəstə hərəkətə gəldi. Ravikin gözləri «mətbəxböcəyi» deyə qışqıran qadınla ərinə sataşdı. Kişi bir əli ilə arvadının qolundan tutmuşdu və o biri əlində də iki çamadan aparırdı. Biri əlində, biri də qoltuğunda... Bir çamadanı da uşaq sürüyürdü. Kişi imdad diləyən nəzərlərlə Ravikə baxdı. Ravik başını tərpətdi:

– İynə-dərman götürmüşəm, – dedi. – Qorxmayın.

Onlar yük maşınına mindilər. Motor uğuldadı, maşın tərpəndi. Sahibə qapıda dayanıb əl eləyirdi...

– Hara gedirik? – deyə kimsə polisdən soruşdu.

– Bilmirəm.

Ravik, Rozenfeld və yalançı Aron Qoldberqlə yanaşı dayanmışdı. Rozenfeldin əlində futlyar, onun içində də Sezanla Qogen vardı. O, nəyisə ürəyində hesablayırdı.

– İspaniya vizasının vaxtı... – deyə sözə başlayan Rozenfeld nədənsə duruxdu, sonra davam etdi: – Kor yapalaq

aradan çıxdı... Markus Mayeri deyirəm... Dünən Amerikaya getdi.

Maşın silkələnirdi, hamısı bir-birinə qısılmışdı, heç biri də danışmırdı...

Tini buruldular. Ravik gördü ki, fatalist Zaydenbaum da buradadır. Büzüşərək bir güncə çəkilmişdi və:

– Yenə yollardayıq, – dedi.

Ravik ciblərində siqaret axtardı, ancaq tapmadı. Yadına düşdü ki, çamadanda çoxdur.

– Elədir, – dedi. – İnsan çox şeyə dözə bilir...

Maşın Vaqram prospektindən keçib Etual meydanına çıxdı. Heç yerdə işıq yanmırdı. Meydan zülmətə bürünmüşdü. Elə qaranlıq idi ki, heç «Zəfər tağı» da görünmürdü...

# Lissabon gecəsi

*(roman)*

# LİSSABON GECƏSİ

*(roman)*

## I

Gözümü gəmidən çəkmirdim. Sahildən xeyli aralı dayanmışdı, çılçıraq içində, Texoda[1]. Bir həftədir Lissabonda olmağıma baxmayaraq, bu şəhərin laqeyd işığına hələ də alışmamışdım. Baş götürüb gəldiyim ölkələrdə şəhərlər gecə vaxtı kömür mədənləri kimi qaranlıqda uyuyurdu və həmin qaranlıqda bircə dənə fənər orta əsrlərdəki vəba kimi qorxulu idi. Mən iyirminci yüzilin Avropasından gəlirdim.



Yük vurulan gəmi sərnişin daşıyan buxar gəmisiydi. Bilirdim ki, ertəsi axşam yola düşəcək. Çılpaq elektrik çıraqlarının parlaq işığında ət, balıq, konserv, çörək və göyərti yüklənirdi; fəhlələr bağlamaları sürüyə-sürüyə göyərtəyə daşıyır, kran da yeşik və yük taylarını havada elə səssiz yelədirdi ki, deyərdin, çəkisizlik şəraitidir. Gəmi gediş tədarükü görürdü, sanki, bəşəri daşqın çağında Nuhun gəmisi idi. O, doğrudan da, Nuhun gəmisiydi. 1940-cı ilin bu aylarında Avropanı tərk edən hər bir gəmi Nuhun gəmisi sayılırdı. Ararat[2] dağı isə Amerika idi, daşqın da hər gün qalxırdı. O, Almaniya və Avstriyanı çoxdan basmışdı, Polşa və Praqada isə dibi görünmürdü; Amsterdam, Brüssel, Kopenhagen, Oslo və Paris çoxdan bu daşqında yox olmuşdu, İtaliyanın şəhərləri batmaq üzrəydi, İspaniya da qorxusuz deyildi. Portuqaliya sahilləri ədaləti, özgürlüyü və dözümlülüyü vətən və varlıqdan ustün tutan qaçqınlar üçün son sığınacaq olmuşdu. Kim buradan Müqəddəs Amerika Torpağına düşə bilməzdisə, batmışdı. O, imtinalı giriş-çıxış vizalarının, əlçatmaz iş və daldalanma razılıqlarının, qaçqın düşərgələrinin, bürokratiyanın, tənhalığın, qəribliyin və çox

---

[1] *Texo* – Portuqaliyada çay. Lissabon həmin çayın üzərində yerləşir. (Bu və bundan sonrakı ayaq qeydləri tərcüməçininkidir.)

[2] *Ararat* – qədim ibrani dilində ən uca dağ deməkdir

vaxt müharibə, qorxu və qıtlığın nəticəsi kimi hər bir fərdin taleyinə yönəlmiş dəhşətli ümumi biganəliyin burulğanında al qana bulaşmalı olacaqdı. Bu çağlarda insan artıq bir heçdir; keçərli bir pasport, vəssalam.

Oynamaq üçün mən günortadan sonra Estoril kazinosunda olmuşdum. Hələ ki, əynimdə tutarlı bir kostyüm vardı və məni içəri buraxmışdılar. Bəxtimi sınamaq üçün bu, son, ümidsiz bir cəhd idi. Portuqaliyada qalma icazəmiz bir-iki gündən sonra bitirdi və Rutla mənim ayrı vizamız yox idi. Texoda dayanmış gəmi axırıncı idi, Fransada ümid edirdik ki, onunla Nyu-Yorka gedə biləcəyik; amma biletlər bir neçə ay qabaq satılıb qurtarmışdı, bizimsə Amerikaya getmək icazəmiz olmamaqla yanaşı, yolpuluna da üç yüz dollarımız çatmırdı. Burada mümkün olan yeganə bir yolla – oyunla – pul əldə etməyə çalışdım. Mənasız cəhd idi, çünki lap elə udmuş olsaydım da, gəmiyə minmək üçün mütləq möcüzə baş verməli idi. Amma qaçqınlıq və ümidsizlikdə, eləcə də, qorxu içində yaşayanda adam möcüzələrə inanmağa başlayır, yoxsa, yaşaya bilməzsən.

Olub-qalan altmış iki dollarımızdan əlli altısını uduzdum.

* * *

Gecədən xeyli keçmiş sahil nisbətən boşalmışdı. Bununla belə, bir azdan diqqətimi məqsədsiz-məramsız oyan-buyana vurnuxan, sonra da ayaq saxlayıb mənim kimi gəmiyə baxan bir kişi çəkdi. Düşündüm ki, o da bədbəxtlərdən biridir, odur ki, fikir vermədim ta o vaxta qədər ki, gözünü məndən çəkmədiyini hiss etdim. Polis qorxusu qaçqını heç vaxt tərk etmir, hətta yuxuda da, lap heç nədən qorxmalı olmasa belə; ona görə də həmin an özümü darıxan kimi göstərərək sahili asta-asta tərk etdim, qorxmağa səbəbi olmayan adamlar təki.

Azca keçmiş arxamda addım səsləri eşitdim. Tutularamsa, bunu Ruta necə xəbər verəcəyimi götür-qoy edə-edə, yerişimi artırmadan yoluma davam etdim. Pastel rəngli evlər gecə uyuyan kəpənəklər kimi sahilin o başından o qədər aralıydı ki, dalanlarda gizlənmək üçün güllələnmə qorxusu olmadan qaçmaq mümkün deyildi.

Kişi indi yanımca yeriyirdi. Məndən bir az alçaq idi.

«Almansız?» – almanca soruşdu.

Başımı bulayıb, yoluma davam etdim.

«Avstriyalı?»

Cavab vermədim. Həddən artıq ağır-ağır yaxınlaşan pastel rəngli evlərə baxdım. Çox gözəl almanca danışan portuqaliyalı polislərin olduğunu bilirdim.

«Mən polis deyiləm», – dilləndi.

İnanmadım. Mülki geyimdə idi, amma mülki geyimli jandarmlar Avropada məni dəfələrlə həbs etmişdilər. Doğrudur, Parisdə praqalı riyaziyyat professorunun düzəltdiyi sənədlərim yanımdaydı, ancaq azca saxtalığı vardı.

«Gəmiyə necə baxdığınızı gördüm, – dedi. – Ona görə də fikirləşdim ki...»

Etinasız bir baxışla onu süzdüm. Polisə oxşamırdı, amma məni Bordoda yaxalayan sonuncu jandarmın məzarda yatdığı üç gündən sonra məsumlaşan Lazar kimi yanımcıl görkəmi yox idimi?! Ancaq hamısından qəddar çıxdı. Alman hərbi dəstələrinin bir gündən sonra Bordoda olacağını dəqiq billə-bilə məni həbs etdi və dustaqxananın mülayim direktoru bir-iki saatdan sonra məni buraxmasaydı, tamam batmışdım.



«Nyu-Yorka getmək istəyirsiniz?» – soruşdu.

Cavab vermədim. Lazım gələrsə, başından basıb qaça bilmək üçün mənə vur-tut iyirmi metr məsafə lazım olacaqdı.

«Oradakı gəmiyə iki bilet var», – deyib cibinə əl atdı.

Biletləri gördüm. Zəif işığın altında oxuya bilmədim. Amma indi xeyli uzaqlaşmışdıq. Ayaq saxlamağa ürək edə bilərdim.

«Bütün bunlar nə deməkdir, axı?» – portuqal dilində soruşdum. Bir-iki kəlmə bilirdim.

«Götürə bilərsiniz, – dedi. Mənə lazım olmadı».

«Sizə lazım olmadı? Bu, nə deməkdir?»

«Daha mənə lazım deyil».

Kişini diqqətlə gözdən keçirdim. Onu anlaya bilmirdim. Doğrudan da, polisə oxşamırdı. Polis olsaydı, məni tutmaq üçün bu cür gic-gici bicliklərə əl atmazdı. Amma biletlər saxta deyildisə, niyə özünə lazım olmasın? Bəs onları mənə niyə təklif edir? Satmaq üçün? İçimdə nəsə titrəməyə başladı.

«Almağa imkanım yoxdur», – axır ki, almanca dilləndim.

«Bir ətək pul eləyir. Lissabonda varlı mühacirlər tapılar, istədiyiniz pulu ödəyərlər. Ünvanı səhv salmısınız. Mənim pulum yoxdur».

«Satmaq istəmirəm», – dilləndi.

Təzədən biletlərə baxdım.

«Saxta deyillər ki?»

Cavab vermək əvəzinə biletləri mənə uzatdı. Onlar əlimdə xışıldadı. Saxta deyildilər. Bu biletlərə sahib olmaq ölümlə xilas arasındakı fərq idi. Onlardan istifadə edə bilməsəm də, – çünki Amerika vizamız yox idi, sabah günortaya qədər onu almağa bir də cəhd edərdim – ən azı, sata bilərdim. Bu da yarımillik əlavə ömür demək idi. Kişini anlaya bilmirdim. «Sizi başa düşmürəm», – dedim.

«Onlar sizinki ola bilər, – təkrarən dilləndi, – havayı. Sabah günortaya qalmış Lissabondan çıxıram. Bircə şərtim var».

Qollarım yanıma düşdü. Bilirdim ki, ortada nəsə olmalıdır.

«Nə şərt?» – soruşdum.

«Bu gecə tək qalmaq istəmirəm».

«İstəyirsiz, bir yerdə qalaq?»

«Hə. Sabah səhərə qədər».

«Elə bu?»

«Elə bu».

«Daha heç nə?»

«Daha heç nə».

Şübhəli-şübhəli ona baxdım. Biz qəbildən olan insanların hərdən sınıb çilik-çilik olmasına vərdişliydim; çox vaxt təkliyə dözməmələrinə, heç yanda yeri olmayanların məkan qorxusuna, tanımadığı məsləkdaşlarından kiminsə bir gecə adamı intihardan saxlaya bilməsinə; ancaq tam şübhəsiz, belə hallarda adama havayı yardım edilərdi; bunun üçün qiymət kəsilməzdi. Özü də beləsi.

«Harada yaşayırsınız?» – soruşdum.

Əli ilə rədd işarəsi verdi.

«Ora istəmirəm. Oturmalı bir meyxana yoxdur?»

«Yəqin, olar».

«Mühacirlər üçün. Parisdəki «De la Roz» kafesi kimi?»

«De la Roz» kafesini yaxşı tanıyırdım. Rutla orada iki həftə qalmışdıq. Qəhvə sifariş versəydin, sahibkar razılaşardı.

Bir-iki qəzet tapıb döşəməyə sərər, üstündə uzanardın. Heç vaxt masa üstündə yatmamışam; döşəmədən yıxılmaq olmur.

«Beləsini tanımıram», – cavab verdim.

Birini tanıyırdım, amma iki gəmi biletini bağışlamaq istəyən adamı ora aparmazdılar, həmin biletləri çırpışdırmaq üçün hamının bir gözü səndə olardı.

«Mən burada bircə kafe tanıyıram, – kişi dilləndi. – Yoxlaya bilərik. Bəlkə, hələ bağlanmayıb». Yeganə taksini əli ilə çağırıb mənə baxdı.

«Yoxlayaq», – dedim.

Maşına mindik, ünvanı sürücüyə söylədi. Bacarsaydım, Ruta çatdırardım ki, gecə qayıtmayacağam, ancaq birdən, iyi baş aparan qaranlıq taksiyə minəndə içimə elə yad, dəhşətli bir umid doldu ki, az qaldı, başım fırlansın. Bəlkə, bütün bunların hamısı, doğrudan da, gerçək idi, bəlkə, həyatımız hələ sona çatmamışdı və mümkünsüzlük gerçəkliyə çevrilmişdi: xilasımız. Bu yad kişini bir anlığa da tək qoymağa ürək eləmədim.



Praça do Komersionun[1] ətrafına dolanıb bir azdan üzüyuxarı qalxan pilləkən və küçələrin dolanbacına yetişdik. Lissabonun bu hissəsi mənə tanış deyildi; həmişəki kimi kilsələr və muzeylər tanış idi; ona görə yox ki, Allah və sənət vurğunu idim, sadəcə, ona görə ki, kilsə və muzeylərdə adamdan sənəd soruşmurdular. Çarmıxa çəkilənin və sənət ustadlarının qarşısında özünü hələ də insan sayırsan, şübhəli sənədlərlə fərd yox.

Taksidən düşüb pilləkənlərlə və əyri-üyrü küçələrlə yuxarı qalxdıq. Havada balıq, sarımsaq, gecə gülləri, batmış günəş və yuxu iyi vardı. Kənarda Müqəddəs Georq kilsəsi aylı gecənin içindən baş qaldırırdı və işıq şəlalə kimi qatlana-qatlana pillələrlə aşağı sürünürdü. Arxaya qanrılıb limana baxdım. Aşağıda çay vardı, çay da azadlıq demək idi, o, həyat idi, dənizə tökülürdü, dəniz də Amerika idi. Ayaq saxladım.

«Gərək ki, mənimlə zarafat etmirsiniz», – dedim.

«Xeyr», – kişi cavab verdi.

«Gəmi biletlərini nəzərdə tuturam».

Onları sahildə təzədən cibinə qoymuşdu.

---

[1] *Praça do Komersio (Praça do Comercio)* – Bazar meydanı

«Xeyr, – dedi, – zarafat etmirəm». Ağaclarla dövrələnmiş xırda bir meydança göstərdi. «Dediyim kafe oradadır. Hələ bağlanmayıb. Nəzərə çarpmarıq. Demək olar, bura yalnız əcnəbilər gəlir. Bizi sabah yola düşəcək sərnişinlər sayacaqlar. Sonuncu gecələrini Portuqaliyada qeyd edən və gəmiyə minəcək başqaları kimi».

* * *

Kafe bir növ bara bənzəyirdi, kiçicik dördkünc rəqs meydançası və turistlərin gəzişməsi üçün eyvan. Gitara səsini başına almışdı, gitaraçının arxasında fado[1] müğənnisi oxuyurdu. Eyvandakı masaların bir neçəsini əcnəbilər tutmuşdu. Aralarında bal paltarında bir qadın və ağ smokinqdə bir kişi də vardı. Eyvanın qurtaracağında yer tapdıq. Buradan üzüaşağı – Lissabona, solğun işığa qərq olmuş kilsələrə, limana, körpüyə və Nuhun gəmisinə çevrilmiş gəmiyə baxmaq olurdu.

«Ölümdən sonrakı həyata inanırsınız?» – biletli kişi soruşdu.

Başımı qaldırıb baxdım. Hər nə desən, gözləyərdim. Bu isə tam gözlənilməz sual oldu.

«Bilmirəm, – axır ki, cavab verdim. Son illərdə ölümdən öncəki həyatla çox məşğul olmuşam. Amerikaya çatsam, bu barədə fikirləşərəm», – biletləri mənə söz verdiyini bir daha xatırlatmaq üçün əlavə etdim.

«Mən inanmıram», – dedi.

Rahatlandım. Bədbəxt bir insana qulaq asmağa hazır idim, amma mübahisə etməyə həvəsim yox idi. Buna hövsələm çatmırdı. Gəmi aşağıda dayanmışdı.

Kişi bir xeyli beləcə oturdu, sanki, gözləri açıq yatırdı. Sonra, gitaraçı eyvana gələndə ayıldı.

«Soyadım Şvarsdır, – dedi. Öz soyadım deyil, pasportumda olandır. Amma öyrəşmişəm, bu gecəliyinə bəs edər. Fransada çoxmu qaldınız?»

«İmkan daxilində».

«Ölkədən çıxarılmışdınız?»

«Müharibə başlayanda. Başqaları kimi».

Kişi başı ilə razılıq işarəsi verdi.

«Biz də. Xoşbəxt idim», – başını aşağı salıb baxışını

[1] *Fado* – portegiz xalq mahnısı

döndərərək qəfildən asta və tələsik dilləndi: «Çox xoşbəxt idim. Haçansa xoşbəxt ola biləcəyimi düşündüyümdən də xoşbəxt».

Heyrət içində yana çevrildim. Əslində, görkəmi ayrı şey deyirdi. Daha çox miyanə, bir az da ürkək adama bənzəyirdi.

«Haçan? – soruşdum, – yoxsa düşərgədə?»

«Ötən yay».

«1939-da? Fransada?»

«Hə. Yayda. Müharibə başlamamış. İndi də qavraya bilmirəm, necə oldu. Ona görə də kimləsə bu barədə danışmalıyam. Burada heç kimi tanımıram. Onda mənə hər şey aydın olar. Ya da necə var, elə qalar. Gərək, bir dəfə də, – sözünə ara verdi, – başa düşürsünüz?» – xeyli sonra soruşdu.

«Bəli», – deyib ehtiyatla əlavə etdim: «Başa düşməməli heç nə yoxdur, cənab Şvars».



«Ümumiyyətlə, başa düşməli heç nə yoxdur! – cavab verdi, qəfildən, sərt və iztirabla. O, burada, aşağıda, pəncərələri qapalı otaqların birində uzanıb, murdar taxta tabutda, ölü, yoxdur daha həyatda! Bunu başa düşən tapılarmı? Heç vaxt! Nə siz, nə də mən, heç kəs. Kim deyirsə ki, başa düşür, aldadır!»

Susub gözlədim. Adamlarla tez-tez beləcə oturmuşdum. İnsan vətənsiz yaşayanda itkiyə dözmək ağır olur. Səni heç nə qorumur və qəriblik dəhşətli dərəcədə qəribləşir. Ata-anamın Almaniyada qətlə yetirilib yandırıldığı xəbərini alanda mən bunu İsveçrədə yaşamışdım. Anamın sobanın alovundakı gözlərini həmişə xəyalımda canlandırmalı olmuşdum. Bu hiss indi də məndən əl çəkmir.

«Güman edirəm, mühacir kollerinin[1] nə olduğunu bilirsiniz?» – nisbətən sakit dilləndi.

Başımla təsdiqlədim. Ofisiant bir kasa krevet[2] gətirdi. Birdən hiss etdim ki, bərk acmışan və yadıma düşdü ki, günorta heç nə yeməmişəm. Çəkinə-çəkinə Şvarsa baxdım.

«Yeməyinizdə olun, – dedi, – gözləyərəm».

Şərab və siqaret sifariş verdi. Tez-tez yeməyə başladım. Krevetlər təzə və ədviyyatlı idi.

---

[1] *Koller* – at quduzluğu xəstəliyi. Bu xəstəlikdə atlar özünüidarəni itirir. Remark həmin termini işlətməklə mühacirlərin özlərini idarə etmək instinktini itirdiklərini ifadə edir.

[2] *Krevet* – xırda dəniz xərçəngi

«Neynəməli, – dedim, – bərk acmışam».

Yeyə-yeyə Şvarsa baxırdım. Sakitcə oturub üzüaşağı anfiteatra oxşayan şəhəri seyr edirdi, səbirli, acıqsız. Onda simpatiyaya bənzər bir şey duydum. Görünür, yalan nəzakətin qaydalarını çoxdan üstündən atmışdı və bilirdi ki, yanında oturan iztirab keçirsə də, bunun üçün sən duyğusuz olsan belə, ac ola bilərsən və yeyə bilərsən. Başqaları üçün nəsə edə bilmirsənsə, acsansa, çörəyini yesən yaxşıdır, nə qədər ki onu əlindən almayıblar. Bilə bilmirsən ki, haçan alacaqlar.

Boşqabı qırağa itələyib, siqaret götürdüm. Xeyli vaxt idi ki, çəkmirdim. Bu gün oyuna nəsə qoymaq üçün puluma qənaət edirdim.

* * *

«Kolleri 39-un baharında qazandım», – Şvars dilləndi. «Beş ildən çox idi, mühacirətdə idim. 38-in payızında harada idiniz?»

«Parisdə».

«Mən də. O vaxt qol-qanadım sınmışdı. Münhen Sazişindən əvvəl idi. Qorxunun aqoniyası. Doğrudur, hələlik birtəhər gizlənib özümü qoruyurdum, ancaq gücüm qalmamışdı. Müharibə başlayacaqdı, almanlar gələcəkdi və məni tutub aparacaqdılar. Bu idi mənim taleyim. Taleyimə boyun əyməli olmuşdum».

Başımla təsdiqlədim. «İntiharlar dövrü idi. Qəribədir, yarım ildən sonra almanlar, doğrudan da, gələndə intiharların sayı azaldı», – dedim.

«Sonra Münhen sazişi gəldi», – Şvars dilləndi, – 38-in həmin payızında, sanki, həyatını təzədən sənə bağışladılar! Elə bir yüngüllük yarandı ki, hər kəs sayıqlığını itirdi. Parisdə şabalıdlar hətta ikinci kərə çiçək açdı, xatırlayırsınız? O qədər yüngülağıl oldum ki, özümü insan saydım və təəssüf ki, insan kimi də apardım. Polis məni yaxalayıb, ölkəyə növbəti dəfə icazəsiz girdiyimə görə bir aylığına içəri saldı. Sonra köhnə həngamə başladı: məni Bazeldə sərhəddən çölə ötürdülər, isveçrəlilər geri göndərdilər, fransızlar ayrı bir yerə gətirdilər, içəri atdılar. İnsanlarla oynanılan bu şahmat oyununu özünüz gözəl bilirsiniz...»

«Bilirəm. Qışda zarafat deyil. İsveçrə həbsxanaları ən yaxşılarından idi. Hotellər kimi isti».

Yenidən yeməyə girişdim. Xoşagəlməz xatirələrin yaxşı cəhəti də vardı: adamı inandırırdı ki, bir az əvvəl xoşbəxt olmadığını fikirləşməyinə baxmayaraq, yenə də xoşbəxtsən. Xoşbəxtlik nisbi anlayışdır. Bunu dərk edən nadir hallarda tam bədbəxt olar. İsveçrə həbsxanalarında özümü xoşbəxt sayırdım, çünki onlar alman dustaqxanaları kimi deyildi. Budur, kişi oturub qarşımda, özünü xoşbəxt sayır, halbuki Lissabonun harasındasa havasız bir otaqda əzizi taxta tabutda uyuyur.

«Axırıncı dəfə məni buraxanda hədələdilər ki, bir də sənədsiz tutsalar, Almaniyaya göndərəcəklər. Sadəcə, hədə idi, amma məni yaman qorxutdu. Fikirləşməyə başladım ki, doğrudan da, belə şey olsa, nə edərəm. Sonra gecələr yuxuma girirdi ki, oradayam və SS[1] arxamca düşüb. Bu yuxuları o qədər gördüm ki, yatmağa da qorxdum. Belə şeylər sizə tanışdır?»



«Bu barədə doktorluq dissertasiyası yaza bilərdim. Heyif», – dedim.

«Bir gecə yuxuda gördüm ki, vaxtilə yaşadığım və arvadımın indi də yaşadığı Osnabrük şəhərindəyəm. Onun otağındayam və görürəm ki, xəstədir. Çox arıqlayıb, ağlayır. Yuxudan hövlnak ayıldım. Beş il idi, onu nə görmüşdüm, nə də haqqında bir şey eşitmişdim. Heç vaxt məktub da yazmamışdım, çünki poçtlarının nəzarətdə olub-olmadığını bilmirdim. Qaçqınlıqdan qabaq söz vermişdi ki, boşanacaq. Bu, onu qalmaqaldan qoruyardı. Bir neçə il hətta bunu etdiyinə də inanmışdım».

Xeyli susdu. Almaniyanı niyə tərk etdiyini soruşmadım. Bunun üçün yetərincə səbəb vardı. Heç biri də maraqlı deyildi, çünki heç kim düzünü demirdi. Qurbana çevrilmək maraqsızdır. Görünür, ya yəhudi idi, ya da mövcud rejimə qarşı çıxan hansısa partiyanın üzvü, yaxud da qəfildən nüfuzlu adamlar olmuş düşmənləri vardı – konslagerə atılmaq və ya öldürülmək üçün Almaniyada onlarla səbəb mövcud idi.

«Bir daha Parisə qayıda bildim, – Şvars dilləndi, – amma yuxularım məndən əl çəkmirdi. Dönə-dönə qayıdırdı. Elə

---

[1] *SS* – “Schutzstafel” mürəkkəb isminin baş hərflərlə ixtisarıdır və anlamı – nəzarət dəstəsidir.

bu vaxt Münxen Paktı xülyası alt-üst oldu. Yazda bilindi ki, müharibə qaçılmazdır. İyini özünü görmədən çox-çox qabaq almışdılar, yanğın iyini aldıqları kimi. Yalnız dünya diplomatiyası əl-qolunu sallayıb xəyalla yaşayırdı, ikinci, üçüncü Münhen xəyalı ilə, müharibədən başqa hər şeyin xəyalı ilə. Real həyatda möcüzənin olmamasına baxmayaraq, möcüzəyə inam heç vaxt zəmanəmizdəki kimi olmayıb».

«Hər halda, var, – cavab verdim, – yoxsa heç birimiz sağ qalmazdıq».

Başı ilə təsdiqlədi: «Haqlısınız. Fərdi möcüzə. Biri elə öz başıma gəlib. Parisdə. Qəfildən keçərli bir pasportun varisi oldum. Bu, Şvarsın adına olan pasportdur. «De la Roz» kafesində tez-tez görüşdüyüm avstriyalı idı. Kişi dünyasını dəyişəndə pasportunu və pulunu mənə miras qoydu. Üç il idi ki, gəlmişdi. Luvrda tanış olmuşduq, impressionalistlərin rəsmlərinin qarşısında. Özümü sakitləşdirmək üçün günümün çoxunu orada keçirirdim. Günəş hopmuş bu lal mənzərələrə baxanda adam fikirləşir ki, belə şeyləri yarada bilmiş heyvani irq həm də cinayətkar müharibə apara bilər – qan təzyiqini bir anlığa aşağı salan qəribə bir paradoks.

Pasportdakı soyadı Şvars olan kişi çox vaxt Monenin «Dəniz», «Gülü» və «Kilsə» rəsmlərinin qabağında oturardı. Söhbətimiz tutardı və danışardı ki, Avstriyanın ilhaqından sonra bütün varidatından imtina edərək canını qurtarmağı və ölkədən çıxmağı bacarıb. Varidat impressionalistlərin əsərlərinin kolleksiyasından ibarət imiş və o dövlətləşdirilib. Heyifsilənmirdi. Nə qədər ki şəkillər muzeylərdə sərgilənir, onları özününkü sayırdı, oğurluq və yanğından qorxmadan. Bundan başqa, deyirdi ki, Fransa muzeylərindəki rəsmlər onun şəkillərindən daha yaxşıdır. Ata öz ailəsinə bağlandığı, özününküləri üstün tutduğu kimi, məhdud kolleksiyasına qapanıb-qalmaq əvəzinə, ictimai kolleksiyaların hamısını əlini ağdan-qaraya vurmadan özününkü bilirdi. Qəribə kişiydi, sakit, mülayim, başına gələnlərə baxmayaraq, şənşux. Özü ilə pul götürməyə, demək olar, icazə verməmişdilər, lakin müəyyən miqdar qədimi poçt markalarını xilas edə bilmişdi. Poçt markalarını gizlətmək brilyantları gizlətməkdən daha asandır. Brilyantları ayaqqabıda gizlədirsənsə, istintaqa aparılanda yerimək çətin olur. Onları itkisiz və sorğu-sualsız satmaq da mümkün deyil. Poçt

markaları kolleksiyaçılar üçündür. Kolleksiyaçılar da çox sual vermir».

«Necə keçirə bilib?» – hər bir mühacirin peşəsəl marağı ilə soruşdum.

«Köhnə, əzik-üzük, açıq məktubları götürüb, markaları konvertlərin astarının arxasına yerləşdirib. Gömrükçülər məktubları yoxlayıb, konvertləri yox».

«Gözəl», – dedim.

«Bundan əlavə, İnqrenin karandaşla çəkilmiş iki portretini götürüb. Onları enli paspartuya bərkidib və saxta qızıl çərçivəyə salıb, məmurlara da deyib ki, ata-anasının şəklidir. Paspartunun arxasına Deqanın iki rəsmini elə yapışdırıb ki, görəndə ayırd edə bilməyiblər».

«Gözəl», – yenidən dilləndim.

«Apreldə infarkt keçirdi və pasportunu, qalan markaları və rəsmləri mənə bağışladı. Həm də markaları alacaq adamların ünvanını verdi. Ertəsi gün səhər tezdən ona baş çəkəndə çarpayıda ölüsünü tapdım. Ölüm onu elə dəyişdirmişdi ki, kişini güclə tanıdım. Olan pullarını, bir dəst kostyum, bir az da dəyişəcək götürüb getdim. Bir gün əvvəl özü tapşırmışdı – ev sahibinə qalınca, tale qardaşımın aparması yaxşıdır, demişdi».



«Pasportda dəyişiklik etdiniz?» – soruşdum.

«Yalnız şəkli və doğum tarixini. Şvars məndən iyirmi beş yaş böyük idi. Adlarımız eyniydi».

«Kim elədi dəyişikliyi? Brünner?»

«Münhenli birisi».

«Brünner olub pasport alimi. İşinin ustası idı».

Brünner qüsursuz düzəlişlərinə görə məşhur adamdır. Çoxlarına əl tutmuşdu, amma həbs olunanda özünün sənədi olmamışdı, çünki xurafatçı idi. Fikirləşirdi ki, düz adamdır və yaxşı əməl sahibidir, nə qədər ki bacarığından özü üçün yarınmayıb, ona heç nə olası deyil. Mühacirətdən qabaq Münhendə xırda bir mətbəəsi vardı.

«İndi haradadır?» – soruşdum.

«Lissabonda deyil?»

Bilmirdim. Amma sağ idisə, ola da bilərdi.

* * *

«Pasportum olanda hər şey qəribələşdi, – İkinci Şvars dedi, – ondan istifadəyə ürək eləmirdim. Bundan əlavə, yeni soyadıma öyrəşməyim bir neçə gün çəkdi. Elə hey bu adı təkrarlayırdım. Yelisey çöllərində gəzişəndə yeni soyadımı və yeni doğum tariximi öz-özümə mızıldayırdım. Tək olanda muzeydə Renuarın rəsmləri qarşısında oturub özümdən dialoq uydururdum; amiranə səslə: «Şvars!» – bağırırdım, həmin an da ayağa sıçrayıb cavab verirdim: «Mənəm!», ya da boğuq-boğuq deyirdim: «Adınız!», ardınca avtomatik cavab verirdim: «Yozef Şvars, 22 iyun 1898-cil il Viner Noyştat doğumlu». Hətta axşamlar yatağa girməzdən qabaq da məşq edirdim. İstəmirdim, gecəyarı polis məni yuxudan oyadıb soruşanda soyadımı yarıyuxulu yanlış deyim. Əvvəlki soyadımı unutmaq istəyirdim. Pasportu olmamaqla saxta pasportu olmağın fərqi bu idi. Saxta pasport daha təhlükəli idi.

İnqrenin rəsmlərinin ikisini də satdım. Gözlədiyimdən az pul verdilər, amma birdən-birə əlimə pul gəldi, çoxdan görmədiyim böyük pul.

Sonra, gecələrin birində ağlıma məni heç vaxt rahat buraxmayan bir fikir gəldi. Bu pasportla Almaniyaya gedə bilərəmmi? Demək olar, keçərli pasport idi, onda bəs sərhəddə kimsə niyə şübhələnsin? Belə olsaydı, arvadımı görərdim. Ondan yana keçirdiyim qorxunu susdura bilərdim, onda mən» – üzümə baxdı. «Yəqin ki, bilirsiniz! Mühacir kolleri, xalis formasında. Mədədə, udlaqda və gözlərin arxasında sancmalar. Beş il dalbadal torpağa gömdüyün, unutmağa çalışdığın, vəba xəstəsindən qaçdığın kimi qaçdığın şey birdən-birə yenidən dirçəlir: öldürücü xatirələr, mühacir qəlbinin xərçəngi!

Canımı bu sıxıntılardan qurtarmağa çalışdım. Əvvəllər olduğu kimi, dinclik, sakitlik bəxş edən şəkillərə, Sisleyin, Pissaronun, Renuarın rəsmlərinə üz tutdum, saatlarla muzeydə əyləşdim, amma onlar indi tamam əks təsir bağışlayırdı. Rəsmlər məni daha sakitləşdirmirdi, onlar çağırmağa, tələb etməyə, «qonur çuma»nın viranə qoymadığı məmləkəti, barılarından yasəmən sallanan küçələrin axşamlarını, qədim şəhərin qızılı şəfəqini, başı üstündə qaranquşların dövrə vurduğu yaşıl kilsə qüllələrini və nəhayət, arvadımı mənə xatırlatmağa başlamışdı.

Mən miyanə bir insanam və xüsusi keyfiyyətlərə malik deyiləm. Arvadımla cəmi dörd il yaşamışdım. O cür yaşamağa necə adət edirlərsə: korluq çəkmədən, xürrəm, böyük iztirablar keçirmədən. İlk aylardan sonra münasibətimiz yaxşı sayılan ailələrdəki münasibətə bənzədi – qarşılıqlı ehtiramın rahat birgəyaşayış üçün əsas olduğunu güman edən iki nəfərin bir-birinə olan münasibəti. Xəyalların həsrətini çəkmədik. Ən azı, mənə belə gəlirdi. Ağlı başında insanlar idik. Bir-birimizi ürəkdən sevirdik.

İndi isə hər şey yerindən oynadı. Ortabab ailə həyatı sürdüyümə görə özümü danladım. Çox şeyi ötürmüşdüm. Niyə yaşamışdım? Bəs indi nə edirəm? Çəkilmişəm qınıma, heyvani gün keçirirəm. Bu, nə qədər çəkər? Nə ilə bitər? Müharibə qaçılmazdır, Almaniya qalib gələcək. Yeganə ölkədir ki, dişindən-dırnağınacan yaraqlanıb. Sonrası nə olacaq? Vaxt aman versə və nəfəsim üstümdə olsa, hara sürünüb girəcəm? Hansı düşərgədə acından gəbərəcəm? Bəxtim gətirərdisə, hansı divarın dibində peysərimə bir güllə sıxıb məni o dünyaya göndərəcəkdilər?



Mənə rahatlıq gətirməli olan şey məni dəli-divanə etmişdi. Yorulub əldən düşənə qədər küçələrdə vurnuxurdum, amma gözümə yuxu getmirdi, gedəndə də röyalarım oyadırdı. Yuxuda arvadımı gestaponun[1] zirzəmisində görürdüm: hotelin arxa həyətindən məni köməyə çağırdığını eşidirdim və günlərin birində «De la Roz» kafesinə girəndə qapı ilə üzbəüzdəki çəpinə asılmış güzgüdə onun ötəri mənə doğru çevrilən, sonra da qəfil çəkilən sifətini gördüyümü güman etdim – solğun, qəmli gözlərlə. Elə aydın gördüm ki, elə bildim, buradadır və tələsik arxa otağa qaçdım. Otaq həmişəki kimi adamla dolu idi, amma o, burada yox idi.

Günlərlə beynimdən çıxmadı bu axmaq fikir: o, buraya gəlib və məni axtarır. Onu yüz dəfələrlə tini burulan gördüm, Lüksemburq bağının oturacaqlarında əyləşərdi və mən ora yaxınlaşanda yad bir sifət heyrət içində üzümə zillənərdi; avtomobil karvanı yerindən tərpənməmiş o, Həmrəylik meydanından keçib getdi və bu dəfə, doğrudan da, özü idi – yerişi, çiyinlərini oynatma vərdişi onunku idi, hətta

[1] *Gestapo* – alman dilində Geheime Staatspolizei (Gizli Dövlət Polisi) mürəkkəb adının ixtisarıdır.

mənə elə gəldi ki, paltarını da tanıdım, lakin yol polisi avtomobil karvanını dayandıranda və mən onun arxasınca qaçanda yox oldu, metronun qapqara ağzı onu udub-apardı, mən aşağıda perrona yetişəndə yola düşən qatarın qaranlıqda diqqət çəkən kinayəli arxa işıqlarını gördüm.

Dərdimi tanışlarımdan birinə söylədim. Adı Lözer idi, corab satırdı və əvvəllər Breslauda həkim işləmişdi. Mənə imkanca tək qalmamağı məsləhət gördü.

«Özünüzə bir arvad tapın», – dedi.

Xeyri olmadı. Ehtiyacdan, tənhalıqdan, qorxudan doğan münasibətləri, kiçicik bir həlimliyə, yad səsə, bədənə meyli, yad ölkədəki cılız otaqda oyanışı, – sanki, Yer kürəsindən qopub düşürsən – sonra da qüssəli minnətdarlığı, yanındakı yad nəfəsi eşitməyi özünüz ki yaxşı bilirsiniz. Fəqət bu, adamın qanını içən, səhər tezdən səni havayı sərf etdiyin zəif zövqlə yuxudan oyadan fantaziyanın zoru müqabilində nə olan şeydir?

İndi bunları danışanda hər şey mənasız görünür və öz-özünü təkzib edir, o vaxt belə deyildi. Bütün mübarizələrdən həmişə biri artıq qalır: qayıtmalıydım. Arvadımı bir də görməliydim. Ola da bilərdi ki, o, çoxdan bir başqası ilə yaşayır. Bunun fərqi yox idi. Onu görməliydim. Bu, mənə tam məntiqli görünürdü.

Qarşıdakı müharibə barədə xəbərlər günü-gündən güclənirdi. Hər kəs görürdü ki, bütün Çexoslovakiyanı deyil, təkcə Sudet Almaniyasını tutacağını deyən Hitler vədinə əməl etməmişdi və eyni oyunu Polşanın da başına açmışdı. Müharibə labüd idi. Fransa və İngiltərənin Polşa ilə müttəfiqliyi ayrı çıxış yolu qoymurdu. Və bu, ayların məsələsi deyildi, həftələrin məsələsiydi. Elə mənim üçün də. Həyatım üçün də. Qərarımı verməliydim. Verdim də. Vətənə dönmək istədim. Sonrasının necə olacağını bilmirdim. Bu da vecimə deyildi. Müharibə başlasaydı, onsuz da batmışdım. Odur ki, istədiyim dəliliyi edə bilərdim.

Son günlər məni qəribə bir şənlik bürümüşdü. May ayı idi və Dairəvi meydandakı ləklər rəngbərəng zanbaqlarla bəzənmişdi. Erkən axşamlar artıq impressionistlərin gümüşü işığına, mavi kölgələrə, ilk küçə çıraqlarının soyuq qaz işığının arxasındakı yaşılaçalan səmaya və müharibənin gəlişini oxuya bilən hər kəsə xəbər verən qəzet binalarının

damlarından asılmış reklam işıqlarının al zolaqlarına bürünmüşdü.

Əvvəlcə İsveçrəyə yola düşdüm. Pasportuma inanmaq üçün onu qorxusuz ərazilərdən birində sınaqdan keçirmək istədim. Fransız gömrük məmuru onu etinasızlıqla özümə qaytardı; bunu gözləyirdim də. Ölkədən çıxma yalnız diktaturalı məmləkətlərdə çətin olur. Amma isveçrəli məmur gələndə içimdə nəyinsə gərildiyini hiss etdim. Hərçənd ki, bacardığım qədər arxayın oturmuşdum, mənə elə gəldi ki, ciyərimin divarları titrəyir, hərdən külək yatanda ağacdakı yarpağın titrəyişi kimi.

Məmur pasporta baxdı. Üst-başından qəlyan iyi gələn enlikürək, nəhəng bir kişiydi. Kupedə dayananda pəncərədən gələn işığın qabağını kəsdi və bir anlıq məni qüssə bürüdü ki, o, səmanı və azadlığı qapadı, sanki, kupe artıq bir həbsxanadır. Sonra pasportu mənə qaytardı.



«Möhür vurmağı unutdunuz», – özüm də istəmədən yüngülləşmənin dalğasında tələsik dilləndim.

Məmur gülümsədi.

«İndi möhürləyərəm. Məgər belə önəmlidir?»

«Önəmliliyinə önəmli deyil. Möhür onu bir növ suvenirləşdirir».

Kişi möhürünü vurub getdi. Dodağımı dişləyib qanatdım. Necə də əsəbi olmuşdum! Sonra ağlıma gəldi ki, möhürlü pasport bir az gerçəyə bənzəyir.

* * *

İsveçrədə düz bir gün götür-qoy etdim ki, qatarla Almaniyaya gedim, getməyim, amma ürək eləmədim. Orasını da bilmirdim ki, vətənə dönənləri, xüsusilə də keçmiş Avstiriyadan olanları əlahiddə yoxlayırlarmı? Yəqin, yoxlamazdılar, buna baxmayaraq, sərhədi gizli keçməyi kəsdirdim.

Sürixdə, əvvəllər olduğu kimi, öncə baş poçta yollandım. «Tələb olunana qədər» lövhəsi asılmış pəncərənin qarşısında çox vaxt tanışlarına, özün kimi qalma icazəsi olmayan və sənə müəyyən məlumatlar verən gəzərgilərə rast gəlirsən. Oradan «De la Roz» kafesinin tərsi olan – «Qrayf» kafesinə getdim. Bir çox sərhəd pozucusuna rast

gəldim, amma Almaniyaya keçməyin yolunu bilən bir nəfər də tapılmadı. Anlaşılan məsələ idi. Məndən başqa Almaniyaya getmək istəyən vardımı ki? Geriyə dönən yalnız satqın olardı; zira, rejimə rəğbəti olmasa da, geri qayıtmaq istəyən kim olardı? Bu cür uzağa gedən kəs daha nələr etməzdi? Kimi satmazdı? Nəyi satmazdı?

Birdən-birə təkləndim. Məndən qatildən qaçan kimi qaçırdılar. Heç nə də izah edə bilmirdim; hərdən, elə bil, gövdəmə qor dolurdu, niyyətim barədə düşünəndə təlaşdan məni tər basırdı, belə olan halda, bunu başqalarına necə başa sala bilərdim?

İki gün keçmiş polis səhər saat altıda gəlib məni yatağımdan apardı. Əməlli-başlıca sorğu-suala tutdular. O saat başa düşdüm ki, tanışlardan kimsə satıb. Pasportuma şübhəli-şübhəli baxıb, məni istintaqa çəkdilər. Bəxtim gətirdi ki, pasporta möhür vurulmuşdu. Sübut edə bilərdim ki, ölkəyə gizli gəlməmişəm və yalnız üç gündür buradayam. Məmurla küçələrlə getdiyim həmin səhəri dəqiq xatırlayıram. Aydın bir səhər idi və şəhərin qüllələri, damları metaldan yonulmuş kimi səmaya baş qaldırırdı. Çörəkxanadan isti çörək ətri gəlirdi və dünyanın bütün təsəllisi, sanki, bu ətirdə cəmlənmişdi.

Tanışdır sizə?»

Başımla təsdiqləyib dedim:

«Dünya insana tutulan anda olduğu kimi heç vaxt gözəl görünmür, həmin dünyanı tərk etməzdən qabaq. Onu həmişə beləcə duya bilsəydik! Bəlkə də, adamın buna vaxtı bəs eləmir. Dinclik həddən artıq az olur».

Şvars başını buladı.

«Dincliklə heç bir əlaqəsi yoxdur. Bunu özüm duymuşam».

«Tutub-saxlaya bildiniz?» – soruşdum.

«Bilmirəm, – ağır-ağır cavab verdi, – tapmaq istədiyim də elə budur. Sivişib çıxdı, fəqət əlimdə tutanda o, bütövmü idi? İndi onu bir daha qaytarıb, həmişəlik bərk-bərk saxlaya bilərəmmi? Özü də indi, daha heç nə dəyişməyəndə? Əlində olan şey həmişə hərəkət etdiyinə görə onu itirmirsənmi? Əgər itirmisənsə və o daha dəyişə bilmirsə, yerində lal-dinməz durmurmu? O, sənə yalnız sonradan nəsib olmurmu?»

Gözləri mənə zillənmişdi. İlk dəfəydi ki, məni başdan-ayağa süzürdü. Bəbəkləri böyümüşdü. Ya fanatikdir, ya da dəli, qəfildən fikrimdən keçdi.

«Heç vaxt şahidi olmamışam, – dedim, – amma hər kəs bunu istəmirmi? Saxlana bilməyəni tutub saxlamağı? Və səni tərk etmək istəməyəni sənin tərk etməyini?»

Yan masadakı bal patarlı qadın ayağa qalxdı. Eyvandan şəhərə və limana nəzər saldı.

«Darlinq, niyə qayıdaq axı?» – deyə ağ smokinqli kişiyə müraciət etdi. «Burada qala bilsəydik! Bir də Amerikaya dönməyə qəti həvəsim yoxdur».

## II



«Sürix polisi məni bircə gün saxladı, – Şvars dedi, – amma ağır gün oldu. Qorxdum, pasportumu yoxlasınlar. Vyana ilə bircə telefon bağlantısı bəs edərdi, eləcə də dəyişdirilmiş məlumatların mütəxəssis tərəfindən yoxlanılması.

Günortadan sonra özümə gəldim. Bir növ Allahın hökmü kimi baş verə biləcəklərimi fikrimdə canlandırdım. Mənə elə gəldi ki, qərarı dəyişdirdilər. Dustaqxanaya salsaydılar, Almaniyaya getməyimə son qoyulardı. Amma axşam buraxdılar və təkidlə məsləhət gördülər ki, İsveçrədən bacardıqca tez çıxım.

Bunu Avstriya üzərindən etməyi kəsdirdim. Oradakı sərhədə az-maz bələd idim və güman ki, alman sərhədinə nisbətən bərk qorunmurdu. Ümumiyyətlə, niyə hər ikisi bərk qorunmalı idı? Ölkəyə gəlmək istəyən vardımı? Kim gəlməliydi ki? Baxanda, çoxları getmək istəyirdi.

Oberitə yola düşdüm ki, çalışıb, sərhədi oradan keçim. Yağışlı günü gözləsəm, yaxşı olardı; ancaq hava iki gün dalbadal tutulmaq bilmədi. Uzun müddət qalmağımla nəzərə çarpmamaq üçün üçüncü gecə yola çıxdım.

Ulduzların sayrışdığı bir gecə idi. Elə sakit idi, elə bil, indicə bitkilərin boy verməsinin səsini eşidəcəkdim. Bilirsiniz ki, təhlükə olan yerdə görmə qabiliyyəti də ayrı forma kəsb edir: görmə qabiliyyəti fokusda, gözdə zəifləyir, daha çox bədənə paylanır, sanki, dəri ilə görürsən, özəlliklə də gecələr. Bu vaxt sənə elə gəlir ki, xışıltını da görürsən, eləcə

də eşitmə qabiliyyəti adamın dərisinə hopur. Ağzını açıb dinşəyirsən, sanki, ağız da görüb-eşitməyə başlayır.

Həmin gecəni heç vaxt unutmayacağam. Özüm özümü tam tanıdım, bütün duyğularım işə düşmüşdü, hər şeyə hazır idim, amma büsbütün qorxusuz. Mənə elə gəldi ki, hündür bir körpünün üstündən keçib-gedirəm, ömrümün bir ucundan o biri ucuna və başa düşdüm ki, körpü gümüşü duman kimi arxamda seyrəlir, daha heç vaxt geri qayıda bilməyəcəm. Ağıldan duyğuya, əminlikdən macəraya, gerçəklikdən xəyala yuvarlandım. Tam tənhalaşmışdım, ancaq bu dəfə həmin tənhalıqda iztirab yox idi, nəsə mistik bir şey vardı.

Reyn çayının yanına gəldim, bu yerdə o, nisbətən dayaz, o qədər də enli deyil. Paltarımı soyundum, çayı keçmək üçün düyünləyib bağlama düzəltdim, başıma qaldırdım. Suya çıl-çılpaq girəndə qəribə bir hiss keçirdim. Su qapqara və soyuq idi, elə bil, unutqanlıq suyunu içmək üçün Lete[1] çayına girmişdim. Çayı çılpaq keçməyim də mənim üçün bir rəmz idi, sanki, hər şeyi arxada qoyub gedirdim.

Qurulandım, gedəcəyim yolu aradım. Kəndin yanından adlayanda it səsi eşitdim. Sərhədin haradan keçdiyini dəqiq bilmirdim, ona görə də meşənin yanı ilə uzanan yolun kənarı ilə irəlilədim. Bir xeyli heç kimə rast gəlmədim. Səhər açılana qədər yol getdim. Birdən-birə bərk şeh düşdü, talanın qırağında bir cüyür vardı. Üzbəüz gələn kəndlilərin arabalarının səsini eşidənə qədər yoluma davam etdim. Özümə daldalanmaq üçün yer aradım, yoldan bir az aralı. Şübhəli görünmək istəmirdim, çünki yuxudan erkən durub sərhədə doğru gedən adama oxşayırdım. Bir az sonra iki gömrükçünün velosipedlə getdiyini gördüm. Onları mundirlərindən tanıdım. Avstriyadaydım. O zaman Avstriya bir ildən çox idi ki, Almaniyanın tərkibindəydi».

* * *

Bal paltarındakı qadın öz müşayiətçisi ilə eyvanı tərk etdi. Qopqonur çiyinləri vardı və yanındakı kişidən xeyli uca idi. Bir para digər turist də ayaqlarını sürüyə-sürüyə

[1] *Lete* – yunan əsatirində o dünyadakı unutqanlıq çayı. Ruhlar Lete çayının suyundan içən kimi yersəl həyatlarını unudurlar.

pilləkənləri aşağı endi. Hamısı heç vaxt qısnanmamış adamlar kimi gedirdi. Dönüb arxaya baxmırdılar.

«Özümlə buterbrod götürmüşdüm, – sözünü sürdürdü, – bir bulaq tapdım. Günorta yoluma davam etdim. Məqsədim Feldkirxə çatmaq idi, bilirdim ki, məzuniyyətdə olanlar yayda bura gəlir. Ümidim o idi ki, burada gözə çarpmaram. Orada qatarlar da dayanırdı. Ora yetişdim. Ən təhlükəli zonadan çıxmaq üçün növbəti qatarla sərhəddən uzaqlaşdım. Kupeyə daxil olanda orada mundirli iki SA[1]-çı oturmuşdu.

Məncə, Avropa polisi ilə keçdiyim məşqlər indi köməyimə gəldi, yoxsa mütləq arxaya sıçrayardım. İçəri adlayıb əynində sukeçirməz paltar, yanında da silah olan kişinin böyründə küncə əyləşdim.



Məndən ötrü bu, vəhşət təcəssümü sayıla biləcək bir olayla beş ildən sonra ilk təmasım idi. Buna bənzər olayları ötən həftələrdə təsəvvürümdə çox canlandırmışdım, fəqət gerçəklik tam başqa şeymiş. Məndə buna reaksiya verən başım deyildi, bədənim idi, daşlaşmış mədəm idi, qurumuş dil-dodağım idi.

Ovçu ilə SA-çılar Pfundner adlı dul qadından danışırdılar. Deyəsən, qadın qorxu bilmirmiş, çünki oturanların hər üçü onun bir çox sevgi macəralarını açıb-tökdü. Sonra yeməyə başladılar. Qaxac və çörəkləri vardı.

«Yolunuz ha yanadır, cənab qonşu?» – ovçu soruşdu.

«Qayıdıram, İreqensə», – dedim.

«Buralı deyisiz, hə?»

«Elədir. Məzuniyyətdəyəm».

«Bəs əslən haradansınız?»

Bir anlığa canıma vic-vicə düşdü. Pasportda olduğu kimi, Vyana desəydim, hər üçündə şübhə oyadardım, çünki yumşaq Vyana ləhcəsində danışmırdım.

«Hanoverdən, – dedim, – otuz ildən çoxdur orada yaşayıram».

«Hanover! Amma xeyli uzaqdır».

«Elədir. Neyləyəsən, adam məzuniyyətdə öz evində qalmaq istəmir».

Ovçu güldü.

---

[1] *SA* – alman dilində Sturmabteilung (hücüm dəstəsi) sözünün baş hərflərlə ixtisarıdır

«Düzdür. Bəxtinizə gözəl hava düşüb!»

Köynəyimin kürəyimə yapışdığını hiss etdim.

«Gözəlliyinə gözəldi», – dedim, – amma istidir, elə bil, yayın orta ayıdır».

Hər üçü dul Pfundneri təzədən yuyub-sərməyə başladı.

Üç-dörd stansiya gedib qatardan endilər və kupedə tək qaldım. Qatar indi Avropanın ən gözəl təbiətinin birindən keçib-gedirdi, amma ondan çox az şeyi görə bildim. Birdən-birə məni peşmançılıq, qorxu və məyusluğun dözülməz tutması çulğadı. Sadəcə olaraq, daha başa düşə bilmirdim ki, sərhədi niyə keçdim. Yerimdən qımıldanmadan öz küncümdə oturub mat-mat pəncərədən çölə baxırdım. Tutulmuşdum, özüm öz əlimlə qapını arxamca bağlamışdım. Gecə İsveçrəyə qayıtmaq üçün bir neçə dəfə qatardan düşmək istədim. Amma düşmədim. Cibimdəki sol əlim ölü Şvarsın pasportundan bərk-bərk yapışmışdı, sanki, ondan mənə güc gələsi idi. Öz-özümə deyirdim ki, uzun müddət sərhədin yanında qalıb-qalmamağım daha fərq eləməz, nə qədər ölkənin dərinlərinə getsəm, bir o qədər təhlükəsiz olaram. Bütün gecəni qatarla getməyi kəsdirdim. Hoteldəkinə nisbətən qatarda sənədləri daha az yoxlayırdılar.

Təşvişə düşəndə hər yandan adamın üstünə projektor saldıqlarını, dünya da bir adamı axtarmaqdan başqa, ayrı dərdinin olmadığını düşünmək tipik haldır. Adamda belə bir hiss baş qaldırır ki, bədənin bütün əzaları sərbəst olmaq, qıçlar titrək qıç səltənəti qurmaq, qollar qorunmaq və zərbə vasitəsindən başqa heç nə olmamaq, dodaqlarla ağız isə hələ qəlibləşməmiş qışqırtını əsə-əsə cilovlamaq istəyir.

Gözlərimi yumdum. Təşvişə uymaq tovlantısı xeyli güclü idi, çünki kupedə tək idim. Amma bilirdim ki, haçansa təhlükəyə düşərəmsə, indi uyuduğum hər santimetr bir metr olacaq. Özümə təlqin edirdim ki, məni heç kəs axtarmır, rejimdən ötrü mən səhradakı bir kürək qum qədər maraqsızam və məndə heç nə tapa bilməzlər, yörəmdəki insanlardan heç nə ilə seçilmirəm. Sarışın ari sadəcə alman uydurmasıdır, gerçəklik deyil. Hitlerə, Göbbelsə, Hessə və hökumətin digər üzvlərinə baxın, əslində, onlar öz illuziyalarının inkarıdır.

Vağzalların sipərini birinci kərə Münhendə tərk edib özümü bir saatlıq gəzintiyə məcbur etdim. Şəhəri tanımadığıma

görə arxayın idim ki, məni də heç kim tanımaz. Fransiskanların pivəxanasına getdim. Meyxana adamla dolu idi. Masalardan birinin arxasına tək-tənha əyləşdim və dinşədim. Bir-iki dəqiqədən sonra tər basmış yoğun bir kişi yanımda oturdu. Bir parç pivə, mal əti sifariş verdi və qəzetini oxumağa başladı. Alman qəzetlərini oxumaq indiyə qədər ağlıma da gəlməmişdi, ikisini aldım. Almanca oxuduğum vaxtlardan illər ötmüşdü və mən həmişə öyrəşməli idim ki, yörəmdəki hər kəs bu dildə danışır.

Qəzetlərin baş məqalələri dəhşət idi. Hamısı yalan, qana həris və bezdirici. Həmin yazılarda Almaniyadan qıraqdakı dünya çürük, məkrli, səfeh və yaramaz idi, belə çıxırdı ki, onun Almaniya tərəfindən zəbt olunmaqdan başqa ayrı çarəsi yoxdur. Qəzetlərin heç biri meyxana qəzeti deyildi, əvvəllər yaxşı ad çıxarmışdılar. Yazıların nəinki məzmunu, hətta üslubu da ağlasığmaz idi.



Yanımda oturub qəzet oxuyan kişiyə nəzər saldım. Yeyir, içir və ləzzətlə oxuyurdu. Ətrafıma göz yetirdim. Oxuyanların heç birində qorxu, nifrət nişanəsi görmədim, hamısı gündəlik mənəvi təamlarına pivəyə öyrəşən kimi öyrəşmişdi.

Kiçik xəbərlər arasında Osnabrük haqqında məlumata çatana qədər oxudum. Lotter küçəsində bir ev yanıb külə dönmüşdü. Küçəni göz önünə gətirdim. Təpəliklərdən aşıb Heqer darvazasına, buradan da şəhərin çıxış yolu sayılan Lotter küçəsinə gedirsən. Qəzeti qatladım. Birdən özümü burada daha tənha hiss etdim, nəinki əvvəllər Almaniyadan qıraqda.

Şokla fatalist apatiyanın bir-birini əvəz etməsinə tədricən alışırdım. Həm də özümü indiyə qədərkindən təhlükəsiz hiss etdiyimə öyrəşirdim. Osnabrükə yaxınlaşdıqca təhlükə artacaqdı, burasını bilirdim. Orada məni əvvəllər tanıyan adamlar vardı.

Mehmanxanada diqqət çəkməmək üçün özümə ucuz bir çamadan, bir az dəyişəcək və qısa səfər üçün lazım olan ayın-oyunu aldım. Sonra qatara minib yola düzəldim. Arvadımı necə tapacağımı hələ bilmirdim və planlarımı hər an dəyişdirirdim. Bunu təsadüfün öhdəsinə buraxmışdım; hətta orasını da bilmirdim ki, o, bütünlüklə rejim tərəfdarı olan ailəsinə qoşulubmu, yaxud kiməsə ərə gedibmi? Qəzetləri

oxuyandan sonra əmin deyildim ki, oxuduğuna inanmaq üçün kiməsə uzun-uzadı vaxt gərək olsun, xüsusən də, onun müqayisə imkanı yoxsa. Əcnəbi qəzetlər Almaniyada ciddi senzuradan keçirdi.

Münsterdə miyanə bir hotelə düşdüm. Həmişə gecələr ayıq qalıb bütün günü haradasa yata bilməzdim; gərək risk edib hansısa alman hotelində olduğumu polisdə qeyd etdirəydim. Münsterdə olmusunuz?»

«Ötəri», – cavab verdim. «Çoxlu kilsələri olan qədim şəhər deyilmi, Vestfal müqaviləsi orada bağlanmayıbmı?»

Şvars başı ilə təsdiqlədi.

«Münsterdə və Osnabrükdə, 1648-də. Düz otuz il müharibədən sonra. Kim bilir, bu, nə qədər çəkəcək?»

«Belə getsə, uzun çəkməz. Fransanı tutmağa almanlara bir ay bəs elədi».

Ofisiant gəlib bildirdi ki, meyxana bağlanır.

– Açıq olan bir başqası yoxdur? – Şvars soruşdu.

Ofisiant söylədi ki, Lissabon gecəquşu şəhəri deyil. Şvars ona çaypulu verəndə birinin yerini və onun gizli olduğunu dedi. Rusların gecə klubu. – Çox gözəldir, – əlavə etdi.

– Bizi içəri buraxarlar? – Soruşdum.

– Əlbəttə, cənab. Sadəcə, demək istəyirdim ki, orada gözəl qadınlar olur. Bütün millətlərdən. Almanlar da.

– Nə vaxta qədər açıq olur?

– Nə qədər ki müştəri var. İndi də ki müştəri həmişə olur. Nə qədər istəsəniz, alman var, cənab.

– Nə, almanlardır?

– Almanlardır.

– Pullu-paralı?

– Əlbəttə, pullu-paralı. – Ofisiant güldü. – Ucuz deyil, amma çox əyləndiricidir. Deyə bilərsiniz ki, sizi Manuel göndərib buradan. Bundan sonra heç nə göstərməyiniz lazım deyil.

– Nəsə göstərməliyik ki?

– Heç nə. Qapıçı sizə klubun üzvü kimi qondarma bir ad yazacaq. Formal bir iş.

– Oldu.

Şvars hesabı bağladı. Pilləkənli küçə ilə asta-asta aşağı enməyə başladıq. Solğunlaşmış evlər bir-birinin yanında

mürgü döyürdü. Pəncərələrdən pasport dərdi çəkməyən insanlırın iniltisi, xorultusu və nəfəsləri gəlirdi. Addımlarımız gündüzkünə nisbətən bərk səslənmirdi.

«İşıq, – Şvars dilləndi, – sizi də mat qoyur?»

«Hə. Adam qaranlığa qərq edilmiş Avropaya öyrəşib. Burada sənə elə gəlir ki, söndürməyi unudublar və bir dəqiqədən sonra hava hücumu başlayacaq».

Şvars ayaq saxladı.

«İşığı biz pay almışıq, çünki içimizdə Allahdan nəsə var», – qəfildən patetik dilləndi. «İndi isə, gərək, qoruyaq, çünki Allahın içimizdəki bir parçasını məhv edirik».

«Əsatirdən bildiyimə görə, odu pay almamışıq, onu Prometey oğurlayıb», – cavab verdim. «Bunun əvəzində Allahlar xroniki qaraciyər serrozunu bəxş ediblər. Məncə, bu, bizim xarakterimizə də uyğun gəlir».

Diqqətlə mənə baxdı.



«İroniyanın daşını çoxdan atmışam. Pafoslu sözlərdən qorxunu da. Nə qədər ki lağlanıb qorxursan, şeyləri olduğundan çox-çox aşağılayırsan».

«Ola bilər», dedim. «Amma gərək yenə də gözlərini döyə-döyə mümkünsüzlüyə baxıb deyəsən: bu mümkünsüzdür? Yaxşı olmazmı ki, aşağılayasan və bir damcı ümid bəxş edəsən?»

«Haqlısınız! Məni bağışlayın. Unutdum ki, qaçqınsınız. Mütənasiblik barədə düşünməyə burada kimin vaxtı var ki?»

«Siz də qaçqın deyilsiniz?»

Başını buladı:

«Daha yox. İkinci kərə qayıdıram».

«Hara?» – heyrətlə soruşdum. İnana bilməzdim ki, o bir daha Almaniyaya dönmək istəyər.

«Geri, – cavab verdi, – sonra başa salaram».

## III

Gecə klubu 1917-ci il inqilabından sonra Berlindən tutmuş Lissabona qədər Avropanın hər yerinə səpələnmiş və ağqvardiyaçı rus mühacirlərinin işlətdiyi tipik meyxanalardan biri idi. Onların hamısında əvvəllər aristokratlar olmuş eyni ofisiantlar çalışır, keçmiş qvardiya zabitlərindən

ibarət eyni xor oxuyur, eyni yüksək qiymətlər və eyni melanxolik ab-hava hökm sürür.

Hamısının eyni alatoran işıqlandırması vardı ki, mən də buna ümidli idim. Ofisiantın haqqında danışdığı buradakı almanlar, yəqin ki, mühacir deyildilər. Çox güman ki, şpionlar, səfirliyin əməkdaşları, ya da alman firmalarının vəzifəli şəxsləri idilər.

«Ruslar bizdən yaxşı yerləşiblər», – Şvars dilləndi. – Onlar mühacirətə, hər halda, bizdən on beş il qabaq düşüblər. On beş ilin bədbəxtliyi uzun bir müddətdir və adama xeyli təcrübə toplatdırır».

«Onlar mühacirlərin ilk dalğası oldu», – cavab verdim. «Onlara, heç olmasa, yanımcıllıq göstərildi. İşləməyə icazə, sənəd, Nansen pasportu verdilər. Biz gələndə isə dünyanın yanımcıllığı artıq xərclənib-tükənmişdi. Biz ağ qarışqalar kimi yapışdıqmı, qopmaq bilmirdik, elə birisi də yox idi ki, bizdən ötrü səsini qaldırsın. Bizim nə işləməyə, nə də yaşamağa ixtiyarımız var və hələ də sənədlərimiz yoxdur».

Burada oturandan əsəbi idim. Görünür, bu da çoxlu pərdə asılmış qapalı məkandan, almanların burada olması fikrindən və lazım gələndə qaçıb qurtulmaq üçün qapıdan xeyli aralı oturmağımdan irəli gəlirdi – mən hər yerdə çıxışa yaxın oturmağa adətkardım. Bir də ona görə əsəbi idim ki, buradan gəmini görmürdüm. Kim bilir, bəlkə də, gecə lövbəri qaldırıb, deyilən vaxtdan əvvəl, hansısa xəbərdarlığa görə.

Deyəsən, Şvars bunu duymuşdu. Əlini cibinə salıb hər iki bileti qabağıma qoydu.

«Götürün. Mən qul alverçisi deyiləm. Götürün, özü də istəyirsiniz, çıxın gedin».

Utana-utana ona baxdım.

«Məni düz başa düşməmisiniz. Vaxtım var. Dünyanın nə qədər vaxtı var, məndədir».

Dinmədi. Gözlədi. Biletin ikisini də götürüb cibimə qoydum.

«İş elə alındı ki, axşama yaxın Osnabrükə çatacaq bir qatara mindim», – sözə başladı, sanki, heç nə olmamışdı. «Birdən mənə elə gəldi ki, elə indicə sərhədi keçirəm. Bayaqkıların hamısı qəriblik olmuşdu, hətta Almaniya da; indi hər bir ağac asta-asta dil açmağa başladı. Keçib-getdiyimiz

kəndləri tanıdım, məktəbdə oxuyanda oralara dəfələrlə ekskursiyaya getmişdim; burada tanışlığımızın ilk həftələrində Helenlə olmuşdum, oradakı təbiəti sevmişdim, binaları, bağları ilə birlikdə şəhəri sevdiyim kimi.

İndiyə qədər qorxum içimdə əzici, mücərrəd bir daş olmuşdu. Baş verənlərin hamısı içimdəki hər şeyi iflic edib daşlaşdırmışdı. Bunu araşdırmaq, yaxud incəliklərinə varmaq kimi, bir ehtiyacım, hətta qorxum olmamışdı. Bura aidiyyatı olan, fəqət dəxli olmayan şeylər indi qəfildən dil açmağa başlamışdı.

Təbiət dəyişməz qalmışdı. Necə vardı, elə. Kilsə qüllələri əvvəllər olduğu kimi, öz qədimliyinin eyni zərif yaşıllığında qüruba enən günəşin saçaqlarına bürünmüşdü; çay həmişəki kimi səmanı əks etdirirdi. O, mənə orada balıq tuta-tuta yad məmləkətlərdəki macəralar barədə xəyala daldığım çağları xatırlatdı – mən onları sonralar yaşadım, fəqət təsəvvür etdiyimdən ayrı cür. Kəpənəkli və cırcıramalı çəmənliklər, ağaclı və yabanı güllü yamaclar dəyişməmişdi, mənim gənclik çağlarımdakı kimi qalmışdı və buralarda gəncliyim uyuyurdu, dəfn olunmuşdu, əgər belə demək istəsəydim, ya da əbədiyyətə qovuşmuşdu, ayrı cür qəbul etmək ürəyimdən keçsəydi. Ona müdaxilə də yox idi.



Qatardan baxanda adamlar və mundirlilər az-az gözə dəyirdi. Yalnız asta-asta ətrafı bürüyən axşamı görürdüm. Yol gözətçilərinin evcikləri ətrafındakı xırda bağçalarda qızılgüllər, georginlər və zanbaqlar vardı, həmişə burada olmuşdular, vəba axırlarına çıxmamışdı, hündür hasarların üstündən sallanmışdılar, Fransada sallandıqları kimi və çəmənlikdə inəklər otlayırdı, İsveçrə çəmənliklərində otladıqları kimi, qonur, qara və ağ, amma qarmaq xaçsız, həmişəki kimi eyni dözümlü gözlərlə. Mən həm də leyləyin kəndli evinin üstündən qanadlandığını və qaranquşların uçuşduğunu gördüm, həmişə və hər yerdə uçduğu kimi. Yalnız insanlar başqalaşmışdı, burasını bilirdim, ancaq həmin axşam bunu görüb dərk edə bilmirdim.

İndiyə qədər təsəvvür etdiyimdən fərqli olaraq, onlar eyni qəlibdən çıxmamışdı. Kupe dolur, boşalır və yenidən dolurdu. İndiyə qədər sərnişinlərin arasında mundirlilərə az rast gəldim. Demək olar, hamısı hər gün gördüyüm adamlar idi, Fransa və İsveçrədə dinlədiklərim kimi oxşar danışıqlar:

hava, məhsul yığımı, gündəlik olaylar və müharibə qorxusu. Müharibədən qorxurdular və Almaniyadan kənarda bilirdilər ki, müharibəni Almaniya istəyir, amma burada eşitdim ki, onu Almaniyaya xaric sırıyıb. Demək olar, hər kəs sülh tərəfdarı idi, həmişə fəlakətdən öncə olduğu kimi.

Qatar dayandı. Basabasda özümü sürüyüb çıxış keçidinə saldım. Sonuncu kərə gördüyümdən bu yana vağzal dəyişməmişdi; yaddaşımda qaldığından, sanki, bir az kiçilmiş və tozlu olmuşdu.

* * *

Vağzal meydanına yetişəndə indiyə qədər düşündüklərimin hamısı silkələnib töküldü. Hava toranlı, yer-yurd nəm idi, yağışdan sonrakı kimi, gözümə daha təbiət dəymirdi, birdən-birə içimdə hər şey titrəməyə başladı və bildim ki, bu andan etibarən böyük təhlükə içindəyəm. Eyni zamanda məndə bir duyğu oyandı ki, mənə heç nə olmaz. Sanki, şüşə qapağın altında dayanmışdım, məni qoruyurdu, eyni zamanda hər an çilik-çilik ola bilərdi.

Münsterə, geriyə bilet almaq üçün zala qayıdıb kassa pəncərəsinə yaxınlaşdım; Osnabrükdə yaşaya bilməzdim. Çox təhlükəli idi.

«Axırıncı qatar haçan gedir?» – solğun işıqda kiçik şəhər buddası kimi, pəncərə arxasında arın-arxayın oturmuş dazbaş məmurdan soruşdum.

«Biri iyirmi iki iyirmidə, biri də iyirmi üç on ikidə».

Avtomatlardan birinə yaxınlaşıb bir ədəd perron bileti çəkdim. Əgər tələsik gözdən itmək istəyirdimsə, gərək o, biletimin vaxtının bitdiyi zaman əlimin altında olaydı. Əslində, perronlar pis gizlənc yeridir, amma həmişə seçim var, üçü elə Osnabrükdə, yerindən tərpənən istənilən qatara əlüstü minmək və konduktora çaşdığını başa salmaq əlavə pul ödəyib növbəti stansiyada düşəcəyini demək idi.

Qərara almışdım ki, köhnə dostuma zəng edim, bilirdim ki, rejimin tərəfdarlarından deyil. Telefonda öyrənəcəkdim, görüm mənə kömək etmək istəyirmi? Birbaşa arvadıma telefon açmağa ürək eləmirdim, çünki tək yaşayıb-yaşamadığını bilmirdim.

Qarşımda telefon kitabı ilə telefon aparatı xırda şüşə kabinədə dayanmışdım. Çirklənmiş və qıraqları qatlanmış səhifələri vərəqlədikcə ürəyim elə bərkdən döyündü ki, elə bildim, səsini özüm də eşidirəm. Hətta mənə elə gəldi, onu başqaları da eşidə bilər, odur ki üzümü lap aşağı əydim, məni tanımasınlar. Əvvəlki soyadımın baş hərfi olan səhifəni fikirləşmədən açmışdım. Arvadımın adını tapdım, telefon nömrəsi həminki idi, amma ünvan dəyişmişdi. Rismüller meydanı əvəzinə, indi Hitler meydanı adlanırdı.

Ünvanı görən kimi elə bildim, kabinədəki solğun çıraq yüz qat gücləndi. Başımı qaldırıb baxdım, məndə belə güclü bir hiss oyandı ki, zil qaranlıq gecədə parlaq işıqlandırılan şüşə sandıqdayam, bayırdan da üstümə projektor tuşlanıb. Əməllərimin tam sərsəmliyi yenidən büsbütün yadıma düşdü.



Kabinəni tərk edib yarıqaranlıq yolla irəlilədim. «Sevincdən keçən güc» devizi üçün asılmış lövhələr, mavi səmaları və şən-şux insanları ilə alman kurortlarının reklamları hədəli-hədəli üstümə tökülürdü. Deyəsən, bir neçə qatar da gəlib çatmışdı; sərnişinlər axın-axın pilləkənləri enirdi. Dəstənin içindən bir SS-çi aralandı. Mənə doğru gəldi. Qaçmadım. Ola bilərdi, o heç mənim üstümə gəlməsin. Amma qarşımda dayanıb mənə baxdı.

«Bağışlayın, odunuz varmı?» – soruşdu.

«Od?» – təkrarladım, sonra tələsik əlavə etdim: «Əlbəttə! Kibrit!»

Əlimi cibimə salıb axtardım.

«Kibrit nəyə lazımdır, – deyə SS-çi dilləndi, – siqaretiniz yanır ki!»

Siqaret çəkdiyimi tamam unutmuşdum. Siqaretimi ona uzatdım. Özününkünü siqaretin közərən ucuna tutub nəfəsini içəri çəkdi.

«Bu, nə siqaretdir belə çəkirsiniz?» – deyə soruşdu. «Demək olar, siqar iyi gəlir!»

Fransız siqareti idi. Sərhədi keçəndə bir-iki qutu özümlə götürmüşdüm.

«Dostumun hədiyyəsidir, – deyə cavab verdim, – Fransız əncəri. Qara tütün. Oradan gətirib. Mənə də sərtdir».

SS-çi güldü.

«Ən yaxşısı tərgitməkdir, deyilmi? Fürer kimi. Amma kimdir bunu bacaran, özü də bu zəmanədə?»

Özlərinin salamını çatdırıb getdi.

Şvars yüngülcə gülümsədi.

«Ayağını harasa basmağa ixtiyarı olan adam kimi, yaşayan vaxtlarda qorxu və dəhşətin yazıçı təsvirinə həmişə şübhə ilə yanaşmışdım: qurbanın ürəyi dayanır, o donub yerində qalır, kürəyinin arasından soyuq bir gizilti keçib damarlarına dolur, bütün bədənini tər basır – bunların hamısını klişe və pis üslub saymışdım, sən demə, doğrudan da, beləymiş; amma bir məsələ də var: hamısı həqiqətdir. Hər şeyi öz canımda hiss etdim, təsvir olunduğu kimi, baxmayaraq ki, əvvəllər, bu barədə hələ heç nə bilməyəndə bütün bunlara gülmüşdüm».

Ofisiantlardan biri bizə yaxınlaşdı.

– Cənablar kimləsə yaxınlıq istəyirmi?

– Yox.

Mən tərəfə dərin bir təzim etdi.

– Tam rədd edənə qədər bardakı o iki xanıma baxmaq istəmirsinizmi?

Onlara baxdım. Biri əməllicə başlıca gözəgəlimli idi. Hər ikisinin əynində bal paltarı vardı. Sifətlərini yaxşı görə bilmədim.

– Yox, – bir də dilləndim.

– Qadındırlar ha, – ofisiant izahata keçdi. – Sağdakı almandır.

– Sizi bura o göndərib?

– Xeyr, cənab, – ofisiant suçsuz bir təbəssümlə cavab verdi. – Öz ağlımın məhsuludur.

– Oldu. Dəfn edin getsin. Yaxşısı budur, yeməyə bir şey gətirin.

«Nə istəyirdi?» – Şvars soruşdu.

«Bizi Mata Harinin[1] nəvəsinə elçiləməyi. Görünür, oğlana xeyli çaypulu veriblər».

«Hələ pulu ödəməmişəm. Deyirsiniz, casuslardır?»

«Niyə də olmasınlar?! Amma dünyanın yeganə beynəlxalq təşkilatının şpionları: pulun şpionları».

«Almanlardır?»

«Ofisiantın dediyinə görə, biri».

«Düşünürsüz ki, almanları tora salıb geriyə qaytarmaq üçün buradadır?»

«Bəlkə də».

---

[1] *Mata Hari* – Birinci Cahan Savaşında alman qadın kəşfiyyatçısı 1917-ci ildə Fransa məhkəməsinin hökmü ilə güllələnmişdir.

Ofisiant bir boşqab buterbrod gətirdi. Onu mən sifariş vermişdim, çünki şərab öz təsirini göstərməkdə idi. Ayıq başla qalmaq istəyirdim.

«Yemirsiniz?» – Şvarsdan soruşdum.

Başını buladı.

«Heç fikirləşməmişdim ki, siqaret məni sata bilər», – dedi. «Yanımda nəyim vardı, hamısını nəzərdən keçirdim. Fransadan gətirdiyim kibritləri siqaretin qalığı ilə birlikdə atdım və alman malları aldım. Sonra yadıma düşdü ki, pasportumda fransız giriş möhürü və vizası var; əgər üstümü axtarsaydılar, bunların hamısı fransız siqaretlərinin haradan olduğunu sübuta yetirərdi. Özümə və içimdəki qorxuya hirslənərək, tər içində yenidən telefon köşkünə qayıtdım.

Gözləməli oldum. Döşündə partiya nişanı olan bir qadın dalbadal iki nömrə yığıb çəmkirə-çəmkirə əmrlər verirdi. Üçüncü nömrə cavab vermədi və qadın acıqlı-acıqlı, amiranə çölə çıxdı.



Dostumun nömrəsini yığdım. Qadın səsi cavab verdi:

«Lütfən, Doktor Martenslə danışa bilərəm?» – soruşdum və hiss etdim ki, səsim xırıldadı.

«Kimdir?» – qadın soruşdu.

«Doktor Martensin dostlarından biri».

Adımı deyə bilməzdim. Bilmirdim, danışan arvadıdır, yoxsa qulluqçu, hər halda, heç birinə özümü bildirə bilməzdim.

«Lütfən adınızı!», – qadın dilləndi.

«Doktor Martensin dostu, – cavab verdim, – zəhmət olmasa, ona çatdırın. Vacib bir işlə bağlı».

«Təəssüflənirəm, – qadın cavab verdi. – Adınızı deməsəniz, çatdıra bilmərəm».

«Bir dəfə müstəsnalıq edin, – dedim. – Doktor Martens zəngimi gözləyir».

«Əgər belədirsə, adınızı da deyə bilərsiniz...»

Məyus-məyus fikrə getdim. Sonra dəstəyin asıldığını eşitdim.

* * *

Bomboz, küləkli vağzalda dayanmışdım. Özümə çox sadə görünən ilk cəhdim boşa çıxmışdı və bundan sonra nə olacağını bilmirdim. Bəlkə, birbaşa Helenə zəng vurum?!

Qohumlarından kimsə səsimi tanıyardı. Başqa bir ad da deyə bilərdim, amma hansını? Doktor Martens, hazırkı anda ayrısı yadıma düşmədi. Onyaşlı oğlanın ağlına gələ biləcək bir fikir yadıma düşəndə məni əsməcə tutdu. Niyə Martensə qaynımın adından zəng etmirəm? Martens onu tanıyırdı və on il əvvəl ondan o qədər də xoşlanmırdı.

O dəqiqə başladım. Həmin qadın səsi yenidən dilləndi.

«Danışan Georq Yürqensdir», – sərt-sərt dedim. – «Doktor Martensi, lütfən».

«Bir az qabaq zəng edən cənab deyilsizmi?»

«Danışan şturmbanfürer Yürqensdir. Doktor Martenslə danışmaq istərdim. Təcili!»

«Bəli, – qadın dedi, – bircə dəqiqə! Bu saat!

Mənə baxdı. Adam telefonda öz aqibətini gözlərkən qulaqcıqdakı qorxunc, asta xışıltı sizə tanışdırmı?» Başımla təsdiqlədim. «Gözlədiyin həyat olmaya da bilər. Lənətləməyə çalışdığın bir heçlik də olar».

«Danışan doktor Martensdir», – axır ki, onun səsini eşitdim», – dedi. Əvvəllər lağa qoyub güldüyüm vəziyyətlərdən birini yenidən yaşadım: Boğazım qurumuşdu.

«Rudolf», – axır ki pıçıldadım.

«Buyurun».

«Rudolf, – dedim. – Səninlə danışan Helen Yürqensin qohumlarından biridir».

«Anlamadım. Şturmbanfürer Yürqens deyilmi?»

«Onun adından zəng edirəm, Rudolf. Helen Yürqensin adından. İndi başa düşdün?»

«Heç nə başa düşmədim», – xəttin o başındakı kişi çaşqın-çaşqın cavab verdi. «Xəstə qəbul edirəm...»

«Qəbuluna gələ bilərəmmi, Rudolf? Çoxmu məşğulsan?»

«Sizdən xahiş edəsi olacam! Sizi tanımıram və siz...»

«Old Şatterhand», – dedim.

Nəhayət, yadıma düşdü ki, uşaqlıqda hindular oyunu oynayarkən biz bir-birimizi necə çağırırdıq. Bu adlar Karl Mayın[1] romanlarından götürülmüşdü. On iki yaşımız olanda bu kitabların hamısını oxuyub qurtarmışdıq. Bir anlığa heç nə eşitmədim. Sonra Martens astadan dilləndi:

«Nə?»

[1] *Karl May* (1842-1912) – məhsuldar alman yazıçısı, Şimali Amerika müharibələrindən bəhs edən saysız romanlar müəllifi.

«Vinnetu, – cavab verdim. – Köhnə adları unutmusan? Axı bunlar fürerin sevimli kitablarıdır».

«Elədir», – dedi.

Hamı bilirdi ki, İkinci Cahan savaşını başlayan adam hansısa yazıçının hindular, kovboylar və ovçular haqqındakı otuz, bəlkə də, daha çox cildini oxumaq üçün öz yataq otağında saxlayır. Bunu da on beş yaşında olan oğlanlar gülünc şəkildə yüngül sayırlar.

«Vinnetu?» – Martens inanılmaz bir səslə təkrarladı.

«Elədir, səni görməliyəm».

«Başa düşmürəm. Haradasan?»

«Burada. Osnabrükdə. Harada görüşə bilərik?»

«Xəstə qəbul edirəm», – Martens mexaniki cavab verdi.

«Xəstəyəm. Qəbuluna gələ bilərəm?»

«Heç nə başa düşmürəm», – qətiyyətli səslə dilləndi. «Xəstəsinizsə, qəbuluma gəlin. Xüsusi zəngin nə mənası?»



«Haçan?»

«Yaxşısı budur, yeddi otuzda. Yeddi otuzda», – təkrarladı, – tez olmasın!»

«Oldu, yeddi otuzda».

Dəstəyi yerinə qoydum. Yenidən tərdən su kəsmişdim. Ağır-ağır çıxışa yollandım. Bayırda solğun aypara bir anlığa buludların arasından boylandı. Bir həftədən sonra təzə ay doğacaq. Sərhədi keçmək üçün ən münasib vaxt. Saata baxdım. Hələ qırx beş dəqiqə vaxtım vardı. Vağzaldan aralanmalıydım. Burada uzun müddət veyillənmək həmişə şübhə doğururdu. Ən qaranlıq və ən az gediş-gəlişli küçə ilə üzüaşağı endim. Küçə şəhərin qədim təpəliklərinə gedirdi. Təpələrin bir qismi hamarlanmış və üstündə hündür ağaclar bitmişdi; o biri hissəsi isə necə var, elə qalmışdı və çayaşağı uzanıb gedirdi. Meydandan keçib təpə boyunca İsanın Ürəyi kilsəsinin yanından aşağı endim.

Üstdəki təpədən çayın o üzündəki şəhərin dam və qüllələrini görmək olurdu. Kilsənin barokko üslubunda qübbəsi bərq vururdu. Bu mənzərə mənə tanış idi; minlərcə açıqcaların üstündə əks olunan və təpəboyu uzanıb gedən cökə ağacının qoxusu da doğma idi.

Sevgililərin oturacaqlarda əyləşdiyini gördüm, oturacaqlar ağacların arasında elə qoyulmuşdu ki, oradan çayı və şəhəri görmək mümkün idi. Mən Martensin yanına

gedənə qədər qalan yarım saatlıq vaxtımı öldürmək üçün boş oturacaqlardan birinə əyləşdim.

Kilsə zəngləri çalmağa başladı. Elə həyəcanlanmışdım ki, səslərin amplitudasını bədənimdə hiss etdim, sanki, bu, topları bir-birinə atan iki tennisçi arasındakı gözəgörünməz bir oyun idi. Oyunçunun biri mənim tanıdığım, ürküb qorxu keçirən, düşdüyü durum haqqında düşünməyə cürət etməyən köhnə Mən, digəri də düşünmək istəməyən, cəsurlaşmış və sanki, heç nə olmayacağına əmin olub özünü riskə atan yeni Mən – qəribə bir dəlilik ki, burada da tamın üçdə biri yeni Mənin qalib gələcəyi arzusu ilə tamaşaçı sifətində iştirak edir, hakim kimi tərəfsiz, passiv.

Həmin o yarım saatı yaxşı xatırlayıram. Hətta onu da xatırlayıram ki, özümü bu cür soyuqqanlı aparmağıma özüm heyrətlənmişdim. Elə bil, güzgülərinin üzbəüz divarlardan asıldığı bir otaqda dayanmışdım; onlar mənim əksimi boş sonsuzluğa qaytarırdılar və hər güzgü əksinin arxasında mən digərinin çiyni üstündən boylanan bir başqasını görürdüm. Mənə elə gəldi ki, bunlar qaralmış köhnə güzgülərdir və üzdəki ifadənin sorğulu, qəmli, ya da ümidli olduğunu görə bilmədim. Hamısı gümüşü məkanda toranlaşdı.

Yanımda bir qadın əyləşdi. Nə istədiyini bilmədim və mənə bəlli deyildi ki, varvarların rejimi hərbi məşqlərlə bu varlıqları da çoxdan eybəcər hala salıbmı? Ona görə də ayağa qalxıb yola düzəldim. Qadının arxamca güldüyünü eşitdim və bunu – Osnabrükdə Ərənlər Təpəsindəki həmin yad qadının həzin, bir az da kinayəli və yanımcıl gülüşünü heç vaxt unudan deyiləm.

## IV

«Gözləmə otağı boş idi. Pəncərənin yanındakı tərəcədə yarpaqları parıldayan hündür bitkilər vardı. Masanın üstünə üz qabıqlarında rejimin boslarının, əsgərlərinin və hitleryugendin marşla yeriyən bir bölməsinin əks olunduğu jurnallar düzülmüşdü. Sonra iti addım səsləri eşitdim. Martens qapının arasında dayanmışdı. Diqqətlə mənə baxırdı, gözlüyünü götürüb gözlərini qıydı. Gözləmə otağındakı işıq zəif idi. Martens məni o saat tanımadı, yəqin, bığıma görə.

«Mənəm, Rudolf, – dedim, – Yozef».

Əlini qaldırdı ki, susum.

«Haradan gəlirsən?» – deyə pıçıldadı.

Çiyinlərimi çəkdim. Bu, nəyə lazım idi?

«Gəlmişəm, buradayam, – dedim, – gərək, mənə kömək edəsən».

Məni gözdən keçirdi. Yaxını yaxşı görməyən gözləri zəif işıqda qalın akvarium şüşəsinin arxasındakı balığın gözlərinə bənzəyirdi.

«Burada olmağa icazən var?»

«Yalnız özüm özümə icazə vermişəm».

«Sərhəddən necə keçmisən?»

«Fərqi nədir?! Gəlmişəm, Heleni görüm».

Məni süzdü.

«Bundan ötrü gəlmisən?»

«Hə», – dedim.



Qəfildən özümü rahat hiss etdim. Nə qədər ki tək idim, mən özüm deyildim. İndi birdən-birə həyəcanım yoxa çıxmışdı, çünki qarşımda mat-mat dayanmış adamı necə sakitləşdirəcəyimi düşünürdüm.

«Bundan ötrü?» – bir də soruşdu.

«Hə, bundan ötrü. Sən də mənə kömək etməlisən».

«Aman Allah!», – dedi.

«Ölüb?» – soruşdum.

«Yox, ölməyib».

«Buradadır?»

«Hə. Buradaydı. Ən azı, bir həftə qabaq».

«Burada danışa bilərik?» – soruşdum.

Martens başı ilə təsdiqlədi.

«Şəfqət bacısını buraxmışam. Müştəri gəlsə, geri göndərərəm. Səni mənzilimə apara bilmərəm. Evlənmişəm. İki il qabaq. Başa düşürsən də...»

Başa düşdüm. Minillik imperiyada adam çoxdandır daha yaxın qohumuna da ürək qızdırmır. Almaniyanın xilaskarları çuğulluğu günü-gündən Milli Şərəf kimi tərənnüm edirdi. Buna mən şəxsən bələd idim. Qaynım məni çuğullamışdı.

«Arvadımın partiya ilə bağlılığı yoxdur, – Martens tələsik dilləndi. Ancaq biz heç vaxt belə məsələ haqda, – şaşqınlıqla mənə baxdı, – söhbət etməmişik, məsələn, indi

buradakı kimi. Dəqiq bilmirəm, bu barədə fikri necə olacaq. Gəl bura, keçək içəri».

Qəbul otağının qapısını açdı, sonra da arxamızca bağladı.

«Qoy açıq qalsın, – dedim, – bizi görmüş olsalar, bağlı qapı daha şübhəlidir».

Açarı geri burub mənə baxdı.

«Yozef, Allah xatirinə, burada neyləyirsən? Gizli gəlmisən?»

«Hə. Məni gizlətməyinə lüzum yoxdur. Şəhər kənarındakı hotellərdən birində yaşayıram. Sənin yanına yalnız ona görə gəlmişəm ki, burada olduğumu Helenə çatdırmağa ayrı adam tanımıram. Beş ildir, ondan xəbərim yoxdur. Bilmirəm, başına nələr gəlib. Yenidən ərə gedib-getməməyindən də xəbərim yoxdur. Əgər yenidən ərə gedibsə...»

«Ona görə də bura gəlibsən?»

«Hə, – təəccüblə dilləndim, – yoxsa, nəyə?»

«Gərək, səni gizlədək, – dedi. – Gecəni burada, qəbul otağında, divanın üstündə yatarsan. Yeddiyə qalmış oyadaram. Saat yeddidə qız təmizləməyə gəlir. Səkkizdən sonra yenə gələrsən. On birdən qabaq müştəri olmur».

«Ərə gedib?» – soruşdum.

«Helen? – başını buladı, – məncə, səndən heç boşanmayıb da».

«Harada yaşayır? Köhnə mənzildə?»

«Məncə, hə».

«Onunla kimsə yaşayır?»

«Kim?»

«Anası. Bacısı. Qardaşı. Ya da ayrı bir qohumu».

«Dəqiq bilmirəm».

«Gərək öyrənəsən, – dedim, – gərək, ona da deyəsən ki, buradayam».

«Özün niyə demirsən? – soruşdu, – budur, bu da telefon».

«Əgər kimsə onunla qalırsa? Məsələn, məni artıq bir dəfə çuğullamış qardaşı?»

«Haqlısan. Güman ki, Helen də mənim kimi çaş-baş qalar. Bu da onu ələ verər».

«Heç bilmirəm, mənə münasibəti necədir, Rudolf. Aradan düz beş il keçib, ona qədər də vur-tut dörd il idi,

evlənmişdik. Beş il dörddən çoxdur, olmamaqsa olmaqdan on dəfə çoxdur».

Başı ilə təsdiqlədi.

«Yenə də səni başa düşmürəm», – dedi.

«Ola bilər. Mən özüm də özümü başa düşmürəm. Biz müxtəlif ömürlər yaşayırıq».

«Niyə ona məktub yazmırdın?»

«İndi deyə bilmərəm, Rudolf. Helenin yanına get. Onunla danış. Öyrən gör, fikri nədir. Doğru hesab eləsən, burada olduğumu de və soruş, gör harada görüşə bilərik».

«Haçan gedim?»

«Elə indi», – deyib, sonra təəccüblə soruşdum: «Haçan getmək istəyirdin?»

Ətrafına boylandı.

«Bu arada harada qalacaqsan? Bura təhlükəlidir. Arvadım məndən xəbər tutmasa, qulluqçu qızı göndərə bilər. Öyrəşib ki, xəstələrin qəbulundan sonra evə dönüm. Ya da, gərək qapını sənin dalınca bağlayam, amma bu da nəzərə çarpar».



«İstəmirəm, qapını dalımca bağlayasan, – dedim, – arvadına deyə bilməzdinmi ki, xəstə dalınca getmisən?»

«Bunu axırda deyəcəm. Belə daha asandır».

Gözlərində bir parıltı gördüm və mənə elə gəldi ki, sol gözünü bir anlığa qıydı. Bu, yadıma uşaqlaq illərimi saldı.

«Bu arada katolik kilsəsinə gedərəm, – dedim, kilsələr bu gün orta əsrlərdəki kimi təhlükəsizdir. Sənə nə vaxt zəng eləyim?»

«Bir saatdan sonra. Adını Otto Şturm de. Səni necə tapa bilərəm? Gəlsənə, harasa telefon olan yerə gedəsən».

«Telefon olan yerdə təhlükə də var».

«Hə, bəlkə də, – bir anlığa qətiyyətini itirdi, – hə, bəlkə də, haqlısan. Geri qayıtmamış olsam, bir də zəng et, ya da harada olduğun barədə nəsə yaz, qoy».

«Yaxşı».

Papağımı götürdüm.

«Yozef, – dedi. Arxaya döndüm. – Oralar necədir?» – soruşdu. «Belə – heç nəsiz...»

«Heç nəsiz? – cavab verdim, – təxminən, elə, heç nəsiz. Tam yox. Bəs buralar? Hamısı ilə, birini çıxmaqla?»

«Yaxşı deyil, – dedi, – yaxşı deyil, Yozef. Amma hər şey gözəl görünür».

* * *

Ən az gedişli-gəlişli küçələrlə kilsəyə yollandım. Uzaq deyildi. Kran küçəsində nizami addımlarla yeriyən əsgər rotası yanımdan ötüb-keçdi. Mənə tanış olmayan bir marş oxuyurdular. Kilsə meydanında yenidən əsgərlər gördüm. Bir az aralıda, Kiçik kilsənin qarşısında iki-üç yüzə yaxın adam sıx-sıx dayanmışdı. Demək olar, hamısı da partiya mundirində. Səs eşitdim və natiqi axtarmağa başladım; amma heç kəsi tapa bilmədim. Bir azdan kürsünün üstündə qara bir səsgücləndirici gördüm. Orada, işıq altında çılpaq və tənha durmuşdu; avtomat qurğu bütün alman torpaqlarını yenidən tutmaq haqqında, böyük Almaniyadan, qisasdan və belə bir faktdan bar-bar bağırırdı ki, dünya Almaniyanın nə etdiyini başa düşsə, ona barış və dinclik bəxş ediləcək – haqq-ədalət də elə budur.

Yenidən külək qalxmışdı, ləngərlənən budaqlar narahat kölgələrini insanların üzünə, bağıran maşına və kilsə divarında lal-dinməz dayanmış daş heykəllərə: çarmıxdakı Məsihə və iki günahkara salırdı. Tamaşaçıların sifəti, sanki, bir sifət idi və alışıb-yanırdı. Avtomatın onlara qışqırdığına inanırdılar və burada baş verənlər qəribə bir gipnoza bənzəyirdi, onlar nə eşidə, nə də görə bilən bu qurğuya əl çalırdı, sanki, o, insan idi. Mənim üçün də bu, zəmanəmizin boş, qaranlıq mübtəlalığına bənzəyirdi ki, o da qorxu və isterika içində çağırışlara qoşulur, fərqi yoxdur, sağdanmı, ya soldanmı qışqırırlar, təki kütlədən əzablı düşünmə və cavabdehlik hissini götürsün.

* * *

Kilsədə bu qədər adamın olacağını gözləmirdim. Birdən yadıma düşdü ki, mayın son günləridir və bu ayda hər axşam tövbə edilir. Bir anlığa fikirləşdim ki, gərək protestant kilsəsinə gedəydim[1]; amma onun axşamlar açıq olub-olmadığını bilmirdim. Girişin yanında büzüşüb oturacaqlardan birinə əyləşdim. Altarda şamlar yanırdı,

[1] *Protestant* təriqətində, islamda olduğu kimi, günahları yalnız Allah bağışlaya bilər. Odur ki, protestant kilsəsində keşiş günahları dinləyib bağışlaya bilməz. Şvars da "Gərək protestant kilsəsinə gedəydim", – deyəndə bunu nəzərdə tutur.

kilsənin qalan hissəsi az işıqlandırılmışdı və məni tanımaq asan olmazdı.

Zərxara geyimli keşiş buxur dumanında ağır-ağır altarın yanında oyan-buyana gedir, onun yörəsində də əllərində tütstülənən buxur qabları tutmuş ağ başlıqlı, qırmızı geyimli duaçılar dolaşırdı. Arqan çalır, xor da oxuyurdu və birdən mənə elə gəldi ki, bayırdakı həmin gic-gici sifətləri, səksəkəli, ayıq yuxuda olan gözləri görürəm, heç bir sual vermədən, təhlükəsizlik və cavabdehlik arzusu olmadan. Bayırdakına nisbətən burada hər şey həlim və mülayim idi, fəqət Allaha və insandaşlara sevgi dini həmişə belə mülayim olmayıb: qaranlıq əsrlərdən keçərək o da qanlar bahasına ərsəyə gəlib. Özünün təqiblərə məruz qalmadığı çağlarda tonqal, qılınc və işgəncələrlə özü təqibə başlayıb. Helenin qardaşı lağ edə-edə bunu mənə düşərgədə demişdi:



«Biz sizin kilsənin metodlarını əxz etmişik. Allahın adı ilə yaratdığınız işgəncə kameralı inkvizisiyanız bizə əqidə düşməni ilə necə davranmağı öyrədib. Biz daha mərhəmətliyik, biz yalnız xüsusi hallarda diri-diri yandırırıq».

O vaxt bunları mənə deyəndə çarmıxdan asılmışdım. Dustaqlardan adları qoparmaq üçün bu ən insafsız üsullardan biri idi.

Altardakı keşiş qızıl piyaləni qaldırıb camaata xeyir-dua suyu çilədi. Səssizcə oturmuşdum, mənə elə gəlirdi ki, tüstünün, təsəllinin və işığın ılıq təknəsində üzürəm. Sonuncu nəğmə başladı: Bu gecə mənə sipər ol, məni qoru... Bunu mən uşaq vaxtı oxumuşdum və o zaman gecənin qaranlığı mənə qorxu kimi görünmüşdü, indi isə işıq idi.

Camaat kilsədən çıxmağa başladı. Mən hələ on beş dəqiqə gözləməliydim, odur ki tavana dirək olan iri sütunların birinin yanında küncə qısıldım.

Elə həmin an Heleni gördüm. Onu əvvəlcə bayıra çıxanların arasında burulğana oxşatdım. Kimsə adamların tərsinə gedərək özünə yol açmağa çalışırdı, camaatı yara-yara onların arasından sivişib çıxırdı. Bir anlığa aydın, acıqlı və qətiyyətli bir sifət gördüm, bu, nəyisə unutmuş qadına bənzəyirdi. O saatca tanımadım, çünki onu burada gözləmirdim. Yalnız camaat seyrələn vaxt yanımdan ötüb, çəpəki irəli gedəndə çiyinlərinin hərəkətindən gördüm ki, odur. Heç kəsə toxunmadan adamların arasından sivişib keçdi

və azadlığa çıxmış kimi bir azdan şamların şöləsinin və hündür Roma pəncərələrindən süzülən göy, qırmızı işığın arasında dayandı, birdən-birə arıqlamış, kiçilmiş, az qala, tənhalaşmış və itirilmiş bir insan kimi.

Baxışını tutmaq üçün ayağa qalxdım. Əl etməyə cürətim çatmadı. Burada hələ xeyli adam vardı; kilsədə belə şeylər diqqət çəkərdi. Yaşayır! İlk düşüncəm bu oldu. Nə ölüb, nə də xəstədir! Qəribədir, bizim vəziyyətimizdə birinci həmişə bunu düşünürlər! Nəyinsə həmişəki kimi olduğuna, kiminsə hələ sağ qaldığına mat qalırsan.

Yoluna davam etdi, yeyin-yeyin, xora doğru. Oturacaqdan qalxıb arxasınca getdim. Kürsüyə çatanda ayaq saxlayıb dala çevrildi. Hələ də oturacaqlardan qalxmayan camaata diqqətlə baxdı və asta-asta yenidən çıxışa qayıtdı. Ayaq saxladım. Məni haradasa oturacaqlardan birində tapacağına elə əmin idi ki, düz yanımdan keçərək, az qaldı mənə toxunsun. Yenə arxasınca getdim. Təzədən dayananda dilləndim:

«Helen, arxaya çevrilmə! Çölə çıx! Arxanca gəlirəm. Bizi burada görməməlidirlər».

Diksindi, sanki, qəfil zərbə almışdı, sonra yoluna davam etdi. Bura niyə gəlmişdi? Tanına bilməklə böyük bir təhlükə içindəydik. Ancaq mən özüm bilməmişdim ki, burada bu qədər adam ola bilər. Qabağıma düşüb gedirdi; mümkün qədər bu kilsədən tez çıxmaq yeganə qayğım idi. Əynində qara kostyum, başında xırda şlyapa vardı, başını dik tutmuşdu, bir az da çəpəki, sanki, addım səslərimi dinləyirdi. Ondan bir neçə addım aralı yeriyirdim, o qədər aralı ki, gözümdən itirməyim; tez-tez deyirdilər ki, adam kimləsə yaxın yeridiyinə görə yaxalanır.

Xeyir-dua suyunun yerləşdiyi daş teknələrin yanından ötüb böyük giriş qapısından keçdi, elə o saatca da sola buruldu. Kilsənin yanı ilə daş pilətə döşənmiş enli bir yol gedirdi, qum daşından yonulmuş dirəklərin arasındakı dəmir zəncirlə kilsə meydanından ayrılmışdı. Zəncirlərin üstündən aşıb bir neçə addım qaranlığa doğru getdi, ayaq saxlayıb geriyə qanrıldı. Bu anda nələr duyduğumu izah edə bilmərəm. Desəm ki, burada hayatım məndən aralı – önümdə yeriyir, birdən qanrılıb mənə baxır, bu da növbəti klişe olardı, amma həm gerçəkdir, həm gerçək deyil, ancaq buna

baxmayaraq, mən belə hiss edirdim, lakin bu da duyduğumun hamısı deyildi. Helenə doğru, onun incə, tutqun fiquruna doğru, solğun simasına, gözlərinə, ağzına doğru yeridim və olmuşların hamısını arxada buraxdım. Birgə yaşamadığımız çağlar itib-getməmişdi; qalmışdı, amma haradasa oxuduğum kimi, indi o əlçatmaz olmuşdu, mən onu yaşamamışdım.

«Haralardan gəlirsən?» – ona çatana qədər, az qala, düşməncəsinə soruşdu.

«Fransadan».

«Səni ölkəyə buraxdılar ki?»

«Yox. Sərhədi gizlin keçmişəm».

Martensin verdiyi həmin suallar idi.

«Niyə?» – soruşdu.

«Səni görmək üçün».

«Gəlməyə bilərdin!»



«Bilirəm. Bunu hər gün özüm özümə də deyirdim».

«Onda niyə gəldin?»

«Orasını bilsəydim, burada olmazdım».

Onu öpməyə ürək eləmədim. Düz qarşımda dayanmışdı, ancaq elə donuqdu ki, elə bil, toxunsan, sınıb-töküləcəkdi. Nələr düşündüyünü bilmirdim, lakin onu təzədən görmüşdüm, yaşayırdı və indi gedə bilərdim, yaxud da olacaqların üzünə dik baxa bilərdim.

«Özün də bilmirsən?» – soruşdu.

«Sabah biləcəm. Ya da bir həftədən sonra. Yaxud bir az gec».

Onu süzdüm. Bilməyə nə vardı ki? Bilmək – dalğalar üstündə rəqs edən kiçik köpükdür. İstənilən külək onu qabağına qatıb apara bilər; dalğa isə qalardır.

«Gəlmisən», – deyib bir addım qabağa gəldi və üzü bayaqkı donuqluğunu itirdi, həlimləşdi. Qollarından tutdum, əllərini sinəmə dirədi, elə bil, məni geri itələmək istəyirdi. Məndə qəribə bir duyğu baş qaldırdı, sanki, uzun müddətdir beləcə üz-üzə dayanmışıq, kilsənin tutqun, küləkli meydanında, tək-tənha, halbuki küçənin səs-küyü tərli şüşə divardan keçərək, dumanlı da olsa, qulağımıza çatırdı. Solda, təqribən, yüz addım o yanda meydanın çəp tərəfi ilə üzbəüz şəhər teatrı yerləşirdi, dümağ pillələri ilə çılçıraq içində; o da yaxşı yadımdadır: bir anlığa dumanlı şəkildə

beynimdən keçdi ki, necə olur, burada hələ də tamaşa göstərirlər, teatrı kazarma, yaxud həbsxana etməyiblər.

Yanımızdan bir dəstə adam keçdi. Kimsə güldü və bir neçəsi də biz tərəfə boylandı.

«Gəl, – Helen pıçıldadı, burada qala bilmərik».

«Hara gedəsiyik ki?»

«Sənin mənzilinə».

Mənə elə gəldi ki, düz eşitməmişəm.

«Hara?» – bir də soruşdum.

«Sənin mənzilinə. Özgə haramız var?»

«Pilləkəndə məni tanıyarlar! Binada əvvəlki adamlar yaşamır bəyəm?»

«Görməzlər».

«Bəs qulluqçu qız?»

«Bir axşamlığa onu göndərərəm getsin».

«Bəs sabah tezdən?»

Helen mənə baxdı.

«O qədər yolu gəlmisən ki, mənə bu qədər sual verəsən?»

«Gəlməmişəm ki, tutulam, səni də düşərgəyə saldıram, Helen».

Birdən gülümsədi.

«Yozef – dedi, – heç dəyişməmisən. Bura necə gəlibçıxmısan?»

«Heç özüm də bilmirəm», – cavab verib, mən də gülümsədim. Əvvəllər hərdən yarı acıqlı, yarı məyus halda çatışmazlıqlarımı üzümə vurması yadıma düşəndə qorxu birdən-birə çəkilib-getdi. «Amma gəlmişəm, özü də buradayam», – dedim.

Başını buladı və gördüm ki, gözləri yaşla dolub.

«Hələ ki yox, – cavab verdi. – Hələ yox! İndi isə gəl, yoxsa bizi, doğrudan da, tutarlar, qıraqdan baxanda elə bilərlər, sənə tamaşa düzəltmişəm».

Meydandan keçib-getdik.

«İndi səninlə gedə bilmərəm, – dedim, – əvvəlcə, gərək qulluqçunu göndərəsən getsin. Münsterdə mehmanxanada otaq tutmuşam. Məni orada tanıyan yoxdur. Orada qalmaq istərdim».

Ayaq saxladı.

«Nə qədər?»

«Bilmirəm, – cavab verdim, – ömrümdə sona qədər düşünə bilməmişəm, fikrimdə səni görmək, sonra da birtəhər geri qayıtmaq olub».

«Sərhəddən?»

«Özgə haradan, Helen?»

Başını aşağı salıb yoluna davam etdi. Fikirləşirdim ki, indi mənim ən xoşbəxt anım olmalıdır, amma bunu hiss etmirdim. Belə şeyi həmişə sonradan hiss edirsən, indi isə bircə onu bilirdim ki, xoşbəxtəm.

«Martensə zəng etməliyəm», – dedim.

«Mənzilindən edərsən», – Helen cavab verdi. Hər dəfə mənzil deyəndə ürəyimin başı dağlanırdı. Bunu qəsdən edirdi. Bilmirdim, niyə.

«Martensə söz vermişəm ki, bir saatdan sonra zəng edəcəm, – dedim, – vaxt tamamdır. Etməsəm, fikirləşəcək ki, nəsə baş verib. Ehtiyatsızlıq edə bilər».



«Bilir ki, sənin dalınca gəlmişəm».

Saata baxdım. Zəng edəcəyim vaxtdan on beş dəqiqə keçmişdi.

«Yaxındakı meyxanadan edərəm, – dedim, – bircə dəqiqə çəkər».

«Aman Allah, Yozef!», – Helen hirslə dilləndi. «Sən, doğrudan da, heç dəyişməmisən. Bir az da pedantlaşmısan».

«Pedantlıq deyil. Təcrübədir. Tez-tez şahidi olmuşam ki, xırdalıqlara məhəl qoymayanda çox bəlalar baş verir. Və bilirəm ki, təhlükə altda gözləmək nə deməkdir». Əlindən tutdum: «Bu cür pedantlıq olmasaydı, sağ qalmazdım, Helen».

Bərk-bərk qolumdan yapışdı.

«Bilirəm, – mızıldandı, – görmürsən ki, səni bir anlığa tək buraxsam, nəsə olacağından qorxuram?»

Dünyanın bütün hərarəti canıma yayıldı.

«Heç nə olmayacaq, Helen. Buna inanmaq lazımdır. Bütün pedantlıqla birlikdə».

Gülümsəyib solğun sifətini yuxarı qaldırdı.

«İndi isə get, zəng et. Amma meyxanadan yox. O tərəfdə telefon köşkü var. Onu sən olmayanda quraşdırıblar. Meyxanadan o etibarlıdır».

Şüşə köşkə girdim. Helen bayırda dayanmışdı. Martensə zəng etdim, nömrə məşğul idi. Bir az gözlədim və yeni-

dən yığdım. Pul şaqqıltı ilə düşdü, nömrə hələ də məşğul idi. Narahat oldum. Şüşədən Helenin də küçədə narahat-narahat vurnuxduğunu gördüm. Ona işarə verdim, lakin məni görmədi. Boğazını irəli uzadıb küçəni gözdən keçirirdi, sanki, büruzə vermədən pusurdu. Gözətçi mələk kimi, əyninə kip oturan kostyumda, bunu indicə gördüm. Gözləyərkən gördüm ki, dodaqları boyalıdır. Sarımtıl işıqda qara rəngə çalırdı. Yadıma düşdü ki, ənlik-kirşan yeni Almaniyada arzu olunan şey deyil. Üçüncü zəngdə düşdüm.

«Arvadım telefonla danışırdı, – Martens dedi. «Düz yarım saat. Kəsə bilmədim. Paltar, müharibə və uşaqlar barədə».

«İndi haradadır?»

«Mətbəxdə. Danışmağına mane olmadım. Başa düşürsən də?»

«Hə. Hər şey qaydasındadır. Minnətdaram, Rudolf. Hamısını unut getsin».

«Haradasan?»

«Küçədə. Minnətdaram sənə, Rudolf. Daha mənə heç nə lazım deyil. Hər şeyi tapmışam. Bir yerdəyik».

Şüşədən Helenə baxdım və dəstəyi yerinə qoymaq istədim.

«Harada qalacağını bilirsənmi?» – Martens soruşdu.

«Məncə, hə. Qayğılanma. Unut bu axşamı, elə bil, yuxu görmüsən».

«Nəsə edə bilərəmsə, – çəkinə-çəkinə dedi, – bildir. İlk əvvəl elə çaşmışdım ki. Başa düşürsən də...»

«Hə, Rudolf, anlayıram. Nəsə lazım olsa, xəbər verərəm».

«Əgər bizdə gecələmək istəsən, söhbət edərdik...»

Gülümsədim. «Baxarıq. İndi isə, gərək, söhbəti kəsəm...»

«Hə, əlbəttə», – tələsik dilləndi. – «Bağışla. Uğurlar, Yozef. Doğrudan da!»

«Çox sağ ol, Rudolf».

Boğucu kabinədən çölə çıxdım. Külək məni haqladı, az qala, papağımı başımdan aparacaqdı. Helen tələsik mənə yaxınlaşdı.

«Gedək evə! Ehtiyatkarlığınla məni də xəstələndirmisən. Qəfildən mənə elə gəldi ki, burada qaranlıqdan bizə yüz göz zillənib».

«Qulluqçun həminkidir?»

«Lenanı deyirsən? O, məndən qardaşıma casusluq edirdi. Qardaşım da demək istəyirdi ki, mənə məktub yazırsanmı? Yaxud mən sənə».

«Bəs indiki?»

«Bir az gicbəsər və laqeyddir. Onu göndərə bilərəm, sevinəcək və heç nə fikirləşməyəcək».

«Hələ göndərməmisən?»

Gülümsədi və birdən-birə daha da gözəlləşdi.

«Gərək, əvvəlcə biləydim ki, doğrudan da, buradasan».

«Mən gələnə qədər, gərək, onu göndərəsən», – dedim. «Bizi bir yerdə görməməlidir. Harasa, başqa yerə gedə bilmərikmi?»

«Haraya?»

Elədir, haraya? Helen qəfildən güldü.

«Ata-anaları onları hələ çox gənc saydığına görə gizli görüşə çıxmış yeniyetmələr kimi dayanmışıq burada! Hara gedə bilərik? Saray parkına? Saat səkkizdə bağlanacaq. Şəhər xiyabanlarındakı oturacaqlardan birinə? Şirniyyat mağazasına? Çox təhlükəlidir!»



Haqlı idi. Bunlar mənim öncədən görə bilmədiyim xırdalıqlar idi, hər şeyi öncədən görmək olmur.

«Elədir, – dedim, – yeniyetmələr kimi dayanmışıq burada. Sanki, bizi geri, gəncliyimizə qaytarıblar».

Ona baxdım. İyirmi doqquz yaşı vardı; ancaq elə əvvəllər gördüyüm kimi idi. Su körpə suitinin üstündən süzülüb töküldüyü kimi, sanki, ötən beş il də Helenin üstündən süzülüb tökülmüşdü.

«Elə mən də yeniyetmə kimi gəlmişəm», – dedim. «Bütün götür-qoylar bunun əleyhinə idi, ancaq bir yeniyetmə kimi axırını düşünmədim. Hətta çoxdandır bir başqası ilə yaşayıb-yaşamadığını da dəqiq bilmirdim».

Cavab vermədi. Qonur saçları fənərin işığında bərq vurdu.

«Mən qabaqda gedib qızı göndərəcəm», – dedi. «Amma küçədə səni tək qoymağıma dözmürəm. Gəldiyin kimi də yoxa çıxa bilərsən. Ona qədər harada qalacaqsan?»

«Məni tapdığın yerdə. Kilsələrin birində. Böyük kilsəyə də qayıda bilərəm. Kilsələr təhlükəsizdir, Helen. Fransanın, İsveçrənin, İtaliyanın kilsə və muzeylərinin bilicisinə çevrilmişəm».

«Yarım saatdan sonra gələrsən, – pıçıltı ilə dedi. – Evimizin pəncərələrini unutmamısan ki?»

«Yox», – dedim.

«Künc pəncərə açıq olsa, deməк, hər şey qaydasındadır, qalxa bilərsən. Bağlı olsa, açana kimi gözlə».

Yadıma Martenslə yeniyetməliyim düşdü, hindu-hindu oynadığımız çağlar. O vaxtlar aşağıda gözləyən Dəricorab və ya Vinnetu üçün işarə pəncərədəki işıq idi. Hər şey təkrarlanırdımı? Ümumiyyətlə, elə şey vardımı ki, təkrarlansın?

«Oldu», – deyib getmək istədim.

«Hara gedirsən?»

«Baxım görüm, Mariya kilsəsi açıqdırmı. Yaddaşım məni aldatmırsa, qotik tikinti sənətinin gözəl nümunəsidir. Bu arada belə şeylərə qiymət verməyi öyrənmişəm».

«Boşla getsin! – dedi, – yetər ki, səni tək qoymalı oluram».

«Helen, – dedim, – özümə diqqət yetirməyə öyrəncəkliyəm».

Başını buladı. Üz-gözü birdən-birə cəsarət nişanəsini itirdi.

«Kifayət etmir, – dedi. – Kifayət etmir. Gəlməsən, neyləyərəm?»

«Heç nə edə bilməzsən. Telefon nömrən həminkidir?»

«Hə».

Çiyninə toxundum: «Helen, – dedim, – hər şey yaxşı olacaq».

Başı ilə təsdiqlədi.

«Səni Mariya kilsəsinə özüm aparacam. Ora təhlükəsiz çatdığına əmin olmaq istəyirəm».

Dinib-danışmadan ora yollandıq. Uzaq deyildi. Helen bir kəlmə də kəsmədən məni qoyub getdi. Qədim bazar meydanı ilə addımlayanda arxasınca baxdım. Yeyin-yeyin gedirdi və yörəsinə boylanmırdı.

* * *

Qapının ağzında dayandım. Sağda bələdiyyə binası vardı; köhnə heykəllərin daş sifətinə ay işığından bir zolaq düşmüşdü. Binanın bu qanadında Otuzillik müharibənin 1648-ci ildə qurtarması, eləcə də Minillik səltənətin 1933-cü

ildə başlaması həkk olunmuşdu. Düşündüm ki, həmin səltənətin sonunun bura həkk olunacağı günü görəcəmmi? Ümidim az idi.

Kilsəyə girməyə cəhd etmədim. Gizlənməkdən birdənbirə zəhləm getdi. Təbii ki, ehtiyatı əldən qoymurdum, amma Heleni görəndən bəri ehtiyac olmadan qısnanan heyvana çevrilmək istəmirdim.

Diqqət çəkməmək üçün yoluma davam etdim. Bundan əvvəl mənim üçün təhlükəli, tanış və yadlaşmış şəhər indi gözümdə canlanmağa başladı. Hiss etdim ki, belədir, çünki mən özüm də canlanmağa başlamışdım. Yalnız ölməmək xatirinə olan son illərin adsız yaşamı, bir gündən digərinə bəhrəsiz boyvermə birdən-birə mənə o qədər də mənasız görünmədi. Bu yaşam məni formalaşdırmışdı, kövrək bir çiçək kimi gizlicə qoparıb atmışdı, amma birdən-birə məndə əvvəllər rast gəlmədiyim bir həyat duyğusu baş qaldırdı. Bunun romantika ilə bağlılığı yox idi, fəqət elə təzə və coşdurucu idi ki, elə bil, par-par parıldayan iri tropik çiçəkdi, ortaboy bir kolluğun üstündə bitmişdi, ondan ən uzağı xırda tumurcuqlar gözləmək olardı. Çaya gəlib körpünün üstündə dayandım və məhəccərdən tutub suya baxdım. Məndən solda orta əsrlərdən qalma bir göz qülləsi vardı, indi oranı camaşırxana etmişdilər. Pəncərələrdən işıq süzülürdü, paltar yuyanlar hələ də işləyirdi. İşıq enli zolaqlarla çayın üstündə oynaşırdı. Cökə ağacları əkilmiş qara təpə göylərə can atırdı, aşağıda isə kilsənin siluetləri düşmüş bağlar vardı.

Kipkirimiş dayanmışdım, gərginliyim çəkilmişdi. Suyun şırıltısından və pəncərə arxasındakı camaşırçıların boğuq səslərindən başqa heç nə eşidilmirdi. Onların nə danışdığını başa düşmürdüm. Eşitdiyim hələlik sözlərə çevrilməmiş insan səslərinə bənzəyirdi. Onlar yalnız yaxınlıqda insanın olduğuna işarəydi, lakin yalanın, fırıldağın, gicliyin və murdar tənhalığın işarəsi deyildi, olsaydılar, planlı melodiyanın iyrənc obertonları kimi hazır sözlərə çevrilərdilər.

Sinəm dolusu nəfəs alırdım və mənə elə gəlirdi ki, suyun axışı ilə eyni ritmdə nəfəs alıram. Zamanın fövqündə olan bir anda hətta elə bildim ki, körpünün bir parçasıyam və çay mənim nəfəsim kimi onunla birliklə içimdən axır. Bu da mənə təbii göründü və heyrətlənmədim. Heç nə

düşünmürdüm. Düşüncələrim də nəfəsim kimi, su kimi süzülüb harasa gedirdi.

Sol tərəfimdəki cökə xiyabanının başı üstündə bir işıq zolağı dolaşdı. Gözlərimlə onu izlədim, sonra təzədən camaşırçıların səsini eşitdim. Yadıma düşdü ki, xeyli vaxtdır bu səsləri eşitmirdim. Cökənin ətrini də təzədən duydum. Zəif külək onu suyun üstünə gətirirdi.

Xiyabanda dolaşan işıq söndü və arxamdakı pəncərələr qəfildən qaranlıqlaşdı. Su bir anlığa qaralıb qətran rəngi aldı, sonra ayın bayaqdan camaşırxananın gur işığında itmiş zəif şüaları göründü. İndi onlar yeganə işıq mənbəyi kimi, suyun üstündə əvvəlki qaba, sarı işığa nisbətən daha zərif və rəngarəng oynamağa başladılar. Mən illər öncə işığı sönmüş həyatımı düşündüm və heyrət məni götürdü ki, əvvəllər heç vaxt görmədiyim zərif işıqlar, görəsən, mənim həyatımda da baş qaldıra bilərmi, ayın indi, buradakı çayda əksi kimi? İndiyə qədər itki mənə duyumsal olmuşdu, ona görə yox ki, bu duyumsallıqla nəsə əldə edə bilərdim.

* * *

Körpünü tərk edib qaranlıq xiyabandan keçərək, gözlədiyim yarım saat tamam olana qədər torpaq təpənin üstündə gəzişdim. Gecə hakim kəsildikcə cökələrin ətri daha da güclənirdi və ay damlara və qüllələrə gümüşü örtük çəkirdi. Sanki, mənə göstərmək üçün ki, özüm-özümə bir yalan uydurmuşam, şəhər, deyəsən, əlindən gələn hər şeyi etmək niyyətindəydi: təhlükə haradasa marığa yatıb gözləsə də, yenidən özüm olmaq üçün uzun, yanlış yoldan dönüb dərdsiz-qayğısız evə dönə bilim.

Buna qarşı mübarizə aparmağıma lüzum yox idu. İçimdə qeyri-ixtiyari bir şey baş qaldırdı və hər tərəfə göz yetirdi. Tez-tez Parisdə də, Romada da, digər şəhərlərdə də beləcə həbs olunmuşam – gözəlliyə aludə olaraq, sevginin, anlağın və unutqanlığın aldadıcı illüziyasında yırğalana-yırğalana təhlükəsizlik tədbirlərini yaddan çıxararaq. Çuğullar nə ay işığında, nə də cökə ətrində müqəddəslərə çevrilir.

Hitler meydanına yollandım ehtiyatla, sinirlərim yarasa qanadları kimi gərilmişdi. Ev meydana çıxan küçənin tinində yerləşirdi. Küçə köhnə adını hələ də saxlayırdı.

Pəncərə açıq idi. Yadıma «Hero və Leander[1]» hekayəti və padşah uşaqlarının nağılı düşdü, dayə işığı söndürmüş, padşahın oğlu da boğulmuşdu; mən ki padşah oğlu deyiləm, düşündüm, almanların da çoxlu gözəl nağılları var, ancaq buna baxmayaraq, ya da, bəlkə, elə buna görə dünyanın ən dəhşətli konslagerləri var. Küçəni arın-arxayın keçdim, amma bu nə Hellespont idi, nə də Baltik dənizi.

Girəcəkdə bir nəfərlə üz-üzə gəldim. Geriyə qayıda bilmədim, hara getdiyini dəqiq bilən adamlar kimi pilləkənə doğru yeridim. Əvvəllər tanımadığım ortayaşlı bir qadın idi. Elə bil, ürəyimi xıncalayıb buraxdılar...», – Şvars gülümsədi, – «bu da klişelərdən biridir, yalnız başına gələndə doğruluğuna inanırsan. Ətrafıma baxmadım, bina qapısının örtüldüyünü eşidib pilləkənlə yeyin-yeyin yuxarı qalxdım. Mənzilin qapısı bir santimetr aralıydı. İtələyib açdım, qarşımda Helen dayanmışdı.



«Görən oldu?» – soruşdu.

«Hə. Ortayaşlı bir qadın».

«Şlyapasız?»

«Hə. Şlyapasız».

«Qulluqçu qız olacaq. Otağı damın altındadır. Dedim, bazar ertəsi günortaya qədər azaddır; yəqin, boxçası ilə əlləşib. Bu qızlar fikirləşirlər ki, onlar küçəyə çıxanda paltarını tənqid etməkdən başqa camaatın ayrı dərdi-səri yoxdur».

«Qoy rədd olsun, – dedim, – hər kim idisə, məni tanımadı. Adamlar məni tanıyanda hiss edirəm».

Helen yağış plaşımı və papağımı əlimdən aldı, hər ikisini asmaq istədi.

«Burada yox, – dedim, – dolaba as. Gələn olsa, burada görər».

«Heç kim gəlməz», – deyib qabağa düşdü.

Geri dönüb qapıdakı açarı burdum. Sonra onun arxasınca getdim.

* * *

Sürgünün ilk illərində mənzilimi düşünürdüm, sonra onu unutmağa çalışdım. İndi burada olanda heç nə hiss

[1] *"Hero və Leander"* – Yunan əsatirində gənc Leander Afroditanın kənizi Heroya vurulur və sevgilisi ilə görüşmək üçün hər gecə Hellespontu üzüb keçir.

etmədim. Haçansa mənim olmuş və məni həyatımın müəyyən zamanına qaytaran bir şəkil kimi idi. Qapıda dayanıb yörəmə baxdım. Demək olar, heç nə dəyişməmişdi. Divan və kürsülərə təzə üz çəkilmişdi.

«Əvvəllər yaşıl deyildilər?» – soruşdum.

«Göy», – Helen cavab verdi.

Şvars mənə tərəf döndü.

«Əşyaların öz həyatı var və onu özününkü ilə müqayisə etmək dəhşətdir».

«Niyə müqayisə edəsən?» – soruşdum.

«Siz etmirsiniz?»

«Edirəm, amma müxtəlif səviyyələrdə. Mən özümlə məhdudlaşıram. Limanda ac dayananda özümü xərçəngdən əzab çəkən xəyali "mən"lə müqayisə edirəm. Onda bu məni bir anlığına süurlu edir, çünki mən xərçəng xəstəsi deyiləm, yalnız acam».

«Xərçəng, – deyib gözünü mənə zillədi, – bu, haradan ağlınıza gəldi?»

«Siflis də deyə bilərdim. Yaxıd vərəm. Yadıma ilk düşən xərçəng oldu, ən yaxını budur».

«Ən yaxını? – Hələ də gözünü məndən çəkməmişdi. – İcazə verin deyim ki, ən uzağı! Ən uzağı!», – təkrarladı.

«Yaxşı, – cavab verdim, – ən uzağı. Yalnız misal kimi işlətdim».

«O qədər uzaqdır ki, başa da düşmürsən».

«İstənilən sağalmaz dərd elədir, cənab Şvars. Həmişə elədir».

Başı ilə təsdiqləyib susdu. «Daha ac deyilsiniz ki?» – soruşdu.

«Xeyr. Niyə soruşdunuz?»

«Nəsə demişdiniz».

«O da adicə bir misal idi. Bu gün gözünüzün qabağında iki kərə şam etmişəm».

Başını qaldırıb baxdı. «Necə də səslənir! Şam etmişəm! Necə də ovunducucu! Hər şey keçib-gedəndən sonra necə də əlçatmaz!» Susdum. Bir azdan xeyli həyəcansız dilləndi: «Sarı kürsülər. Onlara təzə üz çəkilmişdi, ötən beş ildə dəyişən təkcə bu idi, həmin beş ildə də varlığım onlarla kinayə mayallağı aşmışdı. Deyəsən, belə şeylər hərdən uyuşmur, demək istədiyim də elə bu idi».

«Elədir. İnsan ölür, amma yatağı qalır. Evi qalır. Əşyaları qalır. Adam onları da məhv etmək istərdi».

«Əgər onlara laqeydsənsə, yox».

«Onları məhv etməyə lüzüm yoxdur», – dedim. – O qədər önəmli deyil».

«Deyil?» – deyib qəfildən əyilmiş üzünü mənə tuşladı. «Önəmli deyil? Əlbəttə, deyil! Onda deyin görüm, yaşamağın önəmi yoxsa, önəmli olan nədir?»

«Heç nə, – cavab verdim. Bilirdim ki, dediyim həm düzdür, həm də yanlış. Yalnız biz onu önəmli edirik».

Şvars dərhal qırmızı şərabdan içdi.

«Niyə də yox? – ucadan soruşdu, – deyə bilərsinizmi, niyə biz onu önəmli etməməliyik?»

«Deyə bilmərəm. Əslində, bayaq dediym səfeh bir ifadə idi. Heç özüm də bunu önəmli saymıram».



Saata baxdım. Üçə bir-iki dəqiqə işləmişdi. Orkestr rəqs çalırdı; tanqo, kərənayın qısa boğuq səsi mənə yola düşən gəminin uzaq fitini xatırlatdı. Bir-iki saat keçəndən sonra fikirləşdim ki, hava işıqlaşana qədər qalaram, sonra qalxıb gedərəm. Cibimdə biletlər canımı isidirdi. Mənimki idilər. Özüm də buna çətin inanırdım; qeri-adi musiqi, şərab, pərdəli otaqlar, Şvarsın səsi adama yuxu və yalan aşılayırdı.

«Hələ də qonaq otağının qapısında dayanmışdım», – sözünə davam etdi. Helen mənə baxıb soruşdu: «Mənzilin sənə belə yadlaşıb?»

Başımı bulayıb bir neçə addım irəli getdim. Məni qəribə bir utancaqlıq bürümüşdü. Sanki, evdəki əşyalar yaxamdan yapışmaq istəyirdi; lakin daha mən onların deyildim. İçimi bir qorxu dalayıb keçdi: bəlkə, daha heç Helenin də deyiləm.

«Hər şey necə vardı, elədir, – tələsik, hərarətlə, şaşqınlıqla cavab verdim. – Necə vardı, elədir, Helen».

«Xeyr, – dedi, – daha heç nə əvvəlki kimi deyil. Niyə qayıtmısan? Buna görə ki, hər şey necə vardı, elə olsun?»

«Yox, – dedim, – bilirəm ki, elə şey yoxdur. Məgər biz burada yaşamamışıq? Harada qaldı o günlər?»

«Burada qalmayıb. Birgə atdığımız köhnə paltarlarda da yoxdur. Bunumu nəzərdə tuturdun?»

«Yox. Özüm üçün soruşmuram. Ancaq sən həmişə burada olmusan. Sənin üçün soruşuram».

Qəribə bir tərzdə mənə baxdı və sonra dedi:

«Niyə əvvəllər heç soruşmadın?»

«Əvvəllər? – küt-küt cavab verdim. – Əvvəllər niyə? Gələ bilmirdim».

«Əvvəllər. Getməzdən qabaq».

Onu başa düşmürdüm. «Nə soruşmalıydım, Helen?»

Xeyli susdu və axırda dedi:

«Niyə soruşmadın ki, mən də getmək istəyirəmmi?»

Matdım-matdım ona baxdım.

«Mənimlə getmək? Buradan? Qohumlarını, sevdiyin nə varsa, hamısını atıb getmək?»

«Qohumlarımdan zəhləm gedir».

Tam çaşıb-qalmışdım.

«O üzdə olmağın nə demək olduğunu bilmirsən», – mızıldadım.

«O vaxt sən də bilmirdin».

Düz deyirdi.

«Səni buradan aparmaq istəmirdim», – iflic adamlar kimi dilləndim.

«Buradakı hər şeyə nifrət edirəm! – dedi, – niyə qayıtmısan?»

«Onda nifrət etmirdin».

«Niyə qayıtmısan?» – təkrarladı.

Otağın o başında dayanmışdı, onu məndən sarı kreslolar və beşillik həsrət ayırırdı. Birdən, sanki, barışmazlıqla, aşkar məyusluqla üz-üzə gəldim və dumanlı şəkildə hiss etdim ki, qaçqınlıq həyatına başlayarkən onu çətinliklərə salmamaq üçün burada qoyub-getmək fikrim, görünür, xətrinə yaman dəyib, halbuki bu fikir mənə tam təbii görünmüşdü.

«Niyə qayıtmısan, Yozef?» – bir də soruşdu.

Həvəslə deyərdim ki, ondan ötrü gəlmişəm; amma indi bacarmırdım. O qədər də asan deyildi. Birdən-birə dərk etdim ki, – və bunu elə indicə dərk etdim – məni dartıb gətirən sakit, aydın bir şaşqınlıq olub. Bütün ehtiyatlarım tükənibmiş və sağ qalmaq iradəm tənhalığın şaxtasına dözüm gətirmək üçün yetərincə güclü olmayıbmış. Yeni həyat qurmağa qabil olmamışam. Əslində, heç istəməmişəm də. Keçmiş həyatımla əlaqəni kəsməmişəm; ondan nə üzülüşməyi, nə də ona «yox» deməyi bacarmışam; qanqrena başlamışdı və mən seçim qarşısında qalmışdım, ya qanqrenadan gəbərməli, ya da geri qayıdıb sağalmağa çalışmalıydım.

Bunların heç birini dəqiq fikirləşməmişəm və indinin özündə də bu, mənə yalnız üzdən aydındır, amma ən azı bunu dərk etmək üçün, sanki, ayılmışam. Ürək ağrıları da, pərtlik də çəkilib getdi. Niyə burada olduğumu indi dərk etdim. İtiləşmiş duyğularımdan, yaşamağa hazır olmaqdan, qaçqın caninin ehtiyatkarlığı və təcrübəsindən başqa mən beşillik mühacirətdən özümlə heç nə gətirməmişdim. Qalanlar iflasa uğramışdı. Sərhədlərin arasında keçirdiyim saysız gecələr, bir tikə çörək və bir-iki saatlıq yuxunun davasını edən həyatın dəhşətli cansıxıcılığı, torpaq altındakı köstəbək ömrü burada, mənzilimin astanasında dayananda izsiz-tozsuz yoxa çıxmışdı. Doğrudur, özüm də iflasa uğramışdım, amma borc altına girməyə ehtiyacım olmamışdı. Azad idim. Həmin illərin Məni sərhədi keçəndə intihar etmişdi. Geriyə yol yox idi. Mən ölmüşdüm, yaşayan ayrı Mən idi və o ərməğan edilmiş zamanın hesabına yaşayırdı. Daha heç bir məsuliyyət də yox idi. Sanki, çəkisizlikdəydim. Mənə tərəf çevrildi. «Nə dediyimi anlayırsız? Təkrarlara yol verirəm və ziddiyyətli danışıram».



«Məncə, anlayıram, – dedim, – intihar imkanı elə mərhəmətdir ki, onu nadir hallarda dərk edirsən. O, adamda azad iradə xülyası yaradır. Yəqin ki, biz intiharlara düşündüyümüzdən çox yol veririk. Bunu özümüz də bilmirik».

«Elədir!» – dedi və ona bir canlanma gəldi. «Bircə bunu intihar kimi qəbul edə bilsəydik! Onda biz yenidən dirilmə imkanı əldə edərdik. Təcrübənin iltihabını bir böhrandan digərinə ötürmək əvəzinə, həyatımızı təkrar-təkrar yaşayardıq və son olaraq buna alışardıq. Təbii ki, bunu Helenə başa sala bilməzdim. Heç ehtiyac da yoxuydu. Birdən-birə məni bürüyən yüngüllükdə buna heç lüzum da duymadım. Əksinə, hiss etdim ki, izahatlar daha da çaşqınlıq yaradar. Yəqin, istəyirdi deyəm ki, ondan ötrü gəlmişəm; ancaq mənə verilmiş yeni görücülük qabiliyyətimlə bildim ki, bu, mənim məhvim ola bilər. Keçmişimiz bütün günahlarımız və qaçırdığımız imkanlarla, incidilmiş məhəbbətlə üstümüzə axa bilərdi və biz heç vaxt altından çıxa bilməzdik. Az qala, coşqunlaşmış mənəvi intihar ideyasının indi əhəmiyyəti olsaydı, onda o, bütöv olardı və təkcə mühacirət illərini deyil, həm də ondan öndəki illəri əhatə edərdi, əks təqdirdə ikinci, hətta bir az daha qədim qanqrena qorxusu ortaya çıxar və özünü daha tez büruzə

verərdi. Helen öz sevgisi ilə, mənim zəif tərəflərimi bilməsi ilə zərbə endirməyə hazır olan düşmən kimi dayanmışdı ortada, mənim də heç bir şansım olmadığına görə uduzmağım labüd idi. Əvvəlcə məndə ölümün xilasedici duyğusu vardısa, indi bu, əzabverici mənəvi gəbərmə, daha ölüm və yenidəndirilmə yox, «yerli-dibli məhv ola bilərdi». Qadınlara heç nə izah etməzlər, onlarla hərəkətə keçərlər. Ona doğru yeridim. Əlim çiyinlərinə toxunanda bədəninin titrədiyini hiss etdim.

«Niyə qayıtmısan?» – bir də soruşdu.

«Unutmuşam, – cavab verdim, – acam, Helen. Bütün günü heç nə yeməmişəm».

Bəzəkli, balaca italyan masasının üstündə gümüş çərçivəyə salınmış tanımadığım bir kişi şəkli vardı.

«Bu, bizə lazımdırmı?» – soruşdum.

Şaşqınlıqla: «Yox», – deyib şəkli götürdü və masanın çəkməcəsinə qoydu. Şvars mənə baxıb gülümsədi. «Şəkli atmadı», – dedi. Cırmadı. Onu çəkməcəyə qoydu. İstədiyi vaxt çıxarıb masanın üstünə qoya bilərdi. Bilmirəm niyə, amma bu ağıllı hərəkət məni heyran qoydu. Beş il əvvəl belə şeyi başa düşməzdim və mərəkə qopardardım. İndi isə bu, təmtəraqlı olmaq qorxusu ilə üzləşdiyim bir hal idi. Siyasətdə pafoslu sözlərə dözürük, duyğularımızda isə yox. Əfsuslar ki, hələlik yox. Tərsinə daha yaxşı olardı. Helenin fransız jesti sevgisinin azalmasına dəlalət etmirdi; yalnız qadın ehtiyatkarlığı. Onu bir kərə məyus etmişdim; niyə mənə o saat inanmalıydı? Mən isə, əksinə, Fransada havayı yaşamamışdım; heç nə soruşmadım. Nə soruşmalıydım ki? Soruşmağa nə haqqım vardı? Güldüm. Donub qaldı. Sonra sifətinə işıq gəldi, o da güldü.

«Məndən boşanmısan?» – soruşdum.

Başını buladı: «Yox. Amma sənə görə yox. Qohumlarımın acığına boşanmamışam».

## V

«Həmin gecə vur-tut bir-iki saat yatdım, – Şvars dilləndi, – çox yorğun idim, amma yuxudan tez-tez dururdum. Yatdığımız balaca otağa bayırdakı gecə hücum çəkirdi. Mənə elə gəldi ki, səs-küy eşidirəm və saniyələr çəkən yarı röyada

qaçqın düşmüşəm, diksinib oyanırdım. Helen cəmi bircə dəfə oyandı.

«Yata bilmirsən?» – qaranlıqda soruşdu.

«Yox. Heç özüm də gözləmirdim». İşığı yandırdı. Kölgələr diksinib pəncərədən tullandılar. «Adamdan hər şeyi tələb etmək olmaz, – dedim, – röyalarıma nəzarət edə bilmirəm. Şərab varındırmı?»

«Nə qədər istəsən. Qohumlarım şərab azarkeşi deyillərmi?! Nə vaxtdan içirsən?»

«Fransada olanda».

«Hə. Şərabdan başın çıxır?»

«O qədər də yox. Əsasən, qırmızısından. Ucuzundan».

Ayağa qalxıb mətbəxə getdi. İki şüşə və tıxacaçanla geri qayıtdı.

«Həşəmətli fürerimiz köhnə şərab qanununu dəyişdirib. Əvvəllər təbii çaxırlara şəkər qatılmazdı. İndi hətta qıcqırmanın arasını da kəsmək olar». Kütləşmiş sifətimə baxdı. «Bu, bəhrəsiz illərdə turş çaxırları şirinləşdirir», – deyib güldü. – «Arilər irqinin fırıldağı: ixracı artırmaq və ölkəyə pul gətirmək üçün».



Şüşələri və tıxacaçanı mənə verdi. Mozel çaxırı olan şüşəni açdım. Helen iki yuxa badə gətirdi.

«Harada belə qaralmısan?»

«Martda dağlardaydım. Xizək sürürdüm».

«Çılpaq?»

«Yox. Amma günəş altda çılpaq uzanmaq olmazmı?!»

«Haçandan xizək sürürsən?»

«Bir nəfər öyrətdi», – deyib diqqətlə mənə baxdı.

«Gözəl. Cağlam idman olmalıdır».

Badənin birini doldurub ona verdim. Çaxır Burqund şərablarına nisbətən duru[1] və ətirli idi. Almaniyadan çıxalı beləsini içməmişdim.

«Bilmək istəmirsənmi, xizək sürməyi mənə kim öyrədib?» – soruşdu.

«Yox».

Heyrətlə mənə baxdı. Əvvəllər, bəlkə də, bütün gecəni onu sorğu-suala tutardım. İndi heç nəyin dəyəri qalmamışdı. Ötən axşamın gerçəklikdən uzaqlığı yenidən bizi tapmışdı.

---

[1] *"Duru"* – Bu söz rus dilindəki "suxoe vino" söz birlərməsində "suxoye" sözünün yerində işlədilir.

«Dəyişmisən», – dedi.

«Ötən axşam iki kərə demisən ki, dəyişməmişəm, – cavab verdim. – Bu biri də o biri kimi önəmsizdir».

Dolu badəni əlində tutmuşdu.

«Bəlkə, istəyirəm, heç dəyişməyəsən».

İçdim. «Məni daha asan didişdirmək üçün?»

«Əvvəllər səni heç didişdirmişəm?»

«Bilmirəm. Məncə, yox. Aradan çox keçib. O vaxtlar necə olduğum yadımda deyil, bunu etməyə niyə cəhd göstərməmisən».

«Cəhdi həmişə göstərmək olar, bəyəm bilmirsən?»

«Yox, – dedim, – amma xəbərdarlığımı aldım. Çaxır çox yaxşıdır. Görünür, qıcqırmanı dayandırmayıblar».

«Səndə olduğu kimi».

«Helen, – dedim, – sən təkcə işvəli deyilsən, həm də gülməlisən, bu da tam nadir, cazibəli bir çulğaşmadır».

«Özünə çox da arxayın olma», – acıqlı cavab verib çarpayıya əyləşdi, şərabı hələ də əlindəydi.

«Arxayın deyiləm. Ən böyük laqeydlik adamı ölümə sürükləməsə də, möhtəşəm arxayınçılığa apara bilər, – gülə-gülə əlavə etdim. Təmtəraqlı sözlərdir, fəqət onlar adi şar varlığının sadə təzahürüdür».

«Şar varlığı nə olan şeydir?»

«Mənim varlığım. Heç yerdə qərar tuta bilməyən bir başqasının varlığı, heç yerdə yurd salmağa haqqı yoxdur, həmişə təkərlər üstündə olmağa məhkumdur. Mühacir varlığı. Hind dilənçi rahibinin varlığı. Çağdaş insanın varlığı. Əslində, fikirləşdiyimizdən çox mühacir var. Həm də oturduqları yerdən heç vaxt tərpənməyənlər».

«Gözəl səslənir, – dedi, – hər halda, meşşan durğunluğundan qat-qat yaxşıdır.

Başımla təsdiqlədim.

«Başqa sözlərlə də söyləmək olar; onda belə gözəl alınmaz. Allaha şükür ki, təsəvvür gücümüz o qədər də böyük deyil. Belə olmasaydı, müharibə könüllülərinin sayı xeyli azalardı».

«Hər şey durğunluqdan yaxşıdır», – deyib badəsini axıracan içdi. İçdikcə ona baxırdım. Nə qədər də gəncdir, düşündüm, necə də gənc, necə də təcrübəsiz, necə də tərs, sevgiyə layiq, necə də qorxulu və düşüncəsiz. Hətta

onu da bilmir ki, meşşan durğunluq coğrafi yox, mənəvi anlayışdır.

«Bu durğunluğa qayıtmaq istərdinmi?» – soruşdu.

«Məncə, yox, inanmıram bacaram. İradəmin əksinə olaraq, vətənim məni dunya vətəndaşı edib. Elə də qalmaq istəyirəm. Geriyə dönməyi heç vaxt bacarmaram».

«Heç özünə də?»

«Heç özümə də, – dedim, – Yer kürəsinin özü də şar varlığını yaşayır. O da günəşin mühaciridir. Heç vaxt geriyə dönmək olmaz. Yoxsa, para-para olarsan».

«Allaha şükür. – Badəni mənə uzatdı. – Heç vaxt geriyə dönmək istəməmisən?»

«Həmişə, – cavab verdim, – nəzəriyyələrimə heç zaman əməl etməmişəm. Bu da onlara ikiqat cazibədarlıq verir».

Güldü. «Hamısı yalandır!»



«Heç də yox. Bu, hörümçək torudur, başqa şeyləri gizlətmək üçün».

«Nəyi?»

«Sözsüz, bir şeyi».

«Gecələr baş verən bir şeyi?»

Cavab vermədim. Çarpayıda sakitcə oturmuşdum. Zəmanə küləyi dinmişdi. Daha qulaqlarımda vıyıldamırdı. Sanki, təyyarədən enib hava balonuna minmişdim. Hələ də ləngərləyib uçurdum; ancaq motorların səsi kəsilmişdi.

«İndi adın necədir?» – soruşdu.

«Yozef Şvars».

Bir anlığa xəyala daldı. «Onda mənim soyadım da Şvars olur?»

Gülümsədim: «Yox, Helen. Sadəcə addır. Adını götürdüyüm kişi özü bu adı özgəsindən götürmüşdü. Çox-çox uzaqların ölü Yozef Şvarsı əbədiyaşar yəhudi kimi məndə artıq üçüncü nəsildir yaşamağa davam edir. Yad, ölü, ulu ruh».

«Onunla tanış deyildin?»

«Yox».

«Özgə adını daşıyandan bəri özünü başqa cür hiss etmirsənmi?»

«Edirəm. Buna da səbəb balaca bir kağız parçasıdır. Pasport».

«Saxta olsa belə?»

Güldüm. Bu, başqa bir dünyanın sualı idi. Pasportun saxta və düz olması onu yoxlayan polisin sahəsiydi.

«Bu barədə fəlsəfi pritça yazmaq olardı, – dedim, – o da adın nə olduğunu araşdırmaqdan başlayardı. Ad təsadüfdürmü, eyniyyətdirmi».

«Ad elə addır», – qəfildən kinayəli cavab verdi. «Mən özümünkünü qorudum. O, sənin soyadındır. İndi də durub gəlirsən və özünə başqa bir ad tapmısan».

«Bu ad mənə pay verilib, – dedim, – mənim üçün dünyanın ən qiymətli hədiyyəsidir. Onu fəxrlə daşıyıram. Məndən ötrü o, yaxşılıq rəmzidir. İnsanlıqdır. Haçansa çarəsizlik məni çulğalarsa, xatırladacaq ki, yaxşılıq ölməyib. Səninki nəyi xatırladacaq? Tülkü, canavar və tovuzquşu cildində dünyada tanınmış prus döyüşçüsünün və yegerinin hansısa soyunu».

«Mən dədə-baba soyadımdan danışmadım, – cavab verdi və çəkələyi baş barmağının ucunda fırlatdı. – Hələ də sənin soyadını daşıyıram. Keçmiş soyadını, cənab Şvars».

Çaxırın ikinci şüşəsini açdım. «Mənə danışıblar ki, İndoneziyada bir adət var, adam hərdən adını dəyişə bilər. Öz şəxsiyyətindən bezibsənsə, adını dəyişib yeni bir ad götürürsən və yeni həyatını başlayırsan. Gözəl adətdir!»

«Yeni həyata başlamısan?»

«Bu gün», – dedim.

Çəkələyi döşəməyə sürüşdürdü.

«Yeni həyata adam özü ilə heç nə götürmür?»

«Əks-səda», – dedim.

«Heç bir xatirə?»

«Əks-sədadır götürdüyü. Daha ağrıtmayan və utandırmayan xatirə».

«Sanki, filmə baxırsan?»

Diqqətlə ona baxdım. Görkəmi eləydi ki, elə bil, badəni bu dəqiqə başıma çırpacaqdı. Əlindən alıb şərab süzdüm.

«Bu, nə çaxırdır belə?» – soruşdum.

«Raynhartshauzen sarayı. Raynvayn[1] firması. Özünü tam tutub. Qıcqırmasına ara verilməyib. Xarakterini dəyişməyib. Başqa çaxıra çevrilməyib».

«Deməli, mühacir deyil?»

[1] *Raynvayn* – hərfən: Rayn / Reyn şərabı

«Rəngini dəyişən xameleon deyil. Yaxasını məsuliyyətdən çəkənlərdən deyil».

«Aman Allah, Helen! – dedim, – nədir, meşşan harınlığın qanadlarının çırpıldığını eşidirəm? Onların durğunluğundan can qurtarmaq istəyən sən deyildinmi?»

«Sənsən məni düşünmədiyimi deməyə məcbur edən, – acıqlı dilləndi. – Burada oturub nədən danışırıq? Və nə üçün? Özü də birinci gecədə! Niyə öpüşmürük, yaxud özümüzə nifrət etmirik?»

«Öpüşürük də, özümüzə nifrət də edirik».

«Hamısı sözdür! Bu qədər sözü haradan tapırsan? Burada oturub danışmaqla düzmü hərəkət edirik?»

«Nəyi düz etdiyimizi özüm də bilmirəm».

«Onda bu qədər sözü haradan tapırsan? Orada çox danışıb çoxlu adamlar arasında olmusan?»



«Yox», – dedim. – Çox az. Ona görə də sözlər indi diyirlənib tökülür, səbətdən alma tökülən kimi. Sənin kimi özüm də mat qalmışam».

«Doğrudan, elədir?»

«Hə, Helen. Elədir. Məgər görmürsən, necə səslənir?»

«Sadə dillə deyə bilməzsən?»

Başımı buladım: «Niyə də yox? Çünki dəqiqlikdən qorxuram. Bir də nəyisə dəqiqləşdirən sözlərdən. İnanmaya bilərsən, amma belədir. Buna haradasa bayırda, küçələrdə sülənən anonim qorxu da əlavə olunur, onun da barəsində nə düşünmək, nə də danışmaq istəyirəm, çünki içimdəki səfeh bir xurafat deyir ki, nə qədər ki təhlükəni nəzərə almamışam, o, mövcud deyil. Ona görə də bu cür dolanbac danışırıq. Bununla zaman aradan qaldırılmış olur, film göstərilərkən qırılan lent kimi. Birdən-birə hər şey lallaşır, sanki, heç nə ola bilməzmiş».

«Mənim üçün çox dolaşıq oldu».

«Mənim üçün də. Məgər kifayt etmirmi ki, burada, sənin yanındayam, sən hələ də həyatdasan və mən yenidən həbs olunmamışam?»

«Elə buna görə gəlmisən?»

Cavab vermədim. Nərmənazik amazonkalar[1] kimi otur-

[1] *Amazonkalar* – yunan əsatirində Kiçik Asiyada, yaxud Lemnos adasında yaşamış döyüşkən qadınlar. Kişilərlə yalnız nəslin artırılması naminə əlaqədə olurdular. Doğulan oğlanları atalarına verib, qızları öz yanlarında saxlayırdılar.

muşdu burada, çılpaq, bir əlində badə, tələbkar, güzəştsiz, məkrli, qorxmaz və anladım ki, əvvəllər onun barəsində heç nə bilməmişəm. Dərk edə bilmirdim, mənimlə necə yola gedib və özümü o kəslərdən saydım ki, göyçək bir quzusu olduğunu və onunla elə göyçək quzu kimi də rəftar etdiyini düşünürmüş və bir gün qəfildən görüb ki, əlinin altındakı göy boyunbağılara və yumşaq qaşovlara məhəl qoymayan, əksinə, tumarlayan əli dişi ilə param-parça etməyə tam qadir olan pumadır.

Vəziyyətim xarab idi. Sizin düşünə bildiyiniz baş verdi, birinci gecədə əvvəlcədən fikirləşdiyim şey; sadəcə olaraq, bacarmadım. Əvvəlcədən sümüyümə dammışdı, bəlkə də, ona görə belə alındı ki, bunu gözləyirdim. İş ondadır ki, bacarmadım, lakin belə şeyi gözlədiyimə görə bu hallarda əl atılan mənasız cəhdlərə yol vermədim. Adam özünü ağıllı göstərib izah edə bilər ki, buna qarşı yalnız tövlə gədələri immunitetli olur və qadınlar özlərini elə aparmalıdırlar ki, belə şeyləri, guya, yaxşı başa düşürlər və özünü itirmiş kişiyə analıq qayğısı ilə təsəlli verməlidirlər; bütün bunlara baxmayaraq, o məlun iş işliyində qalır ki, burada da hər cür pafos dəhşətli dərəcədə gülməli görünür.

Lazımı izahatı vermədiyimə görə Helen dilxor idi və üstümə hücum çəkdi. Qavraya bilmirdim ki, niyə ona əl dəymədim. Özünü təhqir olunmuş sayırdı. Sadəcə olaraq, həqiqəti deyə bilərdim, amma özümü buna hazır bilmirdim. Həm də ortada iki həqiqət var: birincisində, adam özünü taleyin ağuşuna atır, strateji sayıla bilən ikincisində isə, heç nəyi taleyin öhdəsinə buraxmır. Beş il ərzində öyrənmişdim ki, adam özünü taleyin ağuşuna atanda üstünə güllə yağdığına, gərək, heyrətlənməsin.

«Mənim kimiləri xurafatçı olur, – dedim, – onlarda inam var ki, nəyisə birbaşa desə və etsə, onun əksi olacaq. Ona görə də ehtiyatlı tərpənirik. Elə sözlərlə də».

«Nə böyük mənasızlıq!»

Güldüm: «Mənaya inamın daşını çoxdan atmışam. Yoxsa yabanı limon kimi apacı olardım».

«Məncə, xurafatın uzağa getməz».

«O uzaqlığa ki, – tam rahat dilləndim, – səni hədsiz dərəcədə sevdiyimi dilə gətirəndə gestaponun bir an sonra qapını döyəcləməsini eşidəcəyimi düşünürdüm».

Öyrəşmədiyi xışıltını eşidən heyvan kimi bir anlığa sakitcə dayandı. Sonra ağır-ağır üzünü mənə çevirdi. Sifətinin birdən-birə necə dəyişməsinin özü təəccüblü idi.

«Səbəb, doğrudan da, budur?» – Astadan soruşdu.

«Yalnız budur, – cavab verdim. – Əlacsız cəhənnəmdən qorxulu cənnətə atılmışamsa, düşüncələrimdə səliqə-sahman yaradacağımı necə gözləyirsən?»

«Hərdən bu barədə düşünərdim, – bir az keçəndən sonra dedi, – təsəvvürüm tam başqaydı».

Bu başqalığın nə olduğunu soruşmaqdan özümü saxladım. Sevgi olan yerdə adam çox sual verir və çöx şeyi bilmək istəyəndə sevgi də çəkilib yox olur.

«Həmişə ayrı cür alınır, – dedim. – Allaha çox şükür!»

Gülümsədi: «Heç vaxt ayrı cür olmur, Yozef. Yalnız ayrı cür görünür. Şərab qalıbmı?»



Rəqqasə kimi çarpayının başına fırlandı, badəsini yanına, döşəməyə qoyub gərnəşdi. Yad günəş altında qaralmışdı və çılpaq halında təmənna umulan və bu təmənnanı dəfələrlə eşitmiş qadına bənzəyirdi.

«Haçan gedim?» – soruşdum.

«Qulluqçu qız sabah gəlməyəcək».

«Birisi gün də?»

Başı ilə təsdiqlədi: «Adi bir şeydir. Bu gün şənbədir. Həftəsonu onu məzuniyyətə buraxdım. Bazar ertəsi günorta gələcək. Məşuqu var. Arvadı və iki uşağı olan polis. – Yarıyumulu gözləri ilə mənə baxdı. – Sevincindən yerə-göyə sığmırdı».

Bayırdan addım və mahnı səsləri gəldi. «Bu, nədir?» – soruşdum.

«Əsgərlərdir, ya da hitleryuqend[1]. Almaniyada həmişə haradasa hansısa dəstə nizami addımlarla yeriyir».

Ayağa durub pərdənin arasından çölə baxdım. Hitleryuqend bölüyü idi.

«Qəribədir, qohumlarının içindən təkcə sən seçilib çıxmısan», – dedim.

«Görünür, fransız nənəmə çəkmişəm, – cavab verdi, – belə bir nənəmiz olub. Bunu hamıdan gizlədirik, sanki, yəhudiymiş».

---

[1] *Hitleryuqend* – Hitler gəncləri. Alman Milli Sosialist Fəhlə Partiyasının (Hitler partiyasının rəsmi adı) gənclər təşkilatı.

Əsnəyib gərnəşdi. Birdən-birə süstləşdi, sanki, həftələrdir bir yerdə yaşayırdıq, bayırda da təhlükə marıtlamırdı. Bu barədə danışmaqdan indiyə qədər ikimiz də çəkinmişdik. Helen sürgündəki həyatımdan indiyə qədər bir kəlmə də soruşmamışdı. Bilmirdim ki, ürəyimi oxuyub bu barədə qərarmı vermişdi.

«Yatmaq istəmirsən?» – soruşdu.

Gecə saat bir idi. Yerimə uzandım.

«İşıqlardan birini yanılı qoya bilərik? İşıqda daha yaxşı yatıram. Alman qaranlığına hələ öyrəşməmişəm».

Tələsik mənə baxdı: «İstəyirsən, hamısını yanılı qoy, əzizim».

Bir-birimizə qısılıb uzanmışdıq. Güclə xatırlaya bildim ki, əvvəllər biz hər gecə eyni çarpayıda yan-yana yatardıq. Bu, solğun bir kölgə, rəngsiz bir xatirəydi. Helen yanımda idi, amma büsbütün özgələşmişdi, qəribə də olsa, yad bir yaxınlıqla; ondakı adsızlığı bir daha duydum, nəfəsini, saçının, ən çox da dərisinin ətrini, uzun zaman itirdiklərimi, fəqət tam olmasa da, yenidən tapdıqlarımı; yanımdaydı, indi keçmişdəkindən daha ağıllı. Sevimli insanın dərisinin bəxş etdiyi təsəlli! Nə qədər ağıllıdır, yalan söyləyən dilinə nisbətən nə qədər ifadəlidir! Həmin gecə uzun müddət oyaq qaldım, Heleni qucağımdan buraxmadım, işığa, həm tanıdığım, həm də tanımadığım otağa tamaşa etdim və özüm özümdən heç nə soruşmadım. Helen bir də ayıldı.

«Fransada qadınların çox olub?» – gözlərini açmadan mızıldandı.

«Lazım olandan artığı olmayıb, – dilləndim, – heç biri də sənə bənzəməyib».

Köksünü ötürüb mən tərəfə çevrilmək istədi, lakin yuxu ona güc gəldi. Yerinə quylandı. Yuxu asta-asta məni də haqladı, ancaq röyalarım yoxa çıxmışdı; Helenin nəfəsi və kirimişliyi mənə də sirayət etdi və səhərə yaxın oyandım; aramızda bizi bir-birindən ayıran heç nə yox idi, onu sinəmə sıxdım, müqavimət göstərmədi və biz təzədən yuxuya getdik, daha tutqun olmayan işartılı bulud kimi.

# VI

Səhər tezdən Münsterdə çamadanımı qoyub gəldiyim hotelə zəng edib bildirdim ki, Osnabrükdə bir az ləngimişəm və bu axşam geri qayıdacam; qoy otağımı saxlasınlar. Bu, ehtiyat tədbir idi; istəmirdim, anlaşılmazlıq ucbatından məni satsınlar və polis yolumu gözləsin. Etinasız bir səs cavab verdi ki, belə etdiyim yaxşıdır. Soruşdum ki, adıma poçt gəlibmi? Gəlmədiyini dedilər.

Dəstəyi asdım. Helen arxamda dayanmışdı.

«Poçt? Poçtu kimdən gözləyirsən?» – soruşdu.

«Heç kimdən. Sadəcə olaraq, şübhəli görünməmək üçün dedim. Qəribə də olsa, poçt gözləyən adamı fırıldaqçı saymırlar».



«Sən də onlardansan?»

«Təəssüf ki, hə. İradəmin əksinə olaraq. Amma heç həzz almıram».

Güldü: «Bu gün axşam Münsterə getmək istəyirsən?»

«Çox qala bilmərəm axı. Qızın sabah qayıdacaq. Burada, şəhərdə yerləşməyə ürək eləmirəm. Bığ məni yetərincə tanınmaz etmir».

«Martensin yanında qala bilməzsən?»

«Gecə qəbul otağında yatmağımı təklif etdi, amma gündüz saxlaya bilmir. Münsterə getməyim yaxşıdır, Helen. Orada küçədə buradakı kimi asanlıqla tanına bilmərəm. Vur-tut bir saatlıq yoldur».

«Münsterdə nə qədər qalmaq istəyirsən?»

«Bunu yalnız orada olanda biləcəm. Adam təhlükə məqamında işin gedişi ilə bağlı bir növ altıncı duyğusunu işə salır».

«Burada təhlükə hiss edirsən?»

«Hə. Bu gün səhər tezdən. Dünənsə yox».

Qaşlarını çatıb mənə baxdı: «Gərək, çölə çıxmayasan», – dedi.

«Qaranlıq düşməmiş, yox. Onda da yalnız vağzala getmək üçün», – cavab vermədi. «Yaxşı olacaq, – dedim, – ürəyinə salma. Sabahkı günü düşünməyi unutmadan bir saatdan digərinə sağ çıxmağa alışmışam».

«Alışmısan? Əsl təcrübə!» Yenə dünən axşamkı həmin oynaq işvə.

«Təkcə təcrübə yox, həm də ehtiyac», – cavab verdim. «Ancaq buna baxmayaraq, hərdən bəzi şeyləri unuduram. Gərək, Münsterdən üzqırxan gətirəydim. Bu gün axşam görkəmimdən səfillik yağacaq. Mühacirin yaddaş kitabı istənilən halda, belə şeylərdən qaçmağı buyurur».

«Hamamda üzqırxan var, – dedi, – beş il öncə qoyub getdiyin. Dəyişəcək də var, köhnə kostyumların soldakı dolabdan asılıb».

Bunu elə dedi, elə bil, mən beş il bundan qabaq başqa bir qadına qoşulub onu atmışam, indi də paltar-palazımı aparmaq üçün tək gəlmişəm. Etiraz etməyə cəhd göstərmədim, nəticəsi olmazdı. Mənə heyrətlə baxıb izah etməyə çalışdı ki, o cür demək istəməyib və əgər mən o cür başa düşürəmsə, mənasız şəkildə özümü müdafiə etmiş olaram. Qəribədir, nələr duyduğumuzu bildirməmək üçün hansı əyri yollara düşürük!

Vanna otağına getdim. Köhnə kostyumlarıma baxmağımın bircə təsiri oldu, nə qədər arıqladığımı dərk etdim. Dəyişəcək tapdığıma sevindim və ondan kifayət qədər götürməyi kəsdirdim. Elə sentimental bir həyəcan hiss etmədim. Mühacirliyin bədbəxtlik yox, inkişaf üçün bir növ soyuq müharibə olması barədə üç il əvvəl gəldiyim nəticə, ən azı, burada öz bəhrəsini verirdi.

Gün duyğuların intermediyasında ötüb-keçdi. Getməyimin vacibliyi hər ikimizin əhvalını pozmuşdu, amma Helen mənim kimi vərdişkar deyildi. Bunu, az qala, şəxsi təhqir kimi qəbul edirdi. Fransadan çıxandan bəri mən təcrübə və zamanın köməyi ilə hazır idim; getmə məsələsi ortaya çıxanda Helen heç gəlişimi düz-əməlli sinirə bilməmişdi. Həmin situasiya təkrarlananda qüruru barışa vaxt tapmamışdı. Üstəlik, bura dünənki axşama olan reaksiya da qarışmışdı; duyğunun qabarmış dalğaları çəkilməkdə idi, gömülmüş köhnə xarabalıqlar birdən-birə üzə çıxmışdı və olduqlarından xeyli böyük görünürdülər. Bir-birimizlə ehtiyatlı davranırdıq; hələ bir-birimizə alışmamışdıq. Hər şeyi götür-qoy etmək üçün bir saat da məmnuniyyətlə tək qalardım, amma sonra fikirləşəndə ki, Helenlə qalacağım müddət bir saat yox, zamanın on ikidə biridir, mənə ağlasığmaz göründü.

Əvvəllər, rahat yaşadığımız illərdə özümü belə bir sualla əyləndirirdim ki, bircə aylıq ömrümün qaldığını bilsəydim, görəsən, nə edərdim. Heç vaxt da aydın bir nəticəyə gələ bilmirdim. Nəsə bir iş görməli olsaydım, o görmək istəmədiyim işlə qəribə bir qütb təşkil edəcəkdi və mən indi həmin halı yaşayırdım. Gündüzə qucaq açıb özümü onun ağuşuna atmaq, bütün duyğularımla Heleni canıma hopdurmaq əvəzinə, içimdə qovrulan bir arzu ilə nəsə etmək istədim, özü də elə bir ehtiyatkarlıqla ki, sanki, şüşə idim; Helendə də, deyəsən, eyni hal baş verirdi. Dəhşət və qorxu içində iztirab çəkirdik. Bir-birimizi itirmək qorxusu isə alatoranla birlikdə özünü yetirdi, içimizə elə doldu ki, bir-birimizi bir daha tanıdıq.

Saat yeddidə qapının zəngi çalındı. Yerimdən diksindim. Qapı zəngi mənim üçün polis demək idi.

«Kim ola bilər?» – pıçıldadım.



«Kirimişcə oturub gözləyək, – Helen cavab verdi, – görünür, kimsə tanışlardandır. Cavab verməsəm, çıxıb gedəcək».

Zəng təkrar çalındı. Sonra kimsə var gücü ilə qapını döydü.

«Yataq otağına get», – Helen pıçıltı ilə dedi.

«Kimdir ki?»

«Bilmirəm. Yataq otağına get. Başımdan edəcəm. Qonşuları oyatmaqdansa, bu yaxşıdır».

Məni yataq otağına tərəf çəkdi. Tələsik ətrafa boylandım görüm, məndən bir şey qalmayıb ki. Sonra yataq otağına getdim. Helenin sualını eşitdim:

«Kimdir?» – Kişi səsi gəldi. Sonra Helen bir də dilləndi: «Sənsən? Nə olub ki?»

Qapını çəkib bağladım. Mətbəxdən ikinci bir çıxış da vardı, amma ora yetişə bilmədim; görə bilərdilər. İmkanım vardı divarın içində quraşdırılmış iri dolaba girim, burada Helenin paltarları asılmışdı; qapı ilə bağlanan iri divar taxçası idi. Hava sarıdan korluğum olmazdı. Həmin adamın Helenlə olacağa getdiyini eşitdim. Bu, məni konslagerə salan qaynım Georq idi.

Helenin dəfə-daraq masasına baxdım. Silah kimi istifadə edə biləcəyim yeganə şey sədəf dəstli kağız bıçağı idi; gözümə ayrı heç nə dəymədi. Çox fikirləşmədən bıçağı

cibimə qoyub dolaba girdim. Aydın idi ki, məni tapacağı təqdirdə özümü müdafiə edəsi olacağam, onu öldürüb gizlənməkdən, sonra da qaçmaqdan savayı ayrı yol da yox idi.

«Telefon? – Helenin səsiydi, – heç nə eşitməmişəm. Yatmışdım. Nə olub axı?»

Böyük təhlükələr zamanı elə an olur ki, hər şey qəfildən gərginləşir, sanki bircə qığılcım yetərmiş ki, qovuq kimi alovlanasan. Bu halda beynin açılır, tez düşünüb, tez də qərar verirsən. Georq hələ cavab verməmiş hiss etdim ki, mənim barəmdə heç nə bilmir.

«Nə qədər zəng etmişəm, – Georq dilləndi, – heç kim cavab verməyib. Qulluqçu qız da. Fikirləşdik ki, nəsə olub. Qapını niyə gec açdın?»

«Yatmışdım, – Helen sakitcə cavab verdi. – Telefonu da ona görə çıxarmışdım. Başım ağrıyır, hələ də keçməyib. Məni sən oyatdın».

«Başın ağrıyır?»

«Hə. İndi əvvəlkindən də pis ağrıyır. İki həb atmışam. Gərək yatıb sinirəm».

«Yuxu dərmanı?»

«Başağrısı dərmanı. İndi isə getsən, yaxşıdır. Yatıb ayılmalıyam».

«Dərman boş şeydir, – Georq sözünə davam elədi. – Geyin, gedək gəzməyə. Bayırda hava çoz gözəldir. Təmiz hava hər cür dərmandan üstündür».

«Həbləri indi atmışam, gərək yatıb ayılam. Boş-boşuna gəzmək istəmirəm».

Bir xeyli də danışdılar. Georq Heleni bir azdan götürmək istəyirdi, ancaq Helen boyun qaçırırdı. Qardaşı soruşdu ki, evdə yetərincə yeməyi varmı. Helen də cavab verdi ki, varıdır. Sonra Georq qulluqçu qızın harada olduğunu soruşdu. Helen də qıza icazə verdiyini və ilkindidə gəlib şam yeməyini hazırlayacağını dedi.

«Demək, hər şey qaydasındadır?» – Georq soruşdu.

«Nə qaydasında olmaya bilər?»

«Hm, elə-belə dedim! Adamın ağlına min cür fikir gəlir. Nəhayət...»

«Nə nəhayət?» – Helen sərt soruşdu.

«Həə, o vaxt...»

«Nə o vaxt?»

«Haqlısan, – Georq dedi. – Bu barədə danışmağın nə faydası? Hər şey qaydasındadırsa, demək, qaydasındadır. Əvvəl-axır, qardaşınam ya yox, elədirsə, soruşarlar...»

«Hə».

«Nə?»

«Qardaşımsan».

«İstərdim bunu unutmayasan. Sənin yaxşılığını istəyirəm».

«Hə, hə, – Helen çox səbirsiz dilləndi. – Bunu mənə tez-tez demisən».

«Bu gün sənə nə olub? Tamam başqa cürsən».

«Həə?»

«Məncə, daha ağıllı. Köhnə zibil birdən-birə başlasa...»

«Başlamaz. Başım ağrıyır, vəssalam! Və nəzarət altında olmağıma nifrət edirəm».



«Səni heç kim nəzarətdə saxlamır! Sadəcə olaraq nigarandım».

«Nigaran olma. Məndə heç nə yoxdur».

«Bunu həmişə deyirsən. O vaxt...»

«Gəl o vaxtdan danışmayaq», – Helen çox sərt dilləndi.

«Əlbəttə – danışmayaq! Söhbət məndən gedirsə, heç vaxt. Həkimdə olmusan?»

«Hə», – bir an keçməmiş Helen cavab verdi.

«Nə deyir?»

«Heç nə».

«Nəsə deməlidir axı».

«Deyir ki, dincəlim» – hirslə cavab verdi. – Yorğun olanda, başım ağrıyanda yatım, kimləsə söz güləşdirməyim və heç kəsdən icazə istəməyim ki, həşəmətli Minillik səltənətin vətəndaşı və folksqenossini[1] kimi bunlar mənim vəzifə borcumla uzlaşırmı».

«Elə belə də dedi?»

«Yox, belə demədi, – Helen tələsik və bərkdən dilləndi. – Burasını mən əlavə etmişəm! Sadəcə, dedi ki, boş yerə həyəcanlanmayım! Deməli, cinayət işlətməyib və konslagerə salınmasına lüzum yoxdur. Hazırkı hökumətin əsl pərəstişkarlarından biridir. Bəs eləyir?»

---

[1] *Folksqenossin* – “folksqenosse” isminin qadın cinsidir. Folksqenosse hərfən “xalq yoldaşı” deməkdir. Faşist Almaniyasında partiya üzvlərinə partayqenosse, bitərəflərə folksqenosse deyilirdi.

Georq nəsə mızıldadı. Elə bildim getməyə hazırlaşır; təcrübəm deyir ki, bu, ən riskli anlardan biridir, çünki nəzərdə tutulmayanlar baş verə bilər; odur ki dolabın qapısını arxamca dartıb kiçicik bir yarıq qoydum. Azca keçmiş onun yataq otağına gəldiyini eşitdim. Kölgəsi dar yarıqdan süzülən işığın qabağını kəsdi, onun vanna otağına doğru addımladığını eşitdim. Mənə elə gəldi ki, Helen də onunladır, ancaq onu görmədim. Dolabın qapısını axıracan bağlayıb qaranlığa qapıldım, kağız bıçağı da əlimdə, Helenin paltarlarının arasında.

Arxayın idim ki, Georq yerimi bilmir, orasını da bilirdim ki, vanna otağından olacağa keçib sağollaşacaq; buna baxmayaraq boğazımın qovuşduğunu və həmin an da tərin qoltuqlarımın altından bütün bədənim boyu axdığını hiss etdim. Məlum qorxu ilə naməlum qorxu başqa-başqa şeylərdir. Qorxu məlumdursa, təhlükəli, lakin qeyri-müəyyən ola bilər və onu intizamla, yaxud bicliklə nəzarətdə saxlamaq olar. Amma nə baş verəcəyini biləndə intizam və psixoloji həngamənin xeyri olmur. İlk qorxu ilə hələ konslagerə salınmamış tanış olmuşdum; ikincini indi, bir də ora düşərəmsə, məni nələr gözlədiyini biləndən sonra keçirirdim.

Qəribəydi ki, sərhədi keçəndən bu yana heç vaxt bu barədə özüm özümə hesabat verməmişdim və heç vermək də istəməmişdim. O, haradasa məni buxovlayıb saxlayardı, amma içimdə nəsə buxovlanıb saxlanılmaq istəmirdi. Bir də ki bizi öldürməyib yaşatmaq üçün yaddaşımız yanılır, saxtalığa yol verir. Unutqanlıq pərdəsi ilə o, dözülməzi yumşaldır. Tanışdır sizə?»

«Bəli, tanışdır, – cavab verdim. – Amma bu, unutqanlıq deyil, bir növ yarıyuxudur. Bircə təkan bəs edir və hər şey təzədən ayıqlaşır».

Şvars başı ilə təsdiqlədi.

Daş anbarın qaranlıq, ətirli darlığında, paltarların arasında, sanki, iri yarasaların yumşaq qanadları tərəfindən sıxılaraq hərəkətsiz dayanmışdım və ipək paltarlar xışıldamasın deyə, öskürəyimi, ya da asqırmağımı boğmaq üçün həzin-həzin və yüngül nəfəs alırdım. Hansı qorxulu işə girişdiyimi ilk dəfə tam anladım. Dəhşət döşəmədən qapqara his kimi baş qaldırırdı və mən boğulmağımdan qorxdum. Düşərgədə başıma bundan betəri gəlməmişdi; mənimlə

adi hal kimi, pis rəftar etmişdilər, lakin yenidən azadlığa buraxmışdılar, bu da, çox güman ki, xatirələrimin sönməsinə səbəb olmuşdu. İndi vaxtilə gördüklərim, başqalarının başına gələnlər, haqqında eşitdiklərim və nişanəsinin şahidi olduqlarım təzədən gözümün önündə idi və mən məni buna vadar edən səfehliyi və dolaşıqlığı qavraya bilmirdim: necə oldu ki, varlığımın təsdiqi üçün yalnız həbsxana və ölkədən çıxarılma ilə cəzalandırıla biləcəyim o müqəddəs ölkələri tərk etdim? O ölkələr indi mənə humanizm limanları kimi görünürdü.

Georqun səsi vanna otağından gəldi. Divar nazik idi, o da əsl əmr sahibləri kimi astadan danışmırdı. Unitazın qapağını şaqqıltı ilə qaldırıb ehtiyacını ödədi. Onun şırıltısına qulaq asmağım sonralar mənə həyasızlıq zirvəsi kimi göründü, baxmayaraq ki, bununla onun arın-arxayın olduğunu və şübhəsizliyini hiss etdim. Yadıma oğurluqlar və qarətlər düşdü: orada da canilər aradan çıxmazdan qabaq mənzilləri murdarlayırlar, bir qismi acıqdan, bir qismi də həyadan, çünki buna ehtiyac özlərinin keçirdiyi qorxunun əlaməti olur.



Unitaza buraxılan suyun səsini, Georqun dabanlarını taqqıldada-taqqıldada vanna otağından çıxdığını və yataq otağı ilə addımladığını eşitdim. Sonra dəhliz qapısının boğuq səsi eşidildi, dolabın qapısı hirslə açıldı; yarıqdan işıq süzüldü və Helenin tutqun siluetini gördüm.

«Getdi», – Helen pıçıltı ilə dilləndi.

Gizləndiyim yerdən çıxdım, sanki, – çox uzaqlardan gələn bir müqayisə – qadın paltarında ələ keçmiş Axilles idim. Qorxudan rüsvayçılığa və pərtliyə keçid elə sürətli alındı ki, üçü də bir-birinə qarışıb eyni bir anda təzahür tapdı. Onların tez gəlib, tez də getməsinə öyrəncəkliydim, amma ortada bir seçim vardı: boğazdan qəfil yapışma sürgün idi, yoxsa ölüm?

«Gərək gedəsən», – Helen pıçıldadı.

Ona baxdım. Bilmirəm sifətində niyə nifrətə bənzər bir şey axtardım; onunla bağlı olmalıydı ki, qorxu ötüşəndən sonra mən bir anlığa özümü kişi saymadım, Helendən başqa bir ayrısı ilə heç vaxt üzləşmədiyim bir hal.

Onun sifətində çılpaq qorxudan savayı heç nə yox idi.

«Gərək gedəsən, – təkrarladı. – Sənin bura gəlişinin özü yanlışlıqdır».

Bunu özüm də bir an öncə düşündüyümə baxmayaraq, yenə başımı buladım.

«İndi yox, – dedim. – Bir saatdan sonra. Ola bilsin, hələ də küçədə vurnuxur. Bir də gələ bilər?»

«Məncə, yox. Heç nədən şübhələnmədi».

Helen olacağa getdi, çırağın şüşəsini burub söndürdü, pərdələri aralayıb bayırı dinşədi. Yataq otağının işığı qızılı romb kimi açıq qapıdan döşəməyə düşürdü. İşıqdan o yana Helen dayanmışdı, irəliyə əyilərək, gərgin, sanki, vəhşi bir heyvana baxırdı.

«Vağzala gedə bilməzsən, – pıçıltı ilə dedi. – Tanıya bilərlər. Amma, gərək, elə indi çıxıb gedəsən! Ellanın maşınını götürüb səni Münsterə apararam. Gör necə də gic olmuşuq! Burada qala bilməzsən!»

Pəncərənin yanında dayanmışdı, məndən bir otaq enində aralı, fəqət yetərincə aralı və mən ürəyimdə kəskin ağrı hiss etdim. Deyəsən, ayrılmağımızı indi birinci dəfə o özü gerçəkləşdirirdi. Gün ərzində yarındığımız ehtiyatkarlığın hamısı birdən-birə yoxa çıxdı. Helen qorxunu görmüşdü, öz gözləri ilə görmüşdü, bu da başqa şeylərin hamısını süpürüb kənara atmışdı. Bu, qorxu və məhəbbətdən, eyni zamanda da vida və itkidən başqa bir şey deyildi. Mən də bunu onun kimi dərk etdim, kəskin və qəddar, pərdəsiz-örtüksüz, çıl-çılpaq və ehtiyatsızlıqla; qovurucu idrak elə həmin an qəribə şəkildə qovurucu bir ehtirasa çevrildi. Onu tutub saxlamaq istədim, saxlamalıydım da, ondan yapışdım, onu istədim, bir daha, büsbütün, onu itirmək qorxusunda çaşbaş qalaraq, halbuki o hələ də planlar cızır, ümidini itirmir, təslim olmur, əlləşib-vuruşur və pıçıltı ilə söyləyir:

«İndi yox! Ellaya zəng etməliyəm! İndi yox! Axı biz...»

Biz neyləməliydik ki! Hələ bir saat da vaxtım vardı, sonra dünya dağılacaqdı. Bunu əvvəllər niyə belə güclü duymamışam? Duymağına duymuşam, bəs niyə özümlə duyğularım arasındakı şüşə divarı vurub dağıtmamışam? Vətənə qayıtmağım ağılsızlıq idisə, bu, ondan onqat ağılsızlıqdır! Üzümə gələn boşluğa Helendən nəsə götürmək istəyirdim, bəxtim gətirsəydi, ehtiyatkarlıq, vurnuxma və yuxu ilə yuxu arasındakı son anlaşmalar barədə xatirələrdən bir az çox; Heleni ram etməliydim, aydındır, bütün duyğularını, ağlını,

gözlərini, düşüncələrini – bir sözlə, büsbütün, təkcə gecə ilə səhər arasındakı heyvan kimi yox.

Müqavimət göstərdi, pıçıltı ilə dedi ki, Georq qayıda bilər; başa düşmürdüm, doğrudanmı, belə fikirləşir. Onu görən kimi unutmamaq üçün özümü odlara atmışam, indi bunların hamısı arxada qalandan sonra yalnız bircə şey istəyirdim: bu otaqda Helenin parfümlərinin və paltarının ətrini, yatağı və toranlığı. Olanımla, bacarığımla onu ram etmək; məni ağrıdan və itkinin hamar, boğuq əzabını sıxışdırıb çıxaran yeganə bir şey vardısa, o da onu təbiətin bəxş etdiyi imkandan daha çox və daha dərindən ram edə bilməməyim idi. Yorğan kimi üstünə sərilərdim, minlərlə əlimin, dodaqlarımın olmasını diləyərdim, meyvənin qabığı kimi onu bürümək istərdim, onu dərindən duymaq üçün, arada məsafə qoymadan, dərimi dərisinə hopduraraq, bununla belə, ulu ağrı ilə ki, yalnız dəri dəriyə hopur, qan qana qarışmır, yanaşı uzanmaq əvəzinə bir bədəndə birləşmirik».



## VII

Söhbətini kəsmədən Şvarsa qulaq asırdım. Düzdür, dərdini danışırdı, amma bilirdim ki, onun üçün hərdən əks-səda verən adi bir divaram. Özüm özümə də o cür qiymət verirdim; yoxsa qanqaralıq salmadan ona qulaq asa bilməzdim və tam əmin idim ki, o da bir daha oyanmasını istədiyi şeyi xatirələrin səssiz ovulub töküldüyü qumda dəfn etməzdən öncə bunsuz danışa bilməzdi. Bir gecəliyinə onun yolunun üstünə çıxmış yad adam idim və Şvars həmin yad adamdan çəkinməyə bilərdi. Uzaq, ölü bir adın – Şvarsın – anonim qılafına bürünərək mənə rast gəlmişdi və həmin qılafı atmış olsaydı, onunla birlikdə öz şəxsiyyətini də atmış olardı və son sərhəddəki qara darvazaya doğru addımlayan anonim kütlənin içində itərdi ki, orada da heç bir sənədə ehtiyac olmur və adamı nə buraxırlar, nə də geri qaytarırlar.

Ofisiant xəbər verdi ki, ingilis diplomatlarından başqa bir alman da gəlib. Onu bizə göstərdi. Hitlerin elçisi bizdən beş masa aralıda oturmuşdu, aralarında da iki qadın olan üç nəfərlə; qadınların güclü və sağlam görkəmi vardı, bir-birinə uyuşmayan iki müxtəlif rəngli ipək paltar geymişdilər.

Göstərilən kişinin arxası biz tərəfə idi və mən bunu uyğar, təlaşsız saydım.

– Fikirləşdim ki, cənablara maraqlı olar, – ofisiant dedi, – siz də almanca danışdığınıza görə.

Şvars da, mən də istər-istəməz bir-birimizə mühacir baxışı atdıq – bir anlığa göz qapaqlarını qaldırıb heç nə büruzə vermədən baxışları çəkmək. Mühacir baxışı Hitlerin rəhbərliyi altında olan alman baxışından fərqlidir, – sonradan pıçıltı ilə nəsə demək üçün ehtiyatla ətrafa böylənmaq – amma hər ikisi əsrimizin mədəni inkişafına aiddir, məcburi xalqlar köçkünlüyü kimi. Yüz ildən sonra iztirab fəryadları unudulanda tülük bir tarixiçi bütün bunların hamısını mədəniyyəti irəli aparan, onu gübrələyən və yayan bir hal kimi qeyd edəcək.

Şvars etinasızlıqla ofisiantı süzdü.

– Onun kim olduğunu bilirik, – dedi. – Bizə bir az şərab gətirin.

«Helen, – sonra eyni arxayınlıqla sözünə davam etdi, – rəfiqəsinin maşınını götürməyə getdi. Mənzildə tək qalıb gözlədim. Axşam düşmüşdü və pəncərələr açıq idi. İşıqların hamısını söndürdüm ki, mənzildə olduğumu görən olmasın. Qapını döyən olsaydı, cavab verməyəcəkdim. Georq qayıdıb gələsi olsaydı, dar ayaqda mətbəxdəki çıxışdan qaçasıydım.

Yarım saat pəncərənin yanında oturub küçənin səs-küyünü dinşədim. Bir azdan içimə itkinin azman, səssiz duyğuları dolmağa başladı. Ağrılı deyildi, fəqət üfüqə yetişənə qədər get-gedə irəli sürünüb hər şeyə kölgə salan toranlığa bənzəyirdi. Kölgə tərəzisinin bir gözünə boş keçmiş, digər gözünə isə boş gələcək qoyulmuşdu, ortada da tərəzinin kölgə qolunu çiynində saxlamış Helen dayanmışdı və o da çoxdan yox olmuşdu. Mənə elə gəldi ki, həyatımın tən ortasındayam; növbəti addım tərəzini əyəcəkdi və o, asta-asta gələcəyə doğru enəcək, get-gedə boz rəngə bürünəcək və heç vaxt bir daha tarazlıq alınmayacaqdı.

Yaxınlaşan avtomobilin səsi məni xəyaldan ayırdı. Küçə fənərinin işığında Helenin maşından endiyini və giriş qapısında gözdən itdiyini gördüm. Qaranlıq, ölü mənzillə yeridim və qapıya salınan açarın səsini eşitdim. Ütələk-ütələk içəri girdi.

«Gedə bilərik, – dedi. – Münsterə qayıtmalısan?»

«Çamadanım oradadır. Şvars soyadı ilə qeyd olunmuşam. Daha hara gedəsiyəm ki?»

«Hotelin pulunu ödə, köç başqasına».

«Harada?»

«Elədir, harada? – fikrə getdi. – Münsterdə», – axır ki dilləndi. – Haqlısan. Özgə harada ola bilər ki? Ən yaxını elə Münsterdir».

Lazım olan ayın-oyunu çamadana yığdım. Qərara aldıq ki, avtomobillə evin qabağında yox, bir az aralıda oturum, Hitler meydanında. Çamadanı Helen gətirəsi oldu.

Heç kimə görünmədən küçəyə çıxdım. İsti külək üzümə vurdu. Qaranlıqda yarpaq xışıldayırdı. Helen mənə meydanda yetişdi.

«Min, – pıçıldadı. – Əlli tərpən!»



Kabriolet modelli bağlı avtomobil idi. Cihazlar lövhəsinin əks etdirdiyi işıqdan Helenin sifəti nurlanmışdı. Gözləri parıldayırdı.

«Gərək ehtiyatla sürəm, – dedi. – Kiçicik bir qəza və polis, vəssalam, bircə bu çatmırdı!»

Cavab vermədim. Yolda belə şeylərdən danışmazlar; deyərsən, başına gələr. Helen gülüb torpaq təpələr boyunca irəlilədi. Az qala, onu əsməcəli bir dəlisovluq tutmuşdu, sanki, bunların hamısı macəra idi; digər maşınlara yol verəndə, yaxud onları ötəndə öz-özünə avtomobillə danışırdı. Yol polisinin yanında saxlamalı olanda dodağının altında ovsun oxudu; qırmızı işıq yananda isə onu tələsdirirdi: «Tez ol! Dəyiş! Yaşıla keç!»

Bilmirdim nə anlayım. Mənim üçün bu, bizim son saatımız idi. Nə fikirləşdiyi mənə aydın deyildi. Şəhərdən çıxanda sakitləşdi.

«Münsterdən haçan yola düşəcəksiniz?» – soruşdu.

Bilmirdim, çünki ortada konkret məqsəd yox idi. Təkcə onu bilirdim ki, çox qala bilmərəm. Bəxt adama cəmi bircə dəfə dəli azadlığı verir; sonra xəbərdarlıq edib zərbəsini endirir. Bunu hərdən, vaxt çatanda hiss edirsən. Hiss edirdim ki, vaxt yetişib.

«Sabah», – dedim.

Bir xeyli dinmədi. Axırda soruşdu:

«Necə etmək istəyirsən?»

Mənzildə tək qalanda bu barədə fikirləşmişdim. Qatara minib sərhəddə pasportumu göstərmək mənə xeyli riskli görünmüşdü. Başqa sənədlərimi soruşa bilərdilər: ölkədən çıxma icazəsini, səltənəti tərketmə rüsumunun təsdiqini, pasport qeydiyyatını, bunlar isə məndə yox idi.

«Gəldiyim yolla, – dedim. – Avstriyadan. Reyndən keçib İsveçrəyə. Gecə. – Sonra Helen tərəfə çevrildim: – Gəl bu barədə danışmayaq. Ya da bacardıqca az danışaq».

Başı ilə təsdiqlədi.

«Özümlə pul götürmüşəm. Sənə lazım olar. Sərhədi gizli keçəndə özünlə götürərsən. İsveçrədə dəyişmək olar?»

«Olar. Özünə lazım deyil?»

«Özüm apara bilmərəm. Sərhəddə yoxlayırlar. Yalnız bir-iki mark götürə bilərəm».

Heyrətlə ona baxdım. Nə danışır bu? Görünür, dili dolaşıb.

«Nə qədərdir?» – soruşdum. Tələsik üzümə baxdı.

«Düşündüyün qədər də az deyil. Xeyli vaxtdır yığırdım. Orada, çantadadır. – Xırda dəri çantaya işarə etdi. – Çoxu yüzmarklıqdır. Bir bağlama da iyirmilik, Almaniyada xərcləmək üçün ki, iri pul dəyişməyəsən. Sayma. Götür. Onsuz da hamısı sənin pulundur».

«Partiya idarəmi müsadirə etmədi?»

«Etdi, amma bir az gec. Bunları hesabdan tez götürdüm. Bankda bir nəfər kömək elədi. Sənin üçün saxlamışdım və haçansa göndərəcəkdim, amma harada olduğunu bilmirdim».

* * *

«Ona görə yazmırdım ki, fikrləşirdim, nəzarət altında olarsan. İstəmirdim səni də hansısa düşərgəyə atsınlar».

«Təkcə ona görə yox», – ağır-ağır dilləndi.

«Elədir, bəlkə də, təkcə ona görə yox».

Vestfaliya əyalətinin küləş damlı və qara kərənli ağ evlərdən ibarət kəndlərinin birindən keçib gedirdik. Əyinlərində mundir olan gənclər ətrafda fəxrlə addımlayırdılar. Meyxanaların birindən Horst Vesel mahnısı[1] bayıra süzülürdü.

[1] Faşistlərin himni

«Müharibə başlayacaq, – Helen birdən-birə dilləndi. – Ona görə gəlmisən?»

«Haradan bilirsən?»

«Georq deyib. Ona görə gəlmisən?»

Bunu niyə bilmək istədiyini başa düşmürdüm. Mən yenidən qaçqınlıqda deyildimmi?

«Hə, – cavab verdim. – Həm də ona görə, Helen».

«Məni aparmaq istəyirdin?»

Diqqətlə ona baxdım: «Allah xatirinə, Helen, – axır ki, dilləndim. – Heç onu dilinə də gətirmə. Orada nələr olduğundan xəbərin yoxdur. Bu, sənin üçün macəra deyil. Müharibə başlayanda isə heç təsəvvür ediləsi deyil. Almanların hamısını içəri atacaqlar».

Dəmiryol keçidində dayanmalı olduq. Gözətçi evciyinin qabağındakı bağçada georginlər və qızılgüllər çiçək açmışdı. Külək şlaqbaumlarda oynayırdı, sanki, onlar arfa idilər. Böyrümüzdə ayrı maşınlar da saxladı – əvvəlcə içində dörd kök, ciddi kişi oturmuş xırda bir opel; onun arxasında ikinəfərlik üstüaçıq, yaşıl maşın, sükan arxasında da yaşlı bir qadın; sonra bizə az qala mühərrikinin səsi eşidilməyən qara mersedes-limuzin yan aldı, cənazə avtomobili kimi. Sükanın arxasında qara mundirli bir SS-çi oturmuşdu, arxada da solğunsifət iki SS zabiti. Maşın bizə elə sıx dayanmışdı ki, az qala əlim çatacaqdı. Xromlu gədələrin əyləşdiyi mersedes o qədər qabağa getdi ki, az qaldı radiatoru şlaqbauma dəysin. O, doğrudan da, içində iki meyit aparan cənazə maşınına oxşayırdı. Bir az qabaq müharibədən danışırdıq və budur, onun simvolu indi yanımızda dayanıb: qara mundirlər, meyit sifətləri, gümüşü meyit başları və daha qızılgül ətri əvəzinə, acı yovşan və çürüntü iyi verən sükunət.

Qatar həyatın özü kimi nərildəyə-nərildəyə yaxınlaşdı. Sürət qatarı idi, yataq kupeləri, ağ örtük çəkilimiş masaları olan gur işıqlı vaqon-restoranı ilə. Şlaqbaum qalxanda mersedes digər maşınları keçib təbiətin rəngini kabusanə dəyişən – ağaclar qapqara skeletlərə bənzəyirdi – güllə kimi qabağa şütüdü.

«Mən də səninlə gedirəm», – Helen pıçıldadı.

«Nə? Nə deyirsən?»

«Niyə də yox? – Maşını saxladı. Sükut bizə səssiz zərbə kimi dəydi, sonra gecənin səsini eşitdik. – Niyə də yox?

– birdən çox həyəcanlı dilləndi. – Məni yenə burada qoymaq istəyirsən?»

Cihazlar lövhəsinin yaşıl işığında sifəti zabitlərin sifəti kimi elə solğunlaşdı ki, elə bil, iyun gecəsində sürünən ölüm onu da haqlamışdı. İndi dərk etdim ki, ən çox qorxduğum şey elə bu imiş: müharibə aramıza girəcək və o, tüğyan edəndən sonra biz bir-birimizi heç vaxt tapmayacağıq, zira insan hər şeyi dağıdan zəlzələdən sonra, ən böyük cəsarətlə də olsa, bu qədər şəxsi xoşbəxtliyə ümid edə bilməzdi.

«Əgər məni aparmağa gəlməmisənsə, onda gəlişinin özü ən böyük cinayətdir! Məgər başa düşmürsən?» – Helen qəzəblə dilləndi.

«Elədir», – dedim.

«Onda niyə boyun qaçırırsan?»

«Qaçırmıram. Amma sən bunun nə olduğunu bilmirsən».

«Özün dəqiq bilirsən? Onda niyə gəlmisən? Amma düzünü de! Mənimlə bir də xudahafizləşməyə?»

«Yox».

«Onda niyə? Burada qalıb intihar etməyə?»

Başımı buladım. Anladım ki, onun başa düşəcəyi bircə cavab var, bircə cavab ki, heç vaxt baş tutmasa da, onu indi deməliyəm. Bu cavabı ona verməliydim.

«Səni aparmağa. Bunu hələ də bilmirsən?»

Sifəti duruldu, gözəlləşdi. Hirsi soyudu.

«Bilirəm, – mızıldadı, – Axı bunu mənə deməliydin. Hələ də bilmirsən ki, deməliydin?»

Özümü topladım. «Bunu sənə yüz kərə demək istəmişəm, Helen, hər dəqiqə də təkrarlamaq istəyirəm. Ən çoxu da bunun qeyri-mümkün olduğunu sənə izah etməli olanda deyirəm».

«Mümkündür. Mənim pasportum var».

Bir anlığa susdum. Söz elə səsləndi ki, sanki, düşüncələrimin utancaq buludlarında şimşək çaxdı.

«Pasportun var? – heyrətlə soruşdum. – Xarici pasport?»

Əl çantasını açıb pasportunu çıxartdı. Nəinki pasportu yox idi, hətta yanındaydı. Ona müqəddəs qrala[1] baxan kimi

[1] *Müqəddəs qral* – Həzrəti İsanın son gecədə şərab içdiyi kasa. Xristian inancına görə, həmin kasada İsa peyğəmbərin qanı saxlanılır və ondan içən adam əbədi dirilik qazanır.

baxdım. Bu, təkcə adicə pasport deyildi, həm qulaq dincliyi, həm də qanunun özü idi.

«Haçandandır?» – soruşdum.

«İki ildir, – dedi. – Hələ üç il də etibarlıdır. Üç dəfə istifadə etmişəm: bir dəfə Avstriya hələ müstəqil olanda ora getməyə, iki dəfə də İsveçrəyə».

Vərəqlədim. Özümü toplamalı oldum. Gerçəklik birdən-birə qarşımda dayanmışdı. Əlimdə pasport xışıldayırdı. Helenin Almaniyanı tərk etməsi labüdləşmişdi. Düşünmüşdüm, bu, o vaxt mümkün olar ki, o da mənim kimi qaçıb sərhədi gizli keçsin. Bir gözü məndə Helen soruşdu:

«Çətin olmaz, düzdür?»

Başımla təsdiqlədim, sanki, gicləşmişdim.

«Sadəcə, qatara minib gedə bilərsən, – deyib bir daha pasportu gözdən keçirdim. Bu barədə heç düşünməmişdim. – Fransaya vizan yoxdur».



«Sürixə gedib ordan alaram. İsveçrəyə viza gərək olmur».

«Elədir. – Matdım-matdım ona baxdım. – Bəs qohumların? – soruşdum. – Səni buraxacaqlarmı?»

«Onlardan soruşan olmayacaq. Onlara heç nə deməyəcəyəm. Sadəcə, deyəcəyəm ki, Sürixə həkim yanına gedirəm. Əvvəllər də belə etmişəm».

«Xəstəsən ki?»

«Əlbəttə yox, – dedi. – Bunu pasport almaq xatirinə etmişəm. Buradan çıxmaq üçün. Az qala boğulurdum».

Yadıma düşdü ki, Georq ondan həkimdə olub-olmamasını soruşmuşdu.

«Xəstə deyilsən?» – bir də soruşdum.

«Cəfəngiyatdır. Amma qohumlarımı inandırmışam. Qulağım dinc olmaq üçün, bir də bu xarabadan çıxmaq üçün beyinlərini doldurmuşam. Bu işdə Martens də kömək edib. Cılxa almanı inandırmaq ki, bəlkə, İsveçrədə Berlindəki mütəxəssislərdən çox bilən bir həkim tapmaq mümkündür, xeyli vaxt istəyir. – Birdən gülüb əlavə etdi: – Belə həssas olma! Söhbət ölüm-qalımdan getmir və bu, gecə vaxtı sis-də-dumanda qaçış da deyil. Sadəcə olaraq müayinədən keçmək üçün sabah bir neçə günlüyünə Sürixə yola düşürəm, əvvəllər etdiyim kimi. Bəlkə, orada səni də gördüm, əgər orada olacaqsansa. Yaxşımı səslənir?»

«Hə, – dedim. – Amma sür gedək. Mən bu saat başı gah qaynar, gah da buz kimi soyuq suya salınan və fərqi hiss etməyən adam kimiyəm. Niyə bu haqda heç düşünməmişəm? Hər şey qəfildən elə adiləşib ki, SS dəstəsinin indicə meşədən üstümüzə töküləcəyindən də qorxuram».

«Adam çaşbaş qalanda hər şey üzdən adi görünür, əzizim, – çox incə və mülayim dilləndi. – Qəribə bir kompensasiya! Həmişə belə olur?»

«İstərdim, bu barədə heç vaxt danışmayaq».

Maşın tozlu yay yolundan asfalta çıxdı.

«Həmişə bu cür yaşamağa da hazıram», – heç bir məyusluq nişanəsi olmadan dedi.

* * *

Mənimlə mehmanxanaya getdi. Vəziyyətimə tez uyğunlaşması məni heyran qoymuşdu.

«Holla qədər mən də gələcəyəm, – dedi. – Tək kişilər daha çox şübhə oyadır, nəinki kişi ilə qadın».

«Çox tez öyrənirsən».

Başını buladı.

«Sən gəlməzdən qabaq öyrənmişəm. Çuğulluq illərində. Milli yüksəliş yerdən qaldırılan daş kimidir, altından cür-cücü çıxır. Vulqarlığı ört-basdır edən pafoslu sözlər də tapırlar».

Mehmanxanaçı açarımı verdi və mən otağa qalxdım. Helen məni gözləmək üçün aşağıda qaldı.

Çamadanım qapının yanındakı yük yerində idi. Bu sadə otağı gözdən keçirdim. İndiyə qədər qaldığım otaqlardan biri idi. Necə gəlib-çatdığımı yada salmaq istədim, fəqət xatirələrim çoxdan uçub-getmişdi. Anladım ki, daha sahildə də deyiləm, gizlənmirəm, çaya baxıb taxtanın üstündə su ilə birgə axmıram. Özümlə götürdüyüm çamadanı əvvəlcə aldığımın yanına qoydum. Sonra aşağı, Helenin yanına qayıtdım.

«Nə qədər vaxtın var?» – soruşdum.

«Maşını bu gecə qaytarmalıyam».

Onu diqqətlə süzdüm. Könlümdən elə keçdi ki, bir anlığa dilim tutuldu. Holldakı qonur, yaşıl kürsülərə, mehmanxanaçının piştaxtasına, gur işıq altındakı çoxlu məktub taxçalı masaya diqqətlə baxıb başa düşdüm ki, Heleni otağıma aparmaq mümkün olmayacaq.

«Birlikdə şam edərdik, – dedim. – Gəl özümüzü elə aparaq ki, elə bil, sabah bir də görüşəcəyik».

«Sabah yox, – cavab verdi. – Birisi gün».

Birisi günün onun üçün özəl bir mənası olmalıydı; məndən ötrü isə bu təqribən heç vaxt kimi bir şey idi, yaxud az uduşlu və uduşsuz biletli lotereya demək idi. Həyatımda bu birisigünləri nə qədər yaşamışam! Və heç biri də gözlədiyim kimi olmayıb.

«Birisi gün, – dedim. – Birisi gün, ya bir gün sonra. Əsən küləyin səmtindən asılıdır. Gəl bu gün o haqda düşünməyək».

«Heç nə haqda düşünmürəm», – cavab verdi.

Böyük kilsənin yanındakı zirzəmidə qədim alman üslubunda düzəldilmiş restorana getdik, boş bir masa tapıb əyləşdik; buradan bizə qulaq asan olmazdı. Bir şüşə şərab sifariş verdim və biz lazımi şeyləri müzakirə etdik. Helen sabah Sürixə yola düşmək istəyirdi. Orada məni gözləyəcəkdi. Mən Avstriya və Reyn üzərindən tanıdığım yolu seçəcəkdim və Sürixə çatanda ona zəng edəcəkdim.



«Bəs gəlməsən?» – soruşdu.

«İsveçrə həbsxanalarından məktub yazmağa icazə verilir. Bir həftə gözləyərsən. Məndən xəbər çıxmasa, geri qayıdarsan».

Xeyli mənə baxdı. Nə dediyimi bilirdi. Alman həbsxanalarından məktub yazmaq imkanı daha yox idi.

«Sərhəd möhkəm qorunur?» – pıçıltı ilə soruşdu.

«Yox, – dedim. – Bu haqda da çox düşünmə. Bura gəlmişəmsə, buradan niyə çıxa bilməyim?»

Vida mərasimindən ötüşmək istədik, lakin tam bacarmadıq. Aramızda nəhəng, qapqara bir sütun dayanmışdı və edə bildiyimiz yeganə şey o oldu ki, onun böyür-başından daşlaşmış sifətimizə mümkün qədər nəzər sala bildik.

«Beş il qabaq olduğu kimidir, – dedim. – Ancaq bu dəfə ikimiz də gedirik». Helen başını tərpətdi.

«Ehtiyatlı ol! – dedi. – Allahı sevərsən, ehtiyatlı ol! Cözləyəcəyəm. Bir həftədən də çox! Nə qədər istəsən. Çox risk etmə!»

«Olacağam. Gəl bu barədə danışmayaq. Ehtiyatı əldən verə bilərik. Əldən derdikmi, qurtardı». – Əlini əlimin üstünə qoydu.

«Sənin gəlişini yalnız indi dərk edirəm! İndi, sən gedəndə! Çox gec!»

«Mən də, – dedim. – Heç olmasa, indi isə bilirik».

«Çox gec, – burnunun altında dedi. – Yalnız indi, sən gedəndə».

«Təkcə indi yox. Həmişə bilmişik. Yoxsa gələrdimmi, sən də məni gözləyərdinmi? Yalnız indi bunu bir-birimizə deyə bilirik».

«Mən həmişə gözləməmişəm», – dedi.

Susdum. Mən özüm də gözləməmişdim, lakin bilirdim ki, bunu ona deməyə haqqım yoxdur. Ən azı indi. Heç birimiz heç nə gizlətmirdik, heç kəs özünü müdafiə etmirdi. Haçansa birgə ömür sürəsi olsaydıq, o, Münsterdəki bu səs-küylü restorandakı hazırkı an olacaqdı, bu ana da özümüzdə güc və özünütəsdiq tapmaq üçün hər birimiz təklənərək təkrar-təkrar qayıda biləcəkdik. O, baxa biləcəyimiz bir ayna olacaqdı və bizə iki şəkil göstərəcəkdi: biri – taleyinin bizi necə dolaması, digəri – onun bizi nəyə çevirməsi və hər ikisi də həddən ziyadə; adam birinci şəklini itirəndən sonra həmişə yanlışlıqlar başlayır.

«İndi isə get, – dedim. – Ehtiyatlı ol. Bərk sürmə».

Dodaqları səyridi. Yalnız sözümü bitirdikdən sonra kinayəni dərk edə bildim. Köhnə evlərin arasında, küləkli küçədə dayanmışdıq.

«Sən ehtiyatlı ol, – pıçıldadı. – Sənin buna daha çox ehtiyacın var».

Bir müddət otağımda qaldım, axırda dözə bilmədim. Vağzala gedib Münxenə bir bilet aldım və qatarların cədvəlini götürdüm. Həmin axşam yola düşən biri vardı. Onunla getməyi qərara aldım.

Şəhər səssizliyə qərq olmuşdu. Kilsə meydanının yanından ötüb ayaq saxladım. Qaranlıqda qədim binanın yalnız bir hissəsini görə bildim. Heleni və gələcəkdə baş verə biləcəkləri düşündüm və həmin gələcək kilsənin kölgəsindəki hündür pəncərələr kimi əzəmətli və tutqun göründü; daha özümə də aydın deyildi ki, onun xaricə getməsinə razılıq verməyim düzgün idimi, yaxud bu, bizi fəlakətə sürükləməyəcəkdimi, mən iradəmdən kənarda bir cinayətmi etmişəm, ya da görünməmiş bir mərhəmətəmi yol vermişəm; bəlkə də, bu həm o, həm də bu idi.

Mehmanxananın yaxınlığında boğuq danışıq və addım səsləri eşitdim. İki SS-çi evin qapısındın bir kişini sürüyə-sürüyə küçənin ortasına saldı. Küçə fənərinin işığında kişinin üzünü gördüm. Sifət mum kimi şumal idi, ağzının sağ tərəfindən qara qan ləkəsi çənəsinə qədər uzanırdı. Başı təpədən keçəl idi, gicgahlarında qara tük vardı. Gözləri geniş açılmışdı və ora sonsuz dəhşət dolmuşdu ki, beləsini lap çoxdandır görməmişdim. Kişi susurdu. Müşayiətçiləri onu gah itələyir, gah da qabağa dartırdılar. Çox da səs-küy salmırdılar; bu mənzərədə nəsə gizli, kabusanə bir şey vardı. SS-çilər yanımdan keçəndə acıqlı-acıqlı, hədə ilə mənə baxdılar və dustaq iflic baxışları ilə məni süzüb keçdi, yardım diləyən bir hərəkət etdi və dodaqları tərpəndi, lakin səs çıxmadı. Bu, bəşəriyyətin ölməz səhnəsi idi – zor nökərləri, qurban və əbədi üçüncü adam, tamaşaçı, əllərini qaldırmayan, qurbanı müdafiə etməyən, onu qurtarmağa çalışmayan tamaşaçı, çünki o, öz təhlükəsizliyinin dərdini çəkir, elə buna görə də şəxsi təhlükəsizliyi həmişə qorxu içində olur.



Bilirdim ki, dustaq üçün heç nə edə bilməyəcəyəm. Silahlı SS-çilər mənə asanlıqla güc gələrdilər; kiminsə oxşar bir mənzərə haqqında mənə söylədikləri yadıma düşdü. O, SS-çinin bir nəfər yəhudini həbs etdiyini, onu əzişdirdiyini görüb köməyə gedib; SS-çini huşunu itirənə qədər döyüb və dustağa qışqırıb ki, qaçsın. Amma dustaq xilaskarına söyərək bildirib ki, o yalnız indi yerli-dibli batdı, çünki düşdüyü bu vəziyyəti də onun üstünə yıxacaqlar və hıçqıra-hıçqıra su dalınca gedib ki, SS-çini bayılmadan ayıltsın, o da bunu ölümə sürükləyə bilsin. Həmin hekayət yadıma düşdü; buna baxmayaraq köməksizliyin, özünə nifrətin, qorxunun məngənəsində, başqaları qətlə yetirilərkən öz taleyini düşünmə yelbeyinliyində halım elə pozuldu ki, mehmanxanaya qayıdıb şeylərimi götürdüm və vaxta hələ çox qalsa da, vağzala yollandım. Mehmanxananın otağında gizlənməkdənsə, gözləmə zalında oturmaq mənə daha münasib göründü. Bununla etdiyim risk, uşaqsayağı da olsa, duyğularıma ən azı yüngül bir sığal çəkdi.

## VIII

Bütün gecəni və ertəsi günü çətinlik çəkmədən qatarla Avstriyaya getdim. Qəzetlər müharibə xəbərlərini də üstələyən sərhəd pozuntuları barədə tələblər, bəyanatlar və rəsmi məlumatlarla dolu idi, ən maraqlısı da o idi ki, güclü millətlər zəifləri təcavüzdə suçlayırdı. Hərbi dəstələr daşıyan çoxlu qatar gördüm, lakin söhbət etdiyim adamların əksəriyyəti müharibənin olacağına inanmırdı. Gözləyirdilər ki, ötənilkinin ardınca hər dəfə yeni bir Münxen sazişi olacaq və Avropa elə zəif və mənəviyyatsızdır ki, Almaniya ilə müharibəyə cürət etməz. Fransa ilə kəskin fərq də bundaydı, orada hər kəs bilirdi ki, müharibə qaçılmazdır; axı hədə altında olan həmişə çox şey bilir və daha tez bilir, nəinki hücum edən tərəf.

Feldkirxə gəlib pansionatların birində balaca bir otaq tutdum. Yay girmişdi, turist mövsümü başlamışdı, odur ki diqqət çəkmirdim. Yanımdakı iki çamadan məni hörmətə mindirmişdi. Onlara dönük çıxmağı qərara aldım, əl-ayağıma dolaşmayan ayın-oyunumu götürməyi qət etdim. Onları arxa çantaya qablaşdırdım, belədə az nəzərə çarpmaq olardı. Otağın pulunu qabaqcadan bir həftəlik ödədim.

Ertəsi gün yola çıxdım. Gecə yarıya qədər sərhədin yaxınlığındakı talada gizləndim. Ağcaqanadların əvvəlcə məni gölə necə soxduğunu hələ də unutmamışam, xırda gölün dupduru suyunda məskən salmış göy triton[1] nəzərimdən qaçmadı. Kəkilli idi, hava almaq üçün hərdən suyun üzünə çıxırdı. Hərdən də sarı-qırmızı xallı qarnını göstərirdi. Ona baxa-baxa düşünürdüm ki, dünya bu gölməçədə ona öz sərhədini qoyub. Kiçik su hövzəsi onun üçün həm İsveçrə, həm Almaniya, həm Fransa, həm Afrika, həm də Yokoşama idi, hamısı bir yerdə. Qayğı nə olduğunu bilmədən suda batıb-çıxırdı, axşamla tam həmahəng.

Bir-iki saat yatıb özümə gəldim. Özümə də çox arxayın idim. On dəqiqədən sonra yanımda bir gömrükçü peyda oldu, zalım oğlu, elə bil, yerdən çıxdı.

«Durun! Tərpənməyin! Nə edirsiniz burada?» Görünür, çoxdandır qaranlıqda pusurmuş. Ziyansız yol adamıyam

[1] *Triton* – kərtənkələyə oxşar heyvan

izahımı vecinə də almadı. «Bunların hamısını gömrük məntəqəsində danışarsan», – dedi və dabana çəkilmiş silahı ilə məni qabağına qatıb geri, növbəti məntəqəyə aparmağa başladı.

Tapdanmış həşərat kimi yeriyirdim, beynim kütləşmişdi, yalnız balaca bir küncü ayıq idi – bunun əlindən necə çıxım? Fəqət mümkünsüz idi; məmur öz işini gözəl bilirdi. Arxamca gələrək lazımi məsafəni saxlayırdı; qəfildən hücum çəkə bilməzdim, çəksəm də, beşcə addım da aralana bilməzdim, məni yerimdəcə güllələyərdi.

Gömrük məntəqəsində balaca bir otağın ağzını açıb dedi: «Keçin içəri. Burda gözləyin».

«Nə qədər?»

«Dindirmə başlayana qədər».

«İndi başlaya bilməzsiniz? Elə bir iş görməmişəm ki, məni içəri salasınız».



«Onda narahat olmağınıza da dəyməz».

«Qəti narahat deyiləm, – deyib arxa çantamı yerə qoydum. – Buyurub başlaya bilərsiniz».

«Hazır olanda başlayarıq», – deyib həddən artıq gözəl və ağ dişlərini göstərdi. Onda ovçu görkəmi və ovçu təsiri vardı.

«Bu işlərə baxan adamımız səhər tezdən gələcək. Kresloda yata bilərsiniz. Cəmi bir-iki saat çəkər. Hayl Hitler!»

Otağı gözdən keçirdim. Pəncərəyə dəmir barmaqlıqlar vurulmuşdu; qapı möhkəm idi və çöl tərəfdən kilidlənmişdi. Qaça bilməzdim. Üstəlik, çöldən adam səsi gəlirdi. Oturub gözlədim. Vəziyyət fəna idi. Səma əvvəlcə bozardı, sonra göyərdi və işıqlaşdı. Yenidən səslər eşitdim və burnuma qəhvə iyi gəldi. Qapı açıldı. Özümü elə göstərdim ki, guya, yuxudan təzə dururam, əsnədim. Gömrükçü içəri gəldi; qırmızı sifəti vardı, gombulluğundan az qala partlayacaqdı və ovçudan xeyli arxayın görünürdü.

«Axır ki, – dedim. – Burada yatmaq cəhənnəm əzabıdır».

«Sərhəddə nə edirsiniz? – deyib arxa çantamı yoxlamağa başladı. – Aradan çıxırdınız? Qaçaqmalçılıq?»

«Köhnə şalvarlarla qaçaqmalçılıq etmirlər, – cavab verdim. – Eləcə də geyilmiş köynəklərlə».

«Gözəl. Onda burada nə işiniz vardı?» Çantamı bir qırağa qoydu. Birdən cibimdəki pul yadıma düşdü. Tapsaydı, batmışdım. Çox güman ki, üstümü axtarmayacaqdı.

«Gecə Reynə baxmaq istəyirdim, – gülümsəyib dedim. – «Turistəm. Özü də romantik».

«Haradan gəlirsiniz?»

Haradan gəldiyim yerin və pansionatın adını dedim.

«Bu gün tezdən ora qayıtmaq istəyirdim, – sözümə davam etdim. – Çamadanlarım oradadır, bir həftəlik qalma pulunu da əvvəlcədən ödəmişəm. Məncə, bundan qaçaqmalçılıq iyi gəlmir, hə?»

«Belə-belə işlər, – cavab verdi. – Hər şeyi yoluna qoyarıq. Bir saatdan sonra arxanızca gələcəyəm. Birlikdə ora gedərik. Baxaq görək, çamadanlarda nəyiniz var».

* * *

Yol xeyli uzaq idi. Gombul da qoyun iti kimi ayıq-sayıq. Velosipedini yanımca sürə-sürə siqaret çəkirdi. Nəhayət, gəlib çatdıq.

«Gəldi ki! – kimsə pəncərədən qışqırdı. Azca sonra sahibə qarşımda dayandı. Həyəcandan hind quşu kimi qızarmışdı. – Vay Allah, fikirləşdik ki, başınıza bir iş gəlib! Gecəni harada qalmışdınız axı?»

Qadın səhər tezdən açılmamış çarpayımı görəndə fikirləşib ki, məni qətlə yetiriblər. Guya, bir neçə qarət basqını etmiş kimsə bu ətraflarda dolaşırmış. Ona görə də polis çağırıb. Qadından sonra polis çölə çıxdı. O da bizim ovçuya bənzəyirdi.

«Azmışdım, – bacardığım qədər arxayın dilləndim. – Elə gözəl bir gecəydi ki! Uşaqlıqdan bəri birinci kərəydi ki, açıq havada yatırdım. Çox gözəl idi. Sizi narahat etdiyimə görə xəcalət çəkirəm. Heyif ki, çaşıb sərhədə qədər getmişəm. Lütfən, gömrükçüyə deyin ki, burada yaşayıram».

Sahibə dedi. Gömrükçü razı qaldığını bildirdi; amma polis sayıqlıq göstərib soruşdu:

«Haradan gəlirsiniz? Sərhəddən? Sənədləriniz var? Kimsiniz?»

Bir anlığa nəfəsim durdu. Helenin pulları qoyun cibimdəydi, tapsaydı, şübhələnəcəkdi ki, onu gizli yolla İsveçrəyə keçirmək istəmişəm; elə həmin an da məni içəri atacaqdılar. Sonrası necə olacaqdı, bunu bir Allah bilir.

Adımı dedim, amma hələlik pasportumu göstərmədim;

almanların, eləcə də avstriyalıların öz vətənlərində pasporta ehtiyacı olmur.

«Kim bizə sübut edər ki, siz axtardığımız cani deyilsiniz? – ovçuya oxşayan polis dilləndi. Güldüm. – Gülməli nə var ki, – hirslə davam edib gömrükçü ilə bərabər çamadanımı axtarmağa başladı.

Özümü elə aparırdım ki, guya, mənimlə məzələnirlər, ancaq pulu üstümdə tapsaydılar, bunu necə izah edəcəyimi bilmirdim. Qərara aldım, deyim ki, bu tərəflərdə xırdapara alver etmək niyyətim vardı.

Özümü də heyrətləndirən bir iş baş verdi, məmur ikinci çamadanın yan gözündən mənə məlum olmayan bir məktub tapdı. Bu, Osnabrükdən götürdüyüm, keçmişdən qalan ayın-oyunumu Helenin qablaşdırdığı və özü ilə gətirdiyi çamadan idi. Polis məktubu açıb oxumağa başladı. Maraqla məktuba baxdım; nə olduğunu bilmədim və düşündüm ki, kaş o qədər də əhəmiyyəti olmayan köhnə yazılardan biri olaydı. Məmur donquldandı, başını qaldırıb üzümə baxdı:



«Yozef Şvars sizsiniz? – Başımla təsdiqlədim. – Niyə o saatca demədiniz?» – soruşdu.

«Əvvəlcə dedim axı», – cavab verib çap olunmuş məktubun başlığını arxa tərəfdən oxumağa çalışdım.

«Düzdür, demişdi», – gömrükçü təsdiqlədi.

«Deməli, məktub sizin haqqınızdıdır?» – polis soruşdu.

Əlimi irəli uzatdım. Bir anlığa tərəddüd etdi, sonra onu mənə verdi. Çap olunmuş başlığı indi gördüm. Bu, Osnabrükdəki nasional-sosialist partiyasının ünvanıydı. Asta-asta oxudum ki, Osnabrük yerli təşkilatı xahiş edir, vacib gizli tapşırıqla yola çıxmış partayqenosse Yozef Şvarsa mümkün olan hər cür yardım göstərilsin. Məktubun altındakı imza beləydi: "Oberşturmbannfürer[1] Georq Yürgens"; imza Heleninki idi. Məktub hələ də əlimdəydi.

«Düzdür?» – məmur bayaqkından xeyli ehtiramla soruşdu.

Pasportumu çıxartdım, onlara doğru tutdum, adımı göstərib təzədən cibimə qoydum.

«Gizli dövlət işidir», – dedim.

«Ona görə?»

---

[1] *Oberşturmbannfürer* – SS-də hərbi rütbə. Polkovnik-leytenant rütbəsinə bərabər tutulur.

«Ona görə, – ciddi dillənib məktubu cibimə qoydum. – Güman edirəm, bu, sizə kifayət edər, hə?»

«Əlbəttə. – Məmur göyümsov gözünün birini qırpdı. – Başa düşürəm. Sərhədə nəzarət».

Əlimi qaldırdım:

«Lütfən, bu barədə bir kəlmə də. Sirdir. Ona görə də heç nə deyə bilmirdim; buna baxmayaraq nəsə qopardınız. Partaygenossesiniz[1]».

«Aydın məsələdir», – polis dilləndi. Yalnız indi gördüm ki, saçları kürəndir, əlimi tər basmış kürəyinə vurdum.

«Mükəmməl! Alın, bu da sizin, bu boyda zəhmətdən sonra bir badə şərab pis olmazdı».

Şvars yayğın-yayğın üzümə gülümsədi.

«Bəzən adam heyrətlənir ki, vəzifələri inamsızlıq olanların arxasını necə də asanlıqla yerə qoymaq olurmuş. Belə şey sizə tanışdır?»

«Sənədsiz yox, – dedim. – Əhsən arvadınıza! Məktubun sizə lazım olacağını əvvəlcədən görüb».

«Görünür, fikirləşib ki, mənə təklif etsə, götürmərəm. Mənəviyyat səbəbindən, ya da ona görə ki, bunu qorxulu sayardım. Əsasən də, güman ki, buna görə. Hər halda, götürərdim. Məni o xilas etdi».

Ona böyük maraqla qulaq asmışdım. İndi ətrafıma boylandım. Alman və ingilis diplomatlar rəqs meydançasında dayanmışdılar. Fokstrot oynayırdılar və ingilis daha mahir rəqqas idi. Alman genişliyə meyil edirdi, hirsli aqressivliklə oynayırdı və qarşısındakı rəqqasəni səhra topu kimi fırladırdı. Yarıqaranlıqda məndə belə bir təsəvvür yarandı ki, üstündə fiqurları olan şahmat taxtası canlanıb. Hər iki şah, həm alman, həm də ingilis, hərdən hədəli-hədəli bir-birinə yaxınlaşır, hər dəfə də ingilis geri çəkilirdi.

«Sonra neylədiniz?» – soruşdum.

«Otağıma getdim, – dedi. – Yorulmuşdum, dincəlib fikirləşmək istəyirdim. Helen məni elə görünməmiş bir yolla xilas etmişdi ki, bu, mənə antik faciədə qaçılmaz fəlakəti xoşbəxt sonluğa aparan Allahın qəfil təzahürü kimi görünmüşdü. Fəqət polis çox şeyləri götür-qoy edənə qədər aradan çıxmalıydım. Ona görə də, nə qədər ki tale üzümə gülürdü, ona bel bağlamalıydım. İsveçrəyə gedən ilk sürət

---

[1] *Partaygenosse* – partiya yoldaşı *(alm.)*

qatarı barədə məlumat aldım. Bir saatdan sonra yola düşürdü. Mehmanxana sahibəsinə dedim ki, bir günlüyə Sürixə getməliyəm və yalnız çamadanlardan birini götürmək istəyirəm, bir-iki gündən sonra qayıdacağam, qoy o biri çamadanı saxlasın. Sonra vağzala getdim. İllərlə sürən ehtiyatkarlıqdan qəfil imtina sizə tanışdırmı?»

«Bəli, – dedim. – Fəqət adam tez-tez səhvə də yol verir. Fikirləşir ki, tale ona bir qisas borcludur. O isə heç nəyə borclu deyil».

«Aydın məsələdir, – cavab verdi. – Amma buna baxmayaraq hərdən sınanmış yola etibar etmirsən, düşünürsən ki, yenisini yoxlayasan. Helen istəmişdi, sərhədi qatarla onunla bərabər keçim. Mən bunu etməmişdim və onun ağlı məni xilas etməsəydi, az qala məhv olmuşdum, ona görə də fikirləşdim ki, bu dəfə onun sözünə əməl edim, necə istəmişdi, elə».



«Əməl etdiniz?»

Başı ilə təsdiqlədi. «Birinci dərəcəli vaqona bilet aldım; dəm-dəsgah həmişə inam yaradır. Yalnız qatar tərpənəndə yanımdakı pul yadıma düşdü. Haradasa kupedə gizlədə bilərdim, amma tək deyildim. Məndən başqa özünü narahat hiss edən solğunsifət bir kişi də vardı. Ayaqyollarında gizlətmək istədim, hər ikisi bağlıydı. Bu arada qatar sərhəd stansiyasına çatdı. İnstinktim məni vaqon-restorana çəkdi. Masalardan birinə oturub bir şüşə bahalı şərab sifariş verdim və menyunu istədim».

«Cənabınızın baqajı var?» – ofisiant soruşdu.

«Bəli. Yaxındakı birinci dərəcəli vaqonda».

«Onda cənabınız əvvəlcə gömrüklə qurtarmaq istəmirmi? Buradakı yeri saxlaya bilərəm».

«Çox çəkər. Çalışın yeməyi gətirin. Acam, pulunu da əvvəlcədən ödəmək istəyirəm ki, qaçacağımı fikirləşməyəsiniz».

Vaqon-restoranda sərhəd məmurunun gözündən yayına bilmək ümidim boşa çıxdı. Ofisiant şərabla şorbanı yenicə masaya qoymuşdu ki, iki mundirli şəxs vaqona daxil oldu. Bu arada yanımdakı pulu süfrənin keçə altlığına, Helenin məktubunu da pasportun içinə qoya bildim.

«Pasport, – məmur qaba dilləndi. Pasportu verdim. – Baqajınız yoxdur?» – məktubu açana qədər soruşdu.

«Bircə əl çamadanı, – dedim. – Yaxındakı birinci dərəcəli vaqonda».

«Gərək açasınız», – ikincisi dilləndi.

Ayağa qalxdım: «Yerimi saxlayın», – ofisianta dedim.

«Əlbəttə! Axı cənabınız pulunu əvvəlcədən ödəyib».

Birinci məmur üzümə baxdı. «Əvvəlcədən ödəmisiniz?»

«Bəli. Yoxsa yeməklə şərabdan əlim çıxardı. Sərhəddən o üzdə üstünə faiz gəlir. Mənim də yoxumdur».

Məmuru birdən gülmək tutdu: «Pis fikir deyil! – dedi. – Maraqlıdır, bu, çoxlarının ağlına gəlmir. Siz qabaqca gedin. Mən hələ vaqonu yoxlamalıyam».

«Bəs pasportum?»

«Axtarıb sizi taparıq».

Vaqonuma qayıtdım. Kupe qonşum yerində oturmuşdu, əvvəlkindən xeyli narahat. Tərləyirdi və yaş cib dəsmalı ilə əllərini, üzünü silirdi. Vağzala baxıb pəncərəni açdım. Tutulsaydım, bayıra tullanmağın xeyri olmazdı, qaçıb qurtara bilməzdim, amma açıq pəncərə bir az rahatlıq gətirirdi.

İkinci məmur qapının arasında dayanmışdı: «Baqajınız!»

Çamadanımı endirib açdım. İçinə baxıb sonra qonşumun çamadanlarını yoxladı. «Oldu», – deyib xudahafizləşdi.

«Bəs pasportum?» – soruşdum.

«Həmkarımdadır».

Həmin an həmkarı özünü yetirdi. Bayaqkı adama bənzəmirdi – əynində mundir olan partaygenosse, hündürdaban çəkmələrdə». Şvars gülümsədi: «Almanlar necə də çəkmə sevəndir!»

«Ehtiyacları var, – dedim. – O qədər zibilə batırlar ki!»

Şvars badəsini boşaltdı. Bütün gecəni az içmişdi. Saata baxdım, dördün yarısı idi. Bunu gördü.

«Çox çəkməyəcək, – dedi. – Gəmiyə də çatarsınız, başqa işlərə də. İndi sizə danışacağım xoşbəxtlik çağlarımdandır. Xoşbəxtlikdən də çox danışmaq olmur».

«Aradan necə çıxdınız?» – soruşdum.

«Partayqenosse Helenin məktubunu oxumuşdu. Pasportumu qaytarıb soruşdu ki, İsveçrədə tanışlarım varmı? Başımla təsdiqlədim.

«Kimlərdir?»

«Ammer və Rotenberq cənabları».

Bunlar İsveçrədə çalışan iki nasistin soyadı idi. İsveçrədə yaşayan hər bir mühacir onları tanıyırdı və nifrət edirdi.

«Daha kimlər?»

«Berndəki başçılarımız. Hamısını saymağa lüzum yoxdur, elə deyilmi?»

Hərbi qaydada xudahafizləşdi: «Uğurlar! Hayl Hitler!»

Kupe qonşumun bəxti gətirmədi. Bütün sənədlərini göstərdi və eninə-uzununa dindirildi. Kişi bir yandan tərləyir və kəkələyirdi. Ona baxa bilmirdim.

«Vaqon-restorana qayıda bilərəm?» – soruşdum.

«Əlbəttə! – partaygenosse cavab verdi. – Nuş olsun!»

Restoran adamla dolu idi. Bir dəstə amerikalı masamı zəbt etmişdi.

«Yerim necə oldu?» – ofisiantdan soruşdum.

Çiyinlərini çəkdi: «Saxlaya bilmədim. Bu amerikalılarla bacarmaq olur ki?! Almanca başa düşmürlər və hara gəldi otururlar! Oradakı masada əyləşin. Masa masadır, nə fərqi? Şərabınızı da ora qoymuşam».



Nə edəcəyimi bilmirdim. Bir ailə masamdakı yerin dördünü də müsadirə etmişdi. Pulun olduğu yerdə indi əlində fotoaparat tutmuş on altı yaşlarında gözəl bir qız əyləşmişdi. Yerimi qaytarmaqda israr etsəydim, diqqət çəkmiş olardım. Hələ alman torpağında idik. Nə edəcəyimi bilmədən ortalıqda dayananda ofisiant soruşdu:

«Cənabınız niyə hələlik oradakı masada əyləşmək, öz masası boşalandan sonra ora qayıtmaq istəmir? Amerikalılar tez yeyirlər, buterbrod və portağal şirəsi. Cənabınıza sonra əsl yemək gətirə bilərəm».

«Oldu».

Elə oturdum ki, gözüm pulda olsun. İnsan qəribə məxluqdur. Bir dəqiqə qabaq sağ-salamat qurtarmaq üçün bütün varımdan keçməyə hazır idim, indi isə oturub onu qaytarmağı düşünürdüm, ən azı İsveçrədə amerikalı ailəyə hücum çəkəsi olsam belə. Sonra tər tökən balacaboy kişinin bayırda aparıldığını görüb şükür etdim ki, aparılan mən deyiləm, həm də təəssüfləndim ki, bunların hamısı ucuz mərhəmətdən keçən tale payından başqa bir şey deyil. Özümün özümdən zəhləm getdi və buna nə heç nə edə bildim, nə də etmək istədim. Həm xilas olmaq, həm də pulumu əldə saxlamaq istəyirdim. Bu, sadəcə, pul xatirinə

pul deyildi, əmin-amanlıq, Helen, gələcəyin aylarla ömrü demək idi, bununla belə, həm də pul idi, mənim canım və eqoist xoşbəxtliyim idi. Bundan heç vaxt xilas ola bilmirik. Lakin içimizdə olana nəzarət edə bilmədiyimizi artistlərin öhdəsinə buraxsaq, yaxşıdır...»

«Cənab Şvars, – sözünü kəsdim – pulu necə qaytara bildiniz?»

«Haqlısınız», – cavab verdi. – Elə həmin cəfəngiyat da buranın yeridir. İsveçrənin gömrük işçiləri vaqon-restorana gəldi. Amerikalı ailənin yalnız əl baqajı yox, həm də baqaj vaqonunda çamadanları varmış. Ailə gedəsi oldu. Uşaqlar da getdi. Yeməklərini qurtarmışdılar. Masanı yığışdırdılar. Özümü ora yetirdim, əlimi süfrənin üstünə qoyub pulu yoxladım, yerindəydi.

«Gömrüklə qurtardınız?» – ofisiant şərab şüşəmi gətirəndə soruşdu.

«Bəli, – cavab verdim. – Qızartma gətirin. Artıq İsveçrədəyik?»

«Hələ yox. Yola düşəndən sonra».

Getdi, mən də qatarın tezliklə tərpənməsini arzulayıb gözlədim. Bu, coşub-daşan son səbirsizlik idi, bəlkə də, sizə tanışdır. Pəncərədən perronda dayanan adamlara baxırdım; əynində çox qısa şalvarlı smokinq olan bir liliput var gücünü toplayıb təkərli dəmir arabadan şokolad və Qumboltkirxen şərabı satmağa çalışırdı. Sonra tər tökən kupe yoldaşımın geri qayıtdığını gördüm. Yanında heç kim yox idi və vaqonuna doğru qaçırdı.

«İçməyinizə söz ola bilməz», – yanımda dayanmış ofisiant dilləndi.

«Nə?»

«Demək istəyirəm ki, cənablarınız şərabı elə içir, elə bil, yanğın söndürür».

Şüşəyə baxdım. Boşalmaq üzrə idi. Özüm də bilmədən içib axırına çıxmışdım. Elə bu vaxt vaqon-restoran silkələndi. Şuşə ləngərlənib aşdı. Əlimlə tuta bildim. Qatar yerindən tərpəndi.

«Birini də gətirin», – dedim. Ofisiant getdi.

Süfrənin altından pulu götürüb cibimə qoydum. Elə bu vaxt amerikalılar gəldi. Mənim bayaq oturduğum masaya əyləşib qəhvə sifariş verdilər. Qız təbiəti çəkməyə başladı.

Gördüm ki, haqlıdır, bu, dünyanın ən gözəl mənzərəsi idi. Ofisiant şüşəni gətirib gəldi.

«Artıq İsveçrədəyik».

Şərabın haqqını ödəyib ona xeyli çaypulu verdim.

«Özünüzə qalsın, – dedim. – Daha mənə lazım olmadı. Nəyisə qeyd etmək istəyirdim, amma görürəm ki, birinci şüşə bəs edib».

«Demək olar, acqarına içdiniz, cənab», – dedi.

«Elədir». Ayağa durdum.

«Bəlkə, cənablarınızın ad günüdür?» – ofisiant soruşdu.

«Yubileyimdir, – dedim. – Qızıl yubileyim!»

* * *

Kupe qonşum bir müddət susub oturdu; indi daha tərləmirdi, amma görürdüm ki, kostyumu və alt paltarı suyun içindədir. Sonra soruşdu:



«İsveçrədəyik?»

«Bəli», – cavab verdim.

Yenə susub pəncərədən çölə baxdı. İsveçrənin stansiyalarından birinə çatdıq. İsveçrəli vağzal gözətçisi əl elədi, iki isveçrəli polis yüklənən baqajın yanında dayanıb söhbət edirdi. Köşkdən İsveçrə şokoladı ilə İsveçrə qolbası almaq olardı. Kişi başını çölə çıxarıb bir İsveçrə qəzeti aldı.

«Bura İsveçrədir?» – oğlandan soruşdu.

«Hə. Özgə hara ola bilər? On rappe».

«Nə?»

«On rappe! On sentim! Qəzet üçün!»

Kişi pulu ödədi, sanki, ən böyük məbləği onun lotereyası udmuşdu. Dəyişdirilən pul, deyəsən, onu inandırmışdı. Mənə inanmamışdı. Qəzeti açıb içinə baxdı, sonra qırağa qoydu. Nə dediyini mən eşidənə qədər bir az vaxt keçdi. Təzə azadlığımdan elə sərməst olmuşdum ki, qatarın təkərləri beynimdə taqqıldayırdı. Yalnız kişinin dodaqlarının tərpəndiyini görəndə onun danışığını eşitdim.

«Axır ki canım qurtardı, – deyib gözünü mənə zillədi, – sizin lənətə gəlmiş ölkənizdən, cənab partaygenosse! Siz donuzların kazarmaya və konslagerə çevirdiyi ölkədən! İsveçrədə, azad bir ölkədə sizin əmrlər keçmir! Çəkmələrinizlə dişlərimizə döyəcləyə bilmədiyiniz bir məmləkətdə,

axır ki ağzımızı aça bilərik! Siz quldurlar, siz canilər, siz, işgəncə nökərləri, görün Almaniyanı nə günə qoydunuz!»

Cəhənglərində xırda köpüklər əmələ gəldi. İsterik qadın siçovula necə baxardısa, o da mənə elə baxırdı. Məni partaygenosse hesab edirdi və kupedə barəmdə eşitdiklərinə görə haqlı idi. Xilas olduğumdan dərin bir dincliklə ona qulaq asırdım.

«Cəsarətli adamsınız, – dedim. – Mən sizdən ən çoxu iyirmi girvənkə ağır və on beş santimetr hündür olaram. Danışıb ürəyinizi boşaldın. Yüngülləşdirir».

«Rişxənd edirsiniz?! – deyib daha da cinləndi. – Hələ məni ələ də salmaq istəyirsiniz, hə? Keçdi o günlər, həmişəlik keçdi! Ata-anamın başına hansı oyunu açmadınız? O qoca atam sizə neyləmişdi? Bəs indi? İndi də dünyanı alova bürümək istəyirsiniz!»

«İnanırsız ki, müharibə olacaq?» – soruşdum.

«Rişxəndinizdən qalmayın! Guya, özünüz bilmirsiniz?! Minillik imperiya və sərsəm silahlanma ilə ayrı çarəniz varmı? Siz peşəkar qatillər və canilər! Müharibə etməsəniz, başaldadan rifahınız alt-üst olar, siz də onunla birlikdə!»

«Mən də bu fikirdəyəm, – dedim və qüruba gedən günəşin hərarətini nəvaziş kimi üzümdə hiss etdim. – Bəs Almaniya qalib gəlsə, necə olar?»

Təri pencəyinə çıxmış kişi gözünü mənə zilləyib udqundu.

«Siz qalib gəlsəniz, demək, Allah yoxdur», – çətinliklə dilləndi.

«Mən də bu fikirdəyəm», – deyib yerimdən qalxdım.

«Mənə toxunmayın! – fısıldadı. – Sizi tutduraram! Qəza əyləcini çəkərəm! Sizi sataram! Onsuz da satılacaqsınız, şpionun biri şpion! Nə danışdığınızı eşitdim!»

Bircə bu çatmırdı.

«İsveçrə azad bir ölkədir, – dedim. – Çuğulluğa görə burada asanlıqla həbs etmirlər. Görünür, o üzdə yaxşı dərs keçmisiniz».

Çamadanımı götürüb ayrı kupe axtardım. Bu cingənə kişiyə izahat verəsi halım yox idi; onunla üz-üzə oturmaq da istəmirdim. Nifrət qəlbi aşılayan turşudur, fərqi yoxdur, sən nifrət edirsən, yoxsa sənə nifrət edirlər. Mən bunu gəzərgiliyimdə öyrənmişdim.

Beləcə gəlib Sürixə çatdım».

## IX

Musiqi bir anlığa ara verdi. Rəqs meydançasından həyəcanlı kəlmələr səsləndi. Bir az sonra orkestr daha bərkdən çaldı və saçına yalançı zümrüddən bağ taxmış sarı paltarlı qadın oxumağa başladı. Olacağa çarə yoxmuş: faşist partiyasının üzvü rəqs zamanı ingilislərdən biri ilə toqquşdu. Hər kəs o birini qəsddə günahlandırdı. Menecerlə iki nəfər ofisiant Millətlər Liqası rolunu oynayıb onları barışdırmaq istədi, lakin onları eşidən olmadı. Orkestr daha ağıllı tərpəndi: havanı dəyişdi. Fokstrot əvəzinə tanqo çaldı və diplomatlar ya yerlərində durub gülünc vəziyyətə düşməliydilər, ya da rəqsə davam etməliydilər. Alman rəqib, deyəsən, tanqonu bacarmadı, ingilis isə ritmi tutub yerindəcə tərpəndi. Amma hər ikisi digər rəqs edənlər tərəfindən sıxışdırıldığına görə mübahisələri səngidi. Bir-birinə acıqlı nəzər salıb hərəsi öz masasına getdi.



«Rəqiblər, – Şvars ikrahla dilləndi. – İgidlər niyə duelə çıxmır?»

«Deməli, Sürixə gəldiniz», – söhbəti davam etdirmək istədim.

Yüngülcə gülümsədi. «Gəl buradan gedək».

«Hara?»

«Yəqin ki, haradasa bütün gecəni açıq olan adi meyxana tapılar. Buradakı meyxana rəqs edilən, müharibə oyunu oynanılan qəbirdir».

Pulu ödəyib ofisiantdan ayrı bir meyxananın yerini soruşdu. Ofisiant bloknotundan bir vərəq cırıb ünvanı yazdı və ora necə gedəcəyimizi izah etdi.

Qapının ağzında heyrətamiz bir gecəylə qarşılaşdıq. Ulduzlar hələ də sayrışırdı, lakin dənizlə ilk mavi səhər üfüqdə qol-boyun olmuşdular, səma daha da uzaqlaşmışdı, duz qoxusu və çiçək ətri əvvəlkindən güclü vururdu. Aydın bir gündüz gözlənilirdi. Lissabon gündüzlər adamı məftun edən və əsarətdə saxlayan sadə bir mənzərə təsiri bağışlayır, gecələr isə öz qarayanız sevgilisinin üstünə əyilən bayramsayağı bəzənmiş qadın kimi gur işıqları ilə pillə-pillə dənizə can atır. Bir müddət dayanıb susduq.

«Haçansa həyatımızı belə təsəvvür etmişik, deyilmi? – nəhayət, Şvars qəmli-qəmli dilləndi. – Sonsuzluğa aparan minlərlə işıq və küçə...»

Cavab vermədim. Mənim üçün həyat aşağıda, Texo çayında dayanmış gəmi idi və sonsuzluğa getmirdi, Amerikaya yola düşürdü. Macəradan cana doymuşdum; zaman onu lax yumurta kimi başımıza çırpmışdı. Ən maraqlısı keçərli pasport, viza və yol bileti idi. Yolüstdə olanın iradəsinə zidd olaraq gündəlik həyat fantasmaqoriyaya, macəra isə əzaba çevrilmişdi.

«Şəhər-səhər bu gecə sizə necə görünürsə, Sürix də mənə o vaxt elə görünürdü, – dedi. – İtirdiyimi güman etdiyim şey orada başladı. Özünüz yaxşı bilirsiniz ki, zaman ölümün duru cövhəridir, canımıza asta-asta yeridilən amansız zəhər kimi. Əvvəlcə bizi cana gətirir və hətta inandırır ki, ölümsüzük, lakin damla-damla, günbəgün artdıqca qanımızı zəhərləyib məhv edən turşuya çevrilir. Hətta sonrakı illərimizlə gəncliyimizi geri qaytarmaq istəsək də, bacarmırıq, zira zamanın turşusu bizi artıq dəyişdirmiş olur və kimyəvi tərkib də həminki olmur; bunun üçün möcüzə baş verməlidir. Həmin möcüzə də baş verdi. – Ayaq saxlayıb işıqlanan şəhərə baxdı. – İstərdim ki, bu gecə xatirimdə həyatımın ən xoşbəxt gecəsi kimi qalsın, – pıçıltı ilə dedi. – O isə ən dəhşətli gecə oldu. Fikirləşmirsiniz ki, xatirələr hansı xariqələr yarada bilər? Yarada bilər axı! Möcüzənin şahidi olanda o, kamil olmur, yalnız xatirə onu kamilləşdirir və bəxtin səndən üz döndərəndə bir daha geri qayıtmır, məyusluq meydan alır. O kamilləşir. Əgər indi bir dəfə də olsun desəm, o, gördüyüm kimi qalmazmı? Nə qədər ki ölməmişəm, yanımda olmazmı?»

Əzəmətlə açılan səhərin önündə pilləkəndə dayanarkən o, az qala lunatik təsiri bağışlayırdı, gecənin dərinliyindən baş qaldıran unudulmuş, fəqir bir görkəm. Və birdən dəhşətli dərəcədə ona yazığım gəldi.

«Düz deyirsiniz», – çəkinə-çəkinə dilləndim. – Əslində, nəyin qaldığını və necə qaldığını bilmədən xoşbəxtliyimizi və nə dərəcədə xoşbəxt olmağımızı haradan bilərik?»

«Özü də biləndə ki onu əldə saxlaya bilmirik, yaxud buna cəhd də etmirik, – pıçıltı ilə dedi. – Əgər əllərimizlə tutub saxlaya bilmiriksə, o, qorxusuz-hürküsüz baxış

bucağımızdan qıraqda qalmırmı? Və gözlərimiz ölmədikcə öz ömrünü orada yaşamırmı?»

O hələ də üzüaşağı şəhərə baxırdı, şam ağacından olan tabutu qoynunda saxlayan və gəminin lövbər atdığı şəhərə. Sifəti, sanki, bir anlığa dağılıb ayrı-ayrı hissələrə parçalandı, ölü ağrıların təsirindən sifət tamam əyiş-üyüş olmuşdu; sonra yenidən dirçəlməyə başladı, ağız daha qara kahıya bənzəmirdi, gözlər də çaylaq daşı deyildi. Biz limana üz tutduq.

«Canab, – bir müddətdən sonra müraciət etdi, – kimik biz? Siz kimsiniz, mən kiməm, başqaları kimdir və daha həyatda olmayanlar kimlərdir? Gerçək olan nədir: güzgüdə əks olunan şəkil, yaxud güzgünün qabağında duran? Canlı olan, yoxsa xatirə, ağrısız şəkil? İndi biz əriyib bir-birimizə qarışmışıqmı, ölü arvadım və mən, yoxsa o, indi bütövlüklə mənimkidir, bu çarəsiz əlkimyada, azca fosforlaşmış beyin hüceyrələrimdə ərimişdir və yalnız haçan mən istəsəm və necə istəsəm, cavab verir? Yaxud onu təkcə itirməmişəm, asta-asta sönən xatirələrimdə hər saniyə təzədən bir daha itirirəm? Gərək onu tutub saxlayam, cənab, başa düşmürsünüz?»

Əli ilə alnını döyəclədi.



* * *

Uzun pilləkənlə aşağıdakı təpələrə aparan küçəyə çatdıq. Dünən gündüz burada hansısa bir mərasim keçirilməliydi. Artıq saralmış və qəbiristanlıq qoxusu verən çiçək hörükləri evlərin arasındakı dəmir dirəklərdən sallanırdı və dirəklərdən elektrik xətti çəkilmişdi, xəttin bütövlüyü də zanbaq kimi iri lampalarla pozulmuşdu. Onların başı üstündən bir-birindən təqribən iyirmi metr aralı xırda elektrik lampalarından beşguşəli ulduzlar yellənirdi. Bütün bunlar, yəqin, hansısa mərasim, yaxud dini bayramlardan biri üçün düzəldilmişdi. İndi, yenicə açılan səhərdə hamısı çılpaq və yararsız halda idi, yalnız bircə yerdə, aşağıda qoşulma, deyəsən, baş tutmamışdı, orada axşam və səhərin alatoranlığında bərq vuran və qeyri-adi dərəcədə qamaşdırıcı, sarı işığı olan bir ulduz parlayırdı.

«Dediyi yer buradır», – deyib Şvars hələ işığı yanan meyxananın qapısını açdı. Bizi günəşdən qaralmış gövdəli

bir kişi qarşıladı. Masalardan birini göstərdi. Alçaq otaqda bir neçə çəllək vardı və seyrək masaların birində bir kişi və bir qadın əyləşmişdi. Meyxana sahibinin şərab və qızardılmış soyuq balıqdan başqa heç nəyi yox idi.

«Sürixi yaxşı tanıyırsınız», – Şvars məndən soruşdu.

«Bəli. İsveçrədə polis məni dörd dəfə tutub. Oranın dustaqxanaları yaxşıdır. Fransadan çox-çox yaxşıdır. Xüsusilə də qışda. Əfsuslar olsun ki, adam dincəlmək istəyəndə ən uzağı iki həftə saxlayırlar. Sonra çıxarırlar və sərhəd tamaşası təzədən başlayır».

«Sərhədi gizli keçməmək qərarım içimdə nəyisə azadlığa buraxmışdı, – Şvars dilləndi. – Birdən-birə qorxu məndən əl çəkmişdi. Küçədə gördüyüm polis daha ürəyimi qoparmırdı, düzdür, bir balaca tərpədirdi, amma elə güclü olurdu ki, bir an sonra azadlığın həsrətini çəkirdim».

Başımla təsdiqlədim: «Qorxunun varlığında artan yaşamaq duyğusu. Nə qədər ki qorxu üfüqü cana gətirir, gözəldir».

«Elə düşünürsünüz? – Şvars qəribə şəkildə mənə baxdı. – Çox uzaqlara gedir, – dedi. – Ölüm adlandırdığımız şeyə qədər, bəlkə, ondan da o yana. Duyğunu tutub-saxlamaq mümkünsə, bəs itki haradadır? Şəhərdən çıxırsansa, daha o yaşamırmı? Uçub-dağılmış olsa belə, o, içinizdə yaşamayacaqmı? Ölümün nə olduğunu bilən varmı, görəsən? Dəyişən sifətlərimizdə bir işıq zolağı asta-asta dolaşmırmı? Doğulmamışdan öncə bizim bir sifətimiz olmamalıdırmı, bütün sifətlərdən fərqli bir sifət, başqalarının, bizdən qabaqkıların məhvindən sonra da qalmalı sifət?»

Kətillərin ayağında bir pişik şırvanırdı. Ona bir tikə balıq atdım. Quyruğunu qaldırıb buladı.

«Arvadınızla Sürixdə görüşdünüz?» – ehtiyatla soruşdum.

«Mehmanxanada. Osnabrükdə keçirdiyim çətinliklər və gözləmələr, ağrı və pərtliklərin strategiyası yox olub getmişdi. Tanımadığım və sevdiyim, səssiz ötən keçmişimin doqquz ilini ona bağlandığım, bu doqquz ilin əzəmətini öz üzərində hiss etməmiş bir qadınla rastlaşdım. Helen sərhədi keçəndə, görünür, zamanın zəhəri ona da təsir etmişdi. Keçmiş indi bizə məxsus idi, biz isə ona yox; illərin bizi əks etdirən sıxıcı şəkli əvəzinə, həmin kesmiş fırlanmış və keçmişlə əlaqəsini üzmüş bizdən başqa indi heç nəyi göstərməyən güzgüyə çevrilmişdi. Həmin keçmişdən qopmaq

qərarına gəlmişdik və işin özü bizi ondan elə ayırdı ki, mümkünsüzlük gerçəkliyə çevrildi: keçmişin qırışları olmadan yeni yaşam duyğusu».

Şvars mənə baxdı və yenidən həmin qəribə ifadə sifətində dolaşdı.

«Əldən vermədik. Taleyimizi əldə saxlayan Helen oldu. Mən bacarmadım, xüsusilə sona yaxın. Lakin onun bacarması bəs elədi, söhbət də elə bunun üstündəydi, inanmırsınız? İndi, gərək, mən də bacaram, ona görə də sizinlə söhbət edirəm! Bəli, ona görə!»

«Sürixdə qaldınız?» – soruşdum.

«Bir həftə, – əvvəlki tonla dilləndi. – Həmin şəhərdə, Avropada dünyanın hələ mehvərindən qopmadığı yeganə ölkədə yaşadıq. Bir neçə aylığına pulumuz vardı, Helen də zinət əşyaları gətirmişdi, onu sata bilərdik. Üstəlik, ölü Şvarsın rəsmləri də Fransadaydı.



1939-un həmin yayı! Sanki, Allah dünyaya bir daha göstərmək istəyirdi ki, sülh nədir və bu dünya nəyi itirəcək. Həmin yayın qayğısızlığında günlərimiz xoş keçirdi və İsveçrənin cənubundakı Laqo Macoreyə[1] getmək üçün Sürixi tərk edəndə daha əsrarəngiz oldular.

Helenin qohumlarından dalbadal məktublar və telefon zəngləri gəlirdi. Sürixə həkiminin yanına gedəcəyindən başqa, onlara heç nə deməmişdi. İsveçrənin əla informasiya sistemində Helenin ünvanını tapmaq qohumları üçün çətin olmamışdı. Sual və tənə yağışı indi onun başından tökülürdü. Hələ ki geri qayıda bilərdi. Gərək bir qərara gələydik.

Eyni mehmanxanada yaşayırdıq, amma ayrı-ayrı otaqlarda. Ər-arvad idik, lakin pasportlarımız bunu demirdi və kağız qalib gəldiyinə görə bir yerdə düz-əməlli yaşaya bilmirdik. Qəribə hal idi, ancaq o, zamanın bizim üçün geri qayıtması duyğusunu gücləndirirdi. Bir qanuna görə biz ər-arvad idik, ikincisinə görə isə yox. Yeni mühit, uzunmüddətli ayrılıq, öncə də bura gələndən tamam dəyişmiş Helen – bütün bunların hamısı həm tərəddüdlü qeyri-gerçəklik, həm də aşkar münasibətsiz gerçəklik yaradırdı ki, onun da başı üstündə daha xatırlaya bilmədiyin xülyanın son dumanları dolaşırdı. O vaxt bunun haradan gəldiyini bilmirdim, onu gözlənilməz bir hədiyyə kimi qəbul edirdim, sanki, pis

[1] *Laqo Macore* – göl

keçirdiyim ömrün bir parçasını təkrarlamaq və bunu bütöv həyata çevirmək üçün mənə icazə verilmişdi. Sərhədlərin altı ilə pasportsuz eşələnən köstəbəkdən sərhəd tanımayan bir quşa çevrilmişdim.

* * *

Bir səhər Heleni otaqdan götürməyə gedəndə yanında alman konsulluğunun əməkdaşı kimi təqdim etdiyi cənab Krauze adlı birisinə rast gəldim. İçəri girəndə Helen mənimlə fransızca danışdı və məni müsyö Lenuar kimi təqdim etdi. Krauze onu düz başa düşmədi və sınıq-salxaq fransızcada məndən soruşdu ki, məşhur rəssamın oğluyammı. Helen güldü.

«Cənab Lenuar cenevrəlidir, – dedi. – Amma almanca da danışır. Renuarla yalnız onun vurğunu kimi qohumdur».

«Siz də impressionistlərin rəsmlərini sevirsiniz», – Krauze soruşdu.

«Özünün kolleksiyası var», – Helen dilləndi.

«Bir-iki rəsmim var», – dedim. Ölü Şvarsın mirasını kolleksiya adlandırmaq mənə Helenin növbəti hoqqası kimi göründü. Amma bu hoqqalardan biri məni konslagerdən qurtardığına görə oyuna qoşuldum.

«Oskar Reynhardtın Vinterturdakı kolleksiyası ilə tanışsınız?» – Krauze səmimi soruşdu.

Başımla təsdiqlədim: «Reynhardtın bir van Qoqu da var, ömrümün bir ayını ona verərdim».

«Hansı ayını?» – Helen soruşdu.

«Hansı van Qoqu?» – Krauze soruşdu.

«Dəlixanada bağ».

Krauze gülümsədi: «Gözəl rəsmdir!» – dedi.

Başqa rəsmlərdən danışdı və Luvra çatanda ölü Şvarsın dərslərinin sayəsində mənim də dilim açıldı. Helenin taktikasını anladım, əri, yaxud mühacir kimi tanınmağımdan qaçmaq istəyirdi. Alman konsulluqları yad polisə adam satmaqda mahir idilər. Helenlə münasibətlərimin necə olduğunu Krauzenin öyrənməyə çalışdığını hiss etdim. Helen bunu çoxdan bilirmiş, odur ki Krauze soruşana qədər mənə Lüsyen adlı bir arvad və iki uşaq uydurdu, uşaqlardan böyük qızım gözəl royal çalırmış.

Krauzenin gözləri Helenlə mənim aramda vurnuxurdu. Bir daha görüşməyimizi ürəkdən təklif etmək üçün söhbətdən məharətlə istifadə etdi, bəlkə, dəniz qırağında kiçik balıqçı restoranlarının birində şam yeməyi zamanı rəsmlərdən başı çıxan adamlara rast gələ bildik. Mən də ürəkdən razılığımı bildirdim – növbəti dəfə İsveçrəyə gələndə. Bir ay, ya da ayyarımdan sonra. Heyrətləndi, elə bilirmiş ki, Cenevrədə yaşayıram. Dedim ki, cenevrəliyəm, amma Belforda yaşayıram. Belfor Fransadadır; əli asanlıqla ora çatmazdı. Sağollaşanda istintaqın son sualını da qaçırmadı: Helenlə harada görüşmüşük, axı yaxşı insanlara rast gəlmək nadir hadisədir. Helen mənə baxdı.

«Həkimin yanında, cənab Krauze. Xəstələr daha çox yaxşılar olur, nəinki, – acıqlı-acıqlı üzünə gülümsədi, – beyinlərində əsəb əvəzinə əzələ bəsləyən iddialı sağlamlar».



Krauze bu atəşi kahin baxışı ilə qəbul etdi.

«Başa düşürəm, möhtərəm xanım».

«Renuar sizlərdə dəyərsiz sənət sırasına salınmayıbmı? – Helendən geri qalmamaq üçün soruşdum. – Van Qoq, yəqin ki, çoxdan».

«Biz sərraflar üçün yox», – Krauze ikinci kahin baxışı ilə cavab verib qapıdan çölə sivişdi.

«Nə istəyirdi?» – Helendən soruşdum.

«Casusluq edirdi. Sənə xəbər vermək istəyirdim ki, gəlməyəsən, amma otaqdan çıxmışdın. Qardaşım göndərib. Necə də nifrət edirəm hər şeyə!»

Aradan tam çıxmadığımızı bizə xatırlatmaq üçün gestaponun qara əlləri sərhədi də aşmışdı. Krauze Helenə demişdi ki, imkan tapıb konsulluğa gəlsin. Guya, elə bir şey deyilmiş, sadəcə, pasporta yeni möhür vurmaq lazım imiş. Bir növ ölkədən çıxma icazəsi. Guya, vaxtı keçibmiş.

«Deyir ki, təzə göstərişdir», – Helen açıqladı.

«Aldadır, – cavab verdim. – Elə də bilirdim. Mühacirlər belə şeyləri tez duyurlar. Getsən, pasportunu əlindən ala bilərlər».

«Onda da sənin kimi mühacir olaram?»

«Hə. Əgər geri qayıtmasan».

«Qalıram, – dedi. – Nə konsulluğa, nə də geri gedəcəyəm».

Əvvəllər bu barədə heç vaxt söhbət etməmişdik. Bu

qərar qəti idi. Cavab vermədim. Yalnız ona, arxasındakı səmaya, bağdakı ağaclara və gölün bərq vuran ensiz zolağına baxdım. Gur işığın altında sifəti tutqun görünürdü.

«Sənin heç bir günahın yoxdur, – səbirsiz dilləndi. – Məni sən dilə tutmamısan və bu işin sənə qəti dəxli yoxdur. Lap sən burada olmasan da, heç vaxt geri dönən deyildim. Bu, sənə bəs edir?»

«Hə, – şaşqın, bir az da utancaq dilləndim. – Amma mən bunu nəzərdə tutmurdum».

«Bilirəm, Yozef. Onda gəl bu barədə danışmayaq. Heç vaxt».

«Krauze bir də gələcək. Ya da bir başqası» – Başı ilə təsdiqlədi.

«Sənin kim olduğunu da axtarıb tapacaqlar və başağrısı törədəcəklər. Gəl cənuba gedək».

«İtaliyaya gedə bilmərik. Gestapo ilə Mussolini polisinin arasından su da keçmir».

«Ayrı cənub yoxdur?»

«Niyə ki. İsveçrənin Tesin kantonuna. Lokarnoya, Luqanoya».

* * *

Günortadan sonra yola düşdük. Beş saatdan sonra Laqo Major gölünün sahilindəki Askona meydanında oturmuşduq, dünyanın elə bir guşəsində ki, Sürixdən beş yox, on beş saat uzaqlıqda idi. Təbiəti İtaliyanın təbiətinə bənzəyirdi, bura turistlərlə dolu idi və heç kimin çimməkdən, özünü günə verməkdən, həyatdan bacardıqca zövq almaqdan başqa ayrı dərdi yox idi. Bu aylarda Avropada qəribə bir ab-hava vardı. Xatırlayırsınız?» – soruşdu.

«Bəli, – dedim. – Möcüzəyə ümid edirdilər. İkinci Münxenə. Üçüncüsünə. Və sairə».

«Ümidlə məyusluq arasındakı toranlıq. Zaman nəfəs kəsirdi. Böyük hədənin apaydın və saxta kölgəsində, sanki, daha heç nəyin kölgəsi görünmürdü. Elə bil, orta əsrlərin nəhəng kometi parlayan səmada günəşlə yan-yana dayanmışdı. Hər şey etibardan düşmüşdü. Hər şey də mümkün idi».

«Fransaya haçan getdiniz?» – soruşdum.

Şvars başını tərpətdi.

«Haqlısınız. Hər şey faniləşmişdi. Fransa vətənsizlərin narahat vətənidir. Bütün yollar hələ də ora aparır. Bir həftədən sonra Helen cənab Krauzedən məktub aldı. Məktubda deyilirdi ki, ya Sürix, ya da Luqano konsulluğuna gəlsin. Gəlişi çox vacibdir.

Buradan da çıxası olduq. İsveçrə həddən artıq daralmış və gözəl təşkilatlanmışdı. Bizi hər yanda tapa bilirdilər. Məni də saxta pasportla hər an yoxlamadan keçirib ölkədən çıxara bilərdilər.

Luqanoya getdik, amma alman konsulluğuna yox, viza üçün Fransa konsulluğuna. Çətinliklərlə üzləşəcəyimi gözləyirdim, lakin hər şey yağ kimi getdi. Birillik turist vizası aldıq. Mən ən çoxu üç aylıq viza gözləyirdim.

«Haçan yola düşək», – Helendən soruşdum.

«Sabah».



Sonuncu axşam Ronkodakı Albeqro della Posta restoranında, dənizin başı üstündəki dağlardan qaranquş yuvası kimi asılmış balaca bir kənddə şam etdik. Ağacların arasından işıqlar göz qırpırdı, pişiklər hasarın üstü ilə gəzişirdi və bağın alt tərəfindəki meydançadan qızılgül və yabanı yasəmən ətri gəlirdi. Adalarında Roma çağlarından olan Venera məbədinin ucaldığı göl tərpənmirdi, ətrafdakı dağlar mavi səmanın altında kobalt göylüyündəydi; biz spagetti ilə piççata yeyir, bu yerlərin Nostrano şərabını içirdik. Bu, az qala, dözülməz şirinlikli və həsrətli bir axşam idi.

«Heyif ki, buradan getməliyik, – Helen dedi. – Bir yay da məmnuniyyətlə burada qalardım».

«Bunu tez-tez deyəcəksən».

«Bunu deməkdən gözəl nə ola bilər? Tərsini çox tez-tez demişəm. Əfsus ki, burada qalası olmayacağam».

Əlindən tutdum. Dərisi qapqara qaralmışdı, iki günün günəşi bəs etmişdi, gözlərinə isə xeyli işıq gəlmişdi.

«Səni dünyalar qədər sevirəm, – dedim. – Səni, hazırkı anı, əbədi olmayan bu yayı, bu təbiəti və həyatımda ilk dəfə özümü sevirəm, çünki indi mən ayna kimiyəm, səni əks etdirirəm və səni ikinci kərə tapmışam. Şükürlər olsun bu axşama və bu saata!»

«Hər şeyə şükürlər olsun! Gəl bunun şərəfinə içək. Sənə də minnətdaram, çünki hər dəfə qızarıb deyə bilmədiyini, axır ki, dilinə gətirməyə ürək elədin».

«Qızarmağına yenə qızarıram, – cavab verdim. – Amma daxilən və utanmadan. Mənə bir az vaxt ver. Gərək öyrəşəm. Tırtıl tırtıllığı ilə qaranlıqdan işığa çıxıb qanadlarının olduğunu görəndə yeni həyata alışmalı olur. Buradakı insanlar necə də xoşbəxtdir! Yasəmənin nə gözəl ətri var! Ofisiant qadın deyir ki, burada büsbütün yasəmən meşəlikləri var».

Şərabımızı axıracan içib dar dalanlardan keçərək dağ ətəyi ilə Askonaya gedən qədim yola çıxdıq. Kəndin gül-çiçəkli və xaçlı qəbiristanlığı yolun üstü ilə uzanıb gedirdi. Cənub həmişə azdırıcı olur, fikirləri süpürüb atır və fantaziyanı taclaşdırır. Palma və oleandrlar arasında ona yardım gərək olmur; ən azı əsgər çəkmələri ilə kazarma arasındakından xeyli az. Səma başımızın üstünə ulduzlarla dolu nəhəng, xışıltılı bayraq kimi sərilmişdi, sanki, kainatın hər an genişlənən Amerikasının dövlət bayrağı idi. Saysız qəhvəxanaları ilə Askona öz işığını gölə salırdı və dərələrdən sərin külək əsirdi.

Kirayələdiyimiz evə gəldik. Ev gölün qırağında idi və iki yataq otağı vardı; burada mənəviyyata yer qalmamışdı.

«Ömrümüzə nə qədər qalıb?» – Helen soruşdu.

«Ehtiyatlı tərpənsək, bir il, bəlkə də, ilyarım».

«Bəs ehtiyatlı tərpənməsək?»

«Onda bu yay».

«Gəl ehtiyatsız yaşayaq», – dedi.

«Bir yay qısa ömürdür».

«Elədir, – birdən sərt dilləndi. – Bir yay qısa ömürdür, elə ömrün özü də qısadır, bəs kimdir onu qısa edən? Onun qısalığını bilməyimizmi?! Bayırdakı pişiklər bilirmi ki, ömür qısadır? Bəs quşlar? Kəpənəklər? Onlar ömrü əbədi sayırlar. Bunu onlara heç kim deməyib! Bəs bizə niyə deyiblər?»

«Bunun min bir cavabı var».

«Birini de!»

Qaranlıq otaqda dayanmışdıq. Qapılar, pəncərələr açıq idi.

«Biri odur ki, ömür əbədi olsaydı, dözülməz olardı».

«Deyirsən ki, darıxdırıcı olardı? Allahın ömrü kimi? Düz deyil. Ayrısını de!»

«Həyatda xoşbəxtlikdən bədbəxtlik çoxdur. Bizə mərhəmət göstərilib ki, ömür uzun sürməsin».

Helen bir anlığa susdu. Sonra: «Heç biri düz deyil, – dedi. – Ona görə belə deyirik ki, həyatda qalmayacağımızı və özümüzlə heç nə aparmayacağımızı bilirik; burada heç bir mərhəmət yoxdur. Bunu biz uydururuq. Ümidimizi üzməmək üçün uydururuq».

«Buna baxmayaraq, inanırıq ki!?» – dedim.

«Mən inanmıram!»

«Ümidini tamam kəsmisən?»

«Tamam. Hamı əvvəl-axır bu qənaətə gəlir. – Paltarını hirsli-hirsli çarpayının üstünə atdı. – Hamı. Hətta haçansa qaçmaq ümidi olan dustaqlar da. Bu dəfə də olmasa, gələn dəfə həmin qənaətə gəlir!»

«Onun ümid etdiyi də məhz elə budur. Yalnız bu».

«Elədir. Əlimizdən gələn də elə budur! Dünya müharibəyə qarşı əlacsız olduğu kimi. O da gələn dəfəyə ümid bəsləyir. Amma heç kim onu dayandıra bilmir».



«Müharibəni bilər, – cavab verdim. – Ölümü yox».

«Gülməyə vaxt tapdın!» – ucadan səsləndi.

Yanına getdim. Geri çəkildi, qapıdan çölə çıxdı.

«Nə olub sənə, Helen?» – heyrətlə soruşdum. Çöl otaqdan işıqlı idi, göz yaşlarının yanağınca axdığını gördüm. Cavab vermədi, mən də daha heç nə soruşmadım.

«Keflənmişəm, – axır ki, dilləndi. – Görmürsən?»

«Yox».

«Çox içdim».

«O qədər də yox. Burada hələ bir şüşə də var».

Fiasko Nostrano şərabını evin arxasındakı çəmənlikdə daş masanın üstünə qoyub badələri gətirmək üçün otağa qayıtdım. Qayıdanda Helenin çəmənliklə gölə doğru yeridiyini gördüm. O saat arxasınca getmədim. Badələri ağzınacan doldurdum; səma ilə gölün solğun inikasında şərab qara görünürdü. Sonra çəmənliklə ağır-ağır sahildəki palma və orleandrlara doğru yeridim. Helen sarıdan birdən-birə qayğılandım və onu görəndə dərindən nəfəs aldım. Qəribə şəkildə əyilərək suyun qırağında dayanmışdı, sanki, nəsə gözləyirdi, hansısa bir səsi, yaxud sudan çıxacaq nəyisə. Yerimdə mıxlanıb qaldım; ona tamaşa etmək üçün, qorxutmayım deyə. Bir azdan köksünü ötürüb, belini düzətdi. Sonra suya girdi.

Suda üzdüyünü görüb evə qayıtdım, dəsmalı və onun çimərlik xalatını götürdüm. Sonra qranit tumbanın üstündə

oturub gözlədim. Uzaqdan onun yuxarıya yığılmış saçlarını görüb fikirləşdim ki, həyatda nəyim varsa, yalnız odur və az qaldı qışqıram ki, geri qayıtsın. Elə həmin an hiss etdim ki, mənə bəlli olmayan bir qeyri-müəyyənliklə mübarizə aparır, bunu da hazırkı anda edir; su onun üçün həm tale, həm sual, həm də cavab idi və bunun öhdəsindən hər kəs kimi özü tək gəlməliydi, ən azı bir az istilik bəxş etmək üçün burada idi.

Üzərək qövs vurub arxaya çevrildi və birbaşa mənə doğru gəldi. Onun yaxınlaşdığını, bənövşəyi gölün suyunda görünən incə başını, mənə doğru gəlişini görməyimin özü bir xoşbəxtlik idi.

«Soyuqdur. Həm də qorxulu. Qulluqçu qız deyir ki, adaların dibində nəhəng bir sprut[1] məskən salıb».

«Bu göldə durnabalığından iri canlı olmur, – deyib onu dəsmala bükdüm. – Burada sprut olmur. O yalnız Almaniyadadır, 1933-cü ildən. Amma gecələr istənilən su qorxuludur».

«Düşünə bilsək ki sprut var, olasıdır. Nəyin olmadığını düşünə bilmirik».

«Bu, adi bir Tanrı sübutu olardı».

«İnanmırsan?»

«Gecə hər şeyə inanıram».

Mənə söykəndi. Yaş dəsmalı götürüb çimərlik xalatını verdim.

«Bir neçə kərə yaşadığımıza inanırsan?» – soruşdu.

«Hə», – tərəddüdsüz cavab verdim. Köksünü ötürdü.

«Allaha şükür! Bu barədə mübahisə etməyə halım qalmayıb. Yorğunam, üşüyürəm. Adam bunun dağ gölü olduğunu unudur».

Albeqro della Postadan şərabdan başqa bir şüşə də Fransanın Marc arağına bənzəyən Qrappa, üzüm cecəsindən hazırlanmış dupduru araq götürmüşdüm. İstiotlu olur, sərtdir və belə məqamlar üçün çox yaxşıdır. Onu gətirdim, badəni ağzınacan doldurub Helenə verdim. Asta-asta içib axırına çıxdı.

«Mən buradan könüllü gedən deyiləm», – dedi.

«Sabah hamısını unudacaqsan» – cavab verdim. – Parisə gedirik. Heç vaxt orada olmamısan. Dünyanın ən gözəl şəhəridir».

---

[1] *Sprut* – başıayaqlılar sinfindən səkkizayaqlı dəniz heyvanı

«Dünyanın ən gözəl şəhəri – içində xoşbəxt yaşadığın şəhərdir. Yoxsa ibarəli danışıram?»

Güldüm: «İndi də üslub dərdi çəkək! – dedim. – Onsuz da kifayət qədər ibarəli danışa bilmərik! Özü də beləsi ilə. Yenə araq istəyirsən?»

Başı ilə hə işarəsi verdi və mən bir badə də araq gətirdim. Heleni mürgü tutana qədər çəmənlikdəki daş masanın arxasında oturduq. Onu yatağına gətirdim. Yanımda yuxuya getdi. Açıq pəncərədən asta-asta maviləşən, sonra gümüşü rəngə çalan çəmənliyə tamaşa etdim. Helen bir saatdan sonra ayılıb mətbəxə su dalınca getdi. Biz kənddə olanda poçtalyonun gətirdiyi məktubla geri qayıtdı. Görünür, məktub Helenin otağında imiş.

«Martensdəndir», – dedi.

Məktubu oxuyub bir qırağa qoydum.



«Sənin burada olduğunu bilir?» – soruşdum.

Başı ilə təsdiqlədi.

«Qohumlarıma deyib ki, onun məsləhəti ilə İsveçrəyə müayinəyə getməli və bir neçə həftəliyinə orada qalmalıyam».

«Səni müalicə edib?»

«Hərdən».

«Nəyi?»

«Boş şeydir», – deyib məktubu çantasına qoydu. Onu mənə ikinci dəfə oxumağa vermədi.

«Bu tikiş yeri haradandır səndə?» – soruşdum.

Qarın nahiyəsindən ağ, nazik bir xətt keçirdi. Bunu xeyli qabaq da görmüşdüm, ancaq qonur dərinin üstündə indi apaydın sezilirdi.

«Xırda bir əməliyyat. Önəmli deyil».

«Nə əməliyyatdır?»

«Elə bir əməliyyatdır ki, haqqında danışmırlar. Qadınlarda hərdən elə şeylər olur. – İşığı söndürdü. – Nə yaxşı ki məni aparmağa gəldin, – pıçıltı ilə dedi. – Daha dözə bilmirdim. Sev məni? Sev və soruşma. Heç nə. Heç vaxt».

## X

«Xoşbəxtlik, – Şvars dilləndi. – Xatirələrdə necə də girib-daralır! Yüyət zamanı ucuz parça kimi. Yalnız bədbəxt-

liyi sanamaq olar. Parisə gəlib Böyük Auqustin sahilində Sena çayının sol tərəfindəki kiçik mehmanxanada iki otaq tutduq. Mehmanxananın lifti yox idi, pilləkən qədimi idi, əyilmişdi, otaqlar da xırda idi; amma Sena çayına, sahildəki kitab mağazalarına, Konserjeriyə[1] və Notrdam kilsəsinə baxırdılar. Pasportumuz vardı. 1939-cu ilin sentyabrına qədər insan sayılırdıq.

Sentyabra qədər insan idik və pasportumuzun həqiqi, ya saxta olması vecimizə deyildi. Amma soyuq müharibə başlayanda vecimizə oldu.

«Burada olanda nə ilə dolanırdın? – iyulda gəlişimizdən bir neçə gün sonra Helen məndən soruşdu. – İşləyə bilirdin?»

«Əlbəttə yox. İşləmək bir yana, heç yaşamağa da haqqım yox idi. Belə vəziyyətdə iş icazəsini necə ala bilərdim?»

«Onda nə ilə dolanmısan?»

«Burasını indi özüm də bilmirəm, – gerçəyə bənzər bir cavab verdim. – Müxtəlif peşələrdə çalışmışam. Həmişə də az bir müddətə. Fransada hər şeyə dəqiq yanaşmırlar; hərdən xəlvəti işləmək imkanı olur, xüsusilə də ucuz işləyənə. Bazarda yeşik yükləyib boşaltmışam; ofisiant işləmişəm; corab, qalstuk, köynək alveri etmişəm; alman dilindən dərs demişəm; Mühacirlərə Yardım Komitəsindən hərdən nəsə almışam; olan-qalanımı bazara çıxarıb satmışam; sürücülük etmişəm; İsveçrə qəzetlərinə xırda məqalələr yazmışam».

«Yenidən redaktor ola bilmədin?»

«Yox. Bunun üçün adama qalma və iş razılığı verilməlidir. Axırıncı məşğuliyyətim ünvan yazma olub. Sonra Şvarsa rast gəldim və apokrifik[2] həyatım başladı».

«Niyə apokrifik?»

«Qondarma, gizlin, ölünün, yad soyadın himayəsi altında».

«İstərdim başqa cür adlandırasan».

«Hər cür adlandıra bilərik. İkili, gizli, yaxud ikinci həyat. Daha çox ikinci həyat. Mən belə deyərdim. Biz gəmi qəzasına uğrayıb yaddaşlarını itirənlər kimiyik. Onların heyifsilənməyə heç nəyi olmur, çünki xatirə həmişə təəssüf

---

[1] *Konserjeri* – Parisdə məşhur həbsxana

[2] *Apokrifik* – məzmunca İncildən gələn və rəsmi kilsə tərəfindən qadağan edilən “apokrif” (kitab) sözünün sifəti

doğurur ki, olan yaxşılarını zaman gəldikcə itirəcəksən və pisləri yaxşılaşdıra bilməyəcəksən».

Helen güldü: «Biz indi nəyik? Fırıldaqçı, ölü, yoxsa qulyabanı?»

«Rəsmi olaraq turistlərik. İstənilən yerə gedə bilərik, amma işləyə bilmərik».

«Gözəl, – dedi. – Onda gəl işləməyək. Müqəddəs Lüdviq adasına[1] gedib oturacaqlardan birində özümüzü günə verək, sonra da Frans kafesinə yollanıb küçədə çörək yeyək. Yaxşı proqramdır?»

«Əla proqramdır», – dedim və bunun üstündə qaldıq. Daha ayrı imkan axtarmadım. Bu sübhdən o biri sübhə qədər bir yerdə qaldıq və həftələrlə bir-birimizdən ayrılmadıq. Qəzetlərin xüsusi nömrələrindəki həyəcan xəbərləri ilə həyat bayırda öz axarındaydı, amma onun bizə dəxli yox idi. Biz o həyatın içində deyildik. Daha o, bizim üçün mövcud deyildi. Bəs mövcud olan nəydi? Əbədilik! Duyğu bütün boşluqları dolduranda zamana yer qalmır. Zamandan o üzdə başqa bir sahilə yetişirsən. Yoxsa inanmırsınız? – Şvarsın sifəti bayaq gördüyüm oynaq, ümidsiz ifadəsini yenidən aldı. – Yoxsa, inanmırsınız?» – bir də soruşdu.

Yorulmuşdum, iradəmin əksinə olaraq, səbrim tükənmişdi. Xoşbəxtlik barədə, eləcə də Şvarsın əbədiyyət haqqındakı mülahizələrini dinləmək maraqsız idi.

«Bilmirəm, – düşünmədən cavab verdim. – Əgər içlərində ölürsənsə, bəlkə də, xoşbəxtlik, yaxud əbədiyyətdir; onda zaman özünün təqvim ölçüsünü qoya bilməz və bununla barışmalı olar. Amma ömrün davam edirsə, hər şeyə rəğmən onun bir parça zamana və faniliyə çevrilməsinə qarşı heç nə edə bilməzsən».

«Gərək ölməyə qoymayasan! – qəflətən, özü də qətiyyətlə dilləndi. – Gərək mərmər heykəl kimi dayanıb dursun! Daha hər gün bir parçasını küləyin qabağına qatıb apardığı qum qəsri kimi yox! Bəs sevdiyimiz ölülərlə necə olsun? Necə olsun, cənab? Onları təkrarən öldürmürükmü? Xatirələrimizdən başqa özgə harada qalırlar ki? Özümüz də istəmədən biz hamımız caniyə çevrilmirikmi? Təkcə özümün tanıdığım simanı zamanın rəndəsinin ağzınamı verim? Bilirəm ki, onu ürəyimdən çıxarmasam, içimdəcə

[1] Sena çayında ada

solub dəyişəcək, bəli, ürəyimdən ki, ömrünü sürən şüurumun yalanı onu məxmər kimi haşiyələyib məhv etməsin, yoxsa o, tüfeyli zəmanəmizin gübrəsinə çevrilər və ortada yalnız məxmər kimi qalar! Burasını dəqiq bilirəm! Ona görə də onu hətta özümdən də, ömrü uzatmağın hər şeyi unudub məhv etmək istəyən gəmirici mənəmliyindən də qorumalıyam! Məgər başa düşmürsünüz?»

«Başa düşürəm, cənab Şvars, – çəkinə-çəkinə cavab verdim. – Mənimlə danışmağınızın səbəbi onu özünüzdən qorumaq deyilmi?!»

Əvvəlcə ona etinasız cavab verdiyim üçün özümə acığım tutdu. Qarşımdakı kişi istər məntiqi, istərsə də poetik anlamda dəliydi, zamanın yel dəyirmanları ilə vuruşmaq istəyən Don Kixot idi, mən də bununla onun haralara və necə gedib-çıxacağını öyrənmək dərdimin qarşısında əzab çəkirdim.

«Mənə müyəssər olsa... – deyib duruxdu. – Mənə müyəssər olsa, onu içimdən azad edəcəyəm. Yoxsa inanmırsınız?»

«İnanıram, cənab Şvars. Xatirələrimiz toz basmış muzeydəki fil sümüyündən olan dolab deyil. Yaşayan, yeyən və yediyini gövşəyən canlı heyvandır. Əfsanədəki simurq quşu kimi o, özünü yeyir ki, bizi məhv etməsin, yaşaya bilək. Siz də buna mane olmaq istəyirsiniz».

«Elədir! – minnətdarlıqla mənə baxdı. – Dediniz ki, adam öləndə xatirələri daşlaşır. Mən öləcəyəm».

«O dediyim boş şeydir», – yorğun-yorğun boyun qaçırmaq istədim. Bu cür söhbətlərdən zəhləm gedirdi. O qədər əsəb pozğunları tanıyırdım ki! Mühacirət onları yağışdan sonra bitən göbələklər kimi yetişdirirdi.

«Canıma qəsd edən deyiləm, – deyib birdən gülümsədi, sanki, nə düşündüyümü hiss etmişdi. – Hazırkı anda həyat başqa məqsədlər üçün lazımdır. Yalnız Yozef Şvars kimi öləcəyəm. Sabah tezdən, biz sağollaşanda o daha olmayacaq».

Məni fikir, eyni zamanda vəhşi bir ümid çulğadı.

«Nə etmək fikriniz var?» – soruşdum.

«Yoxa çıxmaq».

«Yozef Şvars kimi?»

«Bəli».

«Ad kimi?»

«İçimdə Yozef Şvarsdan nə varsa, hamısı kimi. Eləcə də keçmişim kimi».

«Bəs pasportu neyləyəcəksiniz?»

«Daha mənə lazım deyil».

«Başqası varınızdır?»

Başını buladı: «Daha mənə pasport lazım deyil».

«İçində Amerika vizası da var?»

«Bəli».

«Onu mənə satmazsınız? – pulum olmasa da, soruşdum. Başını buladı. – Niyə yox?»

«Onu hədiyyə almışam. Sizə bağışlaya bilərəm. Sabah tezdən. İşə yarada bilərsiniz?»

«Allahım! – təngnəfəs dilləndim. – İşə yaratmaq!? Məni xilas edərdi! Özümünkündə Amerika vizası yoxdur, sabah günortaya qədər onu necə alacağımı da bilmirəm».



Məyus-məyus gülümsədi: «Hər şey necə də təkrarlanır! Siz mənə can üstündə olan Şvarsın otağında oturub məni yenidən adam cərgəsinə qatacaq pasport barədə düşündüyüm zamanı xatırladırsınız. Oldu, özümünkünü sizə verərəm. Sizə yalnız şəkli dəyişmək qalır. Yaşımız təxminən uyğun gələr».

«Otuz beş», – dedim.

«Bir yaş qocalası olacaqsınız. Pasport işini bacaran adamınız var?»

«Burada biri var, – cavab verdim. – Şəkli dəyişmək asan məsələdir».

Başı ilə təsdiqlədi: «Şəxsiyyəti dəyişməkdən asandır. Bir xeyli qabağa baxdı. – İndən belə şəkil vurğununa çevrilməyiniz gözəl olmazdımı? Ölü Şvars kimi, sonra da mənim kimi?»

Özümlə bacara bilmədim, bədənim çimçəşdi.

«Pasport adi kağız parçasıdır, – dedim. – Ovsun deyil».

«Yox?» – soruşdu.

«Əslində, hə, – cavab verdim. – Amma belə də yox. Parisdə nə qədər qaldınız?!»

Şvarsın pasportu mənə verəcəyi vədindən o qədər həyəcanlanmışdım ki, nə dediyini eşitmirdim. Ruta da viza almaq üçün nə edəcəyimi düşünürdüm. Bəlkə, konsulluqda onu bacım kimi təqdim edəydim. Bunun işə yarayacağı

mümkünsüzdü, zira Amerika konsulluğu çox ütük idi; əgər ikinci möcüzə baş verməsəydi, hər halda, cəhd etməliydim. Sonra qəfildən Şvarsın danışığını eşitdim.

«Parisdəki otağımızın qapısının arasında dayanmışdı, – dedi. – Buna ayyarım vaxt sərf etmişdi, amma bizi tapmışdı. Bu dəfə alman konsulluğundan heç kimə tapşırmamışdı; özü gəlmişdi və divarından on səkkizinci yüzilin rəsmləri əsasında çəkilmiş divar kağızları asılmış kiçik mehmanxana otağında qarşımızda dayanmışdı Georq Yürgens, oberşturmbannfürer, Helenin qardaşı, ucaboy, enlikürək, doxsan kilo ağırlığında və mülki geyimdə olmasına baxmayaraq, Osnabrükdəkinə nisbətən üçqat almanlaşmış. Bizi süzürdü.

«Deməli, hamısı yalanmış, – dedi. – Dəqiq bilirdim ki, burada nəsə iyli bir iş var!»

«Təəccüblü nə var ki? – soruşdum. – Siz ayağınızı basan yerdən iy gəlir. Əzəmətdir! Çünki siz gəlirsiniz».

Helen güldü: «Gülməyini kəs!» – Georq bağırdı.

«Siz də anqırtınızı kəsin! – dedim. – Yoxsa sizi çölə atdıraram!»

«Özünüz niyə etmək istəmirsiniz?»

Başımı tərpətdim: «Təhlükə sovuşanda yenə Helenlə oynayırsınız? Məndən iyirmi kilo ağırsınız. Tərəfsiz hakim bizi boksçu kimi eyni rinqə buraxmazdı. Nə işiniz var burada?»

«Siz vətən xainlərinə bunun bir damcı dəxli yoxdur. Çıxın bayıra! Bacımla danışmaq istəyirəm!»

«Çıxma, qal, – Helen üzünü mənə tutub dedi. Hirsindən alışıb-yanırdı. Ağır-ağır qalxıb mərmər külqabını əlinə götürdü. – Bircə kəlmə də ədəbsiz danışsan, əlimdəki sifətinə çırpılacaq, – qəti həyəcanlanmadan Georqa müraciət etdi, – Almaniyada deyilsən!»

«Əfsus ki, deyiləm! Amma bir az gözlə, tezliklə bura da Almaniya olacaq!»

«Heç vaxt olmayacaq, – Helen cavab verdi. – Bəlkə də, siz başdanxarab hərbçilər buranı zəbt edəcəksiniz, amma Fransa Fransalığında qalacaq. Bu barədə mübahisə açmağa gəlmisən?»

«Səni evə aparmağa gəlmişəm. Müharibə səni burada haqlasa, başına hansı oyunlar açılacağını bilmirsən?»

«O qədər də yox».

«Səni həbsxanaya atacaqlar».

Helenin bir anlığa tutulduğunu gördüm.

«Bəlkə, bizi düşərgəyə atdılar?! – dedim. – Amma bu, sürgünlər düşərgəsi olacaq, daha Almaniyadakı konslager yox».

«Nədən xəbəriniz var?!», – Georq çəmkirdi.

«Yetər, – dedim. – Sayənizdə düşərgələrinizdən birində olmuşam».

«A soxulcan, siz tərbiyə düşərgəsində olmusunuz, – Georq nifrətlə cavab verdi. – Amma, görünür, xeyri olmayıb. Azadlığa çıxandan sonra fərarilik etmisiniz».

«Seçdiyiniz ifadələrə görə sizə qibtə edirəm, – dedim. – Kimsə qaçıb əlinizdən qurtarırsa, adını fərari qoyursunuz».

«Bəs nə qoyaq? Sizə əmr olunmuşdu ki, Almaniyanı tərk etməyəsiniz!»



Əlimlə rədd işarəsi verdim. Məni içəri atdırmaq gücünə malik olana qədər onunla bu barədə çox danışmışdım.

«Georq həmişə gic olub, – Helen dilləndi. – Əzələli sısqa. Kök qadınların korsetə ehtiyacı olduğu kimi, o da zirehli dünyabaxışına ehtiyac duyur, yoxsa əriyib heçə dönərdi. Onunla mübahisə etmə. Zəif olduğu üçün cin atına minir».

«Bunları bir qırağa qoy! – Georq gözlədiyimdən mülayim cavab verdi. – Yığış, Helen. Vəziyyət ciddidir. Bu gün axşam yola düşürük».

«Nə qədər ciddidir?»

«Müharibə başlayır. Yoxsa burada olmazdım».

«Onsuz da burada olacaqdın, – Helen cavab qaytardı. – Mən geri qayıtmaq istəməyəndə – iki il qabaq İsveçrədə olduğun kimi. Özünə sığışdırmırsan ki, partiyanın sadiq üzvünün bacısı Almaniyada yaşamaq istəmir. O vaxt geri dönməyimə nail oldun. İndi isə burada qalıram və bu barədə daha bir kəlmə də danışmaq istəmirəm».

Georq matdım-matdım ona baxdı: «Bu məzlum yaramaza görə? Yenə beynini doldurub?»

Helen güldü: «Yaramaz! Nə vaxtdır bu sözü eşitmirdim. Sizin, doğrudan da, Nuh əyyamından qalma söz ehtiyatınız var! Yox, yaramaz dediyin ərim başımı xarab etməyib. Hətta məni geri göndərmək üçün əlindən gələni edib. Səninkindən də onqat gözəl dəlillər gətirib».

«Səninlə tək danışmaq istəyirəm».

«Xeyri olmayacaq».

«Biz qardaş-bacıyıq».

«Mən ərliyəm».

«Bu, qan qohumluğu deyil, – Georq izahata keçdi. – Hətta oturmağa stul da təklif etməmisən, – birdən uşaqsayağı küsərək əlavə etdi. – Osnabrükdən o qədər yolu gəl, abrını da ayaq üstdə alsınlar».

Helen güldü: «Otaq mənimki deyil. Kirayə pulunu ərim verir».

«Əyləşin, oberşturmbannfürer və Hitler nökəri, – dedim. – Özü də çalışın tez gedəsiniz».

Georq hirslə mənə baxıb, şaqqıltı ilə köhnə divana çökdü: «Bacımla tək danışmaq istərdim, başa düşmürsünüz?»

«Məni tutduranda onunla tək danışmağa icazə verdiniz?» – soruşdum.

«O, tamam başqa şey idi», – donquldandı.

«Georq və onun partiya yoldaşları ayrılarının etdiklərini edəndə həmişə başqa şey olur, – Helen sarkazmla dilləndi. – Onlardan fərqli düşünən adamları dama basanda, yaxud öldürəndə bununla onlar fikir azadlığını qoruyurlar; səni konslagerə salanda vətənin murdarlanmış şərəfini qoruyurlar, elədir, elə deyil, Georq?»

«Yüzdə-yüz elədir!»

«Üstəlik, Georq həmişə də haqlı çıxır, – Helen davam etdi. – Vicdanının natəmizliyinə bir dəfə də şübhə ilə yanaşmayıb. Həmişə də düz bildiyinin tərəfindədir, hakimiyyətin tərəfində. Öz füreri kimidir – başqaları onun düzgün hesab etdiyini yerinə yetirəndə dünyanın ən sülhsevər insanı! Sülhü pozanlar da həmişə başqaları olur, belədir, belə deyil, Georq?»

«Bunun bizim işimizə nə dəxli?»

«Dəxli yoxdur, – Helen dedi. – Həm də var, özü də lap çox. Görmürsən, burada necə məzlumlaşmısan, ay bu tolerant şəhərdə haqq sütunu? Başqalarını tapdaya bilmək üçün hətta mülki geyimdə də çəkmələrini ayağından çıxarmırsan. Amma burada sənin hökmün yerimir, hələlik yerimir! Burada məni partiyanın tər iyi verən qadınlar şurasına yazdıra bilməyəcəksən! Mənə dustaq kimi nəzarət edə bilməyəcəksən! Burada mən nəfəs ala bilirəm və almaq istəyirəm».

«Sənin alman pasportun var! Müharibə başlayır. Burada səni həbsxanaya atacaqlar».

«Hələlik yox ki! Bir də burada həbsxanaya düşmək sizdə düşməkdən min dəfə yaxşıdır! Çünki siz də məni həbsxanaya atası olacaqsınız! Azadlığın şirin havasını udandan və sizin əlinizdən, kazarmalarınızdan, işgəncə kameralarınızdan və çarəsiz boşboğazlığınızdan qaçıb-qurtarandan sonra daha lal olub baş girləməyəcəyəm!»

Ayağa durdum. İstəmirdim, onu heç vaxt anlaya bilməyəcək bu nasionalist kötüyünün qabağında alçalsın.

«Günahın hamısı bundadır! – Georq xırıldadı. – Bu mənfur kosmopolitdə! Odur səni korlayan! Dayan bir, oğlan, səninlə də haqq-hesabı çürüdərik!»

Yerindən qalxdı. Məni yerə sərmək ona çətin olmazdı. Məndən yetərincə güclü idi və konslagerdə olduğum günlərin birində aldığım nasionalist tərbiyədən sağ qolum dirsəkdən əyri bitmişdi.



«Ona toxunma», – Helen lap astadan dilləndi.

«Bu qorxağı müdafiə etmək istəyirsən? – Georq soruşdu. – Özü bacarmır?»

Şvars üzünü mənə tutdu. «Bədənsəl üstünlük qəribə şeydir. Var olan üstünlüklərin ən primitividir, cəsarət və kişiliklə heç bir əlaqəsi yoxdur. Şikəstin əlindəki tapança bədəncə güclünü asanlıqla məhv edə bilər. Bu üstünlük girvənkələrin və əzələlərin üstünlüyüdür, vəssalam; ancaq buna baxmayaraq onunla üz-üzə gələndə adam özünü alçalmış sayır. Hər kəs bilir ki, həqiqi cəsarət başqa şeydir və cəsarəti yaradan əzələ yığını, yəqin ki, acınacaqlı şəkildə duruş gətirə bilmir buna baxmayaraq şikəst edilməyimizi rədd edəndə iflic izahatlar və artıq üzrxahlıqlar arayır və özümüzü cılız sayırıq. Bəlkə, belə deyil?»

Başımla təsdiqlədim. «Mənasızdır, elə ona görə də xüsusilə acınacaqlıdır».

«Özümü müdafiə edərdim, – dedi. – Əlbəttə, edərdim!»

Əlimi qaldırdım. «Nəyə lazımdır, cənab Şvars? Bunları mənə danışmağınıza ehtiyac yoxdur».

Yüngülcə gülümsədi. «Düz deyirsiniz. Amma görürsünüzmü, dərinliyimə necə işləyib ki, indinin özündə də izahat verməyə çalışıram? Ətə ilişən qarmaq kimi. Bu cılız kişi məğrurluğundan canımız haçan qurtaracaq?»

«Nə baş verdi? – soruşdum. – Davaya gəlib-çıxdımı?»

«Xeyr. Helen birdən gülməyə başladı.

«Bu gicbəsərə bax! – mənə baxıb dedi. – Elə bilir, səni vurub yerə sərsə, kişiliyinə şübhə edəcəyəm, peşman olub birtərəfli yumruq haqqının hökm sürdüyü ölkəyə qayıdacağam». – Georqa tərəf döndü. – A cəsarət və qorxaqlıqdan dəm vuran oğlan! Bu, – məni göstərdi, – sənin haçansa təsəvvürünə gətirə bildiyindən qat-qat cəsarətlidir! Məni bura o gətirib. Mənə görə qayıdıb və məni gətirib».

«Nə? – Georq gözünü döyüb mənə baxdı, – Almaniyaya?»

Helen özünə gəldi: «Fərqi nədir?! Mən buradayam və bir də geri qayıdan deyiləm».

«Gətirib? Səni? – soruşdu. – Kim kömək edib?»

«Heç kim, – Helen dedi. – Yəqin, ürəyindən keçdi ki, yenə bir neçə adamı həbs edəsən, hə?»

Onu heç vaxt belə görməmişdim. Özünümüdafiə, ikrah, nifrət və vətəndən qaçıb-gəlməyin parıltılı qələbəsi ilə elə dolmuşdu ki, durduğu yerdə əsirdi. Məndə də eyni hal baş verirdi; ancaq məndə birdən-birə adamın gözünü qamaşdıran şimşək kimi nəsə peyda oldu – qəfil intiqam hissi. Georqun burada gücü yox idi. Gestaposunu fitləyib çağıra bilməzdi. Burada tək idi.

Fikir məni elə çaşdırmışdı ki, hazırkı anda nə edəcəyimi bilmirdim. Dalaşa bilməzdim, heç dalaşmaq da istəmirdim. O murdarı çıraq kimi söndürmək istəyirdim. Gərək yaşamayaydı. Yamanı məhv etmək üçün hökmə ehtiyac olmadığı kimi, Georqun məhvinə də hökm lazım deyildi. Onu məhv etmək təkcə qisas yox, onlarca naməlum gələcək qurbanın xilası demək idi. Nə edəcəyimi fikirləşmədən qapıya doğru getdim. Səndələməməyimə özüm də heyrətləndim. Tək olmaq istəyirdim. Çək-çevir etməli idim. Helen diqqətlə mənə baxdı. Georq nifrətlə məni süzüb təzədən oturdu.

«Axır ki», – qapını arxamca örtəndə onun səsini eşitdim.

Pilləkənlə aşağı düşdüm. Günorta yeməyinin iyi gəlirdi; balıq iyi idi. Pillələkənin ətəyində bir italyan sandığı vardı. Tez-tez onun yanından ötmüşdüm, ancaq heç vaxt görməmişdim. İndi oymalarına elə diqqətlə baxdım ki, elə bil, alacaqdım. Gecəquşu kimi yoluma davam etdim. İkinci mərtəbədə qapılardan biri açıq idi. Otaq yaşılımtıl rəngə boyanmışdı,

pəncərələr bağlanmamışdı və xidmətçi qız çarpayıda döşəyi o biri üzünə çevirirdi. Qəribədir, adam həyəcandan heç nəyi görmədiyini güman etsə də, hər şeyi görürmüş!

Birinci mərtəbədə yaşayan tanışlardan birinin qapısını döydüm. Adı Fişer idi, haçansa mənə bir tapança göstərmişdi, həmin tapançanın sayəsində həyatı ilə hələlik barışmalı olmuşdu. Silah onda cılız və çarəsiz mühacir həyatını sərbəst yaşamaq illüziyası yaradırdı, zira istədiyi vaxt həyatına son qoymaq seçimi vardı.

Fişer otaqda yox idi, amma qapısı bağlı deyildi. Gizlətməyə nəyi vardı ki! İçəri keçib gəlməyini gözlədim. Nə istədiyimi özüm də dəqiq bilmirdim, baxmayaraq ki silahı almağa gəlmişdim. Georqu mehmanxanada öldürmək mənasız olardı, burasını anlayırdım; bu, Heleni, məni və burada yaşayan mühacirləri təhlükəyə atardı. Kətillərdən birinə əyləşib sakitləşməyə çalışdım. Bacarmadım. Oturub qənşərimə baxdım.



Qəfildən tutuquşu oxumağa başladı. O, dəmir qəfəsdə iki pəncərənin arasından asılmışdı. Əvvəlcə onu görməmişdim və yerimdən diksindim, sanki, kimsə mənə toxundu. Azca keçmiş Helen içəri girdi.

«Neyləyirsən burada?» – soruşdu.

«Heç nə. Georq necə oldu?»

«Getdi».

Fişerin otağında nə qədər oturduğumu bilmədim. Vaxt mənə çox az göründü: «Yenə gələcək?» – soruşdum.

«Bilmirəm. İnadkarın biridir. Otaqdan niyə çıxdın? Bizi tək qoymaq üçün?»

«Yox, – dedim. – Ona görə yox, Helen. Birdən-birə dözə bilmədim».

Qapıda dayanıb mənə baxırdı: «Mənə nifrət edirsən?»

«Sənə nifrət edirəm? – təəccüblə soruşdum. – Niyə?»

«Georq gedəndən sonra ağlıma gəldi. Mənimlə ailə qurmasaydın, başına bu işlər gəlməzdi».

«Gələrdi. Bəlkə də, daha pisi. Ola bilsin, Georq sənə görə çox da ciddi yanaşmır. Canıma tikanlı elektrik məftilləri yeritməyiblər və ət qarmağından asmayıblar. Sənə nifrət etmək?! Bu, haradan ağlına gəldi?!»

Fişerin pəncərələrindən o üzdə birdən-birə yayın yaşıllığını gördüm. Otaq arxa tərəfə baxırdı, həyətdə iri

şabalıd ağacı vardı, yarpaqlarının arasından günəş süzülürdü. Boynumun ardındakı ağrı çəkilib getdi. Yenidən özümə qayıtdım. Hansı günün olduğunu, bayırda yayın varlığını, Parisdə yaşadığımı və insanların dovşan kimi güllələnmədiyini bilirdim.

«Əslində, mən fikirləşməliydim ki, sən mənə nifrət edirsən, – dedim. – Ya da məndən zəhlən gedir».

«Mən?»

«Hə. Çünki qardaşını səndən uzaq tuta bilmirəm. Çünki mən... – Susdum. İndicə ötüb-keçən anlar birdən-birə çox uzaqda qaldı. – Bizim burada nə işimiz var? – dedim. – Bu otaqda. – Pilləkənlə yuxarı qalxdıq. – Georqun dediklərinin hamısı doğrudur, – sözümə davam etdim. – Bunu bilməlisən! Müharibə başlasa, biz düşmən ölkənin vətəndaşları sayılacağıq, sən məndən daha çox».

Helen qapını da, pəncərəni də açdı: Hər yan əsgər çəkməsi və terror iyi verir, – dedi. – Qoy içəri avqustun iyi dolsun! Pəncərələri açıq qoyub gedək. Nahar vaxtı deyilmi?»

«Hə. Həm də Parisi tərk etmək vaxtıdır».

«Niyə?»

«Georq məni satmağa çalışacaq».

«Ağlı o qədər kəsməz. Sənin burada başqa ad altında yaşadığını bilmir».

«Ağlına gələr. Və o bir də gələcək».

«Ola bilər. Gəlsə, bayıra atacağam. Gəl küçəyə çıxaq».

* * *

Məhkəmə sarayının arxasındakı kiçik restorana gedib səkidəki masalardan birinin arxasında əyləşdik. Paştet, mal əti, salat və pendir yedik. Üstündən də bir şüşə Vuvre və kofe içdik. Hamısını xırdalıqlarına qədər xatırlayıram, hətta qızarmış çörəyin qırağını və üstdən çatı olan qəhvə fincanlarını da; həmin günorta dərin və sonsuz minnətdarlıqdan məst olmuşdum. Elə bilirdim, qanrılıb baxmağa ürək etmədiyim bulanıq, çirkli bir kanaldan çıxmışam, çünki qabaqcadan bilmədən özüm də həmin çirkin bir hissəsi olmuşam. Çıxmışdım və indi üstündə ağ-qara damalı örtük olan masanın arxasında oturmuşdum, özümü paklaşmış və qurtulmuş sayırdım. Günəşin saçaqları şərabın içində

oynayıb sarı çalar alırdı, sərçələr at peyininin üstünə döşənib civildəşirdi, sahibənin tox pişiyi biganə-biganə onlara baxırdı, hay-küysüz meydanın başı üstündən külək əsirdi və həyat arzularımızda olduğu kimi yenidən gözəlləşmişdi.

Sonra biz Parisin bal rəngli yay axşamında gəzməyə çıxdıq və kiçik bir dükanın görüyü[1] önündə ayaq saxladıq. Burada tez-tez dayanmışdıq.

«Sənə təzə paltar almaq lazımdır», – dedim.

«Elə indi? – Helen soruşdu. – Müharibəyə az qalmış? Ağılsızlıq olmazmı?»

«Elə indi. Məhz ağılsızlıq olduğu üçün».

Məni öpdü: «Nə deyirəm ki?!»

Arxa otağa açılan qapının yanındakı kürsüdə əyləşmişdim, bura soyunub-geyinmə otağı idi. Dükançı bir-bir paltarları gətirirdi və Helenin başı elə qarışmışdı ki, az qalmışdı məni unutsun. Mən ora-bura vurnuxan qadınların səsini eşidir, hərdən də qapının arasından yellənən paltarlara və Helenin açıq kürəyinə baxırdım və məni ölümdən xəbəri olmadan ağrısız ölüm deyilən bir şey çulğadı.



Paltarı niyə almaq istədiyimi, utansam da, özüm bilirdim. Bu, bugünkü günə, Georqa, özümün gücsüzlüyümə qarşı bir etiraz idi – özünə uşaqsayağı haqq qazandırmaq üçün uşaqsayağı bir cəhd! Helen enli, əlvan donda və qara, şıq sviterdə birdən-birə qarşımda dayananda düşüncələrdən ayıldım.

«Əsl mən deyəndir, – dilləndim. – Götürək».

«Çox bahadır», – dedi.

Dükançı inandırmağa çalışdı ki, məşhur geyim salonlarından birinin modelidir, – nə gözəl yalan! – buna baxmayaraq razılığa gəlib paltarı aldıq. Həmişə ala bilmədiyini almaqdan gözəl nə varmış?! Bu ağılsızlıq Georqun son kölgəsini hürküdüb qovdu. Helen paltarı axşam, hətta gecə ay işığında şəhərə doyunca baxmaq üçün – baxmaqdan doymamışdıq, yatmağa heyfimiz gəlirdi, bilirdik ki, vaxtımıza az qalıb – ayağa durub pəncərəyə söykənəndə də əynindən çıxarmadı».

[1] *Görük* – “vitrin” sözünün əvəzinə işlədilir.

# XI

«Qalan nədir? – Şvars soruşdu. – Elə indinin özündə yuyulmuş köynək kimi daralır. Zamanın perspektivi artıq çoxdan yoxa çıxıb; vaxtilə mənzərə sayılan şey indi üstünə titrək işıqlar düşən yastı bir şəkildir. Əslinə baxsan, heç şəkil də deyil, axar xatirələrdir ki, onlardan da boş-boş şəkillər baş qaldırır – mehmanxananın pəncərəsi, çılpaq çiyin, ömrünü qulyabanı kimi başa vuran pıçıltılı kəlmələr, yaşıl damların üstündəki işıqlar, suyun yaxındakı ətri, kilsənin boz daşına düşən ay, təslimçi sifət və yenidən Provensdə və Pireneylərdə bir başqası və sonra tanıdığın donuq, son sifət, qəfildən başqalarını sıxışdırıb çıxarmaq istəyir, sanki, bundan əvvəlkilər yalnız səfehlik olmuşdur».

Başını qaldırdı. Sifətinə təzədən əzab cizgiləri qondu, əbəs yerə bu cizgilərə təbəssüm qatmağa çalışdı.

«Yalnız buradadır, – deyib başını göstərdi, – amma buranın özündə də korlanıb, güvə ilə dolu dolabda korlanan paltar kimi. Ona görə də sizə danışıram. Siz onları qoruyub saxlayacaqsınız və sizdən adama xətər gəlməz. Yaddaşınız bu obrazları xilas etmək üçün onları mənimki kimi, silib atmağa çalışmayacaq. Mənimki tamam korlanıb, elə indinin özündə sonuncu donuq sifət xərçəng kimi digərlərinin, əvvəlkilərin canına daraşıb, – səsinin tonu qalxdı, – o digərləri biz idik axı, yad, qorxunc, sonuncular yox, biz idik».

«Parisdə çoxmu qaldınız?» – soruşdum.

«Georq bir dəfə də gəldi, – dedi. – Sentimentallığı, hədə-qorxunu işə saldı. O gələndə mən otaqda yox idim. Mehmanxanadan çıxanda gördüm. Qabağımı kəsdi.

«Əclafın biri əclaf! – lap astadan dilləndi. – Bacımı məhvə aparırsan! Hələ gözlə, gör başına nə oyun açıram! Tezliklə keçəcəksən cəngimizə! Bir-iki həftəyə ikiniz də ovcumun içində olacaqsınız! Onda, mənim balam, sənin qeydinə özüm qalacağam! Qarşımda diz çöküb ləliyəcəksən ki, axırına tez çıxım, əgər səsin çıxa biləcəksə!»

«Təsəvvür edirəm», – cavab verdim.

«Heç nəyi təsəvvür edə bilməzsən! Bilsəydin, bacardığın

qədər kənar gəzərdin. Sənə bir dənə də şans verirəm. Bacım üç günün içində Osnabrükdə olsa, bəzi şeyləri unudaram. Üç günün içində! Başa düşdün?»

«Sizləri başa düşmək o qədər də çətin deyil».

«Hə? Onda yadda saxla ki, bacım geri qayıtmalıdır! Bunu sən özün də bilirsən axı, sən lənətə gəlmiş murdar! Yoxsa, deyəcəksən, xəstə olduğunu bilmirsən? Belə şeylə baş aldatma!»

Mat-mat ona baxdım. Bilmirdim, bunu özündən uydurur, yaxud, doğrudan da, belədir, ya da Helenin İsveçrəyə gəlmək üçün ona dedikləridirmi.

«Yox, – dedim. – Bilmirəm».

«Bilmirsən? Gördünmü?! Narahat oldun, hə? O, həkimə getməlidir, a yalançı! Elə indicə! Martensə yaz, soruş. O, dəqiq bilir! – Apaydın gündüzdə iki qaranlıq adamın açıq qapıdan içəri keçdiyini gördüm. – Üç günün içində, – Qeorq pıçıldadı. – Yoxsa sən o məlun içalatını damcı-damcı qusası olacaqsan. Tezliklə qayıdacağam! Mundirimdə!»



Özünü mehmanxananın dəhlizində dayanmış kişilərin arasına verib bayıra addımladı. Hər iki kişi yanımca pilləkəni yuxarı qalxdı. Helen öz otağında pəncərənin yanında dayanmışdı.

«Onunla rastlaşdın?» – soruşdu.

«Hə. Dedi ki, sən xəstəsən və geri qayıtmalısan!»

Başını buladı: «Ağlına nələr gəlmir?!»

«Xəstəsən?» – soruşdum.

«Boş-boş sözlərdir! – dedi. – Bura gəlmək üçün mənim uydurmamdır».

«Dedi ki, Martens də bilir».

Helen güldü: «Əlbəttə, bilir. Yadından çıxıb? Biz Askonada olanda mənə məktub yazmamışdımı?! Bunların hamısını onunla quraşdırmışıq».

«Deməli, xəstə deyilsən, Helen?»

«Üz-gözümdən xəstəlik yağır?»

«Yox, amma bu, hələ heç nə demək deyil. Xəstə deyilsən?»

«Yox, – səbirsiz dilləndi, – Georq ayrı nə dedi?»

«Adi şeylər. Hədə-qorxu. Bəs səndən nə istəyirdi?»

«Səndən istədiyini. İnanmıram bir də gəlsin».

«Ümumiyyətlə, nəyə gəlmişdi?»

Helenin üzündə təbəssüm oynadı. Qəribə bir təbəssüm idi.

«Elə bilir uşağıyam. Nə istəsə, onu da etməliyəm. Həmişə belə olub. Hələ körpəlikdən. Qardaşlar çox vaxt belə olur. Fikirləşir ki, ailənin bütövlüyünü qoruyur. Zəhləm gedir ondan».

«Ona görə?»

«Zəhləm gedir, vəssalam. Özünə də demişəm. Amma müharibə başlayacaq. O, bunu dəqiq bilir».

Susduq. Böyük Auqustin sahilində avtomobillərin gurultusu artmağa başladı. Konserjerinin arxasındakı Sen-Şapel kilsəsinin sivri qülləsi açıq səmaya ucalırdı. Qəzetsatanların qışqırtısı eşidilirdi. Qağayı çığırtısı dənizin dalğalarının səsini batıran kimi, onlar da motorların səsini batırırdı.

«Səni qoruya bilməyəcəyəm», – dedim.

«Bilirəm».

«Səni ölkədən çıxaracaqlar».

«Səni də».

Çiyinlərimi çəkdim: «Yəqin, məni də. Ola da bilsin, bizi bir-birimizdən ayırdılar. – Başı ilə təsdiqlədi. – Fransa həbsxanaları sanatoriya deyil».

«Alman həbsxanaları da».

«Almaniyada səni tutmazdılar».

Əsəbi halda əl-qolunu tərpətdi: «Mən burada qalıram! Sən öz borcunu yerinə yetirib məni xəbərdar etdin. Bir də bu barədə fikirləşmə. Qalıram. Səninlə heç bir əlaqəsi yoxdur. Geri dönən deyiləm. – Diqqətlə ona baxdım. – Rədd olsun təhlükəsizlik qayğısı! – dedi. – Rədd olsun ehtiyatkarlıq! Canımı boğazıma yığıblar».

Əlimi çiyninə qoydum: «Demək asandər, Helen...»

Sinəmdən geri itələdi: «Onda get! – qəfildən qışqırdı. – Get, sən heç bir məsuliyyət daşımırsan! Məni tək burax! Get! Təkcanıma da baş çıxararam». – Mənə elə baxdı ki, sanki, qarşısındakı Georq idi. – Cücələrinin qeydinə qalan toyuq olma! Sənin nədən xəbərin var? Qayğınla, məsuliyyət qorxunla canımı boğazıma yığma! Sənə görə gəlməmişəm. Bunu birdəfəlik bil! Sənə görə yox! Özümə görə!»

«Başa düşürəm».

Yenidən mənə yaxınlaşdı: «Gərək inanasan, – bu dəfə çox həlim dilləndi. – Əslində, belə olmasa da! Çıxıb gəlmək

istəyirdim. Sənin gəlişin təsadüf oldu. Bunu başa düş! Təhlükəsizlik heç də həmişə hər şey deyil».

«Elədir, – cavab verdim. – Amma adam kimisə sevəndə təhlükəsizlik arayır. Özü üçün yox, onun üçün».

«Təhlükəsizlik-zad yoxdur. Yoxdur, vəssalam, – təkrarladı. – Heç nə demə. Özüm bilirəm. Səndən də yaxşı bilirəm! Hər şeyi beynimdən keçirmişəm. Allahım, nə qədər keçirmişəm! Gəl bir də bu barədə danışmayaq, əzizim. Bayırda axşam düşüb və bizi gözləyir. Parisdə belə axşamlardan az olacaq».

«Geri qayıtmaq istəmirsənsə, İsveçrəyə gedə bilməzsənmi?»

«Georq deyir ki, müharibədə Belçikayla olduğu kimi, İsveçrəyə də daxil olacaqlar».

«Georq çox şeyi bilmir».



«Gəl hələlik burada qalaq. Georq, bəlkə də, aldadır. Nə olacağını əvvəlcədən haradan bilərdi ki? Bir dəfə də elə olmadımı? Sanki, müharibə başlayacaqdı. Sonra Münxen sazişi gəldi. Niyə ikinci Münxen olmasın ki?»

Bilmədim, dediyinə özü inanırdımı, yoxsa məni fikrimdənmi daşındırmaq istəyirdi. Adam ümidlə yaşayanda asanlıqla inanır; həmin axşam mən belə etdim. Fransa müharibəyə necə girə bilərdi? Silahlanmamışdı. Niyyətindən çəkinməli idi. Polşaya görə niyə vuruşmalıydı? Çexoslovakiyaya görə müharibəyə qoşulmamışdı.

On gündən sonra sərhədlər bağlandı. Müharibə başlamışdı».

* * *

«Sizi tez həbs etdilər, cənab Şvars?» – soruşdum.

«Bir həftə azad yaşadıq. Şəhəri tərk etməyə icazə vermirdilər. Taleyin ironiyasına baxın: beş il dalbadal məni ölkədən çıxarırdılar, indi isə birdən-birə buraxmaq istəmirdilər. Onda siz harada idiniz?»

«Parisdə».

«Sizi də velodromda dustaq saxlayırdılar?»

«Təbii».

«Sifətiniz tanış gəlmir».

«Velodromda mühacir ordusu vardı, cənab Şvars».

«Müharibədən əvvəlki son günləri xatırlayırsınız, Paris qaranlığa qərq olanda?»

«Əlbəttə! Sanki, dünya qaranlığa qərq olmuşdu».

«Yandırmağa icazə verdikləri balaca göy işıqlar. Gecələr künclərdə közərirdi, sanki, vərəm xəstəsinin işıqlandırıcı şüşələri idilər. Şəhər təkcə qaranlığa qərq olmadı, yay olmasına baxmayaraq, adamın canına üşütmə salan bu soyuq, mavi qaranlıqda o, xəstəliyə tutuldu. Mərhum Şvarsdan miras aldığım şəkillərdən birini həmin günlərdə sata bildim. İstəyirdim yanımızda nağd pulumuz çox olsun. Satmaq üçün vaxt pis idi. Yanına getdiyim alverçi az pul təklif etdi. İmtina edib, şəkli geri istədim. Axır ki, şəkli puldan daha yaxşı kapital sayan varlı bir kino işçisinə, özüm kimi bir mühacirə satdım. Axırıncı şəkli mehmanxana sahibinin yanında qoydum. Sonra polis özünü yetirdi. Məni aparmaq üçün günortadan sonra gəldi. İki nəfər idilər. Mənə dedilər ki, Helenlə sağollaşım. Helen qarşımda dayanmışdı, sifəti sapsarı saralmışdı, gözlərindin alov püskürürdü.

«Belə şey olmaz axı», – dedi.

«Olar, – cavab verdim. – Hər şey olar. Səni də sonra aparacaqlar. Yaxşı olar, pasportlarımızı atmayaq, saxlayaq. Sən də özününkünü».

«Doğrudan da, belə yaxşıdır», – polislərdən biri tərtəmiz almanca dedi.

«Təşəkkürlər, – cavab verdim. – Təklikdə sağollaşa bilərəmmi? – Polis qapıya baxdı. – Qaçmaq istəsəydim, neçə gündür qaçardım», – dedim.

Başı ilə razılıq verdi. Helenlə onun otağına getdim.

«Bir iş olanda, gördüyün kimi, düşündüyündən tamam başqa cür alınır, elədirmi?» – deyib onu qollarımın arasına aldım.

Qollarımın arasından çıxdı: «Səni necə tapa bilərəm?»

Söhbətimiz adi oldu. İki ünvanımız vardı: biri mehmanxana, digəri tanış fransız. Polis qapını döydü. Açdım.

«Özünüzlə yorğan götürün, – dedi. – Əslində, bir-iki gün çəkər. Amma yenə də yorğan, bir az da yemək götürün».

«Yorğanım yoxdur».

«Gözlə, birini gətirim», – deyib Helen yeməyə nə vardısa, hamısını bir yerə yığdı. – «Doğrudan da, bir-iki günlükdür?» – soruşdu.

«Ən çoxu, – polis izahata keçdi. – Sənədlərin dəqiqləşdirilməsi və buna bənzər şeylər. Müharibədir, madam».

Bu son kəlməni tez-tez eşidəsi olduq».

Şvars cibindən bir siqar çıxarıb yandırdı.

«Polis məntəqəsində gözləmənin, təhlükəli nasistlər kimi – axtarılıb tapılan digər mühacirlərin gəlişinin, barmaqlıqlı arabada prefekturaya aparılmanın və burada sonu görünməyən gözləmənin nə olduğunu özünüz gözəl bilirsiniz. Lepen zalında[1] siz də olmusunuz?»

Başımla təsdiqlədim. Lepen zalı polislər üçün bir qayda olaraq təlim filmləri göstərilən böyük bir zaldır. Orada bir neçə yüz adamlıq yeri və ekran var.

«İki gün orada olmuşam, – dedim, – gecələr bizi yatmağa oturacaqlar düzülmüş böyük kömür zirzəmisinə aparırdılar. Səhərlər hamımız buxarı təmizləyənlərə oxşayırdıq».



«Saatlarla kətillərin üstündə otururduq, – Şvars dedi. – Çirk içində idik və doğrudan da, əsl cinayətkarlara bənzəyirdik, elə onlar da bizi cani sayırdı. Georq burada özünün gecikmiş intiqamını aldı; ünvanımızı o vaxt prefekturadan öyrənmişdi. Bunu onun üçün kimsə eşələyib tapmışdı. Georq partiyanın fəallarından olduğunu gizlətməmişdi, bu üzdən də Georqla dostluq və nasional sosialist partiyasına səmimi münasibətlərimə görə məni hər gün dörd dəfə nasist şpionu kimi dindirirdilər. Əvvəlcə buna gülürdüm; tam giclik idi. Amma sonra gördüm ki, giclik özü də təhlükəli ola bilər. Bunun Almaniyada belə olduğunu partiyanın mövcudluğu sübut etmişdi, fəqət indi ağıl ölkəsi olan Fransa da bürokratiya və müharibənin birgə təsiri nəticəsində, deyəsən, həmin xəstəliyə tutulurdu. Georq, özü də bilmədən, saatlı bomba qoyub getmişdi; müharibə gedən yerdə sənə şpion kimi baxılması zarafat iş deyildi.

Hər gün qorxudan zağ-zağ əsən insanların yeni-yeni dəstələri gəlirdi. Müharibə başlayandan bircə nəfər də cəbhədə həlak olmamışdı, həmin dövrdə lağ həvəskarlarının adlandırdıqları kimi, əcaib müharibə idi. Bununla belə, həyata və şəxsiyyətə günü-gündən azalan hörmətin müharibə ilə bərabər vəba kimi gəlmiş kabusanə ab-havası hamının başı üstündə əsirdi. İnsanlar daha insan deyildi, onlar hərbi

---

[1] *Lui Lepen* (1846-1933) – 1893-cü ildən 1912-ci ilə qədər fransız polisinin prefekti. Polis idarəsindəki zal onun adı ilə adlandırılıb.

prinsiplər üzrə əsgərlərə, yararlılara, yararsızlara və düşmənlərə bölünürdü.

Gəlişimin üçüncü günü yorğun-arğın Lepen zalında oturmuşdum. Bizdən bir dəstəni aparmışdılar. Qalanlar pıçıltı ilə söhbət edir, yatır, ya da yeyirdi; gündəlik yemək normamız minimuma endirilmişdi. Bu o qədər də təsir etmirdi; alman konslageri ilə müqayisədə buna dəbdəbəli həyat da demək olardı. Çağırışa gec cavab verəni ən uzağı təpik və dümsüklə tələsdirirdilər; hökumətlə hökumətlik eləməzlər, polis də ki dünyanın hər bir ölkəsində polisdir.

Dindirmələrdən cana yığılmışdım. Gözətçilərimiz sədarət kürsüsündə, ekranın altında cərgə ilə oturardı, silahları bir-birindən aralanmış qıçlarının arasında. Yarıqaranlıq zal, çirkli ekran, aşağıda da biz – bütün bunlar həyatın çarəsizlik simvoluna bənzəyirdi, o həyatın ki orada adam yalnız dustaq, yaxud gözətçi olur, ən uzağı boş ekranda hansı filmi – təlim filminimi, komediyamı, yoxsa tragediyamı – görmək istədiyindən asılı vəziyyətdə qalır. Son olaraq yenə də ortada boş ekran, doymamış ürək və qaba güc var, həmin güc də elə hərəkət edir ki, sanki, əbədidir və haqqın özüdür, halbuki bütün ekranlar çoxdandır heç nə göstərmir. Düşündüm ki, həmişə belə olacaq, heç nə dəyişməyəcək, kimsə sezmədən bir gün həyatdan yox olacaqsan. Bu, özünüz bildiyiniz kimi, ümidin söndüyü anlardan biridir».

Başımla təsdiqlədim: «Səssiz intiharlar anı. Daha müqavimət göstərmirsən, demək olar, təsadüfən və fikirləşmədən son addımı atırsan».

«Qapı açıldı, – Şvars sözünə davam etdi, – dəhlizin sarı işığından Helen içəri girdi. Əlində səbət, bir neçə adyal və qolunun üstündə bəbir dərisindən palto vardı. Mən onu yerişindən, başını necə tutmasından tanıdım. Bir anlığa yerindən tərpənmədi, sonra cərgələrin arası ilə axtara-axtara irəli yeridi. Düz yanımdan keçdi və məni tanımadı. Eyzən o vaxt Osnabrük kilsəsində olduğu kimi. Ayağa durdum. Mənə baxdı».

«Başına nə oyun açıblar?» – hirslə soruşdu.

«Elə şey deyil. Kömür zirzəmisində yatırıq, ona görə də bu kökə düşmüşük. Sən bura necə gəldin?»

«Məni də tutublar, – az qala vüqarla dilləndi. – Eyzən sənin kimi. Və digər qadınlardan xeyli tez. Səni burada tapacağıma inanırdım».

«Səni niyə tutdular?»

«Bəs səni niyə?»

«Məni şpion sayırlar».

«Məni də. Səbəb də keçərli pasportumdur».

«Haradan bilirsən?»

«Məni o adla istintaq etdilər, sonra da dedilər ki, əsl mühacir deyiləm. Qadın mühacirlər hələ azadlıqdadır. Bunu mənə ilbiz iyi verən saçı boyalı balaca kişi başa saldı. Səni dindirən də o idi?»

«Bilmirəm. Burada hər şeydən ilbiz iyi gəlir. Şükür ki, adyalları özünlə götürmüsən».

«Nəyi bacarmışam, onu da götürmüşəm». – Səbəti açdı. İki şüşə cingildədi. – «Konyakdır, – dedi. – Şərab deyil. Özümlə esensiya da gətirmişəm. Sizə burada yemək verirlər?»

«Adi yeməklər. Özümüzə buterbrod gətirdə bilirik».



Helen əyilib mənə baxdı: «Zənci yığnağına bənzəyirsiniz. Yuyuna bilməzsiniz?»

«İndiyə qədər yox. Acıqla yox. Başısoyuqluqdan».

Konyakı çıxartdı. «Tıxaclar çıxarılıb, – dedi. – Mehmanxana sahibinin son yaxşılığı. Fikirləşdi ki, burada tıxacaçan tapılmaz. İç!»

İri bir qurtum alıb şüşəni ona verdim.

«Stəkanım da var, – dedi. – Bacardığımız qədər mədəniyyəti, gərək, əldən verməyək», – deyib stəkanı doldurdu və içdi.

«Səndən yayın və azadlığın iyini alıram, – dedim. – Bayırda vəziyyət necədir?»

«Dinc vaxtlarda olduğu kimi. Kafelər ağzınacan dolu olur. Səma da ki gömgöy. – Kürsüdə əyləşmiş polislərə baxıb güldü. – Bura tirə bənzəyir. Sanki, yuxarıdakı fiqurlara atəş açmaq, onlar yıxılanda isə uduşu almaq olar: bir şüşə konyak, ya da külqabı».

«Buradakı fiqurların silahı var».

Helen səbətdən paştet çıxartdı: «Mehmanxana sahibindəndir, – dedi. – Çoxlu salamlar və bir kəlam göndərdi: lənətə gəlmiş müharibə! Paştet quş ətindəndir. Çəngəlbıçağım da var. Bir daha: yaşasın mədəniyyət!»

Birdən-bərə mənə şənlənmə gəldi. Helen burada idisə, heç nə məhv olmamışdı. Müharibə hələ başlamamışdı və bəlkə də, bizi tezliklə buraxacaqları düz idi.

Ertəsi axşam bildik ki, bizi bir-birimizdən ayıracaqlar. Məni Kolombo[1] yığma düşərgəsinə, Heleni isə Beş Roket həbsxanasına göndərəcəkdilər. Əgər ər-arvad olduğumuza inansaydılar belə, heç nəyin xeyri olmazdı. Ər-arvadı da bir-birindən ayırırdılar.

Bütün gecəni zirzəmidə keçirdik. İnsaflı gözətçilərdən biri bizə imkan yaratdı. Kimsə özü ilə bir-iki şam gətirmişdi. Bizlərdən bir hissəsini yola salmışdılar; təxminən yüz nəfərə yaxın adam qalmışdı. Bizimlə ispan mühacirləri də vardı. Onları da bizim kimi tutmuşdular. Antifaşist bir ölkədə antifaşistlərin belə cidd-cəhdlə həbs edilməsinin özü də bir ironiya idi; adama elə gəlirdi ki, Almaniyadasan.

«Bizi niyə bir-birimizdən ayırırsınız?» – Helen soruşdu.

«Bilmirəm. Axmaqlıqdan; qəddarlıqdan yox».

«Kişilərlə qadınlar eyni düşərgədə olsalar, qısqanclıq və davadan başqa, heç nə tapmazsan, – alçaqboy, yaşlı bir insan başa saldı. – Ona görə də sizi bir-birinizdən ayırırlar. Müharibə!»

Helen bəbir dərili paltosunda yanımda yatdı. Burada meşin üz çəkilmiş bir neçə rahat oturacaq vardı, amma onlar bu gecəliyinə zirzəmidə yerləşdirilmiş beş, ya da altı yaşlı qadın üçün nəzərdə tutulmuşdu. Onlardan biri saat üçdən beşə qədər yerini Helenə təklif etdi, yatmaq üçün; Helen boyun qaçırdı.

«Sonradan tək istənilən qədər yatacağam», – dedi.

Qəribə bir gecə idi. Get-gedə səslər kəsildi. Yaşlı qadınlar ağlamalarına ara verdi; yalnız hərdən ayılanda hıçqırıb, təzədən qara uçurum kimi onların nəfəsini kəsən yuxuya gedirdilər. Şamlar tədricən söndü. Helen çiynimə söykənib yatırdı. Yuxuda qolları ilə məni qucaqlayırdı və ayılanda gah uşaq, gah da sevimli insan kimi sözlər deyirdi, elə sözlər ki, gündüzlər dilə gətirmirlər, nizamlı həyatda isə gecələr nadir halda söyləyirlər; bu sözlər darlıq və vida kəlmələri idi, ayrılmaq istəməyən bədənin iniltisi idi, dərinin, qanın, nalənin kəlmələri idi, dünyanın ən qədim naləsinin: niyə insanlar bir yerdə qala bilməsin, niyə ölüm hər an bizimlə təmasdadır, əgər yorğunuqsa və bircə anlığına əbədiyyət xülyasına qapılmaq istəyiriksə, niyə ayaq saxlaya bilmirik? Bir azdan ağır-ağır sinəmdən sürüşüb dizimə

[1] *Kolombo* – Parisin yaxınlığında şəhər

düşdü. Başını əlimə aldım və son şamın işığında nəfəs aldığını gördüm. Kişilərin yuxudan durub kömür tığlarının arasında su başına çıxdıqlarını eşitdim. Zəif işıq, sanki, göz vururdu və ətrafda iri kölgələr fırlanırdı, elə bil, qulyabanılar cəngəlliyində idik, Helen də qulyabanıların öz ovsunları ilə sehrləyib tapmaq istədiyi bəbir idi. Sonra axırıncı işıq söndü və ortanı boğucu xorultulu qaranlıq bürüdü. Helenin əllərimin altında nəfəs aldığını hiss etdim. Bir dəfə qısa, bərk qışqırtı ilə diksindi.

«Buradayam, – pıçıldadım. – Qorxma. Hər şey necə var, elədir».

Arxaya uzanıb əllərimi öpdü: «Hə, buradasan, – mızıldadı. – Gərək həmişə də burada olasan».

«Həmişə buradayam, – pıçıldadım. – Qısa vaxta bir-birimizdən ayrılmalı da olsaq, səni həmişə yenidən tapacağam».

«Gələcəksən?» – təzədən mızıldadı, alayuxulu.



«Həmişə gələcəyəm. Həmişə! Harada olursan ol, səni tapacağam. Axırıncı dəfə tapdığım kimi».

«Oldu», – deyib üzünü elə çevirdi ki, əllərimin içində piyalədəymiş kimi uyudu. Hərdən dodaqlarını barmaqlarımda hiss edirdim və bir dəfə əlimə yaş gilələri düşdü, ancaq heç nə demədim. Onu həddən artıq sevirdim və düşünürdüm ki, bu xorultulu, çirkli, kömürün üstünə tökülən sidiyin əcaib cızıltı çıxartdığı gecədə sevdiyim kimi, heç vaxt sevməmişəm. Cıqqırımı çıxarmırdım və öz "mən"im sevgidən yoxa çıxmışdı. Hava işıqlaşmağa başladı, hər cür rəngi oğurlayan və dəri altındakı skeleti göstərən ləng, erkən toranlıq özünü yetirdi və birdən mənə elə gəldi ki, Helen ölüm ayağındadır, mən də onu oyadıb ölümün pəncəsindən almalıyam. Oyanıb bir gözünü açdı.

«İnanırsan ki, isti qəhvə ilə yağ-çörək tapa biləcəyik?» – soruşdu.

«Çalışıb gözətçilərdən birinin bığını yağlayacağam», – xoşbəxt-xoşbəxt dilləndim.

İkinci gözünü açıb məni nəzərdən keçirdi.

«Nə olub? – soruşdu. – Qırımından, elə bil, lotereyada ən böyük məbləğ bizə düşüb. Bizi azad edəcəklər?»

«Yox, – dedim. – Mən özüm özümü azad etmişəm».

Əllərimin içindəki başını yuxulu-yuxulu tərpətdi: «Bircə dəfə özünü müəyyən müddətə rahat buraxa bilməzsən?»

«Hə. Nəinki bilərəm, hətta etməliyəm də, – dedim. – Qorxuram, özü də uzun müddətə. Özümün qərar çıxarmağa daha imkanım olmayacaq. Bu cür yanaşılsa, bu özü də bir təsəllidir».

«Hər şey təsəllidir, – Helen əsnəyib cavab verdi. – Nə qədər ki yaşayırıq, hər şey təsəllidir, bunu hələ bilmirsən? Səncə, bizi şpion kimi güllələyəcəklər?»

«Yox. Ağzıbirə atacaqlar».

«Şpion saymadıqları mühacirləri də ağzıbirə atırlar?»

«Hə. Ələ keçənlərin hamısını atacaqlar. Kişiləri artıq aparıblar».

Başını yarıya qədər qaldırdı: «Bəs onda fərq haradadır?»

«Ola bilsin, mühacirlər canlarını asan qurtardı».

«Bunu bilmək olmaz axı. Bəlkə, bizimlə daha yaxşı davranacaqlar, ona görə ki, şpion olduğumuzu fikirləşirlər».

«Boş şeydir, Helen».

Başını tərpətdi: «Boş şey deyil. Təcrübədir. Hələ bilmirsən ki, əsrimizdə günahsızlıq ağır cəzalandırılan cinayət sayılır? Bunu başa düşmək üçün iki ölkədəmi ağzıbirə salınmaq lazımdır? Ax, ədalət xülyaçısı! Konyak qalıb?»

«Konyak da, paştet də».

«İkisini də ver. Qeyri-adi səhər yeməyidir; amma qorxuram ki, daha macəralı həyatla üzləşək!»

«Yaxşı ki buna belə baxırsan», – deyib konyakı ona verdim.

«O cür baxmaq yeganə yoldur. Yoxsa sən zəhərdən, yaxud qaraciyər sirrozundan ölmək istəyirsən? Əgər ədalət məfhumunu beynindən çıxarsan, buna macəra kimi baxmaq o qədər də çətin deyil, belə düşünmürsən?»

Köhnə konyakın və əla paştetin gözəl ətri Helenə ötən qızıl əsrin vidası təsirini bağışladı. Ləzzətlə yeyirdi.

«Bilməzdim ki, hər şeyi belə adi qarşılayarsan», – dedim.

«Mən sarıdan narahat olma, – deyib səbətində ağ çörək axtardı. – Özümü girləyəcəyəm. Sizə baxanda qadınlar ədalətə o qədər də məhəl qoymur».

«Bəs nəyə məhəl qoyur?»

«Buna, – deyib çörəyi, konyak şüşəsini və paşteti göstərdi. – Ye, əzizim! Vəziyyətdən çıxarıq. On ildən sonra bu, böyük bir macəra sayılacaq, biz də axşamlar bu barədə qonaqlarımıza o qədər danışacağıq ki, darıxdıqlarından

əsnəyəcəklər. Ye, ay saxta soyadlım! İndi yediyimizi özümüzlə daşıyası olmayacağıq».

* * *

«Sizə bütün təfərrüatı danışmaq istəmirəm, – dedi. – Mühacirin keçdiyi yol özünüzə bəllidir. Kolombonun stadionunda cəmi bir neçə gün qaldım. Heleni Beş Roket həbsxanasına saldılar. Sonuncu gün mehmanxananın sahibi stadiona gəldi. Onu yalnız uzaqdan gördüm; baş çəkənlərlə danışmağa icazə vermirdilər. Mehmanxana sahibi xırda bir bişi və bir iri şüşə konyak qoyub getdi. Bişinin içində məktub vardı: «Madam sağlamdır və halı çox yaxşıdır. Təhlükədə deyil. Pireneylərdə təşkil olunmuş qadın düşərgələrindən birinə aparılmasını gözləyir. Məktubları mehmanxanaya göndərin. Madam özünü sındırmır!» Məktuba Helenin xətti ilə bir balacası da bükülmüşdü: «Qayğılanma. Təhlükə sovuşdu. Qalan yalnız macəradır. Tezliklə görüşənə qədər, sevgilim».



Çox da ciddi olmayan blokadanı yara bilmişdi. Təsəvvür edə bilmirdim, necə. Sonralar mənə danışdı ki, onlara çatışmayan sənədlərini gətirməyə getməlidir deyib. Onu bir nəfər polislə mehmanxanaya göndəriblər. O da məktubu mehmanxana sahibinə ötürüb, mənə necə çatdırmaq lazım olduğunu ona pıçıldayıb. Sevgi sarıdan hal əhli olan polis bunu görməzliyə vurub. Heç bir sənəd gətirməyib, əvəzində özü ilə ətriyyat, konyak və bir səbət yemək götürüb. Yeməyi çox sevərdi. Bununla belə, kökəlməməsi həmişə mənim üçün qaranlıq qalıb. Azad yaşadığımız çağlarda yuxudan ayılıb onu yanımda görməyəndə yeməkləri saxladığımız yerə gedərdim: oturardı orada ayın işığında, üzündə donuq bir təbəssüm, dişi ilə qaxacı didişdirərdi, ya da axşamdan saxladığımız desertin üstünə düşərdi. Həm də birbaşa şüşədən şərab içərdi. Gecələr aclığı tutan pişiyə bənzəyirdi. Mənə danışırdı ki, tutulan zaman mehmanxana sahibinin sobada bişirdiyi paştet hazır olana qədər polisi gözlətdirib. Bu, onun sevimli paşteti imiş və onu özü ilə götürmək istəyib. Polis donquldana-donquldana təslim olub, çünki Helen paşteti almamış getməkdən tam imtina edib. Fliklər[1] kimisə zorla polis

[1] *Flik* – jarqonda fransız polisinə verilən ad

maşınına sürüyüb salmaqdan çəkinirdilər. Helen hətta bir büküm kağız salfet götürməyi də unutmayıb.

Ertəsi gün bizi mindirib Pireneylərə apardılar. Qorxunun, həngamənin, qaçqınlığın, bürokratiyanın, çarəsizliyin və məhəbbətin odisseyası başladı».

## XII

«Çox ola bilsin ki, hazırkı zəmanəni haçansa lağ zəmanəsi adlandırsınlar, – Şvars dedi. – Təbii ki, on səkkizinci yüzilliyin mənəvi zəmanəsi yox, əksinə, texniki tərəqqinin və mədəni geriliyin pəndəm əsrində məcburi, qəddar, yaxud da səfeh zəmanə. Hitler yalnız qışqırıb bunu dünyaya bəyan etmir, əksinə, özü də inanır ki, sülh və barış həvarisidir, müharibəni ona başqaları sırıyıb. Onunla bərabər əlli milyon alman da buna inanır. İllər uzunu silahlanmaları, digər millətlərin isə müharibəyə hazırlaşmaması onların baxışında heç nəyi dəyişmir. Ona görə də təəccüblü deyil ki, alman düşərgələrindən qaçıb-qurtaran bizlər indi fransızlarınkına düşmüşük. Hətta buna etiraz etmək olmur, öz həyatı uğrunda döyüşən bir millətin hər bir mühacirə ədalət göstərməsindən başqa, daha vacib işləri var. Bizə işgəncə vermədilər, qazda boğmadılar, güllələmədilər, yalnız tutub içəri saldılar; bundan artıq daha nə istəyə bilərdik?»

«Arvadınızla yenidən haçan görüşə bildiniz?» – soruşdum.

«Uzun çəkdi. Levernedə olmusunuz?»

«Xeyr, amma bilirəm ki, ən pis fransız düşərgələrindən biridir».

Gülümsədi: «Bu, nisbət məsələsidir. Bişmək üçün soyuq su ilə dolu qazana atılmış xərçənglərin əhvalatını bilirsiniz? Suyun istiliyi əlli dərəcəyə çatanda qışqırışmağa başlayırlar ki, dözmək mümkün deyil, fəryad qoparırlar ki, istilik qırx dərəcədə olanda ən gözəl günlərini yaşayıblar; hərarət altmışa çatanda əlli dərəcənin həsrətini çəkirlər, yetmişdə isə altmışın və sairə. Alman konslagerlərinə baxanda Leverne min dəfə yaxşıydı; eləcə də qaz kameraları olmayan konslager zəhərli qaz qurğusu olandan çox-çox yaxşıdır. Beləcə biz xərçəng məsələsini dövrümüzə şamil edə bilərik».

Başımla təsdiqləyib soruşdum: «Sonrası necə oldu?»

«Havalar tezliklə soyudu. Təbii ki, yetərincə nə yorğanımız, nə də kömürümüz vardı. Adi başısoyuqluq, amma adam donanda dərdi də ağır çəkir. Düşərgədəki qışın təsviri ilə sizi yormaq istəmirəm. Bu yerdə ironiya dəyərdən düşür. Helenlə mən desəydik ki nasistik, işimiz yaxşı gedərdi, bizi xüsusi düşərgəyə aparardılar. Aclıq içində donanda və xəstəlik keçirəndə qəzetlərdə mühacir olmayan alman əsirlərin şəkillərini görürdüm; əməlli-başlı çəngəl-bıçaqları, kətil və masaları, çarpayıları, yorğanları, hətta özəl yemək zalları vardı. Qəzetlər düşmənlərlə yaxşı davranışla öyünürdülər. Bizimlə ehtiyatlı tərpənməyə lüzum duymurdular; biz təhlükəli sayılmırdıq.

Mən bu həyata alışdım. Helenin məsləhət gördüyü kimi, ədalət anlayışını beynimdən silib atdım. Hər axşam işdən sonra barakdakı yerimdə otururdum. Bir metr enində, iki metr uzununda seyrək küləş səpilmiş torpağı yer kimi mənə vermişdilər, mən də oturub bu zamana öz "mən"imlə heç bir əlaqəsi olmayan keçid mərhələsi kimi baxmağı məşq edirdim. Çox şeylər baş verirdi, mən də təhsil görmüş heyvan kimi onlara reaksiya verməli olurdum. Dərd adamı qarın yatalağı kimi məhv edir, ədalət isə dinc zamanın təmtərağıdır».

«Doğrudanmı, bu fikirdəsiniz?» – soruşdum.

«Yox, – dedi. – Mən bunu saatbasaat təzədən beynimə həkk etməli oldum. Bu, böyük haqsızlıq deyildi, adamı yandırıb-yaxan xırda haqsızlıq idi. Adam da həmişə xırdaya, hər gün rastlaşdığına, bir tikə çörəyə, ağır işə qane olur ki, ona acıq edib böyüyü əldən qaçırmasın».

«Deməli, çevik heyvan kimi yaşamısınız?»

«Helendən birinci məktub gələnə kimi elə yaşamışam, – dedi. – Məktub iki aydan sonra Parisdəki mehmanxanamızın ünvanı ilə gəlmişdi. Elə bil, boğucu havası olan qaranlıq otağın pəncərəsini üzümə açdılar. Həyat, əslində, düşərgənin o üzündə idi, amma mənim üçün o, sanki, yenidən başladı. Məktublar mütəmadi gəlmirdi, bəzən həftələrlə olmurdu. Qəribədir, həmin məktublar Helenin dəyişdiyini təsdiq edirdi. Yazırdı ki, vəziyyəti yaxşıdır, onu da düşərgəyə salıblar və mətbəxdə, axır vaxtlar isə yeməkxanada çalışır. Hətta mənə iki dəfə ərzaq bağlaması da göndərə bilmişdi,

necə, hansı kələklə, bilmirəm. Eyni zamanda məktublardan ayrı bir sima boylanmağa başlamışdı. Bunun nə qədərinin onun yoxluğunun, mənim öz arzularımın və fantaziyamın yanıltısının ayağına yazılmalı olduğunu bilmirəm. Adam həbsdə bir-iki məktubdan başqa heç nə almayanda hər şeyin sonsuzluğa qədər böyüdüyünü özünüz yaxşı bilirsiniz. Heç bir mənası olmayan və pis niyyətlə yazılmamış bircə cümlə, əgər o, başqa şəraitdə yazılıbsa, insanın ömrünü puç edən şimşəyə çevrilə bilər; eləcə də ikincisi sənə həftələrlə istilik bəxş edər, baxmayaraq ki, o da birinci kimi heç bir niyyət güdmədən yazılıb. Digərinin məktubun ağzını bağlayan kimi unutduqları fikirlərin üstündə sən aylarla baş sındırırsan. Haçansa bir şəkil də gəldi; şəkildə Helen öz barakının ağzında bir qadın və bir kişi ilə dayanmışdı. Yazırdı ki, düşərgənin fransız gözətçiləridir». Şvars başını qaldırıb baxdı. «Kişinin üz-gözünə nə qədər tamaşa etmişəm! Oradakı saatsazdan böyüdücü şüşə almışdım. Başa düşə bilmirdim, Helen şəkli niyə göndərib. Yəqin, özünün heç bir gizli fikri olmayıb. Kim bilir, bəlkə də? Bilmirəm. Belə şeylər sizə tanışdır?»

«Hər kəsə tanışdır, – cavab verdim. – Əsir psixozu təkcə sizdə olmur».

Meyxana sahibi haq-hesab vərəqi ilə gəldi. Biz sonuncu müştərilər idik.

– Ayrı bir yerdə otura bilərik? – Şvars soruşdu.

Sahib bizə bir meyxana adı dedi:

– Orada qadınlar da olur. Gözəl, ətli-qanlı. Bahacıl deyillər.

– Başqa yer yoxdur?

– Bu vədə açıq olan başqa yer tanımıram.

Kişi pencəyini geyindi.

– İstəsəniz, sizi ora apararam. İndi mən də boşam. Oradakı qadınlar kələkli olur. Nəzarət edərdim ki, sizi aldatmasınlar.

– Qadınsız orada oturmaq olmaz?

– Qadınlarsız? – meyxana sahibi mat-mat bizə baxdı. Sonra üzünə ani təbəssüm qondu. – Qadınsız, anladım! Əlbəttə, cənablar, əlbəttə. Amma orada yalnız qadınlar olur.

Biz küçəyə çıxanda arxamızca baxdı. Hava çox gözəl idi, dan yeri sökülürdü. Günəş hələ çıxmamışdı, amma duz

qoxusu güclənmişdi. Küçələrdə pişiklər gəzişirdi, tək-tük pəncərədən qəhvə iyi gəlirdi, yuxu iyinə qarışaraq. İşıqların hamısı sönmüşdü. Bir-iki küçə o yandan araba taqqıltısının səsi eşidilirdi, balıqçı qayıqları nadinc Texoda, elə bil, sarı, qırmızı su gülləri idi, aşağıda isə işıqları söndürülmüş solğun gəmi, Nuhun gəmisi – son ümid – tərpənməz dayanmışdı və biz üzüaşağı ona doğru gedirdik.

Fahişəxana adi bir otaqdan ibarət idi. Bir neçə kök, lırt qadın kart oynayıb, siqaret çəkirdi. Onlar həvəssiz cəhd göstərdilər, sonra bizi rahat buraxdılar. Saata baxdım. Şvars bunu gördü.

«Çox çəkməz, – dedi. – Konsulluqlar doqquzdan qabaq açılmır».

Bunu mən də bilirdim. O isə bilmirdi ki, dinləməklə danışmaq başqa-başqa şeylərdir.



«Bir il tükənmək bilməyən bir zamandır, – dedi. – Və birdən-birə o, sənə uzun görünmür. Yanvar ayında çöl işlərinə göndəriləndə qaçmağa çalışdım. İki gündən sonra yaxalandım, bədnam leytenant K. qırmancla sifətimi dağladı və məni iki həftə yalnız quru çörək və su ilə karserə atdılar. İkinci cəhddə o saat yaxalandım. Sonra bir də cəhd etmədim; ərzaq talonu ilə vəsiqə olmadan aradan çıxmaq onsuz da mümkün deyildi. İstənilən jandarm tuta bilərdi. Bir də, Helenin düşərgəsinə qədər xeyli yol vardı.

May ayında müharibə başlayıb bir aydan sonra bitəndə vəziyyət dəyişdi. Biz zəbt edilməmiş zonalardan birində idik, amma ordunun və ya gestaponun hansısa komissiyasının düşərgəni yoxlamaq ehtimalı hər vaxt qalırdı. Bunun təşvişi sizə tanış olar!?»

«Tanışdır, – dedim. – Təşviş, intiharlar, «onlar gəlməmiş bizi buraxın» petisiyaları və çox vaxt buna mane olan bürokratik əngəllər. Həmişə olmasa da, düşərgələr vardı ki, komendantı ağıllı tərpənib məsuliyyəti öz üzərinə götürür və mühacirləri azadlığa buraxırdı. Bununla belə, çoxu Marseldə, yaxud sərhəddə ələ keçirdi».

«Marseldə! Helenlə zəhərimiz hazır idi, – Şvars dilləndi. – Xırdaca kapsullar. Onlar insana fatalist dinclik bəxş edir. Mən olduğum düşərgədə onları mənə bir əczaçı satmışdı. İki kapsul. İçində nə olduğunu bilmirdim, ancaq inanırdım ki, içəndə tez və ağrısız ölürsən. Deyirdi ki, iki nəfərə çatar.

Mənə ona görə satdı ki, səhər-səhər, işıqlaşmazdan qabaq özünün içəcəyindən qorxurdu.

Çöl göyərçinləri kimi sıraya düzülmüşdük. Məğlubiyyət gözlənilməz oldu. Heç kim onu belə tez gözləmirdi. O vaxt hələ bilmirdik ki, İngiltərə sülh müqaviləsi bağlayacaq. Gözümüzü açanda gördük ki, hər şey məhv olub, – yorğunluq bildirən bir hərəkət etdi, – heç indi də bilmirik ki, hər şey, doğrudanmı, məhv olub. Hamımız sahilə sıxışdırılmışıq. Qarşımızda təkcə dəniz var».

Dənizi düşündüm. Hələ də üstündə üzən gəmilər.

Bayaqkı meyxananın sahibi qapıda göründü. Bizə lağla bir növ hərbi salam verdi. Sonra əndamlı fahişələrə nəsə pıçıldadı. Onlardan biri, adam başı boyda döşləri olanı bizə yaxınlaşdı.

– Bunu necə edirsiniz axı? – soruşdu.

– Nəyi?

– Ağrıtmır bəyəm?

– Nə?

– Açıq dənizdə matrosların sevişməsi, – təzə meyxananın sahibi səsinin yoğun yerinə salıb bağırdı və elə güldü ki, sanki, dişləri töküləcəkdi.

– Oradakı fantazyor sizi aldadıb, – ağzından zeytun, sarımsaq, soğan iyi gələn və tər qoxuyan qadına dedim. – Biz homoseksual deyilik. İkimiz də Abessin müharibəsində olmuşuq və yerli sakinlər hər ikimizi axtalayıb.

– İtalyansınız?

– İdik, – dedim. – Axtalanan adamın milləti olmur. O, kosmopolit olur.

Bir müddət fikirləşdi. Sonra ciddiliklə: «Tu es comique»[1], – deyib iri əndamını yırğalaya-yırğalaya qapıya doğru getdi, burada da meyxana sahibi onun əndamına ilişdirdi, bu da onun tərifi idi.

«Çarəsizlik qəribə şeydir, – Şvars dilləndi. – Hətta öz “mən”ini dilə gətirməyən, yalnız yaşamaq, var olmaq, yalnız burada var olmaq təşnəsi içimizə necə bərk hopubmuş! Adam hərdən gəmiçilərin tufanda təsvir etdikləri vəziyyətə düşür: burulğanın tən ortasında büsbütün külək durğunluğu. Əlini hər şeydən üzürsən, özünü ölülüyə vuran böcək kimi olursan, lakin hələ dirisən. Həyatda qalmaq üçün adicə

[1] Zarafat edirsən

yaşamaqdan başqa hər cür həyəcandan yaxa qurtarırsan. Ayıq-sayıq olursan, özünü toparlayırsan, tam passivləşirsən. İtirməyə daha heç nəyin olmur. Tufan dairəvi barı kimi ətrafında tüğyan edəndə külək durğunluğu. Qəfildən qorxu da, məyusluq da yoxa çıxır, onlar özünə rəva bilmədiyin təmtərağa çevrilir. Onlara sərf etməli olduğun həyəcan yaşamağın cövhərindən götürülmüş olur və zəifləyir, ona görə də təcrid edilir. Daha görən gözdən və hər şeyə passiv hazır olmadan başqa heç nə deyilsən. Səni qəribə, arxayın bir aydınlıq çulğayır. Belə günlərdə hərdən məndə nəsə etmək üçün şüurlu "mən"lə bağlı olan hər şeyin tərkini qılan hind yoqlarının duyumuna oxşar bir duyğu baş qaldırırdı». Şvars dirəndi.

«Həmin nəsə etmək hənифlik deyilmi?» – yarıciddi, yarızarafat soruşdum. Başını bulayıb dedi:



«Hənifl ik Allahı aramaq deməkdir, onlar isə tapmağa çalışır. Aramağına hər vaxt arayırsan. Amma elə arayırsan ki, sanki, suda pal-paltarlı üzmək istəyirsən və pal-paltarın suya düşür. Gərək lüt olasan. Mən qorxusuz qəribliyi tərk edib qorxulu vətənə dönərkən Reyn çayını, ay işığına qərq olmuş ensiz həyatımı tale nəhri kimi keçəndə lüt olduğum təki.

Həmin düşərgəni hərdən indi qaldığım düşərgədə yada salırdım. Bu barədə düşünmək məni heydən salmırdı, daha da gücləndirirdi. Həyatımın tələbini yerinə yetirirdim, özümü itirməmişdim, Helenlə göydəndüşmə ikinci bir həyat qazanmışdım. Məyusluğum və hərdən yaxamdan əl çəkməyən röyalarım isə ona görə olurdu ki, ortada ayrı nəsə vardı: Paris, Helen və tənha olmadığım barədə əlçatmaz duyğular. Haradasa Helen vardı, bəlkə də, ayrı bir kişi ilə yaşayırdı, amma yaşayırdı. İnsanın çəkmə altındakı qarışqadan da xırda olduğu bizim kimilərin zəmanəsində bu, dəhşətli dərəcədə çox şey demək idi». – Susdu.

«Allahı tapdınız?» – soruşdum. Köntöy sual idi, ancaq birdən-birə mənim üçün önəm kəsb etmişdi, ona görə də soruşdum.

«Güzgüdəki sifət», – dedi.

«Kimin sifəti?»

«Elə həminki. Siz öz sifətinizi tanıyırsınızmı? Anadan olduğunuz sifəti?»

Şaşqın-şaşqın ona baxdım. Bu ifadəni əvvəl bir dəfə də işlətmişdi. «Güzgüdəki sifət, – təkrarladı. – Çiyni üstündən sizə baxan şəkil və arxasında da bir başqası, amma sonra birdən-birə özünüz dönüb güzgü olursunuz, sonsuz təkrarları ilə. Yox, tapmadım. Tapsaydıq, neyləyəcəkdik? Tapa bilmiş olsaydıq, gərək, insan olmayaydıq. Aramaq isə başqa şeydir, – gülümsədi. – Həm də buna nə artıq vaxtım, nə də artıq gücüm vardı. Tamam alt qata enmişdim. Yalnız sevdiyim şey haqqında düşünürdüm. Bununla da yaşayırdım. Daha Allah haqqında da heç nə düşünmürdüm, ədalət haqqında da. Dövrə qapanmışdı. Çay qırağındakı ovaxtkı vəziyyətə oxşayırdı. Təkrarlanırdı. Axırda yenə özümə qayıdıb təklənirdim. Belə bir vəziyyətdə insan özü, demək olar, heç nə edə bilmir. Heç buna ehtiyac olmur; götür-qoy yalnız çaşdıra bilər. Hər şey öz-özlüyündə baş verir. İnsanın gülünc təcridindən olayın adsız qanununa qayıdırsan və görünməz əl azca çiyinə toxunanda etməli olduğun hər şey getməyə hazır olur. Sənə qalan o olur ki, ardınca gedəsən; nə qədər ki soruşmamısan, himayədə olursan. Yəqin, fikirləşirsiniz ki, mistik cəfəngiyat danışıram».

Başımı buladım: «Mənə də tanışdır. Belə şey böyük təhlükə anlarında baş verir. Adamlar tanıyırdım ki, həmin halı müharibədə yaşamışdılar. Onlar qəflətən, heç bir səbəb olmadan, həm də tərəddüd etmədən bir dəqiqədən sonra kütləvi məzarlığa çevrilən blindajı tərk edirdilər; baxmayaraq ki sağlam düşüncəylə yanaşıldıqda blindaj onların girdiyi açıq çaladan yüz dəfə etibarlıdır».

«Mən mümkün olmayan bir iş gördüm, – dedi. – İlk baxışda elə görünürdü ki, bu, dünyanın ən təbii bir olayıdır. Şey-şüylərimi qablaşdırıb bir səhər düşərgədən kənd yoluna çıxdım. Adilikdən vaz keçdim – gecə qaçışından. Sabahın gur işığında böyük giriş darvazasına yaxınlaşıb gözətçilərə dedim ki, məni buraxıblar, sonra əlimi cibimə salıb hər ikisinə bir az pul verdim və xahiş etdim ki, mənim də sağlığıma içsinlər. Qəti ağlagəlməzdi ki, kimsə belə cürət edib düşərgəni icazəsiz tərk etsin, ona görə də mundirdə olan hər iki kəndli balası mənim azadolma sənədimi soruşmağı ağıllarından belə keçirmədi.

Tozdan ağarmış yolla ağır-ağır irəlilədim. İyirmi addım aralanandan sonra elə bildim düşərgənin darvazası arxamca

sürünən və məni udmağa çalışan əjdahanın ağzıdır. Ölü Şvarsın pasportunu kirimişcə cibimə qoydum, bayaq onu gözətçilərin gözü qabağında yüngülcə yelləyib yoluma düzəlmişdim. Havada rozmarin və timian[1] iyi vardı. Bu, azadlığın iyi idi.

Bir azdan özümü elə apardım ki, guya, ayaqqabımın qaytanını bərkidirəm. Aşağı əyilib dala baxdım. Yol bomboş idi. Yerişimi yeyinlətdim.

Həmin dövrdə tələb olunan bir qalaq sənəddən heç biri məndə yox idi. Fransızca ala-babat danışırdım. Ümidim ona idi ki, bəlkə, məni dialektdə danışan fransız saydılar. O vaxt bütün ölkə hələ də get-gəldə idi. Hər yan işğal olunmuş ərazilərin qaçqınları ilə dolu idi, küçələr hər çeşiddən olan minik vasitələri ilə, çarpayı, ev avadanlığı daşıyan araba və qaçqın əsgərlərlə qayır-qayır qaynaşırdı.

Qabağında balaca bağçası və bir neçə masası, arxasında meyvə bağı və bostanı olan xırda bir meyxanaya gəldim. Daşla döşənmiş meyxanadan yerə tökülmüş şərab, təzə çörək və qəhvə iyi gəlirdi.



Mənə ayaqyalın bir qız xidmət edirdi. Süfrəni açıb masanın üstünə qəhvədan, fincan, boşqab, bal və yağ qoydu. Əvəzi olmayan dəbdəbəli bir süfrə! Parisdən çıxalı belə şey görməmişdim.

Bayırdan, tozlu çəpərin o üzündən sınıq-salxaq dünya keçib-gedirdi, burada, ağacların kölgəsində isə bir parça dinclik uyuyurdu, arıların vızıltısı altında və son yayın qızılı şəfəqində. Mənə elə gəldi ki, sabahkı günüm üçün də içə bilərəm, yola çıxan dəvə su içdiyi kimi. Gözlərimi yumdum, işığı duya-duya içdim».

## XIII

«Vağzalda bir jandarm durmuşdu. Geriyə qayıtdım. Yoxa çıxmağımın hələ aşkarlanmasına inanmasam da, ilk olaraq, dəmir yolundan imtina etməyi qərara aldım. Nə qədər ki düşərgədəyik, bizi heç adam yerinə qoymurlar, elə ki qaçdıq, birdən-birə qiymətə minirik. Orada olanda bir tikə çörəyi belə qıymırlar, yenidən yaxalamaq istəyəndə isə pullarına qızırğalanmır, böyük bir rotanı səfərbər edirlər.

---

[1] *Rozmarin, timian* – ətirli dərman bitkiləri

Məni xeyli aparmağa razılıq verən bir yük maşını tapdım. Sürücü müharibəni, almanları, fransız iqtidarını, Amerika hökumətini və Allahı söyüb söyüşdən keçirirdi; buna baxmayaraq məni düşürəndə günorta yeməyini mənimlə böldü. Növbəti dəmiryol stansiyasına çatana qədər bir saat da kənd yolu ilə getdim. Şübhəli görünməmək üçün gizlənməməyin vacibliyini əvvəlcədən bildiyimə görə qarşıdakı stansiyaya qədər birinci dərəcəli vaqona bir bilet istədim. Məmur tərəddüd etdi. Gözləyirdim ki, sənədlərimi soruşacaq və onu qabaqladım, üstünə bağırdım. Özünü itirdi və bir bilet verdi. Kafeyə gedib qatarın yola düşməsini gözlədim, qatar vaxtından bir saat gec gəldi.

Üç günə Helenin düşərgəsinə çatdım. Məni saxlamaq istəyən jandarmın üstünə almanca bağırıb Şvarsın pasportunu az qala gözünə soxdum. Qorxusundan diksinib dala çəkildi və ondan üzülüşməyimə xeyli sevindi. Avstriya Almaniyanın tərkibindəydi və Avstriya pasportu artıq gestaponun vizit kartı təsirini bağışlayırdı. Ölü Şvarsın pasportunun nələrə qadir olduğu bir möcüzəydi. Üstündə yazısı olan bu kağız parçası təkcə adam demək deyildi, çox şey demək idi!

Helenin düşərgəsinə çatmaq üçün dağyuxarı qalxıb ağcaqayın, söyüd və rozmarin meşəliyindən keçib-getməliydim. Düşərgə məftil hasara alınmışdı, ancaq Leverne düşərgəsi kimi miskin təsir bağışlamırdı, yəqin, ona görə ki, qadın düşərgəsi idi. Qadınlar başlarına özlərinin düzəltdiyi çalmaya bənzər örtük çəkmişdi, əyinlərində ala-bəzək paltar vardı; bu, bir növ qayğısızlıq nişanəsiydi. Bunu artıq meşədən görə bilirdim.

Birdən-birə qol-qanadım qırılıb yanıma düşdü. Burada mən dəhşətli çarəsizlik gözləyirdim, guya, ora Don Kixot, ya da Fateh Georq kimi soxulacaqdım; indi isə, deyəsən, burada mənə heç ehtiyac da yox idi. Düşərgə elə təsir bağışlayırdı ki, deyərdin, özü-özünə bəs edir. Helen burada qalsaydı da, məni çoxdan unutmuş olacaqdı.

Nə etməli olduğumu öyrənmək üçün gizlənib-qaldım. Toranlıqda qadınlardan biri hasara yaxınlaşdı. Dalınca o biriləri də gəldi. Tezliklə çoxu bura toplaşdı. Onlar heç nəyi seçə bilməyən gözləri ilə tikanlı məftillərin arasından çölə baxırdılar. Onların görmək istədiyi şey burada yox idi – azadlıq! Səma bənövşəyi rəngə boyandı, dərədə kölgələr

sürünməyə və dustaq işıqlar adda-budda görünməyə başladı. Qadınlar rənglərini, hətta bədən quruluşlarını itirmiş kölgələrə çevrildilər. Tikanlı məftilin o üzündəki yastı, qara siluetlərin başı üstündəki nizamsız cərgədə solğun, yayğın sifətlər oynaşdı. Sonra cərgələr aydınlaşdı; onlar bir-birinin dalına düşüb getdilər. Məyusluq saatı arxada qalmışdı. Sonradan eşitdim ki, qadınların bu mərasiminə düşərgədə belə deyirmişlər.

Məftilin o üzündə yalnız bir qadın qalmışdı. Ehtiyatla ona yaxınlaşdım.

«Qorxmayın», – fransızca dedim.

«Qorxmaq? – xeyli keçəndən sonra soruşdu, – nədən?»

«Sizdən bir xahiş etmək istərdim».

«Etməyə bilərsən, donuz, – cavab verdi. – O iyrənc başınızda ayrı fikir olmur bəyəm?»



Matdım-matdım ona baxdım: «Nəyi nəzərdə tutursunuz?»

«Özünü gicliyə qoyma, onsuz da bəsindir! Rədd ol, canın çıxsın sənin də, o lənətə gəlmiş şəhvətinin də! Kəndinizdə arvad-zad yoxdur bəyəm? Gərək elə burada sülənəsiniz, a sülək köpək uşağı?»

Nə demək istədiyini anladım: «Yanılırsınız», – dedim. – «Bu düşərgədəki bir qadına çatdırılası sözüm var».

«Elə hamınızın çatdırılası sözünüz olur! Özü də niyə birinə? Niyə ikisinə yox? Ya da hamısına yox?»

«Bir qulaq asın! – dedim. – Arvadım buradadır. Arvadıma sözüm var!»

«İndi də o?» – Qadın güldü. Deyəsən, hirsli deyildi, sadəcə, yorulmuşdu. – «Bu da təzə hoqqa! Hər həftə ağlınıza bir şey gəlir!»

«Mən birinci dəfədir buradayam!»

«Amma yaman ütüksən. Əkil başımdın!»

«Nə olar, bir qulaq assanız, – almanca dilləndim, – istəyirəm, düşərgədə bir qadına çatdırasınız ki, buradayam. Mən almanam. İçəri atılanlardanam. Levernedə!»

«Hələ buna bax, – qadın aparxayın dilləndi. – Almanca da bilir. Lənətə gəlmiş elzaslı! Görüm canına sifilis daraşsın, əclaf! Sənin və axşamlar bura yığışan sənin kimilərin! Sizlərdən hər birini xərçəng gəmirsin, başımıza gör nə oyunlar açmısınız! Ayrı dərd-səriniz yoxdur, a donuz balaları?

Əl çəkin bizdən! Bizi rahat buraxın! – ucadan və sərt dedi. – Bizi içəri atdığınız bəs eləmir? Rahat buraxın bizi!» – bu dəfə lap qışqırdı.

Başqalarının gəldiyini görüb geri sıçradım. Gecəni meşədə qaldım. Gedən yerim yox idi. Ağacın kötüyünə sığındım. İşıqlar tamam söndü, sonra buludların və seyrək çənin arasından özü ilə payızın soyuğunu gətirən ay doğdu, solğun, ağaran qızıl kimi. Səhər tezdən aşağıya, kəndə endim. Kostyumumu mavi montyor paltarına dəyişməyə razılıq verən bir adam tapdım.

Geri düşərgəyə qayıtdım. Keşikçilərə dedim ki, işığa baxmalıyam. Fransızcam ala-babat olduğundan məni sorğu-suala tutmayıb içəri buraxdılar. Bir də ki sürgünlər düşərgəsinə könüllü gələn kim olardı?! Düşərgənin yollarını ehtiyatla gözdən keçirdim. Qadınlar bir-birindən pərdə ilə ayrılmış sandığa bənzər baraklarda yaşayırdılar. Alt və üst qatlar vardı. Ortadan dəhlizə bənzər bir şey qoymuşdular, hər iki tərəfdən də pərdə asılmışdı. Pərdələrin çoxu qaldırılmışdı və yataqların necə yığıldığını görmək olurdu. Əksəriyyətində yalnız vacib əşyalar vardı; amma bəziləri asılmış dəsmalla, bir-iki açıqca və şəkillə fərdiləşmişdi, bu fərdilik nə qədər miskin olsa belə. Yarıqaranlıq baraklardan keçib-gedirdim, qadınlar da əllərindəki işi buraxıb mənə baxırdılar.

«Xəbər gətirmisən?» – onlardan biri soruşdu.

«Hə, Helen adlı birisinə. Helen Bauman».

Qadın fikrə getdi. İkincisi yaxınlaşdı.

«Yeməkxanada işləyən nasist qancıq deyil? – soruşdu. – Həkimlə harada gəldi oynaşan?»

«Nasist deyil», – dedim.

«Yeməkxanada işləyən də deyil, – birinci qadın əlavə etdi. – Məncə, adı Helendir».

«Burada nasistlər var?» – soruşdum.

«Bəs necə?! Burada hər şey bir-birinə qarışıb. Almanlar indi haradadır?»

«Mən alman görməmişəm».

«Hərbi komissiya gəlməlidir. Bu barədə nəsə eşitmisiniz?»

«Yox».

«Almanları düşərgədən çıxarmaq üçün gəlməlidirlər. Amma gestapo da gələsidir. Bəs bu barədə nə bilirsiniz?»

«Heç nə».

«Zəbt olunmamış zonaya almanlar, gərək, məhəl qoymasın».

«Onlardan nə desən, gözləmək olar».

«Bu barədə heç nə bilmirsiniz?»

«Bildiyim şayiələrdir, ayrı şey bilmirəm».

«Helen Baumana çatacaq xəbər kimdəndir?»

Duruxdum. «Ərindən. O, azadlığa çıxıb».

İkinci qadın güldü: «Həkimi heyrət götürəcək!»

«Yeməkxanaya getmək olar?» – soruşdum.

«Niyə də olmasın?! Fransız deyilsiniz?»

«Elzaslıyam».

«Qorxursunuz? – ikinci qadın soruşdu. – Niyə? Nəyisə gizlədirsiniz?»

«Bu gün nəsə gizlətməyən adam varmı ki?»



«Bunu rahatca bir də deyə bilərsiniz», – birinci qadın dilləndi. İkinci heç nə demədi. Məni başdan-ayağa süzdü, sanki, casus idim. Üstünə vurduğu qar çiçəyi ətri onu bulud kimi bürümüşdü.

«Təşəkkürlər, – dedim. – Yeməkxana haradadır?»

Birinci qadın yolu başa saldı. Barakın yarıqaranlığı ilə irəlilədim, sanki, qaçış yarışına çıxmışdım. Hər iki tərəfdən sifətlər və sorğu dolu gözlər mənə zillənmişdi. Özümü amazonka dövlətlərindən birinə düşmüş kimi hiss edirdim. Sonra yenidən küçə, günəş və məhbusluğun boz lazur kimi hər bir düşərgənin başı üstündən asılmış yorğun qoxusu gəldi.

Kor kimi idim. Heç vaxt Helenin sadiqliyi və xəyanəti barədə fikirləşməmişdim. Həyatımız uçurumun qırağında olduğundan hər şey əhəmiyyətini itirmişdi; o qədər hadisələr baş vermişdi ki, nəzərimdə ayrı şeylər heç mövcud da olmamışdı. Hətta bu hisslər mənə Levernedə əzab versə də, bu, mücərrəd əzab olmuşdu, özümün uydurduğum, tez sönən və tez də dirçələn bir fikir, bir təsəvvür.

İndi isə onun taledaşlarının əhatəsində idim. Onları dünən axşam tikanlı çəpərin yanında görmüşdüm, indi bir də görürdüm, aylarla tək qalmış ac-yalavac qadınlar, məhbusluğa baxmayaraq, qadınlıqlarını qoruyan və buna görə də güclü olan qadınlar. Bundan başqa, onların daha nəyi qalmışdı ki?

Yeməkxana olan baraka getdim. Pulla ərzaq alanların qarşısında solğun sifətli, kürənsaçlı bir qadın da vardı.

«Siz nə istəyirsiniz?» – soruşdu. Gözlərimi yumub başımı tərpətdim. Sonra qırağa çəkildim. Qadın müştərilərinə ötəri bir nəzər saldı. – «Beşcə dəqiqə gözləyin, – pıçıldadı. – Yaxşı, yoxsa, pis?»

Nə dediyini anladım, yaxşımı, pismi xəbər gətirmişəm. Çiyinlərimi çəkdim: «Yaxşı», – deyib çölə çıxdım.

Bir azdan qadın gəldi, mənə əl elədi. «Gərək ehtiyatı əldən verməyəsən, – dedi. – Xəbəri kimə gətirmisiniz?»

«Helen Baumana. Buradadır?»

«Niyə soruşursunuz?»

Susdum. Burnunun üstündəki çillər və narahat gözləri nəzərimdən qaçmadı. «Yeməkxanada işləyir?» – soruşdum.

«İstəyiniz nədir? Məlumat toplamaq? Özü də kim, montyor! Kimdən ötrü?»

«Ərindən ötrü».

«Axırıncı dəfə, – acı-acı dedi, – kimsə həmin şeyi bir başqa qadın haqqında söyləmişdi. Üç gün sonra yazığı apardılar. Şərtləşmişdik ki, işi yaxşı olsa, bizə xəbər çatdırsın. İndiyə qədər xəbər-ətər yoxdur. Ey, saxta montyor!»

«Əri mənəm», – dedim.

«Mən də Qreta Qarboyam[1]», – cavab verdi.

«Başqasını sizdən niyə soruşmalıydım ki?»

«Helen Baumanı, – dedi, – tez-tez soruşurlar. Özü də xırda adamlar yox. Həqiqəti bilmək istəyirsiniz? Helen Bauman ölüb. İki həftə qabaq və torpağa tapşırılıb. Gerçəyi budur. Fikirləşirdim ki, eşikdən xəbər gətirmisən».

«Ölüb?»

«Ölüb. İndi isə məni rahat buraxın».

«Ölməyib, – dedim. – Düzünü barakdakılar bilir».

«Baraklarda ağızlarına gələn hər şeyi danışırlar».

Kürənsaç qadını diqqətlə gözdən keçirdim: «Ona məktub vermək istərdinizmi? Gedirəm, ona bir məktub qoymaq istəyirəm», – dedim.

«Niyə?»

«Niyə də olmasın? Məktubun nə ağırlığı var?! Adamı nə öldürür, nə də ələ verir».

«Vermir? – soruşdu. – Haçandan yaşayırsınız?»

---

[1] Məşhur İsveç kinoaktrisası

«Özüm də bilmirəm. Həyatımı yalnız kəsik-kəsik yaşamışam, hərdən ara vermişəm. Mənə bir parça kağızla karandaş verə bilərsinizmi?»

«İkisi də oradadır, – deyib balaca bir masa göstərdi. – Ölüyə məktub yazmağın xeyri nədir?!»

«Belə şeylər indiki zamanda tez-tez olur».

Əl boyda bir kağıza yazdım: «Helen, buradayam. Bayırda. Bu gün axşam. Məftilli çəpərin yanında. Gözləyirəm».

Məktubun ağzını bağlamadım. «Bunu ona çatdırmaq istərdinizmi?» – soruşdum.

«Dünya dəli ilə doludur», – cavab verdi.

«Hə, ya yox?» – Ona uzatdığım məktubu oxudu. – «Hə, ya yox?» – təkrarladım.

«Yox», – dedi.

Məktubu masanın üstünə qoydum: «Heç olmasa, cırıb atmayın», – dedim. Heç nə cavab vermədi. – «Məktubun arvadıma çatmasına maneçilik törətsəniz, gəlib axırınıza çıxacağam», – dedim.



«Sonra neyləyəcəksən?» – soruşub solğun sifətindəki dayaz, yaşıl gözləri ilə məni süzdü. Başımı bulayıb qapıya doğru getdim.

«Arvadım burada yoxdur?» – bir də geri çevrilib soruşdum. Qadın mat-mat mənə baxıb dinmədi. – «Hələ on dəqiqə də düşərgədəyəm» – dedim. – Soruşmağa bir də gələcəyəm».

Düşərgənin ortasındakı yolu tutub getdim. Qadına inanmırdım; bir xeyli gözləyib Heleni axtarmaq üçün yeməkxanaya üz tutmaq istədim. Lakin qəfildən hiss etdim ki, sanki, məni görünməz edən sehrli xalat sürüşüb çiynimdən düşüb, birdən-birə dəhşətli dərəcədə böyüyüb sipərsizləşdim və gizlənməyə məcbur oldum. Kor-koranə özümü qapıların birindən içəri saldım.

«Nə lazımdır?» – qadınlardan biri soruşdu.

«Elektrik xəttinə baxmalıyam. Nəsə xarab olub?» – böyrümdə kimsə dilləndi, əslində, bu, mən özüm idim.

«Heç nə xarab olmayıb. Amma burada heç vaxt salamatlıq da olmayıb».

Qadının əynində ağ xalat vardı. «Bura xəstəxanadır?» – soruşdum.

«Xəstələr barakı. Sizi bura göndəriblər?»

«Aşağıdan idarəm göndərib. Xətlərə baxmaq lazımdır».

«Nəyə istəyirsiniz baxın», – dedi.

İçəri mundirli bir kişi girdi: «Nə olub?» – soruşdu. Ağ xalatlı qadın izahat verdi. Kişini gözdən keçirdim. Mənə elə gəldi ki, onu hardansa tanıyıram. – «İşıq? – bir də soruşdu. – Dərmanla vitamin daha vacibdir!»

Həkim papağını masanın üstünə tullayıb çölə çıxdı.

«Sizdə hər şey qaydasındadır, – ağ xalatlı qadına dedim. – O kişi kim idi?»

«Kim ola bilər, həkim. O biriləri heç nəyi vecinə almır».

«Xəstəniz çoxdur?»

«Kifayət qədər».

«Bəs ölülər?»

Diqqətlə mənə baxdı: «Nəyinizə lazımdır?» – dedi.

«Elə belə, – cavab verdim. – Buradakılar niyə belə inamsızdır?»

«Elə belə, – qadın dediyimi təkrarladı. – Sadəcə olaraq ağlınıza gəldi hə?! Siz ey bixəbər mələk, vətənli, pasportlu mələk! Yox, dörd həftədir ölümüz olmur. Amma əvvəllər çox olurdu».

Dörd həftə əvvəl Helendən məktub almışdım. Deməli, burada olmalıydı. «Minnətdaram», – dedim.

«Minnətdar olmalı nə var burada? – qadın hirslə soruşdu. – Allahınıza minnətdar olun ki, ata-ananız sizə vətən bəxş edib, siz onu sevə bilərsiniz, lap bədbəxt olsa belə və öz bədbəxtliyində daha da bədbəxtləri həbsxanaya salır, onları öldürtdürmək üçün yırtıcıların ağzına atır, vətəninizi bədbəxt günə qoyan yırtıcıların ağzına! İndi isə işığınızı çəkin, – deyə əlavə etdi. – Yaxşı olardı ki, bəzi başlara da işıq çəkəydilər!»

«Almanların komissiyası burada olub?» – tələsik soruşdum.

«Nədir sizi maraqlandıran?»

«Eşitmişəm, onun gəlişini gözləyirlər».

«Bunu bilməkdən zövq alırsınız?»

«Yox. Kimisə xəbərdar etməliyəm».

«Kimi?» – deyib yerindən dikəldi.

«Helen Baumanı», – cavab verdim.

Qadın mənə baxdı, sonra soruşdu: «Nə barədə?»

«Tanıyırsınız?»

«Niyə soruşursunuz?»

Yalnız azca keçəndən sonra anladığım inamsızlıq divarı baş qaldırdı. «Əriyəm», – dedim.

«Sübutunuz var?»

«Yox. Sənədlərim başqadır. Əgər desəm ki fransız deyiləm, bu, sizə bəs edər?»

Ölü Şvarsın pasportunu çıxartdım.

«Nasist pasportu, – dedi. – Elə də fikirləşirdim. Niyə belə edirsiniz axı?»

Səbrim tükəndi: «Arvadımı görmək üçün. O, buradadır. Özü mənə yazmışdı».

«Məktub yanınızdadır?»

«Yox. Düşərgədən qaçanda məhv etdim. Gizlənqaç oynamağın mənası nədir?»

«Bunu mən də bilmək istərdim, – dedi. – Amma sizdən».



Həkim geri qayıtdı. «Burada lazımsınız?» – qadından soruşdu.

«Xeyr».

«Onda gedək. İşinizi qurtardınız?» – sualı mənə verdi.

«Hələ yox. Sabah bir də gələcəyəm».

Yeməkxanaya qayıtdım. Kürənsaç qadın iki ayrısı ilə masanın yanında dayanıb onlara alt paltarı satırdı. Gözlədim və hiss etdim ki, xoşbəxtliyim əldən çıxıb; düşərgədən çıxmaq istəyirdimsə, getməliydim. Keşikçilər dəyişəcəkdi və yenilərinə hər şeyi təzədən izah edəsi olacaqdım. Heleni görmədim. Qadın gözünü gözümdən yayındırdı. Sövdələşməni uzadırdı. Sonra bir-ikisi də gəldi və mən zabitin pəncərənin qabağından keçdiyini gördüm. Yeməkxanadan çıxdım. Qapıda hələ də köhnə keşikçilər dayanmışdı. Məni tanıyıb çölə buraxdılar. Gedirdim və Levernedəki eyni hissləri keçirirdim: məni tutmaq üçün indicə arxamca gələcəklər. Tər məni basdı.

Köhnə bir yük maşını yuxarı qalxırdı. Heç yana qaça bilmədim və başımı aşağı salıb yolun qırağı ilə yeridim. Maşın məni keçib düz arxamda dayandı. Qaçmaq istəyimə duruş gətirdim. O dəqiqə geri dönə bilərdi və bütün şanslarımı itirmiş olardım. Arxadan iti addım səsləri eşitdim. Kimsə çağırdı: «Ey, montyor!» Geri qanrıldım. Mundirli, yaşlı bir kişi mənə doğru gəlirdi. «Motordan başınız çıxır?»

«Xeyr. Mən elektrikəm».

«Bəlkə də, elektrik alışmasındandır. Bir bizim mühərrikə baxardınız».

«Elədir, baxsanız, pis olmaz», – ikinci sürücü dilləndi. Başımı qaldırıb baxdım. Helen idi. Əsgərin arxasında dayanmışdı, diqqətlə mənə baxırdı və barmağını ağzına tutmuşdu. Əynindəki şalvar və sviter onu nərmə-nazik göstərirdi.

«Heç olmasa, bir baxın, – deyib yanından adlamağıma imkan yaratdı. – Ehtiyatlı ol! – mızıldadı. – Özünü elə apar ki, guya başın çıxır! Heç nə xarab olmayıb». Əsgər ətrafımızda dolaşırdı. «Hardan gəlirsən?» – pıçıltı ilə soruşdu.

Guruldayan mühərrikin qapağını açdım: «Qaçmışam. Səni necə görə bilərəm?»

Mənimlə bərabər motorun üstünə əyildi. «Yeməkxana üçün bazarlıq edirəm. Birisi gün. Kənddə ol! Soldakı birinci kafedə. Səhər saat doqquzda».

«Bəs ondan əvvəl?»

«Çox çəkər?» – əsgər soruşdu.

Helen şalvarının cibindən bir qutu siqaret çıxardıb ona uzatdı və dedi: «Vur-tut bir-iki dəqiqə. Elə bir şey deyil».

Əsgər siqaretini yandırıb yolun qırağında əyləşdi. «Harada? – motorun üstünə əyilib Helendən soruşdum. – Meşədə? Çəpərin yanında? Dünən orada idim. Bu gün axşam?»

Bir anlığa duruxdu: – Yaxşı. Bu gün axşam. Saat ondan qabaq bacarmayacam, – dedi.

«Niyə ki?»

«O vaxt hamı çəkilib gedir. Deməli, onda. Baş tutmasa, birisi gün tezdən. Ehtiyatlı ol».

«Buranın jandarmları necədir?»

Əsgər yaxına gəldi. «O qədər də pis deyillər, – Helen fransızca dilləndi, – indicə hazır olar».

«Köhnə maşındır», – dedim.

Əsgər güldü. «Təzələri lap başdakılarda olur. Bir də nazirlərdə. Hazırdır?»

«Hazırdır», – Helen cavab verdi.

«Yaxşı ki sizə rast gəldik, – əsgər dilini işə saldı. – Maşından bildiyim bircə odur ki, benzin istəyir».

O, avtomobilin üstünə qalxdı. Helen kabinəyə mindi. Açarı burdu. Görünür, təkcə odlamanı açıbmış. Motor işlədi.

«Çox sağ olun», – deyib pəncərədən mənə doğru əyildi. Dodaqları çətin eşidilə bilən sözlər söylədi. Sonra: «Əla sənətkarsınız», – deyib yerindən tərpəndi.

Bir neçə saniyə maşın yağının mavi tüstüsündə qaldım. Demək olar, heç nə hiss etmədim, yüksək isti ilə soyuğun ani dəyişməsi zamanı adam heç nə hiss etmədiyi kimi. Sonra mexaniki olaraq asta-asta yoluma davam edərkən fikirləşməyə başladım və həmin fikirlərlə birlikdə içimə bir narahatlıq doldu, eşitdiklərim yadıma düşdü və şübhənin kirimiş, titrək və deşici əzabı varlığımı silkələdi.

Meşədə uzanıb gözlədim. Səslərini içəri salıb gözlərini kor kimi axşamın qaranlığına zilləyən qadınların, Helenin dediyi kimi, giley hasarı canlandı. Tezliklə çoxu çıxıb-getdi, sanki, geriyə hürküdüldülər. Qaranlıq düşdü. Məftilli çəpərin dirəklərinə baxdım, bir azdan onların arasında təzə, tutqun bir kölgə göründü.



«Haradasan?» – Helen pıçıldadı.

«Burada! – dəvdənə-dəvdənə ona sarı getdim. – Gələ bilirsən?» – soruşdum.

«Bir az gec. Hamı gedəndən sonra. Gözlə».

Sinə-sinə geri – kolluğa qayıtdım, xeyli uzağa ki, cib fənərini meşəyə tuşlayan olsa, məni görməsin. Torpağın üstündə uzandım, ölmüş yarpağın kif qoxusu burnuma doldu. Həzin külək əsdi, dörd yanım xışıldadı, sanki, minlərlə casus sürünə-sürünə mənə doğru gəlirdi. Gözüm getgedə qaranlığa alışdı, indi Helenin kölgəsini və cizgilərini sezə bilmədiyim sifətini görə bilirdim. Elə bil, o, tikanlı məftildən ağ çiçəkli qara bitki kimi asılmışdı və sanki, yenidən qaranlıq çağların qapqara adsız fiquruna çevrildi; sifətini dəqiq sezə bilmədiyimə görə o, dünyanın bütün əzabkeşlərinin timsalına çevrildi. Bir az aralıda Helen kimi dayanmış ikinci qadını gördüm, sonra üçüncüsünü, dördüncüsünü və sairə – onlar qəm və ümid qübbəsini başlarının üstündə saxlayan qadın heykəlli sütunlar təki dayanmışdılar. Dözülməz mənzərə idi və gözümü çəkdim. Yenidən ora baxanda o biri üç qadın səssizcə çıxıb getmişdi və gördüm ki, Helen əyilib tikanlı məftili dartışdırır.

«Arala bir-birindən», – dedi. Ayağımı alt məftilin üstünə qoyub o birilərini yuxarı qaldırdım. «Gözlə», – yenidən dilləndi.

«O birilər necə oldu?» – soruşdum.

«Getdilər. Biri nasistdir. Ona görə də tez çıxa bilmədim. Satardı. Ağlayan tayı idi. – Helen köynəyini də, ətəkliyini də çıxarıb məftilin üstündən mənə uzatdı. – Çalışaq çırılmasın, – dedi, – ayrısı yoxumdur».

Eyzən kasıb ailələrdə olduğu kimiydi, orada da uşağın corabının cırılmasındansa dizinin əzilməsini üstün tuturlar, çünki yara sağalar, təzə corab almaqsa müşkül işdir.

Paltarlarını əlimdə tutmuşdum. Helen aşağı əyilib məftillərin arasından ehtiyatla süründü. Kürəyi cızıldı. Qan nazik qara ilan təki dərisi aşağı sızdı. Dikəldi.

«İndi qaça bilərik?» – soruşdum.

«Haraya?»

Hazır cavabım yox idi. Doğrudun da, haraya?

«İspaniyaya, – dedim, – Portuqaliyaya, Afrikaya».

«Gəl, – dedi, – gedək və bu barədə danışmayaq. Sənədsiz buradan heç kim qaça bilməz. Ona görə də ciddi nəzarət etmirlər».

Qabağıma düşüb meşəyə doğru getdi. Demək olar, çılpaqlığı və gözəlliyi ilə sirlər yuvası idi. Helendən, arvadımdan qalan yalnız son ayların nişanəsi idi; keçmişin həniri altında onu şirinli, ağrılı tanımaq üçün bu da yetərli idi. Əvəzində kimsə yanımdaydı, az qala adsız, qadın heykəlli sütunlardan qoparaq, iyirmi illik normal mövcudluqdan çox olan qəribliyin doqquz ayı ilə dövrələnərək».

## XIV

Bundan qabaqkı meyxananın sahibi yanımıza gəldi.

«O kök əladır, – fəxrlə dilləndi. – Fransızdır. Tərtəmiz şeytandır, məsləhətli şeydir, cənablar! Bizim qadınlar atəşlidir, amma tələskəndirlər». Ağzını marçıldatdı. «Sizinlə sağollaşıram. Fransız qadınının qanını qızışdırmaqdan gözəl nə ola bilər?! Onlar yaşamağı başa düşürlər. Bizim qadınlara baxanda onlara çox da yalan danışmaq lazım gəlmir. Evinizə sağ-salamat çatın, cənablar! Lolita ilə Juanaya yaxın düşməyin. Heç biri bir şey deyil və gözünü yuman kimi Lolita gözdən tük qapır».

Kişi getdi. Qapı açılanda səhər içəri cumdu və erkən çağın səs-küyü eşidildi.

«Deyəsən, biz də gedəsi olacağıq», – dedim.

«Söhbəti tez bitirəcəyəm, – Şvars cavab verdi, – hələ bir az şərabımız da qalıb». Qulağımız dinc olsun deyə, qadınların üçünə də şərab və qəhvə sifariş verdi. «Çox da danışmadığımız bir gecə idi, – söhbətinə davam etdi. – Pencəyimi yerə sərmişdim, hava soyuyanda Helenin ətəkliyini və mənim sviterimi də üstümüzə örtdük. Helen yuxuya getdi, bir azdan ayıldı; yarıyuxuda hiss etdim ki, ağlayır, sonra yenidən zəriflik timsalına çevrilib məni əzizlədi, belə şeyi indiyə qədər onda görməmişdim. Heç nə soruşmadım, düşərgədə eşitdiklərimi də demədim. Onu dünyalar qədər sevirdim, bununla belə, izaholunmaz bir sərinliklə ondan uzaq idim. Zərifliyinə bir kədər də qatıldı, bu kədər zərifliyi daha da gücləndirdi; sanki, hər ikimiz dünyanın o başına, geri qayıtmaq üçün, ya da haçansa harayasa çatmaq üçün çox-çox uzaqlara sıxışdırılıb uzanmışdıq, bir-birimizin yanında, içimizdə uçuş duyğusu və məyusluq, elədir, məyusluq, xoşbəxt göz yaşlarımızın, agahlığın ağlamadan axan gizli göz yaşlarının üstünə tökülən o üzdəki səssiz məyusluq, həmin agahlıq da yalnız fanilikdən ibarətdir, nə harasa yetişməsi var, nə də geriyə dönüşü.



«Qaça bilmərik?» – Helen tikanlı məftilin arası ilə sivişib o üzə keçməmiş bir də soruşdum. O tərəfə adlayana qədər cavab vermədi.

«Bacarmaram, – pıçıltı ilə dedi. – Bacarmaram. Buna görə başqalarını cəzalandıracaqlar. Yenə gəl! Sabah axşam yenə gəl. Sabah axşam gələ bilərsən?»

«Ona qədər ələ keçməsəm».

Diqqətlə mənə baxdı. Sonra: «Həyatımız niyə puç oldu? – dedi. – Neyləmişdik ki, həyatımız belə puç oldu?»

Köynəyi ilə ətəkliyini ona verdim. «Paltarının yaxşıları budur? – soruşdum. Başı ilə təsdiqlədi. – Çox sağ ol ki, onları geymisən, – dedim, – inanıram ki, sabah axşam burada olacağam. Meşədə gizlənəcəyəm».

«Bəs yeməyin?! Nəsə varındır?»

«Bir az var. Hər halda, meşədə giləmeyvə də olar. Ya da göbələk, qoz».

«Sabah axşama qədər dözə bilərsən? Nəsə bir şey gətirərəm».

«Əlbəttə. Sabah axşama nə qalıb ki?! Artıq səhər açılır».

«Göbələk yemə. Sən onları tanımırsan. Xeyli yemək gətirəcəyəm». Ətəkliyini geyindi. Ətəklik enli və açıq-göy rəngdə idi, ağ güllərlə. Onu əndamına dolayıb düymələdi, sanki, döyüş kəmərini bağlayırdı. «Səni sevirəm, – şaşqın dilləndi. – Səni necə sevdiyimi heç vaxt bilməyəcəksən. Bunu unutma! Heç zaman!»

* * *

Hər dəfə məndən ayrılanda belə deyirdi. Elə bir zamana gəlib çatmışdıq ki, hamı üçün, həm qanunun quduzlaşmış duyğusundan canlanaraq bizi hər yanda axtaran fransız jandarmı, həm də Peten hökuməti ilə müqaviləyə əsasən icazə verilməməyinə baxmayaraq, düşərgələrə soxulmağa çalışan gestapo üçün ov heyvanına çevrilmişdik. Bilmək olmurdu səni hansı qapazlayacaq, odur ki hər səhər vidasını sonuncu sayırdın.

Helen mənə çörək, meyvə, hərdən də bir tikə kolbasa və pendir gətirirdi. Qalmaq üçün aşağıya, stansiyaya getməyə ürək eləmirdim. Meşədə qərar tutdum və bir az uzaqda tapdığım monastırın köhnə, uçuq xarabalığında yaşadım. Gündüzlər orada yatır, ya da Helenin gətirdiklərini oxuyur və kolun arasından, buradan məni çətin görərdilər, yolu göz altında saxlayırdım. Helen mənə həm də xəbərlər və şayiələr gətirirdi: məsələn, almanlar getdikcə yaxınlaşır və bağladıqları müqavilələrə əməl eləmirlər.

Buna baxmayaraq hayatımız təşviş içindəydi. Qorxu tez-tez acı mədə şirəsi kimi qaynayıb qalxırdı; fəqət təkcə hazırkı saatı yaşamaq vərdişi həmişə qalib gəlirdi. Hava mülayim keçirdi, gecələr səmada ulduzlar sayrışırdı. Helen çadır parçası tapıb-gətirmişdi, monastırın xarabalığında üstümüzə quru yarpaq töküb onun üstündə yatır və gecənin pıçıltısına qulaq asırdıq.

«Düşərgədən necə çıxa bilirsən? – bir dəfə soruşdum. – Özü də belə tez-tez?»

«Xırda bir vəzifəm var, bir az da proteksiya, – xeyli susub cavab verdi. – Görmədinmi, hərdən kənddə də oluram».

«Ona görə də mənə yemək tapa bilirsən?»

«Yeməkxanadan götürürəm. Pulumuz olanda, mal tapılanda almağa icazə də verirlər».

«Qorxmursan ki, səni burada görən olar, ələ verər?»

Gülümsədi: «Təkcə sənə görə qorxuram, özümə görə yox. Mənə nə olasıdır ki? Onsuz da həbsdəyəm», – dedi.

Ertəsi axşam gəlmədi. İztirab divarı əridi, sürünüb ora yaxınlaşdım, zəif işıqda baraklar qapqara görünürdü, gözlədim, ancaq Helen gəlmədi. Bütün gecəni ayaqyoluna gedən qadınların səsini, ah və nalə eşitdim və birdən yolda avtomobillərin boğulmuş işıqlarını gördüm. Gündüz meşədə qaldım. Narahat idim, görünür, nəsə olmuşdu. Düşərgədə eşitdiklərim haqqında düşündüm və qəribə də olsa, bu, mənə təsəlli oldu. Hər şey yaxşı olar, təki Helen xəstələnməsin, təki onu aparmasınlar, təki yaşasın. Bunların hər üçü bir-biri ilə elə sıx bağlıydı ki, üçünün də mənası eyni idi. Və həyatımız elə çıxılmaz olmuşdu ki, indi bircə şey haqqında düşünürdüm: özünü itirməmək, haçansa çalışıb burulğandan dalğasız bir limana çıxmaq. Bəlkə, onda hər şeyi unuda bilərdik. Unutmaq olmaz. Bol-bol sevgi ilə, bol-bol mərhəmətlə, bol-bol yaxşılıqla, bol-bol nəvazişlə də unutmaq olmaz. Burasını bilirdim və mənə fərq etmirdi, meşədə uzanıb budaqlardan qopan əlvan yarpaqların yellənən cəsədlərinə baxırdım və bircə şey düşünürdüm: «Ona qıyma! Ona qıyma, Allahım, bir də ondan heç nə soruşmayacağam. İnsanın həyatı onun düşdüyü ziddiyyətlərdən qat-qat üstündür, ona qıyma, qoy yaşasın, mənsiz qalsa da, yaşasın, təki yaşasın, qıyma ona, Allahım!»



Helen növbəti gecə də gəlmədi. Axşamdan xeyli keçmiş yenə iki avtomobil göründü. Düşərgəyə gedirdilər. Xeyli aralıdan sürünüb onların mundirli olduqlarını gördüm. Mundirlərin SS-ə, yoxsa vermaxta[1] aid olduğunu ayırd edə bilmədim, hər halda, alman mundirləri idi. Dəhşətli bir gecə keçirdim. Avtomobillər doqquz radələrində gəlmişdi və düz saat birdə geri qayıtdı. Gecə gəlmələri faktı tam inam yaradırdı ki, gestapo olub. Onlar gedəndə düşərgədən kimləri isə özləri ilə aparıb-aparmadıqlarını bilə bilmədim. Səhərə qədər yolda, düşərgənin ətrafında süləndim, sözün hərfi mənasında süləndim. Sonra montyor kimi bir kərə də düşərgəyə girmək istədim, amma gördüm ki, keşik ikiqat güclənib və mülki geyimli bir kişi əlindəki siyahı ilə onların yanında oturub.

[1] *Vermaxt* (hərf. – müdafiə gücü) – Almaniyada silahlı qüvvələr və müdafiə nazirliyi

Gündüz bitmək bilmirdi. Mən tikanlı məftillərin yanı ilə sinə-sinə yüzüncü kərə gedəndə birdən bu tərəfdə – məftildən iyirmi addım aralıda qəzetə bükülmüş bir bağlama gördüm. İçində bir az çörək, iki alma və imzasız bir kağız parçası vardı: «Bu gün axşam». Mən burada olmayanda onu Helen atmış olacaqdı. Çörəyi dizüstə yedim, birdənbirə yaman zəifləmişdim. Sonra gizləndiyim yerə gedib yatdım. Günortadan sonra ayıldım. Qızılı rəngə çalan işıqlı bir gün idi, sanki, ətrafa şərab çilənmişdi. Yarpaqlar hər gecə bir az da rəngə boyanırdı. Fıstıq ağacları, bir dənə də cökə isti günorta günəşinin altında xumarlanır, işığımın qabağını kəsirdilər, elə sarı, elə qırmızı ki, sanki, gözəgörünməz bir rəssam onları mən yatanda çəkib fakellərə çevirmişdi ki, tamam uyuyan işıqda tərpənmədən bərq vursunlar. Bircə yarpaq belə tərpənmirdi». Özü öz sözünü kəsdi. «Mən lüzumsuz təbiət mənzərələrini təsvir edəndə, xahiş edirəm, səbirli olasınız. Həmin vaxt təbiət bizə heyvanlara olduğu kimi analıq edirdi. Yeganə varlıq idi ki, bizi özündən itələmirdi. Bizdən nə pasport, nə də arilərin şəxsiyyət vəsiqəsini istəyirdi. Verirdi, alırdı, fəqət insan deyildi və bir növ təbabət idi. Həmin günorta məni uzun müddət həyəcanlandırmadı; qorxurdum ki, piyalə kimi daşam, su təki qıraqlardan daşıb töküləm. Sonra tam sakitlikdə, külək tərpənməyə-tərpənməyə qəfildən yüzlərcə yarpağın yellənə-yellənə ağaclardan yerə töküldüyünü gördüm, elə bil, hansısa sirli bir əmri yerinə yetirirdilər. Aydın havada bigənə-bigənə sürüşüb yerə tökülürdülər, bir neçəsi də mənim üstümə düşdü. Həmin an ölümün azadlığını və onun azman təsəllisini dərk etdim. Heç bir qərar vermədən bildim ki, Helen dünyadan köçərsə, mənə düşən həyatımın axırına çıxmaq olar, onsuz qala bilmərəm, belə bir addım sevginin hüdudsuzluğu müqabilində insana verilən yeganə imkandır, mən bunu fikirləşmədən dərk etdim və dərk etdikcə anladım ki, dərinə varanda ölmək heç də yeganə çıxış yolu deyil.

* * *

Helen fəryad divarının sırasında deyildi. O yalnız başqaları gedəndən sonra gəldi. Əynində qısa şalvar və köynək vardı, məftilin arasından mənə bir şüşə şərab və

bir bağlama uzatdı. Vərdiş etmədiyim geyimdə xeyli cavan görünürdü.

«Tıxac çıxarılıb, – dedi, – burada badə də var». – Tikanlı məftilin arasından sivişib keçdi. – «Yəqin, bərk acmısan. Parisdən çıxandan bəri görmədiyimi yeməkxanadan almışam».

«Odekolon», – dedim. Tər gecədə ondan təravətli odekolon iyi gəlirdi.

Başını buladı. Gördüm ki, saçı kəsilib, əvvəlkindən xeyli qısa idi.

«Nə olmuşdu axı? – birdən acıqlı-acıqlı soruşdum. – Ağlıma min cür fikir gəldi, dedim, səni aparıblar, ya da ölüm ayağındasan, indi, budur, gəlmisən, özü də, elə bil, gözəllik salonundan çıxmısan. Dırnaqlarını da manikür elətdirmisən».

«Özüm eləmişəm. – Əllərini yuxarı tutub güldü, – gəl şərabımızı içək!»



«Nə olmuşdu? Gestapo gəlmişdi?»

«Yox. Hərbi komissiya. Amma yanlarında iki gestapoçu da vardı».

«Kimisə apardılar?»

«Yox, – dedi, – süz, içim».

Gördüm ki, çox həyəcanlıdır. Əlləri isti idi, dərisi elə qurumuşdu ki, sanki, indicə xırçıltı ilə sınıb töküləcəkdi. «Gəlmişdilər, – dedi. – Gəlmişdilər ki, düşərgədəki nasistlərin siyahısını tutsunlar. Onları Almaniyaya göndərəcəklər».

«Nasistlər çoxdur?»

«Nə qədər istəsən. İnanmazdıq ki, bu qədər olarlar. Çoxusu heç vaxt boynuna almırdı. Tanıdığım biri vardı, birdən qabağa çıxıb dedi ki, partiyanın üzvüdür, qiymətli məlumatlar toplayıb, vətənə dönmək istəyir, burada onunla çox pis davranırlar, gərək onu elə indicə özləri ilə aparsınlar. Onu yaxşı tanıyırdım, çox yaxşı. Bilir ki...»

Şərabını tələsik içib badəni mənə verdi. «Nəyi bilir?» – soruşdum.

«İndi dəqiq deyə bilmərəm. O qədər gecələr vardı ki; biz də ki danış ki, danışasan. Mənim kim olduğumu bilir, – başını qaldırdı, – geri qayıdan deyiləm, heç vaxt! Məni aparmaq istəsələr, canıma qəsd edəcəyəm».

«Etməyəcəksən, onlar da səni aparmayacaqlar. Bilirsən, niyə? Georq, Allah bilir, haralardadır, heç nədən xəbər

tutmayacaq. Bir də, arvad səni niyə satsın ki? Bununla əlinə nə keçəcək?»

«Söz ver ki, qoymayacaqsan məni geri aparsınlar».

«Söz verirəm», – dedim. Elə həyəcanlanmışdı ki, ona dağlar vəd etməkdən başqa heç nə edə bilməzdim.

«Səni sevirəm, – xırıltılı, həyəcanlı səslə dilləndi, – nə olacaqsa olsun, səni sevirəm, buna heç vaxt şübhən olmasın».

«Haçan olub ki?!» – cavab verib inandım da, inanmadım da.

Üzgün-üzgün arxaya dirsəkləndi. «Gərək qaçaq, – dedim, – özü də bu gecə».

«Hara? Pasportun yanındadır?»

«Hə. Sənədlərimizin saxlandığı bölmədə işləyən kişi onu mənə verdi. Səninki kimdədir?»

Cavab vermədi. Gözünü zilləyib bir xeyli qabağa baxdı.

«Burada bir yəhudi ailəsi var, – dedi, – ər-arvad və uşaq. Bir neçə gün əvvəl gəliblər. Uşaq xəstədir. Qabağa çıxıb dedilər ki, Almaniyaya qayıtmaq istəyirlər. Kapitan soruşdu ki, yəhudi deyillərmi? Kişi də dedi ki, almandırlar. Geri qayıtmaq istəyirlər. Kapitan nəsə demək istədi, amma hər iki gestapoçu onların yanında dayanmışdı. «Doğrudan, qayıtmaq istəyirsiniz»? – bu dəfə gestapoçulardan biri soruşdu. – Adlarını yazın, kapitan, – deyib güldü. – Vətənin həsrətini belə çəkirlərsə, onlara əl tutmaq lazımdır». Adlarını yazdılar. Onlara söz deməyin xeyri yoxdur. Deyirlər ki, daha dözə bilmirlər, uşaq ağır xəstədir, onsuz da başqa yəhudiləri də buradan aparacaqlar, yaxşısı budur, əvvəlcədən özlərini bildirsinlər, biz hamımız tələyə düşmüşük, könüllü getmək daha yaxşı olar. Kar qatır kimidirlər, sən, gərək, onlarla danışasan».

«Mən? Mən onlara nə deyim axı?»

«Sən işin içindəsən. Orada düşərgədə olmusan. Yenidən Almaniyaya qayıtmısan. Təzədən qaçmısan».

«Bunu onlara harada deməliyəm?»

«Burada. Kişini gətirəcəyəm. Harada olduğunu bilirəm. Elə indicə. Özünə demişəm. Onu hələ xilas etmək olar».

* * *

Yarım saatdan sonra tikanlı məftildən keçməyə ürək etməyən sısqa bir kişi gətirdi. Kişi məftilin o üzündə, mən də bu üzündə dayanmışdıq və o, məni dinləyirdi. Bir az sonra arvadı da gəldi. Qadının bət-bənizi solğun idi və dinib-danışmırdı. Hər ikisini və uşaqlarını təqribən on gün əvvəl yaxalamışdılar. Bir-birlərindən aralı müxtəlif düşərgələrdə olmuş və oradan qaçmışdılar. Kişi arvadını möcüzə sayəsində tapmışdı. Qadın hər yerdə, yollardakı daşların və evlərin tinlərində öz adını yazırmış». – Şvars mənə baxdı. – «Via Dolorosa[1] haqqında məlumatınız olmamış olmaz?»

«Kimin məlumatı yoxdur ki?! Belçikadan tutmuş Pireneylərə qədər uzanıb gedir».

Via Dolorosa müharibə başlayan kimi yaranmışdı. Alman qoşunlarının Belçikaya hücumundan və Majino xəttinin[2] dağılmasından sonra böyük qaçqınlıq başlamışdı, əvvəlcə ev avadanlığı və çarpayılar yüklənmiş avtomobillərdə, sonra hər çeşiddən olan qoşqularda, velosipedlərdə, at və insanların özlərinin çəkdiyi əl arabalarında, uşaq arabalarında və nəhayət, piyadaların sonsuz sıralarında qırıcı təyyarələrin hədəsi altında Fransanın qızmar yayında cənuba doğru axın başlamışdı. «Küçə qəzetləri» də həmin vaxt yaranmışdı. Yolların qırağındakı barılarda, kənd evlərinin divarlarında, küçə kəsişmələrində bir-birini axtaran insanların adları və fəryad harayları yazılırdı, kömürlə, tabaşirlə, boyalarla. İllər öncə qaçqınlıq yolu tutmuş və polisdən gizlənən mühacirlərin isə Nissadan tutmuş Neapola qədər, Parisdən tutmuş Sürixə qədər əlavə gözətçi məntəqələrinin şəbəkəsi vardı. Bunlar həmin yerlərdə yaşayıb xəbərləri, ünvanları paylaşan, məsləhət və bir neçə gecəliyinə sığınacaq verən insanlar idi. Şvarsın haqqında danışdığı kişi onların köməyi ilə arvadını və uşağını təzədən tapmışdı, yoxsa bu, xalqın dilində deyildiyi kimi, ot tayasında iynə axtarmaq təki çətin olardı.

«Burada qalsaq, bizi təzədən bir-birimizdən ayıracaqlar», – kişi sözünə bu cür başladı, – Şvars dedi. – «Bura qadın düşərgəsidir. Bizi bura birlikdə salıblar, ancaq bir neçə günlüyə. Mənə dedilər ki, harasa ayrı bir yerə göndə-



---

[1] *Via Dolorosa* – xaç yolu

[2] *Majino xətti* – Fransanın şərq sərhədi boyunca hərbi məqsəd üçün bərkidilmiş zona. 1928-1932-ci illər arasında Fransanın hərbi naziri A.Majinonun (A.Maginot) planları əsasında tikilmişdi.

riləcəyəm, kişi düşərgələrinin birinə. Buna dözə bilmərik». Hər şeyi ölçüb-biçmişdi; fikirləşirdi ki, belə olduğu yaxşıdır, qaça bilməzlər, buna cəhd də ediblər, qaçsalar, acından ölərlər, uşaq xəstədir, arvad da əldən düşüb, özünün isə daha gücü qalmayıb, Almaniyaya könüllü qayıtmaq daha yaxşı olar, biz hamımız sallaqxana tövləsindəki qaramalıq, ehtiyacları olarsa, kefləri durarsa, bizi də aparacaqlar. Uzunsov sifətli, xırda qara bığlı bu zərif, arıq kişi sözünü bu sualla bitirdi: «Hələ imkan olanda niyə qoymadılar əkilib gedək?»

Bu suala cavab tapan olmazdı. Doğrudur, bizi saxlamaq istəmirdilər, amma getməyə də qoymurdular. Bu, millətin məğlub məqamında vəziyyəti dəyişməli olanların diqqət yetirmədiyi xırda bir paradoks idi.

* * *

Ertəsi gün günortadan sonra yolla iki yük maşını yuxarı qalxırdı. Həmin an tikanlı məftilin canlandığını gördüm. On-on beş arvad məftilin arasından sivişib keçməkdə bir-birinə kömək edirdi. Meşəyə götürüldülər. Heleni görənə kimi gizləndiyim yerdən çıxmadım.

«Prefektura bizi xəbərdar etdi, – dedi. – Almanlar geri qayıtmaq istəyənləri aparmağa gəlirlər. Daha nələr olacağını bilən yoxdur, buna görə də almanlar gedənə qədər meşədə gizlənməyimizə icazə verdilər».

Yoldakı o anı çıxmaqla birinci dəfəydi ki, onu gündüz görürdüm. Uzun qıçları ilə sifəti qaralmışdı, amma əriyib çöpə dönmüşdü. Gözləri iriləşmiş və parlaqlaşmışdı, sifəti nazilmişdi.

«Yeməyini mənə verib özün ac qalırsan», – dedim.

«Yeməkdən korluğum yoxdur, – cavab verdi. – Onun qeydinə qalırlar. Budur... – əlini cibinə saldı, – burada hətta bir parça şokolad da var. Dünən öz pulumuzla ciyər paşteti ilə sardin konservi ala bildik. Amma çörəksiz».

«Söhbət elədiyim kişi də gedirmi?» – soruşdum.

«Hə, – qəfildən Helenin sifəti səyridi. – Mən heç vaxt qayıdan deyiləm, – dedi. – Heç vaxt! Bunu sən mənə söz vermisən! İstəmirəm məni tutsunlar!»

«Tutmazlar».

Bir saatdan sonra maşınlar geri qayıtdı. İçindəki qadınlar oxuyurdu: «Almaniya, Almaniya hər şeydən uca».

Levernedə aldığım zəhərin yarısını həmin axşam Helenə verdim.

Ertəsi gün artıq bilirdi ki, Georq onun harada olduğundan xəbər tutub.

«Bunu sənə kim deyib?» – soruşdum.

«Xəbəri olanın birisi».

«Kim?»

«Düşərgənin həkimi».

«Haradan bilir?»

«Komendantlıqdan. Ora sorğu göndəriblər».

«Həkim sənin neyləməli olduğunu da dedi?»

«Məni bir neçə günlüyə xəstələr barakında gizlədə bilər. Çox yox».



«Onda düşərgəni tərk etməlisən. Təhlükədə olanların meşədə gizlənməsi xəbərdarlığı dünən kimdən gəlmişdi?»

«Prefektdən».

«Əla, – dedim. – Bax gör pasportunu və buradan buraxılma kağızını birtəhər ala bilərsənmi. Bəlkə, həkim kömək elədi. Alınmasa, qaçarıq. Heç kəsə bir kəlmə də. Heç kəsə! Prefektlə danışmağa çalışacağam. Kişi adama oxşayır».

«Elə şey eləmə! Ehtiyatlı tərpən! Allah xatirinə, ehtiyatlı ol!»

Montyor paltarımı bacardıqca yaxşı-yaxşı təmizləyib səhər-səhər meşədən çıxdım. Alman patrullarının, yaxud fransız jandarmlarının əlinə düşə biləcəyimi gözümün altına almalı oldum; buna indidən hazır olmalıydım.

Prefektin yanına düşə bildim. Özümü hərbi məqsədlər üçün elektrik xəttinin çəkilməsi barədə məlumat toplamaq istəyən alman texniki kimi təqdim edib jandarm və katibin üstünə təpindim. Gözlənilməz bir işdən yapışanda nəyəsə nail olursan, burasını yaxşı bilirdim. Jandarm məni qaçqın kimi o saat tutardı. Bu qəbildən olan insanlar bağırtıya daha yaxşı reaksiya verirlər.

Prefektə düzünü danışdım. Əvvəlcə məni bayıra atmaq istədi. Sonra sırtıqlığımla məzələnməyə başladı. Siqaret verib dedi ki, rədd olum cəhənnəmə, nə dəvə görüb, nə də qığını. On dəqiqə sonra başa saldı ki, əlindən heç nə gəlmir, çox güman ki, almanlarda siyahı var, kimsə çatışmasa, onu günahkar biləcəklər. Alman konslagerində gəbərmək istəmir.

«Cənab prefekt, – dedim, – dustaqları müdafiə etdiyinizi bilirəm. Onu da bilirəm ki, verdiyiniz əmrlərə əməl etməlisiniz. Amma siz də, mən də dəqiq bilirik ki, Fransa məğlubiyyətin xaosu içindədir, bugünkü əmrlər sabahın rüsvayçılığı ola bilər, şaşqınlıq mənasız qəddarlığa çevrilirsə, sonradan ona bəraət qazandırmaq çətin olur. Niyə siz, iradənizin əksinə olaraq, günahsız insanları krematoriya və işgəncə düşərgələri üçün qoruyub saxlamalısınız? Ola bilsin, Fransa hələ müdafiə olunanda təcavüzkarların tərəfdarı və ya əleyhdarları olub-olmamalarına baxmadan əcnəbiləri çıxarılar düşərgəsinə salmaqda bir ədalət işartısı vardı. Amma müharibə çoxdan qurtarıb; qaliblər özlərininkiləri bir-iki gün qabaq apardılar, sizin indi düşərgədə saxladıqlarınız ölümə sürüklənəcəkləri qorxusundan hər gün ölübdirilən qurbanlardır. Əslində, mən bütün bu qurbanların hamısı üçün xahiş etməli idim, amma yalnız onlardan birini xahiş edirəm. Siyahı sarıdan qorxunuz varsa, arvadımı qaçqın kimi, ölmüş kimi, intiharçı kimi, ürəyiniz necə istəyirsə, elə qeyd edin, onda məsuliyyətdən də yaxa qurtararsınız!»

Xeyli üzümə baxdı. Axırda: «Sabah bir də gəlin», – dedi.

Yerimdən tərpənmədim: «Sabah kimin əlinə düşəcəyimi bilmirəm, – dedim. – Bu gün edin».

«İki saatdan sonra gəlin».

«Qapınızın ağzında gözləyəcəyəm, – dedim. – Tanıdığım ən təhlükəsiz yer buradır».

Birdən gülümsədi: «Quelle affaire d'amour[1], – dedi. Ər-arvadsınız, gərək elə yaşayasınız ki, guya, ər-arvad deyilsiniz. Adətən, bunun tərsi olur».

Rahatlandım. Bir saatdan sonra məni içəri çağırdı.

«Düşərgənin rəhbərliyinə telefon açdım, – dedi. – Arvadınızla maraqlanmaları doğrudur. Sizin təklifinizə əməl edib onu öldürəsi olacağıq. Onda sizin də canınız dincələr, bizim də».

Başımla razılıq bildirdim. Birdən-birə məni qəribə, soyuq bir qorxu bürüdü, taleyə nəhs gətirməmək xurafatı. Bəs mən özüm çoxdan ölməmişdimmi, ölünün sənədləri ilə yaşamırdımmı?

«Sabaha qədər hər şey yoluna qoyulacaq», – prefekt dedi.

[1] Nə gözəl sevgi macərası

«Bu gün edin, – dedim. – Bircə gün gec qaçdığıma görə düz iki il düşərgədə oturmalı olmuşam».

Birdən-birə tamam heydən düşdüm. Deyəsən, prefekt bunu hiss etdi. Huşumu itirirdim və rəngim tamam dəyişmişdi. Konyak istədi.

«Qəhvə», – deyib kətillərdən birinə çökdüm. Otaq bənövşəyi və bozumtul kölgələrlə başıma fırlandı. Gərək yıxılmayam, qulaqlarımda uğultu başlayanda beynimdən şütüdü. Helen azaddır, buradan getməliyik!

Beynimdəki uğultu və guyultuya bir sifət də, əvvəlcə anlaşılmaz şəkildə, sonra da bərkdən qışqıran bir səs də qarışdı. Həmin səsi və sifəti tutmağa çalışdım, sonra isə eşitdim:

«Nə fikirləşirsiniz, bəyəm mənimlə zarafat niyyətiniz var, merde alors?[1] Bu nə olan işdir, lənət şeytana? Mən dustaq gözətçisi deyiləm, abırlı bir insanam, qoy rədd olsun hamısı, hamı... Açılın başımdan hamınız – hamınız!»



Bayaqkı səsi yenidən itirdim, bilmirəm, doğrudan da, o cürmü qışqırırdı, yoxsa qulağımda bu cür bərkdənmi səslənirdi. Qəhvə gəlib çıxdı, səndələyə-səndələyə otaqdan çıxıb oturacaqlardan birinə əyləşdim. Bir azdan kimsə gəlib dedi ki, azca gözləyim. Deməsəydi də, gedən deyildim.

Sonra prefekt özü gəldi, dedi ki, hər şey qaydasındadır. Mənə elə gəldi ki, dediyim sözlər qədər də halımın xarablaşması köməkçim oldu.

«Halınız yaxşılaşdı? – soruşdu. – Məndən bu cür qorxmağınıza lüzum yoxdur axı. Mən Fransanın xırda əyalət prefektiyəm».

«Bu, elə Allah deməkdir, bəlkə, ondan da bir az artıq, – xoşbəxtlik içində üzərək cavab verdim. – Allah mənə yer üzündə mücərrədqalma icazəsi verib, onu da mən işə yarıda bilmirəm. Mənə əsl lazım olan şey isə sizin əyalətdə qalmaq icazəsidir, bunu da sizdən başqa mənə heç kim verə bilməz, cənab prefekt».

Güldü: «Amma sizi axtarası olsalar, ən təhlükəli yer buradır», – dedi.

«Məni axtarası olsalar, Marsel daha təhlükəlidir, nəinki bura. Güman edəcəklər ki, orada olaram, burada yox. Bizə

---

[1] Lənətə gəlmiş

bircə həftəliyinə qalma icazəsi verin. Bu vaxt ərzində Qırmızı dənizlə gedən dəstəyə qoşula bilərik».

«Qırmızı dəniz?»

«Qaçqınların işlətdiyi ifadədir. Biz Misirdən köç edən yəhudilər kimi yaşayırıq. Arxamızda alman ordusu və gestapo, hər iki tərəfdən fransız və ispan polisi, qarşımızda da Öyülmüş Torpaq Portuqaliya, daha çox Öyülən Amerika torpağına aparan Lissabon limanı ilə».

«Amerikaya vizanız varmı ki?»

«Alarıq».

«Deyəsən, möcüzəyə inanırsınız».

«Ayrı seçimim yoxdur. O möcüzələrdən biri bu gün baş vermədimi?»

Şvars mənə baxıb gülümsədi.

«Qəribədir, adam dara düşəndə hər şeyi ölçüb-biçir. Axırıncı cümləni niyə dediyimi, prefekti Allaha niyə tay tutmaqla ona yarındığımı dəqiq bilirdim. Ondan qısa zaman üçün qalma icazəsi qoparmalıydım. Taleyin başqasından asılı olanda hər şeyi dəqiq hesablayan psixoloqa çevrilirsən, hətta həyəcandan güclə nəfəs alsan da, bəlkə də, elə məhz buna görə. Birinin digərinə dəxli olmur və biri digərinə təsir etmədən hər ikisi ayrı-ayrılıqda fəaliyyət göstərir, yalnız qorxu saxta olmur, ağrı saxta olmur və ölçüb-biçmə də məhz budur. Hamının bir məqsədi var: xilas».

Şvars hiss olunacaq dərəcədə sakitləşmişdi.

«Tezliklə bitirirəm, – dedi. – Birhəftəlik qalma icazəsini, doğrudan da, aldıq. Heleni götürmək üçün düşərgənin darvazası önündə dayanmışdım. Günortadan xeyli keçmişdi. Narın yağış çisələyirdi. Həkim də Helenlə gəlmişdi. Helen məni görənə qədər söhbət etdilər. Helenin başı söhbətə qarışmışdı, üz-gözündə adət etmədiyim bir canlanma vardı; mənə elə gəldi ki, heç kəsin xəbəri olmadan küçədən oğrun-oğrun otağa baxıram. Axırda Helen məni gördü.

«Arvadınız ağır xəstədir», – həkim mənə müraciət etdi.

«Düz deyir, – Helen gülə-gülə dedi. – Məni buraxdılar ki, xəstəxanaya gedib orada ölüm. Şərtləşdiyimiz kimi».

«Zarafatın yeri deyil! – Həkim küskün dilləndi. – Arvadınızın, doğrudan da, xəstəxanaya ehtiyacı var».

«Onda niyə indiyə qədər xəstəxanada deyil?» – soruşdum.

«Bu nə danışıqdır? – Helen dilləndi. – Xəstə deyiləm, heç bir xəstəxanaya da getmirəm».

«Onu təhlükəsiz bir xəstəxanaya yerləşdirə bilərsinizmi?» – həkimdən soruşdum.

«Xeyr», – xeyli fasilədən sonra dedi.

Helen yenidən güldü: «Əlbəttə, xeyr. Bu, nə gic-gici söbətdir?! Adyö[1], Jan».

Qabağa düşüb yolboyu irəlilədi. Xəstəliyini həkimdən soruşmaq istədim, ancaq bacarmadım. Həkim gözünü döyüb mənə baxdı, sonra çevrilib düşərgəyə yollandı. Helenin dalınca getdim.

«Pasportunu götürdün?» – soruşdum. Başını tərpətdi. – «Çantanı ver», – dedim.

«İçində bir şey yoxdur».

«Yenə də olsun».

«Parisdən mənə aldığın bal paltarıdır».



Yolla üzüaşağı gedirdik. «Xəstəsən?» – soruşdum.

«Xəstə olsaydım, yeriyə bilməzdim ki. İstiliyim olardı. Xəstə-zad deyiləm. Jan aldadır. İstəyirdi ki, getməyim. Yaxşı-yaxşı mənə bax. Xəstəyə oxşayıram?» – Yerində durdu.

«Hə», – dedim.

«Qayğılanma», – cavab verdi.

«Qayğılanmıram». – İndi bidim ki, xəstədir; onu da bildim ki, bunu mənə heç vaxt etiraf etməyəcək. – «Xəstəxanaya düşmüş olsaydın, sənə yardımım dəyərdimi?»

«Yox, – dedi, – bir damcı da! Gərək mənə inanasan. Xəstə olsaydım, xəstəxananın da mənə köməyi dəysəydi, həmin an getməyə can atardım. İnan mənə!»

«İnanıram».

Ayrı nə edə bilərdim? Birdən-birə dəhşətli dərəcədə ümidsizləşdim. «Bəlkə, düşərgədə qalsan, yaxşıydı», – nəhayət, dilləndim.

«Gəlməsəydin, özümü öldürərdim».

Yolumuza davam etdik. Yağış gücləndi. Sanki, üstümüzə səpələnən damcılardan ibarət boz örtük idi.

«Baxaq görək, tezliklə Marselə yetişə bilərikmi, – dedim. – Oradan da Lissabona, sonra da Amerikaya».

Orada yaxşı həkimlər olur, düşündüm. Həm də adamı dustaqlığa atmayan xəstəxanalar. Bəlkə, mənə işləməyə

---

[1] Əlvida, salamat qal *(fran.)*

icazə də verdilər. «Avropanı qorxulu yuxu kimi unudacağıq», – dedim.

Helen cavab vermədi».

## XV

«Odisseya[1] başladı, – Şvars dilləndi. – Çöllərə düşdük. Qırmızı dənizdən keçid. Yəqin, bu da sizə tanışdır».

Başımla təsdiq etdim. «Bordo. Sərhədin zəif yerlərini aramaq. Pireneylər. Marselə ləngərli yürüş. Daş qəlblərə yürüş və varvarlardan qaçış. Arada da vəhşiləşmiş bürokratiyanın gicliyi. Ölkədə qalma, eləcə də ölkədən çıxma icazələrinin yoxluğu. Ölkədən çıxma icazəsini alanda isə İspaniyadan keçmə vizasının vaxtının bitməsi, həmin vizanı da təzədən o vaxt ala bilərdin ki, Portuqaliyaya giriş vizan olaydı, bu özü də çox vaxt ayrı şərtlərdən asılı olurdu – bir sözlə, gərək hər şeyi təzədən başlayaydın: konsulluqların, bu cənnət və cəhənnəm qapılarının qabağında boynunu büküb gözləmə. Gicliyin sonsuz və mənasız get-gəli!»

«Əvvəlcə yelsizliyə düşdük, – Şvars dilləndi. – Axşama yaxın Helenin halı xarablaşdı. Uzaq mehmanxanaların birində bir otaq tapdım. İlk dəfə olaraq gizlinlikdən çıxmışdıq, aylardan bəri birinci dəfə idi ki, yenidən otağımız vardı, ikimizə biri. Heleni qıc edən də elə bu idi. Sonra susaraq mehmanxananın bağçasında oturduq. Hava xeyli sərinləmişdi, amma yatmağa getmək istəmirdik. Bir şüşə şərabı içə-içə düşərgəyə gedən və bağçadan yaxşı görünən yoldan gözümüzü çəkmirdik. Dərin bir minnətdarlıq boynumun ardından basıb məni incidirdi. Helenlə bu axşam hər şey silinib getmişdi, hətta onun xəstə olması qorxusu da. Qıclaşması keçib-gedənə oxşayırdı və yağışdan sonrakı təbiət kimi dinc və gözəl görünürdü, hərdən antik kameedəki[2] profillər kimi. Bunu başa düşərsiniz, – dedi. Bizim kimilərin həyatında xəstəliyin başqa vaxtlara nisbətən ayrı mənası olur. Xəstəlik qaçqınlığa son qoymaq sayılır».

«Bilirəm», – acı-acı dilləndim.

---

[1] *Odisseya* – Homerin Odisseyin yanlış səyahətlərini və evə dönüşünü tərənnüm edən qəhrəmanlıq dastanı

[2] *Kamee* – ortasında şəkilli təsvir həkk olunmuş daş-qaş

«Ertəsi axşam işıqları tutqunlaşdırılmış maşınların yolla düşərgəyə qalxdığını gördük. Helen narahat olmağa başladı. Bütün günü otaqdan çölə çıxmamışdıq. Yenidən yatağı və otağı olmaq elə bir hadisə idi ki, ondan doyunca həzz də ala bilmirdin. Həm də hər ikimiz yorulub əldən düşdüyümüzü hiss edirdik və mənə qalsaydı, həftələrlə mehmanxanadan tərpənməzdim. Amma Helen birdən-birə çıxıb getmək istədi. Düşərgəyə gedən yolu bir daha görmək istəmədi. Qorxurdu ki, gestapo onu axtaracaq.

Olan-qalan şeylərimizi yığışdırdıq. Nə qədər ki bu bölgədə qalmaq icazəmiz vardı, ayrı yerə getməyimiz məsləhət idi; haradasa yaxalansaydıq, bizi tutmayacaqdılar, uzağı bura göndərəcəkdilər, hər halda, ümidimiz beləydi.

Bordoya getmək istəyirdim; yolda eşitdik ki, bunun üçün çox gecikmişik. İkinəfərlik Sitroen yolda bizi götürdü və sürücü məsləhət gördü ki, özümüzə ayrı yerdə sığınacaq axtaraq. Getdiyi yolun üstündə, yaxınlıqda balaca bir qəsr var; onun boş olduğunu bilir, burada gecələsək, pis olmaz.



Ayrı seçimimiz yox idi. Axşama yaxın sürücü bizi maşından düşürdü. Qəsrcik qarşımızda, bozumtul işıqda dayanıb-dururdu, əslində, pərdəsiz, qaranlıq pəncərəli kənd evi idi. Pilləkənlə qalxıb qapını axtardım. Qapı açıq idi və üstündəki nişanələr onun zorla açıldığından xəbər verirdi. Alaqaranlıq dəhlizdə addımlarımın səsi eşidildi. Çağırdım və cavab olaraq sınıq bir əks-səda eşitdim. Otaqlar bomboş idi. Aparılmalı nə vardısa, hamısını aparmışdılar. Qalanlar yalnız on səkkizinci yüzilliyin otaqları, kağız çəkilmiş divarlar, iri pəncərələr, tavanlar və nəhəng pilləkənlər idi.

Asta-asta içərilərə keçdik. Səsimizə cavab verən olmadı. İşıq açarlarını axtardım. Yox idi. Qəsrciyə işıq çəkilməmişdi; necə tikilmişdi, elə də qalmışdı. Kiçik yemək otağı qızılı və ağ, yataq otağı isə açıq-yaşıl və qızılı rəngə boyanmışdı; bircə ədəd mebel də yox idi; deyəsən, yiyələri qaçarkən yığışdırıb aparmışdılar.

Mansard otaqlarının birində, axır ki, bir sandıq tapdıq. Burada bir-iki maska, görünür, hansısa bayramdan qalmış əlvan, ucuz kostyumlar və bir qutu şam vardı. Ən yaxşısı döşəkli dəmir çarpayı oldu. Axtarışı davam etdirib, mətbəxdə azca çörək, bir-iki sardin bankası, bir baş sarımsaq,

yarım bardaq bal, zirzəmidə isə iki-üç kilo kartof, bir neçə şüşə şərab və bir qalaq odun tapdıq. Əsl pərilər ölkəsi!

Evin, demək olar, hər yerində kamin vardı. Yataq üçün nəzərdə tutulmuş otaqlardan birinin pəncərəsinə tapdığımız kostyumlardan pərdə çəkdik. Evin ətrafına dolandım, burada bağ və bostan da vardı. Ağacların üstündə hələ də alma, armud qalmışdı. Onları dərib evə gətirdim.

Qaranlıq düşəndə və buxarıdan çıxan tüstünü kənardan görmək mümkün olmayanda kaminlərdən birini yandırdım və yeməyə başladıq. Kabusanə və ovsunlu bir ab-hava vardı. Alovdan qalxan işıq əsrarəngiz yapmaların[1] üstündə oynaşır, bizim kölgələrimiz də xoşbəxt aləmin kabusları kimi onların arasında gəzişirdi.

Otaq isindi və Helen paltarını dəyişdi ki, əynindəkiləri qurutsun. Parisdə aldığımız gecə köynəyini bağlamadan çıxarıb geyindi. Mən bir şüşə şərab açdım. Stəkanımız yox idi və şüşədən içməyə başladıq. Bir azdan Helen paltarını bir də dəyişdi. Sandıqdan bir maskarad kostyumu və bir ədəd yarımmaska çıxarıb geydi, sonra qaranlıq pilləkənlərdə qaçmağa başladı. Gah aşağıdan, gah da yuxarıdan səslənir, oyan-buyana qaçırdı, səsi hər yanda əks-səda verirdi və mən onu görmürdüm, yalnız ayaqlarının tappıltısını eşidirdim, sonra o, qaranlıqda qəfildən arxamda dayandı və nəfəsini boynumun ardında hiss etdim.

«Elə bildim səni itirmişəm», – deyib onu bərk-bərk sinəmə sıxdım.

«Məni heç vaxt itirməyəcəksən, – maskanın arxasından pıçıldadı. – Özü də bilirsənmi niyə? Çünki sən heç vaxt məndən kəndli öz əkin sahəsindən yapışdığı kimi yapışmaq istəməmisən. Bəşəri insanlar üçün bu, darıxdırıcı olur».

«Mən haçandan bəşəri insan oldum?!» – heyrətlə dilləndim.

Pilləkənin ayağında dayanmışdıq. Yataq otağının azca aralı qapısından kaminin işığının nazik bir zolağı məhəccərin tunc ornamentlərinin üstünə, Helenin çiyninə və üzünə düşürdü.

«Özünün nə olduğunu özün də bilmirsən», – dodağının altında deyib işıltılı gözləri ilə mənə baxdı; maskadan

---

[1] *Yapma* – rus dilindən götürüb işlətdiyimiz “lepka” sözünün yerində verilir

ağı görünməyən, donuq-donuq parıldayan gözləri ilan gözünə oxşayırdı. – «Amma gərək biləsən ki, bu Don Juanların hamısı necə də çarəsiz olurlar! Bir dəfə əyinə geyilən paltar kimi. Sən isə, sən mənim ürəyimsən».

Bəlkə, bu, əynimizə geydiyimiz və bu cür sözləri işlətməyimizi asanlaşdıran kostyumlar idi. Paltarlarım onunku kimi gündüzdən yaş olduğuna və buxarının yanında quruduğuna görə, iradəmin əksinə olaraq, mən də onun təki maskarad kostyumu geymişdim. Qəmzəli əsrimizin kabusanə əhatəsində geydiyimiz bu qeyri-adi paltarlar bizi dəyişmiş və adi zamanlardan fərqli olaraq, dilimizi ayrı sözlərlə açmışdı. Sədaqət və xəyanət öz vətəndaşlıq çəkisini və birtərəfliliyini itirmişdi; biri digəri ola bilərdi, təkcə biri, yaxud digəri mövcud deyildi, əksinə, saysız çalarları vardı və adlar da öz mənasını itirmişdi.



«Biz ölülərik, – Helen pıçıldadı, – ikimiz də. Daha qanunların da bizə aidiyyəti yoxdur. Sən ölü pasportla ölüsən, mən də bu gün xəstəxanada ölmüşəm. Paltarlarımıza fikir ver! Əlvan, qızılı yarasalar kimi ölmüş bir əsrdə vurnuxuruq. Ona gözəl əsr adını veriblər, özünün menuetləri, əzəməti və rokoko səması ilə, doğrudan da, elədir, amma sonunda dar ağacı var, həmişə hər yerdə dikəlib, hər bayramdan sonra sərin səhərlərdə, bərq vuraraq, amansızlıqla. Bizimki harada dikələcək, əzizim?»

«Burax bu sözləri, Helen», – dedim.

«Haradasa dikələcək, – pıçıldadı. – Ölülər üçün dar ağacı harada dikəlir? O, bizim boynumuzu vura bilməyəcək, nurun, kölgənin boynunu vurmaq olmaz. Məgər qollarımızı burub sındırmaq istəməmişdilərmi, həmişə, hər vaxt? Məni burada, bu sehrdə və qaranlıqda saxla, bəlkə, buradan içimizdə nəsə ilişib qaldı və son nəfəsimizin miskin anlarına işıq saçdı».

«Bu cür danışma, Helen», – dedim və tüklərim ürpəşdi.

«Həmişə məni indiki kimi xatırla, – mənə qulaq asmadan yenidən pıçıldadı. – Kim bilir, axırımız necə olacaq?»

«Amerikaya gedəcəyik və müharibə haçansa qurtaracaq», – dedim.

«Gileylənmirəm, – ağzını üzümə yaxınlaşdırıb cavab verdi, – necə gileylənə bilərik? Gileylənsəydik, axırımız hara gedərdi? Osnabrükdə sakit, darıxdırıcı ömür sürən, sadə

hisslərlə yaşayıb hər il məzuniyyət səyahətinə çıxan kasıb, darıxdırıcı ər-arvad...»

Güldüm: «O cür də yanaşmaq olar», – dedim.

Həmin axşam çox şux idi və bu axşamı bayram kimi qeyd edirdi. Əlindəki şamla və Parisdən aldığı, hər vəchlə qoruyub saxladığı qızılı çəkələklərdə zirzəmiyə düşüb bir şüşə şərab gətirdi. Mən yuxarıda, pilləkənin yanında dayanmışdım və çeşidli kölgələrin təzadında işıq düşən sifətini mənə doğru əyərək onun qaranlığı yara-yara yuxarı qalxdığına baxırdım. Əgər xoşbəxtliyi sevimli sifəti müxtəlif kölgələr fonunda ləkəsiz və mükəmməl əks etdirən güzgü adlandırsaydıq, onda elə bu an özümü xoşbəxt sayardım.

Ocaq asta-asta söndü. Helen rəngbərəng əşyaların altında yuxuya getdi. Möhtəşəm bir gecə idi. Xeyli keçəndən sonra təyyarələrin uğultusunu eşitdim və rokoko güzgüsü asta-asta cingildədi.

* * *

Dörd gün burada qaldıq. Sonra mən bazarlıq üçün yaxındakı kəndə gedəsi oldum. Orada eşitdim ki, Bordodan iki gəmi yola düşəcək.

«Almanlar hələ buralara gəlməyib?» – soruşdum.

«Gəliblər də, gəlməyiblər də, – cavab verdilər. – Baxır, siz özünüz kimsiniz».

Bunu Helenlə müzakirə etdim. Məni heyrətləndirsə də, məsələyə biganə yanaşdı.

«Gəmi, Helen, – həyəcanla dilləndim, – rədd olaq buradan! Afrikaya. Lissabona. Hara gəldi. Oradan ayrı yerə getmək olar».

«Niyə burada qalmayaq? – cavab verdi, – bağda meyvə, tərəvəz var. Odunumuz qurtarana qədər xörək bişirərəm. Çörəyi kənddən alarıq. Pulumuz var?»

«Bir az varımızdır. Hələ şəkillər də durur. Onları Bordoda sata bilərəm ki, gəmiyə pulumuz olsun».

«Kimdir indi şəkil alan?»

«Pulunu sərmayəyə qoymaq istəyənlər».

Güldü: «Onda sat onları və qoy burada qalaq».

«Mən isə istəyirdim, bacarardıq!»

Helen evə vurulmuşdu. Bir tərəfində xırda bir park

vardı, arxasında da bağ və bostan, hətta göl və günəş saatı. Helen evə isinişmişdi, deyəsən, ev də Helenə. Zövqünə uyğun bir şərait tapmışdı və birinci dəfə idi ki, biz mehmanxana və baraklarda qalmırdıq. Maskarad kostyumlarında, burulğanlı keçmişin ab-havasındakı yaşamımız mənə sirli bir ümid, hərdən də ölümdən sonrakı həyata inam bəxş edirdi, sanki, ilk səhnə sınağımızı artıq arxada qoymuşduq. Bir neçə yüz il də beləcə yaşasaydıq, ürəyimcə olardı.

* * *

Bununla belə, Bordodakı gəmilər hələ də yadımdan çıxmırdı. Əgər şəhər hissə-hissə tutulmuşdusa, gəmilərin hamısının dənizə çıxması mənə mümkünsüz görünürdü, fəqət bu, toranlıq müharibəsi idi. Fransa atəşkəs elan etmişdi, amma hələ sülh bağlanmamışdı, onun rəsmən işğal olunmuş və olunmamış əraziləri vardı, lakin sazişləri müdafiə etməyə gücü yoxu idi, bundan başqa, ortada alman qoşunları və gestapo da vardı və onlar heç də həmişə əlbir işləmirdilər.



«Gərək nəsə öyrənəm, – dedim. – Sən qal burada, mən də birtəhər Bordoya gedim».

Helen başını buladı: «Burada tək-tənha qalan deyiləm. Mən də səninlə gedirəm», – dedi.

Onu başa düşmək çətin deyildi. Daha ayrıca götürülmüş təhlükəli və təhlükəsiz ərazilər yox idi. Adam düşmənin əsas yuvasından sağ-salamat qurtara və uzaq adaların birində gestapo tərəfindən tutula bilərdi; keçmişin bütün ölçüləri dəyişmişdi.

«Biz oraya, bəlkə, sizin də bildiyiniz bir yolla gəldik, – Şvars sözlərini belə davam etdirdi. – Adam sonralar fikirləşəndə bunun necə başa gəldiyini dərk etmir. Piyada, yük maşınında, bir dəfə də xeyli məsafəni kəndlinin satmağa apardığı iri qoşqu atlarının belində.

Bordoda artıq cəsədlərə rast gəlirdin. Şəhər zəbt olunmamışdı, amma hərbi dəstələr vardı. Dərin şok hökm sürürdü; adamlar hər an həbs oluna biləcəklərini gözləyirdi. Helenin əynində nəzərə çarpmayan bir kostyum vardı; paltarları o qədər də çox deyildi: bir ədəd bal paltarı, bir cüt şalvar, iki sviter, vəssalam. Mən montyor kombinezonu geymişdim.

İkinci kostyumum arxa çantamda idi. Şeylərimizi meyxanaların birində qoymuşduq. Bir çox fransızın çamadanlarla yollara tökülməsinə baxmayaraq, barxana ilə küçəyə çıxmaq hər yerdə diqqət çəkirdi.

«Səyahət bürolarından birinə gedib gəmiləri soruşacağıq», – dedim. Şəhərdə tanışımız yox idi.

Səyahət bürosu, doğrudan da, işləyirdi. Pəncərələrdən plakatlar asılmışdı: «Payızı Lissabonda keçirin», «Afrikanın incisi Əlcəzair», «Floridada məzuniyyət», «Günəşli Qranada». Çoxunun rəngi bozarmışdı, ancaq Lissabon və Qranada plakatları hələ də əzəmətlə bərq vururdu.

Pəncərəyə yaxınlaşana qədər çox gözləyəsi olmadıq. Ondördyaşlı ekspert bizə lazımi məlumatı verdi. Gəmi məsələsi düz deyilmiş. Bu cür şayiələr həftələrdir ölkədə dolaşırmış. Gerçək olan o imiş ki, hələ zəbtdən çox-çox qabaq polyakları və özlərini Polşa legionuna, İngiltərədə yerləşən könüllülər dəstəsinə yazdırmış mühacirləri aparmaq üçün bir ingilis gəmisi olub. İndi isə heç bir gəmi getmir.

Soruşdum ki, onda otaqdakı adamlar neyləyir?

«Çoxusu sizin kimi», – dedi.

«Bəs siz?»

«Mən getməməyə qərar verdim. Çörəyim buradan çıxır. Dilmancam, məsləhətçiyəm, viza məsələləri üzrə mütəxəssisəm, adamları yerbəyer etməkdə ekspertəm...»

Təəccüblənmədim. Ehtiyac insanı tez yetkinləşdirir, həyata baxışın sentimentallıq və xurafatla dumanlanması isə gəncliyə yaddır. Kafelərdən birinə getdik və ekspert vəziyyətin mənzərəsini cızdı. Ola bilərdi ki, hərbi dəstələr çəkilib getsin; amma Bordoda qalma icazəsini almaq müşkül məsələ idi, viza isə ondan da müşkül. İspan vizasını almaq üçün Bayonne hazırkı anda əlverişli sayılırdı, ancaq o da ağzına qədər adamla dolu idi. Ən yaxşısı Marsel idi; amma ora getmək üçün gərək uzun bir yol qət edəydin. bu yolu hamımız qət etmişik, sonradan. Siz də?» – soruşdu.

«Hə, – dedim. – Xaç yolu».

Başı ilə təsdiqlədi. «Təbii ki, yolüstü Amerika konsulluğuna da baş vurdum. Amma Helenin nasist dövründən keçərli alman pasportu vardı; necə sübüt edə bilərdik ki, ölüm təhlükəsi ilə üz-üzə olmuşuq. Qorxudan zağ-zağ əsəəsə qapının ağzında lövbər salmış sənədsiz yəhudilər daha

böyük təhlükə qarşısındaydılar. Pasportlarımız əleyhimizə şahidlik edirdi, hətta ölü Şvarsınkı da.

Geri – qəsrimizə qayıtmağı qərara aldıq. İki dəfə jandarmlar bizi saxladı; hər ikisində də depressiyanı işə yaratdım, jandarmların üstünə bağırıb pasportları az qala gözlərinə soxdum, avstriyalı alman kimi hərbi sahədə çalışdığımı bildirdim. Helen gülürdü, bu hərəkətim ona məzəli görünürdü. Belə bir fikrə meyxanada şeylərimizi geri istəyəndə gəlmişdim, o zaman meyxana sahibi demişdi ki, bizdən şey-şüy götürməyib.

«İstəyirsiniz, polis çağırın, – demiş və irişə-irişə mənə göz vurmuşdu. – Amma, yəqin, istəməzsiniz!»

«Ehtiyacım yoxdur», – demişdim. – «Şeylərimi verin!»

Mehmanxana sahibi saqini əli ilə yanına çağırmışdı. «Anri, cənab getmək istəyir», – demişdi. Anri qollarını çırmalayıb yanımıza gəlmişdi.



«Sizin yerinizə olsam, bir az fikirləşərdim, Anri, – demişdim. – Nədir, alman konslagerinin içəridən neçə göründüyünü öz gözlərinizlə görmək istəyirsiniz?»

«Yum ağzını», – deyib Anri mənə əl qaldırmışdı.

«Atəş açın, serjant!», – sərt-sərt deyib Anrinin başı üstündən o yana baxmışdım.

Anri tora düşmüşdü. Ətrafına boylanmışdı və əllərini bir az yuxarı qaldırdığından, var gücümlə sifətinə birini ilişdirmişdim. Nərildəyib döşəməyə sərilmişdi. Meyxana sahibi əlinə bir şərab şüşəsi alıb piştaxtanın arxasından çıxmışdı.

Sərgiyə qoyulmuş Dübone şərabının bir şüşəsini əlimə götürüb onu divarın tininə çırpmış və diş-diş olan qırığını əlimdə tutmuşdum. Meyxana sahibi yerindən tərpənməmişdi. Arxamda ikinci şüşə çiliklənmişdi. Ətrafıma baxmamışdım; sahibi gözdən qoya bilməzdim.

«Mənəm, – Helen dillənmiş və sahibin üstünə bağırmışdı: – Heyvan oğlu heyvan! Şeylərimizi çıxart, yoxsa sifətindən əsər-əlamət qalmayacaq!»

Sınmış şüşə də əlində yanımca yerimiş və aşağı əyilib sahibin üstünə hücum çəkmişdi. Boş olan əlimlə ondan yapışmışdım. Görünür, əlinə keçən Perno şərabı olmuşdu, çünki hər yer birdən-birə anis qoxumuşdu. Sahibin üstünə küçə söyüşləri yağmışdı. Helen belini əyərək əlini dartışdırıb

əlimdən çıxmaq istəmişdi. Sahib tələsik piştaxtanın arxasına keçmişdi.

«Nə olub burada?» – kimsə qapıdan almanca soruşmuşdu.

Sahib irişmişdi. Helen arxaya çevrilmişdi. Əvvəlcə Anri saydığım alman çavuşu qapıda dayanmışdı.

«Yaralanıb?» – çavuş soruşmuşdu.

«Buradakı bu donuz?» – Helen hələ də yumruqlarını qıçlarının arasına sıxıb dizlərini yığışdıraraq yerdə uzanmış Anrini göstərmişdi: – «Qan deyil, Dübonedir!»

«Almansınız», – çavuş soruşmuşdu.

«Bəli, – cavab vermişdim. – Bizi qarət ediblər».

«Sənədləriniz var?»

Meyxana sahibi dişlərini ağartmışdı; deyəsən, almanca az-maz başa düşürmüş.

«Əlbəttə, – Helen fınxırmışdı. – Xahiş edirəm, haqqımızın tapdanmağına yol verməyəsiniz!» – Pasportunu yuxarı qaldırmışdı. – «Mən oberşturmbannfürer Yürgensin bacısıyam. Budur...» – pasportun verilmə tarixini göstərmişdi. – Qəsrdə yaşayırıq», – heç vaxt eşitmədiyim bir ad demişdi, – «bir günlüyünə Bordoya gəlmişik. Şeylərimizi burada qoyduq, bu oğrunun yanında. İndi də deyir ki, onu bizdən almayıb. Bizə yardım edin, lütfən!» Yenidən sahibin üstünə cummuşdu.

«Doğrudur?» – çavuş meyxana sahibindən soruşmuşdu.

«Əlbəttə, doğrudur! Alman qadını yalan danışmaz!» – Helen rejimin gic-gici kəlmələrindən birini iqtibas gətirmişdi.

«Bəs siz kimsiniz?» – çavuş məndən soruşmuşdu.

«Sürücü», – deyib montyor paltarımı dartışdırmışdım.

«Hə, tərpən!» – çavuş sahibin üstünə bağırmışdı. Piştaxtanın dalındakı kişinin təbəssümü üzündə donmuşdu. – «Nədir, meyxananızımı bağlayaq?» – soruşmuşdu.

Helen böyük şövqlə tərcümə etmiş və özündən xeyli «heyvan» və «əcnəbi zibil» kəlmələrini artırmışdı. Sonuncu kəlmə məni yaman heyrətləndirmişdi; fransızı öz ölkəsində əcnəbi zibil adlandırmağı yalnız o kəs ləzzətlə işlədə bilərdi ki, bu söz vaxtilə onun özünə deyilmiş olsun.

«Anri! – meyxana sahibi çəmkirmişdi. – Şeyləri hara qoymusan? Mənim heç nədən xəbərim yoxdur, – çavuşa izah etməyə çalışmışdı, – hamısını o gədə etmiş olacaq».

«Yalan deyir, – Helen dözməmişdi. – Özü edib, günahı bu qorillanın üstünə yıxır. Şeyləri gətir, – sahibə demişdi. – Elə indicə! Yoxsa gestaponu çağırarıq!»

Meyxana sahibi Anriyə bir təpik ilişdirmişdi. Anri aradan çıxmışdı.

«Üzr istəyirəm, – sahib çavuşa demişdi. – Anlaşılmazlıq olub. Bir badə?»

«Konyak, – Helen cavab vermişdi. – Ən yaxşısını».

Sahib piştaxtaya bir badə qoymuşdu. Helen tərs-tərs ona baxdıqdan sonra ikisini də əlavə etmişdi.

«Qoçaq qadınsınız», – çavuş demişdi.

«Alman qadını heç nədən qorxmaz», – Helen nasist ideologiyasının şüarını iqtibas gətirib əlindəki sınıq Perno şüşəsini yerə qoymuşdu.

«Sürdüyünüz maşın hansındandır?» – çavuş məndən soruşmuşdu. Onun bozumtul, qəddar gözlərinin içinə baxmışdım.



«Təbii ki, mersedes, fürerin maşınından».

Razılaşdığını başı ilə bildirmişdi. «Bura gözəldir, hə? Bizdəki kimi deyil, amma yenə də gözəldir, siz bu fikirdə deyilsiniz?»

«Çox gözəldir. Bizdəki kimi deyil, burası aydındır».

İçmişdik. Konyakın əvəzi yox idi. Anri şeylərimizi gətirib masanın üstünə qoymuşdu. Arxa çantanı yoxlamışdım, hər şey yerində idi.

«Qaydasındadır», – çavuşa demişdim.

«Gədənin günahıdır, – sahib izahata keçmişdi: – İşdən azadsan, Anri! Əkil burdan!»

«Minnətdaram, çavuş, – Helen demişdi. – Siz əsl alman kişisi və kavalersiniz».

Çavuş hərbi qaydada təzim etmişdi. İyirmi beş yaşı olardı.

«Sındırılmış Dübonenin və Pernonun pulunu ödəmək lazım gələcək», – yenidən cəsarət toplayan sahib demişdi.

Helen tərcümə edib: «Ondan kavaler olmaz, – sözlərini əlavə etmişdi. – Bu, özünümüdafiə idi».

Çavuş o biri şüşəni piştaxtadan götürüb nəzakətlə: «İcazənizlə, – demişdi. – Havayı yerə qalib xalq olmamışıq ki!»

«Madam Kuantro içmir, – demişdim. – Yarımçıq olsa da, konyakı götürün, çavuş».

Çavuş şüşəni Helenə bağışlamışdı. Mən onu arxa çantaya qoymuşdum. Çavuşla qapının ağzında xudahafizləşmişdik. Qorxmuşdum ki, bizi mersedesimizə qədər ötürmək istəyəcək; lakin Helen vəziyyətdən əla çıxmışdı: «Belə şeylər bizdə baş verə bilməz» – ayrılarkən cavan oğlana qürurla demişdi. – Bizdə nizam-intizam var».

Onun arxasınca baxmışdım. Nizam-intizamı düşünmüşdüm. İşgəncələrlə, boyunun ardından güllələməklə, kütləvi qırğınlarla! Yaxşısı budur, onun əvəzində mənə bu meyxana sahibi kimi yüz min xırda kələkbaz ver!

«Özünü necə hiss edirsən?» – Helen soruşdu.

«Yaxşı. Bilməzdim ki, bu cür söyüşlər söyə bilərsən».

Güldü: «Düşərgədə öyrənmişəm. Adamı necə də yüngülləşdirir! Bir ilin sürgünlüyü birdən-birə sürüşüb çiyinlərimdən düşdü! Sındırılmış şüşələrlə döyüşməyi və adamları xacə etməyi sən harada öyrənmisən?»

«İnsan haqları uğrunda mübarizədə, – cavab verdim. – Paradokslar əsrində yaşayırıq. Sülhə nail olmaq üçün müharibə aparırıq».

Demək olar, elə bu cürdür. Adam özünü müdafiə edib sağ qalmaq üçün yalan danışmağa, aldatmağa məhkumdur. Üzümüzə gələn həftələrdə kəndlilərin ağaclarından meyvə, zirzəmilərindən də süd oğurladım. Xoşbəxt bir zamanda yaşayırdıq. Həyatımız təhlükəli, gülməli, hərdən də məzəli və çarəsiz olurdu, ancaq heç vaxt acı dadmırdı. İndicə sizə meyxana sahibi ilə olan əhvalatı danışdım; buna bənzərləri tez-tez olurdu. Yəqin, sizə də tanışdır?»

Başımla təsdiqlədim. «O cür qəbul edə bilsəydik, məzəli demək olardı».

«Mən bunu Helendən öyrəndim, – dedi. – Keçmişi büsbütün unudan adam idi. Hərdən onda duyduğum şey yalnız işıqlı gerçəklik idi. Keçmiş onun həyatında hər gün çiliklənirdi, gölün buzu çaparın arxasınca çilikləndiyi kimi. Əvəzində hər şey indilikdə təcəssüm tapırdı. Hansısa bir hadisə ayrı adamlarda onun bütün həyatına səpələndiyi halda, Helendə hamısı bir anın payına düşürdü, fəqət bu, donuq bir an olmurdu. Helen Mosart kimi sərbəst və şux, ölümün özü kimi amansız idi. Əxlaq və cavabdehlik anlayışları özlərinin donuq anlamında onun üçün artıq mövcud deyildilər, onların yerini yüksək, cazibə qanunlar tuturdu.

Başqa şeylərə onun vaxtı olmurdu. Atəşfəşanlıq kimi alışıb-yanırdı, fəqət külü görünmürdü. Xilas olmaq istəmirdi; bunu mən o vaxt dərk edə bilməmişdim. Xilas yolunun olmadığını gözəl bilirdi. Mən başdanxarab isə buna fikir vermədim, onu Xaç yolu ilə Bordodan Bayonneyə qədər on iki məntəqənin hamısından, sonra da uzun Marsel yolundan keçirib buraya özümlə sürüdüm.

* * *

Geri – qəsrimizə qayıdanda o, başqaları tərəfindən tutulmuşdu. Orada mundirli adamlar, ağac dəzgahları sürütləyib gətirən əsgərlər, təyyarəçi mundirində və parıltılı uzunboğaz çəkmələrdə gəlmə tovuzquşuları kimi özlərini dartıb yeriyən bir neçə zabit gördük. Parkdakı vələsin və mərmər ilahənin arxasında gizlənib onlara baxırdıq. İpək kimi gündüzlərdən biri idi.



«Orada bir şeyimiz qalıb?» – soruşdum.

«Ağaclardakı almalar, təmiz hava, qızılı oktyabr və xəyallarımız», – Helen dedi.

«Onları hər yerdə qoya-qoya gəlirik, – cavab verdim. – Uçan payız hörümçəkləri kimi».

Eyvandakı zabit bir neçə sərt komanda verdi.

«İyirminci əsrin səsi, Helen dedi. – Gəl gedək. Bu gecə harada yatacağıq?»

«Haradasa ot tayasında, – dedim. – Bəlkə də, çarpayıda. Hər halda, birlikdə yatacağıq».

## XVI

«Bayonnedəki konsulluğun qarşısındakı meydançanı xatırlayırsınızmı? – Şvars soruşdu. – Sonradan dağılışıb təşviş içində girişi tutan, məyus-məyus zarıldayıb ağlaşan və meydança uğrunda mübarizə aparan qaçqınların dördcərgəli növbəsini?»

«Hətta yer vərəqləri də yadımdadır, – cavab verdim. – Həmin vərəqlər adama bayırda dayanmaq hüququ verirdi. Buna baxmayaraq camaat girişi tutmuşdu. Pəncərələr açılanda zarıltı qışqırtı və fəryada çevrilirdi. Pasportları

pəncərədən bayıra atası olurdular. İrəli uzanan əllər meşəni xatırladırdı».

Meyxanada hələ də ayıq olan qadınlardan nisbətən gözəli bizə doğru yeriyib əsnədi.

– Məzəli adamlarsınız, – dedi. – Elə hey danışırsınız! Bizsə yatmalıyıq. Başqa bir yerdə oturmaq istəsəniz, şəhərin bütün meyxanaları çoxdandır işləyir.

Qapını açdı. Qışqırıqlı bəyaz səhər otağa doldu. Gün çıxmışdı. Qadın qapını yenidən örtdü. Mən saata baxdım.

«Gəmi bu gün günortadan sonra yola düşmür, – Şvars izahata keçdi. – Yalnız sabah axşam yola çıxacaq». Ona inanmadım. Bunu hiss etdi. «Gəl harasa gedək», – dedi. Səssiz meyxanadan sonra bayırın səs-küyü ilk anda az qala dözülməz oldu. Şvars ayaq saxladı. «Yenə də həmin qaçqov, yenə də həmin haray-qışqırtı!» – Səbətlərdə balıq daşıyan uşaqlara diqqətlə baxdı. – «Hər şey öz yolundadır! Sanki, kimsə ölməyib!»

Aşağıya, limana doğru getdik. Su tərpənirdi, sərin və güclü külək vardı, günəş də can isitmirdi; külək yelkənləri səsləndirirdi və hərə səhər-səhər öz işindəydi. Bu qarğaşanın arasında biz bir cüt solmuş yarpağa bənzəyirdik.

«Mənə hələ də inanmırsınız ki, gəmi sabah yola düşür?» – Şvars soruşdu. Bu amansız işıqda o, yorğun və düşkün görünürdü.

«İnana bilmirəm, – cavab verdim. – Əvvəlcə demişdiniz ki, bu gün gedir. Gəlin soruşaq. Bu, mənim üçün çox vacibdir».

«Elə mənim üçün də vacib idi. Sonra birdən-birə vacib olmadı».

Cavab vermədim. Yolumuza davam etdik. Qəfildən hirslənib hövsələmi itirdim. Çapalayan, narahat həyat mənə «gəl-gəl» deyirdi. Gecə arxada qalmışdı. İndi bu kölgələr ovsunu nəyə lazım idi?

Şüşəsində reklamlar olan mağazaların birinin qabağında ayaq saxladıq. Pəncərəsindən ağ bir lövhə asılmışdı, orada gəminin sabaha təxirə salındığı yazılmışdı.

«Tezliklə qurtarıram», – dedi.

Mən bir günü də udmuşdum. Lövhəyə baxmayaraq, özümü qapıya saldım. Hələ bağlıydı. Təqribən on adam mənə baxırdı. Mən zəngi basanda onlar müxtəlif səmtlərdən bir

neçə addım yaxına gəldilər. Mühacirlər idi. Qapının bağlı olduğunu görədə geri dönüb özlərini elə apardılar ki, guya, elanlara baxırlır.

«Gördüyünüz kimi, yetərincə vaxtınız var», – deyib Şvars limanda qəhvə içməyi təklif etdi. İsti qəhvəni tələsə-tələsə içirdi, əlləri ilə fincanı dövrəyə almışdı, sanki, əlləri üşüyürdü. «Saat neçədir?» – soruşdu.

«Səkkizin yarısı».

«Bir saat, – mızıldandı. – Bir saatdan sonra gələcəklər». Başını qaldırıb baxdı. «İstəmirəm danışdıqlarım sizə yeremiade[1] təsiri bağışlasın. Elə təsir bağışlayır?» – deyə soruşdu.

«Xeyr».

«Bəs nə təsiri bağışlayır?»

Duruxdum. «Sevgi macərası təsirini».



Sifəti birdən-birə duruldu: «Çox sağ olun», – dedi. Sonra özünü topladı. – «İşimiz Biarisdə nəhs gətirdi. Eşitmişdim ki, Sen-Jan de Lü şəhərciyindən bir gəmi yola düşəsidir. Yalan çıxdı. Pansionata qayıdanda üz-gözü əyilmiş Helenin yerdə uzandığını gördüm.

«Qıc tutub, – pıçıldadı. – İndicə keçər. Fikir vermə».

«İndi həkim çağıraram!»

«Heç bir həkim, – tövşüyə-tövşüyə dedi. – Ehtiyac yoxdur. İndicə keçib-gedər. Get! Beş dəqiqədən sonra gələrsən. Məni tək burax! Dediyimə əməl et! Heç bir həkim! Get demədim?! – səsini qaldırdı. – Nə dediyimi bilirəm. On dəqiqədən sonra qayıdarsan. Onda...»

Əllə işarə etdi ki, çıxım. Daha danışa bilmirdi; lakin gözlərində elə dəhşətli, anlaşılmaz bir yalvarış vardı ki, çıxası oldum. Bayırda dayanıb küçəyə baxırdım. Sonra həkim soruşdum. Dedilər ki, bir-iki küçə o yanda Dübua adlı birisi yaşayır. Ora qaçdım. Həkim paltarını geyinib mənimlə gəldi.

Biz geri qayıdanda Helen çarpayıda uzanmışdı. Sifəti tərdən nəmlənmişdi, amma özü sakitləşmişdi.

«Deməli, həkim gətirdin!» – elə ikrahla dedi ki, elə bil, ən qəddar düşməni idim. Doktor Dübua iti addımlarla ona yaxınlaşdı. – «Mən xəstə deyiləm», – Helen dedi.

---

[1] *Yeremiade* – Qüdsün məhvinə ağlayan Yeremi peyğəmbərin ağısı

«Madam» – doktor Dübua təbəssümlə cavab verdi, – bunu təyin etməyi həkimin öhdəsinə buraxmaq istəməzdinizmi?» Çantasını açıb alətləri çıxartdı.

«Bizi tək burax», – Helen bunu mənə dedi.

Şaşqınlıqla otaqdan çıxdım. Düşərgədəki həkimin dedikləri yadıma düşdü. Küçədə var-gəl edə-edə üzbəüzdəki qarajın Mişlen lövhəsinə baxırdım. Lövhədəki rezin şlanqdan boylanan gömbul kişi gözlərim önündə içalatın və sürünən ağ qurdların tutqun rəmzinə çevrildi. Qarajdan çəkic səsləri eşitdim, sanki, kimsə tənəkə tabutun ağzını mıxlayırdı və birdən-birə təhlükənin çoxdan arxamızca düşdüyünü dərk etdim: üzərində hayatımızın sərt konturlar çızdığı boş bir fon, tufan gətirən buluddan qabaq görünən günəş altındakı meşə kimi.

Haçandan-haçana Dübua gəldi. Balaca, sivri saqqalı vardı və çox güman ki, öskürək və başağrısına qarşı yüngül dərmanlar yazan kurort həkimi idi. Atdana-atdana mənə doğru yeriyəndə məyus oldum. Kurort mövsümü seyrəlmişdi, yəqin, istənilən müştəri üçün sevinirdm.

«Arvadınız, həyat yoldaşınız...» – dedi.

Mat-mat ona baxdım.

«Nə? – soruşdum. – Lənət şeytana, ya düzünü deyin, ya da heç nə deməyin».

Ötəri, gözəl bir təbəssüm sifətini bir anlığa tamam dəyişdi: «Bunu, – deyib bir resept kağızı çıxartdı və çətin oxunan bir şey yazdı. – Alın! Aptekdən götürərsiniz. Dərmanı alanda resepti geri istəyin. Hər vaxt sizə lazım olar. Üstündə göstərmişəm».

Kağızı götürdüm: «Nədir axı?» – deyə soruşdum.

«Sizin dəyişə bilmədiyiniz bir şey» – cavab verdi, – burasını unutmayın! Sizin dəyişə bilmədiyiniz bir şey».

«Nədir axı? Həqiqəti bilmək istəyirəm, müəmmaları yox!»

Bu sualıma cavab vermədi. «Məsləhət bilsəniz, aptekə gedin, – dedi. – Dərmanı verəcəklər».

«Nədir axı?»

«Güclü sakitləşdirici. Yalnız həkimin resepti ilə verilir».

Resepti götürdüm: «Sizə borcum nə qədərdir?»

«Heç nə qədər».

Dingildəyə-dingildəyə getdi. Küçənin tinində arxaya çevrildi: «Dərmanı alın, özü də elə yerə qoyun ki, arvadınızın

əlinin altında olsun! Onunla bu barədə danışmayın. Özü hər şeyi bilir. Məəttəl qalmalı qadındır»

* * *

«Helen, – dedim. – Bütün bunlar nə deməkdir axı? Sən xəstəsən. Niyə bu barədə mənimlə danışmaq istəmirsən?»

«Mənə əzab vermə, – çox tutqun dilləndi. – Qoy istədiyim kimi yaşayım».

«Bu barədə mənimlə danışmaq istəmirsən?»

Başını tərpətdi: «Danışılası bir şey yoxdur», – dedi.

«Sənə kömək edə bilmərəm?»

«Yox, əzizim, – cavab verdi. – Bu dəfə kömək edə bilməzsən. Bilsəydin, deyərdim».



«Deqanın hələ bir rəsmi də qalıb. Onu burada sata bilərəm. Biarisdə varlı adamlar çoxdur. Səni xəstəxanaya qoymaq üçün ona xeyli pul alardıq».

«Alardıq ki, məni tutub içəri salsınlar? Onun da xeyri olmazdı. İnan mənə!»

«Elə ağırdır ki?»

Elə hürkək və çarəsiz baxdı ki, daha heç nə soruşmadım. Sonradan Dübuanın yanına gedib bir də ondan soruşmağı qərara aldım».

Susdu. «Xərçəng idi?» – soruşdum.

Başı ilə təsdiqlədi: «Gərək çoxdan anlayaydım. Helen İsveçrədə olanda deyiblərmiş ki, bir də yarmaq olar, amma xeyri olmayacaq. Əvvəlcə bir dəfə yarılıbmış, gördüyüm çapıq da elə bu imiş. Sonra professor ona həqiqəti söyləyib. Deyib ki, özü seçsin: ya bir neçə xeyirsiz yarğı, ya da xəstəxanasız qısa bir ömür. Professor həm də başa salıb ki, xəstəxananın onun ömrünü uzadacağı da hələ dəqiq deyil. Helen də yarğının əleyhinə qərar verib».

«Bunu sizə demək istəmirdi?»

«Xeyr. Xəstəliyə nifrət edirdi. Onu yaxın buraxmaq istəmirdi. Özünü murdar sayırdı, sanki, içində qurdlar dolaşırmış. Elə bilirdi xəstəlik onun içində yaşayıb günü-gündən böyüyən meduzadır. Fikirləşirdi ki, bilsəm, ondan iyrənərəm. Bəlkə də, ümid edirdi ki. xəstəliyi vecinə almasa, onu içində boğa bilər».

«Bu barədə onunla heç vaxt danışmadınız?»

«Bir dəfə də, – dedi. – Bunu Dübuaya söyləmişdi, mən də həkimi məcbur etmişdim ki, mənə danışsın. Dərmanları da ondan almışdım. Mənə başa salmışdı ki, ağrılar artacaq; amma ola da bilsin, hər şey tez və amansız sona yetsin. Helenlə bu barədə söhbət etmədim. İstəmirdi. Hədələyirdi ki, onu rahat buraxmasam, özünü öldürəcək. Özümü elə aparırdım ki, guya, ona inanıram, guya, amansız tutmalardır.

Biarisdən gedəsi olduq. İkimiz də bir-birimizi aldadırdıq. Helen gözünü məndən çəkmirdi, mən də ondan, tezliklə yalan qəribə bir güc kəsb etdi. Axırda o, mənim ən çox qorxduğum şeyi məhv etdi: zaman anlayışını. Zamanın həftələrə, aylara bölünməsi yox oldu, olan vaxtımızın qısalması qorxusu bununla şüşə kimi şəffaflaşdı. Artıq qorxumuz da heç nəyi gizlətmirdi, daha çox günlərimizi qoruyurdu. Xəstəliyə mane ola bilən hər şey, sanki, ona dəyib qayıdırdı, daha heç nəyi qəbul etmirdi. Helen yuxuya gedəndə mənim məyusluq anlarım başlayırdı. Sonra onun ağır-ağır nəfəs alan sifətinə, özümün sağlam əllərimə baxır və üz qabığımızın bizə vurduğu dəhşətli tənhalığı, heç vaxt birləşməyəcək ayrılığı dərk edirdim. Mənim sağlam canımdan heç nə o xəstə canı qurtara bilməzdi. Bunu anlamaq çətindir, elə ölüm da başadüşülən deyil.

An mənim üçün hər şey demək idi. Səhər ucu-bucağı görünməyən uzaqlıqdaydı. Helen yuxudan duranda gündüzüm başlayırdı, yatanda, onu yanımda hiss edəndə isə ümid və çarəsizlik, xəyal divarlarının üstündə qurduğum planlar, praqmatik möcüzələr, ilk işıqda sönüb dumanlara qərq olan yaşam və ölümün fəlsəfəsi arasında vurnuxmalarım başlayırdı.

Havalar soyuqlaşdı. Deqanın Amerikaya yolpulu olacaq rəsmini özümlə gəzdirirdim və onu indi məmnuniyyətlə satardım; lakin xırda şəhər və kəndlərdə buna pul verən tapılmazdı. Müxtəlif yerlərdə çalışırdıq. Mən tarlaçılığı öyrənmişdim. Yer belləyirdim, toxa döyürdüm; nəsə etmək istəyirdim. Biz tək deyildik. Odun doğrayan professorlar, çuğundur kətmənləyən opera müğənniləri tanıyırdım. Kəndlilər kəndliliyində qalırdı; ucuz işçi qüvvəsi tapmaq fürsətini qaçırmırdılar. Bəziləri puldan-paradan, başqaları isə yemək verirdi və gecələr haradasa yatmağa imkan

yaradırdı. Bəziləri də yalvaranları qovurdu. Bu minvalla Marselə üz tutduq. Marseldə olmusunuz?»

«Kim olmayıb ki? – dedim. – Jandarmla gestaponun ov məskəni idi. Mühacirləri konsulluqların qabağında dovşan kimi ovlayırdılar».

«Az qala bizi də tutmuşdular, – dedi. – Marsel xarici əlaqələr şöbəsinin prefekti mühacirləri qurtarmaq üçün əlindən gələni edirdi. Amerikaya viza almaq üçün mən hələ də dəli-divanə idim. Mənə elə gəlirdi ki, həmin viza xərçəngi durdura bilər. Bilirsiniz ki, həddən artıq ziyan çəkdiyini sübuta yetirməmiş, yaxud adın məşhur sənətkarların, alimlərin, ya da ziyalıların Amerikadakı siyahısına düşməmiş sənə viza vermirdilər. Elə bil, biz hamımız ziyan çəkənlərdən olmamışıq və sanki, insan, insan deyilmiş! Dəyərli və adi insanlar arasına qoyulan fərq üstün insanla aşağı insan arasındakı uzaq paralel deyilmi?»



«Hamını qəbul edə bilmirlər», – dedim.

«Bilmirlər?» – soruşdu.

Cavab vermədim. Nə cavab verəydim? Təsdiq də, inkar da eyni şey idi.

«Onda niyə bəs tam atılmışları yox? – soruşdu. – Adı və xidməti olmayanları?»

Yenə cavab vermədim. Şvarsın iki amerikan vizası vardı, daha nə istəyirdi? Məgər blmirdi ki, Amerika o adama viza verir ki, ona orada kimsə dövlətə yük olmayacağı barədə zamin dursun? Bunu o, bir an sonra söylədi:

«Orada heç kimi tanımıram; amma kimsə mənə Nyu-Yorkda bir ünvan verdi. Həmin ünvana, elə başqalarına da yazdım. Vəziyyətimizi təsvir etdim. Sonra tanışlardan biri mənə dedi ki, səhv eləmişəm, xəstələri Amerika Birləşmiş Ştatlarına buraxmırlar. Sağalmaz xəstələri isə heç cür. Gərək Heleni sağlam yazdıraydım. Helen söhbətin bir hissəsinə qulaq asmışdı. Yayına bilməmişdik. Marseldəki bu dağılmış arı yuvasında heç kim başqa şeydən danışmırdı.

Həmin axşam Kanneber yaxınlığındakı restoranlardan birində oturmuşduq. Külək küçələrdə cövlan edirdi. Ümidimi itirməmişdim. Ümidlə yaşayırdım ki, Helenə sağlamlıq kağızı verəcək bir nəfər rəhmli həkim tapa biləcəyəm. Biz hələ də həmin oyunu oynayırdıq: bir-birimizə inanırıq və guya, mənim heç nədən xəbərim yoxdur. Düşərgəsi yerləşdiyi

ərazinin prefektinə məktub yazdım ki, təqiblərə məruz qaldığımızı təsdiq etsin. Özümüzə balaca bir otaq tapmışdıq; birhəftəlik qalma icazəsi almışdım və gecələr restoranların birində qabyuyan kimi xəlvəti işləyirdim. Bir az pulumuz vardı və əczaçı Dübuanın resepti ilə on ampula morfi vermişdi. Hazırkı an üçün lazım olan hər şeyimiz vardı.

Restoranda pəncərənin qabağında oturub küçəyə baxırdıq. Bu dəbdəbəni özümüzə rəva bilmişdik, çünki bir həftə ərzində gizlənməyə bilərdik. Birdən Helen qorxub əlimdən yapışdı. Qaranlıqda donub qaldı.

«Georq», – pıçıltı ilə dilləndi.

«Hanı?»

«Oradakı üstüaçıq avtomobildə. O saat tanıdım. İndicə ötüb-keçdi».

«Dəqiq tanıdın?»

Başı ilə təsdiqlədi. Bu, mənə mümkünsüz göründü. Ötüb-gedən avtomobillərin içindəki adamları görməyə çalışdım. Bacarmadım, amma bu, məni sakitləşdirmədi.

«Niyə məhz Marseldə olmalıdır?» – soruşdum və həmin an da anladım ki, o, haradasa olmalıydısa, o da Marsel olmalıydı, Fransadan gələn mühacirlərin son sığınacaq yeri.

«Buradan getməliyik», – dedim.

«Haraya?»

«İspaniyaya».

«İspaniya daha təhlükəli deyilmi?»

Şayiə gəzirdi ki, gestapo İspaniyada özünü öz evindəki kimi hiss edir və oradan çoxlu mühacir tutulub almanlara təhvil verilib; amma bu dövrdə hər cür şayiə gəzirdi və adam hamısına inana bilmirdi.

Yenidən qədim yolu təkrarlamağa çalışdım: İspaniyadan keçmə vizası, bu da, əslində, Portuqaliya vizası olanda verilirdi; portəgiz vizası da başqa bir ölkənin vizasından asılıydı. Buna sonradan bütün bürokratik əngəllərin ən müəmmalısı əlavə olunurdu: Fransadan çıxma vizası.

Bir axşam bəxtimiz gətirdi. Bir nəfər amerikalı bizimlə söhbətə girişdi. Bir az kefli idi və ingiliscə danışa bilən adam axtarırdı. Bir-iki dəqiqədən sonra masamıza oturub bizi içkiyə qonaq etdi. Təqribən iyirmi beş yaşı olardı və Amerikaya qayıtmaq üçün gəmi gözləyirdi.

«Siz niyə getmirsiniz?» – soruşdu.

Bir anlığa cavab vermədim. Sadəlövh sual az qala aramızdakı süfrəni iki yerə böldü. Qarşımızda başqa planetli adam oturmuşdu. Onun üçün danışmaq qədər adi olan şey bizim üçün çömçəquyruq ulduzlar kimi əlçatmaz idi.

«Vizamız yoxdur», – axır ki, dilləndim.

«Sabah alarsınız. Bizim Marseldəki konsulluğumuzdan. Orada çox gözəl insanlar çalışır».

Bu gözəl insanları yaxşı tanıyırdım. Yarımallahlar idilər; təkcə katibləri görmək üçün küçədə saatlarla gözləməli olurdun. Sonralar zirzəmidə gözləməyə icazə verdilər, çünki küçədə gestapo mühacirləri tez-tez tutub aparırdı.

«Sabah sizinlə ora gedəcəyəm», – amerikalı dedi.

«Oldu», – dedim, ancaq inanmadım.

«Gəlin bu sağlığa içək».



İçdik. Qarşımdakı bixəbər, tər sifəti görür və ona dözə bilmirdim. Həmin axşam amerikalı işıq dənizindən danışanda Helen pardaqlanıb açılmışdı. Qaranlıq şəhərdə əfsanəvi nağıl. Artistlərin, tamaşaların, meyxanaların adı çəkiləndə, müharibə nə olduğunu bilməyən şəhərin qaynaşmasından söhbət gedəndə Helenin sifətinə baxırdım. Cılızlaşmışdım, buna baxmayaraq, sevinirdim ki, qulaq asır, çünki indiyə qədər Amerika adı gələndə qəribə, lal bir passivlik göstərirdi. Restoranın siqaret tüstüsündə get-gedə sifətinə canlanma gəlirdi, gülürdü və cavan oğlanın ən çox sevdiyi tamaşaya birlikdə gedəcəklərinə söz verirdi. İçirdik və bilirdik ki, səhər hər şey unudulacaq.

Amma unudulmadı. Saat onda amerikalı bizi aparmağa gəldi. Mənim başım ağrıyırdı, Helen də getmək istəmirdi. Yağış yağırdı; mühacirlərin sıxılmış topasına yaxınlaşdıq. Hər şey adama yuxu kimi gəlirdi; topanın arası ilə irəlilədik, o, firondan qaçıb qurtarmış İsrail mühacirlərinin önündə aralanan Qırmızı dəniz kimi iki yerə böləndü. Amerikalının yaşıl pasportu nağıldakı hər qapıya düşən qızıl açara çevrilmişdi.

Ağlasığmaz bir hadisə baş verdi. Cavan oğlan söhbətin nədən getdiyini eşidəndə laqeyd-laqeyd bildirdi ki, bizi zaminə götürür. Ağlabatan iş deyildi; o, çox cavan idi. Mənə elə gəldi ki, belə işlər üçün o, məndən də yaşlı olmalıdır. Təxminən, bir saat konsulluqda qaldıq. Niyə təhlükədə olduğumuzu bir neçə həftə qabaq yazıb hazırlamışdım.

Çətinliklə də olsa, ikinci, üçüncü adamın köməyi ilə İsveçrədən təsdiq almışdım ki, Almaniyada düşərgədə olmuşam, bundan əlavə, bizi geri qaytarmaq üçün Georq Heleni axtarır. Dedilər ki, bir həftədən sonra gəlim. Bayırda cavan amerikalı əlimi sıxdı.

«Yaxşı ki, bir-birimizə rast gəldik. Alın, – vizit kartını çıxartdı, – ora çatan kimi mənə zəng edin».

Əl edib getmək istədi.

«Əgər nəsə baş versə? Sizə ehtiyacım olsa?» – soruşdum.

«Nə baş verə bilər ki? Hər şey qaydasındadır, – güldü. – Atam tanınmış adamdır. Eşitmişəm, sabah Orana gəmi gedir, vətənə dönməzdən qabaq oranı da görmək istərdim. Kim bilir, bura bir də haçan gələcəyəm. Görmək istədiyini görmək pis olmazdı».

Getdi. Bir dəstə mühacir məni dövrəyə aldı, onun adını və ünvanını öyrənmək istədi; nə baş verdiyini duymuşdular və istəyirdilər onlara da kömək eləsin. Onun Marseldə harada yaşadığını bilmədiyimi deyəndə məni söyüb, söyüşdən keçirdilər. Doğrudan da, bilmirdim. Amerika ünvanlı kartı göstərdim. Yazdılar. Dedim ki, xeyri olmayacaq, kişi Orana getmək istəyir. Dedilər ki, onda gəminin yanında gözləyəcəklər. Tutqun əhval-ruhiyyə ilə evə döndüm. Bəlkə də, hər şeyi korlamışdım, ünvanı onlara göstərmişdim, fəqət həmin an halım özümdə olmamışdı və oradan aralandıqca hər şey mənə ümidsiz görünürdü.

Hamısını Helenə danışdım. Gülümsədi. Həmin axşam o, çox həlimləşmişdi. Kirəkeşdən kirayə götürdüyümüz balaca otaqda – bildiyiniz kimi, onu dildən-dilə gəzən ünvanla tapmışdıq – yaşıl bir tutuquşu yorulmaq bilmədən elə hey oxuyurdu, ona qulluq etməyi öhdəmizə götürmüşdük. Yad bir pişik qonşu damlardan gəlib sarımtıl gözlərini dəmir qəfəsdə tavandan asılmış quşa zilləyərək pəncərənin qabağında otururdu. Hava soyuq idi, lakin Helen pəncərənin açıq qalmasını istəyirdi. Ağrıdığını bilirdim; bu, onun əlamətlərindən biri idi. Ev yalnız gecədən xeyli keçmiş sakitləşdi.

«Balaca qəsri xatırlayırsan?» – Helen soruşdu.

«Xatırlayıram, amma, elə bil, kimsə mənə bu barədə danışıb, – dedim. – Sanki, orada mən yox, bir başqası olub».

Üzümə baxdı, sonra: «Bəlkə də, elədir. Hərənin içində bir neçə şəxs olur», – dedi.

«Bir-birindən tam fərqli. Hərdən müstəqilləşib bir müddət səni idarə edirlər və sən başqa adam olursan, əvvəllər tanımadığın birisi. Amma sonra özünə qayıdırsan! Qayıtmırsan?» – israrla soruşdu.

«Mənim içimdə heç vaxt bir neçə şəxs olmayıb, – dedim. – Mən həmişə eyni monoton adamam».

Başını hirsli-hirsli tərpətdi: «Necə də yanılırsan! Yalnız sonradan görəcəksən ki, necə də yanılırsan», – dedi».

«Nə demək istəyirsən?»

«Unut getsin. Pəncərədəki pişiyə bax! Bir də hər şeydən bixəbər oxuyan quşa! Qurban kimi şənlənir!»

«Pişik heç vaxt onu ələ keçirə bilməyəcək. Oturub arınarxayın öz qəfəsində».



Gülmək onu tutdu: «Arın-arxayın öz qəfəsində, – dediyimi təkrarladı. – Qəfəsdə arın-arxayın olan varmı, görəsən?!»

* * *

Səhərə yaxın yuxudan ayıldıq. Ev sahibəsi söyüb qışqırırdı. Əynimi geyinib qaçmağa hazır vəziyyətdə qapını açdım, amma polis görmədim.

«Qan! – qadın qışqırırdı. – Bunu ayrı yerdə edə bilməzdi? Heyvan balası! İndi polis özünü yetirər! Bu da yaxşılığın axırı! Sui-istifadə edirlər! Beş həftədir kirə pulunu da vermirdi!»

O biri otaqlarda yaşayanlar solğun işığın altında dəhlizə yığışmışdı və yandakı otağa baxırdılar. Təqribən altmış yaşlı bir qadın orada özünə qəsd etmişdi. Sol əlinin nəbzini kəsmişdi. Qan çarpayının altına axmışdı.

«Həkim çağırın», – Marseldə kəhrəba və müqəddəslərin şəklini satan frankfurtlu mühacir Laxman dilləndi.

«Həkim! – ev sahibi təklarladı. – Neçə saatdır ölüb, görmürsünüz bəyəm? Sizi içəri buraxanda belə olur! İndi polis özünü yetirər! Hamınızı da basar dama! Bəs çarpayı, onu kim təmizləyəcək?»

«Özümüz təmizləyərik, – Laxman dilləndi. – Polisi oyuna qatmayın!»

«Bəs kirə pulu? O necə olsun?»

«Toplayıb verərik, – qırmızı kimonolu yaşlı bir qadın dedi. – Buradan çıxıb hara gedək ki? Mərhəmət göstərin!»

«Kifayət qədər göstərmişəm! Amma ondan sui-istifadə edirlər, vəssalam. Şeydən-şüydən nəyi vardı? Heç nəyi!» Axtarmağa başladı. Otaqdakı yeganə çırağın solğun işığı öləziyirdi. Çarpayının altında ucuz bir çamadan vardı. Qadın dəmir çarpayının dar tərəfindən, qan olmayan yerdən aşağı əyildi və çamadanı özünə tərəf dartdı. Zolaqlı ev paltarından pırtıb çıxan enli dalı öz qurbanını yemək istəyən nəhəng həşərata bənzəyirdi. Çamadanı açdı: «Heç nə! Bir-iki cır-cındır! Yırtıq-yamaq ayaqqabı!» – deyə bağırmağa başladı.

«Baxın!» – Lüsi Leve adlı yaşlı qadın dilləndi. «Qara bazar»da corab satır və sınmış saxsı muncuqları bir-birinə yapışdırırdı.

Sahibə qutunu açdı. Qutunun içində narıncı pambığa bükülmüş nazik bir boyunbağı, üstündə xırda daşı olan bir üzük vardı.

«Qızıldır? – köklüyündən az qala indicə partlayacaq qadın soruşdu. – Yəqin, qızıl suyuna çəkilib!»

«Qızıldır», – Laxman dedi.

«Qızıl olsaydı, bu işi tutmazdan qabaq çoxdan satmışdı», – sahibə öz düşüncəsini bildirdi.

«Belə işi heç də həmişə aclıq üzündən tutmurlar, – Laxman arxayın-arxayın cavab verdi. – Qızıl olmağına qızıldır. Bu balaca daş da rubindir. Dəyəri ən azı yeddi yüz, səkkiz yüz frankdır».

«Boş şeydir!»

«İstəsəniz sizin üçün sataram».

«Satarsınız da, mənə kələk də gələrsiniz, eləmi? Yox, əzizim, mənə yox!»

* * *

Polis çağırası oldu. Bundan qaçmaq mümkün deyildi. Evdə yaşayan mühacirlərin hərəsi bir yana səpələndi. Kimisi tutduğu yolu getdi: konsulluqlara, nəsə satmağa, yaxud iş tapmağa, kimisi də küçənin tinində müşahidəçi kimi

qoyduqları mühacirdən məlumat almaq üçün yaxındakı kilsəyə. Kilsə ən etibarlı yer idi.

Dini mərasim təzəcə başlamışdı. Qara paltarlı qadınlar qara təpəciklər kimi yan dəhlizlərdə tövbə hücrəsinin qabağında oturmuşdular. Şamlar titrəmədən yanırdı, orqan fəğan qoparırdı və işıq keşişin yuxarı qaldırdığı qızıl piyalədə oynayırdı, bu piyalədə Məsihin qanı olmuşdu, həmin qanla o, dünyanı suçdan qurtarmaq istəmişdi. Bəs axırı nə oldu? Qanla səlib yürüşləri, dini fanatizm, inkvizisiyanın işgəncələri, cadugərlərin tonqallarda yandırılması və asi qətlləri – hamısı da insanlıq adından.

«Gəlsənə, vağzala gedək, – Helenə müraciət etdim. Gözləmə zalı kilsədən xeyli istidir».

«Bir dəqiqə də gözlə».



Keşiş kürsüsünün altındakı oturacağa yaxınlaşıb diz çökdü. Bilmirdim, duamı edir, özü də kimə, hər halda, Ösnabrükdəki kilsədə onu gözlədiyim gün qəfildən yadıma düşdü. O vaxt yaxşı tanımadığım, günü-gündən mənə yad görünən və isinişən bir insanı tapmışdım. İndi də eləydi, lakin indi əlimdən çıxırdı, bunu hiss edirdim, əlimdən çıxıb adsız bir məkana, qaranlığa, bəlkə də, qaranlığın qanunlarına atılırdı – özü bunu istəmədi və geriyə qayıtdı, lakin o daha mənə məxsus deyildi, düşünürdüm ki, bəlkə də, heç vaxt mənsub olmayıb; əslində, kim kimə mənsubdur və bunun canı nədədir: ümidsiz illüziyanın meşşan kəlməsi olan qarşılıqlı mənsubluqmu? Amma hər dəfə o, öz sözləri ilə desək, bir anlığa, bir göz qırpımına, bir gecəliyinə geri qayıdanda özünü hesablamağa ixtiyarı olmayıb yanlışlıqları, səhvləri, sevdiyini və nifrət etdiyini sorğusuz-sualsız qəbul edən hesabdara bənzəyirəm! Bilirəm, bundan ötrü ayrı kəlmələr də var, ucuzu, çeynənmişi, bir an üçün işlənəni, amma qoy onlar başqa münasibətlər və özlərinin eqoistik qanunlarının lövhi-məfhuzdakı kitabda yazıldığını güman edən insanlar üçün qalsın. Tənhalıq özünə yoldaş axtarır və onun kimliyini soruşmur. Bunu bilməyən heç zaman tənha olmur, yalnız tək olur.

«Dua edib nə istəyirdin?» – soruşdum, o saat da peşman oldum.

Qəribə bir baxışla mənə baxdı: «Amerikaya viza». Bildim ki, yalan deyir. Bir anlığa fikrimdən keçdi ki, tərsini istəyib; çünki gedişimizə passiv etirazını hələ də hiss edir-

dim. Bir dəfə gecə demişdi: «Amerika? Sənin orada nə işin var? Niyə bu qədər uzağa? Sən ayağını ora basan kimi Amerika ayrı bir Amerika olacaq, sonra təzədən qəriblik, bəyəm görmürsən?» Təzə heç nə istəmirdi. Heç nəyə də inanmırdı. İçini gəmirən ölüm ondan əl çəkmək istəmirdi. O, vivisektor[1] kimi ona əzab verir, bədən üzvlərindən birini və digərini, hüceyrələrdən birini, sonra da başqasını dəyişib məhv edəndə nə baş verdiyini müşahidə edirdi. Xəstəlik onunla maskalanmış qəddar oyun oynayırdı, biz qəsrdə kostyumları geyib insafsızcasına oynadığımız kimi və hərdən mənə nifrət edən adam, hərdən əlacsızlıqdan sədaqətli olan birisi, hərdən dəhşətli dərəcədə cəsur oyunçu, hərdən aclıq və məyusluq timsallı bir qadın, lakin sonra qaranlıqdan qayıtmaq üçün məndən başqa heç kəsi olmayan insan və sönmə qarşısında özünün qorxulu və qorxusuz üşərgəsində bunlara şükür oxuyan adam alışıb-yanan gözləri ilə məni süzürdü.

Xəbərçimiz gəlib bildirdi ki, polis gedib.

«Gərək muzeyə gedəydik, – Laxman dilləndi, – oranı qızdırırlar».

«Burada muzey var ki?» – çiyinləri düşük cavan qadın dilləndi, ərini jandarm tutmuşdu və yarım ili idi onun yolunu gözləyirdi.

«Əlbəttə, var!»

Yadıma ölü Şvars düşdü. «Bəlkə, ora gedək?» – Helendən soruşdum.

«İndi yox. Geri qayıdaq».

İstəmirdim, meyiti bir də görsün; amma dediyindən dönmədi. Geri qayıdanda sahibə sakitləşmişdi. Bəlkə də, boyunbağı ilə üzüyə qiymət qoydurmuşdu. «Yazıq arvad, – dedi. – Fağırın heç adı da bilinmir».

«Sənədi-zadı yox idi?»

«Qalma sənədi vardı. Onu da polis gələnə qədər o biriləri götürdü, kimin qismətinə düşəcəyini bilmək üçün çöp atdılar. Xırdaboy, kürənsaç qadın uddu».

«Hə də, elə də olmalıydı; kürənin heç bir sənədi yox idi. Neyləməli, rəhmətlik özü razı qalardı».

«Baxmaq istəyirsiniz?»

---

[1] *Vivisektor* – keyləşdirilməmiş canlı heyvan üzərində cərrahiyyə əməliyyatı aparan şəxs

«Yox», – dedim.

«Hə», – Helen dilləndi. Onunla getdim. Meyit qan içindəydi. Biz içəri girəndə iki mühacir qadın onu yuyurdu. Cəsədi ağ taxta kimi çevirdilər. Saçları yerə sallanırdı.

«Bayıra!» – qadınlardan biri dilləndi.

Çıxdım. Helen orada qaldı. Bir azdan onu aparmaq üçün geri qayıtdım. Dar otaqda çarpayının ayaq tərəfində təkcə dayanmışdı, gözünün biri tam qapanmamış ağ, sallaq sifətə baxırdı. «Tez ol, gedək», – dedim.

«Sonda adam bu cür görünürmüş, – pıçıltı ilə dilləndi. – Harada basdıracaqlar?»

«Bilmirəm. Kasıbların basdırıldığı yerdə. Pulla başa gəlsə, sahibə bizdən yığacaq».

Susdu. Soyuq hava açıq pəncərədən içəri dolurdu. «Haçan basdırırlar?» – soruşdu.



«Sabah, ya da birisi gün. Bəlkə də, yarmağa apardılar».

«Niyə? İnanmırlar ki, canına qəsd edib?»

«İnanarlar».

Sahibə içəri girdi. «Sabah xəstəxanalardan birinə autopsiyaya[1] aparacaqlar. Cavan həkimlər cəsədləri yarıb öyrənirlər. Ölü üçün fərqi yoxdur və basdırmağa xərc də lazım olmur. Bir fincan qəhvə istəməzdinizmi?»

«Yox», – Helen dedi.

«Mən birini içmək istəyirəm, – sahibə dedi. – Qəribədir, adamı necə də həyəcanlandırır, hə? Baxmayaraq ki hamımız öləcəyik».

«Elədir, – Helen cavab verdi. – Amma heç kim buna inanmaq istəmir».

* * *

Gecə yuxudan ayıldım. Helen çarpayıda oturub dinşəyənə oxşayırdı. «İyi sən də hiss edirsən?»

«Nə iyini?»

«Ölü iyini. Hiss edilir. Pəncərəni bağla».

«Heç nə hiss edilmir, Helen. Bu, tezliklə olmaz».

«Edilir».

«Bəlkə, budaqlardır». Mühacirlər bir neçə dəfinə budağı gətirib şamla birlikdə meyitin yanına qoymuşdular.

---

[1] *Autopsiya* – meyityarma

«Budaqları niyə gətiriblər? Onsuz da sabah onu doğrayıb tikələrini vedrəyə atacaqlar, tullantı ət kimi it-pişik üçün satacaqlar».

«Satmazlar. Yarılmış cəsədi ya yandırırlar, ya da basdırırlar», – deyib əlimi boynuna doladım. Məni özündən itələdi. «Tikə-tikə doğranmaq istəmirəm», – dedi.

«Niyə doğranmalısan ki?»

«Söz ver», – məni dinləmədən dedi.

«Söz vermək çətin deyil».

«Pəncərəni bağla. İyi yenidən hiss edirəm». Qalxıb bağladım. Bayırda ay süd kimi ağarırdı, pişik də pəncərənin qabağında oturmuşdu. Pəncərə layı ona toxunanda fınxırıb geri hoppandı. «Nəydi?» – Helen arxadan soruşdu.

«Pişik».

«Görürsən, o da hiss edir».

Geriyə döndüm. «O, hər gecə burada oturub tutuquşunun qəfəsdən çıxmasını gözləyir. Çalış yat, Helen. Xülyan səni aldadır. O biri otaqdan bura heç vaxt iy gəlməz».

«Onda iy məndən gəlir?»

Xeyli onu süzdüm. «Heç kimdən iy gəlmir, Helen, sənə elə gəlir?» – dedim.

«İy meyitdən gəlmirsə, deməli, məndən gəlir. Yalan danışma!» – qəfildən kəskin cavab verdi.

«Allah xatirinə, Helen, heç kimdən iy gəlmir! İy gələsi olsa, aşağıdakı restorandan sarımsaq iyi gələr. Budur! – deyib bir şüşə odekolon götürdüm – belə şeyləri o vaxt əlaltdan satırdım» – və bir xeyli ətrafa çilədim. – «Belə, indi hava oldu tərtəmiz».

Hələ də çarpayıda söykənib oturmuşdu. «Deməli, etiraf edirsən, – dedi. – Yoxsa odekolonu korlamazdın».

«Etiraf etməli heç nə yoxdur. Səni sakitləşdirmək üçün etdim».

«Bilirəm ki, elə fikirləşirsən, – cavab verdi. – Fikirləşirsən ki, mən iy verirəm. Qonşu otaqdakı kimi. Yalan demə! Baxışından görürəm, çoxdan görürəm! Elə bilirsən hiss etmirəm, mənə necə baxırsan? Fikirləşmə ki, görmürəm! Bilirəm ki, məni görəndə ürəyin bulanır, bilirəm, görürəm, hər gün hiss edirəm. Nə fikirləşdiyini də bilirəm! Sən həkimlərin dediyinə inanmırsan! Başqa şeyə inanırsan və

düşünürsən ki, iyi hiss edirsən və yanımda ürəyin bulanır? Niyə boynuna alıb düzünü demirsən?»

Bir müddət səsimi də çıxarmadım. Deməyə sözü vardısa, qoy desin. Lakin susdu. Əsdiyini hiss etdim. Boyalı dodaqları ilə – günlərdən bəri dodaqlarını yatmazdan qabaq da boyayırdı – irəli əyilmiş qeyri-müəyyən, solğun bir qövs kimi dirsəklənərək çarpayıda oturmuşdu, göz çuxurunda həddən artıq iri görünən gözləri ilə üstümə şığımaq istəyən yaralı heyvan kimi məni süzürdü.

Sakitləşənə qədər xeyli vaxt keçdi. Axırda birinci mərtəbədəki Baumun qapısını döyüb bir cib şüşəsi konyak aldım. Çarpayıda oturub içdik və səhəri gözlədik. Cəsədi aparmalı adamlar tezdən gəldi. Ağır çəkmələrini yerə döyə-döyə pilləkəni qalxdılar. Xərəklərini dar dəhlizin divarına söykədilər. Onların səfeh atmacaları nazik divardan eşidilirdi. Bir saat sonra yeni sakinlər gəldi».



## XVII

«Həmin günlər mətbəx ayın-oyunu satırdım – dəmir ovmaçı[1], bıçaq, göydoğrayan və xırda-xuruş; onları gəzdirmək üçün şübhəli çamadana ehtiyac yox idi. İki dəfə otağımıza vaxtından əvvəl qayıtdım, hər dəfə də Heleni evdə görmədim. Gözlədim və narahat olmağa başladım; amma sahibə dedi ki, onu heç kim aparmayıb. Bir-iki saat qabaq özü çıxıb-gedib və belə şeylər tez-tez olur.

Axşamdan xeyli keçmiş gəldi. Sifəti tutqun idi. Üzümə baxmadı. Nə etmək lazım gəldiyini bilmədim, lakin soruşmasam, soruşmaqdan da qəribə alınardı. Ona görə də soruşdum: «Haradaydın, Helen?»

«Gəzirdim», – cavab verdi.

«Bu havada?»

«Hə, bu havada. Məni sorğu-suala çəkmə!»

«Çəkmirəm» – dedim. – Narahat idim ki, polis tutmuş olar».

Sərt-sərt güldü: «Daha tutmaz».

«Kaş belə olaydı».

---

[1] Bu sözü məişətimizə rus dilindən daxil olmuş “tyorka”nın yerində işlədirik

Diqqətlə mənə baxdı: «Bir də soruşsan, çıxıb gedəcəyəm. Mənə göz qoyulmasına dözə bilmirəm, başa düşmürsən? Bayırdakı evlər mənə göz qoymur! Onların vecinə deyiləm. Yanımdan ötən adamları da mən vecimə almıram. Onlar nə soruşur, nə də göz qoyurlar!» – dedi.

Nə dediyi aydın oldu. Bayırda onun xəstəliyindən heç kimin xəbəri yox idi. Orada o, müştəri deyildi, qadın idi və qadın kimi də qalmaq istəyirdi, yaşamaq istəyirdi; müştəri olmaq isə onun üçün günü-gündən ölmək demək idi.

Gecə yuxuda ağlayırdı. Səhər hər şeyi unutmuşdu. Bu, onun tab gətirə bilmədiyi toranlıq idi. Bu, zəhərlənmiş hörümçək toru kimi onun hürkək qəlbinin üstünə sərilmişdi. Görürdüm ki, keyləşdiricidən daha çox istifadə edir. Dərdimi əvvəllər həkim işləmiş, indi isə baxıcılıq edən Levisona söylədim. Dedi ki, çox gecdir və daha heç nə eləmək olmaz. Bunu Dübua da demişdi.

Həmin gündən etibarən evə gec gəlməsi çoxalmışdı. Ondan nəsə soruşacağımdan qorxurdu. Soruşmurdum. Bir dəfə tək olanda bir dəstə qızılgül gətirdilər. Çıxıb getdim, geri qayıdanda gül dəstəsi yox idi. İçməyə başlamışdı. Bir-iki adam mənə demişdi ki, onu barlarda görüblər, özü də tək yox. Amerika konsulluğundan əl çəkmirdim. Axır ki, dəhlizdə gözləməyimə icazə verdilər; amma günlər ötür, heç nə də alınmırdı.

* * *

Sonra tutuldum. Konsulluqdan iyirmi metr aralı polis birdən bütün yolları bağladı. Konsulluğa çatmağa çalışdım, lakin bu, məni şübhəli etdi. Konsulluğun içində olanlar canlarını qurtarmışdı. Laxmanın qapıdan içəri girdiyini gördüm, götürüldüm, xeyli irəlilədim və jandarmın qabağa uzatdığı ayağına ilişib yıxıldım.

«Bu gədəni mütləq, – mülki geyimli güləyən gədəçə dilləndi. – Yaman bərk tələsir».

Sənədlərimizi yoxladılar. Altı nəfərimizi tutub saxladılar. Polis arxaya çəkildi. Bir dəstə mülki adam qəfildən bizi dövrəyə aldı. Bizi sıxışdırıb üstübağlı yük avtomobilinə mindirdilər və şəhər kənarındakı bağda tək-tənha dayanmış bir binaya gətirdilər. Pis filmlərdə olduğu kimi səslənir,

– dedi. – Bəs son doqquz ilin hamısı murdar, qanlı film deyildimi?»

«Gestapo idi?» – soruşdum.

Başı ilə təsdiqlədi. «Bu gün mənə möcüzə kimi gəlir ki, əvvəllər məni niyə tutmayıblar. Bilirdim ki, Georq bizi axtarmaqdan əl çəkməyəcək. Sənədlərimi əlimdən alanda bunu mənə güləyən gədəçə demişdi. Bədbəxtlikdən Helenin pasportu da oradaydı. Onu özümlə konsulluğa aparmışdım.

«Axır ki, balıqlarımızdan biri əlimizə keçdi, – gədəçə dilləndi. – Tezliklə o biri də gələr». Gülümsəyib barmaqlarında üzükdən boş yer qalmayan əlini sifətimə ilişdirdi. «Siz də elə düşünmürsünüz, Şvars?» Üzüklərin dodağımdın fışqırtdığı qanı sildim. Otaqda mülki geyimli daha iki nəfər vardı. «Bəlkə, özünüz ünvanı könüllü vermək istəyirsiniz?» – güləyən gədəçə soruşdu.



«Ünvanını bilmirəm, – dedim. – Arvadımı özüm də axtarıram. Bir həftə qabaq dalaşmışıq, o da qaçıb».

«Dalaşmısınız? Necə də iyrəncdir! – gədəçə sifətimə birini də ilişdirdi: Alın, bu da onun cəzası!»

«Onu çalxayaq, şef?» – arxamdakı kələlərdən biri soruşdu.

Qızsifət gədəçə gülümsədi: «Çalxamağın nə olduğunu ona başa salın, Möller». Möller başa saldı ki, telefon məftilini xayama bağlayıb dartacaqlar. «Bundan xəbəriniz var? Siz bir dəfə düşərgədə olmusunuz axı», – gədəçə soruşdu. Belə şeydən xəbərim yox idu. «Mənim ixtiramdır, – dedi. – Amma əvvəlcə bir az sadəsini edə bilərik. Sadəcə olaraq, qiymətli yerinizi elə bərk-bərk bağlayarıq ki, oradakı qan dövranı dayanar. Bilirsinizmi ki, bir saatdan sonra qışqırtınız ərşə dayanacaq?! Bu əməliyyatda səsiniz çıxmasın deyə, ağzınıza gözəl-göyçək taxta ovuntusu təpəcəyik». Açıqmavi gözləri qəribə şəkildə şüşə kimi parlayırdı. «O qədər gözəl-gözəl ixtiralarımız var ki! – sözünə davam etdi. – Bilirsinizmi, odla nələr eləmək olar?» – Hər iki kələ güldü. – «Közərmiş nazik məftillə, – güləyən gədəçə davam etdi. – Asta-asta qulağın içinə, ya da burun deşiyindən üzüyuxarı yeridirsən. Çox şey eləmək olar, qara Şvars![1] Nə yaxşı ki təcrübələrimiz üçün tam ixtiyarımızdasınız».

---

[1] Şvars soyadının lüğəvi mənası "qara" deməkdir

Ayağımın üstünə çıxıb əzdi. Üzünə vurduğu ətir burnuma doldu. Qımıldanmadım. Bilirdim ki, müqavimət göstərmək əbəsdir, özünü qəhrəman kimi aparmaq isə əbəsdən əbəsdir. Həmin qəhrəmanlığı sındırmaq bu işgəncə ustadlarının əlinə gözəl bir fürsət verərdi. Ona görə də dəyənəklə endirdikləri növbəti zərbədə zarıyıb yerə çökdüm. Şaqqanaq çəkib güldülər.

«Onu cana gətirin, Möller», – gədəçə mülayim səslə dedi.

Möller siqaretini sümürürdü, aşağı üstümə əyilib onu göz qapağıma tutdu. Ağrı elə dəhşətli oldu ki, elə bil, gözümə qor tökdülər. Üçü də qaqqıldayıb güldü.

«Qalx ayağa, bala», – bədxahım dilləndi. Təngildəyə-təngildəyə qalxdım. Zorla ayağa durmuşdum ki, bir zərbə də ondan aldım. «Bunlar hələ qızışma məşqələridir, – dedi. – Yetərincə vaxtımız var, bir insan ömrü qədər, sizin ömrünüz qədər, Şvars. Növbəti simulyasiyada sizə gözəl bir sürprizimiz olacaq. İməkləyə-iməkləyə havaya uçacaqsınız».

«Simulyasiya eləmirəm, – cavab verdim, – ürəyim xəstədir. Ola bilsin, ikinci kərə heç yerimdən qalxa bilməyim, belə şey sizdə tez-tez olur axı».

Bədxahım kələlərə tərəf döndü: «Oğlancığazın ürəyi xəstəymiş, inanaqmı buna?» Mənə yeni bir zərbə endirdi, amma hiss etdim ki, dediyimin təsiri olub. Georqa ölünü təslim edəsi deyildi ki! «Ünvan hələ yadınıza düşməyib? – soruşdu. – İndi demək sizə daha münasibdir, nəinki sonra, dişləriniz qarnınıza töküləndə».

«Ünvanı bilmirəm. Bilsəydim, deyərdim».

«Oğlancığaz qəhrəmanmış. Nə gözəl! Heyif ki, bunu bizdən başqa heç kim görməyəcək». Yorulana qədər təpiklədi. Yerdə uzanmışdım, üzümü və xayamı qorumağa çalışırdım. «Belə, – dedi. – İndi isə balamızı zirzəmiyə ataq. Sonra şam edərik, şam qurtaranda əməllicə girişərik. Şamdan sonra göpgözəl yığıncaq!»

Bunların hamısı mənə tanış idi. Şiller və Höte ilə yanaşı, yumruq adamının mədəniyyətinin tərkib hissəsi idi və mən onu Almaniyadakı düşərgədə yaşamışdım. Ancaq zəhərim yanımdaydı; məni yalnız yüngülvarı axtarmışdılar və onu tapmamışdılar. Bundan əlavə, tıxacın içinə qoyub

şalvarın manjetinə boş tikilmiş bir ülgüc tiyəsi də vardı; onu da tapmamışdılar.

Qaranlıqda uzanmışdım. Qəribədir, belə vəziyyətlərdə çarəsizliyin səbəbini ilk mərhələdə səni gözləyən şeydə axtarmırsan, əksinə, ələ keçərkən ağılsızlıq etdiyində axtarırsan.

Yaxalandığımı Laxman görmüşdü. Amma ortada fransız polisi olduğuna görə bilmirdi ki, gestaponun əlinə keçmişəm. Ona görə də bircə gün geri qayıtmasam, Helen məni polisdən soruşacaq və güman ki, kimin tutduğunu öyrənəcəkdi. Sonra da buraya gələcəkdi. Məsələ burasındaydı ki, bədxahım bunu gözləmək istəyəcəkdimi. Bilirdim ki, əlüstü Georqa xəbər verəcəkdi. Georq Marseldəydisə, axşam məni dindirəcəkdi.



Marseldəymiş. Helen düz görübmüş. Gəlib məni dindirməyə başladı. Bu barədə danışmaq istəməzdim. Huşumu itirəndə üstümə su tökürdülər. Sonra geri – zirzəmiyə sürütləyirdilər. Yalnız yanımdakı zəhər məni başıma gətirilənlərə dözdürürdü. Xoşbəxtlikdən bədxahımın vəd etdiyi ağır işgəncələrə Georqun hövsələsi çatmırdı; fəqət o da özlüyündə pis deyildi. Gecə bir də gəldi. Qıçlarını aralayıb qarşımdakı kətilə oturdu – on doqquzuncu əsrdə axırına çıxdığımızı güman etdiyimiz, lakin iyirminci əsrin nişanəsinə çevrilmiş mütləqiyyət simvolu – bəlkə də, elə bunu nümayiş etdirmək üçün. Həmin gün yamanlığın iki təzahürünü gördüm: bədxahımı və Georqu, mütləq yamanlığı və qəddar yamanlığı. Müqayisə edəsi olsaq, bədxahım daha yaman idi, o, kefindən işgəncə verirdi, bu birisi isə iradəsini yeritmək üçün. Bu arada bir plan düşünmüşdüm. Hansı yolla olursa-olsun binadan çıxmalıydım; ona görə də Georq qarşımda oturanda özümü elə apardım ki, guya, sınmışam. Ona bildirdim ki, mənə rəhm etsə, hər şeyi deməyə hazıram. Üzü heç vaxt belə bir vəziyyətə düşməmiş adamın tox, nifrinli sifətinə çevrildi, ona görə də əminləşdi ki, kitab qəhrəmanı kimi duruş gətirəcək. Bu qəbildən olanlar duruş gətirə bilməz».

«Bilirəm, – dedim. – Gestapo zabiti birisini polad zəncirlə döyərkən baş barmağını əzəndə onun necə uladığını qulağımla eşitmişəm. Döyülən isə sakitcə dayanmışdı».

«Georq mənə bir təpik ilişdirdi.

«Hələ bir şərt də qoymaq istəyirsən, hə?» – dedi.

«Şərt qoymuram, – cavab verdim. – Amma Heleni Almaniyaya aparsanız, bir də qaçacaq, ya da canına qəsd edəcək».

«Gic söhbətdir», – mırıldandı.

«Helen həyatına xeyli biganədir, – dedim. – Sağalmaz xərçəng xəstəliyinə tutulduğunu bilir».

Mat-mat üzümə baxdı: «Yalan deyirsən, leş oğlu leş! Ondakı qadın xəstəliyidir, xərçəng deyil!»

«Xərçəngdir. Birinci dəfə Sürixdə yarılanda tapıblar. Hələ onda vaxtı keçibmiş. Bunu özünə deyiblər».

«Kim?»

«Onu yaran həkim. Helen özü bilmək istəyib».

«Köpək oğlu! – nərildədi. – Dayansın bir, o murdarı da tutaram! Bir ildən sonra İsveçrəni də almanlaşdırarıq. Heyvandan törəmə!»

«İstəyirdim Helen qayıtsın, – dedim. – Amma boyun qaçırırdı. İnanıram ki, boşanmalıyıq desəm, getməyə razı olacaq».

«Gülməlidir!»

«Bunu elə iyrənc şəkildə edərdim ki, ömrü boyu məndən zəhləsi gedərdi», – dedim.

Georqun fikirlərinin necə işləməsini gördüm. Əllərimin üstündə dirənib ona baxırdım. Qaşlarımın arası ağrımağa başladı, bacardıqca iradəmi ona təlqin etməyə çalışırdım.

«Necə?» – axır ki, dilləndi.

«Xəstəliyini kiminsə bilməsindən və ondan iyrənməsindən qorxur. Bunu ona desəm, mənimlə ömürlük üzülüşəcək».

Georq fikrə getdi. Onun hər fikrini izləyə bildim. Gördü ki, bu təklif ən sərfəlisidir. Helenin ünvanını məndən işgəncə ilə almış olsa, bacısı ona əvvəlkindən də çox nifrət edəcəkdi; əksinə, özümü ən alçaq adam kimi aparmış olsam, mənə nifrət edəcəkdi, Georq da xilaskar kimi meydana atılıb lovğalanacaqdı: «Həmişə sənə deməmişdimmi?»

«Harada yaşayır?» – soruşdu.

Yanlış bir ünvan dedim. «Evin beş-altı çıxış qapısı var, – uydurmanı davam etdirdim, – zirzəmidən və bitişik küçələrdən. Polis gələsi olsa, asanlıqla qaçıb aradan çıxa bilər. Mən tək getsəm, qaçmaz».

«Ya da mən», – dedi.

«Onda elə biləcək ki, məni öldürmüsünüz. Özü ilə zəhər gəzdirir».

«Cəfəngiyat!» – Gözlədim. – «Bəs əvəzində nə istəyirsən?» – soruşdu.

«Məni azad etməyini».

Ani gülümsədi. Sanki, yırtıcı heyvan diş göstərirdi. O dəqiqə bildim ki, məni heç vaxt buraxan deyil. «Yaxşı, – dedi. – Mənimlə gedirsən. Növbəti hoqqa çıxarmamaq üçün. Hər şeyi ona yanımda deyərsən». Başımla razılığımı bildirdim. «Getdik!» Ayağa qalxdı. «Kranda yuyun».

* * *

«Onu özümlə aparıram», – otaqda tüfənglə var-gəl edən kələlərdən birinə dedi. Kələ hərbi salam verib Georqun maşınının qapısını açdı. «Burada, yanımda, – Georq dedi. – Yolu tanıyırsan?»



«Buradan yox. Kanneberadan».

Küləkli, soyuq gecədə yol gedirdik. Avtomobil yavaşıyanda, yaxud haradasa dayanmalı olanda özümü bayıra atmaq ümidi ilə yaşayırdım; amma Georq mən tərəfin qapısını bağlamışdı. Qışqırmağın da xeyri olmazdı; alman maşınından qışqıran adamın köməyinə heç kim gəlməzdi və bağlı limuzindən iki dəfə qışqırana qədər Georq məni vurub keyidəcəkdi.

«Ümid edirəm ki, düzünü demisən, – donquldadı. – Yoxsa dərini soydurub yerinə istiot səpdirərəm». Yerimdə büzüşüb oturmuşdum və maşın bir dəfə işıqsız arabanın arxasında əyləclənəndə ləngərlənən adam kimi aşağı əyildim. «Özünü bicliyə qoyub huşunu itirmə, qorxaq!» – mırıldandı.

«Halım yaxşı deyil», – deyib asta-asta belimi düzəltdim.

«Əsgi oğlu əsgi!»

Şalvarın manjetinin tikişini sökə bildim. İkinci əyləc zamanı ülgüc tiyəsini götürdüm; üçüncüdə başımı ön aynaya vurub qaranlıq avtomobildə onu əlimə aldım».

Şvars başını qaldırıb baxdı. Alnında tər puçurlanmışdı.

«Məni heç vaxt buraxmazdı, – dedi. – Siz də belə düşünmürsünüz?»

«Əlbəttə – elə düşünürəm».

«Döngələrin birində bacardığım qədər ucadan və zil səslə qışqırdım:

«Diqqət! Sol!»

Georq fikirləşincə gözlənilməz qışqırtı öz təsirini göstərdi. Başı avtomatik sol tərəfə əyildi, əyləci basıb bərk-bərk sükandan yapışdı. Özümü onun üstünə atdım. Tıxacı yarıb içinə yerləşdirdiyim tiyə böyük deyildi, amma onu Georqun boğazına tutub nəfəs borusuna çəkdim. Sükanı buraxıb tiyədən yapışmaq istədi. Sonra sola, qapıya çöküb qolu ilə tiyəyə toxundu, tiyə yerindən çıxdı. Maşın ləngərlənib kolluğa girdi. Qapı öz-özünə açıldı və Georq yerə yıxıldı. Qan içindəydi və xırıldayırdı.

Üstündən adlayıb dinşədim. Ətrafı uğultulu bir kirmişlik bürümüşdü, deyəsən, motorun səsiydi. Onu söndürdüm, kirmişliyi pozan indi də xışıldayan külək idi. Sonra başa düşdüm ki, qulaqlarımda uğuldayan öz qanımdır. Georqu gözdən keçirib tiyəni axtardım. Maşının üzəngisində parıldayırdı. Onu götürüb gözlədim. Georqun qəfildən sıçrayıb qalxmayacağına əmin deyildim; sonra gördüm ki, yumruqlarını bir-iki dəfə yerə çırpıb sakitləşdi. Tiyəni tulladım, lakin sonra götürüb torpağa basdırdım. Maşının işığını söndüb ətrafı dinlədim. Sakitlik idi. Sonra nə etməli olduğumu əvvəlcədən fikirləşməmişdim; indi cəld tərpənməli idim. Burada hər anın öz hökmü vardı.

Georqu soyundurub bütün əşyalarını bir yerə yığdım. Sonra cəsədini kolluğa sürüdüm. Onu tapana qədər xeyli vaxt keçərdi, sonra da kimliyini müəyyənləşdirmək üçün daha bir xeyli vaxt. Bəlkə, bəxtim gətirəcəkdi, sadəcə olaraq, qətlə yetirilmiş naməlum adam kimi qeydə alacaqdılar. Maşını gözdən keçirdim. Hələ qaydasında idi. Sürüb yola çıxartdım. Qusdum. Maşında bir ədəd cib fənəri tapdım. Oturacaqda və qapıda qan vardı. Maşının içi dəri ilə üzləndiyindən təmizləmək asan oldu. Onu arxın qırağında Georqun köynəyi ilə yudum. Maşının üzəngisini də yaxaladım. Hər dəfə fənərlə işıqlandırıb tərtəmiz yudum. Sonra özüm yuyunub sükanın arxasına keçdim. Georqun yerində oturanda ürəyim bulandı; elə bilirdim ki, indicə qaranlıqdan üstümə atılacaq. Maşını yerindən tərpətdim.

* * *

Maşını evdən xeyli aralı, yan küçələrin birində saxladım. Yağış yağırdı. Küçəni keçib dərindən nəfəs aldım. Bədənimdəki ağrıları indi-indi hiss edirdim. Balıqçı dükanının qabağında ayaq saxlayıb yanpörtü asılmış güzgüdə özümə baxdım. İşıq düşməyən güzgü şüşəsinin qaranlıq gümüşülüyündə çox şeyi görə bilmədim; amma görə bildiyim qədər sifətim şişmiş və qançır olmuşdu. Nəm havanı dərindən içimə çəkdim. Günortadan sonra burada olduğum mənə ağlasığmaz göründü, zaman mənə çox uzun gəlmişdi.

Sahibənin yanından gizlin keçməyə müyəssər oldum. Yuxuda idi və nəsə sayıqlayırdı. Belə gec gəlməyim onun üçün qeyri-adi hal deyildi. Tələsik pilləkəni qalxdım.

Helen evdə yox idi. Çarpayını və dolabı gözdən keçirdim. İşıqdan oyanan tutuquşu oxumağa başladı. Pişik peyda olub alışıb-yanan gözləri ilə lənətlənmiş ruh kimi içəri boylandı. Bir müddət gözlədim. Sonra səssizcə Laxmanın qaldığı otağa gedib qapını astaca döydüm. Yuxudan o saat ayıldı. Qaçqınların yuxusu sayıq olur.

«Sizsiniz...» – deyib mənə baxdı və susdu.

«Arvadıma bir şey demisiniz?»

Başını buladı: «Evdə yox idi. Bir saat qabaq hələ gəlməmişdi».

«Şükür. – Mənə elə baxdı, elə bil, ağlımı itirmişdim. Çox şükür, – təkrarladım. – Onda onu, güman ki, tutmayıblar. Sadəcə, gəzməyə çıxıb».

«Sadəcə, gəzməyə çıxıb, – Laxman təkrarladı, sonra soruşdu: – Neylədilər sizə?»

«Dindirdilər. Qaçmışam».

«Polis?»

«Gestapo. Hər şey arxada qaldı. Yuxunuz şirin olsun».

«Harada qaldığınızı gestapo bilir?»

«Bilsəyli, burada olmazdım. Səhərə yaxın buradan çıxıram».

«Bir dəqiqə!» – Laxman eşələyib müqəddəslərin bir neçə şəklini və bir-iki kəhrəba təsbeh çıxartdı. – «Bunları özünüzlə götürün. Hərdən xariqələr yaradırlar. Hirş bunlarla sərhədi sağ-salamat keçdi. Pireneylər camaatı çox

mömindir. Bunların hamısına keşiş özü xeyir-duasını oxuyub».

«Doğrudan?»

Üzündə gözəl bir təbəssüm oynadı: «Onlar bizi xilas edirsə, həmin xeyir-duanı Allah özü vermiş olur. Görüşənədək, Şvars».

Geri qayıdıb şeylərimizi qablaşdırmağa başladım. Sanki, içim büsbütün boşalmışdı, özümü içiboş nağara kimi gərilmiş hiss edirdim. Helenin siyirməsində bir bağlama məktub tapdım. Məktublar Marselə "tələb olunana qədər" adı ilə göndərilmişdi. Heç nə fikirləşmədən onları Helenin çamadanına qoydum. Parisdən aldığımız axşam paltarını da tapıb onların üstünə sərdim. Sonra su ləyəninin yanında oturub əllərimi suya saldım. Yandırılmış dırnaqlarım zoqquldamağa başladı. Nəfəs alanda hər yerim ağrıyırdı. Yaş damlara baxıb heç nə düşünmədim.



* * *

Nəhayət, Helenin addım səslərini eşitdim. Qəmli, gözəl bir xəyalət kimi qapının arasında dayandı.

«Nə iş görürsən? – Heç nədən xəbəri yox idi. – Nə olub sənə?»

«Getməliyik, Helen, – dedim. – Elə indicə».

«Georq? – Başımı tərpətdim. Qərara almışdım ki, çox şeyi ona deməyim. – Başına nə oyun açıblar?» – qorxulu-qorxulu soruşub yaxına gəldi.

«Tutmuşdular. Qaçmışam. Axtaracaqlar».

«Getməliyik?»

«Elə indi».

«Hara?»

«İspaniyaya».

«Necə?»

«Nə qədər bacarsaq – maşınla. Yığışa bilərsən?»

«Hə», – deyib təngildədi.

«Ağrıyırsan?»

Başını tərpətdi. Nədir o qapıda duran, deyə fikirləşdim. Nə olan şeydir? Mənə tam yad idi.

«Ampulaların qalıb?» – soruşdum.

«Az qalıb».

«Alarıq».

«Bir dəqiqəliyə çölə çıx», – dedi.

Dəhlizdə dayandım. Qapılar azca aralanırdı. Lemur[1] gözlü üzlər görünürdü. Əyilmiş ağızlarla zağar, taygöz polifemlərin sifətləri. Laxman bozumtul uzun dizlikdə çəyirtkə kimi pilləkəndə tullana-tullana gəlib ovcuma yarım şüşə konyak basdı. «Lazımınız olar, – pıçıldadı. – Yaşasın həmrəylik!»

Konyakdan yerindəcə iri bir qurtum aldım. «Pulum var, – dedim. – Buyurun! Bir dənə də dolu şüşə verin».

Georqun pul kisəsini götürmüşdüm və içində çoxlu pul vardı. Yalnız bircə anlığına onu tullamağı fikirləşmişdim. Cibindən onun özünün, mənim və Helenin pasportlarını da tapmışdım.



Georqun paltarlarının içinə daş qoyub düyünlədim və limana atdım. Pasportunu cib fənərinin işığında diqqətlə nəzərdən keçirib Qreqoriusun yanına getdim, yuxudan oyatdım. Xahiş etdim ki, Georqun şəklini mənimki ilə dəyişdirsin. Əvvəlcə hər vəchlə boyun qaçırdı. Mühacir pasportunu saxtalaşdırmaq onun sənəti idi, bu işdə özünü Allah sayırdı və bu murdarlığın günahını da onun üstünə atırdı, lakin yüksək gestapo məmurunun pasportunun üzünü indiyə qədər heç görməmişdi də. Başa saldım ki, işini rəssamlar kimi öz imzası ilə bəzəməyə lüzüm yoxdur. Gələcəkdə bunun cavabdehi mən olacağam və heç kim ondan xəbər tutmayacaq.

«Bəs işgəncə versələr?»

Əlimi göstərib sifətimə işarə etdim. «Bir saata yola çıxıram, – dedim. – Bu sir-sifətlə mühacir kimi heç on kilometr də gedə bilmərəm. Amma, gərək, sərhədi keçəm. Bu, mənim yeganə şansımdır. Bu da mənim pasportum. Pasportdakı şəklin üzünü çıxarıb surəti gestapo pasportundakı şəkillə dəyişdirin. Nə qədər eləyir? Pulum var». Qreqorius razılaşdı.

Laxman ikinci konyak şüşəsini də gətirdi. Pulunu verib otağa qayıtdım. Helen dolabçanın yanındaydı. Məktubların olduğu siyirmə açıq idi. Çəkməcəni bağlayıb düz yanıma gəldi.

---

[1] *Lemur* – Madaqaskar adasında və Afrikada yaşayan pişik böyüklüyündə meymun; mif, ruh, kabus.

«Georqun işidir?» – soruşdu.

«İt xılı idi», – cavab verdim.

«Lənət onun cəmdəyinə gəlsin!» – deyib pəncərəyə yaxınlaşdı. Pişik dala tullandı. Helen pəncərənin laylarını açdı. – «Lənət gəlsin cəmdəyinə!» – elə çılğın səslə və əminliklə təkrarladı ki, elə bil, mistik bir ritualda ona ovsun söyləyirdi. «Ömrü boyu lənətli yaşasın, həmişəlik...»

Düyünlənmiş yumruqlarından tutub onu pəncərədən araladım.

«Buradan getməliyik», – dedim.

Pilləkənlə aşağı endik. Bütün qapılardan bizi baxışlar yola salırdı. Bozumtul bir qol silkələndi.

«Şvars! Bel çantası götürməyin. Jandarmlar bel çantasına ilişirlər. Məndə süni dəridən ucuz çamadan var, babatdır».

«Minnətdaram, – cavab verdim. – İndi mənə çamadan yox, bəxt lazımdır».

«Hamımız uğur diləyirik!»

Helen qabaqda getmişdi. İslanıb cücəyə dönmüş fahişənin qapının ağzında ona evdə oturmasını məsləhət verdiyini eşitdim; yağış işləri korlayıbmış. Yaxşıdır, deyə fikirləşdim: boş küçələr işimizə yarayacaq. Maşını görəndə Helen duruxdu.

«Oğurlamısan?» – soruşdu.

«Nə qədər bacarsaq, bununla gedəsiyik. Min».

Hava hələ də qaranlıq idi. Şıdırğı yağış ön aynadan üzüaşağı axırdı. Maşının üzəngisində qan qalmış olsaydı, yuyub aparacaqdı. Qreqoriusun evindən xeyli aralı saxladım.

«Orada günlüyün altında dur», – deyib balıqçı dükanının şüşə günlüyünü göstərdim.

«Maşında qala bilmərəm?»

«Yox. Gələn olsa özünü elə göstərərsən ki, guya, müştəri gözləyirsən. İndicə qayıdıram».

Qreqorius işini bitirmişdi. Qorxusunun yerini indi sənətkar qüruru tutmuşdu. «Çətinliyi yaradan mundir oldu, – dedi. – Axı sizin əyninizdə sivil kostyum var. Sadəcə olaraq, onun başını kəsib götürdüm». Georqun şəklini çıxarıb başını boynuqarışıq kəsmiş, mundiri mənim şəklimin üstünə qoymuş və montaj etdiyini çəkmişdi. «Oberşturmbannfürer

Şvars», – fəxrlə dilləndi. Surəti artıq qurudub yapışdırmışdı da. «Möhür asan başa gəlmədi. Diqqətlə yoxlasalar, batmısınız, lap özü olsa belə. Bu da sizin korlanmamış köhnə pasportunuz».

Hər iki pasportu və Georqun şəklinin qalanını geri qaytardı. Pilləkənlə enəndə şəkli xırda-xırda cırdım və bayırdakı arxın suyuna tulladım.

Helen gözləyirdi. Maşını əvvəlcədən yoxlamışdım. Bak ağzınacan dolu idi. İşimiz düz gətirsəydi, bu benzinlə sərhədi keçə bilərdik. Bəxtim ayaq üstündəymiş – ön taxçada iki dəfə istifadə olunmuş sərhədi keçmə icazəsi vardı. Qərara aldım ki, sərhədi maşın bir dəfə keçdiyi yerdən keçməyim. Orada həmçinin Mişelin benzin firmasının buraxdığı xəritə, bir cüt əlcək və avtomobillər üçün Avropa atlası vardı.



Yağış ara vermirdi. işıqlaşmağa xeyli vardı və biz Perpinan istiqamətində gedirdik. İşıqlaşana qədər baş yolda qalmaq istəyirdim.

«Bəlkə, mən sürüm? – bir azdan Helen soruşdu. – Sənin əllərin!»

«Bacararsan? Yatmamısan axı».

«Sən də».

Ona baxdım. Gümrah və sakit görünürdü. Bu, mənə çatmadı.

«Bir qurtum konyak istəyirsən?»

«Yox. Səhər qəhvəsini içənə qədər maşın sürəcəyəm».

«Laxman mənə bir şüşə də konyak verib».

Onu paltonun cibindən çıxartdım. Helen başını buladı, gülümsədi.

«Sonra, – həzin səslə dilləndi. – Çalış, yatasan. Dəyişə-dəyişə sürəcəyik».

Helen maşını məndən yaxşı sürürdü. Bir azdan kiçik, monoton mahnılar oxumağa başladı. Əsəblərim tamam gərilmişdi, indi maşının uğultusu ilə Helenin zümzüməsi mənə laylay çalırdı. Bilirdim ki, yatmalıyam, amma hər dəfə diksinib qalxırdım. Bozumtul təbiət yanımızdan şütüyüb keçirdi, amma qaranlıq təlimatlarına məhəl qoymayıb uzaqvuran faralardan istifadə edəsi olduq.

«Onu öldürdün?» – qəfildən soruşdu.

«Hə».

«Məcbur oldun?»

«Hə».

Yolumuza davam etdik. Yola baxıb çox şeyi beynimdən keçirirdim, sonra birdən-birə daş kimi düşdüm. Ayılanda yağış kəsmişdi. Sabah açılmışdı və maşın uğuldayırdı. Heleni sükanın arxasında görəndə mənə elə gəldi ki, yuxu görürəm.

«Dediklərim doğru deyil», – dedim.

«Bilirəm», – cavab verdi.

«Başqası idi», – dedim.

«Bilirəm». – Üzümə baxmırdı.

## XVIII

«Sərhədin yaxınlığındakı ən böyük yaşayış məntəqəsində Helenə İspaniya vizası almaq istəyirdim. Konsulluğun qarşısındakı camaatı yarıb keçmək çətin olacaqdı. Gərək risk edəydim, çünki maşını axtara bilərdilər; ayrı imkan yox idi. Georqun pasportunda viza vardı.

Maşını asta-asta qabağa sürdüm. Alman nömrəsini görəndə camaat hərəkətə gəldi. Aralandılar. Mühacirlərin bir hissəsi qaçmağa üz qoydu. Maşın nifrət xiyabanının içi ilə giriş qapısına yaxınlaşdı. Jandarm hərbi salam verdi. Belə şey çoxdandır mənə üz verməmişdi. Etinasız-etinasız salam verib konsulluğa girdim. Jandarm mənə yer göstərdi. «Hörmət qazanmaq üçün gərək cani olasanmış», – deyə acı-acı düşündüm.

Pasportumu təqdim edən kimi vizanı aldım. Konsulun müavini üzümə baxdı. Əllərimi görə bilmədi. Maşındakı əlcəkləri əlimə geymişdim.

«Müharibənin nişanəsi, əlbəyaxa döyüş», – dedim.

Anlaşıqlı şəkildə başını tərpətdi. «Bizim də döyüş illərimiz olub. Hayl Hitler! O da bizim Kaudillo[1] kimi böyük adamdır».

Bayıra çıxdım. Maşının ətrafı tamam boşalmışdı. Arxa oturacaqda qorxudan büzüşmüş, təqribən on iki yaşında bir oğlan oturmuşdu. Küncə sığınmışdı, gözlərindən və ağzını tutan əllərindən başqa heç nə görünmürdü.

«Onu da götürməliyik», – Helen dedi.

«Niyə?»

---

[1] *Kaudillo* – Frankonun titulu

«Sənədinin vaxtı iki gündən sonra bitir. Tutsalar, Almaniyaya göndərəcəklər».

Köynəyin altından kürəyimi tər basdı. Helen mənə baxdı. Çox arxayın idi.

«Birinin həyatına son qoymuşuq, – ingiliscə dedi, – birini də xilas etməliyik».

«Sənədin var?» – oğlandan soruşdum.

Qalma icazəsini dinmədən mənə doğru uzatdı. Onu götürüb konsulluğa qayıtdım. Ora getmək mənə çox ağır gəldi. Bayırdakı maşın, sanki, yüz səsgücləndirici ilə sirrini aləmə faş edirdi. Tam biganəliklə katibə bildirdim ki, bir vizaya da ehtiyacım var – xidməti, sərhədin o üzündə şəxsiyyəti müəyyənləşdirmək üçün. Sənədi görəndə duruxdu, sonra gülümsəyib göz vurdu və vizanı verdi.

Maşına mindim. Camaatın münasibəti daha yağısal olmuşdu. Yəqin, fikirləşirdilər ki, uşağı düşərgəyə aparacağam.



Şəhərdən çıxdım və ümid edirdim ki, bəxtim hələ yatmayıb. Sükan hər an əlimdə od tutub yanırdı. Qorxurdum ki, onu əlimdən buraxacağam, amma sonra nə olacağını bilmirdim. Helen bu havada dağların palçıqlı yolu ilə döngələrdə sürə bilməzdi; çox zəif idi və maşının itirilməsi düşmənlərimizin mistik nəzarətindən bizi məhrum edərdi. Heç birimizin Fransadan çıxmaq icazəmiz yox idi. Piyada getmək bahalı maşında getməkdən çox fərqliydi.

Gedirdik. Qəribə bir gün idi. İndi ilə keçmiş iki uçuruma yuvarlanana bənzəyirdi və biz buludlar asılmış uca təbiətin qoynunda dar bir cığırla kanat yolun kabinəsindəki kimi irəliləyirdik. Müqayisəni davam etdirsəydim, növbəti oxşarlıq tuşla çəkilmiş Çin rəsmlərindən biri olardı ki, həmin şəkillərdə də səyyahlar gədiklərdən keçib dumanı yara-yara şəlalələrdən adlayırdılar. Oğlan maşının arxasında büzüşüb qımıldanmırdı. O, həyatında hamıya inamsız olmaqdan başqa heç nə öyrənməmişdi. Başqa şeyi heç ağlına da gətirmirdi. Üçüncü Reyxin mədəniyyət carçıları babasının kəlləsini partladanda onun üç yaşı varmış, atasını asanda yeddi, anasını qazda boğanda isə doqquz yaşı olub – əsl iyirminci əsr uşağı! Necə olubsa, konslagerdən qaça bilib, sərhədlər üzərindən tək-tənha öz yoluna başlayıb. Tutsaydılar, fərari kimi konslagerə göndərib asacaqdılar. İndi də Lissabona getmək istəyirdi; dayısı orada saatsaz olmalıymış,

bunu ona qaz kamerasına göndərilməzdən qabaq anası deyibmiş, uşağa xeyir-dua və məsləhət veribmiş.

* * *

Hər şey yaxşı alındı. Fransa sərhədində çıxış icazəsini soruşan olmadı. Yalnız pasportumu və maşının sənədlərini ötəri göstərdim. Jandarmlar hərbi salam verdilər, şlaqbaum qalxdı və Fransanı tərk etdik. Bir neçə dəqiqədən sonra İspaniyanın gömrük məmurları heyranlıqla maşına baxıb soruşdular ki, saatda neçə kilometr qət edə bilir. Bəzi məlumatları verdim və onlar öz maşınları Hispano-Suisa ilə öyünməyə başladılar. Dedim ki, o maşından mənim də olub və radiatorun üstündəki uçan durna emblemini təsvir etdim. Mat qaldılar. Soruşdum ki, harada yanacaq doldura bilərəm. Dedilər ki, İspaniyanın dostları üçün xüsusi benzin fondu var. Üstümdə pul yox idi. Frankımı dəyişdirdilər. Səmimi rəsmiliklə xudahafizləşdik.

Arxaya söykəndim. Daha nə dağ uçurumu, nə də duman vardı. Yad bir ölkə gözlərimiz önündə uzanıb gedirdi, Avropadan tamam fərqli bir ölkə. Hələ canımızı qurtarmamışdıq, lakin Fransa ilə bu ölkə arasında dərin bir uçurum vardı. Yollar, ulaqlar, insanlar, libaslar, sərt, daşlı təbiət gözümdən yayınmadı – Afrikaya düşmüşdük. Əsl Qərb bura idi, Pireney dağlarından bu üzdə bunu aydın hiss edirdim. Sonra gördüm Helen ağlayır.

«Axır ki, istədiyin yerə çatdın», – pıçıltı ilə dilləndi.

Nəyi nəzərdə tutduğunu bilmədim. İşlərin belə asan başa gələcəyinə inamsızlığım hələ canımdan çıxmamışdı. Göstərilən ehtiramları, verilən salamları, üzlərdəki təbəssümləri düşünürdüm, illərdən bəri ilk dəfə olaraq yenidən belə şeylərə rast gəlmişdim və mənimlə insan kimi davranmaları üçün gərək adam öldürəymişəm.

«Niyə ağlayırsan? – soruşdum. – Hələ xilas olmamışıq. İspaniya gestapoçularla doludur. Bacardıqca ölkədən tez çıxmalıyıq».

Balaca bir yaşayış məntəqəsində gecələdik. Maşını haradasa qoyub yolun qalanını qatarla getmək istədim. Amma etmədim. İspaniya qorxulu idi, buranı mümkün qədər tez tərk etmək istəyirdim. Avtomobil müəyyən mənada müəmmalı

talismana çevrilmişdi; onun texniki mükəmməlliyi hətta məndə yaratdığı qorxunu da sıxışdırıb çıxarırdı. O, mənə çox lazım idi, daha Georqu da unutmuşdum. Hədə kimi o, uzun müddət başımın üstündə fırlanmışdı, indi isə çəkilib getmişdi və mən yalnız bircə şeyi, bədxahımı düşünürdüm. O yaşayırdı və telefonla bizi tutdurmağa çalışa bilərdi. Qətlə görə şübhəli şəxsi hər ölkə təhvil verir. Bunun özünümüdafiə olduğunu mən hadisə baş verən ölkədə sübuta yetirməli idim.

* * *

Portuqaliya sərhədinə ertəsi gecə gec çatdım. Vizaları çətinlik çəkmədən yolüstü almışdım. Sərhəddə Heleni işləyən motorla maşında qoydum. Şübhəli bir şey baş versəydi, maşını mənə tərəf sürməliydi, mən də maşına tullanıb özümüzü Portuqaliya gömrük postuna verməliydik. Çox da qorxulu olmamalıydı; balaca bir post idi, məmurlar qaranlıqda atəş açıb bizi vurana qədər aradan çıxardıq. Sonra Portuqaliyada nələr olacağı isə ayrı məsələ idi.



Hər şey yaxşı ötüşdü. Küləkli qaranlıqda mundirli məmurlar Qoyyanın rəsmindəki fiqurlara bənzəyirdilər. Hərbi salam verdilər və biz Portuqaliya postuna yaxınlaşdıq, burada da bizi eyni şəkildə qarşılayıb yola saldılar. Avtomobil yerindən yenicə tərpənmişdi ki, gömrükçülərdən biri arxamızca qaça-qaça qışqırdı ki, saxlayaq. Ani olaraq düşünüb maşını saxladım; saxlamasaydım, növbəti postda qabağımızı kəsəcəkdilər. Durub gözlədim. Nəfəsimiz güclə gedib-gəlirdi. Məmur maşına çatdı.

«Sərhədi keçmək üçün icazə kağızınız, – dedi. – Unudub orada qoymusunuz. Bunsuz sərhədi geri necə keçmək istəyirdiniz?»

«Çox-çox təşəkkürlər!»

Arxadakı oğlan nəfəsini buraxdı. Mən özüm bir anlığa, sanki, çəkisizliyə düşdüm, elə yüngülləşmişdim ki!

«Artıq Portuqaliyadasan», – oğlana dedim. Əllərini asta-asta ağzından götürüb ilk dəfə arxaya söykəndi. Bütün yolu aşağı əyilib oturmuşdu.

Yanımızdan kəndlər uçub gedirdi. İtlər hürüşürdü. Erkən səhərdə dəmirçi körüyü közərirdi, dəmirçi də at nallayırdı.

Yağış yağmırdı. İllərlə həsrətini çəkdiyim azadlıq duyğusunu gözləyirdim, fəqət o gəlib-çıxmaq bilmirdi. Helen səssizcə yanımda oturmuşdu. Sevinmək istəyirdim, lakin içimdə bir boşluq vardı.

* * *

Lissabonda Marseldəki Amerika konsulluğuna zəng etdim. Georqun gəldiyi ana qədər hər şeyi danışdım. Telefonla danışdığım adam dedi ki, onda təhlükədən uzağam. Ondan qopara bildiyim o oldu ki, viza veriləcəyi təqdirdə onu Lissabondakı konsulluğa göndərəcəyinə boyun oldu.

Bizi xeyli müddət dardan qurtaran avtomobildən yaxa qurtarmalıydıq. «Sat getsin», – Helen dedi.

«Bəlkə, haradasa dığırlayım dənizin içinə?»

«Bu, heç nəyi dəyişməz. Sənə pul lazımdır. Sat getsin».

Haqlı idi. Satmaq çətin olmadı. Alan adam dedi ki, gömrüyə pul verib rəngini qaraya dəyişdirəcək. Alverçi idi. Maşını Georqun adı ilə ona satdım. Bir həftə sonra onu Portuqaliya nömrəsi ilə gördüm. Lissabonda onun taylarından çox idi. Onu yalnız sol üzəngidəki xırda batığından tanıdım. Georqun pasportunu yandırdım». Saatına baxdı. «Gerisi yüngül gedəcək. Həftədə bir dəfə konsulluğa gedirdim. Bir müddət mehmanxanada yaşadıq. Maşının pulundan bir az varımdı və onu mehmanxanaya xərcləyirdim. İstəyirdim ki, Helen indi mümkün qədər daha təmtəraqlı yaşasın. Ona dərman almağa kömək edən bir həkim tapdıq. Hətta onunla kazinoya da getdim. Bunun üçün kirayədən özümə bir smokinq də götürdüm. Helenin Parisdən aldığımız axşam paltarı hələ dururdu. Buna bir cüt də qızılı ayaqqabı aldım. Əvvəlkini Marseldə unutmuşdum. Kazinonu tanıyırsınız?»

«Təəssüf ki, hə, – dedim. – Dünən axşam oradaydım. Səhvən».

«İstəyirdim ki, kazinoda oynasın, – sözünə davam etdi. – Udurdu. Müəmma hələ də davam edirdi. Düymələri necə gəldi atırdı və onun nömrələri çıxırdı. Son dövrün gerçəkliklə heç bir əlaqəsi yox idi. Sanki, qəsrdəki zaman geri qayıtmışdı. Özümüzü o yerə qoymurduq; ancaq mən ilk dəfə hiss etdim ki, o, bütünlüklə mənimkidir, baxmayaraq ki günü-gündən məndən qaçıb yorulmaq bilməyən

məşuqunun – ölümün ağuşuna atılırdı. Hələlik təslim olmamışdı, lakin mübarizə də aparmırdı. Əzablı, çox əzablı gecələrimiz vardı, həmin gecələrdə onun göz yaşı qurumurdu; lakin axırda şirinliyin, əlacsızlığın, müdriklik və məhəbbətin bədən məhdudiyyətləri olmadan intensivləşdiyi mistik anlar az qala təzədən başlayırdı və mənə elə əzəmətli görünürdü ki, tərpənməyə belə ürək eləmirdim.

«Sevgilim, – bir dəfə gecə mənə müraciət etdi və bu, yeganə hal idi ki, o barədə danışırdı, – gözlədiyin Öyülmüş Torpağı bir yerdə görə bilməyəcəyik».

Günortadan sonra onu həkimə apardım. İndi birdənbirə insanın duya bildiyi bihuş üsyankarlığı ildırım zərbəsi kimi hiss etdim, o insan ki sevdiyini əlində saxlaya bilmədiyini dərk edir. «Helen, – boğuq səslə dilləndim, – axırımız nə oldu?»

Susdu. Sonra başını tərpədib gülümsədi. «Bacardığımızı etdik, – dedi. – Elə bu da bəsdir».



* * *

Bir gün konsulluqda mənə mümkünsüz bir işin baş tutduğunu dedilər: adımıza iki viza gəlib. Hər cür yalvarış və iztirabın nail ola bilmədiyinə təsadüfi tanışlığın sərməst əhval-ruhiyyəsi öz təsirini göstərmişdi! Güldüm. Bu, isterika idi. Gülməyə qalsaydı, bu dünyada bu gün gülməli şey çoxdur, inanmırsınız?»

«Gülüş haçansa gülüşlüyündən qalır», – dedim.

«Qəribəliyi ondadır ki, biz çox vaxt sonuncu gün gülürük, – cavab verdi. – Külək tutmayan limandaydıq, hər halda, bizə belə gəlirdi. Acılıq çəkilib-getmişdi, daha göz yaşı da qalmamışdı və kədər elə şəffaflaşmışdı ki, onu çox vaxt ironik-ağrılı şuxluqdan seçmək olmurdu. Kiçik bir mənzilə köçdük. Anlaşılmaz bir korluqla mən Amerikaya getmək planımın ardınca düşdüm. Çoxdandır gəmi yox idi, axırda biri gəldi. Deqanın sonuncu rəsmini satdım və biletləri aldım. Özümü xoşbəxt sayırdım. Düşünürdüm ki, xilas olduq. Hər şeyin acığına! Həkimlərin acığına. Nəsə bir möcüzə olmalıydı axı!

Yola düşmə bir neçə gün geri çəkildi. Sonra srağagün səyahət bürosuna bir də getdim. Səfəri bu günə salmışdılar.

Bunu Helenə deyib nəsə almağa çıxdım. Geri qayıdanda ölmüşdü. Otaqdakı güzgülərin hamısı sındırılmışdı. Axşam paltarı cırılıb döşəməyə atılmışdı. Helen paltarın yanında uzanmışdı. Çarpayıda deyildi.

Əvvəl elə bildim qarət məqsədli qətldir. Sonra, görünür, gestapodan kimsə öldürüb; fəqət o, məni axtarardı, Heleni yox. Yalnız görəndə ki güzgülərdən və paltardan başqa heç nə korlanmayıb, başa düşdüm. Ona verdiyim zəhər yadıma düşdü, demişdi ki, itirib. Ortada durub gözümü döydüm, sonra məktub axtardım. Yox idi. Heç nə yox idi. Bir kəlmə də demədən getmişdi. Başa düşürsünüz?»

«Bəli», – dedim.

«Bunu başa düşürsünüz?»

«Bəli, – cavab verdim. – Nə yazmalıydı axı?»

«Nəsə. Niyə belə etdiyini. Ya da...»

Susdu. Yəqin, onun son sözünü, son sevgi izharını, gələcək tənhalığına özü ilə götürəsi olduğu nəyisə. Saysız şablon ifadələrdən qaçmağı öyrənmişdi, amma, görünür, bunu yox.

«Yazmağa başlasaydı, arasını qəti kəsə bilməzdi, – dedim. – Yazmamağı ilə sizə yazacağından daha çox söz qoyub gedib».

Fikrə getdi. «Səyahət bürosundakı lövhəni gördünüz? – sonra astadan dilləndi. – Bir günlüyə təxirə salınıb. Bunu bilsəydi, bir gün də artıq yaşayardı!»

«Xeyr».

«Getmək istəmirdi. Ona görə belə etdi!»

Başımı buladım. «Daha ağrılara davam gətirə bilməyib, cənab Şvars», – çəkinə-çəkinə dedim.

«İnanmıram. Onda niyə məhz yola düşməzdən bir gün qabaq etdi? Yoxsa fikirləşib ki, xəstələri Amerikaya buraxmazlar?»

«Dözə bilmədiyini kəsdirməyi niyə ölüm ayağında olanın öz öhdəsinə buraxmaq istəmirsiniz? – cavab verdim. – Əlimizdən gələn yeganə şey bu deyilmi?!» – Gözünü mənə zillədi. «Bacardığı qədər dözüb, – dedim. – Sizə görə, görmürsünüz bəyəm? Yalnız sizə görə. Sizin xilas olduğunuza əmin olandan sonra o addımı atıb».

«Kaş bu cür kor olmayaydım! Kaş Amerikaya can atmayaydım!»

«Cənab Şvars, – dedim. – Bu, xəstəliyin qarşısını ala bilməzdi».

Başını qəribə şəkildə tərpətdi.

«Öldü getdi, birdən-birə, elə bil, heç sağ olmayıbmış, – pıçıldadı. – Ona baxdım və heç bir cavab tapmadım. Onu öldürdümmü, xoşbəxtmi etdim? Məni sevirdimi, yoxsa onun üçün lazım olanda dirəndiyi əl ağacımı idim? Cavab tapmıram».

«Tapmalısınız ki?»

«Xeyr, – birdən-birə sakitləşib dedi. – Bağışlayın. Yəqin ki, yox».

«Cavab yoxdur. Özünüzün verdiyinizdən başqa ayrısı yoxdur».

«Sizə ona görə danışdım ki, bilmək istəyirdim, – pıçıldadı. – Olan nə idi? Boş, mənasız həyatmı, dəyərsiz insanın, oğraşın, caninin fani ömrümü?»



«Orasını bilmirəm, – dedim. – Lakin bilmək istəyirsinizsə, sevən insanın, sizin üçün çox vacibdirsə, bir növ müqəddəs insanın həyatı. Fəqət bu sözlər adama nə verir? Həmin həyat olub. Bəs eləmir?»

«Olub. Amma indi də varmı?»

«Nə qədər ki yaşayırsınız, var».

«Onu yaşadan yalnız bizik, – pıçıltı ilə dedi. – Siz və mən. Başqa heç kəs. – Diqqətlə mənə baxdı. – Bunu unutmayın! Onu kimsə yaşatmalıdır! Gərək ölüb getməsin! Hələlik biz ikimizik. Mən özümə arxayın deyiləm. Gərək o ölməsin, yaşasın. Mən sizə arxayınam».

Bütün şübhələrlə yanaşı, məni qəribə bir hiss bürüdü. Bu adam nə istəyir? Pasportu ilə bərabər keçmişinidəmi mənə vermək istəyir? Bəlkə, canına qəsd etmək fikrindədir?

«Niyə o, sizin içinizdə ölməlidir? – soruşdum. – Yaşayacaqsınız axı, cənab Şvars».

«Həyatıma qəsd edən deyiləm, – arxayın cavab verdi. – Bədxahımı görəndən və onun yaşadığını biləndən bəri edən deyiləm. Amma xatirələrimi yaddaşımdan silməyə çalışacağam. Həmin xatirələr təhlükəsiz olana qədər onları çeynəyib tikə-tikə edəcəyəm, saxtalaşdıracağam. Bu gecə sizə danışdıqlarımı bir neçə həftədən sonra heç cür danışa bilməzdim. Ona görə istəyirdim ki, məni dinləyəsiniz! Sizin içinizdə o, saxtalaşmadan qalacaq, çünki sizin üçün qorxulu

deyil. Gərək haradasa qalsın axı, – birdən çarəsizliklə dedi. – Kimdəsə necə var, eləcə, ən azı qısa bir zamana». Cibindən iki pasport çıxarıb qabağıma qoydu. «Helenin pasportu da buradadır. Biletlər artıq sizdədir. İndi amerikan vizanız da var. İki nəfərə». Yüngülcə gülümsəyib susdu.

Pasportlara baxdım. «Onlar, doğrudan, sizə lazım deyil?» – özümü zorlayıb soruşdum.

«Əvəzində mənə özünüzünkünü verərsiniz, – dedi. – Mənə bir-iki günlüyünə lazımdır. Sərhədi keçmək üçün». Ona baxdım. «Əcnəbilər alayında pasport soruşmurlar. Bilirsiniz ki, ora mühacirləri götürürlər. Və nə qədər ki həyatda bədxahlarım kimisi var, onun təki varvarlara qarşı döyüşə bilən bir cana qəsd etmək cinayət olardı».

Pasportumu cibimdən çıxarıb ona verdim: «Minnətdaram, – dedim. – Ürəkdən minnətdaram, cənab Şvars».

«Burada bir az pul da var. Mənə çox lazım olmayacaq. – Saata baxdı. – Bir yaxşılıq da edərsinizmi? Onu yarım saata aparacaqlar. Mənimlə gəlmək istəyirsinizmi?»

«Əlbəttə».

Şvars haqq-hesabı ödədi. Özümüzü səsli-küylü səhərin ağuşuna atdıq. Gəmi Texo çayında dümağ və narahat dayanmışdı.

Otaqda Şvarsın yanında dayanmışdım. Sınıq güzgülər hələ də divarda idi. Çərçivələr boş idi. Qırıntıları yığışdırmışdılar.

«Son gecəni onun yanında qalmamalıydımmı?» – Şvars soruşdu.

«Yanındaydınız».

Bütün ölülər kimi qadın tabutda uzanmışdı, barışmazlığı sifətində donmuşdu. Buradakıların ona daha heç bir dəxli yox idi – nə Şvarsın, nə mənim, nə də özünün. Görkəminin necə olmasını da daha təsəvvür etmək mümkün deyildi. Burada uzanan heykəl idi, onun da hələ nəfəsi gedib-gələndə necə olmasından yalnız bircə nəfərin təsəvvürü vardı: Şvarsın. Amma Şvars fikirləşirdi ki, o, indi həm də mənimdir.

«Onun hələ... – Şvars dilləndi. – Burada hələ... – siyirmədən bir neçə məktub çıxartdı. «Onları oxumamışam, – dedi. – Götürün, sizdə qalsın».

Məktubları götürüb tabuta qoymaq istədim. Sonra fikrimdən daşındım – ölü qadın indi yalnız Şvarsa məxsus idi,

o, belə düşünürdü. Başqalarının məktublarının indi Helenə heç bir dəxli yox idi, həmin məktubları Şvars onunla dəfn etmək istəmirdi, məhv etmək də istəmirdi, çünki onlar haçansa Helenə məxsus olmuşdular.

«Götürürəm, – deyib onları cibimə qoydum. – Onların indi heç bir dəyəri yoxdur. Bir boşqab şorbaya xərclənən əsginasdan da dəyərsiz».

«Qoltuq ağaclarıdır, – Şvars cavab verdi. – Orasını mən də bilirəm. Bir dəfə onlara qoltuq ağacları demişdi və bu ifadəni mənə sadiq qaldığını bildirmək üçün işlətmişdi. Başa düşürsünüz? Tam cəfəngiyatdır...»

«Xeyr, – dedim, sonra çox ehtiyatla, tam mərhəmətlə əlavə etdim. – Onu niyə rahat buraxmırsınız? Sizi sevib və bacardığı qədər yanınızda olub».

Başını tərpətdi. Birdən-birə kövrək bir görkəm aldı.

«Bunu bilmək istəyirdim», – mızıldadı.



Kəskin iyli, milçəkli, sönmüş şamlı, cənazəli otaq bayırdakı günəşdən bərk isinmişdi. Şvars baxışımı tutdu.

«Mənə bir qadın kömək elədi, – dedi. – Qərib ölkədə çətindir. Həkim. Polis. Apardılar. Dünən axşam yenə geri gətirdilər. Müayinə ediblər. Ölümün səbəbi. – Yazıq-yazıq mənə baxdı. – Onu... daha tam da deyil, dedilər ki, üstünü örtməyim...»

* * *

Meyit aparanlar gəldi. Tabut bağlandı. Şvars təngildədi.

«Mən də sizinlə gedirəm», – dedim.

Yol uzaq deyildi. Səhər öz qaynarlığında idi, külək çoban iti kimi bir dəstə quzu buludun arxasına düşüb qovurdu. Şvars qəbiristanlıqda sonsuz səmanın altında kiçilmiş və yazıqlaşmışdı.

«Mənzilinizə qayıtmaq istəyirsinizmi», – soruşdum.

«Xeyr».

Özü ilə bir çamadan götürmüşdü.

«Pasportlara əl gəzdirən bir adam tanıyırsınızmı?» – soruşdum.

«Qreqorius bir həftədir buradadır».

Qreqoriusun yanına getdik. Şvarsın paspotunu tez həll elədi; onunkunda dəqiqliyə ehtiyac yox idi. Şvarsda əcnə-

bilər legionunun qeydiyyat bürosunun vəsiqəsi vardı. Ona yalnız sərhədi keçmək və kazarmada mənim pasportumu atmaq lazım idi. Legion adamların keçmişi ilə maraqlanmırdı.

«Götürdüyünüz oğlanın axırı necə oldu?» – soruşdum.

«Dayısının ondan zəhləsi gedir; amma oğlan özünü xoşbəxt sayır ki, yadın yox, qohumlardan kiminsə ondan zəhləsi gedir».

İndi mənim adımı daşıyan kişiyə baxdım.

«Sizə uğurlar diləyirəm», – dedim və Şvars adının çəkilməsindən vaz keçdim. Bu şablon ifadədən başqa ağlıma heç nə gəlmədi.

«Sizi bir daha görməyəcəyəm, – dedi. – Və belə olduğu yaxşıdır. Sizə o qədər şey danışmışam ki, sizi görmək istəməyəcəyəm».

Mən buna əmin deyildim. Ola bilərdi ki, gələcəkdə elə buna görə məni bir də görmək istəsin. Onun təsəvvüründə mən yeganə adam idim ki, taleyinin dəyişikliyə uğramamış simasını özümdə daşıyırdım. Amma ola da bilərdi ki, məhz buna görə mənə nifrət etsin, çünki onda belə bir hiss baş qaldıra bilərdi ki, arvadını əlindən almışam, bu dəfə həmişəlik və əbədi; zira elə düşünürdü ki, öz xatirələri onu aldadır, yalnız mənimki aydın və ləkəsizdir.

Küçə boyu addımlayırdı, əlində çamadan, yazıq görkəmdə, əbədi oğraş və əbədi böyük eşq vurğununun timsalı kimi. Fəqət o, gic-gici qaliblər ordusu ilə müqayisədə sevdiyi insana daha dərindən hakim kəsilməmişdimi? Və biz həqiqətdə nəyə hakim kəsilirik? Yalançı kəlmə olan hakim kəsilməyin mənası yalnız havanı qucmaqdırsa, qısa müddət üçün ən yaxşı şey kimi təqdim olunanlar ətrafında bu qədər hay-küy nəyə lazımdır; onlara az, yoxsa çox hakim kəsilmək barədə bu qədər söz-söhbətə nə ehtiyac var?

Arvadımın pasport şəkli yanımda idi; o vaxt vəsiqə üçün şəklə hər an ehtiyac duyulurdu. Qreqorius o saat işə girişdi. Yanından çəkilmədim. Bu iki pasportu gözdən qoymağa ürək eləmirdim.

Günortaya ikisi də hazır oldu. Özümü yaşadığımız daxmaya yetirdim. Rut pəncərənin qabağında dayanıb həyətdəki balıqçı uşaqlarına baxırdı. Mən qapıya çatan kimi soruşdu:

«İtmişdin?»

Pasportları göyə qaldırdım.

«Sabah yola düşürük! Adlarımız başqa-başqa olacaq, hərənin ayrı adı və Amerikada təzədən evlənəsi olacağıq».

Qəti fikirləşmirdim ki, qətlə görə axtarıla bilən bir adamın pasportunu daşıyıram. Ertəsi axşam yola düşdük və heç bir çətinlik olmadan Amerikaya yetişdik. Lakin iki sevgilinin pasportu bizə xoşbəxtlik gətirmədi: yarım ildən sonra Rut məndən boşandı. Bunu qanuniləşdirməkdən ötrü əvvəlcə bir də evlənəsi olduq. Sonralar Rut Şvarsa zamin durmuş varlı, cavan amerikalıya ərə getdi. Amerikalı bu işlərin hamısını məzəli hal kimi qəbul etdi və bizim ikinci nikahımızda şahid oldu. Bir həftə sonra Mexikoda boşandıq.



Müharibəni Amerikada yaşadım. Qəribə də olsa, əvvəllər qəti məhəl qoymadığım rəssamlıqla maraqlanmağa başladım, sanki, bu, uzaq keçmişdə ölmüş ulu Şvarsdan qalma miras idi. Tez-tez həm də, bəlkə də, hələ sağ olan o biri Şvarsı düşünürdüm və hər ikisi hərdən yanımda duyduğumu güman etdiyim kabusanə bir torana qarışırdı və sanki, həmin toran öz təsirini üstümdən götürmürdü, baxmayaraq ki bunun ağılsızlıq olduğunu dəqiq bilirdim. Axır ki, incəsənət əsərləri mağazalarının birində özümə iş tapa bildim; otağımda Deqanın rəsmlərinin bir neçə surəti asılmışdı və məndə onlara böyük bir sevgi yaranmışdı.

Yalnız ölüsünü gördüyüm Heleni tez-tez düşünürdüm və tək qalanda bir müddət hətta onun xəyalı ilə yaşayırdım. Şvarsın mənə verdiyi məktubları bir gecə gəmi dəryada üzərkən oxumadan suya tulladım. Bu vaxt onların birində əlim nəsə daş kimi bərk, balaca bir şeyə toxundu. Onu qaranlıqda zərfin içindən çıxartdım və sonradan gördüm ki, içində gözəl bir ağcaqanadın min illər öncə ölüb daşlaşdığı balaca, yastı bir kəhrəbadır. Onu atmayıb özümə götürdüm – qızılı göz yaşlarından ibarət qəfəsdəki ölüm-dirim mübarizəsində qorunub saxlanmış balaca ağcaqanad, halbuki onun tayları başqalarına yem olmuş, donmuş və yoxa çıxmışdılar.

Müharibədən sonra Avropaya qayıtdım. Şəxsiyyətimi təsdiq etmək müəyyən çətinliklərlə başa gəldi, çünki həmin vaxtlar Almaniyada öz şəxsiyyətlərini itirməyə çalışan yüzlərcə keçmiş mənsəb sahibi vardı. Şvars haqqında bir daha heç nə eşitmədim. Əsl adını unutsam da, hətta Osnabrükə

gedib onu soraqladım. Amma şəhər viran qalmışdı, ondan da məlumatı olan və buna maraq göstərən yoxuydu. Vağzala qayıdanda bir nəfəri ona oxşatdım. Arxasınca qaçdım, lakin poçt işçisi çıxdı və dedi ki, adı Yansendir, evlidir və üç uşağı var.

# Erix Maria Remark

## Seçilmiş əsərləri

MÜASİR DÜNYA ƏDƏBİYYATI ERİX MARİA REMARK

## MÜNDƏRİCAT

*Müharibə mövzusunun qüdrətli bədii təcəssümü*
*(Qorxmaz Quliyev)* . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 5

*ROMANLAR*

ZƏFƏR TAĞI
*(alman dilindən tərcümə edəni Vilayət Hacıyev)* . . . . . . . . 13

LİSSABON GECƏSİ
*(alman dilindən tərcümə edəni Çərkəz Qurbanlı)* . . . . . . . 457

Erix Maria Remark

MÜASİR DÜNYA ƏDƏBİYYATI

**Erix Maria Remark. Seçilmiş əsərləri.**

Çapa imzalanmışdır 24.08.2009. Format 60×84 $^{1}/_{16}$. Ofset çap üsulu.
Fiziki çap vərəqi 42. Sifariş 144. Tiraj 7000.

"Şərq-Qərb" ASC-də çap olunmuşdur
Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+994 12) 474-75-62
Faks: (+994 12) 470-18-49
e-mail: sharq.qarb@gmail.com